AZƏRBAYCAN RESPUBLİKASININ KONSTİTUSİYA MƏHKƏMƏSİ

***Azərbaycan Xalqının Ümummilli Lideri Heydər Əliyevin***

***100 illik yubileyinə həsr olunmuş***

**“XXI ƏSRDƏ İNSAN HÜQUQ VƏ AZADLIQLARININ**

**MÜDAFİƏSİ SAHƏSİNDƏ MÜASİR NƏZƏRİ**

**VƏ PRAKTİKİ YANAŞMALAR”**

***mövzusunda***

# ELMİ-NƏZƏRİ KONFRANSIN

# MATERİALLARI

19 aprel

Bakı – 2023

**MƏSUL REDAKTOR:**

**Dürdanə MƏMMƏDOVA**
Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Aparatının
Konstitusiya hüququ şöbəsinin müdiri, h.ü.f.d.

**REDAKSİYA HEYƏTİ:**

1. **Ceyhun QARACAYEV**
   Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimi, h.ü.e.d.
2. **Rövşən İSMAYILOV**
   Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimi, h.ü.f.d.
3. **Rauf QULİYEV**
   Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Aparatının rəhbəri
4. **Nigar DÜNYAMALIYEVA**
   Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Aparatının
   Beynəlxalq hüquq və əməkdaşlıq şöbəsinin müdir müavini, s.e.ü.f.d.

Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş “XXI əsrdə insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində müasir nəzəri və praktiki yanaşmalar” mövzusunda 19 aprel 2023-cü il tarixində keçirilmiş elmi-nəzəri konfransın materialları. 2023, 460 səh.

ISBN: 978-9952-445-47-3

# MÜNDƏRİCAT

| | |
|---|---|
| **Fərhad ABDULLAYEV** | Heydər Əliyev – Müstəqil Azərbaycan Konstitusiyasının müəllifi ........................................................6 |
| **Əli HÜSEYNLİ** | Heydər Əliyev Azərbaycanda mütərəqqi dövlətçilik ənənələrinin banisidir............................................................11 |
| **Səbinə ƏLİYEVA** | Azərbaycanda Ombudsman təsisatının yaradılmasında Ulu Öndər Heydər Əliyevin rolu ..........................................18 |
| **Anar BAĞIROV** | Heydər Əliyev Müstəqil Azərbaycan vəkilliyinin banisi kimi....28 |
| **Ziyafət ƏSGƏROV** | Heydər Əliyev və Azərbaycanda hüquqi dövlət quruculuğu.......33 |
| **Ceyhun QARACAYEV** | Роль Конституционного Суда Азербайджанской Республики в развитии Конституционной аксиологии.....41 |
| **Rafael HÜSEYNOV** | Yaşayan YOL yaratmaq bəxtiyarlığı.....................................49 |
| **Jalə ƏLİYEVA** | Azərbaycan hüquqi quruculuq yolunda inamla irəliləyir .......63 |
| **Elçin XƏLƏFOV** | Azərbaycan Respublikasında müasir inzibati hüququn islahatları ...............................................................................69 |
| **Fərid HACIYEV** | Azərbaycanda insan hüquqları ideyasının inkişaf dinamikası: Ulu Öndər Heydər Əliyevlə başlanan yol..............................78 |
| **Bəhruz MƏHƏRRƏMOV** | Beynəlxalq informasiya hüququnun vacib elementi – "ünsiyyət hüququ"nun Azərbaycan Respublikasının milli qanunvericiliyində tømininin forma və üsulları......................84 |
| **Əminə AĞAZADƏ** | Heydər Əliyev və Azərbaycanda hüquqi dövlət quruculuğu ....90 |
| **Fəxrəddin NAĞIYEV** | Azərbaycan Respublikasının dövlət müstəqilliyi və konstitusion inkişaf tarixi .....................................................94 |
| **Kamran BAYRAMOV** | Azərbaycan Ümummilli Lider Heydər Əliyevin yaratdığı möhkəm təməl üzərində uğurla inkişaf edir .........................106 |
| **Məzahir ƏFƏNDİYEV** | Azərbaycan Konstitusiyası və azərbaycançılıq ideologiyası davamlı inkişafın təminatçısıdır..........................................112 |
| **Şəlalə QULUZADƏ** | Heydər Əliyev və Azərbaycan Respublikasında konstitusionalizm quruculuğu.............................................122 |
| **Dürdanə MƏMMƏDOVA** | Общенациональный Лидер Гейдар Алиев и Конституция Азербайджана .............................................131 |
| **Aydın SƏFİXANLI** | Kibermәkanda insan hüquqlarının təmini və müdafiəsi problemləri.........................................................................140 |
| **Nurlan HƏSƏNOV** | Beynəlxalq hüquq böhran vəziyyətində: Sülh və müharibə dövründə insan hüquqlarının müdafiəsi ..............................153 |
| **Soltan MƏMMƏDOV** | Sosial təminat hüququ müasir dövrdə insan hüquq və azadlıqlarının əsas komponentlərindən biri kimi.................158 |

| | |
|---|---|
| **Afət HƏSƏNOVA** | Ulu Öndər Heydər Əliyevin Azərbaycançılıq ideologiyası, siyasi sabitlik, böhrandan inkişafa gedən yol ....................... 165 |
| **Nəsib MƏHƏMMƏLİYEV** | Əsas priorietlər .................................................................. 172 |
| **Elnur ALLAHVERDİYEV** | Qlobal iqtisadi münasibətlərdə iqtisadi hüquq və azadlıqlar ..... 179 |
| **Alış QASIMOV** | Cəmiyyəti irəli aparan mütərəqqi ideyalar .......................... 183 |
| **Elşad NƏSİROV** | Azərbaycan Respublikası Milli Məclisinin buraxılmasının Konstitusiya əsaslarının mahiyyətinə dair ........................... 191 |
| **Anar HACIZADƏ** | Məhkəmələrin fəaliyyətində müasir informasiya texnologiyalarından istifadə edilməsində xarici təcrübə ...... 197 |
| **Zaur ƏLİYEV**<br>**Gülnaz RZAYEVA** | Onlayn mediada ifadə azadlığına dair məhdudiyyətlər: Avropa İnsan Hüquqları Məhkəməsinin qərarları və milli təcrübənin müqayisəli-hüquqi təhlili ...................... 205 |
| **İlham ƏLİYEV** | Судебная власть и осуществление правосудия ................ 219 |
| **Zamiq ASLANOV** | Antik dövrdə və orta əsrlərdə sağlamlığın qorunması hüququ ilə bağlı ideyaların formalaşması və inkişafı ........... 226 |
| **Samirə BABAYEVA** | Cinayət qanunvericiliyinin təkmilləşdirilməsinin insan hüquq və azadlıqlarının müdafiəsində əhəmiyyəti ............... 236 |
| **Nəsib ŞÜKÜROV** | Azərbaycan Respublikasının Milli Məclisi Konstitusiyanın hüquqi mühafizəsinin subyekti kimi .................................... 240 |
| **Sevinc HÜSEYNOVA** | İnsan hüquq və azadlıqlarının məhkəmə müdafiəsi ............. 246 |
| **Səbinə MİRZƏYEVA** | Uşaq hüquqlarının müdafiəsində Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin rolu ........................................ 255 |
| **Nazənin HÜSEYNOVA** | Milli idarəetmə modelinin formalaşmasında Ulu Öndər Heydər Əliyevin rolu ........................................ 264 |
| **Nigar QƏLƏNDƏRLİ** | Heydər Əliyev və Konstitusion-hüquqi islahatlar ................ 271 |
| **Sümbül TURABOVA** | Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin normativ xarakterli aktları .................................................. 283 |
| **Səyyad MƏCİDOV** | Ermənistanın hərbi təcavüzünə qarşı mübarizədə Heydər Əliyev siyasi irsinin təntənəsi ................................. 293 |
| **Səlahəddin ƏLİYEV** | Azərbaycan Respublikasının Konstitusiyasında mülkiyyət hüququnun yeri və rolu ....................................... 303 |
| **Ərzuman ƏMİROV**<br>**Məhərrəməli SƏFƏROV** | Ulu Öndər Heydər Əliyevin dövlətçilik siyasətində Azərbaycan Silahlı qüvvələrinin quruculuq fəaliyyətinin zəfəri .............................................................. 310 |
| **Azər İSMAYILOV** | Əməliyyat-axtarış fəaliyyəti: mövcud problemlər və onların həlli yolları ......................................................... 315 |
| **Həcər QURBANOVA** | Ümummilli Lideri Heydər Əliyev və müstəqil Azərbaycan ..... 319 |
| **Firuzə TARVERDİYEVA** | Advanced democratic ideas of the National Leader Heydar Aliyev in the first constitution of independent Azerbaijan ............................... 327 |

| | |
|---|---|
| **Şəlalə HƏSƏNOVA** | Azərbaycan Respublikasının ərazisində ermənilərin ekoloji cinayətləri kontekstində ekosid əməlinin kriminallaşdırılması zərurəti haqqında ................................334 |
| **Qərib ALLAHVERDİYEV** | Hüquq ilə azadlığın qarşılıqlı əlaqəsi .................................341 |
| **Sahil QASIMOV** | Narkotiklərin qanunsuz dövriyyəsinə aid cinayət işlərində maddi sübutlarla bağlı bəzi problemlər ................352 |
| **Samirə MƏMMƏDOVA** | Некоторые аспекты права жить в здоровой окружающей среде...........................................................358 |
| **Ləman BAYRAMOVA** | Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan Azərbaycan hüquq sisteminin möhkəm təməllər üzərində inkişafı .................................................. 362 |
| **Kamran CƏFƏROV** | Heydər Əliyev və Azərbaycanda demokratik hüquqi dövlət quruculuğu..................................................369 |
| **Vəfa MƏMMƏDOVA** | Гейдар Алиев и политика усовершенствования законодательства Азербайджана в области защиты прав и свобод человека........................................377 |
| **Nazlı ABBASOVA** | Hərbi qulluqçuların sosial hüquqlarının təminatında hərbi hüququn əhəmiyyəti .................................................383 |
| **Zümrüd ƏLİZADƏ** | Heydər Əliyev – müstəqil Azərbaycanda İnsan hüquqları siyasətinin və hüquqi dövlətin banisi..................................388 |
| **Zaur QULİYEV** | Əmək müqaviləsinin anlayışı və işçinin sosial təminat hüququ .......................................................397 |
| **Günar XƏLİLZADƏ** | Uşaqların hüquq və mənafeyinin dövlət tərəfindən müdafiə formaları ..............................................................404 |
| **Nigar QULİYEVA** | Основополагающие принципы: Защита прав человека, демократия и верховенство права, как предварительное условие мира.................................412 |
| **Atilla ÖZTÜRK**<br>**Əkbər RƏŞİDOV**<br>**Almaz KAZIMOVA** | Konstitusiyaların legitimlik problemi.................................418 |
| **Lalə CƏFƏROVA** | Heydər Əliyevin əsas insan hüquqlarından biri olan mədəniyyətin qorunması siyasəti........................................429 |
| **Afaq SADIQOVA** | Miqrasiya proseslərinin iştirakçısı olan əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin konstitusion hüquqları .......436 |
| **Hüseyn İRZAYEV** | Yalan əqdlərlə bağlı Azərbaycan Respublikası Ali Məhkəməsinin və Konstitusiya Məhkəməsinin məhkəmə təcrübəsinə ümumi bir baxış ...............................446 |
| **Yavər MƏMMƏDOVA** | Sekstorsiya və əsas konstitusion hüquqların pozulması .......454 |

***Fərhad ABDULLAYEV***

Azərbaycan Respublikası
Konstitusiya Məhkəməsinin Sədri

## HEYDƏR ƏLİYEV – MÜSTƏQİL AZƏRBAYCAN KONSTİTUSİYASININ MÜƏLLİFİ

Tarixdə elə şəxsiyyətlər olur ki, onların fəaliyyəti xalqın, dövlətin inkişaf yolunu müəyyən edir, qoyduqları irs isə gələcək nəsillər üçün dövlətçilik ənənələrinin yaşamasında inkişafın istiqamətini formalaşdırır. Azərbaycan dövlətçiliyinin tarixində Ümummilli Liderlik zirvəsinə ucalan məhz Heydər Əliyev olmuşdur.

Azərbaycan xalqının dahi oğlu, hər zaman Vətəninə və xalqına hədsiz məhəbbəti ilə seçilən Ulu Öndər Heydər Əliyevin siyasi obrazı xalqımızın dövlətçilik şüurunun, müasir ictimai-siyasi fikrin ən bariz təcəssümüdür. Məhz Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi dövründə ölkəmiz əsrlərə bərabər inkişaf yolu keçmişdir.

Bu il dahi şəxsiyyət, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 100 illik yubileyidir. Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinin dövlət səviyyəsində qeyd olunmasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən imzalanan 2022-ci il 29 sentyabr tarixli Sərəncam ilə Azərbaycan Respublikasında 2023-cü il "Heydər Əliyev İli" elan edilib. Bu Sərəncamda qeyd edilmişdir: "Dövlətçilik salnaməmizdə silinməz izlər qoymuş, azərbaycanlı olması ilə ömür boyu fəxr etmiş, milli qürur və iftixar mənbəyimiz olan Heydər Əliyev bütün dünyada Azərbaycanın rəmzi kimi qəbul edilir. Xalqımız onun əziz xatirəsini həmişə uca tutur və minnətdarlıqla anır, yenidən hakimiyyətə gəldiyi günü Azərbaycan Respublikasının dövlət bayramı – Milli Qurtuluş Günü kimi qeyd edir".

Azərbaycan xalqı hər zaman Heydər Əliyevin şəxsiyyətinə, onun ideyalarına, qoyduğu dəyərli irsə böyük hörmət və ehtiram hissi ilə yanaşır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qeyd etdiyi kimi: "Heydər Əliyevin xatirəsinə ən böyük hörmətimiz onun yoluna sədaqətimizdir. Biz bu yolla gedirik və bu gün Azərbaycan reallıqları, uğurlar, qələbələr, bax, bu yolun təməlində dayanıb".

1969-cu ildə Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbərliyinin Birinci dövrü başladı. Ümummilli Liderin rəhbər seçilməsi xalqımızın taleyində əhəmiyyətli dönüşün başlanğıcı, eyni zamanda Azərbaycanın sürətli inkişafının əsasının qoyulduğu tarixdir.

Tarixi inkişafın sonrakı gedişatı bir daha sübut etdi ki, Ümummilli Lider hələ o zamanlar müstəqil Azərbaycanı qurmağa başlamışdı. Belə ki, ötən əsrin 60-cı illərinin sonunda Ulu Öndər Heydər Əliyevin Azərbaycanda siyasi rəhbərliyə irəli çəkilməsi ölkənin gələcək müstəqilliyinə etibarlı bünövrə formalaşdırmağa başladı. Ümummilli Lider Heydər Əliyevin hakimiyyətinin birinci dövründə yaradılmış iqtisadi potensial müstəqillik illərində Azərbaycan üçün çox böyük rol oynadı. Ulu Öndərin həyata keçirdiyi düşünülmüş daxili siyasət sayəsində ölkəmizdə milli özünüdərk və vətənpərvərliyin gücləndirilməsi baxımından da olduqca vacib addımlar atıldı. Milli şüurun inkişaf etdirilməsi, müxtəlif sahələrdə yerli kadrların yetişdirilməsi, o cümlədən milli ruhun yüksəldilməsi istiqamətində

bir çox mühüm işlər həyata keçirildi. Bununla bağlı 2022-ci il 29 sentyabr tarixli Dövlət Başçısının Sərəncamında qeyd edilmişdir: "Ulu Öndərin xalqın yaradıcılıq enerjisini bir məqsədə yönəltməklə tarixi yaddaşın bərpası istiqamətində atdığı qətiyyətli addımlar o dövrdə milli ruhun canlanmasına xidmət göstərmiş, özünüdərki və soy-kökə qayıdışı təmin etmiş, müstəqil dövlət quruculuğuna aparan yolun təməl daşına çevrilmişdir".

1991-ci ildən Azərbaycanda cərəyan edən mürəkkəb və eyni zamanda ziddiyyətli proseslər, həmçinin ölkənin müstəqilliyi üçün təhdidlərin meydana çıxması, vətəndaş qarşıdurmasının güclənməsi, anarxiya mühitinin dərinləşməsi onu göstərdi ki, ölkəni yaranmış ağır vəziyyətdən yalnız Ulu Öndər Heydər Əliyev kimi güclü lider xilas edə bilər. Ümummilli Lider Heydər Əliyev 1993-cü ildə xalqın təkidli çağırışlarına cavab verərək hakimiyyətə geri qayıtmış, Azərbaycanın fəlakətlərlə üz-üzə qaldığı bir dövrdə həyatını təhlükəyə ataraq, Azərbaycan xalqının tarixinə milli dövlətçiliyin xilaskarı kimi daxil olmuşdu. Xalqının yanında olmağa qərar verən dahi şəxsiyyət Heydər Əliyev özünün həyat fəlsəfəsini belə izah edirdi: "Mənim həyat amalım bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət olub. Bu yolda bütün gücümü və iradəmi yalnız müdrik və qədirbilən xalqımdan almışam. Ən çətin anlarda, ən mürəkkəb vəziyyətlərdə yalnız və yalnız xalqıma arxalanmışam. Bu da mənə dözüm, iradə verib və bütün uğurlarımı təmin edib".

1993-cü ildə yenidən ölkə rəhbərliyinə qayıdan dahi Heydər Əliyev öz müdrik siyasəti və eyni zamanda tarixi uzaqgörənliyi ilə milli dövlətçilik ideyasının həyata keçirilməsinə, müasir və müstəqil Azərbaycan dövlətinin qurulmasına nail oldu, ölkəmiz öz liderinin rəhbərliyi altında yeni inkişaf yoluna qədəm qoydu. Ulu Öndər Heydər Əliyev belə mürəkkəb bir vəziyyətdə ölkə daxilində siyasi sabitliyin təmin edilməsi, iqtisadi siyasət prioritetlərinin müəyyən edilməsi, kompleks xarakterli islahatların həyata keçirilməsinə əsas yaradan qanunvericilik bazasının hazırlanması vəzifələrinin öhdəsindən məharətlə gəldi.

Həmin dövrdə mövcud olan hüquq sistemi və qanunlar hüquqi və demokratik cəmiyyət quruculuğuna, qanunun aliliyinin təmin olunmasına, həmçinin insan hüquq və azadlıqlarının səmərəli müdafiəsinə təminat vermirdi. Cəmiyyətin gələcək inkişafı digər sahələrlə yanaşı, eyni zamanda hüquq sahəsində də köklü islahatların həyata keçirilməsini, tamamilə yeni və demokratik dəyərlərə əsaslanan milli qanunvericilik bazasının formalaşdırılmasını zərurətə çevirmişdi.

Dövlət müstəqilliyi bərpa edildikdən sonrakı dövrdə 1978-ci ildə qəbul edilmiş Konstitusiya artıq zamanın çağırışlarına, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğunun məqsəd və vəzifələrinə cavab vermirdi. Məhz bu səbəbdən müstəqil dövlət qarşısında duran ən vacib məsələlərdən biri məhz yeni Konstitusiya layihəsinin hazırlanması oldu.

Azərbaycan Respublikası Milli Məclisinin 2 may 1995-ci il tarixli 1048 saylı qərarı ilə Ulu Öndər Heydər Əliyevin sədrliyi ilə yeni Konstitusiya layihəsini hazırlayan Komissiyanın tərkibi təsdiq olundu. Konstitusiya Komissiyasının tərkibinə qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının nümayəndələri ilə yanaşı, tanınmış ictimai-siyasi və elm xadimləri, görkəmli hüquqşünaslar, tarixçilər, dilçilər daxil edilmişdi. Ümummilli Lider Heydər Əliyev Komissiyanın fəaliyyəti zamanı Əsas Qanunun layihəsinə dair öz dəyərli tövsiyələrini vermiş, Konstitusiyanın hər bir müddəasını şəxsən nəzərdən keçirmiş, Konstitusiya layihəsinin açıq müzakirələrini təşkil etməklə onun ən yetkin formada qəbulunu təmin etmək üçün gərgin əmək sərf etmişdir.

Yeni Konstitusiya layihəsini hazırlayan Komissiyanın 1995-ci il iyunun 5-də ilk iclası keçirilmiş və həmin iclasda geniş nitq ilə çıxış edən Ümummilli Lider Heydər Əliyev

dövlətimizin konstitusiya quruculuğu tarixinə toxunaraq qeyd etmişdir ki, müstəqil Azərbaycanın ilk Konstitusiya layihəsinin hazırlanması Respublikamızın tarixində böyük bir hadisədir. Ulu Öndər həmin çıxışında qeyd etmişdir: "Konstitusiya yaratmaq üçün şübhəsiz ki, tarixi keçmişimizə nəzər salmalıyıq, amma eyni zamanda ümumbəşəri dəyərlərdən, dünyanın demokratik dövlətlərinin əldə etdiyi nailiyyətlərdən, təcrübədən istifadə etməliyik, bəhrələnməliyik".

Eyni zamanda, həmin çıxışında Ulu Öndər Heydər Əliyev yeni Konstitusiyanın məramı, qaynaqları, mahiyyətinə aydınlıq gətirərək ölkənin Əsas Qanunu barədə belə deyirdi: "Konstitusiya birinci növbədə dövlətlə, hakimiyyətlə xalqın arasında olan münasibətləri özündə əks etdirməlidir. Hakimiyyət bölgüsü, ali icra, qanunvericilik, məhkəmə hakimiyyətləri – bunlar hamısı xalqın iradəsinə söykənməli, seçkilər yolu ilə təmin olunmalıdır".

Yeni Konstitusiya 5 bölmə, 12 fəsil, 158 maddə, preambula və keçid müddəalarından ibarət olmaqla 12 noyabr 1995-ci il tarixində ümumxalq səsverməsi – referendum yolu ilə qəbul edilmiş, 1995-ci il noyabrın 27-dən isə qüvvəyə minmişdir.

İlk Konstitusiyanın milli dövlətçilik tarixində müstəsna əhəmiyyəti nəzərə alınaraq, Ulu Öndər Heydər Əliyev tərəfindən imzalanan 1996-cı il 1 noyabr tarixli Fərmana əsasən hər il noyabrın 12-si Konstitusiya Günü kimi qeyd edilməyə başlandı.

Əsas Qanunun Preambulasında Azərbaycan dövlətinin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq, bu ali sənəd çərçivəsində demokratik quruluşa təminat vermək, vətəndaş cəmiyyətinin bərqərar edilməsinə nail olmaq, xalqın iradəsinin ifadəsi kimi, qanunların aliliyini təmin edən hüquqi, dünyəvi dövlət qurmaq, ədalətli iqtisadi və sosial qaydalara uyğun olaraq hamının layiqli həyat səviyyəsini təmin etmək, ümumbəşəri dəyərlərə sadiq olaraq bütün dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamaq və bu məqsədlə qarşılıqlı fəaliyyət göstərmək kimi ülvi niyyətlər bəyan edilmişdir.

1995-ci ildə qəbul edilən Əsas Qanun bir sıra təməl prinsipləri özündə əks etdirərək, müasir sivil cəmiyyətin əsas inkişaf istiqamətlərini müəyyən edən ideya və dəyərləri geniş şəkildə özündə ehtiva etmişdir: insan şəxsiyyətinə və ləyaqətinə hörmət; dövlət hakimiyyət orqanlarının demokratik qaydada formalaşdırılması; insan hüquqlarının səmərəli müdafiəsi mexanizmlərinin mövcudluğu; siyasi sistemdə plüralizmə təminat verilməsi; sosial ədalətə nail olmaq; ümumbəşəri dəyərlərə sadiqlik; milli qanunvericiliyin beynəlxalq hüquqa uyğunlaşdırılması və sair.

Konstitusiya Azərbaycan Respublikasında xalqın dövlət hakimiyyətinin yeganə mənbəyi olduğunu elan edir, öz müqəddəratını sərbəst və müstəqil həll etməyi və öz idarəetmə formasını müəyyən etməyi Azərbaycan xalqının suveren hüququ kimi təsbit edir. Həmçinin Əsas Qanun Azərbaycan dövlətini demokratik, hüquqi, dünyəvi, unitar respublika elan edir, Azərbaycan Respublikasında dövlət hakimiyyətinin daxili məsələlərdə yalnız hüquqla, xarici məsələlərdə isə yalnız Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən irəli gələn müddəalarla məhdudlaşdığını bəyan edir, insan və vətəndaş hüquqlarının və azadlıqlarının, Azərbaycan Respublikasının vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsini dövlətin ali məqsədi olaraq təsbit edir.

Xüsusilə qeyd edilməlidir ki, Əsas Qanunda insan və vətəndaş hüquq və azadlıqlarının, habelə onların reallaşdırılmasının ümumi mexanizmləri olduqca geniş şəkildə öz əksini tapıb. Konstitusiyada bu hüquq və azadlıqlar dövlət tərəfindən verilən xüsusi imtiyaz olaraq deyil, məhz hər kəsin doğulduğu andan malik olduğu toxunulmaz, pozulmaz və ayrılmaz ali dəyərlər kimi ifadə edilir. Bununla bağlı, "Konstitusiyada təsbit edilmiş insan və vətəndaş hüquqlarını və azadlıqlarını gözləmək və qorumaq qanunvericilik, icra və məhkəmə

hakimiyyəti orqanlarının borcudur" konstitusiya müddəası olduqca mühüm əhəmiyyət kəsb edir.

İnsan hüquqlarına etibarlı təminat yaradan Konstitusiyanın ən böyük fəsli də bütünlüklə əsas insan və vətəndaş hüquqları və azadlıqlarına həsr edilib. Həmin fəsildə demokratik, hüquqi dövlətdə təmin edilməsi zəruri olan hüquq və azadlıqlar, onların həyata keçirilməsi mexanizmləri, habelə ayrı-ayrı hüquqların beynəlxalq standartlara müvafiq olaraq, qanuni məhdudlaşdırılmasının yol verilən hədləri nəzərdə tutulmuşdur.

Məlum olduğu kimi, dövlətin Əsas Qanununun hüquqi əlamətlərindən biri onun sabitliyidir. Belə ki, Konstitusiya uzunmüddətli fəaliyyət üçün nəzərdə tutulan aktdır. Bununla belə, Konstitusiya özü canlı orqanizm kimi daim inkişafdadır. İctimai-siyasi münasibətlərin inkişaf tempi, müasir cəmiyyətdə, dünyada və dövlətdə baş verən dəyişikliklər konstitusiyaların da zərurət yarandıqda təkmilləşdirilməsini, onlara müvafiq əlavə və dəyişikliklərin edilməsini labüd edir.

Azərbaycan Respublikasının Konstitusiyasına 2002-ci il 24 avqust, 2009-cu il 18 mart və 2016-cı il 26 sentyabr tarixlərində keçirilmiş referendumlar nəticəsində bir sıra əhəmiyyətli əlavələr və dəyişikliklər edilib. İlk dəfə 2002-ci ildə konstitusiya dəyişikliklərinə yaranan ehtiyac bir çox sahələrdə olduqca nəzərə çarpan sürətli inkişafdan irəli gəlirdi. Ulu Öndər Heydər Əliyevin bilavasitə təşəbbüsü ilə keçirilən referendumun nəticəsində Əsas Qanuna o zamankı obyektiv reallıqdan irəli gələn bir sıra mütərəqqi əlavə və dəyişikliklər edilib.

Konstitusiya islahatları hüquqi dövlət və vətəndaş cəmiyyəti prinsiplərinin daha da möhkəmlənməsi, demokratikləşmə proseslərinin dərinləşməsi, insan hüquq və azadlıqlarının daha effektiv şəkildə təmin olunması məqsədlərinə xidmət edir.

Dövlətimizin Əsas Qanunu qəbul edildikdən sonra 1998-ci ildə konstitusiya nəzarəti orqanı – Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi fəaliyyətə başlamış, bu təsisatın dövlət hakimiyyəti sistemində yeri və rolu müəyyənləşdirilmişdir. Ulu Öndər Heydər Əliyevin bilavasitə təşəbbüsü ilə yaradılmış və bu il fəaliyyətə başlamasının 25 illik yubileyini qeyd edən Konstitusiya Məhkəməsinin əsas məqsədləri Azərbaycan Respublikası Konstitusiyasının aliliyini təmin etməkdən, hər kəsin əsas hüquq və azadlıqlarını müdafiə etməkdən ibarətdir.

Ali Konstitusiya ədalət mühakiməsi orqanı olan Konstitusiya Məhkəməsi Əsas Qanunun ona verdiyi səlahiyyətlər çərçivəsində sorğu, müraciət və şikayətlər əsasında qəbul etdiyi məhkəmə aktları ilə bu məqsədləri həyata keçirir və bununla milli hüquq sisteminin inkişafına, hüquq tətbiqetmə təcrübəsinin istiqamətləndirilməsinə öz töhfəsini verir. Konstitusiya Məhkəməsinin qərarlarında əksini tapan hüquqi mövqelər Konstitusiyanın əsasları, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən irəli gələn müddəalar, habelə insan hüquq və azadlıqlarının prioriteti prinsipi nəzərə alınmaqla formalaşdırılır.

Qeyd edilməlidir ki, tarixi nöqteyi-nəzərdən qısa müddət ərzində dövlətimiz əsrə bərabər inkişaf yolu keçmişdir. Dövlətimiz ildən-ilə güclənərək, dinamik şəkildə inkişaf edir. Bu gün Azərbaycan müstəqil siyasət yürütməyə qadir, dayanıqlı iqtisadi sistemə malik, müasir, sürətli inkişaf yolu ilə inamla irəliləyən, beynəlxalq birliyin tamhüquqlu üzvü olan nüfuzlu dövlətdir. Azərbaycan özünü dünya birliyində ən mötəbər kürsülərdən sözünü deyən, öz haqlı mövqeyini bildirən və bu mövqeyini qoruyan, eyni zamanda zəngin iqtisadi potensiala malik bir dövlət kimi tanıdıb. Regionunun lider dövləti olan Azərbaycan müasir beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaş olmaqla qlobal xarakterli strateji layihələrin nəinki iştirakçısı, eyni zamanda təşəbbüskarı qismində çıxış edir. Əldə olunan bütün bu nailiyyətlər

məhz Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin siyasi iradəsi, qətiyyəti, hərtərəfli düşünülmüş daxili və xarici siyasəti sayəsində mümkün olmuşdur.

Əminliklə deyə bilərik ki, Ulu Öndər Heydər Əliyevin ideyaları, zəngin dövlətçilik irsi əsasında inkişaf yolunda inamla irəliləyən müasir Azərbaycan dövləti tarixinin qüdrətli dövrünü yaşayır. Müstəqil dövlətçilik tariximizin ən mühüm hadisəsi isə tarixi torpaqlarımızın işğaldan azad edilməsi oldu. 2020-ci il sentyabrın 27-də başlayan, 44 gün davam edən və işğal altındakı ərazilərimizin qaytarılması ilə nəticələnən Vətən Müharibəsi tariximizin ən parlaq səhifəsinə, Azərbaycan xalqının qürur mənbəyinə çevrildi.

44 günlük Vətən müharibəsində qazanılan Zəfər Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin qətiyyətli hərbi, siyasi və diplomatik fəaliyyəti, Rəşadətli Azərbaycan Ordusunun şücaəti və xalqımızın birliyi sayəsində mümkün oldu. Qazanılan tarixi Qələbə milli şüurun, xalq və ordu birliyinin təcəssümünə çevrildi.

Dövlət Başçısı cənab İlham Əliyev bununla bağlı qeyd etmişdir: “Biz öz haqqımızı, öz hüquqlarımızı döyüş meydanında bərpa etdik. 44 gün ərzində mənfur düşməni torpaqlarımızdan qovduq və Qarabağda Azərbaycan Bayrağını ucaltdıq. Bu, çoxəsrlik Azərbaycan tarixinin ən parlaq səhifəsidir”.

Azərbaycan dövlətinin şanlı Qələbəsi sayəsində Konstitusiyanın hüquqi qüvvəsi işğaldan azad edilmiş torpaqlarımızda bərpa olundu, vətəndaşlarımızın Əsas Qanunda təsbit edilmiş bir sıra hüquqlarının bərpası üçün zəmin yarandı.

Qarabağ və Şərqi Zəngəzur torpaqlarının işğalçılardan azad edilməsi ilə həmin ərazilərdə yenidənqurma, bərpa işlərinə start verilmiş və quruculuq işləri bu gün də sürətlə davam etdirilməkdədir. Dövlət Başçısı cənab İlham Əliyevin bilavasitə rəhbərliyi və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın fəal və yaxından iştirakı ilə işğaldan azad edilmiş şəhər və rayonlarımızda zəruri infrastrukturun yaradılması üzrə misli görünməmiş çoxşaxəli işlər həyata keçirilir.

Bərpa-quruculuq işlərinin aparılması ilə yanaşı, işğaldan azad edilmiş torpaqlara əhalinin qayıtması, bu prosesin təşkil edilməsi Qarabağın inkişafı ilə bağlı qarşıda duran ən mühüm istiqamətlərdən biridir. Bununla bağlı, 2022-ci il 16 noyabr tarixində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən imzalanan Sərəncam ilə “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı” təsdiq edilmişdir. Sərəncamda qeyd edilmişdir: “Həyata keçirilən məqsədyönlü və genişmiqyaslı layihələr Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının sürətlə dirçəlməsinə, əhalinin dayanıqlı məskunlaşmasına və davamlı iqtisadi aktivliyinin təmin olunmasına xidmət edir, habelə həmin ərazilərin yüksək inkişaf etmiş regiona çevrilməsi üçün sağlam bünövrə yaradır”.

Böyük Qayıdışa dair I Dövlət Proqramı Dövlət Başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə yüksək səviyyədə həyata keçirilir. Məlum olduğu kimi, cari ilin mart ayında Proqram çərçivəsində Tərtər rayonunun işğaldan azad edilmiş Talış kəndinə ilk mərhələdə köçürülən ailələr doğma torpaqlarına qayıdıblar.

Əminik ki, milli tərəqqi yoluna malik müstəqil dövlət olaraq Azərbaycan Dövlət Başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə bundan sonra da dinamik inkişaf edəcək, tarixi nailiyyətlərə imza atmaqda davam edəcək. Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi də öz növbəsində müəllifi Ulu Öndər Heydər Əliyev olan Əsas Qanunun aliliyinin təmin edilməsi, demokratik, hüquqi dövlət quruculuğu prosesinin möhkəmlənməsi və qanunçuluğun qorunması istiqamətində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi mütərəqqi fəaliyyətinə dəstək olaraq, üzərinə düşən vəzifələri layiqincə yerinə yetirməyə çalışacaq.

*Əli HÜSEYNLİ*

Milli Məclis Sədrinin birinci müavini,
Parlamentin Hüquq siyasəti və dövlət
quruculuğu komitəsinin sədri

# HEYDƏR ƏLİYEV AZƏRBAYCANDA MÜTƏRƏQQİ DÖVLƏTÇİLİK ƏNƏNƏLƏRİNİN BANİSİDİR

***Açar sözlər:*** *Heydər Əliyev, müstəqillik, dövlətçilik, demokratiya, qanunun aliliyi.*

***Ключевые слова:*** *Гейдар Алиев, независимость, государственность, демократия, верховенство закона.*

***Keywords:*** *Heydar Aliyev, independence, statehood, democracy, rule of law*

Yeni, müstəqil Azərbaycan dövlətinin təşəkkül tarixinin ictimai-siyasi baxımdan səciyyəvi xüsusiyyətlərini araşdırmadan və inkişaf yoluna nəzər salmadan Ümummilli Lider Heydər Əliyevin demokratik və hüquqi dövlət quruculuğu sahəsində oynadığı müstəsna rolu yetərincə dəyərləndirmək mümkün deyil. Ulu Öndərin anadan olmasının 100 illiyi ərəfəsində, "Heydər Əliyev" ilində bu mövzu xüsusi aktuallığı ilə seçilir.

Azərbaycanda dövlət və dövlətçilik anlayışlarının əsl mahiyyəti, ilk növbədə, Ulu Öndər Heydər Əliyevin ölkəmizə rəhbərlik etdiyi hər iki dönəmdəki fəaliyyətində öz əksini tapmışdır.

Həyatın bütün sahələrini əhatə edən çoxşaxəli fəaliyyət istiqamətlərinə uyğun olaraq milli mənəviyyatın təşəkkül tapması, tarixi soy-kökə qayıdış və azərbaycançılıq prinsipləri Heydər Əliyevin dövlətçilik siyasətinin ana xəttini təşkil etmişdir. Ciddi işgüzar keyfiyyətlər tələb edən fenomenal iş üslubu onun hələ Sovetlər Birliyi dövründən bəri topladığı zəngin idarəçilik təcrübəsinə söykənirdi. Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi birinci dövr – 1969-1982-ci illər müasir Azərbaycan inkişaf tarixinə ilk dönüş mərhələsi kimi yazılmışdır. Belə ki, məhz həmin illərdə müəyyənləşmiş fundamental strateji istiqamətlər sonrakı müstəqillik dövrünün sosial-iqtisadi bazasına çevrildi. Ümummilli Lider Azərbaycanı ən geridə qalmış respublikadan iqtisadi cəhətdən mərkəzdən asılı olmayan öncüllər sırasına çıxarmağa nail olmuşdu.[1] Azərbaycanın o dövrdəki neqativ meyillərin təhlili, cəmiyyətimizdəki rüşvətxorluq, korrupsiya hallarının etiraf olunması İttifaq miqyasında böyük əks-sədaya səbəb olmuşdu.

Sonrakı mərhələdə SSRİ-nin ali hakimiyyət orqanlarında mühüm siyasi postlarda Siyasi Büronun üzvü və Nazirlər Soveti Sədrinin birinci müavini vəzifələrində çalışarkən Heydər Əliyev Sovet İttifaqı kimi nəhəng bir ölkənin çox mühüm strateji sahələrinə rəhbərlik etmişdi. Buraya sosialist düşərgəsi ölkələri ilə əlaqələr, Yaxın Şərq problemlərinin həlli məsələləri, Uzaq Şərq, Mərkəzi və Cənub-Şərqi Asiya, Latın Amerikası ölkələri ilə qarşılıqlı münasibətlər kimi geniş spektrli problemlərin idarə edilməsi daxil idi.

[1] N.İsmayılov, T.Zeynalov. Xilaskarlıq missiyası. Xalq qəzeti. 2010, 2 may. s.3

İqtisadiyyatın ən çətin sahələrindən sayılan ağır və yüngül sənaye, dəmir yolu, nəqliyyat, tikinti, habelə səhiyyə, təhsil, gənclərlə işlə bağlı mühüm məsələlər bilavasitə onun nəzarəti altında olmuşdur. Məşhur Baykal-Amur Magistralının uğurla tikilib başa çatdırılması da məhz onun ardıcıl səyləri nəticəsində mümkün olmuşdu.[2]

Heydər Əliyev hər zaman olduğu kimi, burada da öz amallarına və prinsiplərinə sədaqətini, dünya miqyasında yüksək nüfuzunu qoruyub saxlamağa müvəffəq olmuşdur. O, Kremldəki yüksək mövqeyindən məharətlə istifadə edərək respublikamızda xalq təsərrüfatının inkişafını təmin etmək üçün Sov.İKP MK-nın və SSRİ Nazirlər Sovetinin mühüm qərarlarının qəbul edilməsinə nail olmuş və Azərbaycanın mərkəzi büdcədən asılılığını minimuma endirərək, demək olar ki, müstəqil fəaliyyətini təmin etmişdir.[3] Yuxarıda göstərilən tarixi reallıqlar Heydər Əliyevin gəldiyi nəticənin də inkarolunmaz həqiqət olduğunu bir daha sübut edir: “Azərbaycanın Sovet dövründə inkişafının ən barız nəticəsi odur ki, həmin dövrdə yaranmış iqtisadi, elmi-texniki və mədəni potensial respublikamızın tam müstəqil dövlət kimi fəaliyyət göstərməsi üçün möhkəm zəmin yaratmışdır”.

Təəssüf ki, Heydər Əliyevdən sonra Azərbaycana rəhbərlik etmiş şəxslərin kölə psixologiyası, prinsipsizliyi, qətiyyətsizliyi və düşünülməmiş kor-koranə addımları respublikanı getdikcə tənəzzülə doğru apardı. Xüsusilə Kremlin əlaltısına çevrilmiş və dövlətçilik anlayışından bixəbər Əbdürrəhman Vəzirovun rəhbərliyi dövründə Azərbaycan dərin iqtisadi və siyasi böhrana yuvarlandı. Heydər Əliyev fenomeni ölkəmizi həmişə daxili və xarici təhlükələrdən mühafizə edən əsas amil olmuşdur. Ona görə də 1987-ci ildə Kremldən uzaqlaşdırıldıqdan sonra respublikada başlayan və müstəqillik çağırışları ilə müşayiət olunan xalq hərəkatı həm də ona göstərilən ədalətsiz münasibətə etirazın təzahürü idi. 1987-ci ildə Heydər Əliyevin Moskvada siyasi fəaliyyətdən təcrid olunmasından dərhal sonra ittifaqın ermənipərəst rəhbərləri keçmiş Dağlıq Qarabağda separatçı hərəkətlərə rəvac verdilər. Bu, həm də 1988-ci ildə 300 minədək soydaşımızın Ermənistandan kütləvi deportasiyası ilə nəticələndi.[4] Sonrakı hadisələrin gedişi onu deməyə əsas verir ki, məhz bu hadisələr o dövrdə Azərbaycanın milli azadlıq hərəkatına təkan verən əsas amillərdən biri olmuşdur. AXC-Müsavat cütlüyü isə antimilli və xəyanətkar mövqeyi ilə bu hərəkata yamaq kimi qoşularaq hakimiyyəti ələ keçirmək üçün fürsət axtarırdı. Çox keçmədi ki, Azərbaycanda dərinləşməkdə olan içtimai-siyasi böhran, hakimiyyətdə olan Ayaz Mütəllibovun qorxaqlığı və həmçinin “cəbhəçi”lərin təxribat xarakterli davranışları Sovet qoşunlarının Bakıya yeridilməsi və 1990-cı il qanlı 20 yanvar faciəsi ilə nəticələndi. Bu hadisəyə ilk olaraq kəskin etirazını bildirən, ən cəsarətli və obyektiv siyasi qiyməti verən də Heydər Əliyev oldu. O, əsl liderə məxsus mövqeyini ortaya qoydu və həyatı üçün real təhlükələrdən çəkinmədən Moskvadakı Azərbaycan nümayəndəliyinə gələrək oradan beynəlxalq aləmə tarixi bəyanat ünvanladı.[5] Bu çıxışdan ruhlanmış Azərbaycan xalqının milli azadlıq hərəkatı daha da vüsət aldı. Bu gün Azərbaycan cəmiyyəti birmənalı olaraq o fikirdədir ki, əgər həmin dövrdə Heydər Əliyev Azərbaycanın rəhbərliyində olsaydı, nə Qarabağ işğal olunardı, nə də ki ölkəmiz müstəqilliyinin ilk illərində iqtisadi və siyasi

---

[2] Кремлевские будни Гейдара Алиева. Адильоглы, Баку, 2007, 394 с.

[3] Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövrü: Müstəqilliyə doğru böyük dönüş və milli oyanışın başlanması (1969-1982), https://azerbaijan.az/related-information/146

[4] https://president.az/az/articles/view/35813

[5] Azərbaycan. 2010. 20 yanvar. s.2.

böhran yaşayardı. Təəssüf ki, biz bu tarixi şansdan yararlana bilmədik və onun acı nəticələrini gördük.

Əslində, o zaman Azərbaycan xalqı Heydər Əliyevi hakimiyyətdə görmək arzusu ilə yaşayırdı, öz nicatını onda görürdü. Amma, təəssüf ki, o zaman hakimiyyətdə olan milli xəyanətkarlar hər vəchlə buna mane olurdular. Moskvadan Bakıya gəlməsinə mərkəzi hakimiyyət, Bakıda qalmasına isə yerli hakimiyyət imkan vermirdi. Ona görə 1990-cı ilin iyulunda gizli yollarla Bakıya gələn Heydər Əliyev iki gündən sonra Naxçıvana getdi. Həmin il noyabrın 17-də Muxtar Respublikanın Ali Məclisinin sədri seçildikdən sonra siyasi fəaliyyətini orada davam etdirməyə, faktiki olaraq blokada vəziyyətinə düşmüş Naxçıvanın ağır problemləri ilə məşğul olmağa başladı.[6] Məhz həmin illərdə təzahür edən ekstremal vəziyyətlərdə Heydər Əliyev əsl dövlət adamı, lider kimi fövqəladə keyfiyyətlərini nümayiş etdirdi. O, yüksək səviyyəli dövlətçilik və idarəçilik nümunələri ilə ilə böyük dövlətlərin diqqətini Naxçıvanın problemlərinə cəlb etməyə nail oldu.

Bir çox siyasi analitiklər bu nəticəyə gəlmişlər ki, Heydər Əliyev hələ çox illər bundan öncə SSRİ-nin tezliklə süquta uğrayacağını və Azərbaycanın müstəqil dövlət kimi təşəkkül tapacağını görürmüş.[7] Bu nəticə ən yeni tarixin real yekunu ilə bir daha təsdiqlənir və Heydər Əliyev fenomeninin böyüklüyünü təcəssüm etdirir. Lakin bu istiqamətdə həlledici proseslər 1990-1991-ci illərdə cərəyan etməyə başlamışdır. İqtidarın və Xalq Cəbhəsi liderlərinin başı hakimiyyət uğrunda mübarizəyə qarışdığı həmin dövrdə Heydər Əliyev Naxçıvandan Azərbaycan xalqının azadlıq, müstəqillik uğrunda mübarizəsinə rəhbərlik edirdi. Ulu Öndərin müdrik, uzaqgörən siyasəti sayəsində muxtar respublikanın adından "Sovet Sosialist" sözləri çıxarıldı, 1990-cı il noyabrın 17-də Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı dövlət bayrağı kimi qəbul edildi və bu barədə Azərbaycan parlamenti qarşısında qanunvericilik təşəbbüsü qaydasında məsələ qaldırıldı.[8]

Zaman keçdikcə Azərbaycanın inkişaf strategiyasının ideoloji sütununa və ümumxalq partiyasına çevrilən Yeni Azərbaycan Partiyasının yaradılması da həmin dövrə təsadüf edir və bu, Heydər Əliyev ideyalarının təntənəsidir. Belə ki, xalqı milli mənafelər üzərindən azərbaycançılıq ideologiyası ətrafında birləşdirmək məqsədilə yaradılmış bu təşkilat öz fəaliyyəti ilə siyasi-ideoloji mübarizənin sivil qaydalarla aparmağın doğru yolunu göstərdi.[9]

1991-ci ilin avqustunda Moskvada dövlət çevrilişinə cəhddən sonra SSRİ-nın parçalanması prosesi daha da gücləndi. Müttəfiq respublikalar bir-birinin ardınca öz suverenliklərini elan etdilər.[10] Bu proses Azərbaycanda hərbi-siyasi vəziyyətin daha da mürəkkəbləşməsinə yol açdı. Respublikanın ərazi bütövlüyü mərkəzi hakimiyyət orqanları tərəfindən təmin edilməli olduğu halda Naxçıvan Muxtar Respublikasının müdafiəsinin təşkili bütünlüklə Heydər Əliyevin üzərinə düşmüşdü. Ulu Öndər Naxçıvan əhalisini və potensialını öz ətrafında birləşdirərək dövlətçilik təcrübəsini və istedadını yenidən ortaya qoydu və Naxçıvana qarşı istiqamətlənmiş erməni təcavüzünün genişlənməsinin qarşısını almağa müvəffəq oldu. Üstəlik, Ermənistanın işğalçılıq siyasəti Heydər Əliyevin Naxçıvandan atdığı çevik diplomatik addımlar sayəsində beynəlxalq aləmdə kifayət qədər

---

[6] https://www.elibrary.az/docs/QAZET/qzt2008_2516q.pdf, Azərbaycan. 2008. 3 avqust .s.1-2.

[7] Интервью Президента Азербайджанской Республики Гейдара Алиева первому заместителю генерального директора ИТАР-ТАСС Михаилу Гусману в передаче «Формула власти». 2001 год.

[8] https://president.az/az/pages/view/azerbaijan/symbols

[9] http://www.yap.org.az/az/view/pages/5

[10] https://tass.ru/politika/3850507

qınandı və qarşı tərəfi öz davranışlarına məsuliyyətlə yanaşmağa sövq etdi.[11] Nəticədə Ermənistan rəhbərləri müxtəlif vasitələrlə Heydər Əliyevlə əlaqə saxlayaraq danışıqlar aparılmasına və müzakirələr yolu ilə gərginliyin aradan qaldırılmasına hazır olduqlarını bildirdilər. Bu, Ermənistan-Azərbaycan münaqişəsi tarixində presedent idi.

Azərbaycanın dövlət müstəqilliyinin bərpasının ilk illəri Heydər Əliyevin timsalında mətanət və siyasi iradənin bənzərsiz nümunələri ilə zəngindir. 1991-ci ilin oktyabrında formal olaraq müstəqillik aktına imza atmış Azərbaycan bu tarixi nailiyyəti itirmək təhlükəsi ilə üz-üzə qalmışdı. Belə ki, o dövrdə ölkə daxilindəki vətəndaş müharibəsi dərəcəsinə yüksəlmiş qarşıdurmalar nəinki dövlət müstəqilliyimizi, hətta milli varlığımızı belə birbaşa hədəfə almışdı. Hadisələri düzgün qiymətləndirə bilməyən o vaxtkı iqtidar isə əhali arasında gündən-günə nüfuzunu itirir, baş vermiş proseslərdən düzgün nəticə çıxara bilmirdi.

Digər tərəfdən də təcavüzkar Ermənistanın ölkəmizə qarşı torpaq iddiaları ilə müşayiət olunan Dağlıq Qarabağ problemi ağır yük kimi Azərbaycanın başı üzərində dururdu. Hər kəsin var gücü ilə xarici düşmənə qarşı həmrəylik nümayiş etdirməli olduğu belə bir şəraitdə ayri-ayri mafioz qruplarda birləşmiş hakimiyyət hərisləri isə özlərinin şəxsi maraqlarına xidmət edən fəaliyyətlə məşğul idilər. Azərbaycanın o dövrdəki hakimiyyətinin dişsizliyi, qorxaqlığı, siyasi səbatsızlığı bir tərəfdən, xəyanətkar AXC-Müsavat cütlüyünün antimilli mövqeyi isə digər tərəfdən vəziyyəti daha da mürəkkəbləşdirmişdi.

Bundan sonrakı mərhələdə – 1992-ci ilin yaz aylarından başlanan daxili hərc-mərclik, siyasi qüvvələrin çəkişməsi cəbhə bölgəsinin nəzarətdən kənar qalmasına və Qarabağ savaşında ermənilərin üstünlüyü ələ almasına gətirib çıxardı. Başqa sözlə, AXC-Müsavat cütlüyü Qarabağ kartından istifadə etməklə, konkret olaraq, Şuşa və Laçın rayonlarını xaincəsinə erməni işğalçılarına təslim etməklə Ayaz Mütəllibovu devirərək hakimiyyəti faktiki olaraq zəbt etdi.

Oktyabr ayında isə "cəbhəçi"lər antimilli qüvvələrin fəaliyyətini tənqid edən Heydər Əliyevi fiziki olaraq aradan götürmək və Naxçıvanda qanuni hakimiyyət orqanlarını devirmək niyyəti ilə təxribat törətdilər. Lakin hər zaman olduğu kimi cəsarət və siyasi iradə nümunəsi göstərən Ulu Öndərin prinsipial mövqeyi xalq tərəfindən birmənalı şəkildə dəstəkləndi və bu xain cəhdlərin qarşısı qətiyyətlə alındı. Heydər Əliyev isə müdrik mövqe sərgiləyərək öz çıxışlarında ümummilli məqsədlər uğrunda birliyə çağırış edirdi: "Biz çalışmalıyıq ki, hamı bir yumruq kimi birləşsin. Biz həm düşmən təcavüzünün qarşısını almalıyıq, həm də maddi və sosial böhran içərisində yaşayan xalqımızın həyat tərzini yüksəltməyə çalışmalıyıq".[12]

AXC-Müsavat siyasi tandeminin iç üzü bir il ərzində hakimiyyətdə olduğu zaman bəlli oldu. Daxili və xarici siyasətdə buraxılan səhvlər onsuz da mürəkkəb olan vəziyyəti daha da gərginləşdirdi. Xalq aclıq və səfalət içində idi. Ölkənin maliyyə imkanları tamamilə tükənmişdi. O səbəbdən ki, cəbhəçilər Heydər Əliyevin ötən əsrin 70-80-ci illəri ərzində yaratdığı fundamental nailiyyətləri qısa müddətdə məhv etmişdilər, sərvətlər talan edilmiş, işbazlar tərəfindən xaricə satılmışdı. Ümumiyyətlə, ölkə kriminal, mafioz qruplar, silahlı birləşmələr tərəfindən idarə olunurdu.

---

[11] Qayıdış (1990-1993). Sənədlər toplusu. Təkmilləşdirilmiş və yenidən işlənmiş ikinci nəşr. Bakı. Azərbaycan, 2008, 638 s.

[12] M.Süleymanov. Ümummilli lider Heydər Əliyevin Naxçıvanda xilaskarlıq missiyası. Xalq qəzeti.2 may 2021-ci il, s.3 http://www.anl.az/down/meqale/xalqqazeti/2021/may/743088(meqale).pdf

Qarabağ məsələsi milli maraqlar çərçivəsindən çıxaraq şəxsi mənafe predmetinə çevrilmişdi. Kəlbəcər rayonunun da bütövlükdə işğalı nəticəsində Dağlıq Qarabağ faktiki olaraq Ermənistanla birləşdi. Beləliklə də, bu hadisələr yarıtmaz fəaliyyəti və davranişları ilə xalq içində tamamilə nüfuzdan düşmüş AXC-Müsavat hakimiyyətinin biabırçı sonuna yaxınlaşdırdı. Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev AXC-Müsavat cütlüyünün xəyanətkar mahiyyətini bir daha ifşa edərək onu səciyyələndirən məqamlarla bağlı demişdir: "...Xalq Cəbhəsi-Müsavat hakimiyyəti bunun günahkarıdır. Onlar bu xəyanəti törətdilər, ondan sonra da qorxaqcasına qaçıb gizləndilər, fərarilik etdilər, Şuşanı satdılar... Xalq Cəbhəsi – Müsavat ancaq hakimiyyətə gəlmək üçün xəyanət, satqınlıq, cinayət törədib... Sonra da Azərbaycanda talançılığı dövlət siyasətinə çevirib, rüşvətxorluğu öz ideoloji prinsipi elan edib, satqınlığı, fərariliyi Azərbaycan xalqının tarixinə bir ləkə kimi yapışdırıb. Xalq Cəbhəsi-Müsavat satqınları xalqımızı dünyanın gözü qarşısında rəzil etmişlər, biabır etmişlər".[13]

Beləliklə, hakimiyyətdə olmalarına baxmayaraq dövlətçilikdən anlayışı olmayan avantürist Müsavat-AXC cütlüyünün həyata keçirdiyi səbatsız daxili və onun davamı olan xarici siyasət kursu Azərbaycanın başına gələn bəlaların əsas səbəbi idi. Rusiya hərbi birləşmələrinin ölkə ərazisindən çıxarılması Rusiyanın Azərbaycana münasibətdə məlum sərt mövqeyinin formalaşmasında öz sözünü dedi, belə ki, məhz həmin illərdə Rusiyanın himayəsi ilə torpaqlarımızın Ermənistan tərəfindən işğalı həyata keçirildi. Bundan savayı, Müsavat-AXC cütlüyünün mövcud şəraitə adekvat olmayan məqamda "Cənubi Azərbaycan" problemini qabartması nəticəsində İranla da münasibətlər son dərəcə kəskinləşdi. Bu siyasətin nəticəsində faktiki olaraq Azərbaycan həm şimaldan, həm də cənubdan ağır təzyiq altına düşdü. Qardaş Türkiyə ilə qarşılıqlı münasibətlər inamsızlıqla müşaiyət olunmağa başladı. ABŞ Konqresi isə Azərbaycanı dövlət səviyyəsində hər cür yardımdan məhrum edən "907-ci əlavə"ni qəbul etdi.[14]

Hakimiyyət uğrunda daxili çəkişmələrin kuliminasiya nöqtəsi kimi Gəncə şəhərində baş vermiş 1993-cü il 4 iyun hadisələri respublikanı faktiki olaraq real vətəndaş müharibəsinə sürüklədi. Ölkədə hakimiyyətsizlik və xaos hökm sürürdü. Belə bir vəziyyətdən çıxış yolunu axtaran Azərbaycanın xalqı xilasını yalniz Heydər Əliyevin simasinda görürdü. Çünki bu böyük insan ümumxalq inamını, etibarını artıq o zamanadək xalqına sədaqətli, şərəfli xidməti ilə qazanmışdı.

Ulu Öndərin obyektiv tarixi zərurət kimi 1993-cü ilin iyun ayında ölkə rəhbərliyinə gəlişi Azərbaycanın qurtuluş təqvimi, ölkənin inkişaf strategiyasının dönüş nöqtəsidir. Belə ki, sələflərindən çox ağır bir mirası qəbul etməsinə baxmayaraq, Ulu Öndər Azərbaycanı dünyanın siyasi xəritəsindən silinmək təhlükəsindən xilas etməyə nail olmuşdur.

Azərbaycanda dövlət orqanlarının fəaliyyətini və dövlətçiliyi bərpa etmək məqsədilə 1993-cü il oktyabr ayının 3-də keçirilən prezident seçkiləri nəticəsində xalqın dərin etimadı ilə ölkə Prezidenti seçilən Ümummilli Lider Heydər Əliyev ölkəmizin inkişaf paradiqmalarını dövrün xüsusiyyətlərinə və zamanın tələblərinə müvafiq olaraq dəqiq müəyyənləşdirdi. 1994-cü ilin mayında cəbhədə atəşkəsə nail olduqdan sonra ağıllı neft

[13] "Xalq Cəbhəsi-Müsavat hakimiyyəti bunun günahkarıdır". https://525.az/news/160114- xalq-cebhesi-musavat-hakimiyyeti-bunun-gunahkaridir

[14] Теймурханлы Ф. Пресловутая 907-я поправка и проблема карабахского Урегулирования. Зеркало. 2009. 22 июля, с.1.

strategiyasına start verilməsi nəticəsində iqtisadi dirçəliş mümkün oldu. Daxildəki pozucu qüvvələrin neytrallaşdırılması ilə ölkədə sabitlik bərpa olundu.[15]

Məhz Heydər Əliyevin yorulmaz, məqsədyönlü, ardıcıl və qətiyyətli mübarizəsi nəticəsində respublikamız hərtərəfli inkişafa nail oldu, ictimai-siyasi sabitlik, sülh və əmin-amanlıq bərpa edildi, demokratiyanın inkişafı, hüququn aliliyi, beynəlxalq birliyə inteqrasiya, bazar iqtisadiyyatı və vətəndaş cəmiyyəti quruculuğuna keçid prosesi gerçəkləşdi. Bu baxımdan dünyanın siyasi arenasında müstəqil subyektə çevrilmiş Azərbaycanda milli dövlətçilik ənənəsinin formalaşması ilk növbədə Heydər Əliyevin tarixi xidməti kimi dəyərləndirilməlidir. Çünki məhz onun yenilməz siyasi iradəsi sayəsində dövrün tələblərinə uyğun sistemli inkişaf modeli yaradılmış və müstəqil Azərbaycan Respublikasının gələcək taleyi müəyyənləşmişdir.

1995-ci ildə Ulu Öndərin təşəbbüsü və bilavasitə rəhbərliyi altında müstəqil Azərbaycan Respublikasının yeni Konstitusiyanın qəbul olunması ilə ölkənin əsas hüquqi, dünyəvi dövlətçilik modelinin əsas hüquqi bazası yaranmış oldu.

Əsrə bərabər cəmi 10 il ərzində müstəqil Azərbaycan Respublikasının sükanı arxasında duran Heydər Əliyevin praqmatik xarici siyasəti nəticəsində dünyanın aparıcı dövlətləri, inkişaf etmiş ölkələri, beynəlxalq təşkilatlar Azərbaycana ciddi diqqət yetirməyə başladılar. O, Qərb demokratiyası ilə Şərq dəyərlərinin bənzərsiz sintezini özündə əks etdirən yeni nəsil müasir dövlət modelini formalaşdırmağa müvəffəq oldu. Bu siyasətin bariz nəticəsidir ki, bu gün Azərbaycan öz tolerantlığı və multikultural dəyərləri ilə dünyanının bütün digər ölkələrinə təkrarsız nümunədir.

Beləliklə, Azərbaycanın müstəqillik dövründə əldə etdiyi ciddi uğurlar, sürətli iqtisadi inkişaf yolu ilə bölgədəki stabil lider mövqeyi məhz Ulu Öndərin müəyyən etdiyi dövlət idarəçiliyinin uzun illər ərzində formalaşmış, təcrübədən uğurla çıxmış təkmil mexanizmlər əsasında həyata keçirilməsi ilə bilavasitə bağlıdır. Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamında deyilir: "Dövlətçilik salnaməmizdə silinməz izlər qoymuş, azərbaycanlı olması ilə ömür boyu fəxr etmiş, milli qürur və iftixar mənbəyimiz olan Heydər Əliyev bütün dünyada Azərbaycanın rəmzi kimi qəbul edilir... Müstəqil Azərbaycan Ulu Öndərin indiki və gələcək nəsillərə əmanəti, onun zəngin və çoxşaxəli irsi isə xalqımızın milli sərvətidir. Bu müqəddəs mirası qoruyub saxlamaq hər bir azərbaycanlının şərəfli vəzifəsidir".[16]

44 günlük Vətən müharibəsində əldə edilmiş tarixi Zəfər də məhz Heydər Əliyevin memarı olduğu müstəqil Azərbaycanın dinamik inkişafını, ərazi bütövlüyünün bərpasını və xalqın xoşbəxt gələcəyini hədəfləyən müasir və mütərəqqi dövlətçilik ənənələrinə sədaqətin məntiqi nəticəsidir. Onun ən ümdə vəsiyyətinə əməl edərək və xalqın sarsılmaz həmrəyliyinə arxalanaraq tarixi torpaqlarımız olan Qarabağı və Şərqı Zəngəzuru düşmən tapdağından azad etmiş Prezident İlham Əliyev bu gün Ulu Öndərin siyasi kursunu yeni çağırışlara uyğun əzmlə, daha möhtəşəm uğurlar üzərindən inkişaf etdirməkdədir.

---

[15] İ.Hacıyev, E.Kəlbizadə. Müstəqilliyin uğurlu salnaməsi. 2022.https://azerbaijan-news.az/az/posts/detail/musteqilliyin-ugurlu-salnamesi-1654979612

[16] Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 sentyabr 2022-ci il. https://president.az/az/articles/view/57413

## İstifadə olunmuş ədəbiyyat siyahısı

1. N.İsmayılov,T.Zeynalov. Xilaskarlıq missiyası. Xalq qəzeti. 2010, 2 may. s.3
2. Кремлевские будни Гейдара Алиева. Адильоглы, Баку, 2007, 394 с.
3. Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövrü: Müstəqilliyə doğru böyük dönüş və milli oyanışın başlanması (1969-1982), https://azerbaijan.az/related-information/146
4. https://president.az/az/articles/view/35813
5. Azərbaycan. 2010. 20 yanvar. s.2.
6. https://www.elibrary.az/docs/QAZET/qzt2008_2516q.pdf, Azərbaycan.2008.3 avqust .s.1-2.
7. Интервью Президента Азербайджанской Республики Гейдара Алиева первому заместителю генерального директора ИТАР-ТАСС Михаилу Гусману в передаче «Формула власти». 2001 год.
8.=https://president.az/az/pages/view/azerbaijan/symbols
9. http://www.yap.org.az/az/view/pages/5
10. https://tass.ru/politika/3850507
11. Qayıdış (1990-1993). Sənədlər toplusu. Təkmilləşdirilmiş və yenidən işlənmiş ikinci nəşr. Bakı. Azərbaycan, 2008, 638 s.
12. M.Süleymanov. Ümummilli lider Heydər Əliyevin Naxçıvanda xilaskarlıq missiyası. Xalq qəzeti.2 may 2021-ci il, s.3
13. http://www.anl.az/down/meqale/xalqqazeti/2021/may/743088(meqale).pdf
14 "Xalq Cəbhəsi-Müsavat hakimiyyəti bunun günahkarıdır". https://525.az/news/160114-xalq-cebhesi-musavat-hakimiyyeti-bunun-gunahkaridi
15 Теймурханлы Ф. Пресловутая 907-я поправка и проблема карабахского Урегулирования. Зеркало. 2009. 22 июля, с.1.
16 İ.Hacıyev, E.Kəlbizadə. Müstəqilliyin uğurlu salnaməsi. 2022.https://azerbaijan-news.az/az/posts/detail/musteqilliyin-ugurlu-salnamesi-1654979612
17 Azərbaycan Respublikasında 2023-cü ilin “Heydər Əliyev İli” elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 sentyabr 2022-ci il.

***Səbinə ƏLİYEVA***

Azərbaycan Respublikasının
İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman), h.ü.f.d.

## AZƏRBAYCANDA OMBUDSMAN TƏSİSATININ YARADILMASINDA ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN ROLU

***Açar sözlər:*** *Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi, Heydər Əliyev ili, Ombudsman təsisatı, insan hüquqlarının inkişafı, hüquqi və institusional mexanizmlərin təkmilləşdirilməsi*

***Ключевые слова:*** *100-летие Общенационального лидера Гейдара Алиева, год Гейдара Алиева, институт Омбудсмена, развитие прав человека, усовершенствование правовых и институциональных механизмов.*

***Keywords:*** *The National Leader Haydar Aliyev's 100th anniversary, year of Haydar Aliyev, Ombudsman institution, development of human rights, advancement of legal and institutional mechanisms*

Azərbaycan xalqına və dövlətinə təmənnasız xidmət etməklə ölkəmizin demokratik inkişaf, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu yolunda, insan hüquqlarının müdafiəsi sahəsində böyük uğurlar qazanmasında mühüm xidmətlər göstərmiş, mənalı ömrünün böyük bir hissəsini məhz elə həmin yüksək amala həsr etmiş dahi şəxsiyyət, görkəmli ictimai-siyasi və dövlət xadimi, Ümummilli lider Heydər Əliyevin anadan olmasının bu il 100 illik yubileyidir.

Bununla əlaqədar Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan, cənab İlham Əliyevin məlum sərəncam ilə ölkəmizdə 2023-cü il “Heydər Əliyev İli” elan olunmuşdur.

Azərbaycan XX əsrdə öz dövlət müstəqilliyini yenidən bərpa etdikdən sonra dünya birliyinin bərabərhüquqlu üzvü kimi ümumbəşəri dəyərlərə əsaslanaraq demokratik, hüquqi və dünyəvi dövlət quruculuğunu özünün inkişaf yolu seçmişdir.

Bu baxımdan əziz xatirəsi xalqımız tərəfindən daim dərin hörmət və ehtiramla yad edilən Ulu Öndər Heydər Əliyevin Azərbaycanda demokratik-hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu, insan hüquqlarının inkişafı, müstəqil məhkəmədənkənar hüquq müdafiə mexanizmi olan Ombudsman təsisatının əsasının qoyulması ilə bağlı mühüm əhəmiyyət kəsb edən islahatların həyata keçirilməsində misilsiz xidmətləri olmuşdur.

Azərbaycan müstəqilliyinin ilk illərində böyük çətinliklərlə üzləşmiş və yalnız Ümummilli lider Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə ikinci dəfə siyasi hakimiyyətə gəlməsi nəticəsində ölkəmizdə makroiqtisadi və maliyyə sabitliyinin əldə edilməsinə, iqtisadiyyatda struktur dəyişikliklərinin dərinləşməsinə, sahibkarlığın inkişafına, əhalinin sosial rifah halının yaxşılaşmasına xidmət edən kompleks tədbirlər həyata keçirilmiş, insan hüquqlarının təmin olunması dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyən edilmişdir.

Böyük minnətdarlıq hissi ilə vurğulamaq lazımdır ki, Azərbaycanın sosial-iqtisadi inkişafı, milli dövlətçiliyimizin möhkəmlənməsi, insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində həyata keçirilən mütərəqqi hüquqi islahatlar nəticəsində çoxsaylı uğurların əldə olunması məhz Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır.

Məlumdur ki, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğuna nail olmaq, ictimai-siyasi, sosial-iqtisadi və mədəni sahədə islahatların həyata keçirilməsi müasir standartlara cavab verən qanunvericilik bazası olmadan mümkün deyildir.

Buna görə Azərbaycan Respublikası Konstitusiyası Ulu Öndərin sədrlik etdiyi komissiya tərəfindən hazırlanaraq 1995-ci il 12 noyabr tarixində keçirilmiş ümumxalq səsverməsi (referendum) yolu ilə qəbul edildikdən sonra, ölkəmizdə insan hüquqlarının səmərəli təmini məqsədilə milli qanunvericilik və institusional mexanizmlər sisteminin təkmilləşdirilərək yenidən qurulması və inkişaf etdirilməsi sahəsində genişmiqyaslı islahatların həyata keçirilməsi üçün hüquqi baza formalaşmışdır.

Heç də təsadüfi deyildir ki, 48 maddədən ibarət üçüncü fəslinin bütün müddəaları insana, onun ləyaqətinə, hüquqlarına hörmət ruhunda yazılmış Konstitusiyanın 12-ci maddəsinin I hissəsində insan və vətəndaş hüquqlarının və azadlıqlarının, Azərbaycan Respublikasının vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsi dövlətin ali məqsədi kimi təsbit olunmuşdur[1].

Yeri gəlmişkən, 2002-ci ilin avqust ayında keçirilmiş referendum nəticəsində Konstitusiyada bir sıra mütərəqqi dəyişikliklər edilmişdir ki, bu da həmin dövrdə Ulu Öndərin təşəbbüsü əsasında həyata keçirilmiş hüquqi islahatlar sırasında mühüm yerlərdən birini tutmuşdur.

Müasir çağırışlar kontekstində sürətlə qloballaşmaqda davam edən dünyada insan hüquqlarına münasibətin hansı səviyyədə olması hər bir ölkənin demokratik inkişafını müəyyən edən əsas göstəricilərdən biri kimi qəbul olunur.

Müstəqillik dönəmində ölkəmizə rəhbərlik etdiyi illərdə bu faktoru da daim nəzərə alan Ümummilli lider Heydər Əliyev tərəfindən insan hüquq və azadlıqlarının təmin edilməsinə xidmət edən bir sıra mühüm addımlar atılmış, normativ hüquqi və institusional bazanın təkmilləşdirilməsi məsələləri daim diqqət mərkəzində saxlanılmışdır. Hətta onun proqram xarakterli çıxışlarında vəzifəli şəxslərin fəaliyyətinin məhz onların insan hüquqlarının qorunmasındakı xidmətlərinə görə qiymətləndirilməli olduğu bildirilmişdir.

Həyatın bütün sahələrini əhatə edən hüquqi islahatların sürətləndirilməsinə xüsusi diqqət yetirən Ulu Öndərin 1996-cı il 21 fevral tarixli Sərəncamı ilə yaradılmış Azərbaycan Respublikası Prezidentinin yanında Hüquqi İslahat Komissiyası tərəfindən beynəlxalq təcrübə əsasında ictimai münasibətlərin tənzimlənməsi baxımından mühüm əhəmiyyət kəsb edən, beynəlxalq standartlara cavab verən “Konstitusiya Məhkəməsi haqqında”, “Məhkəmələr və hakimlər haqqında”, “Polis haqqında”, “Əməliyyat-axtarış fəaliyyəti haqqında”, “Prokurorluq haqqında” qanunların, yeni məcəllələrin və digər normativ hüquqi aktların layihələri hazırlanmış və qəbul edilmişdir[2].

Beynəlxalq təcrübəyə istinadən qeyd etmək olar ki, hazırda hüquqi dövlətin vacib atributlarından biri də qanunvericilik, icra və məhkəmə hakimiyyəti sisteminə daxil olmayan, lakin həyata keçirdiyi əhəmiyyətli funksiyalara görə insan hüquq və azadlıqlarının məhkəmədənkənar müdafiəsinə xidmət edən, qanunvericiliyin, institusional mexanizmlərin

[1] Azərbaycan Respublikasının Konstitusiyası. “Hüquq Yayın Evi”, Bakı, 2021. URL: https://bit.ly/41mynoG

[2] “Azərbaycan Respublikasının Prezidentinin yanında hüquqi islahat komissiyasının yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 1996 – Xalq. – 1996, 22 fevral. – s. 1

və idarəetmənin təkmilləşdirilməsi sahəsində təkliflər irəli sürən, dövlət qurumları ilə əhali, habelə vətəndaş cəmiyyəti institutları arasında "körpü" rolunu oynayan geniş səlahiyyətlərə malik müstəqil bir qurum olan Ombudsman təsisatıdır.

Buna görə də, Ümummilli Lider Heydər Əliyev tərəfindən dünyanın qabaqcıl ölkələrinin müsbət təcrübəsi nəzərə alınmaqla həyata keçirilmiş hüquqi islahatların əsas istiqamətlərindən biri də insan hüquq və azadlıqlarının müdafiəsində səmərəli mexanizm kimi çıxış edən Ombudsman təsisatının yaradılması olmuşdur.

İnsan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyinin artırılmasında dövlət proqramları, strategiyaları, milli fəaliyyət planları, konsepsiyalar və bu kimi digər sənədlər mühüm əhəmiyyətə malikdir.

1993-cü ildə Vyanada keçirilmiş İnsan Hüquqları üzrə Dünya Konfransında hər bir dövlətin insan hüquqlarının təşviqi və müdafiəsi sahəsində vəziyyətin yaxşılaşdırılması üzrə addımlarını müəyyən edən milli fəaliyyət planının hazırlanmasının məqsədəmüvafiqliyinin nəzərdən keçirilməsi tövsiyə edilmişdir[3].

Siyasi hakimiyyətdə olduğu dövr ərzində ölkəmizin demokratik, hüquqi, dünyəvi dövlət kimi inkişafı uğrunda fədakarcasına çalışmış və həyata keçirdiyi genişmiqyaslı fəaliyyətləri ilə xalqa sədaqətlə xidmətin əyani nümunəsini yaratmış Ulu Öndər Heydər Əliyev tərəfindən Azərbaycanın müxtəlif inkişaf mərhələlərində insan hüquq və azadlıqlarının daha səmərəli təmininə nail olmaq məqsədilə bir sıra strateji əhəmiyyətli sənədlər hazırlanmış və təsdiq edilərək icra olunmuşdur. Bu sırada ölkə Prezidenti kimi imzalamış olduğu "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" 1998-ci il 22 fevral tarixli Fərman[4], bundan irəli gələn məqsəd və vəzifələri nəzərə alaraq 1998-ci il 18 iyun tarixli Sərəncamı ilə təsdiq etdiyi və müstəqil dövlətimizdə müvafiq sahədə ilk strateji sənəd olan "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı"[5] mühüm yerlərdən birini tutur.

İlk dəfə olaraq insan hüquq və azadlıqlarının təmin edilməsi sahəsində ən mühüm tədbirlərin həyata keçirilməsini nəzərdə tutan bu iki sənəddə ölkəmizdə insan hüquqları üzrə səlahiyyətli müvəkkil təsisatının yaradılması ilə bağlı müddəalar öz əksini tapmışdır.

Bununla əlaqədar ölkəmizdə insan hüquqlarının müdafiəsi mexanizmləri təkmilləşdirilmiş, yeni məhkəmədənkənar hüquq müdafiə mexanizmi olan Ombudsman təsisatının yaradılaraq səmərəli fəaliyyət göstərməsi üçün hüquqi və maddi baza yaradılmışdır.

Ulu Öndər Heydər Əliyevin qanunvericilik təşəbbüsü ilə 2001-ci il 28 dekabr tarixində "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Konstitusiya Qanunu qəbul olunmuş[6], 2002-ci il 5 mart tarixində həmin Qanunun tətbiq edilməsi barədə Fərman imzalanmışdır[7]. Bununla əlaqədar 2002-ci il 2 iyul tarixində bəzi

---

[3] Peşəkar Təlim. 10 №-li Seriya. İnsan Hüquqları üzrə Milli Fəaliyyət Planlarına dair Məlumat Kitabçası. Birləşmiş Millətlər Təşkilatı. Nyu-York – Cenevrə 2002. URL: https://bit.ly/3IxNi6U

[4] "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 1998. URL: https://bit.ly/3EGp8G2

[5] "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 1998. URL: https://bit.ly/3SvKo7p

[6] "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Konstitusiya Qanunu. 2001. URL: https://bit.ly/3kDTlPj

[7] "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında"Azərbaycan Respublikasının Konstitusiya Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 2002. URL: https://bit.ly/3Y5TaKc

qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilmiş[8], elə həmin tarixdə Azərbaycanın ilk Ombudsmanı seçilmiş və 28 oktyabr tarixindən Ombudsman Aparatında müraciətlərin qəbuluna başlanılmışdır[9].

Beləliklə, həyata keçirilmiş hüquqi islahatlar nəticəsində Azərbaycanın Avropa Şurası qarşısında götürdüyü öhdəliklərdən biri olan Ombudsman təsisatının yaradılmasına çox tez bir zamanda nail olunmuşdur. Bununla həm də "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" Fərmanın və "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı"nın müvafiq müddəalarının icrası təmin edilmişdir.

Ombudsman təsisatı müstəqil məhkəmədənkənar hüquq müdafiə mexanizmi, milli insan hüquqları institutu kimi ölkəmizin Konstitusiyasında və tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə təsbit olunmuş, dövlət və yerli özünüidarə orqanları, vəzifəli şəxslər tərəfindən pozulan insan hüquqları və azadlıqlarının bərpa edilməsi və Konstitusiya Qanunu ilə müəyyən edilmiş hallarda insan hüquqları pozuntularının qarşısının alınması istiqamətindəki uğurla davam etdirməklə dövlətimizin ali məqsədinin təmininə xidmət edir.

Ombudsman təsisatının fəaliyyətini tənzimləyən əsas qanunvericilik aktının ən yüksək və birbaşa hüquqi qüvvəyə malik Konstitusiyanın ayrılmaz hissəsi hesab edilən Konstitusiya Qanunu olması da məhz dövlətimizin insan hüquqlarına verdiyi ali dəyərin bariz təzahürüdür.

Ombudsmanın statusunun Konstitusiya Qanunu səviyyəsində müəyyən edilməsi dövlət tərəfindən onun insan hüquqlarının təmin edilməsi sahəsində çox mühüm rol oynayan müstəqil, qərəzsiz, siyasətsizləşdirilmiş təsisat kimi tanınmasının bariz nümunəsidir. Bu heç də təsadüfi deyil. Ombudsman təsisatı həm dövlətə, həm də cəmiyyətə lazımdır. Belə ki, insan hüquqlarının həyata keçirilməsi üçün Ombudsman dövlət və cəmiyyət arasında vasitəçilik funksiyasını yerinə yetirir[10].

Yeri gəlmişkən, Ulu Öndər Heydər Əliyevin təşəbbüsü əsasında yaradılaraq aşkarlıq, şəffaflıq, qanunçuluq, ədalət, qərəzsizlik prinsipləri əsasında fəaliyyət göstərən müstəqil bir qurum olan Ombudsman təsisatının 20 ili artıq arxada qalmışdır. Bu gün də fəaliyyətini ümumbəşəri prinsiplər əsasında davam etdirən Ombudsman təsisatı cəmiyyətdə hüquqi şüurun, hüquq düşüncəsinin və hüquq mədəniyyətinin inkişafına, idarəetmənin daha da demokratikləşdirilməsi prosesinin sürətləndirilməsinə öz töhfəsini verməkdədir.

Konstitusiya Qanununa əsasən Müvəkkil müstəqildir və yalnız Azərbaycan Respublikası Konstitusiyasına və qanunlarına tabedir. Konstitusiya Qanununun tələbinə görə, dəyişilməzliyi, toxunulmazlığı, hər hansı dövlət və ya yerli özünüidarə orqanı, vəzifəli şəxs tərəfindən onun fəaliyyətinə müdaxilə edilməsinin yolverilməzliyi, maddi və sosial təminatlar Müvəkkilin müstəqilliyinin təminatlarındandır. Qeyd olunmalıdır ki, fövqəladə və ya hərbi vəziyyətin elan edilməsi Müvəkkilin fəaliyyətini dayandırmır və ya məhdudlaşdırmır.

Bundan əlavə Müvəkkil seçildiyi gün Azərbaycan Respublikası Milli Məclisinin iclasında Azərbaycan Respublikasının insan hüquqları üzrə Müvəkkili vəzifəsində səlahiyyətlərini

---

[8] "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununun tətbiqi ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi barədə Azərbaycan Respublikasının Qanunu. 2002. URL: https://bit.ly/3ky45Pk

[9] Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) – 10 il. Bakı, "Vəfa print" nəşriyyatı, 2013, s. 20.

[10] Azərbaycan Respublikasında Ombudsman təsisatı və insan hüquqlarının inkişafı. Elmi-praktiki konfransın materialları. Bakı – 2007.

şərəf və ləyaqətlə yerinə yetirəcəyinə, Azərbaycan Respublikası Konstitusiyasına və qanunlarına əməl edəcəyinə, müstəqil və qərəzsiz fəaliyyət göstərəcəyinə and içir. Buradan da göründüyü kimi, Ombudsmanın andının mətnində də onun müstəqil fəaliyyət göstərməli olması xüsusi vurğulanır.

Ombudsman Azərbaycan Respublikası vətəndaşlarının, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin, hüquqi şəxslərin insan hüquqlarının pozulmasına dair şikayətlərinə baxmaqla ölkəmizin yurisdiksiyası altında olan hər kəsin, o cümlədən uşaqların, qadınların, əlilliyi olan şəxslərin, ahılların, habelə sosial cəhətdən həssas digər əhali qruplarının hüquqlarının müdafiəsini heç bir ayrı-seçkiliyə yol verilmədən həyata keçirir.

Bununla əlaqədar "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"nın Fakültativ Protokolunda nəzərdə tutulmuş milli preventiv mexanizmin funksiyalarını həyata keçirmək, saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi yerlərə müntəzəm surətdə və ya zəruri saydığı istənilən halda baş çəkmək, informasiya sahibi olan dövlət orqanlarının, yerli özünüidarə orqanlarının və vəzifəli şəxslərin "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikası Qanununun tələblərindən irəli gələn vəzifələri yerinə yetirməsinə nəzarəti həyata keçirmək, fəaliyyət istiqamətlərinə uyğun olaraq yerli, regional və beynəlxalq təşkilatlarla əməkdaşlıq etmək, əfv, vətəndaşlıq, siyasi sığınacaq verilməsi məsələlərinin həlli ilə bağlı Azərbaycan Respublikası Prezidentinə təkliflər vermək, Azərbaycan Respublikasının Milli Məclisinə insan hüquq və azadlıqlarının təmin edilməsi məqsədilə qanunların qəbul edilməsinə, ləğv edilməsinə və ya qanunlarda dəyişikliklər edilməsinə dair, amnistiya elan edilməsi barədə təklif vermək, məhkəmələrdə süründürməçilik, sənədlərin itirilməsi və vaxtında verilməməsi, həmçinin məhkəmə qərarlarının icrasının gecikdirilməsi ilə əlaqədar insan hüquqlarının pozulmasına dair şikayətlərə baxmaq Ombudsmanın fəaliyyətinin əsasları sırasına daxildir.

Ombudsman insan hüquqlarının pozulması xüsusi ictimai əhəmiyyət kəsb edən hallarda onların bərpası üçün səlahiyyətlərində olan təsir imkanları kifayət etmədikdə, Azərbaycan Respublikasının Prezidentinə müraciət etmək, Milli Məclis qarşısında məruzə ilə çıxmış etmək, dövlət və ya yerli özünüidarə orqanının, vəzifəli şəxsin qərarı və ya hərəkəti (hərəkətsizliyi) nəticəsində pozulmuş hüquqların bərpası üçün məhkəməyə müraciət etmək, şəxsin hüquqları qüvvədə olan normativ aktlarla pozulduqda, Konstitusiya Məhkəməsinə sorğu ilə müraciət etmək səlahiyyətlərinə malikdir.

Ombudsman fəaliyyət istiqamətlərinə uyğun olaraq, polis bölmələri, müvəqqəti saxlama yerləri, istintaq təcridxanaları, cəzaçəkmə müəssisələri, qarnizon hauptvaxtları ilə yanaşı, psixiatriya və sosial xidmət müəssisələrində, saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi digər yerlərdəki şəxslərin hüquq və azadlıqlarının qorunmasına, qanuni mənafelərinin təmin olunmasına xüsusi önəm verir. Buna görə də, mütəmadi olaraq həmin müəssisələrə başçəkmələr həyata keçirilir, saxlanılan şəxslərlə görüşülərək onların saxlanma şəraiti, o cümlədən şikayətləri yerində araşdırılır, müraciətlərin təmini məsələləri aidiyyəti qurumlar qarşısında qaldırılır. Qeyd olunan fəaliyyət çərçivəsində istər Bakı şəhərində, istərsə də regionlarda daim insan hüquqlarının təmin edilməsinin monitorinqi aparılır, vətəndaşların üzləşdikləri problem və çətinliklər, onların yaranma səbəbləri araşdırılır, həlli istiqamətində zəruri tədbirlər görülür, müvafiq təkliflər irəli sürülür və bir çox hallarda birgə səylər nəticəsində pozulmuş hüquqların bərpasına nail olunur.

İnsan hüquqlarını təbliğ edən müxtəlif mövzular üzrə hüquqi maarifləndirmə tədbirləri təşkil olunur, digər qurumlar tərəfindən keçirilmiş belə tədbirlərdə məruzəçi və təlimçi

qismində iştirak edilir ki, bu da cəmiyyətdə hüquq düşüncəsinin və hüquq mədəniyyətinin inkişafı baxımından əhəmiyyətlidir.

Ombudsman tərəfindən hər il 18 İyun – Azərbaycan Respublikasında İnsan Hüquqları Günü ilə əlaqədar 18 may – 18 iyun tarixləri "İnsan Hüquqları Aylığı"[11], 20 Noyabr – "Uşaq hüquqları haqqında" BMT Konvensiyasının qəbul edilməsinin ildönümü ilə bağlı 20 oktyabr – 20 noyabr tarixləri isə "Uşaq Hüquqları Aylığı"[12] elan edilir. Aylıqlar çərçivəsində Bakıda və regionlarda aidiyyəti dövlət qurumlarının, idarə, müəssisə və təşkilatların, vətəndaş cəmiyyəti institutlarının, o cümlədən qeyri-hökumət təşkilatları və media nümayəndələrinin iştirakı ilə insan hüquqlarına həsr edilmiş müxtəlif mövzularda silsilə hüquqi maarifləndirmə tədbirləri keçirilir.

Ötən dövr ərzində Azərbaycanda yeni dövlət proqramları, milli fəaliyyət planları və strateji yol xəritələri üzrə ölkəmizin hərtərəfli, daha dinamik inkişafı naminə mühüm addımlar atılmış və bu proses hazırda da sürətlə davam etməkdədir.

Aparılan islahatlar fonunda ölkə Prezidenti cənab İlham Əliyevin fəal dəstəyi ilə yeni dövrün tələbləri və tərəfdar çıxdığımız beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklər nəzərə alınmaqla mütəmadi şəkildə inkişaf etdirilən Ombudsman təsisatı bu gün ölkəmizdə və beynəlxalq aləmdə böyük nüfuz qazanmışdır.

Bu gün ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən demokratik, hüquqi dövlət və vətəndaş cəmiyyətinin formalaşmasına, insan hüquq və azadlıqlarının səmərəli müdafiəsinə yönəlmiş mütərəqqi siyasət nəticəsində Ombudsman təsisatı da bir çox nailiyyətlər əldə etmiş və insan hüquqlarının müdafiəsi, ölkəmizin beynəlxalq nüfuzunun artması istiqamətində davamlı fəaliyyət göstərməkdədir.

Təbii ki, dövlətin ali məqsədi olan insan hüquq və azadlıqlarının təmin edilməsi ilə bağlı mühüm vəzifələri yerinə yetirən Ombudsmanın fəaliyyətinin Konstitusiya Qanunu ilə tənzimi və onun müstəqilliyinin təminatları bu nüfuzun qazanılmasında müstəsna rol oynayır.

Eyni zamanda, ölkəmizdə davamlı olaraq həyata keçirilən hüquqi islahatlar çərçivəsində qanunvericiliyin təkmilləşdirilməsi sahəsində Ombudsman təsisatı tərəfindən irəli sürülən təkliflərin nəzərə alınması da bu baxımdan mühüm əhəmiyyətə malikdir.

Yeri gəlmişkən, "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (Ombudsman) haqqında" Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə layihə Milli Məclis tərəfindən qəbul edilmişdir.

Ombudsman təsisatının 20 illik yubileyinə təsadüf edən belə bir əsaslı dəyişikliklərin edilməsi bir sıra zərurətdən irəli gəlmişdir[13].

İlk növbədə qeyd etmək lazımdır ki, Konstitusiya Qanununa edilmiş dəyişikliklər insan hüquqları və azadlıqları sahəsində dövlət siyasətinin məqsəd və prinsiplərinə xidmət etməklə, Ombudsman təsisatının bu sahədə fəaliyyətinin müasir dövrün tələblərinə uyğun olaraq təkmilləşdirilməsinə və səmərəliliyinin artırılmasına, qabaqcıl dünya təcrübəsinin ölkəmizdə tətbiq edilməsinə, bununla da təsisatın beynəlxalq nüfuzunun artırılmasına yönəlmişdir.

---

[11] Əliyeva, S. Qloballaşan dünyada insan hüquqlarının müdafiəsi və təbliği beynəlxalq hüquqi fenomen kimi//. Respublika. – 2022, 17 iyun. URL: https://bit.ly/3y0eB4S

[12] Əliyeva, S. Uşaqların hüquq və azadlıqlarının müdafiəsi Ombudsmanın diqqət mərkəzindədir // Respublika. – 2022, 19 noyabr. – s. 8. URL: https://bit.ly/3y0eB4S

[13] Əliyeva, S. Azərbaycanda İnsan Hüquqları üzrə Müvəkkilin (Ombudsmanın) statusu // "Müasir dövrdə insan hüquqlarının aktual problemləri" Beynəlxalq elmi-praktik konfransın materialları. Bakı – 2022, s. 12-20.

Konstitusiya Qanununa edilmiş dəyişikliklər ölkədə aparılan islahatlar nəticəsində dövlət idarəçiliyinin daha da təkmilləşdirilməsi, dövlət orqanlarının fəaliyyətinin optimallaşdırılması və dövlət büdcəsi vəsaitindən səmərəli istifadənin təmini məqsədinə xidmət edir. Belə ki, Konstitusiya Qanununun 1.1-ci maddəsində aparılmış müvafiq dəqiqləşmə, eləcə də digər maddələr üzrə fəaliyyət istiqamətlərinin konkretləşdirilməsi onun göstərilən subyektlərə münasibətdə tətbiqi baxımından yarana biləcək məhdudiyyətlərin qarşısının alınması, bununla da Ombudsmanın insan hüquq və azadlıqlarının müdafiəsi üzrə fəaliyyətinin təmin edilməsi üçün əhəmiyyətlidir. Bundan əlavə fəaliyyətin effektivliyini təmininə nail olmaq üçün dövlət qurumlarının təklifləri də nəzərə alınmaqla Konstitusiya Qanunun 1-ci, 5-ci, 8-ci, 12-ci, 13.5-ci maddələri üzrə subyektlərin dairəsi dəqiq müəyyənləşdirilmişdir.

2008-ci il 2 oktyabr tarixili Qanuna əsasən ölkəmizin qoşulduğu "Əlilliyi olan şəxslərin hüquqları haqqında Konvensiya"nın 33.2-ci maddəsində iştirakçı dövlətlər tərəfindən hüquqi və inzibati quruluşlarına müvafiq olaraq bu Konvensiyanın həyata keçirilməsinin təşviqi, müdafiəsi və monitorinqi üçün müstəqil mexanizmlərdən ibarət strukturun dəstəklənməsi, möhkəmləndirilməsi, təyin və ya təsis edilməsi nəzərdə tutulmuşdur. Bununla yanaşı, uşaq hüquqları sahəsində preventiv tədbirlərin həyata keçirilməsi, bu hüquqların təşviqi, müdafiəsi və təmini vəziyyətinin monitorinqi, eləcə də pozulmuş hüquqların bərpası sahəsində Ombudsmanın fəaliyyətinin effektivliyinin artırılması məqsədilə (BMT-nin Uşaq Hüquqları Komitəsinin və digər beynəlxalq təşkilatların tövsiyələri də nəzərə alınmaqla) müvafiq mexanizmin təşkili üçün hüquqi bazanın formalaşdırılması zərurəti yaranmışdır. Bütün bunlar, habelə xarici ölkələrin bu sahədə təcrübəsi nəzərə alınaraq, Konstitusiya Qanununa "Əlilliyi olan şəxslərin hüquqları haqqında Konvensiya"nın, "Uşaq hüquqları haqqında Konvensiya"nın həyata keçirilməsinin, bərabərlik hüququnun təmin edilməsinin və ayrı-seçkiliyin qarşısının alınmasının təşviqi və monitorinqi üzrə müstəqil mexanizm funksiyalarının tətbiqini nəzərdə tutan digər müddalar da daxil edilmişdir.

Bütün bu əsaslı dəyişikliklər Müvəkkilin Konstitusiya Qanununda təsbit olunmuş səlahiyyətlərinin icrasındakı mövcud praktiki çətinliklərin aradan qaldırılmasına, pozulmuş hüquq və azadlıqların daha operativ və effektiv qaydada bərpası məqsədilə edilmişdir.

Ombudsmanın insan hüquqlarının təmin edilməsinə görə məsuliyyət daşıyan dövlət qurumları ilə qarşılıqlı əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsi, vətəndaşla dövlət arasında vasitəçilik missiyasını həyata keçirən bir qurum olması artıq hər bir fərd, ümumilikdə isə cəmiyyət tərəfindən qəbul edilmişdir.

Ombudsman təsisatı ilə Konstitusiya Məhkəməsi arasında da səmərəli əməkdaşlıq əlaqələri mövcuddur. Bu əməkdaşlıq insan hüquq və azadlıqlarının qanunvericilik və icra hakimiyyəti orqanlarının normativ aktları, bələdiyyə və məhkəmə aktları ilə pozulması hallarının aradan qaldırılması, insan hüquqlarının daha səmərəli təminatına yönəlmiş mühüm hüquqi mövqelərin formalaşdırılması baxımından ümumi işimizə öz töhfəsini verməkdədir.

20 illik fəaliyyəti dövründə Ombudsman təsisatı tərəfindən Konstitusiya Məhkəməsinə ünvanlanmış ümumilikdə 41 sorğudan 26 sorğu üzrə Plenum tərəfindən 3 qərardad və 23 qərar qəbul edilmiş, həmçinin Müvəkkilin 13 sorğusu üzrə Palata tərəfindən istər nəzəri, istərsə də praktiki əhəmiyyət kəsb edən genişləndirici şərhləri özündə ehtiva edən müvafiq qərardadlar qəbul edilmiş, 2 sorğuya Plenumda baxılmış olsa da sonradan qanunvericiliyə edilmiş dəyişikliklərlə əlaqədar geri götürülmüşdür.

Böyük qürur hissi ilə qeyd etmək istəyirik ki, Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə qəbul edilmiş "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Konstitusiya Qanunu əsasında yaradılaraq, 2002-ci il 28 oktyabr tarixindən fəaliyyət göstərən Ombudsman təsisatı dövlətçilik maraqları baxımından olduqca mühüm əhəmiyyət kəsb edən, beynəlxalq prinsiplərə uyğun müstəqil fəaliyyəti ilə seçilən güclü təsisat və uğurlu ölkə modelinə çevrilmişdir.

Çox sevindirici haldır ki, əsası Ümummilli Liderimiz tərəfindən qoyulmuş genişmiqyaslı islahatların ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən yeni dövrün prioritet çağırışlarına uyğun şəkildə davam və daha da inkişaf etdirilməsi nəticəsində Ombudsman təsisatı beynəlxalq təcrübə və mövcud reallıqlara uyğun olaraq dövlətimizin ali məqsədinin təmini və təbliği üzrə bir çox nailiyyətlər əldə etmiş və insan hüquqlarının müdafiəsi, ölkəmizin beynəlxalq nüfuzunun artması istiqamətində fəaliyyətini uğurla davam etdirir.

### İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Azərbaycan Respublikasının Konstitusiyası. "Hüquq Yayın Evi", Bakı, 2021. URL: https://bit.ly/41mynoG

2. "Azərbaycan Respublikasının Prezidentinin yanında hüquqi islahat komissiyasının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 1996 – Xalq. – 1996, 22 fevral. – s. 1

3. Peşəkar Təlim. 10 №-li Seriya. İnsan Hüquqları üzrə Milli Fəaliyyət Planlarına dair Məlumat Kitabçası. Birləşmiş Millətlər Təşkilatı. Nyu-York – Cenevrə 2002. URL: https://bit.ly/3IxNi6U

4. "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 1998. URL: https://bit.ly/3EGp8G2

5. "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 1998. URL: https://bit.ly/3SvKo7p

6. "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Konstitusiya Qanunu. 2001. URL: https://bit.ly/3kDTlPj

7. "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında"Azərbaycan Respublikasının Konstitusiya Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 2002. URL: https://bit.ly/3Y5TaKc

8. "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununun tətbiqi ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi barədə Azərbaycan Respublikasının Qanunu. 2002. URL: https://bit.ly/3ky45Pk

9. Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) – 10 il. Bakı, "Vəfa print" nəşriyyatı, 2013, s. 20.

10. Azərbaycan Respublikasında Ombudsman təsisatı və insan hüquqlarının inkişafı. Elmi-praktiki konfransın materialları. Bakı – 2007.

11. "Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 2006. URL: https://bit.ly/3xWocd5

12. "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 2011. URL: https://bit.ly/3F3Gs8v

13. Əliyeva, S. Qloballaşan dünyada insan hüquqlarının müdafiəsi və təbliği beynəlxalq hüquqi fenomen kimi//. Respublika. – 2022, 17 iyun. URL: https://bit.ly/3y0eB4S
14. Əliyeva, S. Uşaqların hüquq və azadlıqlarının müdafiəsi Ombudsmanın diqqət mərkəzindədir // Respublika. – 2022, 19 noyabr. – s. 8. URL: https://bit.ly/3y0eB4S
15. Əliyeva, S. Azərbaycanda İnsan Hüquqları üzrə Müvəkkilin (Ombudsmanın) statusu // "Müasir dövrdə insan hüquqlarının aktual problemləri" Beynəlxalq elmi-praktik konfransın materialları. Bakı – 2022, s. 12-20.

## X Ü L A S Ə

Ulu Öndər Heydər Əliyevin Azərbaycanda demokratik-hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu, insan hüquqlarının inkişafı, müstəqil məhkəmədən kənar hüquq müdafiə mexanizmi olan Ombudsman təsisatının əsasının qoyulması ilə bağlı mühüm əhəmiyyət kəsb edən islahatların həyata keçirilməsində misilsiz xidmətləri olmuşdur.

Məqalədə bu il anadan olmasının 100 illik yubileyi böyük ehtiram hissi ilə qeyd edilən görkəmli ictimai-siyasi və dövlət xadimi, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin ölkəmizdə müstəqil məhkəmədən kənar hüquq müdafiə mexanizmi və milli insan hüquqları institutu olan Ombudsman təsisatının yaradılması sahəsindəki müstəsna rolu elmi-analitik baxımdan təhlil edilir. Bundan əlavə məqalədə ötən dövr ərzində hüquqi və institusional mexanizmlərin, o cümlədən Ombudsman təsisatının fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində həyata keçirilmiş islahatlara dair məlumatlar öz əksini tapır.

**Сабина Алиева**
**Уполномоченный по Правам Человека (Омбудсмен)**
**Азербайджанской Республики, д.ф.п.п.**

## Роль Общенационального лидера Гейдара Алиева в создании института Омбудсмена в Азербайджане

## Р Е З Ю М Е

Общенациональный лидер Гейдар Алиев имеет огромные заслуги в осуществлении значимых реформ, связанных с построением демократического правового государства и гражданского общества, развитием системы прав человека, учреждением института Омбудсмена как независимого внесудебного механизма правовой защиты.

В статье с научной точки зрения анализируется исключительная роль выдающегося политического и государственного деятеля Гейдара Алиева, столетие которого мы отмечаем с чувством глубокого уважения в создании института Омбудсмена в качестве независимого внесудебного механизма и национального института по правам человека. Автором проводится подробный анализ реформ по усовершенствованию деятельности правовых и институциональных механизмов, включая институт Омбудсмена, за прошедший период.

**Sabina Aliyeva**
**The Commissioner for Human Rights**
**(Ombudsman) of the Republic of Azerbaijan,**
**Ph.D. in Law**

## The Role of the National Leader Heydar Aliyev in the Establishing the Ombudsman Institution in Azerbaijan

### A B S T R A C T

The National Leader Heydar Aliyev has made significant efforts in Azerbaijan to implement reforms for the establishment of a democratic and legal state, and civil society, the advancement of human rights, and the establishment of the Ombudsman Institution as an independent non-judicial remedy mechanism.

The Article analyses, from the scientific and analytical standpoint, the exceptional role of Heydar Aliyev, a prominent socio-political and statesman, National Leader of our people, whose 100th anniversary of birth is celebrated with great respect this year, in establishing an ombuds institution, which is also a national human rights institution, functioning as an independent non-judicial grievance mechanism in our country.

The Article also provides information on the reforms carried out during the past period with a view to improving the legal and institutional mechanisms, including the activity of the Ombudsman Institution.

***Anar BAĞIROV***

Azərbaycan Respublikası Vəkillər
Kollegiyasının sədri, h.ü.f.d.

# HEYDƏR ƏLİYEV MÜSTƏQIL AZƏRBAYCAN VƏKİLLİYİNİN BANİSİ KİMİ

***Açar sözlər:*** *Heydər Əliyev, Respublika, hüquqi dövlət, vəkillik, hüquqi yardım, vəkil*
***Ключевые слова:*** *Гейдар Алиев, Республика, правовое государство, адвокатура, правовая помощь, адвокат*
***Keywords:*** *Heydar Aliyev, Republic, legal state, advocacy, legal aid, lawyer*

***Hər bir şəxs Konstitusiyaya və qanunlara dönmədən əməl etməlidir. Ondan irəli gələn dövlət və cəmiyyət qarşısında vəzifələri layiqincə yerinə yetirməli, ölkəmizdə gedən demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesində yaxından iştirak etməlidir.***

**Ümummilli Lider Heydər Əliyev**

***Güclü və nüfuzlu vəkillik təsisatının böyük əhəmiyyəti vardır.***

**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev**

Məlum olduğu kimi Azərbaycan yenidən öz dövlət müstəqilliyini bərpa etdikdən sonra həyata keçirilən kompleks islahatların mərkəzində məhz Ümummilli Lider Heydər Əliyev dühası durur. Yəni Azərbaycanın hal-hazırki iqtisadi inkişafında eyni zamanda insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində qətiyyətli və mütərəqqi islahatların həyata keçirilməsində Heydər Əliyevin əvəzsiz rolu olmuşdur.

Belə ki, Ümummilli Lider növbəti dəfə hakimiyyətə gələndən sonra Azərbaycanda insan hüquq və azadlıqlarının təmini, onların inkişafı və müdafiəsi sahəsində bir sıra mühüm addımlar atılmışdır. Məhz Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə Respublikamızda demokratik, hüquqi və dünyəvi dövlət quruculuğuna başlanılmış, mətbuat azadlığı tam təmin edilmiş, insanların əsas hüquqlarından olan sərbəst toplaşma, vicdan azadlığı, sağlam yaşamaya və bir sıra hüquqlara zəmin yaradılmışdır.

Həmçinin qeyd edilməlidir ki, Ulu Öndərin hakimiyyətinin artıq ilk illərindən dövlət idarəçiliyində demokratik prinsiplər tətbiq olunmuş, bu sahədə müasir dövrün tələblərinə cavab verən yeni qanunvericilik bazasının yaradılması əsas məqsədlərdən birinə çevrilmişdir.

Məhz bu məqsədləri realizə etmək üçün Heydər Əliyevin sədrliyi ilə Konstitusiya layihəsinin hazırlanmasına məsul olan xüsusi komissiyanın fəaliyyətə başlaması qərar qəbul edilmişdir. Çünki Ulu Öndər bilirdi ki, müstəqilliyin, demokratik, hüquqi dövlətin əsasında məhz özündə müasir dəyərləri ehtiva edən, insan hüquq və azadlıqlarının təmin edilməsini özünə ali məqsəd bəlirləyən Konstitusiya durur.

O, çıxışlarının birində qeyd etmişdir ki, “Biz elə bir layihə hazırlamalı və nəhayət, elə bir Konstitusiya qəbul etməliyik ki, o, müstəqil Azərbaycan Respublikasında demokratik prinsiplər əsasında uzun müddət sabit yaşamasını təmin edən əsas qanun, tarixi sənəd olsun. Hakimiyyət bölgüsü, – ali icra, qanunvericilik, məhkəmə hakimiyyəti – bunlar hamısı xalqın iradəsinə söykənməli, seçkilər yolu ilə təmin olunmalıdır".

Yekun nəticə olaraq, Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə hazırlanmış Konstitusiya layihəsi 1995-ci ildə keçirilən referendumla qəbul edilmişdir. Ölkəmizin ana qanunu olan Konstitusiyada əsas insan hüquqlar və azadlıqları təsbit olunmuş, Azərbaycanın demokratik, hüquqi və dünyəvi dövlət olması, insan və vətəndaş hüquqlarının və azadlıqlarının, Azərbaycan Respublikasının vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsinin dövlətin ali məqsədi olması bir daha öz təsdiqini tapmışdır.

Ulu Öndər tərəfindən əsası qoyulan mütərəqqi hüquq islahatlarının davamı kimi 21 fevral 1996-cı ildə Hüquqi İslahat Komissiyası yaradılmışdır. Bu Komissiyanın fəaliyyəti nəticəsində ölkəmizdə bir sıra mütərəqqi, müasir tələblərə cavab verən qanunlar qəbul edilmişdir.

Həmçinin Heydər Əliyevin fəliyyəti dövründə 1998-ci ildə hüquqi dövlətin əsaslarından olan Konstitusiya Məhkəməsi fəaliyyətə başlamış, Azərbaycanda ölüm cəzasının tətbiqi və hakimiyyətin 4-cü qolu olan mətbuat üzərində senzura ləğv olunmuşdur.

Heç kimə də sirr deyildir ki, insan hüquq və azadlıqlarını, onların müdafiəsini özünün ali məqsədi elan etmiş dövləti tam müstəqil vəkillik institutu olmadan təsəvvür etmək qeyri-mümkündür.

Azərbaycanda vəkillik institutunun müstəqil təsisat kimi formalaşması və fəaliyyətinin bilavasitə Ulu Öndər Heydər Əliyevin adı ilə bağlı olması danılmaz faktdır. Belə ki, məhz Ulu Öndər Azərbaycan Prezidenti olan dövrdə müstəqil Azərbaycan vəkilliyinin əsasları formalaşdırılmış və Vəkillər Kollegiyası müstəqil təsisat olaraq məhkəmə-hüquq sistemində öz layiqli yerini tutmuşdur.

Bu zamana qədər isə vəkillik fəaliyyəti Ədliyyə Nazirliyinin müvafiq şöbəsi tərəfindən təşkil edilir və nəzarətdə saxlanılırdı. Bütün bu fəaliyyətin məntiqi davamı olaraq Ümummilli Lider Heydər Əliyev tərəfindən 28 dekabr 1999-cu ildə “Vəkillər və vəkillik fəaliyyəti haqqında” qanun imzalanmış, Azərbaycan tarixində ilk dəfə vəkillik tam müstəqil, hakimiyyətin heç bir qolundan asılı olmayan bir təsisata dönmüş və həmin dövrdə qəbul olunmuş yeni prosessual qanunvericiliyə əsasən, vəkillik çəkişmə prinsipi çərçivəsində prosesin bərabərhüquqlu tərəfinə çevrilmişdir. Müstəqilliyin təməlini qoyan qanunun qəbulundan sonra isə ilk dəfə olaraq 3 noyabr 2004-cü ildə Azərbaycan Respublikasının Vəkillər Kollegiyası təsis olunmuşdur.

Qeyd olunmalıdır ki, Azərbaycan post-sovet ərazisində vəkillik institutuna müstəqillik verən ilk dövlətlərdən biri olmuşdur. Bu da məhz Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində olmuşdur.

Azərbaycan Respublikasının Konstitusiyasında da təsbit edildiyi kimi, vətəndaşlara yüksək keyfiyyətli və peşəkar hüquqi yardım göstərilməsi dövlətin öhdəliyindədir və bu öhdəlik məhz Azərbaycan Respublikasının Vəkillər Kollegiyası vasitəsilə həyata keçirilir. Bu səbəbdən Azərbaycanda vəkillik institutunun inkişafı və nüfuzunun artırılması istiqamətində bir sıra normativ-hüquqi aktlar, çoxsaylı sərəncamlar və s. sənədlər qəbul olunmuşdur ki, bu da Ulu Öndərin layiqli davamçısı möhtərəm Prezident İlham Əliyevin adı ilə birbaşa bağlıdır.

Belə ki, Azərbaycan Respublikası Vəkillər Kollegiyasının maddi-texniki təminatının yaxşılaşdırılması üzrə tədbirlər barədə 11 mart 2005-ci il tarixli Azərbaycan Respublikasının

Prezidentinin Sərəncamı bu sənədlərdən biri olmuşdur. Həmin sərəncam Azərbaycan vəkilliyinin inkişafına dövlət tərəfindən verilmiş əməli dəstək kimi qiymətləndirilmişdir.

Xüsusilə qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının Prezidentinin 7 noyabr 2017-ci il tarixli sərəncamları ilə Azərbaycan Respublikasının Mülki Prosessual, İnzibati Prosessual məcəllələri və "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Qanununa dəyişikliklər təsdiq edilmişdir. Həmin sərəncamlar ilə vəkillik institutunun hüquq sistemində yerinin gücləndirilməsi, peşəkar və yüksək keyfiyyətli hüquqi yardımın məhz vəkillərə həvalə olunması qət olunmuşdur. Hətta bu çərçivədə, ölkədə vəkillərin sayının artırılması məsələsi Vəkillər Kollegiyasına tövsiyə olunmuşdur.

Vəkilliyin yeni inkişaf mərhələsinə təkan vermiş 22 fevral 2018-ci il tarixdə qəbul olunmuş "Azərbaycan Respublikasında vəkilliyin inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı[1] qeyd olunan tədbirlər tarixi önəmə malikdir. Belə ki, sərəncamın preambulasında qeyd olunur ki, vətəndaşların yüksək keyfiyyətli hüquqi yardım almaq hüququnun həyata keçirilməsi, insan hüquq və azadlıqlarının etibarlı müdafiəsi və ədalət mühakiməsinin səmərəli fəaliyyəti üçün güclü və nüfuzlu vəkillik təsisatının böyük əhəmiyyəti vardır. Bu Sərəncamda Azərbaycan Respublikası Vəkillər Kollegiyasının müvafiq binalar ilə təmin olunması, dövlət hesabına göstərilən hüquqi yardıma görə müəyyən edilmiş məbləğin 3 dəfə artırılmasını və s. məsələlər öz əksini tapmışdır. Eyni zamanda Sərəncamda ixtisas imtahanlarının müntəzəm keçirilməsi, üzvlüyə xüsusən gənc hüquqşünasların qəbul edilməsi üçün şərait yaradılması, vəkillərin peşə hazırlığının və ixtisasının artırılması ilə bağlı zəruri tədbirlərin görülməsi, aztəminatlı şəxslər üçün ödənişsiz hüquqi xidmətlər göstərilməsinin təşkil edilməsi, müasir İKT-nin tətbiqi, hüquqi xidmətlərin elektron formada göstərilməsi təcrübəsini genişləndirmək üçün vəkilliyin vahid elektron informasiya sisteminin təşkili və bu sistemin "Elektron məhkəmə" informasiya sisteminə inteqrasiyası istiqamətində tədbirlərin görülməsi və sair məsələlər öz əksini tapmışdır. Qeyd etmək istərdik ki, Sərəncamın icrası istiqamətində Kollegiya mütəmadi olaraq hüquqi yardım aksiyaları keçirir ki, bu günə kimi yardım aksiyalarında 30 mindən çox şəxsə ödənişsiz hüquqi yardım göstərilmişdir.

Xüsusən qeyd olunmalıdır ki, Sərəncamın icrası məqsədilə vəkilliyə qəbul mütəmadi həyata keçirilmiş və bunun nəticəsində vəkillərin sayı 3 dəfə artaraq 2300-ə çatmışdır. Həmçinin ölkə üzrə vəkil bürolarının sayı 2 dəfədən çox artaraq 128 olmuşdur.

Eyni zamanda Sərəncama əsasən, regionlarla bağlı olaraq apellyasiya məhkəmələrinin yurisdiksiyasına uyğun Gəncə, Lənkəran, Sumqayıt, Şəki və Şirvan şəhərlərində Vəkillər Kollegiyasının regional vəkil qurumları yaradılmış, müvafiq binalarla təmin edilmiş, müasir İKT-nin imkanlarından yararlanmalarına dəstək göstərilmiş, bir çox bürolar əsaslı təmir edilmiş, maddi-texniki avadanlıqlarla təchiz edilmiş, aylıq üzvlük haqları Bakıdakı vəkillərlə müqayisədə azaldılmış və onların fəaliyyətlərinin stimullaşdırılması üçün müxtəlif tədbirlərin görülməsi daim diqqət mərkəzində saxlanılmışdır. Bununla yanaşı, Nazirlər Kabinetinin 7 iyun 2021-ci il tarixli Sərəncamı ilə Vəkillər Kollegiyasının Rəyasət Heyətinə Bakı şəhərində ayrıca bina ayrılmışdır.

Həmçinin Azərbaycan Respublikası Prezidentinin 03.04.2019-cu il tarixli "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Fərmanı vəkilliyin ölkəmizdə daha da mütərəqqi quruma çevrilməsi baxımından tarixi sənəd olmaqla yanaşı, gələcək dövr üçün onun inkişaf trayektoriyasını müəyyən edən yol xəritəsidir.[2] Sənəddə mülki işlər və iqtisadi mübahisələr üzrə məhkəmə icraatının effektivliyinin artırılması, xüsusən sahibkarlıqla bağlı məsələlərin məhkəmələrdə daha sürətli və səmərəli həllinin təmin

[1] https://e-qanun.az/framework/37995

edilməsi məqsədilə digər qurumlarla bərabər Vəkillər Kollegiyasına mülki prosessual qanunvericiliyi kompleks şəkildə birgə təhlil edib, bu sahədə qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla onun təkmilləşdirilməsi barədə təkliflər hazırlanması, vəkillərin hakimlərlə və cinayət təqibini həyata keçirən orqanların əməkdaşları ilə qeyri-prosessual münasibətlərə yol verməsinin qarşısının alınması üçün tədbirlərin gücləndirilməsi tövsiyə olunub. Habelə Nazirlər Kabinetinə tapşırılıb ki, dövlət hesabına həyata keçirilən hüquqi yardım üçün tələb olunan vəsaitin birbaşa Vəkillər Kollegiyasına ayrılması barədə işlər görülsün. Bu gün bu istiqamətdə Kollegiya tərəfindən çevik və əməli işlər görülməkdədir.

Cənab Prezidentin vəkilliyə diqqətinin daha bir təzahürü də 25 dekabr 2019-cu il tarixli Sərəncam ilə "Vəkil günü" peşə bayramının təsisi olmuşdur.[3] Sərəncama əsasən hər il dekabrın 28-i Azərbaycan Respublikasında "Vəkil günü" peşə bayramı kimi qeyd edilir.

Bu gün müstəqil təsisat olan Azərbaycan Vəkilliyi məhkəmə hakimiyyətinin özünü idarə edilməsi, habelə məhkəmə hakimiyyətinin formalaşdırılması işində, yəni Məhkəmə-Hüquq Şurasının və Hakimlərin Seçki Komitəsinin işində də üzv kimi fəaliyyət göstərirlər. Həmçinin bu gün Vəkillərin İxtisas Komissiyasının işində həm məhkəmə hakimiyyətinin təmsilçiləri, həm də hüquqşünas alimlər iştirak edirlər.

Son nəticədə görülən işlərin hamısının qayəsini şəxslərin keyfiyyətli hüquqi yardımla təmin edilməsi təşkil edir ki, bu, ölkəmizdə vətəndaşların hüquqlarının müdafiəsi istiqamətində həyata keçirilən dövlət siyasətinin tamamlayıcı seqmentlərindən biridir. Azərbaycan Respublikasının Vəkillər Kollegiyası bu sahədə aparılan mütərəqqi dövlət siyasətinin daim dəstəkləyicisi və bu siyasətin bir parçası olmaqda davam edəcəkdir.

Həmçinin qeyd olunmalıdır ki, 2023-cü il may ayının 10-da müstəqil Azərbaycan dövlətinin qurucusu, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 100 ili tamam olur. Ulu Öndərin 100 illik yubileyinin dövlət səviyyəsində qeyd olunmasını təmin etmək məqsədilə cənab Prezident İlham Əliyev tərəfindən 29 sentyabr 2022-ci il tarixində "Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında" Sərəncamı imzalamışdır.[4]

Qeyd olunmalıdır ki, "Heydər Əliyev İli" ilə əlaqədar Vəkillər Kollegiyasının tədbirlər planı çərçivəsində Naxçıvan Muxtar Respublikasında ilk dəfə olaraq Azərbaycan Respublikası Vəkillər Kollegiyası və Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin birgə təşkilatçılığı ilə Naxçıvanda "Müstəqil Azərbaycan vəkilliyinin banisi Heydər Əliyev" mövzusunda elmi-praktik konfrans keçirilmişdir. Konfransda Azərbaycan Vəkillər Kollegiyasının Rəyasət Heyətinin sədri Anar Bağırovun rəhbərlik etdiyi nümayəndə heyəti, Naxçıvan Muxtar Respublikasının Ədliyyə naziri Daşqın Rəhimov, Naxçıvanın Ombudsmanı Günay Rzayeva, Naxçıvan Muxtar Respublikası prokurorunun müavini Sənan Paşayev, Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev və Naxçıvan vəkilləri və digər şəxslər iştirak etmişlər.

"Heydər Əliyev İli" ilə əlaqəli Respublika ərazisində 10 mart 2023-cü il tarixində ödənişsiz hüquqi yardım aksiyalarına start verilmişdir.[5] Ölkə ərazisində Naxçıvan MR-də daxil olmaqla fəaliyyət göstərə vəkil qurumları tərəfindən aztəminatlı şəxslərə pulsuz hüquqi yardım göstərilməsi ilə əlaqədar "Açıq qapı" günü təşkil edilib. Həmçinin "Heydər Əliyev İli" ilə əlaqədar hər təqvim ayının 10-da vətəndaşlara ödənişsiz hüquqi yardım göstərilməsi nəzərdə tutulmuşdur.

---

[2] https://e-qanun.az/framework/41813
[3] https://e-qanun.az/framework/43958
[4] https://e-qanun.az/framework/52506
[5] https://www.e-hüquq.az/az/news/vekillik/63632.html

Unudulmamalıdır ki, Azərbaycan vəkilliyində əldə olunmuş müsbət nəticələr Ulu Öndər Heydər Əliyevin təməlini qoyduğu müstəqil vəkilliyin inkişafına xalqımızın layiqli lideri Prezident İlham Əliyevin qayğısının nəticəsidir. Bu baxımdan, aparılan islahatlar, şübhəsiz, tək bu gün üçün deyil, həm də gələcəyə hesablanmış addım olaraq dəyərləndirilməlidir.

Sonda əminliklə demək olar ki, 28 dekabr 1999-cu il – "Vəkillər və vəkillik fəaliyyət haqqında" qanunun imzalanması günü Ulu Öndər Heydər Əliyevin xidməti ilə vəkilliyimizin tarixinə qızıl hərflərlə həkk olunub.

**İstifadə olunmuş ədəbiyyat siyahısı**


1. Nail Əsgərov. Naxçıvanda "Müstəqil Azərbaycan vəkilliyinin banisi Heydər Əliyev" mövzusunda elmi-praktiki konfrans keçirilib. https://serqqapisi.gov.az/
2. Heydər Əliyev Azərbaycanda Dövlət quruculuğunun Banisidir.Mühazirələr Toplusu.Bakı 2017
3. Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı https://president.az/
4. Sümbülə Əliyeva. Vəkillik institutu təkmilləşdirilir, bu sahədə fundamental islahatlar həyata keçirilir. https://barassociation.az/
5. Azərbaycan Respublikasında vəkilliyin inkişafı ilə bağlı əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. https://president.az/
6. "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu https://president.az/a
7. "Vəkil günü" peşə bayramının təsis edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı https://president.az/
8. Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı https://president.az/

***Ziyafət ƏSGƏROV***

Azərbaycan Respublikası Milli Məclisinin
Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri,
Bakı Dövlət Universitetinin Konstitusiya hüququ
kafedrasının müdiri, professor.

# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANDA HÜQUQI DÖVLƏT QURUCULUĞU

***Açar sözlər:*** *hüquqi dövlət, Ümummilli Lider Heydər Əliyev, Konstitusiya, hüququn aliliyi, insan hüquqları.*

***Ключевые слова:*** *правовое государство, Общенациональный лидер Гейдар Алиев, Конституция, верховенство права, права человека.*

***Keywords:*** *Constitutional State, the National Leader Heydar Aliyev, Rule of Law, Constitution, human rights.*

***"Müstəqil Azərbaycan Respublikasının qarşısında duran əsas vəzifələrdən biri Respublikanın dövlət quruculuğunu təşkil etməkdir. Bizim yolumuz aydındır, bunu dəfələrlə bəyan etmişik. Yolumuz demokratiya yoludur. Müstəqil Azərbaycanda demokratik, hüquqi dövlət qurulmalıdır..."***

**Ümummilli Lider Heydər Əliyev**

"Hüquqi dövlət" anlayışının çoxəsrlik tarixi mövcuddur. Bununla yanaşı, bu mövzu hüquq ədəbiyyatında öz aktuallığını itirmir və hüquqi dövlətin tarixi, inkişafı, əlamətləri, əsas elementləri və s. xüsusiyyətləri haqqında müzakirələr hələ də davam edir (bax: məsələn, Yu.A.Tixomirov[1], E.E.Tomilina, A.B.Opokin və A.A.Qolik[2], M. V. Denisenko və V. E. Turova[3] və s.).

Hüquqi dövlət quruculuğunun əsas məqsədi hər bir kəsin hərtərəfli inkişafına imkanın yaranması, fərdin hüquq və azadlıqlarının Konstitusiya səviyyəsində tanınması, müdafiə edilməsi və real olaraq həmin hüquqların təmin edilməsi, habelə qanunlara əsaslanan və hüquqla məhdudlaşan dövlət hakimiyyəti sisteminin formalaşdırılmasıdır. Müasir hüquqi dövlətdə insan və vətəndaş hüquqları, azadlıqları və qanuni maraqları ali dəyər kimi tanınır və müdafiə edilir, sosial həyatın bütün sahələrində, o cümlədən hakimiyyət orqanlarının fəaliyyəti üzərində hüquq hakim olur, dövlət və fərd bir-biri qarşısında məsuliyyət daşıyır.

Müasir Azərbaycan cəmiyyəti böyük surətlə inkişaf edir. Belə şəraitdə insan hüquq və azadlıqlarının müdafiəsi dövlətin ən mühüm vəzifəsinə çevrilir və yalnız demokratik hüquqi

---

[1] Тихомиров, Ю. А. (2011). Правовое государство: проблемы формирования и развития. Контуры глобальных трансформаций: политика, экономика, право, 4 (5), 93-109.

[2] Томилина Е.Е., Опокин А.Б., Голик А.А. (2015). Правовое государство: теоретические и практические аспекты. Актуальные проблемы гуманитарных и естественных наук, (4-2), 50-54.

[3] Денисенко, М. В., Турова, В. Е. (2012). Правовое государство. Социология и право, (1), 99-104.

dövlət və vətəndaş cəmiyyəti mühitində insan və vətəndaşın hüquq və azadlıqlarının tam şəkildə təminatından danışmaq mümkündür. Ümumiyyətlə, insan hüquqların aliliyi ideyası qədim tarixi köklərə malik olsa da, şəxsiyyət, onun azadlığı və bərabərliyi, özünəməxsusluğu ilə bağlı prinsiplərin tanınması, onların ali dəyər və ümumbəşəri sərvət kimi etiraf olunması müasir dövrün mühüm problemlərindən biridir. İnsan varlığının bünövrəsini təşkil edən fərdi azadlıqların, şəxsiyyətin özünüifadə, yaradıcılıq və təşəbbüskarlıq qabiliyyətlərinin inkişafına təkan verilməsi istənilən dövlətin və cəmiyyətin ali məqsədini, orada baş verən köklü islahatların əsasını təşkil etmişdir.

Hüquqi dövlət və şəxsiyyət azadlığı konsepsiyasının müəlliflərindən biri olan klassik alman filosofu İmmanuel Kant qeyd edirdi ki, azadlıq həm özünün, həm də başqasının şəxsində insana heç bir halda vasitə kimi deyil, yalnız və yalnız məqsəd kimi yanaşmaqdan ibarətdir[4]. Ona görə də, müasir dövrdə insan hüquqlarına hörmət, bu hüquq və azadlıqların təminatı hər bir dövlətin ali məqsədini təşkil etməklə, beynəlxalq aləmdə ölkənin və cəmiyyətin demokratik inkişaf səviyyəsini, eyni zamanda millətlərin sivil xarakterini müəyyən edən əsas qiymətləndirmə meyarlarından biri sayılır.

İnsan hüquqlarının qorunması, bu hüquq və azadlıqlara dövlətlər tərəfindən dəstək verilməsinin zəruriliyi ilə bağlı ideyalar yalnız XX əsrin ortalarından etibarən geniş miqyasda inkişaf etmiş və imperativlik qazanmışdır[5]. Artıq müasir dövrdə insan hüquq və azadlıqlarının müdafiəsi ayrı-ayrı dövlətlərin daxili yurisdiksiyasından çıxaraq bütün beynəlxalq birliyin ümumi problemi kimi nəzərdən keçirildiyi üçün hər hansı ölkənin hüquq sistemini və ictimai həyatını beynəlxalq hüquq normalarından, dövlətlərarası müqavilələrdən kənar təsəvvür etmək qeyri-mümkündür.

Tarixə nəzər salsaq görərik ki, hələ 1991-ci il oktyabrın 18-də qəbul edilən Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktında Azərbaycanda hüquqi dövlət və demokratik cəmiyyətin qurulması başlıca hədəf kimi müəyyən edilmişdi. Yeni yaranmış dövlətimiz özünü Azərbaycan Xalq Cümhuriyyətinin davamçısı elan etməklə bərabər, siyasi və iqtisadi münasibətlərin fundamental prinsiplərini – bütün təbii sərvətlərin xalqa mənsub olması, mülkiyyətin bütün formalarının bərabərliyi, vətəndaşların ümumi seçki hüququnun tanınması, çoxpartiyalı sistemin təminatı, eləcə də insan hüquq və azadlıqlarının ümumi prinsiplərini rəsmən bəyan etmişdir.

Azərbaycanın müstəqilliyinin ilk illərində bir sıra obyektiv və subyektiv səbəblərdən irəli gələn neqativ amillər, Azərbaycanda yaşanan siyasi kataklizmlər, vətəndaş qarşıdurması, siyasi xaos və özbaşınalıq, iqtisadi tənəzzül, eyni zamanda yeni cəmiyyətin tələblərinə uyğun qanunların olmaması hüquqi dövlətin formalaşdırılmasına imkan vermədi.

1993-cü ilin iyununda dünya şöhrətli ictimai-siyasi xadim Heydər Əliyevin Azərbaycanın siyasi hakimiyyətinə qayıdışından sonra ölkədə qanunçuluğun və hüquq qaydasının bərpası istiqamətində kompleks, ardıcıl, məqsədyönlü və konkret strategiyaya əsaslanan tədbirlərin həyata keçirilməsinə start verildi. Ümummilli Lider Heydər Əliyev hakimiyyətə qayıdışının ilk günündən etibarən hüquqi dövlət quruculuğunu öz siyasətinin prioritet istiqaməti hesab etmiş və önə çəkmişdir. Daha sonrakı illərdə demokratik inkişaf, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu istiqamətində respublikada qazanılan nailiyyətlər məhz Ümummilli Lider Heydər Əliyev tərəfindən formalaşdırılmış möhkəm təmələ əsaslandı.

---

[4] Кант, И. (1797). Метафизика нравов в двух частях. / Соч. В 6 т. М.,1965. Т.4. Ч.2, 33.

[5] Вестов Ф. А., Фаст О. Ф. (2016). Некоторые проблемы восприятия правового государства в XXI веке. Известия Саратовского университета. Новая серия. Серия Социология. Политология, 16 (3), 342-345

Ümummilli Lider Heydər Əliyev dünyanın hüquqi-siyasi atmosferinin müəyyənləşdirilməsində aparıcı rol oynayan təşkilatlara üzvlük məsələsinə xüsusi diqqət yetirmiş, bu məqsədlə ölkə həyatının bütün sahələrində çevik və işlək mexanizm hazırlamışdır. Azərbaycanın milli iqtisadi modelini özünəməxsus uzaqgörənliklə əsaslandırmış Ulu Öndər bu spesifik modelin yalnız demokratik tərəqqiyə əsaslanan möhkəm ictimai-siyasi sabitlik şəraitində davamlı nəticələr verə biləcəyini vurğulamışdır.

Ümummilli Liderin ölkədə hüquq qaydasının möhkəmləndirilməsi istiqamətində atdığı ilk addımlarından biri 9 avqust 1994-cü il tarixli "Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi haqqında" Fərmanın qəbulu olmuşdur. Həmin Fərmanla hüquqmühafizə orqanlarının cinayətkarlığa qarşı mübarizə istiqamətində uzunmüddətli dövr üçün fəaliyyət proqramı müəyyənləşdirildi. Müvafiq fərmanda o dövr üçün səciyyəvi olan bir sıra neqativ hallar təsbit olunmuş, onların aradan qaldırılması üçün hüquqmühafizə orqanları qarşısında mühüm vəzifələr qoyulmuş, habelə cinayətkarlıqla mübarizənin təkmilləşdirilməsi məqsədilə yeni strukturların yaradılmasının vacibliyi önə çəkilmişdir. Azərbaycan Respublikasında cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi nəticəsində ictimai-siyasi sabitliyin əldə olunmasına, vətəndaşların təhlükəsiz yaşamaq hüququnun təminatına nail olunmuşdur.

Hüquq sistemində islahatlar aparılması, yeni qanunvericilik aktlarının qəbul edilməsi ədliyyə orqanlarının da fəaliyyət istiqamətlərinin dəyişdirilməsini, onların qarşısında yeni vəzifələrin qoyulmasını tələb edirdi. Məhz bu dövrdə ədliyyə sahəsində dövlət idarəçilik mexanizmlərinin müasirləşdirilməsi, ədliyyə orqanlarının fəaliyyətinin şəffaflıq və aşkarlıq prinsipləri əsasında qurulması, eləcə də ədliyyə orqanlarının işinin və strukturunun daha səmərəli şəkildə yenidən təşkil edilərək regional və yerli qurumlarının yaradılması hüquqi dövlət quruculuğu çərçivəsində insan hüquq və azadlıqlarının daha səmərəli müdafiəsini təmin etmişdir.

Nəzərə alsaq ki, insan hüquq və azadlıqlarının qorunması hüquqi dövlətin ayrılmaz atributudur[6], ölkəmizdə sözün əsl mənasında demokratik dəyərlərə əsaslanan, insanların hüquq və azadlıqlarını müdafiə etməyə qadir olan məhkəmə sisteminin formalaşdırılması zərurətə çevrilmiş və məhz bu səbəbdən də ölkədə həyata keçirilən hüquqi islahatların əsas istiqamətlərindən biri məhkəmə-hüquq islahatları olmuşdur. Xüsusilə də, regionlarda əhalinin hüquqi yardıma tələbatının ödənilməsi üçün yeni məhkəmə orqanlarının yaradılması, vətəndaşların narazılıqlarına səbəb olan süründürməçilik və korrupsiya hallarının aradan qaldırılması, ədalət mühakiməsinin səmərəliliyinin, məhkəmə qərarlarının icrası vəziyyətinin yaxşılaşdırılması və vətəndaşların məhkəmələrə inamının artırılması, məhkəmələrə müraciət imkanlarının sadələşdirilməsi, yeni informasiya texnologiyalarının tətbiqi, texniki təchizatın yüksəldilməsi, habelə digər mühüm məsələlərin həll olunması Ümummilli Lider Heydər Əliyevin yerlərdə vətəndaş cəmiyyətinin formalaşdırılması istiqamətində həyata keçirdiyi strateji xarakterli tədbirlərdən yalnız bir qismidir. Məhkəmə-hüquq islahatları nəticəsində yeni məhkəmələrin yaradılması, Respublika Prokurorluğu tərəfindən məhkəmələrdə dövlət ittihamının müdafiəsi işinin təşkilində müvafiq dəyişikliklərin edilməsinə, Vəkillər Kollegiyası tərəfindən vəkillərin sayının və regionlarda əhaliyə göstərilən hüquqi yardımın səmərəliliyinin artırılmasına, habelə yuxarı məhkəmə instansiyaları tərəfindən İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedent hüququnun

[6] Миронов, Д. Н. (2015). Правовое государство: происхождение идеи и признаки правового государства. Вестник Бурятского государственного университета. Философия, (2), 149-155.

öyrənilməsi və onun məhkəmə təcrübəsində tətbiq edilməsi istiqamətində müvafiq tədbirlərin görülməsinə gətirib çıxardı.

Bu sahədə islahatların reallaşdırılması ilk öncə yeni hüquqi dövlət quruculuğu konsepsiyasının işlənib hazırlanmasını şərtləndirdi. 1995-ci ildə yeni Konstitusiyanın qəbul edilməsi ilə hüquqi dövlət konsepsiyasının Azərbaycan modeli formalaşdırıldı. Konstitusiyanın preambulasında qanunların aliliyini təmin edən hüquqi dövlət qurmaq Azərbaycan xalqının ülvi niyyəti kimi elan edilmişdir. Eyni zamanda Konstitusiyanın 7-ci maddəsində qeyd olunur ki, Azərbaycan demokratik, hüquqi, dünyəvi, unitar respublikadır. Qeyd olunan əlamətlər ölkəmizdə hüquq sistemi, idarəçilik forması, insan və vətəndaş hüquq və azadlıqlarının təminatı ilə bağlı ilkin təsəvvür yaratmağa kifayət edir.

Demokratiya "xalqın hakimiyyəti" mənasını verir və siyasi iradənin xalqa aid olduğu siyasi sistemi ifadə edir[7]. Demokratik rejimli Azərbaycan Respublikasında xalq sərbəst seçkilər yolu ilə seçdiyi nümayəndələr vasitəsilə, eləcə də ümumxalq səsverməsi (referendum) vasitəsilə ölkənin idarə edilməsində iştirak edir, hakimiyyətin formalaşdırılması və dəyişdirilməsinə təsir göstərir. Bu əlamət Azərbaycan dövlətinin öz vətəndaşlarının mənafelərini ən yaxşı şəkildə qoruyacaq quruluşa malik olduğunun göstəricisidir.

Digər bir məqam dövlətin dünyəviliyi ilə bağlıdır. Belə ki, Azərbaycan Respublikasında din dövlətdən ayrıdır, din və dövlət qarşılıqlı əlaqədə fəaliyyət göstərir, lakin bir-birinə müdaxilə etmirlər. Həmçinin rəsmi bəyan edilən dinin mövcud olmaması, bütün dini etiqadların qanun qarşısında bərabər olması və heç bir dinin məcburi tətbiq edilməməsi Konstitusiyanın 48-ci maddəsində əksini tapmış vicdan azadlığının təminatı kimi çıxış edir.

Hüquqi dövlətin digər əsas əlaməti hüquqi qanunun aliliyi prinsipinin mövcud olmasıdır. Başqa sözlə, hüquqi dövlət qanunlara əsaslanmalı və öz fəaliyyətində qanunun normalarının tələblərini rəhbər tutmalıdır. Qanunlar vətəndaşlar üçün olduğu qədər, dövlət üçün də məcburi olmalıdır. Azərbaycan Konstitusiyasının 147-ci maddəsi müəyyən edir ki, Konstitusiya ən yüksək hüquqi qüvvəyə malikdir[8]. Konstitusiya həm qanunvericilik sisteminin, həm də hüquq sisteminin əsasıdır. Normativ hüquqi aktlar, o cümlədən Konstitusiya və qanunlar hüquqa və haqq-ədalətə (bərabər mənafelərə bərabər münasibətə) əsaslanmalıdır. Beləliklə də, qanunun aliliyi prinsipi dövlətin əsas qanununda birbaşa təsbit edilmişdir.

Ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında ümumbəşəri dəyərlərə, demokratik ənənələrə, insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi və təminatına əsaslanan vətəndaş cəmiyyəti quruculuğu, demokratik hüquqi dövlət və buna uyğun insan hüquqları sisteminin yaradılması istiqamətində respublikamızda mühüm islahatlar həyata keçirilmişdir. 1995-ci ildə Ümummilli Lider Heydər Əliyevin müəllifi olduğu və insan hüquqlarının və azadlıqlarının təmin edilməsini dövlətin ali məqsədi kimi bəyan edən ilk milli Konstitusiyanın qəbul olunması siyasi sistemin müasirləşdirilməsi və demokratik institutların formalaşdırılması üçün zəmin yaratmışdır.

Konstitusiyanın ikinci bölməsi bütünlüklə Azərbaycan Respublikasında əsas insan və vətəndaş hüquq və azadlıqlarına həsr olunmuşdur. Konstitusiyada əksini tapmış bu strateji məqsəd ilk növbədə hüquq islahatları və insan hüquqlarının qorunması prinsipinin real həyatda tətbiqini zəruri etmişdir. 2002-ci, 2009-cu və 2016-cı illərdə referendum yolu ilə Konstitusiyaya bir sıra mühüm əlavə və dəyişikliklərin edilməsi tam mütərəqqi xarakter daşımaqla insan və vətəndaş hüquqlarının və azadlıqlarının daha səmərəli qorunmasına, vətəndaşların layiqli həyat səviyyəsinin təmin edilməsinə, demokratiyanın genişlənməsinə

---

[7] Коженевский, В. Б. (2007). Социальное правовое государство. Вестник Омского университета. Серия «Право», 11 (2), 4-9.

[8] Azərbaycan Respublikasının Konstitusiyası // https://e-qanun.az/framework/897

və inkişafına yönəlmişdir. 2009-cu il referendumu ilə Konstitusiyanın 129-cu maddəsinə edilmiş mühüm əlavələrdən biri də məhz məhkəmə qərarlarının icrası ilə bağlı olmuşdur. Məhkəmə qərarlarının icra olunmamasının qanunla müəyyən edilmiş məsuliyyətə səbəb olması haqqında müddəa həmin qərarların təsir gücünün və səmərəliliyinin daha yüksək səviyyədə təminatına, icra sahəsində bəzi problemli məqamların aradan qaldırılmasına xidmət edərək, icranın məcburiliyi ilə bağlı müvafiq qanunvericiliyə konstitusion təminatı daha da gücləndirmişdir.

Azərbaycan Respublikasında insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsinin real təminatı üçün zəruri qanunvericilik bazasının yaradılması istiqamətində ilk addımlar 1998-ci ilin 22 fevralında Ümummilli Lider Heydər Əliyev tərəfindən "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" Fərman imzalanması ilə atılmışdır. Məhz bu Fərmanla Azərbaycan Respublikasında insan hüquqları sahəsində həyata keçirilən əsas tədbirlərin istiqaməti və konsepsiyası dəqiq və ətraflı şəkildə müəyyən olunmuş, bununla da demokratiyanın inkişafının sürətləndirilməsi və ölkəmizin dünya birliyinə daha sıx inteqrasiyası üçün zəmin yaradılmışdır. Müstəqil dövlətin hərtərəfli inkişafından irəli gələn tələbatların nəzərə alınması baxımından bu Fərman ölkəmizin siyasi sahədə milli maraqlarından biri olan insan hüquqlarının təmin olunması üzrə görülən ardıcıl tədbirlərin genişləndirilməsində, hüquq-müdafiə mexanizmlərinin təkmilləşdirilməsində, əhalinin müxtəlif qruplarının hüquqlarının qorunmasının gücləndirilməsində yeni mərhələnin başlanğıcı oldu.

Azərbaycan Respublikasında gedən demokratikləşmə prosesi, ictimai həyatın bütün sahələrində aparılan uğurlu islahatlar, beynəlxalq miqyasda əldə olunmuş nailiyyətlər insan hüquqları kimi həssas və daim konseptual yanaşmaların müəyyən olunmasını tələb edən sahədə tənzimləyici milli mexanizmlərin daha da təkmilləşdirilməsini və ardıcıl tədbirlərin həyata keçirilməsini zəruri edirdi. Bu səbəbdən də 1998-ci il 18 iyun tarixində Ümummilli Lider Heydər Əliyev insan hüquqlarının müdafiəsi sahəsində növbəti fundamental sənədi – "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı"nı təsdiq etmişdir. Ümummilli Lider tərəfindən bu Dövlət Proqramının təsdiq edildiyi tarix 2007-ci ildən etibarən Azərbaycan Respublikasında İnsan hüquqları günü kimi qeyd edilir.

Qanunvericilik və institusional islahatları özündə əks etdirən xüsusi əhəmiyyətə malik olan Dövlət Proqramı ölkəmizdə demokratik institutların formalaşması prosesini sürətləndirmiş, qanunvericilik və institusional islahatların aparılmasına, demokratik ədalət mühakiməsi prinsiplərinə əsaslanan yeni məhkəmə sisteminin, konstitusiya nəzarətinin, insan hüquqları üzrə müvəkkil kimi yeni təsisatın yaradılmasına, hüquq mühafizə fəaliyyətinin təkmilləşdirilməsinə, qeyri-hökumət təşkilatlarının, kütləvi informasiya vasitələrinin fəaliyyətinin genişlənməsinə və digər istiqamətlər üzrə inkişafa təkan vermişdir. Çoxşaxəliliyi ilə fərqlənən, mühüm və konseptual sənəd olan Dövlət Proqramının hazırlanması prosesində müsbət beynəlxalq təcrübədən istifadə olunmuşdur. Bu sənəd həqiqi işlək xarakterə malik olmaqla, hər bir dövlət orqanı qarşısında konkret mühüm vəzifələr qoymuşdur. Dövlət Proqramında insan hüquqları sahəsində tədris, elmi-analitik və maarifləndirmə işlərinin həyata keçirilməsinə xüsusi diqqət yetirilərək insanların hüquq düşüncəsinin və hüquq mədəniyyətinin inkişaf etdirilməsi məqsədilə ixtisaslaşmış beynəlxalq elmi-tədqiqat və tədris müəssisələri ilə əməkdaşlığın təkmilləşdirilməsi, bu sahədə beynəlxalq sənədlərin, xüsusilə də "İnsan hüquq və əsas azadlıqlarının müdafiəsi haqqında" Avropa Konvensiyasının, işgəncələr əleyhinə beynəlxalq aktların dövlət qulluqçuları, hüquq mühafizə orqanlarının əməkdaşları tərəfindən öyrənilməsinin təmin edilməsi nəzərdə tutulmuşdur.

Danılmaz həqiqətdir ki, dövlət orqanlarının səmərəli fəaliyyəti, qarşıda duran vəzifələrin və funksiyaların uğurla yerinə yetirilməsi, ilk növbədə yüksək ixtisaslı, müasir dünya görüşünə malik, ədalətli, prinsipial və bacarıqlı kadrların sayəsində mümkündür. Dövlət məmurları insan hüquqlarının səmərəli və etibarlı təmin olunması kimi ümumdövlət maraqlarını rəhbər tutmağa borcludurlar. Hər bir məmur ilk öncə insan hüquqlarının təmin olunmasının onun ümdə vəzifəsi olduğunu dərk etməlidir.

Ulu Öndər Heydər Əliyevin Azərbaycanda insan hüquq və azadlıqlarının təmini və müdafiəsi istiqamətində gördüyü mühüm işlərdən biri də “İnsan hüquqları üzrə müvəkkil (Ombudsman) haqqında" Qanunun qəbul edilməsi və Ombudsman təsisatının yaradılması olmuşdur. Qeyd edildiyi kimi, Ulu Öndərin 1998-ci il 18 iyun tarixli Sərəncamı ilə təsdiq edilən Dövlət Proqramında İnsan Hüquqları üzrə Müvəkkil təsisatının yaradılması nəzərdə tutulmuşdu. Ombudsman təsisatının yaradılması ilə Azərbaycanda insan hüquqlarının və azadlıqlarının müdafiəsində səmərəli hüquq müdafiə mexanizmi formalaşdırıldı. Hüquqi dövlət quruculuğu istiqamətində Ulu Öndər tərəfindən aparılan islahatların məntiqi davamı kimi Müvəkkil təsisatının yaradılması və fəaliyyəti üçün maddi-hüquqi bazanın formalaşdırılması məqsədilə Azərbaycan Respublikasının Milli Məclisi 2001-ci il dekabrın 28-də “Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili haqqında” Konstitusiya Qanununu, 2002-ci il dekabr 24-də isə “Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında” Konstitusiya Qanununu qəbul etdi.

Azərbaycanda son illərdə demokratikləşmə və insan hüquq və azadlıqlarının etibarlı təminatı, eləcə də vətəndaş cəmiyyətinin qurulması sahəsində ardıcıl islahatlar həyata keçirilir. Respublikamızda insanların azad və təhlükəsiz yaşaması, dövlət müstəqilliyinin möhkəmləndirilməsi istiqamətində çox ciddi tədbirlər həyata keçirilmiş, vətəndaş cəmiyyətinin formalaşdırılması üçün hər cür şərait yaradılmış, çoxpartiyalı sistem əsasında demokratik parlament seçkiləri keçirilmiş, siyasi plüralizm, söz, mətbuat, vicdan azadlığı, qanunun aliliyi prinsipi tam bərqərar edilmişdir.

Sistemli şəkildə həyata keçirilən sosial-iqtisadi və hüquqi islahatların qayəsində insana qayğı, şəxsiyyətə və insan ləyaqətinə hörmət amili dayanır. Azərbaycan insan hüquqlarının müdafiəsi sahəsində nüfuzlu beynəlxalq təşkilatlarla əməkdaşlığı yüksək qiymətləndirir və münasibətlərin daha da inkişafına çalışır.

Qeyd etmək lazımdır ki, insan hüquqları sahəsində ardıcıl və dinamik fəaliyyətə xüsusi diqqət yetirən respublikamız bu sahədə 300-dən çox beynəlxalq müqavilənin iştirakçısı və nüfuzlu beynəlxalq təşkilatların üzvüdür. Bu gün Azərbaycan Respublikası insan hüquqlarının müdafiəsinin beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq edir. Həmin təşkilatlar tərəfindən irəli sürülən tövsiyələr isə daim Azərbaycan Respublikası tərəfindən dövlətdaxili qanunvericiliyn daha da təkmilləşdirilməsində istifadə edilir.

Beləliklə qeyd olunmalıdır ki, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin başladığı hüquqi dövlət və vətəndaş cəmiyyətinin formalaşmasına yönəlmiş dövlət quruculuğu prosesi hazırda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən ardıcıl surətdə davam etdirilir və şübhəsiz olaraq Azərbaycan hüquq sisteminin müasirləşdirilməsi konsepsiyası çərçivəsində həyata keçirilən islahatlar ölkəmizdə hüquqi dövlətin və vətəndaş cəmiyyətinin tam bərqərar edilməsini təmin edəcəkdir.

## İstifadə olunmuş ədəbiyyat siyahısı

1. Вестов Ф. А., Фаст О. Ф. (2016). Некоторые проблемы восприятия правового государства в XXI веке. Известия Саратовского университета. Новая серия. Серия Социология. Политология, 16 (3), 342-345.

2. Денисенко, М. В., Турова, В. Е. (2012). Правовое государство. Социология и право, (1), 99-104.

3. Кант, И. (1797). Метафизика нравов в двух частях. / Соч. В 6 т. М.,1965. Т.4. Ч.2, 33.

4. Коженевский, В. Б. (2007). Социальное правовое государство. Вестник Омского университета. Серия «Право», 11 (2), 4-9.

5. Azərbaycan Respublikasının Konstitusiyası // https://e-qanun.az/framework/897

6. Миронов, Д. Н. (2015). Правовое государство: происхождение идеи и признаки правового государства. Вестник Бурятского государственного университета. Философия, (2), 149-155.

7. Тихомиров, Ю. А. (2011). Правовое государство: проблемы формирования и развития. Контуры глобальных трансформаций: политика, экономика, право, 4 (5), 93-109.

8. Томилина Е.Е., Опокин А.Б., Голик А.А. (2015). Правовое государство: теоретические и практические аспекты. Актуальные проблемы гуманитарных и естественных наук, (4-2), 50-54.

## X Ü L A S Ə

Məqalədə Azərbaycanda sosial hüquqi dövlət quruculuğunun tarixi retrospektivi təhlil edilir. Qeyd edilir ki, Ulu Öndər Heydər Əliyev hakimiyyətə qayıdışının ilk günündən hüquqi dövlət quruculuğunu öz siyasətində prioritet istiqaməti hesab etmişdir.

Məqalədə hüquqi dövlət quruculuğu ilə bağlı konstitusiya varisliyi nümayiş edilərək, Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş möhkəm təməl üzərində Azərbaycan Respublikasının demokratik inkişafı, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu istiqamətində əldə edilən nailiyyətlər göstərilmişdir. Heydər Əliyevin rəhbərliyi ilə ümumbəşəri dəyərlərə, demokratik ənənələrə əsaslanan vətəndaş cəmiyyəti quruculuğu, insan və vətəndaş hüquq və azadlıqlarının qorunması və təmin edilməsi istiqamətində aparılan mühüm islahatların əsasları nümayiş etdirilimişdir.

**Зияфет Аскеров**
**Председатель Комитета по обороне,**
**безопасности и борьбе с коррупцией**
**Милли Меджлиса Азербайджанской Республики,**
**заведующий кафедрой конституционного права**
**Бакинского государственного университета, профессор**

## Гейдар Алиев и построение правового государства в Азербайджане.

**А Н Н О Т А Ц И Я**

В статье дана историческая ретроспектива построения социального правового государства в Азербайджане. Подчеркивается, что Общенациональный лидер Гейдар Алиев с первого дня своего возвращения к власти считал правовое государственное строительство приоритетным направлением своей политики.

В статье продемонстрирован конституционный континуитет по этому вопросу – в последующие годы достижения Азербайджанской Республики в направлении демократического развития, построения правового государства и гражданского общества опирались на прочный фундамент, заложенный общенациональным лидером Гейдаром Алиевым. Под его руководством были осуществлены важные реформы в направлении построения гражданского общества, основанного на общечеловеческих ценностях, демократических традициях, защите и гарантировании прав и свобод человека и гражданина.

**Ziyafet Askarov**
**Chairman of the Defence, Security and Counter-Corruption Committee**
**of the Milli Majlis of the Republic of Azerbaijan**
**Head of Department of Constitutional Law of**
**the Baku State University, Professor**

## Heydar Aliyev and the Rule of Law in Azerbaijan

**S U M M A R Y**

The article gives a historical retrospective of building a social state based on the rule of law in Azerbaijan. It is emphasized that for the National Leader Heydar Aliyev from the first day of his rise to the power building of such a state was a high priority.

The article demonstrates the constitutional continuity on this issue – in the subsequent achievements of the Republic of Azerbaijan in support of democratic development, building a human right – oriented state and a civil society, are based on a solid foundation laid by Heydar Aliyev. Under his influence, important transformations were implemented in building a civil society and state, based on the rule of law, on the universal democratic traditions, protecting and guaranteeing the rights and freedoms of man and citizen.

*Джейхун ГАРАДЖАЕВ*

судья Конституционного суда Азербайджанской Республики,
д.ю.н., профессор кафедры Конституционного права БГУ

# РОЛЬ КОНСТИТУЦИОННОГО СУДА АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ В РАЗВИТИИ КОНСТИТУЦИОННОЙ АКСИОЛОГИИ

***Ключевые слова:*** *конституционные ценности, конституционные принципы, конституционная юстиция, конституционное правосудие, Конституция, Основной закон, Конституционный Суд Азербайджанской Республики*

***Açar sözlər:*** *konstitusiya dəyərləri, konstitusiya prinsipləri, konstitusiya ədliyyəsi, konstitusiya ədalət mühakiməsi, Konstitusiya, Əsas Qanun, Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi*

***Keywords:*** *constitutional values, constitutional principles, constitutional justice, Constitution, Basic Law, Constitutional Court of the Republic of Azerbaijan*

Ценности Конституции – это закрепленные в Основном Законе идеи и идеалы, имеющие наиболее важное значение для общества и государства. Ценности Конституции определяют смысл, содержание и применение законов, деятельность законодательной и исполнительной власти, местного самоуправления, и именно их защита обеспечивается как организационными усилиями государства и общества, так и правосудием. Следует согласиться с тем, что ценности представляют собой наиболее важные принципы, т.е. ценности Конституции Азербайджанской Республики – это наиболее важные принципы, закрепленные в тексте Основного Закона 1995 года.

Далеко не все исследователи согласны с тем, что следует выделять наиболее важные конституционные принципы, именуя их конституционными ценностями, создавая тем самым своего рода иерархию. Г.А.Гаджиев высказал мнение, что «поиск баланса, согласование конституционных принципов – вот чем обычно занимается Конституционный Суд, вырабатывая правила их уравновешивания, поскольку все конституционные принципы равноценны и между ними, как правило, нет иерархии»[1]. Однако с этой позицией нельзя согласиться.

Наличие иерархии конституционных принципов очень важно во время решения вопросов, возникающих при конфликте двух или более таких принципов. В этом контексте А. Н. Кокотов отметил, что «не раз в поведении людей сталкивались ценности справедливости и порядка, <…> централизации и децентрализации, коллективного и индивидуального. Да и сопряжение индивидуальных прав различных лиц зачастую превращается в проблему. Отсюда деятельное обеспечение конституционных ценностей требует их системного восприятия и защиты, поиска таких публично-властных

[1] Гаджиев, Г.А. Конституционно-правовое концептуальное пространство и его ценности / Г.А. Гаджиев // Право : журн. Высш. шк. экономики. – 2012. – № 2. – С. 11.

решений, которые позволяют органично увязывать разные ценности между собой»[2]. Эта аргументация представляется убедительной.

С. С. Алексеев считал, что принципы права – это «выраженные в праве исходные нормативно-руководящие начала»[3]. А.В.Малько выразил эту идею несколько по-иному, отметив, что принципы права – это «основные, исходные начала, положения, идеи, выражающие сущность и закономерности права как специфического социального регулятора»[4].

Л. Д. Воеводин под конституционными принципами подразумевал «закрепленные Конституцией определяющие, руководящие идеи и установки, концентрированно выражающие содержание Конституции, ее учредительную природу»[5]. Значительный вклад в понимание содержания конституционных принципов внес Ю.А. дин, выделяя «нормы-принципы, представляющие собой нормативное закрепление принципов организации общественного и государственного строя, и принципы организации и деятельности отдельных государственных органов»[6].

В связи с этим Н. С. Малеин подчеркивал, что «нормы-принципы обладают самой высокой нормативностью»[7]. А. В. Баранов отметил, что «по сравнению с декларативными (учредительными) нормами для норм-принципов характерна большая степень конкретизации содержащихся в них требований. Однако по отношению ко всем иным нормам нормы-принципы обладают наибольшей степенью общности»[8]. Таким образом, ценности Конституции обладают всеми признаками, характерными для принципов Конституции. При этом, им присущи и дополнительные характеристики. В юридической литературе обращается внимание на следующие характеристики ценностей Конституции:

– если они прямо не закреплены в тексте нормы, то могут быть выведены из ее содержания в процессе осуществления официального толкования;

– реальное или фактическое содержание ценностей и их иерархическое соотношение друг с другом выявляются только в процессе применения конституционных норм и их интерпретации в конкретных ситуациях;

– смысловое наполнение ценностей Конституции формируется с учетом положений национального законодательства, а также других источников конституционного права;

– вопросы баланса ценностей Основного Закона в случае их коллизий разрешаются Конституционным судом.

В Конституции Азербайджанской Республики понятие «ценности» упоминается в ее положениях:

---

[2] Кокотов, А.Н. Обеспечение баланса конституционных ценностей / А.Н. Кокотов // Конституционные ценности: содержание и проблемы реализации : материалы междунар. науч.-теорет. конф. (Москва, 4-6 декабря 2008 г.) : в 2 т. – М. : Рос. акад. правосудия, 2009. – Т. 1. – С. 42.

[3] Алексеев, С.С. Общая теория права: в 2 т. / С.С. Алексеев. – М. : Юрид. лит., 1981. – Т. 1. –С. 98.

[4] Малько, А.В. Теория государства и права в схемах, определениях и комментариях : учеб. пособие / А.В. Малько. – М. : Проспект, 2010. – С. 34.

[5] Воеводин, Л.Д. Юридический статус личности в России / Л.Д. Воеводин. – М. : Норма, 1997. – С. 38.

[6] Юдин, Ю.А. Сравнительное конституционное право / Ю.А. Юдин. – М., 2008. – С. 67.

[7] Малеин, Н.С. Правовые принципы, нормы и судебная практика / Н.С. Малеин // Гос. и право. – 1996. – № 6. – С.13.

[8] Баранов, А.В. Нормы-принципы в механизме правового регулирования / А.В. Баранов // Вестн. Томск. гос. ун-та. Сер.: Право. – 2016. – № 4. – С. 10.

– подтверждающих намерения народа Азербайджана развиваться в русле приверженности общечеловеческим ценностям, «жить в условиях дружбы, мира и безопасности с другими народами и в этих целях осуществлять взаимовыгодное сотрудничество» (Преамбула);

– закрепляющих право на культуру, а именно: «Каждый обладает правом участвовать в культурной жизни, использовать культурные учреждения и культурные ценности» (ч. I ст. 40).

Очевидно, в положениях Конституции Азербайджанской Республики «заложено» значительно большее количестве ценностей, однако остальные закреплены в ней не прямым путем, а по смыслу основных прав и свобод человека и гражданина и основных устоев общества и государства. Это полностью согласуется с распространенным в современной юридической науке тезисом о том, что существуют два основных способа закрепления (фиксации) как ценностей, так и принципов в законодательстве:

– текстуальный (прямой, непосредственный) и

– смысловой (косвенный).

Важность смыслового способа фиксации конституционных ценностей и принципов может быть проиллюстрирована заключением В. И. Анишиной, которая отметила, что «ни одна система права не может развиваться без определения ее базисных ценностей и целей, к которым она стремится… эти цели и ценности должны быть легально и формально определены и обнародованы в виде принципов как основополагающих, движущих начал. Кто определяет состав и содержание принципов права, тот и обладает механизмом регулятивного воздействия на общество и государство»[9]. Как правило, органами, «определяющими состав и содержание принципов права», в случае с текстуальным способом являются нормотворческие органы, а в случае со смысловым – органы судебной власти.

Если речь идет о судах общей юрисдикции, то наиболее важным аспектом их деятельности, связанным с ценностями, является формирование единой судебной практики, – ведь «развитие и формирование права в каждой правовой системе имеет свои особенности, а ценность для регулирования общественных отношений и возможность единообразного применения норм и принципов права уполномоченными органами к спорным отношениям во многом зависят от обеспечения единства судебной практики высшим судебным органом»[10]. Именно судебная практика способствует практической реализации ценностей и принципов, которые прямо или опосредовано «заложены» в тексте Конституции 1995 года.

Наиболее часто к смысловому способу фиксации конституционных ценностей обращается Конституционный Суд Азербайджанской Республики, ибо конституционное правосудие – это инструмент социоисторической модернизации конституции, генератор «живого» конституционализма[11], «институт демократических преобразований, функционирующий практически во всех посттоталитарных государствах в целях защиты новых конституционных ценностей, обеспечивающий определенную стабильность конституции и плановость конституционного развития»[12]. Х.Гаджиев,

[9] Анишина, В.И. Конституционные принципы как основа самостоятельности судебной власти: дис. ... д-ра юрид. наук / В.И. Анишина. – М., 2006. – С. 27.

[10] Гук, П.А., Коршунова П.В. Единство судебной практики как особая ценность правосудия / П.А. Гук, П.В. Коршунова // Журнал российского права. – 2020. – № 12. – С. 104.

[11] Бондарь, Н.С. Социоисторический динамизм Конституции – без переписывания конституционного текста / Н.С. Бондарь // Журн. конституционного правосудия. – 2014. – № 2. – С. 25.

[12] См.: Зорькин, В. Вопросы конституционного развития стран новой демократии / В. Зорькин // Konstitusiya Məhkəməsinin Məlumatı. – 2005. – № 3. – С. 32.

характеризуя Конституционный Суд Азербайджанской Республики, отметил, что он «является хранителем демократических ценностей и выступает в качестве арбитра, гарантирующего гражданское согласие и стабильность в государстве»[13].

Осуществляя официальное толкование положений Конституции и законов, Конституционный Суд Азербайджанской Республики вносит значительный вклад в определение того, какое именно смысловое наполнение на современном этапе развития государства и права имеет конкретная ценность, решает конфликты, возникающие при «столкновении» нескольких ценностей, др.

Например, Пленум Конституционного Суда Азербайджанской Республики в своем Постановлении «О толковании положения “имеющие высшее юридическое образование”, предусмотренного в статье 126 Конституции Азербайджанской Республики и ряде нормативных правовых актов» от 30 июня 2014 г. отметил, «что любой правовой вопрос, в частности вопрос осуществления прав, закрепленных в Конституции, должен регулироваться в законодательстве таким образом, чтобы не наносился ущерб конституционно значимым ценностям, соблюдался баланс между общественными и частными интересами»[14]. Разъясняя свою позицию по сохранению баланса в системе государственного регулирования в области образования, Конституционный Суд Азербайджанской Республики указал, что органы государственной власти в рамках своих полномочий свободны в осуществлении государственного регулирования сферы образования. Однако такое регулирование возможно только в том случае и форме, если определение соответствующих направлений высшего образования было основано на объективных обстоятельствах, оправдывало себя, служило конституционно значимым целям и было соразмерно правовым средствам, используемым для достижения этих целей.

Защищая конституционные ценности и цели, орган конституционного контроля в первую очередь основывался на основных положениях и духе Конституции, которая предусматривает светский, правовой путь развития образования в Азербайджане.

Ценностная категория в решениях высших судов рассматривается не как абстрактное, аморфное, а как формально-определенное явление. Формальная определенность конституционной ценности, даже если она установлена косвенно, позволяет высшим судам ориентироваться на конституционную нормативность. При этом не обязательно, чтобы конституционная нормативность отражала фактические общественные отношения. Чаще всего конституционные ценности содержат завышенные установки.

Н. С. Бондарь отмечает: «…нельзя не учитывать, что конституция как юридический документ, закрепляющий идеальную (желаемую для господствующих политических сил) модель политической организации общества и государства, практически всегда сопряжена с конфликтом должного и сущего, в основе чего, как правило, лежат завышенные социальные ожидания и политические иллюзии по поводу реального значения конституции для осуществления политических и социально-экономических преобразований»[15]. Следовательно, конституционные ценности порой могут носить завышенные цели, но для судебной оценки их формальная определенность необхо-

[13] Гаджиев, Х. Влияние деятельности Конституционного Суда на развитие законодательства Азербайджанской Республики / Х. Гаджиев // Конституционное правосудие на рубеже веков : материалы междунар. конф., посв. 10-летию Конституционного Суда Российской Федерации. – М. : НОРМА, 2002. – С. 24.

[14] Электронный ресурс. – Режим доступа: http://www.constcourt.gov.az/decision/849

[15] Бондарь, Н.С. Судебный конституционализм в России в свете конституционного правосудия / Н.С. Бондарь. – М. : Норма, 2011. – С. 33.

дима. В противном случае выводы судебного решения могут выглядеть неубедительными.

Например, в Постановлении Пленума Конституционного Суда Азербайджанской Республики «О толковании некоторых положений ст. 320.1 Уголовного кодекса Азербайджанской Республики» от 15 ноября 2019 г. орган конституционного контроля, рассматривая обращение Капазского районного суда Гянджи о толковании диспозиции статьи 320.1 Уголовного кодекса Азербайджанской Республики, предусматривающей ответственность за фальсификацию официального документа применительно к действиям лица, попытавшегося зайти для сдачи экзамена вместо другого лица (абитуриента), отметил, что выданные со стороны Государственного Экзаменационного Центра карточки для участников вступительных экзаменов в высшие или средние специальные учебные заведения являются официальным документом, дающим им право заполнять бланк, который кодируется на имя каждого поступающего. Заполнение карточки ответов кем-либо другим, кроме соответствующего заявителя, должно характеризоваться как подделка официального документа. В результате заполнения карточки ответов другим лицом карточка ответов отражает результаты уровня знаний лица, фактически сдавшего экзамен, а не соответствующего заявителя. Это означает, что карточка с ответами, по сути, фальсифицирована.

Таким образом, обосновывая свою позицию, Конституционный Суд Азербайджанской Республики указал, что «такие действия препятствуют процессу подготовки специалистов, полезных для развивающегося современного общества, и ставят под сомнение приверженность государства принципу социальной справедливости и научным ценностям»[16] (по данному решению автор остался при особом мнении).

Конечно, не вдаваясь в оценку этимологии понятия «научные ценности», можно лишь предположить, что сомнение по поводу критерия научности, не имеющего формального состава при толковании уголовно-правовой нормы, может показаться неубедительным.

В связи с рисками судейского активизма в настоящее время акцент переносится на необходимость формирования персонального состава органов конституционного контроля таким образом, чтобы судьи имели различное правосознание, что позволяет кворуму судей рассматривать поставленные перед ними вопросы с различных точек зрения и в споре выявить истину по делу.

Эксперты Венецианской комиссии связывают это с тем, что «демократическое общество обязательно плюралистично – оно представляет собой поле для выражения различных убеждений, будь то философские, этические, социальные, политические, религиозные или правовые убеждения. Орган конституционного контроля должен по своему составу гарантировать защиту интересов различных групп и способствовать общественному плюрализму. Легитимность органа конституционного контроля и степень принятия его обществом может очень сильно зависеть от того, насколько он в своей работе учитывает разнообразные социальные ценности»[17]. Не является исключением и Азербайджанская Республика.

---

[16] Электронный ресурс. – Режим доступа: http://www.constcourt.gov.az/decision/1097

[17] Opinions, Reports and Studies on Constitutional Justice. European Comission for Democracy through Law (Venice Comission), Compilation of Venice Comission, Strasbourg, 1 July 2015, CDL-PI(2015)002 [Электронный ресурс]. – С. 7. – Режим доступа: https://www.venice.coe.int/webforms/documents/?pdf=CDL-PI%282015%29002

Таким образом, закреплены ли конституционные ценности и конституционные принципы в нормативно-правовых положениях непосредственно или «выводятся» из их положений в процессе толкования, в судебном процессе всегда происходит субъективное восприятие правовых предписаний. По обоснованному замечанию Ю.М.Грошевого, «в формировании убеждения судьи участвует не только его правосознание. Неотъемлемым компонентом личности судьи являются знания, не связанные непосредственно с отправлением правосудия, а обусловленные его общественно-политической деятельностью, житейским опытом, которые вместе с правосознанием определяют ценностный подход судьи к рассматриваемому… делу»[18].

Итак, важность выявления органами конституционного контроля конституционных ценностей и принципов конституционализма, нашедших свое косвенное закрепление в Основном Законе, и толкования их с учетом реалий современности достаточно высока. Следовательно эффективность выполнения такой задачи зависит не только от высокого правосознания, но и от активной общественно-политической, научно-практической деятельности судей, которые учитываются при формировании этих органов.

## Список использованной литературы


1. Гаджиев, Г.А. Конституционно-правовое концептуальное пространство и его ценности / Г.А. Гаджиев // Право : журн. Высш. шк. экономики. – 2012. – № 2. – С. 11.

2. Кокотов, А.Н. Обеспечение баланса конституционных ценностей / А.Н. Кокотов // Конституционные ценности: содержание и проблемы реализации : материалы междунар. науч.-теорет. конф. (Москва, 4-6 декабря 2008 г.) : в 2 т. – М. : Рос. акад. правосудия, 2009. – Т. 1. – С. 42.

3. Алексеев, С.С. Общая теория права: в 2 т. / С.С. Алексеев. – М. : Юрид. лит., 1981. – Т. 1. –С. 98.

4. Малько, А.В. Теория государства и права в схемах, определениях и комментариях: учеб. пособие / А.В. Малько. – М. : Проспект, 2010. – С. 34.

5. Воеводин, Л.Д. Юридический статус личности в России / Л.Д. Воеводин. – М. : Норма, 1997. – С. 38.

6. Юдин, Ю.А. Сравнительное конституционное право / Ю.А. Юдин. – М., 2008. – С. 67.

7. Малеин, Н.С. Правовые принципы, нормы и судебная практика / Н.С. Малеин // Гос. и право. – 1996. – № 6. – С.13.

8. Баранов, А.В. Нормы-принципы в механизме правового регулирования / А.В. Баранов // Вестн. Томск. гос. ун-та. Сер.: Право. – 2016. – № 4. – С. 10.

9. Анишина, В.И. Конституционные принципы как основа самостоятельности судебной власти: дис. ... д-ра юрид. наук / В.И. Анишина. – М., 2006. – С. 27.

10. Гук, П.А., Коршунова П.В. Единство судебной практики как особая ценность правосудия / П.А. Гук, П.В. Коршунова // Журнал российского права. – 2020. – № 12. – С. 104.


[18] Карасева, И.А. Конкуренция конституционных ценностей в практике Конституционного Суда Российской Федерации и конституционных судов зарубежных стран: дис. ... канд. юрид. наук / И.А. Карасева. – М., 2014. – С. 5-6.

11. Бондарь, Н.С. Социоисторический динамизм Конституции – без переписывания конституционного текста / Н.С. Бондарь // Журн. конституционного правосудия. – 2014. – № 2. – С. 25.
12. См.: Зорькин, В. Вопросы конституционного развития стран новой демократии / В. Зорькин // Konstitusiya Məhkəməsinin Məlumatı. – 2005. – № 3. – С. 32.
13.Гаджиев, Х. Влияние деятельности Конституционного Суда на развитие законодательства Азербайджанской Республики / Х. Гаджиев // Конституционное правосудие на рубеже веков : материалы междунар. конф., посв. 10-летию Конституционного Суда Российской Федерации. – М. : НОРМА, 2002. – С. 24.
14. Электронный ресурс. – Режим доступа: http://www.constcourt.gov.az/decision/849
15. Бондарь, Н.С. Судебный конституционализм в России в свете конституционного правосудия / Н.С. Бондарь. – М. : Норма, 2011. – С. 33.
16. Электронный ресурс. – Режим доступа:
http://www.constcourt.gov.az/decision/1097
17. Opinions, Reports and Studies on Constitutional Justice. European Comission for Democracy through Law (Venice Comission), Compilation of Venice Comission, Strasbourg, 1 July 2015, CDL-PI(2015)002 [Электронный ресурс]. – С. 7. – Режим доступа: https://www.venice.coe.int/webforms/documents/?pdf=CDL-PI%282015%29002
18. Карасева, И.А. Конкуренция конституционных ценностей в практике Конституционного Суда Российской Федерации и конституционных судов зарубежных стран: дис. ... канд. юрид. наук / И.А. Карасева. – М., 2014. – С. 5-6.

## АННОТАЦИЯ

В статье рассмотрены проблемы определения и выявления номенклатуры и содержания ценностей и принципов Конституции Азербайджанской Республики 1995 года. Проанализирована классификация способов закрепления (фиксации) ценностей и принципов Конституции в ее тексте; констатировано, что в Азербайджанской Республике правом использовать смысловой способ фиксации наделены органы судебной власти, в первую очередь – конституционной юрисдикции.

На материалах постановлений Пленума Конституционного Суда Азербайджанской Республики «О толковании положения “имеющие высшее юридическое образование”, предусмотренного в статье 126 Конституции Азербайджанской Республики и ряде нормативных правовых актов» от 30 июня 2014 г. и «О толковании некоторых положений ст. 320.1 Уголовного кодекса Азербайджанской Республики» от 15 ноября 2019 г. продемонстрирован вклад Суда в определение того, какое именно смысловое наполнение на современном этапе развития государства и права имеют конкретные ценности, а также в разрешение конфликтов, возникающих при «столкновении» нескольких ценностей.

**Ceyhun Qaracayev**
**Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimi,**
**BDU-nun Konstitusiya hüququ kafedrasının professoru, h.ü.e.d.**

## Konstitusiya aksiologiyasının inkişafında Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin rolu

### X Ü L A S Ə

Məqalədə Azərbaycan Respublikasının 1995-ci il Konstitusiyasının dəyər və prinsiplərinin nomenklatura və məzmununun açıqlanması və müəyyənləşdirilməsi problemlərinə həsr edilir. Konstitusiyanın dəyər və prinsiplərinin mətnində təsbit (əks olunmuş) yollarının təsnifatı təhlil edilir; bildirilir ki, Konstitusiyada dəyərləri əksinin semantik üsulundan istifadə etmək hüququ məhkəmə hakimiyyəti orqanlarına, ilk növbədə konstitusiya ədliyyəsinə aiddir.

Məqalə habelə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Konstitusiyasının 126-cı maddəsində və bir sıra normativ hüquqi aktlarda nəzərdə tutulmuş "ali hüquq təhsilinə malik olmaq" müddəasının şərh edilməsinə dair" 30 iyun 2014-cü il tarixli və "Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 320.1-ci maddəsinin bəzi müddəalarının şərh edilməsinə dair" 15 noyabr 2019-cu il tarixli qərarların materialları əsasında, dövlət və hüququn inkişafının müasir mərhələsində konstitusiya dəyərlərinin məzmunun müəyyənləşdirilməsində, habelə müxtəlif dəyərlərin "toqquşması" nəticəsində yaranan münaqişələrin həllində Məhkəmənin töhfəsini nümayiş etdirir.

**Ceyhun Qaracayev**
**Judge of the Constitutional Court of the Republic of Azerbaijan,**
**Professor of the Department of the Constitutional Law of**
**the Baku State University, Doctor of Law**

## Constitutional axiology: development and role of the Constitutional Court of the Republic of Azerbaijan

### S U M M A R Y

The article deals with the problems of defining and identifying the nomenclature and content of values and principles of the Constitution of the Republic of Azerbaijan, 1995. The author analyzes the classification of ways of proclaiming the values and principles of the Constitution in its text. Based on that, the author states, that in the Republic of Azerbaijan the right to use the semantic method of proclaiming is vested in the judiciary bodies, primarily of the constitutional jurisdiction. The author demonstrates the contribution of the Court to determine, what kind of semantic content the values of the Constitution have at the present stage of development of the state and law, as well as how does the Court resolve conflicts arising from the conflict of values, using the materials of the resolutions of the Plenum of the Constitutional Court of the Republic of Azerbaijan "On the interpretation of the provision "to have a higher legal education", provided in Article 126 of the Constitution of the Republic of Azerbaijan and a number of regulatory legal acts" dated June 30, 2014, and "On the interpretation of certain provisions of Art. 320.1 of the Criminal Code of the Republic of Azerbaijan" dated November 15, 2019.

***Rafael HÜSEYNOV***

Azərbaycan Respublikası Milli Məclisinin üzvü, akademik

# YAŞAYAN YOL YARATMAQ BƏXTİYARLIĞI

***Açar sözlər:*** *Azərbaycan dövlətçiliyi, müstəqillik, xarici müdaxilə, daxili qarışıqlıq, keçid dövrü, mədəni və mənəvi həyat, müstəsna dövlətçi, yol yaratmaq, müasir Azərbaycan dövləti, təməl prinsiplər*

***Ключевые слова:*** *Азербайджанская государственность, независимость, внешние вмешательства, внутренние волнения, переходный период, культурная и духовная жизнь, незаурядный государственный деятель, создания пути, современное Азербайджанское государство*

***Keywords:*** *Azerbaijani statehood, independence, internal encroachments, disintegration, transitional period, cultural and spiritual life, outstanding statesman, creation of a path, modern Azerbaijani state, basic points*

## Giriş

Müasir Azərbaycan dövlətçiliyi tarixində Ümummilli Lider Heydər Əliyevin xidmətləri çoxdur, lakin həmin xidmətlərin zirvəsində dayanan tarixin çətin dönəmində dövlət müstəqilliyimizi qoruya bilməsi, müasir Azərbaycan dövlətinin təməllərini yaratmasıdır. Azərbaycanın XX əsrin əvvəllərində qazanılmış dövlət müstəqilliyi 2 yaşına çatmadan yarımçıq qırıldığı kimi, həmin yüzilliyin sonunda 70 illik fasilədən sonra bərpa edilən suverenlik yenə 2 yaşına çatmadan qırıla bilərdi. Məhz tarixin belə mürəkkəb bir dönüş nöqtəsində Heydər Əliyevin zəkası, bilikləri, iradəsi və əzmkarlığı Azərbaycan müstəqilliyini xarici və daxili həmlələrdən qoruya, ölkəni parçalanmaqdan xilas edə bildi. 1960-cı illərdən 1980-ci illərin əvvəllərinədək Azərbaycan idarəçiliyinin rəhbərliyində olmuş Heydər Əliyev əslində tarixin hökmü ilə XX əsrin son onilliyində müstəqillik yolu ilə irəliləməyə başlayacaq respublikanın bu keçid dövrü üçün bir çox təməlləri məhz sovet onilləri içərisində yarada bilmişdi. Məhz Azərbaycanın siyasi, iqtisadi, mədəni və mənəvi həyatının bütün başlıca təfərrüatlarına içəridən və dərindən bələd olduğundan Heydər Əliyev ölkənin müstəqillik dövründə irəliləyəcəyi yolun da dəqiq konturlarını müəyyənləşdirməyə müvəffəq oldu. Heydər Əliyevin bir müstəsna dövlət xadimi olaraq əsas keyfiyyətlərindən biri də universallığı, dövlət və millət quruculuğunun sirlərinə peşəkarcasına və dərindən bələd olması, eləcə də ayrı-ayrı sahələr üzrə kadr potensialını yaxşı tanıması, onları düzgün istiqamətləndirmək bacarığı idi. Məqalədə konkret tarixi nümunələr əsasında Heydər Əliyevin müasir Azərbaycan dövlətini zəfərlərə aparan yolu yaratmaq uğrunda mübarizələri, həmin xəttin gələcəkdə də davam etməsini şərtləndirən başlıca məqamlar təhlil edilir.

Zamanın irili-xırdalı çox ölçüləri var. Xüsusi peşəkarlara aid daha xırda və daha iri vaxt ölçülərini bir kənara qoyaraq göz önündə saniyədən minilliklərə qədərki vaxt çəki daşlarını sıralayanda ƏSR anlayışının məxsusiliyi dərhal önə çıxır.

Əsr 100 il deməkdirsə də, Tarixin nəzərində əsr uzana da bilir, qısala da. Əsrlər hamını içərisinə sığışdıran zaman kəsiyi olsa da, bəzən əsr hansısa şəxsiyyətin adı ilə bağlanır, zaman onun əsri kimi nişan verilir.

Böyük azərbaycanlı Heydər Əliyevin ömrünün bir əsri başa çatır. Mənalı bir ömür yaşanıb və artıq tarixə çevrilib, keçmişdir. Ancaq Azərbaycan gerçəkliyindəki Heydər Əliyev Əsri davam etməkdədir. Əsri, Yolu davam edirsə, deməli, o özü də yaşamaqdadır.

Ayrı-ayrı hadisələrin və şəxsiyyətlərin ildönümləri və yubileyləri yalnız həmin şəxsiyyət və hadisələr barədə deyil, bütövlükdə dövr, zaman, yaşanmış tarix haqqında düşünmək fürsətidir.

Unudulmaz Heydər Əliyev Azərbaycan Respublikasına rəhbərlik etməyə başlayanda mən orta məktəb şagirdi idim. Heydər Əliyev 46 yaşlı cavan bir insan idi. Artıq 2023-cü ildir, yarım əsrdən uzun zaman keçib, Heydər Əliyevin əbədi ömrünün bir əsri başa çatır, yenə onun adı, siyasəti, xətti Azərbaycanı yönəltməkdədir. Yəni mənim bütün ömrüm bu böyük insanın bir GÜC kimi var olduğu Azərbaycanda keçdi və onun şəxsiyyətinin qüdrəti, gördüyü misilsiz işlər haqqında dəfələrlə fikrə daldım və bu, yalnız o nadir insan haqqında deyil, əslində həm də axarından keçib gəldiyim vaxt haqqında düşüncələrdir.

Heydər Əliyev bir siyasətçi, dövlət adamı kimi böyük idi, onun sovet dönəmində də həmin çağın əksər liderlərindən bir neçə baş ucalığı aşkardı, etiraf edilirdi. Amma sovetlər dövrünün Heydər Əliyevinin sonralar, sanki o köhnə zamandan bir uçurumla ayrılmış təsiri bağışlayan müstəqillik mərhələsində gördüyümüz, davranışların, özünüifadənin daha sərbəst olduğu illərin Heydər Əliyevindən fərqləri də var.

Əski dövrün mühafizəkar siyasi və inzibati ab-havası, yaşam şərtləri Heydər Əliyevin müstəsna şəxsiyyət olaraq bir çox parlaqlıqlarının üzə çıxmasına maneələr də yaradırmış.

Yeni əyyamlar gəldi, təzə zamanın nabələd olduğumuz, mübarizəli, enişli-yoxuşlu, bəzən dramatik gedişatı Heydər Əliyevi bizə və Vaxta əsl siması və tutumunda – yalnız qabil siyasətçi, dövlətçi, insan kimi deyil, həm də bir Qəhrəman, Örnək təki təqdim etdi.

Mən də xoşbəxtəm ki, Heydər Əliyevin bir epopeyaya bənzəyən zəngin ömrünün son on ildən artıq ən maraqlı dövründə onunla vaxtaşırı ünsiyyətdə olmaq, Ulu Öndəri yaxından müşahidə etmək, ondan mütəmadi öyrənmək imkanı qismətimə düşdü.

Bunlar elə dərslər və təcrübələrdir ki, bir ömrə yetər.

O gün kədər və qürurla dolu idi. Əziz insandan ayrılırdıq. O, çox sevdiyi Bakı küçələrindən son dəfə keçirdi.

Vəzifələri, qulluqları həyatı boyunca elə olmuşdu ki, onun adi insanlar kimi asudəcə küçəyə çıxıb gəzmək imkanı yox idi (Ən güclü görünənlər bəzən ən sıravi insanların malik olduğu ən xırda azadlıqlardan məhrum olur!). Lakin o, Bakını – taleyinin şəhəri olan bu əziz məkanı elə candan sevirdi ki, hərdən-hərdən protokol tələblərini də, vaxt çatmazlığını da bir küncə sıxaraq doğma Bakı küçələriylə addımlayırdı...

2003-ün dekabrında bu, son dəfə baş verdi. Ömrü boyu o, xalqın önündə getmişdi.

Yenə xalqın, insan dənizinin önündə gedirdi. Ömrü boyu o, xalqı birləşdirmişdi.

Son yolunu gedirdi və yenə xalqı kiçikdən-böyüyə bir duyğu ətrafında qovuşdura bilmişdi. Heydər Əliyevlə ayrılıq günü idi. Amma bu son gediş əslində Heydər Əliyevin ən böyük qayıdışı idi. Bəlkə də Azərbaycan xalqı məhz həmin gün Heydər Əliyevlə vidalaşma anında ona nə qədər böyük məhəbbət və ehtiram bəslədiyini bütün aydınlığı və əzəməti ilə ilk dəfə dərk etdi [1, 8].

Heydər Əliyev o gün xoşbəxt idi!..

…Vaxtı biz seçmirik, Vaxtın püşkü özü bizi seçir. Vaxt bitməz axarından minlərlə, milyonlarla insanı əridib itirir. Yalnız tək-tək qeyri-adi insanlar varlıqları ilə yaşadıqları zamana da, müasirlərinə də təsir göstərə bilir, beləliklə də içərisində olduqları Vaxtın hüdudlarından qırağa adlayırlar. Bəzən hansısa tarixi şəxsiyyət barədə düşünərkən təəssüflənirsən ki, o, yaşamış olduğu dövrdə deyil, bir qədər əvvəl, ya bir qədər sonra dünyaya gəlsəydi, daha çox fayda verərdi, daha silinməz izlər qoyardı, daha yerində olardı. Lakin Tarixin də öz məntiqi var və Tale hər kəsi məhz öz yaşamalı olduğu, öz sözünü deməli olduğu zamana ezam edir. İlahi Qüdrət nadir şəxsiyyətləri millətlərə və məmləkətlərə sərvət kimi, irs kimi məhz məsləhət bildiyi zaman parçalarında hədiyyə edir.

Yazıya pozu yoxdur və ən böyük YAZI Tarixdir.

Azərbaycan Tarixinin pozulmaz yazısında Heydər Əliyevin adı və möhürü əbədilik qalacaq – bu, şübhəsizdir.

Yarım əsrdən artıq bir müddətdə millətin tarixinə bilavasitə təsir göstərmiş şəxsiyyətin ayrı qisməti də ola bilməz.

O, artıq bu tarixin ayrılmaz bir parçasıdır. Dəyişən dövrlərə müvafiq olaraq ona baxan gözlər, həmin gözlərin görməsi və qiymətləndirməsi fərqlənə bilər.

Bununla şəxsiyyətin tarix aynasındakı yeri və çəkisi dəyişən deyil ki!..

Hərdən düşünürsən ki, Heydər Əliyev kimi qətiyyətli, cəsarətli, yenilikçi, qəliblərə sığmayan, risksevər bir insanın da ömrünün böyük hissəsi çox cəhətdən çərçivəli, davranışın, danışığın sərt ölçülər, dar hüdudlar arasında mövcud olduğu sovet əyyamlarına deyil, daha sərbəst olan başqa zaman zolağına düşsəydi, o, bir az çox açılardı, özünüifadəyə daha münbit meydan tapardı, tarix səhnəsində yeni-yeni keyfiyyətləri, məziyyətləriylə görünərdi.

Amma orası da var ki, Heydər Əliyevin bir şəxsiyyət olaraq ayrı dövrdə deyil, məhz bu zaman kəsiyində yaşayıb fəaliyyət göstərməsi həmin dövrün BU CÜR olmasını müəyyənləşdirən əsas amillərdən birinə çevrildi.

Bəlkə də belə miqyasa malik bir güc sahibi Azərbaycanda XIX yüzillikdə də olsaydı o əsrimiz, XVIII, ya XVII əsrlərdə olsaydı həmin yüzillərimiz başqa cür cərəyan edərdi.

Bu fərziyyələrə qapılmağa əsas verən örnəklər var. Tarix Azərbaycana yaxşını pisdən ayıra bilməyin qeyri-adi bir fürsətini də verdi – Heydər Əliyevsiz Azərbaycanın necə ola bilməsini, Heydər Əliyevsiz Azərbaycanın hansı məşəqqətlərə düçar olmasını da hamımıza göstərdi: XX əsrin 80-ci illərinin sonları – 90-cı illərinin əvvəllərini ONSUZ yaşadıq və gördük nələr baş verir! Gördük səmtimiz nə təhər dəyişir, gördük illərlə qazandıqlarımızı nə asanca itirə bilirik!

…İkinci Heydər Əliyev olmayacaq.

Doğrudur, əslində hər insan təkrarsızdır. Amma gördüyü nəhəng işlərlə, keçdiyi böyük yolla, şəxsiyyətinin əzəməti ilə bir-birinə oxşayan insanlara hər halda tarixdə rast gəlinir. Heydər Əliyevsə bütün daxili istedadlarından əlavə, həm də mühitin, içərisindən keçdiyi zamanın övladı idi. Onu yetirmiş mürəkkəb mühit və zamansa artıq keçmişdir – bir daha təkrarlanması mümkün olmayan keçmiş. Ona görə də hətta təbiətən Heydər Əliyevin yiyələndiyi bütün qabiliyyətləri daşıyan başqa bir insan yaransa da, Heydər Əliyevin yaşadığı qədər qəliz, çoxrəngli, özünəməxsus məntiqləri olan epoxaların məktəbində dərs almadığından o şəxs heç vaxt Heydər Əliyev qədər dərin, əngin, miqyaslı olmayacaq.

Sovet "KQB"-sinin sıravi əməkdaşından general rütbəsinəcən, kommunistlər ordusunun sıra nəfərindən Kreml liderlərindən birinə qədər yüksəlmək elə möhtəşəm universitetlər idi ki, o yolu qədəm-qədəm adlayandan sonra çox üstün qafalı insanşünas və cəmiyyətşünasa çevrilmək labüd idi [10, 3-7].

Bundan sonra fitri istedadı qat-qat artıq şəxslər dünyaya gəlsə belə, nə o universitetləri, nə o yolu keçə biləcəklər.

…Vaxt hamımızdan güclüdür.

Arxada qalan təlatümlü illər, xüsusən də XX əsrin dünyanın simasını dəyişən son çərəyi özüylə yalnız XX əsri və II minilliyi aparmadı. Sovuşan vaxt xeyli anlayış və dəyərləri də qeyb etdi. O anlayış və dəyərlərlə birgə isə zahirən çox qadir görünən bir çox insanları da zaman selləri öz heybətli dalğalarıyla yuyub apardı.

XX yüzilin son parçasının burulğanları Heydər Əliyevi də sovurmağa, girdabına çəkməyə, siyasət, dövlətçilik, qaynar fəaliyyət meydanından qoparıb aparmağa cəhd etdi...

Və möcüzə baş verdi! Vaxt burulğanının Heydər Əliyevə gücü çatmadı! Adətən belə olmur axı! Bu, təbii gedişata zidd, uyuşmaz kimi təsir bağışlayır axı! Amma oldu!

Bu, adi insanların iradəsi və imkanından kənar olan bir hadisədir.

Bu, artıq möcüzə deməkdir! Ömrü boyu qarşısına çox məqsədlər qoyaraq həmişə niyyətinin ardınca sona qədər ardıcıl, inadcıl mübarizə aparmış, ardıcıl, inadcıl, usanmaz olduğu üçün də həmişə uğura çatmış Heydər Əliyev bu dəfə həyatı uzunu rastlaşdığı ən böyük rəqibi – Vaxt Burulğanını yenə bildi.

Bu qeyri-bərabər mübarizədən, amansız sürətlə dəyişən və uçub gedən Zamanla çəkişmədən qalib çıxmaq, sanki hər şeyi təzədən başlamaq üçün Heydər Əliyev səhhətə də, yaşa da üstün gəldi.

Ömrü boyu insanlarla işləmişdi və insanları ram etməyin, kütlələri idarə etməyin çox gizlinclərinə vaqif idi. Amma indiki halda təbiəti də öz iradəsinin hökmünə tabe etməli idi. Edə bildi!

Həmin zaman dəyişikliyi, dövr başqalaşması, əsrlər əvəzlənməsi əsnasında Heydər Əliyev cavan deyildi, bütün vəzifələrini itirmişdi, bağında oturub dincələn, ömrün qalan parçasını yaxşı halda, imkan versələr, sakit təqaüdçü güzəranı keçirməklə başa vurmalı bir klassik idi. Bu tale ilə barışmadı. Xalqının və yurdunun həyatındakı məsul məqamda öz Sözünü demək, faydasını vermək, ömrü boyunca qazandığı bilik və səriştələri ölkəsinin yeni dirçəlişinə sərf etməkçün, bu mücadiləsində yenə BİRİNCİ, yenə ÜSTÜN, yenə QÜDRƏTLİ olmaq üçün QAYITDI.

(Tarixdə misli az tapıla biləcək bu qayıdışın, qəddar siyasi rejim və saysız-hesabsız rəqiblərlə qeyri-bərabər mübarizədən qalib çıxmağın nəticəsi olan həmin dönüşün mərhələlərini yarpaq-yarpaq yaddaşımızda çevirdikcə bütün bunları görmüş sadəlövh və sadədil siyasət həvəslilərinin Heydər Əliyevin hansı QÜDRƏTƏ sahib olduğunu biləndən sonra da onunla qarşı-qarşıya dayanıb mübarizə aparmaq kimi xam xülyalarına, boş iddialarına vaxt ötəndən sonra bir daha təəccüblənməyə bilmirsən).

Heydər Əliyevin qayıdışı bütün başqa xüsusiyyətlərdən əlavə, bir də ona görə əlamətdar oldu ki, (bunu bir daha vurğulamağa məcburam) o, Vaxta qalib gələrək qayıtdı və onun bacarıqlarının, qüdrətinin arxada qalan ömür parçasının imkan vermədiyi bir çox incəlikləri də bütün aydınlığı və möhtəşəmliyi ilə hər kəsə əyan oldu.

Yalnız bizlər – soydaşları deyil, Moskvada, Kremldə onunla çalışmışlar deyil, bütün dünya Heydər Əliyevin yeni zaman içərisindəki böyüklüyünü, qeyri-adiliyini gördü, təsdiqlədi, heyran qaldı.

Bir dəfə mənə Heydər Əliyevin Kreml illərindən son dərəcə maraqlı anlar barədə söz açan bir moskvalı siyasət adamı: “Siz yaxşı millət deyilsiniz. Heydər Əliyev kimi dahi şəxsiyyətə qarşı nankor oldunuz. Kremldə işlədiyi vaxt onun haqqında Moskvaya qalaq-qalaq donoslar, şikayət ərizələri, adsız, imzasız ifşa məktubları – anonimlər göndərdiniz”, – dedi [8, 48; 354].

Cavab verdim ki, yanılırsınız. Biz qədirbilən millətik və haqlı olaraq dahi adlandırdığınız Heydər Əliyevi də Azərbaycan xalqı yetirib, bu qəbil övladlar yetirən xalq pis, nankor ola bilməz. Əlbəttə, Azərbaycanda hər bir rəhbər kimi, ondan da narazılar vardı, olsun ki, Moskvaya onun barəsində Azərbaycandan, doğrudan, tək-tək məktublar gedib. Lakin Heydər Əliyevi yıxmağa yönələn və azərbaycanlıların adından yazılan dediyiniz həmin məktublar selininsə əsas təşkilatçıları ermənilər olub. Özü də həmin kağızların əksəriyyəti Bakıdan, Azərbaycandan yox, Ermənistandan, Gürcüstandan yola salınırmış. Zərflərin üstündəki Ermənistan, Gürcüstan möhürlərini də ermənilərin Kremldəki fitnəkarları guya Azərbaycandan belə məktubların çıxmasının qarşısının poçt şöbələrindəcə alınmasıyla izah edirlərmiş.

Erməni lobbisi Heydər Əliyevin – qüdrətli azərbaycanlının Kremldəki ucalışına dözə bilmirdi.

Nə qədər ki Heydər Əliyev orada idi, nə ona bata, nə Azərbaycan əleyhinə qara məkrlərini həyata keçirə bilirdilər. Nəhayət, ən müxtəlif vasitələrlə Heydər Əliyevin Kremldən uzaqlaşdırılmasına nail olandan sonra Qarabağ tonqalını da alışdırdılar...

…Heydər Əliyevin nəvaziş göstərdiyi, himayəsini əsirgəmədiyi qiymətli yaradıcılardan olan mərhum teatrşünas və mollanəsrəddinçi jurnalist Qulam Məmmədli [4, 3-18] nağıl eləyirdi ki, XX əsrin iyirminci illərində, indiki “Səadət sarayı”ndakı otaqlardan birində onlara dərs keçən o çağın məşhur ədəbiyyatşünas alimi, professor İsmayıl Hikmətə Mirzə Ələkbər Sabirin nə dərəcədə böyük şəxsiyyət olması ilə bağlı sual veriləndə ustad dalğınlaşır: “Mənim cavan dostlarım, biz bu gözəl binanın içərisindəyik və onun füsunkarlığı haqqında, sadəcə, təsəvvürümüz var. Amma bu binadan çıxıb xeyli aralansaq, onu uzaqdan bütövlüyü ilə seyr etsək, gözəlliyinə daha artıq valeh olacaq, əzəmətinə daha artıq heyrətlənəcəyik. Sabirlə bizim hələ nə məsafəmiz var ki! O, müasirlərimiz kimidir. Onun böyüklüyünü zamanlar ötdükcə, gələcəyin uzaqlarından seyr elədikcə daha aydın görəcəyik”.

Heydər Əliyev bizimlə eyni günlərin içərisində yaşayırdı, bəxtimizə dahi ilə müasir olmaq səadəti düşmüşdü və əl çatacaq qədər yaxında olsa da, onun əlçatmaz qədər uca şəxsiyyətinə heyran idik. Lakin millət öndəri Heydər Əliyevin Kimliyini, onun təfəkkürünün ənginliyini, əməllərinin qiymətəsığmazlığını və ən mühümü, Təzədən Qayıdaraq Azərbaycanın müstəqillik tarixinin yeni və ən şərəfli səhifələrinin müəllifi olmasının Ali Mənasını bizdən sonra gələnlər sabahdakı onillərin zirvələrindən daha dəqiq görəcəklər. Və inanıram ki, onlar bizlərdən daha qərəzsiz, daha ədalətli, daha insaflı olduqlarından Heydər Əliyev şəxsiyyətinə və onun əməllərinə bizim verdiyimizdən qat-qat yüksək və dürüst qiymət verəcək, adını bizim tutduğumuzdan daha əziz tutacaqlar.

Bu, labüddür. Əvvəla ona görə ki, böyük həqiqətlər uzaqdan daha yaxşı görünür, ikincisi də ona görə ki, dünya əvəz-əvəz dünyasıdır və Heydər Əliyev özü həmişə dirinin də, ölünün də layiq olduğu əsl qiyməti və ehtiramı imkanı çatan qədər əsirgəməməyə çalışıb.

Şəxsən şahidi olduğum əhvalatdır – yazıram ki, bu nəciblik də tarixdə qalsın, unudulub itməsin. Həmin Qulam Məmmədli ki az qala bir əsr ömür yaşamışdı və bu bir əsrə çatan ömrünü doğrudan-doğruya xalqa həsr etmişdi, sənət tariximizlə bağlı bir neçə institutun görə biləcəyi həcmdə işlər görmüşdü, – günlərin birində dünyasını dəyişdi. Ömrünün xəstəliklərlə müşayiət olunan son nigaran aylarında onun ailəsinə müntəzəm baş çəkirdim və bir səhər evimizə Qulam müəllimin həyat yoldaşı niyəsini söyləmədən zəng vurubmuş ki, Rafael bizə gəlsin.

1994-cü ilin 18 noyabrı idi, hələ indiki kimi hərənin bir-iki cib telefonu olan vaxtlar uzaqdaydı, mobil rabitə hələ Bakıya yetişməmişdi.

Arada evə zəng vurmuşdum və mənə Qulam müəllimgildən olan xahişi çatdırdılar.

Zənn elədim yenə nəsə dava-dərman lazımdır.

Qaçan işlərimi görəndən sonra yollandım onların mənzilinə. Elə pilləkənləri qalxıb mərtəbələrinə yetişəndə ürəyim sancdı. Giriş qapıları açıqdı. İçəri keçdim və gördüm ki, artıq hər şey bitib – Qulam müəllim keçinib. Həyatını millətə və mədəniyyətimizə xidmətə həsr etmiş bu dəyərli alim, qələm sahibi çəkdiyi zəhmətlər müqabilində, ən azı, təntənəylə, hörmət-izzətlə dəfn olunmaq haqqını qazanmışdı.

Ailəsinin isə hətta yığcam bir hüzr təşkil etməyə maddi imkanı yox idi.

Şənbə günü idi. Yazıçılar İttifaqında, Mədəniyyət Nazirliyində bir kəsi tapa bilmədim. Moskvada Füzulinin yubiley təntənələrinin keçirilməsi ilə əlaqədar hər iki təşkilatın rəhbərliyi səfərdəydi. Mədəniyyət Nazirliyinin köhnə tanışım olan bir idarə rəisi telefonla mənə söylədi ki, boş yerə əziyyət çəkmə, Qulam Məmmədlinin ən yüksək fəxri adı "Əməkdar mədəniyyət işçisi" olub. Həmin səbəbdən ona, bəlli ənənəyə görə, heç İkinci Fəxri xiyaban da düşmür.

Teatr Xadimləri İttifaqına zəng vurdum ki, heç olmazsa, cənazənin Aktyorlar evindən götürülməsini həll edim. İttifaqın sədri Həsən Turabov qayıtdı ki, gərək bizə yuxarıdan tapşırıla. Dedim: "Əlinizin altında hökumət telefonu var, siz yuxarıya çatdırın ki, bu hadisə baş verib, axı onların xəbəri yoxdur".

Kimə deyirsən! Gümanım gələn yerlərdən ümidim kəsiləndən sonra o vaxtlar tez-tez gedib-gəldiyim Xarici İşlər Nazirliyinə üz tutdum. Nazir Həsən Həsənova əhvalatı danışdım. Dərhal dəstəyi götürüb Prezident Heydər Əliyevə məlumat verdi ki, Qulam Məmmədli vəfat edib.

– Sən hardan bilirsən?

– Rafael burda, yanımdadır, o söylədi.

Prezidentin reaksiyası anındaca oldu:

– Rafael bu dəqiqə Aparata gəlsin, bizimkilərlə nekroloq hazırlasınlar ki, televiziyanın axşam "Xəbərlər"inə çatsın. Sabah bazardır. Cənazəni bir gün saxlasınlar. Bazar ertəsi dəfni ən yüksək səviyyədə keçirin, vidalaşma filarmoniyada olsun. Özüm də gələcəyəm.

...Prezident mərasimə gəldi, Qulam Məmmədlinin tabutu yanında fəxri qarovulda dayandı, rəsmi vida sözlərinin altındakı ilk imza da Heydər Əliyevinki idi...

Xatırladıqca bu əhvalat hər zaman məni duyğulandırır, riqqətə gətirir.

Belə olmaya da bilərdi. O xəbər Prezidentə çatmazdı və ömrünü başa vuran Qulam Məmmədli Bakının ən sıravi qocalarından biri kimi qəbir evinə köçərdi.

1897-ci ildə Təbrizdə dünyaya gəlmiş və dünyanın hər üzünü görmüş, XX əsri az qala əvvəldən sonacan yaşamış Qulam Məmmədlinin özü üçün təmtəraqlı, yaxud soyuq yolasalmanın, hansı qəbiristanlıqda basdırılmasının daha istisi-soyuğu yox idi. Amma sabah Qulam Məmmədli ola biləcək bir gənc görəcəkdi ki, bir millət və sənət fədaisinin sonu necə oldu. Və o gəncin içərisində mütləq nəsə sınacaqdı. O gənc, yəqin, sabahın Qulam Məmmədlisi olmağa tərəddüd edəcəkdi. Ya bəlkə də "Axırı budurmu?!" təəssüfü ilə yolunu dəyişəcəkdi, Qulam Məmmədlinin açdığı millətəxeyir cığırla getməkdən vaz keçəcəkdi! [8, 42-44]

Prezident Heydər Əliyevin Qulam Məmmədliyə bu ehtiramı mərhumun ailəsinə təsəlli, qürur bağışladı və olsun ki, hələ heç birimizin tanımadığımız – sabah Qulam Məmmədli olacaq bir gəncə (və çox-çox başqalarına) ibrət dərsinə döndü.

Heydər Əliyevin ömrü boyu verdiyi belə dərslər, belə ibrətlər nə qədər olub!

Hərə birini yada salıb yazsa, elə ayrıca kitab alınar.

Heydər Əliyevsə o xeyirxah işlərini görəndə, təbii ki, bunların nə dərs, nə də ibrət olacağını düşünürdü. Ağlı və ürəyi belə kəsirdi, onunçün belə edirdi.

Amma müəllimlik zatında, təbiətində olduğundan həmişə hər əməli də elə bir dərs, örnək görüntülü, bir ibrət mahiyyətli idi.

…Şərq dühasının yetirdiyi fövqəladə dövlətçilərdən Teymurləng "Hökmdarın sözü qılıncdan iti olmalıdır" söyləyib.

Heydər Əliyev ən əvvəl bir dövlət başçısı üçün çox mühüm olan qüvvətli zabitə sahibi idi. El içində belə şəxsiyyətlərə "zəhmli adam" deyirlər. Belə insanlar görünməz bir enerji saçır və onların təsirinə qapılmamaq, onların sözünün əksinə getmək, dediyindən qırağa çıxmaq iradədən kənar olur. Heydər Əliyevin insanları təsiri altına çəkən qaçılmaz maqnitizmi vardı. Bu maqnitizmin, cəlbediciliyin bir tərəfi tabe olmağa vadar edirdisə, bir tərəfi də qarşıdakını ona ürək bağlamağa, mehr salmağa cəzb edirdi.

Və bir də, Heydər Əliyev iti söz sahibi idi. Sözünün kəsəri olan başçı idi.

Kimin nə həddi vardı onun bir sözünü iki eləyə! Bu keyfiyyət isə havadan yaranmır.

Gərək daim özün öz sözünə sadiq olasan, öz sözünün çəkisini hifz edəsən ki, başqaları da sənin sözünə danışıqsız tabe olmaq məqamına yetişə.

Heydər Əliyev Sözə münasibətdə çox həssas idi.

Sözün də, söz əhlinin də həm qiymətini, həm yerini, həm də gücünü bilirdi. Çünki Heydər Əliyev özü də böyük söz adamı idi. Qarşısındakını kimliyindən, yaşından, məqamından, çinindən asılı olmayaraq həmişə axıracan, hövsələylə dinləməsi də ilk növbədə Heydər Əliyevin Sözə hörmətindən irəli gəlirdi.

Lap cavanlığından Heydər Əliyev zabit poqonları daşımışdı, generallığacan yüksəlmişdi, üstündə silah gəzdirmək hüququ olmuşdu.

Ancaq silahı olanda da, olmayanda da, o, Silahlı idi. Heydər Əliyevin ən misilsiz, daim tən hədəfə vuran silahı Söz idi. Heydər Əliyev elə mahir siyasət sərkərdəsi idi ki, Sözün vasitəsilə qalaq-qalaq silahların, sıra-sıra qoşunların görə bilməyəcəyi işləri görməyi bacardı. Onun Sözə sayğısının ayrı bir əlaməti ana dilimizi səlis, rəvan, səriştə ilə, sözü incitmədən, sözə sevgi ilə məftunedici cəlbediciliyə malik nitqində canlandırması idi. Heydər Əliyev natiqliyinin bir özəlliyi də vardı.

Onun fenomenal yaddaşı barədə rəvayətlər söylənir. Lakin elə iti yaddaşlı adamlar var ki, anbar kimi hər eşitdiyini alıb saxlayır, üst-üstə qalaqlayır, gərək olanda isə həmin qarmaqarışıqlıqdan istədiyini eşib çıxara da bilmir. Heydər Əliyevin kəskin hafizəsinin bir özəlliyi də unutmamaqdan əlavə, yadında saxladıqlarından hər birini məhz zəruriyyət anında, elə bir saniyə öncə əli ilə qoyubmuş kimi, dərhal alıb ondan yararlana bilməsi idi. Həmin iti və ani seçmə bacarığı olan hafizəsinin sayəsində Heydər Əliyev dilimizin rəngarəng söz yatırından bir çox yazıçıdan, qəzetçidən, aktyordan da artıq məharətlə bəhrələnə bilirdi. Hərdən onun nitqində elə məhrəm el sözləri, ifadələr, zərbülməsəllərlə rastlaşırdın ki, məəttəl qalırdın – bu söz bu anda haradan ağlına gəldi! Araşdıran olsa, müəyyənləşdirər ki, Heydər Əliyevin nitqi söz sayı, lüğət tərkibinin əlvanlığı, ifadə təlqinediciliyi sarıdan bəlkə də müasiri olduğu azərbaycanlılar arasında ən müqayisəsiz genişliyə, bolluğa malik olub.

Bunun arxasında ilk növbədə zəhmət, alın təri, daim öz üzərində işləmək vərdişləri dayansa da, unudulmaz Heydər Əliyev təvazö ilə əsas səbəbi başlanğıcdan yaxşı müəllimlərinin olmasında görürdü. Ancaq Heydər Əliyevin "müəllim" dediklərindən bir çox başqaları da dərs almışdılar. Heydər Əliyevsə onların arasında bunca zirvələrə yüksələn Tək idi. Deməli, yaxşı müəllim uğurun hələ yarısıdır. Yaxşı müəllim yaxşı kitab kimidir. Uğurun digər və əsas yarısı o Müəllimdən, o Kitabdan necə bəhrələnməkdir.

…Heydər Əliyev olmağın sirri nədir? Bütün üstün xüsusiyyətlər ki Heydər Əliyevdə vardı, onlar hamısı insana xas bacarıqlardır və başqalarında da olmamış deyil. Heydər Əliyev güclü hafizə sahibi idi. Amma nə çox möhkəm yaddaş yiyələri.

Heydər Əliyev qətiyyətli idi, dəmir iradəli idi, qorxmaz idi, cəsarətli idi. Bu keyfiyyət sahibləri də az deyil. Heydər Əliyev uzaqgörən idi, bəsirətli idi.

Az-az rast gəlinsə də, hər halda, belə insanlar da olub, var, olacaq.

Heydər Əliyev çevik idi, ani reaksiya qabiliyyətinə malik idi, qəfil qərarlar qəbul etməyin ustası idi. Belələri də tapılır. Heydər Əliyev dövlətçilik, hakimiyyət maşınına cikinə-bikinə qədər bələd olan, bu maşının sükanını gözüyumulu və yanılmadan idarə etmək vərdişlərinə malik idi, hakimiyyət qrossmeysteri idi.

Bu qəbil şəxslər də tarixdə olub və yəqin, yenə var. Yaxşı, onda bəs nədədir Heydər Əliyevin nadirliyi, təkrarsızlığı?

Bütün başqa dahiyanəliklər kimi, bunun da cavabı sadədən-sadədir.

Sirr ondadır ki, ayrı-ayrı adamlarda ayrı-ayrılıqda bu keyfiyyətlər var. Heydər Əliyevdə isə o keyfiyyətlərin hamısı toplu halında, vəhdətdə idi! Belə şəxsiyyətlərsə həm ayrı-ayrı xalqların, həm də bütövlükdə insanlığın tarixində həmişə tək-tək olub.

…1994-cü il idi, İran İslam Cümhuriyyətinə mənim də iştirak etdiyim səfəri zamanı İsfahanda yerli protokol xidmətinin günahı ucbatından Prezident Əliyevlə bağlı bir tədbir bir neçə dəqiqə gecikirdi və Azərbaycan rəhbəri xəfif işarəylə buna münasibətini gizlətmədi: “Mən intizamlı adamam, bu saatda demişdiniz, bu saatda da gəlmişəm”, – söylədi.

Həqiqətdir, Heydər Əliyev son dərəcə dəqiq, çox intizamlı idi. Lakin o həm də yaradıcı ruha malik, istedadlı bir insan idi axı. Belə ruhun yiyəsi, bu cür qəliblərə sığmayan istedad sahibi isə heç vaxt sonacan intizamlı ola bilmir. Partiya intizamının yaşayış, davranış meyarına çevrildiyi sovet onilləri axarındakı Heydər Əliyev dəfələrlə, həm də nümayişkarcasına kor-koranə intizamın cızığından qırağa çıxıb, dövrün partiya dəbinə görə deyilməsi münasib olmayan cəsarətli sözləri də deyib, edilməsi mümkünsüz görünən, amma xalq tərəfindən arzulanan hərəkətləri də etməkdən çəkinməyib. Heydər Əliyevin Azərbaycanın partiya rəhbəri olaraq 1970-ci illərdə milli ovqatlı əsərlər yazan söz ustalarını müdafiə etməsi, ya milli memarlıq üslubu və əlamətlərinin qabarıq göründüyü tikililərin artmasına rəvac verməsi bugünkü baxışla adi işlər sayıla bilər. Amma o dövrə enincə aydınlaşır ki, zəlzələnin də, vəlvələnin də, adi bir gəmi qəzasının da rəsmən gizlədildiyi, istənilən təbii fəlakətin mütləq mənada itkisiz olması elan edildiyi saxtakar sovet zəmanəsində (təsadüfən söyləmirdilər ki, ən humanist zəlzələ SSRİ-də baş verir, çünki həmişə tələfatsız ötüşür) ayrı cür düşünüb ayrı cür danışmaq, həm də bu ideologiyanın aparıcı simalarından biri ola-ola belə etmək necə çətin, necə ağlasığmazmış; Kreml sifarişlərinin icraçısı olmalıykən rejimin başlıca tələblərindən biri sayılan xalqların milli özlüyünün tədricən aradan götürülməsi, vahid sovet xalqının yaradılması ideyasının əksinə getmək, milli özünüifadə və özünüdərkə rəvac vermək mürəkkəb zəmanə içində əsl milli fədakarlıq, şücaət idi.

…Heydər Əliyev hərbçi olub, birinci dərəcəli kommunistlərdən olub. Amma qeyd-şərtsiz tabeçiliyi tələb edən bu amillər də onun içərisini, mənini dəyişdirə bilməyib.

Heydər Əliyev inanmadığına heç zaman tabe olmayıb. Bu onun ən seçilən cəhətlərindən idi. Əgər sovet sistemi gözüyumulu tabeçiliyi deyil, məhz bu sayaq şüurlu intizamı və tabeolmanı əvvəldən intixab etmiş olsaydı, heç o cür əyintilərə, ifratlara uğrayaraq ildırım sürətiylə də tar-mar olmazdı.

Heydər Əliyev partiya, dövlət işinə, ona tapşırılan vəzifələrə sadiq qalmağına qalıb, amma vəzifələrin, nizamnamələrin, siyasi konyunkturların səfehliklərini qəbul edə bilməyib. Quruluşsa sona qədər və istisnasız qəbul edilməsini istəyirdi.

Azacıq sapınmanı yoldan azmaq – dissidentlik hesab edirdi. İnanıram ki, haqsızlıqla, dardüşüncəliklə, aşkar yalanla barışa bilməyən ağıllı bir insanın sıravi vətəndaş kimi həmin quruluş içərisində yaşamağı nə qədər ağır idisə, bütün eybəcərlikləri daha yaxın məsafədən, çox zamansa lap astar tərəfindən görən, özləri də dövlətin yuxarı qatlarında qərar tutanların belə həyata dözməkləri onlarçün lap müsibət, mənəvi sarsıntılar demək idi, o cümlədən Heydər Əliyevdən ötrü.

Bu səbəbdəndir ki, çox rəmzi olan bir hadisə də baş verdi – Heydər Əliyev, nəhayət ki, ötən əsrin səksəninci illərinin sonluğunda onillərlə cərgəsində dayandığı, xidmət etdiyi, rəhbərlərindən birinə çevrildiyi kommunistlər ordusundan üz döndərdi, partbiletindən imtina etdi.

Və mən inanıram ki, dünənimizə hər birimizdən daha yaxşı bələd olduğundan bəlkə də Heydər Əliyev müstəqilliyimizin, sərbəstliyimizin qədrini hər kəsdən daha çox bilirdi, onun dadını, şirinliyini hər birimizdən daha artıq hiss edirdi.

…Xatırlayıram böyük azərbaycanşünas alim, London Universitetinin professoru Turxan Gənceyinin 1998-ci ildə İngiltərə paytaxtında, Prezident Heydər Əliyevin oradakı soydaşlarımızla görüşündə güvən duyğusuyla və qəhərlənərək dediklərini.

Atası da, özü də taleləriylə, canlarıyla onillər boyu müstəqilliyimizi gətirmək yolunda fədakar mübarizələr aparmış, ömürləri boyu boğazdan yuxarı danışmamış bu qənimət adam, bu qocaman alim arxayın məmnunluqla: “Mən istiqlalımızın sabahından daha nigaran deyiləm.

Çünki millətimin üçrəngli bayrağı Heydər Əliyev kimi bir rəhbərin müqtədir əllərindədir”, – deyirdi [2].

…Heydər Əliyevi görmək asan deyildi. Nə sağlığında, nə indi. “Görmək” sözünün hərfi mənasında yox. O mənada Heydər Əliyevi görməkdən rahat iş yoxdur. Televiziya ekranlarında, ayrı-ayrı toplantılarda, görüşlərdə o, hər gün bizimlə üzbəüz idi və indi də Heydər Əliyevli lentlər bütün televiziyalarda əvvəlkindən də çox nümayiş etdirilir. Amma onu bütünlüyü ilə dərk etmək, mürəkkəb şəxsiyyətini dolğunluğu ilə qavramaq, hüdudsuz bir aləm olan bu insana nüfuz edə bilmək mümkünsüz qədər qəlizdir. Keçmişdə, onlu günlərdə də belə idi, indi də belədir.

Bu baxımdan Heydər Əliyev bütün dahilər kimi Təkdir. Bir ölçüdən yanaşanda, Tənhadır.

“Tək Adam”. Bu ifadəni vaxtilə böyük öndər Mustafa Kamal Atatürkə şamil ediblər [9].

Bu deyim millət öndəri Heydər Əliyevə də tam yaraşır. Bir başqa ölçüdən yanaşanda, başqa dahilər kimi, Heydər Əliyev də yalnız Tək yox, həm də Tənha idi.

Əlbəttə, üzdən baxanda sanki tənhalıqdan əsər-əlamət yox idi, tək də deyildi Heydər Əliyev. Ətrafında balaları, nəvələri, qohum-əqrəbası, silahdaşları... amma hər halda, bu nəhənglikdə şəxsiyyətlər həmişə daha çox tək olurlar, öz içərilərinə, özlərinin təkrarsız aləmlərinə qapılır, axtardıqları sualların cavablarını da öz daxili dünyalarında tapırlar.

Nə ağır yük, nə ağır məsuliyyətdir – ən düzgün yolu həmişə sən göstərməlisən, ən düzgün məsləhəti həmişə sən verməlisən, ən düzgün həlli həmişə sən tapmalısan, ən dolaşıq düyünü həmişə sən açmalısan. Həmişə sərvaxt olmalısan. Bir an belə zəifləməyə ixtiyarın yoxdur. Sən ümid yerisən və sənin məsləhət almalı yeganə ünvanın özünsən! Belə nadir və əvəzolunmaz insanın yeri bu gün (və həmişə) necə görünməsin?!

...Heydər Əliyevlə ayrılıqdan heç bir il keçməmişdi. Onun böyük yolunun davamçısı Prezident İlham Əliyevdən müsahibə alan əcnəbi müxbir bir ağır sual verdi ki, geridə qalan

aylarda elə anlarınız, elə məsələlərlə qarşılaşdığınız olubmu ki, həmin məqamda "kaş atam sağ olaydı, ondan məsləhət ala biləydim" hissi ilə yaşayasınız?

Prezident İlham Əliyev belə cavab vermişdi ki, atamı daim düşünürəm. Amma siz deyən mənada iki dəfə onun yanımda olmasını, məsləhətini almağı, inandığım müdrik sözünü dinləməyi çox istəmişəm.

...Amma bir vaxtlar bütün suallara Heydər Əliyev yalnız özü cavab tapmalı olduğu kimi, indi də ən qəliz sorğuların yeganə doğru cavabını tapmağın məsuliyyəti tək İlham Əliyevin çiyinlərindədir. İndi ümid yeri o özüdür!

Və böyük Heydər Əliyev böyük İlham Əliyevin hansı zirvələri fəth etdiyini, millətini və yurdunu hansı yüksəlişlərə çatdırdığını, Qarabağ düyünü kimi bir müşkülü həll edərək torpaqlarımızı azadlığa qovuşdurmasını, xalqın qürur və ləyaqətini ucalara qaldırmasını görsəydi, bəxtiyarların ən bəxtiyarı olardı.

Və kim bilir, bəlkə də görür!..

…Ulu Heydər Əliyevin ən üstün keyfiyyəti onun ali peşəkarlığı idi. Bu məziyyəti olmasaydı, dünyanın superdövləti Sovet İttifaqının rəhbərlərindən biri olandan sonra ucqar Naxçıvana da başçılıq etməyi özünə rəva görməz, dövlət işinin bütün ciddiyyəti və məsuliyyəti ilə min bir problemli, o vaxtlar yalnız Ermənistan deyil, elə Azərbaycan tərəfdən də müəyyən mənada blokadaya salınmış əyalətin idarəçiliyini boynuna çəkməzdi. Sonra Heydər Əliyev 8 milyonluq müstəqil Azərbaycanın başçısı oldu. Amma dünyanın ən böyük dövlətlərinin – əhalisi də, ərazisi də Azərbaycandan qat-qat artıq olan ölkələrin rəhbərləri ilə bir masa arxasında əyləşib danışıqlar aparanda Heydər Əliyevin şəxsiyyətinin böyüklüyü sayəsində Azərbaycan əslində olduğundan qat-qat böyük göründü və qarşı tərəf də Heydər Əliyevin Azərbaycanına daha ehtiramla, üstdən aşağı deyil, altdan yuxarı baxmağa başladı.

…1996-cı ilin oktyabrı idi.

Prezident təyyarəsi ilə Naxçıvana uçurduq. Heydər Əliyev ata-baba yurduna mühüm bir övladlıq borcunu yerinə yetirməkçün təşrif aparırdı. Böyük Hüseyn Cavidin məqbərəsinin açılışına. O məqbərənin ki, qübbəsi altında uzun illərin həsrətindən sonra Hüseyn Cavid, xanımı Mişkinaz, oğlu Ərtoğrol, nəhayət ki, məhz Prezident Heydər Əliyevin vətəndaş cəsarəti, qeyrət və qayğısı sayəsində qovuşmuşdular.

1941-ci il dekabrın 5-də buzlu Sibirdə 59-cu kamerada saxlanan 59 saylı məhbus Hüseyn Cavid 59 yaşında vəfat etmişdi. 1982-ci ildə şairin 100 yaşı tamam olanda Heydər Əliyev SSRİ tarixində heç kəsin edə bilmədiyini etmişdi – Cavidi Vətənə qaytarmışdı. Şairin nəşini əvvəlcə Bakıya, Cavidlər ailəsinin bir zamanlar yaşadığı mənzilə gətirmişdilər. Ustadın tabutu başında saygı duruşuna dayanan qızı Turanın da, mənəvi övladı Heydər Əliyevin də o zaman 59 yaşları vardı.

Cavid 1937-ci ildə həbs edilmişdi və 1996-cı ildə əzizləriylə cismən ayrılığından düz 59 il ötürdü. Mişkinaz xanım Bakıda, oğlu Ərtoğrol Naxçıvandakı ayrı bir qəbiristanlıqda uyuyurdu. Onların üçünü də, nəhayət ki, kəc taleyin, bəd ruzigarların acığına 59 il sonra Əcəmi yadigarı Möminə xatun məqbərəsinə tay olan gözəl bir mavzoleydə qovuşdurmaqla böyük Heydər Əliyev mənəviyyat tariximizin ən əlamətdar hadisələrindən birinin müəllifinə çevrildi [6, 26-27; 31-42].

(Cavidin həyatında rəqəmlərin bir-birini heyrətamiz şəkildə izləməsi var. Biri elə bu 59 rəqəmidir. Ustadın başının ölçüsü də 59 olub. Və o vaxt – 1996-cı ilin oktyabrında Cavid məqbərəsinin təntənəli açılışından bir neçə saat sonra Prezident Heydər Əliyev Naxçıvan qəbiristanlığında atasının da məzarını ziyarət etməyə getdi. Dəstəmiz onunla idi. Əlirza

kişinin məzar daşına baxanda diksindim. O, Cavidin oğlu Ərtoğrolla eyni ildə vəfat etmişdi və 59 yaşında!).

...1996-cı il oktyabrın 29-u idi, təyyarəmiz Naxçıvana – Cavid bayramına uçurdu, Prezident burada da işsiz dayana bilmirdi, səfər yoldaşlarından bir neçəsini dəvət edərək fikir bölüşürdü. Turan Cavid, Yaşar Qarayev, Anar, mən... daha bir neçə nəfər. Söhbət Mirzə Cəlildən, onun Bakıda indiyədək abidəsinin olmamasından düşmüşdü. Mən: "Mirzə Cəlil elə müstəsna şəxsiyyətdir ki, ona abidənin ucaldılması üçün bütün qayğılara baxmayaraq, imkan tapılması vacibdir", – dedim.

Prezident Heydər Əliyev: "Nəsimi də müstəsnadır, Vaqif də müstəsnadır, Cabbarlı da, Cavid də... Mən onların hər biri üçün bacardığımı etdim. Bəs niyə mən bir neçə il Azərbaycanda olmadım, davam etdirmədilər, digər klassiklərimiz, elə Mirzə Cəlil üçün abidələr ucaltmadılar? Hamısını yalnız mən etməliyəmmi?" – dedi.

Sükut oldu və dilləndim ki, bəli, cənab Prezident, Siz etməlisiniz.

Düz gözlərimə baxdı.

Davam etdim:

– Çünki Siz özünüz də müstəsna şəxsiyyətsiniz!

Gülümsündü:

– Biz Mirzə Cəlilin Bakıdakı abidəsi barədə də düşünəcəyik [7, 30-31].

…Azərbaycana XX yüzilin əvvəlində cəmi 23 ay yaşayacaq istiqlal qismət olmuşdu.

Həmin əsrin sonunda Azərbaycana təzədən nəsib olmuş müstəqillik yenə təxminən həmin qədər ömür sürdükdən sonra büdrəyə, itirilə bilərdi. Millətin bəxti ayaq üstəymiş ki, Tale bizi bu zavaldan xilas etdi – Heydər Əliyev qayıtdı, istiqlal yükünün bütün ağırlığını dözümlü çiyinlərinə götürdü, il-il irəlilətdi və müstəqilliyin yaşına əlavə olunan hər illə bu əzizdən-əziz, üstündən-üstün nemətimizi, ən ali sərvətimizi sarsılmaz etdi. XX yüzilin ikinci onilliyinin sonunda böyük vətənpərvərlərin iri bir dəstəsinin hamısının birlikdə görə bilmədiyi işi Heydər Əliyev XX yüzilin 90-cı illərində təkbaşına edə bildi. Müstəsnalığın bariz təsdiqi deyilmi? XX əsrdə Heydər Əliyev 7 il Azərbaycan Prezidenti oldu.

Əsr dəyişdi, minillik təzələndi. O, yeni minillikdə də ilk Prezidentimiz idi. İki əsrin, iki minilliyin Azərbaycan Prezidenti olmaq bundan sonra kiməsə bir də min il sonra qismət ola bilər. Bu nadir iqbal və şərəf də Heydər Əliyevin bəxtinə düşdü.

Müstəsnalıq deyilmi? Xarici maraqların, yüz cür məkrli əcnəbi siyasətlərin bəlamıza çevirə biləcəyi sərvətimiz nefti dahiyanə apardığı siyasətlə sabahkı firavanlığımızın bünövrəsinə döndərdi, ən iri dövlətlərin yürütdüyü xəttə müttəfiq çıxmasına, qol qoymasına nail oldu. Müstəsnalıq deyilmi?! Dünyaya meydan oxuyan Amerika onu ən böyük övladlarından birinə bənzər tutaraq "Mərkəzi Asiyanın Corc Vaşinqtonu" adlandırdı [5].

Müstəsnalığın daha bir görüntüsü deyilmi?! Heydər Əliyev 30 ildən çox hakimiyyətdə oldu. Bu onilliklər boyunca nəsillər dəyişdi, siyasətlər dəyişdi, dünya dəyişdi. Amma liderlik yolunun başlanğıcında – 1970-ci illərdə Heydər Əliyev Azərbaycan, yaxın və uzaq xaricdə ən güclü, ən əvəzolunmazlardan sayıldığı kimi, ixtiyar çağında da, XX əsrin sonları və XXI əsrin əvvəllərində də bu üstünlüyü qoruyub saxladı. Müstəsnalıq deyilmi?!

Bu gün artıq həyatda olmadığı günlərdə də onu eşitmək, ondan öyrənmək, ondan mənəvi güc almaq ehtiyacımız varsa, bu, müstəsnalıq deyilmi?!

...Bitmiş XX yüzildə, başlanmış XXI əsrdə Arazın o tayında və bu sahilində, orada – Güney Azərbaycanda, burada – Azərbaycan Respublikasında soydaşlarımız iki dağa ən böyük dayaq, nicat rəmzi, milli səadət nişanəsi kimi baxdılar.

Bu dağlara arxalandılar, bu dağlara and içdilər. Adaş dağlara. Cənubi Azərbaycandakı Heydərbaba dağına. Azərbaycan Respublikasında uşağın da, cavanın da, ahılın da, qocanın

da sevə-sevə “Heydər baba” dediyi Ulu Öndər Heydər Əliyev DAĞINA! Millətimizin Böyük Dayaqlarının, xalqın ümid və inam yeri olan Dağlarımızın vüqarı əskik olmasın!

1990-cı illərin ortalarında unudulmaz Heydər Əliyevi müxtəlif xarici ölkələrə səfərləri zamanı müşayiət edərkən gördüyüm bir məqam – onun hər dəfə növbəti parlaq çıxışı əsnasında xəritə qarşısına keçərək əlindəki göstərici ilə bir tarix, coğrafiya müəllimi kimi Azərbaycanı nişan verməsi, Vətənimiz haqqında həqiqətləri təkrar-təkrar beyinlərə həkk etməyə çalışması çox riqqətləndirici, həm də son dərəcə rəmzi idi.

Ulu Öndər elə düşüncəmdə həmişə də bu cür qalacaq.

Böyükdən böyük Müəllim kimi!

Çağdaş dünyanın mürəkkəb coğrafiyası müstəvisində Yurdunu və Xalqını hifz edən, ucaldan, sabahlar içərisində millətin səadətlərinə təməllər quran, həm özü tarix olan, həm də tarix yaradan bir MÜƏLLİM!

Heydər Əliyev ömrünün bitəcəyində arxayın uzaqgörənliklə bir ülvi niyyətini də (ötən zaman da sübut etdi ki, həm də danılmaz bir gerçəyi) dilə gətirmişdi: “Mən Azərbaycanda həmişə olacağam”.

Bu Vətən, qəliz dünyamızın axarındakı bu göyçək Azərbaycan hər birimizdən ötrü yalnız sevimli yuva deyil, həm də hər gün dərs aldığımız bir Məktəb, daim soydaşlarla dolu Əbədi Dərs Otağıdır.

Nə qədər ki bu Dərs Otağından keçənlər Əziz Tarix Müəllimimizin – unudulmaz Heydər Əliyevin açdığı və necə getməli olduğumuzu göstərdiyi YOLa sadiq qalacağıq, uğur və zəfərlər də bizimlə olacaq.

Hər səhərimiz Məktəb Zəngiylə – himnimizlə başlayır.

Böyük Müəllimimiz hər gün Dərs Otağında – Azərbaycandadır, bizimlədir!..

…Ömür yalnız təqvimin hökmüylə yaşanmış günlərin yığımı deyil. Ömrü ömür edən arxada qalan günləri dolduran mübarizələr, iş-güc, uğurlar, bihudə ötürmədiyin anlar, illərin köksünə həkk etdiyin böyük əməllərdir.

Zirvələr fatehi Heydər Əliyev ömrü uzunu xalq üçün, yurd üçün, dövlət üçün çalışdı. Ömür kitabını şərəfləndirən cahanşümul uğurlara imza atdı. Bu gün o, dünən olduğu kimi, yenə bütün Azərbaycan boyuncadır. Abidəyə çevrilərək Vətənin hər guşəsindən sevimli ölkəsini, əziz xalqını seyr edir. Ondan bizə çox yadigarlar qalıb – hamısı dəyərlidir. Ancaq Heydər Əliyevin bütün taleyinin, varlığının mənası sayılası ən vacib əsər – onun yaratdığı Yoldur. Çox seçkinlərimiz, böyüklərimiz gəlib-gedəcəklər, söz yox ki, çoxlu parlaq izlər də qoyacaqlar. Lakin bütün millət üçün Böyük Yol yaratmaq qüdrəti yalnız Heydər Əliyev kimi müstəsnaların alın yazısıdır. Bizə bağışladığın bu Yola görə ruhun şad olsun, böyük öndər! Yolun yaşayırsa, onsuz da ruhun həmişə şad olacaq!..

Xoşbəxtlik anlayışının dəqiq düsturunu, hansı məsudluğun çəki baxımından daha ağır olduğunu bilən yoxdur və bəşərin var olduğu müddətcə bu suala cavab tapılmayıbsa, “Əsl, ən böyük səadət nədir?” sorğusu elə axıracan da açıq qalacaq.

Amma hər halda bir bəxtiyarlıq var ki, tərəzinin gözündə bütün başqa xoşbəxtliklərdən daha ağır gələndir: Milləti və Yurdu üçün yaşayan yol yarada bilmək məsudluğu!

Seçilmişlərə nəsib olan bu səadət də, xalqına yadigar qoyduğu həmin Yolla birgə minnətdarlıqla anılaraq yaşamaq bəxtiyarlığı da böyük Heydər Əliyevin qismətidir!

## İstifadə olunmuş ədəbiyyat siyahısı


1. Anar. Heydər Əliyevlə vida bötöv bir dövrlə vida idi. "525-ci qəzet". Bakı, 14.XII.2015

2. Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin Böyük Britaniyada yaşayan Azərbaycan icması üzvləri ilə görüşü. Azərbaycan Televiziya və Radiosu QSC-nin videotekası. 22 iyul, 1998

3. Hüseyn Cavid. Naxçıvan. Tərtibçi: Abutalıb Qasımov. LTD ŞTİ. Ankara, 1996

4. Qulam Məmmədli. Ömür dəftərindən səhifələr. Xatirələr. Görüşlər. Müsahibələr. "Təhsil", Bakı, 2016

5. Qreq Laflin. Heydər Əliyev Mərkəzi Asiyanın Corc Vaşinqtonudur. Azertag.az/xeber/QREQ_LAFLİN_ABS. 18.II.2004

6. Ömrün üç günü. Tərtibçi: Vahid Əziz. Naxçıvan, 29-31 oktyabr, 1996. "Ergün" nəşriyyatı, 1997

7. Rafael Hüseynov. Söz heykəli. "Elm və təhsil". Bakı, 2012

8. Rafael Hüseynov. Böyük yolun həqiqəti. "Elm və təhsil" nəşriyyatı. Bakı, 2020

9. Şevket Sürüyya Aydemir. Tek Adam. Remzi Kitabevi, İstanbul, 2011

10. Кремлёвские будни Гейдара Алиева. Составитель: Эльдар Аскеров. Издательство «Адильоглы». Баку, 2007



**Рафаэль Гусейнов**

**Депутат Милли Меджлиса Азербайджанской Республики, академик**


### Счастье создавать вечно живущий путь

### Р Е З Ю М Е


У общенационального лидера Гейдара Алиева много заслуг в истории современной азербайджанской государственности, но вершиной этих заслуг является его способность защитить нашу государственную независимость в трудный исторический период и создать основы современного Азербайджанского государства. Подобно тому, как государственная независимость Азербайджана, обретенная в начале XX века, оборвалась, не дожив до 2-х лет, суверенитет, восстановленный после 70-летнего перерыва в конце того же века, мог бы вновь оборваться, не дойдя до 2-летнего возраста. Именно в такой сложный переломный момент истории интеллект, знания, воля и настойчивость Гейдара Алиева смогли защитить независимость Азербайджана от внешних и внутренних посягательств и спасти страну от раскола. Гейдар Алиев, находившийся во главе руководства Азербайджана с 1960-х до начала 1980-х годов, действительно именно в советские десятилетия смог создать многие основы для этого переходного периода республики, который по воле истории начнет идти вперед по пути независимости в последнее десятилетие XX века. Гейдар Алиев сумел точно определить контуры пути, по которому страна шла вперед в период независимости, именно потому, что знал изнутри и глубоко все основные подробности политической, экономической, культурной и духовной жизни Азербайджана. Одними из главных качеств Гейдара Алиева как незаурядного государственного деятеля были его универсальность, профессиональное и глубокое знание тайн государственного и национального строительства, а также хорошее знание кадрового потенциала в различных областях и умение руководить ими правильно. В статье на конкретных исторических примерах анализируется борьба Гейдара Алиева в деле создания пути, ведущего к победам современное Азербайджанское государство, а также основные моменты, обусловливающие дальнейшее продолжение этого пути.

**Rafael Huseynov**
**Member of the Milli Majlis of the Republic of Azerbaijan**

## Happiness to create a PATH that lives on

### S U M M A R Y

The merits of Heydar Aliyev in the history of modern Azerbaijani statehood are innumerable, however the pinnacle of these merits is his ability to protect our state independence in a complicated historical period and create the foundations of a modern Azerbaijani state. Just as the state independence of Azerbaijan gained at the early 20th century was broken before reaching its 2nd year, the sovereignty restored after a 70-year break at the end of the same century could be have been broken again before it was 2 years old. It was at such a difficult turning point in history that namely the intelligence, knowledge, will and perseverance of Heydar Aliyev facilitated the protection of the independence of Azerbaijan from external and internal encroachments and save the country from disintegration. Heydar Aliyev who was in the leadership of Azerbaijan from the 1960s to the early 1980s, namely in the Soviet decades succeeded indeed in creating many foundations for this transitional period of the republic which, according to the judgment of history, would begin its progress through independence in the last decade of the 20th century. Namely due to the fact that Heydar Aliyev was well-aware from the inside and deeply of all the major details of the political, economic, cultural and spiritual life of Azerbaijan, he succeeded in accurately determining the contours of the path that the country would follow in the period of independence. One of the main qualities of Heydar Aliyev as an outstanding statesman was his versatility, professional and deep knowledge of the secrets of state and nation building, as well as a good knowledge of human resources in various fields and the ability to direct them correctly. The article using specific historical examples analyzes the struggle of Heydar Aliyev for the creation of a path leading to the victories of the modern Azerbaijani state, and the basic points that determine the continuation of this path in the future.

***Jalə ƏLİYEVA***

Azərbaycan Respublikası Milli Məclisinin deputatı
Milli Məclisin Ailə, qadın, uşaq məsələləri komitəsinin sədr müavini,
f.ü.e.d., professor

# AZƏRBAYCAN HÜQUQİ QURUCULUQ YOLUNDA İNAMLA İRƏLİLƏYİR

***Açar sözlər:*** *Azərbaycan, Heydər Əliyev, hüquqi dövlət, konstitusiya, insan və vətəndaş hüquq və azadlıqları, vətəndaş cəmiyyəti*

***Ключевые слова:*** *Азербайджан, Гейдар Алиев, правовое государство, конституция, права и свободы человека и гражданина, гражданское общество.*

***Keywords:*** *Azerbaijan, Heydar Aliyev, legal state, constitution, human and civil rights and freedoms, civil society*

Hər bir dövlət üçün insan hüquq və azadlıqlarının təmin edilməsi vacib amillərdəndir. Dünya sivilizasiyasında mövcud olan və insanların fundamental hüquqlarının qorunması, şəxsiyyət amili, ədalətli yanaşma, bərabərlik prinsiplərinin qorunması kimi ortaq dəyərləri birləşdirən bu amillər, həm də bir ölkənin özünütəsdiqi baxımından da önəmli yerdə gəlməkdədir. Dövlət institutlarında bu dəyərlər qanunlarla müəyyən edilir, qorunur, təmin olunur.

Əslində insan hüquqları insanın sadə ehtiyaclarını əks etdirir. İnsan hüquqları bərabərlik, ləyaqət, hörmət, azadlıq və ədalət məfhumlarını ehtiva edən dəyərlər toplusudur. Hər bir insan ayrı-seçkiliyə məruz qalmamaq, yaşamaq, söz azadlığı, təhsil almaq və digər hüquqlara malikdir. İnsan hüquqları bütün şəxslər üçün bərabər və daimi, hər bir dünya insanı üçün eynidir. Yəni, hər bir fərdin hansı ölkədə doğulmasından və ya yaşamasından asılı olmayaraq hüquqları bərabərdir. Onlar ayrılmaz, bölünməz və bir-birinə bağlıdır. Bu, o deməkdir ki, bu hüquqlar heç vaxt insanlardan alına bilməz. Bütün hüquqlar eyni dərəcədə vacibdir və tamamlayıcıdır.

Hər kəsin doğulduğu andan toxunulmaz, ayrılmaz hüquqları və azadlıqları vardır. Bu hüquq və azadlıqlar şəxsin cəmiyyət və digər şəxslər qarşısında məsuliyyətini və vəzifələrini əhatə edir. Vətəndaş hüquq və azadlıqları hər bir şəxsin məxsus olduğu dövlətin Ana Qanunu olan Konstitusiyalarda təsbit edilərək, əsas hüquqlar və beynəlxalq normalar çərçivəsində inkarolunmaz bir hüquq kimi qəbul olunub.

Beynəlxalq aləmdə insan haqları BMT-nin İnsan hüquqları haqqında Ümumi Bəyannaməsi ilə qanuniləşdirilib. İnsan haqları bir çox hallarda bütün insanların eyni hüquqa malik olması ideyasına uyğun şəkildə belə ifadə olunur: "Hər bir insan onun mənsub olduğu irqdən, cinsiyyətdən, dildən, dindən, siyasi və digər baxışlardan, milli və sosial mənşədən, mülkiyyətdən, doğum və başqa hallardan asılı olmayaraq, təmin edilmiş insan haqlarına və azad olmaq hüququna malikdir".

Bütün sivil ölkələrdə olduğu kimi, Azərbaycanda da bu meyarlar ən yüksək səviyyədə həyata keçirilir. Sevindirici haldır ki, bugünkü inkişafı ilə bölgədə və dünyada söz sahibinə çevrilən Azərbaycanda insan hüquqları sahəsində strateji əhəmiyyətli sənədlərin təsdiqi, bir

sıra uğurlu islahatların aparılması insan hüquqlarının müdafiəsi baxımından mühüm təcrübə formalaşdırmasına imkan yaradıb.

Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra dövlətimiz beynəlxalq cəmiyyətin tamhüquqlu üzvü və eyni zamanda hüququn müstəqil subyekti kimi bütün təməl dəyərlərə sadiq olduğunu bəyan etdi, Dünya Birliyinin tam hüquqlu üzvü kimi ümumbəşəri dəyərlərin üstünlüyünü qəbul etməklə demokratik, hüquqi və dünyəvi dövlət quruculuğunu özünün inkişaf yolu seçdi.

Bu gün ölkəmizdə insan hüquq və azadlıqlarının təminatı istiqamətində mükəmməl qanunvericilik bazası mövcuddur. Bu mükəmməl qanunvericilik bazasının ana xəttini təşkil edən insan hüquqları təminatının əsası ölkəmizdə Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulub. Məhz onun sayəsində Azərbaycanın müasir inkişaf dövründə hüquqi dövlət quruculuğu və insan hüquqlarının müdafiəsi sahəsində səylərin gücləndirilməsi dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyən edildi. İnsan hüquqları sahəsində ölkəmizdə atılan mühüm addımlar Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndər 1993-cü ildə hakimiyərə ikinci dəfə gəlişindən sonra Azərbaycanda dövlət quruculuğu və dövlətçilik prinsiplərinin bərqərar olması, vətəndaş hüquq və azadlıqlarının rəmin edilməsi istiqamərində həmin günə qədəd mövcud olmayan addımlar arıldı. Bu addımlardan ən birincisi və əsası Ulu Öndərin bilavasitə rəhbərliyi ilə hazırlanan və 1995-ci il noyabrın 12-də referendum yolu ilə qəbul olunan Azərbaycan Respublikasının Konstitusiyası oldu. Məhz qəbul edilən bu Konstitusiya ilə insan və vətəndaş hüquq və azadlıqları ali dəyər kimi qiymətləndirilərək, onlara hörmət, insan hüquq və azadlıqlarının qorunması, qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının vəzifəsi kimi müəyyən edildi.

Məhz onun rəhbərliyi ilə ölkəmizdə milli qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində görülən kompleks tədbirlər qanunçuluğun təmininə, insan, vətəndaş hüquq və azadlıqlarının etibarlı müdafiəsinə xidmət etməkdədir. Belə ki, Ulu Öndərin yolgöstərənliyi ilə Azərbaycanda insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsinin real təminatı üçün zəngin qanunvericilik bazası formalaşdırılıb. Bu baxımdan ölkəmizdə həyata keçirilən hüquqi islahatların ən mühüm mərhələlərindən biri də Ombudsman təsisatının yaradılması idi. Ulu Öndər ilk dəfə insan hüquqları üzrə müvəkkil institutunun təsis edilməsi üçün 1998-ci il 22 fevral tarixli "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" Fərman imzaladı. Habelə 1998-ci il 18 iyun tarixli Sərəncamı ilə təsdiq edilən Dövlət Proqramında İnsan Hüquqları Müvəkkili təsisatının yaradılması təmin edildi. Məhz bu institutun yaradılması hüquqi dövlət quruculuğu istiqamətində aparılan islahatların məntiqi ardıcıllığı hesab olunur.

1992-ci il martın 2-dən BMT-nin, 2001-ci il yanvarın 25-dən isə Avropa Şurasının üzvü olmuş Azərbaycan çoxlu sayda beynəlxalq müqavilənin iştirakçısıdır ki, bunların da təxminən yarısı insan hüquq və azadlıqları ilə bağlıdır.

Ulu Öndər Heydər Əliyev tərəfindən Azərbaycanda insan hüquq və azadlıqlarının qorunması sahəsində atılan bu inqilabi və olduqca vacib addımlar, bu gün də sistemli bir şəkildə uğurla inkişaf etdirilərək, dövlət siyasətinin ayrılmaz bir parçasına çevrilməkdədir. Belə ki, Prezident İlham Əliyevin 2006-cı il dekabrın 28-də imzaladığı "Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planının təsdiq edilməsi haqqında" Sərəncamın əhəmiyyəti olduqca böyükdür. Məhz bu qanunvercilik bazası əsasında Azərbaycanın müasir inkişaf dövründə hüquqi dövlət quruculuğu və insan hüquqlarının müdafiəsi sahəsində səylərinin gücləndirilməsi mümkün olub. Bu baxımdan da ölkəmizdə insan hüquqlarının qorunması və təmini istiqamətində görülən işlər beynəlxalq

təşkilatlar tərəfindən də yüksək qiymətləndirilir. Azərbaycanda aparılan demokratik hüquqi islahatlar insan hüquqlarının müdafiəsi sahəsində mühüm irəliləyişlərin əldə edilməsinə şərait yaradıb.

Prezident İlham Əliyevin 2007-ci tarixli Sərəncamı ilə ölkəmizdə "İnsan hüquqları müdafiəsinə dair Dövlət Proqramı" təsdiq edilib.

Ötən illər ərzində Azərbaycan Respublikası insan hüquqları sahəsində fəaliyyət göstərən nüfuzlu beynəlxalq qurumlarla əməkdaşlığı inkişaf etdirib, insan hüquqlarının müdafiəsi sahəsində 50-dən çox beynəlxalq sənədə tərəfdar çıxıb və bu sahədə beynəlxalq öhdəliklərin həyata keçirilməsində mühüm nailiyyətlər əldə edib.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə insan hüquq və azadlıqlarının qorunması istiqamətində görülən işlər beynəlxalq təşkilatlar tərəfindən də yüksək qiymətləndirilir. Bu gün insan hüquq və azadlıqlarının Azərbaycan nümunəsi bir çox ölkələr üçün örnəkdir.

Azərbaycanda dövlətin qarşısında duran əsas və vacib məsələ insan hüquq və azadlıqlarının müdafiəsi, hər bir vətəndaşın layiqli həyat şəraitinin təmin edilməsidir. Respublikamızın ana qanunu olan Konstitusiyamızda insanların hüquq və azadlıqlarının müdafiəsi ilə əlaqədar xüsusi müddəalar təsbit olunub. 2016-ci ildə keçirilən ümumxalq səsverməsi yolu ilə Azərbaycan Konstitusiyasının 42 maddəsinin 22-də edilən dəyişikliklərlə insanların hüquq və azadlıqlarının əhatə dairəsi daha da genişləndirilib. Prezidentin 27 dekabr 2011-ci il Sərəncamı ilə Azərbaycan Respublikasında hüquq və azadlıqların müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı təsdiq edilib. Milli Fəaliyyət Proqramı 6 fəsildən ibarət olmaqla insanların hüquq və azadlıqlarının beynəlxalq normalara uyğun təmin olunması istiqamətində təşkili ilə bağlı çox əhatəli tədbirləri özündə əks etdirir. Milli Fəaliyyət Proqramında ictimai həyatın bütün təbəqələrinin, o cümlədən uşaqların, miqrantların, siyasi fəaliyyətlə məşğul olanların, erməni işğalı nəticəsində hüquqları pozulmuş keçmiş qaçqın və məcburi köçkünlərin, məhbəs həyatını yaşayanların hüquq və azadlıqlarının təmin edilməsinə geniş yer verilib.

Bu gün ölkəmizdə formalaşmış vətəndaş institutları və vətəndaş cəmiyyəti azad şəkildə fəaliyyət göstərir. Korrupsiyaya qarşı mübarizənin genişləndirilməsi, iqtisadiyyatın şəffaflaşdırılması və vətəndaşlara xidmətlərin şəffaf təqdim olunması dövlətimizin gündəlik fəaliyyətinə daxil edilib. Etnik və dini mənsubiyyətindən asıllı olmayaraq ölkəmizdə bütün vətəndaşlara bərabər hüquq və şərait təmin olunub. Azərbaycan dünyanın çox az ölkələrindəndir ki, multikulturalizim və tolerantlıq siyasəti gündəlik həyat tərzi kimi qəbul edilib. Dövlətimizin yaratdığı bərabər şərait sayəsində hər bir şəxs özünün azad və firavan həyatını qura bilir. Eyni zamanda hüquq və azadlıqların təmin olunması ölkəmizdə həm də yeni siyasi mədəniyyəti formalaşdırır. Ölkəmizdə aparılan geniş islahatlar yeni siyasi konfiqurasiya yaradıb. Prezident Administrasiyasında yeni şöbənin yaradılması və siyasi partiyalar və vətəndaş cəmiyyətinin təmsilçilərinə yeni yanaşmanın ortaya qoyulması siyasi mədəniyyətin səviyyəsinin yüksəlməsinə xidmət edən amillərdəndir. Azərbaycan Respubikası Milli Məclisinə keçirilən növbədənkənar seçkilərdə formalaşmış yeni tərkibin fəaliyyəti, o cümlədən ilk dəfə olaraq müxalif siyasi partiyaların nümayəndələrinin parlamentin və komitələrin rəhbərliyində təmsil olunması yeni siyasi mədəniyyətin formalaşmasının göstəricisidir.

Ölkəmizdə siyasi partiyaların qeydiyyatdan keçmə prosesi sadələşdirilib. Partiya yaradaraq öz siyasi fəaliyyətlərini ortaya qoymaq istəyənlərə yeni imkanlar yaradılıb. 2020-2021-ci illərdə yeni 9 siyasi partiya Ədliyyə Nazirliyində qeydiyyata alınıb. Ölkədə konstruktiv müxalifətin tənqidləri və hakimiyyətin fəaliyyətindəki nöqsanların gündəmə

gətirilməsi çox səmimi qəbul edilir və dövlətin iş mexanizminin təşkilində nəzərə alınır. Təbii ki, bu yeni yanaşma siyasi mədəniyyət səviyyəsinin yüksəlməsidir. Həm də siyasi partiyaların vahid mövqedən çıxış etmə ənənəsi formalaşıb. Bunun təzahürü olaraq xalqın rufahının, əmin-amanlığın, dövlət müstəqilliyinin möhkəmlənməsinə xidmət edən vacib məqamlarda ölkəmizdəki bütün siyasi qüvvələrin birləşməsi və öz siyasi baxışlarını kənara qoyaraq, eyni mövqedən çıxış etmək, qərar qəbul etmək səylərini ortaya qoyması sağlam vətəndaş cəmiyyətinin formalaşmasında və inkişafında əldə edilən əhəmiyyətli bir nailiyyət olaraq qeyd edilməlidir. 44 günlük Vətən müharibəsində ölkəmizdə fəaliyyət göstərən demək olar bütün siyasi partiyaların mövqeyi üst-üstə düşdü və beynəlxalq ictimaiyyətə vacib çağırışlar edildi. Ümumilikdə ölkəmiz inkişaf etdikcə baxışlar da dəyişilir. Dövlətin insan hüquq və azadlıqların təmin olunması istiqamətində atdığı addımların əhatə dairəsi genişlənir və hər bir vətəndaşın hüquqları yüksək səviyyədə təmin olunur. Məhz bunun göstəricisidir ki, Azərbaycanda möhkəm təməllər üzərində hüquqi bir dövlət qurulub.

Sual oluna bilər ki, hüquqlarımızı necə müdafiə edə bilərik? Təbii ki, hüquqlarımızı bilmək üçün, ilk növbədə hüquq və vəzifələrimizi öyrənməli, bunlarla bağlı müəyyən bilgilərə sahib olmalıyıq. Bütün bunlar nəzərə alınaraq məktəblərdə, ali və orta ixtisas təhsili müəssisələrində təhsil alan uşaq, yeniyetmə və gənclərimizə tədris olunan fənlər üzrə biliklər verilməklə yanaşı, onlara mütəmadi olaraq insan hüquqları barədə də ətraflı məlumatlar verilir, maarifləndirmə işləri aparılır.

Ölkə başçısı İlham Əliyevin 2007-ci il 18 iyun tarixli sərəncamı ilə hər il iyunun 18-i Azərbaycan Respublikasında İnsan Hüquqları Günü kimi qeyd edilir. Həmin əlamətdar gün ərəfəsində 18 may-18 iyun tarixlərində ölkədə "İnsan hüquqları aylığı"elan edilir. Bununla əlaqədar dövlət və yerli özünüidarə orqanları, elm, təhsil və tibb müəssisələri, vətəndaş cəmiyyəti institutları, o cümlədən qeyri-hökumət təşkilatları tərəfindən "İnsan hüquqları aylığı" çərçivəsində insan hüquqlarına həsr olunan silsilə tədbirlər təşkil olunur, müxtəlif media orqanlarında bununla bağlı maarifləndirici yazılar dərc edilir. Bu tədbirlər və media vasitəsilə geniş iştirakçı və oxucu auditoriyasına Ümummilli Lider Heydər Əliyev tərəfindən 1998-ci ilin 18 iyun tarixində imzalanan "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı" çərçivəsində Azərbaycanda qorunan və inkişaf etdirilən insan hüquq və azadlıqları haqqında məlumat verilir. Eyni zamanda Ölkəmizin Xilaskar Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin 2007-ci il 18 iyun tarixli sərəncamına əsasən, hər il iyunun 18-nin respublikamızda İnsan Hüquqları Günü kimi qeyd olunması özlüyündə Azərbaycanın demokratik dəyərlərə və bu dəyərlərin başlıca meyarı olan insan hüquq və azadlıqlarına verdiyi qiymət kimi vurğulanır.

Artıq bir ənənəyə çevrilən, hər ilin 18 iyun – Azərbaycan Respublikasında İnsan Hüquqları Günü ərəfəsində ölkəmizdə "İnsan hüquqları aylığı"nın elan edilməsinin əsas məqsədi də məhz insan hüquqlarının müdafiəsi və təbliği sahəsində həyata keçirilən fəaliyyəti gücləndirmək, qazanılmış nailiyyətlər barədə ictimaiyyəti məlumatlandırmaq, mövcud problemlərin aradan qaldırılması ilə bağlı qarşıda duran vəzifələri müəyyən etmək, habelə əhalinin hüquq düşüncəsini və hüquq mədəniyyətini inkişaf etdirmək, ayrı-seçkiliyin yolverilməzliyinin zəruriliyini diqqətə çatdırmaqdır.

Ölkəmizdə insan hüquqları təhsili ilə bağlı olaraq da müəyyən işlər həyata keçirilib. Belə ki, insan hüquqları təhsili istiqamətində "İnsan hüquqları", habelə "Genderə giriş" fənləri müstəqil bir fənn kimi Bakı Dövlət Universiteti səviyyəsində tədris olunur. Adıçəkilən universitetdə "İnsan hüquqları üzrə YUNESKO" kafedrası yaradılıb, bakalavr və magistr pilləsində insan hüquqları üzrə kadr hazırlığına başlanılmaqla bu sahəyə elmi yanaşma

nümayiş etdirilir. Həmçinin “İnsan hüquqları üzrə mühazirələr toplusu” adlı dərslik də hazırlanaraq nəşr edilib.

Onu da xüsusi vurğulayaq ki, hüquqi dövlət quruculuğu yolunu seçmiş ölkəmizdə həyata keçirilən tədbirlər və islahatlar insanlarda hüquqi inamın formalaşmasına, əhali arasında hüquq mədəniyyətinin yayılmasına və bu istiqamətdə bir sıra uğurlu nəticələrin əldə olunmasına öz layiqli töhfəsini verməkdədir.

**İstifadə olunmuş ədəbiyyat siyahısı**


1. “Heydər Əliyev. Müstəqilliyimiz əbədidir”. 1-ci cild. Bakı – 2013, 632səh.
2. Hacıyev İ. Heydər Əliyev və milli-tarixi yaddaşın bərpası. Bakı – 2003, 164səh.
3. Xalqa bağlanmış ömür. II kitab. Bakı – 2004, 519səh.
4. Hüseynova İ. Müstəqilliyimizin təminatçısı. Bakı – 2003. 504 səh.
5. Xalqa bağışlanan ömür. III kitab. Bakı – 2004, 543 səh.
6. Yusifov M. Milli Lider və müstəqil dövlətçilik. Bakı – 2005, 210 səh.
7. “Heydər Əliyev. Müstəqilliyimiz əbədidir”. 2-ci cild. Bakı – 2013, 752səh.
8. Əkbərov B. Heydər Əliyev mili konstitusiyamızın yaradıcısı və banisidir. Bakı – 1998, 96səh.
9. Heydər Əliyev və azərbaycançılıq məfkurəsi. Bakı – 2002, 232səh.
10. Muradov Ş. Ulu öndər Heydər Əliyevin inkişaf strategiyasının təntənəsi.Bakı-Avropa-2019.594 səh.
11. Hüseynova M. Missiya. Bakı-ADPU-2019.366 səh.
12. Qasımlı M. Heydər Əliyev- istiqlala gedən yol (1969-1987- ci illər).Bakı-206. 608 səh.


**X Ü L A S Ə**


Hüquqi dövlət hər bir vətəndaşa cəmiyyətin bütün seqmentlərinə siyasi həyatda iştirak etmək barədə hüquqi imkanlar açır və hər bir fərdin hüquqlarını təmin edir. Buna görə Azərbaycan Respublikası öz dövlət müstəqilliyini bərpa etdikdən sonra demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu yolunu seçmiş və bu istiqamətdə uğurlu addımlar atmışdır. Hazırda cəmiyyətimizin bütün sahələrini əhatə edən hüquqi islahatlar Azərbaycan Respublikasında həyata keçirilən siyasətin prioritet istiqamətlərindəndir. Hüquqi islahatların təməli isə xalqımızın Öndəri Heydər Əliyevin rəhbərliyi ilə işlənib-hazırlanmış Azərbaycan Respublikasının 1995-ci il Konstitusiyasında öz əksini tapmışdır.



**Жаля Алиева**
**Депутат Милли Меджлиса Азербайджанской Республики,**
**Заместитель Председателя Комитета по вопросам семьи, женщин и детей**
**Милли Меджлиса, д.ф.н., профессор**


**Азербайджан уверенно идет по пути правового строительства**

**Р Е З Ю М Е**


Верховенство права предоставляет каждому гражданину законные возможности участвовать в политической жизни для всех слоев общества и обеспечивает права каждого человека. Поэтому после восстановления своей государственной независи-

мости Азербайджанская Республика избрала путь демократического, правового, светского государственного строительства и предприняла успешные шаги в этом направлении. В настоящее время правовые реформы, охватывающие все сферы жизни нашего общества, являются одним из приоритетных направлений политики, реализуемой в Азербайджанской Республике. Основа правовых реформ нашла отражение в Конституции Азербайджанской Республики 1995 года, которая была разработана и подготовлена под руководством Лидера нашего народа Гейдара Алиева.

**Jala Aliyeva**
**Member of the Milli Majlis of the Republic of Azerbaijan,**
**Deputy chairman of the Committee**
**for Family and Women's and Children's Affairs of the Milli Majlis,**
**Doctor of philological sciences, professor**

## Azerbaijan is advancing confidently on the path of legal construction

**S U M M A R Y**

The rule of law provides every citizen with legal opportunities to participate in political life to all segments of society and ensures the rights of every individual. Therefore, after restoring its state independence, the Republic of Azerbaijan chose the path of democratic, legal, secular state building and took successful steps in this direction. Currently, legal reforms covering all areas of our society are among the priority directions of the policy implemented in the Republic of Azerbaijan. The basis of legal reforms was reflected in the 1995 Constitution of the Republic of Azerbaijan, which was developed and prepared under the leadership of the general leader Heydar Aliyev.

***Elçin XƏLƏFOV***

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin
Ədliyyə Akademiyasının prorektoru,
h.ü.f.d., dosent

# AZƏRBAYCAN RESPUBLİKASINDA MÜASİR İNZİBATİ HÜQUQUN İSLAHATLARI

***Açar sözlər:*** *inzibati hüquq, islahatlar, inzibati ədliyyə, inzibati icraat, inzibati-prosessual hüquq, qanunvericilik, inkişaf.*

***Ключевые слова:*** *административное право, реформы, административная юстиция, административное производство, административно-процессуальное право, законодательство, развитие.*

***Keywords:*** *administrative law, reforms, administrative justice, administrative proceedings, administrative procedural law, legislation, development.*

Bildiyimiz kimi, Azərbaycanda müasir demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu, vətəndaş cəmiyyətinin təşəkkülü, milli-mənəvi dəyərlərə qayıdış və elmin, təhsilin, mədəniyyətin inkişafı əbədi surətdə Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Məhz onun rəhbərliyi ilə ölkədə mövcud olan sosial-iqtisadi modelin təkmilləşdirilməsinin tərkib hissəsi kimi çıxış edən iqtisadi, sosial və hüquqi islahatlar cəmiyyət həyatının bütün sahələri, o cümlədən, inzibati hüquq quruculuğu qarşısında yeni vəzifələr qoymuşdur.

1993-cü ilin ortalarına qədər Azərbaycanda baş verən ictimai-siyasi proseslər ölkəni böhran vəziyyətinə salmış və respublikanı dağılma və müstəqilliyini itirmə təhlükəsi ilə üz-üzə qoymuşdu. Daxili dağıdıcı və xarici təhrikçi qüvvələrin aktiv birgə fəaliyyəti nəticəsində Azərbaycanda dövlətin real süqutu təhlükəsi, etnik separatizm və vətəndaş müharibəsi üçün zəmin yaranmışdı. Müstəqillik qazanmaqla, respublika dərin börhan vəziyyətinə düşmüşdü.

Buna baxmayaraq, 1993-cü ildə Heydər Əliyev Azərbaycana rəhbərlik etmək üçün qayıdarkən, tamamlanmış dövlət konsepsiyasına malik idi. Bu konsepsiyanın bəzi tezisləri onun 1992-ci ildə Azərbaycan ziyalılarına ünvanlanmış müraciətində və "Yeni Azərbaycan" Partiyasının proqramında öz əksini tapmışdı. Bu müraciətdə həmin periodun ictimai-siyasi durumu, müstəqil dövlət quruculuğunun şərtləri, bizim regionda və beynəlxalq arenada baş verən hadisələr və proseslərin xarakteri, Azərbaycanda mövcud olan vəziyyət, başlanmış iqtisadi, siyasi və milli böhran, eləcə də, ondan çıxış yolları kimi taleyüklü suallara tezislər şəklində, elmi-nəzəri cavablar verilirdi.

Heydər Əliyevin dövlətçilik təlimində güclü dövlət anlayışı və onun iqtisadi, siyasi, ictimai və mənəvi əsasları bütün atributları ilə birlikdə öz əksini tapmışdı. Heydər Əliyevin təsəvvüründə olan güclü dövlət mükəmməl mərkəzi və yerli idarəetmə sisteminə, stabil ictimai-siyasi həyata, işlək qanunlara, insanların bacarıqlarına görə dəyərləndirildiyi və proseslərə cəlb edildiyi ədalətli cəmiyyətə malik milli vəhdəti olan sistemin mövcudluğunu tələb edirdi. Heydər Əliyev dövlət həyatının ən vacib vəzifəsi kimi istənilən dövlətin

mövcudluğunun əsasını təşkil edən iqtisadi inkişafı görürdü. O, öyrədirdi ki, dövlət quruculuğunda cəmiyyətin həyat tərzi, ictimai həyatın normaları, idarəetmə, qanunçuluq, stabillik, vətəndaş həmrəyliyi, milli anlaşma, beynəlxalq təhlükəsizlik və s. bu kimi vəzifələri tam və davamlı olaraq yalnız dövlət iqtisadiyyatının normal vəziyyətdə olduğu və qarşıya qoyulmuş vəzifələrə cavab veridiyi halda təmin etmək olar. Andiçmə mərasimində söylədiyi nitq zamanı dövlət quruculuğu məsələsinə toxunarkən Heydər Əliyev qeyd etmişdi ki, Azərbaycan demokratik inkişaf yolu ilə gedəcəkdir [9, s. 62]. Müstəqil Azərbaycanda onun öz tarixi, milli dəyərləri, dünya demokratiyasının təcrübəsi və ümumbəşəri dəyərlər nəzərə alınmaqla, demokratik, hüquqi dövlət qurulacaqdır. Özünün bir diplomat və siyasi xadim kimi böyük beynəlxalq nüfuzuna əsaslanaraq, Prezident deyirdi ki: "Respublikamızın müstəqilliyini möhkəmləndirmək üçün əsas vəzifələrdən biri Azərbaycanın mənafeyini dünya miqyasında müdafiə edə bilən ağıllı, səriştəli xarici siyasətin olmasıdır." Azərbaycanı son illərdə bürümüş böhran onun iqtisadiyyatına ciddi təsir göstərmişdi ki, bu da əhalinin rifah səviyyəsinin aşağı düşməsinə səbəb olmuşdu. Lakin ölkənin sosial-iqtisadi və elmi-texniki potensialına dərindən bələd olan Prezident bu çətin vəziyyətdən də doğru çıxış yolunu göstərməklə qeyd etmişdi ki: "Biz gələcək işimizdə bir tərəfdən yaranmış potensialdan səmərəli istifadə etmək, digər tərəfdən isə yeni iqtisadi islahatlar aparmaq yolu ilə bazar iqtisadiyyatına keçmək istiqamətində hərəkət etməliyik".

Bütün çətinliklərə baxmayaraq, ölkədə demokratik dövlət və vətəndaş cəmiyyəti quruculuğu prosesləri sürətlə gedirdi. H. Əliyevin hakimiyyətə gəldiyi andan etibarən ölkənin ictimai həyatında baş verən dəyişikliklər dövlət və cəmiyyət həyatının konstitusion-hüquqi tənzimlənməsinin də təkmilləşdirilməsini və sonrakı inkişafını zəruri etdi. Azərbaycanın yeni Konstitusiyasının qəbul edilməsi ilə nəticələnən konstitusion qanunvericiliyin yenilənməsi prosesinin intensivləşməsi buna dəlalət edirdi. Qeyd etmək lazımdır ki, ölkənin ali qanunu olmaqla, konstitusiya dövlətin siyasi və ictimai həyatının mərkəzində durur və dövlətlə cəmiyyət arasındakı, eləcə də, dövlətin müxtəlif funksiyaları arasındakı münasibətləri müəyyən edir. Sabitliyin pozulduğu dönəmlərdə konstitusiya siyasi və ictimai stabilliyin müəyyən bir səviyyəsini təmin etməlidir. Xüsusilə, postkonflikt şəraitlərdə konstitusiyalar çox zaman demokratik institutlar və hüquqların müdafiəsi çərçivəsində gərginliyin və dağıntıların təkrarlanmasının qarşısını almağa yardım etməli olan özünəməxsus sülh planı kimi çıxış edirlər. Demokratik yenilənmə periodunda isə konstitusiya siyasi və ictimai həyatda dəyişikliklərin edilməsi aləti kimi çıxış edir.

Müstəqil Azərbaycan dövlətinin birinci konstitusiyasının hazırlanması üçün H. Əliyevin sədrliyi ilə komissiya təşkil edilmişdi. Həmin komissiya dövlət quruculuğunun xüsusiyyətlərini və xalqımızın tarixi təcrübəsini, eləcə də, dünyanın qabaqcıl demokratik dövlətlərinin təcrübəsini nəzərə almaqla "Azərbaycan Respublikasının Konstitusiyası"nın layihəsini hazırladı. Ümumxalq müzakirəsindən sonra, təklif və iradlar nəzərə alınmaqla layihə dəqiqləşdirildi və 12 noyabr 1995-ci ildə ümumxalq səsverməsi (referendum) yolu ilə qəbul edildi. Müstəqil Azərbaycanın yeni Konstitusiyası demokratik, dünyəvi və unitar dövlətin qurulması üçün beynəlxalq-hüquqi əsas yaratdı.

Azərbaycanın Konstitusiyasında və cari qanunvericiliyində beynəlxalq hüququn hamılıqla qəbul edilmiş prinsiplərinin və normalarının təsiri aşkar hiss edilir ki, bu da milli hüquq sisteminin formalaşdırılmasına mütərəqqi yanaşmadan, bu işdə hüququn mütərəqqi inteqrasiya tendensiyalarına yer verilməsindən irəli gəlir. Konstitusion inkişafa və cari qanunvericiliyə BMT-nin Nizamnaməsi, 1948-ci il tarixli Ümumdünya insan hüquqları Bəyannaməsi, 1950-ci il tarixli İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Konvensiya, 1960-cı il tarixli Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakt, 1966-cı

il tarixli İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Pakt, 1975-ci il tarixli Helsinki yekun aktı və s. bu kimi demokratik hüquqi dövlətçiliyin quruculuğu və inkişafı üçün birinci dərəcəli əhəmiyyətə malik olan beynəlxalq-hüquqi aktlar öz təsirini daha çox göstərmişdir.

Heydər Əliyevin böyük səyləri nəticəsində qəbul edilən Azərbaycan Respublikasının Konstitusiyası fundamental bir sənəd kimi demokratik inkişaf, hüquqi dövlətçilik və insan haqları sahəsində mütərəqqi dünya təcrübəsinin başlıca nailiyyətlərini özündə əks etdirdi. Müstəqil dövlətimizin ilk Konstitusiyası respublikamızın əvvəlki (plan iqtisadiyyatı) Konstitusiyalarından prinsipcə köklü surətdə fərqlənir. Sosializm quruluşunun Konstitusiyalarından fərqli olaraq, yeni Konstitusiyada hakimiyyətin qanunverici, icra hakimiyyəti və məhkəmə hakimiyyətindən ibarət bölgüsü aparılmış, Konstitusiyanın 7-ci maddəsinin IV hissəsində bu hakimiyyətlərin qarşılıqlı fəaliyyət göstərməsi və öz səlahiyyətləri çərçivəsində müstəqil olmaları göstərilmişdir. 1995-ci ildə Azərbaycan Respublikasının Konstitusiyasının 125-ci maddəsinin II hissəsində qeyd edilmişdir ki, məhkəmə hakimiyyətini Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi, Azərbaycan Respublikasının Ali Məhkəməsi, Azərbaycan Respublikasının apellyasiya məhkəmələri, Azərbaycan Respublikasının ümumi məhkəmələri və digər ixtisaslaşdırılmış məhkəmələri həyata keçirirlər.

Ölkəmizin Avropa təsisatlarına inteqrasiyası məqsədilə 1998-ci il iyun ayının 8-də Avropa Şurası və Azərbaycan Respublikası arasında əməkdaşlıq proqramı qəbul olundu. "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Avropa Konvensiyasının müddəaları nəzərə alınmaqla yeni qanunların hazırlanmasına başlanıldı. 1997-ci ildə Azərbaycan Respublikası Konstitusiyasında bəyan edilmiş məhkəmə hakimiyyətinin müstəqilliyinin təminat tapdığı və məhkəmə hakimiyyətinin müstəqil fəaliyyət göstərməsinə zəmin yaradan "Məhkəmələr və hakimlər haqqında" Qanun qəbul olundu. Qanun yeni məhkəmə sistemini, onun təşkilati əsaslarını, məhkəmələrin və hakimlərin müstəqilliyinin təmin edilməsinə, hər kəsin hüquq və azadlıqlarının məhkəmədə müdafiəsinə təminatın verilməsinə yönəlmişdir. Ölkəmizdə birinci, apellyasiya və kassasiya instansiyalı üçpilləli məhkəmə sistemi formalaşdırıldı. İlk dəfə olaraq, qanunverici həbs olunmuş və tutulmuş hər bir kəsin tutulmasının qanuniliyi məsələsinin həll edilməsini məhkəmələrə həvalə edir. Qanun hakimlərin müstəqilliyinə zəmanət verir. Hakimlərin müstəqilliyi onların səlahiyyətləri dövründə siyasətsizləşdirilməsi, dəyişməzliyi və toxunulmazlığı, vəzifəyə təyin olunmasının, məsuliyyətə cəlb edilməsinin, səlahiyyətlərinə xitam verilməsinin və vəzifədən kənarlaşdırılmasının məhdudlaşdırılması, hakimlərin şəxsi təhlükəsizliyinin təmin edilməsi ilə həyata keçirilir. Qəbul edildiyi zaman "Məhkəmələr və hakimlər haqqında" Qanunun 19-cu maddəsində ədalət mühakiməsini həyata keçirən ixtisaslaşdırılmış məhkəmələr sırasına yerli iqtisad məhkəmələri, Beynəlxalq müqavilələrdən irəli gələn mübahisələrə dair iqtisadi məhkəmə və Azərbaycan Respublikasının İqtisad Məhkəməsi daxil edilməklə sahibkarların öz aralarında və dövlətlə yarana biləcək mübahisələrin müstəvisi dəyişmiş, məhkəmələrin cəmiyyətdəki arbitor rolu yeni mahiyyətlə tamamlanmışdır.

Bu kontekstdə vurğulanmalıdır ki, tarixən geniş səlahiyyətlərə malik prokurorluğun statusu Konstitusiyada "Məhkəmə hakimiyyəti" bölməsində verilmiş və prokurorluq, hakimiyyətin qolu olan məhkəmə hakimiyyətinin bir hissəsi kimi təsbit edilmişdir. Bununla da, prokurorluq nəzarətedici orqandan keyfiyyətcə yeni hüquq-mühafizə – ədliyyə qurumuna çevrilmişdir. Belə prinsiplər dövlət hakimiyyətinin daha mütərəqqi sayılan və əsrlərin sınağından çıxmış "hakimiyyət bölgüsü" prinsipi əsasında: qanunverici, icraedici və məhkəmə hakimiyyəti qollarına ayrılmasını, onların bir-birinə effektiv nəzarətini qaçılmaz

edir, prokurorluğun əvvəlki "ümumi nəzarət" adlanan çox geniş, fövqəladə sayılacaq səlahiyyətləri ehtiva edən funksiyasının qüvvədə qalmasına ehtiyacı aradan qaldırırdı. Prokurorluğun əvvəllər malik olduğu, bütün fiziki və hüquqi şəxslərə, müəssisə, idarə və təşkilatlara, dövlət və ictimai orqanlara və onların rəhbərlərinə – bir sözlə, hamıya nəzarəti özündə ehtiva edən "ümumi nəzarət" funksiyalarından imtina edilərək, qabaqcıl beynəlxalq standartlara və müasir tələblərə cavab verən, hüquq sisteminin inkişafında xüsusi rol oynayan, hüquq-mühafizə orqanları içərisində sanbalı və nüfuzu ilə seçilən, mühüm, çevik, modern dövlət təsisatına çevrilməsi Ümummilli lider Heydər Əliyev və onun siyasi kursunun layiqli varisi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən həyata keçirilən ardıcıl və məqsədyönlü islahatlar nəticəsində mümkün olmuşdur [2].

Beləliklə, ölkəmizdə insan və vətəndaş hüquqlarının qorunması sahəsində məhkəmələrin rolunun artırılması da Ümummilli Liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndər tərəfindən həyata keçirilən hüquqi islahatlar dövlətçiliyimizin möhkəmləndirilməsinə, sabitliyin yaranmasına və bununla da, cəmiyyətimizin gələcək inkişafında insan hüquq və azadlıqlarının müdafiəsinə yönəlmiş yeni hüquq sisteminin formalaşmasına real şərait yaratmışdır.

1993-cü ildən başlayan və bugünə qədər davam edən inzibati islahatlar şəraitində inzibati qanunvericiliyin mütəmadi olaraq yenilənməsi, bütün səviyyələrdə icra hakimiyyəti orqanlarının sistemində və strukturunda islahatlar, dövlət qulluğu sistemində dəyişikliklər (yeri gəlmişkən, son iki proses bürokratik aparatın say göstəricisinin permanent genişlənməsi ilə müşayiət edilir), inzibati orqanların fəaliyyəti üzərində məhkəmə nəzarətinin həyata keçirilməsi üsulu kimi inzibati ədliyyə sisteminin tətbiq edilməsi, inzibati orqanların fəaliyyətinin "dövlət xidmətlərinin göstərilməsi" istiqamətində profil dəyişməsi və s. baş verir.

Müasir şəraitdə Respublikamızda surətlə aparılan iqtisadi-siyasi islahatlar və regionların inkişafı mövcud məhkəmə sistemində bir sıra yeniliklərin edilməsini gündəmə çıxarmışdır. Belə ki, müasir dövrdə məhkəmə sistemi və ədalət mühakiməsinin əlçatanlığı yaxşılaşdırılmalı, qüvvədə olan Mülki-Prosessual Məcəllə iqtisadi prosesin xüsusiyyətləri nəzərə alınmaqla təkmilləşdirilməlidir.

Dövlət xidmətlərinin vətəndaşlar üçün hər zaman əlçatan və asan olmasını, insanların dövlət orqanlarına daha rahat müraciət etmələrini vacib sayan Prezident İlham Əliyev məhkəmə-hüquq sahəsində də bu məsələyə xüsusi diqqət yetirdi. Məhkəməyə əlçatanlığın məhkəmə sisteminin quruluşundan, xüsusilə ixtisaslaşdırılmış və regional məhkəmələrin fəaliyyətindən xeyli dərəcədə asılı olduğunu nəzərə alaraq, məhkəmə sisteminin müasirləşdirilməsi ilə bağlı imzaladığı 19 yanvar 2006-cı il və 15 iyul 2010-cu il tarixli fərmanlarla bu sahədə institusional islahatlar aparıldı. Belə ki, regionların sosial-iqtisadi inkişafı şəraitində ölkə başçısının tapşırıqlarına uyğun olaraq, bölgələrdə yaşayan insanların məhkəmələrə çatımlılığının yaxşılaşdırılması məqsədilə 2006-cı ildə respublika apellyasiya və iqtisad məhkəmələrinin əvəzinə 6 regional apellyasiya, habelə əlavə 3 yerli iqtisad məhkəməsi təşkil edildi [11]. Beynəlxalq müqavilələrdən irəli gələn mübahisələrə dair iqtisad məhkəməsi ləğv edildi.

Məlumdur ki, məhkəmə sisteminin islahatı Azərbaycan iqtisadiyyatının diversifikasiyası, geniş elan olunmuş və hal-hazırda cəmiyyətimizin iqtisadi və hüquqi həyatının demək olar ki, bütün sahələrini əhatə edən iqtisadi proseslərin yaxşı idarə edilməsi ilə bağlı tədbirlərin tərkib hissəsidir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2018-ci ilin yanvarın 23-də Davosda Dünya İqtisadi Forumunun "Strateji baxış: Avrasiya" adlı interaktiv iclasında qeyd etmişdir ki: "Bizim hədəfimiz ixracımızı şaxələndirmək və ixracyönümlü qeyri-neft

məhsullarının siyahısını genişləndirməkdir. Gələcək neft və qazdan ibarət deyil, onlar bir gün tükənəcəkdir. Gələcək innovasiya, texnologiya, yaxşı idarəçilik, şəffaflıq və sahibkarlığa dövlət dəstəyindən ibarət olacaqdır" [5].

İslahat icra hakimiyyətinin bir tərəfdən xüsusi maraqlar sferasına, o cümlədən təsərrüfat subyektlərinin fərdi və korporativ maraqları sferasına haqsız inzibati müdaxilənin maksimum məhdudlaşdırılmasına, digər tərəfdən isə milli təhlükəsizlik, sosial ədalət, ölkə əhalisinin ləyaqətli həyat səviyyəsinin saxlanması naminə cəmiyyətin həyat fəaliyyətinin dövlət tərəfindən tənzimlənməsinin effektivliyini artırmağa zəmanət verə biləcək təşkilati-hüquqi fəaliyyət rejimini təmin edən inzibati-hüquq vasitələrinin praktiki realizasiya zərurətini tələb edirdi. İslahatlardan əvvəlki dövrdə Azərbaycan Respublikasında mövcud reallıq ondan ibarət idi ki, inzibati orqanlarda icraat qaydaları ayrı-ayrı qanunlarda nəzərdə tutulmuş normalar və çoxsaylı normativ-hüquqi aktlar əsasında tənzimlənir və fraqmental xarakter daşıyırdı. Bu sahədə vahid qanun olmadığından, müxtəlif dövlət orqanlarında icraat qaydaları da müxtəlif idi. Hər bir dövlət orqanı vətəndaşla münasibətlərinə dair özünün xüsusi qaydalarını müəyyən edir və əksər hallarda bu qaydalar dövlət orqanının deyil, vətəndaşların hərəkətlərini və davranışını nizama salırdı. Bundan əlavə, həmin qaydalar bəzən tez-tez dəyişir, demək olar ki, həmin qaydaların müəyyən olunduğu təlimatlar, əmrlər və sair sənədlər, bəzən heç dərc də olunmur və beləliklə, əhalinin nəzərinə çatdırılmırdı [6, s. 18-19]. İslahatlar dövründə "Azərbaycan Respublikasında bəyan olunmuş hüquqi dövlət quruculuğu idarəcilik fəaliyyəti formalarını müəyyən edən normaların müasir inkişaf tendensiyalarına uyğunlaşdırılmasını tələb edirdi. Biz, inzibati hüququ şəxsiyyətin və cəmiyyətin maraqları naminə fəaliyyət göstərən çevik icra hakimiyyəti strukturlarının yaradılmasının hüquqi vasitəsinə çevirməliydik" [12, s. 12].

Bununla əlaqədar olaraq inzibati hüquq və inzibati məhkəmə icraatı institutu demokratik cəmiyyətdə insan hüquqlarının vətəndaşla dövlət arasında meydana gələn problemlərin həllinə yönəlmiş ən güclü inzibati-hüquqi təminat vasitələrindən biridir. Həmçinin, hesab edirik ki, inzibati idarəetmə islahatının uğurlu olmasının, milli iqtisadiyyatın inkişaf etməsinin əsaslarından biri Azərbaycan qanunvericisinin effektiv inzibatçılıq mexanizminin tətbiq edilməsinin mühümlüyünü anlaması olmuşdur. Son on beş il müddətində Azərbaycan Respublikasında aparılan məhkəmə-hüquq islahatları inzibati hüquq münasibətlərini nizama salan və müasir tələblərə cavab verən yeni qanunların qəbul edilməsi, inzibati hüququn yeni prizmadan öyrənilməsi və tədqiq edilməsi zərurətini yaratdı. Yeni inzibati hüquq bu sahədə köhnə sovet təsəvvürlərinin köklü şəkildə dəyişməsini və yeni yanaşma üsullarının formalaşdırımasını şərtləndirməyə bilməzdi [3, s. 6-7].

Bu sahədə ümumi qanunun qəbul edilməsi dövlət-vətəndaş münasibətlərinin qurulmasında mövcud olan problemlərin həlli ilə bağlı zərurətin ifadəsi idi. Bu sahənin kodifikasiyası hüquq qaydalarının daha mükəmməl tənzimlənməsinə və ən başlıcası isə, bütün inzibati hüquq üçün hüquqi başlanğıcların, rəhbər istiqamətlərin müəyyən edilməsinə yönəlmişdir. Qanunvericinin məqsədi bütün idarəçilik orqanları üçün ümumi olan qanunu qəbul etməklə hüquq vahidliyini təmin etməkdən ibarətdir. Bu qanunun qəbuluna qədər inzibati icraatı tənzimləyən normalar müxtəlif qanunlarda səpələnmiş halda, fraqmental şəkildə nəzərdə tutulmuşdu. Vahid qanun bu dağınıqlığı aradan qaldırmağa nail olmuşdur [6, s. 20]. Həmçinin şəxsiyyəti inzibati orqanın qanunsuz inzibati aktlarından və hüquqazidd hərəkətlərindən (hərəkətsizliyindən) qorumaq üçün səmərəli və ədalətli hüquqi müdafiə institutlarının yaradılması hüquqi dövlət prinsipləri baxımından çox önəmlidir. Bu baxımdan "İnzibati icraat haqqında" Qanunun qəbulundan sonra İnzibati-Prosessual Məcəllənin qəbul edilməsi gözlənilən və labüd hadisə idi [7, s. 15]. Buna görə də inzibati hüquq sahəsində

aparılan islahatların məntiqi davamı olaraq, 2009-cu ildə Azərbaycan Respublikasının İnzibati-Prosessual Məcəlləsinin qəbul edilməsi məhkəmə-hüquq sistemimizin inkişafında ən cəsarətli və önəmli atdım olmuş və ölkəmizdə ilk dəfə olaraq "İnzibati icraat" və "İnzibati-prosessual hüquq" adlı yeni hüquq sahəsinin yaradılmasına gətirib çıxarmışdır. İnzibati hüquq nisbətən yeni hüquq sahəsidir. Onun kökü xüsusi hüquq kimi qədim Romaya qədər uzanıb getmir. İnzibati idarəetmə hüququ hüquqi dövlət anlayışının ortaya çıxması ilə bərabər XIX əsrdə yaranıb. İdarəetmə hüququ daim inkişafda və dəyişməkdə olan hüquq sahəsidir [10, s. 32]. Cəmiyyətin, dövlətin sürətlə inkişaf etməsinə və dəyişməsinə paralel olaraq, idarəetmə orqanlarının, administrativ fəaliyyətin də inkişafı və dəyişməsi davam edəcəyinə görə, inzibati hüququn tədqiqat sahəsi və bəzi ana məsələləri hələ ki, qəti həllini tapmayıb [4, s. 114]. Buna baxmayaraq, inzibati ədliyyə məhkəmə icraatının idarəetmə sahəsində yaranan hüquqi mübahisələrin həlli ilə məşğul olan və subyektiv hüquqların və vətəndaş azadlıqlarının təmin olunmasına yönəlmiş müstəqil qolu olaraq ayrılmalıdır. Yalnız belə olan halda bu hüquq institutu hüquqi nöqteyi-nəzərdən inzibati proses adlana bilər [15, s. 27-29].

Azərbaycan bütün təcrübi (yeni məhkəmələrin yaradılması və hakim hazırlığı) və elmi-nəzəri (bu sahə üzrə milli elmdə alimlərin, mütəxəssislərin və tədqiqatların olmaması) çətinliklərə baxmayaraq, MDB məkanında inzibati icraat haqqında qanunvericiliyi qəbul edən qabaqcıl ölkələrdən biri olmuşdur. Yeri gəlmişkən qeyd etmək lazımdır ki, nəzərdən keçirilən regionun qanunvericiliyinin analizi belə bir ümumi tendensiyanı aşkara çıxardı ki, inzibati ədliyyə Orta Asiyanın bəzi ölkələrində mülki məhkəmə icraatı qaydaları ilə tənzimlənir.

Bu sahə üzrə qanunvericiliyin hazırlanması zamanı müxtəlif ölkələrin qabaqcıl təcrübələri və inzibati ədliyyə modelləri öyrənilmişdir. İxtisaslaşdırılmış inzibati məhkəmələr modeli xüsusi və ictimai hüquq arasındakı, mülki-hüquqi mübahisə ilə inzibati mübahisə arasında inzibati hüquq münasibətlərindən irəli gələn fərqə əsaslanır. Hesab olunur ki, bu amillər inzibati ədliyyənin ictimai hüquq sahəsində sırf ixtisaslaşdırılmış yurisdiksiya kimi zəruri olduğunu müəyyən edir. Bunu nəzərə alaraq, inzibati hüququn mübahisəli məsələləri həm ümumi məhkəmələrdən, həm də ictimai administrasiya orqanlarından asılı olmayan müstəqil, ixtisaslaşdırılmış inzibati yurisdiksiya məhkəmələrində – ictimai hüquq məhkəmələrində həll olunmalıdır. Bu model daxilində inzibati ədliyyənin iki növünü seçmək olar: a) icra hakimiyyəti sistemi daxilində xüsusi inzibati yurisdiksiya sistemi və ya fransız modeli; b) məhkəmə hakimiyyəti sistemi daxilində xüsusi inzibati yurisdiksiya sistemi və ya alman modeli [14].

Azərbaycan Respublikasının "İnzibati icraat haqqında" Qanunu və İnzibati-Prosessual Məcəlləsi onlarda təsbit olunmuş mühüm prinsiplər və məzmun baxımından Almaniyanın müvafiq qaydalarına çox bənzəyir. "İnzibati icraat haqqında" Qanun və İnzibati-Prosessual Məcəllədən irəli gələn və tamamilə yeni olan bu baxış bucağı inzibati orqanların əməkdaşları, habelə inzibati-iqtisadi məhkəmələrin hakimləri üçün böyük dəyişiklik deməkdir. Bu dəyişikliyə ən asan şəkildə köhnə strukturları və düşüncə tərzini unutmaq və yeni hüquq əsasında istiqamətlənməklə uyğunlaşmaq olar [8, s. 6-7].

İnzibati-Prosessual Məcəllə 2011-ci ilin yanvarın 1-dən qüvvəyə minmişdir. 2011-ci ildən ölkəmizin 7 bölgəsində dövlət orqanları tərəfindən insan haqlarının pozulmasının qarşısının alınmasında mühüm rol oynayan yeni inzibati-iqtisadi məhkəmələr fəaliyyətə başlamışdır. Bu Məcəllə inzibati hüquq münasibətləri ilə bağlı mübahisələrin məhkəmə aidiyyəti, həmin mübahisələrə məhkəmədə baxılmasının və həll edilməsinin prosessual prinsiplərini və qaydalarını müəyyən edir. Azərbaycan Respublikasının İnzibati-Prosessual Məcəlləsinin

və “İnzibati icraat haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi üçün əsas publik və xüsusi hüquq arasında fərqləndirilmənin aparılmasıdır [8, s. 6-7]. İnzibati hüququn tətbiq edilməsindən yaranan mübahisələr xüsusi hüquqla deyil, ictimai marağın hakim olduğu ümumi hüquq qaydaları ilə həll olunmalıdır. Xüsusi hüquq qaydaları ictimai marağı ayrıca qorumur. İnzibati mübahisələrdə tətbiq edilən prosessual hüquq da, xüsusi hüquq mübahisələrində tətbiq edilən prosessual hüquq ilə eyni olmamalıdır. Çünki inzibati mübahisələrdə tərəflər qeyri-bərabərdir: bir tərəfdə güclü administrasiya, qarşı tərəfdə isə (bir qayda olaraq) gücsüz və zəif vətəndaş və ya hüquqi şəxs olur. Buna görə administrativ çəkişmədə “silahların bərabərliyi” prinsipi də təmin edilməlidir ki, ədalətli mühakimədən danışmaq mümkün olsun. İnzibati icraatda bu qaydaların təmin edilməsi Avropa İnsan Hüquqları Məhkəməsinin qərarlarına görə, Konvensiyanın 6(1)-ci maddəsinin tələbidir. İnzibati ədliyyə sisteminin olduğu ölkələrdə bu mübahisələrə xüsusi administrativ (inzibati) məhkəmələrdə baxılır. Bu mübahisələrə məhz ümumi hüquq qaydalarının tətbiq edilməsi inzibati ədliyyə sisteminin qurulmasını zəruri edir. İnzibati mübahisələrə ümumi hüquq qaydalarının tətbiq edilməsinin zərurəti özünü “İnzibati icraat haqqında” Qanunun 10-cu maddəsində də göstərir. Qanunu hazırlayan Komissiya üzvlərinin rəyinə görə, inzibati mübahisəyə baxan hakim ölkəmizin pozitiv hüququna daxil olmayan, hamılıqla qəbul olunan ümumi hüquq qaydalarını, hüquqi dövlət prinsiplərini və bu prinsipləri ehtiva edən AŞ Nazirlər Kabinetinin tövsiyələrini, Avropa İnsan Hüquqları Məhkəməsinin qərarlarını da nəzərə ala biləcəkdir [10, s. 35]. Həmçinin İnzibati-Prosessual Məcəllə inzibati hüquq münasibətlərindən əmələ gələn mübahisələrə baxılmasını və həll edilməsini, idarəçilik fəaliyyətinin qanuniliyi üzərində məhkəmə nəzarətinin həyata keçirilməsini təmin etmək məqsədini güdür. Bununla əlaqədar olaraq, inzibati prosesin unikallığı bundan ibarətdir ki, o, prinsiplərdən birinin çəkişmə olduğu mülki və arbitraj prosesinə oxşamır [13, s. 232].

Məhkəmə-hüquq islahatlarının davam etdirilməsi, yeni inzibati-iqtisadi məhkəmələrin (9 iyul 2019-cu ildən bu məhkəmələr artıq inzibati məhkəmələr adlanır) yaradılması qısa müddət ərzində öz səmərəsini göstərmişdir. İdarəçilik fəaliyyəti ilə bağlı vətəndaşla dövlət orqanları arasında yaranmış mübahisələrə baxılması və həll edilməsi qaydaları, inzibati orqanların qərarları, inzibati aktları və vəzifəli şəxslərin hərəkətləri üzərində məhkəmə nəzarətinin həyata keçirilməsi prosedurları inzibati-prosessual hüquq normaları ilə nizama salınmış və qanunvericiliyimizin tərkib hissəsinə çevrilmişdir. İnzibati məhkəmələr vətəndaşların hüquq və azadlıqlarının müdafiəsinin real təmin olunması, onların hüquqlarının daha səmərəli qorunması, dövlət orqanları və vəzifəli şəxslər tərəfindən pozulmuş hüquq və azadlıqların bərpasına yönəlmiş hüquqi mexanizmin tərkib hissəsi kimi öz layiqli yerini tutmuşlar. Son on il ərzində müvafiq məhkəmələrdə inzibati mübahisələr üzrə məhkəmə icraatı zamanı vətəndaşların xeyrinə təmin olunan ərizələrin faizi aşağıdakı kimi olmuşdur ki, bu rəqəmlər də inzibati məhkəmələrin vətəndaşların hüquqlarının müdafiəsində xüsusi rola malik olduğunun təsdiqi kimi qəbul edilə bilər, çünki inzibati mübahisələr, bir qayda olaraq, dövlət hakimiyyət səlahiyyətləri həyata keçirən inzibati orqanlara qarşı qaldırılmış iddialardır və inzibati orqanda müraciəti təmin edilməmiş şəxslər daha sonra məhkəmə qaydasında hüquqlarının təmin olunmasına nail olduqda, insanların məhkəməyə və dövlətə inamı daha da artır: 2011-ci ildə 84,1%, 2012-ci ildə 80,3%, 2013-cü ildə 80,5%, 2014-cü ildə 84,5%, 2015-ci ildə 82,7%, 2016-cı ildə 84,4%, 2017-ci ildə 90,6%, 2018-ci ildə 87,6%, 2019-cu ildə 70,1%, 2020-ci ildə 56,9 % [1, s. 159-160].

Beləliklə Azərbaycan Respublikasında yaradılan yeni inzibati icraat hüququnun təməli Azərbaycan Respublikasının Konstitusiyası və digər qanunvericilik aktlarına söykənərək mütərəqqi beynəlxalq təcrübə əsasında formalaşmışdır. İslahatlar nəticəsində ədalət

mühakimə sistemində yeni növ icraat olan inzibati icraat mühakiməsi yaradılmışdır və getdikcə də onun qanunvericilik bazası təkmilləşdirilmişdir. İslahatlar dövrü ərzində vətəndaşların və təşkilatların inzibati məhkəmələrinin səmərəli fəaliyyəti barədə təsəvvürləri formalaşmışdır. Bütövlükdə inzibati icraat sistemi və inzibati məhkəmələrə dövlət orqanlarının fəaliyyətinin səmərəliliyinə dair nəzarət ( o cümlədən məhkəmə nəzarəti) vasitəsinə çevrilmişdir.

**İstifadə olunmuş ədəbiyyat siyahısı**

1. Azərbaycan Respublikasında İnzibati Məhkəmələr – 10 il / Buraxılışa məsul R. Rzayev. Bakı: Elm və təhsil, 2021, 288 s.

2. Bir əsr qanunçuluğun keşiyində // https://genprosecutor.gov.az/az/post/2411

3. Cəfərov İ.M. İnzibati icraat (elmi-nəzəri şərh). Bakı: Azərbaycan Hüquqşünasları Konfederasiyası, 2011, 223 s.

4. Gözübüyük Ş., Tan T. İdare hukuku, Cilt 1, Ankara: Tuthan kitabevi, 1998, 1135 s.

5. İlham Əliyev: Gələcək innovasiya, texnologiya, yaxşı idarəçilik, şəffaflıq və sahibkarlığa dövlət dəstəyindən ibarət olacaq // http://abc.az/az/news/5223

6. Kərimov S. Azərbaycanda inzibati hüquq islahatları: reallıq və inkişaf perspektivləri / "İnzibati hüquq və dövlət: Azərbaycanda inzibati hüquq islahatları" mövzusunda beynəlxalq konfransın materialları. Bakı: Hüquq ədəbiyyatı, 2006, s.15-25.

7. Kərimov S., Vəliyeva G. Azərbaycan Respublikasının İnzibati-Prosessual Məcəlləsinin şərhi. Bakı, 2009, 314 s.

8. Köniqsmann A. Azərbaycanda inzibati məhkəmə icraatı. Bakı: Hüquq ədəbiyyatı, 2013, 400 s.

9. Qurtuluş: Heydər Əliyevin 75 illiyinə həsr edilir / məsul red. M. Ələsgərov. Bakı: Azərbaycan, 1998, 364 s.

10. Mehdiyev F. İnzibati hüquq (Administrative law). Bakı: Qafqaz University, 2010, s. 515.

11. Məmmədov F.F. Məhkəmə hakimiyyətinin müstəqilliyinin real təminatçısı // http://www.judicialcouncil.gov.az/ Meqaleler/ meqale-sedr-25122019.pdf

12. Mirzəyev S. "İnzibati hüquq və dövlət: Azərbaycanda inzibati hüquq islahatları" mövzusunda beynəlxalq konfransın materialları. Bakı: "Hüquq ədəbiyyatı" nəşriyyatı, 2006, s. 12.

13. Гамидова Э.Г. Административная юстиция и административное судопроизводство в РФ. Изд. Сарат. Ун-та. Сер. Экономика. Управление. Право. 2017, Т. 17, вып. 2., с. 232.

14. Зеленцов А.Б. Модели административной юстиции в современном мире и особенности ее организации в России // Вестник университета им. О.Е. Кутафина (МГЮА), 2015, № 8, с. 39-46.

15. Старилов Ю.Н. Административная юстиция: проблемы теории // Административное судопроизводство в Российской Федерации: развитие теории и формирование административно-процессуального законодательства / отв. ред. Ю.Н. Старилов. Воронеж, 2013, Вып. 7. с. 27-29.

## X Ü L A S Ə

Məqalə Azərbaycan Respublikasında müasir dövrdə aparılan inzibati hüquq islahatlarına həsr edilmişdir. Müəllif əsaslandırır ki, müasir inzibati hüquq islahatlarının təməlini Ümummilli Lider Heydər Əliyevin dövlətçilik təliminin əsasları və onun tərəfindən

aparılmış konstitusion islahatlar təşkil edir. Azərbaycanda yeni hüquq sahələri kimi inzibati hüququn və inzibati-prosessual hüququn yaranması, inzibati ədliyyə sistemində aparılmış və davam edən reformasiyalar, inzibati icraat haqqında vahid qanunvericiliyin qəbul edilməsi və mütəmadi olaraq təkmilləşdirilməsi ölkədə aparılmış inzibati-hüquqi islahatların əsas nailiyyətləri kimi məqalədə nəzərdən keçirilir.

**Эльчин Халафов**
**Проректор Академии Юстиции**
**Министерства Юстиции Азербайджанской Республики,**
**д.ф.п.п., доцент**

**Реформы современного административного права в Азербайджанской Республике**

**Р Е З Ю М Е**

В статье рассмотрены административно-правовые реформы, проводимые на современном этапе в Азербайджанской Республике. Автором обосновывается тезис том, что в качестве фундамента современных административно-правовых реформ выступили основы учения о государственности Общенационального лидера Гейдара Алиева и конституционные реформы, инициированные им. Возникновение административного права и административно-процессуального права в форме новых отраслей права в Азербайджане, уже проведенные и ныне продолжающиеся реформации в системе административной юстиции, принятие единого законодательства в сфере административного производства и его постоянное совершенствование рассматриваются автором в качестве основных достижений проводимых в стране административно-правовых реформ.

**Elchin Khalafov**
**Vice-Rector of the Academy of Justice of**
**Ministry of Justice of the Republic of Azerbaijan,**
**Ph.D. in Law, Associate Professor**

**Reforms of modern administrative law in the Republic of Azerbaijan**

**S U M M A R Y**

The article discusses the administrative legal reforms carried out at the present stage in the Republic of Azerbaijan. The author justifies the thesis that the foundations of the National Leader Heydar Aliyev's doctrine about statehood and constitutional reforms initiated by him, acted as the basic principles of modern administrative legal reforms. The emergence of administrative law and administrative procedural law in the form of new branches of law in Azerbaijan, already carried out and ongoing reformation in the administrative justice system, the adoption of unified legislation in the field of administrative proceedings and its continuous improvement are considered by the author as the main achievements of the administrative legal reforms carried out in the country.

*Fərid HACIYEV*
Azərbaycan Respublikası Milli Məclisi Aparatının rəhbəri

# AZƏRBAYCANDA İNSAN HÜQUQLARI İDEYASININ İNKİŞAF DİNAMİKASI: ULU ÖNDƏR HEYDƏR ƏLİYEVLƏ BAŞLANAN YOL

***Açar sözlər:*** *Azərbaycan, Ulu Öndər, dövlət, İnsan hüquqları, hüquq sistemi, pozitivizm*
***Ключевые слова:*** *Азербайджан, Великий лидер, государство, права человека, правовая система, позитивизм*
***Keywords:*** *Azerbaijan, Great Leader, state, Human rights, legal system, positivism*

İnsan hüquqları ideyası dünyanın ən müxtəlif xalqlarının mədəniyyətlərindən qaynaqlanan dərin tarixi köklərə malikdir. İdeyanın inkişafı ümumən hüquqa xas olan konservativlik məntiqinə uyğunluğu ilə səciyyələnsə də, başqa şəxsin azadlığı ilə məhdudlaşan insan azadlığı kimi başa düşüldükdən sonra o, özünü bütövlükdə hüququn inkişafına güclü təkan verən və onun strateji istiqamətlərini müəyyən edən bir fenomen kimi təqdim etməyə başlamışdı.

Bu mərhələdə ilk addımlarını hüququn və əxlaqın dünyəviləşməsindən başlayan ideya dövlət və insan hüquqları sistemində sonuncu komponentin irəli çəkilməsinə şərait yaratdı, dövlətin institusional vahid kimi cəmiyyətdəki roluna əhəmiyyətli dəyişikliklər etdi. Müasir dövlət indi daha çox üzərinə fərdlərin hüquqlarını təmin etmək vəzifəsi qoyulmuş subyekt kimi nəzərdən keçirilir. İnsan hüquq və azadlıqları kataloqunun sürətlə genişlənməsi, onların müdafiəsinə dair yeni standartların müəyyənləşdirilməsi fonunda başqa bir subyektin bu vəzifələri layiqincə yerinə yetirəcəyi inandırıcı görünmür.

İnsan hüquqlarının və azadlıqlarının inkişafı mahiyyətcə dialektik, istiqamətcə pozitiv proses olaraq cəmiyyətlər qarşısında ciddi çağırışlar, təhlükə və təhdidlər yaradır. Bəzi hallarda bu inkişaf prosesi hətta təbiətin özü tərəfindən təməli qoyulmuş mənəvi, dini məhdudiyyətlər çərçivəsini də aşır. Onların ağıllı həlli həyati vacib məsələ kimi önə çıxır. Ona görə də, fikrimizcə, insan hüquq və azadlıqlarının inkişafı prosesi ağılla idarə olunmalı, pozitiv tendensiyalar stimullaşdırılmalı, neqativlərinin isə qarşısı müxtəlif yumşaq texnologiyalarla alınmalıdır.

Əsas hədəf aydındır: insan hüquqlarının təmini və müdafiəsi dövlət suverenliyinə təhlükə yaratmamalı, cəmiyyətin milli-mənəvi, mədəni əsaslarını dağıtmamalı, onlardan imtinaya aparmamalıdır. Məhz bu dəyərlər bütün təhlükələrə rəğmən bəşəriyyəti bu günə kimi sağ-salamat gətirib çıxara bilmiş, insan ləyaqətinin müdafiəsini bütün sivil dünyanın tanıdıcı prioritet meyarına çevirə bilmişdir. Fərqli düşüncə insan hüquqları ideyasının bir utopiya səviyyəsində ilişib qalacağı, reallığa çevrilməyəcəyi təhlükəsinə apara bilər.

Digər tərəfdən, hüququn rasionalizminin bu proseslərə mane olmaması vacibdir. Çünki, özünü pozitiv hüquqla eyniləşdirən və hüquqi pozitivizm formasında daha parlaq göstərən rasionalizmin fəsadları da ağır ola bilər. Pozitivizmdə insan hüququ kimi insanın belə adlandırdığı və ya insanları belə hesab etməyə inandırdığı hər bir şey başa düşülür. Burada

insan hüququ ilə insanın təbiəti arasında dərin əlaqələr arxa plana keçir. İnsan hüquqlarının müdafiəsi sırf prosedur fenomeni kimi nəzərdən keçirilir.

Hüquqda rasionallığın payı böyük olsa da, bu rol ağlabatan həddi aşmamalıdır. Belə təhlükələr isə mövcuddur və biz onları müşahidə etməkdəyik.

Hüquq sisteminin belə baxışlar üzərində inkişaf etdirilməsi sivil xalqlar, xüsusən də ictimai-siyasi həyatının tranzit (keçid) dövrlərini yaşayan xalqlar üçün qeyri-məqbul yoldur. Azərbaycanda hüququn inkişafı mütləq qaydada hüquqla insanın özünün təbiəti və mənəviyyatı arasında bağlılığı nəzərə almalı, cəmiyyətin tarixi ənənələrini, milli-mənəvi və mədəni, siyasi əsaslarını inkar etməməli, təhlükəyə atmamalıdır.

İnsan hüquqları ideyasının müasir məzmununun aspektlərinə dair qabaqcıl hüquq mədəniyyətlərində üstün qəbul edilən fundamental ortaq baxışlar formalaşması qloballaşma proseslərinin bir hissəsi kimi nəzərdən keçirilə bilər. Belə baxışlar olmadan dünyanın mədəni xalqları sırasına qatılmaq, həyatın ən müxtəlif sahələrində beynəlxalq kooperasiyanın verdiyi üstünlüklərdən yararlanmaq mümkün deyildir.

Fikrimizcə, insan hüquqları ideyasının mədəni xalqları birləşdirən bir çox prinsipial şərtləri mövcuddur. Bu şərtlər dinamikliyi ilə seçilir. Lakin onların arasında elələri var ki, fundamental, mütləq xarakter daşıyır. Bunlar hansı prinsiplərdir? İlk öncə, hakimiyyəti məhdudlaşdıran çərçivələrin olması prinsipidir. İkinci yerdə hər bir insanın heç kəsin müdaxilə edə bilmədiyi avtonom şəxsi sferaya malik olması, üçüncü yerdə isə, hər kəsin hüquqlarının müdafiəsi üçün dövlətə qarşı ciddi iddialar irəli sürə bilməsi prinsipləri dayanır. İnsan hüquqları ideyasına sadiq olan hər bir cəmiyyət, dövlət bu prinsipləri mütləq təmin etməlidir.

Müdriklər deyirlər ki, gələcəyi keçmiş müəyyənləşdirir. Bu mənada xalqımızın şərəfli tarixini onun xoşbəxt gələcəyinin təməli kimi nəzərdən keçirmək vacibdir. Tariximiz ən müxtəlif sahələri əhatə edir. Bu sırada dövlətçilik tariximiz ön yerdə durur. Təbii ki, dövlətçilik tarixi cəmiyyətin inkişafının iqtisadi, ictimai-siyasi, mədəni, mənəvi və hüquqi nailiyyətlərindən ayrılıqda mücərrəd şəkildə nəzərdən keçirilə bilməz. Bu sahələrdə lazımi inkişaf səviyyəsi əldə etmədən nə dövlət, nə də dövlət ənənələri yaratmaq mümkün deyildir.

Xalqımızın dövlətçilik ənənələrinin tarixi eramızdan əvvəllərə çatan yüzilliklərlə ölçülür. Bu tarix imperiyalar yaradıb idarə etməklə dünyanın siyasi tarixində silinməz izlər buraxan türk etnosunun parçası olan bir xalqın tarixidir.

Müasir dövlətlər tarixində XX əsrin əvvəllərində mövcud olmuş ilk müstəqil dövlətimiz – Azərbaycan Xalq Cümhuriyyəti dərin izlər buraxıb. Cümhuriyyət dünyada birincilər sırasında, Şərq aləmində isə ilk olaraq kişilərlə qadınların bərabər seçki hüququnu tanımışdı. Milli dövlətçilik məfkurəsinin və siyasi mədəniyyətin inkişafında mühüm rol oynamış Azərbaycan Xalq Cümhuriyyəti öz fəaliyyəti ilə xalqımızın demokratik prinsiplərə əsaslanan milli dövlətini qurmağa və yaşatmağa qadir olduğunu nümayiş etdirmişdi.

Azərbaycanın müasir müstəqillik tarixi Azərbaycan Respublikasının müstəqilliyini əbədi, dönməz və sarsılmaz etmiş, ölkəmizi hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu, vətəndaş cəmiyyətinin yaradılması, bazar iqtisadiyyatının bərqərar edilməsi yoluna çıxarmış Heydər Əliyevin adı ilə bağlıdır. Tarix göstərir ki, şərəfini qoruya bilən hər bir millətin tarixinin ən ağır və məsuliyyətli dövrlərində tale bu millətə xilaskarlıq missiyasını yerinə yetirmək üçün bir dahi göndərir. Heydər Əliyev müasir Azərbaycanın ağır günlərində onun xilası üçün taleyin göndərdiyi bir insan idi. Onun həyatı, ictimai-siyasi fəaliyyəti, şəxsi keyfiyyətləri unikallığı ilə seçilir. Qismət elə gətirdi ki, Heydər Əliyev şəxsiyyətinin bütün potensialının açılması məhz SSRİ-nin süqutu, parçalanması, onun yerində müstəqil dövlətlərin, o cümlədən Azərbaycan Respublikasının yaranması dövrünə təsadüf etdi.

Demokratiyanın addımlarının ömrünü seçkidən-seçkiyə olan dövrlərlə ölçənlərdən fərqli olaraq, Heydər Əliyev böyük dövlət xadimi kimi demokratiyanın inkişafı yolunda nəhəng, on illərlə qabağa hesablanmış, strateji xarakterli addımlar atılmasının tərəfdarı idi. Buna əmin olmaq üçün onun ideya müəllifi olduğu və rəhbərliyi ilə həyata keçirilmiş, ölkə həyatının iqtisadiyyatdan, siyasətdən başlayaraq sosial məsələlərə qədər ən müxtəlif sahələrini əhatə etmiş layihələrə diqqət yetirmək kifayətdir.

Azərbaycanda hüquqi dövlət quruculuğunun təməlində duran, onun uzun müddət sivil dünyanın bir parçası olaraq demokratik prinsiplər əsasında yaşamasını təmin edən, Heydər Əliyevin Azərbaycan xalqı və dövləti qarşısında, sözün əsl mənasında, tarixi xidmətinin məhsulu olan Konstitusiyanın hazırlanıb qəbul edilməsi bu sırada ön yerlərdən birini tutur.

Ulu Öndər Konstitusiyaya dair fikirlərini hələ bu sənədin layihəsi hazırlanan zaman bəyan etmişdi: "Konstitusiya birinci növbədə dövlətlə, hakimiyyətlə xalqın arasında olan münasibətləri özündə əks etdirməlidir. Hakimiyyət bölgüsü, ali icra, qanunvericilik, məhkəmə hakimiyyətləri – bunlar hamısı xalqın iradəsinə söykənməli, seçkilər yolu ilə təmin olunmalıdır. Dövlət xalqın işi olmalıdır. Xalq dövlət üçün yox, dövlət xalq üçün olmalıdır və bu prinsiplər Konstitusiyamızın əsasını təşkil etməlidir". Dahi insanın dilindən səslənən bu ideyalar xalqımızın çoxəsrlik milli-mənəvi, siyasi və hüquqi ənənələrindən qaynaqlanırdı.

Konstitusiyamız bütün parametrlərinə görə dünyanın qabaqcıl ölkələrinin konstitusiyaları sırasına daxil olmağa layiq fundamental bir hüquqi sənəddir.

Konstitusiya dövlət quruluşunu və dövlət hakimiyyətinin ali orqanlarını müəyyən edir, insan hüquq və azadlıqlarına dövlət tərəfindən zəmanət verir, ali hüquqi qüvvəyə malik olmaqla qanunvericilik üçün əsas rolunu oynayır, digər hüquqi normativlərə nisbətdə müəyyən sabitliyə, dəyişdirilməsinin xüsusi qaydalarına malikdir.

Konstitusiya "Giriş", 5 bölmə, 12 fəsil, 158 maddə və keçid müddəalarından ibarətdir. Konstitusiyanın mühüm fəlsəfi özəlliyi Azərbaycanda daha öncə heç bir hüquqi sənəddə belə geniş şəkildə yer almayan insan və vətəndaş hüquq və azadlıqlarına dair ayrıca fəslin olmasıdır. Konstitusiyanın 158 maddəsindən 60-ı, yəni üçdə birindən çoxu məhz bu sahəni əhatə edir.

İnsan hüquq və azadlıqlarının demokratiyanın digər əlamətləri ilə müqayisədə üstünlüyü Konstitusiyanın dəyərini artıran əlamətlərin birincisidir. Dövlət o zaman demokratik hesab edilir ki, o, vətəndaşlar tərəfindən qarşısında qoyulmuş vəzifələrin həllini özünün əsas məqsədi hesab edir. Bu ideya Konstitusiyada çox bacarıqla gerçəkləşdirilmişdir. Konstitusiyanın 12-ci maddəsi (Maddə 12. Dövlətin ali məqsədi) bəyan edir ki, "insan və vətəndaş hüquqlarının və azadlıqlarının, Azərbaycan Respublikasının vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsi dövlətin ali məqsədidir". Bu məqsədi təmin etmək üçün Azərbaycan dövləti sivil millətlərin dövlətçilik prinsiplərindən, norma və qaydalarından, təcrübəsindən geniş istifadə edir. Bu maddənin II hissəsində dəqiqləşdirilir ki, "Bu Konstitusiyada sadalanan insan və vətəndaş hüquqları və azadlıqları Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun tətbiq edilir".

Heydər Əliyev bu istiqamətdə inkişafın səmərəliliyini və dayanıqlılığını təmin etmək üçün ölkənin Avropa Şurasına üzv qəbul olunmasının prinsipial tərəfdarı idi və ölkənin bütün imkanlarını səfərbər edib, bir çox hallarda beynəlxalq aləmdəki şəxsi nüfuzu hesabına istəyinə nail oldu.

2001-ci ilin yanvar ayında ölkəmiz Avropa Şurasına üzv qəbul edildi. Bu, ölkənin gələcək inkişafının hüquqi təməlini qoymaqla yanaşı, həm də Azərbaycan dövlətinin, onun başçısının tarix üçün bir an kimi görünən cəmi bir neçə il ərzində demokratik inkişaf

yolunda atdığı addımlara, gördüyü və planlaşdırdığı işlərə, əldə etdiyi nailiyyətlərə yüksək qiymətin, etimadın təzahürü idi.

2002-ci il avqustun 24-də "Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında" Referendum Aktının qəbul edilməsi insan və vətəndaş hüquqlarının təminatını və müdafiəsini daha da gücləndirdi. İnsanlara Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinə (Ombudsmana) və Konstitusiya Məhkəməsinə şikayət etmək imkanı yaradıldı.

"İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Avropa Konvensiyasına qoşulmaqla Avropa hüquq məkanına daxil olan Azərbaycan dövləti öz üzərinə bu konvensiyanın kataloquna daxil olan hüquqların İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin prinsipial təcrübəsinə uyğun şəkildə təmin ediləcəyi öhdəliyini götürdü. Ötən illərin təcrübəsi göstərdi ki, bu, konkret insanların subyektiv hüquqlarının səmərəli müdafiəsi ilə yanaşı, həm də bütövlükdə ölkənin hüquq sisteminin, hüquq mədəniyyətinin inkişafına əvəzedilməz töhfə verib. Azərbaycan Avropa Şurası ilə bu istiqamətdə əməkdaşlığı sözügedən konvensiyaya aid yeni protokollara qoşulmaqla, İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin qərarlarının milli məhkəmə-istintaq təcrübəsində daha ciddi nəzərə alınması üçün institusional tədbirlər həyata keçirməklə davam etdirməkdədir.

Subyektiv hüquqların müdafiəsi üçün məhkəmələrə müraciət etmək hüququ Konstitusiyaya söykənən məhkəmə-hüquq islahatları zəminində yeni məzmunla zənginləşdirildi. Cinayət təqibi prosesində "məhkəmə nəzarəti" institututunun təməli qoyuldu və inkişafı üçün zəruri təşkilati tədbirlər həyata keçirildi. Bu nəzarətin səmərəsinin artmasını Azərbaycan vətəndaşları gündəlik həyatlarında hiss etməkdədirlər.

Konstitusiya "prokuror nəzarəti" institutunun yeni məzmununun konturlarını müəyyənləşdirdi. Onun "məhkəmə nəzarəti" ilə qarşılıqlı əlaqələrinin insan hüquq və azadlıqlarının daha dolğun təmin olunmasına xidmət etməsi üçün gərəkli addımlar atıldı.

Qısa müddətdən sonra insan hüquq və azadlıqlarının təminatı və müdafiəsi sahəsində atılan addımların nəticələri hiss olunmağa başladı. Bütün bunlar uyğun qanunvericilik bazasının yaradılması və möhkəmləndirilməsi şərti ilə mümkün olub. Bu proses indi də uğurla davam edir.

Ümumiyyətlə, hüququn perspektivliyi, gələcəyə hesablanması xassəsi daha çox konstitusiya hüququnda hiss olunur. Bu baxımdan Konstitusiyanın bir çox müddəaları, ilk növbədə hüquqi dövlət, insan hüquq və azadlıqları haqqında müddəaları gələcəyə istiqamətlənmişdir.

Heydər Əliyev siyasi xətti bu gün onun siyasi varisi, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilir. 2009-cu il martın 18-də və 2016-cı il sentyabrın 26-da ümumxalq səsvermələri (referendumlar) yolu ilə Konstitusiyaya edilmiş əlavə və dəyişikliklər bütün digər məsələlərlə yanaşı, ölkəmizdə demokratiyanın genişlənməsinə, vətəndaşların layiqli həyat səviyyəsinin təmin edilməsinə, insan hüquqlarının daha səmərəli qorunmasına şərait yaratmışdır. Bu referendumlar bir daha göstərmişdir ki, insan hüquqlarının və azadlıqlarının müdafiəsi dövlət siyasətinin prioritet məsələsidir.

2020-ci ilin sentyabr – noyabr aylarında müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə xalqımızın 44 günlük Vətən müharibəsində əldə etdiyi möhtəşəm qələbə Azərbaycan torpaqlarının 30 illik işğalına son qoyaraq dövlətimizin ərazi bütövlüyünü və tarixi ədaləti bərpa etməklə yanaşı, Qarabağ və Şərqi Zəngəzur ərazisindən didərgin salınmış yüz minlərcə soydaşımızın pozulmuş insan hüquqlarının tam bərpa olunmasına da yol açmışdır. Əminliklə söyləmək olar ki, dövlət başçısının həyata keçirdiyi uzaqgörən siyasət Qərbi Azərbaycandan qovulmuş azərbaycanlıların da yurd həsrətinə son qoyulmasını,

onların öz tarixi torpaqlarında təhlükəsiz şəraitdə yaşamaq hüququndan və digər insan hüquqlarından faydalanmasını təmin edəcəkdir.

Ulu Öndər tərəfindən əsası qoyulmuş cəza siyasətinin humanistləşdirilməsi ardıcıl davam etdirilir. İndiyədək dövlət başçısının əfv haqqında imzaladığı 68 əfv fərmanı və sərəncamı 9 minə qədər insana şamil olunmuşdur.

Eyni zamanda, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva Milli Məclisin deputatı olarkən onun təşəbbüsü ilə 2007-ci, 2009-cu, 2013-cü və 2016-cı illərdə amnistiya aktları qəbul edilmiş və hər amnistiya aktı təqribən 10 min məhbusa şamil edilmişdir. Ümumən, 1995-ci ildən bəri qəbul olunmuş 12 amnistiya aktı 135 minə qədər şəxsə tətbiq edilmişdir. Bu da qeyd edilməlidir ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təşəbbüsü ilə Milli Məclis tərəfindən qəbul edilmiş “8 Noyabr – Zəfər Günü münasibəti ilə amnistiya elan edilməsi haqqında” 2021-ci il 5 noyabr tarixli qərar 17 min 267 nəfərə şamil olunmuşdur. Bu qərar əhatə etdiyi şəxslərin sayına görə indiyədək qəbul edilmiş ən geniş amnistiyadır.

Konstitusiya insan hüquq və azadlıqlarının daha dolğun təmin olunması, daha səmərəli müdafiə edilməsi üçün Azərbaycan Respublikasının Milli Məclisinə digər təsirli hüquqi alətlər də vermişdir.

Qanunvericilik hakimiyyəti qarşısında duran əsas vəzifə elə bir universal tənzimləmə mexanizmləri yaratmaqdır ki, onlar ilk öncə, hamılıqla qəbul edilmiş azadlıq, bərabərlik, demokratiya, hüququn aliliyi, hüquqi dövlət, insan hüquq və azadlıqlarının təmin və müdafiə olunması kimi dəyərləri əks etdirsin; sonra siyasi və digər məqsədə müvafiqlik motivlərindən asılı olmadan hüququn əsas funksiyası olan sosial konfliktlərin həllinin hüquqi üsullarını təklif etsin, daha sonra ölkənin hərtərəfli inkişafını hüquqi cəhətdən təmin etsin; nəhayət, sülh və insanlığın qorunmasına kömək etsin.

1995-ci il noyabrın 24-də fəaliyyətə başladığı gündən indiyədək Milli Məclis ölkəmizdə hüquqi, demokratik və dünyəvi dövlət quruculuğunun, vətəndaş cəmiyyəti yaradılmasının, bazar iqtisadiyyatı prinsiplərinin bərqərar edilməsinin hüquqi bazasını təşkil edən 6200-dən çox qanun qəbul etmişdir. “Torpaq islahatı haqqında”, “Konstitusiya Məhkəməsi haqqında”, “Məhkəmələr və hakimlər haqqında”, “Prokurorluq haqqında”, “Polis haqqında”, “Vəkillər və vəkillik fəaliyyəti haqqında”, “Diplomatik xidmət haqqında”, “Vətəndaşlıq haqqında”, Sərbəst toplaşmaq azadlığı haqqında”, “Dini etiqad azadlığı haqqında”, “Təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz hərəkətləri nəticəsində fiziki şəxslərə vurulmuş ziyanın ödənilməsi haqqında”, “Siyasi partiyalar haqqında”, “Dövlət qulluğu haqqında” və minlərcə digər qanunlar, habelə “Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (Ombudsman) haqqında”, “Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında”, “Azərbaycan Respublikasının Nazirlər Kabinetinə Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən etimad məsələsinin həll edilməsi hüququnun əlavə təminatları haqqında” və başqa Konstitusiya qanunları Azərbaycanın demokratik yolla ardıcıl inkişafı, insan və vətəndaş hüquq və azadlıqlarının etibarlı qorunması üçün bütün təminatları yaratmışdır.

## X Ü L A S Ə

Azərbaycanın müasir müstəqillik tarixi Azərbaycan Respublikasının müstəqilliyini əbədi, dönməz və sarsılmaz etmiş, ölkəmizi hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu, vətəndaş cəmiyyətinin yaradılması, bazar iqtisadiyyatının bərqərar edilməsi yoluna çıxarmış Heydər Əliyevin adı ilə bağlıdır.

Təqdim olunan məqalədə Ulu Öndər Heydər Əliyevin Azərbaycanda insan hüquqları ideyasının inkişafındakı tarixi rolundan bəhs edilir.

**Фарид Гаджиев**
**Глава Аппарата Милли Меджлиса Азербайджанской Республики**

## ДИНАМИКА РАЗВИТИЯ ИДЕИ ПРАВ ЧЕЛОВЕКА В АЗЕРБАЙДЖАНЕ: ПУТЬ, НАЧАТЫЙ С ВЕЛИКИМ ЛИДЕРОМ ГЕЙДАРОМ АЛИЕВЫМ

## Р Е З Ю М Е

Современная история азербайджанской государственности связана с именем Гейдара Алиева, сделавшего независимость Азербайджанской Республики нерушимой, необратимой и непоколебимой, и выведшего нашу страну на путь создания правового, демократического и светского государства, формирования гражданского общества и установления рыночной экономики.

В данной статье рассказывается об исторической роли Великого лидера Гейдара Алиева в развитии идеи прав человека в Азербайджане.

**Farid Hajiyev**
**Chief of the Staff of the Milli Majlis of the Republic of Azerbaijan**

## THE GROWTH DYNAMICS OF THE HUMAN RIGHTS IDEA IN AZERBAIJAN: A PATH THAT BEGAN WITH GREAT LEADER HEYDAR ALIYEV

## S U M M A R Y

The modern history of Azerbaijani statehood is connected to the name of Heydar Aliyev who made the independence of the Republic of Azerbaijan constant, irreversible and unshakeable, and who put our country on the course for building a legal, democratic and secular state, forming a civil society and establishing a market economy.

The present article tells of the historic role of Great Leader Heydar Aliyev in the development of the idea of the human rights in Azerbaijan.

***Bəhruz MƏHƏRRƏMOV***

Azərbaycan Respublikasının Milli Məclisinin deputatı,
h.ü.f.d., dosent

# BEYNƏLXALQ İNFORMASİYA HÜQUQUNUN VACİB ELEMENTİ – "ÜNSIYYƏT HÜQUQU"NUN AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ QANUNVERICİLİYİNDƏ TƏMİNİNİN FORMA VƏ ÜSULLARI

***Açar sözlər*** *– Beynəlxalq informasiya hüququ; ünsiyyət hüququ; konstitusiya; ifadə azadlığı; aktiv və passiv ünsiyyət hüququ; neqativ və pozitiv ünsiyyət hüququ; rəyində qalmaq hüququ;*

***Ключевые слова:*** *международное информационное право, коммуникационное право, конституция, свобода выражения, активное и пассивное коммуникационное право, негативное и позитивное коммуникационное право, право на свое мнение*

***Keywords:*** *International information law, Communication rights, Constitution, Freedom of expression, the active and passive communication rights, the negative and positive communication rights, the right to hold an opinion*

İnformasiya hüquq münasibətləri inkişaf etdikcə onun törəmə sahələri tədricən önəmini artıraraq ayrıca münasibət kimi daha çox büruzə verməkdə və xüsusi tənzimetmə tələb olunmaqdadır. Bu kimi törəmə hüquq münasibətlərindən biri "ünsiyyət hüququ"dur. Müasir dövrdə informasiya kommunikasiya texnologiyaları yeni mərhələyə qədəm qoyduqca, ünsiyyət də yeni forma və çalarlar kəsb etməyə, əvvəlki tənzimləyici normalar isə tədricən effektsiz görünməyə başladığı üçün müasir beynəlxalq informasiya hüququnun əsas vəzifələrindən biri məhz bu sferanı tədqiq etməkdir.

Görkəmli fransız televiziya mütəxəssisi, BMT-nin audiovizual media qurumunun rəhbəri olmuş Jan Darsi 1969-cu ildə yazırdı: "Elə bir vaxt gələcək ki, 21 il öncə İnsan hüquqları Bəyannaməsinin 19-cu maddəsində əks olunmuş azadlıqlar şəxsin informasiyaya olan hüququndan daha əhatəli bir hüquqa çevriləcək. Bu insanın ünsiyyət hüququ olacaq"[1]. Jan Darsi hesab edirdi ki, gələcəkdə inkişaf etməkdə olan informasiya kommunikasiyalarının tam şəkildə başa düşülməsi üçün məlumat azadlığı, eyni zamanda ünsiyyət meyarı ilə birgə nəzərdən keçirilməlidir. Yarım əsr əvvəl səslənmiş bu fikirlər informasiya hüququnun inkişafı, xüsusən də beynəlxalq informasiya hüququnun təşəkkülünün hazırki mərhələsində aktuallığını mühafizə etməkdədir. Məsələnin mahiyyətinə varmaq üçün ünsiyyət hüququ, rəyində qalmaq və ifadə azadlıqları arasında arasında paralellər aparılması vacibdir.

İnformasiya hüququnun mühüm elementlərindən olan "ünsiyyət hüququ" özündə ifadə azadlığı, eyni zamanda rəyində qalma hüququnun xüsusiyyətlərini əks etdirsə də, əslində kifayət qədər fərqli mahiyyətə malikdir.

Məlumdur ki, insan iradəsinin ifadəsi kimi ifadə azadlığı demokratik cəmiyyətin əsas dayaqlarından, onun inkişafı və hər bir fərdin özünü reallaşdırmasının əsas şərtlərindən

[1] Jean d'Arcy 'Direct Satellite Broadcasting and the Right to Communicate' European Broadcasting Union paper, 1969. p. 3.

birini təşkil edir. Özünüifadə qarşılıqlı xarakter daşımır, subyekti və hədəf obyekti olmaya bilər, əsas olan məsələnin subyektiv tərəfidir. Məsələn, hər kəsin Konstitusiyanın 48-ci maddəsinin II hissəsinə əsasən "dinə münasibəti ilə bağlı əqidəsini ifadə etmək və yaymaq", Konstitusiyanın 50-ci maddəsinin I hissəsinə əsasən isə "istədiyi məlumatı qanuni yolla ötürmək və yaymaq" azadlıqları vardır. Göründüyü kimi, burada məlumat fərdi – iradəvi xarakterlidir, şəxsin öz ideyasını cəmiyyətə, yaxud hər hansı digər fərdə çatdırma məqsədi daşıyır. Daha dəqiq desək, özünü ifadədə prioritet məlumatın kimə veriləcəyi deyil. Əsas olunan məlumatın şəxs tərəfindən sərbəst surətdə səslənməsi, göndərilməsi yaxud yayılmasıdır. İradə ifadəsində yeganə tələb ifadə aktının (hərəkətinin) və onun məzmunun qanuna uyğun olmasıdır.

Rəyində qalmaq azadlığı isə ifadə azadlığı prosesinin məntiqi davamıdır. Daha aydın formada desək, şəxsin sərbəst ifadə etdiyi – yaydığı, bəyan etdiyi fikirlər əks reaksiyaya səbəb olarsa, şəxsin qanunvericiliyin müəyyən etdiyi tədbirlərə baxmayaraq öz fikrindən dönməməsi imkanıdır. Rəyində qalmaq azadlığının hüquqi mahiyyəti ondan ibarətdir ki, şəxs ifadə etdiyi qanunazidd fikirlərə, yaxud həmin fikirlərin kiməsə maddi və mənəvi zərər vurmasına görə cəzalana və yaxud inzibati tənbehə məruz qala bilər, lakin şəxsin fikrindən dönməyə məcbur edilməsi zərərin əvəzinin ödənilməsinin şübhəli formasıdır və "zəruri" deyil[2].

Ünsiyyət hüququ isə mahiyyətcə tamamilə fərqli institutdur. Daha detallı dərk üçün əvvəlcə ünsiyyət ifadəsinin mahiyyətinə nəzər yetirək. Azərbaycan dilinin izahlı lüğətində "ünsiyyət" kəlməsi – "əlaqə, rabitə, qarşılıqlı münasibət"[3] kimi şərh edilir. Yəni burada münasibətlər ikitərəfli xarakter daşıyır, daha dəqiqi ünsiyyət hüququ hansısa konkret ehtiyacın təmin edilməsinə hesablanaraq, konkret şəxsə, yaxud dairəsi dəqiq müəyyənləşmiş şəxslər qrupuna yönəlir, özünü ifadə ilə bağlı olmaya bilir, eyni zamanda fikir və ideyanın yayılması məqsədini daşımır. Bu halda ünsiyyətin informasiya hüququnda, daha dəqiqi beynəlxalq informasiya hüququnda yeri və rolu barədə suallar meydana çıxır ki, bunları cavablandırmaq üçün informasiyanın – məlumatın özünün mahiyyətinə nəzər yetirilməlidir.

İnformatika elmindən bəllidir ki, məlumat dedikdə – "siqnallarda, xəbərlərdə, bildirişlərdə ifadə edilən bilgilər"[4] nəzərdə tutulur. İnformatika baxımından, informasiyanın qrafik və ya təsviri informasiya, səs (musiqi) informasiyası, şifahi dilin sözlərinin və cümlələrinin xüsusi simvol və digər durğu işarələrinin köməyi ilə kodlaşdırılması nəticəsində meydana gələn mətn informasiyası, obyektlərin və onların xassələrinin kəmiyyət ölçüləri olan rəqəmlərlə ifadə edilən ədədi informasiya, videoinformasiya, taktil (lamisə, duyğu, hiss), orqanoleptik (iybilmə, dadbilmə və s.), eləcə də informasiya kimi kodlaşdırılması və saxlanması hələ mümkün olmayan informasiya növləri və həmçinin elmin, hələ nəinki kodlaşdırıb saxlamağı, hətta izah etməyi belə bacarmadığı bir sıra başqa növləri var. Ünsiyyət məhz sonuncu qeyd edilən, ekstrasensor informasiyaların mübadiləsini özündə əks etdirən meyardır və ünsiyyət hüququ da məhz buna görə informasiya hüququnun tənzimləmə sahələrindən hesab edilir. Ünsiyyət hüququ özünü aktiv və passiv, həmçinin neqativ və pozitiv formalarda büruzə verir.

Aktiv ünsiyyət hüququnda ünsiyyətə girmək, ünsiyyətə başlamaq şəxsin üzərinə vəzifə kimi qoyulur. Məsələn, valideynlərə hörmət etmək, onların qayğısına qalmaq uşaqların borcudur[5].

[2] İHAM-ın Kazakov Rusiyaya qarşı işi üzrə Qərarı, 2008, § 30. Tam mətn – https://hudoc.echr.coe.int/eng#{%22appno%22:[%224649/08%22],%22itemid%22:[%22001-173391%22]}

[3] Azərbaycan dilinin izahlı lüğəti, IV cild. AMEA Nəsimi adına dilçilik İnstitutu, Şərq-Qərb nəşriyyatı, Bakı 2006, səh 428.

[4] İsa Musayev, Mətləb Əlizadə, İnformatikanın əsasları. Dərs vəsaiti. Bakı 2014, səh.12.

[5] Azərbaycan Respublikasının Konstitusiyasının 34-cü maddəsinin V hissəsi

Ünsiyyətə girib-girməmənin şəxsin diskresion imkanı kimi müəyyən olunması isə passiv ünsiyyət forması hesab edilir. Məsələn, "mülki iddiaçı cinayət prosesini həyata keçirən orqan tərəfindən şahid qismində dindirilə bilər"[6].

Qarşılıqlı ünsiyyətə girməsinə dair imperativ tələb – subyektin cavab vermə məcburiyyəti – pozitiv ünsiyyət hüququ hesab edilir. Məsələn, müraciətə baxan subyektlər və onların vəzifəli şəxsləri vətəndaşların təkliflərini, ərizə və şikayətlərini qəbul etməli, onlara bu Qanunla müəyyən olunmuş qaydada və müddətlərdə baxmalı və cavab verməlidirlər[7].

Neqativ ünsiyyət hüququ isə üçüncü şəxslə təmas, subyektin razılığından asılı olaraq qurulması formasında büruzə verir. Məsələn, həbs edilmiş şəxs istintaq təcridxanasına gətirildikdən dərhal sonra, istintaq təcridxanasının müdiriyyəti öz təşəbbüsü ilə şəxsin həbsə alındığı və harada saxlanıldığı barədə yaxın qohumlarına və ya qanuni maraq doğuran digər şəxslərə telefonla və ya digər vasitələrlə məlumat verə bilməz (qocalığı, yetkinlik yaşına çatmaması, sağlamlıq və psixi vəziyyəti ilə bağlı hallar istisna olmaqla)[8].

İnsan hüquqlarına ciddi riayət edilməsi və şəxsi maraqlarının təmini müasir informasiya hüququnun mahiyyət və məzmununu ifadə edən prinsiplər sırasında mühüm yer tutur[9]. Məhz bu prinsip, həmçinin dövlət maraqlarının təmin olunmasının prioritetliyi çərçivəsində ünsiyyət hüququ həm milli, həm də beynəlxalq hüququda müxtəlif səviyyələrdə qanunvericilikdə əks etdirilib.

## Ünsiyyət hüququnun konstitusion səviyyədə təmini

Konstitusiya hüquq normalarında başqa hüquq sahələrinin, eləcə də informasiya hüququnun əsasını təşkil edən təməl məzmun əks olunduğu üçün Konstitusiya hüququ hüquq sistemində xüsusi yer tutur. Bu mənada "Azərbaycan Respublikasının Konstitusiyası da Azərbaycan Respublikasının qanunvericilik sisteminin əsasıdır"[10]. İnformasiya hüququ sahəsində dövlətdaxili normaların qəbulu, eləcə də milli qanunvericiliyin beynəlxalq informasiya hüququnun normalarına uyğunlaşdırılması, həmçinin ratifikasiya zamanı bu normaların Azərbaycan Respublikası Konstitusiyasına uyğunluğu həlledici əhəmiyyətə malikdir. Bu, ilk olaraq onunla izah edilə bilər ki, dövlətin ali məqsədi insan və vətəndaş hüquqlarının və azadlıqlarının, Azərbaycan Respublikasının vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsindən ibarətdir[11].

Qlobal informasiya cəmiyyətinin mühüm elementlərindən olan ünsiyyət hüququnun təmininə yönəlmiş konstitusion normalar milli sistemdə informasiya hüququnun mənbələri sırasında çıxış edir. Lakin o da nəzərə alınmalıdır ki, informasiya hüququ heç də həmişə Konstitusiya hüququndan qaynaqlanmaya bilər. Belə ki, ünsiyyət hüququnun təminini hədəfləyən informasiya hüquq münasibətlərinin məzmununda baş verən dəyişikliklər də öz növbəsində Konstitusiya hüququna təsirini göstərir. Daha dəqiq formada ifadə etsək, "informasiya hüquq münasibətləri konstitusion və inzibati hüquq normaları ilə tənzimlənir, bu münasibətlər insan fəaliyyətinin bütün sferalarını əhatə edir"[12].

---

[6] Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsi maddə 89.6.

[7] Vətəndaşların müraciətləri haqqında Azərbaycan Respublikasının Qanunu, maddə 12.2

[8] Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsi maddə 161.1.2.

[9] Рассолов М.М. Информационное право: учеб. Пособие. М., 1999. Ст. 24

[10] III. AzərbaycanRespublikasınınKonstitusiyasının 147-ci maddəsinin IIIhissəsi.

[11] Azərbaycan Respublikasının Konstitusiyasının 12-ci maddəsinin I hissəsi.

[12] Əmir Əliyev, Gülnaz Rzayeva, Aytəkin İbrahimova, Bəhruz Məhərrəmov, Şahin Məmmədrzalı. İnformasiya hüququ. Dərslik, Bakı, Nurlar Nəşriyyatı, 2019, 448 s.

Konkret Azərbaycan Respublikasının Konstitusiyasına gəldikdə, ilk növbədə, nəzərə almalıyıq ki, ünsiyyət hüququna münasibətdə konstitusion normalar multidistiplinar xarakter dayışıyır. Yəni Konstitusiya ünsiyyət hüququna eyni zamanda müxtəlif aspektlərdən transdistiplinar formada yanaşır.

İlk növbədə, ünsiyyət hüququnun informasiya hüququndan ayrılmış törəmə hüquq kimi ümumi prinsipləri konseptual olaraq məhz Azərbaycan Respublikasının Konstitusiyasının 24 (İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının əsas prinsipi), 25 (Bərabərlik hüququ), 26 (İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının müdafiəsi), 60 (Hüquq və azadlıqların inzibati və məhkəmə təminatı), 68 (Özbaşınalıqdan müdafiə və vicdanlı davranış hüququ), 71-ci (İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təminatı) maddələrində təsbit olunur. Məsələn, Azərbaycan Respublikasının Konstitusiyasının 25-ci maddəsində əks olunan bərabərlik hüququna informasiya proseslərində, o cümlədən ünsiyyət hüququnun realizəsi zamanı mütləq şəkildə riayət olunması imperativ tələbdir. Bu da gözləniləndir, çünki nəinki milli səviyyədə, həmçinin beynəlxalq səviyyədə rəqəmsal bərabərsizliyin (informasiya bərabərsizliyinin) aradan qaldırılmasına dair tədbirlər informasiya cəmiyyətinin qarşısında dayanan ən başlıca vəzifə kimi çıxış edir. UNESCO-nun hələ 1980-ci ildə yayımlanmış Rabitə problemlərinin öyrənilməsi üzrə Beynəlxalq Komissiyanın hesabatında deyilirdi: " Demokratik bir cəmiyyətdə kommunikasiya ehtiyacları məlumatın tanınması, məlumat vermə hüququ, gizlilik hüququ, ictimai ünsiyyətdə iştirak etmək hüququ – yeni konsepsiyanın bütün elementləri kimi xüsusi hüquqların genişləndirilməsi ilə təmin olunmalı, ünsiyyət hüququnun bütün təsirlərini daha da tədqiq etməyi təklif edirik"[13].

Bundan başqa, konstitusion normalar mülki və cinayət, ailə və s. hüquq münasibətlərində, habelə bir sıra sahəvi qanunvericiliklərlə tənzimlənən ünsiyyət elementinin hüquqi çərçivələrini müəyyən edir. Məsələn, ünsiyyət hüququ məlumat azadlığının təminatı üsulu kimi. Konstitusiyanın 50-ci maddəsinin I hissəsinə əsasən, "hər kəsin istədiyi məlumatı qanuni yolla axtarmaq, əldə etmək, ötürmək, hazırlamaq və yaymaq azadlığı vardır". Müddəanın məzmunundan göründüyü kimi, burada ünsiyyət hüququ məlumat azadlığının realizə edilməsinin kökündə dayanır. Məlumatın axtarılması, əldə edilməsi, ötürülməsi və yayılması məqsədi ilə şəxslərin digər şəxslərlə ünsiyyətə girmək hüququnun həyata keçirilməsi zamanı yeganə şərt isə qanunun tələblərinə riayət olunmasıdır.

Beləliklə, ümumiləşdirdikə, aydın olur ki, konstitusion formatda ünsiyyət hüququ yalnız aktiv, passiv, neqativ və pozitiv formalarda ehtiva olunan kommunikasiya tənzimlənməsi deyil, eyni zamanda cəmiyyətdə demokratik siyasi iştirakın həyata keçirilməsi, cəmiyyət tərəfindən yaradılan biliklərin müxtəlif qruplar tərəfindən istifadə edilməsi üçün məlumatlandırılma və ya bloklanması, bir sıra digər mülki hüquqların həyata keçirilməsi, müxtəlif mədəniyyətlərin, mədəni formaların və şəxsiyyətlərin fərdi və sosial səviyyələrdə, hüquq çərçivəsində anlaşması mexanizmlərinin labüd və daim yeni yanaşma tələb edən tənzimlənməsidir.

---

[13] UNESCO-nun Rabitə problemlərinin öyrənilməsi üzrə Beynəlxalq Komissiyanın hesabatı. Paris, 1980., Tövsiyə 54, s. 265.

**İstifadə olunmuş ədəbiyyat siyahısı**

1. Azərbaycan Respublikasının Konstitusiyası
2. Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsi
3. Vətəndaşların müraciətləri haqqında Azərbaycan Respublikasının Qanunu,
4. İHAM-ın Kazakov Rusiyaya qarşı işi üzrə Qərarı, 2008, § 30. Tam mətn – https://hudoc.echr.coe.int/eng#{%22appno%22:[%224649/08%22],%22itemid%22:[%22001-173391%22]}
5. UNESCO-nun Rabitə problemlərinin öyrənilməsi üzrə Beynəlxalq Komissiyanın hesabatı. Paris, 1980., Tövsiyə 54, s. 265.
6. Əmir Əliyev, Gülnaz Rzayeva, Aytəkin İbrahimova, Bəhruz Məhərrəmov, Şahin Məmmədrzalı. İnformasiya hüququ. Dərslik, Bakı, Nurlar Nəşriyyatı, 2019, 448 s.
7. Рассолов М.М. Информационное право: учеб. Пособие. М., 1999. Ст. 24
8. Jean d'Arcy 'Direct Satellite Broadcasting and the Right to Communicate' European Broadcasting Union paper, 1969.
9. İsa Musayev, Mətləb Əlizadə, İnformatikanın əsasları. Dərs vəsaiti. Bakı 2014, səh.12.
10. Azərbaycan dilinin izahlı lüğəti, IV cild. AMEA Nəsimi adına dilçilik İnstitutu, Şərq-Qərb nəşriyyatı, Bakı 2006,

## X Ü L A S Ə

İnformasiya hüquq münasibətləri inkişaf etdikcə onun törəmə sahələri tədricən önəmini artıraraq ayrıca münasibət kimi daha çox büruzə verməkdə və xüsusi tənzimetmə tələb olunmaqdadır. Bu kimi törəmə hüquq münasibətlərindən biri "ünsiyyət hüququ"dur. Müasir dövrdə informasiya kommunikasiya texnologiyaları yeni mərhələyə qədəm qoyduqca, ünsiyyət də yeni forma və çalarlar kəsb etməyə, əvvəlki tənzimləyici normalar isə tədricən effektsiz görünməyə başladığı üçün müasir beynəlxalq informasiya hüququnun əsas vəzifələrindən biri məhz bu sferanı tədqiq etməkdir.

**Бахруз Магеррамов**
**Депутат Милли Меджлиса Азербайджанской Республики,**
**д.ф.п.п., доцент**

**Формы и методы обеспечения «коммуникационного права» как важного элемента международного информационного права в национальном законодательстве Азербайджанской Республики**

## Р Е З Ю М Е

По мере развития информационных правоотношений постепенно возрастает значение их дочерних сфер, выделяющихся как самостоятельные отношения и требующих особого регулирования. Одним из таких производных правоотношений является «коммуникационное право». По мере того, как информационные и коммуникационные технологии в наше время выходят на новый этап, коммуникация приобретает новые формы и оттенки, а прежние нормативные нормы постепенно становятся неэффективными. Изучение этой сферы является одной из основных задач современного международного информационного права.

**Bahruz Maharramov**
**Member of the Milli Majlis of the Republic of Azerbaijan,**
**Associate Professor, Doctor of Philosophy in Law**

## Forms and methods of ensuring "communication right" as an important element of international information law in the national legislation of the Republic of Azerbaijan

### S U M M A R Y

As information legal relations develop, its subsidiary areas gradually increase in importance, becoming more prominent as a separate relationship and requiring special regulation. One of such derivative legal relations is "communication right". As information and communication technologies enter a new stage in modern times, communication takes on new forms and shades, and previous regulatory norms gradually become ineffective. One of the main tasks of modern international information law is to study this sphere.

***Əminə AĞAZADƏ***

Azərbaycan Respublikası Milli Məclisinin deputatı

# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANDA HÜQUQI DÖVLƏT QURUCULUĞU

***Açar sözlər:*** *dövlət quruculuğu, ölüm cəzası, cəza siyasətinin humanistləşdirilməsi, dekriminallaşdırılma, ixtisaslaşmış məhkəmələr*

***Ключевые слова:*** *государственное строительство, смертная казнь, гуманизация политики наказания, декриминализация, специализированные суды*

***Keywords:*** *state-building, capital punishment, humanization of punishment policy, decriminalization, specialized courts*

Müstəqil Azərbaycan dövlətinin qurucusu Ulu Öndər Heydər Əliyevin qarşısında duran tarixi vəzifələrdən birincisi deyure müstəqillik qazanmış Azərbaycan Respublikasının defakto da beynəlxalq aləmin müstəqil bərabərhüquqlu üzvü kimi təsdiq etdirmək, bu müstəqilliyi qoruyub saxlamaq idi. Bu məqsədlərə çatmaqda dövlətin daxili siyasətində həyata keçirilməli olan ən əsas məsələ isə xalqın iradəsinin ifadəsi kimi qanunların aliliyini təmin edən hüquqi dövlət qurmaq idi.

Ümummilli Lider H.Əliyevin adı ilə bağlı olan Azərbaycanda hüquqi dövlət quruculuğu prosesi 1993-2003-cü illəri əhatə edir. Bu dövrdə dövlətçiliyin əsasları qoyuldu, Ulu Öndər siyasi təcrübəsi, vətənpərvərliyi, iradəsi, dərin biliyi sayəsində o, dövlətimizi vətəndaş müharibəsi təhlükəsindən, ictimai, siyasi və iqtisadi böhran vəziyyətindən xilas edərək ölkədə ilk növbədə qanunçuluğu bərqərar etdi. Qanunun aliliyinə təminat verən Konstitusiya qəbul edildi. Heydər Əliyevin hakimiyyətə qayıtdığı 15 iyun tarixini "Milli qurtuluş günü" kimi qeyd etməyimiz də məhz bu məntiqdən doğur.

Müasir dövlətlərin ictimai-siyasi həyatında və idarə olunmasında Konstitusiyalarnın müstəsna yeri və rolu olduğu heç kimdə şübhə yaratmır. Konstitusiya cəmiyyətin və dövlətin hüquqi təfsiri olmaqla, onun əsas modelini təcəssüm etdirir, sabitliyin və insan hüquqlarının bərqərar olmasının hüquqi bazası hesab olunur. Demokratik və hüquqi dövlətlərin Konstitusiyaları xalq suverenliyini, xalqı təmsil etmək hüququnu, xalqın vahidliyini və hakimiyyətin mənbəyi institutlarını özündə birləşdirən xalq hakimiyyətini, dövlətin ali məqsədini özündə ehtiva edir. Bu sənəd insanın cəmiyyətin ən ali dəyəri kimi hüquq və azadlıqlarının sistemini və müdafiə mexanizmlərini müəyyən edir.

1995-ci il 12 noyabr tarixində ümümmilli referendumda qəbul edilən və 27 noyabr tarixində qüvvəyə minən Azərbaycan Respublikasının Konstitusiya layihəsinin hazırlanması kimi çox ciddi və məsuliyyətli işi H.Əliyev öz üzərinə götürərək komissiyaya şəxsən sədrlik etmişdir. Azərbaycan Konstitusiyasının müəllifi hesab edilən Ulu Öndər Konstitusiyanın bütün mətninin, xüsusilə də III fəslinin, yəni Əsas İnsan və vətəndaş hüquqları və azadlıqlarını ehtiva edən maddələrin hər bir cümləsinin redaksiyasına xüsusi diqqət vermişdir.

Ulu Öndər əslində öz zəngin dövlətçilik təcrübəsindən, yüksək elmi-nəzəri və müasir baxışlarından, informasiya məlumatlarının mükəmməlliyindən və etibarlığından məcmu şəklində böyük məharətlə istifadə edirdi. O, hər hansı bir sənədi, qanun layihəsini, normativ hüquqi aktı hazırlayarkən, nəzərdən keçirərkən, dünya təcrübəsini, tarixi ənənələri, milli-mənəvi dəyərləri, mütərəqqililiyi daim dərindən öyrənir, ən mükəmməl qanunlar hazırlanmasına böyük diqqət yetirirdi. Bu baxımdan onun konstitusiya layihəsinin müzakirəsi ilə bağlı keçirdiyi çoxsaylı mü-zakirələr, məsləhətləşmələr, irad və tövsiyyələr son dərəcə böyük maraq kəsb edirdi. Nəticədə H.Əliyevin rəhbərliyi ilə üçdə biri insan hüquqlarını bəyan edən mükəmməl normativ-hüquqi akt hazırlandı.

Bundan sonra Ümummilli Liderin rəhbərliyi ilə hüquq sahəsində köklü islahatlara başlanıldı, yeni məhkəmə sistemi formalaşdırıldı, həmçinin konstitusiya nəzarəti orqanı olan Konstitusiya Məhkəməsi 14 iyul 1998-ci ildə yaradıldı. Əsas məqsədi Azərbaycan Respublikası Konstitusiyasının aliliyini təmin etmək olan Konstitusiya Məhkəməsinin yaradılması insan hüquq və azadlıqlarını müdafiə edilməsi üçün çox zəruri idi.

Hüquq mühafizə sistemi kimi çətin və məsuliyyətli sahənin təşəkkülü, burada işin yüksək səviyyədə təşkilini təmin edən tədbirlər kompleksinin hazırlanması və həyata keçirilməsi də məhz Ulu öndərin adı ilə bağlıdır.

Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi ölkəmizdə insanların dinc və təhlükəsiz yaşamasını təmin etdi. Digər tərəfdən isə dövlətin cinayət-hüquqi siyasətində əsaslı dəyişikliklər edildi, Əfv institutu bərpa olundu, Şərqdə ilk dəfə olaraq ölüm cəzası ləğv edildi. Belə ki, hələ 1993-cü ildə humanizm və insanpərvərlik kimi yüksək idealları rəhbər tutan Ulu Öndərin ölkəyə rəhbərliyə başlamasından sonra ölüm cəzasının icrasının üzərində moratorium qoyuldu. 3 fevral 1998-ci ildə isə H.Əliyev Milli Məclisə müraciət edərək, ölüm cəzasının ləğv edilməsinin zəruriliyini əsaslandırdı. Milli Məclis öz növbəsində dövlət başçısının təklifini dəstəkləyərək, "Cinayət Məcəlləsinə dəyişiklik edilməsi haqqında" 10 fevral 1998-ci il tarixli Azərbaycan Respublikasının Qanununu qəbul etməklə bu cəza növü ləğv edildi.

Ulu Öndər ölüm cəzasının ləğvinə dair milli hüququn mühüm aktlarının qəbulu ilə yanaşı, bu sahədə əsas beynəlxalq sənədlər olan Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın İkinci Fakültativ Protokoluna, habelə "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyanın 6 nömrəli Protokoluna ölkəmizin qoşulmasının da təşəbbüskarı olmuşdur.

Həmçinin H.Əliyevin 22 fevral 1998-ci il tarixli "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" Fərmanının əhəmiyyəti də qeyd edilməlidir. Belə ki, həmin Fərmanla Qanun layihələrinin hazırlanması və qanunların qəbul edilməsi zamanı Konstitusiyada əks etdirilmiş insan hüquq və azadlıqların əsas meyar kimi rəhbər tutulması Milli Məclisə tövsiyə edilmiş, Azərbaycanda İnsan hüquqları üzrə müvəkkil təsisatının yaradılması ideyası da ilk dəfə məhz bu fərmanla verilmişdir.

Beləliklə aydın olur ki, Ombusdman haqqında Konstitusiya Qanunu da Heydər Əliyevin adı ilə birbaşa bağlıdır.

Qeyd edilməlidir ki, insan hüquq və azadlıqlarının müdafiəsinin hüquqi mexanizmlərinin daha da təkmilləşdirilməsi, ölkəmizin dünya birliyinə inteqrasiyası, Avropa Şurasına üzv seçilməsi Konstitusiyaya dəyişikliklərin olunmasını zəruri edirdi. Məhz bu zərurətdən irəli gələrək Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə 2002-ci il avqustun 24-də keçirilmiş referendumla Əsas Qanunun mətninə insan hüquqlarının həyata keçirilməsi ilə bağlı bir sıra dəyişikliklər edilmiş, o cümlədən vətəndaşlara və Ombudsmana Konstitusiya Məhkəməsinə birbaşa müraciət etmək hüququ verilmişdir.

Ümumiyyətlə Ulu öndərin Azərbaycan Respublikasının Prezidenti kimi qanunvericilik təşəbbüsü ilə bir çox mühüm normativ-hüquqi aktlar qəbul etmişdir. Burada ilk növbədə yeni məcəllələrin – Mülki, Mülki Prosessual, Cinayət, Cinayət-Prosessual, Seçki, Əmək, Ailə və digər məcəllələrin qəbulu xüsusi qeyd edilməlidir.

Həmçinin Qanunun qəbul edilməsi H.Əliyev həm də Azərbaycanda müasir dövlət qulluğu sisteminin banisidir. Məhz Ulu Öndərin təşəbbüsü ilə "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanunu hazırlanmış və qanunvericilik təşəbbüsü qaydasında Milli Məclisə təqdim edilmişdir.

Beləliklə, Azərbaycanda hüquqi dövlət quruculuğu üçün bütün təminatlar Ulu Öndər Heydər Əliyev tərəfindən yaradıldı. Əminliklə deyə bilərik ki, xalqımızın müstəqil, demokratik, qanunların aliliyinə əsaslanan hüquqi dövlətdə yaşamaq arzusunu məhz Heydər Əliyev gerçəkləşdirdi.

Ulu Öndərin dövləti xalqı üçün xidmətlərini bir məqalədə tam olaraq çatdırmaq qeyri-mümkündür. Çünki H.Əliyevin azərbaycan xalqı üçün xidmətləri unudulmazdır, əvəzolunmazdır və onlar tarixi əhəmiyyət kəsb edir.

Ulu Öndərin siyasi xəttini uğurla davam etdirən möhtərəm Prezident cənab İlham Əliyevin xüsusilə də son dövrlərdə dövlətimizin hüquq siyasətində həyata keçirdiyi islahatları haqqında da qeyd etmək çox zəruridir.

Əminliklə deyə bilərək ki, əsası Ümummilli Lider Ulu Öndər H.Əliyev tərəfindən qoyulan insan və vətəndaş konstitusion hüquqların təmin edilməsi üzrə həm institusional, həm də hüquqi islahatların yeni mərhələyə keçidinin təşəbbüskarı cənab Prezident İlham Əliyev olmuşdur. Buna ixtisaslaşmış məhkəmələrin yaradılması, elektron məhkəmə informasiya sistemi və s. aiddir.

Xüsusilə qeyd edilməlidir ki, cənab Prezident İlham Əliyevin humanist siyasətinin növbəti təzahürü və eyni zamanda öz konseptuallığına görə hüquqi islahatların həyata keçirilməsi sahəsində, yeni bir mərhələnin başlanğıcını cəza siyasətinin humanistləşdirilməsi barədə cənab Prezidentin 10 fevral 2017-ci il tarixli Sərəncamı qoydu. Bu Sərəncama qədər belə bir praktika yox idi ki, dövlət başçısı ədalət mühakiməsinin həyata keçirilməsinə özünün qəbul etdiyi aktda birbaşa narahatlığını ifadə etsin.

Azərbaycan Respublikasının Milli Məclisi də öz növbəsində bu islahatlara həm qanunvericilik, həm də nümayəndəlik funksiyalarını paralel həyata keçirməklə öz töhfəsini verdi. Belə ki, cəza siyasətinin humanistləşdirilməsi və ümumilikdə qanunvericiliyin təkmilləşdirilməsinə dair hazırlanmış böyük bir qanun layihəsi Milli Məclisdə qeyri-hökumət təşkilatlarının nümayəndələrinin iştirakı ilə ictimai müzakirəyə təqdim edildi.

Bu islahatların davamı olaraq Azərbaycan Respublikasının Prezidenti İ.Əliyev tərəfindən imzalanan "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 2019-cu il tarixli Fərman, adından da göründüyü kimi məhkəmə-hüquq islahatlarının daha da dərinləşdirdi. Bu fərman əsasında həyata keçirilən tədbirlər, o cümlədən müvafiq qanunvericilik bazasının yaradılması o qədər əhatəli idi ki, onları bütünlüklə qeyd etmək çətindir. Məhkəmə ekspertizası fəaliyyətinin həyata keçirilməsi, vahid məhkəmə təcrübəsinin formalaşdırılması ilə bağlı tövsiyə və tapşırıqlar, həmçinin mülki işlər və iqtisadi mübahisələr üzrə məhkəmə icraatının effektivliyinin artırılması məqsədilə beynəlxalq təcrübə də nəzərə alınmaqla onun təkmilləşdirilməsinin həyata keçirilməsi də məhz bu fərmanda qarşıya qoyulmuş məqsədlərə aiddir.

Həmin fərmanda həmçinin cəza siyasətinin humanistləşdirilməsi və cinayətlərin dekriminallaşdırılması üzrə tədbirlərin davam etdirilməsi barədə tövsiyə və tapşırıqlar da öz əksini tapmışdır.

Yuxarıda da qeyd edildiyi kimi əsası Ulu Öndər H.Əliyev tərəfindən qoyulan humanizm məfkurəsinin növbəti təzahürü olaraq ölüm cəzasının ləğv olunmasının 25-ci il dönümündə, 2023-cü il fevralın 3-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyanın ölüm cəzasının bütün hallarda, o cümlədən müharibə dövründə də ləğvinə dair 13 nömrəli Protokolunun Azərbaycan Respublikası adından imzalanması ilə bağlı Sərəncam imzalamaqla cənab Prezident yaşamaq kimi ən ali insan hüququnun bütün hallarda təmin edilməsinin təşəbbüskarı oldu.

Bütün sahələrdə olduğu kimi dövlətimizin hüquq siyasəti quruculuğunda da daima inkişaf etməsi müstəqil Azərbaycanın memarı və qurucusu olan Heydər Əliyevə ucaldılmış ən gözəl abidədir.

Bu gün Ulu Öndərin, müstəqil Azərbaycanın hüquq sisteminin və hüquqi dövlət quruculuğunun təşəkkülündə misilsiz xidmətlərinin dərindən öyrənilməsinə, tədqiq edilməsinə və siyasi kurs kimi istifadə edilməsinə böyük zərurət yaranmışdır. Bu günkü Azərbaycanda aparılan hüquqi dövlət quruculuğu Heydər Əliyevin ictimai-siyasi və hüquqi görüşlərinin dərin tədqiqini tələb edir. Çünki belə tədqiqatların aparılması ölkəmizin gələcək inkişafı üçün mühüm əhəmiyyət kəsb edir, azərbaycançılıq ideologiyasının və milli birliyinin təşəkkül tapması üçün müstəsna rola malikdir.

Bu il bütün Azərbaycan ictimaiyyəti tərəfindən Ulu Öndərin anadan olmasının 100 illiyinin bir el bayramı kimi yüksək səviyyədə qeyd edilməsi, onun minnətdarlıqla xatırlanması xalqımıza böyük xidmətlər göstərmiş Heydər Əliyevin ümumxalq sevgi qazanmasının bariz nümunəsidir. Ulu Öndər Azərbaycan dövləti yaşadıqca və fəaliyyət göstərdikcə həmişə minnətdarlıqla xatırlanacaqdır.

*Fəxrəddin NAĞIYEV*

Azərbaycan Respublikasının Prezidenti yanında
Dövlət İdarəçilik Akademiyasının Siyasi idarəetmə
fakültəsinin Hüquq kafedrasının dosenti, h.ü.f.d.

# AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT MÜSTƏQİLLİYİ VƏ KONSTİTUSİON İNKIŞAF TARİXİ

***Açar sözlər:*** *Konstitusiya; konstitusiya islahatları; ictimai münasibətlər; İstiqlal bəyannaməsi; Xalq Cümhuriyyəti; referendum*

***Ключевые слова:*** *Конституция; конституционные реформы; связи с общественностью; Декларация независимости; Народная Республика; референдум*

***Keywords:*** *Constitution; constitutional reforms; public relations; Declaration of Independence; People's Republic; referendum*

## Giriş. Dövlət və cəmiyyət həyatında konstitusiyanın yeri və rolu, konstitusiya islahatlarının mahiyyəti və əhəmiyyəti

Bəşər tarixində cəmiyyətin siyasi sisteminə, onun müdbət inkişafına təsir göstərən elə normativ sənədlər olmuşdur ki, onlar insan və vətəndaş hüquqlarının, dövlət hakimiyyəti institutlarının sabit fəaliyyətinin təmin edilməsində misilsiz rol oynamışdır. Bu hüquqi sənədlər sırasında ən önəmlisi istənilən dövlətin əsas qanunu sayılan konstitusiyadır. Konstitusiya xalqın ali hakimiyyətinin təzahürü olan suverenliyini, dövlət quruluşunu, insan və vətəndaşın hüquqi statusunun əsaslarını, dövlət hakimiyyəti və yerli özünüidarəetmə sistemini tənzimləyən siyasi-hüquqi sənəddir. Konstitusiya anlayışı latınca "təsisat", "quruluş" deməkdir. Burada söhbət dövlətin, onun ali hakimiyyət orqanlarının, dövlət quruluşunun əsaslarının təsis olunmasından gedir. Tarixən konstitusiya hər bir xalqın sabit inkişaf yolunu müəyyənləşdirən ali sənəd olmaqla yanaşı, dövlətin siyasi sisteminin mahiyyətini açmış, insan hüquq və azadlıqlarına, demokratikləşmə proseslərinə münasibəti özündə ehtiva etmiş, milli qanunvericiliyin inkişafında əhəmiyyətli rol oynamışdır. 12 noyabr 1995-ci ildə ümumxalq səsverməsi – referendumla qəbul edilmiş müstəqil Azərbaycan Respublikasının Konstitusiyası da dünya ictimaiyyətinin ali dəyər kimi qiymətləndirdiyi beynəlxalq hüquq normalarına, demokratik prinsiplərə əsaslanmaqla, xalqın sivil və hüquqi dövlətdə yaşamaq istəyini təcəssüm etdirir. Hüquq normalarından ibarət olmasa da, konstitusiyanın əsas məna yükünü dərk etmək, onun mahiyyətini izah etməkdə əvəzsiz rolu olan Azərbaycan Konstitusiyanın preambulasında dövlətin müstəqilliyinin və suverenliyinin qorunması, hüquqi, demokratik quruluşa təminat vermək, hüquqi dövlət qurmaq, insan hüquqlarının təminatlı müdafiəsinə, vətəndaş cəmiyyətinə nail olmaq mühüm vəzifələr kimi bəyan edilmişdir. Konstitusiyanın əsasında hakimiyyətin yeganə mənbəyi kimi xalqın tanınması, ölkənin bütövlüyünün qorunması, hakimiyyətlərin bölünməsi prinsipinə ciddi riayət olunması, insan hüquq və azadlıqlarının dövlətin ali məqsədi kimi bəyan edilməsi, beynəlxalq hüququn milli qanunvericilik üzərində üstünlüyü kimi hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğunu təsbit edən mütərəqqi ideyalar dayanmışdır. Əsas Qanunda

Azərbaycanın demokratik yolla inkişafının qaçılmaz olduğunu nəzərdə tutan şərt ali hakimiyyətin xalqa məxsus olmasının birmənalı şəkildə təsbit edilməsidir. Azərbaycan Respublikası Konstitusiyasını səciyyələndirən mühüm cəhətlərdən biri də insan və vətəndaş hüquqları dairəsinin kifayət qədər əhatəli şəkildə təsbit olunması və bu hüquqların ölkənin ən ali qanunu səviyyəsində tanınması, onların müdafiəsinin və təmin edilməsinin isə dövlətin əsas məqsədi olduğunun elan edilməsidir. Konstitusiyanın 12-ci maddəsinin birinci hissəsinə uyğun olaraq insan və vətəndaş hüquqlarının və azadlıqlarının, hər kəsin layiqli həyat səviyyəsinin təmin edilməsi dövlətin ali məqsədidir. Konstitusiyanın qəbulundan sonra ölkədə həyata keçirilən çoxşaxəli islahatlar da məhz insan və vətəndaş hüquq və azadlıqlarının səmərəli təmini məqsədinə yönəlmiş, bu prosesdə vətəndaş cəmiyyəti təsisatlarının rolu genişləndirilmişdir.

İctimai münasibətlərin inkişaf tempi, cəmiyyətin dinamik tərəqqisi ilə bağlı olaraq dövlət idarəetmə sisteminin əsasını təşkil edən mühüm qanunvericilik aktlarının müasirləşdirilməsi bir qayda olaraq sosial tələbat kimi gündəliyə gəlir. Konstitusiya da hər bir dövlətin hüquq sisteminin fundamental əsasını təşkil etdiyindən ölkənin inkişaf xüsusiyyətlərini özündə ehtiva etməli, müasirliyi, demokratikliyi, insan və vətəndaş hüquq və azadlıqlarına etibarlı təminat mexanizmlərini formalaşdırması ilə diqqəti çəkməlidir. Konstitusiyanın zamanın ruhu, cəmiyyətin iradəsi ilə uzlaşması, proqressiv yeniliklərə adekvat reaksiya verməsi vacibdir. Bir sözlə, Əsas Qanuna dəyişikliklər, əgər tarixi zərurətdən, ictimai tələbatdan irəli gələrək uğurlu nəticələrə yol açırsa, yalnız onun sabitliyini və dəyişilməzliyi fikrini əsas gətirərək islahatlardan imtina etmək düzgün yanaşma deyildir.

Konstitusiya islahatlarının aktuallığını xarakterizə edən hallara həmçinin aşağıdakıları aid etmək olar: ölkənin qanunvericilik bazasının təkmilləşməsinin zəruriliyi; Azərbaycan Respublikasında konstitusiya islahatlarının fasiləsiz və daimi inkişafının spesifik modelinin hazırlanması; dünyanın inkişaf etmiş ölkələrinin təcrübəsinin hərtərəfli öyrənilməsi və onun Azərbaycanın xüsusiyyətlərinə uyğun yaradıcılıqla tətbiqi; müasir dövlətin əsas qanunu kimi dövlətlə vətəndaş arasında qarşılıqlı ictimai münasibətləri tənzimləyən konstitusiya prinsiplərinə əsaslanmış qanunvericiliyin təkmilləşdirilməsinin vacibliyi. Beləliklə, konstitusiya quruculuğu sahəsində aparılan islahatlar, konstitusiya yaradıcılığı institutunun əhəmiyyətinin artması bu problemin nəzəri və praktiki aspektdə kompleks şəkildə tədqiq olunmasını zəruri edir və bu islahatların xüsusi aktuallığını və müstəsna əhəmiyyətə malik olduğunu şərtləndirir.

**Birinci Azərbaycan Respublikası. İstiqlaliyyət Bəyannaməsi.** Azərbaycan dövlətçiliyi tarixində mövcud olmuş dörd respublikadan{3}birincisi olan Azərbaycan Xalq Cümhuriyyətinin müstəqil konstitusiyası olmasa da, bu dövlət fəaliyyət göstərdiyi dövrdə konstitusiya xarakteri daşıyan bir sıra aktlar qəbul etmişdir. 1919-cu ildə Azərbaycanın dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı, Azərbaycan Xalq Cümhuriyyətinin Parlamenti, hökuməti və bayrağı haqqında konstitusiya xarakterli qanunları müəyyən qədər Azərbaycanın Konstitusiya quruculuğunun başlanğıcı kimi qiymətləndirmək olar {5, s.134}.

1918-ci il may ayının 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yarandığını, onun əsas məqsədlərini elan edən, bu respublikanın qanun yaradıcılığı prosesinin zirvəsində yer alan İstiqlal Bəyannaməsi bütün türk-müsəlman dünyasında, ümumiyyətlə bütün Şərqdə ilk dəfə olaraq Azərbaycanda ən demokratik respublika idarə üsulunun – parlamentli respublikanın yaradılacağından xəbər verirdi.

Bu siyasi və hüquqi sənəddə müstəqil Azərbaycan dövlətinin yarandığı bəyan edilmiş, onun hakimiyyətinin şamil olunduğu ərazinin hüdudları müəyyənləşdirilmiş, həmçinin dövlətin əsas fəaliyyət prinsipləri öz əksini tapmışdır. İstiqlal aktında demokratik dövlətə

məxsus atributların – hakimiyyətin xalqa mənsub olması, vətəndaşların mülki və siyasi hüquqlarının təmin edilməsi, bütün xalqların və hər bir kəsin milli, dini, sinfi, silki mənsubiyyətindən asılı olmayaraq azad inkişafı üçün şərait yaradılması, ən nəhayət, hakimiyyətin bölünməsi kimi prinsiplərin dövlət fəaliyyətinin əsası kimi bəyan edilməsi Azərbaycan xalqının suveren, demokratik, hüquqi dövlət yaratmaq əzmində olduğunu bütün dünyaya nümayiş etdirdi. İstiqlal Bəyannaməsinin qəbulu ilə Birinci Dünya müharibəsinin gedişində və Rusiyada mütləqiyyətin devrilməsi nəticəsində yaranmış çox mürəkkəb bir tarixi şəraitdə Azərbaycanın şimal torpaqlarında dövlətçilik ənənələrimiz yenidən, özü də bu dəfə parlamentli respublika formasında dirçəldi. Azərbaycan xalqının tarixində ilk parlamentli respublika olan Azərbaycan Xalq Cümhuriyyəti, eyni zamanda, bütün Şərqdə, o cümlədən türk-islam dünyasında ilk demokratik, hüquqi və dünyəvi dövlət nümunəsi idi. Azərbaycan Xalq Cümhuriyyəti özünün siyasi quruluşuna, həyata keçirdiyi demokratik dövlət quruculuğu tədbirlərinə, həmçinin qarşısına qoyduğu məqsəd və vəzifələrə görə də Avropanın ənənəvi demokratik respublikalarından heç də geri qalmır, bir sıra məsələlərdə, məsələn seçki qanunvericiliyinin məzmununa görə, hətta onları üstələyirdi də. İkinci və üçüncü Azərbaycan Respublikaları dövründə konstitusiya yaradıcılıgı. Bununla belə, Xalq Cümhuriyyəti dövründə qəbul edilən dövlət dili, dövlət bayrağı, parlament haqqında qanunlar da konstitusiya xarakterli olsa da, ayrıca olaraq bir sıra səbəblərdən Konstitusiya qəbul edilə bilmədi. Ona görə də tam məsuliyyəti ilə demək olar ki, Azərbaycanın dövlət və hüquq tarixində ilk konstitusiyaçılıq institutunun təşkili 1921-ci ildən – İkinci Azərbaycan Respublikasının Konstitusiyasının qəbulundan başlanır. 1921-ci il mayın 19-da Bakıda keçirilən birinci Ümumazərbaycan Sovetlər qurultayı Azərbaycan SSR-in sovetlər ideyası əsasında fəaliyyət göstərən ilk Konstitusiyasını qəbul etdi. Bu konstitusiya Azərbaycanda sosializm cəmiyyətinin qurulmasını bir vəzifə olaraq qarşıya qoyur, respublikada sovet hakimiyyətinin qələbəsini, sovet hakimiyyətinin simasında proletariatın diktaturasını, torpaq, sənaye, bank və sairlərin milliləşdirilməsini qanuniləşdirirdi. 1936-cı il SSRİ-nin yeni Konstitusiyası əsasında 1937-ci ildə üçüncü Azərbaycan Respublikasının yeni Konstitusiyası qəbul edildi. 1978-ci ildə qəbul edilən və yeni tarixi şəraitin xüsusiyyətlərini özündə əks etdirən 3-cü Azərbaycan Konstitusiyasına Sovet Azərbaycanının əvvəllər qüvvədə olan konstitusiyalarında nəzərdə tutulmayan yeni hüquqlar, azadlıqlar və vəzifələr daxil edilmişdi. Onların içərisində ən çox diqqəti çəkəni respublikanın o zamankı rəhbəri Heydər Əliyevin müdrik siyasəti nəticəsində Azərbaycan dilinə dövlət statusunun verilməsi idi. Bunu deyərkən həm də nəzərə alınmalıdır ki, həmin dövrdə bütün keçmiş sovet respublikalarının konstitusiyaları üçün hüquqi əsas olan SSRİ Konstitusiyasında dövlət dili haqqında hər hansı bir göstəriş, ümumiyyətlə yox idi. Onu da qeyd etməliyik ki, formal olaraq qəbul edildikləri dövrlərdə konstitusiyalar üçün müəyyən edilmiş əksər tələblərə cavab verdiklərinə baxmayaraq bu konstitusiyaların heç biri müstəqil dövlətin konstitusiyası deyildi. Onlar kommunist ideologiyasına xidmət etməklə SSRİ Konstitusiyasının əsasında tərtib edilir, mahiyyət etibarı ilə digər müttəfiq respublikaların əsas qanunlarından heç nə ilə fərqlənmirdilər. Onların yeganə müsbət cəhəti kimi formal olsa da Azərbaycanda dövlət quruluşunun əsaslarını müəyyən etməklərini, həmçinin ölkənin əhalisində konstitusiyaçılıq mədəniyyəti, hüquqi şüur yaradılması və onun inkişafı istiqamətində addımlar atılmasını qeyd etmək olar.

**Dövlət Müstəqilliyinin Bərpası haqqında Konstitusiya Aktı.** 1980-ci illərin sonlarında Sovetlər Birliyində getdikcə genişlənən, eyni zamanda partiya və dövlət rəhbərliyinin nəzarətindən çıxaraq idarəolunmaz xarakter alan dövlət idarəetmə islahatları nəticəsində SSRİ-nin süqutunun yaxınlaşması, ittifaq dövlətlərində milli azadlıq hərəkatının

genişlənməsi, bu proseslərdən istifadə edən və xaricdəki havadarlarının himayəsinə arxalanan Ermənistanın Azərbaycana qarşı təcavüzkarlıq hərəkətləri nəticəsində xalqın milli özünüdərk şüurunun kifayət qədər yüksəlməsi, əhalinin konsolidasiyasının güclənməsi nəticəsində Azərbaycan Ali Soveti xalqın müstəqil və demokratik dövlətçilik uğrunda apardıqları mübarizənin qarşısında tab gətirə bilməyərək 18 oktyabr 1991-ci ildə Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktını qəbul etdi. Sonradan, Azərbaycan Respublikasının 15 oktyabr 2021-ci il tarixli Qanunu ilə Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndinə əsasən Azərbaycan Respublikasının Milli Məclisi 1918-ci il mayın 28-də İstiqlal Bəyannaməsi ilə Azərbaycan Respublikasının dövlət müstəqilliyinin elan olunduğunu, 1991-ci il oktyabrın 18-də isə "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktı ilə Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpa olunduğunu nəzərə alaraq qərara alındı ki, mayın 28-i Müstəqillik Günü, oktyabrın 18-i Müstəqilliyin Bərpası Günü elan edilsin. Müstəqillik Günü və Müstəqilliyin Bərpası Günü hər il bayram günləri kimi qeyd edilsin {4}.

Bu tarixi sənədin qəbulunda o vaxt Ali Sovetin sıravi deputatı olan Heydər Əliyevin xüsusi rolu olmuşdur. 1991-ci il oktyabrın 19-da Azərbaycan Ali Sovetinin sessiyasına ünvanladığı müraciətdə bu hadisəni yüksək qiymətləndirən Heydər Əliyev yazırdı: "Biz bu gün xoşbəxtik ki, nəhayət, Azərbaycan Respublikasının ali hakimiyyət orqanı milli azadlıq niyyətlərimizin həyata keçirilməsi üçün ilk addım atdı" {7, s. 346}.

1991-ci il dekabrın 29-da ümumxalq referendumunda məsələ müzakirəyə çıxarılır və əhalinin 95%-i bu referendumda iştirak edərək ölkənin müstəqilliyinə, suverenliyinə və istiqlaliyyətinə səs verir. 6 fəsil, 32 maddədən ibarət Konstitusiya Aktının 2-ci maddəsi ilə müəyyən edilir ki, müstəqil Azərbaycan dövləti 1918-1920-ci illərdə mövcud olmuş Xalq Cümhuriyyətinin varisidir. Əslində siyasi mənada varislik ondadır ki, 18 oktyabr aktı qəbul edilərkən Azərbaycan Respublikasının Ali Soveti Azərbaycan Milli Şurasının 1918-ci il mayın 28-də qəbul etdiyi İstiqlal Bəyannaməsinə, Azərbaycan Respublikasının demokratik prinsiplərinin və ənənələrinin varisliyinə əsaslanmış və "Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası haqqında" Azərbaycan Respublikası Ali Sovetinin 1991-ci il 30 avqust tarixli Bəyannaməsini rəhbər tutmuşdur. SSRİ-nin təşkili haqqında 1922-ci il 30 dekabr tarixli müqavilənin Azərbaycana aid hissəsi imzalandığı andan etibarsız elan edilirdi. Keçmiş SSR İttifaqının tərkibinə daxil olmuş suveren dövlətlər ilə qarşılıqlı münasibətlərin, ortaya çıxan bütün məsələlərin müqavilələr və sazişlər yolu ilə nizama salınması nəzərdə tutulurdu. Ayrıca maddə ilə qeyd edilirdi ki, Azərbaycan Respublikasının 1978-ci il Konstitusiyası bu Konstitusiya Aktının müddəalarına zidd gəlməyən yerlərində qüvvədə qalır. Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası elan edilənə qədər qüvvədə olmuş, Azərbaycan Respublikasının suverenliyinə və ərazi bütövlüyünə zidd olmayan, milli dövlət quruluşunun dəyişdirilməsinə yönəldilmiş aktların hamısı Azərbaycan Respublikasında hüquqi qüvvəsini saxlayır. Hüquqi varislik prinsipini gözləyərək elan edilirdi ki, Azərbaycan Respublikasının müvafiq qanunları qəbul edilənədək SSRİ qanunları Azərbaycan Respublikasının ərazisində hüquqi qüvvəsini saxlayır; həmin qanunların siyahısını Azərbaycan Respublikasının parlamenti müəyyən edir. Azərbaycan Respublikasının müstəqilliyinə qarşı yönəldilən hər hansı hərəkət suveren dövlətin daxili işlərinə qarışmaqdır və beynəlxalq hüquq normalarına uyğun olaraq bu hərəkətlərə cavab verilir. Konstitusiya Aktının bir çox müddəaları, demək olar ki, heç bir dəyişiklik edilmədən 1995-ci il Konstitusiyasının mətninə daxil edilmişdir. Həm də burada söhbət Konstitusiyanın bütün sonrakı hissələrini müəyyən edən ümumi müddəalardan gedir. Məsələn, müəyyən edilir ki,

Azərbaycan xalqı Azərbaycan Respublikasının ərazisində və ondan kənarda yaşayan, Azərbaycan dövlətinə və onun qanunlarına tabe sayılan bütün Azərbaycan Respublikası vətəndaşlarından ibarətdir; bu isə beynəlxalq hüquqla müəyyənləşdirilmiş normaları istisna etmir. Öz idarəetmə formasını seçmək, başqa xalqlarla öz münasibətlərini müəyyənləşdirmək, siyasi, iqtisadi və mədəni həyatını öz tarixi və milli ənənələrinə, ümumbəşəri dəyərlərə uyğun inkişaf etdirmək Azərbaycan xalqının ayrılmaz hüququdur. Azərbaycan Respublikasında suveren hakimiyyət Azərbaycan xalqına məxsusdur. Azərbaycan xalqının hər hansı hissəsi, hər hansı bir şəxs suveren hakimiyyətin həyata keçirilməsi səlahiyyətini mənimsəyə bilməz. Azərbaycan xalqı suveren hakimiyyəti bilavasitə referendum vasitəsilə və Azərbaycan Respublikasının parlamentinə ümumi, bərabər və birbaşa seçki hüquqi əsasında gizli səsvermə yolu ilə seçilmiş nümayəndələri vasitəsilə həyata keçirir. Azərbaycan xalqı öz iradəsinin ifadəsi kimi Azərbaycan Respublikasının demokratik quruluşuna və qanunun aliliyinə təminat verir {2}.

Konstitusiya Aktının III hissəsi dövlətin əsaslarını müəyyən edir. Azərbaycan xalqı müstəqil, dünyəvi, demokratik, unitar dövlət yaradır, bu dövlətin suveren hakimiyyəti daxili məsələlərdə ancaq hüquqla, xarici məsələlərdə isə yalnız Azərbaycan xalqının azad surətdə razılıq verdiyi müqavilələrdən və sazişlərdən irəli gələn müddəalarla məhdudlaşdırılır. Azərbaycan Respublikasının suverenliyi onun bütün ərazisinə şamildir. O, öz ərazisində həyata keçirdiyi suveren hüquqları heç bir formada başqa dövlətlərə və ya dövlət ittifaqlarına vermir. Ərazi məsələlərini müəyyən edərkən Konstitusiya Aktı müstəqil dövlətlərin ərazi prinsipini əsas götürür – Azərbaycan Respublikasının ərazisi vahiddir, bölünə və özgəninkiləşdirilə bilməz. Azərbaycan Respublikası öz ərazisinin hər hansı bir hissəsini, hər hansı bir formada kimsəyə vermir; yalnız Azərbaycan Respublikası parlamentinin qərarı ilə respublikanın bütün əhalisi arasında xalq səsverməsi (referendum) keçirmək yolu ilə Azərbaycan xalqının razılığı əsasında sərhədlərdə dəqiqləşdirmə aparıla bilər. Konstitusiyanın aliliyi belə bir müddəa ilə təsbit edilirdi ki, Azərbaycan Respublikasının ərazisində yalnız Azərbaycan Respublikasının Konstitusiyası və Azərbaycan Respublikasının qanunları qüvvədədir.

**Müstəqil dövlətin ilk Konstitusiyasının qəbul edildiyi ictimai-siyasi şərait.** Yenicə əldə olunmuş müstəqilliyin qoruması üçün müstəqil dövlətin sabit və dinamik ali hüquqi qüvvəli əsas qanunun – Konstitusiyasının qəbuluna ehtiyac vardı və bu ehtiyacın tezliklə ödənilməsi yenicə müstəqillik əldə etmiş Azərbaycanın yaşaması və dünyaya inteqrasiya etməsi üçün çox vacib və gərəkli hüquqi şərtlərdən biri idi. Yeni Konstitusiya keçmiş ənənəvi sovet konstitusiyalarından həm qəbulunun daha ali forması, həyata keçirilməsinin daha real və dinamikliyi, XXI əsrə doğru gedilən zamanda əsas insan və vətəndaş hüquq və azadlıqlarının qorunmasının təsbit edilməsinin daha mükəmməlliyi və genişliyi ilə kəskin fərqlənməli idi. Düzdür, hələ 1992-ci ildə 6 dekabrda yeni konstitusiya hazırlanmasına və bunun üçün konstitusiya komissiyası və işçi qrupun yaradılmasına təşəbbüs göstərilsə də, o dövrdə tamamilə yeni dövlət quruculuğu prosesinin aparılması, təcrübəsizlik və eləcə də hakimiyyət uğrunda iqtidarla müxalifət arasında gedən həm hərbi, həm də siyasi qarşıdurmalar bu təşəbbüslərin reallaşmasına imkan vermədilər. Daha sonra 03 oktyabr 1993-cü ildə Heydər Əliyevin Azərbaycan Respublikasına prezident seçilməsi ölkədə stabil və dayanıqlı dövlət quruculuğunun yaradılmasının əsası oldu. Bu siyasətin bir hissəsi də müstəqil dövlətin yeni və ilk milli konstitusiyasının yaradılması yolunda ilk addım oldu. Bu addımla 2 may 1995-ci ildə Azərbaycan Respublikası Milli Məclisinin 1048 saylı qərarı ilə Azərbaycan Respublikasının yeni Konstitusiya layihəsini hazırlayan komissiyanın tərkibi müəyyən edildi.

Komissiyanın 1995-ci il iyunun 5-də keçirilən ilk iclasında Konstitusiya komissiyasının sədri H. Əliyev qeyd etmişdir ki, "Daim deyirik ki, biz demokratik, hüquqi, dünyəvi dövlət qurmaq üçün inkişaf etmiş Qərb ölkələrinin dövlət quruculuğu, demokratik prinsiplərin bərqərar olması sahəsində əldə etdiyi nailiyyətlərdən istifadə edirik və edəcəyik. Şübhəsiz ki, yaradacağımız layihədə bu müddəalar, bu prinsiplər öz əksini tapmalıdır" {7}. Ümumi prinsiplər haqqında danışarkən Komissiyanın sədri göstərmişdir ki, "Ümumi prinsiplər ondan ibarət olmalıdır ki, bizdə hüquqi, demokratik, dünyəvi, sivilizasiyalı dövlət quruculuğu prosesi gedir. Bu proses qəbul olunan ayrı-ayrı qanunlarla, qərarlarla, əməli fəaliyyətimizlə davam edir. Ancaq bu prosesi surətləndirmək və onun son mərhələlərini indidən müəyyən etmək üçün, – təkcə dövləti qurmaq üçün yox, tam qurmaq istədiyimiz dövlətin ahəngdar fəaliyyətini təmin etmək üçün əsas qanunumuz, Konstitusiyamız bütün bu tələblərə uyğun olmalıdır və bu tələblərə cavab verməlidir" {7}.

Konstitusiya layihəsinin hazırlanması həm də çox çətin prosedur proseslərindən keçmişdir. Konstitusiya Komissiyası 9 dəfə geniş tərkibdə öz iclasını keçmişdir. Bütün müzakirələrdə vahid məqsəd konstitusiyanın tam demokratik, dünya standartlarına cavab verən, insan və dövlət münasibətlərini, dövlətçilik məsələlərini tamamilə dəqiq əks etdirən bir konsepsiyasının yaradılması olmuşdur. Konstitusiyanın uzunömürlülüyünü təmin etmək üçün məsələ belə qoyulurdu: "Konstitusiyamızın müddəaları həm bu günümüz üçün, həm də gələcəyimiz üçün yazılmalıdır. Biz çalışmalıyıq ki, Konstitusiyamız uzun bir dövrü əhatə edə bilsin, demirəm ki, daimi olsun, amma Konstitusiyamızın dəyişikliklərə, əlavələrə ehtiyacı olmasın" {7}.

Nəhayət 1995-ci il noyabr ayının 12-də ümumxalq səsverməsi – referendum yolu ilə Azərbaycan Respublikasının ilk müstəqil Konstitusiyası qəbul edildi. Bu sənəd, dünya konstitusiyaçılıq təcrübəsinə uyğun olaraq Konstitusiyanın qəbul edilməsinin məqsəd və prinsiplərini bəyan edən preambuladan, 5 bölmə, 12 fəsil, sonradan edilmiş əlavələri nəzərə almaqla 164 maddə və keçid müddəalarından ibarətdir. Azərbaycan Respublikası Konstitusiyası suverenliyi, müstəqilliyi və dövlət hakimiyyətinin aliliyini təsbit edən əsas hüquqi sənəddir. O, Konstitusiya quruluşuna sistemli baxışa əsas verir, dövlət institutları sistemində balans yaradır, Konstitusiya quruluşunun sabitliyini təmin edir.

Azərbaycan Respublikası Konstitusiyası yalnız dövlətin təşkilini deyil, həm də qeyri-dövlət sahələrini – sosial-iqtisadi quruluşun əsaslarını, cəmiyyətin mədəni həyatını, insan və vətəndaşların hüquq, azadlıq və vəzifələrini əhatə edir. Onun tənzimləyici rolu bütün dövlət orqanizminə aiddir. Odur ki, Azərbaycan Respublikasının Konstitusiyası onun konstitusiya quruluşunun əsaslarını, insan və vətəndaşın hüquqi statusunu, vətəndaş cəmiyyətinin əsas cəhətlərini, unitar dövlət quruluşunu, Azərbaycan Respublikasında qanunverici, icra və məhkəmə hakimiyyəti orqanlarının təşkili və fəaliyyət prinsiplərini, yerli özünüidarəetmənin əsaslarını, ölkənin qanunvericilik sisteminin konstitusion əsaslarını təsbit edir.

**Konstitusiya islahatları.** Konstitusiya islahatları – dövlət hakimiyyətinin dövlət və ictimai quruluşda konstitusionalizm prinsiplərinin reallaşmasına yönəlmiş siyasi qərar və hərəkətlərinin məcmusudur. Konstitusiya islahatları dövlət-hüquq institutlarının bütün sisteminin ölkənin konstitusiya quruluşunun əsaslarının təsbit edilməsinə yönəlmiş keyfiyyətcə yenidən təşkilii deməkdir {5, s.137}.

Hər bir dövlətin səmərəli hüquq sisteminin yaradılması ictimai dəyişikliklərin dinamikasında kifayət qədər ciddi əhəmiyyət kəsb edir. Belə sistemin mərkəzində konstitusiya dayanır. Dövlətlər tərəfindən yeni konstitusiyasının işlənib hazırlanması və onun təkmilləşdirilərək inkişaf etməkdə olan ictmai münasibətlərin tələblərinə uyğunlaşdırılması

demokratiyanın inkişafının, hüququn və ictimai qaydanın möhkəmləndirilməsinin aktual problemlərindən biridir. Konstitusiyada dövlətşünaslığın elmi əsasları cəmlənir, o, sosial həyatın bütün sahələrinə təsir göstərir. Konstitusiya vasitəsilə dövlətin hüquqi təbiəti, idarəetmə və dövlət quruluşu forması müəyyən edilir, dövlətin, onun region və özünüidarəetmə ərazilərinin təşkilati birliyi əldə edilir, insan, cəmiyyət və dövlətin qarşılıqlı münasibətləri nizamlanır. Əgər konstitusiya vasitəsi ilə yeni ictimai quruluş formalaşırsa, konstitusiya islahatları vasitəsilə mövcud quruluş modernizə olunur.

Azərbaycan Respublikasında 1991-ci ildən başlayan konstitusiya islahatları ictimai-siyasi həyatın bütün əsas sahələrini əhatə edir. Bu dəyişikliklərin mahiyyəti suveren dövlətdə yeniləşmiş cəmiyyətin hüquqi modelinin yaradılmasındadır. Konstitusiya islahatlarının miqyası bu dövlətlərin bazar iqtisadiyyatının formalaşması yolununu tutması və vətəndaş cəmiyyəti dəyərlərinə önəm verməsi ilə ölçülür.

Konstitusiya islahatlarında gənc suveren dövlətlərdə baş verən dövlət suverenliyinin möhkəmləndirilməsi və bazar iqtisadiyyatına keçid dövründə cəmiyyətin siyasi-dövlət təşkilinin təkmilləşdirilməsi ilə əlaqədar sosial proseslər; ictimai münasibətlərin hüquqi tənzimlənməsinin səmərəliliyinin artırılması; insanın ali sosial dəyər kimi tanınması kimi ictimai dəyişikliklər öz əksini tapır. Yeni suveren dövlətlərdə baş verən sosial-iqtisadi dəyişikliklərin inkişaf sürəti və miqyasları konstitusiya tənzimlənməsinin rolunun artmasını da müəyyən edir. Bunu həmin dövlətlərin konstitusiya qanunvericiliyinin dinamik yenilənmə prosesi də sübut edir. Konstitusiya islahatlarının zərurəti obyektiv olaraq dövlətlərin ictimai inkişafından irəli gəlir. Birinci mərhələdə dövlət konstitusiyanın mətnində dəyişikliklərlə kifayətlənir və nəticədə onun konstitusiyası məzmun və struktur etibarı ilə əsaslı dəyişikliklərə məruz qalırdı. Totalitar keçmişlə vidalaşaraq, belə konstitusiya öz dövlətinin konstitusiya tarixində prinsipcə yeni mərhələnin əsasını qoyur.

Müasir mərhələdə Azərbaycan Respublikasının konstitusiya inkişafının əsasını təşkil edən konstitusiya islahatları bir sıra fərqli cəhətlərlə səciyyələnir. Bunlar aşağıdakılardır: Birincsi, cəmiyyətin inkişafının sosialist modelindən imtina edilmiş və liberal-demokratik inkişaf modeli qəbul edilmişdir. Bu özünü dövlətin adının dəyişdirilməsində, dövlət rəmzlərinin ideologiyasızlaşdırılmasında, bayraq, himn, gerbin təsvirində, mili-tarixi xüsusiyyətlərə önəm verilməsində göstərir. Bu, liberal-demokratik konstitusiya quruluşuna keçidin qəbul edilməsi kimi dəyərləndirilə bilər.

İkincisi, dövlət cəmiyyətin siyasi sistemində bir partiyanın monopolist mövqeyindən imtina etmiş və ideoloji plüralizmi qəbul etmişdir. Artıq heç bir ideologiya rəsmi, dövlət ideologiyası sayılmır. Siyasi plüralizm də qanuniləşmişdir. Müxalifət partiyalarının qanuni fəaliyyəti leqalaşdırılmışdır.

Üçüncüsü, hakimiyyət bölgüsü konsepsiyası hüquqi dövlət quruculuğunun əsas şərti kimi tanınmışdır. Hakimiyyət bölgüsü nəzəriyyəsinə uyğun olaraq, dövlət hakimiyyəti institutları yenidən qurulmuşdur: seçki sistemi və parlament prosedurləri yeniləşmiş və demokratikləşdirilmiş, prezidentli respublika modeli təsis edilmiş, insan hüquqları üzrə müvəkkil vəzifəsi yaradılmış, yerli özünüidarənin hüquqları genişləndirilmişdir.

Dördüncüsü, mülkiyyət formalarının müxtəlifliyi – xüsusi, dövlət və bələdiyyə mülkiyyəti növləri tanınmış, iqtisadiyyat bazar münəsibətlərinə əsaslanmağa başlanmışdır.

Beşincisi, hüququn və hüquqi qanunun aliliyi ölkənin konstitusion inkişafının ümumi qanunauyğunluğuna çevrilmişdir.

Altıncısı, beynəlxalq hüququn hamılıqla qəbul edilmiş norma və prinsiplərinə uyğun olaraq, insan və vətəndaşın konstitusiya statusu demokratikləşdirilmiş, hüquq və azadlıqların məhkəmə müdafiəsi, şəxsiyyət və dövlətin qarşılıqlı məsuliyyəti gücləndirilmişdir. Yeddin-

cisi, yerli özünüidarənin hüquqları genişləndirilmiş, Azərbaycan Respublikasının tarixində ilk dəfə olaraq yerli özünüidarəetəm konstitusiya institututu kimi tanınmış, ona dövlət təminatı verilmişdir.

**Azərbaycan Respublikasının Konstitusiyasında edilmiş dəyişiklik və əlavələrin qısa icmalı.** 1995-ci ildə Azərbaycan Respublikasının ilk milli Konstitusiyasının qəbul edilməsindən ötmüş vaxt ərzində cəmiyyət və dövlət həyatının müxtəlif sahələrində köklü dəyişikliklər baş vermiş, hərtərəfli demokratik islahatlar aparılmış, o cümlədən ölkənin bütün hüquq sistemi yenidən qurulmuş, insan haqlarının daha etibarlı qorunması üçün üçpilləli müstəqil məhkəmə hakimiyyəti yaradılmış, hüquq-mühafizə sisteminin fəaliyyətinin demokratik dəyərlərə və beynəlxalq standartlara uyğun təşkili məqsədilə yeni qanunlar və məcəllələr qəbul edilmişdir.

Bununla belə, Konstitusiyanın tənzimləmə predmetini təşkil edən ictimai münasibətlərin inkişafı, sosial, iqtisadi və siyasi şəraitin dəyişməsi bu qanunvericilik sənədinə mütəmadi olaraq müvafiq dəyişiklik və əlavələr edilməsi zərurətini yaradır. 2002-ci il avqustun 24-də, 2009-cu il martın 18-də və 26 sentyabr 2016-cı ildə Azərbaycan Respublikası Konstitusiyasına ümumxalq səsverməsi yolu ilə edilmiş bir sıra əlavə və dəyişikliklər də məhz bu reallığa əsaslanaraq cəmiyyətin ümumi inkişaf ahənginə cavab vermiş, ölkənin ictimai-siyasi, hüquqi və iqtisadi həyatındakı keyfiyyət dəyişikliklərini özündə əks etdirmişdir. Azərbaycan Respublikasında insan hüquq və əsas azadlıqlarının həyata keçirilməsinin təmini, ölkədə məhkəmə islahatlarının həyata keçirilməsi, Milli Məclisin fəaliyyətinin və seçki sisteminin daha da təkmilləşdirilməsi ilə bağlı yeni müddəaların ölkə Konstitusiyasında təsbit edilməsi məqsədilə keçirilmiş bu referendumlar dövrün zəruri tələbləri ilə şərtlənmişdir. Konstitusiyaya əlavə və dəyişikliklərin hüquqi qüvvəyə minməsini təmin edən bu ümumxalq səsvermələri demokratik inkişaf istiqamətində mühüm addım olmaqla, respublikanın sivil Avropa dəyərlərinə sadiqliyini bir daha təsdiqləyir.

Yeri gəlmişkən qeyd etməliyik ki, Azərbaycan Respublikasının Konstitusiyasında dövri olaraq üçüncü dəfə hər 7 ildən bir dəyişiklik edilməsi həm də Azərbaycanda siyasi, iqtisadi, sosial inkişafın ritmik davamından xəbər verir. Sanki ölkə qarşısında dayanan vəzifələr müəyyənləşdirilir, hər 7 il ərzində onlar uğurla yerinə yetirilir və növbəti müvafiq dövr üçün fəaliyyət və inkişaf proqramı qəbul edilir. Yeri gəlmişkən, son dəyişikliklərdən ötən 7 ilin inkişaf xüsusiyyətləri, ölkəmizdə dövlət idarəetmə islahatlarının növbəti, daha yüksək mərhələsinin konstitusion əsaslandırılması növbəti dəyişiklikləri zəruri edir və onların yaxın gələcəkdə baş tutacağı kimsədə şübhə doğurmur.

Azərbaycanda konstitusion dəyişikliklərə yaranan ehtiyac, ilk növbədə, cəmiyyətin ən müxtəlif sahələrində özünü qabarıq göstərən sürətli inkişafdan irəli gəlir. Referendum Aktı layihəsində əksini tapmış əlavə və dəyişikliklərin hüquqi müstəvidə şərhi onların hər bir vətəndaşın maraq və mənafeyi baxımından müstəsna əhəmiyyətini önə çıxarır. Bu baxımdan Konstitusiyada edilmiş bir sıra dəyişikliklərin üzərində xüsusi dayanmaq, onları konstitusiyanın mətninə nəzərən müqayisəli təhlil etmək lazım gəlir.

Konkret dəyişikliklər barədə danışmazdan əvvəl Konstitusiyanın dəyişdirilməsinə məhdudiyyət qoyulmuş bəzi müddəalarını xatırlatmaq, dövlət və cəmiyyət həyatının sabitliyinin təmin edilməsində onların rolunu bir daha vurğulamaq istərdik. Azərbaycan Respublikası Konstitusiyasının hakimiyyətin mənbəyi, xalq suverenliyi, hakimiyyətin mənimsənilməsinə yol verilməməsi, Azərbaycan dövləti, Azərbaycan dövlətinin başçısı və dövlət dili haqqında müddəalarının dəyişdirilməsinə və ya onların ləğv edilməsinə, insan və vətəndaş hüquq və azadlıqlarının ləğvi və ya məhdudlaşdırılmasına dair təkliflərin referenduma çıxarıla, xalq hakimiyyəti və dövlətin əsaslarına həsr olunmuş birinci bölmə ilə

əlaqədar əlavələrin təklif edilə bilinmədiyi haqqında göstərişlərinin mühüm əhəmiyyəti vardır. Belə ki, Konstitusiyanın qeyd edilən müddəalarına dəyişikliklərin təklif edilməsinin məhdudlaşdırılması mühüm konseptual ideya və baxışların möhkəmləndirilməsinə, onun məzmun və sisteminin vəhdətinə, bu siyasi-hüquqi sənədin bütün digər norma və prinsiplərinin hüquqi xarakterinin artırılmasına yönəldilmişdir. Azərbaycan Respublikasının ilk Konstitusiyasının qəbulundan az sonra ictimai həyatın bütün sahələrində mühüm irəliləyişlər baş vermiş, insan hüquqlarının qorunmasına dair yeni standartlar formalaşmışdır. Mövcud mühüm ictimai münasibətlərin tənzimlənməsi üçün yeni konstitusiya normalarının qəbulu zərurəti yaranmışdır. Bununla əlaqədar olaraq, Ümummilli Lider Heydər Əliyev tərəfindən Konstitusiyanın 24 maddəsində dəyişikliklər edilməsinə dair ümumxalq səsverməsi – referendum təyin edilmişdir. Nəticədə, 2002-ci il avqustun 24-də Azərbaycan Respublikası Konstitusiyasına mühüm əlavə və dəyişikliklər edilmişdir. Bunlar əsasən ölkəmizin Avropa Şurasına tam hüquqlu üzv kimi qəbul olunmsından irəli gələn öhdəliklərin yerinə yetirilməsi, həmçinin məhkəmə hakimiyyətinin mövqeyinin daha da təkmilləşdirilməsi ilə baglı olan dəyişikliklər idi.

Bundan yeddi il sonra ölkənin ictimai-siyasi, həmçinin sosial-iqtisadi inkişaf səviyyəsi yeni konstitusiya islahatlarını aktual etmişdir. Azərbaycan Respublikası Milli Məclisi Azərbaycan Respublikasının Konstitusiyasının 29 maddəsində 41 dəyişiklik edilməsi barədə təklif irəli sürmüşdür. Bu dəyişikliklərdən on yeddisi maddələrə yeni hissələrin və ya bəndlərin əlavə edilməsi, yeddisi maddələrdə sözlərin əvəz edilməsi, yeddisi maddələrdə yeni sözün və ya sözlərin əlavə edilməsi, altısı maddələrə yeni cümlələrin əlavə edilməsi, ikisi maddənin yeni redaksiyada verilməsi, biri maddənin adının dəyişdirilməsi, daha biri isə maddədən sözün çıxarılması ilə bağlıdır. Referendum 2009-cu il mart ayının 18-də keçirilmiş və bütün təkliflər seçicilər tərəfindən dəstəklənmişdir. Bu əlavələr və dəyişikliklər insan hüquq və azadlıqlarının daha etibarlı təminatına, dövlət hakimiyyəti orqanlarının və yerli özünüidarəetmə orqanlarının fəaliyyətinin təkmilləşdirilməsinə, məhkəmə hakimiyyətinin müstəqilliyinin artırılmasına xidmət edir. Konstitusiyanın 29 maddəsinə 41 əlavə və dəyişiklikləri üç blokda qruplaşdırmaq mümkündür: Birinci bloka insan və vətəndaş hüquq və azadlıqlarının daha da genişləndirilməsi və qorunması; ikinci bloka dövlətçilik sahəsində; üçüncü bloka qanunvericilik, məhkəmə hakimiyyətlərinə və bələdiyyələrə aid maddələrə tövsiyə olunan əlavə və dəyişikləri daxil etmək olar. Azərbaycan Respublikası Konstitusiyasında 3-cü dəfə dəyişikliklər 26 sentyabr 2016-cı il tarixdə ölkə prezidenti İlham Əliyevin təşəbbüsü ilə həyata keçirilmişdir. Konstitusiyanın 23 maddəsində dəyişiklik edilmiş, eyni zamanda Konstitusiyanın mətninə 6 yeni maddə əlavə edilmişdir. Onları dörd qrupda birləşdirmək mümkündür:

1) insan hüquq və azadlıqlarının qorunması mexanizminin təkmilləşdirilməsi;

2) siyasi idarəçilik təsisatlarının fəaliyyətinin təkmilləşdirilməsi;

3) dövlətlərarası və hökumətlərarası beynəlxalq müqavilələrin imzalanması rejiminin təkmilləşdirilməsi; 4) insan hüquq və azadlıqlarının qorunmasında bələdiyyələrin məsuliyyətinin artırılması.

Təklif olunan 23 dəyişikliyin 16-sı, yəni, dörddə üçü insan hüquq və azadlıqlarının qorunması mexanizminin təkmilləşdirilməsi ilə əlaqədardır. Digər dəyişikliklərdən məqsəd siyasi idarəçilik təsisatlarının fəaliyyətinin təkmilləşdirilməsi, dövlətlərarası və hökumətlərarası beynəlxalq müqavilələrin imzalanması rejiminin daha da optimallaşdırılmasıdır.

**Nəticə.** Beləliklə, Azərbaycan Respublikasında konstitusiya islahatlarının ilk mərhələsini sovet dövrü konstitusiyaların ənənəvi modeli və məzmunundan imtina,

şəxsiyyətin konstitusiya statusunun tanınması və yüksəldilməsi, yeni dövlət hakimiyyəti və idarəetmə modelinin başlangıcı kimi xarakterizə etmək olar. Konstitusiya islahatlarından məqsədin suveren milli dövlətçiliyin möhkəmləndirilməsi, sosial-iqtisadi inkişafın yeni modelinin hazırlanması, vətəndaş cəmiyyəti və yeni dövlət hakimiyyəti institutlarının formalaşması, insan və vətəndaş hüquq və azadlıqlarının genişləndirilməsi olduğunu deyə bilərik. Azərbaycanın Konstitusiyasında insan hüquq və azadlıqları geniş təsbit edilsə də, həyatımızda baş verən pozitiv dəyişikliklər, vətəndaşların iqtisadi, sosial və siyasi proseslərdə iştirak əmsalının əhəmiyyətli dərəcədə artması həyatımızın real parametrinə çevrilib. Son illərdə insanların ictimai həyatda iştirakının artırılması yönündə ciddi addımlar atılıb. Hüquq və azadlıqlar sferasının genişlənməsi və qorunması mexanizminin təkmilləşməsi daxili siyasətin prioritetlərindən biri kimi qəbul edilib. Azərbaycanda insan hüquq və azadlıqları sistemi Avropa standartlarına daha çox uyğunlaşdırılıb. Bütün bu dəyişikliklərin Konstitusiyada əks olunması tamamilə təbii və başadüşüləndir.

Konstitusiyaya dəyişikliklərin müəyyən hissəsi insanların iqtisadi hüquqları ilə əlaqədardır. Azərbaycan azad iqtisadi münasibətlərin formalaşması və oturuşmuş sistemə çevrilməsi yolunda əhəmiyyətli məsafəni artıq qət etmişdir. İrəli sürülən təkliflər iqtisadi azadlıqlar sisteminin yeni inkişaf mexanizminə çevrilməsi niyyətini əks etdirir. Eyni fikirləri siyasi azadlıqlar sahəsinə aid olan dəyişikliklərə də şamil etmək mümkündür. Ölkəmiz demokratiyanın oturuşması yönündə iradəsini daim ortaya qoyub, demokratiyanın təkmilləşməsi həmişə diqqət mərkəzində saxlanılıb. İndi Azərbaycanda demokratiya Konstitusiyanın ümumxalq səsverməsi yolu ilə qəbul olunduğu 1995-ci illə müqayisədə daha kamil təsisatdır. Lakin unudulmamalıdır ki, demokratiyanın inkişaf tarixi onun fasiləsiz bir proses olduğunu sübuta yetirib. Bu gün dünyanın ən demokratik ölkələri sayılan dövlətlərdə belə insan hüquq və azadlıqlarının daha da inkişaf etdirilməsi proses olaraq müşahidə olunmaqdadır. Bütün bunlar isə konstitusiya islahatlarının mahiyyət etibarı ilə daimi, davamlı və proqressiv xarakterindən xəbər verir.

Aparılmış elmi tədqiqatın ümumiləşdirilməsi aşağıdakıları deməyə əsas verir:

– Konstitusiyalar Azərbaycan SSR-də, eləcə də müstəqil Azərbaycanda siyasi, ictimai, iqtisadi (təsərrüfat) həyatının özəyi və ali hüquqi bazasıdır;

– Konstitusiyalar ictimai-siyasi həyatın nəbzini tutmaq, onu tənzimləyən əsas hüquqi normativ faktor kimi dövriliyə malik olmaqla yeniləşməlidir;

– Konstitusiyalar cəmiyyətin sosial-siyasi, ideoloji xarakteristikasından asılı olmayaraq, dövlətin atributu funksiyasını həyata keçirmişdir;

– Cəmiyyətimizin inkişafı, dövlətçiliyimizin təkmilləşməsi, milliləşməsi və Avropaya inteqrasiya yolunda inamla irəliləməsi Konstitusiyada gələcəkdə də labüd dəyişikliklərə səbəb olacaqdır.

**İstifadə olunmuş ədəbiyyat siyahısı**


1. “Azərbaycan” qəzeti, 06 iyun 1995-ci il

2. Azərbaycan Respublikasının Dövlət Müstəqilliyinin Bərpası haqqında Konstitusiya Aktı. Bakı, Qanun nəşriyyatı, 2021.

3. Azərbaycan Xalq Cümhuriyyətinin 80 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdə Azərbaycan Prezidenti Heydər Əliyevin nitqi. Azərbaycan qəzeti, 28 may 1998-ci il

4. Müstəqillik Günü haqqında Azərbaycan Respublikasının Qanunu. (https://president.az/az/articles/view/53489/print)

5. Nağıyev F. İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmn edilməsidə konstitusiya islahatlarının rolu. İnsan və vətəndaş hüquq və azadlıqlarının konstitusiya təminatının aktual problemləri mövzusunda Beynəlxalq Elmi-praktik konfransın materialları. Bakı. Mütərcim. 2016.

6. Qayıdış. (1990-1993). Təkmilləşmiş və yenidən işlənmiş ikinci nəşr. – Bakı, "Azərbaycan" nəşriyyatı, 2008. – 840 c.

7. "Qanunçuluq" jurnalı. N1-2. 1996-cı il

**Фахраддин Нагиев**
**доцент кафедры Правоведения факультета Политического управления Академии Государственного Управления при Президенте Азербайджанской Республики, д.ф.п.п.**

## Государственная независимость Азербайджанской Республики и история конституционного развития

### Р Е З Ю М Е

Несмотря на то, что при создании законодательной базы, обеспечивающей национальное государственное строительство Азербайджанской Республики, был в достаточной мере использован опыт ряда демократических и правовых государств, Азербайджан смог сохранить свои исторические достижения и традиции национального государственного строительства. Хотя история конституционного строительства в Азербайджане началась с принятия Декларации о независимости Азербайджанской Народной Республики 1918 года, большая часть этой истории совпала с годами советской власти. Конституции Азербайджана, принятые при советской власти, основывались на правовых идеях и принципах Конституции СССР в соответствии с политическими и идеологическими требованиями того времени. Поэтому первым самостоятельным конституционным актом в истории Азербайджанской Республики можно считать только принятие Конституционного акта о восстановлении государственной независимости от 18 октября 1991 года. Основные положения этого акта получили дальнейшее развитие в Конституции 1995 года. В последующие годы Конституция Азербайджанской Республики как важнейший документ, регулирующий общественные отношения, претерпела ряд важных изменений и дополнений, приспосабливаясь к постоянно развивающимся и обновляющимся общественным отношениям. Эти изменения обеспечили жизнеспособность конституции и значимость ее роли в жизни государства и общества.

**Fahraddin Naghiyev**
**Associate Professor of the Department of Jurisprudence of the Faculty of Political Administration of the Academy of Public Administration under the President of the Republic of Azerbaijan, Doctor of Philosophy in Legal Sciences**

## State independence of the Republic of Azerbaijan and the history of constitutional development

### SUMMARY

Despite the fact that the experience of a number of democratic and rule-of-law states was used to a sufficient extent when creating a legislative framework that ensures the national state building of the Republic of Azerbaijan, Azerbaijan was able to preserve its historical achievements and traditions of national state building. Although the history of constitutional construction in Azerbaijan began with the adoption of the Declaration of Independence of the Azerbaijan People's Republic in 1918, most of this history coincided with the years of Soviet power. The constitutions of Azerbaijan, adopted under the Soviet regime, were based on the legal ideas and principles of the Constitution of the USSR in accordance with the political and ideological requirements of that time. Therefore, the adoption of the Constitutional Act on the restoration of state independence of October 18, 1991 can be considered the first independent constitutional act in the history of the Republic of Azerbaijan. The main provisions of this act were further developed in the 1995 Constitution. In subsequent years, the Constitution of the Republic of Azerbaijan, as the most important document regulating social relations, has undergone a number of important changes and additions, adapting to the constantly developing and renewing social relations. These changes ensured the viability of the constitution and the significance of its role in the life of the state and society.

***Kamran BAYRAMOV***

Azərbaycan Respublikası Milli Məclisinin deputatı

# AZƏRBAYCAN ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN YARATDIĞI MÖHKƏM TƏMƏL ÜZƏRİNDƏ UĞURLA İNKİŞAF EDİR

***Açar sözlər:*** *Azərbaycan Respublikası, Ulu Öndər, Ali Baş Komandan, «Heydər Əliyev İli», azərbaycançılıq, tərəqqi, hərbi təcavüzü, Avropa institutlarına inteqrasiya, BMT, demokratiya, insan hüquqları, uğurlu siyasət.*

***Ключевые слова:*** *Азербайджанская Республика, Общенациональный Лидер, Верховный Главнокомандующий, «Год Гейдара Алиева», прогресс, военная агрессия, интеграция в европейские институты, демократия, ООН, права человека, успешная политика.*

***Keywords:*** *the Republic of Azerbaijan, National Leader, Supreme Commander-in Chief, "the Year of Heydar Aliyev", Azerbaijan ideology, progress, military aggression, integration into European institutions, democracy, UN, human rights, successful politics, independence.*

Prezident İlham Əliyevin 2023-cü ilin «Heydər Əliyev İli» elan edilməsi haqqında Sərəncamı Heydər Əliyev epoxasının mahiyyətini daha əsaslı və sistemli şəkildə dərk və şərh etməyə, xalqımıza, eyni zamanda, dünyaya çatdırılmasına geniş imkanlar yaradır. Müasir Azərbaycan dövlətinin memarı və qurucusu, böyük siyasətçi Ümummilli Lider Heydər Əliyev Azərbaycan xalqının XX əsrdə yetirdiyi nadir dahi şəxsiyyətdir. Ulu Öndər müstəqil Azərbaycanın banisi, xalqımızın və dövlətimizin xilaskarıdır.

Azərbaycanın müstəqil ölkə kimi tərəqqi yoluna çıxmasında lider amili əvəzsiz rol oynayır. Bu gün böyük qürurla qeyd edirik ki, müasir müstəqil Azərbaycan Ulu Öndər Heydər Əliyevin şah əsəridir. Ümummilli Lider həm SSRİ dönəmində, həm də müstəqillik dövründə xalqımız, dövlətimiz qarşısında misilsiz xidmətlər göstərib. Ulu Öndər Azərbaycanı beynəlxalq aləmdəki təcrid vəziyyətindən çıxararaq ölkəmiz haqqında yaradılmış mənfi rəyi tamamilə dəyişdi. Xalqımızın haqq işini dünya ictimaiyyətinə olduğu kimi çatdıraraq, respublikamız ətrafındakı informasiya blokadasını aradan qaldırdı. Ulu Öndər bildirirdi ki, əgər respublikada ictimai-siyasi sabitlik olmazsa, sağlam ictimai-siyasi mühit olmazsa, heç bir sosial-iqtisadi proqramdan, yaxud problemlərin həll edilməsindən söhbət gedə bilməz. Ulu Öndər Heydər Əliyevin düşünülmüş və məqsədyönlü siyasəti nəticəsində ölkədə sabitlik yaradıldı, Azərbaycan qısa müddətdə sabitlik diyarına çevrildi. 1994-cü il may ayının 12-də Ermənistanla atəşkəs sazişinin imzalanması ölkədə sabitliyin yaradılmasında, torpaqlarımızın işğalının qarşısının alınmasında, eyni zamanda, digər sahələrin inkişafı istiqamətində mühüm addımların atılmasında əhəmiyyətli rol oynadı. Ümummilli Liderin dövlətimiz, xalqımız qarşısındakı xidmətlərindən bəhs edərkən onun dünya azərbaycanlılarının birliyi, həmrəyliyi istiqamətində atdığı addımları xüsusi qeyd etməliyik. Dahi şəxsiyyət fəaliyyətinin əsas istiqaməti kimi diqqəti ölkəmizin ətrafında yaradılan informasiya blokadasının yarılmasına yönəldərək dünya azərbaycanlılarını bir amal – Azərbaycançılıq ideyası ətrafında sıx birləşməyə çağırdı. Xalqın tarixi yaddaşının

özünə qaytarılması, dünyanın müxtəlif ölkələrinə səpələnmiş soydaşlarımızın birliyi, həmrəyliyi Azərbaycanın sürətli inkişafında hərəkətverici qüvvəyə çevrildi. Ulu Öndər, hələ Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri olarkən – 1990-cı il noyabrın 17-də Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli Dövlət bayrağını Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı olaraq təsdiq etmiş, Azərbaycan SSR Ali Soveti qarşısında üçrəngli bayrağın Azərbaycanın rəsmi dövlət rəmzi kimi tanınması haqqında vəsatət qaldırmışdı. O cümlədən, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 1991-ci il dekabrın 16-da Heydər Əliyevin sədrliyi ilə keçən iclasında 31 dekabrın Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü kimi qeyd olunması barədə qərar qəbul edildi. Dünya azərbaycanlılarının həmrəyliyi, onların təşkilatlanması prosesini daim diqqət mərkəzində saxlayan Ulu Öndər həmrəylik gününü təsis etməklə xalqın birləşməsinə və ideoloji həmrəyliyinə nail oldu.

Ermənistanın hərbi təcavüzü nəticəsində ərazi bütövlüyü pozulmuş Azərbaycan Respublikasının xarici siyasətində dünya birliyinə inteqrasiya, ikitərəfli və çoxtərəfli münasibətlər, o cümlədən, beynəlxalq və regional təşkilatlarla əlaqələrin yaradılması və inkişaf etdirilməsi Ulu Öndərin fəaliyyətinin başlıca istiqamətlərindən birini təşkil edirdi. Ümummilli Lider Heylər Əliyev xarici siyasət xəttində beynəlxalq təşkilatlarla əməkdaşlığın genişləndirilməsi məsələlərinə çox böyük diqqət yetirirdi. Azərbaycanın beynəlxalq təşkilatlara üzv olması ilə yanaşı, onların işlərində fəal surətdə iştirak etməsi və səmərəli əməkdaşlıq ölkəmizin problemlərini dünya ictimaiyyətinə çatdırmaq üçün mühüm əhəmiyyət kəsb edirdi. Bu baxımdan 1994-cü il mayın 4-də Prezident Heydər Əliyevin “Sülh naminə tərəfdaşlıq” proqramının çərçivə sənədini imzalaması, Azərbaycanın beynəlxalq mövqelərinin möhkəmlənməsi istiqamətində atılan mühüm addımlardan biri oldu. Bu proqramın Azərbaycan üçün əhəmiyyəti ondan ibarətdir ki, ölkəmiz NATO-ya daxil olan Avropa ölkələri və ABŞ ilə dünya təhlükəsizlik sisteminin, eləcə də, beynəlxalq münasibətlərin sivil qaydaları çərçivəsində hər cür əməkdaşlıq etmək imkanı qazandı. Ölkəmiz 1994-cü ildə NATO-nun “Sülh naminə tərəfdaşlıq” proqramına qoşulan ilk dövlətlərdən olub. 1996-cı il aprelin 22-də Lüksemburqda Avropa İttifaqı və Azərbaycan Respublikası arasında ticarət, sərmayə, iqtisadiyyat, qanunvericilik, mədəniyyət, immiqrasiya və qeyri-qanuni ticarətin qarşısının alınması sahəsində əməkdaşlığı nəzərdə tutan Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi imzalanıb. Bu müqavilənin imzalanması Azərbaycanın xarici siyasətinin ən uğurlu səhifələrindən biri kimi qiymətləndirilir. Dövlətimiz və xalqımız üçün mühüm tarixi əhəmiyyət kəsb edən bu müqavilə Azərbaycanın Avropa strukturları və institutları ilə əlaqələrinin genişlənməsi, xüsusilə də, inteqrasiya istiqamətində hüquqi baza rolunu oynayır.

Azərbaycanın Avropa institutlarına inteqrasiyası istiqamətində Avropa Şurasının bərabərhüquqlu üzvü olması respublikamızın mühüm problemlərinin dünya ictimaiyyətinin diqqətinə obyektiv çatdırılması üçün yeni və çox mötəbər tribuna oldu. Belə ki, Avropa Şurası Nazirlər Komitəsinin 2001-ci il yanvarın 17-də nümayəndələr səviyyəsində keçirilmiş iclasında Azərbaycan Respublikasının Avropa Şurasına tamhüquqlu üzv qəbul edilməsinə dair qərar qəbul edildi. Bu qərar Ümummilli Liderin uzaqgörən, daxili və xarici siyasətinin və bu istiqamətdə məqsədyönlü fəaliyyətinin nəticəsi idi. Həmin il yanvarın 25-də Azərbaycan Prezidenti olaraq Heydər Əliyevin iştirakı ilə Strasburqda ölkəmizin bu təşkilata üzv qəbul edilməsi münasibətilə rəsmi mərasim keçirilib və dövlətimizin üçrəngli bayrağı ucaldılıb. Bu hadisəni Ümummilli Lider Heydər Əliyev yüksək qiymətləndirərək bildirmişdi ki, ölkəmizin Avropa Şurasına qəbul edilməsi Azərbaycan dövlətinin inkişafında yeni mərhələnin başlanğıcıdır.

Müstəqillik əldə etdikdən sonra Azərbaycan BMT ilə əlaqələrini inkişaf etdirməklə yanaşı, bu təşkilatın daha səmərəli fəaliyyət göstərməsinə töhfə vermək üçün irəli sürülən

islahat təkliflərinin verilməsi və müzakirəsi prosesində fəal iştirak edən Ümummilli Lider, 1994-cü ilin sentyabr ayında BMT Baş Assambleyasının 49-cu sessiyasında çıxış edərək, beynəlxalq tribunadan ölkəmizin bir çox məsələləri ilə bağlı, xüsusilə Ermənistanın Azərbaycana təcavüzü haqqında həqiqətləri dünya ictimaiyyətinə çatdırdı. 1995-ci ilin oktyabrında BMT-nin 50 illik yubileyi ilə bağlı keçirilən Baş Məclisinin xüsusi təntənəli iclasında iştirak edən Ulu Öndər Heydər Əliyev bu qurumun yüksək kürsüsündən dünya dövlətlərinə müraciət edərək, mövcud qlobal problemlərə dair Azərbaycan dövlətinin prinsipial mövqeyini açıqlamış, xüsusilə də, Ermənistanın təcavüzünün aradan qaldırılması ilə bağlı beynəlxalq səylərin artırılmasına çağırış etmişdi. Ümummilli Lider Heydər Əliyevin ölkəmizə rəhbərlik etdiyi 1993-2003-cü illər respublikamız üçün həlledici oldu. Ulu Öndərin bu dövrdə 80-dək ölkənin dövlət başçıları ilə keçirdiyi 500-dən çox görüşdə Ermənistan-Azərbaycan münaqişəsinin həlli məsələləri müzakirə olunub. Heydər Əliyevin mükəmməl diplomatiyası sayəsində, keçən dövr ərzində BMT, ATƏT, Avropa Şurası, Avropa İttifaqı, Avropa Parlamenti, NATO, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı və digər beynəlxalq təşkilatlar Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi ilə bağlı bir sıra qətnamə və qərarlar qəbul ediblər.

Ümummilli Lider Heydər Əliyev hər bir ölkənin inkişafında sabitliyin rolunu xüsusi önə çəkirdi. Məhz, Ulu Öndərin uğurlu siyasəti nəticəsində yenidən qurulan Azərbaycan, qısa zamanda sabitlik diyarına çevrildi, ölkəmizə investisiya axını sürətləndi. Ulu Öndərin müasir müstəqil Azərbaycanın qurucusu kimi təqdim olunması da məhz, bu reallıqlara əsaslanır. O, xilaskarlıq missiyasını uğurla həyata keçirərək Azərbaycanı bütün sahələrdə inkişaf, tərəqqi yoluna çıxardı, gələcək üçün möhkəm təməllər formalaşdırdı. 1994-cü il sentyabrın 20-də imzalanan "Əsrin müqaviləsi" bir daha Azərbaycanın nüfuzunun, beynəlxalq aləmdə möhkəmlənən yerinin və artan rolunun göstəricisidir. Əsrin müqaviləsi"nin imzalanmasından ötən 28 illik zamana diqqət yetirsək, Azərbaycan iqtisadiyyatının möcüzəli inkişafa nail olduğunu fəxr hissi ilə qeyd edə bilərik. Həqiqətən də ölkəmizin enerji sektorunda qazanılan uğurların miqyası ölçüyəgəlməzdir. Hər il keçirilən Beynəlxalq Xəzər Neft və Qaz Sərgisi bu sahədə görülən işlərin hesabatı kimi dəyərləndirilir. 2022-ci ildə Bakı Enerji Həftəsi Azərbaycanın "Əsrin müqaviləsi"nin imzalanmasından bu günədək, işğaldan azad edilmiş torpaqlarımızın "yaşıl enerji" zonasına çevrilməsi hədəfinin qarşıya qoyulduğu zamanadək keçdiyi yolun təqdimatı oldu. Bugünümüz üçün fərəhli hal bundan ibarətdir ki, belə tədbirlərin yekunu Qarabağın tacı Şuşada keçirilir.

Bu illər ərzində əməkdaşlığın coğrafiyasının genişlənərək regional çərçivədən beynəlxalq səviyyəyə yüksəlməsi, "Yeni əsrin müqaviləsi"nin imzalanması, Cənub Qaz Dəhlizinin tam tərkibdə istifadəyə verilməsi, Azərbaycanın dünyanın enerji təhlükəsizliyinin təminatında rolunun artması və sair kimi biri-birindən əhəmiyyətli uğurlarımız, Azərbaycanın, təməli Ulu Öndər tərəfindən qoyulmuş enerji diplomatiyasının nəticələridir.

Ölkəmizin enerji sektorunda qazandığı uğurlar iqtisadiyyatın şaxələndirilməsi siyasətinin uğurla həyata keçirilməsinə, neft gəlirlərindən əldə olunan vəsaitlərin düzgün istiqamətləndirilməsinə, əhalinin sosial müdafiəsinin gücləndirilməsinə geniş imkanlar açır. 1999-cu ildə Dövlət Neft Fondunun yaradılması Ulu Öndər Heydər Əliyevin uzaqgörən siyasətinin nəticəsidir. Bu gün Dövlət Neft Fondu şəffaflıq kriteriyaları üzrə nümunəvi qurum kimi beynəlxalq səviyyədə nüfuz qazanır. Fond, eyni zamanda, dövlət siyasətinin prioritetlərini müəyyənləşdirir. İqtisadi və siyasi islahatların vəhdətliyinin qorunması fonunda Azərbaycanın hərtərəfli inkişafının təmin edilməsi ölkəmizin beynəlxalq maliyyə qurumlarının hesabatlarında liderliyinin qorunmasını şərtləndirir. Azərbaycanın hər dövrün

tələbinə uyğun həyata keçirdiyi islahatlar prosesi, onun ən islahatçı ölkə kimi tanınmasında əhəmiyyətli rol oynayır.

Ölkəmizin təşəbbüsü və liderliyi ilə çox mühüm transmilli layihələr reallaşdırılıb, respublikamız ikitərəfli, çoxtərəfli əlaqələrini uğurla inkişaf etdirir. Hazırda regional güc mərkəzi olan, bölgədə sabitləşdirici aktor kimi çıxış edən Azərbaycan müasir beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaş kimi tanınır və dünyada böyük etimad qazanıb. Ölkəmiz xarici siyasətində milli maraqlar, beynəlxalq hüquq normaları ilə yanaşı, sülh, sabitlik, inkişaf, qarşılıqlı faydalı əməkdaşlıq kimi meyarları da əsas götürür, beynəlxalq münasibətlər sisteminə yeni, daha mütərəqqi dəyərlər bəxş edir. Azərbaycan, eyni zamanda, beynəlxalq miqyasda əməkdaşlıq və təhlükəsizlik məsələlərinə xüsusi diqqət yetirir. Sadalananların fonunda ayrı-ayrı dövlətlər, o cümlədən, dünya siyasətinin güc mərkəzləri kimi çıxış edən ölkələr ölkəmizin beynəlxalq münasibətlər sistemində fəal rolunu, praqmatik xarici siyasət kursunu yüksək dəyərləndirirlər.

Bu gün dövlət başçısı İlham Əliyevin yürütdüyü siyasət Azərbaycanın regionda və dünyada müttəfiqlərinin sayını xeyli dərəcədə artırıb. Bu fikri böyük qürur hissi ilə qeyd edirik ki, Ulu Öndər Heydər Əliyev canından artıq sevdiyi Azərbaycanın gələcəyini düşünərək 2003-cü ildə xalqa inamın növbəti ünvanını göstərdi. 2003-cü ildə keçirilən prezident seçkilərində xalqımız Heydər Əliyev siyasətinə səs verərək cənab İlham Əliyevin ətrafında sıx birləşdi. Böyük Yolun 2003-cü ildən başlanan davamının uğurlu nəticəsi bugünkü qalib Azərbaycandır. Ümummilli Lider Heydər Əliyevin xarici siyasət kursunu dinamik şəkildə davam etdirən Prezident İlham Əliyevin yüksək diplomatik istedadı sayəsində ölkəmizin dünyanın siyasi-iqtisadi mənzərəsini müəyyən edən aparıcı dövlətlərlə və beynəlxalq təşkilatlarla münasibətləri keyfiyyətcə yeni müstəvidə daha da inkişaf edib. Nəticədə, Azərbaycan yalnız regionda deyil, eyni zamanda, beynəlxalq aləmdə cərəyan edən proseslərə təsir göstərmək imkanı qazanıb. Ona görə də bu gün dünyanı narahat edən, həyati əhəmiyyətli bir sıra problemlərdə aparıcı dövlətlərin başçıları Azərbaycan rəhbərinin mövqeyi ilə hesablaşırlar. Məhz, Prezidentin apardığı uğurlu siyasətin nəticəsidir ki, şanlı Ordumuz 44 günlük Vətən müharibəsində mənfur düşməni məğlub edərək, 30 ildən sonra əzəli torpaqlarımızı işğaldan azad edib. Vətən müharibəsinin başlandığı 2020-ci il 27 sentyabr tarixindən bütün xalq Ali Baş Komandanın ətrafında daha sıx birləşdi. Yüksək vətənpərvərlik ruhuna malik on minlərlə Azərbaycan gəncləri cəbhəyə könüllü getmək üçün müraciət etdilər. Yaşından, peşəsindən asılı olmayaraq hər bir Azərbaycan vətəndaşı torpaqlarımızın azad edilməsi üçün əlindən gələni əsirgəmirdi. Xalq misli görünməmiş həmrəylik nümayiş etdirdi ki, bu da Xalq-Prezident birliyinin, xalqın ölkənin Liderinə dərin inamının parlaq nümunəsi idi və bu birlik qələbəmizin təminatı oldu. Ordumuzun tarix yazdığı 44 gün ərzində Prezident İlham Əliyevin dünyanın mötəbər kütləvi informasiya vasitələrinə verdiyi müsahibələrində beynəlxalq hüquqi normalar çərçivəsində olan Azərbaycanın haqlı mövqeyi tamlığı ilə sərgiləndi.

Dahi şəxsiyyətin dövlətimiz, xalqımız qarşısındakı xidmətlərinin miqyası o qədər genişdir ki, onları bir yazıda əhatə etmək mümkün deyil. Hansı sahəyə baxsaq Heydər Əliyev siyasətinin uğurlarını görürük. Bu uğurlar davamlıdır. Ümummilli Liderin siyasi kursunun laqiqli davamçısı, Prezident İlham Əliyev möhkəm təməl üzərində Azərbaycanı ən yüksək zirvələrə ucaldır. Bu gün dünya qalib Azərbaycanın sözünün imzası qədər əhəmiyyətli olduğunu edir. Azərbaycan sülh gündəliyinin, yeni əməkdaşlıq formatlarının müəllifi kimi mövqeyini möhkəmləndirir. Azərbaycan tolerant, multikultural dəyərlərin inkişafına davamlı töhfələr verən ölkə kimi nüfuz qazanır. Bugünkü Azərbaycan Ulu Öndər Heydər Əliyevin görmək istədiyi Azərbaycandır!

## İstifadə olunmuş ədəbiyyat siyahısı

1. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. 17 cilddə. VI cild, Bakı: Azərnəşr, 1997-2007, 800 s.

2. Məqsədimiz Azərbaycanın hərtərəfli inkişafına, xalqın rifahının daim yüksəlməsinə nail olmaqdır. Azərbaycan Prezidenti İlham Əliyevin nitqi // Dirçəliş-XXI əsr. 2004, № 78-79, s. 21-25

3. Əliyev İ. Azərbaycanın strategiyası // Dirçəliş-XXI əsr, 2004, № 82-83. s. 3-7

4. Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

5. Dünya azərbaycanlılarının I qurultayında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin nitqi //Azərbaycan, 10 noyabr 2001

6. Açıq hökumətin təşviqinə dair 2020–2022-ci illər üçün Milli Fəaliyyət Planı, (Azərbaycan Respublikası Prezidentinin 2020-ci il, 27 fevral tarixli Sərəncamı ilə təsdiq edilmişdir), Bakı: 2020.

7. Azərbaycan mədəniyyətinə Heydər Əliyev qayğısı // Xalq qəzeti, 19 iyul 1997

8. Olub-keçənləri düşünərkən. Heydər Əliyevlə müsahibə // Ulduz, 1990, №6, s. 5-9 Abdullayev V.

9. Azərbaycan yeni diplomatiya məkanında. Bakı: Azərnəşr, 2000, 412 s.

10. Qəndilov S. Azərbaycan Heydər Əliyevlə müstəqillik yollarında // Dirçəliş-XXI əsr, 2001, №44, s. 80-86

11. Kazımlı X. Böyük siyasətin davamı. Bakı: Nurlan, 2007, 768 s.

12. Great Leader Heydar Aliyev's strategy of national state building and modern development https://azertag.az/en/xeber/Great_Leader_Heydar_Aliyevs_strategy_of_national_state_building_and_modern_development-2126996 06 May 2022

13. Гусейнова И. Гейдар Алиев и национально-духовные ценности азербайджанского народа // Dircəliş-XXI əsr, 2009, № 128-129, с. 73-90

14. Мирзазаде А. Мир о Гейдаре Алиеве // Возрождение – XXI век, 1999, № 3-4, с. 13-22

15. Менегетти А. Психология лидера. М.: НБФ, 2002, 31-40 с.

**Камран Байрамов**
**Депутат Милли Меджлиса Азербайджанской Республики**

## Азербайджан успешно развивается на прочном основании, заложенном Общенациональным Лидером Гейдаром Алиевым

## Р Е З Ю М Е

Указ Президента Ильхама Алиева об объявлении 2023 года «Годом Гейдара Алиева» создает широкие возможности для более фундаментального и системного понимания и осмысления сути эпохи Гейдара Алиева, донесения ее до нашего народа и общества. В то же время, Гейдар Алиев, будучи архитектором и основателем современного Азербайджанского государства, великим политиком и общенациональным лидером, является редким гением азербайджанского народа XX века. Великий Вождь – основатель независимого Азербайджана, спаситель нашего народа и государства.

Интеграция Азербайджана в европейские институты, полноправное членство в Совете Европы стало новой и очень надежной возможностью для объективного доведения важных проблем нашей республики до внимания мировой общественности. Общенациональный лидер Гейдар Алиев высоко оценил это событие и сказал, что вступление нашей страны в Совет Европы является началом нового этапа в развитии Азербайджанского государства.

После обретения независимости, помимо развития отношений с ООН, Общенациональный Лидер активно участвовал в процессе представления и обсуждения предложений по реформе, способствующих более эффективному функционированию этой организации. Благодаря дипломатии Гейдара Алиева ООН, ОБСЕ, Совет Европы, Европейский Союз, Европарламент, НАТО, Организация исламского сотрудничества, Движение неприсоединения и другие международные организации приняли ряд резолюций и решений, касающихся обеспечения территориальной целостности Азербайджана.

Масштабы заслуг Гейдара Алиева перед нашим государством и народом настолько широки, что невозможно охватить их в одной области, в одной статье, в одном исследовании. Верный последователь политического курса Общенационального Лидера Президент Ильхам Алиев поднимает Азербайджан на новые высоты, укрепляет авторитет и влияние нашего государства на международной арене.

**Kamran Bayramov**
**Member of Milli Majlis of the Republic of Azerbaijan**

**Azerbaijan is successfully developing on a solid base paved by the Great Leader Heydar Aliyev**

**S U M M A R Y**

Decree of the President Ilham Aliyev on declaration of 2023 as the “Year of Heydar Aliyev” creates ample opportunities for a more fundamental and systematic understanding of the essence of the era of Heydar Aliyev, bringing it to our people and society. At the same time, 1Heydar Aliyev, being the architect and founder of the modern Azerbaijani state, a great politician and national leader, is a rare genius of the Azerbaijani people of the 20th century. The Great Leader is the founder of independent Azerbaijan, the savior of our people and state.

Azerbaijan's integration into European institutions, full-fledged membership to the Council of Europe has become a new and very reliable opportunity for objectively bringing the important problems of our republic to the attention of the world community. National Leader Heydar Aliyev highly appreciated this event and said that our country's accession to the Council of Europe is the beginning of a new stage in the development of the Azerbaijani state.

After gaining the independence, in addition to developing relations with the UN, the National Leader actively participated in the process of presenting and discussing reform proposals that contribute to the more effective functioning of this organization. Thanks to the diplomacy of Heydar Aliyev, the UN, OSCE, Council of Europe, European Union, European Parliament, NATO, Organization of Islamic Cooperation, Non-Aligned Movement and other international organizations adopted a number of resolutions and decisions related to ensuring territorial integrity of Azerbaijan.

The scale of Heydar Aliyev's services to our state and people is so wide that it is impossible to cover them in one area, in one article, in one study. A faithful follower of the political course of the National Leader, President Ilham Aliyev is raising Azerbaijan to new heights, strengthening the authority and influence of our state in the international arena.

***Məzahir ƏFƏNDİYEV***

Azərbaycan Respublikası Milli Məclisinin deputatı

# AZƏRBAYCAN KONSTİTUSİYASI VƏ AZƏRBAYCANÇILIQ İDEOLOGİYASI DAVAMLI İNKIŞAFIN TƏMİINATÇISIDIR

***Açar sözlər:*** *insan hüquqları, konstitusiya, demokratiya, cəmiyyət*
***Ключевые слова:*** *права человека, конституция, демократия, общество*
***Keywords:*** *human rights, constitution, democracy, society*

İnsan hüquq və azadlıqları ümumbəşəri mədəniyyətin sağlam göstəricisi, insanlar və dövlət arasında sivil qarşılıqlı əlaqə üçün ədalətli dəyər bələdçisi və alət kimi çıxış edir. Müasir dünyada insan hüquqları mövzusu çox mübahisəlidir: insan hüquq və azadlıqlarının dərk edilməsi, onların həyata keçirilməsi mexanizmləri, bu sahənin subyektləri və obyektləri ilə bağlı məsələlər geniş müzakirə olunur. İnsan hüquqları sahəsinin təhlili ilə vətəndaş cəmiyyətinin inkişaf dərəcəsi, qanunun aliliyi, sosial münasibətlər sistemində şəxsiyyətin yeri və rolu haqqında çox şey öyrənmək olar.

XX əsrin sonlarında Azərbaycanın siyasi və iqtisadi transformasiya prosesi hakimiyyətlə vətəndaş cəmiyyəti arasındakı münasibətlə bağlı problemlərin artmasına səbəb olurdu. Bu münasibətlərin xüsusiyyətləri bilavasitə insan hüquq və azadlıqlarının dərk edilməsi ilə bağlı idi, çünki bunlara hörmət edilmədən demokratik siyasi sistem mövcud ola bilməzdi.

Azərbaycanın ictimai-siyasi həyatında 1990-cı illərə qədər insan hüquqları institutunun dövlət institutlarına münasibətdə prioritetliyi hətta ideoloji-deklorativ səviyyədə də görünmürdü. Yalnız SSRİ-nin süquta uğramasından sonra bu sahədə müsbət dəyişikliklər qeyd olundu. Belə ki, müstəqilliyini elan etdikdən sonra Azərbaycan insan hüquqlarına riayət edilməsini dövlətin əsas prioriteti elan etdi, demokratik dövlət quruculuğu həyata keçirilməyə başlandı.

Bununla belə, o zamanlar yüksək humanist ideyaların həyata keçirilməsi sahəsində bir çox ciddi problemlər var idi, insanların hüquqi təminatsızlığı açıq şəkildə qalır və cəmiyyət tərəfindən ağrılı şəkildə qəbul edilirdi. Azərbaycanda insan hüquqlarının müdafiəsini tənzimləyən hüquq normaları ilə beynəlxalq prinsiplər arasındakı uyğunsuzluq, cəmiyyətimizin strateji cəhətdən sabit inkişafı üçün perspektivlərin, habelə insan hüquqlarının müdafiəsi üçün mövcud mexanizmin olmaması, iqtisadiyyat və siyasət sahələrində qeyri-sabit vəziyyət o vaxtkı hakimiyyətin səmərəsiz fəaliyyətini ortaya qoyurdu.

Ümmumiyyətlə Azərbaycan Respublikasının müstəqilliyinin bərpasının ilk illərində mürəkkəb beynəlxalq və daxili şərait yarandı, daxildə hakimiyyət uğrunda mübarizə gedirdi. 1991-ci il oktyabrın 18-də "Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı" qəbul edilsə də, bu müstəqillik, əslində, ilk dövrdə formal xarakter daşıyır, onun itirilməsi təhlükəsi Azərbaycanın başı üzərindən bir an belə çəkilmirdi. Həmin illərdə Azərbaycanda hakimiyyətdə xalqın etimad göstərə biləcəyi siyasi qüvvənin olmaması dövlət idarəçiliyi mexanizmlərinin formalaşmasında ciddi maneəyə çevrilməklə yanaşı,

daxili böhran, vətəndaş qarşıdurması, xaos və anarxiyanın yaranmasına rəvac vermiş, qanunvericilik və hüquq qaydalarının təminatı, vətəndaşın azad, təhlükəsiz yaşamaq hüququnun, ən əsası ictimai asayişin qorunması sahəsində əsaslı problemlər yaratmışdı. Bu qəbildən olan problemlərin həlli yalnız dövlətin və bütövlükdə millətin inkişafı üçün uzunmüddətli, strateji planların həyata keçirilməsinin nəticəsi ola bilərdi.

Bu ağır vəziyyətdə Azərbaycan xalqının təkidli tələbi ilə Ümummilli Lider Heydər Əliyev yenidən siyasi hakimiyyətə qayıtdı və dövlətimizi xilas etmək üçün hərəkətə keçdi. 1994-cü ildə atəşkəsin elan olunmasına dair "Bişkek protokolu" imzalandıqdan sonra Ulu Öndər Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan yeni inkişaf mərhələsinə qədəm qoyaraq dünya coğrafiyasında öz müstəqillik tarixini yazmağa başladı.

O zamanki mövcud vəziyyət, əlbəttə ki, insan hüquqlarının müdafiəsi sahəsində Azərbaycan Respublikasının milli qanunvericilik sisteminin inkişafı konsepsiyasının, eyni zamanda müasir Konstitusiyanın hazırlanmasını diktə edirdi.

Bu gün müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyasının qəbul edilməsindən 27 ilə yaxın vaxt ötür. Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə hazırlanan və 1995-ci il noyabr ayının 12-də ümumxalq səsverməsi yolu ilə qəbul edilən Əsas Qanun müstəqil Azərbaycanın ilk, ümumilikdə isə ölkəmizin 4-cü Konstitusiyasıdır.

1918-1920-ci illərdə cəmi 23 ay mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyəti dövlətin Əsas Qanununu qəbul edə bilməmişdi. SSRİ-nin tərkibində olduğumuz dövrlərdə isə Konstitusiyamız əsasən İttifaqın Konstitusiyasına uyğunlaşdırılmışdı.

Dövlət müstəqilliyinin bərpa olunduğu ilk illərdə Ümummilli Lider Heydər Əliyevin böyük uzaqgörənliklə həyata keçirdiyi əsas islahatlar ölkəmizi inkişaf yoluna çıxarmaqla yanaşı, qanunların aliliyini təmin edən hüquqi, dünyəvi dövlət quruculuğuna yol açan yeni Konstitusiyanın hazırlanmasına və qəbuluna şərait yaratdı. O, müstəqil Azərbaycan dövlətinin qurucusu olduğu kimi, onun milli ideologiyasının – azərbaycançılığın da, azərbaycançılıq ideologiyasına söykənərək yaradılan ilk milli Konstitusiyamızın da müəllifidir.

Konstitusiyanın qəbulu müstəqillik tariximizin ən mühüm hadisələrindən biri olmaqla yanaşı, Ulu Öndər Heydər Əliyevin Azərbaycan dövlətçiliyi qarşısındakı böyük xidmətlərindən biridir. Bu Konstitusiya müstəqil dövlət quruculuğunu tənzimləyən, demokratik inkişafa təminat yaradan, mükəmməl dövlət idarəçiliyinin əsasını qoyan, cəmiyyətin siyasi, sosial, mədəni, iqtisadi sahələrində əməli dəyişiklikləri özündə ehtiva edən, qanunvericiliyin təkmilləşməsində hüquqi baza rolunu oynayan mütərəqqi bir sənəd idi.

Müstəqil Azərbaycan Respublikasının Konstitusiyası ölkəmizdə demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesinə hüquqi baza yaratdı və onun inkişafına güclü təkan verdi, hakimiyyət bölgüsünün əsas prinsiplərini müəyyənləşdirdi. İnsan və vətəndaş hüquqlarının, azadlıqlarının müdafiəsini qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanları üzərinə əsas vəzifə olaraq qoydu.

Azərbaycan Respublikasının Konstitusiyası qəbul edilərkən hüquqi dövlət quruculuğunun müasir meyillərinə istinad olunmuş, ölkəmizin hüquq sistemi üçün yeni bir təsisatın – konstitusiya ədalət mühakiməsi orqanının yaradılması nəzərdə tutulmuş, bu təsisatın dövlət hakimiyyəti sistemində yeri və rolu müəyyənləşdirilmişdi.

18 oktyabr 1991-ci il tarixli Dövlət müstəqilliyi haqqında Konstitusiya Aktında Azərbaycan Respublikası Ümumdünya İnsan Hüquqları Bəyannaməsini tanıdığını bəyan etmişdi. Ölkə Konstitusiyasında isə Bəyannamənin ruhuna uyğun olaraq insan hüquq və azadlıqlarının təsbitinə xüsusi önəm verilmişdi. Konstitusiyanın 48 maddədən ibarət üçüncü

fəsli bilavasitə insan hüquqlarına və onların təminatlarına həsr edilmişdir. Bir çox beynəlxalq hüquqi sənədlər Azərbaycan Respublikası Konstitusiyasının insan hüquq və azadlıqlarını təsbit edən üçüncü fəslinin əsasını təşkil etmişdir.

Konstitusiyamız və milli ideologiyamızda dövlətçilik maraqları, milli birlik və vətəndaş həmrəyliyi prinsipləri ilə yanaşı, eyni zamanda milli-mənəvi dəyərlərimizi yaşadan, fəal mövqeli və iradəli Azərbaycan vətəndaşı yetişdirilməsi ideyasına da xüsusi önəm verilib. Heydər Əliyev Azərbaycan gənclərini sərbəst düşüncə tərzinə malik, cəmiyyətdə və dünyada gedən proseslərdən baş çıxara bilən vətənpərvər, savadlı, bacarıqlı fəal insanlar kimi görürdü. Ümummilli Lider deyirdi: "Biz elə bir nəsil yetişdirməliyik ki, o, öz dövlətini sevsin, onu qorumağı, yaşatmağı və bütün dünyada layiqincə təmsil etməyi bacarsın". Mən də o dövrlərdə yaşamış bir gənc olaraq yeni Konstitusiyanın qəbul olunmasının canlı şahidi və iştirakçısı olmaqla yanaşı, həmin Konstitusiyanın gənclərin gələcək inkişafı üçün yaratdığı şəraitdən birbaşa bəhrələnmişəm.

Eyni zamanda, onu da qeyd etmək istəyirəm ki, məhz Konstitusiya qəbul edilən gün – 12 noyabr 1995-ci ildə müstəqil Azərbaycanın Parlamentinə ilk dəfə çoxpartiyalı sistem əsasında demokratik seçkilər də keçirildi.

Sonralar 2002, 2009 və 2016-cı illərdə referendum yolu ilə Azərbaycan Respublikasının Konstitusiyasına bir sıra mühüm əlavə və dəyişikliklərin edilməsi tam mütərəqqi xarakter daşımaqla insan və vətəndaş hüquqlarının və azadlıqlarının daha səmərəli qorunmasına, vətəndaşların layiqli həyat səviyyəsinin təmin edilməsinə, demokratiyanın genişlənməsinə və inkişafına yönəlmiş daha bir addım idi.

Azərbaycan Respublikasının Konstitusiyası qəbul edildikdən sonra, ölkədə bu sahədə demokratik, hüquqi islahatların həyata keçirilməsi və insan hüquqlarının səmərəli təmini məqsədilə institusional mexanizmlər sistemi yenidən qurulmağa başlandı. Baş verən bütün proseslər ümumilikdə Azərbaycanda siyasi sistemin müasirləşdirilməsi və demokratik institutların formalaşdırılması üçün zəmin yaratdı.

İnsan hüquqları sahəsinin təbliği, əhalinin hüquqi cəhətdən maarifləndirilməsi, onların hüquqi düşüncə və mədəniyyətinin günün tələbləri səviyyəsində inkişaf etdirilməsi demokratik-hüquqi dövlətin və vətəndaş cəmiyyətinin qurulması prosesinə təkan verən ən mühüm amillərdən idi.

Bu baxımdan Azərbaycan Respublikası Prezidentinin 1996-cı il 21 fevral tarixli Sərəncamını xüsusilə qeyd etmək lazımdır. Həmin Sərəncama uyğun olaraq respublikamızda Hüquqi İslahat Komissiyası yaradılmış, ölkəmizdə həyata keçirilməsi planlaşdırılan hüquqi islahatlar sürətləndirilmişdi. Bu Komissiya tərəfindən beynəlxalq təcrübə əsasında həyatın bütün sahələrini əhatə edən və mühüm münasibətləri tənzimləyən normativ hüquqi aktlar hazırlanmışdı.

Hüquqi islahatlar nəticəsində insan hüquqları sahəsində yeni institutlar yaradıldı. Ulu Öndərin 14 yanvar 1998-ci il tarixli Fərmanı ilə Qadın Problemləri üzrə Dövlət Komitəsinin yaradılması ölkədə qadınlara dair dövlət siyasətinin daha mütəşəkkil və məqsədyönlü şəkildə həyata keçirilməsini təmin etdi. 2006-cı ildə isə Prezident İlham Əliyev tərəfindən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin yaradılması ölkədə ailə, qadın və uşaq siyasətinin daha səmərəli həyata keçirilməsinə öz töhfəsini verdi.

Aparılmış hüquqi islahatlar nəticəsində insan hüquq və azadlıqlarının təminatı sahəsində bir çox beynəlxalq prinsiplər Azərbaycanın milli qanunvericiliyində də öz əksini tapdı. Lakin, bəzi humanitar aspektlərdə insanların elan edilmiş hüquqlarının müdafiəsinin daha da təkmilləşdirilməsi, beynəlxalq norma və standartlara uyğun təşkilinə ehtiyac duyulurdu. Bu səbəbdən, insanların hüquqi maarifləndirilməsinə, hüquq düşüncəsinin və hüquq

mədəniyyətinin daha da inkişaf etdirilməsi məqsədilə Ombudsman vəzifəsinin təsis olunması bizim gerçəkliyimizin mühüm tələbatı idi.

Dövlətimizin ali məqsədinə nail olunmasında, müvafiq hüquqi mexanizmlərin yaradılmasında, o cümlədən mükəmməl qanunvericilik bazasının formalaşdırılmasında Azərbaycan Respublikası Prezidentinin 1998-ci il fevralın 22-də imzaladığı "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" Fərmanı xüsusi əhəmiyyətə malikdir. Belə ki, ilk dəfə insan hüquqları üzrə müvəkkil institutunun təsis edilməsi məhz bu Fərmanda nəzərdə tutulmuşdu. Təsadüfi deyil ki, ilk Dövlət Proqramının qəbul olunduğu gün – iyunun 18-i Prezident İlham Əliyevin 2007-ci il tarixli Sərəncamına əsasən Azərbaycanda insan hüquqları günü elan edilmişdir.

Belə bir konsepsiyanın həyata keçirilməsi, hətta rəsmi olaraq təsdiqlənsə belə, hökumət müəyyən çətinliklərlə üzləşirdi. Bu qəbildən olan problemlərin həlli yalnız dövlətin və bütövlükdə millətin inkişafı üçün uzunmüddətli, strateji planların həyata keçirilməsinin nəticəsi ola bilərdi.

Hesab edirəm ki, müstəqil Azərbaycanın belə mürəkkəb, ziddiyyətli bir dövrdə mütərəqqi inkişafının əsas istiqaməti, nəticə etibarı ilə onun insan potensialının inkişaf etdirilməsi idi. Buna görə də insan hüquqlarının müdafiəsi sahəsində milli qanunvericilik sisteminin inkişafı konsepsiyasının hazırlanması yeni Azərbaycan üçün fövqəladə əhəmiyyət kəsb edən məsələ idi.

Bu baxımdan Ulu Öndər Heydər Əliyev tərəfindən 1998-ci il iyunun 18-də Azərbaycan Respublikasında ilk "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı" təsdiq edildi və insan hüquqlarının təmin olunması dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyən edildi.

Beləliklə, 28 dekabr 2001-ci il tarixdə Azərbaycan Respublikası Milli Məclisi tərəfindən "Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Konstitusiya Qanunu qəbul edildi, 5 mart 2002-ci ildə isə ölkə başçısı tərəfindən bu Qanunun tətbiq edilməsi haqqında Fərman imzalandı. Nəticədə təsisatın yaradılması və fəaliyyət göstərməsi üçün hüquqi baza yaradıldı.

Məqsədləri məhkəmədənkənar insan hüquqları və azadlıqlarının müdafiəsi olan bu təsisatın yaradılması ilə cəmiyyətdə "insan hüquqları" anlayışına münasibət müsbət baxımdan yeniləşmiş, hüquqi tərbiyə və hüquq mədəniyyəti yeni məzmunda formalaşmış, insan hüquqlarının müdafiəsi sahəsində aidiyyəti dövlət qurumları ilə vətəndaş cəmiyyəti institutları arasında əlaqələndirilmiş iş üsulu yaranmışdır.

Həyata keçirilən islahatların məntiqi davamı olaraq sonrakı mərhələdə Azərbaycan Respublikası Prezidentinin 28 dekabr 2006-cı il tarixdə imzaladığı "Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planı" bu sahədə Dövlət Proqramının fəlsəfəsini inkişaf etdirdi. Milli Fəaliyyət Planı insan hüquqlarının təmin edilməsi prosesinin keyfiyyətcə yeni müstəviyə keçməsinə, universal və regional səviyyədə əməkdaşlıq strategiyasının qurulmasına, dövlətlə vətəndaş cəmiyyəti arasında tərəfdaşlıq münasibətlərinin yaradılmasına xidmət etdi.

Yeni çağırışlar və inkluziv cəmiyyət quruculuğundan irəli gələn məsələlərin nəzərə alınması baxımından Milli Fəaliyyət Planı ölkəmizin siyasi sahədə milli maraqlarından biri olan insan hüquqlarının təmin olunması üzrə həyata keçirilən ardıcıl tədbirlərin daha da genişləndirilməsi, o cümlədən hüquq-müdafiə mexanizmlərinin təkmilləşdirilməsi, habelə əhalinin müxtəlif qruplardan olan nümayəndələrinin hüquqlarının qorunmasının gücləndirilməsində sonrakı mərhələnin başlanğıcı oldu.

Bu istiqamətdə atılan növbəti addımlardan biri də Prezident İlham Əliyev tərəfindən 27 dekabr 2011-ci il tarixdə "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı"nın qəbul olunmasıdır. Proqramın təsdiq edilməsi insan hüquqları sahəsində tədbirlərin davamlılığının təmin olunması məqsədini daşıyaraq, eyni zamanda "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasının hədəflərinə yönəlmişdir.

Həyata keçirilən Dövlət Proqramları çərçivəsində dayanıqlı sosial-iqtisadi inkişafı təmin etmək, əhalinin sosial rifahını yüksəltmək məqsədilə haqq və ədalət, tolerantlıq prinsipinə söykənərək Azərbaycan insan hüquqlarının təmin olunması sahəsində davamlı olaraq strateji sənədlər qəbul edir və uğurla həyata keçirir. Ölkəmiz 300-ə yaxın beynəlxalq konvensiyaya qoşulub, bunlara uyğun yüzlərlə qanunvericilik, normativ-hüquqi aktlar qəbul olunub, bu sənədlərin icrasını təmin etmək üçün institutlaşma, müvafiq dövlət qurumlarının yaradılması prosesi həyata keçirilib.

Bütün sahələrdə olduğu kimi, insan hüquq və azadlıqlarının da təmin edilməsi istiqamətində normativ-hüquqi bazanın təkmilləşdirilməsi, habelə qanunvericilik bazasının formalaşmasında Azərbaycan Respublikasının Milli Məclisinin xüsusi əhəmiyyət kəsb edən rolu var.

Bu günə qədər Milli Məclis tərəfindən bir sıra qanunlar – “Gender (kişi və qadınların) bərabərliyinin təminatları”, “Məişət zorakılığının qarşısının alınması”, “Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi”, “Reproduktiv sağlamlıq”, “Uşaqların cismani cəzadan müdafiəsi”, “Əlilliyi olan şəxslərin hüquqları” haqqında qanunlar qəbul edilib.

Beynəlxalq sənədlərə qoşulmaqla bağlı da Parlamentdə bir sıra qanun layihələri uğurla ratifikasiya olunub. “Təhsil sahəsində ayrı-seçkiliklə mübarizə haqqında”, “Əlillərin hüquqları haqqında” Konvensiyalar, həmçinin “İşgəncələrə və digər qəddar, qeyri-insani yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinə qarşı” Konvensiyanın Fakültativ Protokolu da Milli Məclisdə müzakirə olunaraq qəbul olunmuşdur.

Eyni zamanda Avropa Şurasının “Uşaqların cinsi istismardan və cinsi zorakılıqdan müdafiəsi haqqında” və “Qadınlara qarşı zorakılıq və məişət zorakılığının qarşısının alınması və ona qarşı mübarizə haqqında” Konvensiyalarının, “Dərc olunmuş əsərlərə kor, görmə qüsurlu və ya çap məhsullarını oxumaqla bağlı başqa əlilliyi olan şəxslər üçün əlçatanlığı asanlaşdırmağa dair Mərakeş Müqaviləsi” kimi mühüm beynəlxalq sənədlər də keçən müddət ərzində Milli Məclis tərəfindən ratifikasiya olunmuşdur.

İnsan hüquq və azadlıqlarını, demokratiyanı formalaşdıran hər bir siyasi sistemin dayanıqlı olması üçün dövlət institututlarının fəaliyyətini təmin edən yaradılmış mexanizmlərlə yanaşı, vətəndaş mövqeyi, vətəndaş cəmiyyətinin mövcudluğu zəruridir. Təsadüfi deyil ki, insan hüquqlarının müdafiəsi sistemini müəyyən edən əsas mexanizmlərdən biri də qeyri-hökumət təşkilatlarıdır.

Qeyri-hökumət təşkilatlarının mövcudluğu özlüyündə cəmiyyətin və siyasi sistemin demokratikləşməsinin göstəricisidir. Dövlət və qeyri-hökumət təşkilatları arasında münasibətlərin qiymətləndirilməsi vətəndaş cəmiyyətinin əhəmiyyəti təsir dərəcəsini xarakterizə edir. Qərbdə insan hüquqları mexanizmlərinin yaranması və inkişafı qanunun aliliyinin formalaşması, habelə Qərbi Avropa cəmiyyətinin siyasi-hüquqi ənənələri ilə ayrılmaz şəkildə bağlıdır. Başqa sözlə, insan hüquqlarının səmərəli müdafiəsinin şərti: bir tərəfdən inkişaf etmiş siyasi-hüquqi mədəniyyətin olması, digər tərəfdən xüsusi mexanizmlər vasitəsilə vətəndaşlara öz hüquqlarını müdafiə etmək üçün hüquqi imkan yaradan dövlətdir.

Azərbaycanda qeyri-hökumət təşkilatlarının təşəkkülü bir neçə mərhələdən keçib. İlkin dövrdə dövlət tərəfindən qeyri-hökumət sektoruna münasibətdə ümumi yanaşma və prioritetlərin müəyyənləşməsi prosesi gedirdi. Həyatın müxtəlif sahələrini əhatə edən yüzlərlə qeyri-hökumət təşkilatlarının yaranması və cəmiyyətimizdəki demokratik proseslərə qoşulması onların fəaliyyətinin müəyyən koordinasiyasını, dövlət orqanları və beynəlxalq qurumlarla daha səmərəli əlaqələrin qurulmasını zəruri edirdi. 1999-cu ildə Milli Qeyri-Hökumət Təşkilatları Forumunun təsis olunması bu boşluğu xeyli dərəcədə aradan qaldırdı. 1998-ci ildə təsis edilmiş QHT-lərlə İş üzrə Resurs və Təlim Mərkəzinin təşkilati və texniki dəstəyi ilə 11 iyul 1999-cu ildə Milli QHT Forumu 95 təşkilat iştirakı ilə təsis edildi. Bununla, ölkə QHT-lərini öz ətrafında toplayan Milli QHT Forumu cəmiyyətin bütün təbəqələrini əhatə etməklə həm müstəqil fəaliyyət göstərməli, həm də dövlət quruculuğunda fəal iştirak etməli idi.

Azərbaycanda QHT-lərin qanunvericilik çərçivəsində fəaliyyətlərini təmin etmək məqsədilə “Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında” 13 iyun 2000-ci il tarixli qanun qüvvəyə mindi. Daha sonra 2007-ci il iyulun 27-də Prezident İlham Əliyev "Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Konsepsiyasının təsdiq edilməsi haqqında" sərəncam imzaladı. Həmin ilin dekabrında isə ölkə başçısının konsepsiyada nəzərdə tutulan müddəaların icrasını təmin etmək məqsədilə imzaladığı Fərmanla Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası yaradıldı.

Son illər dünyamızda, o cümlədən Azərbaycanın ictimai-siyasi həyatında baş verən köklü dəyişikliklər fonunda Cənab Prezidentin 19 aprel 2021-ci il tarixli Fərmanı ilə qeyri-hökumət təşkilatlarının inkişafı, dövlət-özəl və qeyri-hökumət təşkilatları arasında əməkdaşlıq mexanizmlərinin təkmilləşdirilməsi və təşviqi məqsədilə Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi təsis edildi.

Dövlət orqanları ilə vətəndaş cəmiyyəti institutları arasında münasibətlərin yeni, müasir çağırışlara uyğun formalaşdırılması baxımından zəruri mexanizm hesab olunan agentliyin yaradılması Ümummilli Lider Heydər Əliyevin vətəndaş cəmiyyətinin inkişaf etdirilməsi istiqamətində başladığı yolun davamıdır.

Qeyd edim ki, Azərbaycan sadəcə öz sərhədləri daxilində insan hüquq və azadlıqlarının təmin olunması istiqamətində islahatlar həyata keçirməklə kifayətlənmir, eyni zamanda beynəlxalq platformalarda, o cümlədən Birləşmiş Millətlər Təşkilatı və onun alt strukturlarıyla hərtərəfli, qarşılıqlı hörmətə əsaslanan əməkdaşlıq edir.

Ulu Öndərin əsasını qoyduğu güvənli münasibət 1993-cü ildən siyasət, insan haqqları, təhlükəsizlik, qadın hüquqlarının qorunması, uşaqlarla əlaqəli problemlərin həlli və digər sferaları əhatə edən proqramların icrası üçün yeni BMT qurumlarının ölkədə fəaliyyətə başlanması ilə ilkin mərhələyə qədəm qoydu, azərbaycanda yeni siyasətlər formalaşdı, qlobal inkişaf yanaşmaları yerli şəraitə uyğunlaşdırılaraq xalqımızın rifahının yüksəldilməsinə yönəldi.

1992-1999-cu illəri əhatə edən bu mərhələ Azərbaycanın müstəqilliyini yeni əldə etdiyi dövrə təsadüf edir. Mövcud iqtisadi çətinliklər, eyni zamanda Birinci Qarabağ Müharibəsinin yaratdığı gərginlik ölkəni insan hüquq və azadlıqlarının, qadın və uşaq haqqlarının təmin edilməsi sahəsində ciddi problemlərlə üz-üzə qoydu. Məhz o dövrdə Heydər Əliyev ölkənin bütün məsuliyyətini öz üzərinə götürərək BMT və onun alt strukturları ilə edilən uğurlu əməkdaşlıq nəticəsində bu problemlərin həlli istiqamətində təxirəsalınmaz tədbirlər həyata keçirdi.

Həmçinin, 1994-cü ildə Azərbaycanın BMT-nin Uşaq Fondu (YUNİSEF) ilə əməkdaşlığı çərçivəsində qaçqın və məcburi köçkün, uşaq və yeniyetmələr arasında vəziyyətin yaxşılaşdırılması istiqmaətində bir sıra uğurlar əldə edildi. Bu uğurların nəticəsi olaraq Ümumdünya Ərzaq Proqramı (ÜƏP) çərçivəsində qaçqın və məcburi köçkünlər təxminən 160.000 ton qarışıq ərzaq malları ilə təmin edilmişdir.

Sonrakı 2000-2015 – ci illərdə BMT-nin strukturları Azərbaycanın qəbul olunmuş milli strategiyalarına, habelə "Minilliyin İnkişaf Məqsədləri"ndə öz əksini tapmış 8 hədəfə uyğun olaraq vacib layihələr həyata keçirdilər.

Azərbaycan 2000-ci ildən BMT-nin "Minilliyin İnkişaf Məqsədləri" Bəyannaməsini Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə uğurla yerinə yetirən və tolerantlığa, multikulturalizmə verdiyi töhfəyə, gender bərabərliyinin təşviqi və təmin olunması, yoxsulluğun qısa müddətdə azaldılması, xüsusilə insanların sağlamlığının qorunması, əhalinin təhsil səviyyəsinin yüksəldilməsi, ətraf mühitin yaxşılaşdırılması üzrə müsbət nəticəyə nail olmuş az sayda dövlətlərdən biri olaraq tarixə düşdü.

Minilliyin İnkişaf Məqsədlərinin uğurla həyata keçirilməsi istiqamətində görülmüş tədbirlərə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və ölkəmiz 2015-ci ildə Cənub-Cənub mükafatı ilə təltif olunmuşdur. Bu isə Minilliyin İnkişaf Məqsədlərində əsaslı irəliləyişlərə nail olmuş ölkələrə verilən əsas mükafat hesab olunur.

2015-ci ildən isə Azərbaycan Birləşmiş Millətlər Təşkilatına üzv dövlətlər tərəfindən yekdilliklə qəbul edilən Dayanıqlı İnkişaf Məqsədləri (DİM) sənədinin fəal iştirakçısına çevrilmişdir. Bu gün heç kəsin kənarda qalmaması prinsipi ilə 17 məqsəd və 169 hədəfdən ibarət bu mürəkkəb Gündəlik cəmiyyətin bütün təbəqələrini əhatə etməklə heç kimin kənarda qalmaması, insan hüquqları, gender bərabərliyi, dayanıqlı inkişaf, davamlılıq və cavabdehlik prinsiplərini ehtiva edir.

Ölkəmizdə ictimai həyatın hər bir sahəsində aparılan uğurlu islahatlar, beynəlxalq miqyasda əldə olunmuş nailiyyətlər insan hüquqları kimi həssas və hər zaman aktual sahədə tənzimləyici milli mexanizmlərin daha da təkmilləşdirilməsini və ardıcıl tədbirlərin həyata keçirilməsini labüd edir.

Bu baxımdan müasir dövrün çağırışlarını, habelə beynəlxalq müstəvidə görülən işlərə hökumət səviyyəsində daha səmərəli baxılmasını təmin etmək üçün 06 oktyabr 2016-cı il tarixində Azərbaycan Respublikası Prezidentinin Frəmanına əsasən Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası yaradıldı.

Milli Əlaqələndirmə Şurası əhalinin sosial-iqtisadi rifahını daha da yaxşılaşdırmaq, bu günədək görülmüş və əldə olunmuş nəticələrin davamlılığını qorumaq, habelə yeni çağırışlara uyğun məqsədlərə nail olmaq üçün qlobal əməkdaşlıq etmək məqsədi güdür. Hər il ölkədə 17 məqsədi əhatə edən görülmüş işlərə dair illik hesabatlar hazırlanır və 2016-ci ildən etibarən Azərbaycan 3 "Könüllü Milli Hesabat"ı hazırlayan aparıcı ölkələrdən biridir.

Azərbaycan öz xarici siyasətində beynəlxalq hüququn ali prinsiplərini əsas götürərək, nəinki ölkə daxilində insan hüquq və azadlıqlarını təmin edir, eyni zamanda müxtəlif mədəniyyətlərin dinc şəkildə birlikdə yaşaması, dini tolerantlıq, fundamental insan hüquqlarının müdafiəsi, təhsil və yaradıcılıq hüquqlarının qorunması, iqtisadi və sosial sahələrdə davamlı inkişafın təmin edilməsini uğurla həyata keçirməkdədir.

Lakin, artıq heç kəsə sirr deyil ki, bu gün yaşadığımız dünya əvvəlki kimi deyil. 2020-ci ildə milyonlarla insanın yaşayışına təsir edən COVİD-19 pandemiyası nəticəsində qlobal iqtisadi böhranın, yoxsulluğun davamlı olaraq artdığı, ayrı-ayrı dövlətlərin iqtisadiyyatına təsir edən siyasi və hərbi münaqişələrin davam etdiyi, insan hüquq və

azadlıqlarının kobud şəkildə pozulduğu, habelə innovasiyaların tətbiqi ilə rəqəmsallaşma səviyyəsinin yüksəldiyi dördüncü sənaye inqilabı dövrünə qədəm qoyduq.

Eyni zamanda 2020-ci il Azərbaycanın müasir tarixində Ali Baş Komandan, Böyük Sərkərdə İlham Əliyevin rəhbərliyi altında müzəffər Azərbaycan Ordusunun göstərdiyi qəhrəmanlıq nəticəsində işğal altında olan torpaqlarımızın geri qaytarılması və doğma Şuşa şəhərimizin azad olunması ilə yaddaşlara həkk olundu. Prezident İlham Əliyev Ulu Öndərin müəllifi olduğu azərbaycançılıq ideologiyasını daha real və dolğun məzmunla zənginləşdirdi, xalqımızın birliyi, vəhdət təşkil edərək öz Sərkərdə oğluna olan etibarı İkinci Qarabağ-Vətən Müharibəsində azərbaycanlıların və müasir Ordumuzun yeni texnoloji, habelə innovativ çağırışları mənimsəyərək əzmkarlıq nümayiş etdirməsi ilə yanaşı, eyni zamanda dünya hərb tarixinə də yeniliklər gətirdi.

Bu gün postpandemiya və postmüharibə dövründə Azərbaycan üçün yeni dünya düzənini xarakterizə edən əsas xüsusiyyətlərdən biri də rəqəmsallaşma tendensiyalarının artımıdır. Qeyd edim ki, rəqəmsallaşma və onun gətirdiyi dəyişikliklərin miqyası, həcmi və mürəkkəbliyi bəşəriyyətin bütün əvvəlki təcrübələrindən ciddi şəkildə fərqlənir.

Ölkəmizin bu qlobal çağırışlara hazırlığının yüksək səviyyədə təmin edilməsi hökumətin gündəliyində mühüm yer tutur və Prezident İlham Əliyevin rəhbərliyi ilə hökumət tərəfindən bu istiqamətdə ardıcıl addımlar atılır, xüsusilə insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində dördüncü sənaye inqilabının tələblərindən irəli gələn qanunvericilik bazası təkmilləşdirilir.

Azərbaycan vətəndaşının həyatda yaşadığı müddətdə həqiqətin, haqqın və ədalətin əldə olunması üçün istinad etdiyi iki müqəddəs kitabı var. Bunlardan biri qanunların aliliyini təmin edən Konstitusiyadır, digəri isə insanlarımızın inanclarını ifadə edən müqəddəs Qurani-Kərimdir. Təsadüfi deyil ki, məhz ölkənin ən ali kürsüsünə xalqdan vəsiqə alan Prezident fəaliyyətə başlamadan öncə bu iki kitaba and içir.

Bu gün müstəqil dövlətimiz yaşadıqca, Ümummilli Lider Heydər Əliyevin işıqlı ideyalarının və ümumbəşəri dəyərlərin əks olunduğu Azərbaycan Konstitusiyası və azərbaycançılıq ideologiyası ölkəmizin davamlı inkişafına bundan sonra da öz töhfələrini verəcəkdir.

## İstifadə olunmuş ədəbiyyat siyahısı


1. "Azərbaycanda insan hüquq və azadlıqları beynəlxalq hüquq normalarına uyğun təmin edilir", "Respublika" qəzeti 10 dekabr 2022-ci il
2. "Qloballaşan dünyada insan hüquqlarının müdafiəsi və təbliği beynəlxalq hüquqi fenomen kimi", "Respublika" qəzeti 17 iyun 2022-ci il
3. "Uşaqların hüquq və azadlıqlarının müdafiəsi Ombudsmanın prioritet vəzifələrindəndir", "Respublika" qəzeti 20 noyabr 2021-ci il
4. "İnsan hüquqlarının müdafiəsi milli və ümumbəşəri dəyər kimi", "Respublika" qəzeti 18 iyun 2021-ci il
5. "Azərbaycan əhalisinin sosial rifahı və insan hüquqları", "Respublika" qəzeti 11 iyul 2019-cu il

## X Ü L A S Ə

Bu gün müasir dünyamızda insan hüquq və azadlıqlarının dərk edilməsi, qorunması, o cümlədən təmin edilməsi aktual problemlərdən birinə çevrilib. Ümumbəşəri mədəniyyətin sağlam göstəricisi, insanlar və dövlət arasında sivil qarşılıqlı əlaqə üçün ədalətli dəyər bələdçisi və alət kimi çıxış edən bu sahə dövlətin, cəmiyyətin subyektlərinin və fərdlərin davamlı inkişafının təminatçısı olaraq çıxış edir.

Azərbaycanın ictimai-siyasi həyatında 1990-cı illərə qədər insan hüquqları institutunun dövlət institutlarına münasibətdə prioritetliyi görünmürdü. Yalnız SSRİ-nin süquta uğramasından və müstəqilliyini elan etdikdən sonra Azərbaycan insan hüquqlarına riayət edilməsini dövlətin əsas prioriteti elan etdi, demokratik dövlət quruculuğu həyata keçirilməyə başlandı.

Bununla belə, o zamanlar yüksək humanist ideyaların həyata keçirilməsi sahəsində bir çox ciddi problemlər var idi. Azərbaycan xalqının təkidli tələbi ilə Ümummilli Lider Heydər Əliyev siyasi hakimiyyətə yenidən qayıtdıqdan sonra Azərbaycan Respublikasının ilk Konstitusiyası qəbul edildi, demokratik, hüquqi islahatların həyata keçirilməsi və insan hüquqlarının səmərəli təmini məqsədilə institusional mexanizmlər sistemi yenidən qurulmağa başlandı, bir sıra qanun və Dövlət Proqramları qəbul edildi.

Beynəlxalq təşkilatlarla da insan hüquq və azadlıqlarının təmin olunması məqsədilə səmərəli əməkdaşlıq formalaşdırıldı və bu gün Azərbaycan Birləşmiş Millətlər Təşkilatına üzv dövlətlər tərəfindən yekdilliklə qəbul edilən Dayanıqlı İnkişaf Məqsədləri (DİM) sənədinin fəal iştirakçısına çevrilmişdir.



**Мазахир Эфендиев**
**Депутат Милли Меджлиса Азербайджанской Республики**


## Конституция Азербайджана и идеология азербайджанства – гарант устойчивого развития


## Р Е З Ю М Е

Сегодня в современном мире понимание, защита и обеспечение прав и свобод человека стали одной из актуальных проблем. Эта область, выступающая в качестве здорового индикатора общечеловеческой культуры, справедливого ценностного ориентира и инструмента гражданского взаимодействия людей и государства, выступает в качестве гаранта устойчивого развития государства, субъектов общества и личности.

В общественно-политической жизни Азербайджана до 1990-х годов не просматривался приоритет института прав человека по отношению к государственным институтам. Только после распада СССР и провозглашения независимости Азербайджан объявил соблюдение прав человека главным приоритетом государства, и началось осуществление демократического государственного строительства.

Однако в то время было много серьезных проблем в реализации высоких гуманистических идей. После возвращения Общенационального Лидера Гейдара Алиева к политической власти по настоянию азербайджанского народа была принята первая Конституция Азербайджанской Республики, система институциональных механизмов для осуществления демократических и правовых реформ и эффективного обеспече-

ния прав человека начали восстанавливаться, был принят ряд законов и Государственных Программ.

Налажено эффективное сотрудничество также с международными организациями в целях обеспечения прав и свобод человека, и сегодня Азербайджан стал активным участником документа «Цели устойчивого развития» (ЦУР), единогласно принятого государствами-членами ООН.

**Mazahir Efendiyev**
**Member of the Milli Majlis of the Republic of Azerbaijan**

## The Constitution of Azerbaijan and the ideology of Azerbaijaniism are the guarantors of sustainable development

**R E S U M E**

Today, in our modern world, the understanding, protection and provision of human rights and freedoms has become one of the urgent problems. This field, which acts as a healthy indicator of universal culture, a fair value guide and a tool for civil interaction between people and the state, acts as a provider of sustainable development of the state, society's subjects and individuals.

In the socio-political life of Azerbaijan, until the 1990s, the priority of the human rights institution in relation to the state institutions was not seen. Only after the collapse of the USSR and the declaration of independence, Azerbaijan declared the observance of human rights as the main priority of the state, and democratic state building began to be implemented.

However, at that time there were many serious problems in the implementation of high humanistic ideas. After the National Leader Heydar Aliyev returned to political power at the insistence of the people of Azerbaijan, the first Constitution of the Republic of Azerbaijan was adopted, the system of institutional mechanisms for the implementation of democratic and legal reforms and the effective provision of human rights began to be rebuilt, and a number of laws and State Programs were adopted.

Effective cooperation was formed with international organizations for the purpose of ensuring human rights and freedoms, and today Azerbaijan has become an active participant in the Sustainable Development Goals (SDGs) document unanimously adopted by the member states of the United Nations.

*Şəlalə QULUZADƏ*

Azərbaycan Respublikası Ədliyyə Nazirliyi
Ədliyyə Akademiyasının Cinayət və Cəza-icra hüququ,
kriminologiya kafedrasının baş müəllimi

# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN RESPUBLİKASINDA KONSTİTUSİONALİZM QURUCULUĞU

***Açar sözlər:*** *Heydər Əliyev, konstitusionalizm, konstitusiya, dünyəvilik, insan hüquq və azadlıqları.*

***Ключевые слова:*** *Гейдар Алиев, конституционализм, конституция, светскость, права и свободы человека.*

***Keywords:*** *Heydar Aliyev, constitutionalism, constitution, secularism, human rights and freedoms.*

20-ci əsrin sonlarında Cənubi Avropa, Latın Amerikası, Şərqi Avropa və keçmiş Sovet İttifaqını əhatə edən demokratikləşmə dalğasının başlaması və yüksəlişindən sonra sözügedən bölgələrdə meydana çıxan konstitusiyayaratma və konstitusionalizm quruculuğu fəaliyyəti, mövcud konstitusiya təsisatlarının və modellərinin sınaqdan keçirilməsi və bu ölkələrin fərqli sosial, iqtisadi xüsusiyyətləri və siyasi şərtlərə uyğun olaraq yenidən şərh edilməsi və hətta bu ölkələrdə yaşanan hərtərəfli dəyişiklik/transformasiya prosesindən irəli gələn ehtiyaclara cavab olaraq yeni institut və modellərin işlənib hazırlanmasından ibarət oldu. Bu məqalədə konstitusioanalizm doktrinasının anlayaşı, onun bir sıra xüsusiyyətləri və Konstitusiya hüququ baxımından çox maraqlı tənzimləmələri və konstitusionalizm elementlərini ehtiva edən və Ulu öndər Heydər Əliyevin böyük səyləri nəticəsində qəbul olunan 1995-ci il Azərbaycan Konstitusiyası müzakirə olunacaq. Əvvəla, qeyd etmək istərdim ki, bu məqalə bütün ölçüləri ilə Azərbaycanın konstitusiya quruluşunu əhatə etmək iddiasında deyil.

Konstitusionalizm, hökumətin səlahiyyətinin bir sıra fundamental qanunlardan qaynaqlandığı və bu qanunlarla məhdudlaşdığı prinsipini işləyib hazırlayan ideyaların, münasibətlərin və davranış nümunələrinin məcmusudur. Daha dəqiq ifadə etsək, dövlət orqanlarının səlahiyyətlərini məhdudlaşdıran və insan və vətəndaş hüquq və azadlıqlarını dövlət qarşısında qorumaq məqsədilə adi qanunlardan üstün və onlardan daha mürəkkəb mexanizmə malik olan üsullarla dəyişdirə bilən və adına "konstitusiya" deyilən sərt bir ali qanunun qəbul edilməsini şərtləndirən düşüncəyə və axıma konstitusionalizm deyilir. Barnettə görə, konstitusionalizm hakimiyyətin məhdudlaşdırılması (məhdud hökumət), səlahiyyətlərin bölünməsi (nəzarət və tarazlıq) və məsuliyyətli və hesabatlı hökuməti əhatə edir. Henkin əsas xüsusiyyətlər kimi xalqın suverenliyini, qanunun aliliyini, məhdud hökuməti, hakimiyyət bölgüsü (nəzarət və balans), orduya mülki nəzarət, qanunla idarə olunan polis və məhkəmə nəzarəti, müstəqil məhkəmə sistemi, fərdi hüquqlara hörmət və öz müqəddəratını təyinetmə hüququnu müəyyən edir. [7]

Konstitusionalizm ideyası müasir demokratik dövlətlərin intellektual əsaslarından biridir. Dövlət hakimiyyətini məhdudlaşdırmaqla insan hüquqlarını qorumaq isə konstitusionalizmin əsas məqsədidir. Konstitusionalizm, tez-tez Con Lokkun və Amerika Respublikasının qurucularının siyasi nəzəriyyələri ilə əlaqəli olan bir fikirdir ki, yuxarıda da qeyd etdiyimiz kimi hökumət öz səlahiyyətlərində qanuni olaraq məhdudlaşdırıla bilər və olmalıdır və onun səlahiyyəti və ya qanuniliyi bu məhdudiyyətlərə riayət etməsindən asılıdır. Alimlər konstitusionalizmdən danışarkən, onlar təkcə qanunvericilik, icra və məhkəmə səlahiyyətlərini yaradan normaların mövcudluğunu deyil, həm də bu normaların həmin səlahiyyətlərə ciddi məhdudiyyətlər qoymasını nəzərdə tutur. [6] Ona görə də konstitusionalizmin elə mahiyyəti hakimiyyət orqanlarinin səlahiyyətini məhdudlaşdirmala insan hüquqlarını qorumaq və buna nail olmaqdır. Bunun həm də dövlətin gücünü məhdudlaşdırmaq olduğunu söyləmək yerinə düşərdi. Konstitusionalizm hər bir dövlətdə hüquqi nizam prinsiplərini tətbiq etmək üçün vacib mexanizmlər sistemidir. Bu anlayış, ilk növbədə, dövlət anlayışı ilə bağlıdır. Çünki məhz dövlət cəmiyyətin inkişafı və onun fərdlərinin hüquq və azadlıqlarının qorunmasına xidmət edir. Bunun üçün dövlətə vahid hüquqi mexanizmlər tələb olunur. Bunu da konstitusiya hüququ təmin edə bilər. Onu da qeyd etmek istərdim ki, dünyada konstitusionalizmin vətəni İngiltərə sayılır, orada ilk konstitusiya aktı Azadlıqların Böyük Toplusu (Magna Carta 1215-ci il) olmuşdur. İlk yazılı konstitusiya isə ABŞ Konstitusiyasıdır ki, çoxlu dəyişikliklərlə bu gün də qüvvədədir.

Azərbaycanda konstitusionalizmin nəzəriyyə və praktikasının öyrənilməsi dövlətçilik prinsiplərinin tətbiqi, demokratik cəmiyyət quruculuğunun inkişaf etdirilməsi baxımından böyük əhəmiyyətə malikdir. Əlbəttə, Azərbaycanda konstitusionalizm təcrübəsi mövcud olmuşdur. Buna bariz nümunə 1918-ci ildə yaradılan Azərbaycan Xalq Cümhuriyyətinin bir sıra qanunların və xüsusilə də İstiqlaliyyət Bəyannaməsi idi. Belə ki, Milli Şuranın 1918-ci il mayın 28-də qəbul etdiyi Azərbaycan Xalq Cümhuriyyətinin İstiqlaliyyət Bəyannaməsi öz aktuallığını saxlayan ali idealları təcəssüm etdirdi və müstəqil Azərbaycanın konstitusiya hüququnun davamlılığının əsasını qoydu. 1918- ci ildə dövlətin aşağıdakı əsas prinsipləri yaradıldı:

Azərbaycanın siyasi quruluş forması kimi Xalq Cümhuriyyəti; Azərbaycan Xalq Cümhuriyyətinin ( bundan sonra AXC ) hamı ilə, xüsusən də qonşu dövlətlərlə mehriban qonşuluq və dostluq münasibətləri qurmaq niyyətinin bəyan edilməsi; milli mənşəyindən, dini etiqadından, sosial vəziyyətindən və cinsindən asılı olmayaraq bütün vətəndaşların mülki və siyasi hüquqlarının təmin edilməsi; AXC -də yaşayan bütün xalqların azad inkişafı üçün imkanların təmin edilməsinə təminat verilməsi və.s.

Azərbaycan dövlətçiliyi tarixində mühüm bir qanun olan, ilk vətəndaşlıq qanunu 1919-cu il avqustun 11-də AXC Parlamentində qəbul edildi. Bunun qanunun 1-ci maddəsində qeyd olunurdu ki, keçmiş Rusiya dövlətinin bütün subyektləri üçün onların milliyyətindən, dinindən və dövlətindən asılı olmayaraq Azərbaycanda doğulmuş müəyyən edilsin. Eyni zamanda Azərbaycanda anadan olmayan şəxslər ADR-in qadın vətəndaşı tərəfindən doğulduğu zaman vətəndaşlıq hüququ əldə etməsi, ADR-də xüsusi xidmətlər göstərmiş və ya istedad və biliyi, elmi biliyi və s. ilə tanınan əcnəbilər AXC-də məskunlaşaraq vətəndaşlıq üçün müraciət etdikdə vətəndaşlıq əldə etməsi kimi mühüm normalar müəyyən edilmişdi.

Con Hopkins Universitetinin Orta Asiya və Qafqaz İnstitutunun tədqiqat direktoru Svante Kornell Azərbaycan Respublikasının İslam dünyasında Türkiyə Cümhuriyyətindən 5 il qabaqda qurulan ilk respublika olduğunu vurğulayıb. “Bu fakt təkcə tarixi əhəmiyyət kəsb etmir: yeni idarəetmə forması Azərbaycan elitası ilə hələ dünyəviliyi qəbul etməyən və fak-

tiki olaraq qanuniliyi dinə əsaslanan bir sultanlığın nümayəndələri olan Osmanlı hökuməti arasında fərqlər yaratdı.[2] Məlumdur ki, Azərbaycan Xalq Cümhuriyyəti 1920-ci ilin 28 aprelində beynəlxalq hüquq normalarını kobudcasına pozan RSFSR-ın hərbi müdaxiləsi nəticəsində aradan qaldırıldı. Şimali Azərbaycanda sovet sosialist respublikası yaradıldı. Bununla da cəmi 23 ay yaşayan Azərbaycan Xalq Cümhuriyyəti bütün sahələrdə olduğu kimi konstitusiyanın qəbul edilməsi və konstitutalizm sisteminin möhkəmləndirilməsi istiqamətində görüləcək olan bütün tədbirlər yarımçıq qaldı və AXC qarşıdakı məqsədlərinə çata bilmədi.

Məlumdur ki, sosializm sisteminə aid olan ölkələrdə olduğu kimi, bu rejimin bərqərar olduğu Azərbaycanda da fərdin qanunlara deyil, daha çox dövlətin siyasi iradəsinə tabeçiliyini ehtiva edən konstitusiyalar qəbul edildi ki, bu konstitusiyaların normaları ilə bəyan edilən insan hüquq və azadlıqlarının formal xarakter daşıyırdı və onların reallıqdan uzaq olması isə müasir konstitusionalizmin tələblərinə cavab vermirdi. [3]

Qeyd etmək istərdim ki, Konstitusionalizmin siyasi-hüquqi mahiyyəti birbaşa konstitusiya münasibətlərinin sabit inkişafı ilə bağlı olaraq qanunçuluq rejiminin sabitliyi, insan hüquqlarının və azadlıqlarının aliliyi, hakimiyyətin bölünməsi, vətəndaşları qarşısında dövlətin məsuliyyəti, konstitusiya nəzarətinin həyata keçirilməsi mexanizminin müəyyən edilməsi və sair prinsiplərlə xarakterizə olunur. Bu prinsiplərin hər biri konstitusiyanın inkişafına zəmin yaradır. Bu baxımdan hüquqi dövlətin inkişafında konstitusionalizmin yeri və rolu aydınlaşdırılarkən bir dövlətdə konstitusiyanın nə qədər mühüm olduğu xüsusi vurğulanmalıdır.

Azərbaycanımızın tarixi çox önəmli hadisələrlə zəngindir, lakin mənə elə gəlir ki , bu hadisələrin içərisində Heydər Əliyevin hakimiyyətə gəlməsi mühüm yer tutur. Peşəkar siyasətçi kimi Heydər Əliyev hakimiyyətə gəldiyi ilk günlərdən dövlətin əsas qanununun işlənib hazırlanması haqqında düşünürdü. Suveren və müstəqil Azərbaycan dövlətinin ilk milli Konstitusiyasının qəbul edilməsi sahəsində və bu yolda ilk öncə atılan mühüm addımlardan biri Milli Məclisin Azərbaycan Respublikasının milli Konstitusiyası layihəsinin hazırlanması haqqında 1993-cü il 6 dekabr tarixli qərarı oldu. Lakin həmin qərar əsasında yaradılan Müvəqqəti Komissiya bu işi görə bilmədi. Çünki Azərbaycanın tarixində, çətin, ağır günlər yaşanılırdı. Azərbaycan-Ermənistan, Dağlıq Qarabağ münaqişəsi eskalasiyası genişlənir, dövlət daxili iqtidsar – müxalifət qarşıdurmaları yaşanılır, sosial problemlərin sayı artır, bütün bunların həlli yolları isə tapılmırdı. Bu çətin vəziyyətdə xalqın çıxış yolu yalnız Heydər Əliyevin müdrik siyasəti ola bilərdi. Heydər Əliyev ikinci dəfə hakimiyyətə gəldiyi dövrdə cəbhə bölgəsində atəşkəsə nail olması görüləcək ən vacib iş idi. Çünki, həm daxildə və həm də sərhəddə olan sabitlik, Heydər Əliyevin ölkənin iqtisadi və siyasi cəhətdən güclənməsi yolunda görüləcək işləri üçün əhəmiyyətli bir addım idi. Bu isə öz növbəsində müstəqilliyin qorunmasına və konstitusiya münasibətlərinin bərqərar olmasına zəmin yaratdı. Belə ki, Heydər Əliyevin müdrik siyasətinin və hüquqi dünyagörüşünün nəticəsi olan 1995-ci ildə qəbul olunmuş Azərbaycan Respublikasının Konstitusiyasında konstitusionalizmin ilkin ideyaları öz əksini tapmışdır: insan hüquq və azadlıqlarının üstünlüyü, siyasi plüralizm, hakimiyyət bölgüsü, konstitusiya nəzarət institutu və sair. Müstəqil Azərbaycan Respublikasının Konstitusiyası xalqımızın böyük oğlu, dahi rəhbər Heydər Əliyev zəkasının xalqımıza daha bir layiqli mirası və hədiyyəsidir.

5 bölmə, 12 fəsil, 158 maddədən ibarət olan Azərbaycan Respublikasının Konstitusiyasının 48 maddəsi və yaxud üçdəbiri sırf insan hüquq və azadlıqları ilə bağlıdır. Bu mənada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin də qeyd etdiyi kimi, “Keçən illər ərzində Konstitusiya humanist, dinamik və realist bir sənəd olduğunu sübut

etmişdir".

Azərbaycan Konstitusiyası formal olaraq qiymətləndirildikdə ilk diqqət çəkən cəhət onun çərçivə konstitusiya deyil, kazuistik üsulla hazırlanmış uzun konstitusiya olmasıdır. Əslində, digər post-kommunist konstitusiyaların maddələrinin sayı ilə müqayisədə maddələrin sayının çox da böyük olmadığını söyləmək olar, ancaq bu məsələ ilə bağlı yalnız maddələrin sayına baxmaqla qərar vermək düzgün olmazdı. 1995- ci il Konstitusiyası diqqətlə oxunduqda orada bir çox məsələlərin təfərrüatı ilə tənzimləndiyi və az qala hər maddədə ən azı iki-üç bəndin yer aldığı görünür. Belə tənzimləmənin məqsədi bir çox məsələləri açıq şəkildə tənzimləməklə, məhz dövlət hakimiyyəti orqanlarının öz səlahiyyətlərindən sui-istifadənin qarşısını almaq ola bilər. Xüsusilə sovet dönəmində yaşanan acı təcrübələrin bu baxımdan həlledici olduğunu düşünmək olar. Ancaq hesab oluna bilər ki, bəzi maddələrdəki tənzimləmələrin Konstitusiyadan çox qanunlara salınması daha məqsədəuyğun olardı. Məsələn, konstitusiyanın "Azərbaycan Respublikası Milli Məclisinin sessiyaları"adlanan 88-ci maddəsindəki normalar,daha yaxşı olardi ki, Milli Məclisin nizamnaməsinə daxil edilsin.

Azərbaycan Respublikasının 1995-ci ildə qəbul olunmuş Konstitusiyasında konstitusionalizmin ilkin ideyaları öz əksini tapmışdır: insan hüquq və azadlıqlarının üstünlüyü, siyasi plüralizm, hakimiyyət bölgüsü, güclü sosial yönümlü dünyəvi demokratik dövlətin yaradılması ideyası, konstitusiya nəzarət institutu və sair. Biz bu ideyaları özündə əks etdirən normaların bariz nümunəsini Azərbaycan Rerspublikası Konstitusiyasının elə Preambulasıda görə bilərik: Azərbaycan xalqı özünün çoxəsrlik dövlətçilik ənənələrini davam etdirərək, "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktında əks olunan prinsipləri əsas götürərək, bütün cəmiyyətin və hər kəsin firavanlığının təmin edilməsini arzulayaraq, ədalətin, azadlığın və təhlükəsizliyin bərqərar edilməsini istəyərək, keçmiş, indiki və gələcək nəsillər qarşısında öz məsuliyyətini anlayaraq, suveren hüququndan istifadə edərək, təntənəli surətdə aşağıdakı niyyətlərini bəyan edir:

– Azərbaycan dövlətinin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq;
– Konstitusiya çərçivəsində demokratik quruluşa təminat vermək;
– vətəndaş cəmiyyətinin bərqərar edilməsinə nail olmaq;
– xalqın iradəsinin ifadəsi kimi qanunların aliliyini təmin edən hüquqi, dünyəvi dövlət qurmaq;
– ədalətli iqtisadi və sosial qaydalara uyğun olaraq hamının layiqli həyat səviyyəsini təmin etmək;
– ümumbəşəri dəyərlərə sadiq olaraq bütün dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamaq və bu məqsədlə qarşılıqlı fəaliyyət göstərmək. [1]

Mən xüsusilə, 1995- cil konstitusiyasının hakimiyyət bölgüsünə əsaslanan (11, 12, 13, 15, 28-ci maddələr), güclü sosial yönümlü dünyəvi demokratik dövlətin yaradılması (17, 25-ci maddələr ) müddəalarını vurğulamaq istərdim.Artıq yuxarıda da qeyd edildiyi kimi , konstitusionalizm sisteminin əsas və onun məhz mahiyyətini ehtiva edən prinsipləri içərsində hakimiyyət bölgüsü məsələsi çox vacib hesab olunur. Eyni zamanda dövlət idarəçiliyinin dünyəvi xarakter daşıması məsələsi də mühüm amildir. Belə ki, konstitusiyada dünyəvi, demokratik dövlətin yaradılması ideyası onun bir neçə maddəsində əks olunması çox mühüm məqamdır. Aydındır ki, dini hakimiyyətin mövcud olduğu dövlətlərdə insan hüquq və azadlıqlarının demokratik formada və tam şəkildə təminatından söhbət gedə bilməz. Bu da əlbəttə ki, konstitusionalizm doktrinasının mahiyyətinə ziddir. Dünyəvi xarakterin qorunub saxlanmasının hüquqi təminatları Konstitusiyanın digər maddələrində də təsbit edilmişdir. Britaniyalı politoloq Con Madeley Şərqi Avropada və keçmiş Sovet

İttifaqında din-dövlət münasibətlərini təhlil edərək qeyd edir ki," ABŞ və bu kimi beynəlxalq təşkilatların tövsiyələrinə baxmayaraq, onlardan bir neçəsi (Azərbaycan) separatçı modelə üstünlük verməyib. Bu gün Azərbaycan Cənubi Qafqazda dövlətin istənilən dinə neytral münasibətinin ən ardıcıl şəkildə həyata keçirildiyi yeganə ölkədir" .[2]

Hazırda Türkiyə Respublikası ilə bir sırada duran Azərbaycandan başqa bütün İslam dövlətlərində, Pakistandan İndoneziyaya qədər ərazidə və ərəb ölkələrinin heç birində belə bir tolerant və dünyəvi bir ölkə mövcud deyil. [4]

İnsan hüquqlarının və azadlıqlarının demokratik dəyərlərə uyğun təmin edilməsi də konstitusionalizm sisteminin mahiyyətindən irəli gəlir. Demokratik, hüquqi dövlət qurmaq, vətəndaş cəmiyyətini formalaşdırmaq insan hüquqları və bu hüquqların təmin edilməsi amili nəzərə alınmadan mümkün deyil. Ulu Öndər məhz bunu əsas tutaraq, dövlətimizi, özünü bütün vətəndaşların hüquq və azadlıqlarının təminatçısı kimi təqdim etməklə yanaşı həm də vətəndaşları hüquqlarını tanımağa və bu hüquqları qorunmağa ruhlandırırdı: "mən Azərbaycanın Prezidenti kimi ölkənin bütün vətəndaşlarının hüquq və azadlıqlarının təminatçısıyam. Əgər hər hansı ölkənin xalqları öz hüquqlarını anlayır və onları qoruya bilirsə, o zaman ən kiçik dövlət belə ən böyük məmləkət qədər gücü olur". Bu qeyd edilənləri də nəzərə almaqla xalqın iradəsi ilə qurulan Azərbaycan dövlətinin başlıca məqsədi məhz xalqın milli maraqlarını qorumaqdan, vətəndaşlarının hüquq və azadlıqlarını təmin etməkdən ibarətdir. Bu mühüm məqsəd konstitusiyamızın Dövlətin ali məqsədi adlanan 12 maddəsində aşağıdakı şəkildə ifadə edilmişdir:

I. İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının, Azərbaycan Respublikasının vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsi dövlətin ali məqsədidir.

II. Bu Konstitusiyada sadalanan insan və vətəndaş hüquqları və azadlıqları Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun tətbiq edilir. [1]

İnsan hüquqlarının üstünlüyünə verilən hüquqi qiyməti konstitusiyanın strukturunu ifadə edən daxili ünsürlərinin (bölmələrinin, fəsillərinin) yerləşmə ardıcıllığında da müşahidə etmək olar. Konstitusiyanın əsaslarını müəyyən edən bölmədən sonra birinci və böyük bölmə insan hüquqlarına və vəzifələrinə aiddir.

Beləliklə, Konstitusiyanın ikinci bölməsinin III. Fəsli konstitusiyanın ən böyük fəsli olmaqla burada liberal-demokratik rejimlərin konstitusiyalarında və beynəlxalq əsas insan hüquqları sənədlərində əksini tapan demək olar ki, bütün hüquq və azadlıqlar var: yaşamaq hüququ (maddə 27), şəxsi təhlükəsizlik (maddə 31), mülkiyyət hüququ (maddə. 29), ev toxunulmazlığı hüququ (maddə 32), seçmək və seçilmək hüququ (maddə 56), din və vicdan azadlığı (maddə 48), fikir azadlığı (maddə 47), toplaşmaq (maddə 49), məlumat almaq azadlığı (mad. 50), birləşmək azadlığı (mad. 58) və s. Bundan əlavə, III. Fəsldə sosial və iqtisadi hüquqların zəngin kataloqu var: əmək hüququ (maddə 35), tətil hüququ (mad. 36), istirahət hüququ (mad. 37), sosial təminat hüququ (maddə 35). Maddə 38), sağlamlıq təminatından istifadə hüququ (maddə 41), təhsil hüququ (maddə 42) və mənzil hüququ (maddə 43) və s.

Bundan başqa, Azərbaycan Konstitusiyası, əqli hüquqları və həmçinin mədəni həyatda iştirak hüququ (maddə 40) və ətraf mühit hüququ (maddə 39) kimi üçüncü nəsil hüquqları da əhatə edir.

III. Fəslin əvvəlində üç maddə (maddə 24, 25 və 26) və sonunda bir maddə (maddə 71) əsas hüquq və azadlıqların ümumi rejimini tənzimləyir. Bu bölmənin əvvəlindəki maddəyə əsasən, hər kəsin təbii toxunulmaz, ayrılmaz və ayrılmaz hüquq və azadlıqları vardır (maddə 24/1). Bu maddə ilə Konstitusiya sanki liberal demokratik insan hüquqları anlayışının

təməlində duran “təbii hüquqlar” anlayışını qəbul etmişdir. Konstitusiyanın 25-ci maddəsi əsas hüquq və azadlıqların həyata keçirilməsi üçün böyük əhəmiyyət kəsb edən “qanun qarşısında bərabərlik” prinsipini tənzimləyir. Bu prinsipə uyğun olaraq, Azərbaycan Konstitusiyasında tənzimləndiyi kimi, hər kəs qanun və məhkəmə qarşısında bərabərdir; kişi və qadın bərabər hüquq və azadlıqlara malikdirlər (maddə 25/1, II).

Məlumdur ki, konstitusiyalar həm yazılı , həm də şifahi formada ola bilər. Konstitusionalizm və konstitusiyaların formasından danışarkən bəzi alimlər hesab edirlər ki, konstitusiya normaları hər hansı bir şəkildə yazılı sənəddə təsbit edilmədikcə mövcud deyildir (məsələn, Rubenfeld 1998). Lakin əksəriyyət, konstitusiyaların (və ya onların elementlərinin) yazılmamış ola biləcəyini qəbul edir və bu ehtimalın bariz nümunəsi kimi Birləşmiş Krallığın konstitusiyasını göstərir. Böyük Britaniyanın konstitusiyası tarixən əsasən yazılmamış forma almışdır və bu, yazılılığın konstitusionalizmin müəyyənedici xüsusiyyəti olmadığını qəti şəkildə göstərir.Deməli, bir konstitusiyanın yazılı və ya şifahi olması, onun konstitusionalizm meyarlarına təsir etmir.

Konstitusiyamızın normativ-hüquqi xüsusiyyəti barədə də ayrıca qeyd etmək istərdim. Artıq qeyd etdiyimiz kimi , Azərbaycan Respublikasının Konstitusiyası yazılı sənəd kimi hüquqi funksiyalara malikdir və bütövlükdə hüquq sisteminə, qanun yaradıcılığı prosesinə çox ciddi təsir göstərir. Digər tərəfdən, konstitusiya birbaşa hüquqi qüvvəyə malikdir (Konstitusiyanın 147-ci maddəsi). Ulu öndər Heydər Əliyev sədrlik etdiyi Konstitusiya Komissiyasının üzvlərinə belə tövsiyə edirdi: "Azərbaycanın Konstitusiyasında ümumbəşəri dəyərlər, müasir demokratik dövlətlərin konstitusiyalarında olan müddəalar öz əksini tapmalıdır". Beləliklə, biz universal bir sənəd əldə edə bildik. Konstitusiyamızda olan ali dəyərlərin qorunması və bu dəyərlərin cəmiyyətimizin demokratik yolla inkişafına xidmət etməsi perspektivi açıldı.

Hər nə qədər sabitlik amilinin konstitusiya üçün mühüm əlamət olmasından və məhz sabitlik xüsusiyyətinə görə digər normativ – hüquqi aktlardan fərqləndiyini bilsək də, bununla belə Konstitusiya hüququ sahəsində tanınmış alimlər hesab edirlər ki, inkişaf edən cəmiyyətdə bütün zamanlar və xalqlar üçün daimi və dəyişməz konstitusiya ola bilməz. Bu, doğrudan da konstitusiya daima təkmilləşən mexanizm olmalıdır. Bu gün Azərbaycan Respublikası dünya dövlətləri sistemində yer tutaraq inkişaf etməkdədir. Dünyada baş verən mədəni, sosial və iqtisadi inkişaf, siyasi institutların demokratik təbiəti bizim ölkəmizdən yan keçə bilməz. Məhz belə təsirlər nəticəsində inkişafa məruz qalmış mövcud ictimai münasibətlərin konstitusiya normaları ilə təsbit olunması zərurəti meydana çıxır. Bu səbəbdən də konstitusiyaya əlavələr və dəyişikliklərin edilməsi artıq hüquqi tələbata çevrilir. Bu baxımdan Azərbaycan Respublikasının ilk milli Konstitusiyası qəbul olunduqdan bir müddət sonra ona dəyişiklik və əlavələrin edilməsi zərurəti meydana çıxmışdır. Bununla bağlı 2002-ci il avqustun 24-də , 2009-cu il martın 18-də və 2016-cı il sentyabrın 26-da ümumxalq səsverməsi (referendum) keçirilmişdir. [3]

Konstitusiyaya edilən əlavə və dəyişikliklərin əksəriyyəti insan hüquq və azadlıqlarının təminatı ilə bağlı idi. Onların ən əhəmiyyətlisindən biri pozulmuş insan hüquq və azadlıqlarının bərpa edilməsi məqsədi ilə vətəndaşlara Konstitusiya Məhkəməsinə müraciət etmək hüququnun verilməsi idi. Konstitusiyaya edilən əlavələr və dəyişikliklər onunla eyni hüquqi qüvvəyə malik olan konstitusiya qanunları ilə tamamlanır. Konstitusiyanın 156-cı maddəsinə uyğun olaraq konstitusiya qanunları konstitusiyanın ayrılmaz hissəsidir.

Azərbaycan Respublikası Konstitusiyasının 15-ci maddəsinin II hissəsinə və 12-ci maddəsinin I hissəsinə edilən əlavələr birbaşa qeyd olunmasa da, Azərbaycan dövlətinin sosial dövlət xüsusiyyətini ifadə edir. İqtisadiyyatın sosial yönümlü inkişafı vətəndaşlarının

layiqli həyat səviyyəsini təmin etmək məqsədini güdən dövlətin sosial siyasətinin əsasını təşkil edir və onun üzərinə öhdəliklər qoyur. Azərbaycan Respublikası Konstitusiyasının 17-ci maddəsinə uşaq hüquqlarının qorunması ilə əlaqədar yeni normaların əlavə edilməsi, valideyn qayğısından məhrum olan uşaqların dövlət himayəsi altına götürülməsi dövlətimizin humanist mahiyyətini və sosial xarakterini bir daha təsdiq etmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının maddi normaları yüksək ümumbəşəri dəyərləri özündə cəmləşdirir. Onların məhdudlaşdırılması hətta konstitusiya proseduru baxımından çox mürəkkəbdir. Məsələn, Konstitusiyanın 155-ci maddəsində göstərilir: bu konstitusiyanın 1-ci, 2-ci, 6-cı, 7-ci, 8-ci və 21-ci maddələrində dəyişikliklər və ya onların ləğv edilməsi haqqında, III fəslində nəzərdə tutulmuş insan və vətəndaş hüquqları və azadlıqlarının ləğvi və ya Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə nəzərdə tutulduğundan daha artıq dərəcədə məhdudlaşdırılması haqqında təkliflər referenduma çıxarıla bilməz.

Respublikamızda konstitusionalizm quruculuğu işində növbəti mərhələ isə Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinin yaradılması olmuşdur. Belə ki, Azərbaycan Respublikası Konstitusiyasının aliliyini təmin etmək, hər kəsin əsas hüquq və azadlıqlarını müdafiə etmək məqsədilə 1998-ci il iyulun 14-də Azərbaycan Prezidenti Heydər Əliyevin Fərmanı ilə Azərbaycanın Konstitusiya Məhkəməsi yaradılmışdır. Ulu Öndər deyirdi: "Konstitusiya ədalət mühakiməsi hakimiyyət sisteminin demokratikləşdirilməsi, insan hüquqlarının müdafiəsi və hüququn aliliyinin təmin edilməsinin aparıcı mexanizmlərindən biri kimi qəbul edilir".

Konstitusiya Məhkəməsi fəaliyyətə başladığı dövrdən demokratik dövlət quruculuğu işində böyük rol oynamışdır. Konstitusiya Məhkəməsinə şikayətlə müraciət etmək hüququnun Əsas Qanunda təsbit edilməsi demokratik, hüquqi dövlətin formalaşdırılması prosesində və məhkəmə-hüquq islahatlarının həyata keçirilməsində olduqca mühüm rol oynamaqla, şəxslərin Konstitusiya Məhkəməsinə şikayət vermək hüququna malik olmaları onların hüquq və azadlıqlarının müdafiəsi baxımından əhəmiyyətli vasitənin əldə edilməsi deməkdir. [5]

Konstitusiya Məhkəməsi hazırkı fəaliyyətində beynəlxalq təcrübəyə böyük diqqət yetirir, beynəlxalq hüququn müddəalarına, eləcə də İnsan Hüquqlarının və Əsas Azadlıqların Müdafiəsi Haqqında Avropa Konvensiyası və Avropa İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedent hüququna istinadlar edir. Konstitusiya Məhkəməsi xarici ölkələrin konstitusiya nəzarəti orqanları ilə, o cümlədən Avropa Şurası, Almaniya Texniki Əməkdaşlıq Cəmiyyəti (GİZ) və başqa beynəlxalq təşkilatlarla sıx əlaqələr qurmuşdur.

Ulu Öndər Heydər Əliyevin müdrik siyasətinin nəticəsi olan konstitusiyanın, konstituionalizm quruculuğunun mahiyyətini təhlil edərkən, belə nəticəyə gəlmək olar ki, müasir dövrdə qanunçuluq və konstitusionalizm prinsiplərinə söykənən demokratiyanın alternativi yoxdur. Hər kəs Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına əməl etməli, başqa şəxslərin hüquq və azadlıqlarına hörmət yanaşmalı , qanunların müəyyən etdiyi digər vəzifələri yerinə yetirməlidir. Necə ki, Ulu öndər bizə heç bir halda və heç bir zamanda doğru və düz yoldan dönməməyimizi tövsiyə edirdi: “hər bir şəxs Konstitusiyaya və qanunlara dönmədən əməl etməli, ondan irəli gələn dövlət və cəmiyyət qarşısında vəzifələrini layiqincə yerinə yetirməli, ölkəmizdə gedən demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesində yaxından iştirak etməlidir”.

**İstifadə olunmuş ədəbiyyat siyahısı**


1.Azərbaycan Respublikasının Konstitusiyası (12 noyabr 1995- ci il)

2. Shahin M.Aliyev. A Grammar of Constitutionalism.Part I: Enchanment of Plato, or The Ghost of Universality, “ Whitelocke publications”,UK, 2017.

3. Məqalə. Ziyafət Əsgərov. Demokratik Konstitusiyanın müəllifi

Azərbaycan.- 2010.- 6 may.- S. 2.

4. Ənvər Seyidov. Heydər Əliyev və Azərbaycan Respublikasının Konstitusiyası, Uniprint, Bakı, 2009.

5. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayevin müsahibəsi; https://redaktor.az/news/interview/173618-ferhad-abdullayev-vicdanli-hakim-olmaq-gerekdir

6. https://plato.stanford.edu/entries/constitutionalism/ .

Constitutionalism. First published Wed Jan 10, 2001; substantive revision Thu Jun 9, 2022

7. MIZAN LAW REVIEW Vol. 3 No.2, September 2009. Maru Bazezew.Constitution-alizm


## X Ü L A S Ə


Məqalədə konstitusionalizm doktrinasının mahiyyəti və məqsədləri barədə yazılmışdır. Burada qeyd olunur ki, konstitusionalizm, dövlət hakimiyyətinin xalqdan qaynaqlandığı və hökumətin səlahiyyətlərinin konstitusiya ilə məhdudlaşdırılmalı olduğu fikrinə əsaslanan siyasi fəlsəfədir. Eyni zamanda Ulu Öndər Heydər Əliyevin müdrik siyasətinin və hüquqi dünyagörüşünün nəticəsi olan 1995-ci ildə qəbul olunmuş Azərbaycan Respublikasının Konstitusiyasında konstitusionalizmin ilkin ideyalarıni özündə əks etdirən normal araşdırılmışdı.

Qeyd olunmuşdur ki, konstitusionalizm prinsiplərinə hakimiyyət səlahiyyətlərinin bölünməsi, məsul və hesabatlı hökumət, xalq suverenliyi, müstəqil məhkəmə sistemi, fərdi hüquqlar və qanunun aliliyi daxildir.



**Гулузаде Шалала**
**Старший преподаватель кафедры уголовного и**
**уголовно-исполнительного права, криминологии**
**Академии Юстиции Министерства**
**Юстиции Азербайджанской Республики**


## Гейдар Алиев и строительство конституционализма в Азербайджанской Республике

## Р Е З Ю М Е


В статье изложены сущность и цели учения о конституционализме. Здесь отмечается, что конституционализм – это политическая философия, основанная на идее о том, что государственная власть исходит от народа и что полномочия правительства

должны быть ограничены конституцией. В то же время принятая в 1995 году Конституция Азербайджанской Республики, являющаяся результатом мудрой политики и правового мировоззрения великого лидера Гейдара Алиева, была рассмотрена таким образом, чтобы отразить первоначальные идеи конституционализма.

Было отмечено, что принципы конституционализма включают разделение властей, ответственное и подотчетное правительство, народный суверенитет, независимую судебную систему, права личности и верховенство права.

**Guluzade Shalala**
**Senior lecturer of the Department of Criminal and Penal Law, Criminology of the Academy of Justice of the Ministry of Justice of the Republic of Azerbaijan**

## Heydar Aliyev and the construction of constitutionalism in the Republic of Azerbaijan

### S U M M A R Y

The article describes the essence and goals of the doctrine of constitutionalism. It is noted here that, constitutionalism is a political philosophy based on the idea that government authority is derived from the people and should be limited by a constitution that clearly expresses what the government can and cannot do. At the same time, the Constitution of the Republic of Azerbaijan, adopted in 1995, which is the result of the wise policy and legal outlook of the great leader Heydar Aliyev, was examined in a way that reflects the initial ideas of constitutionalism.

The principles of Constitutionalism include Separation of Powers, Responsible and Accountable Government, Popular Sovereignty, Independent Judiciary, Individual Rights and Rule of Law are noticed.

***Дурдана МАМЕДОВА***

Заведующая отделом конституционного права
Аппарата Конституционного Суда
Азербайджанской Республики,д.ф.п.п.

# ОБЩЕНАЦИОНАЛЬНЫЙ ЛИДЕР ГЕЙДАР АЛИЕВ И КОНСТИТУЦИЯ АЗЕРБАЙДЖАНА

***Мы должны разработать и принять такую Конституцию, чтобы она стала историческим документом, Основным законом, обеспечивающим на длительный период стабильное существование Азербайджана на основе демократических принципов.***

**Гейдар Алиев**

***Ключевые слова:*** *Гейдар Алиев, Общенациональный Лидер, Конституция, независимость, государственность, законность, права и свободы.*

***Açar sözlər:*** *Heydər Əliyev, Ümummilli Lider, lider, Konstitusiya, müstəqillik, dövlətçilik, qanunçuluq, hüquq və azadlıqlar.*

***Keywords:*** *Heydar Aliyev, National Leader, Constitution, independence, statehood, legality, rights and freedoms.*

Период государственной и политической деятельности общенационального лидера Гейдара Алиева неразрывно связан с новейшей историей Азербайджана, с государственным строительством, проведением реформ и возрождением страны. Его можно назвать периодом «политического и государственного управления Гейдара Алиева» куда относится национальная государственность, социальная справедливость, реформаторство, приверженность к национально духовным и общечеловеческим ценностям.

Гейдар Алиев настолько был близок к народу, что за короткое время стал лидером нации как политический лидер и историческая личность. Гейдар Алиев был связан неразрывными узами с национально-нравственными корнями и национальной идеей и, опираясь именно на данную идеологию и общечеловеческие ценности, смог сплотить вокруг этой идеологии миллионы последователей и единомышленников и повести их за собой. Ему удалось восстановить и укрепить государственные институты власти, стабилизировать политическую ситуацию в стране, провести кардинальные реформы в самых различных сферах, заставить мировое сообщество признать и принять факт агрессии против Азербайджана.

Во времена Общенационального лидера национальная идеология была поднята на уровень государственной политики. Гейдар Алиев отмечал, что можно находиться в оппозиции к власти, ее представителям их деятельности. Но никогда нельзя быть в оппозиции к государству, государственности, национальному единству, идее азербай-

джанства, включающей общие интересы Родины, народа, национально-духовным ценностям, национальным убеждениям, национальному языку, национальной самобытности. Он отмечал, что независимое Азербайджанское государство является для нас самым ценным историческим достижением, его защита, обеспечение его вечности – священный долг каждого азербайджанца.

К середине 1995 года Азербайджанское государство полностью окрепло, в нем утвердилась прочная общественно-политическая стабильность и законность. В Республике назрела потребность в новой национальной Конституции, которая законодательно закрепит суверенитет Азербайджана, провозглашенные права и свободы человека и гражданина.

В принятой на общенародном референдуме в 1995 году Конституции Азербайджана нашли отражение такие идеи Общенационального Лидера как национальная солидарность, служение государства каждому человеку, а каждого человека – своей государственности.

Конституция Азербайджанской Республики 1995 года явилась первой Конституцией независимого Азербайджана.

Первая Конституция Азербайджанской Республики была принята 19 мая 1921 года. В последующем были приняты Конституции Азербайджанской Советской Социалистической Республики 14 марта 1925 и 14 марта 1937 гг. полностью соответствующие Конституциям СССР. Последняя, принятая 21 апреля 1978 года Конституция Азербайджана преследовала ту же цель.

Благодаря принципиальной позиции руководства республики возглавляемого в то время общенациональным лидером Азербайджана Гейдаром Алиевым в Конституцию Азербайджанской Советской Социалистической Республики 1978 года было включено положение, сыгравшие важную роль в сохранении и развитии национального самосознания народа Азербайджана. Гейдар Алиев всегда подчеркивал величие и богатство азербайджанского языка и именно на основании этого фактора в Конституцию Азербайджанской ССР 1978 года была включена статья (73) закрепляющая государственный статус азербайджанского языка. Аналогичное положение отсутствовало в большинстве конституций союзных республик. Конституция 1978 года сохранила юридическую силу и после обретения Азербайджанской Республикой независимости.

Подготовка проекта новой Конституции независимого государства была инициирована Президентом Азербайджанской Республики Гейдаром Алиевым в середине 1994 года. «Мы должны разработать и принять такую Конституцию, чтобы она стала историческим документом, Основным законом, обеспечивающим на длительный период стабильное существование Азербайджана на основе демократических принципов», – заявил Алиев.

Была создана Комиссия по подготовке проекта новой Конституции Азербайджанской Республики. В комиссию под председательством Президента Азербайджанской Республики Гейдара Алиева вошли представители как законодательной, исполнительной, судебной власти так и юридической науки. После опубликования проекта новой Конституции для всенародного обсуждения в Комиссию поступило 2.450 предложений по тексту, которые были изучены и учтены при доработке текста.

Занимая в жизни общества исключительное место, Основной Закон выступает главным политическим и правовым документом общества, закрепляет наиважнейшие стороны политической и социально-экономической системы, организации государства, определяет основные права, свободы и обязанности граждан. Поэтому, принятие базисного политико-правового документа страны является одним из важнейших исторических событий.

Проголосовав за принятие Конституции, народ Азербайджана подтвердил свой однозначный выбор – за свободу, процветание и реальную демократию, определил стратегию поступательного развития нашего государства на долгие годы.

Конституция принятая в ноябре 1995 года будучи основным правовым документом нашей страны, в то же время является одним из достижений демократического, правового и светского государства, которым провозгласил себя Азербайджан. Как потом заметил Гейдар Алиев, «соблюдая статьи этой Конституции, наш народ увековечит независимость Азербайджанской Республики. Наша обязанность – эффективно использовать гарантии, законодательные основы, предоставляемые нам Конституцией, и построить в нашей стране правовое, демократическое государство, обеспечивать защиту прав и свобод граждан».

Как Основной Закон государства и общества Конституция, в отличие от других законодательных актов, имеет учредительный, основополагающий характер. Она регулирует широкую сферу общественных отношений, наиболее важные из них, которые затрагивают коренные интересы всех членов общества, всех граждан. Конституция закрепляет основы общественно-экономического строя государства, его национально-территориальное устройство, основные права, свободы и обязанности человека, и гражданина, организацию и систему государственной власти и управления, устанавливает правопорядок и законность. Поэтому конституционные нормы – основополагающие для деятельности государственных органов, политических партий, общественных организаций, должностных лиц и граждан. Нормы Конституции первичны по отношению ко всем другим правовым нормам.

Конституция Азербайджана выступает прочным фундаментом для полноценного развития правового государства и гражданского общества, и его незыблемость является гарантией стабильности. Однако Конституция – это не просто свод законов.

Основной Закон является символом государства и его народа, и носит исторически прогрессивный характер. В нем отражены все ценности общества, все приоритеты и формы развития. Таким образом, Конституция, являясь высшим законом страны, регламентирует важнейшие политические и правовые отношения в ней и устанавливает основные положения правопорядка.

В Конституции была решена непростая конституционная задача разделения государственной власти на законодательную, исполнительную и судебную ветви. Создан механизм, обеспечивающий, с одной стороны, их тесное сотрудничество, а с другой – взаимное сдерживание, недопущение вмешательства в установленную Конституцией и законами компетенцию друг друга.

В статье 1 Конституции указано, что в Азербайджанской Республике единственным источником государственной власти является народ Азербайджана. Данная норма раскрывает само содержание народовластия как основы конституционного строя, подчеркивая, что единственно и исключительно народ является источником власти.

Это означает, что все конституционные полномочия государственной власти в Азербайджанской Республике исходят от народа через его свободно выражаемую волю.

Это ключевое положение надо понимать таким образом, что все полномочия на осуществление государственной власти (законодательная, исполнительная и судебная власть) институты и должностные лица государства приобретают в той или иной форме в результате свободно выражаемой воли народа. Только она делает власть государства правомерной. Поэтому, по своей сути власть должна быть сильной и слаженной во имя служения интересам народа. Это соответствует мировым тенденциям.

Благодаря новой Конституции в стране были закреплены фундаментальные принципы новой государственности, сформирована единая государственная власть, способная регулировать и направлять общественное развитие. Все это позволило стабилизировать общественно-политическую ситуацию и сосредоточиться на решении важнейших проблем.

С принятием действующего ныне Основного Закона в Азербайджане формируется качественно новое правовое пространство, предусматривающее все условия для самореализации граждан, открывается простор для дальнейшей демократизации общества. Экономическая свобода, идеологическое и политическое многообразие, равенство всех перед законом являются основными приоритетами правового развития Азербайджана. В то же время Конституция объявляет недопустимыми злоупотребления демократическими институтами, запрещая действия, направленные на насильственное изменение конституционного строя, нарушение целостности республики, подрыв безопасности государства, разжигание социальной, расовой, национальной, религиозной, сословной и родовой розни. В этом особенно проявляется охранительная функция Основного Закона, направленная на обеспечение конституционной законности, стабильности и правопорядка в обществе.

Государство регулирует отношения между социальными, национальными и другими общностями на основе принципов равенства перед законом, уважения прав и интересов, отвечает за сохранение историко-культурного наследия, свободное развитие культур всех национальных общностей, проживающих в Азербайджане. Обеспечивается равенство перед законом всех религий и вероисповеданий.

Стержень Конституции Азербайджана– раздел III «Основные права, свободы и обязанности», в котором определены и гарантируются основные права и свободы личности. У нас немало прав: на жизнь, личную свободу, частную жизнь, неприкосновенность жилища, национальную принадлежность, свободу передвижения и места жительства, свободу слова и творчества, труд, здоровую окружающую среду, образование, право на частную собственность, право объединения с единомышленниками, право на мирные собрания и митинги, право участвовать в управлении делами государства, право избирать и быть избранным, на равный доступ к государственной службе и так далее.

По степени защищенности прав и свобод человека и гражданина Конституция нашей страны полностью соответствует высоким международным стандартам, прежде всего – Всеобщей декларации прав человека, принятой ООН в 1948 году, а также подписанному Азербайджаном пакту о гражданских и политических правах.

В новой Конституции четко сформулированы и реально гарантированы конституционные права и свободы граждан. Закрепление в Основном Законе положения о ценности человека, его прав и свобод обусловлено стремлением защитить каждого гражданина.

Быть гражданином Азербайджанской Республики – это не только политико-правовое состояние человека, но и наличие благополучной Родины, гордость за ее достижения и труд на ее благо. Достигнутые страной успехи, мирная и спокойная жизнь, наша уверенность в завтрашнем дне, рост авторитета Азербайджана на международной арене базируются на правовых основах, определенных Конституцией. Благодаря Конституции обеспечивается приоритет Человека во всех сферах жизни общества. Конституция определила высшими ценностями государства не иллюзорные идеологические догмы, а человека, его жизнь, права и свободы. Конституция обеспечила всем равноправие, независимо от национальности, языка, социального происхождения, убеждений, вероисповедания. Конституция – есть основной источник права, содержащий исходные начала всей системы права. Она представляет собой базу для текущего законодательства, определяет его характер.

Конституция 1995 года провозгласила высшей ценностью человека его права и свободы, возложив на государство в качестве основной обязанности признание, соблюдение и защиту прав и свобод, как каждой отдельной личности, так и общества в целом. Действие данного конституционного положения предполагает невозможность лишения человека его основных прав и свобод со стороны государства, что обусловлено естественной неотчуждаемой природой таких прав. Вместе с тем государство в лице своих компетентных органов и должностных лиц может ограничить их действие при наличии законодательно закрепленных условий и оснований такого ограничения и только в соответствии с установленным законом порядком.

Конституция Республики Азербайджан, объявив неприкосновенность естественного права, в том числе жизни чести и совести человека, обязывает государство признавать, соблюдать и защищать права и свободы человека и гражданина. Определены и необходимые для защиты этих прав основные механизмы. К числу институтов, на которые возложена ответственность за их обеспечение и защиту, относятся все ветви государственной власти. Они составляют основу внутригосударственных механизмов защиты прав человека и определяют методы, процедуры и средства, которые действуют в единой системе защиты прав человека и обеспечивают реализацию общепризнанных прав и свобод человека.

Соблюдение и обеспечение основных прав граждан следует признать не только нравственно одобряемым, но и необходимым условием для реализации гражданами своих прав.

Права человека, с точки зрения их статуса представляют собой определенные идеи морального характера и в этом смысле выражают общественное мнение, направленное на достижение идеалов человечества.

Однако реальное их осуществление предполагает обязательное законода-тельное закрепление соответствующих гарантий.

Укрепление механизма защиты прав граждан и охрана их законных интересов – необходимое условие нормального функционирования политической системы, развития государственности. Проблема гарантий реализации и защиты прав и свобод че-

ловека и гражданина всегда являлась основным фактором становления и развития демократического и правового государства.

Одним из важнейших направлений политики нашего государства является обеспечение прав и свобод человека, которые отражены в Уставе ООН, Декларации о правах человека, Международном пакте о гражданских и политических правах и других многосторонних документах, участником которых является Азербайджан. В целях развития и укрепления демократии в нашей стране введен институт уполномоченного по правам человека.

Всеобщая Декларация прав человека устанавливает, что «каждый человек имеет право на эффективное восстановление в правах компетентными национальными судами в случаях нарушения его основных прав, предоставленных ему Конституцией или законом» (ст. 8).

Это положение закреплено в нормативно-правовых актах Азербайджанской Республики. Оно конкретизировано и расширено в том смысле, что под судебной защитой находятся не только основные (конституционные), но и другие права и свободы. Право на судебную защиту принадлежит каждому физическому лицу, в том числе и недееспособному, который может защитить свои права в суде через представителей.

Исходя из характера нарушенных прав, защита может осуществляться в сфере уголовного, административного, гражданского и конституционного судопроизводства. В каждом государстве устанавливается своя модель защиты прав и свобод граждан, в том числе конституционных. Как правило, на любой суд возлагается обязанность защиты конституционных прав и свобод граждан. Исходя из особого характера и природы, роли и значения конституционных (основных) прав и свобод личности в мировой практике наметилась тенденция специальных мер их защиты.

Конституция обладает высшей юридической силой. Верховенство Конституции как Основного Закона проявляется в том, что все законы и иные акты государственных органов издаются на основе и в соответствии с ней. Строгое и точное соблюдение Конституции – это наивысшая норма поведения для всех граждан, всех общественных объединений, всех государственных органов.

Сегодня конституционные права нашли свое закрепление в конкретных нормах законов и прочно вошли в повседневную жизнь людей. Таким образом, Основной Закон заложил основы для дальнейшего совершенствования правовых механизмов защиты прав человека и создал правовой фундамент для становления гражданского общества в Азербайджане.

Со дня принятия Конституции для реализации этих фундаментальных ценностей сделано немало. Развита и постоянно совершенствуется стоящая на страже прав и свобод человека независимая судебная система.

Значительно расширило возможности судебной защиты прав и свобод человека создание в стране Конституционного Суда. Это обусловлено его широкими полномочиями и большими возможностями по обеспечению верховенства Конституции. Успешная реализация данного вида конституционной юрисдикции содействует воспитанию уважения основных прав и свобод человека и гражданина со стороны государства, всех его органов и должностных лиц. Такая защита выступает гарантией равноправных отношений и реального существования взаимных обязательств госу-

дарства и личности, дополнительным средством обеспечения выполнения государством его обязанности по защите прав и свобод граждан и других лиц. Конституционный Суд в нашей стране является высшим органом конституционного правосудия.

Высоко оценил деятельность Конституционного Суда Президент Азербайджанской Республики Ильхам Алиев. "Важную роль в обеспечении верховенства положений Конституции и их эволюции играет Конституционный Суд Азербайджанской Республики".

Практически каждое нормативное постановление Конституционного Суда Республики направлено на охрану конкретных прав и свобод человека и гражданина. В результате деятельности Конституционного Суда конституционные ценности и принципы толкуются в рамках велениях времени, обеспечивается их постоянное развитие.

В Конституции нет абстрактных, отвлеченных от реальной жизни норм. Все закрепленные в нем положения являются действенными, пригодными к применению в повседневной жизни людей.

Конституция – это живой документ и она должна развиваться вместе с обществом. Конституция трижды, в 2002, 2009 и 2016 гг. подвергалась востребованным жизнью изменениям путем всенародного голосования. Именно это стало одной из эффективных гарантий мира, стабильности, уверенности и процветания.

Принятая в 1995 году с внесенными в нее изменениями Конституция стала мощным толчком в развитии Азербайджана, активизировала все процессы, происходящие в государстве и обществе, выступив прочным фундаментом для дальнейших экономических, политических и социальных реформ. Тем самым она явилась итогом всех преобразований первых лет становления независимого Азербайджана.

В историю становления Азербайджана как независимого и суверенного государства период после принятия Конституции 1995 года, войдет как время динамичного развития по всем ключевым направлениям жизни общества и государства.

Процесс государственного строительства непрерывен, он будет продолжаться столько, сколько будет существовать государство. Возможно, жизнь потребует от нас внесения еще каких-то корректив, в том числе конституционных. Но твердо ясно одно – в основе действующая ныне Конституция Азербайджанской Республики за прошедшие годы доказала свою состоятельность и эффективность, ее главные положения актуальны и по сей день.

Основной Закон страны будет для нас и впредь основополагающим документом, регламентирующим наше продвижение к высоким целям – построению независимого, экономически развитого, интегрированного в мировое сообщество государства, в котором обеспечена благополучная и достойная жизнь его граждан.

Президент Азербайджана Ильхам Алиев продолжающий политический курс Общенационального Лидера говорил: «1993-2003 годы останутся в истории как годы стабильности и развития в нашей стране, так как именно тогда были заложены основы государственности, построено Азербайджанское государство, в 1995 году принята Конституция независимого государства, заложены идеологические основы государственности, и сегодня основным идеологическим лозунгом нашей страны остается идеология азербайджанства. Именно эти основы, заложенные Гейдаром Алиевым, указывают сегодня путь азербайджанскому народу".

Сегодня Азербайджанская Республика под руководством нашего Президента господина Ильхама Алиева переживает период своей истории, характеризующийся большим прогрессом. Не случайно, что именно на этот период приходится наибольшее законотворчество в истории независимого Азербайджана.

Президент Республики Ильхам Алиев, систематически ссылаясь на Основной Закон обеспечивает в стране верховенство законов и общечеловеческих демократических ценностей. Это подкреплено словами президента "Создание и укрепление гражданского общества, укрепление процесса демократизации, строительство правового государства – это не просто лозунг или намерение, это – главное условие для всестороннего развития Азербайджана. Наш ответ свидетельствует о том, что путь, избранный Азербайджаном – правильный путь".

## Список использованной литературы


1. Azərbaycan Respulikasının Konstitusiyası. B., Hüquq Yayın Evi, 2019, 116 s.
2. Вступительное слово на собрании комиссии на подготовке Проекта новой Конституции Азербайджанской Республики Гейдара Алиева (2 ноября 1995 г.)
3. Заключительная речь Гейдара Алиева на всенародном собрании (5-6 апреля 1996 г.); «Азербайджан на пути построения национального государства» Б., 1996-47с.
4. Abdullayev F. Azərbaycan böyük, tarixli qələbəsinə təsadüf edən Azərbaycan Respublikası Konstitusiyanın 25 ili tamam olur. Konstitusiya Məhkəməsinin Məlumatı. B., 2020 səh. 54-80
5. Азербайджан – на стыке XX века и третьего тысячелетия. – Б., Дом новых изданий, 2001-55 с.
6. Mahmudov Y. Azərbaycan: qısa dövlətçilik tarixi – B., Təhsil, 2005
7. Qəndilov S. Azərbaycan Heydər Əliyevlə müstəqillik yollarında. Dirçəliş – XXI əsr, 2001, N44 səh 80-86


## Р Е З Ю М Е


В статье говорится о Конституции Азербайджанской Республики, которая занимает исключительное место в жизни общества. Говорится об истории создания Конституции Азербайджанской Республики 1995 года, проект которой был инициирован Президентом Азербайджанской Республики Гейдаром Алиевым, который говорил: "Мы должны разработать и принять такую Конституцию, чтобы она стала историческим документом, Основным законом, обеспечивающим на длительный период стабильное существование Азербайджана на основе демократических принципов". Также с статье раскрывается содержание конституции, говорится об основных правах и обязанностях граждан.

**Dürdanə Məmmədova**
**Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi**
**Aparatının Konstitusiya hüququ şöbəsinin müdiri,**
**h.ü.f.d., dosent**

## Ümummilli Lider Heydər Əliyev və Azərbaycan Respublikasının Konstitusiyası

### X Ü L A S Ə

Məqalədə Azərbaycan Respublikasının Ümummilli Lideri Heydər Əliyevin Azərbaycan Respublikasının 1995-ci il Konstitusiyasının hazırlanmasında müstəsna rolu və Əsas Qanunun cəmiyyətin həyatındakı xüsusi əhəmiyyətindən bəhs olunur. Heydər Əliyevin dediyi kimi "Biz elə bir Konstitusiya hazırlayıb qəbul etməliyik ki, demokratik prinsiplər əsasında Azərbaycanın uzunmüddətli stabilliyi təmin edən tarixi bir sənəd, Əsas Qanun olsun".

Məqalədə habelə, Konstitusiyada öz əksini tapmış dövlət quruculuğu, xalq suverenliyi, vətəndaşların əsas hüquq və azadlıqları, müstəqil məhkəmə sistemindən danışılır.

**Durdana Mammadova**
**Head of Department of Constitutional Law of**
**the Secretariat of the Constitutional Court of the Republic of Azerbaijan,**
**PhD in Law, Associate Professor**

## National Leader Heydar Aliyev and the Constitution of the Republic of Azerbaijan

### S U M M A R Y

The article refers to the Constitution of the Republic of Azerbaijan, which occupies an exceptional place in the life of society. The article is about the history of the creation of the Constitution of the Republic of Azerbaijan in 1995, the draft of which was initiated by Heydar Aliyev, the President of the Republic of Azerbaijan, who said: "We must develop and adopt such Constitution so that it becomes a historical document, the Basic law that ensures the stable existence of Azerbaijan for a long period based on democratic principles." The article also talks about the content of the Constitution, Basic Rights and Duties of citizens.

***Aydın SƏFİXANLI***

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə
Müvəkkili (Ombudsman) Aparatının rəhbəri,
Bakı Dövlət Universitetinin Əqli Mülkiyyət Hüququ
kafedrasının müdiri vəzifəsini icra edən, h.ü.f.d.

# KİBERMƏKANDA İNSAN HÜQUQLARININ TƏMİNİ VƏ MÜDAFİƏSİ PROBLEMLƏRİ

***Açar sözlər:*** *kibermәkanda insan hüquqları, internet hüququ, informasiya əldə etmək hüququ, internetdə ifadə azadlığı, internetdə şərəf və ləyaqəti müdafiə etmək hüququ, şəxsi həyat, internetdə uşaq hüquqları, kiber məkanda uşaq pornoqrafiyası ilə mübarizə, kibercinayət, uşaqların mobil internet təhlükəsizliyi, distant təhsil, əqli mülkiyyət hüququ,*

***Ключевые слова:*** *интернет-право, права человека в интернете, право на получение информации, свобода выражений в интернете, право на защиту чести и достоинства в интернете, личная жизнь, права ребенка в интернете, борьба с детской порнографией на киберпространстве, киберпреступление, безопасность мобильного интернета детей, дистанционное образование, право на интеллектуальную собственность.*

***Keywords:*** *internet law, human rights on the internet, the right to obtain information, freedom of expression on the internet, the right to ptotect honor and dignity on the internet, private life, child rights on the internet, cybercrime combating child pornography in cyberspace, mobile internet security of children, distant education, the right to property*

Alman politoloqu Anya Mir qeyd edir ki, kibermәkanda dünyanın istәnilәn dövlәtindәn daha çox insan yaşayır, lakin bu mәkanın hökumәti, qanunvericilik vә hüquq-mühafizә orqanları vә әsaslana bilәcәyi konstitusiyası yoxdur. Bu sәbәbdәn kibermәkanda insanların hüquqlarını tәmin etmәk, qorumaq vә hәyata keçirmәk çәtinlik yaradır[1].

Kibermәkanın sәrhәdlәri olmadığı üçün onu idarә etmәyin yolları vә vasitәlәri istiqamәtindә araşdırmalar aparılmaqdadır. Beynәlxalq tәşkilatlar milli hökumәtlәrin dә istinad edә bilәcәyi kibermәkandan istifadә üçün beynәlxalq standartlar yaratmağa çalışırlar. Beynәlxalq standartların yaradılmasında әsas mәqsәdlәr bu sahәdә ki, münasibәtlәri tәnzimlәmәk, eyni zamanda kibermәkanda insan hüquq vә azadlıqlarının tәmini vә müdafiәsinin tәşkilidir.

Hәr kәs kibermәkandan istifadә edәrәk, öz hüquqlarını hәyata keçirmәk imkanı әldә edir, әtraf alәm haqqında tez vә әlçatan bilgilәrә sahib olur, ifadә vә informasiya azadlığını reallaşdırır, elektron kitabxanalara daxil olaraq mütaliә edә bilir, distant tәhsillә özünün tәhsil hüququnu reallaşdırır, e-maillә sürәtli poçt mәlumatları alır vә ötürür, elektron xidmәtlәr vasitәsilә dövlәt orqanlarına, o cümlәdәn mәhkәmәlәrә asan müraciәt imkanları, habelә digәr hüquq vә üstünlüklәr әldә edir.[2]

[1] Public Privacy Human Rights and Cyberspace. December 2013, Utrecht, The Netherlands. https://www.scribd.com/document/192986770/Public-Privacy-Human-Rights-and-Cyberspace#

[2] Mәcidli S. "İnternet hüququ vә etikası". Dәrs vәsaiti, Bakı, "Elm vә tәhsil" nәşriyyatı, 2013

İnformasiya və kommunikasiya texnologiyaları bir tərəfdən ifadə azadlığı, məlumat əldə etmək hüququ, təhsil hüququ, toplaşmaq hüququ kimi insan hüquqlarının və əsas azadlıqlarının həyata keçirilməsini əhəmiyyətli dərəcədə inkişaf etdirir.

Bununla yanaşı internet bəzən müəyyən hüquq və azadlıqların təminində problemlər yaradır. Məsələn, şəxsi toxunulmazlıq hüququnun, şəxsi və ailə həyatının sirrini saxlamaq hüququnun, şərəf və ləyaqəti müdafiə etmək hüququnun, əqli mülkiyyət hüququnun, o cümlədən, uşaq hüquqlarının təmini sahəsində problemlər yaradır.

İfadə azadlığı, məlumat əldə etmək hüququ insan hüquqları sırasında özünə məxsus yer tutur. Cəmiyyətdə baş verən proseslərdən xəbər tutmaq vətəndaşların ilkin ehtiyacıdır. İctimai mühitə təsir göstərən, insanlar üçün maraqlı və əhəmiyyətli olan bütün hadisələr, faktlar barədə hər bir fərdin informasiya almaq hüququ vardır və bu hüquq vətəndaşların fikir azadlığının tərkib hissəsidir.

Bu hüquq imkan verir ki, vətəndaş özünün digər hüquqları barədə də məlumatlı olsun, onlardan istifadə etməyi və onları qorumağı bacarsın. Dövlət və yerli özünüidarə orqanlarının fəaliyyəti, bu qurumların ölkənin prioritet, taleyüklü məsələləri üzrə gördüyü işləri izləsin və bütün bunlar barədə məlumat almaq imkanlarına malik olsun.

Bu gün ifadə azadlığı hüququ, məlumat əldə etmək hüququ istər beynəlxalq sənədlərdə, istərsə də milli qanunvericilikdə müdafiə altına alınmışdır.

İlk olaraq Ümumdünya İnsan Hüquqları Bəyannaməsini qeyd etmək istərdim ki, bu sənədin 19-cu maddəsində hər bir şəxsin ifadə etmək azadlığı hüququ, informasiya və ideyaları istənilən vasitələrlə axtarmaq, əldə etmək və yaymaq azadlığı təsbit olunmuşdur. Sənəd tövsiyə xarakteri daşısa da demokratik, hüquqi dövlətlərin konstitusiyalarında təsbit olunmuşdur.[3]

Beynəlxalq səviyyədə dövlətlər üzərində öhdəlik müəyyən edən ilk sənədlər sırasında Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktı misal göstərmək olar ki, bu sənəddə digər hüquq və azadlıqlarla yanaşı hər bir insanın öz fikirlərində qalmaq hüququ, öz fikrini sərbəst ifadə etmək hüququ və informasiya əldə etmək hüququ müdafiə altına alınmışdır.[4]

İfadə azadlığı hüququnun təmini həmçinin, İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Avropa Konvensiyasının 10-cu maddəsində təsbit olunmuşdur.[5]

Azərbaycan dövləti adı çəkilən beynəlxalq sənədləri ratifikasiya etmiş və öz milli qanunvericiliyini beynəlxalq standartlara uyğun təkmilləşdirmişdir.

Belə ki, Azərbaycan Respublikası Konstitusiyasının 47-ci maddəsi hər kəsin fikir və söz azadlığı hüququnu, 50-ci maddəsi isə məlumat azadlığı hüququnu təsbit edir.[6]

Kostitusiyada kütləvi informasiya vasitələrinin azadlığına təminat verilir. KİV-lərdə, o cümlədən mətbuatda dövlət senzurası qadağandır.

Qeyd etmək istərdim ki, Azərbaycan dövləti bu hüququn təmini sahəsində konstitusion normalarla yanaşı müvafiq qanunlar, milli fəaliyyət planları qəbul etmişdir. Bunların sırasında İnformasiya əldə etmək haqqında Azərbaycan Respublikasının qanunu, Açıq Hökumətin Təşviqinə dair Milli Fəaliyyət Planlarını və digər sənədləri misal göstərmək olar.

Müasir dövrümüzdə internet ifadə azadlığı, məlumat əldə etmək hüququnun həyata keçirilməsi üçün ən mühüm vasitələrdən hesab olunur.

---

[3] UDHR/ https://www.un.org/en/about-us/universal-declaration-of-human-rights

[4] ICCPR/ https://www.ohchr.org/en/instruments-mechanisms/instruments/international-covenant-civil-and-political-rights

[5] İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Avropa Konvensiyası/ https://www.echr.coe.int/documents/convention_eng.pdf

[6] Azərbaycan Respublikasının Konstitusiyası/ http://www.e-qanun.az/framework/897

İnternetdə informasiya azadlığı hüququnun tanınması, onun hər kəsə şamil olunması son dövrlərin müzakirə mövzularındandır. İnsan hüquqları sahəsində fəaliyyət göstərən beynəlxalq və regional təşkilatların rəsmi mövqeyinə görə, internetə çatımlılıq (Access to the İnternet) insan hüquqlarının ayrılmaz tərkib hissəsi kimi nəzərdən keçirilir.

Kiberməkanda insan hüquqları nisbətən yeni və öyrənilməmiş hüquq sahəsidir. Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları Şurası (UNHRC) bəyan edir ki, Mülki və Siyasi Hüquqlar Haqqında Beynəlxalq Paktın 19-cu maddəsinin 2-ci bəndinə əsasən ifadə azadlığı və məlumat əldə etmək hüququna həmçinin, informasiyanın və məlumatların internet vasitəsilə əldə edilməsi və ötürülməsi də aiddir.[7]

Fikir və ifadə azadlığı hüququnun müdafiəsi və təşviqi üzrə BMT-nin Xüsusi Məruzəçisinin 16 may 2011-ci il tarixli Məruzəsində qeyd olunmuşdur ki, əhalinin internetə çıxış imkanlarının təmin edilməsi hər bir dövlətin prioritet inkişaf məqsədlərindən birini təşkil etməlidir.[8]

Avropa İnsan Hüquqları Məhkəməsi də internetin fərdlərin ifadə və məlumat azadlığı hüququnun həyata keçirilməsinin əsas vasitələrindən biri olduğunu qeyd edir. İfadə azadlığı yalnız məlumatın məzmununa deyil, həm də onun yayılması vasitələrinə də tətbiq edilir, çünki sonuncuya hər hansı bir məhdudiyyət məlumat almaq və yaymaq hüququna da mane olur.

AİHM-nin Cengiz və başqaları Türkiyəyə qarşı işi bu baxımdan mühüm məsələlərə aydınlıq gətirir.

Türkiyə Respublikasının vətəndaşları olan Serkan Cengiz, Yaman Akdeniz və Kerem Altıparmak 20 iyul 2010-cu il və 27 dekabr 2010-cu il tarixlərində Avropa İnsan Hüquqları Məhkəməsinə müraciət edərək İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Avropa Konvensiyasının 10-cu maddəsinə istinad edərək onları YouTube-a daxil olmaqdan məhrum edən tədbirdən şikayət etmişlər.[9]

Serkan Cengiz İzmir universitetinin hüquq fakultəsinin müəllimi, eyni zamanda söz və ifadə azadlığı sahəsində ekspert və hüquqşünasdır. Yaman Akdeniz Bilgi Universitetinin hüquq fakultəsinin müəllimidir. Cənab Altıparmak isə Ankara Universitetinin Hüquq və siyasi elmlər fakultəsinin müəllim-assistenti və həmin universitetin nəzdində olan insan hüquqları üzrə dərnəyin rəhbəridir.

5 may 2008-ci ildə İnternet yayımlarının tənzinlənməsi və İnternetdən istifadə edərək törədilən qanun pozuntularına qarşı mübarizə ilə bağlı 5651 saylı qanunun 8-ci maddəsinin 1 b), 2, 3 və 9-cu bəndlərinə əsaslanaraq Ankara birinci Sülh Cəza Məhkəməsi http://www.youtube.com internet saytına və bu sayta daxil olmağa imkan verən IP 208.65.153.238-208.65.153.251 ünvanlara girişi qadağan edən qərar qəbul etmişdir. Məhkəmə, xüsusilə hesab etmişdir ki, bu saytın on səhifəsinin məzmunu (on video fayl) Atatürkün xatirəsinə təhqiri qadağan edən 5816 saylı qanunu ciddi şəkildə pozmuşdur.

Türkiyə hökuməti eyni zamanda qeyd etmişdir ki, 5 may 2008-ci il tarixli qərardan öncə, daxili məhkəmələr, qeyri-qanuni materiallar yayımlaması səbəbilə YouTube-a girişi qadağan edən 34 qərar qəbul etmişdir. Bu qərarların ardınca Telekommunikasiya və informasiya

---

[7] United Nations Human Rights Committee. "International Covenant on Civil and Political Rights". General Comment no.34, note 4, para 12. file:///D:/Downloads/CCPR_C_GC_34-EN.pdf

[8] Report of the Special Rapporteur on the promotion and protection of the right to freedom of opinion and expression, Frank La Rue/ http://www2.ohchr.org/english/bodies/hrcouncil/docs/17session/A.HRC.17.27_en.pdf

[9] Case of Cengiz and others v. Turkey (applications nos. 48226/10 and 14027/11) file:///D:/Downloads/CASE%20OF%20CENG%C4%B0Z%20AND%20OTHERS%20v.%20TURKEY.pdf

texnologiyaları Rəhbərliyi (TİR) YouTube-un Türkiyədəki rəsmi nümayəndəsi ilə "xəbərdarlıq və çıxarılma" prosedurlarına görə əlaqə saxlayaraq adı çəkilən materialların çıxarılması ilə bağlı qərarını YouTube-a bildirmişdir. Bununla belə, YouTube etiraz edilən səhifələri yerləşdirməkdə davam etmiş və Türkiyə URL filtrasiya sistemini işə salmadığından TİR-in YouTube-a girişi tamamilə qadağan etməkdən başqa çıxış yolu qalmamışdır.

Adı çəkilən ərizəçilər AİHM-nə müraciət edərək YouTube-a girişin qadağan edilməsi barədə qərara etiraz etmiş, YouTube-dan istifadənin ictimai maraq kəsb etdiyini və sözügedən qadağanın onların məlumat və ideyalar almaq və yaymaq hüququnun, ümumiyyətlə, mahiyyətinə zərər vurduğunu əsas gətirərək bu tədbirin ləğv edilməsini tələb etmişlər.

Cengiz xüsusilə iddia etmişdir ki, o, hüquq fakultəsinin müəllimidir və söz və ifadə azadlığı sahəsində ekspert və hüquqşünas kimi fəaliyyət göstərir. Beynəlxalq təşkilatlar YouTube vasitəsilə çoxsaylı vizual materiallar yayımlayır və o, bu materiallardan öz fəaliyyətləri çərçivəsində müntəzəm olaraq istifadə edir. YouTube hesabı olan fəal istifadəçi kimi YouTube vasitəsilə sənədli filmlər, analitik materiallar və ya əyləncə xarakterli videolar kimi fərqli materialları yayımlayan bir çox informasiya mənbələrinə daxil ola bilər. Nəticədə, sayta girişin bütünlüklə qadağan edilməsi səbəbilə o, üç ildən çoxdur ki, YouTube hesabına daxil ola bilmir.

Fərdlər üçün məlumat və ideyalar almaq və yaymaq azadlığı hüququnu həyata keçirməyin əsas vasitələrindən biri olan İnternetin əhəmiyyətini vurğulayan cənab Altıparmak və cənab Akdenizə gəlincə, mübahisəli tədbirin birbaşa onlara təsir etdiyini iddia etmiş, YouTube-un təkcə incəsənət və musiqili əsərləri paylaşmadığını, həmçinin siyasi, hüquqi və sosial fəaliyyətlər üçün olduqca məşhur platforma olduğu bildirilmişdir.

Məlum olduğu kimi, YouTube (http://www.youtube.com) videohostinqi istifadəçilərin videolar göndərə, izləyə və paylaşa biləcəkləri əsas veb saytdır. YouTube saytının və ya kanallarının videolarının əksəriyyəti bütün internet istifadəçiləri tərəfindən izlənilə bilər, lakin yalnız YouTube hesabı olan şəxslər bura video fayllar yükləyə bilər. 76-dan çox ölkədə bu platformadan istifadə edilir. Hər ay bir milyarddan çox istifadəçi bura daxil olur və altı milyard və daha çox saatlıq video faylları izləyir.

AİHM işlə bağlı qeyd etmişdir ki, ərizəçilər fəal YouTube istifadəçiləridir və bu mübahisəli qadağa onların akademik tədqiqatlarının inkişaf etdirilməsinə təsir edir. Belə ki, ərizəçilər bu platformadan təkcə öz professional sahələri ilə bağlı videoları izləmək üçün deyil, YouTube hesablarından istifadə edərək həm də fəal bir şəkildə bu cür faylları yükləmək və paylaşmaq üçün də istifadə edir, akademik fəaliyətləri haqqında video materiallar yayımlayırlar. Digər tərəfdən, söz və ifadə azadlığının həyata keçirilməsində internet saytlarının əhəmiyyətinə gəlincə, AİHM bildirmişdir ki, "çatımlılığı, eləcə də böyük həcmdə məlumatların saxlanması və ötürülməsi imkanı sayəsində internet saytlarının ictimaiyyətin gündəmlə bağlı məlumatları əldə etmək imkanını yaxşılaşdırmaqda və ümumiyyətlə, informasiyanı yaymağı asanlaşdırmaqda böyük köməyi vardır" (Times Newspapers Ltd Birləşmiş Krallığa qarşı işi). Eyni zamanda AİHM insanların İnternet üzərindən öz fikirlərini ifadə etmək imkanının olmasını söz azadlığı hüququnun həyata keçirilməsində presendenti olmayan bir vasitə kimi də dəyərləndirmişdir. (Delfi AS Estoniyaya qarşı işi). Bu baxımdan AİHM hesab etmişdir ki, YouTube videohostinqi istifadəçilərin videolar göndərə, izləyə və paylaşa bildiyi bir veb saytdır və o, şübhəsiz ki, məlumat və ideyalar almaq və yaymaq azadlığı hüququnu həyata keçirmək üçün əhəmiyyətli bir vasitədir.

Yekunda AİHM belə bir nəticəyə gəlmişdir ki, 5651 saylı qanunun 8-ci maddəsinə əsasən həyata keçirilən müdaxilə Konvensiya tərəfindən tələb edilən qanunilik tələbinə cavab vermir və Konvensiyanın 10-cu maddəsinin pozuntusu baş vermişdir.

İnternetden istifadəyə qoyulan məhdudiyyətlərlə bağlı BMT-nin Müqavilə Qurumları da öz tövsiyə və şərhlərində münasibət bildirmişlər.

Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktın 19-cu maddəsi ilə bağlı Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları Komitəsi 102-ci sessiya zamanı (11-29 iyul 2011) qəbul edilmiş 34 saylı Ümumi Şərhində bəyan etmişdir:

"İnternet, elektron və ya başqaları, o cümlədən bu kommunikasiya vasitələrinə bağlı olan dəstəkləmə sistemləri vasitəsilə veb saytlara, bloqlara, İnternet təminatçıları və ya brauzerlər kimi digər informasiya yayımlama sistemlərinə qoyulan hər cür məhdudiyyət yalnız söz və fikir azadlığı hüququnun həyata keçirilməsində tətbiq edilə biləcək məhdudiyyətləri tənzimləyən mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın 19-cu maddəsinin 3-cü bəndinə uyğun olması halında qanunidir. Qanuni məhdudiyyətlər, ümumiyyətlə, xüsusi cəhətləri nəzərə almalıdır; bəzi saytların və sistemlərin fəaliyyətinə qoyulan ümumi qadağanlar 3-cu bəndə müvafiq deyil. Yalnız hökumət və onunla əlaqədar olan siyasi və sosial sistem üçün gərginlik yarada biləcəyi əsası ilə sayta və ya informasiya ötürən sistemə material yayımlamağı qadağan etmək də eynilə 3-cü bəndə ziddir".[10]

Lakin, İnternetdə informasiya azadlığı əldə rəhbər tutularaq, bütün məlumatlar xaotik şəkildə ictimaiyyətə təqdim oluna bilməz və burada müəyyən bir tənzimlənmə, hətta bəzi məhdudiyyətlər də tələb olunur.

İnternetə məhdudiyyət İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Avropa Konvensiyasının 10-cu maddənin 2-ci bəndində göstərilən şərtlərə cavab verdikdə tətbiq edilə bilər.

Belə ki, qeyd olunan normaya əsasən bu azadlıqların həyata keçirilməsi milli təhlükəsizlik, ərazi bütövlüyü və ya ictimai asayiş maraqları naminə, iğtişaşın və ya cinayətin qarşısını almaq üçün, sağlamlığın və mənəviyyatın qorunması üçün, digər şəxslərin nüfuzu və hüquqlarının müdafiəsi üçün, konfidensial şəkildə əldə edilmiş məlumatların açıqlanmasının qarşısını almaq üçün və ya ədalət mühakiməsinin nüfuz və qərəzsizliyini təmin etmək üçün qanunla nəzərdə tutulmuş və demokratik cəmiyyətdə zəruri olan müəyyən rəsmi tələblərə, şərtlərə, məhdudiyyətlərə və ya sanksiyalara məruz qala bilər.

Göründüyü kimi məhdudiyyətlərin tətbiq olunma əsaslarından biri də mənəviyyatın qorunması, şəxslərin nüfuzu və hüquqlarının müdafiəsi, konfidensial şəkildə əldə edilmiş məlumatların açıqlanmasının qarşısının alınmasıdır.

İnternet insanların gündəlik şəxsi həyatı ilə sıx bağlı bir məkan olduğu üçün burada hüquqi tənzimetmə xüsusilə vacibdir. Şəxsi həyat hüququ geniş anlayış olmaqla, müasir beynəlxalq hüquqla tanınmış fundamental haqlardan ən önəmlisi hesab edilir.

Ümumdünya İnsan Hüquqları haqqında Bəyannamənin preambulasında qeyd olunmuşdur ki, ləyaqət hissi yer üzündə bütün insanlara xasdır, yalnız insanın azadlığı, yer üzündə ədalət və sülhün bərqərar olunması, vətəndaşların ləyaqət hissinin inkişafını və qorunmasını mümkün edir.

Mülki və Siyasi hüquqlar haqqında Beynəlxalq Paktda da nəzərdə tutulmuşdur ki, insanın şərəf və ləyaqəti onun iqtisadi, sosial və mədəni hüquqlarının mənəvi əsasını təşkil edir və bu hüquqlar insan şəxsiyyətinə xas olan ləyaqətdən irəli gəlir.[11]

[10] United Nations Human Rights Committee. "International Covenant on Civil and Political Rights". General Comment no.34, note 4, para 12. file:///D:/Downloads/CCPR_C_GC_34-EN.pdf

[11] ICCPR/ https://www.ohchr.org/en/instruments-mechanisms/instruments/international-covenant-civil-and-political-rights

Avropa Konvensiyası da hər kəsin öz şəxsi və ailə həyatına, mənzilinə və yazışma sirrinə hörmət hüququna malik olmasını təsbit edir.

Analoji normalar milli qanunvericilikdə də təsbit olunmuşdur. Azərbaycan Konstitusiyasının 32-ci maddəsində hər kəsin şəxsi və ailə həyatının sirrini saxlamaq hüququ, 46-cı maddəsində hər kəsin öz şərəf və ləyaqətini müdafiə etmək hüququ təsbit olunmuşdur.[12]

Qeyd etmək istərdim ki, insan hüquq və azadlıqlarına dair beynəlxalq sənədlərdə məhdudlaşdırılması mümkün və qadağan edilən hüquqlar müəyyən edilmişdir. Ləyaqət hüququ məhz məhdudlaşdırılması qadağan edilən hüquqlar sırasına aiddir.

Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında, Azərbaycan Respublikasinin Konstitusiya Qanununun 2-ci maddəsində məhdudlaşdırılması qadağan olunan insan hüquqları sırasında Azərbaycan Respublikası Konstitusiyasının 46-cı maddəsinin III hissəsində nəzərdə tutulan hüquqlar, o cümlədən, heç kəsin insan ləyaqətini alçaldan rəftara məruz qala bilməməsi hüququ nəzərdə tutulmuşdur.

Ümumiyyətlə informasiyanın əldə olunmasına münasibətdə şəxsi həyatın üç başlıca sahəsi fərqləndirilir: şəxsin ümumi, özəl və gizli həyatına dair informasiyalar.

Ümumi həyata dair informasiyalar dedikdə, başqaları tərəfindən bilinməsi mümkün olan, şəxsin sosial həyatına aid (gəzintiyə çıxması, kinoya, bazara getməsi və s.) və cəmiyyət üçün açıq olan məlumatlar başa düşülür.

Özəl həyatla bağlı məlumatlar şəxsin ailəsi, yaxınları, dostları və tanışları ilə bölüşmək istədiyi informasiyalar hesab olunur.

Gizli həyata aid məlumatlar dedikdə isə şəxsin başqaları tərəfindən bilinməsi qadağan olan, gizli duyğu və istəkləri, ümidləri, arzuları, intim həyatı, yazışmaları, şəxsi danışıqları və xarici mühitlə əlaqəli məlumat və hadisələr başa düşülür. (şəxsin yazışmaları – sevgi məktubu, elektron söhbət, teleqraf xatirə dəftəri və s.).[13]

Qeyd olunanlardan yalnız ümumi həyat sferasına daxil olan məlumatlar qanunla qorunmur, qalan ikisi isə – özəl və gizli həyat sferası ilə əlaqədar məlumatlara hər kəsin, o cümlədən jurnalistin çatım hüququ qanunla məhdudlaşdırılır.

Şərəf və ləyaqətin müdafiəsi, şəxsi və ailə həyatına hörmət hüququ heç bir halda internetdə müdaxilə predmeti ola bilməz.

Bütün hallarda internetdə şəxsi həyatın işıqlandırılması fərd və ya ictimai-siyasi xadim olmasına baxmayaraq, elektron istifadəçidən ehtiyyatlı yanaşma və xüsusi hüquqi bilik tələb edir.

Qeyd etmək istərdim ki, şərəf və ləyaqətin, şəxsi və ailə həyatına hörmət hüququnun internet informasiya məkanında pozulması qanunvericiliyə əsasən məsuliyyəti yaradır.

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 147-ci (Böhtan) və 148-ci (Təhqir) maddələrinin dispozisiyalarında "kütləvi nümayiş etdirildiyi halda internet informasiya ehtiyatında" törədilən əməllərə görə məsuliyyət nəzərdə tutulmuşdur.[14] Belə ki, Cinayət Məcəlləsinin 147-ci maddəsinə əsasən böhtan, yəni yalan olduğunu bilə-bilə hər hansı şəxsin şərəf və ləyaqətini ləkələyən və ya onu nüfuzdan salan məlumatları kütləvi çıxışlarda, kütləvi nümayiş etdirilən əsərdə, kütləvi informasiya vasitəsində və ya kütləvi nümayiş etdirildiyi halda internet informasiya ehtiyatında yayma min manatdan min beş yüz manatadək miqdarda cərimə ilə və ya iki yüz qırx saatdan dörd yüz səksən saatadək müddətə

---

[12] Azərbaycan Respublikasının Konstitusiyası/ http://www.e-qanun.az/framework/897

[13] Məcidli S. "İnternet hüququ və etikası". Dərs vəsaiti, Bakı, "Elm və təhsil" nəşriyyatı, 2013

[14] Azərbaycan Respublikasının Cinayət Məcəlləsi/ http://www.e-qanun.az/code/11

ictimai işlər və ya bir ilədək müddətə islah işləri və ya altı ayadək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır. Eyni əməllər ağır və ya xüsusilə ağır cinayətdə ittiham etməklə törədildikdə iki ilədək müddətə islah işləri və ya üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Cinayət Məcəlləsinin 148-ci maddəsinə əsasən təhqir, yəni kütləvi çıxışlarda, kütləvi nümayiş etdirilən əsərdə, kütləvi informasiya vasitəsində və ya kütləvi nümayiş etdirildiyi halda internet informasiya ehtiyatında şəxsiyyətin şərəf və ləyaqətini nalayiq formada qəsdən alçaltma min manatdan min beş yüz manatadək miqdarda cərimə və ya iki yüz qırx saatdan dörd yüz səksən saatadək müddətə ictimai işlər və ya bir ilədək müddətə islah işləri və ya altı ayadək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Son dövrlər internet informasiya ehtiyatında saxta istifadəçi adlar, profil və ya hesablardan istifadə olunaraq şərəf və ləyaqətin, şəxsi və ailə həyatına hörmət hüququnun pozulması hallarına daha çox rast gəlinir.

Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında 29 noyabr 2016-cı il tarixli Azərbaycan Respublikasının Qanunu ilə Cinayət Məcəlləsinə "İnternet informasiya ehtiyatında saxta istifadəçi adlar, profil və ya hesablardan istifadə edərək böhtan atma və ya təhqir etmə" adlı 148-1 maddəsi əlavə edilmişdir.

Adı çəkilən maddəyə əsasən, internet informasiya ehtiyatında saxta istifadəçi adlar, profil və ya hesablardan istifadə edərək kütləvi nümayiş etdirməklə böhtan atma və ya təhqir etmə min manatdan min beş yüz manatadək miqdarda cərimə və ya üç yüz altmış saatdan dörd yüz səksən saatadək müddətə ictimai işlər və ya iki ilədək müddətə islah işləri və ya bir ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Həmin qanunun qeyd hissəsində bildirilir ki, bu maddədə "saxta istifadəçi adlar, profil və ya hesablar" dedikdə internet informasiya ehtiyatlarında, o cümlədən sosial şəbəkələrdə istifadəçinin şəxsiyyətini eyniləşdirməyə imkan verməyən, yəni ad, soyad və ya ata adına dair yalan məlumat yerləşdirilmiş və ya belə məlumatlar gizlədilmiş, habelə digər şəxsə aid məlumatlardan onun razılığı olmadan istifadə edilməklə yaradılmış istifadəçi adlar, profil və ya hesablar başa düşülür.

Göründüyü kimi, internet informasiya ehtiyatlarında şərəf və ləyaqətin, şəxsi və ailə həyatına hörmət hüququnun müdafiəsi Azərbaycan Respublikasının milli qanunvericiliyində təmin edilmiş, bununla bağlı qadağanedici və preventiv normalar nəzərdə tutulmuşdur.

İnternetdə diqqət yetirilməsi məsəslələrdən biri də uşaq hüquqlarının müdafiəsi məsələsidir.

Azərbaycan Respublikasının iştirakçısı olduğu beynəlxalq sənədlərdə, milli qanunvericilikdə dövlət orqanlarının, bütün fiziki və hüquqi şəxslərin öz fəaliyyətində uşaqların mənafelərini üstün tutması, onların hüquqlarının təmin olunmasına şərait yaratması kimi vəzifəsi təsbit olunmuşdur.

Uşaq və gənclər İnternet və digər İKT vasitəsi ilə öz fikirlərini ifadə etmək, cəmiyyət həyatında iştirak etmək, həmçinin onlara aid məsələlərin həllində təsir edən qərarların qəbulunda iştirak etmək hüququna malikdir.

Uşaq və gənclər həmçinin internet vasitəsilə öz təhsil hüquqlarını həyata keçirmək hüquqlarına malikdirlər.

Hazırda İKT-nin sürətli inkişafı ictimai həssas qruplara təsir göstərməyə bilməzdi. Bu səbəbdən də İnternetin mənfi təzahürləri ilk növbədə uşaqların həyat və fəaliyyətində özünü göstərdiyi üçün qeyd olunan məsələ dövlətlərin, beynəlxalq və milli hüquq sistemlərinin narahatlıq və tədqiqat obyektinə çevrilmişdir.

Qeyd edək ki, hazırda İnternet istifadəçilərinin 50 faizindən çoxunu 8-15 yaşlarında uşaq və yeniyetmələr təşkil edir. Məhz buna görə də müasir dövrdə uşaq problemlərinin həlli baxımından vacib məsələlərdən biri də uşaqların virtual məkanda hüquqlarının qorunmasıdır.

Uşaq və yeniyetmələr virtual məkanın imkanlarından istifadə zamanı öz dünyagörüşünə, mənəviyyatına zidd olan informasiyalarla qarşılaşır, nəticədə mənəvi-psixoloji sarsıntılara məruz qalırlar. Hazırda bu problem bütün dünya dövlətlərini düşündürdüyündən, uşaq hüquqlarının virtual məkanda qorunması ilə bağlı müxtəlif təkliflər ideyalar irəli sürülür.

Əslində, düzgün istifadə olunduğu halda, internet uşaqların inkişafı üçün çox faydalıdır və bu gün o, təhsil sisteminin olduqca mühüm bir tərkib hissəsidir. Bununla belə, biz valideynlər uşaqlarımızın internetdən necə istifadə etmələrinə hər an nəzarət edə bilmirik. İnternet mühitində uşaqlarımızın diqqətindən uzaq saxlamaq istədiyimiz xeyli zərərli məzmun var. Məhz bu baxımdan, uşaqların internetdəki arzuolunmaz məzmundan qorunması məqsədi ilə valideynlər üçün arzuolunmaz veb-səhifələri filterdən keçirmək imkanının yaradılması olduqca vacib və aktual məsələyə çevrilir.

Bu baxımdan uşaqların mobil internet təhlükəsizliyi aktual məsələlərdən biri olaraq qalmaqdadır.

Təqdirəlayiq haldır ki, Azərbaycanın bəzi mobil operatorları artıq bununla bağlı xüsusi təhlükəsiz internet paketləri işləyib hazırlayaraq müştərilərinə təqdim etmişdir.

Kiber məkanda digər mühüm problemlərdən biri də uşaq pornoqrafiyası ilə mübarizə məsələləridir.

Bu məsələ hazırda bütün dünyada ciddi müzakirə predmetidir. Qeyd etmək istərdim ki, Avropa İttifaqı və ABŞ daxil olmaqla 54 ölkənin iştirakı ilə İnternetdə uşaq pornoqrafiyası ilə mübarizə aparmaq məqsədi ilə beynəlxalq ittifaq yaradılmışdır.

"The Global Alliance Against Child Sexual Abuse Online" adlı bu ittifaq uşaq pornoqrafifasına qarşı mübarizə məqsədilə birgə siyasət hədəflərini həyata keçirmək üçün bir sıra öhdəliklər müəyyən etmişdir.[15]

Bunların sırasında:

– Uşaq pornoqrafiyasında cinsi istismara məruz qalan qurbanları müəyyən etmək, zəruri kömək, dəstək və müdafiəni təmin etmək üçün səylərini artırmaq;

– İnternetdə uşaqların cinsi istismar hallarını araşdırmaq, cinayətkarları müəyyən etmək və təqib etmək üçün səyləri artırmaq;

– Yeni uşaq pornoqrafiyasının istehsalını azaltmaq məqsədi ilə, şəkillərin özünü istehsalı da daxil olmaqla, onlayn fəaliyyətinin yaratdığı riskləri ictimaiyyətə çatdırmaq;

– Uşaq pornoqrafiyasına onlayn çatımı və uşaqların yenidən qurbana çevrilmələrinin qarşısını almaq kimi öhdəliklər vardır.

Bu öhdəliklərin icrası istiqamətində Qlobal İttifaq üzərinə aşağıdakı məqsədləri qoymuşdur:

– INTERPOL tərəfindən idarə olunan Beynəlxalq Uşaq Cinsi istismar təsvirlərinin məlumat bazasında (ICSE məlumat bazasında) təsbit edilmiş şəxslərin sayını hər il ən azı 10% artırmaq;

– Cinayətkarların araşdırılması və təqib olunmasına dair səylərin artırılması məqsədi ilə onlayn rejimdə uşaqların cinsi istismarına görə cinayət məsuliyyətinə cəlb etmək üçün lazımi hüquqi çərçivə və cinayətkarların səmərəli təqibi mexanizmini yaratmaq;

---

[15] Declaration on the Launch of the Global Alliance against child sexual abuse online / http://europa.eu/rapid/press-release_MEMO-12-944_en.htm

– Uşaqların cinsi istismarını onlayn şəkildə araşdırmaq və təqib etmək üçün Qlobal İttifaq ölkələrinin hüquq-mühafizə orqanları arasında birgə səyləri artırmaq;

– Uşaqların onlayn davranışının yaratdığı risklər və bu riskləri minimuma endirmək üçün atdığı addımlar ilə bağlı valideynlərin, uşaqların və uşaqlara məsul olan digər şəxslərin ictimai məlumatlandırma kampaniyalarını və ya digər tədbirləri inkişaf etdirmək, təkmilləşdirmək və ya dəstəkləmək;

– Qlobal İttifaq ölkələri arasında yeni uşaq pornoqrafiyasının istehsalını azaltmaq məqsədi ilə onlayn, özünü istismar davranışdan yaranan risklər barədə ictimaiyyəti məlumatlandırmaq üçün effektiv strategiyaların həyata keçirilməsi üçün ən yaxşı təcrübələri bölüşmək;

– Uşaq pornoqrafiyası təsvirləri üçün yoxlanılan sistem məlumatlarının həcmini mümkün qədər artırmaq, o cümlədən müvafiq dövlətdə yerləşən uşaq pornoqrafiyasını aşkar etmək və aradan qaldırmaq üçün özəl sektorun iştirakını təşviq etmək;

– Cinayətin təqibi prosesinə təhlükə yaratmadan xəbərdarlıq və reyd prosedurlarının sürətini artırmaq.

Qlobal İttifaqa qoşulmuş ölkələrin əsasən ədliyyə və daxili işlər nazirləri arasında bir sıra siyasi hədəflərə çatmaq məqsədilə cinsi istismara məruz qalan uşaq qurbanlarını müəyyənləşdirmək və qorumaq, hadisələri araşdırmaq, cinayətkarları təqib etmək, uşaqlar üçün onlayn risklərin səviyyəsini və online pornoqrafiyanın mövcudluğunu azaltmaq üçün səylər göstərilməsi, öhdəliklərin yerinə yetirilməsi üçün yüngül izləmə mexanizminin yaradılması, iki ildən bir həyata keçirilən tədbirlər barədə hesabat verilməsi ilə bağlı razılığa gəlinmişdir.[16]

Göründüyü kimi Qlobal İttifaq uşaq pornoqrafiyasına qarşı mübarizə və bu kimi halların aradan qaldırılması istiqamətində iştirakçı dövlətlərin birgə səyələrini artırmaqla bərabər bu sahədə müsbət təcrübənin də öyrənilməsi və yayılmasında mühüm rol oynamaqdadır.

Uşaq pornoqrafiyasına qarşı mübarizə və bu kimi halların aradan qaldırılması istiqamətində Azərbaycanda qanunvericilik bazası formalaşdırılmışdır.

Azərbaycan Respublikasının Cinayət Məcəlləsində uşaq pornoqrafiyasının dövriyyəsinə görə məsuliyyət nəzərdə tutulmuşdur.

Belə ki, Cinayət Məcəlləsinin 171-1.1-ci maddəsinə əsasən uşaq pornoqrafiyasını yayma, reklam etmə, satma, başqasına vermə, göndərmə, təklif etmə, əldə edilməsinə şərait yaratma, yaxud yaymaq və ya reklam etmək məqsədilə hazırlama, əldə etmə və ya saxlama səkkiz min manatdan on min manatadək miqdarda cərimə və ya beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Eyni əməllər təkrar törədildikdə, qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik (təşkilat) tərəfindən törədildikdə, xeyli miqdarda gəlir əldə etməklə törədildikdə, yetkinlik yaşına çatmayanın valideynləri və ya üzərinə qanunla yetkinlik yaşına çatmayanı tərbiyə etmək vəzifəsi qoyulmuş digər şəxslər və ya yetkinlik yaşına çatmayanlara nəzarəti həyata keçirmək vəzifəsini daşıyan təhsil, tərbiyə, tibbi və ya digər müəssisənin müəllimi və ya digər işçisi tərəfindən törədildikdə, təqsirkar üçün aşkar surətdə on dörd yaşına çatmayan şəxs barəsində törədildikdə, üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə beş ildən səkkiz ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Qeyd etmək istərdim ki, Cinayət Məcəlləsində uşaq pornoqrafiyasına da anlayış verilmişdir. Belə ki, "Uşaq pornoqrafiyası" dedikdə, yetkinlik yaşına çatmayan şəxsin və

[16] Combating sexual abuse of children online: a Global Alliance for greater results/http://europa.eu/rapid/press-release_MEMO-12-937_en.htm

ya yetkinlik yaşına çatmayan təsəvvürünü yaradan şəxsin aşkar seksual xarakterli hərəkətlərdə real və ya simulyasiya edilmiş iştirakını əks etdirən, yaxud seksual məqsədlərlə yetkinlik yaşına çatmayanların cinsi orqanlarını əks etdirən istənilən əşyalar və ya materiallar, o cümlədən aşkar seksual hərəkətlərdə iştirak edən yetkinlik yaşına çatmayan şəxsi əks etdirən realistik təsvirlər başa düşülür.[17]

Bununula yanaşı uşaq pornoqrafiyasına qarşı mübarizə və bu kimi halların aradan qaldırılması istiqamətində iştirakçı dövlətlərin tətbiq etdiyi müsbət təcrübələrin öyrənilməsi, bu sahədə həyata keçirilən tədbirlərin səmərəliyinin artırılması baxımından “The Global Alliance Against Child Sexual Abuse Online” adlı İttifaqa ölkəmizin də üzv olmasını zəruri hesab edirik.

Kiber məkanda uşaqların mənəviyyatına, dünyagörüşünə və sağlamlığına zərər vuran destruktiv informasiyalara meyillənməsinin qarşısının alınması olduca zəruridir. Çünki, bu məkan hər hansı porno məlumatlar, separatizim, terror-təxribat və digər cinayət xarakterli informasiyalar üçün açıq olduğuna görə uşaqların belə saytlara daxil olması və onları asanlıqla əldə etməsi, habelə cinayətkar ünsürlərin təsir dairəsinə düşməsi istisna olunmur.

Bunun üçün də mütəxəsislər İnternet klublarda müəyyən süzgəclərdən, məhdudlaşdırıcı texnoloji vasitələrdən istifadə olunmasını, bu sahədə qanunvericiliyin təkmilləşdirilməsini son dərəcə vacib hesab edirlər. Digər tərəfdən isə, ana dilində uşaq saytlarının sayının artması, uşaqlar üçün maraqlı informasiya dünyasının yaradılması təklif olunur.

Uşaq və gənclər internetdə onların mənəviyyatına təsir göstərə biləcək müdaxilə riskləri barədə məlumatlandırılmalıdır. “Uşaqların cinsi istismardan və cinsi zorakılıqdan müdafiəsi haqqında” Avropa Şurası Konvensiyası uşaqların onlayn mühafizəsini təmin etmək üçün dövlətlərin üzərinə pozitiv öhdəliklər qoyur.[18]

“Uşaqların cinsi istismardan və cinsi zorakılıqdan müdafiəsi haqqında” Avropa Şurası Konvensiyasına əsasən, uşaqlar internetdə mövcud olan pornoqrafik xarakterli oyunlara, çıxışlara və ya hər hansı müzakirələrə qoşulmaqdan qorunmalıdır.

Azərbaycan adı çəkilən Konvensiyanı ratifikasiya etmiş və milli qanunvericilik sisteminə daxil etmişdir.[19]

## İstifadə olunmuş ədəbiyyat siyahısı


1. Azərbaycan Respublikasının Konstitusiyası/ http://www.e-qanun.az/framework/897
2. Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında, Azərbaycan Respublikasinin Konstitusiya Qanunu/ http://www.e-qanun.az/framework/1881
3. Ümumdünya İnsan Hüquqları Bəyannaməsi/ https://www.un.org/en/about-us/universal-declaration-of-human-rights
4. Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakt/ http://miqrasiya.nakhchivan.az/en/images/stories/konvensiyalar/8.pdf
5. İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Avropa Konvensiyası/ https://www.echr.coe.int/documents/convention_eng.pdf
6. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi/ http://www.e-qanun.az/code/11


---

[17] Azərbaycan Respublikasının Cinayət Məcəlləsi/ http://www.e-qanun.az/code/11

[18] Convention on Protection of Children against Sexual Exploitation and Sexual Abuse/ https://rm.coe.int/168046e1e1

[19] “Uşaqların cinsi istismardan və cinsi zorakılıqdan müdafiəsi haqqında” Avropa Şurası Konvensiyasının təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu / https://e-qanun.az/framework/43532%20

7. İnformasiya əldə etmək haqqında Azərbaycan Respublikasının qanunu/ http://www.e-qanun.az/framework/11142
8. Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı / https://e-qanun.az/framework/22821
9. Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı/ http://www.e-qanun.az/alpidata/framework/data/24/f_24193.htm
10. Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı/ http://www.e-qanun.az/framework/32647
11. Report of the Special Rapporteur on the promotion and protection of the right to freedom of opinion and expression, Frank La Rue/
http://www2.ohchr.org/english/bodies/hrcouncil/docs/17session/A.HRC.17.27_en.pdf
12. United Nations Human Rights Committee. "International Covenant on Civil and Political Rights". General Comment no.34, note 4, para 12. file:///D:/Downloads/CCPR_C_GC_34-EN.pdf
13. Declaration on the Launch of the Global Alliance against child sexual abuse online / http://europa.eu/rapid/press-release_MEMO-12-944_en.htm
14. Combating sexual abuse of children online: a Global Alliance for greater results/http://europa.eu/rapid/press-release_MEMO-12-937_en.htm
15. Convention on Protection of Children against Sexual Exploitation and Sexual Abuse/ https://rm.coe.int/168046e1e1
16. Məcidli S. "İnternet hüququ və etikası". Dərs vəsaiti, Bakı, "Elm və təhsil" nəşriyyatı, 2013
17. Case of Cengiz and others v. Turkey (applications nos. 48226/10 and 14027/11)/ file:///D:/Downloads/CASE%20OF%20CENG%C4%B0Z%20AND%20OTHERS%20v.%20TURKEY.pdf

## XÜLASƏ

Bu gün hər kəs kibermәkandan istifadə edərək, öz hüquqlarını həyata keçirmək imkanı əldə edir, ətraf aləm haqqında tez və əlçatan bilgilərə sahib olur, ifadə və informasiya azadlığını reallaşdırır, elektron kitabxanalara daxil olaraq mütaliə edə bilir, distant təhsillə özünün təhsil hüququnu reallaşdırır, e-maillə sürətli poçt məlumatları alır və ötürür, elektron xidmətlər vasitəsilə dövlət orqanlarına, o cümlədən məhkəmələrə asan müraciət imkanları, habelə digər hüquq və üstünlüklər əldə edir.

İnformasiya və kommunikasiya texnologiyaları bir tərəfdən ifadə azadlığı, məlumat əldə etmək hüququ, təhsil hüququ, toplaşmaq hüququ kimi insan hüquqlarının və əsas azadlıqlarının həyata keçirilməsini əhəmiyyətli dərəcədə inkişaf etdirir. Digər tərəfdən internet bəzən müəyyən hüquq və azadlıqların təminində, məsələn, şəxsi toxunulmazlıq hüququnun, şəxsi və ailə həyatının sirrini saxlamaq hüququnun, şərəf və ləyaqəti müdafiə etmək hüququnun, əqli mülkiyyət hüququnun, o cümlədən, uşaq hüquqlarının təmini sahəsində problemlər yaradır.

Məqalədə insan hüquq və azadlıqlarının inkişaf etdirilməsində və daha səmərəli müdafiəsində kiberməkanın yaratmış olduğu imkanlartəhlil edilir. İnternetdə ifadə azadlığı və məlumat əldə etmək hüququnun, şərəf və ləyaqətin müdafiəsi, şəxsi və ailə həyatına hörmət hüququnun, uşaq hüquqlarının müdafiəsi məsələləri elmi-praktik baxımdan araşdırılır.

**Айдын Сафиханлы**
**Руководитель Аппарата Уполномоченного по Правам Человека**
**(Омбудсмана) Азербайджанкой Республики,**
**Исполняющий обязанности заведующего кафедрой права интеллектуальной**
**собственности Бакинского государственного университета,**
**д.ф.п.п.**

# ПРОБЛЕМЫ ОБЕСПЕЧЕНИЯ И ЗАЩИТЫ ПРАВ ЧЕЛОВЕКА В КИБЕРПРОСТРАНСТВЕ

## Р Е З Ю М Е

Сегодня каждый человек, пользуясь киберпространством, получает возможность реализовать свои права, быстро приобретает доступную информацию об окружающем мире, реализует свою свободу выражения и информации, может просвещаться, посещая электронные библиотеки, получает и отправляет скоростную почтовую информацию через электронные адреса, получает возможность легкого обращения в государственные органы, в том числе суды, а также другие права и превосходства посредством электронных услуг.

С одной стороны, информационно-коммуникационные технологии в значительной степени развивают реализацию свободы выражения, права на получение информации, права на образование, право на свободу собрания и основных свобод. С другой стороны, интернет создает проблемы в области обеспечения определенных прав и свобод, например, права на неприкосновенность личности, права на хранение тайны личной и семейной жизни, права на защиту чести и достоинства, права на интеллектуальную собственность, а также прав детей.

В статье проанализированы возможности, создаваемые киберпространством в развитии и более эффективной защите прав и свобод человека. С научной и практической точек зрения рассматриваются вопросы свободы слова и права на доступ к информации, защиты чести и достоинства, права на уважение частной и семейной жизни, защиты прав детей в Интернете.

**Aydın Safikhanlı**
**Head of the Office of the Commissioner for Human Rights**
**(Ombudsman) of the Republic of Azerbaijan,**
**Acting Head of the Intellectual Property Law**
**sub-faculty of the Baku State University,**
**Ph.D. in philosophy in legal sciences**

# PROBLEMS OF PROVISION AND PROTECTION OF HUMAN RIGHTS IN CYBER SPACE

## S U M M A R Y

Today, everyone has the opportunity to exercise their rights using cyberspace, gets quick and accessible information about the surrounding world, realizes the freedom of expression

and information, can read in electronic libraries, realizes his\her right to education with distant education, receives and sends information via e-mail, gets opportunity easily apply to state bodies and courts, as well as other rights and advantages.

On the one hand, information and communication technology significantly improves the exercise of human rights and fundamental freedoms as freedom of expression, the right to obtain information, the right to education, the right to assembly, the right to defend honour and dignity etc. On the other hand, the Internet sometimes creates problems in ensuring certain rights and freedoms, such as the right to personal inviolability, the right to personal and family life, the right to protect honor and dignity, the right to intellectual property, including child rights.

The article analyzes the opportunities created by cyberspace in the development and more effective protection of human rights and freedoms. Freedom of speech and the right to access information, the protection of honour and dignity, the right to respect for private and family life, the protection of children's rights on the Internet are examined from a scientific and practical perspective.

***Nurlan HƏSƏNOV***
Azərbaycan Respublikası Milli Məclisinin deputatı

# BEYNƏLXALQ HÜQUQ BÖHRAN VƏZİYYƏTİNDƏ: SÜLH VƏ MÜHARİBƏ DÖVRÜNDƏ İNSAN HÜQUQLARININ MÜDAFİƏSİ

***Açar sözlər:*** *İnsan hüquqları, beynəlxalq hüquq, azadlıq, sülh, müharibə, müasir demokratiya, sosial rifah, Azərbaycan qanunvericiliyində insan hüquqları.*

**Ключевые слова:** *права человека, международное право, свобода, мир, война, современная демократия, социальное благосостояние, права человека в Аазербайджанском законодательстве.*

***Keywords:*** *Human rights, international law, freedom, peace, war, modern democracy, social welfare, human rights in Azerbaijani legislation.*

İnsanlıq üçün ağır nəticələrə səbəb olan II Dünya Müharibəsinin başa çatması dünyamızda sülhün və insan hüquqlarının müdafiəsini təmin edə biləcək, beynəlxalq hüququn tələblərini öz fəaliyyətində əsas götürəcək və hər kəsə bərabər məsafədə olan, tərəfsiz bir beynəlxalq qurum yaratmaq ehtiyacı yaratdı. Bu ehtiyacdan irəli gələrək yaradılan qurumun adı Birləşmiş Millətlər Təşkilatı[1] idi. Hüquqsuzluğun, ədalətsizliyin və insan ləyaqətinin heçə sayılmasının gətirdiyi ağır nəticələr BMT-nin qurulması prosesində dünya dövlətlərini insan hüquqları müdafiəsi mövzusuna daha diqqətli yanaşmağa və daha effektiv mexanizmlər üzərində çalışmağa vadar edirdi. Bunun nəticəsi olaraq BMT nizamnaməsində irqinə, cinsinə və dininə görə heç bir ayrı-seçkiliyə yol vermədən insan hüquqlarına və azadlıqlarına hamılıqla hörmət və əməl edilməsinin təmin edilməsi təşkilatın əsas vəzifələrindən biri kimi müəyyən edilirdi.[2] Qısa müddət sonra isə insan hüquqlarının müdafiəsi ilə bağlı fundamental sənədlərdən biri hesab olunan "Ümumdünya İnsan Hüquqları Bəyannaməsi" işlənildi. Həmin sənədin Preambulasında qeyd edilirdi ki, "bəşər ailəsinin bütün üzvlərinə xas olan ləyaqətləri və onların bərabər və alınmaz hüquqlarını qəbul etməyin azadlığın, ədalətin və ümumi sülhün təməlidir. İnsan hüquqlarına laqeydlik və həqarət bəşəriyyətin vicdanını hiddətləndirən vəhşi əməllərə gətirib çıxarır."[3] 1948-ci ilin 10 dekabrında Parisdə imzalanan bu sənəd heç bir məcburi hüquqi qüvvəyə malik olmamasına baxmayaraq, o insan hüquqlarının müdafiəsi üçün böyük mənəvi əhəmiyyəti daşıyırdı. Çünki, II Dünya müharibəsinin insanlığa yaşatdığı dəhşətlərdən dərs çıxarılır və ilk dəfə insan hüquqlarının müdafiəsi heç bir dövlətlərarası sərhəd tanımadan universal xarakterli beynəlxalq hüququn fundamental əsası kimi təqdim olunurdu.

Bugün isə insan hüquq və azadlıqlarının qorunması müasir beynəlxalq hüququn fundamental əsaslarından biri olmasına baxmayaraq, dünyada insan hüquq və azadlıqlarının davamlı və kobud şəkildə pozulması halları baş verir.

---

[1] Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsi, San-Fransisko 24.10.1945. Məlumat linki: https://www.refworld.org/docid/3ae6b3930.html, son baxılma tarixi: 09.02.2023.

[2] Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsi, Maddə 1.

[3] Ümumdünya İnsan Hüquqları Bəyannaməsi, Preambula, Paris 10.12.1948.

Siyasi qütbləşmənin heç vaxt olmadığı qədər gücləndiyi dünyamızda, müharibə ocaqlarının artması "Ümumdünya İnsan Hüquqları Bəyannaməsi"ndə qeyd edilən, "insan hüquqlarına laqeydlik, beynəlxalq hüquqa hörmətsizlik bəşəriyyət üçün ağır nəticələrə gətirib çıxarır" fikrinin əhəmiyyətini və doğruluğunu bir daha sübut edir.

Beynəxalq hüququnun böhrandan xilas olması, insan hüquqlarının müdafiəsinin səmərəli təşkil edilməsi ilə bağlı bir çox beynəlxalq hüquq araşdırma mərkəzləri tərəfindən fərqli fikirlər və təkliflər irəli sürülür. Oslo Universiteti sülh araşdırmaları mərkəzinin qurucusu Johan Galtungun bu mövzu ilə bağlı yanaşması fərqlidir. Onun fikrincə, insan hüquqları bir dini və ya fəlsəfi sistem yanaşması ilə yox, insanların təməl ehtiyacları olan, yaşamaq, sosial rifah və azadlıq kimi dəyərlər baxımından qiymətləndirilməli və insan hüquqlarının müdafiəsi yalnız sülh zamanı yox, xüsusilə müharibə dövründə də beynəxalq humanitar hüquqla effektiv təmin olunmalıdır. Bu səbəbdən Galtung təməl insan hüquqları və öhdəliklərin əks olunduğu bir kataloq yaradılmasını, dövlətlərin bunu qəbul etməsini və bu siyahıda nəzərdə tutulan insan hüquqlarının müdafiəsinin qarantı ola biləcək mərkəzləşdirilmiş dünya vahid güc strukturu qurulmasını təklif edir. Galtungun fikrincə beynəlxalq humanitar hüquq üçün artıq müasir müharibələr qarşısı alınmaz problemlər yaradır.[4]

Müharibələrin formasının dəyişməsi, sülh və müharibə dövründə insan hüquqlarının müdafiəsi ilə bağlı beynəxalq hüququn böhran içərisində olması, Kristofer Daasenin "Beynəxalq humanitar hüquq və müharibənin transformasiyası" kitabında fərqli şəkildə təsvir edilir. Müəllif bildirir ki, beynəlxalq humanitar hüquq transformasiyaya uğrayan münaqişə strukturları, müharibə növləri (məsələn gerilla döyüşü) və proksi müharibə kimi yeniliklərə artıq ayaq uydura bilmir. Məhz bu baxımdan, insan hüquqlarının müdafiəsinin təmin edilməsi üçün beynəlxalq humanitar hüququn yenidən gözdən keçirilməsinə ehtiyac var.[5]

Fikrimcə, Kristofer Daasenin qeyd etdiyi beynəxalq humanitar hüququn günümüzdə yaşadığı növ böhrana, 44 günlük Vətən Müharibəsi dövründə Azərbaycan şəhərlərinin Ermənistan tərəfindən raket hücumlarına məruz qalması, döyüş bölgəsində məğlub tərəfin mülki yaşayış məskənlərini hədəf alan raket hücumları etməsini, beynəlxalq hüquqla qadağan edilmiş silahlardan istifadə etməsini də aid etmək olar.

Beynəlxalq hüququn böhran içərisində olması, insan hüquqlarının müdafiəsi mexanizmlərinin səmərəsizliyi, ilk öncə, əlbəttə ki, məhz məqalənin əvvəlində də qeyd edildiyi kimi, insan hüquqlarının müdafiəsi sahəsində dünyanın aparıcı nüfuzlu təşkilatı olan BMT-nin fəaliyyəti ilə bağlı sualları da artırır. BMT-nin insan hüquqlarının müdafiəsi ilə bağlı fəaliyyət qabiliyyəti dəfələrlə gündəmə gətirilmiş və hətta Birləşmiş Millətlər Təşkilatının 7-ci Baş katibi Kofi Annan BMT Təhlükəsizlik Şurasının hərəkətsizliyi ilə bağlı BMT-ni özü də tənqid etmişdir. O bildirmişdir ki, BMT Təhlükəsizlik Şurası yeganə legitim güc tətbiq edə biləcək qurum mövqeyində olmadığı müddətcə dünyamız anarxiyaya doğru gedəcək.[6] Kofi Annanın bu fikirləri məhz Oslo Universiteti Sülh Araşdırmaları Mərkəzinin qurucusu Johan Galtungun fikirləri ilə üstü-üstə düşür. Həmçinin Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyev tərəfindən beynəlxalq humanitar hüququn böhran içərisində olması ilə bağlı

---

[4] Galtung Johan, Die Zukunft der Menschenrechte-Vision. Verständigung zwischen den Kulturen, Frankfurt a.M./New York 2000, S. 7.

[5] Christopher Daase, Das humanitäre Völkerrecht und der Wandel des Krieges, Jana Hasse/Erwin Müller/Patricia Schneider, Humanitäres Völkerrecht. Politische, rechtliche und strafgerichtliche Dimensionen (Frieden durch Recht I) (Demokratie, Sicherheit, Frieden, Bd. 133), Baden-Baden 2001, S. 132.

[6] Kofi Annan, The Effectiveness of the International Rule of Law in Maintaining International Peace and Security, Press Release SG/SM/6997, 18.05.1999. Məlumat linki:
https://press.un.org/en/1999/19990518.SGSM6997.html, son baxılma tarixi: 09.02.2023.

dəfələrlə fikirlər səsləndirilmiş və o, beynəlxalq hüquqa hörmətlə yanaşılması və insan hüquq və azadlıqlarının səmərəli müdafiəsi üçün yeni mexanizmlər üzərində çalışılmalı olduğunu bildirmişdir: *"Biz dünyanın dəyişməsi faktına əhəmiyyət verməyə bilmərik. Həmçinin beynəlxalq hüquq normalarının tamamilə pozulduğunu görürük. Bu beynəlxalq hüquq normaları elə bizim öz məsələmizdə də pozulmuşdur. Biz torpaqlarımız işğal altında olarkən beynəlxalq ictimaiyyətə fəal şəkildə müraciət etmişdik. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının qətnamələri 27 il ərzində yerinə yetirilməmişdi. Biz indi bir çox digər bölgələrdə beynəlxalq hüququn pozulmasını görürük. Biz görürük, bəzi ölkələr düşünür ki, onlar buna məhəl qoymaya bilərlər və buna əhəmiyyət vermirlər. Beləliklə də bu, tamamilə yeni situasiyadır. Dünyanın yeni düzəni necə olacaq? Beynəlxalq institutlar, Birləşmiş Millətlər Təşkilatı necə olacaq? O, yenidən qurulacaq, ya başqa bir təşkilat ortaya çıxacaq? Bunların hamısı dünyada yeni fikirləri təşviq etmə gücünə malik olanların məsuliyyətindədir."*[7]

Təəssüf ki, beynəlxalq hüququn böhran içərisində olmasından əziyyət çəkən ölkələrdən biri də məhz Azərbaycandır. Bildiyimiz kimi, BMT Təhlükəsizlik Şurasının işğalçı ordunun Azərbaycan torpaqlarından geri çəkilməsini tələb edən 4 qətnaməsindən heç biri 27 il boyunca icra edilməmişdir. Nəticədə yüz minlərlə vətəndaşımızın təməl insan hüquq və azadlıqları kobud şəkildə pozulmuşdur.

Müstəqillik əldə etdikdən sonra, öz vətəndaşlarının beynəlxalq hüquqla qorunan təməl insan hüquq və azadlıqlarının müdafiəsində çətinlik çəkən Azərbaycan Ulu Öndər, Azərbaycanın xilaskarı, Heydər Əlirza oğlu Əliyevin hakimiyyətə qayıtması, daha sonra isə onun davamçısı olan Müzəffər Ali Baş Komandan cənab Prezident İlham Əliyevin uzunmüddətli apardığı siyasət nəticəsində böhran vəziyyətindən çıxmış, öz gücü hesabına torpaqlarını işğaldan azad etməyi bacarmış və beləliklə, ilk növbədə 90-cı illərin əvvəllərində hüquqları pozularaq öz ana torpaqlarından didərgin düşmüş vətəndaşlarımızın hüquqlarının bərpası uğrunda böyük bir addım atmışdır. Eyni zamanda ölkə daxilində də insan hüquq və azadlıqlarının müdafiəsi ilə bağlı ilk dəfə islahatlara start verilməsi Ümummili Lider Heydər Əliyevin adı ilə bağlı olmuşdur. AXCP-Müsavat hakimiyyəti dövründə yeni Konstitusiyanın işlənilməsi, qanunvericiliyimizin modernləşdirilməsi və insan hüquq və azadlıqlarının müdafiəsi ilə bağlı heç bir iş görülməmişdir. Məhz qısa müddət ərzində, Heydər Əliyev Prezident seçildikdən dərhal sonra yeni Konstitusiyanın işlənilməsi üçün peşəkar hüquqşünaslardan ibarət yaradılan komissiya yeni Konstitusiyanın hazırlanması prosesinə başladı. 1995-ci il noyabrın 12-də ümumxalq referendumu ilə müstəqil Azərbaycanın ilk modern Konstitusiyası qəbul olundu və 27 noyabrda qüvvəyə mindi. Bununla ilk dəfə olaraq Azərbaycanda hüquqi və dünyəvi bir dövlət kimi insan hüquq və azadlıqlarının qorunması haqqında müddəalar, bərabərlik hüququ, azadlıq, yaşamaq, mülkiyyət, şəxsi toxunulmazlıq hüququ, cəmiyyətin və dövlətin siyasi həyatında iştirak etmək hüququ kimi müasir demokratiyanın tələblərinə cavab verən hüquq və azadlıqlar əks olundu.[8] Daha sonra Azərbaycan insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində bir çox beynəlxalq konvensiyalara qoşuldu. Ratifikasiya edilmiş bəzi konvensiyalardan "Qadınlara münasibətdə bütün növ ayrı-seçkiliyin aradan qaldırılması haqqında Konvensiya"[9], "İrqi

[7] İlham Əliyev İtaliyanın Çernobbio şəhərində keçirilən beynəlxalq forumda iştirak edib, 02.09.2022. Məlumat linki: https://president.az/az/articles/view/57093, son baxılma tarixi: 09.02.2023.

[8] Azərbaycan Respublikasının Konstitutsiyası, 3-cü fəsil, 12.11.1995 Bakı.

[9] UN Convention on the Elimination of All Forms of Discrimination against Women, № 20378, New York, 18.12.1979. Azərbaycan Respublikası bu Konvensiyanı Milli Məclisin 1995-ci il 30 iyun tarixli, 1074 nömrəli qərarına əsasən ratifikasiya etmişdir.

ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılması haqqında Konvensiya", "Köləlik haqqında Konvensiya",[10] "İnsan alveri ilə və üçüncü şəxslər tərəfindən fahişəliyin istismarı ilə mübarizə haqqında Konvensiya"[11], "İşgəncələrə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və cəza növlərinə qarşı Konvensiya"[12] kimi konvensiyaları sadalamaq olar. Bundan başqa Konstitusiya Məhkəməsinin yaradılması və "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Avropa Konvensiyanın"[13] ratifikasiya edilməsi haqqında qanunun qəbul edilməsi insan hüquqlarının müdafiəsi ilə bağlı yeni mexanizmlərin yaradılması baxımından öndəmli idi.[14]

Yeni Konstitusiyanın qəbul edilməsi və insan hüquqlarının müdafiəsi sahəsində bir çox beynəlxalq konvensiyalara qoşulmaqla yanaşı, təməl insan hüquqlarının müdafiəsi sahəsində atılmış ən mühüm addımlardan biri 1998-ci il 11 dekabr tarixli, 582-IQ nömrəli Qanuna əsasən "Vətəndaş və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın ölüm cəzasının ləğvinə yönəlmiş ikinci Fakultativ Protokolunun"[15] ratifikasiya edilməsi və ölüm cəzasının Azərbaycan qanunvericiyindən çıxarılması idi. Bununla Azərbaycan Respublikası Şərq aləmində ölüm cəzasını ləğv edən ilk ölkə olmuşdur. Bütövlükdə Ümummilli Lider Heydər Əliyev hakimiyyətə gəldikdən sonra 1993-cü ildən ölüm cəzasının icrasına moratorium tətbiq olunmuş, əfv və amnistiya institutları bərpa edilmişdir. Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan bu humanist siyasətin davamı olaraq 2023-cü il fevralın 3-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyanın ölüm cəzasının bütün hallarda ləğvinə dair 13 nömrəli Protokolunun Azərbaycan Respublikası adından imzalanması ilə bağlı müvafiq tapşırıqlar vermişdir. Bu addımla Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev yaşamaq hüququnu ən yüksək səviyyədə təmin etmək iradəsini bir daha nümayiş etdirmişdir.[16] İnsan hüquq və azadlıqlarına daim hörmətlə yanaşan Azərbaycan, 44 günlük Vətən müharibəsindən sonra da Azərbaycanın beynəlxalq hüquqla tanınan sərhədləri daxilində əsir götürülmüş işğalçı erməni əsgərləri Ermənistana təhvil vermiş və bununla istər müharibə dövründə, istərsə də post-müharibə dövründə bir daha insan hüquqlarının müdafiəsi sahəsində nümunəvi humanistlik nümayiş etdirmişdir.

---

[10] International Convention on the Elimination of All Forms of Racial Discrimination, New York, 7.3.1966. BMT Baş Məclisinin 1965-ci 21 dekabr tarixli Qətnaməsi ilə qəbul edilmişdir. Azərbaycan Respublikası bu Konvensiyanı 1996-cı il 31 may tarixli, 95-IQ nömrəli Qanuna əsasən ratifikasiya etmişdir.

[11] Convention to suppress the Slave Trade and Slavery, 25. September 1926. Azərbaycan Respublikası bu Konvensiyanı 1996-cı il 31 may tarixli, 99-IQ nömrəli Qanuna əsasən ratifikasiya etmişdir.

[12] UN Convention for the Suppression of the Traffic in Persons and of the Exploitation of the Prostitution of Others, Approved by General Assembly resolution 317 (IV) of 2 December 1949. Azərbaycan Respublikası bu Konvensiyanı 1996-cı il 31 may tarixli, 102-IQ nömrəli Qanuna əsasən ratifikasiya etmişdir.

[13] UN Convention against Torture and Other Cruel, Inhuman or Degrading Treatment of Punishment, adopted and opened for signature, ratification and accession by General Assembly resolution 39/46 of 10 December 1984. Azərbaycan Respublikası bu Konvensiyanı 1996-cı il 31 may tarixli, 103-IQ nömrəli Qanuna əsasən ratifikasiya etmişdir.

[14] İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Avropa Konvensiyasının və onun 1, 4, 6 və 7 saylı Protokollarının təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu, № 236-IIQ, 25.12.2001.

[15] Second Optional Protocol to the International Covenant on Civil und Politicals Rights, aiming at the abolition of the death penalty, adopted and proclaimed by General Assembly resolution 44/128, New York, 15.12.1989.

[16] Fuad Ələsgərov: Prezident İlham Əliyevin ölüm cəzasının bütün hallarda ləğvinə dair tapşırığı Heydər Əliyev siyasətinin humanist ənənələrinin davamıdır. Məlumat linki: https://azertag.az/xeber/Fuad_Alesgerov_Prezident_Ilham_Aliyevin_olum_cezasinin_butun_hallarda_legvine_dair_tapsirigi_Heyder_Aliyev_siyasetinin_humanist_enenelerinin_davamidir-2473382, son baxılma tarixi: 13.02.2023.

Nəticə olaraq qeyd etmək olar ki, globallaşan dünyada silahlı münaqişələrin artması, silah sənayesinin yeni inkişaf mərhələsinə daxil olması, separatizm, radikal milliyətçilik, dini radikalizmin və xüsusilə siyasi qütbləşmələrin güclənməsi beynəlxalq humanitar hüququn fundamental əsaslarından olan insan hüquq və azadlıqlarının səmərəli müdafiəsi üçün ciddi təhdidlər yaradır. Cənab Prezident İlham Əliyevin İtaliyanın Çernobbio şəhərində keçirilən beynəlxalq forumunda qeyd etdiyi kimi, artıq yeni qlobal vəziyyətin necə olacağını öncədən təxmin etmək artıq çətin məsələdir.

## X Ü L A S Ə

Məqalədə beynəlxalq hüququn böhran içərisində olduğu bir dövrdə insan hüquqlarının müdafiəsi ilə bağlı ortaya çıxan problemlərdən və Azərbaycanın insan hüquqlarının müdafiəsi ilə bağlı həyata keçirdiyi islahatlardan bəhs edilir.

**Нурлан Гасанов**
**Депутат Милли Меджлиса Азербайджанской Республики**

## Международное право в условиях кризиса: Защита прав человека в мирное и военное время

## Р Е З Ю М Е

В статье говорится о возникающих проблемах, связанных с защитой прав человека, в период кризиса международного права и проводимых Азербайджаном реформах, связанных с защитой прав человека.

**Nurlan Hasanov**
**Member of the Milli Majlis of the Republic of Azerbaijan**

## International law in crisis: Human rights protection in times of peace and war

## S U M M A R Y

In the article, the issues appear to protect the human rights and the reforms related to protecting them that Azerbaijan has implemented, have been mentioned at a time when international law is at its critical point.

*Soltan MƏMMƏDOV*

Azərbaycan Respublikası Milli Məclisinin deputatı

# SOSİAL TƏMİNAT HÜQUQU MÜASİR DÖVRDƏ İNSAN HÜQUQ VƏ AZADLIQLARININ ƏSAS KOMPONENTLƏRİNDƏN BİRİ KİMİ

İnsan hüquqları anlayışının tarixi kifayət qədər qədim olsa da zaman-zaman onun daha dəqiq təfsirinin verilməsi, cəmiyyət və dövlət münasibətlərinə təsirinin ən müxtəlif aspektlərinin tədqiqi diqqət mərkəzində saxlanılan əsas mövzulardan biri olmaqda davam edir. Klassik mənada insan hüquqları bütün insanların malik olmağa haqqı olduğu əsas hüquqlar və azadlıqlar kimi nəzərdən keçirilir. Bu anlayışın son dərəcə sadə, hamı üçün aydın olan tərifi kimi qəbul edilə bilər. Lakin insan hüquqları anlayışının bu qısa tərifi özündə çoxsaylı ideyaları, həyat həqiqətlərini, reallıqları və bütün bunlarla yanaşı, heç şübhəsiz ki, həm də bəşəriyyətin əldə etmək istədiyi nailiyyətləri ifadə edir.

Müasir nəzəriyyələrdə insan hüquqları anlayışının təsnifatı ilə bağlı fərqli yanaşmalar mövcud olsa da Strasburq Beynəlxalq İnsan Hüquqları İnstitutunun üzvü Karel Vasak tərəfindən irəli sürülmüş "insan hüquqlarının üç nəsli" konsepsiyası ümumilikdə bütün sahə mütəxəssislərinin qəbul etdiyi baxışlar sistemidir. İnsan hüquqları anlayışını müxtəlif kateqoriyalar üzrə təhlil etmək mümkündür. Lakin bu gün əsas hüquqlarla yanaşı bir çox ölkələrin, xüsusilə də Avropanın xüsusi həssaslıqla yanaşdığı istiqamətlərdən biri sosial-iqtisadi hüquqlardır. Hər bir insanın iş, məişət, məşğulluq, həyat səviyyəsi, sosial müdafiəsi sahəsində vəziyyətini müəyyən edən bu hüquqların təhlili, eləcə də elmi nəzəriyyələrdə keçdiyi təkamül yolu göstərir ki, sosial-iqtisadi hüquqların təmin olunmasında, yaxud bu sahədə vəziyyətin yaxşılaşdırılmasında əsas rolu dövlət yerinə yetirir. Başqa sözlə ifadə etmiş olsaq, dövlət iqtisadi və maliyyə baxımından nə qədər geniş imkanlara malikdirsə, vətəndaşların sosial hüquqlarını bir o qədər mükəmməl səviyyədə təmin etməyə qadir olur. Lakin əlbəttə ki, burada heç də az əhəmiyyətli olmayan ikinci çox vacib amil də var: dövlətin insan hüquqlarına münasibəti.

Ümumdünya insan hüquqları bəyannaməsinin 22-ci maddəsində göstərilir ki, cəmiyyətin bir üzvü kimi, hər bir insan sosial təminat, öz ləyaqətini qoruyub saxlaya bilmək, şəxsiyyətini azad inkişaf etdirmək üçün iqtisadi, sosial və mədəni sahələrdə zəruri olan hüquqlarını milli səylər və beynəlxalq əməkdaşlıq vasitəsilə, hər bir dövlətin strukturu və resurslarına müvafiq olaraq həyata keçirmək hüquqlarına malikdir. Bəyannamənin 25-ci maddəsi isə insanların özünün və ailəsinin sağlamlığının və rifahının qorunub saxlanılması üçün zəruri olan həyat səviyyəsinə malik olmaq hüququnu və işsizlik, xəstəlik, əlillik, dulluq, qocalıq halında və ondan asılı olmayan digər səbəblərə görə dolanışıq vasitələrini itirdiyi halda təminat hüququnu ifadə edir.

Azərbaycanın 2004-cü ildə qoşulduğu 1996-cı il 3 may tarixli Dəyişdirilmiş Avropa Sosial Xartiyasında sosial hüquqların daha dəqiq və əhatəli təfsirini verilib. Sənədin 31 maddədən ibarət olan II hissəsi bütövlükdə sosial hüquqların ayrı-ayrı istiqamətlərini ifadə edir. Buraya əmək hüququ, ədalətli, təhlükəsiz və sağlam əmək şəraiti, əməyin ədalətli ödənilməsi, sosial təminat, əlilliyi olan şəxslərin müstəqilliyi, sosial inteqrasiya və

cəmiyyətin həyatında iştirak etməsi, ailənin sosial, hüquqi və iqtisadi müdafiəsi, yaşlı şəxslərin sosial müdafiəsi, yoxsulluq və sosial təcridolunmadan müdafiə və digər hüquqlar aid edilir. Bu sənəd sosial hüquqların təmin olunmasının əsas prinsiplərini müəyyən etməklə yanaşı, ona qoşulan dövlətlərin üzərinə çox vacib öhdəliklər qoyur. Avropa sosial hüquq modeli və bu modelin əsas özəyi hesab edilən Avropa Sosial Xartiyasında əks olunmuş hüquqlar ona qoşulan müasir dövlətlərin sosial təminat hüququ ilə bağlı qanunvericilik bazasının əsas istinad mənbəyini təşkil edir.

İqtisadi, sosial və mədəni hüquqlar barədə 1966-cı ildə qəbul olunmuş Beynəlxalq Paktda əmək fəaliyyəti ilə məşğul olmaq, ədalətli və əlverişli əmək şəraiti, sosial təminat, ailənin, ananın və uşaqların mühafizəsi və onlara yardım, normal həyat səviyyəsi və s. əsas sosial hüquqların tərkib hissəsi kimi göstərilib.

Bundan başqa, Beynəlxalq Əmək Təşkilatı sosial hüquqlarla bağlı 170 konvensiya qəbul edib. 1958-ci ildə qəbul edilmiş "Əmək və məşğulluq sahəsində ayrı-seçkilik haqqında", 1964-cü il "Məşğulluq siyasəti haqqında", 1988-ci il "Məşğulluğa yardım və işsizlikdən müdafiə haqqında" və digər sənədlər əmək və məşğulluq məsələlərinin tənzimlənməsi sahəsində beynəlxalq hüquqi bazanın yaradılmasında mühüm rol oynayıb.

Müasir elmi nəzəriyyələrdə hər bir şəxsin sosial-iqtisadi həyat şəraitinin təmin edilməsi üçün normativ hüquqi əsasların müəyyən edilməsini nəzərdə tutan sosial-iqtisadi hüquqlar insanların iş və məişət, məşğulluq, həyat səviyyəsi, sosial müdafiəsi sahəsində vəziyyətini yaxşılaşdırmağı nəzərdə tutur. Lakin burda məsələ yalnız normativ-hüquqi bazanın yaradılması ilə yekunlaşmır. Dövlət eyni zamanda, mütərəqqi, bilavasitə vətəndaşın mənafeyinə maksimum xidmət edən iqtisadi və sosial islahatların davamlılığını, mövcud resursları bu prosesin səmərəli təşkili üçün düzgün istifadə etməyi də öz üzərinə götürür. Çünki həm klassik həm də müasir anlamda dövlətin əsas funksiyalarından biri vətəndaşların layiqli həyatını təmin etmək üçün ən əlverişli şərtləri formalaşdırmaqdan ibarətdir.

Hamıya aydındır ki, nəzəriyyə və praktika heç də real həyatda həmişə bir-birini tamamlamır. Lakin hər bir cəmiyyətin ümumi sosial ehtiyaclarını təmin etmək üçün dövlətin üzərinə düşən əsas funksiyalardan biri zəruri hüquqi bazanın formalaşdırılması ilə yanaşı, mövcud sosial müdafiə mexanizmlərinin real həyatda tətbiqini həyata keçirməkdən ibarətdir. Bu mənada, Azərbaycanın müstəqillik tarixinin ilk illərində dövlət idarəçiliyində yol verilən ciddi nöqsanlar bütün digər sahələrdə olduğu kimi, sosial təminat hüququnun reallaşması istiqamətində də ciddi qüsurlarla müşayiət olunurdu. 1993-cü ildə ümummilli lider Heydər Əliyevin hakimiyyətə gəlişi əhalinin sosial müdafiəsi sahəsində effektiv və dövrün çağırışlarına, eyni zamanda, vətəndaşların ehtiyaclarına uyğun yeni sosial siyasət modeli qurulmasına imkan yaratdı. Əlbəttə ki, bu istiqamətdə atılan fundamental addımlardan biri 1995-ci ildə Azərbaycan Konstitusiyasının qəbul edilməsi idi.

Ölkənin Əsas Qanununun 35-ci maddəsində əmək hüququ əsas insan və vətəndaş hüquqları və azadlıqlarından biri kimi təsbit olundu. Burda əmək fərdi və ictimai rifahın əsası kimi göstərilir. Eyni zamanda, hər kəsin əməyə olan qabiliyyəti əsasında sərbəst surətdə özünə fəaliyyət növü, peşə, məşğuliyyət və iş yeri seçmək, təhlükəsiz və sağlam şəraitdə işləmək, heç bir ayrı-seçkilik qoyulmadan öz işinə görə dövlətin müəyyənləşdirdiyi minimum əmək haqqı miqdarından az olmayan haqq almaq, əmək müqaviləsi bağlamağa məcbur edilməmək, işsizlərin dövlətdən sosial müavinət almaq, hər kəsin istirahət və tətil hüququ da Konstitusiyada öz əksini tapmışdı.

Ulu Öndərin müəllifi olduğu Konstitusiyada əmək müqaviləsi ilə işləyənlərə qanunla müəyyən edilmiş, lakin gündə 8 saatdan artıq olmayan iş günü, istirahət və bayram günləri, ildə azı bir dəfə 21 təqvim günündən az olmayan ödənişli məzuniyyət verilməsi hüququ da

təsbit olunmuşdur. Konstitusiyanın “Sosial inkişaf və dövlət" adlanan 16-cı maddəsində göstərilir ki, Azərbaycan dövləti xalqın və hər bir vətəndaşın rifahının yüksəldilməsi, onun sosial müdafiəsinin və layiqli həyat səviyyəsinin qayğısına qalır.

Konstitusiyanın 38-ci maddəsində isə bütün vətəndaşların sosial təminat hüququ tanınaraq göstərilir ki, hər kəs qanunla müəyyən edilmiş yaş həddinə çatdıqda, xəstəliyinə, əlilliyinə, ailə başçısını itirdiyinə, əmək qabiliyyətini itirdiyinə, işsizliyə görə və qanunla nəzərdə tutulmuş digər hallarda sosial təminat hüququna malikdir.

Ümummilli Lider Heydər Əliyevin təşəbbüs və qərarları sosial müdafiə sahəsində daha mükəmməl qanunvericilik bazasının formalaşdırılması, eləcə də vətəndaşların rifahını təmin etməyə yönəlmiş praktik addımların atılmasını təmin etdi. Ulu Öndərin Azərbaycanda hakimiyyətdə olduğu 1993-2003-cü illərdə pensiya və müavinətlər 8 dəfə, muzdla işləyənlərin orta aylıq əməkhaqqı 6 dəfədən çox artırılmışdı. Azərbaycan MDB məkanında yeni sosial-iqtisadi münasibətlər dövrünə uyğun Əmək Məcəlləsini qəbul edən ilk ölkə oldu. Məşğulluq, əmək miqrasiyası və digər sahələrlə bağlı qanunların, əlilliyin qarşısının alınması və reabilitasiyası üzrə ilk dövlət proqramının qəbul edilməsi, pensiya təminatı sisteminin qabaqcıl beynəlxalq təcrübə əsasında yenidən qurulması istiqamətində çox mühüm və tarixi əhəmiyyətə malik addımlar atıldı.

Azərbaycan parlamentinin 13 iyun 1997-ci ildə qəbul etdiyi "Vətəndaşların pensiya təminatı haqqında" Azərbaycan Respublikası Qanununa dəyişiklik və əlavələr edilməsi barədə" qanunun tətbiqi ilə əlaqədar pensiyaların hesablanması sistemində edilən dəyişikliklər 650 min vətəndaşın pensiyasının orta hesabla 2,1 dəfə artırılmasına imkan yaratdı.

2001-ci ilin 17 iyulunda Ulu Öndərin imzaladığı sərəncamla təsdiq edilən "Azərbaycan Respublikasında Pensiya İslahatı Konsepsiyası" əhalinin sosial müdafiəsini gücləndirmək, vətəndaşların pensiya təminatını yaxşılaşdırmaq, pensiya təminatı sisteminin idarə edilməsini, pensiyaların müəyyən olunması və əhaliyə verilməsi mexanizmini təkmilləşdirmək məqsədinə xidmət edirdi. Bu sənəd ölkədə pensiya islahatları sahəsində son dərəcə mühüm əhəmiyyətə malik addımlardan biri olmaqla, pensiya təminatı sisteminin təkmilləşdirilməsinə, əhalinin daha dayanıqlı sosial müdafiəsini təmin etməyə imkan verdi. Burda əsas hədəflərdən biri də pensiya təminatı mezanizmlərini bazar iqtisadiyyatının prinsiplərinə uyğunlaşdırmaq, sığorta-pensiya sisteminin müavinət sistemindən ayrılmasını təmin etməkdən ibarət idi ki, bu da daha etibarlı sistemin qurulmasını nəzərdə tuturdu.

2003-cü il fevral ayının 20-də Ümummilli Lider Heydər Əliyevin 854 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı"nın icrasına başlandığı dövrdə Azərbaycanda yoxsulluq səviyyəsi 49 faizə yaxın idi. Bu proqram əhalinin sosial müdafiəsinin daha effektiv şəkildə təmin olunmasına imkan yaratmaqla, yoxsulluq səviyyəsinin əhəmiyyətli dərəcədə azalmasını təmin etdi.

Azərbaycan Konstitusiyasının 16-cı maddəsinin 1-ci bəndində göstərilir ki, Azərbaycan dövləti xalqın və hər bir vətəndaşın rifahının yüksəldilməsi, onun sosial müdafiəsi və layiqli həyat səviyyəsi qayğısına qalır. Ümummilli Lider Heydər Əliyevin siyasəti Azərbaycanda sosial dövlət modelinin qurulmasını nəzərdə tutmaqla, əhalinin sosial müdafiəsi sahəsində dövrün çağırışlarına cavab verən, eləcə də cəmiyyətin tələb və gözləntiləri ilə dövlətin imkanları arasında balans yaratmağa xidmət edən daha praktik bir sistemin formalaşmasına gətirib çıxardı. Şəxsiyyətin rifahı və cəmiyyətin firavanlığı naminə sosial ədalətin və əməyin məhsulunun bölüşdürülməsində həmrəyliyin təmin edilməsini ehtiva edən sosial dövlət modeli bütün təbəqələr üçün bərabər imkanlar yaratmaqla yanaşı, həm də onların bərabərhüquqluğunu təmin edir. Ədalətli sosial siyasətin əsas prinsipləri də elə dövlətin

cəmiyyətdəki sosial problemləri düzgün dəyərləndirməsi, maddi və mədəni tələbatların təmin olunması, cəmiyyətin hər bir üzvünə sosial-iqtisadi hüquqlarını realizə etməyə imkan verən qaydalara əsaslanır.

Bu gün Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanda həyata keçirilən sosial islahatlar Ümummilli Lider Heydər Əliyevin fəaliyyəti nəticəsində formalaşmaqda olan sosial dövlət modelinin daha da təkmilləşdirilməsini nəzərdə tutur. Bu istiqamətdə atılan ən önəmli addımlardan biri, sosial müavinət sisteminin sığorta-pensiya sistemindən ayrılması təmin edən "Əmək pensiyaları haqqında" və "Sosial müavinətlər haqqında" qanunların qəbul edilməsi oldu. 2006-cı il yanvarın 1-dən qüvvəyə minən bu qanunlar ölkədə sosial müdafiə sisteminin tamamilə yenidən, daha təkmil və işlək mexanizmlər əsasında qurulmasına imkan yaratdı.

Son illərdə isə Azərbaycanda inqilabi xarakter daşıyan sosial islahatlar cəmiyyətlə dövlət arasında münasibətlərdə etimadın əhəmiyyətli dərəcədə güclənməsinə şərait yaradıb. Prezident İlham Əliyev tərəfindən 2018-2023-cü illərdə 4 milyondan çox insanı əhatə edən 4 sosial islahat paketi həyata keçirilib. Bu sosial islahatlar nəticəsində minimum əməkhaqqı 2,7 dəfə artırılaraq, 130 manatdan 345 manata çatdırılıb. Azərbaycanda son 5 il ərzində minimum pensiyanın məbləği 2018-ci illə müqayisədə 2,5 dəfə artmışdır. 2018-2022-ci illərdə orta aylıq əməkhaqqında 52 faiz, orta aylıq pensiyada 80 faiz artım qeydə alınıb. Qeyd etmək lazımdır ki, 2018–2022-ci illərdə pensiya, müavinət, təqaüd, ünvanlı yardım üzrə ayrılan illik vəsait 80 faiz artıb. Xatırlatmaq yerinə düşər ki, 2018-ci ildə sosial müavinət və təqaüdlər üçün ayrılan illik vəsait 300 milyon manat olub. Lakin bu gün qeyd olunan istiqamətlər üzrə ayrılan vəsait 1,5 milyard manatı ötür. Ümumilikdə 2018-ci ildən keçən dövr ərzində təsis olunan yeni sosial ödəniş növlərinin sayı isə 10-da çoxdur. Son 5 il ərzində həyata keçirilən sosial islahatlar çərçivəsində özünüməşğulluq proqramına cəlb olunanların illik sayı proqramın icrasına başlandığı 2017-ci illə müqayisədə 15 dəfə artıb.

2023-cü ildə icrasına başlanılan 4-cü sosial paket 1,9 milyon insanı əhatə edir və bu məqsədlə əməkhaqlarının, müavinət və təqaüdlərin artırılması üçün əlavə olaraq illik 750 milyon manat ayrılıb. Prezident İlham Əliyevin imzaladığı 5 yanvar 2023-cü il tarixli "Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində əlavə tədbirlər haqqında" Sərəncam ölkəmizdə son beş ildə artıq dördüncü sosial islahat paketinin icrasına başlanmasını, yeni sosial islahat mərhələsinə keçidi təmin edir.

Azərbaycan Prezidenti İlham Əliyevin 229 nömrəli 9 avqust 2018-ci il tarixli Fərmanı ilə yaradılan Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi (DOST Agentliyi) sosial xidmətlər sahəsində keyfiyyətcə yeni mərhələnin başlanmasına, şəffaflıq, operativlik, vətəndaş məmnunluğunu təmin etməyə imkan verən müasir xidmətlər modelinin qurulmasına imkan yaratdı. Hazırda Azərbaycanda 6 dost mərkəzi fəaliyyət göstərir ki, bu da sosial sahələr üzrə 154 xidmətin "bir pəncərə"dən, operativ, şəffaf, müasir, innovativ əsasda təqdim olunmasını təmin edilir.

Azərbaycanda sosial xidmətləri sahəsində elektron texnologiyaların tətbiqi istiqamətində də ardıcıl tədbirlər həyata keçirilir. Bu gün Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təqdim etdiyi 153 xidmətdən 140-dan çoxu elektronlaşdırılıb.

Bütün bu islahatlar Azərbaycanda sosial təminat hüququnun təmin edilməsinin uğurlu bir modelinin yaradıldığını söyləməyə əsas verir. İnsan hüquqlarının əsas istiqamətlərindən biri olan sosial təminat hüququ vətəndaşla dövlət arasında qarşılıqlı etimadın dərinləşməsinə xidmət etməklə yanaşı, insan hüquqları sahəsində də daha uğurlu nəticələrə nail olunması üçün vacib şərtlərdən biri kimi qiymətləndirilir. Bu mənada, Azərbaycan Respublikası qısa vaxtda kifayət qədər ciddi nailiyyətlərə imza atmağa müvəffəq olub. Məqalənin əvvəlində

qeyd etmişdik ki, vətəndaşların sosial təminat hüququnun reallaşmasında dövlətin iqtisadi və maliyyə imkanları qədər təsirli amillərdən biri də insan hüquqlarına münasibətdir. Bu baxımdan, Azərbaycan Prezidentinin dəfələrlə qeyd etdiyi bir fikri xatırlatmaq yerinə düşür: Azərbaycan dövlətinin siyasətinin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Bu, əslində, Azərbaycanda insanların sosial təminat hüququnun təmin edilməsi istiqamətində dövlət siyasətinin bütün fəlsəfəsini ifadə edən tezis kimi də qəbul edilə bilər.

**İstifadə olunmuş ədəbiyyat siyahısı**

1. Azərbaycan Respublikasının Konstitusiyası.

2. Azərbaycan Respublikasında Pensiya İslahatı Konsepsiyasının təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. Bakı şəhəri, 17 iyul 2001-ci il, № 767

3. Avropa Sosial Xartiyasının təsdiq edilməsi barədə Azərbaycan Respublikasinin Qanunu. Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 1, maddə 14

4. “Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. Bakı şəhəri, 5 yanvar 2023-cü il, №3708.

5. “Əmək pensiyaları haqqında” Azərbaycan Respublikasının Qanunu. Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 3.

6. "Vətəndaşların pensiya təminatı haqqında" Azərbaycan Respublikası Qanununa dəyişiklik və əlavələr edilməsi barədə" Azərbaycan Respublikasının Qanunu. Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997-ci il, № 6, maddə 453)

7. “Sosial müavinətlər haqqında” Azərbaycan Respublikasının Qanunu. Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 2

8. Ulu öndər Heydər Əliyev Azərbaycanın vətəndaş rifahına təminat verən sosial dövlət modelinin müəllifidir. "Respublika" qəzeti 09.05.2019-cu il.

9. Vasak Karel. The International dimensions of human rights. Greenwood Press.

10. International Covenant on Economic, Social and Cultural Rights. United Nations – 1967.

11. Robert, G. Blackstone's Statutes on Public Law and Human Rights 2019-2020. Oxford University Press – 2019.

## X Ü L A S Ə

Sosial-iqtisadi hüquqların təmin olunmasında əsas rolu dövlət yerinə yetirir. Dəyişdirilmiş Avropa Sosial Xartiyası, Sosial və Mədəni Hüquqlar Barədə Beynəlxalq Pakt və Beynəlxalq Əmək Təşkilatının konvensiyaları müasir dövlətlərin sosial təminat hüququ ilə bağlı qanunvericilik bazasının əsas mənbəyini təşkil edir.

1993-cü ildə Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə gəlişi əhalinin sosial müdafiəsi sahəsində yeni sosial siyasət modeli qurulmasına imkan yaratdı. 1995-ci ildə qəbul edilən Azərbaycan Konstitusiyasının 35-ci maddəsində əmək fərdi və ictimai rifahın əsası kimi göstərilir.

Ulu Öndərin Azərbaycanda hakimiyyətdə olduğu 1993-2003-cü illərdə pensiya və müavinətlər 8 dəfə, muzdla işləyənlərin orta aylıq əməkhaqqı 6 dəfədən çox artırılmışdı. Azərbaycan MDB məkanında yeni sosial-iqtisadi münasibətlər dövrünə uyğun Əmək Məcəlləsini qəbul edən ilk ölkə oldu.

2001-ci ildə Ulu Öndərin sərəncamı ilə təsdiq edilən "Azərbaycan Respublikasında Pensiya İslahatı Konsepsiyası" pensiya təminatı sisteminin təkmilləşdirilməsinə imkan verdi. Ümummilli Liderin siyasəti Azərbaycanda sosial dövlət modelinin qurulmasını nəzərdə tutan praktik sistemin formalaşmasına gətirib çıxardı.

Prezident İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən sosial islahatlar Ümummilli Lider Heydər Əliyevin qurduğu sosial dövlət modelinin daha da təkmilləşdirilməsini nəzərdə tutur. 2018-2023-cü illərdə həyata keçirilən İslahatlar Azərbaycanda sosial təminat hüququnun reallaşması üçün daha etibarlı mexanizmlər formalaşdırdı.

**Солтан Мамедов**
**депутат Милли Меджлиса Азербайджанской Республики**

## ПРАВО СОЦИАЛЬНОГО ОБЕСПЕЧЕНИЯ – КАК ОДИН ИЗ ОСНОВНЫХ КОМПОНЕНТОВ ПРАВ И СВОБОД ЧЕЛОВЕКА В СОВРЕМЕННОМ МИРЕ

### Р Е З Ю М Е

Государство играет главную роль в обеспечении социально-экономических прав. Измененная Европейская социальная хартия, Международный пакт о социальных и культурных правах и конвенции Международной организации труда составляют основной источник правовой базы современных государств в отношении права на социальное обеспечение.

Приход к власти Общенационального лидера Гейдара Алиева в 1993 году позволил утвердить новую модель социальной политики в сфере социальной защиты населения. Статья 35 Конституции Азербайджана, принятой в 1995 году, гласит, что труд является основой личного и общественного благополучия.

В период с 1993 по 2003 гг., когда Общенациональный лидер находился у власти в Азербайджане, пенсии и пособия были увеличены в 8 раз, а среднемесячная заработная плата наемных работников увеличена более чем в 6 раз. Азербайджан стал первой страной на просторах СНГ, принявшей Трудовой кодекс в соответствии с новым периодом социально-экономических отношений.

«Концепция пенсионной реформы в Азербайджанской Республике», утвержденная указом Гейдара Алиева в 2001 году, позволила усовершенствовать пенсионную систему. Политика Общенационального лидера привела к формированию практической системы, предусматривающей создание в Азербайджане модели социального государства.

Социальные реформы, проводимые под руководством Президента Ильхама Алиева, предусматривают дальнейшее совершенствование модели социального государства, созданной общенациональным лидером Гейдаром Алиевым. Реформы, проведенные с 2018 по 2023 годы, сформировали в Азербайджане более надежные механизмы реализации права на социальное обеспечение.

**Soltan Mammadov**
**Member of Milli Majlis of the Republic of Azerbaijan**

# SOCIAL WELFARE LAW AS ONE OF THE MAIN COMPONENTS OF HUMAN RIGHTS AND FREEDOMS IN THE MODERN PERIOD

## S U M M A R Y

The government plays the main role in ensuring socio-economic rights. The modified European Social Charter, the International Covenant on Social and Cultural Rights, and the International Labor Organization conventions form the foundation of modern states' legal frameworks governing the right to social security.

The election of national leader Heydar Aliyev in 1993 provided an opportunity to establish a new social policy model in the field of population social protection. Article 35 of the Constitution of Azerbaijan, adopted in 1995, states that work is the basis of individual and social well-being.

Pensions and allowances were increased 8 times between 1993 and 2003, when the Great Leader was in power in Azerbaijan, and the average monthly salary of employees was increased more than six times. In accordance with the new period of socioeconomic relations, Azerbaijan became the first country in the Commonwealth of Independent States to adopt the Labor Code.

The "Pension Reform Concept in the Republic of Azerbaijan," approved by decree of the Great Leader in 2001, enabled the pension system to be improved. The national leader's policy resulted in the formation of a practical system that allows for the establishment of a social state model in Azerbaijan.

The social reforms implemented under President Ilham Aliyev's leadership are based on the social state model established by national leader Heydar Aliyev. The reforms implemented in Azerbaijan from 2018 to 2023 formed more reliable mechanisms for the realization of the right to social security.

***Afət HƏSƏNOVA***

Azərbaycan Respublikası Milli Məclisinin deputatı

# ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN AZƏRBAYCANÇILIQ İDEOLOGİYASI, SİYASİ SABİTLİK, BÖHRANDAN İNKİŞAFA GEDƏN YOL

***Açar sözlər:*** *Ulu Öndər Heydər Əliyev, Azərbaycançılıq ideologiyası, əsrin müqaviləsi, neft strategiyası, siyasi sabitlik, iqtisadi sabitlik*

***Ключевые слова:*** *Великий лидер Гейдар Алиев, идеология азербайджанства, контракт века, нефтяная стратегия, политическая стабильность, экономическая стабильность*

***Keywords:*** *Great Leader Heydar Aliyev, the Ideology of Azerbaijanism, the Contract of the Century, oil strategy, political stability, economic stability*

Müstəqil Azərbaycanın uğurlu gələcəyi onun iqtisadi potensialına, həyata keçirilən islahatlara, məqsədyönlü siyasətə və dünya birliyinə davamlı inteqrasiyasına əsaslanır. Artıq beynəlxalq reytinqlərdə ardıcıl olaraq son bir neçə ildir ki, Azərbaycan dünyanın ən islahatçı dövlətlərindən hesab edilir. Bir çox beynəlxalq təşkilatlar Azərbaycanda həyata keçirilən islahatların səmərəliliyini, effektivliyini aydın şəkildə qeyd edir və bu islahatların gələcəyə böyük qapı açdığını vurğulayırlar. Əlbəttə, bütün bunlara baxdıqda, ilk növbədə, ağlagələn bünövrədir, təməldir. Zamanında atılan təməl düzgün olmasaydı, bu gün regionun lider dövləti, güclü iqtisadiyyatı və ordusuna malik olan Azərbaycandan qürurla danışmaq çətin olardı. Ona görə də, gəlin, öncə bir dövlətin ayaqda durması, dirçəlməsi, dünya dövlətləri içərisində sürətli inkişafa nail olması və sivilizasiyalara inteqrasiya olunması üçün təməl prinsiplərdən bəhs edək. Müasir müstəqil Azərbaycan dövlətinin təməl prinsiplərinin banisi isə Ulu Öndər Heydər Əliyevdir. Məhz onun uzaqgörənliyi, dərin zəkası, intellektual düşüncəsi sayəsində bugünkü Azərbaycandan qürurla danışmağı haqq edirik. Ulu Öndərin ən ümdə düşüncələrindən biri Azərbaycançılıq ideyası idi. Məhz bu ideya və onun ətrafında həyata keçirilən irimiqyaslı iş sayəsində Azərbaycan xalqı ağır bəlalardan, Azərbaycan dövləti isə məhv olmaq təhlükəsindən xilas olundu. Belə ki, Azərbaycançılıq dövlət müstəqilliyi əldə ediləndən sonra həm Azərbaycanda, həm də bütün dünyada yaşayan azərbaycanlılar üçün aparıcı ideya kimi daim diqqətdə saxlanıldı. Əlbəttə ki, bu ideyanın kütləviləşməsi, ümumxalq şüara çevrilməsi isə məhz Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Odur ki, Heydər Əliyevin Azərbaycan dövləti qarşısındakı xidmətlərindən danışarkən, hər şeydən öncə onun azərbaycançılıq işindən başlamaq lazımdır...

1991-ci ilin oktyabr ayında Azərbaycan xalqı illərdir həsrətində olduğu müstəqilliyini qanı bahasına bərpa etdi. Bu, ölkəmizin və xalqımızın həyatında dönüş nöqtəsi, yeni bir tarixi mərhələnin əsasını qoydu. Müstəqilliyimizin elə ilk illərindəcə ölkəmiz çox böyük sınaqlar, çətinliklər, bəlalarla üz-üzə qaldı. O zamankı hakimiyyətin siyasi səriştəsizliyi, idarəetmə bacarığının yoxluğu ölkəmizdə dərin siyasi və iqtisadi böhranın yaranmasına səbəb oldu və ölkəmizin parçalanmasına, bir dövlət kimi yox olmasına şərait yarandı. Belə ki, AXC-Müsavat iqtidarının yarıtmazlığı, dövlət idarəçiliyi sisteminin olmaması, ölkədə

fəaliyyət göstərən silahlı dəstələrin 1993-cü ilin əvvəllərindən başlayaraq yol verdikləri başıpozuq əməllər, ölkəmizin ayrı-ayrı bölgələrində separatçılıq və parçalanma meyllərinin baş qaldırması və bütün bunların ölkənin daxilində qardaş qırğını, vətəndaş müharibəsinə zəmin yaratması Azərbaycanı bir dövlət kimi məhv olmaq təhlükəsi ilə üz-üzə qoymuşdu. Digər tərəfdən isə Ermənistanın Azərbaycana qarşı təcavüzü, torpaqlarımızın bir hissəsini işğal etməsi vəziyyəti daha da çətinləşdirmişdi. Hakimiyyətin başı isə daxili siyasi çəkişmələrə, vəzifə uğrunda mübarizəyə, dövlət əmlakının mənimsənilməsinə qarışdığından, bu acınacaqlı vəziyyət ölkəmizi hər gün daha da uçuruma sürükləyirdi. Ayrı-ayrı silahlı qruplaşmalar bəzi siyasi "lider"lərin rəhbərliyi altında hakimiyyət uğrunda mübarizəyə cəlb olunmşdu. Siyasi böhranla bərabər, ölkədə hökm sürən iqtisadi tənəzzül, ərzaq qıtlığı insanların sosial durumunu olduqca çətin vəziyyətə salmışdı və bütün bunlar xalqın bu gündən sabaha ümidini qırmışdı. Lakin xalqımız çox yaxşı başa düşürdü ki, ölkəni bu ağır vəziyyətdən yalnız Heydər Əliyev kimi cəsarətli, uzaqgörən, zəngin dövlətçilik təcrübəsinə malik bir rəhbər çıxara bilər. Ulu Öndər xalqın səsinə səs verdi və bu çətin və məsuliyyətli vəzifəni üzərinə götürərək 1993-cü ilin iyun ayında xalqın istəyi və tələbi ilə yenidən hakimiyyətə gəldi. Bu hadisə müstəqil Azərbaycan tarixində dönüş nöqtəsi, yeni bir mərhələ oldu. Ulu Öndər ölkənin müstəqilliyini qorudu, respublikada tüğyan edən ictimai-siyasi böhranı aradan qaldırdı və dayanıqlı inkişafın təməlini qoydu. Heydər Əliyevin hakimiyyətə qayıdışı xalqımızın itirilmiş inamını özünə qaytarmaqla yanaşı, müstəilliyimizin möhkəmlənməsinin və ölkənin yeni inkişaf dövrünün əsasını qoydu. Heydər Əliyev tərəfindən atılan çevik və əməli addımlar nəticəsində ölkədə qısa müddət ərzində ictimai-siyasi sabitliyə nail olundu, qanunsuz silahlı dəstələr və separatçı qüvvələr zərərsizləşdirildi, dövlət çevrilişi cəhdlərinin qarşısı alındı, müharibədə uzunmüddətli atəşkəsə nail olunmaqla erməni təcavüzü dayandırıldı.Heydər Əliyevin hakimiyyətə qayıtması ilə bütün sahələrdə, o cümlədən, ölkəmizin iqtisadi həyatında da taleyüklü dəyişikliklər baş verdi. Azərbaycan dövlətini və ölkə iqtisadiyyatını labüd fəlakətdən, hərcmərclikdən xilas edən Heydər Əliyev ölkənin iqtisadi yüksəlişi üçün təcili tədbirlər görməyə başladı. Azərbaycan xalqının xoşbəxtliyi ondan ibarət idi ki, onun Heydər Əliyev kimi gələcək prosesləri dəqiq müəyyənləşdirən, tarixin nizamını və gedişini ölçə bilən təfəkkür, parlaq natiqlik məharəti, qüdrətli siyasi iradə, güclü dövlətçilik duyğusu, çevik idarəetmə məharəti, insanların qəlbinə yol tapmaq və xalqın qüdrətinə arxalanmaq kimi bacarıqları olan bir lideri var idi. Heydər Əliyev azərbaycançılığı dövlətçiliyə tətbiq edərək milli bir dövlət qurdu. Onu da xüsusi olaraq vurğulayaq ki, Ulu Öndərin azərbaycançılıq ideologiyasının bünövrəsində məhz Azərbaycan dili dayanırdı. Azərbaycan dilini bilmədən, əlbəttə ki, azərbaycançı olmaq qeyri-mümkün idi. Ümummilli Lider bu barədə öz çıxışlarının birində belə deyib: "Hər bir millətin dili onun üçün çox əzizdir. Bizim üçün Azərbaycan dili, ana dilimiz həddindən artıq əzizdir. Çünki çox illər ana dilimiz, Azərabycan dili həyatımızda geniş yer ala bilməmişdir. Amma buna baxmayaraq, hər bir azərbaycanlı dilin qorunub saxlanılmasında az da olsa, çox da olsa, xidmətlərini göstərmişdir. Xüsusən, bizim yazıçılarımız, ədəbiyyatşünaslarımız, şairlərimiz o ağır dövrdə Azərbaycan dilinin yaşamasında böyük xidmətlər göstərmişlər. Mən bu gün böyük iftixar hissi ilə deyə bilərəm ki, Azərbaycan dili XX əsrdə böyük inkişaf yolu keçmişdir. İndi baxın bizim dilimiz nə qədər zəngindir, nə qədər məlahətlidir, nə qədər şirindir və bütün fikirləri ifadə etməsi üçün nə qədər söz ehtiyatlarına malikdir. Biz Azərbaycanda Azərbaycan dilinin hakim olmasını, Azərbaycan dilinin getdikcə inkişaf etməsini təmin edəcəyik". Təsadüfi deyil ki, XX yüzillik Azərbaycan ədəbi dilinin ən sürətli tərəqqisi və çiçəklənməsi dövrü olub. Ədəbi dil məsələsi əsrin əvvəllərindən ictimai-siyasi mübarizənin əsas tərkib hissəsi idi. Heydər Əliyevin milli

ideologiya konsepsiyasında da XX əsrin məhz bu tarixi ənənəsi vacib yer tuturdu. Heydər Əliyev dilin taleyinə millətin və dövlətin taleyi kimi baxır və bu qənaətə gəlirdi ki, müstəqil Azərbaycan Respublikasının gələcəyi üçün ən əsas vasitələrdən biri ana dilinin dövlət dili kimi inkişaf etdirilməsidir. Bundan başqa, Heydər Əliyev dövlət siyasətini həyata keçirərəkən, eləcə də Azərbaycan xalqını dünyaya tanıtdırmaq üçün mədəniyyət faktorundan məharətlə istifadə edirdi. Özü bir dəfə belə demişdi: "Xalq bir neçə xüsusiyyətləri ilə tanınır, sayılır və dünya xalqları içərisində seçilir. Bu xüsusiyyətlərdən ən böyüyü mədəniyyətdir". Beləliklə, Ulu Öndər mədəniyyəti xalqı irəliyə aparan, onu yaşadan, zənginləşdirən əvəzsiz bir vasitə kimi qəbul edirdi. Cəmiyyətdə mənəvi deformasiyaların vaxtında aradan qaldırılması, xalqın özünə və dövlətə inanması, eləcə də mənəvi tarazlığın qorunması üçün mədəniyyətə ciddi önəm verməsi Heydər Əliyevin siyasi lider kimi tarixi uzaqgörənliyinin nəticəsi idi. Ulu Öndərin Azərbaycan dövlətçiliyi uğrunda gördüyü işlər, əlbəttə ki, saymaqla bitmir. Heydər Əliyev müstəqil Azərbaycan Respublikasının Konstitusiyasının hazırlanmasında, onun qəbul edilməsində gərgin əmək sərf etmişdir. Təbii ki, Konstitusiyanın qəbulu dövlətçiliyimizin möhkəmləndirilməsi, Azərbaycanın dünya birliyində nüfuzunun daha da artması baxımından tariximizin çox mühüm ictimai-siyasi hadisəsi idi. Konstitusiya təkcə yeni ictimai sistemin hüquqi tanınmasını təsdiq edən fakt deyildi, eyni zamanda, ölkəmizin hüquqi dövlət statusunda inkişafının prinsipcə yeni mərhələyə keçməsinin göstəricisi idi. Bu mərhələ, hər şeydən öncə, siyasi sistemin mərkəzində insan və vətəndaş, onun hüquq və azadlıqlarının, demokratik və hüquqi dövlət ideallarının durması ilə xarakterikdir.

Bu gün Azərbaycan xalqı öz böyük şəxsiyyəti olan Heydər Əliyevi yalnız siyasi lider kimi yox, eyni zamanda, milli dövlətçilik ideologiyasının şəriksiz müəllifi kimi qəbul edir. Bu səbəbdəndir ki, Heydər Əliyevin ideyaları bu gün də yaşayır və hər addımda özünü göstərir. Çünki Ulu Öndər bütün vətəndaşların hüquqlarını bərabər şəkildə qoruya bilən bir dövlətin əsasını qoydu. Yalnız hüququn aliliyinə əsaslanan idarəetmə sistemi qurdu. "Əsrin müqaviləsi"ndən danışarkən, bunu Ulu Öndərin bugünkü və sabahkı nəsillər qarşısında tarixi xidməti kimi dəyərləndirmək olar. Bu müqavilə sayəsində Heydər Əliyev müasir neft siyasətimizin strategiyasını müəyyənləşdirmişdi. Belə ki, 1994-cü il sentyabrın 20-si müstəqil Azərbaycanın həyatına tarixi gün kimi yazıldı – "Azəri-Çıraq-Günəşli" dəniz neft-qaz yataqları blokunun kəşfiyyatı və işlənməsi üzrə "Əsrin müqaviləsi" imzalandı. 29 il bundan öncə Bakıda Qərb şirkətləri ilə bağlanmış neft sazişi yenicə müstəqillik qazanmış Azərbaycan Respublikasının yeni tarixinin şanlı səhifəsinə çevrildi. Bu gün "Əsrin müqaviləsi"nin müstəqil Azərbaycanın sosial-iqtisadi inkişafında, həmçinin, regional və qlobal əməkdaşlığın dərinləşməsində oynadığı roldan danışarkən, əlbəttə ki, məmnunluq hissi keçiririk. Lakin o da sirr deyil ki, sözügedən müqavilənin Azərbaycanın maraqları çərçivəsində hazırlanması və imzalanması heç də asan ərsəyə gəlməyib. Çünki bu layihəni qısqanan, gözügötürməyən, reallaşmasını istəməyən qüvvələr vardı. Məhz Ümummilli Liderin əzmi və iradəsi sayəsində bu möhtəşəm layihə həyata keçdi və onun Azərbaycanın sonrakı sürətli inkişafında oynadığı rol artıq göz qabağındadır. Təsadüfi deyil ki, bu gün Azərbaycanın beynəlxalq miqyasda uğurlu model kimi qəbul edilən davamlı inkişaf strategiyasının əsasında məhz "Əsrin müqaviləsi" dayanır. Prezident İlham Əliyev nitqlərindən birində müstəqil Azərbaycanın uğurlu enerji siyasətində Ulu Öndər Heydər Əliyevin müstəsna rol oynadığını vurğulayaraq belə deyib: "Müasir neft siyasətimiz Heydər Əliyevin adı ilə bağlıdır. Çünki məhz O, Azərbaycan rəhbərliyinə gələndən sonra ölkəmizdə vəziyyət sabitləşdi, Azərbaycan inkişaf yoluna qədəm qoydu və xarici investorlar bizə inandı. Çünki o vaxt bu inam əsas şərt idi. Bu inam olmasaydı, Azərbaycana heç kim böyük sərmayə qoymazdı. Çünki Azərbaycan o vaxt çox riskli bir ölkə kimi tanınırdı və

investorları buraya cəlb etmək üçün böyük səylər göstərilmişdir".Beləliklə, yeni neft strategiyasının parlaq təzahürü olan "Əsrin müqaviləsi"nin imzalanması ilə ölkəmiz yeni inkişaf dövrünə qədəm qoydu. Azərbaycan nefti dünya bazarına çıxdı və ölkəmizə küli miqdarda valyutalar gəlməyə başladı.

Hazırda dünya xalqlarının qarşısında duran ən mühüm vəzifə müstəqilliyə nail olmaq və ya onu qoruyub saxlamaqdır. Azərbaycan xalqı da illərlə azadlığı, müstəqilliyi yolunda mübarizə aparıb və neçə-neçə oğullarımız bu yolda canlarından keçiblər. Tarixi təkamül prosesi göstərir ki, hər hansı xalqın milli-mənəvi irsini, mental-əxlaqi dəyərlərini, genetik yaddaşını, kimliyini, özünəməxsusluğunu gələcək nəsillərə ötürmək və ən əsası, bu müstəqilliyi qoruyub saxlamaq onun taleyində müstəsna rol oynamış fenomenal şəxsiyyətlərlə bağlı olub.

Ötən əsrdə xalqımızın dünya siyasi arenasına bəxş etdiyi fenomenal nadir şəxsiyyət olan Ümummilli Lider Heydər Əliyevin böyük fədakarlıqları hesabına ata-babalarımızın qurub-yaratdığı dövlətin sarsılmazlığı, demokratik yüksəlişi, Azərbaycanın müstəqilliyinin əbədiliyi, daimiliyi, dönməzliyi təmin edildi. Məhz onun Azərbaycanın sosial-iqtisadi, siyasi, hərbi və mədəni yüksəlişi üçün həyata keçirdiyi tədbirlər, milli şüurun oyanışı ilə bağlı gördüyü böyük işlər olmasaydı, biz bu gün Azərbaycanın müstəqil, suveren dövlət kimi varlığından danışa bilməzdik. Dövlətin qarşılaşa biləcəyi çətinlikləri öncədən duyan Ümummilli Lider zamanı qabaqlayaraq ölkənin davamlı inkişafı, dövlət müstəqilliyinin daha da möhkəmləndirilməsi istiqamətində böyük işlər gördü, Azərbaycanın strateji maraqlarının təmin edilməsi üçün zəruri və qəti addımlar atdı. Bu baxmdan, onun ordu quruculuğu istimamətində atdığı addımları xüsusi qeyd etmək lazımdır. Bəllidir ki, ordu dövlətin suverenliyi və ərazi bütövlüyünü təmin edən əsas qüvvədir. Müasir Azərbaycanın dövlət müstəqilliyinin bərpasına 1991-ci ildə nail olunsa da, vahid komandanlığa əsaslanan, nizami və mütəşəkkil, ən əsası müstəqilliyimizə və dövlətçiliyimizə qarşı yarana biləcək hər bir təhdidin qarşısını almağa qadir olan ordunun yaradılması məhz Ümummilli Lider Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə qayıdışından sonra mümkün oldu. Hakimiyyətdə olduğu illər ərzində Heydər Əliyev Azərbaycan Ordusunu və onun formalaşması prosesini daim diqqət mərkəzində saxladı. Hələ sovet dönəmində, Ulu Öndərin birinci hakimiyyəti illərində onun uzaqgörənliyi sayəsində Cəmşid Naxçıvanski adına hərbi məktəbin yaradılması ilə gələcəkdə müstəqil Azərbaycanın Milli Ordusunun formalaşması üçün kadr probleminin həlli yolunda mühüm addım atılmışdı. Ümummilli Lider Heydər Əliyev yenidən hakimiyyətə qayıdandan sonra da apardığı məqsədyönlü və qətiyyətli siyasət nəticəsində Milli Ordu formalaşdırıldı, Azərbaycanın nizami Silahlı Qüvvələrinin yaradılması ilə bağlı təxirəsalınmaz tədbirlər həyata keçirildi, orduda kütləvi fərarilik hallarına son qoyuldu, hərbi intizam yaradıldı. Azərbaycanın suverenliyini, müstəqilliyini, ərazi bütövlüyünü qorumağa qadir olan orduya malik olması Heydər Əliyevin Azərbaycan xalqı qarşısında göstərdiyi misilsiz xidmətlərdən biridir...

Bu gün hər bir Azərbaycan vətəndaşı öz güclü ordusu ilə, sözün əsl mənasında, fəxr edir. Çünki bugünkü ordu 2020-ci il sentyabrın 27-də başladılan, 44 gün davam edən və Zəfərlə nəticələnən İkinci Qarabağ Savaşının Qalibidir. Artıq bütün dünya Azərbaycan Ordusunun nəyə qadir olduğunu bilir və təsadüfi deyil ki, hazırda Azərbaycanın hərbi təcrübəsi dünya ölkələrində dərsliklərə salınaraq öyrənilir. Vətən müharibəsi dünyada Azərbaycan Ordusu haqqında təsəvvürləri yaxşı mənada dəyişdi. Ona görə də Azərbaycan Ordusu bu gün dövlətin qüdrətinin nümunəsidir, xalqımızın iftixar yeridir və ölkəmizin ərazi bütövlüyünü təmin edən yüksək hazırlıqlı təsisatdır. Bütün bunlar vaxtilə Ümummilli Lider Heydər Əliyevin Azərbaycan xalqı, dövləti, ordusu, ən nəhayət, müstəqilliyi naminə

göstərdiyi fəaliyyətin, müəyyən etdiyi strategiyanın və bu strategiyanı uğurla davam etdirən, onu bir qədər də gücləndirən Prezident, Ali Baş Komandan İlham Əliyevin gərgin əməyinin nəticəsidir.

Heydər Əliyev yetişdirmək və görmək istədiyi Azərbaycan gəncliyi haqqında deyirdi: "Mənim üçün ən əziz nemət Azərbaycanın uşaqlarıdır, Azərbaycanın gəncləridir. Çünki Azərbaycan Prezidenti kimi mən də bu gün Azərbaycanın böyük gələcəyi haqqında düşünürəm. Azərbaycanın gələcəyi isə Azərbaycanın gənclərindən və uşaqlarından asılıdır". Gənclərlə bağlı bugünkü uğurlu dövlət siyasətinin də memarı Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevdir. O, ölkə rəhbəri olduğu ilk dövrlərdən gənclərin himayədarı kimi sağlam düşüncəli yeni nəslin yetişdirilməsini dövlət və millətin mühüm vəzifəsi hesab edib. Ulu Öndərin bu sahədə həyata keçirdiyi siyasət gənc nəslin mənəvi-əxlaqi tərbiyəsinin gücləndirilməsinə, sosial rifahının yaxşılaşdırılmasına və zəngin elmi potensialın formalaşmasına xidmət edib. Heydər Əliyev daim gənclərə qayğı ilə yanaşıb, onların problemlərini dinləyib və həll etməyə çalışıb. Tarixə nəzər salsaq, görərik ki, ötən əsrin 70-80-ci illərində Heydər Əiyevin göstərişi ilə yüzlərlə azərbaycanlı gənc keçmiş SSRİ-nin, Moskva da daxil olmaqla, aparıcı ali məktəblərinə müxtəlif ixtisaslar üzrə təhsil almağa göndərildi. Təkcə bir faktı xatırlatmaq yerinə düşər ki, 1970-ci ildə Heydər Əliyevin təşəbbüsü ilə 1500-dən artıq azərbaycanlı gənc bu qayğı ilə əhatələndi. 1970-1985-ci illərdə isə Sovet İttifaqının tanınmış 170 ali təhsil ocağında oxuyan azərbaycanlı gənclərin sayı artıq 3500-ə çatdırılmışdı. Məhz həmin gənclər sonradan ali təhsilli mütəxəsis kimi ölkəmizdə iqtisadiyyatın fərqli sahələrində bacarıqlı kadr kimi fəaliyyətə başladılar. Hər il Azərbaycandan kənara yola salınan 800 tələbə Sankt-Peterburqda, Kiyevdə, Xarkovda, Minskdə təhsil alırdılar. Yeni nəslin inkişafının əsas faktoru, əlbəttə ki, gənclərin dövlət və cəmiyyətin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında iştirakının təmin edilməsidir. Bu məqsədlə Azərbaycan Respublikası Prezidentinin 26 iyul 1994-cü il tarixli Fərmanı ilə ölkəmizdə Gənclər və İdman Nazirliyi yaradıldı. Ulu Öndərin əsasını qoyduğu bu dövlət institutu qısa vaxt ərzində gənclər siyasətinin əsas konturlarını müəyyənləşdirdi və onları reallaşdırmağa başladı. Ardınca, 1995-ci ildə Gənclər Təşkilatlarının Milli Şurası yaradıldı. Bundan başqa, Azərbaycan gənclərinin cəmiyyətin inkişafında və bir çox vacib problemlərin həllində rolunu artırmaq, onların ölkənin gələcək inkişafında iştirakını, məsuliyyətini yüksəltmək məqsədilə Ümummilli Lider Heydər Əliyev tərəfindən 1995-ci ildə Azərbaycan Gənclərinin Forumunun keçirilməsi təşəbbüsü irəli sürüldü. Beləliklə, 2 fevral 1996-ci ildə gənclərin I Forumu keçirildi. Forumda gənclər və idman siyasəti sahəsində görülən işlərdən, gəncliyin qarşısında böyük məsuliyyətin dayandığından bəhs edən Ulu Öndər Azərbaycan gəncliyinin daha uğurlu sabahına inandığını vurğuladı. Həmin dövrdə gənclərin problemlərinin həllini təmin edən fərmanların imzalanması, qanunların qəbul edilməsi, gənclərin dövlət quruculuğuna fəal cəlb olunması dövlətin gənclər siyasətinə mühüm töhfəsini verdi. Ümummilli Liderimizin 1997-ci il 2 fevral tarixində imzaladığı Fərmana əsasən isə həmin tarix “Azərbaycan Gəncləri Günü” elan edildi. O zamandan etibarən hər il fevral ayının 2-si Azərbaycanda Gənclər Günü kimi qeyd edilir. Ümummilli Lider dəfələrlə qeyd edirdi ki, Azərbaycanın gələcəyi gənclərin əlindədir. Həmin gənclər siyasəti bu gün Ümummilli Liderin layiqli davamçısı olan Prezident İlham Əliyev tərəfindən yeni inkişaf mərhələsinə qaldırılıb. Ölkədə gənclərin hərtərəfli inkişafı, mükəmməl təhsil alması, müxtəlif sahələr üzrə potensiallarının aşkar edilməsi, bacarıqlarının stimullaşdırılması üçün münbit şərait yaradılıb. Bu gün Azərbaycan gəncliyi ictimai-siyasi həyatın bütün sahələrində fəal iştirak edir. Ölkə başçısının müvafiq sərəncamları ilə 2007-ci ilin “Gənclər ili”, 2020-ci ilin isə “Könüllülər ili” elan edilməsi ölkəmizdə uğurla həyata keçirilən gənclər

siyasətindən və gənclərə qayğıdan xəbər verir. Məhz vaxtilə həyata keçirilən məqsədyönlü siyasətin nəticəsidir ki, bu gün Azərbaycanda yüksək intellektual səviyyəyə, vətənpərvərlik hissinə, milli düşüncəyə malik gənclər formalaşıb. Bu mənada, əminliklə söyləmək olar ki, 44 günlük Vətən müharibəsi Azərbaycan gəncinin vətənpərvərliyini, gücünü, əzmkarlığını, qorxmazlığını bütün dünyaya nümayiş etdirdi. Amansız döyüşlərdə əldə silah düşmənin üzərinə gedənlər, ilk növbədə, gənclər oldular. Müharibə ilə yanaşı, gənclərimizin fəallığı sayəsində bütün sosial media platformalarında düşmənə adekvat cavablar verildi, onların informasiya təxribatlarının qarşısı alındı. Bir sözlə, gənclərimizin hər biri öz igidliyi ilə vətənpərvərlik salnaməsi yazdılar, zəfər dolu döyüş yolu ilə dillərdə dastana döndülər...

Qarabağın azadlığı Heydər Əliyevin arzularının təntənəsi hesab oluna bilər. Heydər Əliyevin ən böyük arzuları Azərbaycanın gələcəyi ilə bağlı idi. "Azərbaycan bütün dünyaya günəş kimi doğacaq" deyən Ümummilli Lider həm də böyük optimist olduğunu isbatlamışdı. Əlbəttə, Qarabağın azad edilməsi, Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması, məcburi köçkünlərin öz evlərinə qayıtması Ümummilli Liderin ən böyük arzuları sırasında idi. O, Prezident olaraq vaxtının və enerjisinin böyük hissəsini bu problemlərə həsr etmişdi. Onun zəhməti hədər getmədi. Prezident İlham Əliyev Ulu Öndərin bütün ümidlərini doğrultdu. Ən əsası isə 44 günlük Vətən müharibəsi ilə Qarabağ azad edildi.

2020-ci il noyabr ayının 8-də Şuşanın azad olunması münasibətilə Prezident, Ali Baş Komandan İlham Əliyev xalqa müraciətində belə bir ifadə işlətdi: "Mən bu gün Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim!". Bütün Azərbaycan xalqını yaxşı mənada silkələyən bu fikirləri Heydər Əliyevin arzularının ən böyük təntənəsi saya bilərik.

**İstifadə olunmuş ədəbiyyat siyahısı**

1. Qasımlı Musa. Heydər Əliyev – istiqlala gedən yol: 1969-1987-ci illər / M. Qasımlı; elmi red. Ə.Həsənov.- B.: Bakı Universiteti Nəşriyyatı, 2006.

2. Mahmudov Yaqub Mikayıl oğlu. Azərbaycan: qısa dövlətçilik tarixi /Y. M. Mahmudov; elmi red.M. N. Mirzəyev; red. E. M. Lətifova.- B.: Təhsil, 2005

3. Heydər Əliyev və ordu quruculuğu: çıxışlar, nitqlər, bəyanatlar, müraciətlər: iyun, 1993 – iyun, 2003 /red. X.Vəliyev; bur. məsul Ə.Təhməzov.- Bakı: Adiloğlu, 2006.

4. Sərdarov, Zakir Həsən oğlu. Heydər Əliyev və milli mübarizə tariximiz / Z.H. Sərdarov; bur. məsul R.Məhərrəmov; elmi red. H.Həsənov. – Bakı: Çinar-Çap, 2008.

**X Ü L A S Ə**

Müstəqil Azərbaycanın uğurlu gələcəyi onun iqtisadi potensialına, həyata keçirilən islahatlara, məqsədyönlü siyasətə və dünya birliyinə davamlı inteqrasiyasına əsaslanır. Heç mübalığəsiz qeyd edə bilərik ki, müasir müstəqil Azərbaycan dövlətinin banisi Ulu Öndər Heydər Əliyevdir.

Təqdim edilən məqalədə Heydər Əliyevin Azərbaycançılıq ideologiyasının hazırlanması, təbliği, ölkədə siyasi sabitliyin bərqərar edilməsi, siyasi və iqtisadi böhranın aradan qaldırılması, ordu quruculuğu istiqamətində yorulmaz fəaliyyətindən bəhs edilir. Onun fəaliyyəti siyasi sabitlik, böhrandan inkişafa gedən yol kimi işıqlandırılır.

**Афет Гасанова**
**Депутат Милли Меджлиса Азербайджанской Республики**

## ИДЕОЛОГИЯ АЗЕРБАЙДЖАНСТВА ВЕЛИКОГО ЛИДЕРА ГЕЙДАРА АЛИЕВА, ПОЛИТИЧЕСКАЯ СТАБИЛЬНОСТЬ, ПУТЬ ОТ КРИЗИСА К РАЗВИТИЮ

### Р Е З Ю М Е

Успешное будущее независимого Азербайджана опирается на его экономический потенциал, реализуемые реформы, целенаправленную политику и последовательную интеграцию в мировое сообщество. Можно заметить без преувеличения, что основателем современного независимого азербайджанского государства является Великий лидер Гейдар Алиев.

В представленной статье говорится о неустанной работе Гейдара Алиева над формулированием и продвижением идеологии азербайджанства, обеспечением политической стабильности в стране, устранением политического и экономического кризиса, а также усилением армии. Его деятельность представлена как путь политической стабильности, путь от кризиса к развитию.

**Afat Hasanova**
**Member of the Milli Majlis of the Republic of Azerbaijan**

## GREAT LEADER HEYDAR ALIYEV'S IDEOLOGY OF THE AZERBAIJANISM, POLITICAL STABILITY, A PATH FROM CRISIS TO PROGRESS

### S U M M A R Y

The independent Azerbaijan's successful future is contingent on her economic potential, reforms implemented, a determined policy and consistent integration into the global community. It would not be an exaggeration to say that the Great Leader Heydar Aliyev was the founder of the modern and independent Azerbaijani State.

The article in question covers Heydar Aliyev's tireless work done to formulate and promote the ideology of the Azerbaijanism, maintain political stability in the country, eliminate political and economic crises, and strengthen the army. His endeavours are depicted as a path of political stability, a path from crisis to progress.

***Nəsib MƏHƏMMƏLİYEV***

Azərbaycan Respublikası Milli Məclisinin deputatı

# ƏSAS PRİORİTETLƏR

***Açar sözlər:*** *Ümummilli Lider, hüquqi demokratik dövlət, dünya birliyində layiqli yer, insan hüquqları, siyasi və iqtisadi inkişaf, milli maraqlar, müstəqil siyasət, xalqın rifahı, əsas prioritetlər...*

***Ключевые слова:*** *Национальный лидер, правовое демократическое государство, дотстойное место в мировом сообществе, права человека, политическое и экономическое развитие, национальные интересы, независимая политика, благосостояние народа, основные приоритеты*

***Keywords:*** *national leader, legal democratic state, worthy place in the world community, human rights, political and economic development, national interests, independent policy, welfare of people, main priorities*

> ***Müstəqil Azərbaycanın dövlətçiliyinin möhkəmlənməsi hər şeydən əvvəl respublikada qanunların toxunulmazlığından, qanunun aliliyindən asılıdır. Totalitarizmdən tamamilə xilas olmaq yalnız demokratiyanın ardıcıl inkişafı, siyasi plüralizm, insan azadlığı şəraitində mümkündür. Söhbət söz, vicdan, din, təşəbbüskarlıq və sahibkarlıq, mülkiyyətçilik, seçib-seçilmək azadlığından gedir. Azərbaycanın hər bir vətəndaşı milliyyətindən, dinindən və dilindən asılı olmayaraq, bu demokratik azadlıqlara və hüquqlara malik olmalıdır.***
>
> **Ümummilli Lider Heydər Əliyev**

Azərbaycanda hüquqi-demokratik dövlətin qurulmasında, Respublikamızın dünya birliyində layiqli yerini tutmasında Ümummilli Lider Heydər Əliyevin misilsiz xidmətləri vardır. Hüquqi-demokratik dövlət quruculuğu dedikdə, ilk növbədə insan haqlarının qorunması və qanunun aliliyinin təmin olunması yada düşdüyü kimi, dünya birliyində layiqli yer tutmaq dedikdə, ilk növbədə dövlətin siyasi, iqtisadi inkişafı, milli maraqlarına uyğun müstəqil siyasət aparması, xalqın rifahının milli maraqlar səviyyəsinə qaldırılması başa düşülür. Heydər Əliyev Azərbaycanın hər iki sahədə uğurla irəliləməsini özünün möhtəşəm siyasi fəaliyyətinin əsas prioritetləri elan etmiş və bütün mənalı həyatını bu taleyüklü məsələlərin həllinə həsr etmişdir. Ona görə də, bu gün deyirik ki, müstəqil Azərbaycan Respublikası Heydər Əliyevin şah əsəridir.

Məlum olduğu kimi, hüquq-demokratik dövlət quruculuğu demokratik islahatların həyata keçirilməsi ilə başlayır. Hər hansı islahatların həyata keçirilməsi isə müvafiq hüquqi bazanın yaradılmasını tələb edir. 90-cı illərdə Sovet İttifaqının dağılması ilə totalitar sistemdən çıxmış və öz müstəqilliyini yenicə qazanmış Azərbaycan Respublikası üçün belə bir hüquqi baza milli maraqlara söykənən, demokratik dəyərləri özündə ehtiva edən milli konstitusiya ola bilərdi. Amma ölkədə faktiki olaraq, vətəndaş müharibəsi gedirdi, xarici qüvvələrin

dəstəklədiyi erməni təcavüzü davam edirdi, İttfaqın dağılması ilə başlanan iqtisadi tənəzzül getdikcə dərinləşirdi. Qanunlar işləmirdi, dərəbəylik, hərc-mərclik baş alıb gedirdi. Belə ağır bir durumda demokratik islahatları keçirməkdən söhbət belə gedə bilməzdi...

Heydər Əliyev dahi şəxsiyyət, təcrübəli siyasətçi kimi bütün bu problemləri görürdü və Azərbaycanın xilas yollarını arayırdı. Odur ki, 1993-cü ildə xalqın tələbi ilə hakimiyyətə qayıtdıqdan və Azərbaycan Prezidenti seçildikdən sonra, ilk növbədə ölkədə ictimai-siyasi sabitlik yaratmağa qərar verdi. AXC-Müsavat hakimiyyəti dövründə yaradılan, məlum şəxslərə və naməlum siyasi məqsədlərə xidmət edən silahlı dəstələr ləğv edildi. Azərbaycanın cənub və şimal bölgələrində vüsət alan separatçılıq cəhdlərinin qarşısı dərhal və qəti şəkildə alındı. Yeri gəlmişkən, mən həmin dövrdə Azərbaycanın şimal-qərb bölgəsində yaşayırdım və işləyirdim. Çoxmillətli bir bölgədə separatçılığı alovlandırmaq və nəticələlərindən faydalanmaq istəyənlərin məkrli planlarından və böyük imkanlarından xəbərdar idim. Xarici qüvvələrin dəstəklədiyi bu adamlar faktiki olaraq, Azərbaycanı parçalamaq istəyirdilər. Onların qarşısını yalnız Heydər Əliyev – xalq birliyi ala bilərdi və aldı. Heydər Əliyev xalqa güvəndiyi kimi, xalq da Heydər Əliyevə inanırdı.

1994-cü ilin yazında Azərbaycanın silahlı qüvvələri Qarabağ müharibəsində təşəbbüsü öz əlinə aldı və qorxuya düşən Ermənistan atəşkəs danışıqlarına başladı. May ayında Respublikaya qandan və ziyandan başqa bir şey gətirməyən qanlı müharibə dayandı, Azərbaycanla Ermənistan arasında onillərlə davam edəcək atəşkəs sazişi bağlandı. Sentyabr ayında isə Amerikanın və Avropanın aparıcı neft şirkətləri ilə, Bakı – Tibilisi – Ceyhan və Bakı – Tibilisi – Ərzurum kimi beynəlxalq layihələrə yol açacaq və Azərbaycana milyardlarla dollar sərmayə gətirəcək "Əsrin Müqaviləsi" imzalandı. Məlum olduğu kimi, Azərbaycanın böyük qonşuları – Rusiya və İran bu müqavilənin tam əleyhinə idi və qarşısını almaq istəyirdi. Amma müdrik Heydər Əliyev siyasəti yenə öz sözünü dedi. Türkiyənin Azərbaycana birmənalı dəstəyi İran tərəfinə bilavasitə cavab oldu. ABŞ-ın neft şirkətlərinin "Əsrin müqaviləsi"ndə birbaşa iştirakı isə Rusiyanın müşahidəçi mövqeyi ilə kifayətlənməsinə səbəb oldu. Beləliklə, ölkədə demokratik islahatlar keçirmək və iqtisadiyyatı dirçəltmək üçün vaxt və imkan yarandı. Azərbaycanda demokratik dövlət quruculuğu dövrü başlandı.

Siyasi və iqtisadi sahələrdə olduğu kimi, qanunvericilik məsələlərində də zamanın nəbzini tutmağı bacaran Prezident Heydər Əliyev Konstitusiyanın müstəqil dövlətin həyatında oynadığı həlledici rolu tam ciddiliyi ilə dəyərləndirirdi və onun inkişafa doğru yolda kompas olduğunu uzaqgörənliklə qeyd edirdi. Həmin dövrdə Heydər Əliyevin təşəbbüsü ilə səlahiyyətli tərkibdə Konstitusiya Komissiyası yaradıldı. Prezident gərgin işinə, vaxtının azlığına baxmayaraq, layihənin müzakirələrində şəxsən iştirak edirdi və müdrik tövsiyələrini verirdi. Yeni Konstitusiyanın hazırlanmasında qabaqcıl ölkələrin qanunvericilik təcrübəsindən tutmuş, çoxpartiyalı sistemlərin incəliklərinə, xalqımızın milli-mənəvi dəyərlərinə qədər, bütün həlledici məqamlara diqqət yetirilirdi.

1995-ci ilin noyabrında Azərbaycanda çoxpartiyalı əsasda parlament seçkiləri keçirildi və eyni vaxtda referendum yolu ilə müstəqil Azərbaycanın əsas qanunu – Konstitusiyası qəbul olundu. Yeni Azərbaycan Konstitusiyası sözün əsl mənasında «İnsan haqları manifesti» idi. Əsas Qanunumuzda xalqın iradəsinin ifadəsi kimi qanunların aliliyini təmin edən hüquqi, dünyəvi dövlət qurmaq, dövlətin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq, konstitusiya səviyyəsində demokratik quruluşa təminat vermək, vətəndaş cəmiyyətinin bərqərar edilməsinə nail olmaq, ədalətli iqtisadi və sosial prinsipləri əsas tutaraq, hamının layiqli həyat səviyyəsini təmin etmək, ümumbəşəri dəyərlərə sadiq olaraq dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamaq başa çıxarılmışdı.

Beləliklə, müstəqil Azərbaycanın ilk Konstitusiyası demokratik islahatların əsasını qoydu. Konstitusiyamızda birbaşa göstərilir ki, "Azərbaycan xalqı özünün çoxəsrlik dövlətçilik ənənələrini davam etdirərək, bütün cəmiyyətin və hər kəsin firavanlığının təmin edilməsini arzulayaraq, ədalətin, azadlığın və təhlükəsizliyin bərqərar edilməsini istəyərək, keçmiş, indiki və gələcək nəsillər qarşısında öz məsuliyyətini anlayaraq, suveren hüququndan istifadə edərək, Azərbaycan dövlətinin müstəqilliyini və ərazi bütövlüyünü qoruyaraq, xalqın iradəsinin ifadəsi kimi qanunların aliliyini təmin edən hüquqi, dünyəvi dövlət quruculuğunu bəyan edir". Başqa sözlə, öz tarixi müstəqilliyini bərpa etmiş Azərbaycan Respublikası hüquqi, demokratik, dünyəvi dövlət quruculuğunu inkişaf yolu seçir. Xüsusi olaraq vurğulamaq lazımdır ki, Konstitusiyamızda dövlət hakimiyyətinin qanunvericilik, icra və məhkəmə hakimiyyətinə bölünməsi prinsipi öz əksini tapmışdır.

Azərbaycan Konstitusiyasının III fəsli (24-71-ci maddələr) bütövlükdə, yəni 158 maddədən 48-i insan və vətəndaş hüquqlarına və azadlıqlarına həsr edilib. Konstitusiyanın 71-ci maddəsində insan və vətəndaş hüquqlarına və azadlıqlarına tam təminat verilir. Konstitusiyada təsbit edilmiş insan və vətəndaş hüquqlarını və azadlıqlarını müdafiə etmək və qorumaq qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının borcu hesab edilir. Həmin maddədə daha sonra göstərilir ki, insan və vətəndaş hüquqlarının və azadlıqlarının həyata keçirilməsini heç kəs məhdudlaşdıra, konstitusiyanın heç bir müddəası insan və vətəndaş hüquqlarının və azadlıqlarının ləğvinə yönəldilmiş kimi şərh edilə bilməz. Azərbaycan Respublikasının ərazisində insan və vətəndaş hüquqları və azadlıqları birbaşa qüvvədədir. Bir sözlə, Konstitusiyanın qeyd edilən normalarının təhlili göstərir ki, bu normalar hüquqi dövlət quruculuğu prinsipinin mahiyyətindən irəli gəlir və cəmiyyətdə qanunun aliliyinə xidmət edir.

Müstəqil Respublikamızın ilk demokratik Kostitusiyasının qəbul edilməsindən sonra keçən müddət ərzində ölkəmizdə ciddi iqtisadi, siyasi, hüquqi islahatlar həyata keçirildi. Çoxpartiyalı əsasda seçilmiş parlament yeni qanunvericilik bazasının hazırlanması ilə məşğul oldu, yeni, mütərəqqi qanunlar qəbul edildi. Postsovet məkanında ilk olaraq, Azərbaycanda aqrar islahatlar vüsət aldı, 1996-cı ildə dövlət torpaqlarının özəlləşdirilməsi prosesi başladı. Qeyd etmək lazımdır ki, həmin dövrdə bu, çox riskli bir addım idi və postsovet respublikalarından çoxu buna cəsarət etmirdi. Deyirdilər ki, Sovet İttifaqının mirası olan kolxoz-sovxoz sisteminin ləgvi, torpaqların özəlləşdirilməsi bütövlükdə kənd təsərrüfatının çökməsinə və çörək-ərzaq qıtlığına səbəb ola bilər. Amma Azərbaycanın lideri çəkinmədi və cəsarətlə aqrar islahatlara qərar verdi.

Azərbaycanda aqrar islahatlar Konstitusiyaya və beynəlxalq normalara uyğun aparılır, insan haqlarına hörmətlə yanaşılırdı. Bölgələrdə pay torpaqlar burda yaşayan, əkib becərən vətəndaşlar arasında, millətindən və dinindən asılı olmayaraq, bərabər paylanırdı. Azərbaycandan sonra aqrar islahatlara başlayan qonşu Gürcüstanda torpaqların özəlləşdirilməsi zamanı bu qaydalar mütəmadi olaraq pozulur, milli ayrı-seçkiliyə yol verilirdi. Yəni pay torpaqları ilk növbədə gürcü millətindən olan vətəndaşlara, hətta kənardan gələnlərə paylanır, yerli azərbaycanlılar isə, torpaqları onlardan almalı və yaxud icarəyə götürməli olurdular. Bu da faktiki olaraq, insan haqlarının pozulması idi, məlum narazılıqlara, hətta qarşıdurmalara səbəb olurdu. Azərbaycanda isə milli azlıqların daha çox yaşadıqları şimal, şimali-qərb və cənub bölgələrində isə bu cür hallar müşahidə edilmirdi, pay torpaqları milli mənsubiyyətindən asılı olmayaraq, vətəndaşlar arasında bərabər və ədalətlə paylanırdı. Gürcüstanla həmsərhəd rayonda işlədiyim üçün soydaşlarımız rastlaşdıqları problemlərlə bağlı mənə müraciət edir və şikayətlərini Heydər Əliyevə çatdırmağımı xahiş edirdilər. Mən də, öz növbəmdə Respublika rəhbərliyini

məlumatlandırırdım. Yaxşı xatirimdədir, Heydər Əliyevin tapşırığına əsasən dövlət müşaviri ilə Gürcüstanda səfərdə olduq və soydaşlarımızın yaşadığı bölgələrdə görüşlər keçirdik, problemləri dinlədik. Nəticə olaraq bir çox problemlər Heydər Əliyevin Eduard Şevernadze ilə telefon danışığından sonra həllini tapdı. Heydər Əliyev Gürcüstan azərbaycanlılarının hüquqlarını daim müdafiə edir, qayğılarına qalırdı.

Qeyd etmək lazımdır ki, dini və milli radikalizmi 90-cı illərin hərc-mərcliyindən istifadə edib Azərbaycana ayaq açmış müxtəlif dini-missioner təşkilatlar daha da qızışdırırdı. Onlar Azərbaycanda qaçqınların və məcburi köçkünlərin kompakt yaşadığı ərazilərdə, həmin vaxtlar mövcud olan çadır düşərgələrində fəaliyyətlərini genişləndirir, insanların imkansızlığından və məlumatsızlığından istifadə edirdilər. O dövrdə, Azərbaycanda 300-ə qədər xeyriyyə fondları fəaliyyət göstərirdi və əksəriyyəti dini missionerliklə məşğul olurdu. Onların içində müsəlmanlar, xristianlar, hətta bütpərəstlər də vardı. Bu təşkilatların bəzisi radikal, qeyri-qanuni fəaliyyətinə görə yarandıqları ölkələrdə belə qadağan olunmuşdu. Ümummilli liderin qətiyyətli siyasəti bu təşkilatların da qeyri-qanuni fəaliyyətinə son qoydu. 2000-ci illərin əvvəllərində 100-dən çox belə təşkilatın fəaliyyəti qadağan olundu və Azərbaycandan qovuldu.

Ümummilli Lider deyirdi ki, Azərbaycan müxtəlif millətlərin və dinlərin vətənidir, onların Azərbaycana bağlanması, Azərbaycanla yaşaması üçün mənəvi əsas ola biləcək bir ideya var – bu, Azərbaycançılıq məfkurəsidir. Azərbaycançılıq öz milli mənsubiyyətini qoruyub saxlamaq, milli-mənəvi dəyərlərini qoruyub saxlamaq, eyni zamanda onların ümumbəşəri dəyərlərə inteqrasiyasına nail olmaq deməkdir. Biz hamımız Azərbaycanda yaşayırıqsa, bir ölkənin vətəndaşıyıqsa, deməli, bizim mənəvi dəyərlərimiz də inteqrasiya etməlidir. Azərbaycançılıq məfkurəsinin Azərbaycan kimi çoxmillətli və çox konfessiyalı bir ölkədə tətbiq olunması faktiki olaraq, dini və milli tolerantlığın bərqərar olunmasına, multikultural bir cəmiyyətin yaradılmasına xidmət edir. Eyni zamanda, Azərbaycandan kənarda yaşayan, bütün dünyaya yayılan azərbaycanlıların öz tarixi vətəninə gəlməsinə, Azərbaycan dövləti ətrafında birləşməsinə təkan verir. Azərbaycançılıq sözün əsl mənasında böyük dövlətçilik ideyasıdır və Heydər Əliyev onu şərəflə həyata keçirdi.

Ümummilli Liderin rəhbərlik etdiyi, 70-ci ilərin Azərbaycanı haqqında obrazlı deyirlər ki, bütün Azərbaycan böyük bir tikinti meydançasını xatırladırdı. Böyük şəhərlərdən qəsəbələrə, kiçik kəndlərə qədər, yenidən tikilirdi və qurulurdu. 90-cı illərin Azərbaycanı da obrazlı desək, böyük bir islahat meydançasını xatırladırdı, yeni qanunlar qəbul olunurdu, yeni institutlar və təsisatlar bərqərar olurdu, hüquqi-demokratik dövlət qurulurdu. Bütün bu islahatlar Azərbaycan Konstitusiyasının tələblərinə və beynəlxalq təcrübəyə uyğun aparılırdı. Həyata keçirilən hüquqi islahatların nəticəsi olaraq, yeni üçpilləli məhkəmə sistemi (birinci instansiya, appelyasiya və kassasasiya) fəaliyyətə başlamışdı. Yeni Azərbaycan Konstitusiyasının bir neçə maddəsi (86, 88, 102, 103, 104, 107, 130, 153 və 154) Konstitusiya Məhkəməsinin formalaşması və fəaliyyəti prinsiplərini nəzərdə tuturdu. Odur ki, 1998-ci ildə Konstitusiya Məhkəməsi yaradıldı və Azərbaycan Konstitusiyasının qanunun aliliyi, müstəqillik, kollegiallıq və şəffaflıq prinsipləri əsasında fəaliyyətə başladı. “Konstitusiya Məhkəməsi haqqında” Azərbaycan Respublikasının Qanunu qəbul olundu.

Yeni əsrin və yeni minilliyin gəlişi Azərbaycanın Avropa Şurasına tam hüquqlu üzv qəbul edilməsi ilə əlamətdar oldu. Qeyd etmək lazımdır ki, bu proses ilk nəzərdən göründüyü kimi, asan deyildi. AŞ, üzvlüyə namizəd ölkələr üzrə xüsusi məruzəçilər təyin etmişdi. Məruzəçilər ölkəyə gəlir, bölgələri gəzir, demokratik islahatların necə keçirildiyini, öhdəliklərə necə əməl olunduğunu, insan haqlarının necə qorunduğunu yerlərdə müşahidə edirdilər. Yeri gəlmişkən, Balakən rayon İcra Hakimiyyəti başçısı vəzifəsində çalışarkən

dəfələrlə Avropa Şurası Parlament Assambleyasının həmməruzəçilərini, Avropa təşkilatlarının Bakıda fəaliyyət göstərən nümayəndələrini qəbul etmiş və onların milli, etnik, dini, insan hüquqları və azadlıqları barədə çoxsaylı suallarını cavablandırmışdım. Aydın məsələdir ki, digər məsələlərlə yanaşı həmməruzəçilərin müsbət rəyi olduğu tərzdə, bu ölkə Avropa Şurasına qəbul edilə bilərdi. Bu baxımdan xoş haldır ki, Azərbaycan, Avropa Şurasına tolerant, multikultral dəyərlərə hörmət edən ölkə kimi daxil oldu və ümumiyyətlə uzun illərdir ki, bu imici qoruyub saxlayır.

Bir məsələni də qeyd etmək istərdim, Heydər Əliyev hansı vəzifədə olmasından asılı olmayaraq kadr təyinatlarına xüsusi önəm verirdi. Əlaxsus, perspektivli gənclərin irəli çəkilməsinə şərait yaradırdı.

Taleyin hökmü ilə 3 ildən artıq bir müddətdə Ulu Öndərin rəhbərliyi ilə çalışmaq xoşbəxtliyi mənə də nəsib olmuşdur. Həmin illər ərzində Prezidentin keçirdiyi çoxsaylı müşavirələrin, iclasların hər biri bizim üçün yenilik idi. Heydər Əliyevin zəngin həyat təcrübəsi, onun ətraf mühitə, cəmiyyətin bütün təbəqələrinə, dünyada, regionda və ölkə daxilində gedən proseslərə münasibəti mükəmməl bir məktəb idi.

Ölkədə artıq çoxpartiyalı sistem işləyirdi, qanunların aliliyi təmin edilirdi, yerli hakimiyyət institutları – bələdiyyələr yaradılmışdı və ilk bələdiyyə seçkiləri keçirilmişdi. Azərbaycanda demokratik islahatların aparılması, demokratik təsisatların bərqərar olunması məruzəçilərin müsbət rəyini almışdı. 2001-ci ildə Respublikamızın Avropa Şurasına – Avropa ölkələri birliyinə inteqrasiyası prosesi mövcud qanunvericilik bazasının daha da təkmilləşdirilməsinə ciddi zərurət yaratdı. Azərbaycanda Konstitusiyanın müddəalarına uyğun qəbul olunan qanunlar və aparılan demokratik islahatlar müasir Avropa tələblərinə uyğunlaşdırılmağa başladı...

Məlum olduğu kimi, Heydər Əliyev hələ Azərbaycana birinci rəhbərliyi dövründə respublikanın iqtisadiyyatını inkişaf etdirməklə, xalqın həyat səviyyəsini yüksəltməklə bərabər, cəmiyyətdə də bir saflığın, düzgünlüyün mübarizəsinə qalxmışdı. Sovet dövründə rüşvətxorluğun tüğyan etdiyi bir vaxtda, Azərbaycanda bu bəlaya qarşı mübarizə başlamışdı. Bütün SSRI-də hamı bu barədə susmağa üstünlük versə də, kiçik Azərbaycanın böyük lideri susmaq istəmirdi. O, problemlərdən qaçmırdı, onları qabartmağa və mübarizə aparmağa üstünlük verirdi. Ümummilli Lider müstəqil Azərbaycanın Prezidenti olduğu dövrdə də bu siyasəti davam etdirirdi. Iqtisadi islahatların aparılması, dövlət əmlakının özəlləşdirilməsi, sahibkarlığın inkişafına mane olan qanunsuz müdaxilələrin aradan qaldırılması eyni zamanda korrupsiyanın predmetini aradan qaldırır, korrupsiyaya qarşı sistemli mübarizəyə şərait yaradırdı.

Mahiyyəti xalqa və qanuna xidmət etmək olan Heydər Əliyev siyasi kursunu bu gün Azərbaycan Prezident İlham Əliyev uğurla davam etdirir. Möhtərəm Prezidentin apadığı siyasət, həyata keçirilən islahatlar qanunun aliliyinə, xalqın sosial rifahının yüksəlməsinə, ölkəyə gələn neft pullarının ədalətlə bölünməsinə xidmət edir. Bütün dünyada olduğu kimi, Azərbaycanda da ədalətsizliyə, məmur özbaşınalığına, korrupsiaya qarşı mübarizə sosial sifarişdir və bilavasitə xalqdan gəlir. Cənab Prezident də Azərbaycan xalqına xidməti özünün əsas prioriteti hesab edir və bu sahədə işlərin sistemli həyata keçirilməsi üçün siyasi iradə nümayiş etdirir. Bu iradə Azərbaycanda məmur özbaşınalığına, korrupsiyaya qarşı bütün səviyyələrdə mübarizə aparmağa və bu sosial bəlanın qarşısını almağa imkan verir. Bu istiqamətdə həyata keçirilən islahatlar ədalət mühakiməsinin səmərəliliyinin və vətəndaşların məhkəmələrə inamının artırılmasına, cəmiyyətdə narazılığa səbəb olan və korrupsiyaya yol açan vəzifədən sui-istifadə, qanunlara hörmətsizlik, süründürməçilik və digər zərərli halların aradan qaldırılmasına xidmət edir. Nəticələr də göz qabağındadır:

qanunu ayaqlamış və korrupsiyaya qurşanmış nazirlər, onların müavinləri, icra hakimiyyəti başçıları, hüquq mühafizə orqanlarının yüksək rütbəli əməkdaşları tutduqları vəzifədən asılı olmayaraq cəzalanır, qanun qarşısında cavab verməli olurlar.

Prezident İlham Əliyev müdrik bir siyasətçi kimi daim xalqın səsini eşidir və öz siyasətini xalqın istəyinə uyğun həyata keçirir. Məlum olduğu kimi, xalqımızın əsas istəklərindən, tələblərindən biri, bəlkə də birincisi nəyin bahasına olursa-olsun, Qarabağ probleminin həlli, Vətən torpqlarının düşmən işğalından azad olunması və məcburi köçkünlərin öz yurdlarına qayıtması idi. Cənab Prezident Ümummilli Liderə xas olan bir səbrlə, təmkinlə gözlədi, problemi sülh yolu ilə, qansız-qurbansız həll etmək üçün əlindən gələni etdi. Eyni zamanda, Azərbaycan Ordusunun gücləndirilməsi, yeni texnologiyalarla, yeni silahlarla təmin edilməsi prosesi də sürətləndi. Erməni tərəfinin qeyri-konstruktiv mövqeyi səbəbindən sülh danışıqları baş tutmadıqda, hərb yolları nəzərdən keçirildi. Ordumuzun gücü-qüdrəti, düşmənin imkanları real qiymətləndirildi və geo-siyasi şərait yetişəndə, “Hücum” əmri verildi. “Dəmir Yumuruq” əməliyyatı ən qısa və ən az itki ilə həyata keçirildi, Silahlı Qüvvələrimiz Vətən torpaqlarını cəmi 44 günə düşmən işğalından azad etdi. Dağlıq Qarabağ problemi Azərbaycan xalqının əzmi, Azərbaycan liderinin siyasəti və Azərbaycan əsgərinin şücaəti ilə, hərb yolu ilə həll edildi.

Hazırda Azərbaycan Prezidenti İlham Əliyevin nəzarəti altında bütün Qarabağda böyük abadlıq-quruculuq işləri gedir, ərazilər minalardan təmizlənir. Yeni infrastruktur layihələri həyata keçirilir, erməni varvarları tərəfindən viran olunmuş köhnə kəndlər, qəsəbələr, şəhərlər yenidən tikilir. Azərbaycan Respublikası bütün bu layihələri əsaslı xarici sərmayələr olmadan, əsasən öz daxili imkanları hesabına həyata keçirir. Qədim Qarabağ diyarının yenidən qurulacağı, Qarabağ xalqının yenidən Qarabağda cəm olacağı, hamılıqla rahat, firavan yaşayacağı gün artıq uzaqda deyil, yaxındadır. Düşünürəm ki, Ümummilli Lider Heydər Əliyevin ən ülvi vəsiyyəti, Azərbaycan Prezidenti ilham Əliyevin ən ali məqsədi də bunlardır və artıq reallaşır...

**İstifadə olunmuş ədəbiyyat siyahısı**

1. Nəsib Məhəməliyev. "Xalqın iftixarı və qürur mənbəyi" Respublika, 2020, 13 may
2. Fikrət Məmmədov. "Məhkəmə-hüquq islahstlarında Heydər Əliyev dühası" Xalq qəzeti, 2023, 15 fevral.
3. Flora Sadıqlı. “Qurub yaratdıqları sabaha hesablanırdı”. Azərbaycan, 2023,15 fevral.
4. Rəfael Hüseynov.” Onun kimi olmağın çətinliyi”. 525-ci qəzet,2023,15 fevral.
5. İttifaq Mirzəbəyli. “Heydər Əliyev siyasətinə inam”. Xalq qəzet, 2023,24 yanvar.
6. Bəxtiyar Sadıqov.” Böyük ömrün səhifələri”. Azərbaycan, 2023,10 yanvar.

**X Ü L A S Ə**

Azərbaycanda hüquqi-demokratik dövlətin qurulmasında, Respublikamızın dünya birliyində layiqli yer tutmasında Ümummilli Lider Heydər Əliyevin xidmətləri misildizdir. Hüquqi demokratik dövlət quruculuğu dedikdə, insan hüquqlarının qorunması və qanunun aliliyinin təmin olunması nəzərdə tutulduğu kimi, dünya birliyində layiqli yer tutmaq dedikdə də, dövlətin siyasi və iqtidadi inkişafı, milli maraqlara uyğun müstəqil siyasətin yeridilməsi, xalqın rifah halının yüksəldilməsi başa düşülür. Heydər Əliyev Azərbaycanın

hər iki sahədə uğurlu tərəqqisini siyasi fəaliyyətinin əsas prioritetləri elan etmiş və bütün həyatını bu mühüm məsələlərin həllinə həsr etmişdir. Ona görə də, biz bu gün deyirik ki, müstəqil Azərbaycan Respublikası Heydər Əliyevin şah əsəridir.

**Насиб Махамалиев**
**Депутат Милли Меджлиса Азербайджанской Республики**

## Основные приоритеты

## Р Е З Ю М Е

Несравненны заслуги общенационального лидера Гейдара Алиева в построении в Азербайджане правового демократического государства и в занятии достойного места нашей Республики в мировом сообществе. Правовое демократическое государственное строительство означает защиту прав человека и обеспечение законности, а занятие достойного места в мировом сообществе обозначает политическое и экономическое развитие государства, проведение независимой политики в соответствии с национальными интересами, повышение уровня благосостояния народа. Гейдар Алиев объявил успешный прогресс Азербайджана в обоих областях главными приоритетами своей политической деятельности и посвятил всю свою жизнь решению этих судьбоносных вопросов. Поэтому сегодня мы говорим, что независимая Азербайджанская Республика является шедевром Гейдара Алиева.

**Nasib Mahamaliyev**
**Member of the Milli Majlis of the Republic of Azerbaijan**

## Main priorities

## S U M M A R Y

The merits of national leader Heydar Aliyev in building a law-based democratic state in Azerbaijan and in occupying a worthy place for our Republic in the world community are incomparable. Legal democratic state building means protecting human rights and ensuring the rule of law, and taking a worthy place in the world community means the political and economic development of the state, pursuing an independent policy in accordance with national interests, and improving the well-being of the people. Heydar Aliyev declared the successful progress of Azerbaijan in both areas as the main priorities of his political activity and devoted his whole life to solving these crucial issues. Thus, today we say that the independent Republic of Azerbaijan is Heydar Aliyev's masterpiece.

*Elnur ALLAHVERDİYEV*
Azərbaycan Respublikası Milli Məclisinin deputatı

# QLOBAL İQTİSADİ MÜNASİBƏTLƏRDƏ İQTİSADİ HÜQUQ VƏ AZADLIQLAR

***Açar sözlər:*** *İnsan hüquqları; İqtisadi azadlıqlar; İnsan Haqqları Bəyannaməsi; İnsan Hüquqları üzrə Beynəlxalq Bill; Mülkiyyət.*
***Ключевые слова:*** *Права человека; Экономические свободы; Декларация прав человека; Международный билль о правах человека; Собственность.*
***Keywords:*** *Human rights; Economic freedom; Declaration of Human Rights; International Bill of Human Rights; Property.*

İnsan hüquqları insanların davranışlarını, onların həm fərdi, həm kollektiv müstəvidə layiqli həyatlarını müdafiə edən, insanların öz aralarındakı əlaqələri və eyni zamanda, dövlətlə münasibətlərini tənzimləyən norma və standartlardır. İnsan hüquqları mahiyyəti etibarilə universaldır. Hər bir şəxs öz hüquqlarına hörmət tələb etməklə yanaşı, digərinin və ya digərlərinin də hüquq və azadlıqlarına diqqətlə yanaşmalıdır. Necə deyərlər, bizim hüquqlarımız başqalarının hüquqları başlayan yerdə bitir. İnsan hüquqları cəmiyyət və dövlətlə birgə inkişaf edir. Hazırki qloballaşma, qeyri-sabitlik və dinamik inkişaf fonunda bu problem xüsusilə aktualdır.

İnsan hüquqlarını bizə heç bir dövlət bəxş etməyib. Hər bir insan milliyyətindən, dinindən, irqindən, dərisinin rəngindən, sosial vəziyyətindən və siyasi görüşlərindən asılı olmayaraq bu hüquqlara malikdir. Bu yanaşma həm əsas hüquqlara, yəni yaşamaq haqqına, həm də layiqli həyat, təhsil, qida, əmək və sağlamlıq hüququna münasibətdə tətbiq olunur.

1948-ci ildə BMT Baş Assambleyası tərəfindən İnsan Haqqları Bəyannaməsinin qəbulundan 75 il ötür. Bəyannamə Mülki və siyasi hüquqlar və İqtisadi, sosial və mədəni hüquqlar haqqında Paktlarla birlikdə Hüquqlar haqqında Beynəlxalq Billi təşkil edir. XXI əsrdə bəşəriyyət bir tərəfdən keçmişdən dərs almağa və səhvləri yenidən təkrarlamamağa, gələcək üçün nəticələr çıxarmağa çalışır, digər tərəfdən isə dövlətlər, cəmiyyətlər və insanlar yeni-yeni daha qorxulu, dəhşətli, qanlı çağırışlar, müharibə və münaqişələrlə üz-üzədir. Q.Santayana yazır: "Kim keçmişi xatırlamırsa, onu bir daha yaşamağa məhkumdur". Hazırki reallıqda qlobal qarşıdurma, sivilizasiyalararası ziddiyyətlər fonunda insanın qarşısında olduqca mürəkkəb çağırışlar durur. Yer kürəsinin əhəmiyyətli bir qismində insanlar hələ də səfalət içindədirlər və aclıq çəkirlər. Sosial-iqtisadi rifah və inkişafdan asılı olmayaraq hər kəs təbii fəlakətlər və xəstəliklər qarşısında acizlik nümayiş etdirir. İnsanlar bu kimi təhlükələrə qalib gəlmək üçün birgə qərarların qəbul edilməsinə nail olmalıdırlar. Problemə bu kontekstdə baxarkən önə bir daha iqtisadi ehtiyaclar çıxır ki, insanların iqtisadi hüquqları bu növ böhranların tənzimlənməsi üçün yeganə müstəvi hesab olunmalıdır.

Bu hüquqlar insanların həyat və məşğulluq şərtlərini, eləcə də əsas yaşayış ehtiyaclarını əhatə edir. Burada əsas baza olaraq bərabərlik və zəruri sosial-iqtisadi məhsullar, xidmətlər və imkanların təmin edilməsi ideyası əsas götürülür. Bu hüquqlar beynəlxalq səviyyədə erkən sənayeləşmə və işçi sinifin meydana çıxması nəticəsində tanınıb. İnsanlar onların

ləyaqətlərinin qorunması üçün dövlətin müdaxiləsinin minimal səviyyədə olmasının yetərli olduğunu bildirən mülki və siyasi hüquqlardan daha artığına ehtiyac olduğunu dərk edirdilər. Sosial, iqtisadi və mədəni hüquqlar İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Paktda və Avropa Şurasının Avropa Sosial Xartiyasında öz əksini tapır. İqtisadi hüquqlara əmək hüququ, layiqli həyat səviyyəsi hüququ, evlə təmin olunma, eləcə də yaşlılar və əlillərin təqaüd hüququ daxildir.

Sosial-iqtisadi hüquq və azadlıqlar fərdin sosial-iqtisadi həyat şərtlərinin təmin olunmasına dəstək olan normativdir. Əmək və məişət, məşğulluq, rifah, sosial müdafiə, ehtiyaclardan müdafiə kimi məsələlər də bu qəbildən olan problemlər kimi nəzərdən keçiriliməlidir. Onların təmin olunması böyük ölçüdə iqtisadiyyatın vəziyyəti və resursların mövcudluğundan asılıdır. Bu səbəbdən hesab olunur ki, onların təminatı vətəndaş və siyasi hüquqlara nisbətən az inkişaf edib. Böhranlar dövründə "institusional" iqtisadçıların, daha dəqiqi isə problemə daha geniş spektrdə baxan ekspertlərin aktivliyi müşahidə olunur. Sonra isə onları problemlərə daha məhdud, dar müstəvidə, dəqiqliklə yanaşan "meynstrim" iqtisadçılar əvəzləyir. Birincilərin əsas məqsədi iqtisadi yüksəlişlə nəticələnəcək ümumi prinsip, vektor və tendensiyaları müəyyən etməkdir. Uzun zaman kəsiyində iqtisadiyyatda başlıca ölçü olaraq "xalqlarım rifahı" əsas götürülüb. Bu, Adam Smit tərəfdarlarının yanaşmasıdır. Müasir elmdə bu ölçü hər birimizin tez-tez işlətdiyimiz termin – Ümumi Daxili Məhsuldur. Müasir iqtisadi məktəblər problemə azadlıq prizmasından, daha dəqiq desək, iqtisadi və siyasi azadlıqlar prizmasından baxırlar. Üçüncü yanaşma isə son zamanların trendi olan "Beynəlxalq xoşbəxtlik indeksidir".

Göründüyü kimi, vahid yanaşma yoxdur. Bununla belə, məsələyə müasir postindustrial demokratik cəmiyyət kontekstindən baxdıqda, ümumi istinad nöqtəsini aşkarlamaq mümkündür. Müasir iqtisadi sistem müasir demokratik sistem kimi özü üçün deyil, insanlar üçün yaradılıb. Yəni insan dövlət üçün deyil, dövlət insan üçündür. Qanunlar insanların hüquqlarını məhdudlaşdırmaq üçün yazılmayıb, əksinə, hüquq və azadlıqlarının təmin olunması üçün mövcuddurlar. Bu yanşmadan çıxış etsək, mərkəzi problem hər bir fərdin rifahı və xoşbəxtliyidir. Düstür şəklində izah etsək, belə bir nəticə əldə etmiş olarıq: əsas ÜDM deyil, insanın rifahıdır. Dövlət insanlardan ibarətdir. İnsan yoxdursa, dövlət də yoxdur. Kasıb insanlar – kasıb dövlət deməkdir. Bu nöqteyi-nəzərdən, iqtisadi və siyasi hüququları bir araya gətirən faktor insan haqqlarıdır. İnsan hüquqlarına riayət olunursa, rifah və xoşbəxtlik indeksi yüksəlir, ÜDM artır, iqtisadi azadlıqlar təmin olunur.

İkinci nəsil hüquqlar hesab edilən iqtisadi hüquq və azadlıqlara dair mühüm beynəlxalq sənəd İnsan Hüquqları üzrə Beynəlxalq Billdir. Yuxarıda qeyd etdiyimiz kimi, İqtisadi, Sosial və Mədəni Hüquqlar Haqqında Beynəlxalq Pakt (1966) Ümumdünya İnsan Hüquqları Bəyannaməsi (1948) və Mülki və Siyasi Hüquqlar Haqqında Beynəlxalq Paktla (1966) birlikdə İnsan Hüquqları üzrə Beynəlxalq Billi təşkil edir. İqtisadi, Sosial və Mədəni Hüquqlar Haqqında Beynəlxalq Pakt Ümumdünya Bəyannaməsinə əsasən, "... qorxu və ehtiyacdan azad insan şəxsiyyəti idealının yalnız hər kəsin öz iqtisadi, sosial və mədəni, həmçinin, mülki və siyasi hüquqlarından istifadə edə bilməsi üçün şərait yaradıldığı təqdirdə həyata keçirilə biləcəyini" etiraf edir. Pakt 1976-cı ildə qüvvəyə minib.

1-ci maddədə yazılır: "Bütün xalqlar öz müqəddəratını təyin etmək hüququ, həmçinin, öz siyasi statuslarını müəyyənləşdirmək və azad şəkildə sosial-iqtisadi və mədəni inkişaflarını təmin etmək hüququna malikdir".

7-ci maddədə isə aşağıdakılar əks olunur: "Hər bir şəxsin ədalətli və münasib iş şəraiti hüququ; özlərinin qənaətbəxş yaşayışını təmin edən ədalətli əmək haqqı; eyni dəyərli iş üçün hamının bərabər əmək haqqı alması; təhlükəsiz və sağlam iş şəraiti; hər kəs üçün daha yüksək vəzifələrə irəli çəkilmək üçün eyni şərait imkanı; istirahət və asudə vaxtı".

Azərbaycan Respublikasında iqtisadi hüquq və azadlıqlar xalqımızın Ümummilli Lideri Heydər Əliyevin müəllifi olduğu Azərbaycan Respublikasının Konstitusiyası ilə təmin edilir. Ana Qanunumuzun II fəslində yazılır:

**Maddə 13. Mülkiyyət**

I. Azərbaycan Respublikasında mülkiyyət toxunulmazdır və dövlət tərəfindən müdafiə olunur.

II. Mülkiyyət dövlət mülkiyyəti, xüsusi mülkiyyət və bələdiyyə mülkiyyəti növündə ola bilər.

III. Mülkiyyətdən insan və vətəndaş hüquqları və azadlıqları, cəmiyyətin və dövlətin mənafeləri, şəxsiyyətin ləyaqəti əleyhinə istifadə edilə bilməz.

**Maddə 15. İqtisadi inkişaf və dövlət**

I. Azərbaycan Respublikasında iqtisadiyyatın inkişafı müxtəlif mülkiyyət növlərinə əsaslanaraq xalqın rifahının yüksəldilməsinə xidmət edir.

II. Azərbaycan dövləti bazar münasibətləri əsasında sosial yönümlü iqtisadiyyatın inkişafına şərait yaradır, azad sahibkarlığa təminat verir, iqtisadi münasibətlərdə inhisarçılığa və haqsız rəqabətə yol vermir.

Qeyd olunanlardan hasil edilən nəticə budur ki, sosial-iqtisadi hüquqlar bir tərəfdən əhalinin müvafiq fəallığını təmin edir, digər tərəfdən mümkün risklərdən qoruyur. İqtisadi azadlıq, bərabərlik hüquqi dövlət – vətəndaş cəmiyyətində insan hüquq və azadlıqlarının ayrılmaz tərkib hissəsi kimi sosial ədalət, inteqrasiya, dövlət və vətəndaşın qarşılıqlı məsuliyyətilə sıx əlaqədardır. Sosial-iqtisadi hüquqların təminatı hüquqi dövlətin demokratik və sosial formalarının stabil mövcudluğu üçün mühüm zəmindir.

Yaşadığımız mürəkkəb reallıqda hər birimiz mədəniyyətlər və sivilizasiyalar, dövlətlər və cəmiyyətlər arasında gərgin və ziddiyyətli münasibətlərin mövcudluğunun şahidiyik. Dünyada siyasi və iqtisadi sabitliyi hər an pozacaq müasir faktorlar peyda olub. Sürətlə rəqəmsallaşan dünya şəraitində təəssüf ki, elmi-texniki nailiyyətlərdən bəzi hallarda destabilizə edici alət olaraq istifadə edilir. İqtisadi resurslar uğrunda siyasi qarşıdurma və hərbi münaqişələr tarixinin yeni səhifələri açılır. Proqressiv bəşəriyyət tez-tez hətta "nüvə silahının işə salınması" təhdidləri ilə üz-üzə qalır. Belə bir gerçəklikdə beynəlxalq birlik tərəfindən hamılıqla qəbul edilmiş iqtisadi hüquq və azadlıqların aktuallığı birə min artır.

Elmi nailiyyətlərin istehsal sahəsində geniş tətbiqi bir tərəfdən proqressiv nailiyyət hesab olunsa da, yeni iqtisadi və sosial mahiyyətli çətinliklərə yol açır. Yaxın iki-üç onilliklərdə izləniləcək rəqəmsal inqilab iqtisadiyyatın demək olar bütün sektorlarından tutmuş sosial həyat və məşğulluq kimi sahələrə ciddi təsir edəcək. Hesablamalara görə, yaxın 10 il ərzində hazırda məlum olan peşələrin təqribən yarısı tədricən aktuallığını itirəcək. Artıq indidən dünyanın bir sıra ali məktəblərində həyatımızın ayrı-ayrı sektorlarında kütləvi halda tətbiq edilməyə başlanan süni intellekt və robot texnologiyası ilə əlaqədar "etika üzrə hüquqşünas" kimi peşələrə hazırlıq üçün proqramlar hazırlanır. Bu peşə sahibləri istifadə ediləcək süni intellektlə insan arasında yarana biləcək münaqişələri tənzimləməklə məşğul olacaqlar. Banklarda rəqəmsal yeniliklərin tətbiqini araşdıran iqtisadi ekspert Kris Skinner hesab edir ki, banklar kimi maliyyə institutlarının gələcəyi minimum insan iştirakından ibarət olacaq. Futuroloq Gerd Leonqarda görə, texnoloji inkişafı ləngitmək lazımdır, çünki bu tərəqqi bəşəriyyət üçün faciəvi nəticələrə səbəb ola bilər.

Göründüyü kimi, müasir dünyamızda iqtisadi hüquq və azadlıqların tənzimləyəcəyi yeni-yeni problem və çağırışlar meydana gəlir. Bu reallıq bizi məcbur edir ki, XXI əsrdə insan hüquq və azadlıqları kimi sahəyə diqqəti artırmaqla yanaşı, dəyişən dünyada hüquqların təminatı prosesinin daha da çevikliyinə və yeni siyasi, sosial-iqtisadi trendlərlə uzlaşmasına nail olaq.

**İstifadə olunmuş ədəbiyyat siyahısı**


1. Azərbaycan Respublikasının Konstitusiyası;
2. Azərbaycan Respublikasının iqtisadi müstəqilliyinin əsasları haqqında Azərbaycan Respublikasının Konstitusiya Qanunu;
3. "İqtisadi, sosial və mədəni hüquqlar haqqında" Beynəlxalq pakta qoşulmaq barəsində `Azərbaycan Respublikası Milli Məclisinin Qərarı;
4. İqtisadi, Sosial və Mədəni Hüquqlar Haqqında Pakt;
5. Андрей Соколов «Экономика и права человека»;
6. Chris Skinner "Digital Human";
7. Jeremy Rifkin "The Third Industrial Revolution";
8. Richard Watson "Future Files. A History of the Next 50 Years";
9. Jesse Norman "Adam Smith. Father of Economics".


## X Ü L A S Ə


Sosial-iqtisadi hüquq və azadlıqlar fərdin sosial həyat və iqtisadi fəaliyyət şərtlərinin təmin olunmasına dəstək olan normativdir. İqtisadi azadlıqlar insana məxsus fundamental hüquqlardan biridir. Qlobal iqtisadi münasibətlərdə fərdin iqtisadi hüquq və azadlıqları ön plana çıxır. Dövlət insanlardan ibarətdir. İnsan yoxdursa, dövlət də yoxdur. Kasıb insanlar – kasıb dövlət deməkdir. Bu nöqteyi-nəzərdən, insan haqqları siyasi hüquq və azadlıqlarla yanaşı, həm də iqtisadi hüquq deməkdir.



**Эльнур Аллахвердиев**
**Депутат Милли Меджлиса Азербайджанской Республики**


## Экономические права и свободы в глобальных экономических отношениях

## Р Е З Ю М Е


Социально-экономические права и свободы являются нормативом, поддерживающим обеспечение условий общественной жизни и экономической деятельности человека. Экономические свободы являются одним из фундаментальных прав человека. В глобальных социально-экономических отношениях экономические права и свободы личности выходят на первый план. Государство состоит из людей. Если нет человека, нет и государства. Бедные люди – это бедное государство. С этой точки зрения права человека означают не только политические права и свободы, но и экономические права.



**Elnur Allahverdiyev**
**Member of the Milli Majlis of the Republic of Azerbaijan**


## Economic Rights and Freedoms in global economic relations

## A B S T R A C T


The socio-economic rights and freedoms are a standard to support the provision of conditions for social life and economic activity of a person. Economic freedom is a fundamental human right. In global socio-economic relations, the economic rights and freedoms of the person come to the fore. The state is made up of people. If there is no person, there is no state. Consequently, poor people – poor state. From this point of view, human rights mean not only political rights and freedoms, but also economic rights.

***Alış QASIMOV***

Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin
Əmək və ekologiya hüququ kafedrasının müdiri, h.ü.e.d., professor

# CƏMİYYƏTİ İRƏLİ APARAN MÜTƏRƏQQİ İDEYALAR

***Açar sözlər:*** *Ulu Öndər, Ümummilli Lider, Heydər Əliyev, Heydər Əliyev ili, müasir Azərbaycan, müasir Azərbaycan dövlətinin qurucusu, milli intibahımızın memarı, mütərəqqi ideyalar, cəmiyyəti irəli aparan mütərəqqi ideyalar*

***Ключевые слова:*** *Великий Лидер, Общенациональный Лидер, Гейдар Алиев, год Гейдара Алиева, современный Азербайджан, основатель современного Азербайджанского государства, архитектор национального возрождения, прогрессивные идеи продвигающие общество*

***Keywords:*** *Great Leader, National Leader, Heydar Aliyev, Heydar Aliyev's year, modern Azerbaijan, founder of the modern state of Azerbaijan, the architect of our national renaissance, progressive ideas, progressive ideas that move society forward*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ötən il sentyabrın 29-da 2023-cü ilin "Heydər Əliyev İli" elan olunması haqqında tarixi bir sərəncam imzalamışdır. 2023-cü il mayın 10-da Azərbaycan xalqının Ümummilli Lideri, müasir Azərbaycan dövlətinin qurucusu, böyük dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 ili tamam olur. Sərəncamda dahi şəxsiyyətin dövlətçilik fəaliyyətinə misilsiz qiymət verilir, onun zəngin və çoxşaxəli irsinin xalqımızın milli sərvəti olduğu xüsusi vurğulanır. Sərəncamda oxuyuruq: "Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoymuşdur. Davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan Heydər Əliyevin həyat amalının təntənəsidir".

Heydər Əliyev Azərbaycanın istiqlalını əbədi etmiş dahi şəxsiyyətdir!

## Hər kəs üçün təhsil

Təhsilin, elmin inkişafı hər bir xalqın mənəvi, sosial-iqtisadi tərəqqisinin əsrlər boyu özünü doğrultmuş başlıca yoludur. Ona görə böyük dövlət adamlarının tarixi irsində elm və təhsil məsələləri mühüm yer tutur. Xalqımızın yetirdiyi ən böyük tarixi şəxsiyyətlərdən olan Ümummilli Lider Heydər Əliyevin fəaliyyətində də Azərbaycan elminin, təhsilinin inkişafı daim mühüm əhəmiyyət kəsb etmişdir.

Ulu Öndər özü XIX əsrin ikinci yarısı, XX əsrin əvvəllərindən başlayaraq ölkəmizdə geniş vüsət alan maarifçilik prosesinin, formalaşan elm və təhsil mühitinin yetirdiyi hərtərəfli şəxsiyyət idi. Ona görə də həm elmin, təhsilin dəyərini, cəmiyyət üçün faydalı insanların, dövlət üçün layiqli vətəndaşların yetişdirilməsindəki önəmini bilir, həm də onun kimi böyük şəxsiyyəti yetirmiş bu ziya mühitini gələcək nəsillərə də ötürməyə çalışırdı.

Heydər Əliyevin sovet Azərbaycanına rəhbərlik etdiyi illərdə insanlarda təhsilə böyük maraq olsa da, ali təhsil çoxları üçün əlçatan deyildi. Xüsusilə kənd yerlərində təhsil alan

gənclər imkansızlıq üzündən ali təhsil almaq arzularını gerçəkləşdirə bilmir, orta məktəbi başa vurandan sonra, əsasən, təsərrüfat işlərində çalışmalı olurdular. İmkansız ailələrdən çıxmış oğlan məzunların çox az bir qismi əgər hərbi xidmət illərindən sonra belə bir imkan yaranarsa, ali təhsil arzularını ittifaqın hansısa az tanınan ali məktəblərində gerçəkləşdirə bilirdi. Bu məhdudiyyətlərin də müxtəlif səbəbləri vardı. Ölkədə ali məktəblərin sayı yeni dövrün tələblərinə uyğun gəlmirdi. Ölkənin sənayeləşmə potensialı, Heydər Əliyevin rəhbərliyi ilə bu istiqamətdə atılan ardıcıl addımlar müxtəlif istiqamətlər üzrə yüksəkixtisaslı mütəxəssislər tələb edirdi. Bu mütəxəssisləri hazırlayacaq ali məktəblər, müvafiq fakültələr isə hələ yox idi. Digər tərəfdən, bir çox hallarda ailələrin maddi durumu övladlarını ali təhsil ardınca göndərməyə imkan vermirdi. Ona görə də hələ orta təhsilin son illərindən övladlarını kolxoz-sovxoz işlərinə, ən yaxşı halda texniki-peşə təhsilinə yönəldir, ailələrinin dolanışığına kömək etmələrini istəyirdilər. Beləliklə, çox istedadlı gənclərin daha mükəmməl təhsil alıb peşəkar mütəxəssis kimi yetişmək arzuları gözlərində qalırdı. Daha bir səbəb isə, əfsus ki, həmin illərdə ali təhsil müəssisələrinə də sirayət etmiş mənəviyyat böhranı, rüşvətxorluq, korrupsiya halları idi. Bir çox hallarda gəncləri ali məktəblərin müvafiq fakültələrinə müəyyən təmənna qarşılığında qəbul edir, buna isə ancaq yüksək maddi imkanı, geniş əlaqələri olan adamların gücü çatırdı. Bu hallar xüsusilə ali məktəblərin hüquq, tibb, tarix və sairə bu kimi o dövr üçün yüksək perspektivli, gələcək üçün uğurlu karyera şəraiti yaradan ixtisaslarında özünü göstərirdi. Son nəticədə təminatlı ailələrin ciddi savadı olmayan övladları nüfuzlu fakültələrdə tələbə olur, daha sonra eyni üsullarla hətta elmi mühitə yol taparaq alimlik karyerası qurmağa başlayır, orta məktəbdə çox gözəl savad əldə etmiş zəhmətkeş övladları isə tarlalarda çalışaraq əl əməyi ilə əvvəlki nəsillərin yolunu davam etdirmək taleyi ilə barışmalı olurdular.

**Ədalətin zəfəri**

Ulu Öndər Heydər Əliyevin hakimiyyətə gəlişi ilə bu vəziyyət kökündən dəyişdi. Ötən əsrin 70-ci illərinin əvvəllərindən başlayaraq Azərbaycanın elm, təhsil, maarif, mədəniyyət sahələrində çox ciddi keyfiyyət dəyişiklikləri özünü göstərməyə başladı. Bu illərdə Azərbaycanda elmin-təhsilin fundamental maddi-texniki bazası yaradıldı. Bu gün də təhsilimizin bünövrəsini təşkil edən mütərəqqi ənənələr formalaşdırıldı. Ölkədə ali və orta ixtisas təhsili müəssisələrinin sayı artırıldı. Ali məktəblərin ümumi sayı 12-dən 17-yə, tələbələrin sayı 70 mindən 100 minə çatdı. Məhz həmin illərdə respublikada ümumtəhsil məktəblərinin, ali və orta ixtisas təhsili müəssisələri üçün yeni binaların tikintisi geniş vüsət aldı. Təhsil infrastrukturu tamamilə yeniləndi, respublikanın müxtəlif bölgələrində 800-ə yaxın məktəb istifadəyə verildi.

Heydər Əliyev ali təhsilin hər kəs üçün əlçatan olmasından ötrü bir sıra qətiyyətli qərarlar qəbul etdi. Kənd yerlərində çalışan zəhmətkeş övladlarının ali təhsil ala bilməsi üçün bir sıra imtiyazların tətbiqinə nail oldu. O dövrdə rayonlara, kəndlərə səfərləri zamanı, tarlalarda zəhmət adamları ilə mütəmadi görüşlərində Heydər Əliyevin gənclərlə söhbətləri, onların gələcək təhsil planları ilə maraqlanması və bu gəncləri mütləq ali təhsil almağa, yaradılmış imkanlardan faydalanmağa çağırması, təhsili bir dəyər kimi gənclər arasında təşviq etməsi həmin görüşlərin iştirakçılarının indi də yaxşı xatirindədir. Minlərlə gənc həmin illərdə məhz Heydər Əliyevin sayəsində ali təhsilə yiyələndi və yüksəkixtisaslı peşəkar mütəxəssis kimi ölkəmizin inkişafına layiqli töhfələrini verməyə başladı.

Ulu Öndər ali məktəblərin yüksək prestijli ixtisasları ilə bağlı xoşagəlməz halların, həmçinin elmi mühitdə özünü göstərən neqativ məqamların, habelə yüksək vəzifə

sahiblərinin alimlik eşqinə düşməsinin qarşısını da özünəməxsus qətiyyətli üsullarla aldı. Övladın öz valideynlərinin yüksək vəzifədə çalışdıqları sahəyə aid ixtisaslar üzrə təhsil almasına müəyyən məhdudiyyətlər tətbiq etdi. Beləliklə, bu ixtisasların qapılarını kasıb, imkansız ailələrin balalarının üzünə açdı. İllərdən sonra ali təhsil, xəyallarındakı ixtisası qazanmaq arzuları gerçək olan həmin insanlar öz həyat və karyera uğurlarına görə bu gün də Ulu Öndərə minnətdardılar. Böyük rəhbərin tətbiq etdiyi qaydalar təhsildə inkişafa səbəb olduğu kimi, elmdə də müəyyən şəffalıq yaratdı, mənəviyyat problemlərini müəyyən qədər ortadan götürdü.

O illərdə Heydər Əliyevin keçmiş ittifaqın ən nüfuzlu nəşrlərindən olan və bütün dünyada maraqla izlənən "Literaturnaya qazeta"ya verdiyi "Qoy ədalət zəfər çalsın" sərlövhəli müsahibəsi də unudulmayıb. Bu müsahibəsində Ulu Öndər cəmiyyətdəki mövcud problemlər haqqında danışır və onların həlli yönündə görülən işləri diqqətə çatdırırdı. Böyük rezonans yaratmış bu müsahibədə yüksək cəsarətlə səsləndirilmiş fikirlər və bu fikirlərin arxasında duran real əməl həqiqətən ədalətin zəfəri idi.

**Azərbaycanın gələcəyi üçün formalaşdırılan intellektual baza**

Heydər Əliyev öz zəkasının qüdrəti ilə təhsil qarşısındakı çağırışları da aydın görməyi, düzgün qiymətləndirməyi və buna adekvat addımlar atmağı gözəl bacarırdı. Bu böyük dövlət adamının sovet Azərbaycanına rəhbərlik etdiyi illər bütün dünyada elmi-texniki inqilabın baş verdiyi zamanlar idi. Ulu Öndərin əzmkarlığı, sarsılmaz qətiyyəti, gələcəyə yönəlmiş fəaliyyəti sayəsində ölkəmizdə böyük sənaye kompleksləri inşa olunur, dövrünə görə ən müasir texnologiyalar əsasında çalışan müəssisələr yaradılırdı. Bu müəssisələrdə çalışan intellektual işçi qüvvəsinə, mühəndis-texnoloq heyətinə böyük ehtiyac vardı.

Elmi-texniki inkişaf, həyatın ən müxtəlif sahələrində tətbiq edilən innovasiyalar Azərbaycanın əmək bazarı üçün nadir sayılan bir sıra ixtisaslara ciddi tələbat yaratmışdı. Ölkəmizdəki ali təhsil müəssisələrinin potensialı bu kadrları hazırlamaqdan ötrü yetərli deyildi, onlar üçün də müəyyən nəzəri-praktik ənənələrin formalaşmasına ehtiyac vardı. Heydər Əliyev bu problemi də Azərbaycan gəncliyi üçün yeni imkanlara çevirməyi bacardı. Hər il minlərlə gəncimizi keçmiş ittifaqın müxtəlif nüfuzlu ali məktəblərinə nadir ixtisaslar üzrə təhsil almaq üçün göndərdi. Təkcə bir faktı diqqətə çatdıraq ki, 1969-1982-ci illərdə 15 mindən çox azərbaycanlı tələbə keçmiş SSRİ-nin qabaqcıl ali məktəblərində təhsil almaq üçün göndərilmişdi. Bütün bunlar ölkə rəhbərinin dövlətin gələcəyi barədə müdrik düşüncələrinin, eləcə də Azərbaycan gəncliyinin inkişafına, öz potensialını reallaşdıraraq uğurlu həyatını qura bilməsinə yüksək qayğısının təzahürü idi. Onu da diqqətə çatdıraq ki, Azərbaycan dövlət müstəqilliyinə qovuşaraq azad bazar iqtisadiyyatı yolunda inamla irəliləyərkən ölkəmizin əmək bazarının peşəkar mütəxəssis sarıdan sıxıntı yaşamaması, yeni dövrün inkişaf meyillərinin sürətlə mənimsənilməsi, innovasiyaların iqtisadiyyatın, sosial həyatın müxtəlif sahələrində çevik tətbiqi həm də həmin illərdə müvafiq ixtisaslar üzrə təhsil almış kadrların peşəkarlığı sayəsində mümkün olmuşdu. Ümummilli Liderin o illərdə gördüyü işlər Azərbaycanın gələcək inkişafı üçün çox güclü kadr potensialı formalaşdıra bilmişdi.

Beləliklə, ötən əsrin 70-80-ci illərində Heydər Əliyevin rəhbərliyi altında təhsil müəssisələrinin geniş şəbəkəsinin yaradılması və həmin şəbəkənin zəngin maddi-texniki bazasının formalaşdırılması, respublika hüdudlarından kənardakı ali məktəblərə gənclərin göndərilməsi, hərbi kadrların yetişdirilməsi, Azərbaycan Elmlər Akademiyasının elmi-tədqiqat institutlarında fundamental elmin inkişafının təmin olunması gələcəkdə milli müstəqillik üçün zəruri intellektual zəmin yaratmışdı.

**Elmə qayğı**

Heydər Əliyev o vaxtlarda Azərbaycan elminin, mədəniyyətinin də böyük inkişafına nail olmuşdu. Yeni yaradılan elmtutumlu sənaye sahələri elmlə iqtisadiyyatın inteqrasiyasını gücləndirir, tətbiqi elmlər inkişaf edir, Azərbaycan alimlərinin təcrübədə özünü doğruldan kəşf və ixtiraları dünyaya çıxırdı. Ulu Öndər Azərbaycan alimlərinin güclü himayədarı idi. O, humanitar sahələrdə fəaliyyət göstərən alimləri də o dövrə qədər sanki üzərinə qadağa qoyulmuş mövzular kimi görünən məsələləri tədqiq etməyə, tariximizin, mədəniyyətimizin dərin qatlarını üzə çıxarmağa, keçmişimizi obyektiv yazmağa təşviq edirdi. Azərbaycan alimləri dövrün konyukturasından irəli gələrək hansısa təzyiqlərlə üzləşəndə onları qoruyurdu, elm, mədəniyyət xadimlərinə himayədarlıq edirdi, onların öz əsərlərində, yaradıcılıq fəaliyyətlərində maksimum azad olmalarına şərait yaradırdı.

Heydər Əliyevin rəhbərliyi dövrü Azərbaycan tarixinə elmimizin, təhsilimizin, mədəniyyətimizin hərtərəfli tərəqqisi, ümumilikdə Azərbaycanın intibahı dövrü kimi daxil oldu. Bakıda və regionlarda yüzlərlə məktəb, kino-teatr, klub, mədəniyyət evi, kitabxana, uşaq bağçası tikilərək vətəndaşlarımızın istifadəsinə verildi. Heydər Əliyevin diqqət və qayğısı sayəsində neçə-neçə görkəmli bəstəkarımız, rəssamımız, şairimiz, yazıçımız, heykəltəraşımız formalaşdı. Azərbaycanın yaradıcı adamlarına verilən fəxri adlarla, Bakıda və Moskvada onların yubileylərinin təşkili ilə Ulu Öndər xalqımızın böyüklüyünü göstərdi, azərbaycanlıların mədəniyyətə, mədəni inkişafa nə qədər bağlı xalq olduğunu nümayiş etdirdi.

**Milli intibahımızın memarı**

Ötən əsrin 90-cı illərinin əvvəllərində Azərbaycanın müstəqilliyinin ilk dönəmlərində, ölkəmizin ağır böhranla üzləşdiyi şəraitdə cəmiyyət həyatının digər mühüm sferalarında olduğu kimi, elm-təhsil, mədəniyyət sahəsində də ciddi problemlər yaşanırdı. Bu sahələrdə çalışan və bütün ömrünü insan tərbiyəsinə həsr etmiş ziyalılarımız ciddi sıxıntılarla, çətinliklərlə üzləşmişdilər. Hakimiyyət rəhbərliyində bir-birini əvəz edən təsadüfi adamlar ziyalılara, elm adamlarına, təhsil xadimlərinə laqeyd münasibət bəsləyirdilər. Elm, təhsil sahələrində böyük bir durğunluq hökm sürürdü. Küçə-meydan təfəkkürü ilə hakimiyyəti mənimsəyənlərlə bir yerdə olmayan, onların qaragüruh selinə qoşulmayan ziyalılara qarşı qısqanc münasibət vardı. Ölkədən beyin axını güclənirdi.

Ağır sosial-iqtisadi mənəvi böhran, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün ağır yaraları bütün vətəndaşlarımız kimi ölkə ziyalılarını da narahat edirdi. Bu, dövlətin, xalqın gələcəyi ilə bağlı narahatlıq idi. Təsadüfi deyil ki, xalqın istəklərini nəzərə alaraq Ulu Öndər Heydər Əliyevin Naxçıvandan Bakıya gələrək ölkəyə ali rəhbərlik missiyasını üzərinə götürməsi, Azərbaycanı üzləşdiyi bəlalardan xilas etməsi çağırışları ilə çıxış edənlər də məhz ziyalılarımız idi.

1993-cü ilin iyununda xalqımızın təkidli tələbi ilə Ulu Öndərin yenidən hakimiyyətə qayıtması Azərbaycanın elm, təhsil, mədəniyyət mühitindəki depressiv durumu ortadan götürdü, böyük canlanma yaratdı, sistemli şəkildə həyata keçirilən hüquqi dövlət quruculuğu proseslərində, sosial-iqtisadi inkişafda elmə, təhsilə xüsusi diqqət yetirildi. 1995-ci ildə Ümummilli Liderin rəhbərliyi ilə layihəsi hazırlanan və ümumxalq səsverməsi əsasında qəbul olunan Konstitusiyada milli dövlətçiliyimizin inkişafının hüquqi əsasları müəyyənləşdi. Yeni reallıqlar dövründə ölkə qarşısında duran problemlərin həlli üçün əsaslı

islahatlar proqramı hazırlanaraq onların icrasına başlandı. Bu islahatların mühüm bir istiqaməti də məhz elm və təhsil sektorunu əhatə edirdi.

Ümummilli Lider 1998-ci ilin martında "Azərbaycan Respublikasında təhsil sahəsində islahatlar üzrə dövlət komissiyasının yaradılması haqqında" sərəncam imzaladı. Bu sərəncamdan irəli gələrək müəyyən bir dövr ərzində sahə üzrə təkmil qanunvericilik bazası formalaşdırıldı. Təhsil konsepsiyasının hüquqi əsasları müəyyənləşdirildi. Komissiya qısa müddətdə "Azərbaycan Respublikasının təhsil sahəsində islahat proqramı"nı hazırladı və Ulu Öndərin siyasi iradəsi sayəsində bu sənəddə irəli sürülmüş vəzifələrin icrasına başlandı. Həmin proqram ölkəmizdə təhsil sisteminin beynəlxalq standartlara uyğunlaşdırılması ilə yanaşı, milli təhsil ənənələrinə sadiq qalmasını da təmin etdi.

**Alimə qayğı**

Elm sahəsi də islahatlardan kənarda qalmadı. Təsadüfi deyil ki, ali hakimiyyətə qayıdışından sonra Ulu Öndər Heydər Əliyev ilk görüşlərindən birini 1993-cü il sentyabrın 21-də Azərbaycan Elmlər Akademiyasında ziyalılarla keçirmişdi. 1997-ci il yanvarın 31-də Ulu Öndər Azərbaycan Elmlər Akademiyasının rəhbərliyi və aparıcı alimlər qrupu ilə də görüşərək onların rəy və təkliflərini dinləmişdi. Bu görüş zamanı elm sahəsində islahatların aparılması zərurəti irəli sürülmüşdü. Azərbaycanda elmin inkişaf strategiyasının əsas istiqamətləri müəyyənləşdirilmişdi. Həmin görüşdə Heydər Əliyev xüsusilə humanitar elmlərlə bağlı yeni çağırışları diqqətə çatdırmışdı. Azərbaycanın obyektiv reallıqlara əsaslanan, siyasi konyukturalardan, ideoloji tələblərdən uzaq ədəbiyyat, mədəniyyət tarixinin yazılması zərurətini irəli sürmüşdü. O cümlədən Azərbaycan tarixinin dərindən öyrənilməsinin və yüksək elmi prinsiplər əsasında şərhinin dövlət üçün mühüm əhəmiyyət daşıdığını diqqətə çatdırmışdı.

Bu tarixi görüşdən başlayaraq, elm sahəsində bir sıra əsaslı islahatlar aparıldı, elmi-tədqiqat istiqamətləri müəyyənləşdi, elmi layihələrin yeni dövrün reallıqlarına uyğun maliyyələşməsi mexanizmləri quruldu. "Elmin strateji inkişafı və Azərbaycanın Milli Elmlər Akademiyasında islahatlar" konsepsiyası hazırlanaraq icraya yönəldi. Ulu Öndərin bu istiqamətdə növbəti tarixi addımlarından biri də 15 may 2001-ci il tarixli fərmanın imzalanması oldu. Həmin fərmanla Azərbaycan Elmlər Akademiyasına Milli Elmlər Akademiyası adı verildi. Bununla bir tərəfdən akademiyanın elmimizin inkişafındakı rolu və nailiyyətləri rəsmən təsdiqlənmiş oldu, digər tərəfdən də elmi institutlar qarşısında dövrün çağırışlarına uyğun yeni vəzifələr müəyyənləşdirildi.

**Gələcəyə doğru**

Ulu Öndərin rəhbərliyi ilə ölkəmizdə aparılan hüquqi islahatlar, demokratik inkişaf, qanunvericilik bazasının müasir dövrün, yeni reallıqların tələblərinə tam uyğunlaşdırılması ölkəmizdə hüquq elminin inkişafı üçün də geniş üfüqlər açdı. Bu sahədə təhsilin keyfiyyəti yüksəldi, elmi potensial gücləndirildi, hüququn aliliyinin təmin olunması, cəmiyyətdə yeni hüquqi münasibətlər sisteminin formalaşması, insan hüquq və azadlıqlarının, eləcə də sosial məsuliyyət prinsiplərinin aktuallaşması, sivil həyat normalarının öz yerini tutması bütün sahələrdə peşəkar hüquqşünaslara yaranan böyük ehtiyac ölkəmiz üçün yüksəkixtisaslı hüquqşünas kadrların hazırlanması zərurətini aktuallaşdırdı və bu istiqamətdə ardıcıl tədbirlər həyata keçirildi və bu tədbirlər yenə də davam etdirilməkdədir.

Ulu Öndərin strateji inkişaf kursuna sadiqliklə ölkəmizi tarixinin ən güclü dövrünə yetirmiş Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə son onilliklərdə qazanılmış milli nailiyyətlərin mühüm bir hissəsi də məhz təhsil, elm sahəsinə aiddir. Ölkə rəhbərliyinin həyata keçirdiyi siyasət, cəmiyyətdə bütün vətəndaşlara yaradılmış bərabər imkanlar, hər kəsin bilik və bacarıqlarına uyğun şəkildə özünə layiqli yer tutması sayəsində bu gün Azərbaycanda təhsil, yüksək savad, müasir dövrün tələblərinə uyğun bilik və bacarıqların əldə olunması insanlarımız üçün böyük bir dəyərə, meyara çevrilib. Hər kəs təhsil almağa, özünü inkişaf etdirməyə, yaranmış imkanlardan faydalanmağa çalışır. Elmin, təhsilin gücü, insanın həyatındakı, rifahındakı rolu hər kəs tərəfindən dərk olunur. Dövlət rəhbərimizin bu sahəyə diqqət və qayğısı sayəsində Azərbaycanın ən ucqar kəndlərində də müasir standartlara uyğun məktəblər tikilir. Müəllimlərin işə qəbulu prosesində, onların əməyinin stimullaşdırılmasında tətbiq olunan şəffaf, effektiv mexanizmlərlə bu məktəblərdə gənc, yüksək savadlı və motivasiyalı pedaqoqların çalışıb dərs deməsi təmin olunur.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondunun həyata keçirdiyi "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi çərçivəsində ölkə boyunca yüzlərlə yeni məktəb tikilərək, yaxud yenidən qurularaq vətəndaşlarımızın istifadəsinə verilib. Ölkədəki ali və orta ixtisas təhsili müəssisələrinin elmi, maddi-texniki bazası gücləndirilib. Son illər Azərbaycanda bir neçə yeni ali məktəb yaradılıb. Bu ali məktəblərin bir qisminin xarici ölkələrlə müştərək yaradılması, eləcə də bir sıra ali məktəblərimizdə xarici ölkələrin universitetləri ilə ikili diplom proqramlarının tətbiqi xüsusilə təqdiredicidir. Bütün bunlar qabaqcıl beynəlxalq təcrübənin ölkəmizə axınına, sürətlə mənimsənilməsinə, yeni mütərəqqi ənənələrin formalaşmasına şərait yaradır.

Azərbaycan Prezidenti İlham Əliyevin dəstəyi, diqqət və qayğısı hesabına gənclərimizə xarici ölkələrin nüfuzlu ali məktəblərində təhsil almaq üçün şəraitin yaradılması da gənclərimizin inkişafına açılan qapı, ölkəmizin, dövlətimizin gələcəyinə qoyulan sərmayədir. Hər il minlərlə gəncimiz bu proqram hesabına daha yüksəkkeyfiyyətli təhsil arzusuna qovuşur, müasir dünyamızın bilik və bacarıqlarına yiyələnir. Azərbaycanda elmi fəaliyyətin də yeni reallıqlara uyğunlaşdırılması üçün məqsədyönlü addımlar atılır. 2022-ci ildə Elm və Təhsil Nazirliyinin yaradılması, elm və təhsil, elm və sənaye, elm və biznes arasında inteqrasiyanın daha da gücləndirilməsi məqsədilə həyata keçirilməkdə olan kompleks tədbirlər buna bir nümunədir. Ölkədə elmi tədqiqatların maliyyələşdirilməsi, istedadlı gənclərin elmə marağının artırılması üçün ardıcıl addımlar atılır. Eləcə də olimpiada hərəkatı getdikcə güclənir. Gənclərin innovasiyalara marağı güclənir, onların öz ideyalarını startaplara çevirmələrinə şərait yaradılır, müxtəlif formalarda onlara dəstək verilir. Bütün bunlar müasir dünyamızın müəyyən etdiyi inkişaf mənzərəsidir. Azərbaycanın bu mənzərədə kifayət qədər öncül ölkələrdən biri kimi görünməsi böyük qürur doğurur. Bu öncüllüyü təmin edənsə Heydər Əliyev ideyalarının mütərəqqiliyi, cəmiyyəti daim irəli aparmasıdır. Bu ideyalar əbədi olduğu qədər Azərbaycanın inkişafı da davamlı və dayanıqlı olacaq.

## XÜLASƏ

Məqalədə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin istər Sovet Azərbaycanına rəhbərliyi dövründə, istərsə də ikinci dəfə ölkədə siyasi hakimiyyətə gəldikdən sonra dövlət quruculuğu, elm və təhsil sahələrindəki fəaliyyəti araşdırılır və qeyd olunur ki, Ulu Öndərin rəhbərliyi ilə ölkəmizdə aparılan hüquqi islahatlar, demokratik inkişaf, qanunvericilik bazasının müasir dövrün tələblərinə tam uyğunlaşdırılması hüquq elminin inkişafı üçün geniş üfüqlər açdı. Bu sahədə təhsilin keyfiyyəti yüksəldi, elmi poten-

sial gücləndirildi, hüququn aliliyinin təmin olunması, cəmiyyətdə yeni hüquqi münasibətlər sisteminin formalaşması, insan hüquq və azadlıqlarının, eləcə də sosial məsuliyyət prinsiplərinin aktuallaşması, sivil həyat normalarının öz yerini tutması bütün sahələrdə peşəkar hüquqşünaslara yaranacaq böyük ehtiyac ölkəmiz üçün yüksəkixtisaslı hüquqşünas kadrların hazırlanmasını aktuallaşdırdı və bu istiqamətdə ardıcıl tədbirlər həyata keçirildi və bu tədbirlər yenə də davam etdirilməkdədir. Müasir dünyamızın müəyyən etdiyi inkişaf mənzərəsində Azərbaycanın öncül ölkələrdən biri kimi görünməsi böyük qürur doğurur. Bu öncüllüyü təmin edən Heydər Əliyev ideyalarının mütərəqqilliyi, cəmiyyəti daim irəli aparmasıdır. Bu ideyalar əbədi olduğu qədər Azərbaycanın inkişafı da davamlı və dayanıqlı olacaq.

**Алыш Касумов**
**Заведующий кафедрой Трудового и экологического права**
**Юридического факультета Бакинского Государственного Университета,**
**д.ю.н., профессор**

**Прогрессивные идеи продвигающие общество**

**Р Е З Ю М Е**

В статье рассматривается деятельность общенационального лидера азербайджанского народа Гейдара Алиева в сфере государственного строительства, науки и образования, как в период его руководства советским Азербайджаном, так и после его второго прихода к политической власти в стране и отмечается, что правовые реформы, демократическое развитие, полное приведение законодательной базы в соответствие с требованиями современности, проводимые в нашей стране под руководством великого лидера, открыли широкие горизонты для развития юридической науки. Повышено качество образования в этой области, укреплен научный потенциал, обеспечено верховенство права, в обществе сформирована новая система правовых отношений, актуализированы права и свободы человека, а также принципы социальной ответственности, закреплены нормы цивилизованной жизни во всех сферах и это создает большую потребность в профессиональных юристах и это актуализирует подготовку высококвалифицированных юристов для нашей страны и в этом направлении были приняты и все еще принимаются последовательные меры. Вызывает большую гордость то, что Азербайджан является одной из передовых стран в определенном обзоре развития современного мира. Именно прогрессивность идей Гейдара Алиева, постоянное движение общества вперед обеспечивают это новаторство. Так же, как и эти вечные идеи, развитие Азербайджана будет непрерывным и устойчивым.

**Alish Gasimov**
**Head of the Department of Labor and Environmental Law**
**of the Faculty of Law of Baku State University, Doctor of Law, Professor**

## Progressive ideas that move society forward

**S U M M A R Y**

The article examines the activities of the national leader of the Azerbaijani people, Heydar Aliyev, both during the leadership of Soviet Azerbaijan and after coming to political power in the country for the second time, in the fields of state building, science and education, and it is noted that the legal reforms, democratic development, and legislative framework carried out in our country under the leadership of the Great Leader full adaptation to the requirements of the modern era opened wide horizons for the development of legal science. The quality of education in this field has increased, the scientific potential has been strengthened, ensuring the rule of law, forming a new system of legal relations in society, actualizing human rights and freedoms, as well as the principles of social responsibility, and the norms of civil life have taken their place made the training of legal personnel more relevant and in this direction, consistent measures were implemented and these measures are still being continued. It is a great pride that Azerbaijan is seen as one of the pioneer countries in the development landscape defined by our modern world. This leadership is ensured by the progressiveness of Heydar Aliyev's ideas, which constantly moves the society forward. As long as these ideas are eternal, the development of Azerbaijan will be sustainable.

***Elşad NƏSİROV***

Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin
Heydər Əliyev adına Akademiyası rəisinin 1-ci müavini

## AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN BURAXILMASININ KONSTİTUSİYA ƏSASLARININ MAHİYYƏTİNƏ DAİR

***Açar sözlər:*** *parlamentarizm, hakimiyyət bölgüsü, "çəkindirmə və tarazlaşdırma" mexanizmi, parlamentlərin buraxılması, hökumətə etimadsızlıq, Azərbaycan Respublikası Milli Məclisinin buraxılması.*

***Ключевые слова:*** *парламентаризм, разделение властей, механизм «сдержек и противовесов», роспуск парламентов, вотум недоверия правительству, роспуск Милли Меджлиса Азербайджанской Республики.*

***Keywords:*** *parliamentarism, separation of powers, "check and balance" mechanism, dissolution of parliaments, vote of no confidence, dissolution of the Milli Majlis of the Republic of Azerbaijan.*

**Giriş.** Parlamentlər müəyyən müddətə formalaşdırılır, yeni tərkib parlamentin seçilməsi və işinə başlamasından sonra səlahiyyət müddətinin başa çatması ilə əlaqədar olaraq öz fəaliyyətini dayandırır. Parlamentlərin səlahiyyət müddətləri başa çatmamış dövlət başçısı tərəfindən buraxılması mexanizmi bir qayda olaraq parlamentli (monarxiya və respublika) [1, s. 255; 2, s. 347] və qarışıq tipli (yarımprezidentli) respublika idarəçilik formalarına malik olan dövlətlərin (Fransa, Portuqaliya, Qazaxıstan, Ukrayna) konstitusiyalarında təsbit olunur [3, s. 454; 4, s. 124]. İkipalatalı struktura malik olan parlamentlərin isə yalnız aşağı palatasının buraxılması konstitusion qaydada təsbit olunur. [4, s. 240]. Prezidentli respublikaların konstitusiyalarında isə belə bir qayda nəzərdə tutulmur, prezidentin parlamenti buraxmaq hüququ yoxdur (məsələn, ABŞ) [5, s. 688; 1, s. 262]. Çünki parlamentli idarəçilik formasından fərqli olaraq, burada hakimiyyət bölgüsü daha sərt müəyyən olunur, "çəkindirmə və tarazlaşdırma" mexanizminə müvafiq olaraq bir hakimiyyətin digər hakimiyyətin fəaliyyətinə müdaxiləsinə yol verilmir, bir hakimiyyət digərini səlahiyyətlərinə aid olmayan məsələlərin həyata keçirilməsindən fərqli konstitusion vasitələrlə çəkindirir. Prezidentli respublikalarda prezidentlərin həm dövlət başçısı və həm də ali icra hakimiyyətinin mənsub olduğu vəzifəli şəxs kimi geniş hakimiyyət səlahiyyətləri nəzərdə tutulsa da, bir qayda olaraq parlamenti buraxmaq və növbədənkənar parlament seçkiləri təyin etmək səlahiyyəti konstitusiyalarda təsbit edilmir. Prezidentin yalnız dövlət başçısı statusuna və məhdud səlahiyyətlərə malik olduğu parlamentli respublikalarda isə prezident parlamenti səlahiyyət müddəti başa çatmamış vaxtından əvvəl buraxa bilər. Bir məsələni də qeyd etmək lazımdır ki, bu halda prezident parlamenti öz iradəsi əsasında deyil, hökumətin tələbi və ya təklifi əsasında buraxır və növbədənkənar seçkilər təyin edir. [1, s. 265]

**Azərbaycan Respublikası Milli Məclisinin buraxılmasının Konstitusiya əsasları.** 26 sentyabr 2016-cı il tarixdə keçirilən konstitusion referenduma qədər Azərbaycan

Respublikası Konstitusiyasının Azərbaycan Respublikası Prezidentinin səlahiyyyətlərini müəyyən edən 109-cu maddəsində Azərbaycan Respublikası Milli Məclisinin səlahiyyət müddəti başa çatmamış buraxılmasına dair səlahiyyəti nəzərdə tutulmamış, Konstitusiyanın digər maddələrində buna əsas verən hər hansı bir müddəa təsbit edilməmişdir. Referendum zamanı digər əlavə və dəyişikliklərlə yanaşı Azərbaycan Respublikası Konstitusiyasına 981-ci maddəsi əlavə olunmuşdu.

Azərbaycan Respublikası Konstitusiyasının $98^{1}$-ci maddəsində Azərbaycan Respublikası Milli Məclisinin buraxılması əsasları nəzərdə tutulur. Belə ki, həmin maddənin birinci hissəsi Milli Məclisin səlahiyyət müddəti başa çatmamış Azərbaycan Respublikası Prezidenti tərəfindən onun buraxılmasının aşağıdakı əsaslarını müəyyən edir:

1) Azərbaycan Respublikası Milli Məclisinin eyni çağırışı bir il ərzində iki dəfə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə etimadsızlıq göstərdikdə;

2) Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin, Azərbaycan Respublikası Ali Məhkəməsinin və Azərbaycan Respublikası Mərkəzi Bankı İdarə Heyətinin kollegial fəaliyyəti üçün zəruri olan sayda üzvlüyə namizədləri Azərbaycan Respublikasının Prezidenti tərəfindən iki dəfə təqdim edildikdən sonra, qanunla müəyyən edilmiş müddətdə təyin etmədikdə;

3) Konstitusiyanın 94-cü və 95-ci maddələrində, 96-cı maddəsinin II, III, IV və V hissələrində, 97-ci maddəsində göstərilən vəzifələrini aradan qaldırıla bilməyən səbəblər üzündən icra etmədikdə.

**Dəqiqləşdirilməsi zəruri olan birinci məsələ.** Birinci halda "Milli Məclisin eyni çağırışı bir il ərzində iki dəfə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə etimadsızlıq göstərdikdə" müddəası Milli Məclisin buraxılmasının əsası kimi müəyyən edilir. İlk baxışdan burada nəzərə çarpacaq qeyri-adi heç nə yoxdur və hər şey çox aydın şəkildə təsbit olunmuşdur. Belə ki, $98^{1}$-ci maddəyə istinadən qeyd edə bilərik ki, əgər Milli Məclisin fərqli çağırışları bir il ərzində Nazirlər Kabinetinə iki dəfə etimadsızlıq göstərsə bu Milli Məclisin buraxılması üçün əsas ola bilməz, yalnız Milli Məclisin eyni çağırışı bir il ərzində iki dəfə etimadsızlıq göstərərsə Milli Məclisin buraxılması üçün əsas yaranmış olar. Lakin burada sual doğuran ilk məsələ – a) Milli Məclisin Nazirlər Kabinetinə etimad məsələsini həll etməsi ilə bağlı səlahiyyətinin həyata keçirilməsi prosedurunun Konstitusiya və digər qanunvericilik aktları ilə dəqiq tənzimlənməməsi məsələsidir. İkinci sual doğuran məsələ isə – b) Konstitusiyanın "bir il ərzində" ifadəsi ilə "təqvim ilini", yoxsa Nazirlər Kabinetinə ilk etimadsızlıq göstərildiyi tarixdən başlayaraq hesablanan "bir il müddəti" nəzərdə tutması ilə bağlı olan məsələdir. Əgər Konstiyusiyanın $98^{1}$-ci maddəsində "təqvim ili" nəzərdə tutulursa, onda burada Nazirlər Kabinetinə etimad məsələsinin həlli proseduru ilə bağlı konstitusion müddəaların təkmilləşdirilməsi zərurəti meydana çıxır.

Belə ki, Konstitusiyanın 95-ci maddəsinin birinci hissəsinin 14-cü bəndində Milli Məclisin Azərbaycan Respublikasının Nazirlər Kabinetinə etimad məsələsinin həll edilməsi səlahiyyəti təsbit edilir. Konstitusiyanın nə 95-ci maddəsində, nə də digər maddələrində Milli Məclisin bu səlahiyyətini nə zaman, hansı hallarda, hansı şərtlər daxilində həyata keçirməsi ilə bağlı heç bir müddəa nəzərdə tutulmur. "Azərbaycan Respublikasının Milli Məclisinin Azərbaycan Respublikasının Nazirlər Kabinetinə etimad məsələsinin həll edilməsi hüququnun əlavə təminatları haqqında" 24 dekabr 2002-ci il tarixli 405-IIKQ №-li Konstitusiya Qanunu ilə müəyyən olunan prosedur isə qeyd olunan suallara cavab verməyə imkan vermir. Belə ki, Konstitusiya Qanununun 1-ci maddəsində Azərbaycan Respublikası Nazirlər Kabinetinin Azərbaycan Respublikasının Milli Məclisi qarşısında hesabatı qaydası

nəzərdə tutulur. Orada qeyd olunur ki, "Azərbaycan Respublikasının Nazirlər Kabineti hər il Azərbaycan Respublikası Milli Məclisinin yaz sessiyasının beşinci iclasında Azərbaycan Respublikası Nazirlər Kabinetinin fəaliyyəti haqqında hesabat verir." "Azərbaycan Respublikası Milli Məclisi Daxili Nizamnaməsinin təsdiq edilməsi haqqında" 17 may 1996-cı il tarixli 74-IQ №-li Azərbaycan Respublikasının Qanunu ilə təsdiq edilmiş Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsinin 21-1-ci maddəsinin birinci hissəsində də bununla bağlı müddəa eyni qaydada nəzərdə tutulur.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 6-cı bəndinə müvafiq olaraq, Azərbaycan Respublikası Nazirlər Kabinetinin istefası haqqında qərar qəbul etmək səlahiyyəti Azərbaycan Respublikasının Prezidentinə mənsubdur. Deməli, Milli Məclisin Nazirlər Kabinetinə etimadsızlıqla bağlı qərarı Nazirlər Kabinetinin avtomatik olaraq istefaya getməsinə gətirib çıxarmır. Bu barədə qərarı Azərbaycan Respublikasının Prezidenti qəbul etməlidir. Əslində, məsələnin bu cür qoyuluşu tam məntiqlidir. Belə ki, Azərbaycan Respublikası Konstitusiyasının 114-cü maddəsinə müvafiq olaraq, Nazirlər Kabinetini Azərbaycan Respublikasının Prezidenti özünün icra hakimiyyəti ilə bağlı səlahiyyətlərinin həyata keçirilməsini təşkil etmək məqsədilə formalaşdırır və Nazirlər Kabineti Prezidentin yuxarı icra hakimiyyəti orqanıdır. Odur ki, onun istefası ilə bağlı qərarın da məhz Prezident tərəfindən qəbul olunması ən optimal variantdır. Belə bir nəticəyə gəlirik ki, Milli Məclisin Nazirlər Kabinetinə etimadsızlıq göstərilməsinə dair qərarı Azərbaycan Respublikası Prezidenti üçün məcburi xarakter kəsb etmir. O, bu qərarla razılaşaraq Nazirlər Kabinetini istefaya da göndərə bilər, yaxud Nazirlər Kabinetinin fəaliyyətini davam etdirməsini məqsədəmüvafiq də hesab edə bilər. Konstitusiyanın $98^1$-ci maddəsində Nazirlər Kabinetinin istefası deyil, Milli Məclisin eyni çağırışı tərəfindən bir il ərzində iki dəfə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə etimadsızlıq göstərilməsi müəyyən edildiyi üçün Nazirlər Kabinetinin Milli Məclisin etimadsızlığı səbəbindən Prezident tərəfindən istefaya göndərilib-göndərilməməsindən asılı olmayaraq, istənilən halda Milli Məclisin ikinci dəfə etimadsızlıq votumu onun Prezident tərəfindən buraxılmasını təmin etmiş olur. Burada əsas hüquqi fakt Nazirlər Kabinetinin istefası deyil, nəticəsindən asılı olmayaraq Milli Məclis tərəfindən ona etimadsızlığın göstərilməsidir.

Diqqəti cəlb edən digər bir məsələ, "Azərbaycan Respublikasının Milli Məclisinin Azərbaycan Respublikasının Nazirlər Kabinetinə etimad məsələsinin həll edilməsi hüququnun əlavə təminatları haqqında" 24 dekabr 2002-ci il tarixli 405-IIKQ №-li Konstitusiya Qanununun 4-cü maddəsində nəzərdə tutulan Milli Məclisin Nazirlər Kabinetinə etimad məsələsinin həll edilməsi hüququnun məhdudlaşdırılması ilə bağlı olan məsələdir. Belə ki, Konstitusiya Qanununun 4.2-ci maddəsinə görə, "Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən Azərbaycan Respublikasının Nazirlər Kabinetinə etimad göstərilməsi məsələsi eyni məsələyə dair birinci müzakirədən yalnız 6 ay keçdikdən sonra təkrarən yenidən müzakirəyə çıxarıla bilər". Buradan belə qənaətə gəlmək olar ki, əgər Milli Məclis hər hansı məsələyə dair etimad məsələsini payız sessiyasında gündəliyə çıxarıbsa, o yalnız həmin məsələni 6 aydan sonra, yəni yaz sessiyası zamanı yenidən müzakirəyə çıxara bilər. Bu iki müzakirə eyni təqvim ilinə təsadüf etmir. Göründüyü kimi eyni təqvim ilində iki müxtəlif məsələ üzrə etimad məsələsinin müzakirə predmeti olması $98^1$-ci maddənin təsiri altına düşsə də, eyni məsələ üzrə etimad məsələsi bu çərçivədən kənara çıxa bilir.

Odur ki, Konstitusiyanın 981-ci maddəsinin birinci hissəsində müəyyən olunan müddətin "təqvim ili"ni yox, "bir illik zaman kəsiyi" mənasını ifadə etməsi qənaətindəyik. Fikrimizcə

bu məsələyə rəsmi aydınlıq gətirilməsi, bununla bağlı Konstitusiya Məhkəməsinin rəsmi şərhinin olması vacibdir.

**Dəqiqləşdirilməsi zəruri olan ikinci məsələ** isə Konstitusiyanın 981-ci maddəsinin birinci hissəsinin tələblərinə uyğun olaraq Milli Məclis səlahiyyət müddəti başa çatmamış Azərbaycan Respublikası Prezidenti tərəfindən buraxıldığı təqdirdə onun fəaliyyətinə dərhal xitam verilməsi və ya növbədənkənar seçkilər nəticəsində formalaşan yeni tərkibdə Milli Məclis öz səlahiyyətlərinin icrasına başladığı günədək fəaliyyətini davam etdirməsi məsələsidir.

Azərbaycan Respublikası Konstitusiyasının 84-cü maddəsinin üçüncü hissəsinə görə, "Azərbaycan Respublikası Milli Məclisinin deputatlarının səlahiyyət müddəti Azərbaycan Respublikası Milli Məclisinin çağırışının səlahiyyət müddəti ilə məhdudlaşır". Əgər biz bu müddəadan çıxış etsək Konstitusiyanın $98^1$-ci maddəsinin birinci hissəsində nəzərdə tutulan əsaslara görə səlahiyyət müddəti başa çatmamış Azərbaycan Respublikası Prezidenti tərəfindən Milli Məclisin buraxılması avtomatik olaraq Milli Məclis deputatlarının da səlahiyyətinə xitam verilməsinə səbəb olur. Digər bir tərəfdən, Konstitusiyanın "Azərbaycan Respublikası Milli Məclisi deputatlığından məhrumetmə və Azərbaycan Respublikası Milli Məclisinin deputatlarının səlahiyyətlərinin itirilməsi" adlanan 89-cu maddəsində bu əsasla deputatın vaxtından əvvəl səlahiyyətinə xitam verilməsi müəyyən edilmir. 27 noyabr 2018-ci il tarixli 1336-VQD nömrəli Qanunla Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsinə "Milli Məclisin buraxılması" adlı 23-2-ci maddə əlavə olunsa da, orada da Konstitusiyanın 981-ci maddəsinin birinci hissəsində təsbit olunan müddəalardan başqa müddəa nəzərdə tutulmur. Deməli, qeyd olunanlar onu deməyə əsas verir ki, Azərbaycan Respublikası Milli Məclisinin Konstitusiyanın $98^1$-ci maddəsinin birinci hissəsində nəzərdə tutulan əsaslara görə səlahiyyət müddəti başa çatmamış Azərbaycan Respublikası Prezidenti tərəfindən buraxıldığı andan Milli Məclisin səlahiyyətlərinə və deputatların mandatına xitam verilir və Milli Məclis bundan sonra fəaliyyətini davam etdirə bilməz.

Konstitusiyanın 87-ci maddəsinin birinci hissəsində isə qeyd olunur ki, "Azərbaycan Respublikası Milli Məclisi deputatlarının səlahiyyətləri Azərbaycan Respublikası Milli Məclisinin yeni çağırışının ilk iclas günü bitir". Əgər bu müddəadan çıxış etsək, onda belə bir qənaətə gəlmək olar ki, buraxılmış parlament yeni seçilən parlamentin ilk iclas gününədək öz fəaliyyətini davam etdirməlidir. Bu bir tərəfdən məntiqlidir, ona görə ki, bu dövr ərzində Milli Məclisin həll etməli olduğu bir sıra məsələlərin həlli, o cümlədən hər hansı beynəlxalq aktın ratifikasiyası, ən əsası Konstitusiyada nəzərdə tutulan hallarda cənab Prezidentin fərmanlarını təsdiq etmək zərurəti ortaya çıxa bilər (məsələn, fövqəladə və hərbi vəziyyət rejimlərinin tətbiqinə dair fərmanları). Lakin, digər bir tərəfdən əgər Milli Məclis Konstitusiyanın 94-cü və 95-ci maddələrində, 96-cı maddəsinin II, III, IV və V hissələrində, 97-ci maddəsində göstərilən vəzifələrini aradan qaldırıla bilməyən səbəblər üzündən icra etmədikdə Prezident tərəfindən buraxılarsa bu arqumentin heç bir mənası qalmaz. Belə olan təqdirdə qeyd edə bilərik ki, $98^1$-ci maddəsinin birinci hissəsində nəzərdə tutulan əsaslara görə səlahiyyət müddəti başa çatmamış Azərbaycan Respublikası Prezidenti tərəfindən Milli Məclisin buraxıldığı andan Milli Məclisin fəaliyyətinə xitam verilir və o, bundan sonra yeni tərkib Milli Məclis formalaşdırılana və səlahiyyətlərinin icrasına başlayana qədər Konstitusiyanın 94-cü və 95-ci maddələri üzrə öz funksiyalarını həyata keçirə bilməz. Digər bir tərəfdən, buraxılmış parlamentin yeni seçilən parlamentin ilk iclas gününədək öz

fəaliyyətini davam etdirməsi zərurəti kritik situasiya üçün təhlükəsizlik nöqteyi nəzərdən daha məntiqlidir.

Nəticə etibarilə qeyd etməliyəm ki, göstərilən problemlər və onların həllinə yönəlik mülahizələr doktrinal xarakter kəsb edir və heç də hüquqşünasların hamısı bu cür düşünməyə və fərqli arqumentlərlə çıxış edə bilərlər. Odur ki, Konstitusiyanın $98^1$-ci maddəsinin tətbiqi ilə bağlı məsələ Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi tərəfindən araşdırılmalı, məsələyə rəsmi təfsir verilməli, realizəsi ilə bağlı bir sıra müddəalar qanunvericilik qaydasında öz həllini tapmalıdır.

## İstifadə olunmuş ədəbiyyat siyahısı


1. Məmmədov İ. Dövlət və hüquq nəzəriyyəsi. Bakı, "Çıraq" nəşriyyatı, 2005, 624 s.
2. Ümumi hüquq və dövlət nəzəriyyəsi: Dərslik / V.V.Lazarevin redaktorluğu ilə. 3-cü əlavə və dəyişikliklər edilmiş nəşr (tərcümə), – Bakı-Qanun – 2006. 492 s.
3. Конституционное право: академический курс: учебник, в 3 т. / под ред. А.И. Казанника, А.И. Костюкова. – Москва: Проспект, 2021. Т. II. – 680 с.
4. Конституционное право зарубежных стран: Учебник для К65 вузов / Под общ. ред. чл.-корр. РАН, проф. М. В. Баглая, д. ю. н., проф. Ю. И. Лейбо и д. ю. н., проф. Л. М. Энтина. – М.: Норма, 2004. – 832 с.
5. Маклаков В.В. Конституционное (государственное) право зарубежных стран. Общая часть: учебник, – М.: Инфотропик Медиа, 2012. – 896 с.
6. https://e-qanun.az/framework/897
7. https://e-qanun.az/framework/1882
8. https://e-qanun.az/framework/4029


## X Ü L A S Ə


Məqalədə müəllif tərəfindən hakimiyyət bölgüsü çərçivəsində "çəkindirmə və tarazlaşdırma" mexanizminin elementi kimi dövlət başçısı tərəfindən parlamentin səlahiyyət müddəti başa çatmamış buraxılmasının nəzəri əsasları araşdırılır. Məqalədə, həmçinin parlamentli və qarışıq tipli idarəetmə forması üçün xarakterik olan bu mexanizmin qanunvericilik və icra hakimiyyətləri arasında yaranan hakimiyyət böhranının, siyasi nihilizmin qarşısı alınması üsulu kimi əhəmiyyəti qeyd olunsa da, daha sərt hakimiyyət bölgüsü prinsipi əsasında qurulan prezidentli respublikalar üçün xarakterik əlamət olmadığı vurğulanır. Müəllif tərəfindən habelə Azərbaycan Respublikası Milli Məclisinin buraxılmasının konstitusion əsaslarını müəyyən edən $98^1$-ci maddəsinin təsbit etdiyi müddəaların hüquqi mahiyyəti, həmin müddəaların Konstitusiyanın digər maddələri ilə qarşılıqlı əlaqəsi araşdırılmaqla meydana çıxan suallara cavab axtarılır.

**Эльшад Насиров**
**Первый заместитель начальника**
**Академии Службы Государственной Безопасности**
**Азербайджанской Республики имени Гейдара Алиева**

## О сущности конституционных основ роспуска Милли Меджлиса Азербайджанской Республики

### Р Е З Ю М Е

В статье автором рассматриваются теоретические основы роспуска парламента главой государства до истечения срока его полномочий как элемента механизма «сдержек и противовесов» в рамках разделения властей. В статье также отмечается, что этот механизм, типичный для парламентской и смешанной форм правления, не является характерным признаком для президентских республик, построенных по принципу более жесткого разделения властей, хотя и подчеркивается важность этого механизма как способа предотвращения кризиса власти и политического нигилизма, возникающих между законодательной и исполнительной властью. Автор также ищет ответы на вопросы, возникающие при изучении правовой природы положений, установленных статьей $98^1$ Конституции, определяющей конституционные основы роспуска Милли Меджлиса Азербайджанской Республики, взаимодействия этих положений с другими статьями Конституции.

**Elshad Nasirov**
**First Deputy Head of the Academy of the State Security Service of the Republic of Azerbaijan named after Heydar Aliyev**

## On the nature of the constitutional grounds for the dissolution of the Milli Majlis of the Republic of Azerbaijan

### S U M M A R Y

In the article, the author examines the theoretical foundation of the dismissal of the parliament before the end of the term of office by the head of state, as a component of the "check and balance" mechanism within the separation of powers framework. The significance of this mechanism, which is typical of parliamentary and mixed government systems, is discussed as a means of avoiding power crises and political nihilism between the legislative and executive branches. However, it is emphasized that this is not a defining feature of presidential republics that have a stricter separation of powers. The author also examines the legal essence of Article $98^1$, which establishes the constitutional basis for the dissolution of the Milli Majlis of the Republic of Azerbaijan, and its interplay with other sections of the Constitution, seeking to address related questions.

***Anar HACIZADƏ***

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Aparatının
Hüquqi təminat və informasiya-kommunikasiya texnologiyalarının
tətbiqi şöbəsinin müdiri, h.ü.f.d.

# MƏHKƏMƏLƏRİN FƏALİYYƏTİNDƏ MÜASİR İNFORMASİYA TEXNOLOGİYALARINDAN İSTİFADƏ EDİLMƏSİNDƏ XARİCİ TƏCRÜBƏ

***Açar sözlər:*** *müqayisəli hüquq, informasiya texnologiyaları, məhkəmə sistemi, məhkəmə fəaliyyəti, mülki məhkəmə icraatı, elektron məhkəmə, sənədlərin verilməsi, ədalət mühakiməsi, elektron sənədlər, mülki icraat.*

***Ключевые слова:*** *сравнительное правоведение, информационные технологии, судебная система, судебная деятельность, гражданское судопроизводство, электронное правосудие, подача документов, правосудие, электронные документы, возбуждение гражданского дела.*

***Keywords:*** *comparative law, information technology, judicial system, judicial activity, civil litigation, e-court, filing documents, justice, electronic documents, initiation of a civil case.*

Xarici ölkələrdə kompüter texnologiyalarının və informasiya texnologiyalarının tətbiqi ədalət mühakiməsinin həyata keçirilməsi prosesinin optimal təşkilinə nail olmaq üçün istifadə olunur, məhkəmələrdə baxılan işlərin sayından asılı olaraq hakimlər üçün optimal iş yükünə nail olmağa imkan verir ki, bu da müəyyən kateqoriyaya aid işlərin artması ilə məhkəmələrin və hakimlərin sayının artmasına və işlərin baxılması mərhələsində gecikdirlmələrin qarşısının almasına yönəldilir.

Bundan başqa, informasiya texnologiyalarının yüksək səviyyədə inkişaf etdiyi xarici ölkələrdə məhkəmə icraatında elektron vasitələrinin tətbiqi məhkəmə daxilində fəaliyyətin təşkilini təkmilləşdirmək, onu daha yüksək inkişaf səviyyəsinə çatdırmaq, işlərin elektron qeydiyyatı da daxil olmaqla "işlərin idarə edilməsi sisteminin" tətbiqinə şərait yaradır, tərəflər haqqında məlumatların müəyyən edilməsi və strukturlaşdırılması, işin başlanmasından qərarın çıxarıldığı günədək məhkəmədə gedişatı rejiminin müəyyən edilməsi, işin gedişinə nəzarət, məhkəmə iclaslarının prosessual müddətlərinə və tarixlərinə riayət olunmasına nəzarət, məhkəmə xərcləri, məhkəmə statistikasının hazırlanması, tərəflərin nümayəndələri ilə səmərəli ünsiyyətin təmin edilməsi, davamlı qiymətləndirmə sisteminin fəaliyyəti, işlərin idarə edilməsi prosesinin avtomatlaşdırılmasının tətbiqı, son nəticədə ədalət mühakiməsinin səmərəliliyini artıracagına gətirib çıxarır.

Sinqapurda mülki məhkəmə işlərinin daim yeniləşən ehtiyacları üçün ilk növbədə məhkəmədə sənəd dövriyyəsi və sənədlərin optimallaşdırılması sistemi kimi hazırlanmış Electronic Filing System (EFS, Elektron Sənədləşdirmə Sistemi) istifadə olunur. EFS-dən istifadə edilərkən məhkəməyə daxil olan elektron sənəd məhkəmə işçilərinin müdaxiləsi olmadan prosessual qanunvericiliyin tələblərinə uyğunluğu avtomatlaşdırılmış şəkildə yoxlanılır, emal üçün müvafiq reyestrə göndərilir. Sistem məhkəmədə sənədlərin sonrakı

marşrutunu avtomatik olaraq inkişaf etdirir, məhkəmə idarələrində insanların və sənədlərin fiziki hərəkətini minimuma endirməyə imkan verir ki, bu da ərizəyə və ya daxil olan digər sənədə baxılma vaxtını əhəmiyyətli dərəcədə azaldır, işə aid olmayan sənədlərin əlavə edilməməsinin aradan qaldırır, elektron sənəd saxlanmasının üstünlüklərindən daha yaxşı istifadə imkanları yaradır.

Sənədləri məhkəməyə təqdim edərkən ödənilməli olan rüsumlar EFS tərəfindən avtomatik olaraq tutulur. Beləliklə, məhkəmənin iş axınının idarə edilməsi prosesində elektron texnologiyaların tətbiqi aşağıdakılara imkan verdi:

– məhkəmələrin məhsuldarlığının artırılması. Bu, avtomatlaşdırılmış iş axınlarının və avtomatlaşdırılmış izləmə və sistemin monitorinqi üsullarının optimallaşdırılması ilə əldə edilir. Bu, avtomatlaşdırılmış iş proseslərinin və avtomatlaşdırılmış izləmə və sistemin monitorinqi üsullarının optimallaşdırılması ilə əldə edilir.

– bütün hüquq sistemlərində olduğu kimi, məhkəmələrin daim üzləşdiyi işçi kadr çatışmazlığı problemini həll etmək. Avtomatlaşdırılmış sənəd dövriyyəsi sistemi məhkəmə işçilərinin daha məhsuldar olmasına imkan verir.

– məhkəməyə daxil olan ərizə və müraciətlərin baxılma müddətinin azaldılması, müvafiq olaraq, məhkəmə tərəfindən mülki işlərə baxılmasını və onların həllini sürətləndirərək ümumi həll edilməmiş mübahisələrin sayını azaltmışdır.

– fiziki məkana daim artan tələbatı həll etmək. EFS-in köməyi ilə sənədlərin sistemdə elektron şəkildə saxlanılması, məhkəmə binalarında böyük arxiv otaqlarına ehtiyacı aradan qaldırır və əlavə olaraq sənədlərin saxlanması ilə bağlı maliyyə xərclərini azaldır.

– prosesin bir neçə iştirakçıları və məhkəmə işçiləri tərəfindən sənədlərə eyni vaxtda baxılması və öyrənilməsi.

– sənədlərin saxlanmasının təhlükəsizliyini artırmaq, onların məxfiliyini təmin etmək, çünki EFS ilə elektron fayllara məhdud girişi həyata keçirmək daha asandır.

– cari ildə baxılmış işlərin sayı və kateqoriyaları haqqında statistik məlumatları almaq və təhlil etmək. Bu cür məlumatlar qabaqcadan potensial problemin qarşısını almaq üçün, proqnozlaşdırmağa və tədbirlər görməyə imkan yaradır. Məsələn, məhkəmələr tərəfindən baxılan boşanma işlərinin sayının getdikcə artması ilə əlaqədar, əlavə hakimlərin ayrılmasını və həmçının əlavə olaraq Ailə və Yetkinlik yaşına çatmayanlarla iş şöbəsinin yardımçı heyətinin resurslarından (Family and Juvenile Justice Division of Subordinates courts), da istifadə edilməsini o cümlədən dövlət və ictimai səviyyədə ailənin möhkəmləndirilməsi üzrə əlavə tədbirlərin işlənib hazırlanmasını zəruri etdi.

Finlandiyada 1992-ci ildə qüvvəyə minmiş mülki ədalət mühakiməsi islahatının əsas müddəalarını işləyib hazırlayarkən müəyyən edilmişdir ki, Finlandiya məhkəmələri tərəfindən baxılan işlərin əksər kateqoriyası borcun tutulması ilə bağlı, faktiki olaraq mübahisəsizdir, çünki cavabdehin borcunu ödəmək öhdəliyi aşkardır və məhkəmədə iş yarandıqda, iddia ərizəsi əsaslandırılmış və müvafiq sübutlarla birlikdə məhkəməyə təqdim edildikdə mübahisələndirilmir. Belə kateqoriyalar üzrə işlərin idarə edilməsi və onlara sadələşdirilmiş qaydada baxılması sisteminin yaradılması zəruri hesab edilmişdir. Yazılı məhkəməyəqədər icraat üçün iki sistem yaradılmışdır: TUOMAS (İşin İdarə Edilməsi Sistemi) və SANTRA (Elektron Yönləndirmə Sistemi).

1996-cı ildə L. Prixodkonun qeyd etdiyi kimi, ABŞ Federal Məhkəmələrinin İnzibati İdarəsi tərəfindən İşlərin İdarə Edilməsi/Elektron İş Faylları (CM/ECF) sistemi bir neçə məhkəmələrdə pilot layihəsi kimi hazırlanmış və təqdim edilmişdir. CM/ECF sisteminin adı, onun aşağıdakı funksiyaları yerinə yetirən iki sistemin birləşməsindən ibarət olduğunu göstərir: İşlərin İdarə Edilməsi (Case Management (CM)) və Elektron İş Faylları (Electronic

Case File (ECF)). Məhkəmələrin əvvəlcə hər hansı bir sistemi tətbiq etmək, sonra isə ikincisini əlavə etmək hüququ var.

Bu iki komponent biri-birinə inteqrasiya olunmuş sistem təşkil edir ki, bu da öz növbəsində internet vasitəsilə elektron sənədlərə çıxışı təmin edən vahid "Məhkəmə elektron sənədlərinə açıq çıxış" sistemi ilə tamamlanır.

Sistemin ilk istifadəyə verilməsindən bir müddət sonra o, yekunlaşdırıldı və iflas məhkəmələrində də tətbiq olunmağa başladı. 1997-ci ilin əvvəlində eksperiment daha yeddi dairə məhkəməsini əhatə etməklə genişləndirildi və qısa müddət ərzində bu sistem tətbiq olundu və ölkənin bütün federal məhkəmələrində elektron ərizələrin verilməsinin üçün əsas kimi götürüldü.

2002-ci ilin əvvəlində altı dairə məhkəməsi və 38 iflas məhkəməsi tamamilə məlumatların elektron saxlanması və mülki işlərin elektron qeydiyyatı sisteminə keçmişdir. 2003-cü ildə CM/ECF sistemi 13 dairə məhkəməsində, 61 iflas məhkəməsində və ABŞ Beynəlxalq Ticarət Məhkəməsində tətbiq olunmuşdur. Sistemin bütün dairə məhkəmələrində tətbiqi 2003-cü ildə, apellyasiya məhkəmələrində isə 2004-cü ildə başlamışdır. 2004-cü ilə qədər bütün federal məhkəmələr artıq CM/ECF sisteminə malik idi.

ABŞ məhkəmə sistemində istifadə olunan elektron sistemlər məhkəmələrin işini dəyişdirdi və aşağıdakı problemləri həll etməyə imkan yaratmışdır:

– məhkəmə işlərinin idarə edilməsi (prosesin gedişi, cavabların, prosessual müddətlərin və dinləmələrin izlənməsi);

– sənədlərin axtarışı;

– elektron sənədlərin idarə edilməsi, saxlanması, ehtiyat nüsxələrinin yaradılması və arxivləşdirilməsi;

CM/ECF elektron sistemindən istifadə texniki cəhətdən sadədir və istifadəçidən kompüter texnologiyaları və informasiya texnologiyaları sahəsində dərin xüsusi biliyə malik olmasını tələb etmir. Məlumatı saxlamaq üçün Adobe Acrobat formatına çevrilmiş mətn lazımdır və yaddaşın idarə edilməsi öz növbəsində veb brauzer vasitəsilə həyata keçirilir. Eyni sadə yanaşma sistemi məhkəmələrdə işləyərkən də görülə bilər: CM/ECF yalnız iki server tələb edir: biri kənardan əlçatan, digəri isə proqram təminatı ilə yaxşı qorunan daxili serverdir.

Amerika Birləşmiş Ştatlarının federal məhkəməsi PACER elektron xidmətini qeyd edir.

İkinci sistem, Public Access to Court Electronic Records (PACER) (Məhkəmə Elektron Yazılarının Publik İstifadəsi) birincini tamamlayır. Bu, istifadəçilərə CM/ECF-dən istifadə edərək yaradılmış elektron iş fayllarına daxil olmaq imkanı verir. Hər bir məhkəmənin öz elektron saxlama resursları var, lakin iş fayllarına açıq giriş bütün giriş sistemi vasitəsilə mərkəzləşdirilmiş şəkildə təmin edilir.

Məhkəmə sistemində elektron sənədlərin, kommunikasiyaların və məlumat bazalarının tətbiqi üzrə oxşar layihə uzun müddətdir ki, Kanadada məhkəmə sistemində sınaqdan keçirilmiş və ədliyyə sistemində ümumi islahatların və inteqrasiya olunmuş ədliyyə sisteminin tətbiqinin bir hissəsinə çevrilmişdir.

İsraildə hakimə müvafiq qaydada prosessual hərəkətlərin bölüşdürməsinə imkan verən sistem tətbiq edilib, ki proses iştirakçıları arasında və onların həyata keçirilməsinin ardıcıllığı təşkil edilsin. Bütün prosessual hərəkətlər kateqoriyalara bölünərək, hər bir hərəkət avtomatik olaraq onun icrasına cavabdeh olan şəxsə həvalə edilmiş "tapşırıq" statusu alır. Bunun sayəsində hər bir işi idarə etmək üçün bütün prosesi müəyyən bir hərəkətin yerinə yetirilməsi zərurəti barədə konkret şəxsə bildiriş-məsləhətlərin köməyi ilə

avtomatlaşdırılmışdır. Eyni zamanda, bu sistem, hər bir hal üçün müxtəlif tapşırıqların yerinə yetirilmə qaydasını etibarlı şəkildə müəyyən etməyə və zaman keçdikcə onun işini maksimum səmərəliliyə doğru optimallaşdırmağa imkan verəcəkdir. Bütün bunlar hakimin iş qrafiki ilə elə əlaqələndirilir ki, iş üzrə maraqlı tərəflərin xeyrinə planlaşdırma prosesini təkmilləşdirir.

İngiltərədə həyata keçirilən müasir prosessual hüquq islahatının əsas məqsədləri, Britaniya mülki ədalət mühakiməsinin keyfiyyətcə yenidən qurulması, mülki iş hərəkətinin məhkəmə rəhbərliyi konsepsiyasının geniş miqyasda həyata keçirilməsinə səbəb olmuşdur. 1998-ci ildə mülki məhkəmə icraatında yeni bir təsisat – işin idarə edilməsi (case management) tətbiq edildi. İşin baxılmağa hazırlanması mərhələsində tərəflərin və məhkəmənin həyata keçirdiyi bir sıra hərəkətləri özündə ehtiva edən bu təsisat bütün məhkəmələrə və mübahisə növlərinə şamil edilmiş, bu da hakimlərin fəallığını artırmış, çəkişmə prinsipinin məzmununu dəyişdirmişdir. Hakimlər getdikcə daha çox xırda prosessual məsələlərin həllində solisitorları (vəkilləri) çağırmaq əvəzinə, onlarla telefonla danışmağa üstünlük verirlər. Bəzi sənədlər, xüsusən də qərarların layihələri (çox vaxt məhkəmənin təsdiqindən əvvəl düzəlişlər edilir), formal qərarın çıxarılmasını asanlaşdırmaq üçün istənilən elektron daşıyıcıda ötürülür.

Avstraliya Federal Məhkəməsi işlərin aparılmasının yeni üsullarını tətbiq etmək, ədalət mühakiməsinə çıxışı asanlaşdırmaq və səmərəliliyi artırmaq üçün e-court adlı strategiya qəbul etmişdir. Avstraliyanın e-court strategiyasına bir çox yeni funksiyalar daxildir: elektron məlumatların saxlanması, "onlayn iclaslar", işin idarə edilməsi sistemi, sənəd dövriyyəsi sistemi və sair.

E-court strategiyasına əsasən, yeni məlumatların saxlanması və sənəd dövriyyəsi sisteminin tətbiqi 4 mərhələdə həyata keçirilir: birincisi sənədləri və ödənişləri internet vasitəsilə qəbul etməsi imkanı. Bu mərhələdə məhkəmə işçiləri sənədləri çap edir, yoxlayır və adi kağız sənədlər kimi idarə edir. İkinci mərhələ bütün prosesə müəyyən yeniliklər gətirdi, məlumatların saxlanması proseduru azad istifadəçilər üçün sadələşdirildi, istifadəçilərin identifikasiyasını yenidən daxil etməyə ehtiyac qalmadı və məhkəmə işçiləri sənədləri təkcə PDF formatında deyil, digər formada saxlamağa başladılar. Bu mərhələdə məhkəmə elektron sənədləri qəbul edir, lakin onun daxili əməliyyatları hələ də tam kağız üzərində aparılır.

Növbəti mərhələ ilk iki mərhələni dəyişdirmək üçün nəzərdə tutulub. Bütün bu mərhələlər başa çatdıqdan sonra məhkəmə xüsusi sənəd dövriyyəsi sistemindən istifadə etməklə elektron sənədləri idarə edəcək.

Qeydiyyatdan keçmiş kənar istifadəçilər aktiv işlər üzrə saxlanılan məlumatları əldə edə və məhkəmə məlumat bazalarına daxil ola biləcəklər.

Avstraliya Federal Məhkəməsi tərəfindən istifadə edilən «texniki həll» nisbətən sadədir: bütün istifadəçiləri idarə etmək üçün məlumat bazaları ilə əlaqəli olan təhlükəsiz veb server.

Avstraliyanın e-court layihəsinin mühüm elementi Avstraliya Federal Məhkəməsində başlanmış bütün işlərin və Avstraliya Federal barışıq məhkəməsinin (Federal Magistrates Court of Australia) yurisdiksiyasında olan işlərin əlçatan məlumat bazası olan, elektron axtarış (e-search) sistemidir.

Məlumat bazası real vaxt rejimində yenilənir və 1984-cü il yanvarın 1-dən etibarən bütün işləri əhatə edir. Həmin baza mütəmadi olaraq yeniləndiyindən və ora yeni məlumatlar daim daxil edildiyindən, axtarış nəticələri vaxtaşırı dəyişə bilər.

Məlumat bazasında aşağıdakılar əks olunur:

– iş üzrə olan bütün iştirakçıların adı;

– məhkəmə işinin nömrəsi;

– məhkəmə işinin başlandığı tarix;
– ərizənin növü;
– iş üzrə təqdim olunan hər bir sənədin növü və sənədin təqdim edildiyi tarix;
– keçmiş və gələcək dinləmələrin tarixləri;
– məhkəmə işinin cari vəziyyəti;
– iş üzrə verilmiş əmrlərin, göstərişlərin və protestlərin mətnləri.

Bu məlumat bazasını digərlərini axtarmaq üçün istifadə edilə bilər: iflas bildirişləri; həbslərə qarşı etirazların reyestri və azadlığa buraxılmasına etirazların reyestrini.

İtaliyada artıq bir neçə ildir ki, məhkəmə məlumatlarının istifadəçilərinə mülki icraatla bağlı məlumat və sənədlərlə bağlı "onlayn" məsləhətlər almaq imkanı verən elektron xidməti istifadəyə verilib (ECP). Bu xidmət PolisWeb adlı sistem tərəfindən idarə olunur. Həmin elektron mülki məhkəmə icraatı (ECP) sistemi istifadəçilərinə mülki iddialar, arbitraj işləri, mülki təsir tədbirləri haqqında məlumat almağa imkan verir. Belə ki, vəkillərin tələb olunan məlumatları əldə etmək üçün məhkəmənin dəftərxanasına müraciət etmələrinə ehtiyac qalmır. Məlumatların istifadəsinə daha çox nəzarət etmək üçün məlumatların idarə edilməsi sistemi gündəlik olaraq hər bir müraciət üzrə məlumatın surətini Neapolda yerləşən mərkəzi serverə göndərir. (ECP) sistemindən vəkillər və dövlət hüquqşünasları elektron məlumat əldə edə bilərlər. Almaniyada, cəmiyyətin müxtəlif sahələrində informasiya-kommunikasiya texnologiyalarının tətbiqi, internetin inkişafı, biznes dövriyyəsində onun geniş imkanlarının tanınması ona gətirib çıxarıb ki, alman qanunvericisi, ədliyyə və hüquq-mühafizə orqanları "informasiya magistralına" (Information Superhighway) keçdilər və elektron hüquqi sənəd dövriyyəsi sisteminin (Elektronische Rechtsverkehr) tətbiqinə qoşuldular. Alman elmi ədəbiyyatında elektron hüquqi sənəd idarəetməsi sistemi altında – vəkillər, vətəndaşlar, dövlət orqanları və məhkəmələr arasında etibarlı, hüquqi qüvvəyə malik elektron sənədlərin mübadiləsi başa düşülür. 1 aprel 2005-ci il tarixli "Məhkəmə icraatında elektron kommunikasiya formalarının istifadəsi haqqında" Qanunun (Justizmodernisierungsgesetz) qəbul edilməsində əsas məqsəd, məhkəmə prosesinin iştirakçıları arasında tam elektron rabitə və sənəd dövriyyəsi sisteminin tətbiqi olmuşdur. Eyni zamanda, K.L.Branovitskinin qeyd etdiyi kimi, söhbət təkcə məhkəmə ilə məhkəmə prosesinin iştirakçıları arasında tam elektron rabitəsi deyil, həm də məhkəmələrin özündə belə sənəd dövriyyəsi sisteminin tətbiqindən gedir. Hazırda Almaniyada məhkəmələr, ədliyyə orqanları və digər dövlət qurumları arasında tam elektron rabitəsi qurulub.

İnteraktiv (İnternet vasitəsilə) hüquqi məsləhətləşmələr geniş yayılmışdır. Ötürülən məlumatların məxfiliyinin aşağı səviyyədə olduğunu nəzərə almaqla elektron poçt hüquqşünaslar tərəfindən istifadə olunur. Hazırda məhkəmələrin elektron poçt qutuları (Gerichtspostfach) kifayət qədər populyarlıq qazanmışdır. Sənədlər məhkəməyə "OSTCI-Transport" xüsusi rabitə protokolu vasitəsilə göndərilir ki, bu da sənədlərin elektron poçtla adi qaydada göndərilməsi prosesi ilə müqayisədə mühüm üstünlüklərə malikdir:
– məlumat şifrələnmiş formada ötürülür;
– elektron imzalar vahid qanunvericilik səviyyəsində dəstəklənir;
– məhkəmə tərəfindən sübut kimi qəbul edilən göndərilmiş sənədin məhkəmə tərəfindən alınmasının təsdiqinin vəkil (və ya digər göndərici) tərəfindən dərhal alınması. Şəxsiyyətin müəyyən edilməsi prosedurasından keçərək poçt qutusunu qeydiyyata alınandan sonra vəkil öz peşəkarlığına arxalanaraq "lazımi diqqət" göstərməyə borcludur.

Məhkəmə poçt qutuları sistemindən istifadə proses iştirakçılarının müxtəlif növ vicdansızlıq təzahürləri, onların prosessual hüquqlarından sui-istifadəsi, elektron poçt ünvanının saxtalaşdırılması və ya e-poçtun məzmununda mümkün dəyişiklik ilə bağlı

problemləri həll etməyə imkan yaradır. Şəxsiyyətin müəyyən edilməsi prosedurundan keçərək və poçt qutusunu qeydiyyatdan keçirən vəkil öz peşəkarlığına görə “lazımi qayada” hərəkət etməyə borcludur. Məhkəmə poçt qutuları sistemindən istifadə etmə, proses iştirakçılarının müxtəlif növ haqsızlıq və prosessual hüquqlarından sui-istifadə hallarına yol vermələri, elektron poçt ünvanının saxtalaşdırılması və ya elektron məktubun məzmununda mümkün dəyişiklik ilə bağlı problemləri həll etməyə imkan verir.

Xarici ölkələrin elektron məhkəmə sistemində qazandığı müsbət tendensiyalarınından danışaraq Azərbaycanın bu sahədə müsbət nailiyyətlərindən də danışmamaq olmaz. Azərbaycanda da elektron məhkəmə sisteminin inkişafı dövrü, “Elektron məhkəmə” informasiya sistemin yaradılması barədə ölkə başçısının 13 fevral 2014-cü il tarixli Sərəncamından başlamışdır. Qısa müddət ərzində müvafiq texniki baza yaradılmış və xarici dövlətlərin bu sahədə olan təcrübəsindən istifadə olunmaqla yanaşı müasir “Elektron məhkəmə” informasiya sistemi istifadəyə verilmişdir. Azərbaycanın yurisdiksiyasına daxil olan bütün məhkəmələr, hakimlər və məhkəmə qaydasında baxılan işlər barədə məlumatların orada toplanılması təşkil edilmişdir. Sistemdən hakimlər, məhkəmə aparatı işçiləri, vəkillər, habelə fiziki və hüquqi şəxslər tərəfindən istifadəsi mümkün olmuşdur. 2019-cu ildə yaradılan mobil tətbiq vasitəsi ilə, vətəndaşlar "Elektron məhkəmə" informasiya sisteminin, o cümlədən Vahid Məhkəmə Portalının bütün imkanlarından daha tez və rahat qaydada faydalana bilmişlər. "Mobil Elektron Məhkəmə" vasitəsilə məhkəmələrə mobil telefondan elektron qaydada iddia ərizələri vermək, sənədlər göndərmək, məhkəmə proseslərinin keçiriləcəyi vaxt və yer barədə məlumatlandırılmaq, məhkəmə qərarlarının elektron formatda almaq, hakim və məhkəmələr barədə ümumi məlumat əldə etmək, məhkəmə statistikası ilə tanış olmaq və s. müasir imkanlarda istifadə etmək mümkün olmuşdur. Elektron məhkəmə portalına daxil olma, informasiya təhlükəsizliyi qaydalara riayət olmaqla e-mayl, elektron imza, ASAN imza, ASAN loqin vasitəsi ilə daxil olaraq, mövcud olan işlər üzrə axtarış imkandan; məhkəmə sənədləri ilə tanış olma imkanı; əlavə sənəd və müraciət göndərmək; iddia ərizəsi göndərmək; appelliyasiya və kassasiya şikayəti gödərmək mümkündür.

Məhkəmə prosesində müasir informasiya texnologiyalarından istifadəsi sahəsində xarici təcrübənin təhlili, belə qənaətə gəlməyə əsas verir ki, müasir şəraitdə milli qanunvericiliyin tətbiqi təcrübəsinin təkmilləşdirilməsi informasiya-kommunikasiya texnologiyalarının inkişafı, onlardan hüquq sahəsində səmərəli istifadə olunması ilə bağlıdır. Məhkəmələrin lazımi səviyyədə informasiyalaşdırılmasının təmin edilməsi, məhkəmə fəaliyyətində informasiya texnologiyalarının əhatə dairəsinin genişləndirilməsi, bu sahədə müasir və etibarlı proqram təminatı sistemlərinin və komplekslərinin yaradılması ədalət mühakiməsinin səmərəli həyata keçirilməsinin əsas və müəyyənedici komponentlərdən biridir.

## İstifadə olunmuş ədəbiyyat siyahısı

1. Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, «Elektron məhkəmə» informasiya sisteminin yaradılması haqqında. https://e-qanun.az/framework/26996

2. Azərbaycan Respublikası Prezidentinin Fərmanı, «Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında», https://e-qanun.az/framework/41813

3. Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Kollegiyasının Qərarı, “Elektron məhkəmə” informasiya sistemindən istifadə Qaydaları”nın təsdiq edilməsi barədə. https://e-qanun.az/framework/42904

4. Branovitskiy K.L. Sudebnoe reshenie v elektronnoy forme (pravovoe regulirovanie v FRG) // Arbitrazhnyy i grazhdanskiy protsess, 2010. № 4.
5. Branovitskiy K.L. Opyt elektronnogo pravosudiya v FRG: dostizheniya i problemy // Zakon, 2011. № 2.
6. Degen Th.A. Mahnen und Klagen per E-Mail – Rechtlicher Rahmen und digitale Kluft bei Justiz und Anwaltschaft. NJW. 2008. S. 1473.
7. Gassen D. Notariusy i elektronnyy pravovoy oborot v Germanii // Ispolzovanie novykh informatsionnykh tekhnologiy v arbitrazhnom protsesse i pri osushchestvlenii notarialnoy deyatelnosti. Materialy mezhdunarodnogo seminara (7–8 sentyabrya 2006 g., g. Ekaterinburg). Moskva, FRPK, 2007.
8. Khietanen A. «Elektronnyy sud» i elektronnye pravovye kommunikatsii v Finlyandii // Ispolzovanie novykh informatsionnykh tekhnologiy v arbitrazhnom protsesse i pri osushchestvlenii notarialnoy deyatelnosti. Materialy mezhdunarodnogo seminara. M.: FRPK, 2007.
9. Kudryavtseva E.V Grazhdanskoe sudoproizvodstvo Anglii. M., 2008.
10. Kudryavtseva E.V. Podgotovka del k sudebnomu razbiratelstvu v Rossii i Anglii // Zakonodatelstvo, 2008. № 11.
11. Kobler R. eJustice: Vom langen Weg in die digitale Zukunft der Justiz. NJW. 2006.
12. Malik, Walled Haider. Judiciary-Led Reforms in Singapore: framework, strategies, and lessons. The World Bank, 2007.
13. Maleshin D.Ya., Filatova M.A., Yarkov V.V. Tendentsii razvitiya sovremennogo grazhdanskogo protsessa // Vestnik Vysshego Arbitrazhnogo Suda Rossiyskoy Federatsii, 2008. № 11.
14. Prikhodko L. Zarubezhnyy opyt vnedreniya i ispolzovaniya sistemy elektronnyy sud (e –court) // Gosudarstvo i pravo, 2007.
15. Prokudina L.A., Sosil Dzh. S. Sistema upravleniya dvizheniem dela – faktor povysheniya effektivnosti otpravleniya pravosudiya // Vestnik VAS RF. 2003. № 10. S.160.
16. Reshetnyak VI. Elektronnoe pravosudie v grazhdanskom protsesse Singapura // Rossiyskiy yuridicheskiy zhurnal. 2012. № 2.
17. Scherf U.J., Schmieszek H.-P., Viefhues W. Elektronischer Rechts-verkehr. Heidelberg, 2006.
18. Walker J., Watson G.D. New Technologies, and the Civil Litigation Process. Common Law General Report. Osgoode Hall Law School York University, Toronto (Canada).

## XÜLASƏ

Məqalədə məhkəmələrin fəaliyyətinin təşkilində müasir informasiya texnologiyalarından istifadənin xarici təcrübəsi təhlil edilir. Müəllif ədalət mühakiməsinin həyata keçirilməsi prosesinin optimal təşkil edilməsi üçün elmi-texniki tərəqqinin nailiyyətlərinin tətbiqindən necə istifadə olunduğunu göstərir. Məqalədə xarici ölkələrin məhkəmə proseslərində mövcud olan işin idarə edilməsi sistemi, o cümlədən işin elektron qeydiyyatı, tərəflər haqqında məlumatların müəyyən edilməsi və strukturlaşdırılması, işin başlanmasından qərarın çıxarılmasına qədər məhkəmədə baxılması rejiminin müəyyən edilməsi, işin gedişinə, prosessual müddətlərə və məhkəmə iclaslarının tarixlərinə riayət olunmasına nəzarət, məhkəmə xərclərinin müəyyən edilməsi, məhkəmə statistikasının hazırlanması, tərəflərin nümayəndələri ilə səmərəli ünsiyyətin təmin edilməsi, sistemin fəaliyyətinin davamlı qiymətləndirilməsi, işin idarə edilməsi prosesinin avtomatlaşdırılması.

**Анар Гаджизаде**
**Заведующий отделом Правового обеспечения и**
**применения информационно-коммуникационных технологий**
**Конституционного Суда Азербайджанской Республики,**
**д.ф.п.п.**

## ЗАРУБЕЖНЫЙ ОПЫТ ИСПОЛЬЗОВАНИЯ ИНФОРМАЦИОННЫХ ТЕХНОЛОГИЙ ДЛЯ ОРГАНИЗАЦИИ ДЕЯТЕЛЬНОСТИ СУДОВ

### Р Е З Ю М Е

В статье анализируется зарубежный опыт использования информационных технологий для организации деятельности судов. Автор показывает, как применение достижений научно-технического прогресса используется для оптимальной организации процесса осуществления правосудия. В статье рассматривается существующая в судопроизводстве зарубежных стран электронной системы регистрации дела, включая определение и структурирование информации о сторонах, от его возбуждения до вынесения решения, контроль за продвижением дела, соблюдение процессуальных сроков и дат судебных заседаний, определение судебных расходов, подготовку судебной статистики, обеспечение эффективной связи с представителями сторон, непрерывную оценку работы системы, автоматизацию процесса.

**Anar Hajizada**
**Head of the Department of Legal Support and Application**
**of Information and Communication Technologies**
**of the Constitutional Court of the Republic of Azerbaijan,**
**Doctor of philosophy in Law**

## FOREIGN EXPERIENCE IN THE USE OF MODERN INFORMATION TECHNOLOGIES IN THE ACTIVITIES OF COURTS

### S U M M A R Y

The article analyzes the foreign experience of using information technologies to organize the activities of courts. The author shows how the application of the achievements of scientific and technological progress is used for the optimal organization of the process of administering justice. The article discusses the case management system existing in the legal proceedings of foreign countries, including the electronic registration of the case, the definition and structuring of information about the parties, the determination of the mode of the case in court from its initiation to the issuance of a decision, control over the progress of the case, compliance with procedural deadlines and dates of court sessions, determination of court costs, preparation of court statistics, ensuring effective communication with representatives of the parties, continuous evaluation of the system, automation of the case management process.

***Zaur ƏLİYEV***

Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin dekanı
h.ü.f.d., dosent

***Gülnaz RZAYEVA***

Bakı Dövlət Universitetinin İnsan hüquqları və informasiya hüququ
UNESCO kafedrasının müəllimi, h.ü.f.d.

# ONLAYN MEDİADA İFADƏ AZADLIĞINA DAİR MƏHDUDİYYƏTLƏR: AVROPA İNSAN HÜQUQLARI MƏHKƏMƏSİNİN QƏRARLARI VƏ MİLLİ TƏCRÜBƏNİN MÜQAYİSƏLİ-HÜQUQİ TƏHLİLİ

***Açar sözlər:*** *ifadə azadlığı, sosial media, internet, Avropa İnsan Hüquqları Məhkəməsi, məhdudiyyətlər, legitimlik, qanunilik.*

***Ключевые слова:*** *свобода слова, социальные сети, интернет, Европейский суд по правам человека, ограничения, легитимность, законность.*

***Keywords:*** *freedom of expression, social media, internet, European Court of Human Rights, restrictions, legitimacy, legality.*

## 1.1. İfadə azadlığı və ona qoyulan məhdudiyyətlərə dair ümumi yanaşma: beynəlxalq və milli-hüquqi tənzimetmə

İfadə azadlığı demokratik hüquqi dövlətin əsaslarını təşkil etməklə yanaşı, fərdlərin azad düşüncə mühitində öz fikirlərini ifadə etməsi nəticəsində cəmiyyətlərin inkişafına töhfə verir. İfadə azadlığına fərdin öz daxili aləmində yaratdığı düşüncə və həmin düşüncənin ifadəsi, yəni təzahürü daxildir.[1] Qısa sözlə desək, bu azadlıq sərbəst şəkildə müxtəlif fikir və mülahizələrə yiyələnmək, bu fikirlər arasında seçim etmək, başqa insanlarla bölüşmək hüququ kimi başa düşülür. Hələ XX əsrin sonlarında Avropa İnsan Hüquqları Məhkəməsi (bundan sonra Avropa Məhkəməsi) ifadə azadlığının "istənilən mədəni, siyasi və sosial informasiyanın ötürülməsinə imkan verən bədii məlumatları" əhatə etdiyini bildirmişdir.[2]

İfadə azadlığı digər hüquq və azadlıqların qorunması üçün təminat kimi qiymətləndirilə bilər. Çünki, ifadə azadlığının tanınmadığı bir yerdə şəxs öz tələblərini ifadə edə bilmədiyi səbəbindən digər hüquq və azadlıqların həyata keçirilməsində də maneələr yaranacaqdır. Təsadüfi deyil ki, əsas insan hüquq və azadlıqlarının tez-tez pozulduğu bir çox dövlətlərdə ifadə azadlığının lazımi səviyyədə tanınmadığı və ya istifadə edilmədiyi müşahidə edilir.[3]

İfadə azadlığı demokratik rejimlərin minimum tələblərindən biri kimi qiymətləndirilir. Çünki, demokratik rejimlərin ən fundamental xüsusiyyətləri olan plüralizm və azlıqların hüquqlarının müdafiəsi yalnız ifadə azadlığının tanınması ilə reallaşa bilər.

---

[1] TEZCAN/ERDEM/SANCAKDAR/ÖNOK, İnsan Hakları El Kitabı, Seçkin Yayıncılık, 9.Baskı, Ankara, 2021, s.517-518

[2] Müller v. Switzerland. Application No.10737/84, 24.05.1988. https://globalfreedomofexpression.columbia.edu/cases/muller-v-switzerland/

[3] İhsan Dağı, Metin Toprak, "Türkiye'de İnsan Hakları Ve İfade Özgürlüğü", Liberal Düşünce Topluluğu, Ankara 2003, s. 8.

Beynəlxalq sənədlərə nəzər salsaq, Ümumdünya İnsan Hüquqları Bəyannaməsində (maddə 19), Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktda (Maddə 19) hər kəsin əqidə azadlığı və onu sərbəst ifadə etmək azadlığı hüququ bəyan olunur ki, bu hüquq maneəsiz olaraq öz əqidəsində qalmaq azadlığı və istənilən vasitələrlə və dövlət sərhədlərindən asılı olmayaraq, informasiya və ideyalar axtarmaq, əldə etmək və yaymaq azadlıqlarını özündə cəmləşdirir.

Eynilə, İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Avropa Konvensiyasının 10-cu maddəsi hər kəsin ifadə azadlığını tənzimləyir ki, bu hüquq aşağıdakıları ehtiva edir:

– özünü ifadə etmək hüququ;

– məlumat almaq və yaymaq hüququ.[4]

Milli hüquqi yanaşmaya gəldikdə isə Azərbaycan Respublikası Konstitusiyasının 47-ci maddəsində yalnız hər kəsin fikir və söz azadlığı bəyan olunur. Nəzərə alsaq ki, qeyd etdiyimiz beynəlxalq normalarda təsbit olunmuş ifadə azadlığı daha geniş məzmuna malikdir, Konstitusiyanın 50-ci maddəsinin də (məlumat azadlığı) ifadə azadlığı ilə bağlı təhlilini məqsədəuyğun sayırıq. Çünki, ifadə azadlığı, həmçinin şəxsin informasiya və bilik mübadiləsi üzrə hüquqlarını ehtiva edir. Beynəlxalq normalarda hər iki hüququn eyni maddədə təsbitinin başlıca səbəbi onların sıx əlaqəsindən irəli gəlir, yəni ifadə azadlığı (və ya fikir və söz azadlığı) və məlumat azadlığını bir-birindən təcrid olunmuş formada təsəvvür etmək qeyri-mümkündür. Avropa Məhkəməsinin bir çox qərarlarında onlardan birinin digərinin təminatında xüsusi əhəmiyyətə malik olması xüsusi vurğulanır. Məsələn, Autronik İsveçrəyə qarşı məhkəmə işində problem dövlət orqanlarının iddiaçı şirkətə xaricdən yayım ötürülməsinə icazə verməkdən imtina etdiyi zaman şirkətin ifadə azadlığına müdaxilənin edilib-edilməməsi idi. Məhkəmə iddiaçının ideya və məlumatları qəbul etmək imkanının məhdudlaşdırılması vasitəsilə ifadə azadlığına müdaxilə edildiyi qənaətinə gəlmişdi. Həmçinin Xurşid Mustafa və Tarzibaçı İsveçə qarşı məhkəmə işində Məhkəmə İsveç məhkəməsinin dəstəklədiyi mülk sahibinin icarəçiyə mənzilindən kənarda peyk qurğusu quraşdırmağa icazə verməməsinə əsaslanaraq yenə də onların məlumat almaq hüququna maneə törədildiyini bildirmiş və ifadə azadlığına müdaxilə olunduğu qərarına gəlmişdi.[5]

Beləliklə, ifadə azadlığı bir-biri ilə sıx qarşılıqlı əlaqədə və ayrılmaz vəhdətdə olan bir neçə elementi özündə birləşdirir:

Birincisi, bu hər bir insanın öz fikirləri, ideyaları və mülahizələrini kütlə qarşısında söyləmək və onları istənilən qanuni üsullarla yaymaq azadlığıdır.

İkincisi, fikir və söz azadlığı mətbuat və kütləvi informasiya vasitələrinin azadlığına imkan yaradan informasiya strukturlarını yaratmaq və onlardan istifadə hüququnu nəzərdə tutur.

Üçüncüsü, informasiya mənbələrinə buraxılma azadlığıdır ki, bu da qanunla fikir və söz azadlığına dair məhdudiyyətlərin müəyyən edilməsini şərtləndirir.[6]

Həm beynəlxalq normalarda, həm də dövlətdaxili tənzimlənmədə ifadə azadlığı ilə bağlı bir sıra məhdudiyyətlər nəzərdə tutulmuşdur ki, bunlar hüquq və azadlıqların pozulması kimi şərh olunmamalıdır. Avropa Konvensiyasının 10-cu maddəsində ifadə azadlığına dair məhdudiyyətlər üçün aşağıdakı şərtlər müəyyən olunmuşdur:

---

[4] Zaur Əliyev. Avropa İnsan Hüquqları Məhkəməsi. Dərs vəsaiti. Bakı: AZSEA nəşriyyatı, 2012, s. 68. 232 s.

[5] Toby Mendel. Freedom of Expression: A Guide to the Interpretation and Meaning of Article 10 of the European Convention on Human Rights. Council of Europe, 2012, p. 9.

[6] Əliyev Ə.İ. İnsan hüquqlarının beynəlxalq-hüquqi müdafiəsi: Dərslik. Bakı, 2009, s. 215-216.

– Məhdudiyyətlər qanunda nəzərdə tutulmalıdır;
– Məhdudiyyətlər legitim maraqlardan birinin (Konvensiyanın 10.2-ci maddəsində nəzərdə tutulan) müdafiəsinə yönəlməlidir;
– Məhdudiyyətlər demokratik cəmiyyət baxımdan zəruri xarakter daşımalıdır.

Birinci şərt məhdudiyyətin yalnız qanunla müəyyən edilməsinin yolverilənliyini nəzərdə tutur və əsas məqsədi dövlət tərəfindən məhdudiyyətlərin özbaşınalığının qarşısını almaqdan ibarətdir. Kontinental hüquq ailəsinə daxil olan respublikamızda ifadə azadlığı bütün insan hüquqları və azadlıqları kimi yalnız qanunla məhdudlaşdırıla bilər. Konstitusiyanın 71-ci maddəsinin II bəndi bu barədə birbaşa göstəriş nəzərdə tutmuşdur. Lakin Avropa Məhkəməsinin qərarlarında qanunilik tələbi ilə bağlı müxtəlif yanaşmalar vadır. Maraqlı tərəf onda özünü büruzə verir ki, Avropa Məhkəməsi "qanun" anlayışını daha geniş məzmunda şərh edir. Sunday Times Birləşmiş Krallığa qarşı, Sanoma Vitgevers B.V Niderlanda qarşı qərarlarında Məhkəmə Kontinental Avropa və digər hüquq sistemlərinin xüsusiyyətlərini nəzərə alaraq, Konvensiyanın 8-ci maddəsindən 11-ci maddəsinədək göstərilən "qanunauyğun" və "qanunla müəyyən edilmiş" sözləri ilə bağlı bildirmişdir ki, həmişə "qanun" termini özünün "formal" mənasında deyil, "substantiv" mənasında nəzərdə tutulur. Buraya həm "yazılı qanun", həm də "yazılmamış qanun"lar daxildir. "Qanun" həm "qanunla müəyyən edilmiş hüquq", həm də hakimlərin verdiyi "hüquq" kimi anlaşılmalıdır. Di Stefano İtaliyaya qarşı məhkəmə işində Böyük Palatanın qəbul etdiyi qərarda deyilirdi ki, "qanunla nəzərdə tutulmuş" ifadəsindən irəli gələn tələblərdən biri müəyyənlikdir. Buna görə də norma vətəndaşların davranışlarını tənzimləmək üçün kifayət qədər dəqiqliklə hazırlanmadığı təqdirdə "qanun" kimi nəzərə alına bilməz.[7]

Digər tərəfdən, tənzimləməni ehtiva edən qanun fiziki şəxslər üçün əlçatan və başa düşülən olmalıdır. Avropa Məhkəməsi bu tələbə üstünlük verməsini belə əsaslandırır ki, "qanunla nəzərdə tutulmaq" proqnozlaşdırıla bilənliyi təmin edir. Fərdlər öz davranış və hərəkətlərinin nəticələrini qabaqcadan görməyi bacarmalıdır və onlara öz davranışlarına nəzarət etməyə imkan verən tənzimləmələr 10-cu maddə çərçivəsində hüquqi norma kimi uyğun hesab edilə bilər.[8]

Rekvensi Macarıstana qarşı iş üzrə isə Məhkəmə "qanunla müəyyən edilmiş" anlayışını və onunla bağlı müəyyənlik prinsipini birbaşa formada yerli qanunvericiliklə əlaqələndirmişdir: "Konstitusiyanın müddəaları ümumi xarakterli olduğu üçün onlardan tələb olunan dəqiqlik səviyyəsi digər qanunvericiliklərə nəzərən daha aşağı ola bilər. Bu müddəaları şərh etmək üçün qanunla müəyyənləşdirilən tələblərə cavab verən daha müfəssəl yerli qanunvericilik bazası mövcuddur."[9] Məhz bunu rəhbər tutaraq, Məhkəmə əksər işlərdə (məsələn, Gaveda Polşaya qarşı)[10] məhz qanunda göstərilmiş dəqiq tələblərə riayət olunmasını vacib saymışdır.

Məhdudiyyətlərin legitim maraqlardan birinin müdafiəsinə yönəlməsi şərti ilə bağlı Avropa Konvensiyasının 10.2-ci maddəsi bu maraqlara aşağıdakıları daxil edir: dövlət təhlükəsizliyi və dövlətin ərazi bütövlüyü, ictimai asayiş, iğtişaşların və cinayətlərin

---

[7] Toby Mendel. Freedom of Expression: A Guide to the Interpretation and Meaning of Article 10 of the European Convention on Human Rights. Council of Europe, 2012, p. 35.

[8] Chauvy and others v. France. Application no. 64915/01, 29.06.2004.
https://hudoc.echr.coe.int/fre#{%22itemid%22:[%22001-61861%22]}

[9] Toby Mendel. Freedom of Expression: A Guide to the Interpretation and Meaning of Article 10 of the European Convention on Human Rights. Council of Europe, 2012, p. 36.

[10] Freedom of expression in Europe: Case-law concerning Article 10 of the European Convention on Human Rights. Council of Europe Publishing, March 2007, p. 8-9.

qarşısının alınması, sağlamlığın və ya mənəviyyatın müdafiəsi, digər şəxslərin nüfuzu və ya hüquqlarının müdafiəsi, konfidensial məlumatların açıqlanmasının qarşısının alınması, ədalət mühakiməsinin nüfuzunun və qərəzsizliyinin təmin edilməsi.

Sadalanan məqsədlərdən birinə uyğun gəlməyən məhdudiyyət hüququn pozulmasını təşkil edir ki, həmin məqsədlər dövlət və ictimai maraqların qorunmasına xidmət edir. Dövlət maraqları ictimai maraqlarla qarşılıqlı əlaqədə olub, biri digərindən üstün deyil. İctimai mənafeləri əks etdirən istiqamətlər dövlət orqanları tərəfindən qanuni formaya salınmazsa, onların müdafiəsindən söhbət gedə bilməz. Eyni zamanda, dövlət öz fəaliyyətində cəmiyyətin maraqlarını rəhbər tutmadığı halda, demokratiklik prinsipi birbaşa şəkildə pozulmuş olacaqdır.

Əksər hallarda legitim maraqların pozulması elə qanunauyğunluq şərtini də pozmuş olur. Çünki milli qanunvericiliklər legitim maraqlara qəsd edən fəaliyyəti qadağan edir. Sürek Türkiyəyə qarşı qərarında Məhkəmə bu yanaşmanı təsdiq etmişdir.[11]

Məhdudiyyətlərin demokratik cəmiyyət baxımdan zəruri xarakter daşıması. Demək olar ki, bütün müasir dövlətlərin qanunvericiliyində fikir və söz azadlığı demokratiyanın, vətəndaş cəmiyyətinin əsas və zəruri elementi, eləcə də təminatçısı kimi qiymətləndirilir. Avropa Məhkəməsinin əksər qərarlarında dəfələrlə vurğulanır ki, ifadə azadlığı demokratik cəmiyyətin mühüm dayaqlarından, onun tərəqqisi və hər bir fərdin inkişafı üçün əsas şərtlərdən birini təşkil edir.[12]

Hətta, ayrı-ayrı dövlətlərdə demokratik dövlət üçün zəruri olan məhdudiyyətlər barədə mövqelərə də rast gəlmək olur. Məsələn, Şri-Lanka Ali Məhkəməsinin sədrinin sözlərinə görə: "Fikir və söz azadlığı yalnız öz fikir və mülahizələrini ifadə etməklə məhdudlaşmayıb, həmçinin şəxsin nə eşitmək və nəyi oxumaq istəklərini də ehtiva edir. Ona görə də müasir demokratik dövlətdə müxtəlif ziddiyyətli məlumat mənbələrinin artmasının qarşısı alınmalıdır."[13]

Fikir və söz azadlığına dair məhdudiyyətlərin "demokratik toplumda zəruri" olub-olmadığı hər zaman yoxlanmalıdır. Buradakı "zəruri" ifadəsi dar mənada "məcburi" kimi qəbul edilməməlidir. Məhkəmə əksinə "faydalı, ağlabatan və ya arzuolunan" kimi şərhlərlə bu ifadəyə açıqlama vermişdir.[14]

Avropa Konvensiyasının 8-11-ci maddələrində qeyd olunan müdaxilənin demokratik cəmiyyətdə zəruri olaraq qəbul olunması üçün əvvəlcə sözügedən müdaxilə əhəmiyyətli bir ictimai ethiyacdan qaynaqlanması təklikdə kifayət deyildir. Başqa sözlə desək, məhdudlaşdırma üçün istifadə olunan vasitə ilə məhdudlaşdırma zamanı nəzərdə tutulan qanuni bir məqsəd arasında mütənasiblik olmalıdır. Mütənasiblik Konvensiyada açıq şəkildə bildirilməmiş, Avropa Məhkəməsinin presedentləri ilə inkişaf etdirilən əsas prinsiplərdən biridir. Mütənasibliyi araşdırarkən üzv dövlət tərəfindən qorunan qanuni məqsədin əhəmiyyəti və çəkisi ilə müdaxilə olunan hüququn xüsusiyyətləri və əhatəsi dəqiq müəyyən

---

[11] Surek v. Turkey. Application No. 26682/95, 08.07.1999. https://hudoc.echr.coe.int/eng#{%22itemid%22:[%22001- 141273%22]}

[12] Lingens Avstriyaya qarşı, 1986, ərizə No. 9815/82, A seriyaları, s. 103.; Toma Lüksemburqa qarşı, 2001, ərizə No. 38432/97, Qərar və qərardadlar toplusu, 2001-III.; Maronek Slovakiyaya qarşı, 2001, ərizə No. 32686/96, Qərar və qərardadlar toplusu, 2001-III.; Dixand və başqaları Avstriyaya qarşı, 2002, ərizə No. 28114/95, Qərar və qərardadlar toplusu, 1999-VI. və s.

[13] Sandra Coliver. The article 19 – Freedom of expression Handbook: International and Comparative Law, Standards and Procedures. August 1993, p. 56.

[14] Handyside v United Kingdom. Application No. 5493/72, 07.12.1976. https://legallibrary.crin.org/handyside-v-the-united-kingdom/

olunmalıdır.[15] Belə ki, müdaxilə son çarə olmalıdır və daha az müdaxilə tələb edən başqa bir tətbiq mövcud olmamalıdır.

**1.2. Sosial yoxsa, onlayn media**

Sosial media termini ilk dəfə 1994-cü ildə fotoqraf, yazıçı və tədqiqatçı Darrell Berry tərəfindən istifadə edilmişdir.[16] "Sosial Media Məkanları" ifadəsini əsərlərində istifadə edən Berri günümüzün sosial media formalarına uyğun gəlməsə də, yeni bir konsepsiya yaratmışdır. Media layihələrinin, xüsusən də "kiberkafelər"in inteqrasiya olunmuş real və virtual məkanlardan sosial mühitlər yaratmağa çalışdıqlarını vurğulayan D.Berry real və virtual məkanın qarşılıqlı təsirinin az olduğundan şikayətlənirdi. Onun yanaşmasına görə, hibrid reallıq və genişlənmiş reallıq anlayışlarının vasitəsilə hibrid sosial media məkanlarını formalaşdırmaq olar.[17]

Bununla da Berri sosial media termini ilə istifadəçilərin qarşılıqlı əlaqədə olduğu və sənədlərin müntəzəm arxivləşdirildiyi şəbəkəyə işarə etdi. Zaman keçdikcə sosial şəbəkə, sosial paylaşma platformaları, Web 2.0 texnologiyaları ifadələrindən də istifadə olunurdu.[18] Lakin bu ifadələrin heç biri sosial media anlayışının tam qarşılığı deyil. Latın mənşəli olan "sosial" sözü "yoldaş, tərəfdaş, müttəfiq", "cəmiyyətə uyğun, cəmiyyətin qayğısına qalan" mənaları daşıyır. Media isə "alət və vasitələr" kimi başa düşülür. Azərbaycan Respublikasının yeni qəbul edilmiş "Media haqqında" Qanununa görə, media kütləvi informasiyanın dövri və ya müntəzəm olaraq dərc olunması və (və ya) yayımlanması məqsədilə istifadə olunan alət və vasitələr, habelə onlar vasitəsilə formalaşan informasiya mühitindən ibarətdir (maddə 1.1.2). Deməli, sosial media da cəmiyyətin qarşılıqlı əlaqə vasitəsi, mühiti kimi qiymətləndirilə bilər.

Sosial medianın formalaşması internetin inkişafı ilə əlaqədar olsa da, müasir dünyada onun onlayn mediadan fərqləndirilməsi tendensiyası mövcuddur. Yuxarıda qeyd etdiyimiz Qanunda kütləvi informasiyanı veb-saytda yayımlayan media onlayn media kimi qəbul edilir (maddə 1.1.7). Əslində, sosial media internetə əsaslanan ünsiyyət formasıdır. Sosial media platformaları istifadəçilərə söhbət etməyə, məlumat paylaşmağa və veb məzmun yaratmağa imkan verir. Sosial media rəqəmsal medianın bir növüdür, lakin yalnız onlayn platformalarla məhdudlaşır. Ona görə də tədqiqat çərçivəsində sosial və onlayn media anlayışlarını sinonim kimi istifadə edəcəyik.

Avropa Məhkəməsi bir çox qərarlarında bildirmişdir ki, ifadə azadlığı cəmiyyətin təkamülünün tərəqqisi və insanların özünü dərk etməsi üçün vacib şərtlərdən biridir. Buna görə də insanların özlərini ifadə etmək üçün istifadə etdikləri alətlərə asan çıxış da demokratiyanın mövcudluğu üçün vacibdir.[19] Böyük izləyici kütləsi olan, ifadə azadlığını qoruması qəbul edilən qəzetlərin, radio və televiziyaların gücünü bölüşən sosial medianın demokratik cəmiyyət qarşısında rolu artıq göz önündədir. Sosial medianı offlayn kütləvi informasiya vasitələrindən fərqləndirən cəhət istifadəçilərin informasiya və xəbər

[15] Laurens Lavrysen, "Chapter 4: System of Restriction", Theory and Practice of the European Convention on Human Rights, Ed. Pieter Van Dijk, Fried Van Hoof, Arjen Van Rijn, Leo Zwaak, 5. Baskı, Cambridge, Intersentia, 2018, s.314.

[16] Berry D. "Social Media Spaces". (1995). Web: http://www.ku24.com/~darrell/hybrid1.html

[17] Yenə orada.

[18] Özdemir, S.S., Özdemir, M., Polat, E., Aksoy, R. (2014, December). Sosyal Medya Kavramı ve Sosyal Ağ Sitelerinde Yer Alan Online Reklam Uygulamalarının İncelenmesi. Electronic Journal of Vocational Collages, 4 (4), 59

[19] Handyside v United Kingdom. Application No. 5493/72, 07.12.1976. https://legallibrary.crin.org/handyside-v-the-united-kingdom/

şəbəkələrinin mərkəzində olmasıdır. Yaxın keçmişimizdə baş verən Ərəb Baharı[20] və Gəzi Parkı[21] hadisələrində sosial medianın rolunu nəzərə alsaq, sosial medianın cəmiyyətə təsiri daha yaxşı görünəcəkdir.

İnternet istifadəçiləri sosial mediada profillər yaradırlar ki, bu da onlara özlərini yenidən təyin etməyə imkan verir. Məsələn, Facebook hesabı yaradarkən, şəxsin öz adından istifadə etmək məcburiyyəti yoxdur. Dini fikir, cinsi oriyentasiya və ya ailə vəziyyəti kimi şəxsiyyət məlumatları tamamilə istifadəçilərin seçiminə buraxılır. İstifadəçilər istədikləri kimi özlərini təqdim edə və istədikləri kimi şəxsiyyət yarada bilərlər. Onlar bu profillərdə istədiklərini paylaşa, ünsiyyətdə olmaq istəmədikləri istifadəçiləri bloklaya bilərlər. Bəyəndikləri foto və ya videoları paylaşa və yararsız hesab etdikləri şəkilləri anında silə bilərlər. Bir sözlə, sosial media istifadəçiləri elə bir dünya qururlar ki, onlar öz sərhədlərini çəkirlər, qaydaları özləri müəyyən edirlər və bu qaydalara uyğun oynamayanları yenidən görmək istəyənə qədər onları bloklayaraq görməzlikdən gələ bilirlər. Bütün bu səbəblərə görə, sosial mediadakı şəxsiyyətimizlə real cəmiyyətdəki şəxsiyyətimiz heç də həmişə üst-üstə düşmür. Sosial mediada kimlik çaşqınlığı ilə yanaşı, virtual mühit və real həyatdakı mühit də mürəkkəbləşə bilər.[22] Lakin bütün bunlara baxmayaraq, çevikliyi və rahatlığı baxımdan, sosial mediadan istifadə günbəgün artmaqdadır. Mövcud statistik rəqəmlər də bu faktı təsdiq edir. Belə ki, 2021-ci ilin hesabatlarında[23] dünyada 4,20 milyard sosial media istifadəçisinin olduğu qeyd edilirdi. Bu rəqəm əvvəlki illərlə müqayisədə 490 milyon artaraq, illik müqayisədə 13 faizdən çox artımla nəticələnmişdi və sosial media istifadəçilərinin sayı dünya əhalisinin 53 faizindən çoxuna bərabər idi. 2022-ci ilin hesabatlarında sosial media platformaları hesabatlarında böyük dəyişikliklər müşahidə edildi. Bu isə o deməkdir ki, həmin hesabata daxil edilmiş müxtəlif rəqəmlər əvvəlki hesabatlarda göstərilən eyni məlumat nöqtələri üçün rəqəmlərlə birbaşa müqayisə oluna bilməzdi. Sosial media istifadəçilərinin sayında iki rəqəmli artım, YouTube, Instagram və TikTok üçün böyük qazanclar, sosial ticarətin yüksəlişi, sosial media reklamlarının qiymətində əhəmiyyətli artım, eləcə də 12,5 trilyon saat onlayn olma faktı yeni mərhələ və sosial mediadan istifadə üçün yeni rekordların göstəricisi idi.[24] Bu cür faktlar 2023-cü il üçün də davam edir.

Qeyd olunan məqamlar sosial mediada ifadə azadlığının qorunması və ona qoyulan məhdudiyyətlər məsələsini bir daha gündəmə gətirir. Cəmiyyətin əksəriyyəti üçün əlçatan olan sosial medianın gücünü nəzərə alsaq, sosial medianın bu gün ən çox qorunmalı olan sahələrdən biri olduğunu qəbul etmək lazımdır. Keçmişdə daha məhdud sahəni əhatə edən media texnologiyanın inkişafı ilə informasiya mübadiləsində daha əlyetər və mühüm vasitəyə çevrilmişdir. Bu gün internet sayəsində liberal və açıq paylaşım mühiti formalaşaraq, bu mühit sayəsində sosial media platformalarında fikir və ideyaların daha çox yayılması mümkün olur. Ona görə də ifadə azadlığının müdafiəsinin əhatə dairəsi əhəmiyyətli dərəcədə genişlənmişdir.

---

[20] Arap Baharı Nedir, Nasıl Başladı? Arap Baharının Nedenleri Ve Etkileti Nelerdir? https://www.hurriyet.com.tr/egitim/arap-bahari-nedir-nasil-basladi-arap-baharinin-nedenleri-ve-etkileti-nelerdir-41828980

[21] Gezi Parkı davası: İktidar ve muhalefet, kararın siyasi ve hukuki sonuçlarını nasıl yorumlanıyor? https://www.bbc.com/turkce/haberler-turkiye-61237460

[22] Şen, A.F. ve Şen, Y.F. (2015). Sosyal Medya, İletişim Hakkı ve İfade Özgürlüğü Üzerine Bir Değerlendirme. İktisadi ve İdari Bilimler Fakültesi Dergisi, 17 (2), 133.

[23] DIGITAL 2021: GLOBAL OVERVIEW REPORT. https://datareportal.com/reports/digital-2022-global-overview-report

[24] DIGITAL 2022: GLOBAL OVERVIEW REPORT. https://datareportal.com/reports/digital-2022-global-overview-report

### 1.3. Onlayn ifadə azadlığı: hüquqi tənzimləmədə problemlər

BMT-nin İnsan Hüquqları Şurası 2012-ci ildə İnternetdə insan hüquqlarının istifadəsi, qorunması və təşviqi ilə bağlı qəbul etdiyi və daha sonra 2016-cı ildə təkrarladığı Qətnaməsində vurğulamışdır ki, prinsipcə, insanların offlayn dünyada sahib olduğu hüquqlar onlayn şəkildə də qorunmalıdır.[25]

Avropa Məhkəməsi ifadə azadlığı ilə bağlı qərarlarında qeyd etmişdir ki, təkcə ifadə deyil, həm də ifadə vasitələri qorunmalıdır.[26] Konvensiyada yazılmasa da, ifadə vasitəsi kimi "mətbuat" ifadə azadlığı çərçivəsində qorunur.[27] Beləliklə, Məhkəmə cəmiyyətdəki dəyişikliyə biganə qalmayaraq, yeni ifadə kanallarından biri olan internetin ifadə azadlığının müdafiə sahəsinə daxil olduğunu bildirmişdir və bu da dolayısı ilə sosial mediada onlayn ifadə azadlığının qorunması ilə bağlı yanaşmanın əsasını qoymuşdur. Eyni zamanda qeyd etməliyik ki, Avropa Konvensiyasının 10-cu maddəsi hansı vasitədən istifadə olunmasından asılı olmayaraq, ifadə edilmiş istənilən fikri müdafiə edir.

İfadə azadlığının əsası dövlət tərəfindən insanlara müxtəlif mənbələrdən məlumat əldə etmək imkanının verilməsindən ibarətdir. Bu səbəbdən, dövlət müxtəlif media mənbələri baxımından plüralizm prinsipini yerinə yetirməlidir. Yalnız belə şəraitdə ayrı-ayrı şəxslər sosial mediada çıxan xəbərlərə şərh verə, sərbəst şəkildə tənqid edə, hətta öyrəndikləri məlumatlara uyğun xəbərlər hazırlaya bilərlər. Şəxslərin heç bir jurnalist şəhadətnaməsi olmadan bu şəkildə reportaj hazırlaya bilməsi "ictimai jurnalistika" adlanır.[28] Beləliklə, onlayn ifadə azadlığı konkret bir hüquq və azadlığın yenisi ilə əvəz olunması deyil, yeni dövrə uyğun yeni forma alması deməkdir.

Qəzet və radionun informasiya mübadiləsində mühüm yer tutduğu dövrdə fərdlər aldıqları məlumatlara heç bir cavab verə bilmədikləri üçün passiv qalırdılar. Veb 1.0 texnologiyasının geniş yayıldığı dövrdə birtərəfli qaydada məlumat ötürmək mümkün olduğu halda, Web 2.0 texnologiyası ilə ikitərəfli məlumat ötürmək mümkün oldu və cəmiyyət üzvləri öz fikir və ideyalarını aktiv şəkildə paylaşa bildilər. Bu da onlayn ifadə azadlığının qorunması problemini aktuallaşdırdı. Avropa Məhkəməsi bir çox qərarlarında sosial medianın ünsiyyətdə mühüm rol oynadığını və ifadə azadlığı çərçivəsində qorunmalı olduğunu qeyd etmişdir. Times Newspapers LTD Birləşmiş Krallığa qarşı iş üzrə qərarında bildirilirdi ki, internet saytları çoxlu məlumatların saxlanması və bu məlumatların şəxslərə ötürülməsi xüsusiyyətlərinə görə effektivdir. Animal Defenders International Birləşmiş Krallığa qarşı qərarda Məhkəmə bəyan etdi ki, son illərdəki inkişaf nəticəsində sosial media kütləvi kommunikasiyada çox mühüm rola malikdir.[29]

Avropa Şurası Nazirlər Komitəsinin CM/Rec (2011) 7 saylı Tövsiyəsində qeyd olunmuşdur ki, media ictimai rəyin bir hissəsini təşkil edən yeni kommunikasiya vasitəsi kimi mühüm mövqeyə malikdir. Digər tərəfdən, media siyasət, təhsil, mədəniyyət və əyləncə sahələrinə də xidmət edir və üzv dövlətlərin qanunsuz müdaxilələrindən müdafiə olunmalıdır.[30] Eyni zamanda axtarış sistemlərinə tətbiq edilən tənzimləmələr də ifadə

[25] The Human Rights Council. The promotion, protection and enjoyment of human rights on the Internet. https://www.article19.org/data/files/Internet_Statement_Adopted.pdf

[26] Handyside v United Kingdom. Application No. 5493/72, 07.12.1976. https://legallibrary.crin.org/handyside-v-the-united-kingdom/

[27] The Sunday Times v. v. United Kingdom. Application No. 6538/74, 26.04.1979. https://globalfreedomofexpression.columbia.edu/cases/the-sunday-times-v-united-kingdom/#:~:text=Case%20Summary%20and%20Outcome,violated%20its%20freedom%20of%20expression.

[28] Gülhan Gezer. Sosyal medya özgürlüğü ve masumiyet karinesi ikilemi. İzmir, 2022, s. 36. 133 s.

[29] Yenə orada: sə 37.

[30] Recommendation CM/Rec(2011)7 on a new notion of media (2013). https://edoc.coe.int/en/media/8019-recommendation-cmrec20117-on-a-new-notion-of-media.html

azadlığına mane olmamalıdır. Məsələn, internetə qoyulan məhdudiyyətlər ifadə azadlığının məhdudlaşdırmamalıdır.

Lakin onlayn ifadə azadlığının hüquqi tənzimləməsində bir sıra problemlər meydana çıxır. İlkin olaraq, qeyd etməliyik ki, onlayn qaydada informasiya mübadiləsi zamanı sosial şəbəkə vasitə kimi çıxış edirsə, şəxsiyyətin gizlədilməsi faktlarına çox rast gəlinir. Bu da anonim ifadələrlə bağlı problemi ortaya çıxarır. Əslində, anonim ifadə problemi internetlə əlaqədar yaranmış problem deyil. İnternet olmadığı vaxtlarda da şair və yazıçılar müxtəlif səbəblərdən təxəllüslə əsərlər çap etdirirdilər. Eynilə, tarix boyu bir çox mühüm siyasi və hüquqi mətnlər təxəllüslə nəşr edilmişdir. Məsələn, Amerika tarixində 1789-cu il Konstitusiyası qəbul edilərkən, konstitusiya müzakirələrinə əhəmiyyətli töhfə verən və sonradan "Federalist Sənədlər" kimi tərtib edilən məqalələr təxəllüslərlə dərc olunurdu. Sonradan müəlliflərinin Alexander Hamilton, John James Madison və John Jay olduğu aşkar edilən məqalələrin hamısı Publius təxəllüsü ilə yazılmışdır.[31]

İnternetdən əvvəlki dövrlərdən fərqli olaraq, həm internetin arxitektura quruluşu sayəsində anonim ifadə imkanları artmış, həm də internetin arxitektura quruluşuna, xüsusən də özəl şirkətlər tərəfindən nəzarət edilməsi dövlət orqanları ilə yanaşı, özəl sektoru anonimlik dərəcəsini müəyyən edən subyektlər sırasına da əlavə etmişdir. Müasir dünyada istifadəçilərin texniki identifikasiyası imkanları, kibermәkanda anonim və təxəllüslü ifadələrin şərtləri özəl şirkət siyasəti ilə müəyyən edilir. Xidmət təminatçılarının anonim şəxslərin kimliyini könüllü olaraq açıqlayacağı hallarda bu, dövlət orqanlarının təzyiqi ilə də baş verə bilər. Məsələn, məşhur sosial şəbəkə platforması olan Facebook-un real ad siyasətini qeyd edə bilərik. Belə ki, istifadəçilər Facebookda öz həqiqi adları ilə qeydiyyatdan keçməli idilər. Əvvəlcə Facebook bu siyasəti ciddi şəkildə tətbiq etdi, əsl adları ilə qeydiyyatdan keçməmiş istifadəçilərin hesablarını dayandırdı. Lakin sonradan qeyri-hökumət təşkilatlarının təzyiqi ilə, xüsusilə məişət zorakılığı qurbanlarının və bəzi həssas qrupların öz problemlərini rahat işıqlandıra bilməsi üçün Facebook real ad siyasətini dəyişdirdi.[32] Buna görə də anonim ifadənin qorunmasının bir çox cəhətdən ifadə azadlığının səriştəli həyata keçirilməsinə mühüm töhfə verdiyi danılmazdır. Avropa Məhkəməsi də internet kontekstində ifadə azadlığı baxımından anonim ifadənin vacibliyini qəbul edir. Delphi Estoniyaya qarşı qərarında Məhkəmə hesab etmişdir ki, şərhlərin faktiki müəlliflərinin məsuliyyətinin internet xəbər portallarının məsuliyyətinə ağlabatan alternativ təşkil edib-etməməsi ilə əlaqədar olaraq internet istifadəçilərinin maraqlarının açıqlanmaması daha düzgündür. Anonimlik repressiyalardan və ya arzuolunmaz diqqətdən yayınmaq üçün uzun müddətdir istifadə olunur. Bunun təmin olunması nəticəsində fikir və məlumatların İnternetdə sərbəst axını əhəmiyyətli dərəcədə artacaqdır.[33]

Lakin bütün bunlar məsələnin müsbət tərəfidir. Anonim şəkildə başqalarının şəxsi həyatına müdaxilə və ya təhqir, böhtan hallarına gəldikdə, artıq başqa tənzimləmə meydana çıxmalıdır. Burada xüsusilə, "Whisleblowing"-ə aydınlıq gətirmək lazımdır. Whisleblower sözü ingiliscə fit mənasını verən whistle və üfürmək mənasını verən zərbə sözlərinin birləşməsindən əmələ gəlib. Bu gün bu söz hər hansı bir qurumda qanunazidd iş və hərəkətləri ictimaiyyətlə paylaşan şəxslərə aid edilsə də, mənşəyi baxımından bu sözün haradan gəldiyi barədə dəqiq məlumat yoxdur.

---

[31] Chesa Boudin, Publius and the Petition: Doe v. Reed and the History of Anonymous Speech, Yale Law Journal, vol. 120, no. 8, p. 2153.

[32] Amanda Holpuch, Facebook adjusts controversial 'real name' policy in wake of criticism, Guardian, 2015, https://goo.gl/cjUju9

[33] Delfi v. Estonia. Application No. 64569/09, 10.10.2013.
https://hudoc.echr.coe.int/fre#{%22itemid%22:[%22002-8960%22]}

BMT-nin Fikir və İfadə Azadlığı üzrə Xüsusi Məruzəçisinin İnformasiya mənbələrinin və məlumat verənlərin mühafizəsi üzrə Məruzəsi “Whisleblowing”-ə maraqlı şərh vermişdir. Məruzəyə görə, gizli məlumatın ictimai maraqlara uyğun açıqlanması üçün aşağıdakı üç şərt yerinə yetirilməlidir:

1) məlumatı açıqlamaq üçün lazımi biliyə malik olan və onu açıqlamağa hazır olan şəxs olmalı;

2) məlumatı yaymaq üçün vasitəçi kimi çıxış edəcək şəxs və ya platforma mövcud olmalı;

3) mövcud hüquq sistemi və siyasi mədəniyyət həm məlumat verəni, həm də platformanı qorumalıdır.[34]

Məruzənin ümumiləşdirilməsinə əsasən, qeyd edə bilərik ki, “whisleblower” termini geniş şəkildə müəyyən edilməli və əsas diqqət iddia edilən qanun pozuntusuna yönəldilməlidir. Bu kontekstdə iddia edilən qanun pozuntusunun mövcud qanunlara görə cinayət olması şərt deyil və açıqlamanı verən şəxsin bunu hansı motivlərlə etdiyinin əhəmiyyəti yoxdur. Əsas şərt ictimai rifah üçün faydalı məlumatların açıqlanmalı olmasıdır. Məlumat verənin müdafiəsi kontekstində “ictimai maraq” geniş şərh edilməli və faydalı məlumat kateqoriyası yaradılarkən ictimai müzakirələrə səbəb olan, ictimai iştirakçılığı təşviq edən, ciddi pozuntuları ifşa edən, hesabatlılığı yaxşılaşdıran və ya ictimai təhlükəsizliyə fayda verən məlumatlar bu kontekstdə qiymətləndirilməlidir. Bununla bağlı, Avropa Məhkəməsinin təcrübəsindən olan Guya Moldovaya qarşı qərarını qeyd etmək olar. Qərarda bildirilir ki, məlumat verən şəxs tərəfindən ictimaiyyətə, yəni media orqanları vasitəsilə açıqlamaya son çarə kimi müraciət edilməlidir. Çünki bəzi məlumatlar var ki, təsirli daxili və xarici mexanizmlər olsa belə, ictimaiyyətin bu məlumatları bilmək hüququ daha üstündür.[35] Məsələn, beynəlxalq insan hüquqlarının və humanitar hüququn və ya digər konstitusiya azadlıqlarının kobud şəkildə pozulması halları, effektiv daxili müdafiə vasitələrindən asılı olmayaraq, ictimaiyyətə açıqlanmalı və təşviq edilməlidir. Çünki ictimaiyyətin bu ciddi pozuntuları bilməkdə daha çox marağı vardır. Eynilə, bəzən ictimaiyyətin mövzu ilə bağlı təcili məlumatlara malik olması zərurəti də birbaşa ictimaiyyət qarşısında açıqlamaya haqq qazandıra bilər. Deməli, Məhkəmə məlumat verən şəxslərin xüsusi müdafiəyə ehtiyacı olduğunu etiraf etmişdir: vəzifəli şəxslər tərəfindən iş yerində aşkar edilmiş qanunsuz davranış və ya münasibət barədə məlumat verilməsi müəyyən hallarda qorunmalıdır. Əgər sözügedən məmur təkbaşına və ya kiçik qrup halında işdə baş verənlərdən xəbərdar olan və işəgötürənə və ya ictimaiyyətə məlumat verməklə ümumi maraqlar naminə hərəkət edə bilən yeganə şəxsdirsə, belə müdafiə tələb oluna bilər. Lakin bunun üçün konkret meyarlar nəzərə alınmalıdır.

Birincisi, vasitəçilikdə iyerarxiya gözlənilməlidir. Yəni şəxs əvvəlcə məlumatı yuxarı və ya səlahiyyətli orqan və ya qurum qarşısında açıqlamalıdır. Başqa cür hərəkət etmək qeyri-mümkün olduqda ictimaiyyətə açıqlama son çarə kimi qəbul edilməlidir.

İkincisi, onlayn paylaşılan anonim məlumat ictimai marağı təmsil etməlidir. Ümumi maraq doğuran problemlər sahəsində ifadə azadlığının məhdudlaşdırılmasına yol verilmir. Müəyyən məlumatlara ictimai maraq bəzən o qədər böyük ola bilər ki, fayda qanunla müəyyən edilmiş konfidensiallığın qorunması öhdəliyindən artıq ola bilər.

Üçüncüsü, paylaşılan məlumat mütləq həqiqi olmalıdır. Yanlış məlumatlar onlayn ifadə azadlığı kontekstində müdafiə oluna bilməz.

---

[34] Report of the Special Rapporteur on the promotion and protection of the right to freedom of opinion and expression, On the protection of sources and whistleblowers, UN General Assembly, A/70/361, 2015. https://www.ohchr.org/en/calls-for-input/report-protection-sources-and-whistleblowers

[35] Guya v. Moldova. Application No. 14277/04, 12.02.2008. https://hudoc.echr.coe.int/eng#{%22itemid%22:[%22003-2266532-2424493%22]}

Dördüncüsü, zərər və fayda balansı gözlənilməlidir. Açıqlamanın dövlət qurumuna vurduğu zərər və ictimaiyyətin bu açıqlamadan əldə edə biləcəyi faydanın əhəmiyyəti müəyyən edilməlidir. Bu kontekstdə açıqlamanın predmeti və müvafiq inzibati qurumun növü nəzərə alına bilər.

Nəhayət, açıqlama motivi diqqətlə araşdırılmalıdır. Şəxsi kin və ya şikayət əsasında, eləcə də şəxsi mənfəət üçün həyata keçirilən ifadə azadlığı baxımından, müdafiədən faydalanmır.

Milli təcrübəyə nəzər salsaq, "whistleblowing" sözü "informator" kimi tərcümə oluna bilər. Milli qanunvericilikdə informator anlayışı ilə bağlı heç bir norma nəzərdə tutulmamışdır. Lakin "Media haqqında" Azərbaycan Respublikası Qanununun 15-ci maddəsinə əsasən, media subyekti və jurnalist tərəfindən şəxsin gizli saxlanmaq şərtilə verdiyi informasiyanın proqram və materiallarda yayılmasına yol verilmir.

Onlayn ifadə azadlığının əhatə dairəsi ilə bağlı vurğulanmalı olan əsas problemlərdən biri internet əlyetərliyinin ifadə azadlığı çərçivəsində hüquq olub-olmamasıdır. Çünki Estoniya, Fransa, Kosta-Rika, Finlandiya, Malta, İsveçrə, Kanada və s. dövlətlərdə internetə çıxış fərqli texniki xüsusiyyətlərə malik olsa da, hər bir şəxs üçün bir müstəqil hüquq kimi müəyyən edilmişdir. Çünki əksər hallarda onlayn ifadə azadlığının məhdudlaşdırılması internetə çıxışın məhdudlaşdırılması və ya qadağan edilməsi ilə müşahidə edilir. Bu ikitərəfli ola bilər. Bir tərəfdən, hüquq pozduğu güman edilən sosial media vasitəsinə çıxışa məhdudiyyət qoyulmasıdırsa, digər tərəfdən, şəxslərin internet xidmətlərindən istifadə imkanlarına məhdudiyyətlərin müəyyən edilməsidir. Birinci hal üçün 2006-cı ildə yaradılmış WikiLeaks saytını misal göstərə bilərik. Əksər dövlətlər, o cümlədən Türkiyə Cümhuriyyəti ictimai maraqlara zidd olan zərərli məzmun yaratması və paylaşması səbəbilə bu sayta girişi bloklamışdır.

Milli səviyyədə də məhdudiyyətlər tətbiq oluna bilər. Fikrimizcə, Azərbaycan qanunvericiliyi məsələyə daha konkret münasibət bildirmişdir. "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikası Qanununda sadalanan yayılması qadağan edilən informasiyanın yerləşdirilməsinə yol verilmir (maddə 13-1). Bu, ifadə azadlığına dair məhdudiyyət kimi qiymətləndirilə bilməz. Əslində, qanunverici öz mövqeyini açıq-aydın ifadə edir: İlkin olaraq, yayılması qadağan edilən informasiyanın aradan qaldırılması tələb olunur, əgər buna əməl olunmazsa, internet informasiya ehtiyatına müraciət məhdudlaşdırılır. İnternet informasiya ehtiyatı isə müraciət edilməsi üçün domen adına və sahibi tərəfindən müəyyənləşdirilmiş digər işarələnməyə malik olan informasiya ehtiyatı hesab olunduğu üçün deməli, müraciətin məhdudlaşdırılması bütün informasiya ehtiyatına şamil edilir. Bundan başqa, qanunverici məhdudiyyətlərin müəyyən olunması səlahiyyətini məhkəmə orqanlarına vermişdir ki, məhkəmə qərarı olmadan heç bir dövlət orqanı hər hansı bir internet ehtiyatının fəaliyyətinə məhdudiyyət qoya bilməz.

Yuxarıda qeyd etdiyimiz kimi, onlayn ifadə azadlığının təminatında əvəzsiz rolu olan internet əlyetərliyi hüququnun müstəqil bir hüquq sayılması dövrün aktual problemlərindəndir. BMT-nin Baş Katibi Antonio Quterreş 2021-ci ildəki Hesabatında davamlı inkişaf məqsədlərinə nail olmaq üçün tələb olunan qlobal səyləri vurğulayarkən, digər problem sahələri arasında internetə universal çıxışın zəruriliyini xüsusi olaraq qeyd etmişdir: "İndi hökumətlər, xalqlar və cəmiyyətlər arasında sosial müqaviləni yeniləməyin vaxtıdır. Bu müqavilə 2030-cu ilə qədər universal sosial müdafiə, səhiyyə təminatı, təhsil, bacarıqlar,

layiqli iş və mənzil, eləcə də internetə universal çıxışın yeni dövrünü açmaq üçün yenilənmiş idarəetmə mexanizmlərini əhatə etməlidir”.[36]

İnternetə çıxışın insan hüququ kimi qəbul edilməsi BMT-nin 2016-cı ildə “informasiyanın onlayn əldə edilməsinin və ya yayılmasının qəsdən qarşısını almaq və ya pozmaq məqsədilə tədbirlər beynəlxalq insan hüquqları hüququnu pozur”[37] bəyanatından sonra baş verdi. Müxtəlif mənbələrdə “internet azadlığı”, internet əlyetərliyi”, “internetə olan hüquq”, “internetə çıxış hüququ” və s. bu kimi adlar altında şərh olunan internet əlyetərliyi onlayn ifadə azadlığının təminatında mühüm əhəmiyyət kəsb edir. Təəssüf hissi ilə qeyd etməliyik ki, Azərbaycan təcrübəsi üçün bu hüququn təmin olunma səviyyəsi o qədər də ürəkaçan deyil. Konstitusion qaydada internet əlyetərliyi elan olunmur. “Telekommunikasiya haqqında” Qanunda operatoru və ya provayderi sərbəst seçmək hüququ təsbit olunsa da, vətəndaşların daha keyfiyyətli internet xidməti təqdim edən subyektlərə çatımlılığında texniki və təşkilati məhdudiyyətlər mövcuddur. Belə ki, şəxs yalnız yaşayış yeri üzrə texniki baxımdan əlçatan olan internet xidmətindən istifadə edə bilir. Bu isə internet əlyetərliyinin tam təmin olunmadığının göstəricisidir.

Ümumiyyətlə, onlayn ifadə azadlığına dair məhdudiyyətlərin müəyyən olunması da offlayn azadlıq üçün nəzərdə tutulmuş üçlü testdən keçməlidir. Xüsusilə, ikinci şərtlə – legitim maraqlara yönəlməsi ilə bağlı onlayn məzmuna məhdudiyyətlər tətbiq edilir. Təsadüfi deyil ki, çox vaxt sosial media terrorçu, ekstremist, radikal qruplar tərəfindən istifadə edilir və internetdə mütəşəkkil terrorçuluğun 90%-i sosial media ilə həyata keçirilir.[38] Hətta, belə maraqlara qəsd edən müxtəlif saytlara da girişin bloklanması faktları vardır. Məsələn, Türkiyənin Vikipediyaya girişi məhdudlaşdırmasını məhz legitim maraqlar aspektindən əsaslandırmaq mümkündür.

**1.4. Nəticə**

XX əsrin əvvəllərindən etibarən İnternet adlı kommunikasiya platforması ifadə azadlığından istifadə üçün mühüm və əvəzedilməz vasitəyə çevrilmişdir. Bu da ənənəvi qaydada realizə olunan ifadə azadlığına onlayn formanın da əlavə edilməsinə gətirib çıxarmışdır. Onlayn ifadə azadlığının hüquqi tənzimlənməsi mövcud beynəlxalq və dövlətdaxili mənbələrlə mümkün olsa da, yeni dövrə xas olan problemlər bir sıra çətinliklər və ziddiyyətlər yaradır. Bir çox dövlətlər kimi Azərbaycanda da internet əlyetərliyi hüququnun bəyan olunmaması, onun realizəsi üçün təminat mexanizmlərinin olmaması sosial mediada ifadə azadlığının təminatı üçün də bəzi maneələr yaradır.

Başqa bir problem onlayn ifadə azadlığına qoyulan məhdudiyyətlərlə əlaqədar meydana çıxır. Avropa Məhkəməsinin müəyyən etdiyi şərtlər, xüsusilə də legitim maraqların müdafiəsi çərçivəsində məhdudiyyətlərin tətbiqi əksər hallarda milli səviyyədə həyata keçirilir. Bu halda ölkə xaricində həmin qadağan olunmuş məzmuna daxil olma və məlumatın başqa sosial media vasitələri ilə ötürülüməsi faktları da az deyil. Bu baxımdan, hesab edirik ki, sosial mediada ifadə azadlığı kontekstində anonimliyin qəbul edilməsi şərtləri və qaydaları daha da sərtləşdirilməlidir.

Respublikamızda “Media haqqında” Qanunun qəbulu onlayn (sosial) media ilə bağlı bir çox məsələləri tənzimləsə də, bütün dünyada istifadə olunan platformalar (Facebook,

---

[36] Report of THE Secretary-General. https://www.un.org/en/content/common-agenda-report/assets/pdf/Common_Agenda_Report_English.pdf

[37] Government Policy for the Internet Must Be Rights-Based and User-Centred. https://www.un.org/en/chronicle/article/government-policy-internet-must-be-rights-based-and-user-centred

[38] Yadigar İmamverdiyev. Sosial media və təhlükəsizlik problemləri // İnformasiya təhlükəsizliyinin multidissiplinar problemləri üzrə II respublika elmi-praktiki konfransı, 14 may 2015-ci il, s. 189. S.189-192.

İnstagram və s.) üzrə onlayn ifadə azadlığının realizəsi üzrə məsələlər tənzimlənməmiş qalır. Bu baxımdan, informasiya sahəsində mövcud qanunvericilik normalarının dövrün tələblərinə uyğun yenidən işlənməsi məqsədəmüvafiqdir.

**İstifadə olunmuş ədəbiyyat siyahısı**


1. Əliyev Ə.İ. İnsan hüquqlarının beynəlxalq-hüquqi müdafiəsi: Dərslik. Bakı, 2009, 490 s.

2. Əliyev Z.H. Avropa İnsan Hüquqları Məhkəməsi. Dərs vəsaiti. Bakı: AZSEA nəşriyyatı, 2012, 232 s.

3. Yadigar İmamverdiyev. Sosial media və təhlükəsizlik problemləri // İnformasiya təhlükəsizliyinin multidissiplinar problemləri üzrə II respublika elmi-praktiki konfransı, 14 may 2015-ci il, s. 189-192

4. Arap Baharı Nedir, Nasıl Başladı? Arap Baharının Nedenleri Ve Etkileti Nelerdir? https://www.hurriyet.com.tr/egitim/arap-bahari-nedir-nasil-basladi-arap-baharinin-nedenleri-ve-etkileti-nelerdir-41828980

5. Durmuş Tezcan, Mustafa Ruhan Erdem, Rıfat Murat Önok, Oğuz Sancakdar. İnsan Hakları El Kitabı. Ankara: Seçkin Yayıncılık, 9.Baskı, 2021, 1136 s.

6. Gezi Parkı davası: İktidar ve muhalefet, kararın siyasi ve hukuki sonuçlarını nasıl yorumlanıyor? https://www.bbc.com/turkce/haberler-turkiye-61237460

7. Gülhan Gezer. Sosyal medya özgürlüğü ve masumiyet karinesi ikilemi. İzmir, 2022, 133 s.

8. İhsan Dağı, Metin Toprak. Türkiye'de İnsan Hakları Ve İfade Özgürlüğü // Liberal Düşünce Topluluğu, Ankara, 2003, s. 8-16

9. Özdemir, S.S., Özdemir, M., Polat, E., Aksoy, R. Sosyal Medya Kavramı ve Sosyal Ağ Sitelerinde Yer Alan Online Reklam Uygulamalarının İncelenmesi // Electronic Journal of Vocational Collages, 2014, No. 4 (4), s. 58-64

10. Şen, A.F. ve Şen, Y.F. Sosyal Medya, İletişim Hakkı ve İfade Özgürlüğü Üzerine Bir Değerlendirme // İktisadi ve İdari Bilimler Fakültesi Dergisi, 2015, S. 17 (2), s. 122-136

11. Amanda Holpuch. Facebook adjusts controversial 'real name' policy in wake of criticism, Guardian, 2015. https://goo.gl/cjUju9

12. Azerbaijan: Freedom on the Net 2022 Country Report.
https://freedomhouse.org/country/azerbaijan/freedom-net/2022

13. Berry D. "Social Media Spaces". 1995. http://www.ku24.com/~darrell/hybrid1.html

14. Chesa Boudin. Publius and the Petition: Doe v. Reed and the History of Anonymous Speech // Yale Law Journal, Vol. 120, No. 8, pp. 2140-2181

15. DIGITAL 2021: GLOBAL OVERVIEW REPORT.
https://datareportal.com/reports/digital-2022-global-overview-report

16. DIGITAL 2022: GLOBAL OVERVIEW REPORT.
https://datareportal.com/reports/digital-2022-global-overview-report

17. Freedom of expression in Europe: Case-law concerning Article 10 of the European Convention on Human Rights. Council of Europe Publishing, March 2007, p. 8-9.

18. Government Policy for the Internet Must Be Rights-Based and User-Centred. https://www.un.org/en/chronicle/article/government-policy-internet-must-be-rights-based-and-user-centred

19. Laurens Lavrysen. Chapter 4: System of Restriction: Theory and Practice of the European Convention on Human Rights. Cambridge: Intersentia, 2018, 1230 p.

20. Recommendation CM/Rec(2011)7 on a new notion of media, 2013. https://edoc.coe.int/en/media/8019-recommendation-cmrec20117-on-a-new-notion-of-media.html

21. Report of THE Secretary-General. https://www.un.org/en/content/common-agenda-report/assets/pdf/Common_Agenda_Report_English.pdf

22. Report of the Special Rapporteur on the promotion and protection of the right to freedom of opinion and expression, On the protection of sources and whistleblowers, UN General Assembly, A/70/361, 2015. https://www.ohchr.org/en/calls-for-input/report-protection-sources-and-whistleblowers

23. Sandra Coliver. The article 19 – Freedom of expression Handbook: International and Comparative Law, Standards and Procedures. August 1993, 285 p.

24. The Human Rights Council. The promotion, protection and enjoyment of human rights on the Internet. https://www.article19.org/data/files/Internet_Statement_Adopted.pdf

25. Toby Mendel. Freedom of Expression: A Guide to the Interpretation and Meaning of Article 10 of the European Convention on Human Rights. Council of Europe, 2012, 91 p.

**Avropa Məhkəməsinin təcrübəsi:**

1. Chauvy and others v. France. Application no. 64915/01, 29.06.2004.
https://hudoc.echr.coe.int/fre#{%22itemid%22:[%22001-61861%22]}

2. Delfi v. Estonia. Application No. 64569/09, 10.10.2013.
https://hudoc.echr.coe.int/fre#{%22itemid%22:[%22002-8960%22]}

3. Guya v. Moldova. Application No. 14277/04, 12.02.2008.
https://hudoc.echr.coe.int/eng#{%22itemid%22:[%22003-2266532-2424493%22]}

4. Handyside v United Kingdom. Application No. 5493/72, 07.12.1976. https://legallibrary.crin.org/handyside-v-the-united-kingdom/

5. Müller v. Switzerland. Application No.10737/84, 24.05.1988. https://globalfreedomofexpression.columbia.edu/cases/muller-v-switzerland/

6. Surek v. Turkey. Application No. 26682/95, 08.07.1999.
https://hudoc.echr.coe.int/eng#{%22itemid%22:[%22001- 141273%22]}

7. The Sunday Times v. v. United Kingdom. Application No. 6538/74, 26.04.1979. https://globalfreedomofexpression.columbia.edu/cases/the-sunday-times-v-united-kingdom/#:~:text=Case%20Summary%20and%20Outcome,violated%20its%20freedom%20of%20expression

## XÜLASƏ

Rəqəmsal cəmiyyətin formalaşması, internetin cəmiyyət həyatının ayrılmaz hissəsinə çevrilməsi bir çox hüquq və azadlıqlar kimi ifadə azadlığının da onlayn mühitdə realizəsinə zəmin yaratmışdır. Beynəlxalq və dövlətdaxili hüquqda onlayn media sferasının hüquqi tənzimlənməsi zamanı Avropa İnsan Hüquqları Məhkəməsinin müəyyən etdiyi şərtlər rəhbər tutulur. Lakin onlayn ifadə azadlığına dair məhdudiyyətlərin tətbiqi zamanı çoxsaylı təcrübi problemlər ortaya çıxır. Məqalədə bu kimi problemlər həm hüquqi, həm də təcrübi baxımdan şərh olunmuş, təklif və tövsiyələr irəli sürülmüşdür.

**Заур Алиев**
**декан юридического факультета**
**Бакинского Государственного Университета,**
**доцент, д.ф.п.п.**

**Гульназ Рзаева**
**преподаватель кафедры ЮНЕСКО**
**по правам человека и информационному праву**
**Бакинского Государственного Университета,**
**д.ф.п.п.**

## Ограничения свободы слова в интернет-СМИ: сравнительно-правовой анализ национальной практики и решений Европейского суда по правам человека

### РЕЗЮМЕ

Формирование цифрового общества и превращение Интернета в неотъемлемую часть общественной жизни создали основу для реализации свободы слова в онлайн-среде, а также многих прав и свобод. При правовом регулировании сферы интернет-СМИ в международном и внутригосударственном праве руководствуются условиями, установленными Европейским судом по правам человека. Однако при применении ограничений на свободу выражения мнений в Интернете возникает много практических проблем. В статье такие проблемы трактуются как с правовой, так и с практической точек зрения, выдвигаются предложения и рекомендации.

**Zaur Aliyev**
**Dean of the Faculty of Law of the Baku State University,**
**Associate Professor, Doctor of Philosophy in Law**

**Gulnaz Rzayeva**
**lecturer at the UNESCO department**
**of Human rights and Information Law,**
**Doctor of Philosophy in Law**

## Restrictions on freedom of expression in online media: a comparative-legal analysis of national practice with judgments of the European Court of Human Rights

### ABSTRACT

The formation of the digital society and the transformation of the Internet into an integral part of social life have created the basis for the realization of freedom of expression in the online environment, as well as many rights and freedoms. During the legal regulation of the online media sphere in international and domestic law, the conditions determined by the European Court of Human Rights are guided. However, many practical problems arise when applying restrictions on online freedom of expression. In the article, such problems are interpreted from both legal and practical points of view, suggestions and recommendations are put forward.

***Ильхам АЛИЕВ***

Правовой исследователь Отдела правовых исследований
Института Права и Прав Человека, д.ф.п.п.

# СУДЕБНАЯ ВЛАСТЬ И ОСУЩЕСТВЛЕНИЕ ПРАВОСУДИЯ

***Açar sözlər:*** *sosial münaqişələr, dövlət, hüquqi mübahisələr, nəzarət, Konstitusiyanın şərhi, cəmiyyət, məhkəmələrin fəaliyyəti*

***Ключевые слова:*** *социальные конфликты, государство, правовые споры, контроль, толкование Конституции, общество, деятельность судов*

***Keywords:*** *social conflicts, state, legal disputes, control, interpretation of the Constitution, society, activity of courts*

Обращая внимание на роль судебной власти в системе разделения властей, в выполнении ею задачи обеспечения системы сдержек и противовесов, справедливо подчеркивается, что судебная власть характеризуется не столько правосудием в традиционном смысле, сколько способностью (юридическими возможностями) оказывать активное влияние на решения и действия законодательной власти, уравновешивать их (1, 28-39).

Уместно было бы более конкретно остановиться на некоторых функциях судебной власти и отметить то, что в отличие от других ветвей власти судебная власть осуществляется всеми судами, входящими в судебную систему. При этом, важнейшей из указанных функций является, функция разрешения социальных конфликтов.

Несомненно, что в каждом обществе существуют определенные стандарты поведения, т.е. нормы морального и правового характера, которыми руководствуются люди. Отклонение от этих норм, особенно массовые, способны причинить обществу серьезный урон, вплоть до полного его распада. Поэтому отклоняющееся поведение в любом обществе осуждается и наказывается(2,8-9). С этой целью государство создает специальные органы – суды, на которые возлагается задача разрешения конфликтов между человеком, игнорирующим социальные стандарты, и обществом. Кроме того, у каждого члена общества имеются свои интересы, которые с интересами других членов общества могут входить в противоречие. И тут суду приходится решать, чьи интересы основаны на тех нормах, которые признаются в этом обществе. К судам примыкают правоохранительные органы, представляющие суду информацию о совершенном правонарушении, и органы исполнения наказания и восстановления правопорядка, реализующие штрафные и право-восстановительные санкции, содержащиеся в приговорах и решениях судов. Конфликт между человеком и могущественной властью должен решать независимый орган – суд, руководствуясь презумпцией невиновности предполагаемого нарушителя (в уголовном процессе) и презумпцией добропорядочности ответчика (в гражданском процессе).

Суд разрешает не любые социальные конфликты. Есть сфера частной, интимной жизни граждан, сфера дружеского общения и доверия, где конфликты решаются на основе только этических, моральных представлений, а не судебных предписаний.

Следовательно, судебная власть предназначена для разрешения не любых, а лишь юридически опосредованных социальных конфликтов, прямо обозначенных в законе. На процессуальном уровне предполагаемый конфликт лица с уголовным законом принимает форму противостояния (состязания) обвинения и защиты. К уголовно-правовым относятся также конфликты между лицами, совершившими деяние в состоянии невменяемости или заболевшими душевной болезнью после совершения преступления, и уголовным законом. То же самое следует сказать о конфликтах с законом лиц, совершающих административные правонарушения, в случаях, когда дела о них отнесены к компетенции судов. В принципе суды влияют на разрешение такого рода конфликтов и когда они разрешаются административными органами, поскольку заинтересованные лица вправе обжаловать постановления этих органов в суде (статья 60 Конституции Азербайджанской Республики). Граждане Азербайджанской Республики, иностранцы, лица без гражданства или с двойным гражданством, а также юридические лица – азербайджанские или иностранные, вступают между собой в многочисленные правоотношения, которые возникают, изменяются и прекращаются в процессе их деятельности. Как правило, добровольно и без промедления выполняют свои обязанности в правоотношениях, и поэтому обладатели субъективного права чаще всего не обращаются к государству за содействием в его реализации. Но в случаях, когда обязанность в правоотношении не выполняется, возникает конфликт, разрешаемый судом. В порядке гражданского судопроизводства рассматриваются споры, возникающие из гражданских, семейных, трудовых и иных правоотношений.

Местным коммерческим судам Азербайджанской Республики подведомственны дела об экономических спорах, возникающих из гражданских и иных правоотношений между любыми субъектами права (юридическими лицами, гражданами, осуществляющими индивидуальную предпринимательскую деятельность).

Разрешению правовых споров служит и деятельность Конституционного Суда Азербайджанской Республики.

В отношении Конституционного Суда в литературе высказано ошибочное мнение, что он «не осуществляет конституционное правосудие» и является органом конституционного контроля (3, 109;124). Деятельность Конституционного Суда по своему характеру является юрисдикционной, она осуществляется в судебно-процессуальной форме, направлена на разрешение социально-правовых конфликтов. По изменениям, принятым на всенародном голосовании (референдуме) 24 августа 2002 года, а также по новому Закону «О Конституционном Суде Азербайджанской Республики» от 23 декабря 2003 года, за гражданами Азербайджанской Республики предусматривается право на обжалование в Конституционный Суд нормативных актов органов законодательной и исполнительной власти, актов муниципалитетов и судов, нарушающих их права и свободы (часть V статьи 130 Конституции Азербайджанской Республики) (4). В данном случае, а также в случае обращения в Конституционный Суд тех или иных государственных органов, Суд рассматривает дела по особой процедуре на основании принципов состязательности, что и дает основание для утверждения, что Конституционный Суд осуществляет правосудие.

В статье 1 Закона «О Конституционном Суде» говорится, что Конституционный Суд Азербайджанской Республики является высшим органом конституционного правосудия, по делам, относящимся к его ведению (5).

Даже, можно сказать, что и при толковании Конституции разрешается латентно присутствующий конфликт между лицами и органами, по-разному понимающими те или иные положения Конституции и именно по этому поводу обратившимися за разъ-

яснениями в Конституционный Суд. А при обращении в Конституционный Суд в связи с несоответствием закона Конституции, имеет место конфликт между Конституцией и законом.

Кроме того, к социальным конфликтам можно отнести также отнесенные к компетенции Конституционного Суда рассмотрение вопросов о разграничении полномочий между ветвями власти (пункт 8, части III статьи 130 Конституции Азербайджанской Республики), вопросы, связанные с импичментом Президента и т.д.

В некоторых случаях суды не разрешают социальные конфликты, а предупреждают их путем установления юридически значимых фактов и состояний, влияющих на реализацию прав физических и юридических лиц. Суд по заявлению заинтересованных лиц вправе устанавливать факты родственных отношений, нахождения лица на иждивении, брака, развода, состояния в фактических брачных отношениях, принадлежности правоустанавливающих документов и т.д. Кроме того, в порядке особого производства, суд вправе признать гражданина безвестно отсутствующим, умершим, недееспособным или ограниченно дееспособным, принять решение об усыновлении (удочерении) ребенка и др. В делах этой категории, безусловно, нет спора, а следовательно, нет и сторон. Например, статьи 40 и 41 Гражданского Кодекса Азербайджанской Республики, в которых говорится об установлении судами соответствующих фактов и объявлении гражданина безвестно отсутствующим или умершим. Данные полномочия имеются лишь только у суда, и ни у какого другого органа государственной власти (6).

К этому ряду можно отнести и полномочия Конституционного Суда по выяснению и установлению факта утраты Президента Азербайджанской Республики по состоянию здоровья способности исполнять свои обязанности (часть III статьи 104 Конституции Азербайджанской Республики), а также удостоверения факта личной подачи Президентом заявления об уходе в отставку (часть II статьи 104 Конституции АР). Конституционный Суд Азербайджанской Республики проверяет и утверждает правильность результатов выборов в Милли Меджлис (статья 86), объявляет итоги выборов Президента страны (статья 102), принимает присягу Президента при вступлении его на должность (статья 103) (4).

Изложенное подтверждает мнение о том, что задача (функция) судебной власти – не только разрешение социальных конфликтов, но и удостоверение фактов, имеющих юридическое значение.

Теоретическое исследование судебной власти, включая вопрос о ее наличии или отсутствии, затрудняется необходимостью избежать отожествления этой ветви власти с судебной системой.

Дело в том, что на эмпирическом уровне в государственно-организованном обществе судебная власть предстает в виде системы органов ее осуществляющих, в частности, разрешающих юридически значимые споры (т.е. споры, которые могут быть разрешены на основе государственно-признаваемых правил) и официально санкционирующих возможность применения государственного насилия.

Такого рода органы существовали и существуют в любой из форм организации государственной власти. Поэтому само по себе наличие судов, а также тех или иных правил разрешения возникающих в обществе конфликтов еще не свидетельствует о наличии феномена судебной власти. Другими словами, система судебных органов и судебная власть – понятия не тождественные.

Судебная власть не возможна без органов судебной системы, однако наличие системы судебных органов еще не говорит о том, что в данном государстве есть

независимая судебная власть. Создатели теории разделения властей придавали суду первостепенное и совершенно самостоятельное значение в обеспечении законности, справедливости и свободы при условии, что судебная власть не будет зависеть от других властей. Поэтому самостоятельность и независимость судебной власти нужна не для того, чтобы стать неконтролируемой и неуправляемой, не для самоутверждения судебного корпуса и его элитности, а для обеспечения реальной возможности пресечь произвол других властей и защитить права и свободы, как отдельных граждан, так и их объедений и общества в целом.

Судебной властью реализуются властные полномочия в форме осуществления правосудия. Судебная власть в Азербайджанской Республике, по Конституции Азербайджанской Республики осуществляется посредством конституционного, гражданского и уголовного судопроизводства и других форм, предусмотренных законом (ст. 125).

Конечно, на всех этапах развития представлений о суде и судебной системе их деятельность атрибутивно связывалась с осуществлением правосудия. Однако отношение к этому специфическому виду деятельности суда также периодически менялось.

Важнейшим из отличительных признаков судебной власти является ее отправление (осуществление) по специальной процедуре. В таком виде ритуал не свойствен ни законодательной, ни исполнительной властям, судебная же власть, наоборот, вне детальной процедуры осуществлению не подлежит ни при каких обстоятельствах. В целом же, с точки зрения авторов «классического» учебника советского времени, правосудие есть особый вид применения закона судом (8, 15) В самом общем виде, эти же авторы определяли правосудие как «одну из форм государственной деятельности, имеющую своим содержанием применение права, т.е. правоприменительную и юрисдикционную деятельность» (8, 13).

В литературе имеется и более широкое определение правосудия, включающее ее организационно-правовые принципы: «Правосудие – осуществляемая судом правоохранительная деятельность по рассмотрению и разрешению гражданских и уголовных дел при неуклонном соблюдении требований закона и установления им порядка, обеспечивающих законность, обоснованность, справедливость и общеобязательность судебных решений» (9, 36).

Конечно, это понятие не может претендовать на универсальное, ибо несмотря на широкое включение организационно-правовых принципов, без внимания оставлены ее функции, цели и задачи. Так, автором не указываются деятельность по рассмотрению административных дел, конституционно-правового контроля и т.д.

Кроме того, отметим, что суд не входит в систему правоохранительных органов, не является органом борьбы с преступностью и не отвечает за ее состояние. Недопустимо включение представителей органов судебной власти в разные комитеты и комиссии по борьбе с преступностью (такая практика до недавнего времени существовала), где роль координатора играет прокуратура. Будучи введенными в такие межведомственные структуры, суды нередко принуждались к усилению уголовной репрессии, снижению стандартов доказанности обвинения, искоренению оправдательных приговоров и направлению уголовных дел для дополнительного расследования, вместо оправдания подсудимых. В то же время было бы неверно утверждать, что суд не имеет никакого отношения к сдерживанию преступности. Ведь осуждение преступников и назначение наказания невозможно без суда. Судебная власть контролирует работу правоохранительных органов, оценивает их выводы и только таким образом участвует в сдерживании преступности. Правосудие, являясь видом государственной деятельности, состоящей в рассмотрении, разрешении различного рода

конфликтов, связанных с нарушением правовых норм, имеет ряд специфических признаков: во-первых, правосудие осуществляется специальными государственными органами – только судами и от имени государства; во-вторых, методом рассмотрения в судебных заседаниях гражданских, уголовных и иных дел; в-третьих, в установленной законом процессуальной форме; в-четвертых, путем вынесения общеобязательных, имеющих силу закона решений..

Ни один судья вне рамок конкретного, порученного ему и принятого им к своему производству дела, единолично ли, в составе ли коллегии, не имеет никаких властных правомочий ни по отношению к физическому, ни по отношению к юридическому лицу (9, 39).

То есть, осуществление правосудия четко регламентировано законом. Таковыми законодательными актами являются различные процессуальные кодексы. Конституционное правосудие осуществляется на основе Закона Азербайджанской Республики «О Конституционном Суде Азербайджанской Республики».

Судебные заседания проходят под Государственным флагом (Закон «О Государственном флаге Азербайджанской Республики» от 2004 года) и изображением герба Азербайджанской Республики (Закон «Об официальной эмблеме правосудия» от 22 июня 1999 года), а судьи одеваются в мантии (Закон «О специальной одежде судей» от 22 июня 1999 года). Данные вопросы нашли отражение и в Законе Азербайджанской Республики «О судах и судьях» (статья 6) (10).

В подобных правилах, которые неспециалисту могут показаться излишне формализованными и без нужды чопорными, спрессован тысячелетний опыт человечества по поиску истины в подобных, зачастую остроконфликтных и запутанных делах-спорах.

В результате, все процессуальные правила направлены на установление истины и принятия законного, обоснованного и справедливого решения по существу, по рассматриваемому делу (11, 109).

Важнейший признак судебной власти – осуществление правосудия только судами. Судебная власть в Азербайджанской Республике осуществляют посредством правосудия только суды (ст.125 Конституции Азербайджанской Республики).

Статья 3 Закона Азербайджанской Республики «О судах и судьях» говорит о том, что деятельность судов Азербайджанской Республики направлена только на осуществление правосудия и в установленных законодательством случаях и порядке – судебного надзора (10).

Как уже отмечалось, судебная власть в Азербайджанской Республике осуществляется только судами. Предоставление Президенту Азербайджанской Республики право на помилование (пункт 22 статьи 109 Конституции) нельзя истолковывать как право на отправление правосудия, а только лишь правом на прощение того, над кем законное правосудие уже свершилось.

Как следующий важный признак осуществления правосудия (или судебной власти) можно выделить особое положение суда в механизме государства, включая особый порядок его создания и управления. Т.е., суды (судебные органы) создаются и упраздняются в особом порядке, а именно – непосредственно Конституцией (в основном это касается высших судебных органов) или же законом. При этом никакой суд не может быть упразднен или же изменены его полномочия. Часть VI статьи 125 Конституции Азербайджанской Республики, гласит, что применение не предусмотренных правовых средств в целях изменения полномочий судов и создание чрезвычайных судов запрещается, и в перспективе изменение этого принципа не допускается.

Еще один существенный признак судебной власти – это общеобязательность и высшая юридическая сила судебных решений, обеспеченность их неукоснительного исполнения специальной системой мер государственного принуждения.

Итоговые судебные решения по рассмотренным делам принимаются и провозглашаются от имени государства – Азербайджанской Республики. Применительно к конкретному правоотношению, получившему судебное разрешение, имеют силу закона (закон, приложенный к конкретному случаю) (9, 40). Статья 129 Конституции Азербайджанской Республики гласит о том, что суды выносят решение от имени государства, исполнение которых обязательно.

Вступившие в законную силу решения судов и судей, а также их законные распоряжения, требования, поручения, вызовы и другие обращения являются обязательными для всех без исключения органов государственной власти и должностных лиц, органов местного самоуправления, общественных объединений, физических и юридических лиц и подлежат неукоснительному исполнению на всей территории Азербайджанской Республики. Это исполнение обеспечивается целой системой правовых норм и специальных органов, управомоченных в этих целях на применение мер государственного принуждения, вплоть до самых жестких (наложение ареста на имущество, заключение под стражу и т.п.), а неисполнение судебных решений влечет законную ответственность, вплоть до уголовной.

## Список использованной литературы

1. Савицкий В.М. Организация судебной власти в Российской Федерации. Москва: Изд-во МИЭПП, 1996. – 218 с.

2. Кудрявцев В.Н. Правовое поведение: норма и патология, Москва: Наука, 1982. – 287 с.

3. Ржевский В.А., Чепурнова Н.М. Судебная власть в Российской Федерации. Конституционные основы организации и деятельности. Москва: Юрист, 1998. – 216 с.

4. Azərbaycan Respublikasının Konstitusiyası// 12 noyabr 1995-ci ildə qəbuledilmisʝdir (2002-cıil 24 avqust, 2009-cu il martın 18-də, 2016-cı il sentyabrın 26-da tarixində olandəyisʝklikvə əlavələrlə) – Вакı: Qanun, 2018. – 48 s.

5. Закон Азербайджанской Республики «О Конституционном Суде» от 23 декабря 2003 года. https://constcourt.gov.az/ru/legislation/30

6. Гражданский Кодекс Азербайджанской Республики от 28 декабря 1999 года. https://continent-online.com/Document/?doc_id=30420111#pos=139;-28

7. Суд и правосудие в СССР / Под. ред. Б.А. Галкина. Москва: Юрид, лит., 1981. – 320 с.

8. Правоохранительные органы / Под. ред. К.Ф. Гуценко. Москва: Зерцало, 2010. – 496 с.

9. Безлепкин Б.Т. Судебная система, правоохранительные органы и адвокатура России. Москва: Юристъ, 2001. – 349

10. “Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikasının 10 iyun 1997-ci il tarixli qanunu. (19 may 2020-ci il tarixə qədər edilmiş dəyişiklik və əlavələrlə) /http://www.e-qanun.az/framework/21210

11. Гасымов Ф.З. Судебная власть, ее специфические черты // Известия Академии Наук Азербайджана. Серия история, философия и право. 1999., №2

## Р Е З Ю М Е

В данной статье обсуждается одна из важнейших функций судебной власти, которой является функция разрешения социальных конфликтов. Автор рассматривает реализуемые судебной властью властные полномочия в форме осуществления правосудия. Указывается также на данное в юридической литературе определение правосудия, включающее ее организационно-правовые принципы. Делается утверждение, что разрешению правовых споров служит и деятельность Конституционного Суда Азербайджанской Республики. Фактически при толковании Конституции разрешается латентно присутствующий конфликт между лицами и органами, по-разному понимающими те или иные положения Конституции.



**İlham Əliyev**
**Hüquq və İnsan Haqları İnstitutunun**
**Hüquqi tədqiqat şöbəsinin hüquq tədqiqatçısı,**
**h.ü.f.d.**


**Məhkəmə hakimiyyəti və ədalət mühakiməsinin həyata keçirilməsi**


## X Ü L A S Ə

Təqdim edilən məqalədə məhkəmə sisteminin ən mühüm funksiyalarından biri olan, sosial münaqişələrin həlli funksiyasından bəhs edilir. Müəllif ədalət mühakiməsinin həyata keçirilməsi formasında məhkəmə hakimiyyətinin həyata keçirdiyi səlahiyyətləri nəzərdən keçirir. O, həmçinin hüquqi ədəbiyyatda ədalət mühakiməsinin tərifinə, o cümlədən onun təşkilati və hüquqi prinsiplərinə işarə edir. İddia olunur ki, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin fəaliyyəti həm də hüquqi mübahisələrin həllinə xidmət edir. Faktiki olaraq Konstitusiyanın şərhi zamanı Konstitusiyanın müəyyən müddəalarını müxtəlif cür dərk edən şəxslər və orqanlar arasında gizli şəkildə olan konflikt həll olunur.



**Ilham Aliyev**
**Legal researcher of the Legal Research Department of**
**the Institute of Law and Human Rights,**
**PhD in Law**


**Judicial power and administration of justice**


## S U M M A R Y

This article discusses one of the most important functions of the judiciary, which is the function of resolving social conflicts. The author considers the powers exercised by the judiciary in the form of the administration of justice. It also points to the definition of justice given in the legal literature, including its organizational and legal principles. It is asserted that the activities of the Constitutional Court of the Republic of Azerbaijan also serve to resolve legal disputes. In fact, when interpreting the Constitution, a latent conflict between persons and bodies that understand certain provisions of the Constitution in different ways is resolved.

***Zamiq ASLANOV***

Hüquq və İnsan Haqları İnstitutunun
Hüquqi tədqiqat şöbəsinin tədqiqatçısı,
h.ü.f.d., dosent

# ANTİK DÖVRDƏ VƏ ORTA ƏSRLƏRDƏ SAĞLAMLIĞIN QORUNMASI HÜQUQU İLƏ BAĞLI İDEYALARIN FORMALAŞMASI VƏ İNKİŞAFI

***Açar sözlər:*** *sağlamlıq, sağlamlığın qorunması, sağlamlığın qorunması hüququ, tibbi yardım almaq hüququ, sağlamlığın qorunması hüququ ilə bağlı ideyalar, antik dövrdə sağlamlığın qorunması hüququ ilə bağlı ideyaların inkişafı, orta əsrlərdə sağlamlığın qorunması hüququ ilə bağlı ideyaların inkişafı*

***Ключевые слова:*** *здоровье, охрана здоровья, право на охрану здоровья, право на медицинскую помощь, представления о праве на охрану здоровья, развитие представлений о праве на охрану здоровья в древности, развитие представлений о праве на охрану здоровья в средние века*

***Keywords:*** *health, health protection, right to health protection, right to medical care, ideas about the right to health protection, the development of ideas about the right to health protection in antiquity, the development of ideas about the right to health protection in the middle ages*

Digər elm sahələrində olduğu kimi hüquq elmində də tanınan və tətbiq edilən çoxlu sayda metodlar, tədqiqat üsulları fəaliyyət göstərir. Hüquqi və fəlsəfi kateqoriya kimi çıxış edən metod müəyyən məqsədə çatma üsulu, yaxud üsulların məcmusu və ya həqiqətin praktiki və nəzəri dərk edilməsi vasitəsi kimi müəyyən edilir [19, s. 528]. Belə metodlardan biri kimi tarixi yanaşma metodu çıxış edir. Belə ki, hüquq elminin tədqiqat predmetinə daxil olan ictimai təzahürlər sırasında mühüm yerlərdən birini hər hansı hüquqi təzahürün inkişaf tarixinin öyrənilməsi təşkil edir. Hüquqi kateqoriya kimi sağlamlıq və onun qorunması haqqında təsəvvürlərin və qanunvericiliyin öz inkişafını haradan və necə götürdüyünü, onun tarixi köklərini və mənbələrini izləmək, aydınlaşdırmaq və təhlilini aparmaq olduqca zəruridir.

İstənilən tarix (o cümlədən hüququn tarixi) zəmanələrin keçmiş, indiki və gələcək dövrləri arasında müəyyən dərəcədə mənalı əlaqədir [8, s. 7].

İ.D.Kovalenko qeyd edir ki, istənilən nəsil mövcud ictimai münasibətləri əsaslı surətdə dəyişmək iqtidarındadır. Lakin o bunu yalnız tarixi irsə, əvvəlki dövrlərdən miras qalmış maddi və mənəvi potensiala əsaslanaraq edə bilər. Bu, təbii ki, insanların subyektiv fəaliyyəti üçün imkanları məhdudlaşdırır və onların qarşısında tarixi irsi adekvat qiymətləndirmək və öz fəaliyyətlərində ondan rasional istifadə etmək vəzifəsi qoyur. Tarixçilər bu irsin nəyi özündə əks etdirdiyini və ondan nə dərəcədə səmərəli istifadə olunduğunu göstərməlidirlər [12, s. 4].

Nəzəriyyəçi alimlər bütün hüquq elmləri üçün ümumi olan tədqiqat metodlarından biri kimi, məhz tarixi yanaşma metodunu göstərirlər [14, s. 307]. Elmi tədqiqat metodu kimi

tarixi yanaşma hüquq elmlərinin tədqiqində uzun müddətdir ki, müvəffəqiyyətlə istifadə edilən metodlardan biri kimi çıxış edir. Bu və ya digər institutun tədqiqi zamanı tarixi metoddan istifadə edilməməsi həmin tədqiqatın müvəffəqiyyətsizliyinə səbəb ola bilər. Əksinə, hüquqi təsisatın tarixi aspektlərinin öyrənilməsi onun genezisi, meydana çıxmasını əsaslandıran tarixi zərurət və sonrakı inkişaf tarixi barədə aydın təsəvvür yaratmağa imkan verir ki, bu da həmin təsisatın müasir cəmiyyətdə yerini və rolunu aydın dərk etməyə və onun gələcək inkişaf perspektivləri barədə elmi fikirlər irəli sürməyə nəzəri baza yaradır. Tarixi yanaşma metodu baş verən hadisələrin xronoloji ardıcıllığını izləməyə və onların baş vermə səbəblərindəki qanunauyğunluqları aşkara çıxarmağa əsaslanır.

Prof. M.N.Əliyevin fikrincə, müasir dövrdə dövlət və hüququn dərk edilməsinin ümumelmi və xüsusi-elmi metodlarının istifadəsinin zəruriliyi tanındığı halda, tarixi metodun zəruriliyinə münasibətdə müəyyən biganəlik göstərilir. Müəllifin fikrincə, belə yanaşma hüquq sahəsi səviyyəsində metodologiyanın qarşısında konkret məqsədlərə xidmət etmə tələbinin qoyulması ilə şərtlənir və sözsüz ki, bu, düzgün hesab edilə bilməz [4, s. 286].

Hər hansı obyektin, o cümlədən konkret hüquqi kateqoriyanın mahiyyəti o zaman aydın dərk olunur ki, onun yaranması səbəbləri, inkişaf mənbələri, formalaşması yolları məlum olsun.

Səhiyyə sahəsində münasibətlərin hüquqi tənzimetmə mexanizminin müəyyən edilməsi zamanı müasir qanunvericinin üzləşdiyi problem və çətinliklər belə tənzimetmə ilə bağlı tarixi-hüquqi təcrübənin öyrənilərək nəzərə alınmasının zəruri olduğunu göstərir. Hüquqi tənzimetmə üzrə tarixi təcrübə, onun kompleks təhlili müvafiq hüquqi bazanın formalaşdırılması üzrə daha məsuliyyətli və səmərəli yanaşmanın müəyyən edilməsinə şərait yaradır.

Sağlamlığın qorunması hüququ sosial-tarixi kateqoriyadır. Ona görə də onun məzmunu da dəyişmiş və hər bir ayrıca hüquq mədəniyyəti kontekstində tamamlanmışdır. Bütün əsrlərdə cəmiyyəti hər kəsin sağlamlığı üçün məsul etmək məqsədilə müxtəlif cəhdlər edilmişdir. Yaranma və inkişaf fasiləsiz və eyni dərəcəli proseslərdir. Cəmiyyətin obyektiv vəziyyətindən asılı olaraq onlar müəyyən mərhələlərdən keçirlər. Sağlamlığın qorunmasının inkişafı tibbi yardımın dövlət təminatlarının, o cümlədən əlçatanlığı və keyfiyyətinin qanunvericilik təsbiti olmadan qeyri-mümkündür. Bu gün insan və vətəndaş hüquq və azadlıqlarının məzmunu əhəmiyyətli dərəcədə inkişaf etmiş və dərinləşmiş, onların yeni növləri meydana çıxmışdır. Bu proses sağlamlığın qorunması sahəsində də baş vermişdir. Bir çox müasir hüquq və azadlıqların real mənşəyini göstərən tendensiyanın əhəmiyyəti də öz təsdiqini tapır. Çünki onların çoxu, ən ümumi formada olsa belə, başlanğıc etibarilə əvvəlki inkişaf dövrlərinin qanunlarında öz əksini tapmışdır [20, s. 13].

İnsan hüquqlarının məzmununa tarixilik baxımından yanaşsaq görərik ki, insanların beynəlxalq-hüquqi sənədlərdə, dövlətlərin konstitusiyalarında təsbit olunmuş hüquqlarının sistemi uzun sürən tarixi təkamülün nəticəsidir. İnsan hüquqlarının inkişafında XVII-XVIII əsr burjua-demokratik inqilablarının həlledici əhəmiyyəti olmuşdur. İnsanların azadlığının hüdudlarını müəyyənləşdirən və formal bərabərliyə əsaslanan hüquqlar ictimai tərəqqinin əsas dəyərlərindən biri kimi çıxış edir. Bu hüquqlar dövlətin hakimiyyətini məhdudlaşdıran meyar olduğundan onun xarakterinə də əhəmiyyətli təsir göstərir, dövlət hakimiyyəti ilə fərd arasında demokratik münasibətlərin yaranmasına səbəb olur. İnsan hüquqlarını və azadlıqlarını təsbit etmədən ictimai təfəkkürdə və təcrübədə hüquqi dövləti formalaşdırmaq mümkün olmazdı [17, s. 24].

Səhiyyə sahəsində münasibətlərin inkişaf tarixinin öz xüsusiyyətləri vardır. Tibbi fəaliyyətin hüquqi təminatı üçün aşağıdakı deyim xarakterikdir: “Təbabət əsrlərlə deyil,

minilliklər ərzində hüquqdan kənar mövcud olmuşdur, onun hüquq normaları ilə hər hansı əlaqəsi isə yalnız ümumi qaydadan istisna təşkil etmişdir" [11, s. 5].

Ona görə də cəmiyyətin sağlamlığının qorunması üçün görülən tədbirlər tarixən insan hüquqlarının tanınmasından əvvəl gəldiyindən sağlamlığın qorunması hüququ ayrı-ayrı şəxslərin hüquqlarına istinad etmədən inkişaf etmişdir. Beynəlxalq-hüquqi səviyyədə sağlamlığın qorunması üzrə fərdi hüquq XX əsrin ortalarından təsbit olunmağa başlamışdır. Fərdin sağlamlığının qorunması hüququ ictimai münasibətlərin bu sahəsində fiziki şəxslərə hüquq verir və dövlət hakimiyyəti orqanları üçün müvafiq vəzifələr yaradır. İnsan hüquqlarını bərqərar edən dövlət öz üzərinə əhalinin sağlamlığının pisləşməsinin səbəblərini maksimum dərəcədə aradan qaldırmaq, epidemik, endemik və digər xəstəliklərin qarşısını almaq, eləcə də hər bir insanın müasir mərhələdə sağlamlığının qorunmasında ən yüksək səviyyəni təmin etmək üçün hər hansı qadağan olunmamış müalicə metodlarından və sağlamlaşdırıcı üsullardan istifadə edə biləcəyi şəraitin yaradılmasına yönəlmiş bütöv tədbirlər kompleksini həyata keçirmək öhdəliyi götürür [22].

Səhiyyə, sağlamlığın qorunması və tibbi yardım sahəsində hüquqi tənzimetmənin inkişafının ilkin mərhələsi üçün belə bir hal xarakterik olmuşdur: tibbi tədbirlərin həyata keçirilməsi prosesi və bununla bağlı yaranan münasibətlərin özü deyil, qeyri-qənaətbəxş nəticə verən müalicəyə görə həkimin məsuliyyəti hüquqi tənzimetməyə məruz qalmışdır. Bu isə ilk dövrlərdə xəstənin hüquq və maraqlarının müdafiəsi və dolğun təminatına daha çox diqqət yetirildiyini göstərir. Müalicə nəticəsində arzuolunmaz hallar baş verdikdə həkim məsuliyyət daşıyırdı. Lakin bu zaman onun hərəkətlərində qəsd və ehtiyatsızlıq fərqləndirilmirdi [18, s. 144].

Qədim dövrdə müxtəlif zədələnmələr zamanı yardım göstərmə tələbatı primitiv müalicə üsulları və dərman vasitələri haqqında biliklərin toplanması zərurətini yaradırdı. İbtidai cəmiyyətdə matriarxat qaydaları ilə əlaqədar olaraq, tibbi biliklərin ilk toplayıcıları qadınlar olmuşdur. Onlar hamilələrə zəruri yardım göstərilməsi ilə məşğul olur, ot və bitki köklərinin müalicəvi xüsusiyyətlərindən istifadə edirdilər. Onlar ocağın və tərləmənin sağaldıcı xüsusiyyətlərini də öyrənə bilmişdilər.

Rasional müalicə üsulları ilə yanaşı mistik müalicə üsulları da geniş yayılmışdı. İbtidai cəmiyyətlər inkişaf etdikcə insanların xəstəliklər və onların müalicə yolları ilə bağlı bilikləri də artmışdır. Tədricən tibbi biliklərə malik olan şəxslər (şamanlar, ara həkimləri və s.) meydana çıxmış və özünəməxsus üsullarla sağlamlığı pozulmuş insanları müalicə etməyə başlamışdır. Təbii ki, həmin dövrlərin tibbi bilikləri səthi olduğu üçün müalicə üsulları da primitiv olmaqla, bir çox hallarda heç bir elmi əsasa söykənmirdi, məsələn, ovsunla müalicə, sehrbazlıq, təlqin, psixoloji təsir, şamanlıq və s.

Qədim zamanlarda Azərbaycan təbabətində türk şamançılığı ilə bağlı müalicə üsulları geniş yayılmışdı. Bu, öz kökləri ilə çox qədim zamanlara, daş dövrünə və ibtidai icmaya bağlı qam-şaman oyunları idi. Bu oyunlarda sehrbazlıq, təlqin, xəstəyə psixoloji təsir göstərən xüsusi ritual mahnıları və rəqsləri vacib rol oynayırdı. Şamanlar xəstələri müalicə etmək üçün onların canından cinləri qovmağa çalışır, bunun üçün sehrli dualar oxuyur və uyuşdurucu bitkilərin təsiri ilə ekstaza gələrək, ritual rəqslər oynayır və nəğmələr oxuyurdular. Psixoloji təlqinlə müşayiət olunan bu müalicələr çox vaxt həqiqətən də müsbət nəticə verirdi [3].

Tarixən müxtəlif ictimai-iqtisadi formasiyalarda insanların həyatı və sağlamlığı ilə bağlı müəyyən təsəvvürlər və mənəvi-etik normalar mövcud olmuşdur. Məsələn, ibtidai-icma quruluşunda zəifləmiş qocaları sönmüş ocaqların yanında qoyurdular.

Quldarlıq quruluşu yarandıqdan sonra sağlamlığın qorunması funksiyası böyük ölçüdə din xadimləri tərəfindən icra olunmağa başladı. Məbəd təbabəti xəstəliyi tanrının cəzası kimi nəzərdən keçirirdi. Burada xəstəliklə əsas mübarizə üsulu dualar və qurbanvermə hesab olunurdu. Lakin məbəd təbabəti ilə paralel olaraq empirik təbabət də inkişaf edirdi. Qədim Misirdə, Assuriyada, Babildə, Yunanıstanda, Hindistanda və Çində həkimlər tibbi bilikləri toplayaraq xəstəliklərin müalicəsinin yeni üsul və vasitələrini aşkara çıxarmışdılar.

Assuriyada tibbi kadrların hazırlanması məbədlərdə deyil, saraylarda həyata keçirilirdi. Həkimlərin birinci dərəcəli vəzifəsi hökmdarın sağlamlığını qorumaqdan ibarət idi. Onlar həmçinin orduya da xidmət etməli və yürüşlərdə onu müşayiət etməli idi. Assuriyalılar ilk dəfə olaraq yüksək səviyyədə təşkilatlanmış hərbi-tibbi xidmət yarada bilmişdilər.

Qədim Yunanıstanda həkimlər yalnız azad vətəndaşları müalicə edirdilər. Qullar, bir qayda olaraq, ara həkimlərinin tibbi yardımından istifadə edirdilər. Qədim yunan şəhər dövlətlərində həkimlərin fəaliyyəti ciddi tənzimlənirdi. Likurq qanunlarında (Sparta) bununla bağlı müəyyən normalar var idi. Məsələn, xüsusi məmurlar olan eforlar sağlam uşaqları seçməli, xəstələri isə öldürməli idilər. Bu məmurlar həmçinin döyüşçülərin hazırlanması prosesində Spartada qüvvədə olan gigiyena qaydalarına əməl olunması üzərində ciddi nəzarət həyata keçirirdilər.

Tibb tarixinə dair bir çox qədim yazılı mənbələrdə sağlamlığın qorunması və xəstəliklərin müalicəsinə dair məsləhətlərlə yanaşı həkimin davranış qaydaları da öz əksini tapır. Onlardan ən mühümü Hippokrat (b.e.ə. V əsr) andı hesab olunur. Hippokrat andı bu gün də özünün mənəvi-etik dəyərini qoruyub saxlayır, çünki bütün tibb işçilərinə qarşı ən mühüm və prinsipial tələbləri özündə əks etdirir. Bu baxımdan təsadüfi deyildir ki, "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikası Qanununun ayrıca bir maddəsi (52-ci maddəsi) "həkim andı" məsələsinə həsr olunmuşdur. Orada göstərilir ki, Azərbaycan Respublikasının ali tibb təhsili müəssisələrini bitirmiş və həkim diplomu almış şəxslər "Hippokrat andı" içirlər. Həkim andını pozan həkimlər qanunvericilikdə müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar [1].

Hippokratın fikrincə, həkim bütün hallarda ədalətli olmalıdır. Xəstəyə qarşı ədalətli olmaq insanların təbiətində dərin köklərə malik olan bir xüsusiyyətdir. Digər tərəfdən bu, təlim, tərbiyə, təhsil peşəkar iş təcrübəsi əsasında da formalaşa bilər. Həkimin əsas mənəvi borcu insan həyatını qoruyub saxlamaqdır. Ona görə də heç bir həkim edam cəzasının icrası prosesinə cəlb edilməməlidir. Tibbi praktika cəllad funksiyalarının həyata keçirilməsini nəzərdə tutmur [10, s. 18].

Hippokrata görə özünü xəstənin maraqlarına tabe etdirmək bacarığı, şəfqət və fədakarlıq xüsusiyyətləri yalnız həkimin hörmətəlayiq keyfiyyətləri deyil, onun peşəkarlığının sübutudur. Həkimin davranışı həm onun daxili niyyətləri, həm də əməlləri baxımından pasiyentin mənafeyi və rifahı ilə əsaslandırılmalıdır. "Hansı evə daxil oluramsa, oraya hər cür qərəz, haqsızlıq və ziyanlı hərəkətlərdən uzaq olmaq, xəstənin xeyri üçün girirəm", deyən Hippokrat haqlı olaraq, insansevərliklə həkimin peşəkar fəaliyyətinin səmərəliliyi arasında birbaşa asılılıq olduğunu göstərirdi. İnsansevərlik peşə seçiminin əsas meyarı kimi çıxış edir. İnsanlara sevgi və qayğı olan yerdə insanın öz sənətinə və peşəsinə sevgisi də var.

Hippokrat andı tibbi etikanın bütün sonrakı inkişafına güclü təkan vermişdir. Etika (yunanca "ethos" – əxlaq) tədqiqat obyektini mənəviyyat, əxlaq təşkil edən qədim nəzəri istiqamətlərdən biridir. Tibbi etika lap qədim dövrlərdə, həkimlik yaranan vaxtlarda meydana çıxmışdır. Tibbi etika tibb işçilərinin davranış və mənəviyyat normalarının məcmusudur. Tibb tarixi Hippokratın dahiliyini bir daha təsdiq edərək göstərir ki, əgər ən

yüksək ixtisasa malik olan tibb işçisi zəruri etik keyfiyyətlərə malik deyildirsə, tibbi yardım tam və lazımi dəyərə və effektə malik ola bilməz.

Hippokrat sağlam həyat tərzi anlayışı və sağlamlıq üçün onun əhəmiyyəti ilə bağlı məsələlərə həmin dövrün təsəvvürləri kontekstində münasibət bildirərək "Havalar, sular və yerlər haqqında" traktat yazmışdı. Hippokrat ətraf mühit şərtlərinin insan sağlamlığına təsirini əsaslandıraraq göstərirdi ki, həkimin vəzifəsi xəstəliyin dəf olunmasında orqanizmə təbii vasitələrlə yardım göstərməkdən ibarətdir. Uzaqgörənliklə deyilmiş bu fikirləri müasir müəlliflər və çağdaş tibb elmi də təsdiq edir: "...İnsanın sağlamlığını yaxşılaşdıran və ya pisləşdirən amillər səhiyyə sistemi çərçivəsindən kənara çıxır və qidalanma, sanitar rifah, mənzillə təminat, işlə təminat və s. kimi sosial xarakterli məsələləri əhatə edir. Bəşəriyyətin tarixi sübut edir ki, sağlamlığın yaxşılaşdırılmasına müalicəvi və qabaqlayıcı tibbi tədbirlərə nisbətən, su təchizatının və sanitariyanın, qidalanma və mənzil şəraitinin yaxşılaşdırılması daha səmərəli təsir göstərmişdir. Bununla əlaqədar olaraq, sağlamlığın Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən qəbul edilən əsas tərifinə sosial firavanlıq daxildir [21, s. 90]. Hazırkı şəraitdə ətraf mühitin mühafizəsi, istehsalat tullantılarının məhv edilməsi, məhsulların keyfiyyət standartları, alkoqol, tütün buraxılışına və yayılmasına nəzarət və bu qəbildən olan digər tədbirlər sağlamlığın qorunmasının mühüm faktorları kimi nəzərdən keçirilir və sağlamlığın qorunması hüququnun daha dolğun şəkildə təmin edilməsi məqsədilə tətbiq edilir. Məsələn, prof. Z.A.Əsgərov qeyd edir ki, sağlamlığa çoxlu amillər təsir edir. Hal-hazırda bu amillər içərisində ətraf mühitin rolu artmışdır. Fərdin sağlamlığı getdikcə daha çox onun nə dərəcədə sağlam ətraf mühitdə yaşamasından asılı hala düşür. Elə insanın sağlamlığı baxımından da sağlam ətraf mühitdə yaşamaq hüququ çox əhəmiyyətlidir. Sağlam olmayan, yol verilən normadan artıq çirklənmiş su mənbələri, hava məkanı nəinki ekoloji sistemin digər komponentlərinə, həm də bu sistemin başlıca ünsürlərindən biri olan insana ciddi ziyan vurur. Elə buna görə də Azərbaycan Respublikası Konstitusiyasının 39-cu maddəsində birbaşa müəyyənləşdirilir ki, hər kəsin ekoloji hüquqpozma ilə əlaqədar onun sağlamlığına vurulmuş zərərin əvəzini tələb etmək hüququ vardır. Göründüyü kimi, sağlam ətraf mühitdə yaşamaq hüququ sağlamlığın qorunması hüququna bir növ əlavədir [6, s. 239].

Qədim roma dövrünün hüquq mənbəyi olan XII Cədvəl Qanunlarında müalicənin nəticələrinə görə həkimlərin həvəsləndirilməsi və cəzalandırılması barədə qanunlar öz əksini tapmışdır. Tibbi yardımın haqqı müəyyən edilərkən xəstələrin maddi vəziyyəti nəzərə alınırdı. Eyni tibbi yardıma görə varlı xəstələr kasıb xəstələrdən bir neçə dəfə artıq haqq ödəyirdilər. Varlı xəstənin uğursuzluqla nəticələnən müalicəsi zamanı isə həkimin cəzası kasıb xəstənin uğursuz müalicəsi ilə müqayisədə daha sərt olurdu. Belə ki, kölənin uğursuz müalicəsinə görə pul cəriməsi tətbiq olunduğu halda, varlının uğursuz müalicəsinə görə əl kəsilirdi.

XII Cədvəl qanunlarında sanitar xarakterli tədbirlər nəzərdə tutulmuşdu. Məsələn, mənbəyi çirklənmiş sudan istifadənin qadağan edilməsi, bazarda ərzaq məhsullarına nəzarət olunması, dəfn qaydalarına əməl edilməsi, ictimai hamamların quruluşu ilə bağlı tələblərin yerinə yetirilməsi və s. Bütün bunlara xüsusi məmurlar – edillər cavabdeh idi. Şəhərlərin üzərinə "xalq həkimləri" saxlamaq öhdəliyi qoyulmuşdu. Həmin həkimlərin vəzifəsi əhalinin sağlamlığını qorumaqdan ibarət idi. Roma ordusunda da dəqiq təşkilatlanmış tibbi xidmət mövcud idi. Dəstə, legion, hərbi hospital həkimləri yalnız yaralı və xəstələrin müalicəsi ilə məşğul olmur, həm də orduda sanitar vəziyyətə nəzarət edirdilər, yəni döyüşçülərin sağlamlığını qorumaq vəzifəsini icra edirdilər. Roma su kəmərləri və hamamları antik dövrdə yüksək səviyyəli gigiyena mədəniyyətinin olmasını təsdiq edir.

Antik məbədlər də müalicə yeri kimi çıxış edirdilər. Qədim Yunanıstanda məbədlərdəki müalicəxanalar müalicə tanrısı Asklepinin şərəfinə "askleypeonam" adlanırdı. Asklepinin uşaqlarının adları – Gigeya və Panatseya – ümumişlək oldular (gigiyena sağlamlıq, panatseya isə bütün xəstəliklərin olmayan əlacı demək idi). Antik dövrdə həkimlərə yüksək qiymət verilirdi. Yuli Sezar təbabəti öyrənən hər kəsə roma vətəndaşlığı təqdim edirdi. Qədim dövlətlər üçün epidemiya və müharibələr ağır problemlər yaradırdı. Yoluxucu xəstəliklərlə mübarizə həyat şəraiti ilə sağlamlıq arasında əlaqəyə dair təsəvvürlərin inkişafına şərait yaratmışdı. Bizansda da əvvəllər şəhərlərdə "xalq həkimləri" saxlanılsa da, VIII-IX əsrlərdə kasıblar üçün xəstəxanalar açılmağa başladı [13].

Qədim Romada yaşamış məşhur yunan həkimi Qalen müxtəlif bitkilərdən dərman preparatları hazırlayaraq xəstəlikləri onlarla müalicə etməyə başladı. İndiyə kimi həmin preparatları Qalen preparatları adlandırırlar. Qalenin bildirdiyinə görə, o zamanlar istifadə olunan 444 dərmanın 60-nı məhz mədən mənşəli dərmanlar təşkil edirdi.

Antik dövrdə Hippokrat, Qalen və başqa yunan alimləri tibb elmini qədim misirlilərdən, Yaxın Şərq əhalisindən öyrənirdilər. Daha sonrakı dövrlərdə Hippokratın və Qalenin irsinə əsaslanan İbn Sina, Əbubəkir Razi, Əli İbn Abbas, İbn Baytar, İbn Kəbir və başqa dahi Şərq alimləri tibb elmini daha da yüksək zirvələrə ucaltdılar. Hippokrat cəmi 200, qədim hindlilər isə 760 dərman bitkisini tanıdığı halda, İbn Sina və başqa müsəlman alimləri öz əsərlərində 2600 dərman maddəsindən, o cümlədən 1400 dərman bitkisindən söhbət açırlar [2].

Atəşpərəstlərin dini kitabında ilahi mövzularla yanaşı tibbi tövsiyələr, anatomiya və fiziologiyaya aid məlumatlar da var. Zərdüştilər xəstəliklərin şər tanrısı Əhrimənin yaratdığı gözlə görünməyən ziyanlı varlıqlar tərəfindən yayılmasına inanırdılar. Onlar gigiyena və profilaktika məsələlərinə böyük diqqət yetirirdilər. Su, od, torpaq, hava müqəddəs sayılırdı və onların çirklənməsi qadağan olunmuşdu, ölmüş insanların cəsədlərinə isə ancaq kahinlər toxuna bilərdilər. Bu, yoluxucu xəstəliklərin yayılmasının qarşısını alırdı. Avestaya görə dünyanın birinci həkimi Trita olmuşdu. O, insanlara 9999 dərman bitkisinin xeyri və istifadə yolları haqqında məlumat vermişdi. Cərrahiyyə, dərman otları və sehrbazlıq əsas müalicə metodları sayılırdı. Avestada həkimin hər müalicə növünə görə alacağı məbləğ də müəyyənləşdirilir. Maraqlıdır ki, bu məbləğ xəstənin maddi durumu ilə əlaqələndirilirdi. Varlılar müalicəyə görə daha çox, kasıblar isə daha az pul ödəyirdilər. Ödənişlər təkcə pulla deyil, mal-qara, at, kənd təsərrüfatı ərzaqları ilə də həyata keçirilirdi [3].

Qədim Hindistanda yalnız xəstəliyinin müalicəsi mümkün olunan şəxsləri müalicə etmək tövsiyə olunurdu. Mövcud təsəvvürlərə və qaydalara görə müalicəolunmaz və ya bir il ərzində sağalmayan xəstələrdən (onların müalicəsindən) imtina olunmalı idi.

Qədim Hindistanda tibb işçisindən tələb olunurdu ki, kralı və ya xalqı sevməyən insanlara, habelə pozğun, əxlaqsız, təhlükəli, vəhşi və azğın şəxslərə dərman təyin etməsin, onlara tibbi məsləhət verməsin və tibbi yardım göstərməsin. Qədim Hindistanda nümunəvi tibb işçisi həm xarici görünüşü, həm də daxili dünyası gözəl olan şəxsiyyət kimi təsəvvür olunurdu. Onun incə qaməti, alicənab siması, sakit və xoş səsi olmalıdır. O, səliqəli, dərrakəli, ciddi, səbrli, başqaları ilə münasibətdə nəzakətli və qayğıkeş, sakit temperamentli, möhkəm xarakterli olmalı və həmişə ailə sirrini saxlamalıdır [5, s. 183-184].

Tarixən tibbi yardımın təşkilinin ilk forması ödənişli tibbi yardım olmuş və tibbi yardım onun əvəzini ödəyə bilən təbəqələrin imtiyazı kimi çıxış etmişdir. Maraqlıdır ki, bu qayda ədalətli hesab olunurdu. Hakimiyyət qanunları öz maraqlarına uyğun olaraq qəbul edir və onları ədalətli elan edirdi [16, s. 614]. Göstərilirdi ki, yaxşının pisdən, zəifin güclüdən üstün olmasını təbiət özü diktə edir. Şəhərlərə və bütövlükdə xalqlara nəzər yetirdikdə görünür ki, ədalətin əlaməti belədir: güclü zəifi idarə edir və ondan yüksəkdə dayanır [15, s. 308].

Orta əsrlərdə Qərbi Avropada təbabət kilsəyə tabe idi. Həmin dövrdə kilsə meyitlərin yarılmasını qadağan etmişdi. Bu isə tibbin inkişafını xeyli ləngitmişdi. Qeyd edilən dövrdə Avropada tibb elminin inkişafında İbn Sinanın "Tibb elminin qanunları" kitabı müstəsna dərəcədə mühüm rol oynamışdı. Bu kitab dəfələrlə əksər Avropa dillərinə tərcümə olunmuşdu. İbn Sina xəstələrə xüsusi yanaşma tələb edərək göstərirdi ki, hər bir ayrıca insan yalnız ona xas olan xüsusi təbiətə malikdir. Kiminsə onunla eyni təbiətə malik olması nadir hallarda mümkündür və ya ümumiyyətlə qeyri-mümkündür.

XIII əsrdə yaşamış mütəfəkkir, yazıçı və həkim Əbu-əl-Fərəc yazırdı: "Biz üçük – sən, mən və xəstəlik. Əgər sən xəstəliyin tərəfində olsan, siz iki olacaqsınız, mən isə tək qalacam – siz mənə qalib gələcəksiniz. Əgər sən mənimlə olsan, biz iki olacağıq, xəstəlik isə tək qalacaq – biz ona qalib gələciyik".

Orta əsrlərdə yoluxucu xəstəliklərin geniş yayılması ilə əlaqədar olaraq epidemiya əleyhinə geniş tədbirlər qanunvericilik səviyyəsində təsbit edilmişdi. Həmin tədbirlərə aid idi: xəstələrin təcrid edilməsi, karantin, xəstəliyə tutulanların əşyalarının və evlərinin yandırılması, ölən şəxslərin şəhərin hüdudları daxilində dəfn edilməsinin qadağan edilməsi, su mənbələrinə nəzarət, leprozorilərin (cüzamlılar üçün xüsusi yer, xəstəxana) təşkili və s. Lakin həmin dövrün qanunvericilik aktları yerli xarakter daşıyırdı, yəni XVI əsrədək tibbi fəaliyyət mərkəzi dövlət hakimiyyəti tərəfindən deyil, yalnız yerli dünyəvi və dini hakimiyyətlər tərəfindən idarə olunurdu. Bu bir çox cəhətdən həmin dövrün tarixi şəraiti, xüsusən də feodal pərakəndəliyi ilə bağlı idi. Belə əlaqəsizlik şəraitində isə epidemiyalar zamanı tətbiq edilən tədbirlərin səmərəliliyi az olurdu. İctimai təbabətin inkişafında sosial utopistlərin (Tomas Mor, Tommazo Kampanella və s.) baxışları mühüm rol oynamışdı. Belə ki, onlar öz əsərlərində ideal cəmiyyət haqqında təsəvvürlərini irəli sürərkən gigiyena, sağlam həyat tərzi, qida və s. məsələlərə də xüsusi diqqət yetirirdilər [13].

V.P.Buşuyeva göstərir ki, orta əsrlərdə epidemiyalar zamanı müxtəlif qadağa formaları (məsələn, yerdəyişmə sərbəstliyi) müəyyən edən lokal normalar yaranmışdı. Başqa sözlə, müxtəlif hüquqları məhdudlaşdıran qadağalar, yoluxucu xəstəliklər üzərində nəzarət xalqın sağlamlığının qorunmasının ən mühüm hissəsi idi. Bu normaların vacibliyi insanların davranışlarındakı dəyişikliklərin sağlamlığa zərərli təsirlərinin azaldılmasına böyük təsir göstərməsinin, xəstəliklərin qarşısının alınmasının və ya iztirab çəkənlərin ağrılarının azaldılmasının təmin edilməsinin dərk edilməsi ilə möhkəmlənmişdi. Cəmiyyətin sağlamlığının qorunması üzrə qabaqlayıcı tədbir olaraq insan hüquqlarının məhdudlaşdırılması hazırkı hüquqa keçmişdən daxil olmuşdur [9, s. 50-58].

Avropada təşkil edilmiş ilk tibb məktəbi X-XIII əsrlərdə çiçəklənən Salerno məktəbi hesab olunur. Salernonu "Hippokrat şəhəri" də adlandırırdılar. Burada sağlamlığın qorunması ilə bağlı yunan, roma, ərəb, avropa təsəvvürləri vəhdət halında tədris edilirdi. Təlim müddəti iki hissədən ibarət idi – hazırlıq dövrü və tibbi təhsil dövrü. Hazırlıq dövrü bir il, tibbi təhsil dövrü isə beş il təşkil edirdi. Salerno məktəbini bitirən məzunlar magistr və ya doktor dərəcəsi alırdılar. Çox güman ki, həkim əvəzinə bəzən "doktor" sözündən istifadə olunması tarixi-etimoloji baxımdan məhz buradan qaynaqlanır. Bu məktəbdə hazırlanmış sağlamlıq rejimi (Regimen Sanitatis) kitabı orta əsrlərdə sağlamlığın qorunması sahəsində ən geniş yayılmış kitablardan biri olmuşdur.

XIV əsrin əvvəllərində Təbriz şəhərində yaradılan "Darüş-Şəfa" (Şəfa Evi) adında bir mərkəz çox məşhur idi. Bu mərkəzin nəzdində mədrəsə, iri xəstəxana və əttar dükanı (aptek) vardı. XV əsrdə təkcə Cənubi Azərbaycanda 60-dan çox iri xəstəxana vardı. Onların ən möhtəşəmi Sultan Yaqub Ağqoyunlunun (1478-1490) Təbrizdəki "Yeddi Cənnət" sarayında yerləşirdi. Bu xəstəxanada eyni vaxtda minə yaxın adam müalicə oluna bilərdi. Həkimlər

900-ə yaxın dərman bitkisindən istifadə edirdi. Xəstəxananın nəzdində olan əttar dükanında (aptekdə) dünyanın müxtəlif ölkələrindən, o cümlədən Hindistan və Çindən gətirilmiş dərman bitkiləri satılırdı [7].

1784-cü ildə Almaniyada V.T.Rau ilk dəfə olaraq “tibbi polis” terminini elmi dövriyyəyə daxil etdi. Bu anlayışla əhalinin sağlamlığına nəzarət, hospital və apteklərə nəzarət, epidemiyaların qarşısının alınması, əhalinin maarifləndirilməsi və s. əhatə olunurdu. “Tibbi polis” ideyası sonralar macar həkimi Z.P.Xusti tərəfindən inkişaf etdirilmişdi [13].

İctimai sağlamlıq məsələsi ilk dəfə “İnsan və vətəndaş hüquq və azadlıqları haqqında” 1787-ci il Fransa Bəyannaməsində öz əksini tapmışdı. Həmin sənəddə əhalinin sağlamlığı ictimai sərvət kimi xarakterizə olunurdu.

Beləliklə, bu məqalə çərçivəsində antik dövrdə və orta əsrlərdə sağlamlığın qorunması hüququnun yaranması və inkişaf tarixi ilə bağlı qeyd edilənləri aşağıdakı kimi ümumiləşdirmək olar:

1. Sağlamlığın qorunması hüququ sosial-tarixi kateqoriyadır. Ona görə də onun məzmunu da dəyişmiş və hər bir ayrıca hüquq mədəniyyəti kontekstində tamamlanmışdır.

Səhiyyə sahəsində münasibətlərin hüquqi tənzimetmə mexanizminin müəyyən edilməsi zamanı müasir qanunvericinin üzləşdiyi problem və çətinliklər belə tənzimetmə ilə bağlı tarixi-hüquqi təcrübənin öyrənilərək nəzərə alınmasının zəruri olduğunu göstərir.

Tibb sahəsi uzun müddət ərzində hüquqdan kənar mövcud olmuş, cəmiyyətin sağlamlığının qorunması üçün görülən tədbirlər tarixən insan hüquqlarının pozitiv anlamda tanınmasından əvvələ təsadüf etmişdir. Buna görə də sağlamlığın qorunması hüququ obyektiv kateqoriya kimi, ayrı-ayrı şəxslərin hüquqlarına istinad etmədən inkişaf etmişdir.

2. İlk dövrlər sağlamlığın qorunması ilə bağlı yaranan münasibətlərin özündən daha çox, qeyri-qənaətbəxş nəticə verən müalicəyə görə həkimin məsuliyyəti məsələsi hüquqi tənzimetməyə məruz qalmışdır.

Qədim dövrdə müxtəlif zədələnmələr zamanı yardım göstərmə tələbatı primitiv müalicə üsulları və dərman vasitələri haqqında biliklərin toplanması zərurətini yaradırdı. İbtidai cəmiyyətlər inkişaf etdikcə insanların xəstəliklər və onların müalicə yolları ilə bağlı bilikləri də artmışdır. Rasional müalicə üsulları ilə yanaşı mistik müalicə üsulları da geniş yayılmışdı. Tədricən tibbi biliklərə malik olan şəxslər (şamanlar, ara həkimləri və s.) meydana çıxmış və özünəməxsus üsullarla sağlamlığı pozulmuş insanları müalicə etməyə başlamışdır. Təbii ki, həmin dövrlərin tibbi bilikləri səthi olduğu üçün müalicə üsulları da primitiv olmaqla, bir çox hallarda heç bir elmi əsasa söykənmirdi, məsələn, ovsunla müalicə, sehrbazlıq, təlqin, psixoloji təsir, şamanlıq və s.

3. Tibb tarixinə dair bir çox qədim yazılı mənbələrdə sağlamlığın qorunması və xəstəliklərin müalicəsinə dair məsləhətlərlə yanaşı həkimin davranış qaydaları da öz əksini tapır. Onlardan ən mühümü Hippokrat (b.e.ə. V əsr) andı hesab olunur.

4. Orta əsrlərdə yoluxucu xəstəliklərin geniş yayılması ilə əlaqədar olaraq epidemiya əleyhinə geniş tədbirlər qanunvericilik səviyyəsində təsbit edilmişdi.

İctimai sağlamlıq məsələsi ilk dəfə “İnsan və vətəndaş hüquq və azadlıqları haqqında” 1787-ci il Fransa Bəyannaməsində öz əksini tapmışdı. Həmin sənəddə əhalinin sağlamlığı ictimai sərvət kimi xarakterizə olunurdu.

## İstifadə olunmuş ədəbiyyat siyahısı

1. “Əhalinin sağlamlığının qorunması haqqında” Azərbaycan Respublikasının Qanunu: [Elektron resurs] / URL: http://e-qanun.az/framework/4078

2. Ələkbərli, F. Avropada tibb elminin inkişafında Şərq alimlərinin böyük rolu var: [Elektron resurs] / URL: http://tibbqazeti.az/az/persona/924-frid-lkbrli-avropada-tibb-elminin-inkiafnda-rq-alimlrinin-byk-rolu-var.html

3. Ələkbərli, F. Azərbaycanda tibb elminin tarixi (e.ə. IV min. – XVIII əsrin əvvəli): [Elektron resurs] / URL: http://www.alakbarli.aamh.az/index.files/12.htm

4. Əliyev, M.N. Azərbaycan Respublikasında pensiya təminatı sisteminin təşəkkülü və inkişaf perspektivləri (hüquqi problemlər) / M.N.Əliyev. – Bakı: Bakı Universiteti nəşriyyatı, – 2003. – 432 s.

5. Əliyev, M.N. Azərbaycan Respublikasında tibb hüququnun nəzəri aspektləri. Monoqrafiya / M.N.Əliyev. – Bakı: “VƏTƏNOĞLU” NP MMC, – 2016. – 280 s.

6. Əsgərov, Z.A. Konstitusiya hüququ. Dərslik / Z.A.Əsgərov. – Bakı: Bakı Universiteti nəşriyyatı, – 2006. – 698 s.

7. Uzun əsrlərlə yaşıd tibb tariximiz: [Elektron resurs] / URL: https://www.azadliq.info/37418.html

8. Батлер, Х.Э. История права: Англия и Россия / Х.Э.Батлер. – Москва: Прогресс, – 1990. – 303 с.

9. Бушуева, В.П. Право на охрану здоровья и медицинскую помощь: международно-правовые аспекты // Московский журнал международного права, – 2007. № 2, – с. 50-58.

10. Врачебные ассоциации, медицинская этика и общемедицинские проблемы: Сборник официальных документов / Под ред. В.Н.Уранова. – Москва: ПАИМС, – 1995. – 96 с.

11. Дргонец, Я. Современная медицина и право / Я.Дргонец, П.Холленлер. – Москва: Юридическая литература, – 1991. – 336 с.

12. Ковальченко, И.Д. Теоретико-методологические проблемы исторических исследований: Заметки и размышления о новых подходах // Новая и новейшая история, – 1995. № 1, – с. 3-33.

13. Краткий исторический очерк социальной медицины: [Электронный ресурс] / URL: http://poznayka.org/s82556t1.html

14. Общая теория права и государства. Учебник / Под ред. В.В.Лазарева. – Москва: Юристь, – 1996. – 472 с.

15. Платон. Горгий. Соч. в 3-х томах. Т.1. – Москва: Мысль, – 1968. – 624 с.

16. Платон. Законы. Соч. в 3-х томах. Т. 3, ч. 2. – Москва: Мысль, – 1968. – 654 с.

17. Права человека. Учебник / Отв. ред. Е.А.Лукашева. – Москва: Норма, – 2009. – 560 с.

18. Сальников, В.П., Стеценко, С.Г. Регламентация медицинской деятельности в России: нсторико-правовые вопросы (X-XVII вв.) // Журнал российского права, – 2001. № 4, – с. 142-149.

19. Философский словарь / Под. ред. И.Т.Фролова. – Москва: Политиздат, – 1991. – 560 с.

20. Черных, А.Е. Конституционное право граждан на охрану здоровья и проблемы его реализации в российской федерации: / автореферат дис. канд. юрид. наук. / – Москва, 2012. – 18 с.

21. Dollar, D. Is Globalization Good for your Health? // Bulletin of World Health Organi-zation, – 2001. – vol. 79, – pp. 89-123.

22. Schmidt, H.E. Interpreting the Declaration of Helsinki (2008): “Must”, “Should” and Different Kinds of Obligation // Medicine and Law, – 2010. – v. 29. № 4

## X Ü L A S Ə

Bu məqalədə antik dövrdə və orta əsrlərdə sağlamlığın qorunması hüququ ilə bağlı ideyaların formalaşması və inkişafı tarixi ilə bağlı məsələlər təhlil edilir. Məqalədə sağlamlığın qorunması hüququ sosial-tarixi kateqoriya kimi xarakterizə olunur. Müəllif həm antik, həm də orta əsrlər dövründə sağlamlığın qorunması hüququ ilə bağlı formalaşan yanaşmaların xarakterik xüsusiyyətlərini göstərir. Həmçinin məqalədə müasir tibb qanunvericiliyinin problemlərinin həlli baxımından bu sahədə tarixi təcrübənin öyrənilərək nəzərə alınmasının vacibliyi vurğulanır.

**Замиг Асланов**
**Исследователь отдела Правовых исследований**
**Института права и прав человека,**
**д.ф.н., доцент**

## ФОРМИРОВАНИЕ И РАЗВИТИЕ ПРЕДСТАВЛЕНИЙ О ПРАВЕ НА ОХРАНУ ЗДОРОВЬЯ В ДРЕВНОСТИ И СРЕДНЕВЕКОВЬЕ

## Р Е З Ю М Е

В данной статье анализируются вопросы, связанные с историей формирования и развития представлений о праве на охрану здоровья в древности и средневековье. В статье право на охрану здоровья характеризуется как социально-историческая категория. Автор показывает характерные черты подходов к праву на охрану здоровья как в античности, так и в средние века. Также в статье подчеркивается важность изучения и учета исторического опыта в данной сфере с точки зрения решения проблем современного медицинского законодательства.

**Zamig Aslanov**
**Researcher of the Legal research department of the**
**Institute of Law and Human Rights,**
**doctor of philosophy in law, associate professor**

## THE FORMATION AND DEVELOPMENT OF IDEAS RELATED TO THE RIGHT TO HEALTH PROTECTION IN ANTIQUITY AND THE MIDDLE AGES

## S U M M A R Y

In this article is analyzed issues related to the history of the formation and development of ideas about the right to health protection in antiquity and the middle ages. In the article the right to health protection is characterized as a social-historical category. The author shows the characteristic features of approaches to the right to health protection both in antiquity and in the middle ages. In the article also emphasizes the importance of studying and taking into account historical experience in this area in terms of solving the problems of modern medical legislation.

***Samirə BABAYEVA***

Azərbaycan Respublikasının Prezidenti
yanında Dövlət İdarəçilik Akademiyasının Hüquq kafedrasının dosenti, h.ü.f.d.

# CİNAYƏT QANUNVERİCİLİYİNİN TƏKMİLLƏŞDİRİLMƏSİNİN İNSAN HÜQUQ VƏ AZADLIQLARININ MÜDAFİƏSİNDƏ ƏHƏMİYYƏTİ

***Açar sözlər:*** *insan hüquqlarının müdafiəsi, urbisid, ekosid, kriminalizasiya.*
***Ключевые слова:*** *защита прав человека, урбицид, экоцид, криминализация.*
***Keywords:*** *protection of human rights, urbicide, ecocide, criminalization.*

Dövlətimizdə aparılan uzaqgörən daxili və xarici siyasət nəticəsində Ali Baş Komandan, cənab prezidentimiz İlham Əliyevin rəhbərliyi altında müzəffər ordumuz otuz il işğal altında qalan torpaqlarımızı düşmən tapdağından azad etdikdən sonra, bir çox beynəlxalq cinayətlərin hədəfi olmuş ərazilərimizdə quruculuq işlərinin aparılması, dağıdılmış şəhər və kəndlərin yenidən bərpası hazırda ən prioritet məsələlərdəndir. Dövlətimizə, xalqımıza qarşı törədilmiş əməllərlə cinayət-hüquqi mübarizə, pozulmuş hüquqlarımızın beynəlxalq məhkəmələrdə müdafiəsinin daha da səmərəli təşkili üçün qanunvericilikdə daim islahatlar aparılır.

Müəyyən məqamlara diqqət yetirək. Hazırda cinayət qanunvericiliyinin ən aktual məsələlərindən biri ekosid və urbisid cinayətlərinin cinayət qanununda təsbit edilməsi zəruriliyi ilə əlaqədardır. Uzun illər erməni işğalı altında qalan tarixi və qanuni torpaqlarımızda şəhərlər, kəndlər dağıdılmış, mədəni sərvətlər, tarixi abidələr məhv olmuşdur. Belə böyük həcmli, hesablanmış və məkrli siyasətin tərkib hissəsi olan davranışları əmlak ziyanı vurma cinayət tərkiblərinə sığışdırmaq qeyri-mümkündür. Eyni zamanda, respublikamızın ekologiyasına çox böyük zərər vurulmuş, heyvanlar aləmi, meşələr məhv edilmiş, yandırılmış, çayların suyu zəhərlənmiş ( Araz çayının sol qolu olan Oxçuçay buna xüsusilə nümunə ola bilər), bulaqlar qurumuşdur. Bu əməllər beynəlxalq cinayətlər kimi Cinayət Məcəlləsinin "Sülh və insanlıq əleyhinə cinayətlər" fəslində yer almalıdır.

Azərbaycan Respublikasının Cinayət Məcəlləsində müvafiq olaraq urbisid və ekosid cinayət tərkiblərinə aşağıdakı məzmunda anlayış verilməsini təklif edirik:

**104-1. Urbisid**

– Şəhər, rayon, kənd, qəsəbə ərazilərində mövcud olan yaşayış yerlərinin, tarixi abidələrin, mədəni sərvətlərin kütləvi məhvinə yönəlmiş əməllər

– 8 ildən on beş ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

**104-2. Ekosid**

– Bitki və heyvanlar aləminin kütləvi məhv edilməsi, atmosferin və suların zəhərlənməsi ilə müşayiət olunan ekoloji qəza yaradan əməllər

– On iki ildən iyirmi ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

Digər bir məsələ, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 172-ci maddəsi – "Özgənin uşağını dəyişdirmə" ilə əlaqədardır: "Tibb müəssisələrində uşağın mühafizəsi və

ya ona qayğı göstərilməsi vəzifəsini daşıyan şəxs tərəfindən tamah məqsədilə, intiqam və sair alçaq niyyətlə özgənin uşağını dəyişdirmə – üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır”. (2) Bu maddənin məzmunundan göründüyü kimi, özgənin uşağını dəyişdirmə cinayət tərkibinin subyekti xüsusidir, yəni tibb müəssisələrində uşağın mühafizəsi və ona qayğı göstərilməsi vəzifəsi həvalə edilən şəxs başa düşülür. İnsan mülki dövriyyənin predmeti deyildir. Buna görə də onun üzərindən dəyişmə müqaviləsinin icrası yolverilməzdir. Maddənin dispozisiyasından aydın olur ki, əgər bu əməl tibb müəssisəsindən kənarda baş verirsə, adam oğurluğu hesab olunmalıdır. Eyni zamanda, tibb müəssisəsində törədilsə belə, əgər uşağın mühafizə edilməsi və ya ona qayğı göstərilməsi vəzifəsi həvalə olunmayan şəxs tərəfindən törədilərsə, yenə adam oğurluğu maddəsi ilə tövsif olunmalıdır. Nəzərə alsaq ki, cinayət qanununda tamah məqsədilə adam oğurluğunun törədilməsi tövsifi əhəmiyyət daşıyaraq məsuliyyəti ağırlaşdıran hal kimi müəyyən olunmuşdur (CM-nin 144.2.6-cı maddəsi), bu təqdirdə yalnız məkan fərqinə görə və xüsusiləşmiş subyektə görə əmələ hüquqi qiymətin bir-birindən paradoksal dərəcədə fərqlənməsi absurddur. Azərbaycan Respublikasının CM-də bir qayda olaraq, xüsusi subyekt məsuliyyətin fərdiləşdirilməsində rol oynayır. Konkret halda, müvafiq norma subyektin üzərinə əlavə məsuliyyət qoymalı olduğu halda, adam oğurluğuna münasibətdə çox aşağı həddə cəza təyinini nəzərdə tutur. Fikrimizcə, bu əməlin törədilməsinə görə sanksiya aşağıdakı kimi müəyyən olunmalıdır: “səkkiz ildən 12 ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır”.

Özgənin uşağını dəyişdirmə əməlinin fiziki ziyanından başqa, çox dərin mənəvi zərəri də danılmazdır. Burada uşağın azadlığı, valideynin qanunla qorunan hüquq və mənafeləri ziyan çəkir. Əmələ hüquqi qiymət verilməsindəki boşluğun aradan qaldırılması cəzanın sosial ədaləti bərpa etmək məqsədini təmin etmiş olar.

Digər tərəfdən bu əməlin ehtiyatsızlıqdan törədilməsi cinayət qanununda nəzərdə tutulmayıb. Burada kriminalizasıya prosesinin vacibliyi özünü göstərir. Əməlin mənfi motivlər olmadan – ehtiyatsızlıqdan törədilməsi dekriminal olmamalıdır. Çünki bu, tibb personalında məsuliyyətsizlik hissini yarada bilər. Dəyişmə zamanı insanın azadlığı, onun kimliyi, şəxsiyyəti zərər görür. Cinayət qanununda aşağıdakı məzmunda yeni maddənin əlavə edilməsini təklif edirik:

172-1 “Tibb müəssisələrində uşağın mühafizəsi və ya ona qayğı göstərilməsi vəzifəsini daşıyan şəxs tərəfindən ehtiyatsızlıqdan özgənin uşağını dəyişdirmə – bir ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə bir ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır”.

İnsan hüquq və azadlıqlarının təmini, xüsusilə də gender hüququ baxımından əhəmiyyət daşıyan məsələlərdən biri də, Cinayət Məcəlləsinin 176-1-ci maddəsi, yəni, “Qadını nikaha daxil olmağa məcbur etmə” maddəsi ilə əlaqədardır. Belə ki, bu maddədə zərərçəkmiş şəxsin xüsusiləşməsi, yəni ancaq qadının bu maddədən zərərçəkmiş şəxs qismində tanınması insan hüquq və azadlıqlarının təminində cinsi fərq yaratmış olur. Bu, ilk növbədə, Azərbaycan Respublikası Konstitusiyasının 25-ci maddəsində təsbitini tapmış “Bərabərlik hüququ” na ziddir. Həmin maddədə qeyd edilir ki, hamı qanun və məhkəmə qarşısında bərabərdir. Kişi ilə qadının eyni hüquqları və azadlıqları vardır. Dövlət, irqindən, etnik mənsubiyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq, hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat

verir. İnsan və vətəndaş hüquqlarını və azadlıqlarını irqi, etnik, dini, dil, cinsi, mənşəyi, əqidə, siyasi və sosial mənsubiyyətə görə məhdudlaşdırmaq qadağandır. (1)

Ədalət mühakiməsinin həyata keçirilməsi zamanı "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Avropa Konvensiyası müddəalarının və İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedentlərinin tətbiqi haqqında" Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 30 mart 2006-cı il tarixli 5№ li qərarında deyilir ki, insan hüquqları ümumi səciyyəyə malikdir və onların həyata keçirilməsi ilə bağlı məhkəmələr aşağıdakıları nəzərə almalıdırlar:

– bütün insanlar heç bir ayrı-seçkiliyə yol verilmədən əsas hüquq və azadlıqlara malikdirlər;

– insan hüquq və azadlıqları məkan, ərazi hüdudları ilə bağlı deyildir. İnsanlar harada olmalarından asılı olmayaraq əsas hüquq və azadlıqlara malikdirlər;

– insan hüquqları universal, bölünməz olmaqla qarşılıqlı bağlılıqdadır. Milli, dini, tarixi, mədəni özünəməxsusluq nəzərə alınmaqla insan hüquq və azadlıqlarına ali dəyər kimi hörmət və riayət edilməli, onların müdafiəsi təmin olunmalıdır;

– hüquq və azadlıqların həyata keçirilməsi başqalarının hüquq və azadlıqlarını pozmamalıdır;

– insan hüquq və azadlıqları yalnız qanun, konstitusiya və beynəlxalq hüquq normalarında nəzərdə tutulmuş hallarda və qaydada məhdudlaşdırıla bilər;

– hər kəsin qanunla qadağan olunmayan üsul və vasitələrlə öz hüquq və azadlıqlarını müdafiə etmək hüququ vardır;

– hər kəsin hüquq və azadlaqlarının məhkəmədə müdafiəsinə təminat verilir (3).

Nəzərə alaq ki, praktiki cəhətdən kişinin də nigaha məcburi daxil olması mümkündür. Belə olan təqdirdə, konkret halın cinayət tərkibi yaratmaması mübahisə doğurur və insan hüquq və azadlıqlarının təminində bərabərlik hüququnu birbaşa pozur.

Bütün bunları nəzərə alaraq, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 176-1-ci maddəsinin aşağıdakı formada təsbit olunmasını təklif edirik:

**176-1 Qadını və ya kişini nikaha daxil olmağa məcbur etmə**

176-1.1. Qadını və ya kişini nikaha daxil olmağa məcbur etmə –

iki min manatdan üç min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

176-1.2. Eyni əməllər nikah yaşına çatmayan şəxs barəsində törədildikdə –

üç min manatdan dörd min manatadək miqdarda cərimə və ya dörd ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Fikrimizcə, konkret maddənin bu məzmunda müəyyənləşdirilməsi insan hüquq və azadlıqlarının müdafiəsində bərabərlik hüququnu tam təmin etmiş olar.

Aydındır ki, dövlət öz cəza siyasətini ali qanunverici orqan olan Azərbaycan Respublikası Milli Məclisinin qəbul etdiyi Cinayət Məcəlləsi vasitəsilə təmin edir. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 1.2-ci maddəsində qeyd olunur ki, bu Məcəllə Azərbaycan Respublikasının Konstitusiyasına, beynəlxalq hüququn hamılıqla qəbul edilmiş normalarına və prinsiplərinə əsaslanır. Olduqca əhəmiyyətli bir məqam da ondadır ki, cinayət məsuliyyətini müəyyən edən və cinayət törətmiş şəxsin cəzalandırılmasını nəzərdə tutan qanunlar yalnız bu Məcəlləyə daxil olunduqdan sonra tətbiq edilə bilər. Belə ki, hər hansı bir əməlin cinayət-hüquqi məzmun kəsb etməsi, yəni cinayət tərkibi yaratması üçün bu əməlin Cinayət Məcəlləsində təsbit olunması vacibdir. Əks halda baş vermiş əməl ictimai əxlaqla pislənilsə belə, onunla cinayət-hüquqi mübarizə aparılması mümkün olmur.

**İstifadə olunmuş ədəbiyyat siyahısı**

1. Azərbaycan Respublikasının Konstitusiyası. https://www.e-qanun.az/framework/897
2. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. https://www.e-qanun.az/framework/46947
3. Ədalət mühakiməsinin həyata keçirilməsi zamanı "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Avropa Konvensiyası müddəalarının və İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedentlərinin tətbiqi haqqında Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 30 mart 2006-cı il tarixli 5№ li qərarı. https://e-qanun.az/framework/16701

**Самира Бабаева**
**доцент кафедры Права Академии Государственного Управления при Президенте Азербайджанской Республики, д.ф.п.п.**

**Значение совершенствования уголовного законодательства в защите прав и свобод человека**

**Р Е З Ю М Е**

В настоящее время один из наиболее актуальных вопросов уголовного законодательства связан с необходимостью установления в уголовном законодательстве преступлений экоцида и урбицида. На наших историко-правовых землях, многие годы находившихся под армянской оккупацией, были разрушены города и села, уничтожены культурные ценности и исторические памятники. Поведение, являющееся частью такой масштабной, расчетливой и коварной политики, невозможно подогнать под криминальные элементы порчи имущества. При этом был нанесен большой ущерб экологии нашей республики, животному миру, были уничтожены, сожжены леса, отравлена вода рек (примером может служить Охчучай, который является левым рукавом реки Араз) и источники высохли. Эти деяния должны быть включены в главу «Преступления против мира и человечности» Уголовного кодекса как международные преступления.

**Samira Babayeva**
**associate professor of the Law Department of the Academy of Public Administration under the President of the Republic of Azerbaijan, Ph.D. in Law**

**The importance of improving criminal legislation in the protection of human rights and freedoms**

**S U M M A R Y**

Currently, one of the most urgent issues of criminal legislation is related to the need to establish the crimes of ecocide and urbicide in the criminal law. Cities and villages were destroyed, cultural resources and historical monuments were destroyed in our historical and legal lands that were under Armenian occupation for many years. It is impossible to fit the behaviors that are part of such a large-scale, calculated and insidious policy into the criminal elements of property damage. At the same time, great damage was done to the ecology of our republic, the animal world, forests were destroyed, burned, the water of the rivers was poisoned (Okhchuchay, which is the left branch of the Araz river, can be an example of this) and the springs dried up. These acts should be included in the chapter "Crimes against Peace and Humanity" of the Criminal Code as international crimes.

***Nəsib ŞÜKÜROV***

Azərbaycan Respublikası
Dövlət Gömrük Komitəsi Akademiyasının
Hüquq və hümanitar kafedrası,
h.ü.f.d., dosent

# AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ MƏCLİSİ KONSTİTUSİYANIN HÜQUQİ MÜHAFİZƏSİNİN SUBYEKTİ KİMİ

***Açar sözlər:*** *əsas qanun, konstitusiyaya zidd olmama, qanunvericilik hakimiyyəti, konstitusiya nəzarəti, hüquqi dövlət, məhkəmə hakimiyyəti, hakimiyyət bölgüsü, konstitusiyanın aliliyi, konstitusiyanın hüquqi mühafizəsi.*

***Ключевые слова:*** *основной закон, непротиворечие конституции, законодательная власть, конституционный надзор, правовое государство, судебная власть, разделение властей, верховенство конституции, правовая охрана конституции.*

***Keywords:*** *fundamental law, consistency of the constitution, legislative power, constitutional supervision, rule of law, judiciary, separation of powers, supremacy of the constitution, legal protection of the constitution.*

Bütün dövlət orqanları müəyyən məzmunda və həcmdə hakimiyyət səlahiyyətlərinə (hüquq və vəzifələrin məcmusuna) malikdirlər. Həmin səlahiyyətlər onlara hakim siyasi qrupun siyasətini, müvafiq iradəsini yalnız inandırma deyil, həm də dövlət məcburetmə tədbirləri vasitəsi ilə həyata keçirməyə imkan verir. Dövlət orqanlarının bu mühüm xüsusiyyətini nəzərə alaraq onları adətən dövlət hakimiyyəti orqanları adlandırırlar. Hər bir konkret orqanın səlahiyyətləri onun həll etməli olduğu vəzifələrin dairəsi, habelə onun dövlət mexanizminin analoji və digər orqanları sistemində yeri ilə müəyyən olunur. Dövlət orqanının səlahiyyət dairəsi dövlət orqanının həll etdiyi və yerinə yetirdiyi konkret vəzifə və funksiyalarla şərtlənir. Dövlət orqanının səlahiyyət dairəsi, onun səlahiyyətlərinə daxil olan məsələlər bir qayda olaraq qanunvericilikdə təsbit edilir. [7, s. 146-147].

Dövlət orqanının səlahiyyəti dedikdə, "müəyyən idarəetmə predmeti üzərində hakimiyyətin həyata keçirilməsi həddi başa düşülür" [8, s. 63]. Hər hansı orqanın konkret səlahiyyəti həmin orqanın vəzifə və funksiyalarını yerinə yetirməsi zamanı müvafiq hüquqi aktlar qəbul etməsi və digər tədbirləri görməsi üçün ona verilmiş hüquq və eyni zamanda öhdəliklərini nəzərdə tutur.

Dövlət orqanının öz səlahiyyətlərini həyata keçirməsi onun nəinki hüququ, həm də vəzifəsidir. Q.V.Atamançuk dövlət orqanlarının səlahiyyətlərini "ictimai həyatın müvafiq sahələrində həmin orqanların funksiyaları, hüquq və vəzifələrinin məcmusu kimi xarakterizə edir" [9, s. 121].

Dövlət orqanları öz səlahiyyətlərini əsasən üç üsulla həyata keçirir: normativ hüquqi aktların (ümumi xarakterli göstərişlərin) qəbul edilməsi yolu ilə; hüquq tətbiqetmə aktlarının (fərdi xarakterli göstərişlərin) qəbul edilməsi yolu ilə; konkret-təşkilati fəaliyyətlə.

Parlamentin fəaliyyəti ölkəmizdə parlamentarizmin yaranması və formalaşdırılması, demokratiyanın gələcək taleyi və inkişafı forması ilə bilavasitə əlaqədardır. Vətəndaşların parlamentdə onların maraqlarını təmsil edən Milli Məclis üzvlərinə münasibəti bir çox hallarda parlamentin dövlət hakimiyyəti orqanları sistemində yerini və parlamentarizmin inkişaf prespektivlərini müəyyən edir.

Parlamentin əsas funksiyaları baxımından onun qanunvericilik səlahiyyəti xüsusi yer tutur. Belə ki, qəbul olunan qanunlar cəmiyyətin ictimai həyatına bilavasitə təsir göstərir. Parlamentin stenoqramının öyrənilməsi isə qanunvericilik səlahiyyətlərinin həyata keçirilməsində qüsurların müəyyən olunmasına köməklik edir.

Azərbaycan Respublikasının Konstitusiyası Milli Məclisin səlahiyyətlərini onun müəyyən etdiyi ümumi qaydalar və həll etdiyi məsələlərdən ibarət olmaqla iki qrupa bölür. Milli Məclisin müəyyən etdiyi ümumi qaydalarla həll etdiyi məsələlər arasında fərqli cəhətlər vardır. Milli Məclis tərəfindən ümumi qayda müəyyən edilməsi onun tərəfindən hüquq norması müəyyən edilməsini nəzərdə tutur. Milli Məclisin müəyyən etdiyi ümumi qaydalar onun qanunvericilik funksiyası ilə bağlıdır. AR Konstitusiyasının 94-cü maddəsi Milli Məclisin müəyyən etdiyi ümumi qaydaları təsbit edir. AR Konstitusiyasının 95-ci maddəsində isə Milli Məclis tərəfindən həll edilən məsələlərin dairəsi göstərilmişdir. Milli Məclisin həll etdiyi məsələlər qanunvericilik hakimiyyətini təmsil edən orqan kimi onu icra və məhkəmə hakimiyyəti ilə əlaqələndirən və hakimiyyət bölgüsündə iştirak etməyə imkan verən səlahiyyətlərindən təşkil olunmuşdur.

Milli Məclisin qanunvericilik səlahiyyəti qanunların qəbul edilməsi ilə bağlı səlahiyyətlər toplusu olub, parlamentin səlahiyyətlərinin əsasını təşkil edir. Burada söhbət qanunların dərc edilməsindən deyil, onların qəbul edilməsindən gedir.

Fikrimizcə, AR Konstitusiyasının 94-cü maddəsində Milli Məclisin müəyyən etdiyi ümumi qaydalar qanunverici orqan tərəfindən sosial həyatın müxtəlif sahələrində yaranan ictimai münasibətlərin tənzim olunması imkanlarının genişliyini göstərir.

Azərbaycan Respublikasının Konstitusiyasında hakimiyyətin bölünməsi ilə əlaqədar səlahiyyətlər yalnız bir hakimiyyət budağına, yəni Milli Məclisə münasibətdə kəskin fərqləndirilməklə təsbit edilmişdir. Yuxarıda göstərdiyimiz AR Konstitusiyasının 94-cü maddəsində əks olunan müxtəlif fəaliyyət sahələrinə dair Milli Məclisin qanunlar qəbul etməsindən söhbət gedir. AR Konstitusiyasının 94-cü maddəsində təsbit olunan səlahiyyətlər qanunvericilik hakimiyyəti tərəfindən nə məhkəmə, nə də icra hakimiyyətinin fəaliyyətinə hər hansı şəkildə müdaxilə etməyə imkan vermir.

Dövlət hakimiyyətinin ayrı-ayrı budaqlarına məxsus olan səlahiyyətlərin həcmindən, onların bir-birinə münasibətindən asılı olaraq, hakimiyyət bölgüsünün mövcud olub-olmaması haqqında mülahizə yürütmək olar. Buna görə də hakimiyyətlərin bölünməsini təhlil edərkən qanunvericilik, icra və məhkəmə hakimiyyətləri üçün səciyyəvi olan səlahiyyətlərə xüsusi diqqət yetirmək zəruridir. Qanunvericilik, icra və məhkəmə hakimiyyətlərinə məhz o səlahiyətləri aid etmək olar ki, onlar həmin hakimiyyət qollarının bir-birinə təsir etməsi və nəzarət etməsini təmin edir. Azərbaycan Respublikasının Milli Məclisinə məxsus olan səlahiyyətlər digər hakimiyyət qoluna yönəlir və onun fəaliyyət sahəsinə təsir etməyə imkan verir. Bu baxımdan AR Milli Məclisinin dövlət hakimiyyəti sistemində tutduğu yeri müəyyənləşdirmək üçün onun formalaşdırılması əsaslarını, habelə təyinatını müəyyən edən normalar nəzərə alınmalıdır.

Qanunvericilik prosesi özünü hüquqi əhəmiyyətli hərəkətlərin həyata keçirilməsinin rəsmi qaydası kimi təqdim edir. Qanunvericilik prosesində bir sıra hüquq və vəzifələr yaranır. Bu vəzifələr qanun layihəsinin hazırlanması, müzakirəsi və razılaşdırılmasından,

hüquqlar isə layihənin baxılmaq üçün qanunverici orqan tərəfindən layihə üzrə bu və ya digər qərarın qəbul edilməsi və yeni qəbul olunmuş aktın dərc olunması vəzifəsindən ibarətdir. Qanunvericilik prosesində yaranmış münasibətlər həm konstitusiya hüquqi, həm də inzibati hüquqi xarakter daşıyır. Məsələn, qanunvericilik təşəbbüsünün həyata keçirilməsi, qanunun qəbul edilməsi və onun dərc olunması zamanı konstitusiya hüquqi xarakterli, tabelikdə olan orqana qanun layihəsinin hazırlanması haqqında tapşırıq verildikdə isə inzibati-hüquqi xarakterə malik hüquq münasibətləri mövcud olur.

Azərbaycan Respublikasının Milli Məclisi Konstitusiyanın normalarının icrası üçün həmin normaları konkretləşdirən və inkişaf etdirən, hüquq münasibətlərinin bütün subyektləri tərəfindən konstitusion normalara əməl olunmasını nəzərdə tutan qanunlar qəbul edir.

Qanunverici orqan olan AR-nın Milli Məclisi Konstitusiyanın hüquqi mühafizəsinin subyektlərindən biridir. Başqa sözlə, AR-nın Konstitusiyasının aliliyini təmin etmək və onun mühafizəsini həyata keçirmək AR Milli Məclisinin fəaliyyətində önəmli yer tutur.

Milli Məclisin fəaliyyətinin əsas məsələlərindən birini həmçinin insan və vətəndaş hüquq və azadlıqlarının, konstitusiyanın ali dəyərlərinin mühafizəsidir. Konstitusiyaya əməl etmək Milli Məclisin mühüm vəzifəsidir. Konstitusiyanın mühafizəsi ilə bağlı Milli Məclisin üzərinə çox böyük vəzifələr düşür. Milli Məclis Əsas Qanun sayılan Konstitusiyanın effektiv hüquqi mühafizəsini həyata keçirən dövlət orqanlarından biridir. Bu istənilən hüquqi dövlətin mühüm atributudur.

Azərbaycan Respublikası Milli Məclisinin dövlət hakimiyyəti sistemində aparıcı rolu onun Konstitusiyanın hüquqi mühafizəsi məsələlərinin həllində fəaliyyətini qabaqcadan müəyyən edir və bu baxımdan səlahiyyətləri üzərində müəyyən izlər buraxır. Başqa sözlə, Milli Məclis Konstitusiyanın hüquqi mühafizəsi üçün Əsas Qanunun verdiyi imkanlardan fəal istifadə edir və fəaliyyətinin bu istiqamətini ardıcıl olaraq genişləndirir.

Milli Məclis Konstitusiyanın hüquqi mühafizəsini təmin etmək məqsədilə ilk növbədə Əsas Qanunda öz əksini tapmış müddəaların pozulmasına görə məsuliyyət müəyyən edən normalar qəbul edir.

Milli Məclis tərəfindən qəbul olunmuş AR Cinayət Məcəlləsinin 40 maddəsi və İnzibati Xətalar Məcəlləsinin 133 maddəsi birbaşa Konstitusiyanın hüquqi mühafizəsinə həsr olunmuşdur. Deməli, Milli Məclisin fəaliyyətinin əsas istiqamətlərindən birini hüquqi vasitələrin köməyi ilə dövlətin Əsas Qanunu olan Konstitusiyanın statusunu təmin etmək, yəni onun hüquqi mühafizəsini həyata keçirmək təşkil edir.

Bundan başqa, Konstitusiyanın hüquqi mühafizəsinin Milli Məclis tərəfindən həyata keçirilməsinə ehtiyacın olmasını Konstitusiya Məhkəməsinin qərarları da sübut edir. Belə ki, adıçəkilən Məhkəmənin bir sıra qərarlarında Milli Məclis tərəfindən qəbul olunmuş normaların AR-nın Konstitusiyası ilə ziddiyyət təşkil etmədiyi göstərilmişdir. Məsələn, AR Konstitusiya Məhkəməsinin 11 iyun 2002-ci il tarixli Qərarında bildirilmişdir ki, "AR Mülki Prosessual Məcəlləsinin 67-ci və 423-cü maddəsi AR Konstitusiyasına uyğundur" [1].

Digər misal. AR Konstitusiya Məhkəməsinin 29 yanvar 2004-cü il tarixli Qərarında qeyd olunmuşdur ki, "AR Cinayət Məcəlləsinin 264-cü maddəsi AR Konstitusiyasının 66-cı maddəsinə uyğundur" [2].

Daha bir misal. AR Konstitusiya Məhkəməsinin 23 aprel 2021-ci il Qərarında göstərilmişdir ki, "AR Cinayət Məcəlləsinin 85.3 və 85.4-cü maddələri AR Konstitusiyasının 17-ci maddəsinin V hissəsi ilə ziddiyyət təşkil etmir" [4].

Ümumiyyətlə, fəaliyyət göstərdiyi müddət ərzində AR-nın Konstitusiya Məhkəməsi təxminən 500-ə qədər müraciətlə bağlı qərar qəbul etmişdir. Həmin müraciətlərin 27-si

bilavasitə AR-nın Milli Məclisi tərəfindən qəbul olunmuş normativ hüquqi aktların bəzi maddələrinin AR-nın Konstitiusiyasına uyğunluğunun yoxlanılmasına dair olmuşdur. Konstitusiya Məhkəməsinin 13 müraciət əsasında gəldiyi nəticə ondan ibarət olmuşdur ki, Milli Məclisin qəbul etdiyi normativ hüquqi aktlar AR-nın Konstitusiyasına uyğundur, başqa sözlə, həmin normativ hüquqi aktlar Əsas Qanunun normaları ilə ziddiyyət təşkil etmir. Bununla yanaşı, 14 halda Milli Məclisin qəbul etdiyi qanunların bəzi maddələri AR-nın Konstitusiyasına uyğun olmadığı üçün Konstitusiya Məhkəməsinin qərarı ilə qüvvədən düşmüş hesab edilmişdir. Məsələn, AR Konstitusiya Məhkəməsinin 20 sentyabr 2004-cü il tarixli Qərarında bildirilmişdir ki, "AR Mülki Məcəlləsinin 133.1-ci maddəsi AR-nın Konstitusiyasına uyğun olmadığına görə qüvvədən düşmüş hesab edilsin" [3].

Təəssüflər olsun ki, Konstitusiyanın hüquqi mühafizəsinin subyektlərindən biri sayılan AR-nın Milli Məclisi tərəfindən qəbul edilmiş qanunların bəzi maddələri Əsas Qanuna uyğun olmur. Söylədiklərimizin sübutu kimi Konstitusiya Məhkəməsinin qeyd etdiyimiz 14 qərarından başqa, "Normativ hüquqi aktlar haqqında" 21 dekabr 2010-cu il tarixli AR-nın Konstitusiya Qanununun 2.5-ci maddəsində yer alan müddəanı da göstərmək istərdik. Həmin maddəyə əsasən, "Mülki Məcəllə mülki hüquq normalarını əks etdirən digər məcəllə və qanunlarla ziddiyyət təşkil etdikdə AR-nın Mülki Məcəlləsi tətbiq edilir" [5] (Adıçəkilən maddənin AR-nın Konstitusiyasına uyğunluğu ilə bağlı hələ ki, Konstitusiya Məhkəməsinə müraciət olunmamışdır). Bu maddə AR Konstitusiyasının 149-cu maddəsinə ziddir. Çünki Əsas Qanunun 149-cu maddəsində normativ hüquqi aktların iyerarxiyası qəti olaraq müəyyənləşmişdir. Sözügedən konstitusion normadan açıq aydın olur ki, Mülki Məcəllə qanunlardan fərqlənən bir normativ hüquqi akt deyildir. Yəni Mülki Məcəllə də öz hüquqi statusuna görə qanun növündə bir normativ hüquqi aktdır. Bu baxımdan Mülki Məcəllədə öz əksini tapmış müddəa özündə mülki hüquq normalarını ehtiva edən digər məcəllə və qanunlardan üstün hüquqi qüvvəyə malik ola bilməz. Bununla bağlı S.S.Süleymanlı haqlı olaraq yazır: "Normariv hüquqi aktlar haqqında" Konstitusiya Qanununun 2.5-ci maddəsinin müddəası ilə eyni Konstitusiya Qanununun 10-cu maddəsi birlikdə nəzərdən keçirildikdə, sözügedən Konstitusiya Qanununda çox açıq bir şəkildə Mülki Məcəllənin digər bütün qanun və məcəllələrdən daha üstün hüquqi qüvvəyə malik olduğunun nəzərdə tutulduğuna şahid oluruq.(6, s. 57-58, 62)

Beləliklə, fkrimizi yekunlaşdıraraq aşağıdakı nəticəyə gəlmək olar:

Qanunverici orqan olan AR-nın Milli Məclisi Konstitusiyanın hüquqi mühafizəsinin subyektlərindən biridir. Başqa sözlə, AR Konstitusiyasının aliliyini təmin etmək və onun mühafizəsini həyata keçirmək AR Milli Məclisinin fəaliyyətində önəmli yer tutur. Milli Məclis Konstitusiyanın hüquqi mühafizəsini təmin etmək məqsədilə ilk növbədə Əsas Qanunda öz əksini tapmış müddəaların pozulmasına görə məsuliyyət müəyyən edən normalar qəbul edir. Bundan başqa, Konstitusiyanın hüquqi mühafizəsinin Milli Məclis tərəfindən həyata keçirilməsinə ehtiyacın olmasını Konstitusiya Məhkəməsinin qərarları da sübut edir.

### İstifadə olunmuş ədəbiyyat siyahısı

1. AR KM "MPM-nin 67 və 423-cü maddələrinə dair" 11 iyun 2002-ci il tarixli Qərarı: [Elektron resurs] / https://is.gd/AZWv9H

2. AR KM "CM-nin 264-cü maddəsinin Konstitusiyaya uyğunluğunun yoxlanılmasına dair" 29 yanvar 2004-cü il tarixli Qərarı: [Elektron resurs] / https://is.gd/WbooaQ

3. AR KM "Mülki Məcəllənin 133.1-ci maddəsinin Konstitusiyaya uyğunluğunun yoxlanılmasına dair" 20 sentyabr 2004-cü il tarixli Qərarı: [Elektron resurs] / https://is.gd/9waEZb

4. AR KM Plenumunun "CM-nin 85.3 və 85.4-cü maddələrinin Konstitusiyaya uyğunluğunun yoxlanılmasına dair" 23 aprel 2021-ci il tarixli Qərarı: [Elektron resurs] / https://is.gd/ABrngi

5. "Normativ hüquqi aktlar haqqında" AR-nın Konstitusiya Qanunu // 21 dekabr 2010-cu ildə qəbul edilmişdir (30 sentyabr 2021-ci ilədək olan dəyişiklik və əlavələr): [Elektron resurs] / https://is.gd/YslCKf

6. Süleymanlı, S.S. Mülki hüququn əsasları / S.S.Süleymanlı. – Bakı: Amade Group Yayınları, – 2019. – 500 s.

7. Şükürov, N.H. Dövlət hakimiyyəti mexanizminin bəzi nəzəri məsələləri / N.H.Şükürov. – Bakı: Qanun, – 2012. – 256 s.

8. Şükürov, N.H. Konstitusiya Məhkəməsinin dövlət həyatında rolu // AR-nın Konstitusiya Məhkəməsi, AMEA Hüquq və İnsan Haqları İnstitutu, Qara dəniz və Xəzər dənizi Regionu Ölkələri Hüquqşünasları Assosiasiyasının birgə təşkil etdiyi Ümummilli lider H.Ə.Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr edilmiş "XXI əsrdə insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində müasir nəzəri və praktiki yanaşmalar" mövzusunda respublika elmi-nəzəri konfransın materialları, – Bakı: – 03 may, – 2019, – s. 237-249.

9. Атаманчук, Г.В. Государственное управление (организационно-функциональные вопросы) / Г.В.Атаманчук. – Москва: ОАО "НПО Экономика", – 2000. – 302 с.

## X Ü L A S Ə

Məqalədə, Azərbaycan Respublikası Milli Məclisinin müasir dövrün ictimai, siyasi və hüquqi həyatında effektiv və zəruri institutlarından birini təşkil etdiyi, onun konstitusiyanın hüquqi mühafizəsi mexanizmində əsas elementlərdən birinə çevrilməsi, hakimiyyət bölgüsü prinsipinə müvafiq olaraq hakimiyyət qollarından biri kimi müstəqil fəaliyyət göstərməsi, qanunvericilik sisteminə daxil olan normativ hüquqi aktlara müntəzəm olaraq əlavə və dəyişiklərin edilməsilə kolliziyaları aradan qaldırılmaqla müvafiq subyektlər arasındakı konfliktlərin qarşısın alması, hüququn tətbiqi praktikasında məntiqi ahəngdarlığı formalaşdırması, konstitusiyanın aliliyinin təmini, vətəndaşların və ictimai münasibətlərin digər subyektlərinin pozulmuş hüquq və azadlıqlarının müdafiə və bərpası sahəsində mütərəqqi mexanizmlərin yaradılması kimi məsələlər geniş tədqiq olunur.

**Насиб Шюкюров**
**Юридическая и гуманитарная кафедра Академии**
**Государственного Таможенного Комитета**
**Азербайджанской Республики,**
**д.ф.п.п., доцент**

## Милли Меджлис Азербайджанской Республики как субъект правовой охраны Конституции

## Р Е З Ю М Е

В статье исследуется, как Милли Меджлис Азербайджанской Республики представляет собой один из действенных и необходимых институтов в общественно-

политической и правовой жизни современной эпохи, и его превращение в один из основных элементов механизма правовой защиты конституции, способность действовать самостоятельно в качестве одной из ветвей власти в соответствии с принципом разделения властей, предотвращать конфликты между соответствующими субъектами путем регулярного внесения дополнений и изменений в нормативные правовые акты, входящие в систему законодательства, и устранения коллизий, широко освещаются такие вопросы, как формирование логической последовательности в практике правоприменения, обеспечение верховенства конституции, создание прогрессивных механизмов в сфере защиты и восстановления нарушенных прав и свобод граждан и иных субъектов общественных отношений.

**Nasib Shukurov**
**Department of Law and Humanities of the**
**Academy of the State Customs Committee,**
**Doctor of Philosophy in Law, Associate Professor**

## Milli Majlis of the Republic of Azerbaijan as a subject of legal protection of Constitution

### S U M M A R Y

The article explores how the Milli Majlis of the Republic of Azerbaijan is one of the most effective and necessary institutions in the socio-political and legal life of the modern era, and its transformation into one of the main elements of the mechanism for the legal protection of the constitution, the ability to act independently as one of the branches of power in accordance with the principle of separation of powers, to prevent conflicts between the relevant entities by regularly introducing additions and changes to regulatory legal acts, included in the system of legislation, and the elimination of conflicts, issues such as the formation of a logical sequence in the practice of law enforcement, ensuring the supremacy of the constitution, the creation of progressive mechanisms in the field of protection and restoration of violated rights and freedoms of citizens and other subjects of public relations are widely covered.

***Sevinc HÜSEYNOVA***

Hüquq və İnsan Haqları İnstitutunun Hüquqi tədqiqat
şöbəsinin hüquq tədqiqatçısı, h.ü.f.d.

# İNSAN HÜQUQ VƏ AZADLIQLARININ MƏHKƏMƏ MÜDAFİƏSİ

***Açar sözlər:*** *insan hüquq və azadlıqları, məhkəmə müdafiəsi, cinayət mühakimə icraatı, qətimkan tədbiri, azadlıq hüququ, qanunvericilik aktları, beynəlxalq məhkəmə praktikası, Avropa İnsan Hüquqları Konvensiyası, Avropa İnsan Hüquqları Məhkəməsi, Avropa Məhkəməsinin qərarları*

***Ключевые слова:*** *права и свободы человека, судебная защита, уголовное судопроизводство, запретительный судебный приказ, право на свободу, законодательные акты, международная судебная практика, Европейская конвенция о правах человека, Европейский суд по правам человека, решения Европейского суда*

***Keywords:*** *human rights and freedoms, judicial protection, criminal proceedings, restraining order, right to liberty, legislative acts, international jurisprudence, European Convention on Human Rights, European Court of Human Rights, decisions of the European Court*

Məhkəmə müdafiəsi insan hüquq və azadlıqlarının təmin olunmasının müxtəlif mexanizm və vasitələrinin ən geniş yayılmış formasıdır. Onun təyinatı BMT-nin Mülki və Siyasi Hüquqlar Haqqında Paktda [8] (2200A (XXI) saylı 16 dekabr 1966-cı il), BMT Baş Məclisi tərəfindən bəyan edilmiş İnsan hüquqları haqqında Ümumi Bəyannaməsində [9] (10 dekabr 1948-ci il Baş Assambleyanın 217 A saylı qətnaməsi), İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Konvensiyasında [10] (Roma, 4.XI.1950) və s. beynəlxalq sənədlərdə qeyd olunur. Belə ki, Ümumi Bəyannamənin 8-ci maddəsinə əsasən, hər bir insan, Konstitusiya və ya qanunla ona verilən əsas hüquqlarının pozulması hallarında səlahiyyətli məhkəmələr tərəfindən bu hüquqlarının səmərəli şəkildə bərpa edilməsi hüququna malikdir.

Məhkəmə orqanlarının sistemi və onların fəaliyyət qaydası hər bir dövlətin hüquq sistemi ilə müəyyən olunur.

Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın 14-cü maddəsinə əsasən, hər kəs ona qarşı irəli sürülən hər hansı cinayət ittihamına baxılarkən, yaxud hər hansı bir mülki prosesdə onun hüquq və vəzifələri müəyyənləşdirilərkən işinə qanun əsasında yaradılmış səlahiyyətli, müstəqil və qərəzsiz məhkəmə tərəfindən ədalətlə və açıq baxılması hüququna malikdir. Həmçinin İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Konvensiyasının 5-ci maddəsinə əsasən hər kəsin azadlıq və şəxsi toxunulmazlıq hüququ var. Heç kəs qanunla müəyyən olunmuş aşağıdakı hallardan və qaydadan başqa azadlığından məhrum edilə bilməz: a) səlahiyyətli məhkəmə tərəfindən məhkum olunduqdan sonra, şəxsi qanuni həbsə almaq; b) məhkəmənin qanuni çıxardığı qərarı icra etməməyə görə və ya qanunla nəzərdə tutulmuş hər hansı öhdəliyin icra olunmasını təmin etmək məqsədilə şəxsin qanuni tutulması və ya həbsə alınması; c) hüquq pozuntusunun törədilməsində əsaslı şübhə

ilə bağlı şəxsin səlahiyyətli məhkəmə orqanı qarşısında durmasından irəli gələn və ya onun tərəfindən törədilən hüquq pozuntusunun, yaxud törətdikdən sonra onun gizlənməsinin qarşısını almaq üçün kifayət qədər zəruri əsasların olduğunun hesab edildiyi hallarda şəxsin qanuni tutulması və ya həbsə alınması və s. Həmin Konvensiyanın 6-cı maddəsinə uyğun olaraq, hər kəs, onun mülki hüquq və vəzifələri müəyyən edilərkən və ya ona qarşı hər hansı cinayət ittihamı irəli sürülərkən, qanun əsasında yaradılmış müstəqil və qərəzsiz məhkəmə vasitəsilə, ağlabatan müddətdə işinin ədalətli və açıq araşdırılması hüququna malikdir.

İnsan və vətəndaş hüquq və azadlıqlarının məhkəmə müdafiəsi Azərbaycan Respublikasında da xüsusi əhəmiyyətə malik məsələlərdən biridir. Belə ki, Azərbaycan Respublikası Konstitusiyasının 60-cı maddəsinə əsasən, hər kəsin hüquq və azadlıqlarının məhkəmə müdafiəsinə təminat verilir. Hər kəsin hüququ var ki, onun işinə qərəzsiz yanaşılsın və həmin işə inzibati icraat və məhkəmə prosesində ağlabatan müddətdə baxılsın. Hər kəsin inzibati icraat və məhkəmə prosesində dinlənilmək hüququ vardır. Hər kəs dövlət orqanlarının, siyasi partiyaların, hüquqi şəxslərin, bələdiyyələrin və vəzifəli şəxslərin hərəkətlərindən və hərəkətsizliyindən inzibati qaydada və məhkəməyə şikayət edə bilər.

Beləliklə, pozulmuş subyektiv hüquqların və qanunla qorunan mənafelərin müdafiəsi üçün məhkəməyə müraciət hüququ vətəndaşların hüquqlarının müdafiəsinin əsas formalarından biridir. Belə ki, məhkəmə sistemi mükəmməl olan ölkələrdə insan hüquqları pozulmuş şəxslər məhkəmələr vasitəsilə öz hüquqlarının nəinki bərpasına, həmçinin bu hüquqların pozulması nəticəsində onlara dəymiş maddi və mənəvi zərərin əvəzinin ödənilməsinə də nail olurlar.

Xüsusi olaraq qeyd edək ki, Azərbaycan Respublikasının Konstitusiyasının 24-cü maddəsi insan və vətəndaş hüquqlarının və azadlıqlarının əsas prinsipi özündə əks etdirir. Həmin Konstitusiyanın 26-cı maddəsində İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının müdafiəsindən bəhs edilir və 28-ci maddəsində isə qeyd edilir ki, Azadlıq hüququ yalnız qanunla nəzərdə tutulmuş qaydada tutulma, həbsəalma və ya azadlıqdan məhrumetmə yolu ilə məhdudlaşdırıla bilər [1].

Eyni zamanda Azərbaycan Respublikası Konstitusiyasının müddəaları imkan verir ki, şəxs hüquqlarının pozulduğu hallarda bilavasitə məhkəməyə müraciət etsin. Bundan əlavə, Konstitusiyanın 72-ci maddəsində göstərilir ki, hər bir şəxs onun hüquq və azadlıqlarından bilavasitə irəli gələn vəzifələri daşımaqla bərabər, qanunlara əməl etməli, başqa şəxslərin hüquq və azadlıqlarına hörmət etməlidir. İnsan hüquqları haqqında Ümumi Bəyannamənin 10,11-ci maddələrinə və Azərbaycan Respublikası Konstitusiyasının 63-cü maddəsinə müvafiq olaraq şəxsə qarşı irəli sürülən ittihamın əsassızlığının müəyyən edilməsi üçün onun işinə tam və bərabərlik əsasında, açıq və ədalətin bütün tələblərinə riayət olunmaqla, müstəqil, qərəzsiz məhkəmədə baxılmalıdır. Şəxsin onun təqsiri qanunla nəzərdə tutulan qaydada sübuta yetirilmədikə və bu barədə məhkəmənin qanuni qüvvəyə minmiş hökmü olmadıqda, şəxs təqsirsiz sayılır. “Məhkəmələr və hakimlər haqqında” 10 iyun 1997-ci il tarixli Azərbaycan Respublikası Qanununun 3-cü maddəsində qeyd edilir ki, Azərbaycan Respublikası məhkəmələrinin fəaliyyəti yalnız ədalət mühakiməsinin və qanunvericiliklə müəyyən edilmiş hallarda və qaydada məhkəmə nəzarətinin həyata keçirilməsinə yönəldilmişdir [7].

Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin 11-ci maddəsinə əsasən Azərbaycan Respublikasında cinayət prosesi hər kəsin qanun və məhkəmə qarşısında hüquq bərabərliyi əsasında həyata keçirilir. Cinayət prosesini həyata keçirən orqanlar cinayət prosesində iştirak edən şəxslərdən hər hansı birinə vətəndaşlıq, sosial, cinsi, irqi, milli, siyasi və dini mənsubiyyətindən, dilindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq

mövqeyindən, əqidəsindən, yaşayış yerindən və olduğu yerdən asılı olmayaraq və qanunla əsaslandırılmamış digər mülahizələrə görə üstünlük vermir. Məcəllənin 12-ci maddəsinə uyğun olaraq cinayət prosesini həyata keçirən orqanlar cinayət prosesində iştirak edən bütün şəxslərin Konstitusiya ilə təsbit edilmiş insan və vətəndaş hüquq və azadlıqlarına riayət olunmasını təmin etməlidirlər. Həmçinin Məcəllənin 14-cü maddəsinə görə hər kəsin azadlıq hüququ yalnız qanunla nəzərdə tutulmuş qaydada və hallarda onun tutulması, həbsə alınması və ya azadlıqdan məhrum edilməsi ilə məhdudlaşdırıla bilər. Bu Məcəllə və Azərbaycan Respublikasının digər qanunu ilə müəyyən edilmiş əsaslar olmadan heç kəs tutula və həbs edilə bilməz. Şəxsin həbsdə saxlanılmasına, habelə tibb və ya tərbiyə müəssisəsinə məcburi yerləşdirilməsinə yalnız məhkəmə qərarı əsasında yol verilir. Hər bir tutulmuş və ya həbsə alınmış şəxsə dərhal tutulmanın, yaxud həbsə almanın səbəbləri, habelə şübhənin və ya ittihamın mahiyyəti, ifadə verməmək və müdafiəçi tərəfindən hüquqi yardım almaq hüquqları ona aydın olan dildə bildirilməlidir. Təhqiqatçı, müstəntiq, prokuror və ya hakim qanunsuz tutulmuş, yaxud həbsdə saxlanılan şəxsi dərhal azad etməlidir [5].

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 148.4-cü maddəsinə görə 148.1 və 148.2-ci maddələrində nəzərdə tutulmuş hallardan biri mövcud olduqda tutulma müvafiq cinayət işi başlananadək həyata keçirilə bilər. Cinayət işinin başlanmasına dair qərar şəxsin tutulduğu andan 24 saat keçənədək qəbul olunmazsa, tutulmuş şəxs dərhal azad olunmalıdır. Qətimkan tədbiri qismində həbs CPM-in 154-cü maddəsi nəzərdə tutur ki, cinayət işi üzrə icraatda həbs daxil olmaqla on qətimkan tədbiri tətbiq oluna bilər.

Həbs daxil olmaqla istənilən qətimkan tədbiri o hallarda tətbiq edilə bilər ki: (a) cinayət prosesini həyata keçirən orqandan gizlənmək; (b) cinayət prosesində iştirak edən şəxslərə qanunsuz təsir göstərməklə, cinayət təqibi üzrə əhəmiyyət kəsb edən materialları gizlətməklə və ya saxtalaşdırmaqla ibtidai istintaqın və ya məhkəmə baxışının normal gedişinə mane olmaq; (c) cinayət qanunu ilə nəzərdə tutulmuş əməli yenidən törətmək və ya cəmiyyət üçün təhlükə yaratmaq; (d) cinayət prosesini həyata keçirən orqanın çağırışlarına üzrlü səbəblər olmadan gəlməmək və ya digər yolla cinayət məsuliyyətinə cəlb edilməkdən və cəza çəkməkdən boyun qaçırmaq; (e) məhkəmə hökmünün icra edilməsinə maneə törətmək təhlükəsi mövcud olsun (155.1-ci maddə). Qətimkan tədbirinin seçilməsinin zəruriliyi və onlardan hansının konkret şübhəli və ya təqsirləndirilən şəxsə tətbiq edilməsi məsələsi həll edilərkən təhqiqatçı, müstəntiq, ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror və ya məhkəmə aşağıdakıları nəzərə almalıdır: (a) şübhəli və ya təqsirləndirilən şəxsə istinad edilən əməlin ağırlığını, xarakterini və törədilmə şəraitini; (b) şübhəli və ya təqsirləndirilən şəxsin şəxsiyyətini, yaşını və səhhətini, məşğuliyyət növünü, ailə, maddi və sosial vəziyyətini, o cümlədən himayəsində şəxslərin və daimi yaşayış yerinin olmasını; (c) əvvəllər cinayətin törədilməsini və qətimkan tədbirinin seçilməsini və digər əhəmiyyətli halları (155.2-ci maddə). Bundan başqa, bir qayda olaraq, bu Məcəllənin 155.1.1-155.1.3-cü maddələrində nəzərdə tutulmuş hərəkətlərin qarşısını almaq məqsədi ilə, 2 (iki) ildən artıq müddətə azadlıqdan məhrum etmə növündə cəza təyin edilə bilən cinayətin törədilməsində ittiham olunan şəxsə tətbiq oluna bilər (155.3-cü maddə).

Cinayət işi üzrə məhkəməyədək icraatda həbsdə saxlama müddətinin axımı cinayət işinin məhkəməyə göndərildiyi, yaxud həbs və ya ev dustaqlığı qismində qətimkan tədbirinə xitam verildiyi gün dayandırılır (158.3-cü maddə).

14 iyun 2005-ci il tarixli qanunvericilik dəyişikliklərindən sonra (Məcəllənin 158.5-ci maddəsi çıxarılmışdır) CPM məhkəmə icraatı zamanı qətimkan tədbiri qismində həbsdə saxlama müddətinə aid hər hansı məhdudiyyəti artıq nəzərdə tutmur [6].

Azərbaycan Respublikası məhkəmələrində işlərə açıq, kollegial surətdə, tərəflərin iştirakı ilə çəkişmə prinsipinə uyğun olaraq ictimaiyyətin nəzarəti altında baxılması təmin edilir. Bununla da vətəndaşların qanunla nəzərdə tutulmuş hüquqlarının təmin edilməsi mexanizminin möhkəmləndirilməsinə geniş şərait yaranır.

Qeyd etmək lazımdır ki, insan hüquq və azadlıqlarının prioriteti, cinayət mühakimə icraatının çəkişmə forması, xüsusi maraqların dövlət maraqlarından üstün tutulması və s. bu kimi qabaqcıl hüquq ideyalarını özündə birmənalı şəkildə əks etdirən yeni CPM-də indiyə kimi realizə mexanizmləri tam şəkildə işlənib hazırlanmamış, təkmilləşməyə, müəyyən hallarda ölkə Konstitusiyasına uyğunlaşdırılmaya ehtiyac duyan norma və hüquq institutları da mövcuddur.

Fikrimizcə, Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən mütəmadi olaraq cinayət-prosessual qanunvericiliyə edilən əlavə və dəyişikliklər, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu tərəfindən tez-tez CPM-in ayrı-ayrı maddələrinin Konstitusiyaya uyğunluğunun yoxlanılması və bəzən onlar arasında ziddiyyətin aşkar edilməsi söylənilən fikirləri bir daha təsdiq edir [3, 11].

Bütövlükdə, məhkəmə hakimiyyəti özünün müstəqilliyi, yüksək statusu, səlahiyyətliliyi və avtoriteti ilə cinayət mühakimə icraatı sferası da daxil olmaqla, şəxsin konstitusion hüquq və azadlıqlarını təmin etməlidir. Məhkəmə hakimiyyətinin həyata keçirilməsi zamanı məhkəmə nəzarəti institutu mühüm əhəmiyyət kəsb edir. Prosessual nəzarət demək olar ki, cinayət prosesinin bütün mərhələlərində, xüsusən də cinayət prosesində qərarların qəbul edilməsi zamanı təmin edilir. Vətəndaşların hüquq və azadlıqlarının məhkəmə müdafiəsi forması kimi məhkəmə nəzarətinin bərqərar olması və inkişafı cinayət mühakimə icraatında şəxsin hüquqlarının təminatının müqayisəedilməz mexanizmidir. Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin LII fəsli bütövlükdə məhkəmə nəzarətinin həyata keçirilməsinə həsr edilmişdir. Burada məhkəmə nəzarətinin həyata keçirilməsi qaydasında məhkəmənin hər kəsin azadlıq, mənzil toxunulmazlığı, şəxsi toxunulmazlıq hüququnu, şəxsi sirrinin (o cümlədən, ailə həyatının yazışmalarının, telefon danışıqlarının, poçt, teleqraf və başqa məlumatların) saxlanılması hüququnu məhdudlaşdıran, habelə dövlət, peşə və ya kommersiya sirrini özündə əks etdirən məlumatları ilə bağlı istintaq hərəkətlərinin məcburi aparılmasına, prosessual məcburiyyət tədbirlərinin həyata keçirilməsinə dair vəsatət və təqdimatlara, cinayət prosesini həyata keçirən orqanların prosessual hərəkətlərinə və qərarlarına dair şikayətlərə baxılması üzrə və s. səlahiyyətləri qeyd olunur.

Bu istiqamətdə digər normativ-hüquqi akt "Konstitusiya Məhkəməsi haqqında" 23 dekabr 2003-ci il tarixli Azərbaycan Respublikası Qanunudur. Qanunun 1-ci maddəsində qeyd edilir ki, Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi Azərbaycan Respublikasının Konstitusiyası ilə onun səlahiyyətlərinə aid edilmiş məsələlərə dair ali konstitusiya ədalət mühakiməsi orqanıdır. Konstitusiya Məhkəməsinin əsas məqsədləri Azərbaycan Respublikası Konstitusiyasının aliliyini təmin etmək, hər kəsin əsas hüquq və azadlıqlarını müdafiə etməkdir.

Hüquq və azadlıqların pozulması nəticəsində ərizəçiyə ağır və bərpaedilməz zərərin vurulmasının digər məhkəmələr vasitəsi ilə qarşısının alınması mümkün olmadıqda, şikayət bilavasitə Konstitusiya Məhkəməsinə verilə bilər. Bu istiqamətdə qəbul edilmiş və beynəlxalq hüquq normalarını, o cümlədən beynəlxalq məhkəmə praktikasını nəzərə almaqla insan hüquq və azadlıqlarının daha real təmin edilməsinə yönəlmiş bir sıra milli normativ-hüquqi aktlar da xüsusi qeyd edilməlidir. Belə ki, Azərbaycan Respublikası Prezidentinin 19 yanvar 2006-cı il tarixli "Azərbaycan Respublikasında məhkəmə sisteminin müasirləşdirilməsi və "Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına

dəyişikliklər və əlavələr edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Fərmanının 6-cı bəndində Azərbaycan Respublikası Ali Məhkəməsi və Azərbaycan Respublikası Apellyasiya Məhkəmələrinə tövsiyə edilmişdir ki, İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedent hüququnun öyrənilməsi işini təşkil etsinlər və onu məhkəmə təcrübəsində nəzərə alsınlar. Bundan əlavə, "Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 28 dekabr 2006-cı il tarixli Sərəncamının 5-ci bəndində Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinə və Azərbaycan Respublikası Ali Məhkəməsinə tövsiyə edilmişdir ki, insan hüquqlarının müdafiəsini tənzimləyən beynəlxalq sənədlərin müddəalarının məhkəmə təcrübəsində tətbiqini təmin etsinlər.

Beləliklə, bütövlükdə insan hüquqları sahəsində mühüm beynəlxalq hüquq normalarına və İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedent hüququna istinad edilməsi Azərbaycan Respublikası qanunvericiliyinin insan hüquqları sahəsində beynəlxalq-hüquqi standartlara, İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin prinsiplərinə uyğunlaşdırılmasına gətirib çıxarmışdır.

Avropa Məhkəməsi yalnız Avropa İnsan Hüquqları Konvensiyasında və onun əlavə Protokollarında nəzərdə tutulan hüquq və azadlıqların pozulması ilə bağlı işlərə baxmaq səlahiyyətinə malikdir.

Məhkəmənin qəti qərarları iş üzrə tərəf olan dövlətlər üçün məcburi xarakter daşıyır. Avropa Məhkəməsi işin mahiyyəti üzrə iki növ qərar qəbul edir: birinci növ qərarda Məhkəmə hüquq pozuntusunun bəyan edilməsi ilə kifayətlənir və bu növ qərar deklarativ xarakter daşıyır. İkinci növ qərarda Məhkəmə cavabdeh dövlətin üzərinə zərərçəkən tərəfə ədalətli kompensasiya ödənilməsi öhdəliyini qoyur. Ədalətli kompensasiya özündə mənəvi zərəri, maddi ziyanı və məhkəmə xərclərini ehtiva edir.

Ədalət mühakiməsinin həyata keçirilməsi zamanı "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Avropa Konvensiyası müddəalarının və İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedentlərinin tətbiqi haqqında 30 mart 2006-cı il tarixli 5 nömrəli Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumu qərarında qeyd edilir ki, Azərbaycan Respublikasında məhkəmə sisteminin müasirləşdirilməsi və "Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 19 yanvar 2006-cı il tarixli Fərmanı da məhz insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsinin təmininə, məhkəmə sisteminin müasirləşdirilməsinə, məhkəmə hakimiyyətinin möhkəmlənməsinə yönəlmişdir.

Fərmanda Azərbaycan Respublikasının Ali Məhkəməsinə və digər yuxarı instansiya məhkəmələrinə İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedent hüququnun öyrənilməsi işini təşkil etmələri və onu məhkəmə təcrübəsində nəzərə almaları tövsiyə edilmişdir.

Ədalət mühakiməsinin həyata keçirilməsi zamanı məhkəmələr tərəfindən "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Avropa Konvensiyası müddəalarının və İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedentlərinin düzgün və vahid qaydada tətbiqinin təmini məqsədilə Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumu Qərarına əsasən insan hüquqları ümumi səciyyəyə malikdir və onların həyata keçirilməsi ilə bağlı məhkəmələr aşağıdakıları nəzərə almalıdır: bütün insanlar heç bir ayrı-seçkiliyə yol verilmədən əsas hüquq və azadlıqlara malikdirlər; insan hüquq və azadlıqları məkan, ərazi hüdudları ilə bağlı deyildir. İnsanlar harada olmalarından asılı olmayaraq əsas hüquq və azadlıqlara malikdirlər; insan hüquqları universal, bölünməz olmaqla qarşılıqlı bağlılıqdadır.

Milli, dini, tarixi, mədəni özünəməxsusluq nəzərə alınmaqla insan hüquq və azadlıqlarına ali dəyər kimi hörmət və riayət edilməli, onların müdafiəsi təmin olunmalıdır; hüquq və azadlıqların həyata keçirilməsi başqalarının hüquq və azadlıqlarını pozmamalıdır; insan hüquq və azadlıqları yalnız qanun, konstitusiya və beynəlxalq hüquq normalarında nəzərdə tutulmuş hallarda və qaydada məhdudlaşdırıla bilər; hər kəsin qanunla qadağan olunmayan üsul və vasitələrlə öz hüquq və azadlıqlarını müdafiə etmək hüququ vardır; hər kəsin hüquq və azadlaqlarının məhkəmədə müdafiəsinə təminat verilir.

Azərbaycan Respublikası "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Avropa Konvensiyasının iştirakçısı və onu 2002-ci ilin aprel ayının 15-də ratifikasiya etmiş dövlət kimi Konvensiya və onun Protokollarının təfsiri və tətbiqi məsələləri üzrə İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin yurisdiksiyasının məcburiliyini tanıyır. Azərbaycan Respublikası Konvensiyanı ratifikasiya etdiyi dövrdən sonra yurisdiksiyası altında olan insanların Konvensiyada nəzərdə tutulan hüquqlarını təmin etməlidir.

Məhkəmələrə izah edilsin ki, hüququn aliliyi və insan hüquqlarına hörmət Avropa Şurasının Nizamnaməsinin 3-cü maddəsində nəzərdə tutulan əsas dəyərlərdəndir. Konvensiyanın 6-cı maddəsi ilə təminat verilən ədalətli məhkəmə baxışı prinsipi hüququn aliliyinə və insan hüquqlarına hörmətin həyata keçirilməsinə xidmət edir.

Məhkəmələrə tövsiyə edilsin ki, Azərbaycan Respublikasının tərəfdar çıxdığı "Vətəndaş və siyasi hüquqlar haqqında Beynəlxalq Paktı"ın 9-cu maddəsinin 3-cü bəndinə istinad edərək həbs qətimkan tədbirinin tətbiqinin ümumi təcrübəyə çevrilməsinə imkan verməsinlər. Şəxsin məhkəməyə gəlməsinə təminatların mövcud olduğu təqdirdə onun azadlıqda qalmasına üstünlük verilməlidir.

Həbs qətimkan tədbirinə müstəsna tədbir kimi baxılmalı və başqa qətimkan tədbirinin tətbiqinin qeyri-mümkün olduğu, son dərəcə zəruri hallarda tətbiq olunmalıdır.

Məhkəmələr nəzərə almalıdırlar ki, azadlıq hüququ məhdudlaşdırılmış şəxslər "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyanın 5-ci maddəsinin 3-cü bəndinə əsasən azadlıqlarının məhdudlaşdırılması ilə bağlı ağlabatan müddətdə məhkəmə baxışının keçirilməsi, həmçinin barələrində həbs qətimkan tədbiri seçilməsinə zərurət olmadıqda, məhkəməyədək azad olunmaq hüququna malikdirlər.

Azərbaycan Respublikası 15 aprel 2002-ci il tarixdə Avropa İnsan Hüquqları Konvensiyası və onun Protokollarının ratifikasiya olunduğunu bəyan edib. Həmin tarixdən Konvensiya və onun Protokolları Azərbaycana münasibətdə qüvvəyə minib və Azərbaycan Respublikası yurisdiksiyası altında olan şəxslərin Avropa İnsan Hüquqları Məhkəməsinə müraciət etmək hüququ yaranıb.

Məhkəmənin bütün qərarları ilə "HUDOC" normativ bazası vasitəsilə Məhkəmənin rəsmi internet səhifəsində yerləşdirilmişdir [11].

Azərbaycan Respublikasının 2001-ci ilin yanvarından Avropa Şurasının üzvü olması hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu prosesinin sürətlənməsi, milli qanunvericiliyin Avropa Şurasının tələblərinə və Avropa hüquq standartlarına uyğunlaşdırılması, demokratik təsisatların, institusional mexanizmlərin yaranması, insan hüquq və azadlıqlarının səmərəli təmin edilməsi sisteminin formalaşması üçün real zəmin yaratmış oldu.

Avropa İnsan Hüquqları Konvensiyası – təyinatı insan hüquqlarının müdafiəsini təmin etməkdən ibarət olan regional beynəlxalq müqavilədir. Bu Konvensiyanı insan hüquqlarına dair beynəlxalq sənədlər içərisində ən effektiv sənəd kimi dəyərləndirmək olar. Buna səbəb onun əsasında yaradılan və fəaliyyət göstərən səmərəli hüquq müdafiə mexanizmidir. Bu, Konvensiyanın 19-cu maddəsi əsasında təsis edilən və daimi əsasda fəaliyyət göstərən

Avropa İnsan Hüquqları Məhkəməsidir. Məhkəmə, iştirakçı-dövlətlərin Konvensiya və əlavə Protokollarla öz üzərlərinə götürdükləri öhdəliklərə riayəti təmin etmək məqsədilə yaradılmışdır.

Avropa İnsan Huquqları Konvensiyasının 46-cı maddəsinə əsasən, Avropa Məhkəməsinin qərarları məcburi xarakter daşıyır. Müvafiq olaraq Məhkəmənin Azərbaycana münasibətdə qərarları dövlət orqanları, o cümlədən məhkəmələr üçün də məcburidir [4, 22].

Avropa Məhkəməsinin qərarlarının milli qanunvericiliyin inkişafına, onun təkmilləşdirilməsinə mühüm təsiri vardır. Bəzi hallarda Məhkəmənin qərarları yeni qanunvericilik aktlarının qəbuluna, cari qanunvericiliyə müəyyən əlavə və dəyişikliklərin edilməsinə, həmçinin milli məhkəmə praktikasının təkmilləşdirilməsinə səbəb olur.

Avropa İnsan Hüquqları Məhkəməsinin qərarları kifayət qədər mürəkkəb və məzmunlu bir sənəddir.

Qərar bir neçə hissədən ibarət olur. Birinci hissədə – "Prosedur" – əsasən, işin qəbul olunma tarixi, şikayətçinin kimliyi və onun fikrincə pozulmuş hüquq və ya hüquqların təsbit olunduğu Konvensiyanın və ya Protokolun (Protokolların) bu və ya digər maddəsi və ya maddələri, işə baxılması üçün təsis edilən Palatanın və ya Komitənin tərkibi, tərəflərin nümayəndələri haqqında məlumat və s. göstərilir.

İkinci hissədə – "Faktlar" – işin hallarının ətraflı şərhi, işə aid olan milli qanunvericilik normaları, şikayətçinin keçdiyi məhkəmə instansiyalarının qərarlarından çıxarışlar və s. göstərilir. Qərarın ən əsas və ən məzmunlu hissəsi "Hüquq" hissəsidir. Burada bütün hüquqi məsələlər əks olunur və araşdırılır. Bu hissənin ən xarakterik xüsusiyyətlərindən biri ondan ibarətdir ki, burada prosesin çəkişmə prinsipi əsasında qurulması aşkar surətdə nəzərə çarpır. Belə ki, hər bir konkret iş üzrə Məhkəmənin həll etməli olduğu hər bir məsələ üzrə əvvəlcə şikayətcinin mövqeyi, sonra cavabdeh – dövlətin mövqeyi, sonra isə bunların əsasında, həmçinin Məhkəmənin öz arqumentləri əsasında Məhkəmənin gəldiyi nəticə əks olunur [2, 134-135].

Azərbaycan Respublikası Prezidentinin 28 dekabr 2006-cı il tarixli Sərəncamı ilə təsdiq edilmiş İnsan hüquqlarının müdafiəsinə dair Milli Fəaliyyət Planında Avropa Məhkəməsinin presedent hüququnun məhkəmə təcrübəsində nəzərə alınması məqsədilə mütəmadi olaraq tədbirlərin keçirilməsi nəzərdə tutulmuşdur.

## İstifadə olunmuş ədəbiyyat siyahısı

1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: Hüquq Yayın Evi, 2019, 116 səh.

2. Əliyev Z. Avropa İnsan Huquqları Məhkəməsi. Bakı, "AZSEA" nəşriyyatı, 2012, 232 səh.

3. Xəlilov F.Y. Cinayət mühakimə icraatında vəkil araşdırması. Monoqrafiya. Bakı: Hüquq Yayın Evi, 2018, 396 səh.

4. İbayev V.Ə. Avropa Məhkəməsi presedentləri: mulkiyyət hüququ. Bakı, "Elm", 2007, 250 səh.

5. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi // https://www.e-qanun.az/framework/46950

6. Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu // https://www.e-qanun.az/framework/46950

7. Məhkəmələr və hakimlər haqqında Azərbaycan Respublikasinin Qanunu // https://www.e-qanun.az/framework/3933 //

8. International Covenant on Civil and Political Rights // https://www.ohchr.org/sites/default/files/ccpr.pdf
9. Universal Declaration of Human Rights // https://www.un.org/en/about-us/universal-declaration-of-human-rights
10. Convention for Protection of Human Rights and Fundamental Freedoms // https://www.magnacartaplus.org/echr/index.htm
11. European Court of Human Rights // https://hudoc.echr.coe.int

## X Ü L A S Ə

Azərbaycan Respublikası vətəndaşlarının, onun ərazisində yaşayan əcnəbilərin, habelə vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikası Konstitusiyasında və digər qanunlarda nəzərdə tutulmuş hüquq və azadlıqlarının, hüquqi şəxslərin qanuni mənafelərinin hər cür qəsdlərdən və qanun pozuntularından məhkəmə icraatının istənilən mərhələsində məhkəmə müdafiəsi hüququ təmin olunur və heç kəs məhkəmə müdafiəsi hüququndan məhrum edilə bilməz. Vətəndaşların hüquq və azadlıqlarının məhkəmə müdafiəsi forması kimi məhkəmə nəzarətinin bərqərar olması və inkişafı cinayət mühakimə icraatında şəxsin hüquqlarının təminatının müqayisəedilməz mexanizmidir.

Hüquq və azadlıqların pozulması ilə bağlı ağır və bərpaedilməz zərərin vurulmasının digər məhkəmələr vasitəsi ilə qarşısının alınması mümkün olmadıqda, şikayət bilavasitə Konstitusiya Məhkəməsinə verilə bilər. Bu istiqamətdə qəbul edilmiş və beynəlxalq hüquq normalarını, o cümlədən beynəlxalq məhkəmə praktikasını nəzərə almaqla insan hüquq və azadlıqlarının daha real təmin edilməsinə yönəlmiş bir sıra milli normativ-hüquqi aktlar da xüsusi qeyd edilməlidir.

Bütövlükdə insan hüquqları sahəsində mühüm beynəlxalq hüquq normalarına və İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedent hüququna istinad edilməsi Azərbaycan Respublikası qanunvericiliyinin insan hüquqları sahəsində beynəlxalq-hüquqi standartlara, İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin ideologiyasına uyğunlaşdırılmasına gətirib çıxarmışdır. Avropa Məhkəməsi yalnız Avropa İnsan Hüquqları Konvensiyasında və onun əlavə Protokollarında nəzərdə tutulan hüquq və azadlıqların pozulması ilə bağlı işlərə baxmaq səlahiyyətinə malikdir.

**Севиндж Гусейнова**
**научный сотрудник отдела правовых исследований**
**Института права и прав человека, д.ф.п.п.**

# СУДЕБНАЯ ЗАЩИТА ПРАВ И СВОБОД ЧЕЛОВЕКА

## Р Е З Ю М Е

Права и свободы граждан Азербайджанской Республики, иностранцев, проживающих на ее территории, а также лиц не имеющих гражданства, предусмотренные Конституцией Азербайджанской Республики и другими законами, а также законные интересы юридических лиц гарантируют право на судебную защиту от всякого рода умыслов и нарушений закона на любой стадии судебного разбирательства, причем никто не лишен права на судебную защиту. Становление и развитие судебного контроля как формы судебной защиты прав и свобод граждан представляет собой ни

с чем не сравнимый механизм обеспечения прав личности в уголовном судопроизводстве.

В случае невозможности предотвращения серьезного и непоправимого ущерба, связанного с нарушением прав и свобод через другие суды, жалоба может быть подана непосредственно в Конституционный суд. Особо следует отметить ряд национальных нормативно-правовых актов, принятых в этом направлении и направленных на более реальное обеспечение прав и свобод человека с учетом международно-правовых норм, в том числе международной судебной практики.

Обращение к важным международно-правовым нормам в области прав человека и прецедентному праву Европейского суда по правам человека привело к адаптации законодательства Азербайджанской Республики к международно-правовым нормам в области прав человека и идеологии Европейского суда по правам человека. Европейский суд обладает юрисдикцией рассматривать дела, лишь связанные с нарушениями прав и свобод, предусмотренных Европейской конвенцией о правах человека и Дополнительными протоколами к ней.

**Sevinj Huseynova**
**Research Fellow,**
**Department of Legal Studies, Institute of Law and Human Rights, PhD in Law**

## HUMAN RIGHTS AND FREEDOMS PROTECTION IN COURT

### S U M M A R Y

The rights and freedoms of citizens of the Republic of Azerbaijan, foreigners residing in its territory, as well as stateless persons, provided for by the Constitution of the Republic of Azerbaijan and other laws, and the legitimate interests of legal entities guarantee the right to judicial protection at any stage of the trial against any kind of intent and violation of the law and no one is deprived of the right to judicial protection. The formation and development of judicial control as a form of judicial protection of the rights and freedoms of citizens is an incomparable mechanism for ensuring individual rights in criminal proceedings.

If it is not possible to prevent serious and irreparable damage related to the violation of rights and freedoms through other courts, the complaint may be filed directly with the Constitutional Court. Of particular note are a number of national legal acts adopted in this direction and aimed at more realistic provision of human rights and freedoms, taking into account international legal norms, including international judicial practice.

Appeal to important international legal norms in the field of human rights and the case law of the European Court of Human Rights led to the adaptation of the legislation of the Republic of Azerbaijan to international legal norms in the field of human rights and the ideology of the European Court of Human Rights. The European Court has jurisdiction only to hear cases related to violations of the rights and freedoms provided for by the European Convention on Human Rights and its Additional Protocols.

***Səbinə MİRZƏYEVA***

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Aparatının
Beynəlxalq hüquq və beynəlxalq əməkdaşlıq şöbəsinin müdiri

# UŞAQ HÜQUQLARININ MÜDAFİƏSİNDƏ AZƏRBAYCAN RESPUBLİKASI KONSTİTUSİYA MƏHKƏMƏSİNİN ROLU

***Açar sözlər:*** *Ümummilli Lider, Azərbaycan, Konstitusiya, insan hüquqları, uşaq hüquqları, Konstitusiya Məhkəməsi.*

***Ключевые слова:*** *Общенациональный Лидер, Азербайджан, Конституция, права человека, права детей, Конституционный Суд.*

***Keywords:*** *National Leader, Azerbaijan, Constitution, human rights, children's rights, Constitutional Court.*

***"Uşaqlara qayğı hər bir vətəndaşın borcudur,***
***uşaqlar bizim gələcəyimizdir"***
**Heydər Əliyev**
**Azərbaycan xalqının Ümummilli Lideri**

İnsan hüquqlarına hörmət hər bir cəmiyyətin uşaqlara münasibətindən başlayır. Məlumdur ki, uşaqlar fiziki və psixoloji cəhətdən müdafiəsiz və zəif olduqlarından onların xüsusi qayğı və münasibətə ehtiyacı var və onlar hər bir ölkənin, hər bir xalqın, bütövlükdə bütün bəşəriyyətin gələcəyidir.

Uşaqlar cəmiyyətimizin ən zərif hissəsidir. Onlara uşaqlıqda göstərilən qayğı və məhəbbət gələcək fiziki sağlamlığın, mənəvi saflıq və zənginliyin rəhni kimi qəbul edilir.

Azərbaycan cəmiyyəti tarixən uşaqlara xoş münasibət bəsləmiş və qayğının örnəyi olmuşdur. Bu gün uşaqların sağlam mühitdə böyüməsi və tərbiyə olunması, müvafiq standartlara cavab verən təhsil müəssisələrində təhsil alması üçün hər cür şərait yaradılmışdır.

Uşaqlar barəsində dövlət siyasəti hər bir uşağın zəruri maddi və məişət şəraitində böyüyüb tərbiyə olunmasının, mütərəqqi tələblər əsasında təhsil almasının, layiqli vətəndaş kimi formalaşmasının təmin edilməsinə yönəldilir.

Dövlət siyasəti milli və yerli xüsusiyyətlər nəzərə alınmaqla yaradılmış məqsədli uşaq sosial proqramları əsasında həyata keçirilir. Bu proqramların yerinə yetirilməsinə dövlət orqanları ilə yanaşı digər hüquqi və fiziki şəxslər də iştirak edə bilərlər.

Uşaqların keyfiyyətli təhsil və yüksək dünya standartlarına cavab verən tibbi xidmətlərlə təmin edilmələri, hərtərəfli qayğı ilə əhatə olunmaları, onlar üçün zəruri şəraitin yaradılması, böyüməkdə olan nəslin şəxsiyyət, layiqli vətəndaş kimi formalaşması Azərbaycanda dövlət uşaq siyasətinin Ulu Öndərimiz Heydər Əliyevin ənənələrindən irəli gələn başlıca prinsiplərindəndir.

Ümummilli Liderin ölkəmizə rəhbərliyi dövründə uşaqlara xüsusi diqqət yetirməsi, həmin vaxt səhiyyə, mədəniyyət, təhsil ocaqlarının, məktəbdənkənar müəssisələrin şəbəkəsinin genişləndirilməsi uşaqların təhsilinə, dünyagörüşlərinin zənginləşdirilməsinə və sağlamlıqlarının qorunmasına öz təsirini göstərmişdir.

“Uşaqlara qayğı hər bir vətəndaşın borcudur” deyən Ulu Öndər Heydər Əliyev böyük zövqlə uşaqların bayram şənliklərində, tədbirlərində iştirak edərək onların qayğısına qalmışdır.

Ümummilli Liderin uşaqların təhsilinə onların savadlı və cəmiyyət üçün yararlı olması üçün hər zaman çalışmış, kimsəsiz uşaqların rahat həyat keçirmələrini təmin etmək üçün böyük işlər görmüşdür. Bu məqsədlə bir çox uşaqların dövlət hesabına xaricdə təhsil almalarına imkan yaratmışdır. Ulu Öndər Heydər Əliyev hər zaman “Uşaqlar bizim gələcəyimizdir” deyirdi və əgər bir dövlət öz gələcəyini işıqlı, parlaq görmək istəyirsə gərək uşağa xüsusi diqqət yetirsin. Bu da Heydər Əliyev siyasətinin əsas yollarından biri idi.

İnsanın mənəviyyatını hər şeydən uca tutan, daxili zənginliyini yüksək qiymətləndirən Ümummilli Lider Heydər Əliyev hesab edirdi ki, insan yalnız oxuyub təhsil aldığı məktəbdə, çalışdığı kollektivdə deyil, həmçinin böyüyüb boya-başa çatdığı ailədə formalaşır. Hər bir ailədə böyüyən və tərbiyə alan insan, bütövlükdə dünyaya təsir edə bilir və onun təməlini təşkil edir. Ona görə də bu sosial təsisatın qorunması və müdafiə edilməsi hamımızın vəzifə borcudur.

Azərbaycana rəhbərlik etdiyi hər bir dövrdə çoxuşaqlı və aztəminatlı ailələrə, əmək qəhrəmanlarının ailələrinə xüsusi qayğı göstərir, onların övladlarının təhsilini nəzarətdə saxlayırdı. Ailəni, ailə münasibətlərini son dərəcə yüksək dəyərləndirən Heydər Əliyev hesab edirdi ki, cəmiyyətdəki qarşılıqlı münasibətlərdə olduğu kimi, ailədə də hər bir insan özünəməxsus statusa, qayda-qanuna, əlaqələrə və prinsiplərə riayət etməlidir. Hər bir ailə üzvü öhdəsinə düşən funksiyaları yerinə yetirməli, ailənin rifahı üçün bacardığını etməli, ailə üzvlərinə hörmət və qayğı göstərməli, ailənin sevincini və kədərini birgə yaşamalı, bu sahədə mövcud olan ümumi ənənə və qaydalara sadiq olmalıdır. Çünki ailə olmasa, cəmiyyət də inkişaf edə bilməz. Cəmiyyətin inkişafı ailələrin inkişafından asılıdır. Ailə İnstitutunun möhkəmliyi cəmiyyətin və dövlətin güclənməsinə, inkişaf etməsinə zəmin yaradır.

Əsası Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş bu siyasi xətt bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir və artıq milli strategiya kimi formalaşmışdır. Son illər uşaqların sağlamlıqlarının möhkəmləndirilməsi, onların müasir tələblər səviyyəsində təlim-tərbiyəsinin daha da yüksəldilməsi üçün lazımi şərait yaradılmış, bu istiqamətdə mühüm tədbirlər reallaşdırılmaqdadır. Davamlı olaraq uşaq hüquqları ilə bağlı qanunvericilik və normativ-hüquqi aktlar təkmilləşdirilmiş, uşaq hüquqlarının müdafiəsi, uşaqların normal formalaşması, sağlam böyüməsinə yönəldilmiş dövlət proqramları qəbul edilmişdir.

Son illərdə dövlətimizdə həyata keçirilən hüquqi islahatların təşəbbüskarı məhz dövlət başçısı cənab İlham Əliyev olmuşdur. Bu islahatlara cəza siyasətinin dekriminallaşdırılması, ədalət mühakiməsi sahəsində islahatların daha da dərinləşdirilməsi və sair konseptual məsələlər aid olmuşdur.

Dövlət başçısı cənab İlham Əliyev uşaqların sağlam və firavan böyüməsini, onların rifahının yüksəldilməsini dövlət siyasətinin başlıca vəzifələrindən biri kimi müəyyən edib.

1995-ci il 12 noyabr tarixində ümumxalq səsverməsi ilə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyasının 17-ci maddəsində göstərilir ki “Uşaqların qayğısına qalmaq və onları tərbiyə etmək valideynlərin borcudur. Bu borcun yerinə yetirilməsinə dövlət nəzarət edir”.

Həmçinin Azərbaycan Respublikası Birləşmiş Millətlər Təşkilatının “Uşaq hüquqları haqqında” Konvensiyasına qoşulmuş və “Uşaq hüquqları haqqında” Bəyannaməsini qəbul etmişdir. 1998-ci il mayın 19-da Azərbaycan Respublikasının “Uşaq hüquqları haqqında” və 1999-cu il iyunun 22-də “Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında” qanunları qəbul edilmiş, bu sahədə dövlət siyasətinin əsas prinsipləri müəyyən edilmişdir. 2002-ci il 31 may tarixli “Yetkinlik Yaşına Çatmayanların İşləri

və Hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir ki, yerli icra hakimiyyətlərinin qəyyumluq və himayə orqanlarının, eyni zamanda ölkənin bütün şəhər və rayonlarında yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyaların yaradılması uşaqların hüqularının müdafiəsində qəbul edilmiş ən mühüm sənədlərdən biridir.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin fəaliyətinin əsas istiqamətlərindən biri hər kəsin əsas hüquq və azadlıqlarını müdafiəsindən ibarətdir. Məhz buna görə konstitusiya ədalət mühakiməsi hakimiyyət sisteminin insan hüquqlarının müdafiəsi və hüququn aliliyinin təmin edilməsinin vacib mexanizmlərindən biri kimi qəbul olunur.

Qeyd edilməlidir ki, vətəndaşlar Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə birbaşa müraciət etmək hüququ əldə etdikdən sonra mübahisələndirilən normativ hüquqi aktlarla, məhkəmə aktlarla və bələdiyyə aktlarla ərizəçilərin pozulmuş hüquq və azadlıqlarının bərpa olunması, hüquq və azadlıqlarının məhkəmə müdafiəsi, əmək, mənzil, sosial-təminat, birləşmək hüququ, mülkiyyət və s. hüquqlarının müdafiəsinə müvafiq hüquqi mövqelər formalaşdırılmışdır.

Ailə münasibətlərinin ayrılmaz subyekti olan uşaqların zəruri maddi və məişət şəraitində böyüyüb tərbiyə olunması, mütərəqqi tələblər əsasında təhsil alması, layiqli vətəndaş kimi formalaşması və bütün bunların təmin edilməsi istiqamətində Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin də töhfəsi var.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin bir sıra qərarlarını xüsusilə vurğulamaq istərdim.

Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi Plenumu "Azərbaycan Respublikası Ailə Məcəlləsinin 132.1.1 və 132.1.2-ci maddələrinin şərh edilməsinə dair" 2012-ci il 5 oktyabr tarixində müvafiq Qərar qəbul etmişdir.

Goranboy rayon məhkəməsi Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə ünvanladığı müraciətdə göstərmişdir ki, icraatında olan mülki iş üzrə iddiaçılar G.S. və R.S. övladlığa götürmənin ləğv edilməsinə dair qətnamə çıxarılmasını xahiş etmişlər.

Qərarda qeyd edilmişdir ki, Konstitusiyanın 17-ci maddəsinə əsasən cəmiyyətin əsas özəyi kimi ailə dövlətin xüsusi himayəsindədir. Uşaqların qayğısına qalmaq və onları tərbiyə etmək valideynlərin borcudur. Bu borcun yerinə yetirilməsinə dövlət nəzarət edir.

Uşaq hüquqlarının həyata keçirilməsi, uşaqların yüksək mənəviyyatlı, hərtərəfli şəxsiyyət kimi formalaşmasına şərait yaradılması Azərbaycan Respublikasının dövlət siyasətinin üstün istiqamətlərindən biridir.

Uşağın ailədə yaşamaq və tərbiyə almaq hüququnun həyata keçirilməsi müxtəlif vasitələrlə, o cümlədən övladlığa götürmə institutu ilə təmin edilir. Övladlığa götürmə institutunun əsas məqsədi övladlığa götürülən uşağın normal fiziki və mənəvi inkişafını təmin etməkdir. Övladlığa götürmə zamanı ailə qanunvericiliyinin əsas prinsiplərindən biri olan yetkinlik yaşına çatmayan uşaqların hüquqlarının və mənafelərinin müdafiə edilməsi prinsipi rəhbər tutulur.

Ailə qanunvericiliyində nəzərdə tutulan bu normalar həmçinin övladlığa götürmə məsələlərini tənzimləyən beynəlxalq hüquq sənədlərində də əksini tapmışdır. "Uşaqların övladlığa götürülməsi haqqında" Avropa Konvensiyasının 10-cu maddəsinə əsasən övladlığa götürmə övladlığa götürən şəxsə övladlığa götürülənə münasibətdə qanuni nikahda doğulmuş uşağa münasibətdə atanın yaxud ananın malik olduğu bütün hüquqları və vəzifələri verir. Övladlığa götürmə övladlığa götürülənə onu övladlığa götürən şəxsə münasibətdə qanuni nikahda doğulmuş uşağın öz atasına yaxud anasına münasibətdə malik olduğu bütün hüquqları və vəzifələri verir. Maddədə qeyd olunan hüquqlar və vəzifələr əmələ gəldiyi andan övladlığa götürülənlə onun anası və ya atası arasında, yaxud istənilən digər şəxs və ya təsisat arasında analoji hüquqlara və vəzifələrə xitam verilir.

Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinin Plenumu qərara almışdır ki, Azərbaycan Respublikası Ailə Məcəlləsinin 132-ci maddəsində nəzərdə tutulan əsaslarla övladlığa götürmənin ləğvinə dair qərar qəbul edərkən məhkəmə iş üzrə bütün halları nəzərə almalı və uşağın mənafeyindən çıxış etməlidir. Övladlığa götürənlər tərəfindən uşaqların maraqları və hüquqları nəzərə alınmaqla onların başqa şəxslərlə münasibət qurmalarına məhdudiyyətlərin müəyyən edilməsi valideynlik hüquqlarından sui-istifadə kimi qiymətləndirilə bilməz. Azərbaycan Respublikası Ailə Məcəlləsinin 132-ci maddəsində nəzərdə tutulan əsaslar olduqda həmin Məcəllənin 133-cü maddəsində göstərilən şəxslər tərəfindən övladlığa götürmənin ləğv edilməsi barədə məhkəməyə müraciət edilməsi övladlığa götürmənin sirrini pozmur və Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 175-ci maddəsi ilə nəzərdə tutulan cinayət məsuliyyətini yaratmır.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu “Azərbaycan Respublikası Ailə Məcəlləsinin 80 və 81-ci maddələrinin bəzi müddəalarının şərh edilməsinə” dair 2015-ci il 27 yanvar tarixində müvafiq Qərar qəbul etmişdir.

Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə Bakı Apellyasiya Məhkəməsindən daxil olmuş müraciətdə Azərbaycan Respublikası Ailə Məcəlləsinin 80 və 81-ci maddələrinin “əmək qabiliyyəti olmayan” və 81-ci maddəsinin “göstərilən kənar xidmət”, “və digər hallarda” müddəalarının şərh olunması xahiş edilmişdir.

Müraciətdə Ailə Məcəlləsinin 81.1-ci maddəsinin “göstərilən kənar xidmət” müddəası ilə yetkinlik yaşına çatmamış uşaqların ödənişli təhsil müəssisələrində təhsil alması zamanı yaranan xərclərin və ya yetkinlik yaşına çatmış övladların əyani təhsil alması ilə bağlı təhsil haqqı xərclərinin, ümumiyyətlə bu maddə ilə təhsil xərclərinin əhatə olunub-olunmamasının aydın olmadığı göstərilmişdir.

Qərarda qeyd edilmişdir ki, Azərbaycan Respublikası Konstitusiyasının 12-ci maddəsinin I hissəsinə əsasən insan və vətəndaş hüquq və azadlıqlarının, Azərbaycan Respublikasının vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsi dövlətin ali məqsədidir.

Uşaqlara qayğı göstərmək, onları tərbiyə etmək valideynlərin həm hüququ, həm də borcudur. Valideynlərə hörmət etmək, onların qayğısına qalmaq uşaqların borcudur. 18 yaşına çatmış əmək qabiliyyətli uşaqlar əmək qabiliyyəti olmayan valideynlərini saxlamağa borcludurlar (Konstitusiyanın 34-cü maddəsinin IV və V hissələri). Uşaq hüquqlarının həyata keçirilməsi, uşaqların yüksək mənəviyyatlı, hərtərəfli şəxsiyyət kimi formalaşmasına şərait yaradılması Azərbaycan Respublikasının dövlət siyasətinin üstün istiqamətlərindən biridir. Uşaqlar barəsində dövlət siyasəti hər bir uşağın zəruri maddi və məişət şəraitində böyüyüb tərbiyə olunmasının, mütərəqqi tələblər əsasında təhsil almasının, layiqli vətəndaş kimi formalaşmasının təmin edilməsinə yönəldilir.

“Uşaq hüquqları haqqında” Konvensiyanın 3-cü maddəsinin 1-ci bəndinə əsasən uşaqlar barəsində bütün tədbirlərdə əsas diqqət uşaq mənafelərinin daha yaxşı təmin edilməsinə yönəldilir, istər bu tədbirlər sosial təminat məsələləri ilə məşğul olan dövlət idarələri və ya özəl idarələr tərəfindən görülsün, istərsə də məhkəmələr Ailə Məcəlləsinin 80-ci maddəsində əmək qabiliyyəti olmayan yetkinlik yaşına çatmış övladların aliment almaq hüququ nəzərdə tutulmuşdur. Həmin maddənin birinci hissəsinə müvafiq olaraq valideynlər əmək qabiliyyəti olmayan və maddi yardıma ehtiyacı olan yetkinlik yaşına çatmış övladlarını saxlamağa borcludurlar.

Məhkəmə tərəfindən yetkinlik yaşına çatmış əmək qabiliyyəti olmayan övladlar üçün tutulan alimentin miqdarı təyin edilərkən, tərəflərin ailə və maddi vəziyyəti, bütün gəlir mənbələri, habelə onların diqqətəlayiq başqa maraqları əsas götürülür. Bu zaman əsas meyar övladın yardıma ehtiyacının olması və valideynin ona nə dərəcədə yardım etmək iqtidarında olmasıdır.

Konstitusiya Məhkəməsinin Plenumu qərara almışdır ki, Azərbaycan Respublikası Ailə Məcəlləsinin 80 və 81-ci maddələrinin “əmək qabiliyyəti olmayan” müddəası yetkinlik yaşına çatmış övladın bu və ya digər xəstəlik və ya ondan yaranan qüsurlar nəticəsində əlilliyə məruz qalaraq, peşəkar və ya ümumi əmək fəaliyyəti ilə məşğul olmaq qabiliyyətini, yaxud imkanını tamamilə və ya qismən itirməsi kimi başa düşülməlidir. Azərbaycan Respublikası Ailə Məcəlləsinin 81.1-ci maddəsinin “və digər hallarda” müddəası əmək qabiliyyəti olmayan və maddi yardıma ehtiyacı olan yetkinlik yaşına çatmış övladlar üçün birbaşa göstərilən tibbi xidməti və ya müalicə ilə bu və ya digər şəkildə əlaqədar olan tibbi xidmətləri ehtiva edir. Azərbaycan Respublikası Ailə Məcəlləsinin 81-ci maddəsinin “göstərilən kənar xidmət” müddəası birbaşa tibbi xidməti deyil, yetkinlik yaşına çatmış və maddi yardıma ehtiyacı olan övladlar üçün göstərilmiş və ya gələcəkdə göstərilməsi zəruri olan əlavə xidmətlərə görə xərcləri nəzərdə tutur.

Konstitusiya Məhkəməsinin Plenumu “Cavidan Qafarovun şikayəti üzrə “Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında” Azərbaycan Respublikası Qanununun bəzi müddəalarının Azərbaycan Respublikası Konstitusiyasının 25-ci maddəsinin I hissəsinə uyğunluğunun yoxlanılmasına dair” 2017-ci il 25 yanvar tarixində müvafiq Qərar qəbul etmişdir.

21 yaşı olan və Azərbaycan Tibb Universitetinin 5-ci kursunda ödənişli əsaslarla təhsil alan C.Qafarov atasının 19 may 2016-cı il tarixində vəfat etdiyindən, anasının isə I qrup əlil olduğundan, təhsil haqqını ödəmək imkanının olmamasını əsas gətirərək “Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında” Qanunun 5-ci maddəsində nəzərdə tutulan güzəştlərin tətbiq edilməsi üçün Konstitusiya Məhkəməsinə müraciət etmişdir.

Ərizəçinin Azərbaycan Respublikası Təhsil Nazirliyinə ünvanlandığı məktuba cavab olaraq qeyd edilmişdir ki, Qanuna əsasən valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş və ya ona bərabər tutulan şəxslər (bir valideyni vəfat etmiş, digər valideyni I və II qrup əlil olan) dedikdə, həmin kateqoriyadan olan 18 yaşınadək uşaqlar nəzərdə tutulur. Bu baxımdan, Qanunun 5-ci maddəsində göstərilən təhsil üzrə təminatlar ali təhsil aldıqları müddətdə (19-23 yaşında olan II-VI kurs tələbələri) hər iki valideynini itirmiş və valideyn himayəsindən məhrum olmuş şəxslərə şamil edilmir.

Ərizəçi hesab etmişdir ki, Qanunun əsas məqsədi valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların, habelə onların arasından olan 23 yaşınadək şəxslərin sosial müdafiəsinə dövlət təminatının verilməsidir. Yəni dövlət onların valideyn dəstəyindən məhrum olmasını əsas kimi qəbul edərək, bu şəxsləri dövlətin sosial müdafiəsi ilə əhatə edir. Sosial dəstəkdən faydalanmanın şərti kimi yalnız şəxsin 18 yaşınadək valideyn himayəsindən məhrum olması əsas götürülür, sonradan 18-23 yaş arasında oxşar vəziyyətə düşmüş digər şəxslərin təhsil almaq hüququnun davamlılığına təminat verilmir.

Qərarda qeyd edilmişdir ki, Konstitusiyanın 42-ci maddəsinə əsasən, hər bir vətəndaşın təhsil almaq hüququ vardır. Dövlət pulsuz icbari ümumi orta təhsil almaq hüququnu təmin edir. Təhsil sisteminə dövlət tərəfindən nəzarət edilir. Maddi vəziyyətdən asılı olmayaraq istedadlı şəxslərin təhsili davam etdirməsinə dövlət zəmanət verir. Dövlət minimum təhsil standartlarını müəyyən edir.

Qərarda milli qanunvericiliklə yanaşı bir sıra beynəlxalq sənədlər və presedent hüququna istinadlar edilmişdir.

Konstitusiyanın 12-ci maddəsinin II hissəsinə uyğun olaraq, Konstitusiya Məhkəməsinin Plenumu Konstitusiyada təsbit olunmuş hüquq və azadlıqların məzmununu müəyyən edərkən

Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin müddəalarını, habelə müvafiq beynəlxalq orqanların təcrübəsini nəzərə alır.

Belə ki, "İqtisadi, sosial və mədəni hüquqlar haqqında" Beynəlxalq Paktın 13-cü maddəsində göstərilmişdir ki, bu Paktda iştirak edən dövlətlər hər bir şəxsin təhsil hüququnu tanıyırlar. Onlar razılaşırlar ki, təhsil insan şəxsiyyətinin tam inkişafına və ləyaqətinin dərk olunmasına yönəldilməli, insan hüquqlarına və əsas azadlıqlara hörməti möhkəmləndirməlidir. Onlar daha sonra razılaşırlar ki, təhsil hamıya azad cəmiyyətin faydalı iştirakçısı olmaq imkanı verməlidir, bütün millətlər, irqi, dini və etnik qruplar arasında qarşılıqlı anlaşmaya, dözümlülüyə və Birləşmiş Millətlər Təşkilatının sülhü qoruma sahəsində fəaliyyətinə yardım etməlidir.

"İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyanın 1 saylı Protokolunun 2-ci maddəsinə əsasən, heç bir şəxsin təhsil hüququndan imtina edilə bilməz. Dövlət təhsil və tədris sahəsində öz üzərinə götürdüyü funksiyaları yerinə yetirərkən valideynlərin öz dini və fəlsəfi baxışlarına müvafiq olan təhsil və tədrisi təmin etmək hüququna hörmət edir.

İnsan Hüquqları üzrə Avropa Məhkəməsi məsələyə dair qeyd etmişdir ki, bəzi başqa dövlət xidmətlərindən fərqli olaraq, təhsilin Konvensiya ilə bilavasitə qorunan hüquq olması faktı nəzərdən qaçırıla bilməz. Təhsil, həmçinin ondan istifadə edənlər üçün birbaşa faydalı olan və daha geniş ictimai funksiyalara xidmət göstərən dövlət xidmətinin xüsusi növüdür. Məhkəmə qeyd etmişdir ki, "demokratik cəmiyyətdə təhsil hüququ insan hüquqlarının dəstəklənməsi üçün zəruridir və əsas rol oynayır" (Ponomaryovi Bolqarıstana qarşı iş üzrə 21 iyun 2011-ci il tarixli Qərar, § 33).

Konstitusiya Məhkəməsinin Plenumu belə nəticəyə gəlmişdir ki, "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun 1-ci maddəsinin 12-ci abzasındakı anlayışa 18 yaşına çatdıqdan sonra valideyn dəstəyindən məhrum olmuş və dövlət ali təhsil müəssisələrində əyani formada təhsil alan şəxslərin aid edilməməsi Azərbaycan Respublikası Konstitusiyasının 25-ci maddəsinin I hissəsi ilə uyğunsuzluq təşkil etdiyindən, həmin normanın bu Qərarın təsviri-əsaslandırıcı hissəsində əks olunan hüquqi mövqeyə uyğunlaşdırılması Azərbaycan Respublikasının Milli Məclisinə tövsiyə edilsin.

Qərarda, həmçinin, qeyd olunmuşdur ki, göstərilən məsələ qanunvericilik qaydasında həll edilənədək Konstitusiyanın 25-ci maddəsinin I hissəsinin tələbləri əsas götürülərək, dövlət ali təhsil müəssisələrində ödənişli əsaslarla əyani formada təhsil alan şəxslər "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Qanunun 1-ci maddəsinin 12-ci abzasında göstərilən səbəblərə görə 18 yaşına çatdıqdan sonra valideyn dəstəyindən məhrum olduqda, onların təhsil haqlarının ödənilməsi təhsil aldıqları müddətdə (23 yaşınadək) "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun 38.3-cü maddəsinə müvafiq olaraq təmin edilməlidir.

Konstitusiya Məhkəməsi Plenumunun adıçəkilən Qərarında Milli Məclisə edilən tövsiyə tam icra edilərək "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişiklik edilməsi barədə 30 noyabr 2018-ci il tarixli Azərbaycan Respublikasının Qanunu ilə 1-ci maddənin "valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların arasından olan şəxslər" bəndində "18 yaşınadək hər iki valideynini itirmiş, habelə hər iki valideyninin" sözləri "valideynlərini itirmiş, habelə valideyn" sözləri ilə əvəz edilmişdir.

Konstıtusıya Məhkəməsi Plenumu "Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 85.3 və 85.4-cü maddələrinin Azərbaycan Respublikası Konstitusiyasının 12-ci maddəsinin I hissəsinə, 17-ci maddəsinin IV və V hissələrinə, 26-cı maddəsinin II hissəsinə, 71-ci maddəsinin

I və II hissələrinə, 149-cu maddəsinin I və III hissələrinə uyğunluğuna" dair 2021-ci il 23 aprel tarixində müvafiq qərar qəbul etmişdir.

Sorğuda göstərilmişdir ki, Cinayət Məcəlləsinin 84.1-ci maddəsinə əsasən, cinayət törədərkən on dörd yaşı tamam olmuş, lakin on səkkiz yaşına çatmayan şəxslər yetkinlik yaşına çatmayanlar hesab olunur. Cinayətin subyekti olan yetkinlik yaşına çatmayanlara təyin edilə bilən cəza növlərindən biri ictimai işlərdir. Cinayət Məcəlləsinin 85.3-cü maddəsinin tələbinə görə, ictimai işlər səksən saatdan üç yüz iyirmi saatadək müddətə təyin olunur və yetkinlik yaşına çatmayan məhkumun bacardığı, onun təhsildən və əsas işindən asudə vaxtlarda yerinə yetirdiyi işlərdən ibarətdir. Bu cəza növünün icra müddəti on beş yaşınadək şəxslər üçün gündə iki saatdan, on beş yaşından on altı yaşınadək şəxslər üçün isə gündə üç saatdan çox ola bilməz.

Sorğuverənin qənaətinə görə, ictimai işlər cəzasının işləməsi qadağan olunan 15 yaşınadək şəxslərə münasibətdə tətbiqi onların azadlıq hüququnun məhdudlaşdırılmasına, sağlamlığının qorunması hüququnun, eləcə də bu kateqoriya şəxslərin əmək fəaliyyətinə cəlb edilməsinin qadağan olunması ilə bağlı Konstitusiya normalarının pozulmasına səbəb ola bilər. Halbuki, Konstitusiyanın 149-cu maddəsinin I və III hissələrində göstərilir ki, normativ hüquqi aktlar hüquqa və haqq-ədalətə (bərabər mənafelərə bərabər münasibətə) əsaslanmalıdır. Qanunlar Konstitusiyaya zidd olmamalıdır.

Qərarda qeyd edilmişdir ki, Konstitusiyanın 17-ci maddəsinin IV və V hissələrində göstərilmişdir ki, uşaqları onların həyatına, sağlamlığına və ya mənəviyyatına təhlükə törədə bilən fəaliyyətə cəlb etmək qadağandır. 15 yaşına çatmamış uşaqlar işə götürülə bilməzlər.

Konstitusiya Məhkəməsinin Plenumu qeyd etməyi zəruri hesab etmişdir ki, uşaqların müdafiəsi siyasəti Azərbaycan Respublikasının dövlət siyasətinin tərkib hissəsidir. Uşaqların hüquq və azadlıqlarının qorunması, uşaqların keyfiyyətli təhsil və yüksək standartlara cavab verən tibbi xidmətlərlə təmin edilməsi, onların qayğı ilə əhatə olunması, yüksək mənəvi və sosial mühitdə böyüməsi üçün zəruri şəraitin yaradılması, hərtərəfli şəxsiyyət və layiqli vətəndaş kimi formalaşması Azərbaycan Respublikasının dövlət uşaq siyasətinin prioritet istiqamətlərini təşkil edir

"Uşaq hüquqları haqqında" Konvensiyanın 40-cı maddəsinə müvafiq olaraq, iştirakçı dövlətlər cinayət qanunvericiliyini pozmuş hesab edilən, onu pozmaqda təqsirləndirilən və ya təqsirli sayılan hər bir uşağın onunla elə bir rəftar hüququnu tanıyırlar ki, belə rəftar uşaqda ləyaqət və mənlik hislərinin inkişafına kömək edir, uşaqda insan hüquqlarına və başqalarının əsas azadlıqlarına hörmət hissini möhkəmləndirir və bu zaman uşağın yaşını və onun reinteqrasiyasına və cəmiyyətdə faydalı rol oynamasına kömək göstərilməsinin arzu edildiyini nəzərə alır.

Beynəlxalq hüquq normalarına uyğun olaraq formalaşmış yeni yanaşmaya görə yetkinlik yaşına çatmayan şəxs cinayəti işləmiş kimi deyil, cinayəti törədəcək şəraitə düşürülmüş şəxs kimi qiymətləndirilir. Bu yanaşma uşağı bir cinayətkar olaraq görmür və cinayətə yönəldildiyini qəbul etməklə, onu da cinayətin müəyyən mənada qurbanı kimi qəbul edir. Lakin bu vəziyyət cinayət törətmiş uşağın cəzasız qalacağı mənasına gəlməməli, tətbiq ediləcək sanksiya uşağın vəziyyətinə və törətdiyi əmələ uyğun və mütənasib olmalıdır.

Konstitusiya Məhkəməsinin Plenumu 15 yaşınadək şəxslərin əmək fəaliyyətinə cəlb olunmasının qadağan edilməsi ilə bağlı sorğuda qaldırılan məsələyə münasibətdə göstərilənləri nəzərə alaraq qərara gəlmişdir ki, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 85.3 və 85.4-cü maddələri Azərbaycan Respublikası Konstitusiyasının 17-ci maddəsinin V hissəsi ilə ziddiyyət təşkil etmir. Məhkəmələr ilk dəfə böyük ictimai təhlükə törətməyən və ya az ağır cinayət törətmiş 15 yaşınadək şəxslərə ictimai işlər cəzasının təyin edilməsi məsələsini həll edərkən, ilk növbədə,

onların Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 88.1-ci maddəsinə uyğun olaraq cinayət məsuliyyətindən azad edilməsinə üstünlük verməlidir.

Konstitusiya Məhkəməsi ölkəmizdə demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesində fəal iştirak etməklə yanaşı, qəbul etdiyi qərarlarla hər kəsin Azərbaycan Respublikasının Konstitusiyasına və digər normalara hörmət və ehtiramını, ədalət, azadlıq, humanizm və hüquqi müəyyənlik kimi prinsiplərin möhkəmləndirilməsinə, hüquq düşüncəsinin və mədəniyyətinin inkişafına, konstitusionalizm ideyalarının bərqərar olması işlərində öz dəyərli töhfəsini vermişdir. Təbiidir ki, bu cür fəaliyyət Ümummilli Lider Heydər Əliyev tərəfindən təməli qoyulmuş və Azərbaycan Respublikasının Prezident İlham Əliyevin rəhbərliyi altında uğurla davam etdirilən quruculuq, sürətli inkişaf və demokratikləşmə prosesləri sayəsində həyata keçirilir.

### İstifadə olunmuş ədəbiyyat siyahısı


1. Azərbaycan Respublikasının Konstitusiyası
2. "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikasının Qanunu
3. "Azərbaycan Respublikası Ailə Məcəlləsinin 132.1.1 və 132.1.2-ci maddələrinin şərh edilməsinə dair" 5 oktyabr 2012-ci il tarixli Konstitusiya Məhkəməsi Plenumunun Qərarı
4. "Azərbaycan Respublikası Ailə Məcəlləsinin 80 və 81-ci maddələrinin bəzi müddəalarının şərh edilməsinə" dair 27 yanvar 2015-ci il tarixli Konstitusiya Məhkəməsi Plenumunun Qərarı
5. "Cavidan Qafarovun şikayəti üzrə "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun bəzi müddəalarının Azərbaycan Respublikası Konstitusiyasının 25-ci maddəsinin I hissəsinə uyğunluğunun yoxlanılmasına dair" 2017-ci il 25 yanvar tarixli Konstitusiya Məhkəməsi Plenumunun Qərarı
6. "Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 85.3 və 85.4-cü maddələrinin Azərbaycan Respublikası Konstitusiyasının 12-ci maddəsinin I hissəsinə, 17-ci maddəsinin IV və V hissələrinə, 26-cı maddəsinin II hissəsinə, 71-ci maddəsinin I və II hissələrinə, 149-cu maddəsinin I və III hissələrinə uyğunluğuna dair" 23 aprel 2021-ci tarixli Konstitusiya Məhkəməsi Plenumunun Qərarı.


### X Ü L A S Ə


Uşaqlar barəsində dövlət siyasəti hər bir uşağın zəruri maddi və məişət şəraitində böyüyüb tərbiyə olunmasının, mütərəqqi tələblər əsasında təhsil almasının, layiqli vətəndaş kimi formalaşmasının təmin edilməsinə yönəldilir.

Dövlət siyasəti milli və yerli xüsusiyyətlər nəzərə alınmaqla yaradılmış məqsədli uşaq sosial proqramları əsasında həyata keçirilir. Bu proqramların yerinə yetirilməsinə dövlət orqanları ilə yanaşı digər hüquqi və fiziki şəxslər də iştirak edə bilərlər.

Uşaqların keyfiyyətli təhsil və yüksək dünya standartlarına cavab verən tibbi xidmətlərlə təmin edilmələri, hərtərəfli qayğı ilə əhatə olunmaları, onlar üçün zəruri şəraitin yaradılması, böyüməkdə olan nəslin şəxsiyyət, layiqli vətəndaş kimi formalaşması Azərbaycanda dövlət uşaq siyasətinin Ulu Öndərimiz Heydər Əliyevin ənənələrindən irəli gələn başlıca prinsiplərindəndir.

**Сабина Мирзоева**
**Заведующая отделом**
**международного права и международного сотрудничества**
**Аппарата Конституционного Суда Азербайджанской Республики**

## РОЛЬ КОНСТИТУЦИОННОГО СУДА АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ В ЗАЩИТЕ ПРАВ ДЕТЕЙ

### Р Е З Ю М Е

Государственная политика в отношении детей направлена на то, чтобы каждый ребенок рос и воспитывался в необходимых материально-бытовых условиях, получал образование на основе прогрессивных требований, формировался достойным гражданином.

Данная политика реализуется на основе целевых детских социальных программ, созданных с учетом национальных и местных особенностей. Помимо государственных органов, в реализации этих программ могут участвовать и другие юридические и физические лица.

Предоставление детям качественного образования и медицинских услуг, соответствующих высоким мировым стандартам, оказание им всесторонней помощи, создание для них необходимых условий, формирование подрастающего поколения как личности и достойного гражданина, являются основными принципами государственной детской политики в Азербайджане, происходящие из традиций нашего Великого Лидера Гейдара Алиева.

**Sabina Mirzoyeva**
**Head of the Department of International Law and International Cooperation**
**of the Secretariat of the Constitutional Court of the Republic of Azerbaijan**

## THE ROLE OF THE CONSTITUTIONAL COURT OF THE REPUBLIC OF AZERBAIJAN IN PROTECTING THE RIGHTS OF CHILDREN

### S U M M A R Y

The state policy regarding children is aimed at ensuring that every child grows up and is brought up in the necessary material and living conditions, receives an education based on progressive requirements, and becomes a worthy citizen.

This policy is implemented on the basis of targeted social programs for children, created taking into account national and local characteristics. In addition to state bodies, other legal entities and individuals may participate in the implementation of these programs.

Providing children with quality education and medical services that meet high international standards, providing them with comprehensive assistance, creating the necessary conditions for them, shaping the younger generation as individuals and worthy citizens are the main principles of the state children's policy in Azerbaijan, stemming from the traditions of our National Leader Heydar Aliyev.

***Nazənin HÜSEYNOVA***

Azərbaycan Respublikası Ədliyyə Nazirliyi
Ədliyyə Akademiyasının "Konstitusiya və İnzibati hüquq"
kafedrasının baş müəllimi,h.ü.f.d., dosent

# MİLLİ İDARƏETMƏ MODELİNİN FORMALAŞMASINDA ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN ROLU

***Açar sözlər:*** *islahat, innovativ idarəetmə, dövlət qulluğu, vətəndaş məmnuniyyəti, səmərəli idarəetmə*
***Ключевые слова:*** *реформа, инновационное управление, государственная служба, удовлетворенность граждан, эффективное управление*
***Keywords:*** *reform, innovative management, public service, citizen satisfaction, effective management*

Azərbaycanın milli dövlətçiliyinin memarı, Ümummilli Liderimiz Heydər Əliyevin zəngin dövlətçilik təcrübəsi və siyasi irsi milli dövlətçilik tariximizin ən mühüm səhifələrini təşkil edir. Xalqımız öz dövlətçiliyinin dünyəvi, demokratik, hüquqi əsaslar üzərində bərqərar olunmasına məhz Ulu Öndər Heydər Əliyevin siyasi müdrikliyi, uzaqgörən siyasəti, yorulmaz və gərgin siyasi-diplomatik fəaliyyəti, dövlətçilik təcrübəsi, Azərbaycan xalqının milli maraqlarına bağlılığı nəticəsində nail olmuşdur.

Azərbaycan dövlətçiliyinin, milli müstəqilliyin daimi və dönməz xarakter alması, respublikamızın beynəlxalq aləmdə nüfuzunun artması məhz Heydər Əliyevin böyük zəhmətinin nəticəsidir. O, ən mürəkkəb dövrdə Azərbaycanın müstəqilliyi və xalqın mənafeyi naminə özünün və yaxınlarının həyatını təhlükədə qoymaqdan belə çəkinməmiş, bu gün dövlətimizin bütün sahələrdə, o cümlədən iqtisadi, siyasi, mədəni, hüquqi, beynəlxalq və s. sahələrdəki nailiyyətlərin kökündə duran siyasi kursu bizlərə qiymətli miras qoymuşdur. Ulu Öndərin başlatdığı məqsədyönlü, köklü islahatların nəticəsidir ki, müasir Azərbaycanda müasir, səmərəli və innovativ idarəetmə modeli, "xalqa xidmət" konsepsiyasına əsaslanan peşəkar dövlət qulluğu mexanizmi formalaşdırılmış və idarətmənin hər sahəsindəki inkişaf davamlı bir prosesə çevrilmişdir.

Dünya təcrübəsindən də məlumdur ki, müstəqil, hüquqi dövlətin qurulması və davamlı inkişafı üçün dolğun hüquqi bazanın yaradılması, səmərəli və müasir idarəetmə modelinin, peşəkar dövlət qulluğunun və mükəmməl ədliyyə sisteminin formalaşdırılması zəruri şərtlərdən biridir. Çünki, dövlət idarəetməsi sosial idarəetmənin növlərindən biri və dövlətin sosial-siyasi funksiyalarından biridir. Dövlət idarəetməsi ictimai həyatın sosial, iqtisadi, siyasi, mənəvi və digər sferalarında cərəyan edən proseslərin və təzahürlərin tənzimlənməsini təmin edir, bu və ya digər dərəcədə bütün cəmiyyətin, ayrı-ayrı sosial qrupların və hər bir vətəndaşın maraqlarına birbaşa təsir göstərir. Dövlət idarəetməsinin təbiətinin özü onun cəmiyyətin maraqlarına uyğun qaydada müxtəlif tələbatların, fəaliyyət formalarının uzlaşdırılması vasitəsilə inkişaf proseslərinin tənziminə yönələn xüsusi sosial funksiyası ilə şərtlənir.

Dövlət idarəetməsi cəmiyyətin inkişafının müəyyən mərhələsində, məhz dövlətin yaranması ilə əlaqədar meydana çıxmışdır. Sosial fenomen və dövlətin ayrılmaz funksiyası kimi çıxış edən dövlət idarəetməsi dövlətin bütün inkişaf tarixi boyunca insan, cəmiyyət və dövlət arasındakı əksqarşılıqlı əlaqələr sistemi vasitəsilə inkişaf etmişdir. Klassik idarəetmə modeli keçən əsrin böyük bir hissəsində hakim mövqedə olsa da, artıq 1980-ci illərdə onun cəmiyyətdəki rolunun, dövlətlə vətəndaş arasındakı münasibətlərin xarakterinin dəyişməsinə ictimai zərurət yarandı. Dövlət idarəetməsi sahəsinin tədqiqi ilə məşğul olan mütəxəssislər belə qənaətə gəldilər ki, bazar mexanizmlərinin bürokratik qruluşa tətbiqi bu modelin səmərəsini yüksəldə bilər. İslahatların aparılması, dövlət idarəetməsi sistemlərinin təşkilinin optimal formalarına dair baxışlardakı transformasiyalar, bürokratik fəaliyyətin iqtisadi təhlili döv-lət idarəetməsinin bazara yönümlü modelinin işlənib hazırlanması və tətbiqi üçün şərait yaratdı. Bu model bazar prinsiplərinə əsaslanaraq, idarəetmənin şağuli ierarxiya strukturundan üfiqi əməkdaşlıq münasibətlərinə, idarəetmədə "müəssisə məntiqindən" "xidmət məntiqinə" keçidlə bürokratik aparatda sosial səmərənin yüksəldilməsini nəzərdə tutmalı idi. Beləliklə, dövlət idarəetməsinin modellərinin inkişafı prosesində növbəti tendensiya kimi 1980-1990-cı illərdə "New Public Management" ("Yeni dövlət idarəetməsi") modeli meydana çıxdı.

"Yeni dövlət idarəetməsi" modelinə aid konsepsiyanın nümayəndələri məmurlarla cəmiyyətin qarşılıqlı əlaqəsinə yeni məzmun gətirdilər və artıq vətəndaşa dövlət xidmətlərinin göstərilməsini xahiş edən kimi deyil, istehlak edən müştəri kimi yanaşmağa başlandı. Yeni idarəetmə modeli (NPM) vətəndaşla dövlət orqanları arasındakı münasibətlərinin mahiyyətini kökündən dəyişdi. Artıq dövlət xidmətlərini vətəndaşa təqdim edən dövlət orqanları işlərini məhz onların məmnunluq səviyyəsini təmin etmək istiqamətində qurmağa və bununla da cəmiyyətdə dövlət qulluğuna etimadın artırılmasına çalışmağa başladılar. D.Osborn "İdarəetmənin yenilənməsi" adlı əsərində vurğuladı ki, problemləri dövlət təşkilatlarında çalışan insanlar deyil, onların fəaliyyət göstərdiyi sistemin özü yaradır.

Lakin, yeni idarəetmə modeli idarəetməyə bazar mexanizmlərinin tətbiqi ilə əlaqədar bir sıra yeniliklərə səbəb olsa da, tədricən sosial ədalət prinsipinin realizəsi, ümumilikdə cəmiyyətin maraqlarına uyğun nəticələrin əldə olunması, dövlətin sosial məsuliyyəti kimi əsas dəyərlərin ikinci plana keçmək ehtimalı yarandı. Bunun qarşısını almaq üçün mövcud idarəetmə modelini təkmilləşdirməyə, yeni inzibati islahatlara ehtiyac yarandı. Yeni islahatların ümumi istiqaməti "governance" anlayışı ilə ifadə olundu. "Governance" anlayışını dövlət işlərinin idarə olunması üzrə bütün səviyyələrdə həyata keçirilən iqtisadi, siyasi və inzibati fəaliyyəti nəzərdə tutdu.

1997-ci ildə BMT-nin İnkişaf Proqramı çərçivəsində dövlət idarəetməsinin yeni konsepsiyası kimi "Good Governance" təklif olundu. Beləliklə, dövlət idarəetməsinin yeni modeli – "Good Governance" (səmərəli, yaxşı rəhbərlik, idarəetmə, hökumət) mey-dana çıxdı. "Good Governance" konsepsiyasının mahiyyəti dövlət idarəetməsində sərt metodların nisbətən yumşaldılmasını, reqlamentləşdirilməsini və idarəetmə orqanları ilə vətəndaş cəmiyyəti arasında şaquli münasibətlərdən daha çox üfiqi münasibətlərə əsaslanmanı nəzərdə tutdu. Gördüyümüz kimi, dövlət idarəetməsinin hər bir yeni konseptual modeli əvvəlki modelin optimal potensialının tükənməsi ilə əlaqədar meydana çıxır. İnkişaf etmiş dövlətlər yeni idarəetmə sisteminə olan tələbat ilə mövcud olan modelin inkişaf perspektivini, yeni modelə olan tələbatı müəyyən edirlər. Bu modellər isə biri-birini istisna etmir, əksinə tamamlayır.

Gördüyümüz kimi, müasir dünyada hər bir cəmiyyətin inkişafının vacib şərtlərindən biri olan modernləşmə, qloballaşma dövlətin idarəetmə sistemində, müvafiq olaraq ölkədə aparılan inzibati, hüquqi islahatların, dövlət siyasətinin əsas istiqamətlərində mütləq şəkildə təzahür edir. Çünki, müstəqil və güclü dövlət üçün müasir, peşəkar və səmərəli idarəetmə modeli zəruri şərtlərdən biridir.

Qloballaşma dövlətlərin sabit inkişafının, bütovlüyünün və idarəetmə sistemlərinin stabilliyinin təmin olunmasına, iqtisadi münasibətlərdə ayrı-seçkiliyin aradan qaldırılmasına, xalqların rifah halının yüksəldilməsinə komək etməlidir.[1] Məhz Ulu Öndər Heydər Əliyevin rəhbərlik etdiyi 1993-2003-cü illər ərzində respublikamızda aparılan siyasi, hüquqi, sosial, iqtisadi islahatlar nəticəsində qlobal çağırışlar, müasir tendensiyalar və miili- tarixi dövlətçilik ənənələrinə əsasən dövlətimizin gələcək inkişaf strategiyası müəyyən olunmaqla yanaşı, müasir, innovativ, hüquqi və demokratik dövlət idarəetməsinin də mükəmməl əsasları formalaşdırıldı. Azərbaycan dünya birliyində özünün layiqli yerini tutdu. Aparılan islahatlar ölkədə siyasi sistemi, dövlətçiliyin əsaslarını möhkəmləndirməklə yanaşı, onun daxili və xarici siyasətində uğurlu inkişafı üçün də real təminat mexanizmi formalaşdırdı.

Heydər Əliyev müstəqil respublikada dovlət quruculugunun və cəmiyyətin formalaşmasının məhz demokratik prinsiplər əsasında aparılmalı olduğunu, siyasətdə və iqtisadiyyatda sərbəstlik, hürriyyət, insan azadlığı, insan haqlarının qorunması, bazar iqtisadiyyati kimi prinsiplərin bərqərar olunmasının vacibliyini bəyan etdi.[2] Bütün sahələrdə əhalinin rifahını, insan hüquqlarının və azadlıqlarının təminatını, vətəndaşların maraq və mənafelərinin təmin olunmasını önə çəkən Ulu Öndərin rəhbərliyi ilə 1995-ci ildə qəbul olunan Əsas Qanunda ölkədə dövlət qulluğuna qəbul hüququ vətəndaşların dövlətin idarə olunmasında iştirak formalarından biri kimi müəyyən olundu və dövlət qulluğu mexanizminin konstitusiyon əsasları təsbit olundu. Dövlət idarəetməsi məhz dövlət qulluğunun funksiyaları çərçivəsində həyata keçirilir. Dövlət qulluğunun necə təşkil edildiyinə, tənzimləndiyinə, idarə olunduğuna, peşəkarığın necə inkişaf etdirildiyinə və s. dair suallara məhz dövlətin idarəetmə modelinin məzmununda cavab tapmaq olar.

Ulu Öndərin fərmanı ilə 1998-ci ilin dekabrında dövlət idarəetməsi sahəsində islahatların aparılması məqsədilə Dövlət Komissiyası yaradıldı. Hüquqi İslahat Komissiyasına rəhbərliyi bilavasitə öz üzərinə götürərək Ulu Öndər qısa müddət ərzində hüquq sisteminin əsasını təşkil edən bir sıra mühüm qanun və məcəllələrin qəbul edilməsinə nail oldu. Komissiyanın tövsiyyəsinə əsasən, ölkədə əsaslı islahatların həyata keçirilməsi zəruri olan sahələrdən biri də məhz dövlət qulluğu oldu.

Ümummilli Lider Heydər Əliyevin bilavasitə rəhbərliyi ilə hazırlanmış və 2000-ci il iyulun 21-də qəbul edilmiş "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununda milli dövlət qulluğunun qanunvericilik bazasının təməli qoyuldu, dövlət qulluğunun anlayışı, vəzifələri, şərtləri və prinsipləri müəyyənləşdirildi, dövlət qulluğu vəzifələrinin təsnifat növləri və bir sıra digər mühüm əhəmiyyətli məsələləri öz hüquqi təsbitini tapdı. Qanunda dövlət qulluğuna Azərbaycan Respublikasının Kons-titusiyasına və digər qanunvericilik aktlarına uyğun olaraq dövlətin məqsədlərinin və funksiyalarının həyata keçirilməsi sahəsində dövlət qulluqçularının öz vəzifə səlahiyyətlərini yerinə yetirməsi kimi anlayış verildi.

Dövlətin idarəetmə sisteminə və dövlət qulluğunda çalışanlara ictimai etimadın formalaşdırılması, milli, müasir və səmərəli dövlət idarəetməsi modelinin qurulması

---

[1] H.Ə.Əliyev. Müstəqilliyimiz əbədidir: otuzuncu kitab: sentyabr 2000-noyabr 2000. Bakı, Azərnəşr, 2010.s.12.

[2] H.Ə.Əliyev. Müstəqilliyimiz əbədidir: birinci kitab: iyun 1993 – may 1994. Bakı, Azərnəşr 1997.s.10

məqsədilə Ulu Öndər Heydər Əliyevin siyasəti ölkəmizdə müasir, səmərəli, məsuliyyətli və demokratik idarəçiliyin yaradılmasına, dövlət orqanlarının fəaliyyətində çevikliyin və şəffaflığın gücləndirilməsinə, vətəndaşların qayğı və ehtiyaclarının daha dolğun təmin edilməsinə və dövlət orqanlarının üzərinə düşən funksiyaların səmərəli şəkildə yerinə yetirilməsinə xidmət edən təcrübəli və peşəkar dövlət qulluqçusu korpusunun formalaşdırılmasına yönəldi.

Məhz Heydər Əliyevin fəaliyyəti nəticəsində 1993-2003-cü illərdə hüquqi dövlət quruculuğu prosesində yaxından iştirak edən ədliyyə orqanlarının da idarəetmə sistemi təkmilləşdirildi, Ədliyyə Nazirliyinin fəaliyyət dairəsi genişləndirildi, ədliyyə fəaliyyətinin optimallaşdırılması məqsədilə müvafiq struktur dəyişiklikləri aparıldı və yeni qurumlar yaradıldı. 2000-ci ildə Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycanda üçpilləli yeni məhkəmə sistemi yaradıldı, ilk dəfə olaraq test üsulu ilə yeni hakim korpusu formalaşdırıldı.

Dövlətimizin beynəlxalq və regional təşkilatlarda təmsil olunması, müxtəlif konvensiyalara qoşulması ölkədə yeni idarəetmə sisteminin, dövlət qulluğu modelinin formalaşdırılması ilə bağlı ciddi tədbirlərin görülməsinə də təkan verdi. Müasir beynəlxalq tələblərə cavab verən, çevik və səmərəli, vətəndaşa yönümlü və şəffaf dövlət idarəçiliyinin formalaşdırılması aktual əhəmiyyət kəsb etdi.

Dövlət qulluğu haqqında qanunun dolğun icra mexanizminin formalaşdırılması üçün aparılan islahatların mərkəzində səmərəli və şəffaf mexanizmin yaradılması ilə yanaşı, dövlət idarəetməsinin həyata keçirildiyi dövlət qulluğu mexanizminə ictimai etimadın artırılması, dövlət qulluqçularının etik davranış qaydalarının, korrupsiyaya qarşı səmərəli mübarizə sisteminin, vətənpərvər, peşəkar və intellektual kadr korpusunun formalaşdırılması kimi mühüm məsələlər də öz yerini tapdı.

Dövlət idarəetməsi sahəsində həyata keçirilən siyasətin əsas qayəsini müasir, səmərəli və demokratik idarəçiliyin, səmərəli dövlət qulluğunun, dövlət qulluğunda və dövlət orqanlarının fəaliyyətində şəffaflığın, operativliyin, çevikliyin və nəticə etibarilə ölkə vətəndaşlarının rifah və məmnunluq səviyyəsinin təmin olunması,dövlət qulluqçusu ilə vətəndaş arasındakı münasibətlərdə yeni düşüncə tərzinin, məsuliy-yətli, vətənpərvər, milli dəyərlərə hörmət edən, təcrübəli və peşəkar dövlət qulluqçusu korpusunun formalaşdırılması təşkil etdi. Dövlət qulluğuna şəffaf qəbul mexanizminin, idarəetmə sahəsində peşəkar kadr potensialının yaradılmaşı və inkişaf etdirilməsi, kadrların idarəçilik qabiliyyətlərinə və biliklərinə uyğun yerləşdirilməsi, vətəndaşa yönümlü, səmərəli idarəetmənin yaradılması dövlətçiliyin inkişafının mühüm şərti kimi islahatların əsas istiqamətini müəyyənləşdirdi.

Heydər Əliyevin müstəqil Azərbaycan Respublikasına rəhbərliyi dövründə müstəqil hüquqi dövlət quruculuğu həyata keçirildi, həmçinin bu dövlətin gələcək inkişafının, "xalqa xidmət" konsepsiyasına, vətəndaş məmnunluğuna əsaslanan müasir idarəetmə modelinin də sağlam təməli qoyuldu, eyni zamanda ölkə vətəndaşlarını dövlətçilik ətrafında səfərbər edən, daxildə və beynəlxalq aləmdə vahid amal, əqidə, məqsəd, məram ətrafında birləşdirən milli azərbaycançılıq ideologiyasının və ölkənin siyasi-iqtisadi inkişafının möhkəm təməli formalaşdırıldı.

Ümumilli Liderin layiqli davamçısı cənab Prezident İlham Əliyevin düşünülmüş və müstəqil siyasəti sayəsində respublikamızın dünya ölkələri sırasındakı nüfuzunun daha da artırılmasına, ictimai-siyasi həyatın bütün sahələrində dinamik inkişafın təmininə, innovativ, müasir, səmərəli idarəetmənin, vətəndaşların dövlət xidmətlərindən məmnunluq səviyyəsinin təmin olunmasına yönəlmiş institusional islahatlar bu gün də uğurla davam etməkdədir. Möhtərəm cənab Prezidentin vurğuladığı kimi, ilk növbədə, milli maraqlar,

Azərbaycanın maraqları, xalqımızın rahatlığı, firavanlığı və ölkəmizin təhlükəsizliyi məsələləri ön plandadır.[3]

Dövlətimizin başçısı İlham Əliyevin 2012-ci il 13 iyul tarixli Fərmanına əsasən "ASAN xidmət" milli idarəetmə modeli yaradıldı. Bu model vətəndaşlara dövlət və özəl xidmətləri vahid məkandan göstərilməsini təmin edir, e-hökumətin tərkib hissələrindən biri olub, operativlik, şəffaflıq, nəzakətlilik, məsuliyyət və rahatlıq prinsipləri əsasında fəaliyyət göstərir.Fəaliyyətini vətəndaşların vaxtlarına qənaət etməklə rahat və nəzakətli davranış mühitində dövlət xidmətlərini əldə etməsi prinsipi əsasında quran ilk "ASAN xidmət" mərkəzi 2013-cü il yanvarın 15-də vətəndaşlara xidmət göstərməyə başladı. 2014-cü il fevralın 13-də müasir texnologiyaların məhkəmələrin fəaliyyətində tətbiqi, məhkəməyə müraciət imkanlarının genişlənməsi, ədalət mühakiməsinin həyata keçirilməsində süründürməçilik və sui-istifadə hallarının qarşısının alınması, aşkarlıq və operativliyin təmin edilməsi, məhkəmə qərarlarının icrasına nəzarətin effektivliyinin artırılması, elektron kargüzarlığın və elektron sənəd dövriyyəsinin təmin edilməsi üçün "Elektron məhkəmə" yaradıldı.

Məhz Prezident İlham Əliyevin 2018-ci il 23 noyabr tarixli sərəncamı ilə Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019-2025-ci illər üçün Strategiya hazırlandı. Dövlət qulluğu sisteminin inkişafı üçün orta və uzun müddəti əhatə edən ardıcıl və mərhələli tədbirləri müəyyən edən bu Strategiyanın əsas məqsədi dövlət qulluğu sistemində idarəçiliyin təkmilləşdirilməsi, dövlət orqanlarının kadr potensialının inkişaf etdirilməsi, yüksək mənəvi və etik dəyərləri əsas tutan, bilik, bacarıq və müsbət şəxsi keyfiyyətləri ilə seçilən dövlət qulluqçuları korpusunu formalaşdırmaqla dövlət orqanlarının fəaliyyətində səmərəliliyin artırılmasıdır.

Fəxrlə deyə bilərik ki, bu gün müasir Azərbaycanda müasir, milli və innovativ idarəetmə modeli fəaliyyət göstərir. Bu modelin kökündə Ulu Öndər Heydər Əliyevin dövlətçilik təcrübəsi və müdrik, uzaqgörən siyasəti dayanır. Bu siyasəti uğurla davam etdirən cənab Prezident İlham Əliyev müstəqil Azərbaycan dövlətinin qarşısında geniş inkişaf perspektivləri ilə bağlı mühüm vəzifələrin durduğunu və bu vəzifələrin öhdəsindən gəlməyə qadir olan vətənpərvər, yüksək savadlı gənclərin hazırlanmasını ölkəmizin tərəqqisinin, xalqımızın firavan həyata qovuşmasının mühüm şərtlərindən biri kimi müəyyən etmişdir. Ölkədə dövlət idarəetməsinin peşəkar və səriştəli, müasir şəraitdə işləməyə, mürəkkəb funksiyaların öhdəsindən gəlməyə, çevik reaksiyaya və analitik təhlilə, yaradıcı təfəkkürə və yüksək intellektə malik olan dövlət qulluqçuları ilə təmin etməyə yönələn kadr siyasətinin yürüdülməsi üçün ardıcıl islahatlar həyata keçirilmişdir. Vətəndaşla dövlət qulluqçusu arasındakı münasibətlərdə yeni düşüncə tərzinin, dövlət qulluqçularının yeni davranış üslubunun, peşəkar və daim təkmilləşdirilən kadr potensialının formalaşdırılması və korrupsiyanın aradan qaldırılması üçün tam şəffaf xidmət modelinin formalaşdırılmasına nail olunmuşdur.

Beləliklə, müasir Azərbaycanda bu gün fəaliyyət göstərən müasir idarəetmə modeli dövlət xidmətlərinin vətəndaşlara daha rahat, yeni və innovativ üsullarla təqdim edilməsinə, vətəndaşlar üçün əlçatanlığın təmin edilməsinə və vətəndaş məmnunluğuna xidmət edən innovativ metodlara, e-hökumət həllərinə və "xalqa xidmət" konsepsiyasına əsaslanır. Qlobal inkişafın müasir meylləri, səmərəli idarəetməyə dair mütərəqqi təcrübə, habelə, milli-tarixi dövlətçilik ənənələrinə əsasən idarəetmə sahəsində davam etdirilən uğurlu islahatlar mövcud idarəetmə modelini daha da optimallaşdıracaq və müasir çağırışlara çevik

---

[3] Prezident İlham Əliyevin 28 May respublika günü münasibətilə rəsmi qəbulda nitqi. http://president.az/articles/23951

reaksiya verən, vətəndaş məmnuniyyətini effektiv təmin edən səmərəli mexanizm kimi daha da inkişaf etdirəcəkdir. Müdrik və uzaqgörən siyasi və dövlət xadimi, Ulu Öndər Heydər Əliyev Azərbaycan xalqının qəlbində əbədi yaşayacaqdır.

**İstifadə olunmuş ədəbiyyat siyahısı**

1. Prezident İlham Əliyevin 28 May respublika günü münasibətilə rəsmi qəbulda nitqi. http://president.az/articles/23951

2. H.Ə.Əliyev. Müstəqilliyimiz əbədidir: birinci kitab: iyun 1993 – may 1994. Bakı, Azərnəşr 1997

3. H.Ə.Əliyev. Müstəqilliyimiz əbədidir: otuzuncu kitab:sentyabr 2000-noyabr 2000. Bakı, Azərnəşr, 2010

4. S.İsmayılov. Azərbaycanda dövlət qulluğu ənənələri və onun müasir durumu. Bakı-2004

5. N.Hüseynova. Dövlət qulluğu və idarəetmə. Bakı-2017

6. М. Ю. Павлютенкова. Аналитика по отрасли. Российская Академия Государственной Службы при Президенте РФ. Москва 2010

7. Осборн Д. Управление без бюрократов: пять стратегий обновления государства.Общ. ред. Л.Н. Лопатикова – М.: Прогресс, 2001.

8. P. Aucoin. Administrative Reform in Public Management: Paradigms, Principles, Paradoxes and Pendulums. Governance. 1990. Vol. 3. s. 115-137.

9. C. A Hood. Public Management for All Seasons. Public Administration. 1991. 69 (1). s. 3−19.

10. Governance for sustainable human development. AUNDP policy document. United Nations Development Programme, January 1997,
http://mir-ror.undp.org/magnet/policy

## X Ü L A S Ə

Hər bir cəmiyyətin inkişafının vacib şərtlərindən biri olan modernləşmə dövlətin idarəetmə sistemində, müvafiq olaraq ölkədə aparılan inzibati, hüquqi islahatların, dövlət siyasətinin əsas istiqamətlərində təzahür edir. Çünki, müstəqil və güclü dövlət üçün müasir, peşəkar və səmərəli idarəetmə modeli zəruri şərtlərdən biridir.

Müasir Azərbaycanda mövcud idarəetmə modeli dövlət xidmətlərinin vətəndaşlara daha rahat, yeni və innovativ üsullarla təqdim edilməsinə, vətəndaşlar üçün əlçatanlığın təmin edilməsinə və vətəndaş məmnunluğuna xidmət edən innovativ metodlara, elektron hökumət həllərinə və "xalqa xidmət" konsepsiyasına əsaslanır. Bu modelin əsas prinsipləri Ulu Öndər Heydər Əliyevin zəngin dövlətçilik təcrübəsinə və müdrik, uzaqgörən siyasətinə əsaslanır.

Heydər Əliyevin müstəqil Azərbaycan Respublikasına rəhbərliyi dövründə müstəqil hüquqi dövlət quruculuğu həyata keçirildi, həmçinin bu dövlətin gələcək inkişafının, "xalqa xidmət" konsepsiyasına, vətəndaş məmnunluğuna əsaslanan müasir idarəetmə modelinin də sağlam təməli qoyuldu, eyni zamanda ölkə vətəndaşlarını dövlətçilik ətrafında səfərbər edən, daxildə və beynəlxalq aləmdə vahid amal, əqidə, məqsəd, məram ətrafında birləşdirən milli azərbaycançılıq ideologiyasının və ölkənin siyasi-iqtisadi inkişafının möhkəm təməli formalaşdırıldı.

**Назенин Гусейнова**
**Старший преподаватель**
**кафедры «Конституционное право и Административное право»**
**Академии Юстиции, к.ю.н., доцент**

## Р Е З Ю М Е

Модернизация, являющаяся одним из важных условий развития каждого общества, проявляется в системе государственного управления, соответственно, в основных направлениях проводимых в стране административно-правовых реформ, государственной политике. Потому что современная, профессиональная и эффективная модель управления – одно из необходимых условий независимого и сильного государства.

Нынешняя модель управления в современном Азербайджане основана на предоставлении государственных услуг гражданам более удобными, новыми и инновационными способами, обеспечении доступности для граждан и инновационных методов, которые служат удовлетворению граждан, решениях электронного правительства и концепции «государственной услуги». Основные принципы этой модели основаны на мудрой и дальновидной политике великого лидера Гейдара Алиева.

В период руководства Гейдаром Алиевым независимой Азербайджанской Республикой было осуществлено независимое правовое государственное строительство и для будущего развития этого государства были заложены основы современной инновативной модели управления, основанной на концепции «служба народу» и удовлетворенность граждан.

**Nazenin Huseynova**
**Associate professor of**
**Department of "Constitutional and Administrative Law"**
**of the Academy of Justice, Ph.D.**

## S U M M A R Y

Modernization, which is one of the important conditions for the development of every society, is manifested in the state's management system, respectively, in the main directions of the administrative and legal reforms carried out in the country, and the state policy. Because a modern, professional and efficient management model is one of the necessary conditions for an independent and strong state.

The current governance model in modern Azerbaijan is based on providing public services to citizens in more convenient, new and innovative ways, providing accessibility for citizens and innovative methods that serve citizen satisfaction, e-government solutions and the concept of "public service". The main principles of this model are based on the wise and visionary policy of the great leader Heydar Aliyev.

During the leadership of Heydar Aliyev to the independent Republic of Azerbaijan, independent legal state-building was implemented, and the foundation of the modern management model based on the concept of "public service" and citizen satisfaction was laid for the future development of this state.

***Nigar QƏLƏNDƏRLİ***

Azərbaycan Respublikası Baş Prokurorluğunun
Elm-Tədris Mərkəzinin Prokurorluq işçilərinin fəaliyyətinin
qiymətləndirilməsi və peşə hazırlığının
təşkili şöbəsinin rəisi, h.ü.f.d.

# HEYDƏR ƏLİYEV VƏ KONSTİTUSİON-HÜQUQİ İSLAHATLAR

***Açar sözlər:*** *Heydər Əliyev, Müstəqil Azərbaycan Respublikası, hüquqi dövlət quruculuğu, konstitusiya, hüquq islahatları, insan hüquq və azadlıqları, Milli Fəaliyyət Planı*

***Ключевые слова:*** *Гейдар Алиев, Азербайджанская Независимая Республика, правовое государственное строительство, конституция, правовые реформы, права и свободы человека, План Национальной деятельности.*

***Keywords:*** *Heydar Aliyev, Independent Republic of Azerbaijan, legal state building, constitution, law reforms, human rights and freedoms, National Action Plan*

***1995-ci il noyabrın 12-dən, yəni müstəqil respublikamızın Konstitusiyası qəbul olunduqdan və parlament seçkiləri keçirildikdən sonra başlanan bu dövr dövlət quruculuğu baxımından, əlbəttə ki, bizim tariximizin ən məhsuldar dövrüdür.***

**Heydər ƏLİYEV**

XX əsrin axırlarında yenidən müstəqillik qazanan Azərbaycan Respublikasının mövcudluğu və bu gün dünyanın sürətlə inkişaf edən dövlətlərindən birinə çevrilməsi xalqın haqlı olaraq Ümummilli Lider hesab etdiyi Heydər Əliyevin tarixi və misilsiz fəaliyyətinin nəticəsidir. Heydər Əliyev təcrübəli siyasətçi, müdrik dövlət başçısı, xalqını və Vətənini hər şeydən çox sevən, özünü ali məqsədlər naminə qurban verməyi bacaran böyük və əzəmətli bir şəxsiyyət idi. Əsl lider məhz sadaladığımız bu xüsusiyyətlərə malik olaraq, bu keyfiyyətlərdən xalqın və dövlətin maraqları naminə müdrikcəsinə, düşünülmüş şəkildə və siyasi uzaqgörənliklə istifadə edir, öz ölkəsini hərtərəfli inkişaf etdirir, milli dövlətçilik tarixini misilsiz fəaliyyəti ilə zənginləşdirir.

Ulu Öndərimiz Heydər Əliyev siyasi fəaliyyətinin bütün mərhələlərində Vətənə, xalqa, torpağa sonsuz məhəbbət və sədaqət hissi, qurub-yaratmaq amalı ilə yaşamış, hər zaman milli dəyərlərə bağlı olmuşdur. Ümummilli Liderimiz bütün zəngin və mənalı həyatı boyu daim xalqını, Vətənini düşünmüş, Azərbaycanın ən çətin məqamlarında onu üzləşdiyi faciələrdən, çətinliklərdən xilas etmək üçün misilsiz fədakarlıqlar göstərmiş, təbiətin ona bəxş etdiyi bir çox fitri keyfiyyətlər sayəsində tarixi hadisələrin inkişaf məcrasını qabaqcadan müəyyən edə bilmişdir.

Hamımızın böyük qürur hissi ilə qeyd etdiyimiz 15 iyun 1993-cü il müasir Azərbaycan tarixinə "Qurtuluş günü" kimi daxil olmuşdur. Belə ki, həmin gün Ulu Öndər Heydər Əliyevin Azərbaycanda ikinci dəfə siyasi rəhbərliyə gəlməsi nəticəsində respublikanın tarixi müqəddəratı həll olundu. Respublikada vətəndaş müharibəsinin qarşısı alındı, torpaqların işğalı dayandırıldı və atəşkəs müqaviləsi imzalandı, ölkənin parçalanma təhlükəsi aradan qaldırıldı. İnsanlarda güclü, demokratik Azərbaycan dövlətinin qurulacağına ümid yarandı. Azərbaycan xalqı hakimiyyətə Heydər Əliyev kimi nəhəng siyasət və dövlət adamını dəvət etməklə ümidlərinin doğrulduğunun və respublikanı gələcəyə inamla aparan liderinə daha çox etimad və etibar göstərməkdə yanılmadığının şahidi oldu.

Heydər Əliyevin çağdaş tariximizə Milli Qurtuluş günü kimi daxil olmuş 15 iyun 1993-cü ildə Azərbaycan Respublikası Milli Məclisinin sədri seçilməsi ilə respublikada demokratiyanın, qanunçuluğun, hüquqi dövlət quruculuğunun bünövrəsi qoyuldu. Ümummilli Liderin parlamentə sədr seçilməsindən sonra Milli Məclisdə verdiyi bəyanatda müstəqil dövlətçiliyin inkişaf konsepsiyası və yolları sistemli şəkildə açıqlandı. Bu istiqamətdə məqsədyönlü tədbirlərin həyata keçirilməsinə başlandı. 1993-cü ilin iyun-oktyabr ayları və sonrakı dövrdə müstəqil Azərbaycan dövlətinin qorunması və möhkəmləndirilməsi uğrunda Heydər Əliyevin mübarizəsi strateji məqsəd daşıyırdı. Müdrik rəhbərimiz strateji və demokratik yolun mahiyyətini belə səciyyələndirirdi: "Azərbaycan Respublikası öz dövlət quruculuğunda, sosial-iqtisadi problemlərin həllində tutduğu strateji yolla gedir. Bizim bu yolumuz Azərbaycanda demokratik, hüquqi, sivilizasiyalı dövlət qurmaqdan, demokratik prinsipləri gündən-günə inkişaf etdirməkdən, dünyanın əldə etdiyi bütün demokratik nailiyyətləri Azərbaycanda yaymaqdan, onlardan bəhrələnməkdən ibarətdir".

Ümummilli Lider 1993-cü ildə hakimiyyətə qayıtdıqdan sonra hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu məsələsini daim diqqət mərkəzində saxlayaraq, bu istiqamətdə mühüm islahatların gerçəkləşdirilməsini təmin etmişdir. Azərbaycan Respublikası 1993-cü ildən etibarən demokratik inkişaf yolu ilə inamla addımlayır. Məhz 1993-cü ildən sonra müstəqil Azərbaycanda hüquqi, dünyəvi, demokratik dövlət quruculuğu prosesi sürətləndi. Çünki bu inkişafın əsasını və tərkib hissəsini Heydər Əliyevin gərgin və ağır zəhmətinin bəhrəsi olan ilk demokratik Konstitusiyamız təşkil edirdi. Gənc Azərbaycan dövlətinin ilk Konstitusiyasının yaradılmasının təşəbbüskarı, rəhbəri və yaradıcısı məhz Ulu Öndər oldu.

Əbədi Prezidentimiz Əsas Qanunun yaradılmasında həm tarixi keçmişimizin dəyərlərindən, həm də ümumbəşəri dəyərlərdən, dünyanın demokratik dövlətlərinin təcrübəsindən istifadə edilməsini mühüm vəzifə kimi irəli sürürdü. 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi – referendum yolu ilə müstəqil Azərbaycanın ilk Konstitusiyası qəbul edildi. Bu böyük tədbir dövlət quruculuğu baxımından tariximizin ən vacib, ən önəmli mərhələsi kimi əbədiləşdi. Həmin gündən etibarən Azərbaycan demokratiya yolu ilə daha sürətlə, inamla, qətiyyətlə irəliləməyə başladı. Müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası ölkəmizdə demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesinin möhkəm hüquqi bazasını yaratdı və onun davamlı inkişafına stimul verdi.

Ulu Öndər hakimiyyətdə olduğu bütün dövrlərdə soydaşlarımızın, ölkə vətəndaşlarının hüquq və azadlıqlarının yüksək səviyyədə təmin edilməsi və qorunması məsələsini daim gündəmdə saxlamışdır. Heydər Əliyevin rəhbərliyi altında hazırlanaraq 1995-ci ilin 12 noyabrında ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş müstəqil Azərbaycanın ilk Konstitusiyası da ölkənin gələcək inkişaf prioritetlərini müəyyənləşdirməklə yanaşı, insan hüquq və azadlıqlarının təminatını dövlətin ali məqsədi kimi ön plana çıxarmışdır. Heydər Əliyevin sədrliyi ilə hazırlanan müstəqil Azərbaycan Respublikasının ilk

Konstitusiyasında insan və vətəndaş hüquqlarının təmin edilməsi dövlətin ali məqsədi kimi bəyan edilmişdir. Konstitusiyada hakimiyyət bölgüsü prinsipləri dəqiq təsbit olunmuş və zamanın tələblərinə cavab verən məhkəmə-hüquq islahatlarının gerçəkləşdirilməsi istiqamətində əsaslı hüquqi zəmin yaradılmışdır. Əsas Qanunumuzda əksini tapmış müddəaların üçdə ikisinin məhz insan hüquqlarına həsr edilməsi də böyük rəhbərimizin bu məsələyə necə böyük diqqət göstərdiyinin, həssas yanaşdığının əyani sübutudur.

Daha bir vacib məqamı vurğulamağı məqsədəuyğun sayırıq. Ümummilli Liderimiz Heydər Əliyevin rəhbərliyi ilə islahatların hüquqi bazasının yaradılması, insan hüquq və azadlıqlarının qorunması sahəsində mühüm sənədlər qəbul edilmiş, respublikamız müxtəlif beynəlxalq konvensiya və sazişlərə qoşulmuş, qanunvericilik, icra və məhkəmə hakimiyyətlərinin qarşılıqlı fəaliyyətinin təmin edilməsi məqsədilə xeyli tədbirlər həyata keçirilmişdir. Bu tədbirlər sırasında Heydər Əliyevin 21 fevral 1996-cı il tarixli sərəncamı ilə yaradılmış Hüquq İslahatları Komissiyasını xüsusi qeyd etmək lazımdır. Belə ki, 1996-cı il fevralın 21-də Prezident Heydər Əliyevin təşəbbüsü ilə yaradılan Hüquq İslahatları Komissiyası hüquq islahatlarının prioritetlərini müəyyən etdi və Sovet İttifaqından qalmış hüquq sisteminin fəlsəfəsini tamamilə dəyişdirdi. Mahiyyət etibarilə hüquq islahatları qanunların və digər normativ hüquqi aktların hazırlanması, hüquqi informasiya sisteminin genişləndirilməsi, məhkəmə və bütövlükdə, hüquq-mühafizə sisteminin islahatı, qanunların əhali arasında təbliği və insanların maarifləndirilməsi tədbirlərini əhatə edirdi.

Hüquq islahatları sahəsində çox əhəmiyyətli sənədlərdən biri də Heydər Əliyevin 1996-cı il iyunun 8-də imzaladığı “Avropa Şurası və Azərbaycan Respublikası arasında əməkdaşlıq proqramının həyata keçirilməsi haqqında” sərəncamdır. Bu sənədə əsasən Hüquq İslahatları Komissiyası tərəfindən hazırlanmış beynəlxalq standartlara uyğun "Məhkəmələr və hakimlər haqqında", "Konstitusiya Məhkəməsi haqqında" qanunlar ölkəmizdə məhkəmə-hüquq islahatları sahəsində mühüm addım olmaqla müstəqil məhkəmə sisteminin yaradılmasına və fəaliyyət göstərməsinə imkan yaratdı, konstitusiya nəzarəti ideyası qəbul edildi.

Ulu Öndər 1998-ci il yanvarın 20-də Azərbaycan Respublikasının Avropa Şurasının tam hüquqlu üzvü olması məqsədilə bu təşkilatla əməkdaşlığın dərinləşdirilməsini, “Avropa Şurası və Azərbaycan Respublikası arasında əməkdaşlıq proqramının həyata keçirilməsi tədbirləri haqqında” Azərbaycan Respublikası Prezidentinin 1996-cı il 8 iyul tarixli sərəncamından irəli gələn məqsəd və vəzifələri nəzərə alaraq daha bir sərəncam imzaladı. “Azərbaycan Respublikası ilə Avropa Şurası arasında əməkdaşlığın dərinləşdirilməsi sahəsində tədbirlər haqqında” adlanan bu sərəncamla “Polis haqqında”, “Prokurorluq haqqında”, “Vəkillik haqqında” qanun layihələrinin, o cümlədən Cinayət Məcəlləsi, Cinayət-Prosessual Məcəlləsi və Mülki-Prosessual Məcəlləsi layihələrinin hazırlanması Hüquq İslahatları Komissiyasına tapşırıldı.

Bu komissiya xalqımızın dövlətçilik tarixində yaratdığı ənənələri qorumaqla inkişaf etmiş dövlətlərin hüquq islahatları ilə bağlı təcrübəsindən də bəhrələnmişdir. Komissiyanın 4 may 1996-cı ildə keçirilmiş iclasında Ümummilli Liderimiz Heydər Əliyev demişdir: “Müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyasının həyata keçirilməsi prosesi hər birimizin əsas vəzifələrindən biridir. Bu baxımdan məhkəmə, hüquq-mühafizə orqanlarının islahatı ilə əlaqədar qanunların hazırlanması, qəbul olunması çox mühüm əhəmiyyət kəsb edir. İndi qarşımızda Konstitusiya əsasında qanunların qəbul olunması kimi çox böyük vəzifələr var. Hər sahədə qanunlar qəbul edilməlidir. İndi mən vaxt deyə bilmərəm, – bir il, iki il, – hər

halda müəyyən bir zaman ərzində nail olmalıyıq ki, bütün sahələr üzrə müstəqil Azərbaycan dövlətinin qanunları olsun".

Həyata keçirilən islahatlar demokratik ədalət mühakiməsi prinsiplərinə əsaslanan yeni məhkəmə sisteminin formalaşmasına, konstitusiya nəzarəti funksiyasını həyata keçirən xüsusi məhkəmə orqanının yaradılmasına, insan hüquqları üzrə müvəkkil institutunun təsis edilməsinə, hüquq-mühafizə fəaliyyətinin daha da təkmilləşdirilməsinə, qeyri-hökumət təşkilatlarının və kütləvi informasiya vasitələrinin hüquqi maarifləndirmə və insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində fəaliyyətinin genişləndirilməsinə səbəb olmaqla insan hüquqlarının təmin edilməsi sahəsində səmərəli müdafiə mexanizminin formalaşmasına gətirib çıxardı [5, s. 3; 6, s.40-42].

Hesab edirik ki, respublikamızda üçpilləli məhkəmə sisteminin formalaşdırılması, Konstitusiya Məhkəməsinin fəaliyyətə başlaması və İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) təsisatının yaradılması demokratik inkişaf istiqamətində qazandığımız çox əhəmiyyətli nailiyyətlərdir. Hüquq və azadlıqların bu geniş sferasında qanunun aliliyinin təmin olunması sahəsində Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi çox mühüm rol oynayır. Məlum olduğu kimi, ümumi ədliyyə sistemindən kənar belə bir hüquq müdafiə təsisatının yaradılması da məhz Heydər Əliyevin rəhbərliyi ilə 1995-ci il noyabrın 12-də qəbul edilmiş ilk milli Konstitusiyamız sayəsində mümkün olmuşdur. 1997-ci ildə belə bir hüquqi zəmin əsasında Milli Məclis tərəfindən "Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi haqqında" Qanun qəbul edilmiş və 1998-ci il iyulun 14-də həmin təsisat fəaliyyətə başlamışdır. Konstitusiya Məhkəməsi qanuni təyinatına uyğun olaraq, Konstitusiyamızın aliliyinin təmin edilməsi uğrunda fəal çıxış edir – Konstitusiya nəzarət orqanı kimi vətəndaşların hüquq və azadlıqlarının müdafiəsində mühüm yer tutur. Bu məhkəmə həm norma nəzarəti, həm də Konstitusiyanın və qanunların rəsmi şərhi üzrə qəbul etdiyi qərarlarında konstitusionalizm ideyalarının inkişafına yol açır, Əsas Qanuna uyğun olmayan qanunları və digər normativ hüquqi aktları qanunvericilik sistemindən çıxarır, habelə onların konstitusiya hüquqi məzmununu şərh edir [7, s. 3]. "Konstitusiya Məhkəməsi haqqında" qanun və sonrakı dəyişikliklər Konstitusiya Məhkəməsinə qanunların və digər normativ aktların, Ali Məhkəmənin qərarlarının, bələdiyyə aktlarının, dövlətlərarası və hökumətlərarası müqavilələrin Konstitusiyaya uyğunluğunun yoxlanılması, insanların konstitusion hüquqlarının müdafiəsi ilə bağlı fərdi şikayətlərə baxılması, qanunvericilik, icra və məhkəmə hakimiyyətləri arasında səlahiyyətlər bölgüsü ilə bağlı yaranan mübahisələrin həll edilməsi səlahiyyətlərini verir.

Ulu Öndərimiz Heydər Əliyevin insan hüquqlarının və azadlıqlarının qorunması sahəsində həyata keçirdiyi ən mühüm tədbirlərdən biri ölüm cəzasının ləğv edilməsi olmuşdur.

İnsan hüquq və azadlıqlarına ali dəyərlər kimi xüsusi önəm verən Ümummilli Liderimiz Heydər Əliyevin təşəbbüsü ilə hələ 1993-cü ildən ölüm cəzasının tətbiqinə qoyulan moratorium qeyd etdiyimiz islahatlar nəticəsində Azərbaycan Respublikasının Cinayət Məcəlləsində cəza sistemindən ölüm cəzasının çıxarılması ilə nəticələndi. Xatırladaq ki, Konstitusiyanın qəbuluna qədər, 1993-cü ilin 15 iyunundan, Heydər Əliyevin Azərbaycana rəhbər seçildiyi vaxtdan Azərbaycanda ölüm cəzasının icrasına moratorium qoyulmuşdu. Hətta vətən və xalq qarşısında ən ağır cinayətlər törətmiş, torpaqlarımızı düşmənə təslim etdirən Rəhim Qazıyev, ölkəmizi parçalamağa çalışan separatçı Əlikram Hümbətov, təxribatçı və terrorçu Elçin Əmiraslanov, dövlət çevrilişi cəhdlərinin təşkilatçıları Surət Hüseynov və Cavadov qardaşlarının əlaltıları və başqa qatillər, təhlükəli canilər barəsində də prezidentin humanist siyasəti nəticəsində ölüm hökmü tətbiq edilməmişdir. Şərq

aləmində, islam dünyasında ilk dəfə olaraq Azərbaycanda ölüm hökmünün ləğv edilməsi ölkəmizin dünyəvi, demokratik, hüquqi dövlət quruculuğu yolu ilə inamla irəlilədiyini bir daha sübut edir [8].

Sistemli şəkildə həyata keçirilən məhkəmə-hüquq islahatlarının, siyasi liberallaşmaya xidmət edən tədbirlərin əsasında insana qayğı, şəxsiyyətə və insan ləyaqətinə hörmət amili dayanmışdır. 1998-ci il fevralın 3-də "Azərbaycan Respublikasında ölüm hökmünün ləğv edilməsi haqqında" Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Milli Məclisə müraciəti kütləvi informasiya vasitələrində dərc olundu. Prezidentin şəxsi təşəbbüsü ilə icrasına moratorium qoyulmuş ölüm cəza növü Milli Məclisin 1998-ci il 10 fevral tarixli qanunu ilə tamamilə ləğv edildi. Azərbaycan MDB məkanında bu tarixi qərarı qəbul edən ilk dövlət idi. O vaxt hətta Avropa Şurasının üzvü olan bir çox ölkələr belə, analoji addım atmamışdılar.

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasında son dəfə ölüm cəzası "Xalq Cəbhəsi – Müsavat" hakimiyyəti dövründə icra edilmişdi. Həmin dövrdə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin sədri İsa Qəmbərov 1992-ci il iyun ayının 16-da ölüm cəzasına məhkum olunmuş 7 nəfərin bağışlanması haqqında vəsatətlərini təmin etməmişdi. Azərbaycan Respublikasının o zamankı prezidenti Əbülfəz Elçibəy isə 1993-cü il yanvarın 5-də ölüm cəzasına məhkum olunmuş 2 şəxs haqqında bağışlanmanın tətbiq edilməməsi barədə fərman imzalamışdı. Hökmlər 1993-cü ilin fevral ayında bu fərmanlar əsasında icra edilmişdi (9, s.192-194).

Həmin dövrdə – 90-cı illərin axırlarında "Konstitusiya Məhkəməsi haqqında" Qanundan başqa, "Məhkəmələr və hakimlər haqqında", "Prokurorluq haqqında", "Polis haqqında", "Vəkillər və vəkillik fəaliyyəti haqqında" qanunların, habelə yeni Mülki və Mülki-prosessual, Cinayət və Cinayət-prosessual məcəllələrin qəbulu insan hüquqları ilə bağlı cari qanunvericilik bazasının daha da mükəmməlləşməsinə əhəmiyyətli təsir göstərdi.

"Məhkəmələr və hakimlər haqqında" 1997-ci ildə qəbul olunmuş qanun məhkəmə hakimiyyətinin müstəqil fəaliyyət göstərməsinə hüquqi zəmin yaratdı. Qanun yeni məhkəmə sistemini, onun təşkilati əsaslarını müəyyən edərək məhkəmələrin və hakimlərin müstəqilliyinin təmin edilməsinə, hər kəsin hüquq və azadlıqlarının məhkəmədə müdafiəsinə təminat verilməsinə, məhkəmələrin fəaliyyətinin və hakimlərin statusunun beynəlxalq standartlara uyğunlaşdırılmasına yönəldi, köhnə hüquq sistemindən qalmış korporativ münasibətləri tamamilə aradan qaldırdı.

1999-cu ildə qəbul edilən "Prokurorluq haqqında" qanunla prokurorluğun məhkəmələr üzərində nəzarəti və bazar iqtisadiyyatı münasibətlərinin inkişafına mane olan ümumi nəzarət funksiyaları ləğv olundu, onun mülki və kommersiya işlərinə müdaxilə etməsi məhdudlaşdırıldı. İnsan hüquq və azadlıqlarını məhdudlaşdıran prosessual hərəkətlərin prokurorluq tərəfindən həyata keçirilməsinə qanunla müəyyən edilmiş hallarda və qaydada yalnız məhkəmənin qərarına əsasən yol verildi. Prokurorluğun islah-əmək müəssisələrində və nəqliyyatda qanunların icrasına nəzarət funksiyaları aradan qaldırıldı [10, s. 5].

Ulu Öndərin insan və vətəndaşların konstitusion hüquq və azadlıqlarının təminatını gücləndirmək məqsədilə "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" 22 fevral 1998-ci il tarixli fərmanı ilə bu istiqamətdə dövlət siyasətinin başlıca prioritetləri müəyyən edildi. Bu fərmandan cəmi bir neçə ay sonra Azərbaycan Respublikası Prezidentinin 18 iyun 1998-ci il tarixli "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı"nın təsdiq olunması haqqında" sərəncamı bu sahədə qanunvericilik və institusional islahatların həyata keçirilməsinə əlavə stimul verdi.

"Azərbaycanda insan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı" hüquqi islahatlar prosesində yeni mərhələ açdı. Dövlət Proqramında Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili təsisatının yaradılması, normativ-hüquqi aktların insan hüquqlarına dair beynəlxalq standartlara tam uyğunluğunun təmin edilməsi, hüquqi mexanizmlərin təkmilləşdirilməsi, bu sahədə fəaliyyət göstərən beynəlxalq institut və mərkəzlərdə tədqiqat və təhsil proqramları üzrə mütəxəssislərin hazırlanması və digər mühüm məsələlər nəzərdə tutulmuşdur. Ötən müddət ərzində Dövlət proqramında nəzərdə tutulmuş çoxşaxəli tədbirlər uğurlu həllini tapmışdır. Respublikamız qanunların təkmilləşdirilməsi mərhələsində təkcə beynəlxalq təcrübəni öyrənib tətbiq etməklə kifayətlənməmiş, eyni zamanda, müxtəlif beynəlxalq konvensiya və sazişlərə qoşularaq insan hüquq və azadlıqlarına sadiqliyini sübuta yetirmişdir. Ötən müddətdə Azərbaycan 200-dən artıq beynəlxalq konvensiya və sazişə, o cümlədən "İşgəncələrin və qeyri-insani və ya ləyaqəti alçaldan rəftarın və ya cəzaların qarşısının alınması haqqında", "İnsan hüquq və əsas azadlıqlarının müdafiəsi haqqında", "Ekstradisiya haqqında", "Cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım haqqında", "Cinayət fəaliyyətindən əldə edilən gəlirlərin leqallaşdırılması, aşkar olunması, götürülməsi və müsadirə edilməsi haqqında" konvensiyalara qoşulmuşdur. Eyni zamanda, Azərbaycan Respublikası BMT Baş Assambleyasının "İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında", "Aparteid cinayətinin qarşısının alınması və onun cəzalandırılması haqqında", "Genosid cinayətlərinin qarşısının alınması və onun cəzalandırılması haqqında", "Terrorçuluğun maliyyələşdirilməsi ilə mübarizə haqqında" və bir sıra başqa konvensiyaların üzvü olmaqla, onlardan irəli gələn öhdəlikləri yerinə yetirmişdir. Bundan başqa, ölkəmiz hüquqi dövlət quruculuğu prosesində ATƏT, Avropa Şurası, BMT, Avropa Birliyi və digər beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq etmişdir [11, s. 3].

Konstitusiyaya uyğun olaraq dövlət hakimiyyətinin demokratik modelinin, yəni hakimiyyətin qanunverici, icra və məhkəmə hakimiyyətlərinə bölünməsi modelinin təkmilləşdirilməsi və inkişafı ölkə prezidenti tərəfindən təmin edilir. Prezidentin 29 dekabr 1998-ci il tarixli "Azərbaycan Respublikasının dövlət idarəetmə sistemində islahatlar aparılması üzrə Dövlət Komissiyasının yaradılması haqqında" fərmanının böyük əhəmiyyəti vardır.

Fərmanda göstərilir ki, cəmiyyətin demokratikləşməsi və bazar münasibətlərinin daha da inkişaf etdirilməsi üçün dövlət idarəetməsində köklü islahatlar aparılması prinsipial əhəmiyyət kəsb edir. Fərmanda idarəetmə sistemində islahatlar aparılmasının əhəmiyyəti haqqında göstərilir ki, bu sahədə islahatlar dövlət idarəetməsinin səmərəliliyini artırmalı, iqtisadiyyatın tarazlaşdırılmış tənzimlənməsi məqsədilə zəruri təsisatların formalaşdırılmasını, ölkə iqtisadiyyatının dünya iqtisadi sisteminə inteqrasiya olunmasını sürətləndirmək məqsədilə iqtisadi fəaliyyət üçün beynəlxalq standartlara cavab verən idarəetmə sistemi və hüquqi baza yaradılmasını təmin etməlidir.

2001-ci ilin 25 yanvarında müstəqil respublikamız Avropa Şurası kimi mötəbər beynəlxalq təşkilata tamhüquqlu üzv qəbul edildi. Azərbaycanın Avropa Şurası qarşısında götürdüyü öhdəliklərin yüksək səviyyədə yerinə yetirilməsi nəticəsində Milli Məclisin Avropa Şurasındakı daimi nümayəndə heyətinin başçısı İlham Əliyev 2003-cü ildə Avropa Şurası Parlament Assambleyasının sədr müavini və büro üzvü seçildi. İlham Əliyevin belə bir nüfuzlu təşkilatda rəhbər vəzifəyə seçilməsi ölkəmizdə – Avropa məkanında demokratik, hüquqi dövlət quruculuğunun uğurla həyata keçirilməsinin parlaq nəticəsi idi.

Təşkilatla səmərəli əməkdaşlıq Azərbaycanın milli qanunvericiliyinin Avropa standartlarına uyğunlaşdırılmasına, mütərəqqi məhkəmə-hüquq islahatlarının aparılmasına

ciddi təkan verdi. Azərbaycan Avropa Şurasına daxil olduqdan sonra Avropa İnsan Hüquqları Konvensiyasının tələblərinə və respublikamızın Avropa Şurası qarşısında götürdüyü öhdəliklərə əsasən Milli Məclis tərəfindən bir sıra Konstitusiya qanunları qəbul edilmişdir.

Azərbaycan Respublikasında insan və vətəndaş hüquq və azadlıqlarının qorunması sahəsində hüquqi islahatların həyata keçirilməsi üçün İnsan Hüquqları üzrə Müvəkkil institutunun təsis edilməsinin mühüm əhəmiyyəti oldu. Belə ki, Milli Məclis tərəfindən 2001-ci il dekabrın 28-də "Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili – Ombudsman haqqında" Konstitusiya qanunu qəbul edildi.

Bu Qanunun qəbulu da respublikamızda insan hüquq və azadlıqlarının etibarlı təminatına xidmət etmişdir. Sonradan bu istiqamətdə həyata keçirilən islahatlar ombudsman təsisatının respublikanın regionlarında da mərkəzlərinin yaradılması və Naxçıvan Muxtar Respublikasının İnsan hüquqları üzrə müvəkkil (ombudsman) institutunun təsis olunması ilə davam etdirilmişdir. Bu qanunun qəbulu həmçinin respublikamızda insan hüquq və azadlıqlarının etibarlı təminatına xidmət etmişdir. 2 iyul 2002-ci il tarixdə Azərbaycan Respublikasının ilk Ombudsmanı seçilmiş, 28 oktyabr 2002-ci il tarixdən insan hüquqları və azadlıqlarının bərpası istiqamətində fəaliyyətə başlamışdır. Ulu Öndər Heydər Əliyev demokratik dövlət quruculuğuna xidmət edən mütərəqqi hüquqi-siyasi, hüquqi islahatları davam etdirməklə yanaşı, həm də milli maraqlara xidmət edən çevik xarici siyasət xətti yürütmüş, ölkənin milli maraq və mənafelərini daim uca tutmuşdur [12, s. 86-99].

Müvəkkilin fəaliyyəti insan hüquqlarının müdafiəsini, pozulmuş insan hüquq və azadlıqlarının bərpasını təmin edən digər dövlət orqanlarının səlahiyyətlərini məhdudlaşdırmır və əvəz etmir. Ombudsmanın fəaliyyətini tənzimləyən normativ hüquqi aktın Konstitusiya qanunu olması, müvəkkilə üzərinə düşən vəzifələrin həyata keçirilməsində geniş təminatların verilməsi insan və vətəndaş hüquqlarının müdafiəsini dövlətin ali məqsədi kimi bir daha təsdiqləmişdir.

Yuxarıda qeyd etdiyimiz kimi, müstəqil Azərbaycanın ilk Konstitusiyası qəbul edildikdən sonra ölkəmizdə dövlət quruculuğu sahəsində yeni mərhələ başlanmışdır. Konstitusiya əsasında hüquqi, demokratik və sivil dövlət quruculuğu sahəsində Azərbaycan dünya standartları səviyyəsində inkişaf etməyə başladı və bu istiqamətdə böyük müvəffəqiyyətlər qazandı. Lakin Konstitusiyanın qəbul edilməsindən keçən müddət ərzində cəmiyyətin həyatında xeyli dəyişikliklər baş vermişdi. 1995-ci ildə qəbul edilən Konstitusiyanın yaradıcısı olan Heydər Əliyev özü respublikamızda inkişaf, dəyişikliklər prosesini izləyərək dövlətimizin Əsas Qanununda dəyişikliklər edilməsinin zəruri olduğunu müəyyən etdi. Ümummilli Liderimiz Heydər Əliyev 2002-ci ildə "Azərbaycan Respublikasının Konstitusiyasına dəyişikliklər edilməsi haqqında" qərar qəbul etdi. Bu qərara əsasən respublikamızda 2002-ci il avqustun 24-də referendum keçirildi. Referendum yüksək siyasi fəallıq şəraitində keçdi [13, s. 211].

Ümummilli Liderimiz qanunvericiliyin təkmilləşdirilməsi, insan hüquq və azadlıqlarının qorunmasının daha etibarlı təmin edilməsi məqsədilə 22 iyun 2002-ci il tarixli Fərmanda göstərirdi ki, bu addım respublikamızın "İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında" Avropa Konvensiyasına qoşulmasından, ölkəmizdə məhkəmə islahatlarının həyata keçirilməsindən, Azərbaycan Respublikası Milli Məclisinin fəaliyyətinin və seçki sisteminin təkmilləşdirilməsi ilə əlaqədar yeni müddəaların Azərbaycan Respublikasının Konstitusiyasında əks etdirilməsi zərurətindən irəli gəlir. Referendumun keçirilməsi insan hüquq və azadlıqlarının qorunmasını daha da gücləndirdi, vətəndaşlara məhkəmələrə,

Ombudsmana, Konstitusiya Məhkəməsinə birbaşa müraciət etmək hüququ verdi, ölkənin seçki sistemini daha da təkmilləşdirdi [14, s. 2].

Milli insan hüquqları standartlarının Avropa İnsan hüquqları Konvensiyasına uyğunlaşdırılması məqsədilə 2002-ci ilin dekabrında "Azərbaycan Respublikasında İnsan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında" Konstitusiya qanunu qəbul edildi. Beləliklə, Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi altında Azərbaycanda həyata keçirilən hüquqi islahatların birinci mərhələsində demokratik ədalət mühakiməsi prinsiplərinə əsaslanan yeni üçpilləli məhkəmə sistemi, konstitusiya nəzarəti, insan hüquqları üzrə müvəkkil kimi yeni təsisatlar yaradıldı, hüquq-mühafizə fəaliyyəti təkmilləşdirildi, qeyri-hökumət təşkilatlarının, kütləvi informasiya vasitələrinin fəaliyyəti genişləndi, insan hüquqlarının təmini sahəsində effektiv müdafiə mexanizmləri formalaşdırıldı. Beynəlxalq prinsiplərə və müasir tələblərə uyğun mütərəqqi qanunlar və məcəllələr qəbul edildi [15, s. 5].

Ulu Öndərin daxili və xarici siyasətini böyük müvəffəqiyyətlə davam etdirən Prezident İlham Əliyev də Ümummilli Liderimiz kimi Konstitusiyanın zamanın tələblərindən doğan təkmilləşdirilməsinə və ölkədə insan hüquqlarının daha etibarlı şəkildə qorunmasına prioritet önəm verdi. Prezidentin rəhbərliyi ilə demokratik hüquqi dövlət quruculuğu çərçivəsində ölkəmizdə səmərəli şəkildə və sürətlə həyata keçirilən siyasi, hüquqi, iqtisadi və digər islahatlar Azərbaycan Respublikasının Konstitusiyasına beynəlxalq hüquq normaları və prinsiplərinin tələbləri nəzərə alınmaqla yenidən əlavə və dəyişikliklərin edilməsi zərurəti yaratdı. Bunun nəticəsi olaraq 2009-cu il martın 18-də “Azərbaycan Respublikasının Konstitusiyasına əlavələr və dəyişikliklər edilməsi haqqında” Referendum Aktı qəbul edildi. Bu, ilk növbədə insan və vətəndaş hüquq və azadlıqlarının daha səmərəli qorunması, Azərbaycan Respublikası vətəndaşlarının layiqli həyat səviyyəsinin təmin edilməsi, demokratiyanın genişləndirilməsi və yerli özünüidarəetmənin inkişafı ilə bağlı idi. Bu əlavə və dəyişikliklər yeni nəsil sosial hüquqların müasir yönümdə bərqərar olunmasına da xidmət etmişdir. Əlbəttə, bunun üçün dövlətin siyasi və iqtisadi cəhətdən güclü olması vacib şərtlərdəndir. Yeri gəlmişkən, Prezident İlham Əliyev də bu məsələyə həmişə xüsusi diqqət yetirmişdir [16].

Azərbaycan Respublikası Konstitusiyasına əlavə və dəyişikliklər edilməsi ilə bağlı 2009-cu il martın 18-də təyin edilmiş referendum aktı da tamamilə təbii və məntiqə uyğun olub, ölkədə həyata keçirilən hərtərəfli islahatların mahiyyətindən irəli gəlirdi. Azərbaycan bu gün sosial-iqtisadi, siyasi-hüquqi və mədəni inkişafının elə yüksək mərhələsindədir ki, əldə olunmuş fundamental nəticələr cəmiyyətin hüquq sisteminin əsasını təşkil edən Konstitusiyada demokratik xarakterli bir sıra əlavə və dəyişiklikləri sosial sifarişə çevirir. 2009-cu il 18 mart tarixində əhalinin böyük əksəriyyətinin dəstəklədiyi Referendum aktında əksini tapmış Konstitusiyaya əlavə və dəyişikliklər mahiyyət etibarilə Azərbaycanın çağdaş inkişaf dinamikası, cəmiyyətin şüur səviyyəsi, müasir modernləşmə strategiyasının tələbləri ilə uzlaşır. “Azərbaycan Respublikasının Konstitusiyasına əlavə və dəyişikliklər edilməsi haqqında” Referendum Aktı layihəsinin ümumxalq səsverməsi demokratik inkişaf istiqamətində mühüm addım olmaqla, respublikanın sivil, demokratik dəyərlərə sadiqliyini bir daha təsdiqləmişdir. Referendum Aktı layihəsində nəzərdə tutulan əlavə və dəyişikliklərin mütərəqqi xarakter daşıdığı, beynəlxalq hüquq normalarına tamamilə uyğun olduğu, insan və vətəndaş hüquq və azadlıqlarının təminatına yönəldiyi qabarıq görünür. Konstitusiyanın 29 maddəsinə təklif olunan 41 əlavə və dəyişikliyin böyük qismi sırf insan hüquq və azadlıqları ilə bağlı olub, bu sahədə daha səmərəli təminat mexanizmləri

formalaşdırmaq məqsədi daşımışdır. Həmin dəyişikliklər aktuallığı və əhəmiyyəti ilə diqqəti cəlb edir.

İnsan və vətəndaş hüquq və azadlıqlarının daha da genişləndirilməsi, bu hüquq və azadlıqların təminatı üçün dövlətin üzərinə əlavə vəzifələrin qoyulması Konstitusiyaya edilmiş əlavə və dəyişikliklərin əsas iki səciyyəvi cəhətləridir. Bütövlükdə, Konstitusiya islahatları ölkəmizdə insan hüquqlarına dair beynəlxalq normaların da maneəsiz tətbiqinə imkan verməklə, dünya birliyində daha layiqli yer tutmağımıza imkan yaratmaqdadır. Ölkəmizdə müasir dövlət quruculuğunun həyata keçirilməsinin, bəşəri-demokratik dəyərlərə uyğun dövlətçilik təsisatları və cəmiyyət modeli formalaşdırılmasının hüquqi əsasları yarandıqdan sonra Azərbaycanın müstəqilliyi möhkəmləndirilərək əbədi və dönməz xarakter almışdır [14].

Konstitusiyaya dəyişikliklərlə bağlı növbəti referendum 2016-cı ildə keçirilmişdir. Prezident İlham Əliyevin təşəbbüsü ilə Azərbaycan Respublikasının Konstitusiyasına əlavə və dəyişikliklərin edilməsi məqsədilə 26 sentyabr 2016-cı ildə keçirilən ümumxalq səsverməsi (referendum) də ölkədə insan hüquq və azadlıqlarının konstitusion təminatının daha da gücləndirilməsinə, demokratik təsisatların fəaliyyətinin və bütövlükdə idarəetmə sisteminin təkmilləşdirməsi məqsədlərinə xidmət göstərmişdir. Konstitusiyaya təklif olunmuş və ölkə vətəndaşlarının dəstəklədiyi dəyişikliklər Azərbaycan Respublikasının bəyan etdiyi demokratiyanın inkişafı konsepsiyasının daha da möhkəmləndirilməsinə xidmət etmişdir.

Respublikamızda insan hüquqları sahəsində həyata keçirilən islahatlar Prezident İlham Əliyevin 28 dekabr 2006-cı il tarixli "Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət planının təsdiq edilməsi haqqında" sərəncamı ilə davam etdirilmişdir. Sərəncamda ötən illər ərzində Azərbaycan Respublikasının insan hüquqları sahəsində fəaliyyət göstərən nüfuzlu beynəlxalq qurumlarla səmərəli əməkdaşlığını inkişaf etdirməsi, insan hüquqları sahəsində bir çox beynəlxalq sənədlərin ratifikasiya olunması və bu sahədə beynəlxalq öhdəliklərin həyata keçirilməsində bir sıra nailiyyətlərin əldə olunması vurğulanmaqla yanaşı, bu sahədə qanunvericilik və institusional islahatların həyata keçirilməsi, yeni məhkəmə sisteminin formalaşdırılması, konstitusiya nəzarəti və insan hüquqları üzrə müvəkkil institutlarının təsis edilməsi, hüquq-mühafizə fəaliyyətinin təkmilləşdirilməsi, qeyri-hökumət təşkilatları və kütləvi informasiya vasitələrinin fəaliyyətinin genişlənməsi kimi məsələlər yüksək qiymətləndirilmiş və yeni mərhələ üçün islahatların davam etdirilməsi ilə bağlı qarşıya mühüm vəzifələr qoyulmuşdur.

Burada göstərilmişdir ki, qarşıdan gələn illər üçün Azərbaycan Respublikasının normativ hüquqi aktlarının insan hüquqlarına dair beynəlxalq standartlara tam uyğunluğunun təmin edilməsi, beynəlxalq təşkilatlarla yeni əməkdaşlıq strategiyasının hazırlanması və həyata keçirilməsi, dövlət orqanlarının fəaliyyətinin insan hüquqlarının təminatı baxımından təkmilləşdirilməsi, elmi-analitik işlərin stimullaşdırılması, hüquqi maarifləndirmə işlərinin genişləndirilməsi, dövlətlə vətəndaş cəmiyyəti arasında qarşılıqlı əlaqələrin inkişaf etdirilməsi kimi vəzifələr müəyyən edilir. Azərbaycan Respublikasında insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsini ümumdövlət vəzifəsi hesab edərək, BMT-nin "Minilliyin inkişaf məqsədlərinin" və Avropa Şurasının 3-cü Zirvə Görüşünün insan hüquqlarının müdafiəsi və demokratiyanın, qanunun aliliyinin təmini sahəsində müəyyən etdiyi prioritetləri nəzərə alaraq, insan hüquqlarının müdafiəsi sahəsində görülən tədbirlərin genişləndirilməsi məqsədilə dövlət başçısı sözügedən Milli Fəaliyyət Planını təsdiq etmişdir [17, s. 4].

Ümummilli liderimiz Heydər Əliyev strategiyasının ardıcıl şəkildə davam etdirildiyi Azərbaycan Respublikası hazırda sürətlə, davamlı şəkildə bütün sahələr üzrə inkişaf

etməkdədir. Bunun yeganə səbəbi isə Prezident cənab İlham Əliyev tərəfindən Ulu Öndərin müdrik və alternativi olmayan siyasətinin uğurla davam etdirilməsində, Heydər Əliyev ideyalarına sadiqlikdə və xalqın da bu siyasəti dəstəkləməsindədir. Hüquqi, iqtisadi, sosial, mədəni və həyatımızın digər vacib sferalarında həmçinin müşahidə olunan tərəqqi, vətəndaş həmrəyliyi, sosial rifah ölkə vətəndaşlarının istək və arzularına uyğun şəkildə təmin olunur. Bu baxımdan, Azərbaycanda bərqərar olmuş ictimai-siyasi sabitlik, tolerant mühit, multikulturalist cəmiyyət, hüquqi, demokratik dövlət quruculuğu bir daha sübut edir ki, ölkəmiz düzgün yoldadır.

Dövlət başçısı İlham Əliyevin gərgin əməyi, səyləri, qətiyyəti və Ulu Öndərin daxili və xarici siyasətinə əsaslanması nəticəsində bu gün Azərbaycanda qanunun aliliyi, hüquqi dövlət quruculuğu, ölkənin sosial-iqtisadi inkişafı dinamik xarakter almışdır. Xalqımızın Ümummilli Lideri Heydər Əliyev tərəfindən əsasları yaradılmış və möhkəmləndirilmiş Azərbaycan dövləti getdikcə qüdrətli dövlətə çevrilməkdədir. Tam əminliklə deyə bilərik ki, dövlət və cəmiyyətin həyatında bütün sahələr qabaqcıl dünya standartlarına uyğunlaşdırılır. Ölkədə ən ali dəyərlər – demokratik dəyərlər, əsas insan hüquq və azadlıqları təmin olunur. Bütün həyatını xalqa sədaqətlə xidmətə sərf etmiş Ulu Öndər Heydər Əliyev kimi Prezident İlham Əliyev də Azərbaycan xalqının ona göstərdiyi inam və etibardan istifadə edərək, Azərbaycan dövlətinin möhkəmləndirilməsinə və gücləndirilməsinə, xalqımızın layiq olduğu xoşbəxt həyata qovuşması işinə xidmət edir.

**İstifadə olunmuş ədəbiyyat siyahısı**

1. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: Çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar.- İyun, 2001 – avqust, 2001. K.: 35.-Bakı: Azərnəşr, 2011.- 519 s.
2. İlham Əliyev Ulu Öndər Heydər Əliyevin anadan olmasının 88-ci ildönümü münasibətilə təntənəli mərasimdə iştirak etmişdir / https://president.az/az/articles/view/2140
3. Hüseynova İ. Tarix.Zaman.Düşüncələr. III cild. Bakı: Elm və təhsil, 2020, 432 s.
4. Гусейнова Ирада. «Гейдар Алиев от политического руководителя к общенациональному лидеру» Баку, 2005, 504 с.
5. Əsgərov Z. Mükəmməl Konstitusiyanın banisi. “Azərbaycan”. -2012.-2 may. -N 95.-S.3.
6. Qurbanov F. Heydər Əliyev və Azərbaycan ədliyyəsi . “Qanunçuluq “. -2009.-№ 5.-S.40-42.
7. Məmmədov M. Heydər Əliyev və insan hüquqları. “Azərbaycan “. -2009.-10 in.-N 124.-S.3.
8. “Azərbaycan” qəzeti, 4 fevral 1998-ci il
9. Hüseynova İ. Tarix.Zaman.Düşüncələr. II cild. Bakı: Elm və təhsil, 2019, 552 s.
10. Ələsgərov F. Uğurlu hüquqi islahatların müəllifi. “Azərbaycan”. -2011.-29 aprel. -N 91.-S.5.
11. Rzayev R. Heydər Əliyev Azərbaycanda hüquqi dövlət quruculuğunun banisidir. “Xalq qəzeti”.-2011.-13 may.-N 102.-S.3.
12. Hüseynova İ. Heydər Əliyev və Azərbaycanda demokratik dövlət quruculuğu. “Dirçəliş XXI əsr”.–2009.-№133-134.–S.86-99.
13. Hüseynova. İ Müstəqil Azərbaycan dövlətinin qurucusu. Bakı: “Təhsil”, 2004, 472 s.
14. Vəliyev A. Mükəmməl qanunvericilik sisteminin banisi. “Azərbaycan”.-2009.-24 aprel .-№87.- S. 2.

15. Ələsgərov F. Uğurlu hüquqi islahatların müəllifi. "Azərbaycan".-2011.-29 aprel.-N 91.-S.5.
16. Əsgərov Z. Demokratik Konstitusiyanın müəllifi. "Azərbaycan" qəzeti, 6 may 2010-cu il.
17. Qasımov A. Zamanın fövqündə dayanan lider. "Azərbaycan".-2010.-5 may.-N 96.-S.4.

## X Ü L A S Ə

Müstəqil Azərbaycan Respublikasının mövcudluğu və bu gün dünyanın sürətlə inkişaf edən qüdrətli dövlətlərin birinə çevrilməsi Ümummilli lider Heydər Əliyevin tarixi və misilsiz fəaliyyətinin nəticəsidir. Heydər Əliyev 1993-cü ildə hakimiyyətə qayıtdıqdan sonra hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu məsələsini daim diqqət mərkəzində saxlayaraq, bu istiqamətdə mühüm islahatları gerçəkləşdirmişdir. Respublikamız 1993-cü ildən etibarən demokratik inkişaf yolu ilə inamla addımlayır. Məhz 1993-cü ildən sonra müstəqil Azərbaycanda hüquqi, dünyəvi, demokratik dövlət quruculuğu prosesi yüksək səviyyədə həyata keçirilirdi. 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi – referendum yolu ilə müstəqil Azərbaycanın ilk Konstitusiyasının qəbul edilməsi dövlət quruculuğu baxımından tariximizin ən vacib, ən önəmli mərhələsidir. Heydər Əliyev hakimiyyətdə olduğu bütün dövrlərdə bütün ölkə vətəndaşlarının hüquq və azadlıqlarının yüksək səviyyədə təmin edilməsi və qorunması istiqamətində çoxşaxəli fəaliyyət göstərmişdir. Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə islahatların hüquqi bazasının yaradılması, insan hüquq və azadlıqlarının qorunması sahəsində mühüm sənədlərin qəbul edilməsi Azərbaycanda əzmlə hüquqi dövlət quruculuğu prosesinin aparılmasına dəlalət edir.

**Нигяр Каландарли**
**Начальник отдела оценивания деятельности работников прокуратуры и организации профессиональной подготовки Научно-Учебного центра Генеральной прокуратуры Азербайджанской Республики, д.ф.п.п.**

## ГЕЙДАР АЛИЕВ И КОНСТИТУЦИОННО-ПРАВОВЫЕ РЕФОРМЫ

## Р Е З Ю М Е

Создание и укрепление независимой Азербайджанской Республики, превращение ее в одно из сильных государств мира является результатом беспримерной исторической деятельности общенационального лидера Гейдара Алиева. После возвращения к власти в 1993 году, Гейдар Алиев постоянно держал в поле зрения вопрос построения правового государства и гражданского общества, осуществляя важные реформы в этом направлении. С 1993 года наша республика уверенно идет по пути демократического развития, в условиях независимого Азербайджана на самом высоком уровне осуществлялся процесс строительства правового, светского, демократического государства. Принятие Конституции – Основного Закона независимого Азербайджана путем всенародного голосования 12 ноября 1995 года является самым важным и значительным этапом нашей истории с точки зрения государственно-правового строительства. Во все периоды руководства республикой Гейдар Алиев осуществлял мно-

гогранную деятельность в направлении обеспечения защиты прав и свобод всех граждан страны. Создание правовой базы реформ, принятие важных документов в области защиты прав и свобод человека под руководством общенационального лидера Гейдара Алиева свидетельствуют о необратимости процесса строительства правового государства в Азербайджане, который на современном этапе на высоком уровне претворяет в жизнь президент Азербайджанской республики Ильхам Алиев.

**Nigar Qalandarli**
**Head of the Department of Evaluation of the Activities of Prosecutor's Office and Organization of Professional Training of the Science-Education Center of the General Prosecutor's Office of the Republic of Azerbaijan, Doctor of Philosophy in Law**

## S U M M A R Y

The existence of the independent Republic of Azerbaijan and becoming one of the rapidly developing powerful states of the world today is the result of the historical and unparalleled activity of the national leader Heydar Aliyev. After Heydar Aliyev returned to power in 1993, he constantly focused on the issue of building a legal state and civil society, and implemented important reforms in this direction. Since 1993, our republic has been confidently advancing on the path of democratic development. It was after 1993 that the legal, secular, democratic state building process was carried out at a high level in independent Azerbaijan. Adoption of the first Constitution of independent Azerbaijan through a national vote –referendum on November 12, 1995 is the most important, most important stage of our history in terms of state building. Heydar Aliyev performed multifaceted activities in the direction of ensuring and protecting the rights and freedoms of all citizens of the country at a high level during all periods of his power. Under the leadership of the National Leader Heydar Aliyev, the establishment of the legal basis of reforms, the adoption of important documents in the field of protection of human rights and freedoms testify to the determination of the process of legal state building in Azerbaijan.

***Sümbül TURABOVA***

Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin
Dövlət və hüquq nəzəriyyəsi və tarixi kafedrasının müəllimi

# AZƏRBAYCAN RESPUBLİKASI KONSTİTUSİYA MƏHKƏMƏSİNİN NORMATİV XARAKTERLİ AKTLARI

***Açar sözlər:*** *hüquq, akt, normativ, konstitusiya, məhkəmə, qanunvericilik, qərar, norma, uyğunluq.*

***Ключевые слова:*** *право, акт, нормативный, конституция, суд, законодательство, постановление, норма, соответствие.*

***Keywords:*** *law, act, normative, constitution, court, legislation, decision, norm, correspondence.*

Müasir dövrdə konstitusiya məhkəmə icraatı prosesində Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin fəaliyyətinin başlıca nəticəsi onun qəbul etdiyi aktlardır. Faktiki olaraq onlar milli konstitusiya mühakiməsi orqanının dövlət quruculuğuna verdiyi siyasi töhfə və normativ təsir alətidir. Hüquqi doktrinada belə bir fikir söylənilir ki, "ilkin mənbə" hesab olunan qanunlardan fəqli olaraq, həmin aktlar hüququn ikinci dərəcəli mənbələri sırasına daxildir (4, 120-121). Bununla belə, ölkəmizdə Konstitusiya Məhkəməsinin qərarları cəmiyyətin inkişafında əhəmiyyətli rol oynamasına baxmayaraq, rəsmən "hüququn ikinci dərəcəli mənbələri" hesab olunmurlar.

Milli konstitusiya mühakiməsi orqanının aktlarının yerini və xarakterini müəyyən edərkən bu siyasi institutun "yaradıcılarından" biri Hans Kelzenin sözlərinə istinad etmək daha məntiqli olardı. Belə ki, Hans Kelsen iddia edirdi ki, "neqativ qanunvericinin (konstitusiya məhkəməsinin) fəaliyyəti mütləq şəkildə konstitusiya ilə müəyyən edilir. Məhz burada onun funksiyası istənilən digər məhkəmənin funksiyasına bənzəyir. O, hüququn tətbiqindən və yalnız məhdud (!) dərəcədə onun yaradılmasından ibarətdir, beləliklə də, həqiqətən məhkəmə funksiyasına malikdir" (8, 15).

"Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının 21 dekabr 2010-cu il tarixli Konstitusiya qanununun 4.1.1-ci maddəsi Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin III hissəsinin 1-7-ci bəndlərinə və IV hissəsinə əsasən qəbul edilmiş Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin qərarları normativ xarakterli aktlar hesab olunur. Bu baxımdan, fikrimizcə, K.N.Makili-Əliyevin "Konstitusiya Məhkəməsi aktlarının təsnifatı aparılmır. İcraatdan asılı olmayaraq (bu hətta xüsusi icraat olduqda) onlar eyni əhəmiyyətli hesab olunurlar" (11, 135) mülahizəsi qeyri-dəqiqdir. Çünki həmin Konstitusiya Qanunu Konstitusiya Məhkəməsi tərəfindən qəbul olunan bütün hüquqi aktları deyil, yalnız yuxarıda qeyd olunan hallar üzrə qəbul olunanları normativ xarakterli aktlar kimi göstərir ki, bu da artıq özü-özlüyündə müvafiq təsnifatın mövcudluğunu rəsmi şəkildə təsdiqləyir.

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin III hissəsinə əsasən Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi Azərbaycan Respublikası

Prezidentinin, Azərbaycan Respublikası Milli Məclisinin, Azərbaycan Respublikası Nazirlər Kabinetinin, Azərbaycan Respublikası Ali Məhkəməsinin, Azərbaycan Respublikası Prokurorluğunun, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sorğusu əsasında aşağıdakı məsələləri həll edir:

1) Azərbaycan Respublikası qanunlarının, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarının, Azərbaycan Respublikası Milli Məclisinin qərarlarının, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarının, mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının Azərbaycan Respublikası Konstitusiyasına uyğunluğu;

2) Azərbaycan Respublikası Prezidentinin fərmanlarının, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarlarının, mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının Azərbaycan Respublikası qanunlarına uyğunluğu;

3) Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarlarının, mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının Azərbaycan Respublikası Prezidentinin fərmanlarına uyğunluğu;

4) Azərbaycan Respublikası Ali Məhkəməsinin qərarlarının qanunda nəzərdə tutulmuş hallarda Azərbaycan Respublikası Konstitusiyasına və qanunlarına uyğunluğu;

5) bələdiyyə aktlarının Azərbaycan Respublikası Konstitusiyasına, Azərbaycan Respublikası qanunlarına, Azərbaycan Respublikası Prezidentinin fərmanlarına, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarlarına (Naxçıvan Muxtar Respublikasında həm də Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına, qanunlarına və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərarlarına) uyğunluğu;

6) Azərbaycan Respublikasının qüvvəyə minməmiş dövlətlərarası müqavilələrinin Azərbaycan Respublikası Konstitusiyasına uyğunluğu; Azərbaycan Respublikasının hökumətlərarası müqavilələrinin Azərbaycan Respublikası Konstitusiyasına və qanunlarına uyğunluğu;

7)Naxçıvan Muxtar Respublikası Konstitusiyasının, qanunlarının, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qərarlarının və Nazirlər Kabinetinin qərarlarının Azərbaycan Respublikası Konstitusiyasına uyğunluğu; Naxçıvan Muxtar Respublikası qanunlarının, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərarlarının Azərbaycan Respublikası qanunlarına uyğunluğu; Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərarlarının Azərbaycan Respublikası Prezidentinin fərmanlarına və Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarlarına uyğunluğu.

K.N.Makili-Əliyev qeyd edir ki, bəzi dövlət orqanları "Azərbaycan Respublikası Konstitusiyasının və qanunlarının normalarının uyğunluğunun yoxlanılması məsələləri ilə bağlı Konstitusiya Məhkəməsinə müraciət etmək hüquqlarından praktiki olaraq istifadə etmirlər" (3, 123).

Bu baxımdan digər şəxslərin və qurumların da müvafiq hüquqi aktların Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına uyğunluğunun yoxlanılmasına dair çoxsaylı müraciətləri üzrə Konstitusiya Məhkəməsinin Plenumunun qərarlarının da hüquqi statusunu və əhəmiyyətini də tədqiq etmək lazımdır. Belə ki, əgər "Konstitusiya Məhkəməsi haqqında" Konstitusiya Qanununun müddəaları "hərfi" mənada rəhbər tutulsa, bu halda həmin qərarlar Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin III hissəsinin 1-7-ci bəndləri əsasında qəbul olunmadıqları səbəbindən normativ xarakterli aktlar hesab olunmalıdırlar. Çünki, bu qərarlar birbaşa olaraq Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin III hissəsi əsasında deyil, V hissəsi ("Hər kəs onun hüquq və azadlıqlarını pozan qanunvericilik və icra hakimiyyəti orqanlarının normativ aktlarından,

bələdiyyə və məhkəmə aktlarından qanunla müəyyən edilmiş qaydada bu maddənin III hissəsinin 1-7-ci bəndlərində göstərilən məsələlərin Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi tərəfindən həll edilməsi üçün (qeyd bizimdir – S.T.) Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə pozulmuş insan hüquq və azadlıqlarının bərpa edilməsi məqsədi ilə şikayət verə bilər") və VII hissəsi ("Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili insan hüquq və azadlıqlarını pozan qanunvericilik və icra hakimiyyəti orqanlarının normativ aktlarından, bələdiyyə və məhkəmə aktlarından qanunla müəyyən edilmiş qaydada bu maddənin III hissəsinin 1-7-ci bəndlərində göstərilən məsələlərin Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi tərəfindən həll edilməsi üçün (qeyd bizimdir – S.T.) Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə sorğu verə bilər") əsasında qəbul olunsalar da onlar "Konstitusiyanın 130-cu maddəsinin III hissəsinin 1-7-ci bəndlərində göstərilən məsələlərin Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi tərəfindən həll edilməsi üçün" qəbul olunurlar.

Başqa sözlə, Konstitusiya Məhkəməsinin Plenumu tərəfindən qəbul olunan hüquqi aktların statusunu müəyyənləşdirərkən biz formal olaraq həmin qərarların hansı subyektin təşəbbüsü əsasında qəbulunu deyil, bu qərarın hansı "məsələlərin həll edilməsi üçün" qəbul edilməsi meyarını rəhbər tutmalıyıq. Təssadüfi deyil ki, Konstitusiya Məhkəməsinin Plenumu tərəfindən Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin həm III hissəsi, həm də V və VII hissələri əsasında qəbul bütün hüquqi aktlarda onların adı "...Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına uyğunluğunun yoxlanılmasına dair" ifadəsi ilə tamamlanır.

Bu cür şərh habelə "Konstitusiya Məhkəməsi haqqında" Konstitusiya Qanunun müddəaları ilə də təsdiq olunur. Belə ki, "Konstitusiya Məhkəməsi haqqında" Konstitusiya Qanununun 67.0.1-ci maddəsinə görə Konstitusiya Məhkəməsinin Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin III hissəsinin 1-7-ci bəndlərində, V və VII hissələrində nəzərdə tutulmuş məsələlər üzrə qəbul olunmuş qərarları həmin qərarın özündə göstərilən vaxtdan qüvvəyə minir.

Konstitusiya Məhkəməsi tərəfindən fərqli növ hüquqi aktların qəbulu ilə əlaqədar nəzərə alsaq ki, "Konstitusiya Məhkəməsi haqqında" Qanunun 62-ci maddəsi (Konstitusiya Məhkəməsinin aktları) Konstitusiya Məhkəməsinin aktları sırasına Konstitusiya Məhkəməsi palatalarının iclaslarında qəbul edən qərardadları və plenumunun iclaslarında qəbul edən qərar və qərardadları daxil edir. Onun tərəfindən qəbul olunan normativ xarakterli aktlar qismində təkcə Konstitusiya Məhkəməsi Plenumunun qərarları çıxış edə bilərlər və bunlar mütləq şəkildə yazılı formada olmalıdır ("63.1. Konstitusiya Məhkəməsi Plenumunun qərarı konstitusiya işinə mahiyyəti üzrə baxılması nəticəsində Konstitusiya Məhkəməsinin gəldiyi qənaəti əks etdirən və Konstitusiya Məhkəməsi Plenumunun iclaslarında qəbul edilən yazılı sənəddir"). Konstitusiya Məhkəməsinin Plenumu öz iclaslarında yaranan məsələlərin həlli üçün və qanunla nəzərdə tutulmuş başqa hallarda isə qərardadlar qəbul edir.

Mübahisə edilən aktların Konstitusiyaya və ya qanunlara uyğun olmadığı müəyyən edildikdə, Azərbaycan Respublikası Konstitusiyanın 130-cu maddəsinin X hissəsinə müvafiq olaraq bu aktlar və ya onların ayrı-ayrı müddəaları Konstitusiya Məhkəməsinin qərarı ilə qüvvədən düşmüş hesab edilir. Bu zaman həmin aktların hansı vaxtdan etibarən qüvvəsini itirməsi Konstitusiya Məhkəməsinin özü tərəfindən müəyyən edilir ("Konstitusiya Məhkəməsi haqqında" Qanunun 67-ci maddəsi).

Konstitusiya Məhkəməsinin qərarının hüquqi qüvvəsi onun bütün hissələrinə şamil olunur. Bu hal ayrıca olaraq xüsusi rəyin tərtib olunması ilə əlaqədar da vurğulanır. Belə ki, "Konstitusiya Məhkəməsi haqqında" Qanunun 64.1-ci maddəsinə görə "Konstitusiya

Məhkəməsinin hakimi Konstitusiya Məhkəməsi qərarının təsviri əsaslandırıcı və ya nəticə hissəsi ilə razı olmadıqda yazılı şəkildə xüsusi rəy tərtib edə bilər". Təqdirəlayiq haldır ki, müvafiq məsələyə bu cür münasibət Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi hakimlərinin yığıncağının 19 oktyabr 2012-ci il tarixli protokolu ilə təsdiq edilmiş Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Daxili Nizamnaməsində də öz təsdiqini tapmışdır. Daxili Nizamnamənin 45-ci maddəsinin II hissəsinə görə "Konstitusiya Məhkəməsi Plenumunun qəbul etdiyi qərarların icra vəziyyəti öyrənilərkən qərarın məcburi hüquqi qüvvəsinin onun nəticə hissəsi ilə yanaşı təsviri-əsaslandırıcı hissəsinə də şamil olunması nəzərə alınmalıdır".

Ümumiyyətlə, hüquqi ədəbiyyatda Konstitusiya Məhkəməsinin qərarlarının hüquqi təbiətinə dair müxtəlif fikirlər mövcuddur. Belə ki, əksər müəlliflər Konstitusiya Məhkəməsinin qərarını qanunla müəyyən edilmiş formada ifadə edilmiş hüquqi akt kimi başa düşürlər ki, bu aktla Konstitusiya Məhkəməsi öz səlahiyyətləri daxilində hüquqi əhəmiyyətli faktları göstərməklə və dövlət-hökmran göstərişləri verməklə öz iradəsini ifadə edir (6, 176).

Konstitusiya Məhkəməsinin qərarları bütün ölkə ərazisində qanunvericilik, icra və məhkəmə orqanları, yerli özünüidarəetmə orqanları, müəssisələr, idarələr, təşkilatlar, vəzifəli şəxslər və vətəndaşlar üçün məcburidir. Konstitusiya Məhkəməsinin qərarının icra edilməməsi, lazımınca icra edilməməsi və ya icrasına maneçilik törədilməsi qanunla müəyyən edilmiş qaydada məsuliyyətə səbəb olur. Konstitusiya Məhkəməsinin qərarlarına ümumməcburilik xüsusiyyətinin verilməsi onu ifadə edir ki, hər bir belə qərar müəyyən hüquqi əhəmiyyət kəsb edən məlumatları özündə əks etdirməlidir. A.A.Petrovun fikrincə, "Konstitusiya Məhkəməsinin qərarı Konstitusiya Məhkəməsinin öz səlahiyyətlərini həyata keçirməsi zamanı işləyib hazırladığı müəyyən informasiyanı zahiri aləmə ötürmək vasitəsidir" (13, 43).

Konstitusiya Məhkəməsinin qərarlarının tərifində onu "hər hansı" akt kimi deyil, müstəsna olaraq hüquqi akt kimi müəyyən etmək lazımdır, çünki:

– Konstitusiya Məhkəməsinin istənilən qərarı şifahi-sənədli rəsmiləşdirilməyə malikdir;

– Konstitusiya Məhkəməsinin qərarı müstəsna səlahiyyətlərə mailk dövlət orqanı tərəfindən ərsəyə gətirilir;

– Konstitusiya Məhkəməsinin qərarı hökmran göstərişləri əks etdirir;

– Konstitusiya Məhkəməsinin qərarı rəsmi sənəd sayılır ki, bu da onun ifadə edilməsi üçün hüquqi baxımdan məcburi qüvvəyə malik tələblərin müəyyən edilməsində təzahür edir;

– nəhayət, Konstitusiya Məhkəməsinin qərarı qanunla nəzərdə tutulmuş məqsədlərin reallaşdırılması naminə ictimai münasibətlərə hökmran təsir göstərir.

Konstitusiya Məhkəməsinin qərarlarını normativ xarakterli aktlar qismində dəqiq şəkildə müəyyənləşdirən Konstitusiya müddəalarından fərqli olaraq, hüquqi ədəbiyyatda kifayət qədər uzun müddət ərzində belə müzakilər aparılır ki, Konstitusiya Məhkəməsinin hüquq normalarının Konstitusiyaya zidd olduğunu müəyyən edən qərarı nə hesab etmək olar: normativ akt, hüquqi preyudisiya, məhkəmə presedenti, hüquqtətbiqi aktı, hüquqi konstatasiya və ya yeni hüquqi mənbə. Bu məsələ ilə bağlı hələ də vahid mövqe formalaşmayıb. Belə ki, Konstitusiya Məhkəməsinin qərarları ilə normativ aktlar arasındakı fərqləri qeyd edən L.V.Lazarev belə bir nəticəyə gəlir ki, normativ-təfsir aktları kimi Məhkəmənin qərarları müstəqil hüquq mənbəyi hesab olunduğu halda, hüquqi mövqelər onlarda ifadə olunan hüququ ehtiva edir (10, 10).

Buna bənzər mövqeyi M.A.Mityukov da ifadə edir və göstərir ki, dövlət hakimiyyəti orqanlarının praktikasının özü faktiki olaraq yekun qərar və qərardadlara normativ akt xarakteri verir (12, 15).

Konstitusiya Məhkəməsinin hüquqi mövqelərini preyudisiyanın xüsusi növü kimi nəzərdən keçirən müəllifləri də göstərmək lazımdır. Fikrimizcə, Konstitusiya Məhkəməsinin qərarı hüquqi preyudisiya sayıla bilməz. Çünki, ən əvvəl, preyudisiya fakt məsələsinə aid edilir, müvafiq məhkəmənin qərarı isə mahiyyət etibarilə normativ qaydadır, yəni ümumməcburidir. Zəruri hal odur ki, digər məhkəmənin müəyyənləşdirdiyi faktları tədqiq etmədən qəbul edən məhkəmə özü onları müəyyən etmək üçün səlahiyyətlərə malikdir. Lakin belə müəyyənləşmənin nəticələri arasında prinsipial fərq də mövcuddur. Konstitusiya Məhkəməsindən başqa heç bir məhkəmə, hətta normativ aktın Konstitusiyaya uyğunsuzluğunu müəyyən etsə belə, bu əsasla onu hüquqi qüvvədən məhrum etmək hüququna malik deyildir. Konstitusiya Məhkəməsinin qərarının əhəmiyyəti yalnız belə "uyğunsuzluğun" sadəcə aşkar edilməsində deyil, həm də mübahisə obyekti olan aktın hüquqi qüvvədən məhrum edilməsində özünü ifadə edir. Belə bir vəziyyətdə müvafiq aktın Konstitusiyaya zidd olması barədə bilginin özü ikinci dərəcəli əhəmiyyətə malikdir. Aktın qeyri-konstitusion olması haqqında mülahizəni əks etdirən Konstitusiya Məhkəməsinin qərarı mahiyyət etibarilə onu qüvvədə olan qanunvericilikdən "kənarlaşdırır" (7, 28).

Fikrimizcə, qüvvədə olan hüquq normalarının Konstitusiyaya zidd olmasını müəyyənləşdirən Konstitusiya Məhkəməsinin qərarı məhkəmə presedenti kimi də qiymətləndirilə bilməz. Hüquqda presedent dedikdə, müəyyən vəziyyətdə analoji hallar üçün nümunə kimi qəbul olunmuş davranışın edilməsi başa düşülür. Məhkəmə presedenti konkret iş üzrə çıxarılan və analoji işlərin həlli zamanı həmin məhkəmənin və ya aşağı məhkəmə instansiya məhkəmələri üçün məcburi sayılan qərardır (16, 91).

Konstitusiya Məhkəməsinin qərarını məhkəmə presedentindən fərqləndirən cəhət ondan ibarətdir ki, o, yalnız məhkəmələrə deyil, həm də bütün hüquq tətbiqçilərinə aiddir. Bundan başqa, məhkəmə presedenti, bir qayda olaraq, konkret işin baxılması ilə əlaqədar yaranır. Hüquq normasının Konstitusiyaya zidd olması haqqında Konstitusiya Məhkəməsinin qərarı isə lap başlanğıcdan ictimai münasibətləri tənzimləyən hüquq qaydasının dəyişdirilməsinə istiqamətlənir. Belə halda Məhkəmənin şikayəti (sorğunu) konkret şəxsdən də qəbul etməsinə baxmayaraq, nə faktiki halların müəyyənləşdirilməsi, nə də fərdi hüquqlar haqqında mübahisənin həlli baş vermir.

Məhkəmə aktlarının bir növü qismində çıxış etməklə, Konstitusiya Məhkəməsinin qərarları digər məhkəmə hakimiyyəti orqanlarının qərarlarına xas olan bütün ümumi əlamətlərə malikdir:

1) yaranan hüquqi münaqişənin həlli, fiziki və hüquqi şəxslərin hüquqları, azadlıqları və qanuni maraqlarının müdafiəsi üsulu, hüquq sisteminin sabitliyinin təminatı qismində çıxış edirlər;

2) konkret hüquqi işin baxışı və həlli üzrə məhkəmə fəaliyyətinin son nəticəsini rəsmiləşdirirlər;

3) dövlətin iradəsini ifadə edən və dövlətin adından qəbul edilən prosessual akt-sənəddirlər;

4) hüquqi faktları və konkret hüquq münasibətlərini müəyyən edirlər;

5) konkret hüquqi hərəkətlərin baş verməsi, maddi və prosessual hüquq münasibətlərinin yaranması, dəyişdirilməsi və xitam olunması ilə bağlı dövlət-hökmran göstərişləri əks etdirirlər;

6) maddi hüquq normalarına uyğun olaraq və qanunla müəyyən olunmuş hüquqi prosedurlar çərçivəsində çıxarılırlar;

7) müəyyən hüquqi formada ifadə olunurlar, öz strukturuna və məzmununa malikdirlər;

8) ümumməcburi səciyyə daşıyırlar, ortaya çıxan müəyyən hüquqi situasiyaya tətbiqən formalaşır və hüququn konkret subyektlərinə münasibətdə tətbiq olunurlar;

9) xüsusi prosessual qaydada qəbul olunur və hüquqi qüvvəyə gətirilirlər;

10) icra olunmaq xüsusiyyəti ilə xarakterizə olunurlar və onların realizəsi dövlətin məcburetmə tədbirləri ilə təmin edilir (14, 244).

Bununla yanaşı, digər məhkəmə orqanlarının aktlarından fərqli olaraq, Konstitusiya Məhkəməsinin qərarları normativ səciyyə daşıya bilər. Konstitusiya Məhkəməsi tərəfindən ən çox baxılan işlər normativ hüquqi aktların konstitusiyaya uyğunluğunun yoxlanılması haqqında işlərdir. Belə işlərə baxılmasının nəticəsi normativ aktın və ya onun ayrı-ayrı müddəalarının konstitusiyaya zidd olduğunun tanınması ola bilər ki, bu da onların hüquqi qüvvəsinin itirilməsinə səbəb olur.

Beləliklə, Konstitusiya Məhkəməsinin fəaliyyətinə aid qanunvericiliyin təhlili müəllifə həmin məhkəmənin qərarının hüquqi qüvvəsi haqqında aşağıdakıları vurğulamağa imkan verir:

1) məcburi xarakter daşıyır, yəni qanuni qüvvəyə minmiş qərar istisnasız olaraq bütün dövlət hakimiyyəti orqanları, yerli özünüidarəetmə orqanları, ictimai təşkilatlar, vəzifəli şəxslər və vətəndaşlar üçün məcburidir;

2) birbaşa qüvvəyə malikdir və digər orqanlar və vəzifəli şəxslər tərəfindən onun təsdiq olunması tələb edilmir;

3) rəfedilməzdir, yəni qərarın hüquqi qüvvəsi eyni aktın təkrar qəbulu ilə aradan qaldırıla bilməz;

4) qanunvericiliyə və məhkəmə praktikasına imperativ təsir edir;

5) qətidir.

Konstitusiya Məhkəməsi Plenumunun qərarı, Azərbaycan Respublikasının Konstitusiyası və bu qanunla başqa qayda nəzərdə tutulmayıbsa, 5 hakimin səs çoxluğu ilə qəbul edilir və Azərbaycan Respublikası adından çıxarılır. Konstitusiya Məhkəməsinin Plenumu tərəfindən qəbul edilmiş qərarlar qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv edilə, dəyişdirilə və ya rəsmi təfsir edilə bilməz. Konstitusiya Məhkəməsinin Plenumu tərəfindən qəbul edilən qərarları plenumun iclasına sədrlik edən imzalayır və bir qayda olaraq, 15 gün müddətində Konstitusiya Məhkəməsinin iclasında elan edir.

Konstitusiya Məhkəməsinin qərarlarının hüquqi nəticələri kifayət qədər genişdir. Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin X hissəsinə əsasən, Azərbaycan Respublikasının qanunları və digər aktları və ya onların ayrı-ayrı müddəaları, hökumətlərarası müqavilələri Konstitusiya Məhkəməsinin qərarı ilə müəyyən edilmiş müddətdə qüvvədən düşür, Azərbaycan Respublikasının dövlətlərarası müqavilələri isə qüvvəyə minmir. Bu zaman Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına zidd olduğu tanınan məhkəmə aktları icra olunmur, müvafiq məhkəmə işlərinə isə müvafiq prosessual qaydada yenidən baxılır. Məsələnin əks tərəfi də mövcuddur. Məsələn, Konstitusiya Məhkəməsinin qərarının qəbul edilməsi üçün əsas olmuş Azərbaycan Respublikası Konstitusiyasının normasının referendum nəticəsində dəyişdirilməsi zamanı həmin qərar Məhkəmə tərəfindən qismən və ya tamamilə etibarsız hesab edilir.

Konstitusiya Məhkəməsi tərəfindən normativ hüquqi aktın konstitusiyaya uyğunluğunun yoxlanılması haqqında işə baxılmasının nəticəsi həmin normativ hüquqi aktın (və ya onun ayrı-ayrı müddəalarının) Konstitusiyaya uyğun və ya zidd olmasının tanınmasından

ibarətdir. Özü də bu zaman müvafiq akt Konstitusiyaya zidd hesab edildiyi halda müəyyən hüquqi nəticələr yaranır: konstitusiyaya zidd hesab edilən aktlar və ya onların ayrı-ayrı müddəaları qüvvədən düşür; Azərbaycan Respublikasının qüvvəyə minməmiş və Konstitusiyaya zidd olduğu tanınmış beynəlxalq müqavilələri qüvvəyə minməməli və tətbiq edilməyə yönəldilməməlidir. Məhkəmələrin və digər orqanların Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin qərarı ilə konstitusiyaya zidd hesab edilən müvafiq aktlara və ya onların ayrı-ayrı müddəalarına əsaslanan qərarları icraya yönəldilməməli və qanunla müəyyən edilmiş hallarda onlara yenidən baxılmalıdır.

Konstitusiya ədalət mühakiməsi praktikasında yuxarıda qeyd olunan qərarların çərçivəsinə sığmayan qərarlara rast gəlinir. Konstitusiya Məhkəməsi çox vaxt qanun normasının Konstitusiyaya zidd olmadığı qənaətinə gəlir, lakin eyni zamanda onun konstitusion-hüquqi mənasını üzə çıxarır. Bununla belə xüsusi olaraq vurğulanmalıdır ki, yalnız Konstitusiya Məhkəməsinin aşkara çıxardığı mənada bu norma Konstitusiyaya uyğundur və onun hər hansı digər bir formada şərh olunması konstitusiyaya zidd hesab edilməlidir.

Bu baxımdan məhkəmənin hüquq normaları yaratmaq təyinatına malik olmadığı və qanunvericilik qərarlarının ədalət mühakiməsini, hətta konstitusiya ədalət mühakiməsini belə həyata keçirən orqanların aktları ilə əvəz edilməsinin yolverilməz olduğu fikri ilə razılaşmaq lazımdır (5, 14).

Şübhəsiz ki, Konstitusiya Məhkəməsi məhkəmə hakimiyyəti orqanı olmaqla ənənəvi mənada norma yaradıcılığı ilə məşğul olmur və öz aktlarında hüquqi mövqeləri ifadə etməklə heç də qanunvericilik hakimiyyətini əvəz etmir. Bu məqamda M.Y.Kujeleva düzgün qeyd edir ki, "Oxşar hüquqi mübahisələrin həlli zamanı tətbiq olunması ümumməcburi səciyyə daşıyan Konstitusiya Məhkəməsinin hüquqi mövqeyi, bir qayda olaraq, yalnız onun qərarının və ya qətnaməsinin nəticə hissəsində deyil, həm də Konstitusiya Məhkəməsinin məhkəmə aktının əsaslandırıcı hissəsində öz əksini tapır" (9, 108). Həmin yanaşma "Konstitusiya Məhkəməsinin istənilən qərarı həm onun tərkib hissələrinin, yəni əsaslandırıcı və nəticəvi hissələrinin, habelə onlarda öz ifadəsini tapan hüquqi mövqelərin bütöv bir tamı olaraq baxılmalıdır" (15, 27) mülahizəsinə əsaslanır.

Şübhə yoxdur ki, konstitusiya ədalət mühakiməsi orqanı tərəfindən qanunvericiliyin təkmilləşdirilməsinə yönəlmiş hüquqi mövqelərin formalaşdırılması və sonradan onların normativ hüquqi aktlarda realizə olunması vahid hüquq tətbiqetmə praktikasının yaradılmasına, hüquqi tənzimləmədə boşluqların və ziddiyyətlərin aradan qaldırılmasına xidmət edir. Bu, müasir reallıqlar çərçivəsində Konstitusiya Məhkəməsinin qanunvericilik sahələrinin və bütövlükdə dövlətin hüquq sisteminin təkmilləşdirilməsinə təsir göstərən subyekt kimi baxılmasının zəruriliyini bir daha təsdiq edir.

Belə ki, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu "Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikası Qanununun 33-cü maddəsinin Azərbaycan Respublikası Konstitusiyasının 60-cı maddəsinin I hissəsinə71-ci maddəsinin II və VII hissələrinə uyğunluğu haqqında" 12 iyul 1999-cu il tarixli Qərarında Azərbaycan Respublikası Ali Məhkəməsinin 1999-cu il 26 may tarixli 5-2/99 saylı sorğusu ilə bağlı konstitusiya işinə baxaraq müəyyən etmişdir ki, Konstitusiyaya görə hər kəs hüquq və azadlıqlarının, o cümlədən şərəf və ləyaqətinin müdafiəsi üçün məhkəməyə müraciət edə bilər. Məhkəmənin mülahizəsinə görə "Azərbaycan Respublikası Konstitusiyasının göstərilən müddəalarına baxmayaraq "Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikası Qanununun 33-cü maddəsi mübahisənin məhkəməyə qədər məcburi həlli qaydasını müəyyən etmişdir. Belə ki, Qanunun göstərilən maddəsində kütləvi informasiya vasitələri təkzib və cavab dərc etməkdən imtina etdikdə, yaxud bunun üçün müəyyən

olunmuş bir aylıq müddəti pozduqda vətəndaşların və təşkilatların məhkəməyə müraciət edə bilməsi nəzərdə tutulur. Bu isə fiziki və hüquqi şəxslərin Azərbaycan Respublikası Konstitusiyasının 60-cı maddəsinin I hissəsində və 71-ci maddəsinin II və VII hissələrində göstərilən hüquqlarını məhdudlaşdırır” (1, 30-31).

Bununla əlaqədar Konstitusiya Məhkəməsi tərəfindən şəxsin məhkəmə müdafiə hüququnu məhdudlaşdıran “Kütləvi informasiya vasitələri haqqında” Azərbaycan Respublikası Qanununun 33-cü maddəsinin müddəaları Azərbaycan Respublikası Konstitusiyasının 60-cı maddəsinin I hissəsi, 71-ci maddəsinin II və VII hissələrinə uyğun olmadığına görə qüvvədən düşmüş hesab edilməsi barədə qərar qəbul etmişdir (1, 31).

25 mart 2003-cü il tarixində Konstitusiya Məhkəməsi “Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin III hissəsinin 1-ci bəndinə müvafiq olaraq açıq məhkəmə iclasında konstitusiya məhkəmə icraatı üzrə Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 71.4-cü maddəsinin Azərbaycan Respublikası Konstitusiyasının 60-cı maddəsinin I hissəsinə və 61-ci maddəsinin I hissəsinə uyğunluğunun yoxlanılmasına dair” Azərbaycan Respublikası Ali Məhkəməsinin 2003-cü il 14 yanvar tarixli 8-1/2003 saylı sorğusu ilə bağlı konstitusiya işinə baxaraq müəyyən etmişdir ki, mülki prosessual qanunvericiliyin bəzi müddəaları insan hüquq və azadlıqarının müdafiəsi üsullarını məhdudlaşdırır, əsas konstitusiya hüquq və azadlıqlarının həyata keçirməsinə mane olur. Bununla əlaqədar Məhkəmənin qəbul etdiyi Qərara görə “Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 71.4-cü maddəsi Azərbaycan Respublikası Konstitusiyasının 60-cı maddəsinin I hissəsinə və 61-ci maddəsinin I hissəsinə uyğun olmadığına görə qüvvədən düşmüş hesab edilmişdir”(2, 59).

Eynilə Azərbaycan Respublikası Ali Məhkəməsinin 2004-cü il 03 sentyabr tarixli, 8-7/2003 saylı sorğusu əsasında “Azərbaycan Respublikası Prezidentinin 1993-cü il 05 yanvar tarixli, 392 saylı Fərmanının və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1993-cü il 04 iyun tarixli, 267 saylı Qərarının Azərbaycan Respublikasının Konstitusiyasına uyğunluğunun yoxlanılmasına dair” konstitusiya işinə baxarkən Konstitusiya Məhkəməsinin Plenumu onu da qeyd etmişdir ki, “Konstitusiyaya uyğun olmayan hesab edilmiş normativ-hüquqi aktların, o cümlədən fərmanların əsasında və onların icrası məqsədilə digər hakimiyyət orqanları (Azərbaycan Respublikası Nazirlər Kabineti də daxil olmaqla) tərəfindən qəbul edilən normativ-hüquqi aktlar da Konstitusiyaya zidd olan kimi qəbul edilməlidir” (3). Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 25 oktyabr 2004-cü il Qərarında müəyyən edilmişdir ki, “qeyd olunan fərmanla mülkiyyət hüququnun müdafiəsinə təminat verən konstitusiya normalarının, həmçinin göstərilən qanunların müddəalarının inkar edilməsi Azərbaycan Həmkarlar İttifaqları Şurasının mülkiyyət hüququnun pozulması kimi qiymətləndirilməlidir. Bu tələb Azərbaycan Respublikası Konstitusiyasının 149-cu maddəsinin müddəalarından irəli gəlir. Belə ki, həmin maddənin V hissəsinə görə Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarları Azərbaycan Respublikasının Konstitusiyasına, qanunlarına və Azərbaycan Respublikası Prezidentinin fərmanlarına zidd olmamalıdır. Bu baxımdan “Azərbaycan Respublikası Prezidentinin “Sanatoriya-kurort kompleksinin Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin tabeliyinə verilməsi haqqında” Fərmanının icrası barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1993-cü il 04 iyun tarixli, 267 saylı Qərarı Konstitusiyanın göstərilən normaları ilə ziddiyyət təşkil edir” (3).

Məhkəmə onu da bildirmişdir ki, “Azərbaycan SSR Nazirlər Sovetinin 1960-cı il 30 aprel tarixli, 342a saylı qərarı ilə Azərbaycan Həmkarlar İttifaqları Şurasının sərəncamına verilən əmlakın altındakı torpaq sahələri ilə bağlı hüquq münasibətləri “Torpaq islahatı haqqında”

Azərbaycan Respublikası Qanunu, Azərbaycan Respublikasının Torpaq Məcəlləsi və digər qanunları ilə tənzimlənməlidir" (3). Bu əsasları rəhbər tutaraq Məhkəmə müvafiq Qərarla Azərbaycan Respublikası Prezidentinin 05 yanvar 1993-cü il tarixli, 392 saylı Fərmanı və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 04 iyun 1993-cü il tarixli, 267 saylı Qərarı Azərbaycan Respublikası Konstitusiyasının 13 və 29-cu maddələrinə uyğun olmadıqları üçün qüvvədən düşmüş hesab etmişdir.

## İstifadə olunmuş ədəbiyyat siyahısı


1. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Məlumatı, 1999, №3, s. 29-32.
2. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Məlumatı, 2003, №2, s. 56-59.
3. https://constcourt.gov.az/az/decision/103
4. Белкин А.А. Вопросы юридической силы решений Конституционного Суда Российской Федерации // Вестник Конституционного Суда РФ, 1997, № 2, с. 20; Петров А.А. Решения Конституционного Суда Российской Федерации в механизме правового регулирования. Иркутск, 2007, с. 120-121.
5. Бондарь Н.С. Акты конституционного правосудия как источники права: их нормативно доктринальная природа // Национальная государственность и европейские интеграционные процессы: сб. науч. тр. / Редкол.: С.А.Балашенко: В 2-х т. Т.1: Национальное законодательство и его гармонизация с правом Европейского Союза. Минск, 2008, с.14-26.
6. Витрук Н.В. Конституционное правосудие. Судебное конституционное право и процесс. М.: Закон и право, 1998, 254с.
7. Дудко И.Г. Юридическая природа постановлений конституционных (уставных) судов субъектов Российской Федерации // Журнал российского права, 2005, №1, с.26-32.
8. Кельзен Г. Судебная гарантия конституции (конституционная юстиция) / Пер. с нем. Д.В.Даниленко // Право и политика, 2006, №9, с. 5-18.
9. Кужелева М.Ю. Судебный прецедент в конституционном праве Российской Федерации // Вестник Омского университета. Серия «Право», 2014, № 2, с. 104-116.
10. Лазарев Л.В. Правовые позиции Конституционного Суда России. М.: Городец, Формула права, 2003, 528с.
11. Макили-Алиев К.Н. Конституционная юстиция в Азербайджанской Республике // Конституционная юстиция в странах Восточной Европы: проблемы теории и практики / Отв. ред. Я.Залесны. М.: Норма, 2019, с.105-141.
12. Митюков М.А. Акты Конституционного Суда РФ и конституционных (уставных) судов Федерации: общая характеристика и статистический анализ // Журнал российского права, 2001, №6, с.15-24.
13. Петров А.А. Понятие решения Конституционного Суда Российской Федерации // Сибирский юридический вестник, 2010, №4, с.38-47.
14. Татаринов С.А. К вопрос о юридической силе постановлений Конституционного Суда Российской Федерации и актов судов общей и арбитражной юрисдикции // Вестник Томского государственного университета, 2015, №401, с. 244-248.
15. Ушаков А.В. Правовые позиции Конституционного Суда Российской Федерации в области защиты социально-экономических прав граждан и проблемы их реализации. Дис... канд. юрид наук. М., 2021,183с.
16. Эбзеев Б.С. Конституционный Суд РФ – судебный орган конституционного контроля // Вестник Конституционного Суда РФ, 2016, №2-3, с.91-96.

## X Ü L A S Ə

Məqalədə qeyd olunur ki, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin fəaliyyətinin səmərəliliyi onun qəbul etdiyi hüquqi aktlarda ifadə olunur. Digər məhkəmə orqanlarının aktlarından fərqli olaraq, Konstitusiya Məhkəməsinin qərarları normativ səciyyə daşıya bilər. Bununla əlaqədar həmin məhkəmə tərəfindən qəbul olunan normativ xarakterli aktların xüsusiyyətləri göstərilir.

Məqalədə habelə qeyd olunur ki, konstitusiya ədalət mühakiməsi orqanının müvafiq qərarlarında əks olunan hüquqi mövqelər vahid hüquq tətbiqetmə praktikasının yaradılmasına, hüquqi tənzimləmədə boşluqların və ziddiyyətlərin aradan qaldırılmasına xidmət edir.



**Сюмбюль Турабова**
**Преподаватель кафедры Теории и истории государства и права**
**Юридического факультета Бакинского Государственного Университета**


### Акты нормативного характера Конституционного Суда Азербайджанской Республики


## Р Е З Ю М Е

В статье отмечается, что эффективность деятельности Конституционного Суда Азербайджанской Республики проявляется в принимаемых им правовых актах. В отличие от актов иных судебных органов, постановления Конституционного Суда могут иметь нормативный характер. В этой связи раскрываются особенности принимаемых данным судом актов нормативного характера.

В статье также подчеркивается, что правовые позиции, сформулированные в соответствующих постановлениях органа конституционного правосудия, служат утверждению единой правоприменительной практики, устранению пробелов и противоречий в правовом регулировании.



**Sumbul Turabova**
**Baku State University Law faculty,**
**Chair of History and Theory of State and Law, teacher**


### Regulatory acts of the Constitutional Court of the Republic of Azerbaijan


## S U M M A R Y

In this article is noted that the effectiveness of the activities of the Constitutional Court of the Republic of Azerbaijan is reflected in the legal acts adopted by it. Unlike acts of other judicial bodies, decisions of the Constitutional Court may have a normative character. In this regard are considered the features of normative acts adopted by this court.

The article also emphasizes that the legal positions formulated in the decisions of the body of constitutional justice serve to establish a unified law enforcement practice, eliminate gaps and contradictions in legal regulation.

***Səyyad MƏCİDOV***

Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Ədliyyə Akademiyasının
Ədliyyə sahəsində idarəetmə kafedrasının baş müəllimi, h.ü.f.d.

# ERMƏNİSTANIN HƏRBİ TƏCAVÜZÜNƏ QARŞI MÜBARİZƏDƏ HEYDƏR ƏLİYEV SİYASİ İRSİNİN TƏNTƏNƏSİ

***Açar sözlər:*** *Heydər Əliyev, 44 günlük müharibə, təcavüz, Ermənistanın hərbi təcavüzü*
***Ключевые слова:*** *Гейдар Алиев, 44-дневная война, агрессия, военная агрессия Армении.*
***Keywords:*** *Heydar Aliyev, 44-day war, aggression, military aggression of Armenia*

## Giriş

Azərbaycan 30 ildən artıqdır ki, Ermənistanın hərbi təcavüzü və digər cinayətləri ilə beynəlxalq və milli müstəvidə mübarizə aparmış və bu gün də ermənilərin bir sıra hüquqazidd əməlləri ilə mübarizəni davam etdirir. Ölkəmiz 2020-ci ildə Heydər Əliyevin siyasi kursunun davamçısı, Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi və qəhrəman Azərbaycan xalqının misilsiz şücaəti sayəsində 44 günlük Vətən müharibəsində özünümüdafiə hüququndan istifadə edərək əks-hücum əməliyyatları keçirməklə Zəfər qazanmış, ərazilərimizi işğaldan azad etmişdir.

Ermənistanın hərbi təcavüzünə qarşı mübarizədə Azərbaycanın bu möhtəşəm qalibiyyəti bilavasitə Heydər Əliyev siyasi irsinin təntənəsi idi. Ulu Öndərin uzun illər ərzində bu konfliktin həllində əvəzsiz xidmətləri olmuş, məhz onun dövründə dahi liderin qətiyyətli mövqeyi sayəsində ermənilərin beynəlxalq cinayətləri ilə mübarizənin təməli qoyulmuşdur. Həmin dövrdən başlayaraq, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün nəticələrinin aradan qaldırılması dövlətimizin xarici siyasət kursunun əsas vektorlarından və ölkəmizdə təhlükəsizlik mühitinin qorunmasına təsir edən ən zəruri amillərdən birini təşkil etmişdir.

Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsini, bununla bağlı müvafiq Tədbirlər Planında Ulu Öndərin irsinə həsr olunmuş əsərlərin nəşr olunma zərurətini nəzərə alaraq, bu məqalədə "Heydər Əliyev İli" çərçivəsində Ulu Öndərin Ermənistanın hərbi təcavüzünə qarşı mübarizəsi ilə bağlı siyasi irsinin elmi cəhətdən araşdırılmasını vacib hesab edirik.

**44 günlük müharibə Heydər Əliyevin 44 illik siyasi mübarizəsinin məntiqi qələbəsi idi**

Ulu Öndər Heydər Əliyevin erməni məsələsindəki qətiyyətli və dəyişməz mövqeyini, bu problem üzrə onun siyasi strategiyası və milli məfkurəsini, dahi lider tərəfindən aparılan uzunmüddətli danışıqları nəzərə alaraq, erməni təcavüzü və digər erməni cinayətləri ilə müharizənin nə qədər mühüm və aktual problem olduğunu görmək mümkündür. Tam əminliklə demək olar ki, 44 günlük müharibə Heydər Əliyevin ermənilərə qarşı 44 illik siyasi mübarizəsinin və milli məfkurəsinin məntiqi qələbə sonluğu idi. Heydər Əliyevin 44 günlük müharibənin başlanmasından düz 44 il əvvəl – 1976-cı ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosunun üzvlüyünə namizədliyinin

irəli sürüldüyü tarixdən başlayaraq və ondan sonrakı bütün dövrlər hər gün ermənilərin siyasi iddialarının sonunun yaxınlaşması demək idi. Çünki, Heydər Əliyevin siyasi məfkurəsi və mübarizəsi uzun illlər ermənilərin bu əsassız ideyalarının əleyhinə yönəlmiş və bu səbəbdən də, sonda 44 günlük müharibə ermənilərin "Böyük Ermənistan" dövləti yaratmaq ideyalarından başlamış bütün digər ərazi iddialarını məhv etmişdir.

Xüsusi qeyd olunmalıdır ki, problemin hüquqi mahiyyəti və erməni təcavüzünün cinayət hüquqi xarakteri ilə bağlı xalqımızın Ümumilli Lideri Heydər Əliyev dəfələrlə öz rəsmi mövqeyini bəyan etmişdir. Qarabağa dair ölkəmizin beynəlxalq hüquqa əsaslanan rəsmi mövqeyinin əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmaqla, onun siyasi irsi və dövlətçilik fəlsəfəsinin mərkəzi xəttini də məhz Ermənistanın Azərbayacana qarşı hərbi təcavüzü ilə mübarizə təşkil etmişdir. Bu səbəbdən də, Ulu Öndər "Ermənistanın Azərbaycana qarşı təcavüzünü misli görünməmiş təcavüz" [4, 85] adlandırmaqla hadisənin mahiyyətini və ictimai təhlükəli cinayət xarakterini olduqca dəqiq və konkret ifadə edərək, Ermənistan tərəfindən edilən hərbi təcavüzü problemlərdən ən böyüyü və ən çətini hesab etmişdir. [3, 171] Bəli, Heydər Əliyev Ermənistanın Azərbaycana hərbi təcavüzünü dünyada heç bir analoqu olmayan, presedent təşkil etməyən cinayət əməli hesab etmişdir. Bu səbəbdən də, təcavüzə qarşı mübarizə və 44 günlük əks-hücum strategiyası da tam fərqli və presedenti olmayan bir hadisə kimi tarixə düşdü. Ermənistanın Azərbaycana hərbi təcavüzünün beynəlxalq hüquqi mahiyyətini ölkə Prezidenti cənab İlham Əliyev "Ermənistanın Azərbaycana davam edən təcavüzü" termini ilə elmi cəhətdən əsaslandırılmış şəkildə ifadə edərək, bu cinayəti həmçinin, regionda sülhə və sabitliyə ciddi maneə hesab etmişdir. [2.] Bu gün Azərbaycan davam edən erməni təcavüzünü və ermənilərin davamlı ərazi iddialarını məhz regionda sülhü və sabitliyi pozan ən mühüm təhlükə hesab etdiyi üçün bu cinayətlə və ermənilərin digər transmilli cinayət əməlləri ilə qlobal mübarizəni və diplomatik savaşı davam etdirir. Dövlətçiliyimizə və ərazi bütövlüyümüzə qarşı törədilən silahlı təcavüzlə transmilli mübarizə xalqımızın dahi lideri Heydər Əliyev tərəfindən başlanılmış, bu gərgin iş və hərtərəfli strategiya bu gün dövlət başçısı cənab İlham Əliyev tərəfindən güclü siyasi iradə və böyük əzmkarlıqla davam etdirilir.

**Heydər Əliyevin şah əsəri – 44 günlük müharibənin ən güclü strateqi İlham Əliyevdir**

Azərbaycan dövləti üçün Heydər Əliyevin ən böyük ərməğanı və şah əsəri – 44 günlük müharibənin ən güclü strateqi İlham Əliyevdir. Məhz onun qətiyyəti, güclü iradəsi, məğlubedilməzliyi, Heydər Əliyev məktəbindən və siyasi kursundan qaynaqlanan əvəzedilməz liderlik keyfiyyətləri 44 günlük müharibədə ermənilərin əsrlərlə formalaşdırdığı mifləri darmadağın etdi. Ali Baş Komandan olaraq cənab İlham Əliyev ermənilərin ölkəmizə olan əsassız ərazi iddialarına son qoydu və Azərbaycan türkünə qarşı törədilmiş bütün cinayətlərin qisasını almış oldu, xalqın milli heysiyyatını, şərəf və ləyaqətini özünə qaytarmış oldu. Güclü lider olaraq Azərbaycan Prezidenti regionda və Avrasiya məkanında yeni reallıq yaratdı və öz siyasi bacarığı ilə dünyanı da bu reallığın tələbləri ilə barışmağa məcbur etdi.

Qeyd edək ki, 44 günlük müharibə zamanı, ondan öncə və ondan sonrakı dövrdə Ermənistan tərəfindən çoxsaylı beynəlxalq cinayətlər, o cümlədən təcavüz cinayəti, soyqırım cinayəti, müharibə cinayətləri və insanlıq əleyhinə cinayətlər törədilib. 30 ildən artıqdır ki, Azərbaycan Ermənistanın hərbi təcavüzü cinayətinin nəticələrindən və digər çoxsaylı erməni cinayətlərindən zərər görmüş və bu cinayətlərə görə beynəlxalq ictimaiyyət hər zaman susqunluq nümayiş etdirmişdir. Bu ikili standartların bu gün də davam etməsinə baxmayaraq, müasir dövrün geopolitik reallığı bu kontekstdə tamamilə yeni tendensiyalar ortaya qoyub.

Ölkə Prezidenti cənab İlham Əliyevin qeyd etdiyi kimi, "işğal dövründə beynəlxalq təşkilatlardakı fəaliyyətimiz, eyni zamanda, ikitərəfli formatda apardığımız danışıqlar əsnasında biz güc-bəla ilə, zorla ölkəmizin ərazi bütövlüyü prinsipini o bəyannamələrə saldırırdıq. Bir çoxları imtina edirdi. Halbuki bu, gün kimi aydın idi, kim işğalçıdır, kim işğala məruz qalan ölkədir. İkili standartlar, ədalətsizlik, bax, budur. Biz bunu bu gün də görürük..."

**Erməni təcavüzü insan hüquqlarına qarşı ən ciddi təhdiddir**

Təcavüz cinayəti, o cümlədən Ermənistanın hərbi təcavüzü kimi qəsdlərin mövcudluğu şəraitində heç zaman nə insan hüquqları ilə səmərəli mübarizə, nə də demokratiyanın və hazırda beynəlxalq dövriyyədə aktual olan avrointeqrasiya proseslərinin davamlı inkişafı qeyri-mümkündür. Bu gün beynəlxalq sistemdəki mövcud harmoniyanı sarsıdan belə müxtəlif tərkibli cinayət əməlləri ilə daha etibarlı beynəlxalq mübarizə məsələləri xüsusi aktuallıq kəsb etməkdədir. Bu isə beynəlxalq cinayətlərin iyerarxiyasında özünün xarakterinə və təhlükəlilik dərəcəsinə görə yalnız bir və ya bir neçə dövlətin deyil, bütövlükdə bəşəriyyətin təhlükəsizliyinə və ümumi sülhün qorunub saxlanmasına təhlükə yaradan beynəlxalq cinayət olaraq təcavüzün mahiyyətinin müfəssəl araşdırılmasını və onunla mübarizənin, o cümlədən ölkəmizdə Heydər Əliyev tərəfindən başlanan mübarizənin hazırki beynəlxalq münasibətlərdə ön planda olmasını zəruri edir.

Respublikamızın suverenliyi, ərazi bütövlüyü və siyasi müstəqilliyinə qarşı müasir dövrdə bir sıra qlobal və regional təhlükələrin mövcudluğuna baxmayaraq, Ermənistanın Azərbaycana təcavüzü dövlətçiliyimizin bu günü və gələcəyi, habelə insan hüquq və azadlıqları üçün real xarici təhdidlərdən biri hesab olunur və məsələyə cinayət hüquqi yanaşma zəruri bir tələb kimi ortaya çıxmışdır.

Xüsusilə, ölkə Prezidentinin 27 dekabr 2011-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırılması üzrə Milli Fəaliyyət Proqramı"na [1.] müvafiq olaraq Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində qaçqın və məcburi köçkün düşmüş şəxslərin hüquqlarının kütləvi şəkildə pozulması, işğal nəticəsində Azərbaycanın təbii, tarixi və mədəni sərvətlərinin dağıdılması faktının dünya ictimaiyyətinə çatdırılması və onlara dəymiş zərərin Ermənistan dövləti tərəfindən ödənilməsi məqsədilə beynəlxalq təşkilatlarda işin davam etdirilməsi üçün təcavüz cinayəti ilə bağlı beynəlxalq hüquqi məsələlərin diqqətdə saxlanılması olduqca zəruridir.

Hazırda transmilli cinayətlərə qarşı mübarizə müasir beynəlxalq hüququn prioritetlərindən birini təşkil etsə də, bu istiqamətdə dünyada nə universal və regional təşkilatlar çərçivəsində, nə də ayrı-ayrı dövlətlər tərəfindən konkret praktiki addımların atılması qənaətbəxş səviyyədə deyildir. Qlobal anlamda bütün bəşəriyyət üçün xüsusi təhlükəli hesab olunan əməllərə müxtəlif "arqumentlərlə" sanki bəraət qazandırılır. Elə bu səbəbdən də, müasir dünyada silahlı münaqişələri doğuran elementlər, dövlətlərarası konfliktlərin yaranmasının başlıca səbəbi olan ərazilərin işğalı, dövlət suverenliyinə və siyasi müstəqilliyə qəsdlər artmaqda davam edir. Biz bunun əyani sübutunu Ermənistanın Azərbayacana hərbi təcavüzü, Rusiyanın Ukraynaya və Gürcüstana hərbi müdaxiləsi və digər bölgələrdə görə bilərik. Təsadüfi deyildir ki, ABŞ-ın Nürnberq Tribunalında baş prokuroru olmuş R. Cekson özünün Dövlət Departamentinə hesabatında yazırdı: "Nə siyasi, nə də iqtisadi situasiya təcavüz cinayətinə bəraət qazandıra bilməz". [16.] Lakin, təəssüflə qeyd etmək lazımdır ki, müasir dünya hələ də təcavüz və digər cinayətlərdən siyasi alət və təzyiq vasitəsi kimi istifadə etməkdən çəkinmir və bu cinayətə münasibətdə hələ də universal əsasda hər hansı bir dövlət və ya fərd mühakimə edilməmişdir.

Tarixi Azərbaycan torpaqları olan Qarabağda və ətraf rayonlarda 1988-ci ildən başlayaraq, beynəlxalq sülh və təhlükəsizlik ciddi şəkildə təhlükəyə məruz qaldığından Cənubi Qafqaz dünyanın ən gərgin münaqişə zonalarından birinə çevrilmişdi. Nəticədə bütövlükdə Transxəzərin hərbi-siyasi təhlükəsizliyi və onun karbohidrogen ehtiyatlarının iqtisadi cəhətdən təhlükəsizliyi təhdid altında qalırdı. Ermənilərin ölkəmizə qarşı əsassız ərazi iddiaları, Qərbi Azərbaycan torpaqları olan indiki Ermənistan ərazisindən qaçqın düşən şəxslər, Qarabağa və ətraf rayonlara bu ölkənin silahlı təcavüzü nəticəsində məcburi köçkün düşən azərbaycanlıların hüquqları ilə bağlı problemlər təcavüzlə əlaqədar meydana gələn və beynəlxalq hüququn bilavasitə tənzimetmə obyektinə daxil olan məsələlərdəndir.

**Ermənilərin ərazi iddiaları və Heydər Əliyevin diplomatik mübarizəsi**

Bu problemin meydana gəldiyi dövrdən bu günə qədər onun mahiyyətini etnik, dini, milli və s. faktorlar deyil, məhz əsassız ərazi iddiaları, beynəlxalq təhlükəsizliyin təhdidi, qanunsuz güc hədəsi və gücün tətbiqi, sərhəd pozulmaları kimi beynəlxalq hüquqi faktorlar təşkil etmişdir. Bu mənada prof. R.F.Məmmədov Ermənistanın Azərbaycana təcavüzünün beynəlxalq hüquqi mahiyyəti ilə bağlı haqlı olaraq qeyd edir ki, "tarixi qonşular arasında müharibə və münaqişəyə son qoymağa məhz beynəlxalq hüquq qadirdir". [13, 9]

Ermənistanın Azərbaycana qarşı təcavüz cinayətinin tarixi 1989-cu ildən başlanmışdır. Bu həmin dövrə təsadüf edir ki, Heydər Əliyev artıq SSRİ rəhbərliyindən uzaqlaşdırılmış və Ulu Öndərin vəzifədən getməsini fürsət bilən ermənilər, onların Moskvadakı havadarları bu problemi süni şəkildə yaratmağa başlamışlar. Fikrimizcə, tarixin bu zaman intervalı obyektiv şəkildə araşdırılmalıdır.

Heydər Əliyevin sovet hakimiyyət orqanlarında olmamasından istifadə edən ermənilər qondarma "Dağlıq Qarabağ Respublikası"nın yaradılmasını reallaşdırdılar. Bu zaman "Müttəfiq respublikanın SSRİ-dən çıxması ilə əlaqədar məsələlərin həlli qaydası haqqında" 3 aprel 1990-cı il tarixli SSRİ Qanunu xüsusi olaraq vurğulanır. Onlar iddia edirlər ki, SSRİ tərkibindən çıxmaq proseduru həyata keçirilərkən muxtar qurumlar İttifaqda və müttəfiq respublikada qalmaq məsələsini müstəqil həll etmək, habelə öz dövlət-hüquqi statusu məsələsini qaldırmaq hüququ əldə edirdi. Ermənilərin "arqument"lərinin əksinə olan digər mühüm hüquqi arqument bundan ibarətdir ki, DQ-nin Azərbaycan ərazisi olması SSRİ Konstitusiyası ilə də təsbit olunmuşdur. Belə ki, bu Konstitusiyanın 87-ci maddəsinə görə, keçmiş sovet məkanında mövcud olan 8 muxtar vilayətdən biri – DQ Muxtar Vilayəti Azərbaycan SSR-nin tərkib hissəsi kimi göstərilirdi. [10,13]

Professor B.M.Klimenkonun qeyd etdiyi kimi, müstəmləkə imperiyaları dağıldıqdan sonra özünütəyinetmə məsələsi əsasən yeni müstəqil milli dövlətlər yaratmaq mənasında həll edilib. [14,48] Ermənilər isə SSRİ-nin dağılmasından sonra artıq Ermənistan Respublikasının timsalında öz dövlətini yaratmış və onların ikinci erməni dövləti yaratmaq hüququ yoxdur.

SSRİ Konstitusiyasına əsasən, DQ Azərbaycan SSR tərkibində muxtar vilayət olub. DQMV-nin hüquqi vəziyyəti SSRİ və Azərbaycan SSR Konstitusiyalarına müvafiq olaraq 16 iyun 1981-ci il tarixində Azərbaycan SSR Ali Soveti tərəfindən qəbul edilmiş "Dağlıq Qarabağ Muxtar Vilayəti haqqında" Qanunla müəyyən edilirdi. [12, 38-39]

1989-cu il iyulun 29-da Ermənistan ərazisində Azərbaycandan gedən qatarlara olan hücumlar nəticəsində iki ölkə arasında dəmir yolu əlaqəsi kəsilmiş və məqsədyönlü şəkildə Naxçıvan Muxtar Respublikasının təcridinə başlanılmışdır. Bu hərəkətlərin məntiqi davamı olaraq, 1989-cu il dekabr ayının 1-də Ermənistan SSR-nin Ali Soveti qanunsuz olaraq ""Dağlıq Qarabağ Muxtar Vilayəti"nin Ermənistan SSR-yə birləşdirilməsi haqqında" qərar qəbul etmiş, 1991-ci il sentyabr ayının 2-də isə separatçılar qondarma "Dağlıq Qarabağ Respublikası"nı bəyan etmişlər. Ermənistan belə bir qərarı qəbul etməklə dövlət siyasətinin

nəticəsi olaraq ölkəmizə qarşı təcavüz aktının törədilməsi üçün zəmin yaratmış oldu. Professor M. Qasımlı haqlı olaraq qeyd edir ki, bu qeyri-legitim qurum SSRİ-nin bütün qanunlarına zidd olmuş və ilk növbədə Ermənistanın boynundan son illərdə bütün cinayətlərə görə məsuliyyət yükünü götürmək məqsədi daşımışdır. [15,198]

Ulu Öndər Heydər Əliyev 1993-cü il iyulun 26-da BMT Təhlükəsizlik Şurasının sədrinə yazılı müraciət ünvanladı. Bu müraciətdən sonra 1993-cü il iyulun 29-da BMT Təhlükəsizlik Şurasının 853 saylı qətnaməsi qəbul olundu. Bu qətnamə işğalın qarşısının alınması, erməni silahlı qüvvələrinin işğal olunmuş Azərbaycan ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən çox ciddi bir sənəd idi. Lakin bütün qətnamələr heç vaxt BMT tərəfindən icra olunmadı. Bu sənədlər sonda yenə də Heydər Əliyev kursunun layiqli davamçısı olan cənab İlham Əliyev tərəfindən beynəlxalq hüquqa uyğun güc tətbiqi ilə icra olundu.

Ulu Öndər Heydər Əliyev ermənilərin beynəlxalq aləmdə apardıqları böhtan kampaniyasını ifşa etməyi, Azərbaycan həqiqətlərinin, Xocalı soyqırımının, Sumqayıt hadisələrinin, Qarabağın və onun ətrafındakı yeddi rayonun işğalının və erməni vandalizminin digər qanlı əməllərinin dünya ictimaiyyətinə çatdırılmasını mühüm vəzifə kimi qarşıya qoydu. Məhz Xocalı soyqırımına hüquqi-siyasi qiyməti ilk dəfə Ümummilli Lider Heydər Əliyev vermiş, onun təşəbbüsü ilə 1994-cü il fevralın 24-də Milli Məclis "Xocalı Soyqırımı Günü haqqında" qərar qəbul etmiş, 1994-cü il martın 1-də Xocalı soyqırımı ilə bağlı xüsusi Fərman imzalanmışdır. Erməni cinayətlərinin beynəlxalq aləmə çatdırılması missiyası bu gün ölkə Prezudenti cənab İlham Əliyevin fəaliyyətinin mühüm istiqamətlərindən birini təşkil edir. Bu işin səmərəli şəkildə həyata keçirilməsində Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın müstəsna xidmətləri danılmazdır. "Xocalıya ədalət!" kampaniyasının nəticəsində bu gün dünyanın 17 ölkəsi, ABŞ-ın 24 ştatı və İslam Əməkdaşlıq Təşkilatı Xocalı soyqırımını tanıyan müvafiq beynəlxalq sənədlər qəbul etmişlər.

Heydər Əliyevin ən böyük xidmətlərindən biri erməni təcavüzünün qarşısının alınması olmuşdur. Məhz Ulu Öndərin rəhbərliyi ilə 1993-cü il noyabrın ortalarında Ermənistan silahlı qüvvələrinin Beyləqan istiqamətində hücumu dayandırılmış, Azərbaycan Ordusunun uğurlu əməliyyatları nəticəsində 1994-cü il yanvarın 5-də strateji əhəmiyyətli Horadiz qəsəbəsi və Füzuli rayonunun 22 yaşayış məntəqəsi düşməndən azad edilmişdir. Müharibədə dönüş yaranması həm Ermənistanı, həm də onun havadarlarını ciddi təşvişə saldı. Azərbaycan 1994-cü il mayın 8-də Bişkek protokolunu, mayın 12-də cəbhə bölgəsində atəşkəs haqqında sazişi imzaladı, münaqişənin həlli yeni mərhələyə qədəm qoydu.

Bu dövrdə Heydər Əliyev bütün istiqamətlərdə olduğu kimi, xarici siyasət sahəsində də radikal dəyişikliklərin əsasını qoydu, dərin elmi-nəzəri və zəngin təcrübi əsaslar üzərində qurulmuş konsepsiya formalaşdırdı, NATO ilə əməkdaşlıq haqqında prinsipial qərar qəbul etdi. 1994-cü ilin mayında Azərbaycan NATO ilə əlaqələrin genişləndirilməsi və dərinləşdirilməsi məqsədi ilə "Sülh naminə tərəfdaşlıq" proqramının çərçivə sənədini imzaladı.

Azərbaycan Respublikası Avropada Təhlükəsizliyə və Əməkdaşlığa dair Müşavirəyə böyük əhəmiyyət verir, onun fəaliyyətindən çox şey gözləyirdi. Ulu Öndər 1994-cü ilin dekabrında ATƏM-in üzvü olan ölkələrin dövlət və hökumət başçılarının Budapeşt görüşündə Dağlıq Qarabağ probleminə xüsusi diqqət yetirərək qeyd etdi ki, beynəlxalq hüquq normalarını nəzərə alan siyasi saziş imzalanmadan möhkəm və ədalətli sülh ola bilməz: "Təcavüzün ağır nəticələrinə baxmayaraq, biz Ermənistan tərəfinə ədalət və humanizmin əsasında, ATƏM-in prinsipləri, BMT Təhlükəsizlik Şurasının qətnamələri əsasında sülh təklif edirik. Biz Dağlıq Qarabağın erməni əhalisinin təhlükəsizliyinə təminat

verməyə hazırıq, münaqişə zonasında ATƏM-in sülhü qoruyan qüvvələrinin yerləşdirilməsinə razıyıq. Biz milli azlıq təşkil edən ermənilərin hüquqlarının həyata keçməsi üçün Azərbaycan dövlətinin tərkibində Dağlıq Qarabağın statusunu müzakirə etməyə və Azərbaycanın Dağlıq Qarabağ regionu ilə Ermənistan Respublikası arasında nəqliyyat kommunikasiyalarının normal işləməsini təmin etməyə də hazırıq.

Heydər Əliyevin xidmətlərindən biri də ATƏT-in 1996-cı il Lissabon Sammitinin qərarlarına nail olmasında idi. Problemlə əlaqədar beynəlxalq hüquq baxımından ATƏT-in 1996-cı il Lissabon Sammitinin qərarları əsaslı sənədlər hesab edilir. Lissabon Sammiti problemin konkret prinsiplər əsasında həllini nəzərdə tutan və Ermənistan istisna olmaqla, ATƏT-in 53 üzv dövləti tərəfindən dəstəklənən variantlar ortaya qoymuşdur: Azərbaycan və Ermənistan respublikalarının ərazi bütövlüyü; Azərbaycanın tərkibində Dağlıq Qarabağa özünümüəyyənetməyə əsaslanan ən yüksək hüquqi statusun verilməsi; Dağlıq Qarabağın bütün əhalisinin təhlükəsizliyinin təminatı. Dr. H.Məmmədova qeyd edir ki, 1992-ci ildən Lissabon zirvə toplantısınadək bu şərtləri özündə əks etdirən ATƏT-in heç bir sənədi mövcud olmamışdır. "İlk dəfə olaraq məhz bu toplantıda Azərbaycan Respublikasının ərazi bütövlüyü çərçivəsində DQ-a hər hansı bir muxtariyyətin verilməsi, habelə orada həm erməni, həm də azərbaycanlı əhalisinin təhlükəsizliyinə təminat məsələsini nəzərdə tutan Lissabon bəyannaməsi qəbul edilmişdir". [8, 163]

Ulu Öndərin rəhbərliyi altında münaqişənin həllinə dair 1999-cu ildən "Praqa Prosesi" adlanan həll modeli fəaliyyətə başlamış və bu modelə uyğun olaraq prezidentlər, onların xüsusi nümayəndələri və xarici işlər nazirləri səviyyəsində birbaşa danışıqlar nəzərdə tutan diplomatik vasitə işə salınmışdır. Siyasi elmlər doktoru E.Əhmədov qeyd edir ki, Ermənistan-Azərbaycan münaqişəsinin nizama salınması istiqamətində beynəlxalq təşkilatların səyləri ilə yanaşı, 1999-cu ilin aprelindən başlayaraq yeni formada addımlar atılır. Bu, Azərbaycan və Ermənistan prezidentlərinin birbaşa dialoqunun aparılmasıdır. Həmin vaxtdan iki respublikanın prezidentləri Moskvada, Vaşinqtonda, Cenevrədə, Yaltada, İstanbulda, Davosda, Nyu-Yorkda, Minskdə, Parisdə, Ki-Uestdə, Soçidə, Kişinyovda, Praqada, Strasburqda, Varşavada, Astanada, Kazanda, Rambuyedə, Buxarestdə, Sankt-Peterburqda, Surixdə, Münhendə, Həştərxanda və habelə iki respublikanın sərhəddi – Sədərəkdə 40-dan artıq görüş keçirmişlər. [7, 105.]

Ümummilli Lider Heydər Əliyev Ermənistanın hərbi təcavüzünə qarşı mübarizədə İslam Əməkdaşlıq Təşkilatına (İƏT) (2010-cu ilədək İslam Konfransı Təşkilatı olmuşdur) xüsusi önəm vermişdir. Bu qurum 1993-cü ilin aprelin 25-29-da Azərbaycan ərazilərinə təcavüzü pisləyən qətnamə qəbul etmişdir. Beynəlxalq hüquqi baxımdan mühüm əhəmiyyət kəsb edən bu sənədlə ilk dəfə Ermənistan dövlət olaraq "təcavüzkar" elan olunmuş, bununla da İƏT "Azərbaycan Republikasına qarşı Ermənistanın təcavüzü" faktını ilk təsdiq edən regional təşkilat kimi tarixə düşmüşdür. Ümumilikdə qətnamənin beynəlxalq hüquqi təfsirindən Ermənistanın Azərbaycana qarşı təcavüzünün beynəlxalq sülh və bəşəriyyətə qarşı cinayət kimi qiymətləndirilməsi irəli sürülür. Eyni zamanda, Ermənistanın bütün hərəkətlərinə təcavüz aktı kimi məhz BMT Nizamnaməsinin VII fəslinə uyğun olaraq qiymət verilməsi sənədin məntiqindən doğan tələb kimi çıxış edir. 1994-cü ildə Kasablankada İƏT ölkələrinin Dövlət başçılarının VII Zirvə Konfransında qəbul edilmiş qətnamədə də Ermənistanın Azərbaycana təcavüzü "kəskin şəkildə pislənmiş", təcavüz nəticəsində hərbi münaqişənin kəskinləşməsi və Azərbaycan ərazisinin 20%-dən çoxunun işğalından dərin narahatlıq ifadə olunmuşdur. [11,39-41] Bu qətnamənin beynəlxalq hüquqi cəhətdən ən zəruri elementi bundan ibarətdir ki, 4-cü bənddə birbaşa BMT TŞ-dən Azərbaycana qarşı edilən təcavüzün etiraf olunması, BMT Nizamnaməsinin VII fəslinə uyğun olaraq, onun (BMT-nin) qətnamələrinin yerinə yetirilməsi tələb edilir. Eyni zamanda,

sənəddə Azərbaycan Respublikasının suverenliyinə və ərazi bütövlüyünə edilən təcavüzə son qoyulması və bu məqsədlə BMT-dən koordinasiyalı fəaliyyət istənilir. Qeyd olunan sənədin daha bir əlamətdar cəhəti budur ki, bütün islam dünyasının Azərbaycanla tam həmrəyliyi təsdiq olunmuş və onun təcavüzdən özünümüdafiə hüququ dəstəklənmişdir. 1996-cı il Cakarta konfransında münaqişə ilə bağlı beynəlxalq hüquqi mahiyyətinə görə mühüm bir dəyişiklik baş vermiş, ilk dəfə İƏT-nin 1993-cü ildən etibarən Ermənistan Azərbaycan münaqişəsinə dair qəbul etdiyi qətnamələrin adı dəyişdirilmişdir. "Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında münaqişə haqqında qətnamə" əvəzinə, "Ermənistan Respublikasının Azərbaycan Respubıikasına qarşı təcavüzü haqqında qətnamə" adlandırılmışdır. Bu qurumun 1997-ci il Tehran Zirvə konfransında qəbul etdiyi daha bir "Ermənistan Respublikasının Azərbaycan Respubıikasına qarşı təcavüzü haqqında qətnamə"də qeyd edilmişdir ki, İƏT-nin üzvü olan dövlətlər Ermənistana silah və hərbi sursat verməkdən qəti imtina etməli, onların ərazisindən bu cür yüklərin tranziti üçün istifadə olunmasına yol verməməlidirlər. Sənəddə həmçinin, BMT Təhlükəsizlik Şurasına Ermənistanın təcavüzü ilə bağlı qəbul etdiyi qətnamələrin yerinə yetirilməsi üçün daha təsirli addımların atması tövsiyə olunurdu.[6, 82] Ermənistanın təcavüz cinayətinin beynəlxalq hüquq müstəvisində tanınması üçün sonrakı hüquqi prosedurların həyata keçirilməsi baxımından İƏT-in atdığı bu addımlar mühüm əhəmiyyətli məsələ hesab olunmalıdır.

Ulu Öndər Heydər Əliyevin Qarabağa dair siyasətinin əsas istiqamətlərindən birini də Avropa İttifaqı ilə münasibətlər təşkil etmişdir. Özünün genişlənmə və inteqrasiya siyasətini həyata keçirən Aİ Cənubi Qafqazdakı münaqişələrə, o cümlədən Dağlıq Qarabağ probleminə daha çox nüfuz etmək kursunu hər zaman əsas götürmüşdür. Bu həm beynəlxalq hüquq, həm də geosiyasi baxımdan müsbət nəticələrlə xarakterizə olunur. Tarix elmləri üzrə fəlsəfə doktoru S.Seyidova qeyd edir ki, ABŞ və Qərb dövlətləri münaqişəni tezliklə həll etmək, Ermənistanı rus təsirindən azad etmək və bütünlükdə Cənubi Qafqaz regionunu NATO və Avropa İttifaqının təsir dairəsinə salaraq müxtəlif layihələrdə bu regionun iştirakını istəyirlər.[9, 169] Aİ-nin münaqişələrin, xüsusilə DQ probleminin həll edilməsinə olan marağının əsas səbəbi odur ki, son illərdə qurumun sərhədləri bu regiona daha çox yaxınlaşmış, Avropa Qonşuluq Siyasəti (AQS) və Şərq Tərəfdaşlığı proqramları çərçivəsində tərəflər arasında qarşılıqlı inamın yaranmasına kömək göstərməyə hazır olduğunu dəfələrlə bəyan etmişdir. Bununla əlaqədar Bordo Siyasi Tədqiqatlar İnstitutunun nümayəndəsi S. Lussak münaqişənin potensial həllinin Moskvada və ya Vaşinqtonda deyil, Brüsseldə olmasını qeyd edərək, Aİ-ni Azərbaycan və Ermənistan arasında yeganə bitərəf vasitəçi hesab edir. Bu variantı həll modelləri sırasında inteqrasiya modeli adlandırmaq olar. Əslində Aİ (ilkin adı Avropa Kömür və Polad Birliyi) özü bir beynəlxalq birlik olaraq Almaniya və Fransa arasında konfrantasiyanı aradan qaldırmaq məqsədilə formalaşdırılmışdı. Fransa və Almaniya əsas resursların – kömür və poladın – birgə işlənməsinin Avropada gələcək inteqrasiyanın əsasını təşkil edə biləcəyi qənaətinə gəlmişlər.

Suverenlik, özünütəyinetmə hüququ, ərazi bütövlüyü, sərhədlərin toxunulmazlığı kimi transmilli problemlər XXI əsrdə özünün daha səmərəli həllini fövqəlmilli idarəetmə sistemləri çərçivəsində tapa bilər. Aİ-nin Qarabağa dair ilkin mövqeyi 3 sentyabr və 9 noyabr 1993-cü il tarixli bəyanatlarda tapmış, konfliktin ərazi bütövlüyü və suverenlik prinsipi əsasında həlli dəstəklənmiş, qaçqınlar probleminin regional təhlükəsizlik üçün qorxu yaratdığı vurğulanmış, silahlı toqquşma nəticəsində məcburi köçkün düşən "on minlərlə mülki şəxsin taleyindən" xüsusi narahatlıq ifadə olunmuşdur. Aİ yeganə beynəlxalq qurumdur ki, 2002-ci ildə Dağlıq Qarabağda keçirilmiş "seçkilər"lə əlaqədar 2 avqust tarixində Aİ-nin üzvü olan 15 dövlət, o zaman Aİ ilə assosiasiya münasibətlərində olan

Mərkəzi və Şərqi Avropa dövlətləri, Kipr, Malta, Türkiyə, İslandiya, Lıxtenşteyn, Norveç və daha sonra Ukrayna adından verilmiş və bütün dünyada yayılmış məlum Bəyannamədə Azərbaycanın ərazi bütövlüyünü birmənalı dəstəkləmişdir. Eyni zamanda, Aİ 2002-ci ilin iyulun 12-də Aİ-Azərbaycan Əməkdaşlıq Komitəsinin iclasında Azərbaycanın ərazi bütövlüyünü bir daha tanımış və DQ münaqişəsinin həll olunması prosesində Azərbaycanın çıxış etdiyi bəzi mövqelərini də dəstəkləmişdir. [5, 110] Eyni zamanda, Aİ tərəfindən Ermənistanın etnik təmizləmə siyasəti aparmasının təsdiq olunması beynəlxalq hüquq nöqteyi-nəzərindən müsbət qiymətləndirilməlidir.

Ölkəmizin ərazi bütövlüyü, suverenliyi və siyasi müstəqilliyi əleyhinə ermənilər tərəfindən məqsədyönlü cinayətkar qəsdlər və təcavüzkar siyasət bu gün də həyata keçirilir. Son dövrlərdə Avropa İttifaqının prosesə aktiv müdaxiləsinə baxmayaraq, Ermənistan beynəlxalq hüquqa və danışıqlara zərər yetirən hərəkətlərdən çəkinmir.

**Nəticə**

Beləliklə, Ulu Öndər Heydər Əliyevin kəlamı ilə desək, "Ədalət iki halda pozulur, cinayət baş verib, cəza verilməyəndə və cinayət olmayan halda cəza verildikdə". Hesab edirik ki, 44 günlük müharibə ermənilərin bu illər ərzində törətdiyi bütün beynəlxalq cinayətləri üçün ən layiqli və ən ədalətli cəza hesab oluna bilər. Lakin, bundan əlavə ermənilərin hərbi təcavüzü və digər cinayətlərinin növbəti ədalətli beynəlxalq hüquqi nəticəsinə nail olmaq üçün bu cinayətlər beynəlxalq məhkəmələr müstəvisində araşdırılmalıdır. Bu beynəlxalq cinayətlər üzrə ədalətli beynəlxalq məhkəmə mexanizmləri tətbiq olunmalı, bu əməllərə görə ədalətli hüquqi formada məsuliyyət labüd olmalıdır. Beynəlxalq hüquqa müvafiq olaraq 27 sentyabr 2020-ci ildə Azərbaycan öz doğma torpaqlarını Ermənistanın hərbi təcavüzündən azad etmək və bu ölkəni sülhə məcbur etmək məqsədilə özünümdafiə xarakterli əks-hücum əməliyyatları keçirdi. Bu proses Azərbaycanın qalibiyyəti ilə nəticələnməklə 10 noyabr 2020-ci il tarixində üçtərəfli bəyanat (Azərbaycan, Rusiya və Ermənistan) imzalandı. Tam əminliklə demək olar ki, həm Ermənistana qarşı həyata keçirilən əks-hücum əməliyyatları, həm də üçtərəfli bəyanatın nəticəsi olaraq müharibənin qələbə sonluğu ilə tamamlanması məhz Heydər Əliyev siyasi irsinin ən böyük təntənəsi, onun uzun illər ərzində həyata keçirdiyi siyasi kursun qələbəsi və ən əsası Heydər Əliyev məktəbinin yetirməsi olan İlham Əliyevin intellekti, cəsarəti və siyasətinin möhtəşəmliyinin təcəssümü idi.

**İstifadə olunmuş ədəbiyyat siyahısı**


1) Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramının təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, Bakı şəhəri, 27 dekabr 2011-ci il. http://www.president.az

2) Azərbaycan Prezidenti İlham Əliyevin və Çexiya Prezidenti Vatslav Klausun görüşü, AzərTAc, 06 May, 2009.

3) Heydər Əliyev. Müstəqillik yollarında. IV kitab. "Azərbaycan nəşriyyatı. Bakı. 1997.

4) Heydər Əliyev və Şərq. 6 cilddə. Birinci kitab. Tərtibçilər: Q.Allahverdiyev və V.Sultanzadə. red. M. Qurbanlı. Bakı, Çaşıoğlu, 2002. 375 s.

5) Diplomatiya aləmi. Azərbaycan Respublikasi xarici işlər nazirliyinin jurnalı № 8, 2004, 156 s.

6) Əhmədov E. İ. Ermənistanın Azərbaycana təcavüzü və beynəlxalq təşkilatlar. "Tuna". Bakı, 1998. 137 s.

7) Əhmədov E. İ. Ermənistanın Azərbaycana təcavüzü. Bakı-2016. 3 cillddə. I cild. 912 s.

8) Məmmədova H. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında ATƏT-in vasitəçilik missiyası. Dirçəliş XXI əsr. 135-136/2009, 163 s.

9) Seyidova S. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsində ATƏT-in Minsk Qrupunun rolu. Dirşəliş XXI əsr. 158-159/2011, s 169

10) NATO"nun dönüşümü. Brussels. NATO-2004. 44 s.

11) Заявление и сообщения МИД Азербайджанской Республики (сентябрь 1993 г. – декабрь 1996 г.). Баку 1997, 64 с.

12) Конституция СССР./Глава 11 «Автономная область и Автономный округ». Статья 87. М., 1977 год. 76 с.

13) Мамедов Р. Самоопределение по-армянски, или о том как армянские сепаратисты из Нагорного Карабаха в очередной раз грубо игнорирует международное право. Мнение (Баку) 1997, № 1, с. 9-12.

14) Международное право. Учебник. Ответственный редактор Ю.М.Колосов, Э.С.Кривчикова. М., Международные отношения, 2005. 720 с.

15) От Майендорфа до Астаны: принципиальные аспекты Армяно-Азербайджанского Нагорно-Карабахского конфликта. Под ред. Г.М.Алексеева (доктор исторических наук, профессор МГУ им. М.В.Ломоносова)- М.: 2010 – 552 с.

16) Marjorie Cohn, Aggressive War: Supreme International Crime,
http://www.democraticunderground.com

## XÜLASƏ

Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsini, bununla bağlı müvafiq Tədbirlər Planında Ulu Öndərin irsinə həsr olunmuş əsərlərin, kitabların və monoqrafiyaların nəşrinin qeyd olunduğunu nəzərə alaraq, "Heydər Əliyev ili" çərçivəsində onun Ermənistanın hərbi təcavüzü ilə bağlı siyasi irsinin və rəsmi fəaliyyətinin elmi cəhətdən araşdırılmasını olduqca vacib hesab edirik. Ulu Öndər tərəfindən bu problem üzrə aparılan uzunmüddətli danışıqları nəzərə alaraq, erməni təcavüzü və digər erməni cinayətləri, xüsusilə ekoloji terror, ekosid ilə mübarizə bu günümüzün də aktual problemləri kimi çıxış edir.

Məqalədə Ermənistanın hərbi təcavüzünə qarşı mübarizədə Heydər Əliyev siyasi irsi araşdırılır. Ölkəmiz 2020-ci ildə Heydər Əliyevin siyasi kursunun davamçısı, Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi və qəhrəman Azərbaycan xalqının milisilsiz şücaəti sayəsində 44 günlük Vətən müharibəsində özünümüdafiə hüququndan istifadə edərək əks-hücum əməliyyatları keçirərək qalibiyyət əldə etmiş, ərazilərimizi işğaldan azad etmişdir. Azərbaycanın Ermənistanın hərbi təcavüzünə qarşı mübarizədə bu möhtəşəm qalibiyyəti bilavasitə Heydər Əliyev siyasi irsinin ən böyük təntənəsi idi.

**Сайяд Меджидов**
**Старший преподаватель кафедры управления в сфере юстиции Академии Юстиции Министерства Юстиции Азербайджанской Республики, д.ф.п.п.**

## Празднование политического наследия Гейдара Алиева в борьбе с военной агрессией Армении

## РЕЗЮМЕ

Принимая во внимание объявление 2023 года «Годом Гейдара Алиева» в Азербайджанской Республике, а также издание работ, книг и монографий, посвященных

наследию Великого Лидера в соответствующем Плане действий, в рамках «Года Гейдара Алиева» его политическое наследие связано с военной агрессией Армении и мы считаем очень важным исследовать его служебную деятельность с научной точки зрения. Учитывая многолетние переговоры великого лидера по этой проблеме, борьба с армянскими преступлениями, особенно экологическим терроризмом и экоцидом, также являются актуальными проблемами сегодняшнего дня.

В статье рассматривается политическое наследие Гейдара Алиева в борьбе с военной агрессией Армении. Благодаря руководству продолжателя политического курса Гейдара Алиева, Президента Азербайджанской Республики, победоносного Главнокомандующего Ильхама Алиева, и неустанному мужеству героического азербайджанского народа наша страна одержала победу в 44-дневной Отечественной войне путем проведения контрударных операций и освобождения наших территорий от оккупации в 2020 году. Эта великая победа Азербайджана в борьбе против военной агрессии Армении стала самым большим торжеством политического наследия Гейдара Алиева.

**Sayyad Majidov**
**Senior Professor of the Department of Administration in the field of Justice of the Academy of Justice of the Ministry of Justice of the Republic of Azerbaijan, Ph. D in law**

## The celebration of Heydar Aliyev's political legacy in the fight against Armenia's military aggression

### S U M M A R Y

Taking into account the declaration of 2023 as the "Year of Heydar Aliyev" in the Republic of Azerbaijan, and the publication of works, books and monographs dedicated to the legacy of the Great Leader in the relevant Action Plan, within the framework of the "Year of Heydar Aliyev" his political legacy related to the military aggression of Armenia and we consider it very important to scientifically investigate the official activity. Taking into account the long-term negotiations conducted by the great leader on this problem, the fight against Armenian oppression and other Armenian crimes, especially environmental terrorism and ecocide, are also urgent problems of today.

The article examines Heydar Aliyev's political legacy in the fight against Armenia's military aggression. Thanks to the leadership of Ilham Aliyev, the follower of the political course of Heydar Aliyev, the President of the Republic of Azerbaijan, the victorious Commander-in-Chief Ilham Aliyev, and the unrelenting courage of the heroic Azerbaijani people, our country won the 44-day Patriotic War by conducting counter-attack operations and freed our territories from occupation in 2020. This great victory of Azerbaijan in the fight against the military aggression of Armenia was directly the biggest celebration of Heydar Aliyev's political legacy.

***Səlahəddin ƏLİYEV***

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi
Aparatının Mülki hüquq şöbəsinin müdir müavini

# AZƏRBAYCAN RESPUBLİKASININ KONSTİTUSİYASINDA MÜLKİYYƏT HÜQUQUNUN YERİ VƏ ROLU

***Açar sözlər:*** *konstitusiya, insan hüquqları, Ümummilli Lider, mülkiyyət, mülkiyyət haqqında qanunvericilik*

***Ключевые слова:*** *конституция, права человека, общенациональный лидер, собственность, законодательство о собственности*

***Keywords:*** *constitution, human rights, national leader, property, property legislation*

Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa etdiyi ilk dövrlərdən vətəndaş cəmiyyətinin bərqərar edilməsini, hüquqi və demokratik dövlət quruculuğunu öz inkişafının əsas istiqamətləri kimi seçmişdir. Ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi ilə hazırlanaraq 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi (referendum) yolu ilə qəbul edilmiş, Azərbaycan Respublikası Konstitusiyası ölkəmizin gələcək inkişafının prinsiplərini müəyyənləşdirərək, digər sahələrlə yanaşı, siyasi və hüquqi sahələrdə də ciddi islahatların həyata keçirilməsinə geniş imkanlar yaratmışdır. Hələ Konstitusiya layihəsinin hazırlandığı dövrdə Komissiyaya sədrlik edən Ümummilli Liderimiz Heydər Əliyev deyirdi: "Biz elə bir layihə hazırlamalı və nəhayət, elə bir Konstitusiya qəbul etməliyik ki, o, uzun müddət sabit yaşanmasını təmin edən Əsas Qanun, tarixi sənəd olsun". Həqiqətən də, Azərbaycan Respublikasının ilk milli Konstitusiyası zamanın tələblərinə cavab verən mükəmməl bir sənəd olmaqla zəruri islahatlar prosesi üçün geniş imkanlar açdı. Hazırki dövrdə isə artıq respublikamızda cəmiyyət həyatının bütün sahələrində iri miqyaslı hüquqi islahatlar həyata keçirilmiş, institusional səviyyədə bir sıra yeni islahatlar yaradılmış habelə beynəxalq birliyə sürətli inteqrasiya, ictimai münasibətlər sisteminin müasir dəyərlərə uyğun şəkildə yenidən tənzim edilməsi sahəsində əhəmiyyətli naliyyətlər əldə edilmişdir.

İnsan hüquqları ayrılmazdır və heç kim insanı onun təbii hüquqlarından məhrum edə bilməz. Müasir dünyamızı azadlıq, bərabərlik, ədalət prinsiplərinə əsaslanan və unversal xarakter daşıyan insan hüquqlarından ayrı təsəvvür etmək qeyri-mümkündür. İnsan hüquqları və azadlıqları konstitusiya hüququnun əsas institutlarından biridir. Hüquq və azadlıqların məcmusu hər bir ölkədə vətəndaşla dövlət arasında mövcud münasibətlərin məzmununu təşkil edir. Əsas hüquqlar və azadlıqlar vəzifələrlə vəhdətdə vətəndaşın statusunu müəyyən edir.

Qeyd etmək lazımdır ki, insan və vətəndaş hüquqları və azadlıqları, bir qayda olaraq, aşağıdakı qruplara bölünürlər: 1) şəxsi hüquqlar və azadlıqlar; 2) siyasi hüquqlar və azadlıqlar; 3) iqtisadi, sosial və mədəni hüquqlar və azadlıqlar. Azərbaycan Respublikasının Konstitusiyası ilə əsas insan və vətəndaş hüquqları və azadlıqları bilavasitə yuxarıda qeyd edilən qruplara bölünməsələr də, müəyyən məntiqli ardıcıllıqla yerləşdirilməsi onların həmin əsaslarla qruplaşdırılması fikrini doğurur. İnsan və vətəndaş hüquqlarının və

azadlıqlarının belə təsnifatı kifayət qədər şərti xarakter daşıyır. Belə ki, Konstitusiyada təsbit olunan ayrı-ayrı hüquq və azadlıqlar öz xarakterlərinə görə müxtəlif qruplara aid edilə bilər.

İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının dövlət tərəfindən müdafiəsini təmin etmək üçün Konstitusiya ilə bir sıra təminatlar nəzərdə tutulmuşdur. Hər şeydən əvvəl, qeyd etmək lazımdır ki, insan və vətəndaş hüquqlarına və azadlıqlarına dövlət təminatı yalnız demokratiyanın hökm sürdüyü siyasi rejimin mövcud olduğu şəraitdə mümkündür. İnsan və vətəndaş hüquqları və azadlıqları demokratiya yolunda mübarizələrin nəticəsi olaraq, demokratik cəmiyyətdə təmin edilə bilərlər. Demokratiyanı məhdudlaşdırmaq məqsədi ilə ona qarşı edilən hücumlar ilk növbədə insan və vətəndaş hüquqlarının və azadlıqlarının məhdudlaşdırılmasından başlanır. Odur ki, demokratik prinsiplərə əsaslanan dövlət hakimiyyətinin formalaşması insan və vətəndaş hüquqlarının və azadlıqlarının müdafiəsində dövlət təminatının əhəmiyyətli şərtlərindən biridir.

Azərbaycan Respublikasının Konstitusiyasının 71-ci maddəsinin II hissəsinə görə insan və vətəndaş hüquqlarının və azadlıqlarının həyata keçirilməsini heç kəs məhdudlaşdıra bilməz. Hər kəsin hüquq və azadlıqları bu Konstitusiyada və qanunlarda müəyyən edilmiş əsaslarla, habelə digərlərinin hüquq və azadlıqları ilə məhdudlaşır. Hüquq və azadlıqların məhdudlaşdırılması dövlət tərəfindən gözlənilən nəticəyə mütənasib olmalıdır. Belə ki, insan və vətəndaş hüquqları və azadlıqları heç bir şəkildə ləğv edilə və ya məhdudlaşdırıla bilməz. Konstitusiyanın 155-ci maddəsinə uyğun olaraq, 3-cü fəsildə (əsas insan və vətəndaş hüquqları və azadlıqları) nəzərdə tutulmuş müddəaların məhdudlaşdırılması haqqında təkliflər referenduma çıxarıla bilməz. Bütün bunlar insan və vətəndaş hüquqları və azadlıqlarının əsassız olaraq məhdudlaşdırılmasının qarşısını alır.

Belə ki, Azərbaycan Respublikası Konstitusiyasının 71-ci maddəsinin III hissəsində insan və vətəndaş hüquqlarının və azadlıqlarının məhdudlaşdırılmasnı nəzərdə tutan hallar öz əksini tapmışdır. Həmin hallar bunlardır: müharibə elan olunduqda, hərbi vəziyyət elan olunduqda, fövqəladə vəziyyət elan olunduqda və səfərbərlik elan olunduqda.

Ümumdünya insan hüquqları Bəyannaməsinin 29-cu maddəsinin 2-ci hissəsində göstərilir: “Hər bir insan özünün hüquq və azadlıqlarını həyata keçirəndə ancaq elə məhdudiyyətlərə məruz qalmalıdır ki, o məhdudiyyətlər yalnız qanunla başqalarının hüquqlarını və azadlıqlarını lazımı şəkildə tanımaq və onlara hörmət etmək, demokratik cəmiyyətdə əxlaqın, ictimai qayda-qanunun və ümumi rifahın ədalətli tələblərini təmin etmək məqsədi ilə müəyyən edilmiş olsun”. Məhz bu səbəbdən insanların hüquqları və azadlıqları məntiqi olaraq elə sistemləşdirilmişdir ki, bu, bir tərəfdən şəxslərin qanunu maraqlarının müdafiə olunmasını təmin edir, digər tərəfdən isə, həmin hüquqlar başqa şəxslər tərəfindən pozulduqda onların barəsində məcburiyyət tədbirlərinin tətbiqini müəyyən edir.

Azərbaycan Respublikasının iqtisadi sistemi üçün mülkiyyətin müxtəlif formaları xarakterikdir. Mülkiyyət münasibətləri Azərbaycan Respublikasının bir çox qanunvericilik aktları ilə tənzimlənir. Həmin hüquqi aktlar içərisində Konstitusiya öz əhəmiyyəti ilə seçilir. Belə ki, Konstitusiya norması ilə dövlət tərəfindən tanınan, müdafiə edilən mülkiyyət formaları öz hüquqi əksini tapmışdır. Azərbaycan Respublikasında mülkiyyət formaları bunlardır: xüsusi mülkiyyət, dövlət mülkiyyəti və bələdiyyə mülkiyyətidir.

Bununla belə, konstitusiya hüququ digər hüquq sahələrindən fərqli olaraq, yalnız ən əsas münasibətləri tənzimləyir. Bu münasibətlər digər hüquq münasibətlərinə nisbətən ilkin və əsasdır. Bu isə konstitusiya hüququnu bir hüquq sahəsi kimi digər sahələrdən fərqləndirən müəyyən xüsusiyyətlər yaradır. Əslində konstitusiya hüququnun aparıcı hüquq sahəsinə çevirilməsində bütün konstitusiya qanunvericiliyi deyil, bilavasitə konstitusiya özü əsas rol

oynayır. Çünki qanunvericilik sistemində ən yüksək pillədə istənilən Konstitusiya qanunvericiliyi aktı deyil, yalnız konstitusiya durur. Digər qanunvericilik aktları (qanunlar, fərmanlar, təlimatlar, əsasnamələr və s.) qanunvericlik sisteminin müxtəlif pillərində qərar tuturlar və başqa sahələrə aid olan qanunlardan özlərinin hüquqi qüvvəsinə görə və ya hər hansı xüsusiyyətinə görə fərqlənmirlər. Konstitusiya hüququnun hüququn aparıcı sahəsi olmasına səbəb konstitusiyanın normalarıdır. Bu normalar xalqın iradəsini bilavasitə əks etdirməkdən və əsas vacib münasibətləri müəyyən etməkdən əlavə, həm də başqa hüquq sahələri üçün, belə demək mümkünsə, inkişaf istiqamətini, onların başlıca prinsiplərini müəyyən edir. Məsələn, mülki hüquq üçün ən əsas kateqoyiya mülkiyyətdir. Bütün digər mülki hüquq münasibətləri ya mülkiyyətdən törəmədir, ya da mülkiyyətə münasibətdə mülki hüquq üçün ikinci dərəcəli bir məsələdir.

Bununla belə, mülkiyyətin də mahiyyəti və məzmununu bir növ konstitusiya hüququ müəyyən edir. Azərbaycan Respublikası Konstitusiyasında birbaşa nəzərdə tutulur ki, "Azərbaycan Respublikasında mülkiyyət toxunulmazdır və dövlət tərəfindən müdafiə olunur. Mülkiyyət dövlət mülkiyyəti, xüsusi mülkiyyət və bələdiyyə mülkiyyəti növündə ola bilər. Mülkiyyətdən insan və vətəndaş hüquqları və azadlıqları, cəmiyyətin və dövlətin mənafeləri, şəxsiyyətin ləyaqəti əleyhinə istifadə edilə bilməz" (13-cü maddə). Müəyyən edilir ki, mülkiyyətin heç bır növünə üstünlük verilmir (29-cu maddə). Mülkiyyət barədə Konstitusiyada nəzərdə tutulan müddəalar mülkiyyət münasibətlərinin tənzimlənməsi konsepsiyasının, prinsiplərinin, üsullarının, qaydalarının özülünü təşkil edir. Bu o deməkdir ki, Mülki Məcəllə, həmçinin ölkədə mülkiyyət münasibətlərini tənzimləyən digər normativ hüquqi aktlar Konstitusiyada təsbit edilmiş müddəaları inkişaf etdirməli, daha dolğunlaşdırmalı və bu münasibətlərin tənzimlənməsi üçün sadə anlaşıqlı hüquqi mexanizmlər nəzərdə tutmalıdırlar. Sanki konstitusiya ilə mülki hüququn üzərinə müəyyən vəzifələr qoyulur.

Mülki hüquq mülkiyyətin bütün növləri üçün eyni dərəcədə əsaslı, ciddi müdafiə rejimi müəyyən edir. Mülki hüquqda müəyyənləşdirilən bütün normalarla cəmiyyətin və dövlətin mənafeyi bir-birinə uzlaşdırılır. Bir mənafe başqa mənafenin pozulması hesabına təmin edilə bilməz, çünki konstitusiya hüququnda mülkiyyətin sosial təyinatlı olması müəyyən edilməmişdir.

Azərbaycan Respublikasında mülkiyyət münasibətləri Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə tənzimlənir. Məcəllənin 6-cı fəsli mülkiyyər hüququnun ümimi müddaəalarma həsr edilmişdir. Belə ki, Azərbaycan Respublikasında mülkiyyət hüququnun sübyektləri hüquqi və fiziki şəxslər, bələdiyyələr və Azərbaycan Respublikası ola bilər.

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası Konstitusiyasının 29-cu maddəsi Konstitusiyanın 13-cü maddəsi ilə sıx surətdə bağlıdır. Belə ki, mülkiyyət hüquq münasibətləri başlıca olaraq 1999-cu il 28 dekabr tarixli Azərbaycan Respublikasının qanunu ilə təsdiq edilmiş Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə tənzimlənir.

Belə ki, iqtisadi, sosial və mədəni hüquqlar, adından da göründüyü kimi, çox geniş bir sahəni əhadə edir. Buraya maddi və mənəvi nemətlərin yaradılması, istifadəsi ilə bağlı bir çox hüquq və azadlıqlar daxildir. İqtisadi hüquqlar arasında ən əsas hüquq mülkiyyət hüququdur. Azərbaycan Respublikasının vətəndaşlarının mülkiyyət hüququ ilə əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin mülkiyyət hüququ bir-birindən fərqlənə bilər. Vətəndaşların mülkiyyətində ola bilən bir şey əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin mülkiyyətində olmaya da bilər.

Mülkiyyət hüququ hamılıqla tanınan əsas hüquqdur və ali insani dəyərləri özündə əks etdirən demokratik cəmiyyətin, hüquqi dövlətin təməl daşlarından biri hesab edilir.

Mülkiyyət hüququnun ümumbəşəri dəyərlər sırasında olması qəbul edilmiş bir sıra beynəlxalq sənədlərdə də öz əksini tapmışdır. Mülkiyyət insanla maddi əşyalar arasındakı münasibəti ifadə edir. Mülkiyyət həm hüquqi, həm də iqtisadi kateqoriyadır. Mülkiyyət hüququ ən qədim və əsas hüquqlardan biridir. 1793-cü il Fransa Konstitusiyasında göstərilirdi ki, mülkiyyət hüququ hər bir vətəndaşa məxsusdur və hər bir vətəndaş öz mülahizəsinə, istəyinə görə mülkiyyətdən istifadə edə bilər. Bu dövr üçün mülkiyyət hüququnun müqəddəs hesab edilməsi və buna görə də mülkiyyətçiyə tam sərbəstlik verilməsi xasdır. Mülkiyyətçi mülkiyyət hüququndan istədiyi kimi istifadə edə bilərdi və onun mülkiyyət hüququ toxunulmaz idi.

İqtisadi kateqoriya kimi mülkiyyət maddi və mənəvi dəyərlərin mənimsənməsi prosesini ifadə edir. Hüquqda isə məsələnin hansı şəkildə insan davranışında təzahür etməsi daha çox əhəmiyyətlidir. Azərbaycan Respublikasının Mülki Məcəlləsində mülkiyyət hüququna belə anlayış verilmişdir: mülkiyyət hüququ subyektin ona mənsub əmlaka (əşyaya) öz istədiyi kimi sahib olmaq, ondan istifadə etmək və ona dair sərəncam vermək üzrə dövlət tərəfindən tanınan və qorunan hüququdur. Göründüyü kimi, mülkiyyət hüququ hər hansı əmlak üzərində sahiblik, istifadə və sərəncam vermə imkanıdır. Burada hər üç hərəkət bir-birindən ayrılmazdır, başqa sözlə, bunlardan biri olmadıqda mülkiyyətə tam sahiblik hüququ da olmur. Hələ qədim Roma hüquqşünasları tərəfindən müəyyənləşdirilən bu klassik triadaya müasir dövrdə tələb hüququnu də əlavə edirlər. Mülkiyyət maddi nemətlərin mənimsənməsi prosesi kimi özündə böyük iqtisadi güc ehtiva edir.

Mülkiyyət haqqında qanunvericilik ölkədaxili qanunvericiliyin ən geniş və mürəkkəb hisslərindən birini təşkil edir. Mülkiyyətin müxtəlif növləri vardır. Ümumi mülkiyyətin mülkiyyətçiləri ən az iki nəfər ola bilər. Bu zaman konkret əşya, əmlak birdən çox şəxsə məxsus olur. Ümumu mülkiyyətin özünün də iki növü olur: əşyaya mülkiyyət hüququnda mülkiyyətçilərin hər birinin payı müəyyənləşdirilən paylı ümumi mülkiyyət və belə paylar müəyyənləşdirilməmiş birgə ümumu mülkiyyət. Xüsusi mülkiyyət ümumu mülkiyyətin qarşılığı deyildir. Xüsusi mülkiyyət onu ifadə edir ki, əşya, əmlak dövlətə və ictimaiyyətə deyil, konkret bir şəxsə və ya şəxslər qrupuna məxsusdur. Dövlət mülkiyyətinin mülkiyyətçisi isə yalnız dövlətdir. Bu mülkiyyət üzərində sərəncam verməyə ancaq dövlət haqlıdır.

Konstitusiyada mülkiyyətin obyekti ola biləcək əşyaların da iki əsas növü müəyyənləşdirilir. Göstərilir ki, hər bir kəs daşınan və daşınmaz əmlaka malik ila bilər. Daşınmaz əmlak bir yerdən başqa yerə aparılarkən öz təyinatını, xüsusiyyətlərini itirən və bir qayda olaraq, torpaqla möhkəm bağlı olan obyektlərdir. Məsələn, torpaq sahələri, yerin təki, ayrıca su obyektləri, meşələr, çoxillik əkinlər, binalar, qurğular, yollar və s. Daşınan əmlak isə öz təyinatını itirmədən yerdəyişməsi mümküm olan və daşınmaz əmlaka aid edilə bilməyən bütün əşyalardır. İstənilən və əldə edilməsinə qanunla yol verilən əşya şəxsin mülkiyyətində ola bilər.

Bununla belə, Konstitusiya həm də mülkiyyət növlərinə eyni dərəcədə əhəmiyyət verir. Bu isə o deməkdir ki, onların hər hansı birinin digərindən daha üstün hesab olunması və meydana çıxan problemlərin, məsələlərin həlli zamanı mülkiyyətin hansı növünü daha ciddi qorunması və müdafiə olunması üçün heç bir hüquqi əsas yoxdur. Odur ki, bütün mülkiyyət növləri bərabərdir və eyni dərəcədə müdafiə olunmalıdır. Mülkiyyət hüququnun təminatı kimi göstərilir ki, heç kəs məhkəmənin qərarı olmadan mülkiyyət hüququndan məhrum edilə bilməz, əmlak tam şəkildə müsadirə oluna bilməz. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 32-ci maddəsinin Azərbaycan Respublikası Konstitusiyasının 29-cu maddəsinin IV hissəsinə uyğunluğu haqqında Azərbaycan Respublikası Konstitusiya

Məhkəməsinin Plenumunun 12 yanvar 1999-cu il tarixli qərarında birbaşa müəyyən edilir ki, mülkiyyət hüququ hamılıqla tanınan əsas hüquqdur və ali insani dəyərləri özündə əks etdirən demokratik cəmiyyətin, hüquqi dövlətin təməl daşlarından biri hesab edilir. Mülkiyyət hüququnun ümumbəşəri dəyərlər sırasında olması qəbul edilmiş bir sıra beynəlxalq sənədlərdə də öz əksini tapmışdır. Əmlakın müsadirəsi məhkumun qanuni əsaslarla əldə etdiyi əmlakına, habelə onun himayəsində olan təqsirsiz şəxslərin mülkiyyət hüququnun məhdudlaşdırılmasına yönəldilməməlidir. Əks halda onun tətbiqi Azərbaycan Respublikası Konstitusiyasının 63-cü maddəsində öz əksini tapmış təqsirsizlik prezumpsiyası prinsipinə uyğun hesab edilə bilməz. Belə ki, cəza kimi şəxsin əmlakı müsadirə olunarkən, yalnız cinayət yolu ilə əldə edilmiş əmlak müsadirə oluna bilər.

Azərbaycan Respublikası Konstitusiyasının 13-cü maddəsində mülkiyyətin toxunulmazlığına konstitusion təminat verilmiş və Konstitusiyanın 29-cu maddəsində isə, mülkiyyətin qanunla qorunduğu bildirilmişdir. Konstitusiyanın mülkiyyətlə bağlı bu hər iki maddəsini diqqətlə nəzərdən keçirdikdə aydın olur ki, mülkiyyət hüququna müdaxilələr həm üsul (yəni formaca), həm də məzmun etibarı ilə məhdudlaşdırılmışdır. Belə ki, mülkiyyət hüququna müdaxilə yalnız qanunla ola bilər, yəni mülkiyyət hüququna müdaxilənin hüquqi əsası ən azından qanuna dayanmalıdır. Başqa sözlə, mülkiyyətçinin iradəsi xaricində iyerarxiya baxımından qanundan daha aşağı səviyyədə olan bir normativ aktda mülkiyyət haqqına müdaxiləni nəzərdə tutan bir normanın tənzimlənilməsi həqiqətən yol verilməzdir. Bu həm Konstitusiyanın 29-cu maddəsinin II hissəsində, həm də Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 152.5 maddəsində öz əksini tapmışdır.

Bununla belə maddi nemətlərin fərdi mənsubiyyətini təsbit edən mülkiyyət hüququ Konstitusiya və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq aktlarda təsbit olunan əsas hüquqlardan biridir. Mülkiyyət hüququ hamılıqla qəbul edilmiş ali insani dəyərləri özündə əks etdirən demokratik cəmiyyətin, hüquqi dövlətin təməlindən biri hesab edilir. Lakin fərdin əksər konstitusion hüquqları kimi, mülkiyyət hüququ da müəyyən hallarda məhdudlaşdırıla bilər. Belə ki, Konstitusiyanın 71-ci maddəsinin II hissəsinə görə hər kəsin hüquq və azadlıqları bu Konstitusiyada və qanunlarda müəyyən edilmiş əsaslarla, habelə digərlərinin hüquq və azadlıqları ilə məhdudlaşır. Mülkiyyət hüququna münasibətdə belə məhdudiyyət Konstitusiyanın 13-cü maddəsinin III hissəsində, eyni zamanda Mülki Məcəllənin 152.5-ci maddəsində də göstərilmişdir. Mülkiyyətdən insan və vətəndaş hüquqları və azadlıqları, cəmiyyətin və dövlətin mənafeləri, şəxsiyyətin ləyaqəti əleyhinə istifadə edilməsinin Konstitusiyanın 13-cü maddəsinin III hissəsi ilə qadağan olunması mülkiyyətə qoyulan əsas məhdudiyyətlərdən biri kimi qiymətləndirilə bilər.

Onu da qeyd etmək lazımdır ki, mülkiyyət hüququna formaca yalnız qanunla müdaxilə edilə biləcəyi həm də bütövlükdə mülkiyyətlə bağlı beynəlxalq konvensiyaların məqsədindən doğan bir tələbidir. Başqa sözlə, dövlət istədiyi şəkildə deyil, yalnız qanuni üsul və əsasla mülkiyyət hüququna müdaxilə edə bilər.

Məzmun baxımından da dövlətin mülkiyyət hüququna müdaxiləsinin bir həddi vardır. Yəni dövlət, mülkiyyət hüququna qəbul etdiyi qanunlar vasitəsilə istədiyi şəkildə və həcmdə müdaxilə edə bilməz. Qanunla olsa belə, mülkiyyətçinin iradəsi xaricində onun mülkiyyət hüququna ancaq Konstitusiyada nəzərdə tutulmuş olan üsul və əsaslar çərçivəsində müdaxilə edilə bilər. Konstitusiyamızda mülkiyyət hüququna olan müdaxilə ilə bağlı bu çərçivə, mülkiyyət hüququna məhdudlaşdırılması və ona xitam verilməsi halları baxımından ayrı-ayrı müəyyən olunmuşdur. Mülkiyyət hüququna xitam verilməsi ilə bağlı ölçü, beynəlxalq konvensiyalara paralel bir şəkildə, “dövlət ehtiyacları” şəklində nəzərdə tutulmuşdur. Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 157.9-cu maddəsində isə,

Konstitusiyanın “dövlət ehtiyacları ” şəklində ifadə edilən göstərişinin tətbiq edilməsinin təmin edilməsi məqsədilə bu konstitusion çərçivəyə aydınlıq gətirilmişdir. Belə ki, Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 157.9-cu maddəsinə görə, dövlət ehtiyacları tələb etdikdə, dövlət tərəfindən mülkiyyət yalnız “Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında” Azərbaycan Respublikasının Qanunu ilə nəzərdə tutulmuş hallarda dövlət əhəmiyyətli yolların və digər kommunikasiya xətlərinin çəkilməsi və quraşdırılması, sərhədboyu zolaqda dövlət sərhədinin etibarlı mühafizəsinin təmin edilməsi, müdafiə və təhlükəsizlik əhəmiyyətli obyektlərin tikilməsi, dövlət əhəmiyyətli dağ-mədən sənayesi obyektlərinin tikilməsi məqsədi ilə alınır. Bununla belə, müvafiq dövlət orqanı tərəfindən və yalnız bazar dəyəri miqdarında qabaqcadan əvəzi ödənilməklə mümkündür. Yəni başqa əsas və üsulla mülkiyyətçinin iradəsi xaricində dövlət tərəfindən onun mülkiyyət hüququna xitam verilə bilməz.

Azərbaycan Respublikasında mülkiyyət toxunulmazdır və dövlət tərəfindən müdafiə o lunur. Mülkiyyət hüququ, o cümlədən xüsusi mülkiyyət hüququ qanunla qorunur (Konstitusiyanın 13-cü maddəsinin I hissəsi və 29-cu maddəsinin II hissəsi). Bu Konstitusiya normalarından irəli gələrək qanunvericilik aktlarında mülkiyyət hüququnun və onun təminatlarının əsassız məhdudlaşdırılması yolverilməzdir. Əsas Qanun hüquq və azadlıqlarla yanaşı onlardan irəli gələn vəzifələri də müəyyən edir və hüquqların həyata keçirilməsinə mümkün qanuni və əsaslı müdaxilələri istisna etmir. Lakin hər hansı hüquqa, o cümlədən mülkiyyət hüququna qanuni müdaxilə mütənasib olmalı, cəmiyyətin və ya dövlətin ümumi maraqları ilə fərdin konstitusiya hüquqlarının qorunması arasında ədalətli tarazlığa nail olunmaqla həyata keçirilməlidir.

## İstifadə olunmuş ədəbiyyat siyahısı

1. Abdullayev F. Azərbaycan Respublikasında Konstitusiyası icraatının nəzəri və praktiki problemləri. Bakı, Elm, 2009.

2. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 2017.

3. Ümumdünya insan hüquqları Bəyannaməsi.

4. Əsgərov Z.A. Konstitusiya Hüququ. Dərslik, “Bakı Universiteti” nəşriyyatı, 2011.

5. Abdullayev F. Azərbaycan Respublikası Konstitusiyası Məhkəməsinin Hüquqi mövqeləri. Bakı, 2013.

6. Cəfərov İ.M. Azərbaycan Respublikasının Konstitusiyasının şərhi. Bakı, “Hüquq ədəbiyyatı” nəşriyyatı, 2010.

7. Azərbaycan Respublikasının Mülki Məcəlləsi. Bakı, “Hüquq Ədəbiyyatı” nəşriyyatı, 2015.

## X Ü L A S Ə

Məqalədə, Azərbaycan Respublikasında mülkiyyət toxunulmazdır və dövlət tərəfindən müdafiə olunur. Mülkiyyət hüququ, o cümlədən xüsusi mülkiyyət hüququ qanunla qorunur (Konstitusiyanın 13-cü maddəsinin I hissəsi və 29-cu maddəsinin II hissəsi). Bu Konstitusiya normalarından irəli gələrək qanunvericilik aktlarında mülkiyyət hüququnun və onun təminatlarının əsassız məhdudlaşdırılması yolverilməzdir. Əsas Qanun hüquq və azadlıqlarla yanaşı onlardan irəli gələn vəzifələri də müəyyən edir və hüquqların həyata keçirilməsinə mümkün qanuni və əsaslı müdaxilələri istisna etmir. Lakin hər hansı hüquqa, o cümlədən mülkiyyət hüququna qanuni müdaxilə mütənasib olmalı, cəmiyyətin və ya dövlətin ümumi

maraqları ilə fərdin konstitusiya hüquqlarının qorunması arasında ədalətli tarazlığa nail olunmaqla həyata keçirilməlidir.

**Салахаддин АЛИЕВ**
**Заместитель заведующего отделом гражданского права**
**Аппарата Конституционного Суда Азербайджанской Республики**

## МЕСТО И РОЛЬ ПРАВА СОБСТВЕННОСТИ В КОНСТИТУЦИИ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

### Р Е З Ю М Е

В статье отмечается что, в Азербайджанской Республике собственность неприкосновенна и охраняется государством. Право собственности, в том числе право частной собственности охраняется законом (часть I статьи 13 и часть II статьи 29 Конституции). Исходя из данных конституционных норм, недопустимо необоснованное ограничение права собственности и ее гарантий. Основной Закон наряду с правами и свободами определяет обязанности, исходящие от них, и не исключает возможные законные и обоснованные вмешательства в осуществлении прав. Правовое вмешательство в любое право, в том числе в право собственности, должно быть соразмерным и осуществляться путем достижения справедливого баланса между общими интересами общества или государства и защитой конституционных прав личности.

**Salahaddin ALIYEV**
**Deputy Head of Department of Civil Law of**
**the Constitutional Court of the Republic of Azerbaijan**

## PLACE AND ROLE OF PROPERTY RIGHTS IN THE CONSTITUTION OF THE REPUBLIC OF AZERBAIJAN

### S U M M A R Y

The property in the Republic of Azerbaijan is inviolable and protected by the State. The property right, including the private property right are protected by law (Chapter I of Article 13 and Chapter II of Article 29 of the Constitution). Arising from these Constitutional norms, unreasonable limitation of property right and its guarantees in legislative acts is not allowed. The Main Law defines the rights and freedoms as well as the responsibilities arising from them and does not exclude possible legal and reasonable interferences in the implementation of rights. However, legal interference must be proportionate to any right, including to the property right, and must be carried out by achieving a fair balance between the general interests of the society or the state and the protection of the constitutional rights of the individual.

***Ərzuman ƏMİROV***

Bakı Slavyan Universitetinin
"Azərbaycan tarixi və ictimai elmlər" kafedrasının dosenti, t.ü.f.d.

***Məhərrəməli SƏFƏROV***

Bakı Slavyan Universitetinin
"Azərbaycan tarixi və ictimai elmlər" kafedrasının baş müəllimi

# ULU ÖNDƏR HEYDƏR ƏLIYEVİN DÖVLƏTÇİLİK SİYASƏTİNDƏ AZƏRBAYCAN SİLAHLI QÜVVƏLƏRİNİN QURUCULUQ FƏALİYYƏTİNİN ZƏFƏRİ

***Açar sözlər:*** *Ümummilli Lider Heydər Əliyev, Ali Baş Komandan, hərbi inkişaf, Azərbaycan Prezidenti İlham Əliyev, 44 günlük, Silahlı qüvvələr, Qələbə marşı, Dəmir yumruq, Silahlar, Hərbi texnika, Vətən müharibəsi*

***Ключевые слова:*** *Общенациональный Лидер Гейдар Алиев, Верховный главнокомандующий, военное строительство, президент Азербайджана Ильхам Алиев, Вооружённые си́лы, 44-дневная, Победный марш, Железный кулак, Оружие, Военная техника, Отечественная война*

***Keywords:*** *National Leader Heydar Aliyev, Supreme Commander, military development, President of Azerbaijan Ilham Aliyev, 44-day, Army, Victory March, Iron Fist, Weapons, Military equipment, Patriotic war*

Azərbaycanın ordu quruculuğu sahəsində xidmətlərinə görə Azərbaycanın hərb tarixinə düşmüş görkəmli şəxsiyyət Ümumilli Lider Heydər Əliyevdir. Ulu Öndər hələ SSRİ dövründə və respublikamız müstəqil olduqdan sonra Azərbaycana rəhbərlik edərkən ordu quruculuğu, hərbi kadrların hazırlığı məsələsinə xüsusi diqqət yetirmişdir. Ümumilli Lider Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi dövrlərdə ordu quruculuğu, milli hərbi kadrların hazırlığı məsələsi daim ön plana çəkilirdi. Ümummilli lider 1971-ci ildə böyük səylər nəticəsində general Cəmşid Naxçıvanski adına hərbi məktəbin açılmasına nail oldu. Eyni zamanda Heydər Əliyev azərbaycanlı gənclərin Bakı Ali Birləşmiş Komandanlıq və Bakı Ali Hərbi Dənizçilik məktəblərində və eləcə də SSRİ-nin digər məktəblərində oxuması üçün tədbirlər gördü. SSRİ dövründəki ordu quruculuğu siyasəti müstəqillik qazandıqdan sonra da Azərbaycan Respublikasında öz bəhrəsini vermişdir. Bugünkü Azərbaycan Ordusunun qurulması, inkişafı, möhkəmlənməsi Heydər Əliyevin yorulmaz fəaliyyətinin, dövlətçilik təfəkkürünün, siyasi uzaqgörənliyinin və təşkilatçılıq qabiliyyətinin məntiqi nəticəsidir. Müstəqilliyimizin və ərazi bütövlüyümüzün etibarlı qarantı olan bugünkü güclü Azərbaycan Ordusu xalqımızın Ümummilli Lideri Heydər Əliyevin Silahlı Qüvvələrin hazırlanmasının parlaq nəticəsidir.

Milli ordu quruculuğu sahəsində Heydər Əliyev irsinin əvəzsiz dəyəri ondadır ki, bu istiqamətin başlanğıcı hələ Sovetlər dövründən başlanmışdır. Sovet illərində Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi vaxtlar hərbi xidmətə münasibətdə yeni bir

baxış formalaşdırıldı, bu istiqamətdə əməli-təşkilati işlərə vüsət verildi. Heydər Əliyevin qeyd etdiyi kimi, XX əsrin 70-ci illərindən etibarən peşəkar hərbi kadrların hazırlanması məsələsi Azərbaycan xalqının əsas vəzifələrindən biri kimi ortaya qoyuldu. Bütün bunların nəticəsində həm gənclərin hərbi xidmətə çağırış işi təkmilləşdirildi, həm də azərbaycanlıların xüsusi ixtisas hazırlığı verən hərbi hissələrə göndərilməsi artdı.

Heydər Əliyev öz qətiyyətini ortaya qoydu və ilk növbədə Bakı Ali Ümumqoşun Komandirləri Məktəbinin rəhbərliyinə yüksək rütbəli azərbaycanlı kadrın gətirilməsinə nail oldu. Sonra bu məktəbə qəbul olunanlar arasında azərbaycanlıların sayının artırılması üçün geniş təşkilati işlər aparıldı. Nəticədə bu məktəbə daxil olan azərbaycanlıların sayı xeyli artırıldı. Heydər Əliyev bununla da kifayətlənmədi və İttifaq miqyasında olan ali hərbi məktəblərdə təhsil alan gənclərin də sayı artırıldı. Nəticədə keçən əsrin 70-ci illərinin sonlarında İttifaqın 45-dən artıq ali hərbi məktəbinə ildə Azərbaycandan 800-900 nəfər gənc göndərilirdi. Sovet dövründə milli zəmində aparılan hərbi-təşkilati işin zirvəsi Azərbaycanda general Cəmşid Naxçıvanski adına hərbi-internat məktəbin açılması Heydər Əliyevin vaxt ötdükcə öz əhəmiyyətini daha da artıracaq tarixi nailiyyəti, bu böyük dühanın öz xalqının gələcəyinə bağlılığının heç zaman unudulmayacaq nişanəsidir.

Heydər Əliyevin milli zəmində hərbi-təşkilati işinin çox mühüm istiqamətini, Sovet dövründə milli zabit kadrların hazırlanması təşkil edirdi. Bu sahədəki fəaliyyət Azərbaycanın hərb tarixində son dərəcə əhəmiyyətli və yaddaqalan bir səhifədir və Azərbaycan öz müstəqilliyini əldə edəndən sonra Heydər Əliyevin necə böyük uzaqgörən olduğu bir daha bugün zəfər qələbəsinin nəticəsi kimi öz təsdiqini tapdı.

Heydər Əliyev 1993-cü ildən xalqın istəyi ilə hakimiyyətə gəldikdən sonra da ordu quruculuğu siyasətini davam etdirmişdir. Silahlı Qüvvələrdə həyata keçirilən quruculuq işləri, struktur dəyişiklikləri, döyüş əməliyyatlarının vahid rəhbərlik altında planlaşdırılması, silahlı qüvvələrin hərb elminin tələblərinə uyğun idarə edilməsi, kadrların saflaşdırılması, qoşun hissələrinin təxribatçı və siyasi ünsürlərdən təmizlənməsi Azərbaycan ordusunu keyfiyyətcə yeniləşdirdi. [2] Bu tədbirlərin nəticəsi olaraq 1993-cü ilin noyabr ayında bütün cəbhə xətti boyu yenidən hücum əməliyyatlarına başlandı. İşğalçılar Azərbaycan ordusunun ciddi müqaviməti ilə rastlaşdılar. 1993-cü il dekabr ayında milli ordumuz düşmənin Beyləqan istiqamətində tank hücumunun qarşısını aldı və yeddi tankını məhv etdi. Azərbaycan döyüşçüləri əks hücuma keçərək 30 km irəlilədilər. 1994-cü il yanvarın 5-də milli ordumuzun uğurlu hərbi əməliyyatları nəticəsində Fizuli rayonun strateji əhəmiyyətli Horadiz qəsəbəsini və 22 kəndi düşməndən azad etdi və hücumu genişləndirərək Cəbrayıl və Kəlbəcər rayonlarının 10-dan çox kəndini düşməndən təmizlədi. Ümumiyyətlə, 1993-cü ilin dekabr 1994-cü ilin yanvar aylarında aparılan hərbi əməliyyatlarda qəhrəman döyüşçülərimiz tərəfindən xain düşmənin 4 min əsgər və zabiti, 50 zirehli texnikası, 15 arteleriya qurğusu məhv edilmişdi. [3] XX əsrin 90-cı illərin ortalarından başlayaraq Azərbaycan və NATO arasında sıx və səmərəli əməkdaşlığın yaradılması ordu quruculuğu prosesinin sürətlə təkmilləşdirilməsinə, Silahlı Qüvvələrimizin modernləşdirilməsinə, müasir standartlara uyğunlaşdırılmasına gətirib çıxarmışdır. Ulu öndərimizin uzaqgörən siyasəti nəticəsində 1994-cü ilin əvvəllərində Azərbaycan NATO-nun “Sülh naminə tərəfdaşlıq” proqramına, bu əməkdaşlığın davamı olaraq 1996 ci ildə “Planlaşdırma və analiz prosesi” proqramına, 2001-ci ildə isə “Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planı” na qoşulmuşdur. 2008-ci ilin sonundan bu əməliyyat planının ikinci mərhələsi başlanmışdır. İl ərzində iki mindən çox Azərbaycan hərbiçisi NATO proqramlarında və digər ikitərəfli əməkdaşlıq proqramlarında iştirak edirdi, ən son hərb yeniliklərini mənimsəyirdilər. Hələ 1997-ci ildən Azərbaycanın hərbi təhsil müəssisələri NATO standartlarına keçmiş, Silahlı

Qüvvələrimizin tərkibində yaradılan sülhməramlı bölük, daha sonra isə sülhməramlı tabor NATO xətti ilə həyata keçirilən hərbi-humanitar aksiyalarda fəal iştirak edirdi, münaqişə ocaqlarında təhlükəsizliyini, sülhün təminatına dəstək verirdilər.

Məhz Azərbaycanın qüdrətli və nizami orduya malik olması məhz Ümummilli Lider Heydər Əliyevin uzaqgörən strategiyanın bəhrəsidir. Prezident Ali Baş Komandan İlham Əliyev Ulu Öndərin ideyalarını layiqincə yerinə yetirərək ordu quruculuğu sahəsində öz səylərini daha da artıraraq Azərbaycan Silahlı Qüvvələrinin müasir hərbi texnika ilə təchiz edilməsinə, möhkəm nizam-intizam, yüksək döyüş ruhu ilə seçilən, düşmənə sarsıdıcı zərbə vurmağa qadir olan bir ordu yaradılmasına nail olmuşdur.

Müharibəyə hazırlıq mərhələsində rəşadətli ordumuz dünyada keçirilən hərbi təlimlərdə iştirak edib, texniki vasitələrinin və texnologiyalarının istifadəsini öyrənirdi. Respublikamız ən yeni tələblərə cavab verən yüksək keyfiyyətli silah-sursat və texnalogiyaları əldə edirdi. Azərbaycan ordusu tərəfindən müharibədə istifadə olunan silahların bir çoxu dünya silah bazarlarından alınan hərbi texniki vasitələri idi.

Rəşadətli Azərbaycan ordusunun döyüş ruhu, peşəkar hazırlığı, hərbi texniki təchizatı Vətən müharibəsindəki qələbəmizin əsas amillərini təşkil etmişdir. 44 günlük Zəfər yürüşündə Azərbaycan ordusunun əks hücum əməliyyatı cəbhəboyu böyük bacarıq, hərbi peşəkarlıq və məharətlə həyata keçirilmişdir [1]. Düşmənin 30 il ərzində işğal etdiyi Azərbaycan ərazilərində qurduqları dəmir, beton istehkamlar, piyada və tank əleyhinə olan minalanmış ərazilər və tikanlı məftillər bizim qəhrəman döyüşçülərimiz tərəfindən darmadağın edilmişdir.

Qeyd olunmalıdır ki, Azərbaycan Hərbi Qüvvələrinin istifadə etdiyi hərbi taktika, müasir texnika, silah və sursat Vətən müharibədə vacib rol oynamışdır. Şübhəsiz bu hazırlıq Ulu Öndərin həyata keçirdiyi ordu quruculuğunun nəticəsi olmuşdur.

Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi, yüksək sərkərdəlik və siyasətçilik bacarığı, həmçinin hərbi texniki ordu quruculuğu sayəsində uzaqgörənliyi nəticəsində Azərbaycanın iqtisadi, elmi və texniki nailiyyətlərini səfərbər edərək sentyabrın 27-dən başlanan Vətən müharibəsi şanlı qələbə ilə sona çatdı.

XXI əsirdə Azərbaycanın hərbi büdcəsi Ermənistan dövlət büdcəsindən 3,5 dəfə çox idi. 2019-cu ildən Azərbaycan, Türkiyə hərbi istehsala daha çox önəm verdi. Belə ki, Türkiyədən Azərbaycana ixrac olan silah miqdarı altı dəfə çoxalaraq avqustda 36 milyon dollar, sentyabrda isə 77 milyon dollara çatmışdır [10]. Ermənistan İordaniyadan əldə etikləri döyüş effekti daha az olan “OSA AK” zenit raket kompleksləri əldə etmək idi [7]. Ermənistanın prezidenti Sarkisyan, Ermənistan ordusunun texniki və silah təchizatı Azərbaycanla nisbətdə qat-qat geridə qaldığını etiraf etməyə məcbur olmuşdur [6].

Ermənistan Silahlı Qüvvələrinin təxribatlarından və mülki əhaliyə qarşı hərbi hücumlarından sonra rəşadətli Azərbaycan ordusu 27 sentyabr 2020-ci ildə döyüş əməliyyatlarına başladı. Hücum əməliyyatı şimal hissədən Murovdağ, Talış, Ağdərə zonasında, cənub hissədən isə Cəbrayıl, Fizuli istiqamətlərində başladı. Hərbi dəstələrimiz böyük qəhrəmanlıq göstərərək 9 oktyabr tarixində Cəbrayıl şəhərini, 11 oktyabrda isə Hadrud bölgəsini azad etmişdir. Təşəbbüsü ələ alan Şanlı Azərbaycan ordusu qızğın döyüşlərdən sonra Fizulini, Zəngilanı və Qubadlı rayonlarını da düşmən tapdağından azad etmişdir [13]. Ordumuz sentyabrın 27-də Qarabağda başladığı uğurlu əks-həmlə əməliyyatları nəticəsində noyabrın 9-dək 5 şəhər, 4 qəsəbə və 286 kənd işğaldan azad edildi. Döyüşlərdə bütün dünya Azərbaycan xalqının əzmini, Azərbaycan Ordusunun döyüş qabiliyyətini aydın gördü [6].

BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi 4 qətnamə təxminən 28 il idi ki, kağız üzərində qalmışdı [8]. Azərbaycan bu tarixi ədaləti özü təkbaşına bərpa etmişdir.

Vətənpərvər xalqımızın Azərbaycan Prezidenti İlham Əliyevi necə dəstəklədiyi, onun ətrafında sıx birləşdiyi bir daha təsdiqləndi. Bu gün biz qeyd etməliyik ki, Ulu Öndərin fəaliyyəti nəticəsində tarixi qələbimiz, peşəkar hərbi təlim hazırlığı və müasir texniki təchizatı nəticəsində, Ali Baş Komandanın strateji siyasəti sayəsində reallaşmışdır. Milli həmrəylik, vətənpərvərlik, yüksək döyüş əzmi Vətən müharibəsini Azərbaycan xalqının qələbəsi ilə yekunlaşdırdı. Azərbaycan tarixi ədalətin və öz ərazi bütövlüyünün bərpasına hərbi-siyasi yolla nail oldu. Lakin unutmayaq ki, bunun bünövrəsi Ulu Öndər Heydər Əliyev hakimiyyəti dövründə Silahlı Qüvvələrinin ordu quruculuğu sayəsində həyata keçmişdir [1] və ölkəmiz 44 günlük Vətən müharibəsində işğal edilmiş torpaqlarımızı erməni işğalçılarından azad etmişdir.

**İstifadə olunmuş ədəbiyyat siyahısı**


1. https://mənazerbaycanliyam.wordpress.com.2013/06/26, H.Əliyev və ordu quruculuğu
2. https://mod.gov.az/az/pre/22521.h.tml.Azərbaycan Respublikası Silahli Qüvvələri
3. ....AzərbaycanRespublikası "Müdafiə Nazirliyinin cari arxivi" 07.02.2023
4. "Azərbaycan"qəzeti 9.11.2020
5. https://www.bbcom/russian/features
6. https://www.m.haqqin.az/news/222/64
7. https://www.virtualkarabakh.az/ru/postitem/52/2871/ikinci-qarabag-muharibesi.html
8. https://www.gazeta.ru/army/2021/09/07/13961588.shtml
9. ABŞ-ın West Point Hərbi Akademiyasının saytı (Şuşa uğrunda döyüş. 2020-ci ildə Dağlıq Qarabağ müharibələrinin hesaba alınmamış dərsləri)
10. https://herb/az
11. Jane's Defense Weekly
12. ABŞ Strateji Araşdırmalar İnstitutu "Heritage Foundation"
13. BBC news


**X Ü L A S Ə**


Məqalə Azərbaycanın Ümummilli Lideri Heydər Əliyevin respublika Silahlı Qüvvələrinin formalaşmasında xidmətlərinə həsr olunub. Ulu Öndər Heydər Əliyevin qabaqcıl ordunun formalaşdırılmasında, Azərbaycanın müdafiə və döyüş qabiliyyətinin möhkəmləndirilməsində hərbi kadrların hazırlanması sahəsində göstərdiyi qayğısı məqalədə əks olunmuşdur. İstifadəsi Ermənistan silahlı qüvvələri üzərində üstünlüyü əldə edilməsi müasir silah və hərbi texnikanın hazırlanmasında və təchiz edilməsində Azərbaycan Respublikası Prezidentinin və Ali Baş Komandanının strateji rolu qeyd olunur. Hərbi döyüşlərin gedişatında qabaqcıl təcrübənin tətbiqi və Ali Baş Komandan İlham Əliyevin müasir hərbi və texniki strategiyasına əsaslanması nəticəsində Azərbaycanın işğal olunmuş əraziləri azad edilmişdir. Sonda Azərbaycanın qabaqcıl ordusunun formalaşmasında Azərbaycanın Ümummilli Lideri Heydər Əliyevin tarixi xidmətləri qeyd olunur. Bunun da nəticəsində 44 günlük vətən müharibəsində qələbə əldə olunmuşdur və işğal olunmuş Azərbaycan ərazilərinin azad edilməsi ilə nəticələnmişdir.

**Арзуман Амиров**
**Доцент кафедры истории Азербайджана и общественных наук БСУ, д.ф.п.и.**
**Магеррамали Сафаров**
**Старший преподаватель кафедры истории Азербайджана и общественных наук БСУ**

## Государственная политика общенационального лидера Г.Алиева в деле формирования и дальнейшей победы Вооружённых Сил Азербайджана

### Р Е З Ю М Е

Статья посвящена вкладу общенационального лидера Азербайджана Гейдара Алиева в формировании вооруженных сил республики. В ней раскрыта забота Гейдара Алиева в становлении передовой армии, подготовке военных кадров в деле укрепления обороны и боеспособности Азербайджана. Отмечается стратегическая роль Президента и Верховного Главнокомандующего Азербайджанской Республики в подготовке и оснащении современным вооружением и военной техникой, применение которых предопределило превосходство над вооруженными силами Армении. Опираясь на передовой опыт хода боевых сражений и стратегию Верховного Главнокомандующего Ильхама Алиева были освобождены оккупированные Арменией территории Азербайджана. В заключении указываются исторические заслуги общенационального лидера Азербайджана Гейдара Алиева в формировании передовой армии Азербайджана, которые в результате привели к победе 44-дневной войне и освобождению захваченных Арменией территорий Азербайджана.

**Arzuman Amirov**
**Associate Professor of the Chair of History of Azerbaijan and Social Sciences of the BSU, PhD**
**Maharramali Safarov**
**Senior Lecturer of the Chair of History of Azerbaijan and Social Sciences of the BSU**

## The victory of the construction activity of the Armed Forces of Azerbaijan in H. Aliyev's state policy

### S U M M A R Y

The article is devoted to the contribution of the national leader of Azerbaijan Heydar Aliyev to the formation of the armed forces of the republic. It reveals H. Aliyev's care in the development of an advanced army, training of military personnel in strengthening the defense and combat capability of Azerbaijan. The strategic role of the President and the Supreme Commander of the Republic of Azerbaijan in the preparation and equipping of modern weapons and military equipment, the use of which predetermined superiority over the armed forces of Armenia, is noted. Based on the advanced experience of the course of military battles and the foreign policy strategy of the Supreme Commander-in-Chief Ilham Aliyev, the territories of Azerbaijan occupied by Armenia were liberated. In conclusion, the historical merits of the national leader of Azerbaijan Heydar Aliyev in the formation of the advanced army of Azerbaijan are indicated, which as a result led to the victory of the 44-day war and the liberation of the territories of Azerbaijan occupied by Armenia.

***Azər İSMAYILOV***

Azərbaycan Respublikası DTX-nın H.Əliyev adına Akademiyası,
Cinayət hüququ kafedrasının rəisi, h.ü.f.d., dosent

# ƏMƏLİYYAT-AXTARIŞ FƏALİYYƏTİ: MÖVCUD PROBLEMLƏR VƏ ONLARIN HƏLLİ YOLLARI

***Açar sözlər:*** *əməliyyat-axtarış fəaliyyəti, əməliyyat işçisi, əməliyyat-axtarış tədbirləri*
***Ключевые слова:*** *оперативно-розыскная деятельность, оперативный сотрудник, оперативно-розыскные мероприятия*
***Keywords:*** *operations officer, operational-search activity, operational-search measures*

1999-cu ildə qəbul edilmiş "Əməliyyat-axtarış fəaliyyəti haqqında" AR Qanunu müvafiq dövlət orqanları tərəfindən aşkar və qeyri aşkar üsullarla hazırlanan cinayətlərin qarşısının alınması, törədilən cinayətlərin isə aşkar edilməsi və açılması istiqamətində qaydaları müəyyən edir və burada insan hüquq və azadlıqlarının qorunmasının müstəsna əhəmiyyətə malik olmasını bəyan edir.

Qeyd etmək lazımdır ki, əməliyyat-axtarış fəaliyyəti uzun müddət qanun-qüvvəli, o cümlədən təşkilati səciyyəli normativ aktlarla təşkil edilib həyata keçirilmiş, ayrıca bir elm sahəsi kimi tədqiq olunmamış, kriminalistika elmi çərçivəsində öyrənilmişdir. Bütün bu amillər isə hüquqi, sivil, demokratik dövlətin əsas prinsiplərindən olan insan hüquq və azadlıqlarının, qanunçuluğun təmin edilməsi ilə tam uzlaşmamış, cəmiyyətdə bu fəaliyyətə neqativ yanaşmalara səbəb olmuşdur.

Müasir dövrdə peşəkar cinayətkarlığa qarşı mübarizədə hüquq-mühafizə orqanlarının digər fəaliyyət növləri ilə müqayisədə əməliyyat-axtarış fəaliyyətinin rolu daha böyükdür. Belə ki, narkotik vasitələrin, odlu silah və döyüş sursatlarının qanunsuz dövriyyəsi, mütəşəkkil cinayətkarlıq, terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, korrupsiya əməlləri kimi cəmiyyət üçün yüksək dərəcədə təhlükəli təzahürlərin gizli xarakter daşıması, həmçinin maliyyə, texniki, mühafizə və s. təminatları onlara qarşı mübarizədə əsasən məxfi qüvvə, vasitə, metod və formalardan istifadənin zəruriliyini tələb edir.

Azərbaycan Respublikası müstəqilliyini əldə etdikdən sonra qəbul edilən "Əməliyyat-axtarış fəaliyyəti haqqında" AR Qanunu əməliyyat-axtarış fəaliyyətini tənzimləyən ilk qanunverici aktdır.

Bu Qanun əməliyyat-axtarış fəaliyyətinin ilk növbədə qanun çərçivəsinə salınmasını, onun daha dərindən öyrənilməsini və cinayətkarlığa qarşı mübarizədə daha səmərəli tətbiqini, insan hüquq və azadlıqlarına hörmətlə yanaşma münasibətlərini bir reallığa çevrilməsinə xidmət etmişdir.

Azərbaycan Respublikası əməliyyat-axtarış fəaliyyəti üç əsas mahiyyətə malikdir: birincisi, bu, hüquq-mühafizə və xüsusi xidmət orqanlarının cinayətkarlığa qarşı mübarizə və milli təhlükəsizliyin təminatı üzrə dövlət fəaliyyətinin xüsusi növüdür; ikincisi, digər elmi sahələrin, xüsusilə də hüquqi elmlərin inteqrasiyasına, cinayətkarlığa qarşı mübarizə sahəsində obyektiv təcrübəyə əsaslanan müstəqil elmdir; üçüncüsü, xüsusi hazırlıq və hüquqi təhsil sistemlərində ayrıca tədris fənnidir.

Bundan başqa, "Əməliyyat-axtarış fəaliyyəti haqqında" AR Qanunu əməliyyat-axtarış fəaliyyətini ölkəmizdə qanuniləşdirmiş və cəmiyyətdə bu fəaliyyət haqqında qanun çərçivəsindən kənara çıxan və əxlaq prinsiplərinə zidd olan təsəvvürlərin aradan qaldırılmasına xidmət etmişdir. Əməliyyat-axtarış fəaliyyətinin sosial qanunauyğunluğu və ictimai zəruriliyi onun hüquq-mühafizə və xüsusi xidmət fəaliyyətinin mühüm tərkib hissəsi olmasından, qanunvericilik qaydasında təsbit edilməsindən irəli gəlmişdir.

Bütün qanunverici aktlarda olduğu kimi bu qanunda da müəyyən boşluqlar və çatışmazlıqlar mövcuddur. Aşkarlanmış bəzi çatışmazlıqlar orqanların müvafiq qurumlara müraciəti əsasında işçi qaydada aradan qaldırılmışdır. Qanunun təkmilləşdirilməsi üzrə işlər bu günə kimi davam edir. Yeni təhdidlərin aşkarlanmasını, ictimai münasibətlərə edilən qəsdlərin forma və metodlarının dəyişkənliyini nəzərə alaraq deyə bilərik ki, bu sahədə işlərin davamı daimi olacaq.

Bu məqalədə bəzi problemlərə toxunmaq istərdik. AR CPM-də təhqiqatçının, müstəntiqin, prokurorun, hakimin hüquq və vəzifələri dəqiq göstərildiyi halda, "Əməliyyat-axtarış fəaliyyəti haqqında" AR Qanununda əməliyyat işçisinin hansı hüquq və vəzifələrə sahib olması ümumiyyətlə göstərilməmişdir. Hesab edirik ki, bu çatışmazlıq tez bir zamanda aradan qaldırılmalıdır. Bu hüquq və vəzifələr müxtəlif əməliyyat-axtarış fəaliyyəti subyektlərində çalışan bütün əməliyyat heyəti üçün ümumi, baza xarakteri təşkil etməlidir.

Digər Qanunlarda, məsələn, "Polis haqqında", "Kəşfiyyat və Əks-kəşfiyyat fəaliyyəti haqqında" Qanunlarda orqanlar qarşısında duran vəzifələri və səlahiyyətlərinə aid edilən cinayətlərin dairəsini nəzərə alaraq, həmin subyektlərdə çalışan əməliyyat heyətinin əlavə spesifik hüquq və vəzifələri nəzərdə tutulmalıdır. Əməliyyat heyətinin cinayətkarlıqla mübarizədə ön sırada olması bu problemin tezliklə həll edilməsini tələb edir.

Daxil olmuş əməliyyat məlumatının ilkin yoxlanılması zamanı da əməliyyat işçisi problemlə rastlaşır. Belə ki, "Əməliyyat-axtarış fəaliyyəti haqqında" AR Qanununun 10-cu maddəsində əməliyyat-axtarış tədbirlərinin növləri qeyd edilmişdir. Təəssüf hissi ilə qeyd etmək istərdik ki, bu tədbirlər sırasında vətəndaşlardan yazılı izahatların alınması qaydası göstərilməmişdir. İrad tutula bilər ki, tədbirlər sırasında vətəndaşların sorğusu nəzərdə tutulub və bu hal kifayət edir. Lakin Qanuna verilən şərhlərdə qeyd olunur ki, vətəndaşların sorğusu araşdırılan hadisə və onunla bağlı şəxslər barəsində məlumatlı olduğu güman edilən şəxslərin əməliyyat işçisi ilə söhbətidir və onlara yazılı ifadə və ya ərizə vermək barədə məcburi tələblər irəli sürülə bilməz.

Məlumatın dəqiq və obyektiv yoxlanılması, qanuni qərarın qəbul edilməsi vətəndaşlardan izahatların alınmasını tələb edir. Vətəndaş orqana dəvət edilən zaman haqlı olaraq ona çağırış vərəqəsinin göndərilməsini tələb edir. Çağırış vərəqəsinin göndərilməsi qaydası Qanunda əks olunmadığı üçün əməliyyat işçisi məcburiyyət qarşısında qalaraq çağırış vərəqəsinin tərtibatı ilə bağlı istintaq qurumlarında çalışan əlaqələrinə üz tutmalı olur. Bu hal isə əməliyyat məlumatının sızılmasına səbəb ola bilər.

Bəzi hallarda vətəndaş orqana gəldikdən sonra izahat verməkdən imtina edir və bununla da əməliyyat işçisi mürəkkəb vəziyyətə düşür. İstintaq qurumlarında vəziyyət tam fərqlidir. AR CPM-ə uyğun olaraq dindirmə məcburi xarakter daşıyır və dindirməyə cəlb olunan şəxs bilə-bilə yalan ifadə verməyə və ifadə verməkdən imtinaya görə məsuliyyət barədə xəbərdar edilir. Bu hal dindirmə zamanı müstəntiqin psixoloji üstünlüyünə çox güclü təsir edir. Əməliyyat heyətinin belə hüquqlardan yararlana bilməməsi və vətəndaşların izahat verməkdən imtinaya görə məsuliyyət məsələsinin Qanunda nəzərdə tutulmaması işə mənfi təsir göstərir.

Elə hallar da olur ki, vətəndaş izahat verməyə nümayəndəsi (vəkili) ilə gəlir. Nümayəndələr institutu Qanunda göstərilmədiyi üçün əməliyyat işçisi onu kənarlaşdırmalı olur. Lakin qeyd etməliyik ki, Qanunda buna icazə olmasa da, qadağa da yoxdur. Əməliyyat işçisi tərəfindən nümayəndənin iştirakına icazə verilsə də, onun hüquqi statusu yenə müəyyənləşdirilməmiş qalır.

Gələcəkdə vətəndaşlardan izahatların alınması əməliyyat-axtarış tədbirlərinə əlavə edilərsə, burada eyni zamanda əcnəbilərin, dili bilməyən şəxslərin, yetkinlik yaşına çatmayan şəxslərin, psixi və fiziki qüsurları olan şəxslərin bu tədbirə cəlb olunmalarının qaydaları, onların hüquq və vəzifələri dəqiq göstərilməlidir. Eyni zamanda Qanunda tərcüməçinin də iştirak məsələsi həllini tapmalıdır.

Tədbirlər sırasında öz əhəmiyyətinə, mürəkkəbliyinə, məsuliyyətliliyinə və təhlükəliliyinə görə Qanunun 10-cu maddəsinin 16-cı bəndində göstərilən cinayətkar qruplara və ya kriminogen obyektlərə daxil edilməsi tədbiri mühüm yer tutur.

Qanuna verilən şərhdə göstərilir ki, cinayətkar qruplara və ya kriminogen obyektlərə daxil edilməsi – hazırlanan, törədilən ağır cinayətlərin, o cümlədən, dövlət hakimiyyəti əleyhinə olan cinayətlərin qarşısının alınması və açılması, eləcə də, bu cür cinayətləri hazırlayan, törətmiş şəxslərin aşkar edilməsi məqsədilə tətbiq olunur. Cinayətkar qruplara və ya kriminogen obyektlərə daxil edilməsi yolu ilə, həmçinin həmin qrupların üzvləri arasından cəlbetmə yolu ilə həyata keçirilə bilər.

Burada çatışmazlıq ondan ibarətdir ki, belə bir mühüm tədbirin hansı əsasla keçirilməsi, tədbirin və müvafiq əfsanənin kim tərəfindən sanksiyalaşdırılması, əməkdaşın və ya məxfi əməkdaşlığa cəlb edilmiş şəxsin kriminogen qrupa hansı qaydada daxil edilməsi, onun təlimatlandırılması, əlaqə üsulları, kriminogen qrupdan çıxarılması qaydası göstərilməmişdir. Orqanlar qeyd edilən tədbirlə bağlı daxili təlimatlar, əmrlər hazırlayan zaman Qanunun konkret müddəasını rəhbər tutmalıdırlar.

Bundan başqa, Qanunun 10-cu maddəsinin IV hissəsinin 1-ci bəndinə əsasən telefon danışıqlarına qulaq asma, poçt, teleqraf və digər göndərişlərin yoxlanılması, texniki rabitə kanallarından informasiyanın çıxarılması, habelə insanların güdülməsi kimi əməliyyat-axtarış tədbirləri hakimin qərarı olmadan əməliyyat-axtarış fəaliyyətinin subyektləri tərəfindən şəxsiyyət əleyhinə ağır cinayətlərin və ya xüsusi təhlükəli dövləti cinayətlərin qarşısının alınması üçün keçirilə bilər.

Göründüyü kimi əməliyyat-axtarış tədbirlərinin keçirilməsi üçün təxirəsalınmaz hallar şəxsiyyət əleyhinə ağır cinayətlərlə və xüsusi təhlükəli dövləti cinayətlərlə məhdudlaşdırılır. Təxirəsalınmaz halların dairəsini genişləndirmək məqsədilə, gələcəkdə Qanunun 10-cu maddəsinin IV hissəsinin 1-ci bəndinin redaksiyasında "şəxsiyyət əleyhinə ağır cinayətlərin və xüsusi təhlükəli dövləti cinayətlər" sözlərinin "ağır və xüsusilə ağır cinayətlər" sözləri ilə əvəz edilməsi təklif edirik.

Digər mühüm tədbirlərdən biri də binalara, o cümlədən yaşayış binalarına, habelə digər qapalı tikililərə, qurğulara və torpaq sahələrinə daxil olaraq baxışın keçirilməsidir. Baxış keçirilən zaman odlu silah və döyüş sursatı, böyük həcmdə qızıl-zinət əşyaları, narkotik vasitələr aşkarlandıqda mütəxəssisin iştirakına mütləq zərurət yaranır. Bu halı nəzərə alaraq, Qanunda mütəxəssisin iştirakını nəzərdə tutan müddəanın əlavə edilməsini zəruri hesab edirik.

Ümumiyyətlə, bu gün əməliyyat işçiləri əməliyyat-axtarış tədbirlərinin rəsmiləşdirilməsini, mütəxəssisin, tərcüməçinin, hal-şahidlərinin iştirakını AR CPM-in müddəaları ilə tənzimləyir. Fikrimizcə, təcrübədə yarana biləcək ziddiyyətlərin qarşısının alınması məqsədilə, "Əməliyyat-axtarış fəaliyyəti haqqında" AR Qanununa AR CPM normalarından istifadəyə birbaşa hüquq verən ayrıca maddə əlavə olunmalıdır.

Terror xarakterli cinayətlərin yüksək ictimai təhlükəliliyini nəzərə alaraq, bəzi xarici ölkələrdə əməliyyat-axtarış fəaliyyətinin subyektlərinə müstəsna hüquqlar verilmişdir. Məsələn, Federal Təhlükəsizlik Xidməti haqqında 22 fevral 1995-ci il tarixli RF Federal Qanununun 13-cü maddəsinin "Z" bəndində göstərilmişdir ki, FTX əməkdaşları onların səlahiyyətlərinə aid edilmiş cinayətləri araşdırarkən, həmin cinayətlərin törədilməsində iştirakı ehtimal olunan şəxslərin

təqibini həyata keçirən zaman, mülkiyyət formasından asılı olmayaraq, bütün tikililərə, qapalı ərazilərə daxil olaraq təqibi başa çatdırmaq hüququna malikdirlər.

Yuxarıda qeyd etdiklərimiz mövcud problemlərin bir qismidir. Zənnimizcə, sadalanan problemlərin ardıcıl şəkildə aradan qaldırılması qanunvericiliyin təkmilləşdirilməsinə, yeni çağırışlara və müasir tələblərə cavab verə biləcək normativ-hüquqi akta çevrilməsinə xidmət edəcək.

**İstifadə olunmuş ədəbiyyat siyahısı**

1. AR Cinayət-Prosessual Məcəlləsinin Kommentariyası, Digesta, Bakı, 2013
2. AR Cinayət-Prosessual Məcəlləsi, Hüquq yayın evi, Bakı, 2022
3. Cinayət Məcəlləsinin Kommentariyası, I hissə, Hüquq yayın evi, Bakı, 2018
4. "Federal Təhlükəsizlik Xidməti haqqında" RF Qanunu, M., 1995
5."Əməliyyat-axtarış fəaliyyəti haqqında" AR Qanununun şərhi, Bakı, 2007

**Азер Исмаилов**
**Академия СГБ Азербайджанской Республики им.Гейдара Алиева,**
**начальник кафедры Уголовного права, к.ю.н., доцент**

**Оперативно-розыскная деятельность: проблемы и пути их разрешения**

**Р Е З Ю М Е**

В данной статье анализируется Закон Азербайджанской Республики «Об оперативно-розыскной деятельности». Автор предлагает в Законе конкретно отметить основные права и обязанности оперативного сотрудника. Эти права и обязанности должны носить общий, базовый характер для всех оперативных сотрудников субъектов оперативно-розыскной деятельности.

Также в статье указываются некоторые проблемные аспекты при проведении отдельных видов оперативно-розыскных мероприятий. Автор указывает, что для полноты и законности проводимых мероприятий в Законе нужно предусмотреть участие специалистов, экспертов и переводчиков.

**Azer Ismayilov**
**Academy of the State Security Service of the Republic of Azerbaijan**
**named after Heydar Aliyev, Head of the Department of Criminal Law,**
**Doctor of Philosophy in Law, Associate Professor**

**Operational-search activity: current challenges and solutions**

**S U M M A R Y**

This article analyzes the law of the Republic of Azerbaijan "On operational-search activity". The author proposes of specify in the law the main rights and obligation of the operational officer.

The article also indicates some problematic aspects in the conduct of certain types of operational-search activities.

***Həcər QURBANOVA***

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Aparatının
Beynəlxalq hüquq və beynəlxalq əməkdaşlıq şöbəsinin baş məsləhətçisi

# ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEV VƏ MÜSTƏQİL AZƏRBAYCAN

***Açar sözlər:*** *Heydər Əliyev, Azərbaycan, quruculuq ideyası, tarix və şəxsiyyət, dövlət, müstəqillik, millətçilik.*

***Ключевые слова:*** *Гейдар Алиев, Азербайджан, идея строительства, история и личность, государство, независимость, национализм.*

***Keywords:*** *Heydar Aliyev, Azerbaijan, idea of building, history and identity, state, independence, nationalism.*

***“Azərbaycan adlı dövlətin varlığı bizim ən böyük tarixi sərvətimiz, bütün Azərbaycanlıların qazandığı ən böyük nailiyyətdir”.***

**Heydər Əliyev**
**Azərbaycan xalqının Ümummilli Lideri**

***"Mən bütün həyatımı xalqıma xidmət etməyə həsr etmişəm, bundan sonra da bu yolla gedəcəyəm, başqa yolum yoxdur. Vətənimə, xalqıma, millətimə məhəbbət, müstəqil Azərbaycan dövlətinə, Azərbaycan Respublikasına hədsiz məhəbbət mənim həyatımın mənasıdır, məzmunudur".***

**Heydər Əliyev**
**Azərbaycan xalqının Ümummilli Lideri**

Bir insan düşünün ürəyinin hər döyüntüsü Azərbaycan, hər atışı vətən, hər vurğusu millət deyə hayqırsın. Bir şəxsiyyət düşünün qəlbi sadəcə vətən üçün atsın, bir şəxsiyyət ki, tarixi naxışını, millətinin ağır taleyini dəyişsin. Bir vətənpərvər, bir qəhrəman düşünün vətən sevgisi sonsuz olan, bir ömür düşünün Azərbaycana fəda edilən şərəfli ömür. Bir məhəbbət düşünün ümumxalq məhəbbəti qazanıb bəşəriyyətin qəlbində əbədiləşən. Bir memar düşünün müstəqilliyin, yüksəlişin, dövlətinin memarı və bir dahi düşünün tarixi şəxsiyyət, tarix yazan və tarixə yazılan şəxsiyyət Heydər Əliyev.

Bir ömür var ki, əsrə bərabər, bir əsr var ki, ömürlərə miras. O ömür Heydər Əliyev ömrü idi.

O böyük Azərbaycanlı idi. Başdan ayağa tarix olan Azərbaycanlı. Azərbaycan tarixinin qüdrətli dövlət, güclü xalq, möhtəşəm inkişaf dövrünü yazan Heydər Əliyev tarixi.

Səmimiyyəti, fədakarlığı, cəsurluğu, inadkarlığı, prinsipiallığı ilə seçilən ideal rəhbər. O qurucu, xilaskar dövlət xadimi, milli lider, xalq məhəbbətini qazanan öndər idi. Heydər Əliyev bir siyasət nəhəngi idi. Zamanı qabaqlayan fenomen, müdrik idarəçi, bütün məsuliyyəti çiyinlərində daşıyan Azərbaycan kimi böyük bir əsərin müəllifi. O böyük bir

həyat məktəbi idi. Təcrübəyə söykənən müasirlik və gələcəyə aparan əminliyin sahibi, parlaq sabahın bünövrəsi, uzaqgörənliyin baris nümunəsi, xoşbəxt gələcəyin təminatçısı idi. Hər gün yenidən sevilən, tarix durduqca ürəyi bizimlə döyünən, sevinclə vuran, qəlbimizin qalibiyyət memarı, gözlərimiz önündə şərəflə yaşanan ömrün bənzərsiz və təkrarsız sahibi Ulu Öndərimiz. Şəxsiyyətinə, fəaliyyətinə, nəhəngliyinə və dahiliyinə görə böyük ehtiramla qarşısında baş əyirik.

Ulu Öndər Heydər Əliyev Azərbaycanın və azərbaycanlıların Ümummilli Lideridir.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev müasir dünya tarixinə parlaq və silinməz iz qoymuş böyük şəxsiyyət, qeyri-adi zəka, fitri istedad sahibi, müdrik dövlət xadimi kimi düşmüşdür. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev həm tarixi şəxsiyyətdir, həm də tarixi yaradan şəxsiyyətdir. Ulu Öndər Heydər Əliyev o şəxsiyyətlərdəndir ki, o, özü bir tarix, salnamə yaratmış, zamanın axarını nizamlamaq qüdrətinə sahib olmuşdur. Bu gün isə onun fəaliyyətinin, gərgin əməyinin bəhrələrindən təkcə xalqımız yox, bütün region xalqları, böyük İslam dünyası və türk xalqları faydalanır. Elə buna görə də, Ulu Öndərimizin adı dünyanın hər yerində uca tutulur, xatirəsi ehtiramla anılır.

Bu dahi şəxsiyyət haqqında danışarkən öncə qeyd etmək mütləqdir ki, Ulu Öndər Heydər Əliyevin xalqı və dövləti qarşısındakı misilsiz xidmətləri Azərbaycan tarixinin şanlı səhifələrini təşkil etməkdədir. Millətinin və dövlətinin ali mənafeyini öz fəaliyyətində daim təməl prinsip və norma kimi qəbul edən Ümummilli Liderimiz bugünkü müstəqil Azərbaycanın memarıdır. Ulu Öndər Heydər Əliyevin ölkəsinə və xalqına bəxş etdiyi misilsiz, əvəzedilməz dəyərlərin və sərvətlərin mahiyyətini daha dərindən anlamaq üçün isə, sadəcə, bir neçə fundamental önəm kəsb edən fakta toxunmaq kifayət edir.

Məlum olduğu kimi, Ulu Öndər Heydər Əliyev hələ keçmiş SSRİ dönəmində, daha dəqiq desək, 1969-cu ildə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçildikdən sonra respublikamızın tərəqqisi üçün müxtəlif sahələrin mütəmadi inkişafı istiqamətində fundamental səciyyəli tədbirlər görməyə başlamışdır. Belə ki, sənayenin inkişafı, iqtisadiyyatın yenidən dirçəldilməsi yönündə, məhz Ulu Öndərin rəhbərliyi altında mühüm addımlar atılmaqla digər sahələrin inkişafına geniş şərait yaradılmışdır. Bu tədbirlərin fonunda isə ümummilli inkişafın təmin edilməsi naminə strateji quruculuq prosesinə başlanılmışdır. Məhz bu cür strateji mahiyyət kəsb edən vəzifə qarşısında Ulu Öndərimiz Azərbaycan dilinin həqiqi dövlət dili statusu əldə etməsi yönündə yorulmaz və ardıcıl fəaliyyət göstərmişdir. Çünki milli məfkurənin sağlam ideoloji təməllər əsasında möhkəmləndirilməsi və yüksəlişi üçün buna nail olmaq, sözün əsl mənasında strateji önəm kəsb edir və ideoloji mənada, dövlət quruculuğu prosesinin onurğa sütununu təşkil edirdi. Beləliklə, Ümummilli Lider Heydər Əliyevin sistematik səyləri və yorulmaz fəaliyyəti nəticəsində 1978-ci il Konstitusiyasında Azərbaycan dilinin sovet Azərbaycanında dövlət dili statusu təsbit olundu. Bundan sonra milli dəyərlərimizin təbliği və ideoloji əsasların gücləndirilməsi yönündə atılan addımlar ardıcıllıqla davam etdirildi.

Ulu Öndər Heydər Əliyevin diqqət və qayğısı sayəsində müstəqillikdən sonra da dövlət quruculuğu sahəsində fundamental addımlar atıldı. Belə ki, mürəkkəb siyasi problemlər məngənəsində olan ölkəmizdə Ulu Öndərimizin siyasi kursu sayəsində sabitlik əldə edildi. İmperialist qüvvələrin korporativ maraqlarının təmin olunması missiyasına xidmət edən daxildəki avantürist subyektlərin bölücü fəaliyyəti neytrallaşdırıldı və ölkədaxili stabillik təmin edildi.

1990-cı ilin yanvarında keçmiş SSRİ rəhbərliyinin Azərbaycana qərəzli münasibətinin təzahürü olaraq, dinc etirazçılara qarşı Bakıya sovet ordusunun yeridilməsi misli

görünməmiş qanlı faciə ilə nəticələndi. Əfsuslar olsun ki, həm SSRİ, həm də o vaxtkı Azərbaycan rəhbərliyi bu qanlı cinayətin bilavasitə təşkilatçısı və iştirakçısı olduğundan nəinki onun açılması və cinayətkarların məsuliyyətə cəlb olunmasından ötrü tədbirlər görmədi, əksinə bu vəhşiliyi gizlətmək üçün əlindən gələni etdi. 20 Yanvar faciəsindən bir gün sonra Ulu Öndər Heydər Əliyevin Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gedərək xalqımızın kədərini bölüşməsi və sovet hakimiyyətinin ölkəmizdə həyata keçirdiyi qanlı aksiyanı ifşa etməsi o dövrdə xalqımıza bir dayaq, bir təsəlli oldu. Xalq o ağır günlərdə köməksiz olmadığını hiss etdi.

Həmin dövrdə Azərbaycana qayıdışına ciddi maneələr törədilməsinə baxmayaraq Vətənin ağır günlərinə biganə qala bilməyən Ulu Öndər Heydər Əliyev Azərbaycana qayıtdı. Xalqın böyük ümid və ruh yüksəkliyi ilə gözlədiyi Ümummilli Lider Heydər Əliyev Bakıdan Naxçıvana getdi və Ulu Öndər yekdilliklə Muxtar Respublikanın Ali Məclisinin sədri seçildi.

1991-1993-cü illərdə Naxçıvana rəhbərliyi dövründə Ulu Öndər Heydər Əliyev tərəfindən respublikamızın müstəqilliyi yolunda mühüm addımlar atıldı, Muxtar Respublikanın adından “sovet sosialist” sözləri çıxarıldı, üç rəngli milli bayrağımız ilk dəfə Naxçıvanda dövlət bayrağı kimi qəbul olundu, dünya azərbaycanlılarının həmrəyliyi günü müəyyən edildi, 20 yanvar faciəsinə siyasi qiymət verildi, SSRİ-nin saxlanılması barədə referendumdan imtina edildi, mühüm imperiya strukturlarının fəaliyyəti dayandırıldı, ilk dəfə olaraq sovet qoşun hissələri Muxtar Respublikadan çıxarıldı.

Lakin 1991-ci ildə dövlət müstəqilliyini yenicə bərpa etmiş ölkəmiz onu itirmək təhlükəsi qarşısında qalmışdı. Ölkədə müharibə gedirdi. İdarəçilik isə yox dərəcəsində idi. Respublikada xaos, anarxiya hökm sürürdü. Yeganə nicat yolunu Heydər Əliyevin qayıdışında görən Azərbaycan xalqı onu təkidlə hakimiyyətə çağırırdı. Xalqımız inanırdı ki, Azərbaycanı düşdüyü bu ağır vəziyyətdən, sosial-iqtisadi, hərbi-siyasi böhrandan yalnız Heydər Əliyev xilas edə bilər. Heydər Əliyev də Tanrının Azərbaycan xalqının taleyinə bəxş etdiyi bir qismət, zamanında millətinin xilaskarı olmaq üçün göndərilən bir dahi insan idi.

Heydər Əliyevin Azərbaycan xalqının yaddaşında qurucu və xilaskar dövlət xadimi, milli lider və xalq məhəbbətini qazanan öndər kimi əbədilik qazanması, heç də təsadüfi deyil.

Məhz Azərbaycan xalqının azadlığının, müstəqil dövlətçiliyinin müqəddəratının həll edildiyi ağır günlərdə xalqının iradəsinə tabe olan Heydər Əliyev ölkə rəhbərliyinə qayıdaraq müstəqil Azərbaycan Respublikasını, Azərbaycan xalqını, milli-azadlıq hərəkatında qazanılmış tarixi nailiyyətləri məhv olmaqdan xilas etmək kimi çox çətin və şərəfli bir missiyanı öz üzərinə götürdü. Bu, sözün əsil mənasında, “ömrümün qalan hissəsini də xalqıma bağışlayıram” deyib, meydana atılan böyük ürəkli Vətən oğlunun öz xalqı, öz Vətəni qarşısında misilsiz fədakarlığı idi. Heydər Əliyev öz siyasi bacarığını, çoxillik idarəçilik səriştəsini əsirgəmədən xalqının firavanlığı və dövlətinin müstəqilliyi yolunda yorulmadan xidmətdə olduğunu bir daha sübut etdi.

Eyni zamanda, erməni işğalının qarşısının alınması istiqamətində əhəmiyyətli strateji və taktiki gedişlər həyata keçirildi. Beləliklə, 1994-cü ildə atəşkəsin əldə olunması ilə Ermənistanın işğalçı siyasəti dayandırıldı. Bununla da, dövlət quruculuğu prosesinin ardıcıl surətdə davam etdirilməsi, ölkədaxili sabitliyin təmin olunması və möhkəmləndirilməsi baxımından əlverişli siyasi zəmin yaradıldı. Ümummilli Liderimizin siyasi bacarığı sayəsində Azərbaycanın siyasi tarixində yeni bir səhifə açıldı. Bunun ardınca bir neçə istiqamətdə paralel və ardıcıl şəkildə əhəmiyyətli işlər görüldü. İlk növbədə, siyasi sistemin struktur elementlərinin təkmilləşdirilməsi istiqamətində ciddi strateji addımlar atıldı.

Belə ki, 12 noyabr 1995-ci il tarixində ümumxalq səsverməsi-referendum yolu ilə müstəqil Azərbaycan Respublikasının Konstitusiyası qəbul edildi. Bu akt öz növbəsində siyasi fəaliyyət və inkişafın hüquqi əsaslarının formalaşması mənasına gəlirdi. Daha sonra parlament seçkilərinin keçirilməsi dövlətçiliyin siyasi-hüquqi əsaslarının möhkəmləndirilməsinə mühüm töhfə verdi. Bu proseslərə paralel olaraq vətəndaş cəmiyyətinin formalaşdırılması və hüquqi dövlətin fundamental komponentlərinin mütləq surətdə bərqərar olunması yönündə əhəmiyyətli addımlar atıldı.

Ulu Öndər Heydər Əliyevin humanist siyasəti sayəsində 1995-ci ilin may ayında əfv və amnistiya təsisatları bərpa edildi. Buna paralel olaraq insan hüquqlarına riayət olunması üzərində parlament nəzarətini təşkil etmək üçün insan hüquqları müvəkkili (Ombudsman) təsisatı yaradıldı. Gərgin fəaliyyət nəticəsində ölkəmizin bu günü və gələcəyi naminə son dərəcə vacib və əhəmiyyətli, habelə hüquq sisteminin mahiyyətini müəyyən edən tam yeni mütərəqqi qanunlar, o cümlədən "Konstitusiya Məhkəməsi haqqında", "Məhkəmələr və hakimlər haqqında", "Prokurorluq haqqında", "Polis haqqında", "Əməliyyat-axtarış fəaliyyəti haqqında", "Vəkillər və vəkillik fəaliyyəti haqqında" və digər qanunlar, əvvəlkilərdən prinsipcə köklü surətdə fərqlənən Mülki və Mülki-Prosessual, Cinayət və Cinayət-Prosessual, Cəzaların İcrası və s. məcəllələr qəbul edildi. Bütün bunlar isə ölkəmizdə insan və vətəndaş hüquq və azadlıqlarının təmini və gücləndirilməsi istiqamətində əhəmiyyətli faktor kimi çıxış etdi. Ölkə daxilində atılan bu addımlarla yanaşı, insan hüquqlarının etibarlı qorunması dövlətin prioriteti kimi müəyyən edilərək respublikamız insan hüquq və azadlıqlarının təminatı sahəsində bütün əsas beynəlxalq konvensiyalara qoşuldu, 1993-cü ildən ölüm cəzasının icrasına veto qoyuldu, 1998-ci ildə isə Şərqdə ilk dəfə olaraq Azərbaycanda bu cəza növü tamamilə ləğv edildi, əfv və amnistiya institutları geniş tətbiq edilməyə başlandı. Beləliklə, insan və vətəndaş hüquq və azadlıqlarının əhatə dairəsi genişləndirildi. Bu isə demokratikləşmə prosesini olduqca sürətləndirdi.

İqtisadi dirçəlişin banisi Ümummilli Lider Heydər Əliyev bir lider, siyasi xadim kimi hər zaman Azərbaycan iqtisadiyyatının inkişafına böyük önəm vermişdir. Məhz bunun nəticəsidir ki, istər sovet Azərbaycanına, istərsə də müstəqil Azərbaycana rəhbərlik etdiyi dövrdə Ulu Öndər iqtisadiyyatın inkişafına prioritet məsələlərdən biri kimi yanaşmışdır. Ümummilli Liderin sovet Azərbaycanına rəhbərlik etməyə başladığı 1969-cu ildə Azərbaycan keçmiş SSRİ-də, demək olar ki, iqtisadiyyatı ən geridə qalmış respublikalardan biri idi. Ümummilli Lider rəhbərliyə gəldiyi ilk gündən Azərbaycanın güclənməsini, keçmiş ittifaq daxilində olsa belə, iqtisadi baxımdan müstəqilləşməsini qarşıya məqsəd qoydu. Siyasi iradəsi, böyük təcrübəsi və inandırmaq bacarığı sayəsində Ulu Öndər nəhəng sənaye müəssisələrinin Azərbaycanda tikilməsinə nail oldu. Təkcə onu demək kifayətdir ki, Ümummilli Liderin respublikaya rəhbərlik etdiyi 1969-1982-ci illərdə ölkədə yüzlərlə zavod, fabrik, istehsal sahələri yaradıldı, yeni sənaye müəssisələri istifadəyə verildi. 1970-80-ci illərdə Azərbaycan dünyanın 65 ölkəsinə 350 adda məhsul ixrac edirdi. Artıq 1982-ci ildə Azərbaycan iqtisadiyyatının inkişaf səviyyəsinə görə SSRİ miqyasında qabaqcıl yerdə dayanırdı. Lakin sonrakı illərdə səriştəsiz rəhbərlərin dağıdıcı fəaliyyəti Azərbaycanın iqtisadiyyatına ağır zərbələr vurdu.

Xalqın təkidli tələbi ilə Ümummilli Liderin ölkə rəhbərliyinə qayıtdığı 1993-cü ildə Azərbaycan iqtisadiyyatının bütün sahələri dərin böhran içərisində idi. Buna görə də Ulu Öndər iqtisadiyyatın dirçəldilməsini başlıca prinsiplərdən biri kimi müəyyənləşdirdi. "İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir", – deyən Ümummilli Lider dəfələrlə vurğulamışdır ki, hər bir dövlətin siyasi, hərbi gücünün əsasında möhkəm təməl üzərində

qurulan iqtisadiyyat dayanır. Məhz Ulu Öndərin əsasını qoyduğu müstəqil Azərbaycanın iqtisadi inkişaf strategiyası ilə ölkə firavan gələcəyə doğru aparan yola qədəm qoydu. Ulu Öndərin həyata keçirdiyi iqtisadi tədbirlər yenicə müstəqillik əldə etmiş və müharibə şəraitində yaşayan bir ölkə olan Azərbaycan beynəlxalq aləmdə etibar qazandı. Həyata keçirilən məqsədyönlü siyasət əksər iri beynəlxalq şirkətlərin, xarici investorların diqqətini ölkəmizə yönəltdi. Ulu Öndərin gərgin əməyinin və möhkəm iradəsinin bəhrəsi olan "Əsrin müqaviləsi"nin imzalanması isə Azərbaycanın bir müstəqil dövlət kimi beynəlxalq arenadakı mövqeyini möhkəmləndirdi. "Əsrin müqaviləsi"nin imzalanması gələcəyə hesablanmış uzaqgörən siyasətin nəticəsi idi.

Beləliklə, dünyanın müxtəlif ölkələri ilə qarşılıqlı-faydalı əməkdaşlıq əlaqələri quran Azərbaycan iqtisadiyyatı sürətlə dünya iqtisadiyyatına inteqrasiya olmağa başladı. Ulu Öndərin imzaladığı çoxsaylı fərman və sərəncamlarla ölkə daxilində fundamental iqtisadi islahatlar həyata keçirildi. Məhz bu dövrdə reallaşdırılan geniş iqtisadi layihələr, qətiyyətli və məqsədyönlü tədbirlər nəticəsində iqtisadi tənəzzülün qarşısı alındı, qısa müddətdən sonra isə inkişaf göstəriciləri qeydə alındı. Azad bazar iqtisadiyyatına uğurlu keçid sayəsində ölkədə orta və kiçik sahibkarlıq sürətlə inkişaf etməyə başladı.

Beləliklə, Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu iqtisadi inkişaf strategiyası Azərbaycanın bir dövlət kimi öz ayaqları üzərində sərbəst inkişafını təmin etdi. Bu strategiyanın bu gün də uğurla davam etdirilməsi nəticəsində Azərbaycan iqtisadi baxımdan regionun lider dövlətinə çevrilib.

Heydər Əliyev gənclərin hamisi idi: Ulu Öndərin ölkəmiz üçün misilsiz xidmətlərindən söhbət açarkən, onun Azərbaycan gəncliyinə göstərdiyi xüsusi diqqət və qayğı barədə danışmamaq olmaz. Ümummilli Liderimizin gəncliyə diqqət və qayğısı barədə detallara keçməmiş onu vurğulamaq yerinə düşər ki, hazırda ölkəmizdə həyatın bütün sahələrində xüsusi fəallıqları ilə seçilən gənclər cəmiyyətin məsul və şərəfli yükünü öz çiyinlərində daşıyırlar.

Məlum olduğu kimi, Ümummilli Lider Heydər Əliyev hələ respublikaya rəhbərlik etdiyi birinci dövrdə, yəni, ötən əsrin 70-80-ci illərində də Azərbaycanda gənclərin inkişafına, öz potensialını həyata keçirməsi üçün gənclərə şərait yaradılmasına daim diqqət yetirirdi. Ümumiyyətlə, Ulu Öndər Heydər Əliyev Azərbaycanın inkişafını heç vaxt gənclərsiz təsəvvür etmir, gəncliyin parlaq zəkasını, qaynar və tükənməz enerjisini Vətənimizin hərtərəfli yüksəlişinə səfərbər edirdi. Həmin vaxt Heydər Əliyevin təşəbbüsü ilə gənclərin yüksək elm və biliklərə yiyələnməsi üçün bir neçə yeni ali məktəb, bir çox orta ixtisas məktəbləri açılmış, minlərlə azərbaycanlı gənc oğlan və qızlarımız ən müasir ixtisaslar üzrə keçmiş SSRİ-nin ən nüfuzlu ali məktəblərində oxumağa göndərilmişdi. Milli zabit kadrların hazırlanması üçün xüsusi hazırlıq məktəbi açılmış, ali hərbi məktəblərdə gənc soydaşlarımızın təhsil alması üçün əlverişli şərait yaradılmışdı. Əməkdə və ictimai işdə fərqlənən gənclər irəli çəkilmişdi. Təsadüfi deyil ki, bugünkü Azərbaycanın elmi potensialının böyük bir hissəsi, məhz, Ulu Öndər Heydər Əliyevin təşəbbüsü sayəsində formalaşıb və həmin insanların çiyinləri üzərində qərar tutmaqdadır.

Ulu Öndər Heydər Əliyev Azərbaycanda hakimiyyətə ikinci dəfə qayıtdıqdan sonra da gənclərə olan qayğısını davam etdirdi. 1993-cü ilin iyun ayında Azərbaycan Parlamentinin Sədri seçiləndən sonra ölkə gənclərinin bir qrup nümayəndəsi ilə görüşən Ümummilli Liderimizin həmin görüşdəki çıxışı həm ölkə daxilindəki, həm də xaricdəki qüvvələrə təsirli bir mesaj oldu: "Biz dövlətin və cəmiyyətin idarə edilməsində gənc nəslin qüvvəsinə arxalanacaq, onların imkanlarından maksimum istifadə edəcəyik".

Ulu Öndərin bu çıxışını özünün fəaliyyət istiqaməti seçən, Heydər Əliyevdən böyük inam və etimad görən Azərbaycan gəncliyi tezliklə dövlətin və Yeni Azərbaycan Partiyasının (YAP) ətrafında sıx birləşdi. 1994-cü ildə Heydər Əliyevin Fərmanı ilə Azərbaycanda Gənclər və İdman Nazirliyinin yaradılması isə gənclərimizin dövlət quruculuğu prosesindəki iştirakına əsaslı təkan vermiş oldu. Əslində, Heydər Əliyevin bu addımı Azərbaycanda gənclər siyasətinin sistemli şəkildə həyata keçirilməsinə təminat verirdi.

Onu da qeyd etmək yerinə düşər ki, Ulu Öndər Heydər Əliyevin gənclərə qayğısı geniş və əhatəli idi. Bu, həm gənclərin təhsil almasında, həm gənclərin qarşılaşdıqları problemlərin aradan qaldırılması istiqamətində görülən işlərdə, həm də gənclərin dövlət orqanlarına işə qəbulunda özünü göstərirdi.

Beləliklə, həm yuxarıda sadalanan addımların atılması, həm də gənclərlə bağlı çoxsaylı layihələrin həyata keçirilməsi, müxtəlif fərman və sərəncamların imzalanması, qanunların qəbul edilməsi, Azərbaycan gənclərinin forumlarının keçirilməsi, Gənclər Gününün təsis edilməsi və Cənab İlham Əliyevin YAP-ın II qurultayında partiya Sədrinin birinci müavini vəzifəsinə seçilməsi gənclərimizdə böyük ruh yüksəkliyi yaratdı. Gənclər dövlətin qayğısını hiss etməklə yanaşı, quruculuq prosesində daha yaxından iştirak etməyə çalışdılar. Ulu Öndər Heydər Əliyev ideyalarına sədaqət nümayiş etdirərək dövlətçiliyin qorunmasında və dövlətin idarə edilməsində mühüm rol oynadılar. Ümummilli Lider Heydər Əliyevin "azərbaycançılıq", "vətənçilik" ideyalarına əsaslanan Azərbaycan gəncləri gündən-günə daha mütəşəkkil şəkildə təşkilatlandılar.

Yəni, bu bir həqiqətdir ki, Azərbaycan gənclərinin hamisi olan Ümummilli Liderin siyasətinin mühüm istiqamətlərindən biri məhz gənclərlə bağlı idi. Bu siyasət gənclərin inkişafı və gənclərin potensialından cəmiyyətin inkişafı üçün istifadə edilməsində özünü göstərirdi.

Bu ənənə Ulu Öndər Heydər Əliyev siyasətinin davamçısı olan Prezident İlham Əliyevin rəhbərliyi altında davam etdirilməkdədir.

Təsadüfi deyil ki, hələ 2003-cü ildə keçirilmiş prezident seçkisi ərəfəsində Ümummilli Liderimiz Heydər Əliyev xalqa müraciətində, məhz Azərbaycanın Prezident İlham Əliyevə etibar olunmasını məsləhət bildi: "Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin firavanlığı yolunda çoxlu işlər görəcəkdir... inanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümid bəsləyirəm".

Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın istər daxili, istərsə də xarici siyasətində əldə edilən hər bir uğur Ulu Öndər Heydər Əliyevin zəkasının təcəssümü, onun irsən qoyub getdiyi milli tərəqqi ideyalarının təzahürüdür. Onun 2003-cü ildə prezidentlik fəaliyyətinə başlaması Azərbaycanın tərəqqi və inkişaf yolu ilə irəliləməsində yeni mərhələ olmuşdur. Həmin il müstəqilliyimizin daha da möhkəmləndirilməsi, ölkədə sabit siyasi sistemin, çoxukladlı iqtisadi strukturun intensiv formalaşması ili oldu. Məhz o vaxtdan başlayaraq respublikada demokratikləşmə prosesləri genişlənmiş, ölkəmizin dünyaya transformasiya proseslərinə inteqrasiyası daha intensiv xarakter kəsb etmiş, milli iqtisadiyyatın daha da inkişafı üçün mühüm sosial-siyasi baza yaranmışdır. Heydər Əliyevin siyasət məktəbinin layiqli yetirməsi olan İlham Əliyevin böyük siyasətdə atdığı inamlı addımlar sayəsində Azərbaycanda təkcə sosial-iqtisadi sistemdə deyil, həm də siyasi və ictimai təsisatlarda əsaslı yeniləşmələr olmuş, səmərəli intensiv islahatlar aparılmışdır. 15 oktyabr 2008-ci ildə Azərbaycanda keçirilən Prezident seçkilərinə xalqın, milli elitanın və

beynəlxalq müşahidəçilərin verdiyi yüksək qiymət deyilənləri bir daha sübut etdi. Prezident İlham Əliyev demişdir: "Bizim təcrübəmiz onu göstərir ki, Azərbaycanın seçdiyi yol düzgün yoldur. İqtisadi, siyasi və sosial islahatların paralel şəkildə aparılması Azərbaycanı hərtərəfli inkişaf etdirir, ölkəmiz üçün çox lazım olan sabitliyi möhkəmləndirir, ictimai-siyasi vəziyyətə müsbət təsir göstərir. Ona görə də siyasi və iqtisadi islahatların davam etdirilməsi zamanın tələbidir. Əgər biz doğrudan da müasir, güclü ölkə yaratmaq istəyiriksə bunu etməliyik. Bu işdə dövlətin üzərinə böyük vəzifələr düşür. Biz buna birlikdə nail olmalıyıq".

Ulu Öndərin xalqımızın, cəmiyyətimizin milli inkişafına yönəlmiş müstəqillik konsepsiyasını yaradıcılıqla davam etdirən Prezident İlham Əliyevin milli inkişaf konsepsiyasının başlıca qayəsi ölkədə demokratik transformasiya proseslərini ən yaxın müddətdə başa çatdırmaq, vətəndaş cəmiyyəti strukturlarının və təsisatlarının formalaşmasına başlamaq səyləri ilə həyata keçirilən "sabitlikdən inkişafa doğru" ideyasıdır. Ölkə Prezidentinin əzmkar fəaliyyətini qeyd edərkən Ulu Öndərin bu müdrik sözləri yada düşür: "Sizi əmin edirəm ki, Azərbaycan xalqı indiyə qədər olduğu kimi, bundan sonra da Azərbaycanın dövlətçiliyinin, müstəqilliyinin, Azərbaycan xalqının milli azadlığının keşiyində duracaq və bu müstəqilliyi cəsarətlə qoruyub saxlayacaqdır".

Heç kəsə sirr deyil ki, Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə 30 ilə yaxın davam edən Ermənistan-Azərbaycan münaqişəsi həm siyasi, həm də hərbi arenada Azərbaycanın şanlı qələbəsi ilə yekunlaşdı. Bu isə o deməkdir ki, haqq savaşımızda əldə etdiyimiz qələbəni Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin yüksək sərkərdəlik bacarığına və rəşadətli Azərbaycan Ordusunun şücaətinə borcluyuq.

Ulu Öndər Heydər Əliyevin də ən böyük arzusu məhz bu idi: Ermənistan tərəfindən zəbt edilmiş ərazilərimiz işğaldan azad olunsun, torpaqlarımız abad yaşayış məskənlərinə çevrilsin, qaçqın və məcburi köçkünlər öz yurdlarına qayıtsınlar.

Ölkə başçısı cənab İlham Əliyev xalqa müraciətində belə bir fikir söyləmişdir: “Xöşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim”.

Bir sözlə, məhz Ümummilli Liderimiz Heydər Əliyevin görmək istədiyi Azərbaycan bu günün reallığına çevrilib və ölkəmiz Heydər Əliyev siyasi kursu ilə inamla addımlayır.

Mənalı həyatını öz xalqına bəxş etmiş Ulu Öndər Heydər Əliyevin siyasi və dövlət xadimi kimi zəngin fəaliyyəti Azərbaycan xalqının tarixində dərin iz buraxaraq, əsl dövlət idarəçiliyi məktəbinə çevrilib. Azərbaycan xalqının hələ neçə-neçə nəsli bu böyük məktəbdən, Ümummilli Lider Heydər Əliyevin zəngin siyasi irsindən ölkəmizin inkişafı, xalqımızın rifahı naminə faydalanacaq. Heydər Əliyevin irsi gələcək nəsillər üçün zəngin xəzinə olacaqdır.

**İstifadə olunmuş ədəbiyyat siyahısı**


1. H.Ə. Əliyev. Müstəqilliyimiz əbədidir. Bakı, 1998.
2. H.Ə. Əliyev. Müstəqillik yollarında. Bakı, 1997.
3. Xalqın böyük xilaskarı. Bakı, 2001.
4. Dövlətçilik naminə. Bakı, 2001.
5. H.Ə. Əliyev. Azərbaycanı dünyaya tanıdır. Bakı, 1994.
6. H.Ə. Əliyev. Dünyanın gözü ilə. Bakı, 2003.

**X Ü L A S Ə**

Ömrünü xalqının azadlıq mübarizəsinə həsr etmiş tarixi şəxsiyyətlər onun tarixində iz qoyublar. Məhz onların fəaliyyəti nəticəsində müstəqillik əldə olundu və dövlət dünya arenasında layiqli yer tuta bildi. Qloballaşma şəraitində milli mənəvi dəyərlərin qorunub saxlanılması və inteqrasiya prosesində zənginləşdirilməsi yalnız Ulu Öndərin fəaliyyəti nəticəsində mümkündür. Bu mənada Azərbaycan xalqının tarixində dərin iz qoymuş Heydər Əliyevin rolu əvəzsizdir. Müstəqil Azərbaycanın quruculuğu Heydər Əliyevin əsas məqsədi və həyatının mənası idi.

**Хаджар Гурбанова**
**Главный консультант**
**отдела Международного права и международного сотрудничества**
**Аппарата Конституционного Суда Азербайджанской Республики**

**ОБЩЕНАЦИОНАЛЬНЫЙ ЛИДЕР ГЕЙДАР АЛИЕВ И НЕЗАВИСИМЫЙ АЗЕРБАЙДЖАН**

**Р Е З Ю М Е**

Исторические деятели, посвятившие свою жизнь освободительной борьбе своего народа, оставили след в его истории. Именно в результате их деятельности была достигнута независимость, и государство смогло занять достойное место на мировой арене. В условиях глобализации сохранение национальных духовных ценностей и их обогащение в процессе интеграции возможно только в результате деятельности великого лидера. В этом смысле роль Гейдара Алиева, оставившего глубокий след в истории азербайджанского народа, незаменима. Строительство независимого Азербайджана было главной целью и смыслом жизни Гейдара Алиева.

**Hajar Gurbanova**
**Chief Adviser of the Department of International Law and International Cooperation of the Secretariat of the Constitutional Court of the Republic of Azerbaijan**

**NATIONAL LEADER HEYDAR ALIYEV AND INDEPENDENT AZERBAIJAN**

**S U M M A R Y**

The historical figures who dedicated their lives to the liberation struggle of their people made a mark in its history. It was as a result of their activities that independence had been achieved and the state could take a worthy place on the world arena. In the context of globalization, preserving national moral values and enriching them in the process of integration is possible only as a result of the activities of the Great Leader. In this sense, it is impossible to overestimate the role of Heydar Aliyev, who left the deepest mark in the history of the Azerbaijani people. The building of the independent Azerbaijan was the main purpose and meaning of life of Heydar Aliyev.

***Firuza TARVERDIYEVA***

Senior Adviser of the Department of International Law and International Cooperation of the Secretariat of the Constitutional Court of the Republic of Azerbaijan

# ADVANCED DEMOCRATIC IDEAS OF THE NATIONAL LEADER HEYDAR ALIYEV IN THE FIRST CONSTITUTION OF INDEPENDENT AZERBAIJAN

***Keywords:*** *National Leader Heydar Aliyev, President Ilham Aliyev of the Republic of Azerbaijan, Constitution, right to life, abolition of death penalty, ECHR Protocol No 13.*

***Açar sözlər:*** *Ümummilli lider Heydər Əliyev, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Konstitusiya, yaşamaq hüququ, ölüm cəzasının ləğvi, AİHK-ın 13 saylı Protokol.*

***Ключевые слова:*** *Общенациональный Лидер Гейдар Алиев, Президент Азербайджанской Республики Ильхам Алиев, Конституция, право на жизнь, отмена смертной казни, Протокол № 13 ЕКПЧ .*

***"This Constitution will determine the steady progress and development of the Republic of Azerbaijan, the people of Azerbaijan through democracy and legal democratic State building for many years and decades".***

**National Leader Heydar Alirza oglu Aliyev**

The year of 2023. The modern and independent Republic of Azerbaijan is 32 years old. From the point of world history this is a very short period of time. Nevertheless, during these years we have demonstrated to the world and future generations the true magnificent result of the establishment of the independent Azerbaijan. That is why we are in the Great Era.

We continue to move forward, look ahead to the future. Our young country is full of strength, it is on the rise.

The era of independence is a brave ascent of the nation along dangerous mountain paths hanging over an abyss, to heights that previously seemed unattainable. We have conquered them.

Azerbaijani identity and Azerbaijani patriotism, the equality of citizens before the law, regardless of ethnicity, religion, language, origin or race – these are the foundations of our modern society.

The people of Azerbaijan, using favourable historical conditions and political, economic, cultural and intellectual potential, at the end of the 20th century realized their dream of independence. A brief history of the period of independence confirms the following thought of the National Leader Heydar Aliyev: "no matter how difficult it may be to gain independence, its preservation, ensuring stability and eternity is even more difficult."

An analysis of the history of the independent statehood of Azerbaijan shows that such a difficult, complex and honourable mission as building a state could be led by a strong-willed person with a broad and global view of life, enjoying the support of the people and becoming their National Leader. In the late 1990s, the only leader who could claim this role in Azerbaijan and who was able to cope with this work was Heydar Aliyev.

The ideas and thoughts of Heydar Aliyev, his policy laid the scientific and theoretical foundations for the transition from the socialist socio-economic system to a new society in the conditions of Azerbaijan. For young Republic of Azerbaijan, freed from the imperial and socialist system and embarked on the path of independence, but faced with divergent, intersecting interests of regional and world forces, looking for its place in the globalizing world, striving to protect its interests, Heydar Aliyev's doctrine of statehood was a real strategy of activity. The practical activity and ideological and political views of Heydar Aliyev played a huge role in the return of the Azerbaijani people – which for many years was deprived of statehood and national and spiritual roots, who's national and state interests were trampled – to their origins, to their self-affirmation.

History entrusted the National Leader Heydar Aliyev with two landmark missions – salvation and creation. A wise, resolute political leader and an inimitable statesman, he masterfully accomplished both missions.

Vitality, sustainable character, successful results of the reform strategy of the National Leader Heydar Aliyev allow us to call him an outstanding reformer and strategist. That is, the main thing is by no means initiatives, laws and legislative acts, but the ability to foresee and calculate the result of each reform. The phenomenal personality Heydar Aliyev, while recommending not to rush at the initial stage, said: "We are implementing reforms not in one day, not in one month, maybe not in one year, but gradually."

The draft Constitution prepared by the Constitutional Commission under the leadership of the National Leader was submitted to a popular vote. The referendum was attended by 86 percent of voters, of which 91.9 percent voted for the adoption of Constitution.

Twenty-eight years ago, on 12 November 1995, the people of Azerbaijan, continuing the traditions of their centuries-old statehood, adopted the Constitution, the first in the period of independence of our country, through a popular vote – a referendum.

The foundation of the legal philosophy of Constitution, prepared under the direct supervision and thanks to the hard work of the National Leader, the basis of all its norms and provisions are precisely the formula of a democratic, social State governed by the Rule of Law and ensuring human rights and freedoms.

Quote: "This is the Constitution of our independent Azerbaijan, and I believe that, although it reflects many provisions from world experience, this Constitution is not like any other Constitution. This is our Constitution, the Constitution of Azerbaijan, and I consider this a very important historical achievement. I am glad and happy that I have the opportunity to contribute to the creation of this Constitution. I hope that this Constitution will be long-term and will determine the steady progress and development of the Republic of Azerbaijan, the people of Azerbaijan through democracy and legal democratic State building for many years and decades."

The Constitution of the Republic of Azerbaijan, imperceptibly for many, changed the worldview of the nation – if the previous socialist fundamental laws addressed a class-political approach, according to which the main social groups were divided into the main worker-peasant class and the strata serving it, with the return to power of Heydar Aliyev, the social factor has become a statement of reality, but not the subject of law-making.

The reason for this is the constructive concept of "citizen", encompassing the rights, freedoms, duties and public relations. We do not deny the socio-political factors in the formation of Constitution, but we do not absolutize them either, since the authors brought to the fore the regulatory role of a positive document that fixed the State organization and the foundations of the status of the individual, ordering public relations and contributing to them moving forward. And here it would be appropriate to quote President Ilham Aliyev: "Based on universal values, the Constitution of the Republic of Azerbaijan still has great legal, political and ideological potential and serves for the well-being of the entire Azerbaijani people".

After the adoption of Constitution, large-scale legislative and judicial reforms were carried out in our country, a new legislative base was formed, measures were taken to improve the judiciary in accordance with modern requirements, and strengthen the independence of judges. It is worth pointing out that in modern civilized societies a strong and independent judiciary acts as one of the important conditions for people's trust in the state, building civil society and even economic development.

The consolidation of human rights and fundamental freedoms in one third of the Articles of the Constitution has become one of the features of the Basic Law and reflected one of the main progressive democratic ideas of National Leader. Among human rights and fundamental freedoms, the right to life has taken the leading position.

The right to life, which is an inalienable human right, is enshrined in the Constitution of the Republic of Azerbaijan, as well as in the universal and regional instruments for the protection of human rights, which Azerbaijan is a party to.

Life is the greatest value and blessing given to a human being by nature. "Everyone has the right to life" is stated in the Constitution of the Republic of Azerbaijan, and this is the rule for all countries of the world. Philosophers thought about the value of human life, they said that a person should have the right to manage his life. But the thought remains unshakable for common man – no one has the right to deprive a person of life. Deprivation of life – murder – is an immoral and illegal act, condemned by society and punished by the state. The death penalty is the deprivation of life as a punishment legalized by the state and entered into force by a court verdict, in its essence – the legalized murder. The death penalty is a type of criminal punishment, the purpose of which is the deliberate deprivation of a person's life by the State. The negative aspects of the death penalty are indicated by the international community: it excludes the possibility of rehabilitation and reconciliation; provokes the solution of complex problems of mankind in primitive ways instead of contributing to the understanding of their causes and the search for constructive approaches; prolongs the suffering of the relatives of the murdered person and inflicts the same suffering on the relatives of the person convicted of murder; requires resources and energy that should be devoted to combating violent crime and helping those affected by it; is a sign of a culture of violence, not a way to get away from it; it is offensive to human dignity.

Article 27 of the Constitution, while establishing everyone's right to life, defines cases that exclude the inviolability of the right to life, particularly killing of enemy soldiers during armed attacks against the State, execution of capital punishment on the basis of a court judgement that has entered into legal force, and other cases provided for by legislation.

Along with this, the Constitutional Law of the Republic of Azerbaijan on the Regulation of the Exercise of Human Rights and Freedoms in the Republic of Azerbaijan, dated 24 December 2002, also excludes cases of death resulting from the lawful conduct of war from the rule of unconditional provision of the right to life. Among the regional instruments,

which the Republic of Azerbaijan is a party to, and in which the protection of the right to life and the positive obligations of the parties to ensure it are enshrined, one can single out the European Convention on Human Rights. Its second article establishes that "deprivation of life shall not be regarded as a violation ... when it results from an absolutely necessary use of force: (a) to protect any person from unlawful violence; (b) to effect a lawful arrest or to prevent the escape of a person lawfully detained; (c) to put down, in accordance with the law, a riot or insurrection."

The development of the provisions of this Article of the Convention is reflected in numerous judgments of the European Court of Human Rights, including those concerning the Republic of Azerbaijan.

Considering that, according to Article 148 (II) of the Constitution of the Republic of Azerbaijan, international treaties to which the Republic of Azerbaijan is a party are an integral part of the legislative system of the Republic of Azerbaijan, as well as the adoption of judgements and decisions of the European Court of Human Rights as an interpretation of the provisions of the Convention, the conclusions reflected in such decisions, have a direct impact on the legislation and practice in the Republic of Azerbaijan.

In Azerbaijan, the death penalty has been used for a long time. An analysis of the last period shows that in 1988 the death sentence was carried out against 5 persons sentenced to death, in 1989 – 6 persons, in 1990 – 3 persons. While no executions were carried out for the next three years, in February 1993 death sentences were hastily carried out against 8 persons.

National Leader Heydar Aliyev, in his historic address to the Milli Majlis (Parliament) of the Republic of Azerbaijan on 3 February 1998, stressed that human life is the highest value, the right to life is a natural and inalienable right of every person, and the use of the death penalty is contrary to human dignity and the idea of human rights in general, assessed the use of the death penalty as an inhuman and cruel measure against human dignity and the idea of human rights in general, declared his confidence that the abolition of this type of punishment, along with its historical significance, would also be a decisive step for the humanization of the criminal law policy and an important stage of reforms in the legal system.

Along with the adoption of important acts of national legislation on the abolition of the death penalty, Heydar Aliyev initiated the accession of our country to the Second Optional Protocol of the International Covenant on Civil and Political Rights, as well as to Protocol No. 6 of the European Convention on Human Rights, which are the main international documents in this area.

Despite the fact that these international documents, adopted in the 1980s, provided for the abolition of the death penalty, the possibility of applying this type of punishment for war crimes committed during the war years remained. However, the evolution of the formation of international human rights law continued towards the abolition of the death penalty in all cases, as a result of which Protocol No. 13 of the European Convention on Human Rights was adopted.

It should be emphasized that, while adhering to the humane policy outlined by National Leader, our country has never sought to use the possibility of applying the death penalty, and our national legislation did not provide for the death penalty for any crime. On the contrary, targeted and consistent measures are constantly being taken to further liberalize the criminal law policy.

On 10 February 1998, the death penalty was abolished in Azerbaijan. It was a very bold move based on the principles of respect for human rights. The abolition of the death penalty was due to the philosophical and legal views of Heydar Aliyev, his position, based on deep scientific analysis, world practice and reality. “After a comprehensive analysis of the criminal law policy, being committed to such lofty ideas as justice, freedom, humanism and philanthropy, I came to the conclusion that the death penalty was abolished in our country and made this historic statement,” National Leader emphasized.

In the fight against the death penalty, Heydar Aliyev consistently went against the powerful strong stream. According to public opinion polls, in the 1990s, about 80% of the population supported the death penalty: both parliamentarians and some human rights activists supported it. At the initiative of Heydar Aliyev, already in 1993, two articles of the Criminal Code were completely abolished and the death penalty was excluded from two more. In 1994, the death penalty for women was abolished. The 1995 Constitution noted the prospect of the complete abolition of the death penalty and its exclusivity. In 1996, three articles were excluded from the Criminal Code, the death penalty was excluded from another 18, and a decision was made not to apply it to men aged 65 years and older. Thus, by the beginning of 1998, only 12 articles of the Criminal Code provided for the death penalty.

Amnesty acts, adopted at the initiative of the President Ilham Aliyev, were applied to more than 57 thousand people, and the amnesty orders signed by him covered about 5,900 people. At the same time, as a result of the conceptual changes introduced into the criminal legislation, many acts were decriminalized, the use of alternative punishments and measures of procedural coercion, not related to the isolation of a person from society, was significantly expanded.

Exactly 19 years later, on 10 February 2017, President Ilham Aliyev signed the above-mentioned historic Order. Perhaps the coincidence of the day and month is a pure one. In fact, attention is attracted, first of all, by the continuity in reforms, the logical continuation of the strategic course outlined by the great leader.

This year our country marks the 25th Anniversary of the abolition of the death penalty.

Today, the worthy successor of National Leader, President Ilham Aliyev, taking office as President in 2003, said: “I will be the President of every Azerbaijani”. And over the past 20 years, he has won the sympathy and trust of the absolute majority of society. The realities of the last 20 years have proved that there is no alternative to the path of peace, stability and progress laid by the political course of Heydar Aliyev.

Taking into account the efforts made at the international level to completely ban the death penalty, including for crimes committed during the war years or under the direct threat of war, on 3 February 2023, the President of the Republic of Azerbaijan H.E. Ilham Aliyev signed an Order on granting authority to sign Protocol No. 13 of the European Convention on Human Rights concerning the abolition of the death penalty in all circumstances. With this decision, the Head of our State once again demonstrated his will to ensure the right to life at the highest level.

On 8 March 2023, the Permanent Representative of the Republic of Azerbaijan to the Council of Europe, with the participation of the Secretary General of the Council of Europe, signed Protocol No. 13.

Thus, by acceding to Protocol No. 13 after the completion of the relevant internal ratification process, the Republic of Azerbaijan officially confirmed its will to completely ban the death penalty, including for crimes committed in wartime or under the imminent threat of war, and to guarantee the right to life at the highest level.

## List of cited references:


1. Constitution of the Republic of Azerbaijan, https://president.az/en/pages/view/azerbaijan/constitution
2. Əliyev H.Ə. Azərbaycanın dövlət müstəqilliyi əbədi, dönməz və sarsılmazdir. "Azərbaycan" qəzeti, 28 may 1997-ci il.
3. Protocol No 13, Convention for the Protection of Human Rights and Fundamental Freedoms, https://www.echr.coe.int/Documents/Library_Collection_P13_ETS187E_ENG.pdf
4. Васильев, Р. Итоги 30 лет: победа, независимость и лидерство: Азербайджан продемонстрировал исторически уникальную синергетику опыта государственного управления и его прогрессивного обновления // Бакинский рабочий. – 2021.- 23 октября. – № 194.
5. Салманов, Хюгуг. День восстановления независимости: ровно 30 лет назад Верховный Совет принял Конституционный акт «О государственной независимости Азербайджанской Республики» // Каспiй. – 2021.- 16 октября. – № 39.
6. Конституционный Акт Азербайджанской Республики "О восстановлении государственной независимости Азербайджанской Республики" № 222- XII, 18 октября 1991г, http://myazerbaijan.org/index.php?p=Azerbaijan/4
7. Dilara Seyid-zade. Azerbaijan in the Beginning of XX century: Roads Leading to Independence, Baku 2010.
8. "Azərbaycan" (Rəsmi Dövlət Qəzeti), 11 November 1995, Azərbaycan Respublikası Prezidentinin çıxış nitqi.
9. Шамхал, Лятиф. Гейдар Алиев: миссия спасения: Независимая Азербайджанская Республика является шедевром общенационального лидера // Каспiй. – 2020. – 13 июня. – № 90.
10. Şəkərəliyev, Arif. Azərbaycanı müstəqillik epoxasına hazırlayan və dövlət suverenliyinin əsaslarını yaradan böyük lider // Xalq qəzeti.-2020.-6 may.-№88.


## SUMMARY


The consolidation of human rights and fundamental freedoms in one third of the Articles of the Constitution of the Republic of Azerbaijan has become one of the features of the Basic Law and reflected one of the main progressive democratic ideas of the National Leader Heydar Aliyev. Among human rights and fundamental freedoms, the right to life has taken the leading position.

**Firuzə TARVERDİYEVA**
**Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Aparatının**
**Beynəlxalq hüquq və beynəlxalq əməkdaşlıq şöbəsinin böyük məsləhətçisi**

## MÜSTƏQİL AZƏRBAYCANIN BİRİNCİ KONSTİTUSİYASINDA ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN QABAQCIL DEMOKRATİK İDEYALARI

### X Ü L A S Ə

Azərbaycan Respublikası Konstitusiyasının maddələrinin üçdə birində insan hüquq və əsas azadlıqlarının təsbit edilməsi Əsas Qanunun xüsusiyyətlərindən birinə çevrilmiş və Ümummilli Lider Heydər Əliyevin mütərəqqi demokratik ideyalarından birini əks etdirmişdir. İnsan hüquqları və əsas azadlıqlar arasında yaşamaq hüququ lider mövqe tutmuşdur.

**Фируза ТАРВЕРДИЕВА**
**Старший Консультант**
**отдела Международного права и международного сотрудничества**
**Аппарата Конституционного Суда Азербайджанской Республики**

## ПЕРЕДОВЫЕ ДЕМОКРАТИЧЕСКИЕ ИДЕИ ОБЩЕНАЦИОНАЛЬНОГО ЛИДЕРА ГЕЙДАРА АЛИЕВА В ПЕРВОЙ КОНСТИТУЦИИ НЕЗАВИСИМОГО АЗЕРБАЙДЖАНА

### Р Е З Ю М Е

Закрепление в трети статей Конституции Азербайджанской Республики прав человека и основных свобод стало одной из особенностей Основного закона и отразило одну из передовых демократических идей Общенационального Лидера Гейдара Алиева. Среди прав человека и основных свобод главенствующую позицию заняло право на жизнь.

*Şəlalə HƏSƏNOVA*

Hüquq və İnsan Haqları İnstitutunun
Hüquqi Tədqiqat şöbəsinin
hüquq tədqiqatçısı, h.ü.f.d., dosent

# AZƏRBAYCAN RESPUBLİKASININ ƏRAZİSİNDƏ ERMƏNİLƏRİN EKOLOJİ CİNAYƏTLƏRİ KONTEKSTİNDƏ EKOSİD ƏMƏLİNİN KRİMİNALLAŞDIRILMASI ZƏRURƏTİ HAQQINDA

***Açar sözlər:*** *ekologiya, ekosid, cinayət hüququ, işğal, siyasət, qanunvericilik, təklif.*
***Ключевые слова:*** *экология, экоцид, уголовное право, оккупация, политика, законодательство, предложение.*
***Keywords:*** *ecology, ecocide, criminal law, occupation, politics, legislation, proposal.*

Ümummilli Liderimiz Heydər Əliyev Azərbaycan dövlətinin və xalqının bütün sahələrdə qayğısına qaldığı kimi, vətənimizin ekoloji vəziyyətinə də hər zaman xüsusi həssaslıqla yanaşmışdır. Ulu Öndər Heydər Əliyev hələ 1969-1982-ci illərdə Sovet Azərbaycanına rəhbərlik etdiyi dövrdə yaşıllığın qədrini bilməyənlərə anlatdı ki, yaşıllıq olmayan yerdə həyat yoxdur. Hər kəs iki ağac əkib böyütməlidir. Ulu Öndər Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışından sonra müharibə şəraitində, ağır vəziyyətdə olsaq da, nəinki Bakı şəhərində, eləcə də respublikamızın bütün bölgələrində yaşıllığa diqqət yenidən artırıldı. Planetin ağciyərləri olan meşələrin qorunması yenidən gündəmə gəldi. Yaşıllaşdırma paytaxt Bakıda və Abşeronda bundan sonra başladı. Respublikamızda ekoloji problemlərin həll edilməsini daim diqqətdə saxlayan, xüsusilə yaşıllaşdırmaya böyük önəm verən Ümummilli Lider Heydər Əliyevin 2001-ci il 23 may tarixli Fərmanı ilə ətraf mühitin mühafizəsi və təbii ehtiyatlardan istifadənin ayrı-ayrı istiqamətləri ilə məşğul olan və fəaliyyətlərində bir-birini təkrarlayan Dövlət Ekologiya və Təbiətdən İstifadəyə Nəzarət Komitəsi, Dövlət Geologiya və Mineral Ehtiyatlar Komitəsi, Dövlət Hidrometeorologiya Komitəsi və “Azərmeşə” İstehsalat Birliyi ləğv edilmiş və bunların bazasında Ekologiya və Təbii Sərvətlər Nazirliyi yaradılmışdır. Azərbaycan Respublikası ərazisində, o cümlədən Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində ətraf mühitin qorunması, təbiətdən istifadənin təşkili, yeraltı sulardan, mineral xammal ehtiyatlarından və yerüstü təbii sərvətlərdən səmərəli istifadə edilməsi, onların bərpası, hidrometeoroloji proseslərin müşahidəsi və proqnozlaşdırılması sahəsində dövlət siyasətinin həyata keçirilməsi Ulu Öndər tərəfindən məhz bu nazirliyə tapşırılmışdır.

Bütün bunlarla yanaşı, təəssüf ki, mənfur qonşumuz – Ermənistanın hərbi təcavüzkarlıq fəaliyyəti nəticəsində Ulu öndərin ekoloji siyasətini işğal edilmiş ərazilərimizdə uzun illər ərzində realizə etmək mümkün olmamışdır.

Ermənilərin və onların terrorçu dövləti olan Ermənistanın Azərbaycan ərazisində törətdikləri bütün digər vəhşiliklərlə yanaşı, təbiətə qarşı da törətdikləri cinayət əməllərinin adı dövlət başçısı, cənab İlham Əliyev tərəfindən tam dəqiqliklə qoyulmuşdur – bu əməllər, ekoloji terrordur.

İşğal olunmuş ərazilərdə ətraf mühitə, ekosistemə, bitki və heyvanlar aləminin harmonik vəhdətdə yaşamasına ağır zərbələr vurulmuş, Azərbaycan ərazilərində erməni işğalçıları və onların tərəfdaşları tərəfindən əlvan, qara metalların, habelə mineral su, ümumi yayılmış faydalı qazıntıların intensiv şəkildə qeyri-qanuni talançı hasilatı həyata keçirilmişdir. Belə qeyri-qanuni, talançı hasilatların həyata keçirilməsi zamanı ekoloji tələblərə, standartlara və qaydalara, təhlükəsizlik və bərpa etmə normalarına heç bir formada məhəl qoyulmamış, xalqımıza məxsus olan təbii ehtiyatlar, faydalı qazıntılar və s. dəyərli hasilatlar, faktiki olaraq, Azərbaycan qanunvericiliyi və beynəlxalq standartlarla müəyyən edilmiş istehsalat həcmlərini dəfələrlə aşan həcmdə hasil edilmiş, zəhərli tullantıların yerli sututarlarına, çaylara axıdılmasının qarşısını almaq üçün heç bir tədbir görülməmişdir.

Bütün bu qanunsuz və təbiətə qarşı düşməncəsinə talançılıq xarakterli ekoloji terror hərəkətləri, öz növbəsində, ölkəmizə məxsus zəngin mineral və digər yataqların məhv edilməsinə, böyük həcmdə torpaq sahələrinin zəhərlənməsinə, şirin və içməli su mənbələrinin yararsız hala düşməsinə səbəb olmuşdur.

Ermənilərin ekoloji terror cinayətlərindən bəhs edərkən, unutmaq olmaz ki, XX əsrin 90-cı illərindən etibarən daha aktiv fazada reallaşmağa başlayan erməni işğalçılığı və terrorçuluğu siyasətinin nəticəsində vətənimiz Azərbaycanın Konstitusiya ilə qorunan dəyərlərindən biri olan ətraf mühitinə ağır zərər vurulub, ölkəmizin işğal olunmuş torpaqlarında ekoloji balans pozulub. Azərbaycanın 30 ilə yaxın işğalda qalmış torpaqlarında ətraf mühit, bioloji müxtəliflik, meşələr, yeraltı və yerüstü təbii ehtiyatlar amansızcasına müxtəlif cinayət əməllərindən zərər çəkib. Milli park statusuna malik olan ərazilərimiz, qanunla qorunan digər təbii zonalarımız, işğalçı və terrorçu dövlət olan Ermənistanın, söndürülməsi mümkün olmayan yanğınlar törədən raket atəşlərinə məruz qalmış, bunun nəticəsində vətənimizin "Qırmızı Kitabı"na və Beynəlxalq Təbiəti Mühafizə İttifaqının "Qırmızı Siyahısı"na daxil edilmiş nadir təbiət, bitki və heyvanat aləminin dəyərli nümunələri məhv edilmişdir.

Ermənistan işğal etdiyi torpaqlarımızda dünya dövlətlərinin gözü önündə beynəlxalq hüquq prinsiplərinə, Birləşmiş Millətlər Təşkilatının və Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının qərar və qətnamələrinə məhəl qoymadan bənzəri görülməmiş vəhşiliklər törətmişdir.

Terror dövləti – Ermənistanın apardığı qeyri-qanuni iqtisadi fəaliyyət 1949-cu ildə qəbul edilmiş "Müharibə zamanı mülki şəxslərin müdafiəsi haqqında" Cenevrə Konvensiyasının, "Quru müharibəsinin qanun və adətləri haqqında" IV Haaqa Konvensiyasının, habelə insan hüquqları sahəsində mövcud beynəlxalq konvensiyaların tələblərini kobud şəkildə pozmuşdur.

İşğal etdiyi ərazilərdə erməni işğalçılarının canlı təbiətə və bəşəriyyətə qarşı yönəlmiş əməlləri barədə Avropa "Vəhşi Təbiətin və Təbii Ətraf Mühitin Mühafizəsi üzrə" Bern Konvensiyasının Baş Katibinə, "Biomüxtəliflik üzrə" Konvensiyanın İcraçı katibinə, Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının katibliyinə, Təbiətin və Təbii Sərvətlərin Mühafizəsi üzrə Beynəlxalq Birliyin Prezidentinə rəsmi müraciətlər edilmiş, beynəlxalq təşkilatların diqqətinə bu istiqamətdə təxirəsalınmaz tədbirlərin görülməsinin zəruriliyi çatdırılsa da, talançı Ermənistan çirkin əməllərindən əl çəkməmişdir.

Cənab Prezidentin təbirincə desək, terror dövləti olan Ermənistanın törətdiyi ekoloji terror ekologiya və ətraf mühitlə bağlı beynəlxalq konvensiyaların, o cümlədən "Ətraf mühitin dəyişdirilməsi üsullarının hərbi və ya hər hansı başqa düşmənsayağı istifadəsinin

qadağan edilməsi" haqqında Birləşmiş Millətlər Təşkilatının Konvensiyasının pozulması deməkdir.

30 ilə qədər davam edən işğal dövründə, eləcə də, 44 günlük Vətən müharibəsi zamanı erməni terrorçuları vətənimizin qəsb edilmiş ərazilərində ətraf mühitə, bioloji müxtəlifliyə, meşələrə, yeraltı və yerüstü təbii ehtiyatlara vurduğu ciddi ziyanı nəzərə almadan, qəsdən və xüsusi amansızlıqla, ekoloji terror hərəkətləri törədərək, formalaşması üçün əsrlərlə zaman tələb olunan dünya miqyasında dəyəri hesablana bilməyən qızıl qədər qiymətli meşələrin yandırılmasını öz hərbi məqsədləri üçün istifadə etmişdir. İşğala məruz qalmış təbiət ərazilərimiz, istər birinci Qarabağ savaşında, istərsə də, ikinci Qarabağ savaşında – 44 günlük Vətən müharibəsi zamanı müzəffər ordumuzun yurd torpaqlarımızı düşmən tapdağından azad etməkdən ötrü apardığı əməliyyatlara mənfur cavab olaraq, Ermənistan silahlı qüvvələri tərəfindən genişmiqyaslı yanğınlara səbəb olan raket atəşinə tutulmuşdur ki, bunun nəticəsində, digər ərazilərdə baş verimiş ağır ekoloji fəlakətlərlə yanaşı, Şuşa şəhəri yaxınlığındakı meşə ərazilərindəki qiymətli ağaclar da fosfor silahlarından istifadə nəticəsində məhv edilmişdir. Nəticədə formalaşma dövrü illərlə deyil, əsrlərlə hesablanan münbit torpaqlarımızın üst təbəqəsi tamamilə yanmışdır. Ekspertlər birmənalı olaraq, bildirir ki, ağ fosfor tipli bombalardan istifadə etməklə törədilən yanğınların söndürülməsi, eləcə də təbii yollarla sönməsi mümkün deyil və belə yanğınlar uzun müddət davam etməklə, təbiətə bərpaedilməz və ağır ziyan vurur. Deməli, fosfor bombalarından istifadə əmri verən erməni hərbi-siyasi hakimiyyət nümayəndələri bilərəkdən təbiətə bərpaedilməz zərər vurmaq yolunu tutmuşlar, onlar müharibə cinayətləri törətdikləri kimi, ekoloji terror cinayətlərini də bilə-bilə, təqsirin birbaşa qəsd forması ilə törətmişdirlər. Bu amillər, həmin şəxslərin gələcəkdə cinayət məsuliyyəti məsələsi həll edilərkən mütləq qaydada nəzərə alınmalıdır [3, s. 6; 5, s. 4; 6, s. 11].

İşğal dövründə qəsb edilmiş Azərbaycan torpaqlarında olan təbii sərvətlər amansızca, tamamilə qeyri-qanuni bir şəkildə talan edilmiş, qızıl, civə, mis, qurğuşun, sink, kömür və s. daxil olmaqla 163 faydalı qazıntı yatağı, həmçinin meşə örtüyü, nadir ağaclar Ermənistan tərəfindən qanunsuz istismara məruz qalmışdır.

Ermənilərin dövlətimizə, xalqımıza qarşı törətmiş olduqları ekoloji cinayətlərin obyekti qismində çıxış etmiş maddi sərvətlərimizdən biri də meşələrimizdir. İlkin hesablamalara görə, ərazimizin səkkiz min hektarlıq meşəlik ərazisi erməni terrorundan zərər görmüş, məhv edilmişdir. Həmin meşələrdə palıd, ardıc, fıstıq, vələs, şam, göyrüc və qozdan ibarət qiymətli və çoxillik sıx meşələrdən ibarət bənzərsiz bir ekosistem məhv edilmiş, endemik biomüxtəliflik vəhşicəsinə pozulmuşdur.

Otuz ilə yaxın davam edən kifayət qədər uzun bir müddət ərzində düşmən qüvvələri vətənizimin 20%-lik bir hissəsini işğal etməklə, həmin əraziləri həm leqal və legitim Azərbaycan hakimiyyətinin real nəzarətindən, həm də dünya birliyinin, aidiyyətli beynəlxalq qurum və təşkilatların cari nəzarətindən kənarda buraxmışdır. Belə nəzarətsiz bir şəraitdə ermənilər əzəli torpaqlarımızda qeyri-qanuni, bütün mövcud beynəlxalq-hüquqi norma və müqavilələrlə ziddiyyət təşkil edən kriminal fəaliyyətlə, o cümlədən, təbii sərvətlərin talan edilməsi, su mənbələrimizi çirkləndirilərək zay edilməsi, bitki aləminin və heyvanat aləminin məhv edilməsi, su heyvanlarının qanunsuz tutulması, meşə heyvanlarının qanunsuz ovlanması, meşələrin və xüsusilə də dəyərli ağacların qanunsuz kəsilməsi, faydalı qazıntıların qanunsuz istismarı, yerin təkindən qanunsuz istifadə və s. bu kimi çirkin ekoloji cinayətlərin törədilməsi ilə məşğul olmuş, tarixi ərazilərimizi xarabalığa, cinayətkarlıq yuvasına çevirmişlər. Bəsitçay qoruğu kimi təkrarolunmaz bir yerə qarşı ekoloji terrorun törədilməsi erməni vandalizminin bariz göstəricisidir. Belə ki, erməni qəsbkarları işğal

altında saxladıqları dövrdə digər ərazilərə olduğu kimi, Bəsitçay qoruğuna da böyük zərər yetiriblər. Qoruğun meşəlik ərazisinin 50 %-ə yaxın hissəsi tamamilə məhv edilib, ağaclar kökləri və oduncaqları yandırılıb. Burada illərlə formalaşmış təbii ekosistemin tarazlığına erməni vandalizmi nəticəsində ciddi zərbə vurulub.

İşğal dövründə Azərbaycan Respublikasının ərazi bütövlüyü prinsipi kontekstində, bütün dünya birliyi tərəfindən onun ayrılmaz tərkib hissəsi kimi tanınmasına baxmayaraq, Qarabağda bir sıra əcnəbi firma və korporasiyaların qanunsuz filialları yaradılmışdır ki, bunun nəticəsi olaraq, həmin illeqal korporativ təşkilatlar mədənçilik, tikinti, ağac emalı, telekommunikasiya və digər sahələr üzrə Azərbaycan Respublikasının icazəsi olmadan qanunsuz fəaliyyət göstərmişdir.

Ümumilikdə, Azərbaycanın işğal olunmuş ərazilərində ermənilərin törətdiyi ekologiya terroruna 20-dən artıq ölkənin – o cümlədən, Böyük Britaniya, Fransa, İran, ABŞ, Rusiya, İsveçrə, Almaniya, Hollandiya və digər dövlətlərin şirkətləri qoşulmuş, işğal edilmiş ərazilərə investisiya yatıraraq Azərbaycanın təbii sərvətlərini qəddarlıqla istismar etmiş, qeyri-qanuni yollarla xarici ölkələrdə satışa çıxarmışlar.

İşğal olunmuş ərazilərdə həyata keçirilmiş qeyri-qanuni fəaliyyət və təbii ehtiyatların istismarı ölkəmizin iqtisadiyyatı ilə yanaşı, həm də bir sıra ekoloji problemlərə gətirib çıxarmışdır. Belə ki, meşələrin qırılması və yandırılması, su ehtiyatlarının çirklənməsi, flora və faunanın məhv edilməsi, regionda yerin təkinin talan edilməsi nəticəsində ekoloji tarazlıq pozulmuş, torpaq sahələri deqradasiya olunmuşdur. Azərbaycanın əvvəllər işğal olunmuş bütün ərazilərində mövcud olan 260 min hektara yaxın meşə ərazisi son 30 il ərzində sürətlə azalmış, qiymətli ağac növləri – qoz, palıd, Eldar şamı, xurma və xüsusi mühafizə altında olan digər ağaclar, minlərlə hektar ərazini əhatə edən meşələr oduncaq tədarükü üçün qırılmış və qiymətli ağac növlərinin bitdiyi Qarabağın meşə resursları mebel, çəllək və tüfəng qundağı istehsalı üçün Ermənistana aparılmışdır [1, s. 11; 2, s. 2; 4, s. 7].

Dövlət başçımızın "Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində müvəqqəti xüsusi idarəetmənin təşkili haqqında" 29.10.2020-ci il tarixli Fərmanı ilə verilmiş tapşırıqlara əsasən, ətraf mühitin qorunması, təbii sərvətlərdən səmərəli istifadə və onların ilkin qiymətləndirilməsi məqsədilə yaradılmış əməliyyat qərargahlarında təmsil olunan Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşları Qubadlı, Zəngilan, Cəbrayıl, Füzuli və Xocavənd rayonlarının ərazilərində monitorinqlər aparıblar. Məlum olub ki, Ermənistanın silahlı təcavüzü və işğalçılıq siyasəti nəticəsində Azərbaycana çox böyük miqdarda ekoloji ziyan dəymişdir. Şübhəsizdir ki, Ermənistan vurduğu ziyanı kompensasiya şəklində ödəməlidir.

Hesab edirik ki, bütün yuxarıda göstərilənlər, haqlı olaraq, hüquqşünasları Azərbaycan Respublikasında ekosid əməlinin tezliklə kriminallaşdırılmalı olması haqqında düşünməyə vadar edir.

Müqayisə üçün qeyd edək ki, Azərbaycanın da aid olduğu MDB təşkilatı daxilində bəzi ölkələrdə ekosid cinayəti artıq, haqlı olaraq, müstəqil cinayət tərkibi kimi nəzərdə tutulmuşdur.

Belə ki, Rusiya Federasiyasının 13.06.1996-cı il tarixli CM-in "Sülh və bəşəriyyətin təhlükəsizliyi əleyhinə cinayətlər" adlanan 34-cü fəslinin sisteminə aid olan 358-ci maddə "Ekosid" adlanır. Həmin maddəyə görə, bitki və heyvanat aləminin kütləvi şəkildə məhv edilməsi, atmosferin və ya su resurslarının zəhərlənməsi, o cümlədən, ekoloji fəlakətə səbəb ola biləcək digər hərəkətlərin edilməsi ekosid hesab edilir və on iki ildən iyirmi ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Belorus Respublikasının 09.07.1999-cu il tarixli CM-in "Sülh və bəşəriyyətin təhlükəsizliyi əleyhinə cinayətlər" adlanan 17-ci fəslinə aid olan 131-ci maddəsi də "Ekosid" adlanır. Həmin maddəyə görə, bitki və heyvanat aləminin qəsdən kütləvi şəkildə məhv edilməsi, atmosfer havasının, yaxud su resurslarının qəsdən zəhərlənməsi, yaxud ekoloji fəlakətə səbəb ola biləcək qəsdən törədilmiş digər hərəkətlər ekosid hesab edilir və on ildən on beş illədək müddətə azadlıqdan məhrum etmə cəzası ilə cəzalandırılır.

Qazaxıstan Respublikasının 03.07.2014-cü il tarixli CM-in "Sülh və bəşəriyyətin təhlükəsizliyi əleyhinə cinayətlər" adlı 4-cü fəslin sisteminə aid edilmiş 169-cu maddə də "Ekosid" adlanır. Həmin maddəyə görə, bitki və heyvanat aləminin kütləvi şəkildə məhv edilməsi, atmosferin, torpaq və ya su resurslarının zəhərlənməsi, habelə ekoloji fəlakətə, yaxud fövqəladə ekoloji vəziyyətin yaranmasına səbəb olmuş və ya səbəb ola biləcək digər hərəkətlərin edilməsi ekosid hesab edilir və Qazaxıstan Respublikasının vətəndaşlığından məhrum edilməklə, yaxud edilməməklə on ildən on beş ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

Moldova Respublikasının 18.04.2002-ci il tarixli CM-in 136-cı maddəsi də ekosid cinayətinə həsr edilmişdir. Həmin maddəyə görə, flora və faunanın qəsdən kütləvi şəkildə məhv edilməsi, atmosferin və ya su resurslarının qəsdən zəhərlənməsi, habelə ekoloji fəlakətə səbəb olmuş, yaxud ola biləcək digər hərəkətlərin edilməsi ekosid hesab olunur və on ildən on beş ilədək müddətə azadlıqdan məhrum etmə cəzası ilə cəzalandırlır.

Digər MDB ölkələri ilə müqayisədə ən yeni cinayət qanununa malik olan Qırğızıstan Respublikasının 28.10.2021-ci il tarixli CM-in "Sülh və bəşəriyyətin təhlükəsizliyi əleyhinə cinayətlər" adlı 50-ci fəslində yer alan 409-cu maddə də "Ekosid" adlanır. Həmin maddəyə görə, flora və faunanın kütləvi şəkildə məhv edilməsi, atmosferin və ya su resurslarının zəhərlənməsi, eləcə də, ekoloji fəlakətə yol açmış, yaxud ekoloji fəlakətə yol aça biləcək digər hərəkətlərin edilməsi ekosid adlanır və on iki ildən on beş ilədək müddətə azadlıqdan məhrum etmə cəzası ilə cəzalandırılır.

Göstərilənləri nəzərə alaraq, hesab edirik ki, "Ekosid" kimi bir cinayətin Azərbaycan Respublikasının qanunvericiliyində də təsbit edilməsi, zamanın tələbi olmaqla, müasir çağırışlara cavab verər və milli cinayət qanunumuzun daha da təkmilləşdirilməsinə xidmət edər.

Yeri gəlmişkən, qeyd etmək istərdik ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrimizin Ali Baş Komandanı, cənab İlham Əliyev 24.09.2020-ci il tarixində Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasının 75-ci sessiyasının ümumi debatlarında iştirakı zamanı videoformatda çıxış edərkən, bütün dünyanın cinayət hüquq elmi üçün vacib bir anlayış kimi istifadə edilə biləcək "ekoloji terror" cinayətindən çox yerində və haqlı olaraq, bəhs etmişdir. O, öz çıxışında bildirmişdir: "Ermənistan işğal olunmuş ərazilərdə qanunsuz olaraq təbii ehtiyatları istismar edir və süni ekoloji böhran yaratmaq məqsədilə su ehtiyatlarından istifadə edir. Azərbaycanın işğal altında olan ərazilərində qızıl və digər qiymətli metal və minerallar hasil edən Ermənistan onları beynəlxalq bazarlara ixrac edir. Bu, qanunsuz biznes fəaliyyəti və çirkli pulların yuyulması sxemidir" [7].

Eynilə, cənab Prezident 25.11.2020-ci il tarixində xalqa müraciət edərkən, bu dəfə "ekoloji terror" ifadəsini daha açıq şəkildə işlətmiş, bu cinayətin təməl anlayışını öz nitqində xalqın diqqətinə çatdırmışdır. Xalqa müraciətində ölkə başçısı, cənab İlham Əliyev göstərmişdir ki: "Tərtər çayı 1970-ci illərdə Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə inşa edilmiş Sərsəng su anbarına axıdılır. Sərsəng su anbarı o vaxt o məqsədlə tikilmişdi ki, Qarabağın Aran zonasında yerləşən 6-7 rayonda suvarma işləri təmin edilsin. O vaxt Sərsəng su anbarı inşa ediləndən sonra heç vaxt suvarılmayan 100 min hektar ərazi artıq suvarılmağa

başlamışdır. Ağdam, Goranboy, Yevlax, Bərdə, Tərtər və digər rayonlar oradan qaynaqlanırdı. Mənfur düşmən suyumuzu kəsdi. Yayda suyu kəsirdi, qışda buraxırdı və su basırdı bütün torpaqları. Bax, bizə qarşı ekoloji terror təşkil edilirdi. Ermənistan terror dövlətidir, bu terrorun bir çox əlamətləri var. Tarixi abidələrimizin dağıdılması, mülki əhaliyə qarşı törədilən soyqırımı, meşələrimizin qırılması, çaylarımızın məcrasının dəyişdirilməsi və digər əlamətlər var. Baxın, Kəlbəcərdən başlayan Tərtər çayının suyu Sərsəng su anbarında və ondan sonra Suqovuşan su anbarında yığılırdı, işğalçının maraqlarını təmin edirdi, bizə isə su gəlmirdi. Biz Suqovuşan qəsəbəsini alandan sonra indi artıq suyun verilməsi başlamışdır və 100 min hektara suyun verilməsi nəzərdə tutulur. Kəlbəcər rayonunda böyük meşə əraziləri vardır. Kəlbəcər rayonunda 24 min hektar meşə ərazisi var. Bu, böyük sərvətimizdir. Mənfur düşmən bu meşələri qırıb, talayıb, satıb. Görün, son günlər ərzində onlar hansı çirkin işlərlə məşğuldur, meşələri yandırırlar ki, ekoloji faciə, fəlakət yaratsınlar. Bu oğrular meşələri qırırlar, aparırlar ki, Ermənistanda satsınlar" [8].

Bu anlamda, bizim fikrimizcə, ekosid cinayətindən bəhs edərkən, onun "Ekosid (Ekoloji terror)" kimi adlandırılması, bu cinayətin AR Cinayət Məcəlləsinin "Sülh və insanlıq əleyhinə cinayətlər" adlanan, eyni adlı 16-cı fəsli daxilində yeni 113-1-ci maddə qismində aşağıdakı dispozisiya və sanksiyadan ibarət redaksiyada təsbit edilməsi məqsədəuyğun olardı:

**"Maddə 113-1. Ekosid (Ekoloji terror)**

Ekosid, yəni bitki və heyvanat aləminin kütləvi şəkildə məhv edilməsi, havanın və ya suyun zəhərlənməsi, ekoloji fəlakətə səbəb ola biləcək digər ekoloji terror hərəkətlərinin törədilməsi – yeddi ildən on ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır".

## İstifadə olunmuş ədəbiyyat siyahısı


1. Ekoloji terror: Ermənistan məhşər ayağına çəkiləcək // Səs, 18 sentyabr 2021-ci il.
2. Erməni vandalları Azərbaycanın təbiətinə ciddi ziyan vurub, ekoloji terror törədiblər // Azərbaycan, 7 mart 2021-ci il.
3. Ermənistan ölkəmizə qarşı növbəti ekoloji terror aktları törədib // Azərbaycan, 31 oktyabr 2020-ci il.
4. Ermənilərin törətdiyi ekoloji terror: 54 min hektar meşə sahəsi məhv edilib // Səs, 23 noyabr 2021-ci il.
5. Kəlbəcər meşələrində ekoloji terror // Həftə içi, 19-25 noyabr, 2020-ci il.
6. Oxçuçay: Bəşəriyyətə qarşı törədilən ekoloji terror // 525-ci qəzet, 5 oktyabr 2021-ci il.
7. https://president.az/az/articles/view/40937
8. https://president.az/az/articles/view/47778


## X Ü L A S Ə


Məqalə ekosid cinayətinin kriminallaşdırılması zərurətinə həsr edilmişdir. Bu yanaşmanın əsas arqumenti kimi ermənilərin işğal edilmiş ərazilərimizdə uzun illər ekoloji terror törətmələri göstərilmişdir. Müəllif tərəfindən vurğulanmışdır ki, ölkəmizin ekologiyasının qorunması Ümummilli liderimiz Heydər Əliyev tərəfindən bizim üçün riayət edilməli olan əsas prioritetlərdən biri kimi müəyyən edilmişdir. Məqalədə aparılmış araşdırmalar nəticəsində Cinayət Məcəlləsinə əlavə edilməsi üçün yeni "Ekosid (Ekoloji terror)" maddəsinin modeli işlənib hazırlanmışdır.

**Шалала Гасанова**
**Исследователь права отдела Правовых исследований**
**Института Права и прав человека, д.ф.п.п., доцент**

## О необходимости криминализации деяния экоцид в контексте экологических преступлений армян, совершенных на территории Азербайджанской Республики

### Р Е З Ю М Е

В статье говорится о необходимости криминализации такого деяния как экоцид. В качестве основного аргумента этого подхода указывается факт, что на протяжении многих лет армяне совершали экологический террор на оккупированных территориях нашей родины. Автор подчеркивает, что охрана экологии нашей страны является одним их приоритетов, завещанных нам Общенациональным лидером – Гейдаром Алиевым. На основе проведенных исследований в статье была разработана модель новой статьи «Экоцид (Экологический террор)» для совершенствования Уголовного Кодекса.

**Shalala Hasanova**
**Law Researcher of the Department of Legal Studies**
**of the Institute of Law and Human Rights,**
**Ph.D. in Law, Associate Professor**

## On the need to criminalize the act of ecocide in the context of the environmental crimes of armenians committed on the territory of the Republic of Azerbaijan

### S U M M A R Y

The article speaks of the need to criminalize such an act as ecocide. The main argument of this approach is the fact that for many years Armenians have committed environmental terror in the occupied territories of our homeland. The author emphasizes that the protection of the ecology of our country is one of their priorities bequeathed to us by the National Leader – Heydar Aliyev. Based on the research carried out, the article developed a model for a new article "Ecocide (Environmental Terror)" to improve the Criminal Code.

*Qərib ALLAHVERDİYEV*

Naxçıvan Dövlət Universitetinin Beynəlxalq münasibətlər və hüquq fakültəsinin Fəlsəfə və sosial iş kafedrasının müəllimi, f.ü.e.d.

# HÜQUQ İLƏ AZADLIĞIN QARŞILIQLI ƏLAQƏSİ

***Açar sözlər:*** *Azərbaycan, hüquq, hüquqi normalar, hüquq sistemi, qanun, azadlıq, dövlət, şəxsiyyətin hüquq və azadlıqları, demokratiya, əsas qanun, azadlığın reallaşması, cəmiyyət*

***Ключевые слова:*** *Азербайджан, право, правовые нормы, правовая система, закон, свобода, государство, права и свободы личности, демократия, основной закон, реализация свободы, общество*

***Keywords:*** *Azerbaijan, law, legal norms, legal system, bill, freedom, state, individual rights and freedoms, democracy, basic law, realization of freedom, society*

Hər bir cəmiyyətdə hüququn mahiyyəti onun azadlığa münasibətində ifadə olunur. Bu mənada azadlığı, həm də müəyyən hüquq kimi qəbul etmək olar.

Hüquqi qanunlar, fərdlərin fəaliyyətini tənzim etməyin, onların azadlıqlarını reallaşdırmağın mexanizmi kimi çıxış etməklə, insanlar arasında münasibətləri, habelə onlarla dövlətin münasibətlərini nizama salır, bu proseslərin, iştirakçılarının hüquq və vəzifələrini müəyyənləşdirir. Bunlardan kənarda isə real azadlığı təsəvvür etmək qeyrimümkündür. Qanunlar insan azadlığının hansı hüdudlar daxilində olmalı olduğunu ifadə etməklə, həm də onun başqa insanlar tərəfindən mümkün ola bilən pozulmasına qarşı çıxır. Sonuncu hal özünü göstərdikdə, dövlət məcburedici sanksiya yerinə yetirməklə, pozulmuş hüquqları və azadlıqları bərpa edir. Qeyd olunmalıdır ki, dövlət və hüquq sistemi ilə real azadlıqların daxili əlaqəli olduğu ideyası fəlsəfədə o qədər də yeni məsələ deyildir. O, hələ Qərbdə yeni dövr fəlsəfəsində irəli sürülmüşdür. Bu baxımdan C.Lokkun aşağıdakı fikri diqqəti cəlb edir: «İnsanların azadlığı bundan ibarətdir ki, onlar cəmiyyətin qanunverici hakimiyyəti tərəfindən verilmiş və hamı üçün ümumi olan daimi həyat qaydalarına malikdir» (12, s. 16-17).

Cəmiyyətin verdiyi azadlıqların hüquqi normalar daxilində müəyyən olunması, bir də ona görə mühüm əhəmiyyətə malikdir ki, o azadlıqdan sui istifadə edilməsi imkanlarını məhdudlaşdırır. Bu yol ilə həm də müəyyən fərd tərəfindən, digər insanların azadlığına xələl gətirilməsinin qarşısı alınır. Deyilənlərdən aydın olur ki, ayrıca bir fərdin və bütövlükdə cəmiyyətin həyat fəaliyyətinin bütün sferalarında azadlığın real təcəssümü hüququn, qanunun aliliyinə əsaslanır. Bu münasibətdə aşağıdakı fikir çox haqlı səslənir: «qanun olmayan yerdə, azadlıq da yoxdur» (12, s. 283).

Qərbdə hələ yeni dövrdən özünü göstərməyə başlayan dövlətin mülki–antropoloji baxımdan yenidən səmtləşməsi meyli, müasir şəraitdə daha aydın ifadə olunur. O, azadlığın dövlət və hüquqi təminatında xüsusilə əhəmiyyətli yer tutur. Bu mənada V.Barulin haqlı olaraq yazır: «dövlətin mülki – antropoloji yenidən səmtləşməsinin mühüm bir məqamını, onun insanın hüquq və azadlıqlarının müdafiəsinə istiqamətlənməsi təşkil edir» (4, s. 160).

Qeyd olunan meylin müasir dövrdə daha da güclənməsi təsadüfi deyildir. Bu onunla şərtlənir ki, indiki şəraitdə hər bir insanın həyat fəaliyyətinin bütün sferalarında özünün azad varlığını reallaşdıra bilməsi üçün dövlətə böyük ehtiyac vardır. Bəzən belə yanlış təsəvvürlərə rast gəlinir ki, guya hüquqi normalar, qanunlar azadlığın həyata keçirilməsinə maneələr yaradır. Bu baxışın heç bir elmi əsası yoxdur. Əslində hüquqi cəhətdən təsbit olunmuş normalar nəinki azadlığa qarşı durmur, əksinə onun reallaşması üçün zəruri olan şərtləri təmin edir. Bu mənada K.Marksın aşağıdakı fikri diqqəti cəlb edir: «Hüquqi cəhətdən qəbul edilmiş azadlıq, dövlətdə qanun şəklində mövcuddur. Ağırlıq qanunu hərəkətə qarşı cəza tədbiri olmadığı kimi, qanunlar da azadlığa qarşı cəza tədbirləri deyildir» (3, s.62).

Dövlət qanunu formasında çıxış edən hüquq normaları, insanların davranış və hərəkətlərinin vacib və mümkün olan, habelə qadağan olunan həddlərini ifadə etməklə, özbaşınalığa yol vermir. Həmin normalara əməl olunması, dövlətin inzibati orqanları tərəfindən məcburi qaydada tənzim və təmin edilir. Cəmiyyət inkişaf edib, təkmilləşdikcə, ona müvafiq surətdə hüquq sistemi də yeniləşir. Həmin istiqamətdə baş verən dəyişikliklərin mühüm bir tərəfini azadlığın genişlənməsi və reallaşması mexanizminin mükəmməlləşməsi təşkil edir. Bu baxımdan yanaşdıqda qeyd olunmalıdır ki, ölkəmizdə milli müstəqillik əldə olunduqdan sonra, dövlət və hüquq sistemi ilə insanların azadlıqlarının reallaşması arasındakı münasibətlərdə keyfiyyətcə yeni mərhələ yarandı. Onun səciyyəvi cəhətini azadlığın təminatçısı kimi dövlətin və hüququn rolunun daim artması təşkil edir. Hazırda bu, ölkəmizin daxili siyasətinin çox mühüm istiqaməti kimi çıxış edir: Xalqımızın Ümummilli lideri Heydər Əliyev ölkəmizin müasir mərhələdə yeritdiyi daxili siyasətin əsas istiqaəmtlərini müəyyənləşdirərək, demişdir: «… daxili siyasət Azərbaycanda demokratik hüquqi dövlət qurmaq, bazar iqtisadiyyatı yaratmaq və iqtisadi islahatlar aparmaqdan, Azərbaycanın hər bir vətəndaşına azad, sərbəst yaşamaq, hüquqlarının qorunmasını təmin etmək və öz rifah halını yaxşılaşdırmaq imkanları yaratmaqdan ibarətdir» (1, s.90-91).

Hazırda cəmiyyətimizdə şəxsiyyətin hüquq və azadlıqlarına dövlət tərəfindən iqtisadi, siyasi və hüquqi baxımdan real təminat verilir. Azərbaycanın müstəqil milli iqtisadiyyatının möhkəmləndirilməsi yolunda mühüm irəliləyişlər, beynəlxalq miqyaslı neft, qaz və enerji layihələrinin işlənilməsi və həyata keçirilməsində fəal iştirakı, əhalinin sosial rifah halının və mədəniyyətinin inkişafı, düşünülmüş xarici siyasət strategiyasının uğurları, bütövlükdə hüquq sisteminin qeyd olunan istiqamətdə inkişaf etdirilməsi üçün real şərait yaradır. Bu münasibətdə, müstəqilliyin ilk dövrlərində qanuni hökuməti devirməyə, ölkədə hakimiyyətsizlik mühiti və vətəndaş qarşıdurması yaratmağa yönəlmiş cəhdlərin dəf olunması, qanunsuz silahlı dəstələrin və cinayətkar qrupların ləğv edilməsi sahəsində dövlətimizin və hüquq-mühafizə orqanlarının fəaliyyəti, həm də ölkəmizin vətəndaşlarının həqiqi hüquq və azadlıqlarının müdafiəsi demək idi. 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi ilə müstəqil respublikamızın Konstitusiyasının qəbul olunması (2002-ci ilin avqustunda keçirilmiş referendium əsasında ona dövrün tələb-lərindən irəli gələn bir sıra dəyişikliklər edilmişdir) milli dövlətçiliyin qorunmasında prinsipcə yeni mərhələni yaratdı. Həmin dövrdən etibarən dövlətçiliyin möhkəmləndirilməsi, demokratiyanın genişləndirilməsi, vətəndaş cəmiyyəti əsaslarının yaradılması prosesləri daha uğurla və sürətlə həyata keçirilməyə başladı. Onlarla paralel surətdə vətəndaşların hüquq və azadlıqları daha da genişlənir və təkmilləşir. Ölkəmizdə açıq, demokratik cəmiyyətin əsaslarının yaradılması, hüquqi dövlətin fomalaşması prosesində totalitar rejimin insan hüquqları və azadlıqları qarşısında yaratdığı sədlər qətiy-yətlə aradan qaldırılır, qərarlaşmaqda olan yeni tipli hüquq sistemi cəmiyyət üzvlərinin azadlıqlarını daha dolğun reallaşdırmağa yönəlir. Hüquq sistemində baş verən əsaslı islahatlar bu məqsədin həyata keçirilməsini asanlaşdırır.

Qanunlarda və digər normativ aktlarda ümumi birgə yaşayış qaydalarının və yüksək humanist dəyərlərin təsbit olunması, azadlığın hərtərəfli həyata keçirilməsinə real hüquqi zəmin yaradır. Bu işdə hüquq normalarının səmərəli tətbiqi mexanizminin işlənilib hazırlanması və həyata keçirilməsi müstəsna əhəmiyyətə malikdir. Bunsuz hüquq normaları və bütövlükdə hüquq sistemi ilə ictimai gerçəklik arasında ahəngdarlıq təmin oluna bilməz. Hüququn öz başlıca tənzimləyici funksiyasını normal yerinə yetirməsi qeyri-mümkün olar.

Müstəqillik əldə olunan vaxtdan keçən qısa müddət ərzində qanunvericiliyin müxtəlif istiqamətlərinin təkmilləşməsi, hakimiyyət bölgüsü prinsipinin dəqiq tətbiqi, hüquq normaları sisteminin inkişaf etdirilərək qabaqcıl dünya standartlarına uyğunlaşdırılması sahəsində mühüm nailiyyətlər əldə edilmişdir. Bütün bunlar özünün müvafiq ifadəsini ölkəmizin vətəndaşlarının hüquqları və azadlıqlarının genişləndirilməsi prosesində də tapmışdır. İndi Azərbaycanda fəaliyyət göstərən hüquq sisteminin bütün tərəfləri (əsas qanunların və digər normativ qanuni aktlardan başlayaraq, yerli dövlət orqanlarının qərarları və sərəncamlarına qədər) insanların və vətəndaşların hüquq və azadlıqlarını təmin etməyə yönələn ardıcıl xətt yerinə yetirir. Bu, təsadüfi olmayıb, onunla izah edilir ki, demokratikləşmə və hüquqi dövlət quruculuğu yolunda uğurla irəliləmək üçün, yeni cəmiyyətin müvafiq hüquqi bazasının yaradılması zəruridir. Bu münasibətdə hüquq sistemində aparılan əsaslı islahatlar, prokurorluq və məhkəmə orqanlarının fəaliyyətinin təkmilləşdirilməsinə yönələn qərarlar və tədbirlər müstəsna dərəcədə böyük əhəmiyyətə malikdir. Onlar eynilə də vətəndaşların hüquq və azadlıqlarının genişləndirilməsinin və real həyata keçirilməsinin təmin olunması baxımından misilsiz rol oynayır. Azərbaycan Respublikasının Konstitusiyasında ölkəmizin vətəndaşlarının hüquq sistemi ilə tənzimlənən geniş miqyaslı azadlıqları ifadə olunmuşdur. Əsas Qanunun 50-yə qədər maddəsində insanın hüquq və azadlıqlarının müxtəlif tərəfləri öz əksini tapmışdır. Bu sənədin 24-cü maddəsində yazılmışdır: «Hər kəsin doğulduğu andan toxunulmaz, pozulmaz və ayrılmaz hüquqları və azadlıqları vardır» Konstitusiyamızın 28-ci maddəsində bu müddəa daha da dəqiqləşdirilərək deyilir: «Hər kəsin azadlıq hüququ vardır. Azadlıq hüququ yalnız qanunla nəzərdə tutulmuş qaydada məhdudlaşdırıla bilər» (2, s.10,11).

Əsas Qanunda təsbit olunmuş hüquq və azadlıqlar əhatə dairəsinə görə çox genişdir. Onları siyasi, sosial-iqtisadi və şəxsi azadlıqlara ayırmaq olar. Siyasi hüquqlar və azadlıqlar qrupunda (bunu bəzən vətəndaşların demokratik hüquq və azadlıqları adlandırırlar) aşağıdakılar əsas yeri tutur: cinsindən, milliyyətindən, dini mənsubiyyətindən və s. göstəricilərdən asılı olmayaraq, bütün vətəndaşların hüquq və azadlıqlarının bərabərliyi; fikir və söz azadlığı; sərbəst toplaşmaq azadlığı; icazəli mitinqlər və yığıncaqlar keçirilməsi, küçə yürüşləri və nümayişlər keçirmək azadlığı; vətəndaşların müxtəlif ictimai təşkilatlarda birləşmək hüququ; geniş demokratik seçki hüquqları və sair.

Sosial–iqtisadi sahədə başlıca hüquq və azadlıqlar bunlardır: mülkiyyət hüququ, xüsusi mülkiyyətin qanunla qorunması, əmək hüquqi, istirahət hüququ, sosial təminat hüququ, təhsil hüququ, azad sahibkarlıq hüququ, sağlam ətraf mühitdə yaşamaq hüququ və sair.

Şəxsi azadlıqların siyahısı da xeyli dərəcədə zəngindir: buraya şəxsiyyətin toxunulmazlığı hüququ, milli mənsubiyyət hüququ, mənzil hüququ, ana dilindən sərbəst istifadə, şərəf və ləyaqətin müdafiəsi, vicdan azadlığı, müttəhimin özünü müdafiə hüququnun təmin edilməsi və sair daxildir.

Səciyyəvi cəhət budur ki, qeyd olunan hüquqlar və azadlıqlar formal xarakter daşımır. Ölkəmizdə fəaliyyət göstərən dövlət və hüquq mühafizə orqanları, bütövlükdə hüquq sistemi onların real həyata keçirilməsini təmin edir. Bu istiqamətdə vətəndaşların qarşısında yaradılan hər hansı maneə və çətinliklər qətiyyətlə aradan qaldırılır. Bütün bunlar sübut edir

ki, hüquqi dövlət quruculuğu prosesində vətəndaşların azadlıqlarını reallaşdırmaq üçün çox geniş imkanlar açılır və real təminatlar verilir. Bununla əlaqədar qeyd edək ki, cəmiyyətdə müəyyən qüvvələrin iradəsi ilə, yaxud da ümumi xeyirxah idealı ifadə edən xoş niyyətlərin təzahürü kimi geniş miqyaslı hüquq və azadlıqlar rəsmi surətdə elan edilə bilər, onların əsas qanunda hüquqi cəhətdən təsbit olunması da mümkündür. Lakin bu hələ cəmiyyətdə real hüquq və azadlıqların təmin olunması demək deyildir. Bunun üçün cəmiyyətin, ictimai inkişafın müvafiq səviyyəsinə malik olmaq tələb olunur. Əgər mövcud ictimai quruluş öz üzvlərinə rəsmi elan olunmuş hüquq və azadlıqları həyata keçirmək üçün real şərait yaratmırsa, onda sonuncular həyatilikdən məhrum olur, havada asılı qalır. Buradan aydındır ki, qanunlar əsasında insanlara azadlıqların bəyan edilməsi ilə onların faktiki həyata keçirilməsi arasında uyğunluq təmin olunmalıdır. Məsələyə bu səpgidə yanaşdıqda göstərilməlidir ki, sosializm dövründə də vətəndaşların müəyyən hüquq və azadlıqlara malik olduğu qanunvericilikdə, rəsmi bəyanatlarda elan olunurdu, lakin onların həyata keçirilməsi mexanizmləri zəif idi və real təminat yox idi. Bundan fərqli olaraq, milli müstəqillik dövrünün hüquq sistemində məsələnin bu tərəfinə xüsusi diqqət yetirilir. Azadlıqların yerinə yetirilməsinə dövlət təminatı verilir. Azərbaycan Respublikasının Konstitusiyasının 26-cı maddəsində deyilir: «Dövlət hər kəsin hüqüqlarının və azadlıqlarının müdafiəsinə təminat verir» (2, s.10).

Burada belə bir məqamı da vurğulamaq yerinə düşər ki, dövlət, insanların bu sahədə elan olunmuş müddəaların reallaşmasına sadəcə təminat verməklə məhdudlaşmır, həm də onu öz fəaliyyətinin əsasına qoyur. Əsas Qanunun 12-ci mad-dəsində deyilir: «İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi dövlətin ali məqsədidir» (2, s.7).

Bu məsələdən danışarkən belə bir cəhət də qeyd olunmalıdır: ölkəmizdə vətəndaşların hüquq və azadlıqlarının özü bir yerdə dayanıb durmur, cəmiyyətimiz inkişaf etdikcə, onların məzmunu və əhatə dairəsi genişlənir, yeni-yeni formalar kəsb edir. Məsələn, siyasi sferada hər bir vətəndaşın siyasi proseslərdə və idarəçilikdə fəal iştirakının təmin edilməsi, həmin məqsədlə seçki sisteminin demokratik prinsiplərinin daha da təkmilləşdirilməsi başlıca istiqamət kimi çıxış edir. Yaxud da iqtisadi həyatda bazar münasibətləri inkişaf etdikcə, azad sahibkarlığa şərait və imkanlar yaradan hüquq və azadlıqlar durmadan genişlənir. Eynilə də ölkəmizdə vətəndaşların şəxsi hüquqları və azadlıqlarının durmadan artması meyli müşahidə edilir. Qeyd olunan prosesdə söz azadlığı,yüzlərlə mətbuat orqanının senzurasız nəşr edilməsi, özəl televiziya və radio kanallarının sayının çoxalması da mühüm əhəmiyyət kəsb edir.

Hüquq sisteminin azadlığının reallaşmasına hərtərəfli imkanlar açdığını həm də bundan görmək olar. Ölkəmizdə hüquq və azadlıqların qorunmasına yönəlmiş dövlət məcburiyyət sisteminin tətbiq olunması, bəzi hallar (vətənə xəyanət, casusluq, ağırlaşdırıcı şəraitdə qəsdən adam öldürmək və sair) istisna olunmaqla, özündə həm də tərbiyəvi təsiri ifadə edir. Belə ki, məcburiyyət və cəzalandırma əksər hallarda bu və ya digər fərdlərin özbaşınalığına qarşı çevrilir, ümumi cəmiyyətin maraqları naminə həyata keçirilir. Buna görə də tərbiyəvi və humanist məna alır. Dünyanın qabaqcıl dövlətlərinin qazandığı uğurlar, habelə ölkəmizin bu sahədə əldə etdiyi təcrübə sübut edir ki, demokratiya hərc-mərclik, xaos və özbaşınalıq deyildir. O, yalnız ictimai-siyasi sabitliyin, qanunların aliliyinin hökm sürdüyü şəraitdə mövcud ola və öz hüdudlarını genişləndirərək, inkişaf edə bilər. Ölkəmizdə əsas qanunvericilik orqanı olan Milli Məclisə keçirilmiş seçkilər, digər hakimiyyət və yerli idarəçilik orqanlarının formalaşmasında xalqın geniş təbəqələrinin yaxından və fəal iştirakı, onların demokratik ab-hava şəraitində öz azadlıqlarını reallaşdırdığına əyani sübutdur. Bununla əlaqədar olaraq belə bir məqam da diqqəti cəlb edir. Qanunların özü hələ real hüququ təmin

etmir. Sonuncu, insanlar arasında fəaliyyətin müxtəlif sahələrində azadlığın tənzimləyicisi funksiyası yerinə yetirdikdə öz adekvat mənasını kəsb edir. Qeyd olunan tərəflər arasında uyğunsuzluq özünü göstərdikdə, bundan vətəndaşların real azadlıqları daha çox zərər çəkir. Sözügedən məqam, qanunlarda bu və ya digər baxımdan boşluqlar olduqda, onların real təsiri mexanizmi işlənib hazırlanmadıqda, daha aydın üzə çıxır.

Dövlətin və bütövlükdə hüquq sisteminin vətəndaşların azadlıqları üçün təminat verməsi öz ifadəsini cəmiyyətdəki ictimai təşkilatların və birliklərin fəaliyyəti ilə bağlı məsələlərin həllində də tapır. Müxtəlif sahələri əhatə edən ictimai təşkilatlar və birliklər, həm də demokratik cəmiyyətdə insanların hüquq və azadlıqlarının reallaşmasının işlək mexanizmləri kimi çıxış edir. Hazırda ölkəmizdə rəsmi qeydiyyatdan keçmiş 50-dən çox siyasi partiya, yüzlərlə ictimai–siyasi təşkilatlar və birliklər (o cümlədən qeyri-hökumət təşkilatlarının geniş şəbəkəsi), həmkarlar ittifaqları, mədəniyyət, ticarət, azad peşə adamları birlikləri, dini konfessional qurumlar fəaliyyət göstərirlər. Bu, müasir Azərbaycan cəmiyyətinin ictimai–siyasi həyatının əsl mənada plüralizmini və rəngarəngliyini ifadə etməklə yanaşı, həm də vətəndaşların müxtəlif yönümlü hüquq və azadlıqlarının yerinə yetirilməsi deməkdir. Sözügedən təşkilat və birliklərin normal fəaliyyət göstərmələri üçün şəraitin yaxşılaşdırılması istiqamətində dövlətimizin yerinə yetirdiyi çoxsaylı tədbirlər, onun hüquq və azadlıqların əsl müdafiəçisi olduğuna aydın sübutdur. Qeyd olunan cəhət həm də buna görə böyük əhəmiyyət kəsb edir ki, bu gün Azərbaycanda uğurla fəaliyyət göstərən çoxsaylı ictimai təşkilatların, partiyaların, müxtəlif fondların, birliklərin və cəmiyyətlərin mövcudluğu, burada həqiqi vətəndaş cəmiyyətinin formalaşmasının özəyini təşkil edir. Onların iqtisadi, sosial, siyasi və mədəni həyatın mühüm məsələlərinin həllində dövlət orqanları ilə uğurlu əməkdaşlığı, xalqın geniş təbəqələrinin öz hüquq və azadlıqlarını reallaşdırmasının əsas istiqamətlərindəndir. Qeyd olunan məqam göstərir ki, vətəndaş cəmiyyətinin formalaşması hüquq sistemində azadlıqların reallaşmasına əlverişli şərait yaradır. Bu, onunla izah edilir ki, vətəndaş cəmiyyəti insanların hüquq və azadlıqlarının vəhdətinə əsaslanır. Təsadüfi deyildir ki, İ.Kant vətəndaş cəmiyyətinin aşağıdakı üç təməl prinsipinə malik olduğunu qeyd edirdi: cəmiyyətin hər bir üzvünün insan kimi azadlığı, onun təbəə kimi başqaları ilə bərabərliyi və vətəndaş kimi müstəqilliyi (10, s.79).

Hüquq ilə azadlığın qarşılıqlı təsirdə inkişaf etdiyini qeyd edərkən nəzərdən qaçırılmamalıdır ki, son məqsəd mövqeyindən yanaşdıqda, ikinci tərəf aparıcı yer tutur. Belə ki, azadlıq ideyasının cəmiyyətdə və ictimai şüurda dərk olunması səviyyəsi və vətəndaşların bu şəraitdə yaşamağa necə hazır olması, hüquq normalarının və bütövlükdə hüquq sisteminin təkmilləşməsi istiqamətinin əsas göstəricidir. Buna görə də hər bir sivil cəmiyyətdə insanlarının azadlığının inkişafı, əhalinin ictimai şüurunun, xüsusilə hüquqi düşüncənin və hüquq mədəniyyətinin təkmilləşməsi ilə paralel aparılmalıdır. Əks halda nə azadlıqlar özünün adekvat mənasını kəsb edər, nə də hüquq normaları azadlığın tənzimləyicisi rolunu lazımi səviyyədə yerinə yetirə bilər. Bu baxımdan yanaşdıqda qeyd olunmalıdır ki, milli müstəqillik əldə edildikdən sonra ölkəmizdə baş verən əsaslı və hərtərəfli dəyişikliklər, bir tərəfdən vətəndaşların şüurunun və hüquqi düşüncənin inkişafına, deməli insanların birgəyaşayış qaydalarına əməl olunmasının zəruriliyini anlamasına, digər tərəfdən, milli-mənəvi dəyərlərə arxalanan azadlığın genişlənməsinə güclü təsir göstərir.

Ümumilikdə götürdükdə hüquq normaları, qanunlar dövlət tərəfindən məcburetmə vasitələri ilə mühafizə olunan ictimai münasibətlərin bütün tərəflərində hüquqi tənzimlənməni həyata keçirən, zorakılığa əsaslanan sosial normalar sistemidir (15, s. 240).

Bu tərifdən də görünür ki, hüquq normaları, dövlətin məcburedici iradəsini həyata keçirir. Onlarda insanların azadlıqları da müəyyən hədlər daxilində ifadə olunur. Bununla əlaqədar

qeyd edək ki, bəzən məqamın rolunu şişirdərək bir sıra nəzəriyyələr (marksizm, anarxizm və s.) dövləti, insanların azadlığını məhdudlaşdıran siyasi institut kimi səciyyələndirir. Məsələn, marksizmə görə dövlətin mahiyyəti bir sinfin digər sinif üzərində ağalığını həyata keçirməkdən ibarətdir. Anarxizmin tərəfdarları isə daha sərt mövqe tutmaqla göstərirlər ki, dövlətin mövcudluğu cəmiyyətdəki bədbəxtliklərin əsas səbəbidir, o həm də azadlığın düşmənidir. Bu qəbildən olan baxışlar həqiqətə uyğun deyildir, çünki dövlət, azadlıqları müəyyən hüquqi çərçivəyə salmaqla, onları nəinki boğmur, əksinə onların başqaları tərəfindən pozulmasına yol vermir, beləliklə də mövcud azadlıqların qorunmasının təminatçısı kimi çıxış edir.

Hüquq normalarının guya azadlığa qarşı durduğu barədə yanlış təsəvvürlərin yaranmasına belə bir fakt müəyyən qida vermişdi. Son vaxtlara qədər dövlətin qanunlarında, buna xüsusi ehtiyacın olmadığı bəzi əməllər üstündə həbs cəzası nəzərdə tutulurdu (məsələn, borca görə insanların azadlıqdan məhrum edilməsi). Bir sıra mütəfəkkirlər o cümlədən dünya şöhrətli N.Viner bunun ümumi azadlıq qayəsi ilə uyğun gəlmədiyini göstərirdilər (6, s. 107). Bu qəbildən olan etiraz və iradları nəzərə alaraq 1963-cü ildən etibarən Avropa İnsan Hüquqları Konvensiyasına edilən əlavədə borca görə həbsə alma qadağan olundu. Yeri gəlmişkən deyək ki, bazar münasibətlərinin formalaşmaqda olduğu ölkəmiz üçün bu xüsusi önəm kəsb edir. Çünki kəskin biznes rəqabətinin nəticələri, heç də həmişə irəlicədən bəlli olmayan sövdələşmələr şəraitində insanların borclu vəziyyətə düşməsi ehtimalı xeyli çoxalır. Buna görə də borcluluğa görə yuxarıda qeyd olunan sərt cəzanın verilməsi, insanların xeyli qisminin azadlıqdan əsassız surətdə məhrum olunması ilə nəticələnə bilir.

İlk nəzərdə belə görünür ki, qanunlar insanların fəaliyyətinin hüquqlarını və yol verilən hədlərini müəyyən etdiyindən, onlar azadlığa qarşı çevrilir. Əslində isə hüquqi normalar, azadlıqların hüdudlarını göstərməklə, onun həyata keçirilməsinin real mexanizmini əks etdirir. Hüquq ilə azadlığın fərqini və vəhdətini V.Malaxov aşağıdakı kimi ifadə edir:

«Bir tərəfdən azadlıq, hüququn həyata keçirilməsinin xarici şərtidir. Digər tərəfdən, o, insanın daxili vəziyyətinin gerçəkliklə uyğunluğunu göstərir. Əgər insan nəyəsə məcbur edilmirsə, o zahirən azaddır. Hüquqi mənada isə insan sosial strukturda müəyyən yer tutduqda azad hesab olunur. İnsanın daxili hüquqi azadlığı, hüquqi varlığının azadlığı, onun müəyyən sosial-mənəvi dəyərlərə can atması, habelə onları yerinə yetirməkdə israrlı olması və geridönməzliyidir» (13, s. 173).

Beləliklə hüquqi normalar və bütövlükdə hüquq sistemi, mahiyyət etibarilə azadlığı ehtiva edir, onun reallaşmasının imkanlarını göstərir və həyata keçirilməsini təmin edir. Hüquq və azadlığın ayrılmazlığı fikri Qərb klassik fəlsəfi irsində dəfələrlə qeyd olunmuşdur. Məsələn T.Hobbs göstərirdi ki, azadlıq qanunla yasaq olunmayan, hər şeyi istədiyin kimi etmək və qanunun məcbur etmədiyini isə etməmək imkanıdır (8, s. 49). Analoji mövqedə duran F.Sellinginin rəyincə, ümumi hüquq, azadlığın şərtidir, çünki onsuz azadlığın təminatı yoxdur (14, s. 456).

Hegel də hakimiyyət bölgüsünün həyata keçirilməsinin azadlıq üçün müstəsna rolunu qeyd edirdi. Onun fikrincə bu, içtimai azadlığa təminat deməkdir (7, s. 284).

Qanuni azadlığın reallaşmasında hüquqi normaların böyük rolunu qeyd edərkən, onların ümumi xarakterinin zəruriliyi mütləq vurğulanmalıdır. Bu o deməkdir ki, qəbul olunmuş qanunlar insanların hamısı üçün eyni dərəcədə təsir qüvvəsinə malik olmalıdır, burada ayrıseçkilik olmamalıdır. Hüquqi ədəbiyyatda haqlı olaraq göstərilir ki, demokratik cəmiyyətlərdə qanunlar üzrə fəaliyyət göstərmək, hamı üçün – həm rəhbərlər, həm də təbəələr üçün eyni dərəcədə zəruri olmalıdır (11, s. 448).

Hüquq təkcə xarici azadlıq ilə deyil, həm də daxili azadlıq ilə ayrılmaz vəhdətdədir. Birinci tərəf onda ifadə olunur ki, hər bir hüquq sistemi, mövcud cəmiyyət üzvlərinin yolverilən, mümkün olan və qadağan edilən davranışlarını tənzim etməklə, onların azadlıqlarını kənar maneələrdən qorumaq məqsədi güdür. Hüququn daxili azadlıq ilə birliyi bundadır ki, insanların ictimai məsuliyyət, etibarlılıq, qanuna könüllü əməl etmə kimi keyfiyyətlərini inkişaf etdirir, subyektin ümumi ictimai məqsədlərlə möhkəm əlaqələr yaratmaq imkanlarını genişləndirir. Müasir hüquq sisteminin daxili azadlıqla sıx əlaqəli olan bu qayəsi Ümumdünya İnsan Hüquqları Bəyannaməsində belə ifadə olunur:

«Bütün insanlar azad, hüquq və ləyaqətlərinə görə bərabər doğulur. Onlar idraka və vicdana malikdirlər və bir-birilə qardaşlıq ruhunda davranmalıdır» (16, s. 2).

Cəmiyyətin hər bir üzvündə ümumi ictimai məslək ilə yanaşı, həm də onun fərdi məqsədi, idealı və həyat amalı formalaşır. Bu məntiqdən çıxış etdikdə, hər bir ictimai quruluşun öz vətəndaşlarına, fərdi keyfiyyətlərə əsaslanan yaşamaq azadlığı verməsi tamamilə təbii görünür. Mövcud hüquq normalrı, həmin azadlıqların həyata keçirilməsində misilsiz rol oynayır. Onlar təkcə azadlığın çərçivəsini müəyyən etmir, həm də ondan sui istifadə hallarının qarşısını alır. Bu funksiyaların həyata keçirilməsi, real azadlığa həqiqi təminat verdiyi üçün çox önəmlidir.

Müasir sivilizasiyanın hər bir insana yüksək hüquq və azadlıqlar verdiyi Ümumdünya İnsan Hüquqları Bəyannaməsində aşağıdakı kimi təsbit olunmuşdur:

«Hər bir insanın cəmiyyətin üzvü kimi sosial təminat, milli səylər və beynəlxalq əməkdaşlıq əsasında, hər bir ölkənin strukturuna və ehtiyyatlarına müvafiq olaraq, ləyaqətinin qorunması, şəxsiyyətinin azad inkişafı üçün zəruri olan iqtisadi, sosial və mədəni hüquqlarını həyata keçirməyə haqqı vardır» (16, s. 2).

Hüquq normalarının cəmiyyət üzvlərinin azadlığının həyata keçirilməsində rolunu araşdırarkən, aşağıdakı cəhətə diqqət yetirilməlidir: söhbət ondan gedir ki, insanlara sözdə, hüquqi sənədlərdə azadlıq bəyan etməklə iş bitmir, əsas məsələ onu real gerçəklikdə həyata keçirməkdədir. Bu məqamın xüsusi əhəmiyyətini vurğulayaraq «azad hüqüq» təliminin tərəfdarları (Y.Erlix və başqaları) göstərirdilər ki, yazılı hüquq mücərrəd xarakter daşıyır, həyat isə konkret və dəyişiləndir. Əsas məsələ qanunlarda yazılanları praktikada reallaşdırmaqdır. Qanun hələ fəaliyyət göstərən hüquq deyil, onda müəyyən boşluqlar olur. Buna görə də əsl hüquq həyatda, ictimai münasibətlərin məzmununda cəmiyyət üzvlərinin gündəlik fəaliyyətində ədalət hissində, emosiyalarında və psixologiyasında özünü göstərir (9, s. 317-318).

Bu fikirdən bir daha aydın olur ki, əgər hüquqda ifadə olunan azadlıqlar, real maddi məzmunla tamamlanmırsa, onda formal olaraq qalır və ciddi əhəmiyyət kəsb etmir.

Azadlığın müasir konsepsiyasının yaradılmasında böyük xidmətləri olan İ.Berlin onun mahiyyətinin iki anlamda (neqativ və pozitiv) ifadə olunduğunu göstərir. Birinci o deməkdir ki, fərdlər öz fəaliyyətində onlara digər şəxslərin müdaxiləsi olmadığı dərəcədə azaddırlar. İkinci, yəni pozitiv məna bunu əks etdirir ki, fərdin həyatı və qəbul etdiyi qərarlar digər insanlardan deyil, onun özündən asılı olduğu dərəcədə azaddır. Bunlar elə şəxslərdir ki, düşüncə və iradəyə malikdirlər, fəaliyyət və hərəkətlərində məsuliyyət daşıyır (5, s. 534-535).

Hər bir cəmiyyətdəki hüquq normaları və bütövlükdə hüquq sistemi, onun inkişaf səviyyəsinə uyğun olaraq qərarlaşır və ümumi ictimai məqsədləri həyata keçirməyə xidmət edir. Onun başlıca funksiyası cəmiyyətin həyat fəaliyyətinin bütün sahələrində nizam yaratmaq, ahəngdarlığı təmin etməkdir. Əgər həmin vəzifə yerinə yetirilə bilmirsə, bu o deməkdir ki, hüquq sistemi və ya müəyyən normalar ilə ictimai həyat arasında uyğunsuzluq vardır. Cəmiyyətin normal inkişafı tələbatı, vətəndaşların hüquq və azadlıqlarını

reallaşdırması mənafeyi bu uyğunsuzluğun mümkün qədər tez aradan qaldırılmasını zəruri edir. Bu prosesdə digər ölkələrin təcrübəsinə və bütövlükdə dünya praktikasına istinad etmək çox faydalıdır. Lakin bu halda, yəni digər sosial mühitdən, başqa dövlətlərin hüquqi təcrübəsindən istifadə etdikdə, onun ayrı-ayrı tərəflərinin konkret ictimai gerçəklikdə effektiv tətbiq oluna bilməsi imkanları mütləq nəzərə alınmalıdır. Bu onunla izah edilir ki, bir cəmiyyət daxilində səmərəli funksiyalar yerinə yetirməyə qadir olan hüquq normaları, başqa bir ölkədə tətbiq edildikdə ola bilər ki, hüquq və azadlıqlar üçün lazımi şərait yaratmasın. Ölkənin konkret şəraitindən, tarixi və milli xüsusiyyətlərindən çox şey asılıdır. Bununla əlaqədar belə bir cəhəti qeyd etmək fikrimizcə, yerinə düşərdi. Müasir dövrdə geniş yayılmış olan liberal düşüncə tərzinə görə, cəmiyyətin başlıca vəzifəsi öz üzvlərinin maddi rifahının təmin olunmasına şərait yaratmaqdır. Əlbəttə, hər bir ölkədə vətəndaşların maddi vəziyyətinin yaxşılaşdırılmasına qayğı göstərilməsi təqdirəlayiqdir. Lakin bu, əsas məqsədə çevrildikdə, yəni maddi dəyərlər bütünlükdə ictimai fəaliyyətdə yeganə meyar rolunu oynadıqda, «əks effekt» özünü göstərir. Başqa sözlə deyilsə, insanlar hər şeyi maddi mənfəət prinsipi üzrə ölçən iqtisadi sistemin avtomatik icraçısı rolunu oynayır. Bu halda onlar zahirən sezilməyən və gözə görünməyən kənar ideyanın daşıyıcıları kimi çıxış edirlər. Təbiidir ki, belə şəraitdə insanların həqiqi azadlığı təmin oluna bilməz. Bununla əlaqədar qeyd edək ki, Qərb ölkələrinin əksəriyyətində yuxarıda qeyd olunan qüsurlu prinsip ictimai həyatda həlledici rol oynayan amilə çevrilmişdir. Həmin dövlətlərdə sosial dəyərlər anlayışı yalnız maddi mülahizələrlə müəyyən edilir. Aydındır ki, belə vəziyyətdə insanın mənəviyyatının və əsl azadlığının inkişafı qeyri-mümkündür.

Deyilənlərdən aydın olur ki, hüquqi dövlət quruculuğu yoluna qədəm qoymuş ölkəmizdə digər ölkələrin praktikasından və beynəlxalq təcrübədən istifadə edərkən, onların Azərbaycanın yerli şəraitinə, xalqımızın tarixi yaddaşına, milli-mənəvi dəyərlərinə və mentalitetinə uyğun gəlib gəlməməsi, mütləq nəzərə alınmalıdır.

Qeyd olunmalıdır ki, dövlət və bütövlükdə hüquq sistemi tərəfindən vətəndaşların hüquq və azadlıqlarının reallaşdırılması, rəvan və asan getmir, bu xeyli dərəcədə çətin və ziddiyyətli prosesdir. Məsələ burasındadır ki, dövlətin və hüququn qeyd olunan istiqamətdə fəaliyyəti yalnız insanın hüquq və azadlıqlarını müdafiə etməklə bitmir, müəyyən hallarda onların məhdudlaşdırılmasını və hətta aradan qaldırılmasını da ehtiva edir. Bununla əlaqədar totalitar dövlətin fəaliyyətində geniş yer tutan aşağıdakı vəziyyətə diqqət yetirək. Təbliğat maşını humanizmdən, hüquq və azadlıqların genişləndiyindən dəm vururdu. Əslində isə bu qərəzli məqsəd güdən saxtakarlıqdan başqa bir şey deyildi. Bunu ölkəmizdə on illər boyu davam etmiş sosializmin təcrübəsi aydın sübut edir. Bu qəbildən olan saxta və yalançı humanizm, uydurma psixoloji vasitələrdən istifadə etməklə kütlələrin şüuruna təsir göstərmək məqsədi güdür. Qeyd olunan vəziyyət milli müstəqil dövlətimizin və buradakı hüquq sisteminin ruhuna və məramına tamamilə yaddır, çünki onun həqiqi məqsədi cəmiyyətin hər bir üzvünün hüquq və azadlıqlarının təminatçısı olmaqdır. Bununla yanaşı göstərilməlidir ki, ölkəmizdə də müəyyən səbəblər üzündən vətəndaşların bəzi hüquq və azadlıqlarının məhdudlaşdırılması baş verə bilir. Məsələn, xalqımızın zorla cəlb olunduğu Dağlıq Qarabağ münaqişəsi, Ermənistanın ərazimizin beşdə birini işğal etməsi, yüz minlərlə insanın qaçqın və məcburi köçkün vəziyyətinə düşməsi, bu proseslərin törətdiyi digər ağır nəticələr, sözün müəyyən mənasında ölkəmizin əhalisinin xeyli hissəsinin öz qanuni hüquq və azadlıqlarını reallaşdıra bilməsində ciddi çətinliklər yaradır. Lakin Azərbaycanın siyasi rəhbərliyinin yetirdiyi elmi əsaslandırılmış və konstruktiv xarici siyasət, ölkəmizin beynəlxalq nüfuzunun durmadan artması, sözügedən məsələnin uğurlu həll olunacağına yəqinlik ifadə edir və bu qəbildən olan çətinliklərin müvəqqəti olduğunu göstərir. Qeyd

olunan çətinliklərin digər bir qrupu ölkəmizin yaşadığı müasir keçid dövrünün xarakterindən irəli gəlir.

Hüquq sisteminin azadlığın reallaşmasında rolunu təhlil edərkən, belə bir məqamı da qeyd etmək fikrimizcə, çox vacibdir. Ölkə qanunvericiliyində hüquq və azadlıqların elan olunması, onun həyata keçirilməsinə rəsmi təminat verilməsi hələ onların tam reallaşdırılması demək olmayıb, bunun üçün zəruri şəraiti və real imkanları yaradır. Onların gerçəkliyə çevrilməsi və vətəndaşların öz hüquq və azadlıqlarının inkişafı naminə mövcud şəraitdən həqiqi bəhrələnə bilməsi üçün, həm də onların hüquqi şüurunun və mədəniyyətinin fasiləsiz olaraq yüksəlməsi son dərəcə vacibdir. Buna görə hazırda cəmiyyət üzvlərinə, onlar üçün hüquq sisteminin müəyyən etdiyi hüquq və azadlıqların real məzmunu və istifadə olunması yolları barədə hərtərəfli informasiya verilməsi, hüquqi biliklərin geniş təbliğ olunması müstəsna əhəmiyyət kəsb edir. Əks halda, ölkəmizin vətəndaşlarının öz hüquq və azadlıqlarını dolğun və hərtərəfli reallaşdıra bilməsi xeyli dərəcədə çətinləşir. Qeyd olunan vəziyyət, həm də ümumilikdə hüquq sisteminin azadlıqları real təmin etmə gücünü zəiflədir, vətəndaşlar bu qəbildən olan nailiyyətlərdən yetərincə istifadə edə bilmirlər.

Müstəqil milli dövlətçiliyin möhkəmləndirilməsinin çox mühüm bir istiqaməti cəmiyyətin hər bir üzvünü əsassız sosial məhdudiyyətlərdən azad etmək, onun vətəndaş, fərd kimi hərtərəfli inkişafını təmin etməkdir. Hüquqi dövlətin yaranması gedişində qazanılan uğurlar, bu funksiyanın reallaşmasını daha da genişləndirir və də-rinləşdirir. Bu onu sübut edir ki, dövlət, insanın hüquq və azadlıqlarının təcəssümü kimi öz mahiyyətini daha dolğun aşkara çıxarmaqdadır.

**İstifadə olunmuş ədəbiyyat siyahısı**


1. Heydər Əliyev. Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında. Bakı: Universiteti nəşriyyatı, 2001, 132 s.

2. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: Qanun, 2005, 62 s.

3. Marks K., Engels F. Seçilmiş əsərləri: 3 clddə, I c., Bakı: Azərnəşr, 1967, 522s.

4. Барулин В.С. Социальная философия. М.: Фаир-Пресс, 2002, 558 с.

5. Берлин И. История свободы. Россия. М.: Новое литературное обозрение. 2001, 541 с.

6. Винер Н. Человек управляющий. СПб.: Питер, 2001, 288 с.

7. Гегель. Философия права. М.: Наука, 1990, 524 с.

8. Гоббс Т. Сочинения: В 2-х т. Т.1, М.: Мысль, 1989, 622 с.

9. История политико-правовых учений. / Под ред. А.Н.Хорошилова. М.: ЮНИТИ-ДАНА, 2001, 344 с.

10. Кант И. Сочинения: В 6-ти т. Т.4, М.: Наука, 1965, 518 с.

11. Кистяковский Б.А. Философия и социология права. СПб.: РХГИ, 2003, 800 с.

12. Локк Дж. Избранные философские произведения:В 2-х т. Т.2, М.:Наука,1960,618 с.

13. Малахов В.П. Философия права. М.: Академ, Проект, 2002, 416 с.

14. Шеллинг Ф.В. Сочинения: В 2-х т. Т.1, М.: Мысль, 1987, 637 с.

15. Энциклопедический юридический словарь. М.: инфра, 1999, 368 с.

16. Universal Declaration of Human Rights 10 december 1948. New York: Center for Human Rights, 1993, 598 p

## X Ü L A S Ə

Məqalədə hüquq sisteminin azadlığın reallaşmasında rolu təhlil edilir, hüququn başlıca məqsədi, önündə vətəndaşların azadlıqlarını əks etdirən normalar məcmusu kimi yanaşılması aydınlaşdırılır, Azərbaycanın misalında hüquq sistemi ilə azadlığın reallaşması arasında vəhdət izah olunur.Hüquqi normaları azadlıq ilə yaxınlaşdıran cəhətlər aşkarlanır.Qeyd edilir ki, hüquqi qanunlar, fərdlərin fəaliyyətini tənzim etməyin, onların azadlıqlarını reallaşdırmağın mexanizmi kimi çıxış etməklə, insanlar arasında münasibətləri, habelə onlarla dövlətin münasibətlərini nizama salır, bu proseslərin iştirakçılarının hüquq və vəzifələrini müəyyənləşdirir.

Məqalədə dövlət və hüquq sistemi ilə real azadlığın daxili əlaqəsi olduğu ideyası, araşdırılır, cəmiyyətin verdiyi və hüquqda ifadə olunan azadlıqların real maddi məzmunla tamamlanmasının ciddi əhəmiyyət kəsb etməsi, hüququn təkcə xarici azadlıq ilə deyil, həm də daxili azadlıq ilə ayrılmaz vəhdətdə olması əsaslandırılır.

Ölkəmizdə mili müstəqillik əldə olduqdan sonra dövlət və hüquq sistemi ilə insanların azadlıqlarının reallaşması arasında keyfiyyətcə yeni mərhələ yaranması, cəmiyyətimizdə şəxsiyyətin hüquq və azadlıqlarına dövlət tərəfindən iqtisadi, siyasi və hüquqi baxımdan real təminat verilməsi şərh edilir.

Məqalədə belə nəticəyə gəlinir ki, hüquqi dövlət quruculuğu yolunda uğurla irəliliyən ölkəmizdə digər ölkələrin praktikasından və beynəlxalq təcrübədən istifadə edərkən, onların Azərbaycanın yerli şəraitinə, xalqımızın tarixi yaddaşına, milli-mənəvi dəyərlərinə və mentalitetinə uyğun gəlib-gəlməməsi mütləq nəzərə alınmalıdır.



**Гариб Аллахвердиев**
**преподаватель кафедры философии и социальной работы**
**факультета международных отношений и права**
**Нахчыванского государственного университета,**
**доктор философии**


## ВЗАИМОДЕЙСТВИЕ ПРАВА И СВОБОДЫ


## Р Е З Ю М Е

В статье анализируется роль правовой системы в реализации свободы, уточняется главная цель права, подход к нему как к совокупности норм, отражающих свободы граждан, объясняется единство между правовой системой и реализацией свободы на примере Азербайджана. Выявляются аспекты, сближающие правовые нормы со свободой. Отмечается, что правовые законы, выступая в качестве механизма регулирования деятельности индивидов, реализации их свобод, упорядочивают отношения между людьми, а также отношения государства с ними, определяют права и обязанности участников таких процессов.

В статье исследуется идея о том, что реальная свобода имеет внутреннюю связь с государственно-правовой системой, обосновывается серьезное значение дополнения реальным материальным содержанием свобод, предоставляемых обществом и выраженных в праве, права в неразрывном единстве не только с внешней свободой, но и с внутренней свободой.

После обретения национальной независимости в нашей стране наступает качественно новый этап между государственно-правовой системой и реализацией свобод людей, в нашем обществе отмечается предоставление государством реальных гарантий прав и свобод личности с экономической, политической и правовой точек зрения. В рамках статьи делается вывод о том, что при применении практики других стран и международного опыта в нашей стране, успешно продвигающейся по пути построения правового государства, необходимо обязательно учитывать, соответствуют ли они местным условиям Азербайджана, исторической памяти нашего народа, национально-духовным ценностям и менталитету.

**Garib Allahverdiyev**
**teacher of the Department of Philosophy and Social Work of**
**the Faculty of International Relations and Law of**
**the Nakhchivan State University, doctor of philosophy**

## INTERACTION OF LAW AND FREEDOM

## S U M M A R Y

In the article there is analyzes the role of the legal system in the realization of freedom, clarifies the main goal of law, the approach to it as a set of norms reflecting the freedoms of citizens, explains the unity between the legal system and the realization of freedom on the example of Azerbaijan. Aspects that bring legal norms closer to freedom are revealed. It is noted that legal laws, acting as a mechanism for regulating the activities of individuals, the implementation of their freedoms, streamline relations between people, as well as the relations of the state with them, determine the rights and obligations of participants in such processes.

In the article there is explores the idea that real freedom has an internal connection with the state-legal system, justifies the serious importance of supplementing the real material content of freedoms granted by society and expressed in law, rights in inextricable unity not only with external freedom, but also with internal freedom.

After gaining national independence, a qualitatively new stage begins in our country between the state-legal system and the implementation of people's freedoms, in our society it is noted that the state provides real guarantees of the rights and freedoms of the individual from an economic, political and legal point of view.

In the article there is concludes that when applying the practice of other countries and international experience in our country, which is successfully moving along the path of building a rule of law, it is necessary to take into account whether they correspond to the local conditions of Azerbaijan, the historical memory of our people, national and spiritual values and mentality.

***Sahil QASIMOV***

Milli Aviasiya Akademiyasının “Hüquq” kafedrasının dosenti, h.ü.f.d.

# NARKOTİKLƏRİN QANUNSUZ DÖVRİYYƏSİNƏ AİD CİNAYƏT İŞLƏRİNDƏ MADDİ SÜBUTLARLA BAĞLI BƏZİ PROBLEMLƏR

***Açar sözlər:*** *maddi sübutlar, hüquq və azadlıqlar, sübutların toplanması, məhv edilməsi.*

***Ключевые слова:*** *вещественные доказательства, права и свободы, сбор доказательств, их уничтожение*

***Keywords:*** *physical evidence, rights and freedoms, collection of evidence, their destruction.*

***“Ədalətsizliklə ədaləti bərpa etmək olmaz”***
**Heydər Əliyev**

Ümummilli Lider Heydər Əliyevin dövlət idarəetməsi ilə bağlı daxili siyasətində önəm verdiyi əsas cəhətlər aşağıdakı kimi təsnifləşdirilə bilər. 1.Milli təhlükəsizliyin təmin edilməsi. 2.Azərbaycan Silahlı Qüvvələrinin yaradılması və inkişafı. 3.Hüquqi dövlət qurulucuğu. 4.İqtisadi və sosial inkişaf. (6) Qeyd edilən cəhətlərdən biri kimi hüquqi dövlət quruculuğu üçün ilk növbədə müstəqil dövlət hakimiyyətinin mövcudluğu, onun sabitliyi və demokratik dəyərlərə üstünlük verilməsi vacib hesab edilir.

Ulu Öndər dövlətin müstəqilliyi, onun qorunub saxlanılması ilə bağlı demişdir: “Müstəqilliyin əldə olunması nə qədər çətindirsə, onun saxlanılması, əbədi olması ondan da çətindir”.[3] Odur ki, müstəqil dövlətçiliyimizi möhkəmləndirmək və onu qoruyub saxlamaq üçün H.Əliyev ilk növbədə dövlət-xalq münasibətlərini yeni dövrün tələblərinə uyğun qurmaq üçün insan hüquq və azadlıqlarının təmin edilməsi ideyasını irəli sürərək demişdir: “Xalq dövlət üçün, dövlət xalq üçün olmalıdır”. [3]

Bu müdrik ifadə insan hüquq və azadlıqlarının qorunmasının dövlətin prioritet fəaliyyət istiqamətlərindən biri olduğunu göstərir. Konstitusiya hüququnun subyekti kimi dövlət geniş səlahiyyətlərə malik olduğu kimi, həm də insan hüquq və azadlıqları ilə bağlı əsas öhdəlik daşıyıcısı sayılır. Təcrübədə də dövlətin geniş səlahiyyətlərə malik olması bir daha təsdiqini tapmaqdadır. Bununla belə dövlətin hakimiyyət orqanları və onun vəzifəli şəxsləri nəzərə almalıdırlar ki, Konstitusiya ilə onlara verilmiş səlahiyyətlər birmənalı şəkildə qanunla nəzərdə tutulmuş dairədə həyata keçirilməlidir.

Azərbaycan Respublikası Konstitusiyasının 71-ci maddəsinin X bəndində deyilir: “Dövlət orqanları yalnız bu Konstitusiya əsasında, qanunla müəyyən edilmiş qaydada və hüdudlarda fəaliyyət göstərə bilər”. (1) İnsan hüquq və azadlıqlarının təmin edilməsinə görə öhdəlik daşıyan dövlət orqanlarının və ya onların vəzifəli şəxslərinin qanunsuz hərəkətləri nəticəsində vətəndaşların hüquq və azadlıqları zərər çəkirsə əksinə belə hal cəmiyyət üçün ciddi problem kimi qiymətləndirilməlidir. Çünki qeyd edilən hüquq pozuntusu bir tərəfdən vətəndaşa maddi, mənəvi, fiziki zərər yetirilməsinə səbəb olur, digər tərəfdən onlarda dövlətə, onun hakimiyyət orqanlarına inamsızlıq yaradır. Elmi araşdırmalar və təcrübə göstərir ki, insan hüquq və azadlıqlarının pozulması ehtimalı cinayət mühakimə icraatı

prosesində daha yüksəkdir. Çünki cinayət hüquq münasibətinin tərəflərindən biri qismində dövlət və onun vəzifəli şəxsləri, digəri qismində isə konstitusiya ilə elan edilmiş hüquq və azadlıqların daşıyıcısı olan, lakin dövlət subyektinə nisbətdə məhdud səlahiyyətli vətəndaşlar çıxış edirlər. Bəzi hüquq mühafizə orqan əməkdaşları isə hesab edirlərki onlara verilmiş geniş səlahiyyətlər üzrə əsas vəzifələri yalnız qarşı tərəfi ittiham etmək, cəzalandırmağı təşviq edir. Lakin nəzərə almaq lazımdır ki, Azərbaycan Respublikası cinayət prosessual məcəlləsinin 8-ci maddəsinin 8.0.1-ci bəndində cinayət mühakimə icraatının vəzifələrindən ən birincisi kimi "Şəxsiyyəti,cəmiyyəti və dövləti cinayətkar qəsdlərdən qorumaq" fikri təsbit edilmişdir. (2)

Cinayət prosesinin bütün mərhələləri üçün başlıca prinsip və əldə edilməli olan nəticə kimi bu əsas istiqamət mühüm əhəmiyyətə malikdir. Başqa sözlə demək olar ki, cinayət işi başlandığı vaxtdan hökmün icrası həyata keçirilənə qədərki fəaliyyətin məqsədi qeyd edilən vəzifələrin icrasını təmin etməkdən ibarətdir.

Cinayət prosessual hüququn nəzəri mənbələri və cinayət mühakimə icraatına dair empirik materialların tədqiqi onu göstərir ki, cinayət mühakimə icraatının qanunla nəzərdə tutulan vəzifələrinin yerinə yetirilməsi üçün sübutlar, o cümlədən maddi sübutların əldə edilməsi,(toplanması) yoxlanması və qiymətləndirilməsi prosesi qanunvericiliyin tələblərinə uyğun aparılmalıdır. Qeyd edilən mərhələlərdən hər hansı birində qanunun tələblərinə riayət edilməməsi insan və vətəndaş hüquq və azadlıqlarına zərər yetirilməsi ilə nəticələnə bilər. Qeyd etmək lazımdır ki, maddi sübutların toplanması, yoxlanması və qiymətləndirilməsi baxış, axtarış, şəxsi axtarış, müayinə,götürmə və.s. mərhələlərində həyata keçirilir.

Tədqiqat işində narkotiklərin qanunsuz dövriyyəsi ilə bağlı cinayət işlərinin tədqiqi zamanı maddi sübut hesab edilən müxtəlif tərkibli narkotiklərin götürülməsi prosesində insan və vətəndaş hüquq və azadlıqlarının pozulması hallarına dair araşdırmalara yer verilmişdir. Qeyd etmək lazımdır ki, narkotik vasitə, psixotrop maddələr və prekursorların qanunsuz dövriyyəsi ilə əlaqədar cinayət işləri üzrə sübutlar, o cümlədən maddi sübutların toplanması (əldə edilməsi) özünəməxsus xarakterik xüsusiyyətlərə malikdir.

Azərbaycan Respublikasının CM-nin iyirmi altıncı fəslində nəzərdə tutulan bu cinayət işləri üzrə maddi sübutları aşkar etmə məqsədilə hadisə yerinin müayinəsi və baxış hərəkətləri əvəzinə əksər hallarda tutma, dindirmə, axtarış, üzləşdirmə və.s hərəkətlər yerinə yetirilir (AR.CPM-232, 235, 238, 242, 246). (2) Cinayət işləri üzrə götürülən maddi sübutların şərti dairəsini isə aşağıdakı kimi qeyd etmək olar: narkotik vasitə və ya psixotrop maddə, və ya onların bükümləri, narkotik tərkibli bitkilər, narkotikin izləri olan predmetlər, narkotiklərin hazırlanmasında istifadə edilmiş predmetlər, cinayəət yolu ilə əldə edilmiş pul və qiymətlilər, müxtəlif yazılar, sənədlər, narkotiklərin əldə edilməsi və satışı zamanı istifadə edilmiş predmetlər; yol nəqliyyat biletləri, sxemlər, xəritələr və s. Cinayət prosesinin ittiham tərəfi subyektlərindən özünəməxsus nəzəri bilik və peşəkarlıq, fərdi məsuliyyət və vicdanlı münasibət tələb edən bu hərəkətlərin icrası zamanı hər bir şəxsin konstitusion hüquq və azadlıqlarının qorunmasına xüsusi diqqət yetirilməlidir. Belə ki, narkotiklərin qanunsuz dövriyyəsi ilə bağlı cinayət işləri üzrə vətəndaşların özündən və ya yaşayış yerindən maddi sübut kimi əsasən narkotiklərin götürülməsi zamanı qeyd edilən tələblərin təmin edilməsi vacibdir.

Konstitusiyanın 63-cü maddəsinin 4-cü bəndində deyilir: "Ədalət mühakiməsi həyata keçirilərkən qanunu pozmaqla əldə edilmiş sübutlardan istifadə edilə bilməz". (1) Təcrübəyə dair məlumatlar göstərir ki, konstitusiyanın qeyd edilən tələblərinə bəzi hallarda əməl edilmir. İstər kütləvi informasiya vasitələri, istərsə də digər mənbələrdən əldə edilmiş çoxsaylı belə məlumatlarda üzərində narkotik bükümlərinin (müxtəlif çəki və çeşiddə) aşkar

edilməsi faktlarına əsasən vətəndaşların məsuliyyətə alındığı vurğulanır. Lakin həmin (əksər hallarda külli miqdarda) narkotiklərin hansı yolla, kimlərin vasitəsilə ölkəmizin ərazisinə gətirilməsi kifayət qədər hərtərəfli araşdırılmır. Sərhəd və gömrük xidməti əməkdaşlarının aşkar etdikləri narkotiklərin ümumi həcmi ilə ölkə ərazisində tutulan oxşar narkotik vasitə və maddələrin həcmlərin müqayisə edildikdə görmək olur ki, daxildə aşkar edilərək tutulan narkotik tərkibli maddə və vasitələrin həcmi sərhəd hüdudlarında aşkar edilənlərdən daha çoxluq təşkil edir. Buradan şərti olaraq iki nəticəyə gəlmək olar: ya ölkə ərazisinə fərqli başqa yollarla əlavə daşınma da həyata keçirilir, ya da ayrı-ayrı vətəndaşlardan tutularaq müsadirə edilmiş narkotiklər yenidən "dövriyyəyə qayıdır". Bu hal isə özlüyündə ciddi narahatlıq doğuran məsələlərdəndir. (S.Q.)

AR Konstitusiyasının 71-ci maddəsinin IX bəndində deyilir: "Hər kəs qanunla qadağan olunmayan hərəkətləri edə bilər və heç kəs qanunla nəzərdə tutulmayan hərəkətləri etməyə məcbur edilə bilməz". (1)

Sosioloji sorğular yolu ilə əldə edilən məlumatlar onu göstərir ki, narkotiklərin qanunsuz dövriyyəsi ilə bağlı cinayət işləri üzrə maddi sübutların götürülməsi zamanı bəzi hallarda vətəndaşların prosessual hüquq və azadlıqları kobud şəkildə pozulur. Qeyd edilən cinayət əməllərinə görə cinayət və ya inzibati məsuliyyətə alınmış respondentlərin verdiyi "anonim" məlumatlardan aydın olur ki, həm bir vətəndaş, həm də cinayət prosesinin subyekt kimi onların hüquq və azadlıqları aşağıda qeyd edilən şəkildə pozulur. Belə ki, saxlandıqları zaman hüquq mühafizə orqan əməkdaşları həmin şəxslərin üzərində aşkar edilmiş narkotiklərə özləri də (müxtəlif çeşidli, müxtəlif çəkili) "əlavələr" edir, həmçinin "özünəməxsus" təsir vasitələrindən istifadə edilərək cinayət faktını "rəsmiləşdirirlər". Başqa sözlə heç bir prosessual hüquq qaydasına riayət etmədən hədə-qorxu gələrək əlavə edilən maddə və ya vasitələrin saxlanılan şəxsə aid olması barədə izahatlar alınır, bir sözlə cinayətkarlığa qarşı mübarizə "özünəməxsus" üsullarla həyata keçirilir.

Azərbaycan Respublikası DİN-nin 2016-2020-ci illərə dair statistik məlumatlarından aydın olur ki, qeyd edilən müddətdə narkotiklərin qanunsuz dövrüyyəsi ilə bağlı cinayət törədən şəxslərdən 5887 nəfər əvvəllər məhkum olunmuş, 116 nəfər isə bu əməli narkotik təsir altında törətmiş şəxslərdir. (11)

Narkotik aludəçisi və ya ilkin olaraq istifadəyə başlamış şəxslər isə öz dediklərinə görə "gözü kölgəli" olduqlarına görə onlara qarşı edilən təhdid və təzyiqlər barədə müvafiq orqanlara məlumat vermir,şikayət etmirlər. Nəticədə respublika əhalisnin əksər gənc yaşlı vətəndaşları azadlıqdan məhrum edilərək cəza çəkmə müəssisələrinə salınır, azadlığa çıxarkən isə onların əksəriyyəti əvvəlkindən dah çox bu və ya digər xarakterli cinayət əməli törətməyə meyilli olurlar. Əgər cinayətkarlığa qarşı mübarizənin əsas məqsədi cinayət törətmiş şəxsi islah etmək, onu tam hüquq və fəaliyyət qabliyyətli normal vətəndaş kimi cəmiyyətə qaytarmaqdan ibarətdirsə, deməli əksər hallarda bu məqsədə çatmaq mümkün olmur. Odur ki,hər bir hüquq mühafizə orqan əməkdaşı bu məsələyə xüsusi həssalıqla yanaşmalıdır.

Müstəqil dövlətçiliyimiz bərpa edildikdən sonrakı dövrün statistikası onu deməyə əsas verir ki, Azərbaycana daşınan narkotiklərin doxsan faizdən çoxu demək olarki İran İslam Respublikası istiqamətindən daxil olur. Həm müvafiq gömrük keçid məntəqələrində yoxlamalarda, həm də sərhəd xətti boyunca qanunsuz daşınma zamanı aşkar edilən narkotiklər respublika ictimaiyyətini narahat edən ciddi problemlərdən biridir. Bir məqalə daxilində narkotiklərin necə, hansı vasitələrlə, kimlərin iştirakı və "dəstəyi" ilə daşınmasını təhlil etmək və qiymətləndirmək imkan xaricindədir. Lakin mövzuya uyğun olaraq qanunsuz daşınma zamanı maddi sübut qismində aşkar edilmiş, kütləvi informasiya vasitələri ilə

nümayiş etdirilən müxtəlif çeşidli, müxtəlif ölçü və çəkidə olan narkotiklərin sonrakı "taleyi" barədə məsələlərə qismən aydınlıq gətirməyi məqsədəmüvafiq hesab etmişik. Ötən onilliklərin məhkəmə təcrübəsi və statistikasına əsaslansaq deyə bilərik ki, respublikamızın ayrı-ayrı bölgələrində süni yolla əkilib becərilən, kultivasiya edilən narkotik tərkibli bitkilərin aşkar edildikdən sonra məhv edilməsi həmişə gündəmdə olmuşdur. Belə ki, bu prosedurlar barədə nəinki icmal məktublarla hüquq mühafizə orqanlarına, həmçinin kütləvi informasiya vasitələri ilə vətəndaşlara məlumatlar verilir, tez-tez video görüntülər yayımlanırdı. Son zamanlar isə ölkə ərazisinə keçirilən külli miqdarda narkotiklərin məhvi barədə qəbul edilən qərarların əksəriyyəti barədə ictimaiyyət qismən məlumatlandırılır. Təbii ki, məhv edilməsi nəzərdə tutulan bu maddə və vasitələr ciddi təhlükə mənbəyi kimi insanlarda əsaslı narahatlıq doğurmaya bilməz.

Bir neçə statistik məlumata diqqət yetirmək məqsədəmüvafiq olardı. 2020-ci ildə ümumi çəkisi 175 ton narkotik tərkibli bitki yaşıl kütlə halında məhv edilmiş, 866 kq narkotikin qaçaqmalçılıq yolu ilə ölkəyə gətirilməsinin qarşısı alınmışdır. 2021-ci il ərzində qeyri-qanuni dövrüyyədən 3 ton 418 kiloqram (2020-ci ilə nisbətən 373-kq çox) narkotik vasitə çıxarılmış, ümumi çəkisi 172 ton 753 kiloqram narkotik tərkibli kütlə məhv edilmiş, 1 ton 150 kq narkotikin qaçaqmalçılıq yolu ilə Azərbaycana gətirilməsinin qarşısı alınmışdır.(11)

Qanunsuz dövriyyədən çıxarılmış narkotiklərin harada, kimlər tərəfindən, nə zaman və hansı prosessual qaydada məhv edilməsi hər bir vətəndaş üçün maraqlıdır. Çünki hər hansı "yolla" dövriyyədən çıxarılmış və ya formal olaraq "məhv edilmiş" narkotiklərin yenidən qanunsuz dövriyyəyə "qayıtması" hallarının baş verə bilməsi heç də istisna edilmir. Məhv edilməsi nəzərdə tutulan maddi sübutların (narkotiklərin) məhv edilmə zamanı kəmiyyət və keyfiyyət göstəricilərinin necə olması da maraq doğuran hallardan biridir.

Məqalə ilə bağlı araşdırma zamanı da istifadə edilmiş cinayət işi üzrə empirik materiallardan məlum olur ki, narkotik tərkibli maddi sübutlar cinayət prosessual qanunvericiliyin tələblərinə uyğun olaraq müvafiq sənədləşdirmə əsasında məhv edilirlər. Konkret cinayət işləri üzrə materiallarda maddi sübut olan narkotiklərin adı, çeşidi,çəkisi, cinayət əməlini törətmiş şəxsin məsuliyyətə cəlb edildiyi norma, onun özü barədə məlumatlar qeyd edilməklə yanaşı həmin maddi sübutların hansı qaydada və necə məhv edilməsinə dair məlumatlar da yer alır. Məsələn: vət. İ. və vət F barədə cinayət məcəlləsinin 234.1 və 234.3 (qanunsuz olaraq narkotik vasitələri, psixotrop maddələri, və ya prekursorları hazırlama, istehsal etmə, əldə etmə, saxlama, daşıma, göndərmə və ya satma) maddələri ilə olan bir cinayət işi üzrə hökmə əsasən iş üzrə maddi sübut olan 269,89 qram heroin eyni məhkəmə tərəfindən vət A.haqqında CM-nin 237.2.3 (qanunsuz olaraq narkotik xassəli bitkiləri kultivasiya etmə) maddəsi ilə olan digər bir cinayət işi üzrə hökmlə maddi sübut hesab edilən 132 ədəd narkotik xassəli çətənə kolunun CPM-nin 132-ci maddəsinə əsasən məhv edilməsi qərara alınmışdır. (4) Digər çoxsaylı cinayət işi materialları üzrə də eyni xarakterli qərarların qəbul edildiyini söyləmək olar. Lakin nə prosessual qanunvericilik normalarında, nə də məhkəmə baxışı materiallarında cinayət mühakimə icraatı müddətində maddi sübutların hansı keyfiyyət dəyişgənliyinə uğramasına diqqət yetirilmir. Belə ki, altı ayadək, bəzən daha çox (məhkəmə baxışı mərhələsi də daxil olmaqla) müddətin keçməsi ilə maddi sübut hesab edilən əşya və ya predmet keyfiyyət dəyişgənliyinə uğraya bilər, (və ya əksinə) hətta təsərrüfat əhəmiyyətini itirə bilər. (hər hansı əşya və ya predmet kimi narkotiklər də)

Araşdırmalar göstərmişdir ki, nə Azərbaycan Respublikasın nə də Rusiya Federasiyasında cinayət mühakimə icraatı zamanı maraqlı tərəflərin, o cümlədən zərərçəkmişin iddia qaldırması halları istisna olmaqla digər hallarda məhkəmələr tərəfindən hökm çıxarılan dövrdə maddi sübutların mövcud vəziyyətinə qiymət verilməsinə bəzi hal-

larda ciddi yanaşılmır. Daha doğrusu cinayət prosessual qanunvericilik bunu xüsusi olaraq nəzərdə tutmur. Bu isə saxlanılan narkotik tərkibli maddi sübutların kəmiyyəti və keyfiyyəti ilə bağlı dəyişikliklərin "əmələ gətirilməsi" hallarının baş verməsinə şərait yaradır!

"Qara bazar"da yüksək dəyərə malik olan belə "maddi sübutlar"ın məhv edilməsi də daxil olmaqla ümumiyyətlə onların "taleyinə" nəzarətin zəifliyi saxtakarlıq,mənimsəmə və digər cinayət əməllərin baş verməsi üçün şərait yarada bilər. Buna görə də digər maddi sübutlarla yanaşı xüsusilə narkotiklərin məhkəmə baxışı mərhələsi zamanı nəzarət altında yoxlanılması və məhv edilmə mərhələsinin xüsusi diqqət mərkəzində saxlanılmasına məsuliyyətlə yanaşılmalıdır. (9)

## İstifadə olunmuş ədəbiyyat siyahısı


1. Azərbaycan Respublikasının Konstitusiyası, Bakı-2019-cu il,"Hüquq Yayın evi",63 səh.

2. Azərbaycan Respublikasının Cinayət Prosessual Məcəlləsi- Bakı-"Qanun"-2021-ci il

3. "Azərbaycan Xalqının Ümummilli Lıderi, Heydər Əliyevin tarixə düşən kəlamları «Fakt-Araşdırma» http://faktat.az/ Tarix : 2016/07/14.

4. Azərbaycan Respublikası məhkəmələrində baxılmış cinayət işləri üzrə arxiv materialları-1989-2006-cı illər.

5. "Heydər Əliyev və azərbaycançılıq", Nizaməddin Şəmsizadə, filologiya elmləri doktoru,professor, Xalq qəzeti.- 2009.- 5 may.- s. 4.

6. " Heydər Əliyev və çağdaş Azərbaycan dövlətçiliyi", Səyyad Aran, İstanbul-2007-ci il, 307 səh.

7. Qumru Əliyeva, Günay Hacızadə, "Heydər Əliyev və müstəqil Azərbaycanın ilk Konstitusiyası", Bakı – 2011, "Azərbaycan nəşriyyatı.,299səh.

8. K.Q. Saricalinskayanın redaktorluğu ilə,-Kriminalistika (yenidən işlənmiş, əlavə və dəyişikliklərlə) – dərslik Bakı 2021-ci il,995 səh.

9. S.Y.Qasımov. Narkotik vasitələr və psixotrop maddələrin qanunsuz daşınması ilə bağlı cinayətlərin istintaqının problemləri-"Monoqrafiya", Bakı- 200,101 səh.

10. Расследование преступлений – руководство для следователей. М., 1997.

11. Azərbaycan Respublikası DİN-nin 2016-2022-ci illərdə qeydə alınmış cinayətlər barədə statistik məlumatlar, 48 vərəq, Bakı-2022-ci il.



**Сахиль Гасымов**
**доцент кафедры «Право»**
**Национальной Академии Авиации, д.ф.п.п.**


## Некоторые проблемы с вещественными доказательствами в уголовных делах, связанных с незаконным оборотом наркотиков

## Р Е З Ю М Е


В статье говорится о важности вещественных доказательств в уголовных делах, связанных с незаконным оборотом наркотиков, их места и роли, а также о значимости обеспечения, хранения и уничтожения вещественных доказательств, приобретенных при осмотре. Автор уделил особое внимание изъяснению характеристики сбора

вещественных доказательств. В то же время, в статье отмечена важность вопросов, связанных с ответственным подходом к доказательствам, а также усиления судебного контроля по этому поводу.

**Sahil Gasimov**
**Associate Professor of the "Law" Department**
**of the National Academy of Aviation, PHD**
**Some problems with physical evidence in criminal cases,**
**associated with drug trafficking**

**S U M M A R Y**

The article talks about the importance of physical evidence in criminal cases related to drug trafficking, their place and role, as well as the importance of securing, storing and destroying physical evidence acquired during the examination. The author paid special attention to explaining the characteristics of the collection of physical evidence. At the same time, the article notes the importance of issues related to a responsible approach to evidence, as well as strengthening judicial control in this regard.

*Самира МАМЕДОВА*

доцент кафедры «Право» Национальной Академии Авиации,
д.ф.п.п.

# НЕКОТОРЫЕ АСПЕКТЫ ПРАВА ЖИТЬ В ЗДОРОВОЙ ОКРУЖАЮЩЕЙ СРЕДЕ

***Ключевые слова:*** *окружающая среда, экология, права человека, экологическое законодательство, охрана окружающей среды.*

***Açar sözlər:*** *ətraf mühit, ekologiya, insan hüquqları, ekoloji qanunvericilik, ətraf mühitin mühafizəsi.*

***Keywords:*** *environment, ecology, human rights, environmental legislation, environmental protection.*

В современной правовой доктрине все более актуальными становятся экологические права, а именно право человека жить в здоровой, чистой, благоприятной окружающей среде. Данное право человека непосредственно связано с происходящими глобальными климатическими изменениями, которые, в свою очередь, могут отрицательно сказаться на реализации экологических прав людей, привести к их нарушению.

Статья 39 Конституции Азербайджанской Республики закрепляет право человека жить в здоровой окружающей среде. Кроме того, «каждый человек имеет право на сбор информации о подлинном состоянии окружающей среды и на возмещение ущерба, причиненного его здоровью и имуществу экологическим правонарушением. Никто не может представлять угрозу или наносить ущерб окружающей среде, природным ресурсам сверх пределов, установленных законом. Государство гарантирует сохранение экологического баланса, защиту определенных законом видов дикорастущих растений и диких животных». [1]

Статья 6.1.3. Закона Азербайджанской Республики «Об охране окружающей среды» также определяет, что «граждане, лица без гражданства и иностранцы в области охраны окружающей среды имеют право на проживание в окружающей природной среде, благоприятной для жизни и здоровья». [3]

Азербайджанская Республика является страной, уверенно прошедшей путь развития в своей социально-экономической и культурной жизни и обеспечившей стабильный, безопасный и современный уровень жизни. Одним из основных национальных приоритетов развития страны, реализовать которые необходимо в ближайшее десятилетие, является обеспечение чистой окружающей среды, превращение Азербайджана в страну «зеленого роста». Данное положение нашло отражение в "Национальных приоритетах социально-экономического развития Азербайджана до 2030 г." от 02 февраля 2021 года. [5]

В документе отмечается, что, учитывая глобальные климатические изменения, первоначальное место следует отводить применению экологически чистых технологий, поощрять использование чистых источников энергии, переработку отходов и восстановление загрязненных территорий, что обеспечит важный вклад в усилия, направ-

ленные на поддержание уровня выбросов парниковых газов в соответствии с международными стандартами.

В контексте экономического развития государства, приоритет обеспечения чистой окружающей среды, превращения Азербайджана в страну «зеленого роста» обеспечит быстрое восстановление и приумножение зелени, эффективное использование водных ресурсов и устойчивых источников энергии, что позволит достичь качественной экологической среды и формирования зеленого энергетического пространства. [5]

Качественная экологическая среда предполагает эффективное использование ресурсов, комплексное решение экологических проблем, устойчивое развитие в этой сфере. Экологические риски, связанные с экономическим и демографическим ростом, предполагается снизить, а для этого увеличить долю зелени в общей площади страны. Экономический рост и экологическая среда сбалансированы. Имеющиеся богатые ресурсы страны намечаются на восстановление и более эффективное использование за счет привлечения неиспользуемых ресурсов.

Кроме того, в мире возрастет использование альтернативных и возобновляемых источников энергии. С учетом этого, необходимо эффективно использовать энергию в стране и отдавать предпочтение новым устойчивым источникам энергии. [5]

Для полного удовлетворения потребностей нынешнего и будущих поколений планируется расширить применение экологически чистых «зеленых» технологий. Основываясь на научно-техническом потенциале, следует увеличить долю альтернативных и возобновляемых источников энергии в первичном потреблении во всех сферах экономики и снизить влияние на изменение климата. Использование экологически чистых транспортных средств окажет положительное влияние на окружающую среду и качество воздуха. [5]

Итак, право человека на здоровую окружающую среду, закрепленное в Конституции нашего государства, представляет собой фундаментальную норму, на которой строится все национальное экологическое законодательство. Данная норма предоставляет каждому человеку право жить в здоровой для человека и всего живого, окружающей среде, предполагая необходимость поддерживать экологию в благоприятном состоянии, а также обязанность государства предпринимать необходимые меры для устранения и воздержания от негативных экологических последствий. [1]

Нездоровая, неблагоприятная, загрязненная экология нарушает право человека на здоровье – одно из основных социальных и экономических прав. Статья 12 Международного пакта об экономических, социальных и культурных правах определяет, что «участвующие в Пакте государства признают право каждого человека на наивысший достижимый уровень физического и психического здоровья». Данные права человека определяют обязанности государства обеспечивать каждому индивиду здоровую, чистую, благоприятную окружающую среду. [6]

Право на чистую и здоровую окружающую среду было признано на глобальном уровне Советом ООН по правам человека в октябре 2021 года и Генеральной Ассамблеей ООН в резолюции, принятой в июле 2022 года. Большинство государств-членов Совета Европы уже признали это право в той или иной форме в своем законодательстве. Совет Европы играет важную роль в содействии государствам-членам в предотвращении нарушений этого права и соблюдению стандартов Организации в области прав человека по вопросам защиты окружающей среды. [2]

14 июня 1992 года на Конференции в Рио-де-Жанейро была принята Декларация по окружающей среде и развитию, провозгласившая, что экологические вопросы рассматриваются наиболее эффективным образом при участии всех заинтересованных граждан.

На национальном уровне каждый человек имеет соответствующий доступ к информации, касающейся окружающей среды, которая имеется в распоряжении государственных органов, включая информацию об опасных веществах и деятельности в их общинах и возможность участвовать в процессах принятия решений. Государства развивают и поощряют информированность населения путем широкого предоставления информации, обеспечивая эффективный доступ к судебным и административным разбирательствам, включая возмещение и средства судебной защиты. [4]

В 1998 году была открыта для подписания Орхусская Конвенция «О доступе к информации, участии общественности в процессе принятия решений и доступе к правосудию по вопросам, касающимся окружающей среды». В Конвенции разработаны и введены такие значимые для экологических прав граждан понятия, как «экологическая информация», «доступ к экологической информации», а также урегулированы условия доступа к экологической информации и правосудию в вопросах, касающихся состояния окружающей среды. Общественность имеет право участвовать в решении вопросов, планов, программ и политики, связанных с окружающей средой. [4]

Статья 6 Закона Азербайджанской Республики «Об охране окружающей среды» закрепляет права и обязанности граждан в области охраны окружающей среды: «Граждане, лица без гражданства и иностранцы (далее – "граждане") в области охраны окружающей среды имеют право на: получение точной информации о существовании благоприятной для жизни и здоровья каждого гражданина окружающей среды, ее состоянии и мерах по улучшению ее состояния; получение компенсации за ущерб, нанесенный их здоровью и имуществу в результате нарушения законодательства об охране окружающей среды; проживание в окружающей природной среде, благоприятной для жизни и здоровья…», а также осуществление других прав, предусмотренных экологическим законодательством. [3]

Юридические и физические лица, причинившие в результате нарушения законодательства об охране окружающей среды ущерб окружающей среде, здоровью людей, собственности (имуществу) организаций, граждан и государства, должны в соответствии с действующим экологическим законодательством возместить причиненный ущерб. Ущерб должен быть возмещен в полном объеме с учетом степени потери пострадавшим трудоспособности, расходов, требуемых для его лечения и восстановления здоровья, и потерь.

Европейский суд по правам человека (ЕСПЧ) четко установил, что различные виды ухудшения экологической обстановки приводят к нарушениям важных прав человека, таких как право на жизнь, на неприкосновенность частной и семейной жизни, на уважение жилища, а также запрет на бесчеловечное и унижающее достоинство обращение. В прецедентах ЕСПЧ установлено, что государства не только должны расследовать нарушения и выплачивать компенсации непосредственно пострадавшим, но и обязаны прежде всего предотвращать возникновение таких нарушений, в том числе принимая общие и профилактические меры для системного снижения экологических рисков. [6]

Для реализации и эффективного обеспечения права человека жить в здоровой, чистой и благоприятной окружающей среде, необходимо объединить усилия каждого человека, общества и государства в данном деле. А путем формирования механизма строгого контроля за соблюдением государствами своих международных обязательств, ужесточения экологических норм, можно решать экологические проблемы на глобальном уровне.

## Список использованной литературы

1. Конституция Азербайджанской Республики.
https://www.e-qanun.az/framework/897
2. Генеральная Ассамблея ООН признает право человека на доступ к чистой, здоровой и устойчивой окружающей среде
https://www.ilo.org/moscow/news/WCMS_857424/lang–ru/index.htm
3. Закон Азербайджанской Республики «Об охране окружающей среды»
https://www.e-qanun.az/framework/3852
4. Кутузов В.И., Попов А.А. Доступ к экологической информации: правовые аспекты. – Брянск: 2004
5. Национальные приоритеты социально-экономического развития Азербайджана до 2030 г. https://president.az/az/articles/view/50474
6. Праву на здоровье – полвека? https://www.un.org/ru/chronicle/article/21869

## Р Е З Ю М Е

Данная статья посвящена некоторым аспектам права человека жить в здоровой, чистой и благоприятной окружающей среде. Ухудшение экологической обстановки приводит к нарушениям важных прав человека, таких как право на жизнь, на неприкосновенность частной и семейной жизни, на уважение жилища, запрет на бесчеловечное и унижающее достоинство обращение. Государства обязаны предотвращать возникновение таких нарушений, принимая общие и профилактические меры для системного снижения экологических рисков.

**Samirə Məmmədova**
**Milli Aviasiya Akademiyası «Hüquq» kafedrasının dosenti, h.ü.f.d.**

### Sağlam ətraf mühitdə yaşamaq hüququnun bəzi cəhətləri

## X Ü L A S Ə

Bu məqalə insanın sağlam, təmiz və əlverişli ətraf mühitdə yaşamaq hüququnun bəzi aspektlərinə həsr edilmişdir. Ekoloji vəziyyətin pisləşməsi yaşamaq hüququ, şəxsi və ailə həyatının toxunulmazlığı, qeyri-insani və ləyaqəti alçaldan rəftarın qadağan edilməsi kimi mühüm insan hüquqlarının pozulmasına gətirib çıxarır. Dövlətlər ekoloji riskləri sistematik şəkildə azaltmaq üçün ümumi və qabaqlayıcı tədbirlər görməklə bu cür pozuntuların baş verməsinin qarşısını almalıdır.

**Samira Mammadova**
**Associate Professor of the Department of Law**
**of the National Academy of Aviation, PhD**

### Some aspects of the right to live in a healthy environment

## S U M M A R Y

This article is devoted to some aspects of the human right to live in a healthy, clean and favorable environment. The deterioration of the ecological situation leads to violations of important human rights, such as the right to life, to the inviolability of private and family life, to respect for the home, and the prohibition of inhuman and degrading treatment. States have an obligation to prevent the occurrence of such violations by taking general and preventive measures to systematically reduce environmental risks.

***Ləman BAYRAMOVA***

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Aparatının
İnsan hüquqları və analitik şöbəsinin böyük məsləhətçisi, f.ü.f.d

# ƏSASI ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEV TƏRƏFİNDƏN QOYULAN AZƏRBAYCAN HÜQUQ SİSTEMİNİN MÖHKƏM TƏMƏLLƏR ÜZƏRİNDƏ İNKİŞAFI

***Açar sözlər:*** *Azərbaycan Respublikası, Ulu Öndər, dövlət nəzarəti, konstitusiya, dövlət hakimiyyət orqanları, demokratiya, insan hüquqları, hüquq sistemi, qanunvericilik bazası, Konstitusiya Məhkəməsi, müstəqillik.*

***Ключевые слова:*** *Азербайджанская Республика, Общенациональный Лидер, государственный контроль, органы государственного управления, демократия, права человека, правовая система, правовая база, Конституционный Суд, независимость*

***Keywords:*** *the Republic of Azerbaijan, National Leader, state control, constitution, state, democracy, human rights, legal system, legislative framework, the Constitutional Court, independence*

Bu gün Azərbaycanın çox saylı uğurlarından bəhs edilir. Ölkəmiz dünyada yüksək rolunun olmasının şərtləndirən əsas amil Heydər Əliyev siyasətidir. Bu reallıq hər zaman xüsusi qeyd edilir ki, əgər Ulu Öndər Heydər Əliyev 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtmasaydı, bu gün Azərbaycan adlı dövlətin varlığı sual altında idi.

Dövlət başçısı İlham Əliyevin Sərəncamı ilə 2023-cü ilin Respublikamızda "Heydər Əliyev İli" elan edilməsi dahi şəxsiyyətin dövlətimiz, xalqımız qarşısındakı xidmətlərinin geniş təhlilinə, indiki və gələcək nəsillərə çatdırılmasına geniş imkanlar açır. Bu xidmətlər ölçüyəgəlməzdir və bu gün də davam edir. Bu baxımdan ki, Azərbaycanın gələcəyini, yaratdığı möhkəm təməl üzərində dayanıqlı inkişafını, xalqımızın xoşbəxt, firavan həyatını düşünən Ulu Öndər Heydər Əliyev 2003-cü ildə xalqa tarixi müraciətində inamın növbəti ünvanını göstərməklə bugünümüzün reallıqlarının, davamlı uğurlarımızın əsasını qoydu. Axıra çatdıra bilmədiyi işlərin cənab İlham Əliyevin xalqın və Yeni Azərbaycan Partiyasının dəstəyi ilə axıra çatdıracağını əminliklə bildirən Ümummilli Liderin ruhu bu gün şaddır. Bugünkü Azərbaycan Heydər Əliyevin görmək istədiyi Azərbaycandır.

Respublikanın uğurları böyük səylərin, qətiyyətin nəticəsidir. Bu gün qürurla və iftixarla qeyd edilir ki, müasir müstəqil Azərbaycan Ümummilli Lider Heydər Əliyevin şah əsəridir. Ulu Öndər həm SSRİ dönənimdə, həm də müstəqillik illərində xalqımız, dövlətimiz qarşısında ölçüyə gəlməz böyük xidmətlər göstərib. Ümummilli Liderin Azərbaycan xalqı və dövləti qarşısındakı tarixi xidmətləri onun fəaliyyətinin bütün mərhələlərini əhatə edir. Bu gün Azərbaycan xalqı Ulu Öndərin misilsiz xidmətlərini çox yüksək qiymətləndirir, xatirəsini qəlbində yaşadır. Çünki Heydər Əliyev Azərbaycanı xaosdan, tənəzzüldən xilas edərək tərəqqi yoluna çıxardı, Respublikamızın sürətli yüksəlişinə, inkişafına geniş yol açdı, bir sözlə, müstəqilliyimizi daimi və əbədi etdi.

Ümummilli Lider müstəqil Azərbaycanın banisi, xalqımızın və dövlətimizin xilaskarıdır. Azərbaycanın azad ölkə kimi tərəqqi yoluna çıxmasında lider amili əvəzsiz rol oynayır. 2022-ci il «Şuşa İli»nin davamı olaraq 2023-cü ilin ölkəmizdə «Heydər Əliyev İli» elan edilməsi artıq bu reallığa bir daha işıq salır. Şuşamız azaddır, əvvəlki şöhrətinə qayıdır. Heydər Əliyev ideyaları bundan sonra Qarabağlı və Şərqi Zəngəzurlu Azərbaycana daha möhtəşəm uğurlar qazandıracaq.

Heydər Əliyevin hüquqi, demokratik, sivil dövlət quruculuğu istiqamətində gördüyü işləri xüsusi qeyd edilməlidir. O dövrdə yenicə müstəqillik əldə etmiş bir dövlətin inkişafında mükəmməl qanunvericlik bazasının yaradılması, qanunun aliliyinin təmin edilməsi mühüm şərt idi. Ümummilli Lider yeni Konstitusiya layihəsinin hazırlanmasını öz üzərinə götürdü və bununla bağlı xüsusi yaradılmış Komissiyaya rəhbərlik etdi. 1995-ci ilin noyabrında isə ümumxalq səsverməsi yolu ilə Konstitusiyamız qəbul edildi. Bu tarixi günlərdə Ulu Öndər Heydər Əliyev bildirmişdi: "Komissiyanın sədri kimi mən bu böyük tarixi sənədin hazırlanmasında öz şəxsi məsuliyyətimi daim dərk etmişəm, bu gün də dərk edirəm. Ona görə də bu sənədin hazırlanmasına xeyli vaxt sərf etmişəm. Haqqım var deyəm ki, çox zəhmət çəkmişəm. Hər bir kəlmənin, hər bir sözün mənasını dəfələrlə araşdırmışam, onun bu gün üçün, gələcək üçün nə qədər əsaslı olmasını dəfələrlə təhlil etmişəm. Mən çox rahatlıq hissi ilə bu layihənin altından imza atıram və bu layihəyə görə tam cavabdeh olduğumu bu gün bəyan edirəm. Hesab edirəm ki, biz Azərbaycanın bu günü, gələcəyi üçün çox böyük bir sənəd – siyasi, hüquqi sənəd yaratmışıq".

Dahi Liderin siyasəti Azərbaycanın demokratik inkişafı beynəlxalq əməkdaşlıq əlaqələrinin inkişafında da öz sözünü dedi. Belə ki, əməkdaşlıqda maraqlı olan dövlətlər hər zaman digər ölkədə sabitliyin, təhlükəsizliyin təminatına xüsusi diqqət göstərir. Heydər Əliyev xarici siyasət xəttində beynəlxalq təşkilatlarla əməkdaşlığın genişləndirilməsi məsələlərinə çox böyük diqqət yetirirdi. Azərbaycanın beynəlxalq təşkilatlara üzv olması ilə yanaşı, onların işlərində fəal surətdə iştirak etməsi və səmərəli əməkdaşlıq ölkəmizin problemlərini dünya ictimaiyyətinə çatdırmaq üçün mühüm əhəmiyyət kəsb edirdi. Bu baxımdan 1994-cü il mayın 4-də Ulu Öndər Heydər Əliyevin «Sülh naminə tərəfdaşlıq» proqramının çərçivə sənədini imzalaması Azərbaycanın beynəlxalq mövqelərinin möhkəmlənməsi istiqamətində atılan mühüm addımlardan biri oldu. Bu proqramın Azərbaycan üçün əhəmiyyəti ondan ibarətdir ki, ölkəmiz NATO-ya daxil olan Avropa ölkələri və ABŞ ilə dünya təhlükəsizlik sisteminin, eləcə də beynəlxalq münasibətlərin sivil qaydaları çərçivəsində hər cür əməkdaşlıq etmək imkanı qazandı. Ölkəmiz 1994-cü ildə NATO-nun «Sülh naminə tərəfdaşlıq» proqramına qoşulan ilk dövlətlərdən olub və bu təşkilatın əksər qurumlarının işində fəal iştirak edərək NATO ilə mümkün tərəfdaşlıq mexanizmlərindən tam şəkildə bəhrələnir. 1996-cı il aprelin 22-də Lüksemburqda Avropa İttifaqı və Azərbaycan Respublikası arasında ticarət, sərmayə, iqtisadiyyat, qanunvericilik, mədəniyyət, immiqrasiya və qeyri-qanuni ticarətin qarşısının alınması sahəsində əməkdaşlığı nəzərdə tutan «Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi» imzalanıb. Bu müqavilənin imzalanması Azərbaycanın xarici siyasətinin ən uğurlu səhifələrindən biri kimi qiymətləndirilir. Dövlətimiz və xalqımız üçün mühüm tarixi əhəmiyyət kəsb edən bu müqavilə Azərbaycanın Avropa strukturları və institutları ilə əlaqələrinin genişlənməsi, xüsusilə inteqrasiya istiqamətində hüququ baza rolunu oynayır.

Azərbaycanın Avropa institutlarına inteqrasiyası istiqamətində Avropa Şurasının bərabərhüquqlu üzvü olması Respublikamızın mühüm problemlərinin dünya ictimaiyyətinin diqqətinə obyektiv çatdırılması üçün yeni və çox mötəbər tribuna vermiş oldu. Belə ki, Avropa Şurası Nazirlər Komitəsinin 2001-ci il yanvarın 17-də nümayəndələr səviyyəsində

keçirilmiş iclasında Azərbaycanın Avropa Şurasına tamhüquqlu üzv qəbul edilməsinə dair qərar qəbul edildi. Bu qərar Ümummilli Liderin uzaqgörən, daxili və xarici siyasətinin və bu istiqamətdə məqsədyönlü fəaliyyətinin nəticəsi idi. Yanvarın 25-də Ümummilli Lider Heydər Əliyevin iştirakı ilə Strasburqda ölkəmizin bu təşkilata üzv qəbul edilməsi münasibətilə rəsmi mərasim keçirilib və dövlətimizin üçrəngli bayrağı ucaldılıb. Bu hadisəni Ulu Öndər yüksək qiymətləndirərək bildirmişdir ki, ölkəmizin Avropa Şurasına qəbul edilməsi Azərbaycan dövlətinin inkişafında yeni mərhələnin başlanğıcıdır.

Müstəqillik əldə etdikdən sonra Azərbaycan BMT ilə əlaqələrini inkişaf etdirməklə yanaşı, bu təşkilatın daha səmərəli fəaliyyət göstərməsinə töhfə vermək üçün irəli sürülən islahat təkliflərinin verilməsi və müzakirəsi prosesində fəal iştirak edir. Ümummilli Lider 1994-cü ilin sentyabr ayında BMT Baş Assambleyasının 49-cu sessiyasında iştirak edərək, bu beynəlxalq təşkilatın tribunasından ölkəmizin bir çox məsələləri ilə bağlı, xüsusilə Ermənistanın Azərbaycana təcavüzü haqqında həqiqətləri dünya ictimaiyyətinə çatdırdı.

Xalqımız öz dövlətçiliyinin dünyəvi, demokratik, hüquqi əsaslar üzərində bərqərar olunmasına Heydər Əliyevin qətiyyəti nəticəsində nail olmuşdur. Dünya təcrübəsi göstərir ki, dövlətin davamlı inkişafı üçün möhkəm hüquqi bazanın yaradılması, ədliyyə və məhkəmə-hüquq sisteminin formalaşdırılması vacib şərtdir. Məhz Ulu Öndər Heydər Əliyevin fəaliyyəti nəticəsində 1993-2003-cü illərdə hüquqi dövlət quruculuğu prosesində yaxından iştirak edən ədliyyə orqanlarının inkişafına daim qayğılı münasibət göstərilmiş, Ədliyyə Nazirliyinin fəaliyyət dairəsi genişlənmiş, cəmiyyətdəki rolu və əhəmiyyəti artmış, ədliyyə fəaliyyətinin yeni qanunvericiliyin tələbləri səviyyəsində qurulması məqsədilə müvafiq struktur dəyişiklikləri aparılmış, yeni qurumlar yaradılmış, onların işinin təşkili üzrə zəruri tədbirlər görülmüşdü. Məhkəmələrin müstəqilliyinin təmin olunması, fəaliyyətinə müdaxilələrin qarşısının alınması üçün nazirlikdə Məhkəmə Orqanları İdarəsi ləğv edilmiş, məhkəmə qərarlarının icra vəziyyətinin yaxşılaşdırılması məqsədilə Məhkəmə nəzarətçiləri və məhkəmə icraçıları xidməti yaradılmışdır. Qanunun aliliyinin daha yüksək səviyyədə təmin edilməsi məqsədilə 2000-ci ildə Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycanda üçpilləli yeni məhkəmə sistemi yaradılaraq fəaliyyətə başlamış, ölkəmizdə ilk dəfə olaraq test üsulu ilə şəffaf prosedurlarla yeni hakim korpusu formalaşdırılaraq, onların yüksək statusu müəyyən olunmuşdur.

Respublikada Konstitusiya Məhkəməsinin 14 iyul 1998-ci ildə təsis edilməsi və fəaliyyətə başlaması da Ulu Öndər Heydər Əliyevin fəaliyyəti nəticəsində mümkün olmuşdur. Konstitusiya Məhkəməsi konstitusiya quruluşunun əsaslarını, insan və vətəndaşın əsas hüquq və azadlıqlarını qorumaq, qanunların aliliyini və bilavasitə tətbiqini təmin etmək məqsədilə konstitusiya icraatı vasitəsilə müstəqil məhkəmə hakimiyyətini həyata keçirən konstitusiya nəzarətinin ali məhkəmə orqanıdır. Konstitusiya Məhkəməsinin 25 illik inkişafı vətəndaşların pozulmuş hüquqların bərpası üçün səmərəli mexanizmlərin təmin edilməsi, ədalət mühakiməsinin müstəqilliyi, habelə yüksək konstitusiya təminatlarının təmin edilməsinə dair müəyyən edilmiş davamlı tələbinə əsaslanmışdır. Eyni zamanda Konstitusiya Məhkəməsi Azərbaycan hüquq sisteminin əsasını təşkil edən təcrübə bazası formalaşdırmışdır. Heç bir mübadiləsiz demək olar ki, Məhkəmə öz təcrübəsi ilə konkret məsələ ilə bağlı cəmiyyətdə konsensusun əldə olunmasını təmin edir və bu da son nəticədə dövlətin təkamülünə gətirib çıxarır. Məhkəmənin daim inkişaf edən təcrübəsi hüquq sisteminin bir yerdə dayanmadığını və digər dövlət institutları ilə bərabər inkişaf etməyinin göstəricisidir.

Ulu Öndər Heydər Əliyevin 18 iyun 1998-ci il tarixli Sərəncamı ilə təsdiq olunmuş "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı" ölkəmizdə ilk dəfə olaraq insan hüquqları

üzrə müvəkkil (Ombudsman) institutunun təsis edilməsini gündəmə gətirmişdir. Nəticədə 28 dekabr 2001-ci il tarixdə "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (Ombudsman) haqqında" Konstitusiya Qanunu qəbul edilmişdir. Ombudsman aparatı fəaliyyətə başladıqdan sonra Ədliyyə Nazirliyi tərəfindən həmin qurumla əlaqələr qurularaq səmərəli əməkdaşlıq yaradılmış, bu sahədə çoxsaylı tədbirlər həyata keçirilmişdir. Ulu Öndər Heydər Əliyevin hakimiyyəti illərində vətəndaş cəmiyyəti quruculuğu sahəsində də mütərəqqi dövlət siyasəti formalaşmış, siyasi partiyaların və qeyri-kommersiya qurumlarının sərbəst və maneəsiz fəaliyyəti üçün əlverişli şərait yaradılmışdır.

Ümummilli Lider Heydər Əliyev demokratik, hüquqi dövlətin təməlini qoydu. Ulu Öndər hüquqi islahatlara müstəsna əhəmiyyət verərək bu məqsədlə yaradılan Hüquqi İslahat Komissiyasına rəhbərliyi bilavasitə öz üzərinə götürdü və qısa müddətdə yeni müasir qanunlar və məcəllələr qəbul olundu. Onun dühası ilə yeni üçpilləli müstəqil məhkəmə sistemi və bu hakimiyyətdə mühüm rol oynayan Ali Məhkəmə bərqərar olunaraq fəaliyyətə başladı. Məhkəmələrə insan haqlarının qorunması ilə bağlı müstəsna səlahiyyətlər verildi, Azərbaycan postsovet məkanında qətimkan tədbiri kimi həbsin seçilməsi səlahiyyətini məhkəməyə verən və bununla da «Habeas Corpus» prinsipini tətbiq edən ilk dövlətlərdən oldu. Humanizm prinsiplərinə sadiqlik göstərilərək Şərqdə ilk dəfə olaraq ölüm cəzası ləğv olundu. Həmçinin Ali Məhkəmə demokratik cəmiyyətə xas olmayan nəzarət funksiyalarından azad edildi və onun sırf kassasiya instansiyası kimi yalnız hüquqi məsələləri araşdırması və prosesdə vəkilin mütləq iştirakı təsbit olundu. Dövlətçilik tariximizdə ilk dəfə olaraq şəffaf prosedurlar əsasında, o cümlədən test üsulu ilə hakim seçimi keçirilərək təyinatlar aparıldı. Əvvəlki hakim korpusu 60 faiz təzələndi. ABŞ-da olarkən Ümummilli Lider «Azərbaycan Avrasiyanın qapısı, strateji və iqtisadi alyanslar ölkəsidir" mövzusunda keçirilmiş beynəlxalq konfransda demişdir: «Biz Azərbaycanın məhkəmə sistemini tamamilə yeni səviyyəyə qaldırdıq və demokratik prinsiplər əsasında yaratdıq. Bütün hakimlər test üsulu ilə imtahandan, yarışdan keçdilər və kim qalib gəldi, o da hakim təyin olundu».

Ulu Öndərin siyasi varisi, Prezident İlham Əliyev Prezident seçildiyi ilk günlərdən məhkəmə hakimiyyətinin müasir çağırışlara uyğun inkişafı, məhkəmələrə əlçatanlığın yaxşılaşdırılması və şəffaflığın artırılması, onun cəmiyyətdə nüfuzunun yüksəldilməsi üzrə tövsiyə və tapşırıqlar vermiş, bu istiqamətdə mütərəqqi islahatlara başlanılmışdı. Həyata keçirilən səmərəli hüquqi islahatlar kursu cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir, qısa dövr ərzində imzalanan Fərman və sərəncamlar ölkəmizin dinamik yüksəlişini təmin etmiş və həyata keçirilən islahatlara yeni təkan verdi. Dövlət başçısı İlham Əliyevin Sərəncamı ilə 18 İyunun İnsan Hüquqları Günü kimi təsis edilməsi də dövlətimizin siyasətində hüquqi, demokratik dəyərlərə böyük önəm verildiyi özünü aydın şəkildə büruzə verir. Bu illər ərzində imzalanan əfv fərmanları, təsdiqlənən Amnistiya Aktları da Ulu Öndərin humanizm siyasətinin uğurla davam etdirildiyini təsdiqləyir.

Hüquqi islahatların müasir şəraitə uyğunlaşdırılması zamanın tələbi kimi ortaya çıxır. Başqa sözlə, yeni reallıqlar hüquqi islahatların aktuallığını artıran amildir. Bu çərçivədə həyata keçirilən tədbirlər son nəticədə insan hüquqlarının, hüquqi yardımların əlçatanlığının rahat şəkildə təmin olunmasına yönəlib. Məsələn, artıq bu gün on minlərlə normativ sənədi ehtiva edən "Hüquqi aktların vahid elektron bazası" vasitəsilə hər kəs ödənişsiz olaraq, ani rejimdə qanunvericilik aktlarını əldə edə bilir. İşğaldan azad olunmuş ərazilərdə dayanıqlı məskunlaşmanın təmin edilməsi üçün hüquqi baxımdan heç bir maneə yoxdur. «Elektron məhkəmə» informasiya sisteminin prokurorluq orqanlarına inteqrasiyası ədalət mühakiməsinin daha səmərəli və çevik həyata keçirilməsinə imkan yaradıb. Böyük sosial

əhəmiyyətə malik «ASAN xidmət», DOST mərkəzləri əhaliyə operativ hüquqi xidmətlərin yüksək səviyyədə təşkil olunmasına kömək edən və daim təkmilləşən mütərəqqi layihələrdir. Ölkəmizin xaricdəki konsulluqlarının "e-notariat" sistemi vasitəsilə xidmətlər göstərməsi soydaşlarımızın sənədləşmə ilə bağlı problemlərinin həllinə yardım edir.

Azərbaycanın hər bir uğuru Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Onun ideyalarının uğurla həyata keçirilməsi ölkəmizin qarşısında geniş imkanlar açır. Ümummilli Liderin ən böyük arzularından biri Azərbaycanın ərazi bütövlüyünün təmin olunması, torpaqlarımızın işğaldan azad edilməsi idi. Məhz bu arzunun reallaşması fonunda ata vəsiyyətini yerinə yetirdiyi üçün özünü xoşbəxt hiss edən dövlət başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyev Azərbaycanın bundan sonra da uğurla inkişaf edəcəyini, müstəqilliyinin, ərazi bütövlüyünün daimi olacağını bildirir. Sevindirici haldır ki, ölkəmizdə bütün sahələrdə əhəmiyyətli nailiyyətlər, yüksək inkişaf göstəriciləri qeydə alınır. Eyni zamanda, Prezident İlham Əliyevin strateji kursu Azərbaycanın dünya siyasi arenasında mövqeyini daha gücləndirir, bu siyasət xalq-iqtidar birliyini möhkəmləndirir. Bir sözlə, Azərbaycan inkişaf yolunda inamla irəliləyir! Dövlət başçısı İlham Əliyevin yürütdüyü siyasət Azərbaycanın regionda və dünyada dostlarının, tərəfdaşlarının sayını xeyli dərəcədə artırıb. Azərbaycanın demokratiya təcrübəsi digər ölkələrə nümunə göstərilir. Ümummilli Liderin 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı dövründə böyük inamla səsləndirdiyi "Biz bu çətin günləri keçib gedəcəyik, müstəqil Azərbaycan Respublikası dünya birliyində öz layiqli yerini tutacaq, hər bir Azərbaycan vətəndaşı özünün bu müstəqil dövlətə mənsub olduğunu böyük qürur hissi ilə bəyan edəcəkdir" tezisi bugümüzün reallıqlarında özünün aydın ifadəsini tapıb. Bu fikirlərə belə bir əlavənin də edilməsinə əsas yaranıb ki, qalib Azərbaycan tarixi Zəfəri ilə yeni reallıqlar yaradıb.

Uğurlarımızın davamlılığı bu fikri böyük inamla səsləndirməyə stimul verir ki, Azərbaycanı inkişaf, tərəqqi yoluna çıxaran Heydər Əliyev yolu bundan sonra da ölkəmizi ən yüksək zirvələri fəth etdirəcək. Prezident kimi fəaliyyətə başladığı gündən Azərbaycanın daha güclü, qüdrətli dövlətə çevrilməsi üçün Heydər Əliyev siyasətinin davam etdirilməsinin vacibliyini bildirən və son 19 ildən artıq dövrdə bunu əməli ilə sübut edən cənab İlham Əliyevə milyonların sevgisi şəksizdir. Prezident-xalq birliyinin sarsılmazlığı uğurların açarıdır.

### İstifadə olunmuş ədəbiyyat siyahısı


1. Azərbaycan Respublikasının Konstitusiyası, Qanun nəşriyyatı, Bakı – 2019.
2. Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı
3. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kİitabxanası, "Məqalələr" (2009 – 2014-cü illər), Bakı 2015
4. Açıq hökumətin təşviqinə dair 2020–2022-ci illər üçün Milli Fəaliyyət Planı, (Azərbaycan Respublikası Prezidentinin 2020-ci il, 27 fevral tarixli Sərəncamı ilə təsdiq edilmişdir), Bakı: 2020.
5. Çirkin B.Y. Xarici ölkələrin konstitusiya hüququ. Bakı, Digesta, 2007.
6. Hüseynova X.M. Regional inkişaf problemləri: nəzəri və praktiki məsələlər. Bakı, Ozan, 2010.
7. Qəndilov S.T. Dövlət idarəçilik nəzəriyyəsi. Bakı, Elm və təhsil, 2010.

8. Новрузов В.Т. Место и роль высших органов финансового контроля в укреплении и развитии финансового контроля в Азербайджанской Республике, формы и методы их взаимодействую // Вестник Межпарламентской Ассамблеи, 2011, No 1.

9. Четвериков В.С. Административное право. Серия “Высшее образование”. Ростов-на-Дону: Феникс, 2004.

10. Чиркин В.Е. Контрольная власть // Государство и право, 1993, № 4.

11. HEYDAR ALIYEV IS ALWAYS AT THE TOP! The highest top conquered by Heydar Aliyev is the soul of the nation. https://azerbaijan.az/en/related-information/

**Ляман Байрамова**
**Старший консультант отдела Прав человека и Аналитической работы Аппарата Конституционного Суда Азербайджанской Республики, д.ф.п.ф.**

# РАЗВИТИЕ ПРАВОВОЙ СИСТЕМЫ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ, ПОСТРОЕННОЙ НА ПРОЧНОМ ФУНДАМЕНТЕ, ЗАЛОЖЕННОМ ОБЩЕНАЦИОНАЛЬНЫМ ЛИДЕРОМ ГЕЙДАРОМ АЛИЕВЫМ

## Р Е З Ю М Е

Азербайджанская Республика добилась значительного прогресса в построении гражданского общества и верховенства закона, борьбе с коррупцией, предотвращении нарушений прав и свобод человека, обеспечении прозрачности и подотчетности в управлении, поддержке малых и средних предприятий и достижении необходимого уровня социально-экономического развития.

Политика Гейдара Алиева является основой обеспечения высокой роли нашей страны в мире. В результате деятельности Великого лидера Гейдара Алиева в 1993-2003 годах постоянно заботились о развитии судебных органов, непосредственно вовлеченных в процесс строительства правового государства. В целях обеспечения верховенства закона в 2000 году по инициативе Гейдара Алиева в Азербайджане была создана и начала функционировать трехуровневая судебная система и сформирован новый состав судей. Конституционный Суд является высшим судебным органом конституционного контроля, осуществляющим самостоятельную судебную власть посредством конституционного судопроизводства в целях защиты основ конституционного строя, основных прав и свобод человека и гражданина, обеспечения верховенства и прямого действия законов. В основе 25-летнего развития Конституционного Суда лежит установившаяся неизменная потребность граждан в обеспечении эффективных механизмов восстановления нарушенных прав, независимости правосудия, а также высоких конституционных гарантий.

**Liaman Bayramova**
**Senior adviser of the Department of Human Rights and Analytics of the Constitutional Court of the Republic of Azerbaijan, Ph.D.**

## DEVELOPMENT OF THE LEGAL SYSTEM OF THE REPUBLIC OF AZERBAIJAN ON A SOLID FOUNDATION ESTABLISHED BY THE NATIONAL LEADER HEYDAR ALIYEV

### S U M M A R Y

The Republic of Azerbaijan has made significant progress in building a civil society and the rule of law, fighting corruption, preventing violations of human rights and freedoms, ensuring transparency and accountability in governance, supporting small and medium-sized enterprises and achieving the required level of socio-economic development. The legal framework of state and public control fulfills a management mission at a time when goals come to the fore.

The policy of Azerbaijan, put forward by the great leader Heydar Aliyev forms the basis of the state ideology, which unites all the peoples and ethnic groups living in our country, and ensures social and political stability.

In order to ensure the rule of law at a higher level, in 2000, at the initiative of national leader Heydar Aliyev, a new three-level judicial system was created and began functioning in Azerbaijan, and for the first time in our country, a new composition of judges was formed with transparent procedures by testing and their high status was determined. The Constitutional Court is the highest judicial body of constitutional control, exercising independent judicial power through constitutional legal proceedings in order to protect the foundations of the constitutional order, the fundamental rights and freedoms of man and citizen, to ensure the rule and direct operation of laws. At the heart of the 25-year development of the Constitutional Court lies the established unchanging need of citizens to provide effective mechanisms for the restoration of violated rights, independence of justice, as well as high constitutional guarantees.

***Kamran CƏFƏROV***

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Aparatının
Beynəlxalq hüquq və beynəlxalq əməkdaşlıq şöbəsinin böyük məsləhətçisi

# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANDA DEMOKRATİK HÜQUQİ DÖVLƏT QURUCULUĞU

***Açar sözlər:*** *hüquqi dövlət, qanunun aliliyi, insan hüquqları, konstitusiya, məhkəmə-hüquq islahatları*

***Ключевые слова:*** *правовое государство, верховенство закона, права человека, конституция, судебные и правовые реформы.*

***Keywords:*** *legal state, rule of law, human rights, the constitution, judicial and legal reforms.*

Hüquqi dövlət ("Rextştadt") bütün fəaliyyəti qanunun aliliyinin, insan və vətəndaş hüquq və azadlıqlarının qorunmasına yönələn fundamental hüquq prinsipləri əsasında yaradılan dövlətdir. Hüquqi dövlət ideyası hələ qədim zamanlardan bir çox mütəfəkkir və filosofların əsərlərinin mövzusu olmuşdur. Artıq o dövrdə bu anlayışın mahiyyətini formalaşdırmaq məqsədi ilə hüquqla hakimiyyətin qarşılıqlı əlaqəsi üçün lazımi prinsip və formaların axtarışına başlanılmışdır.

Aristotel qanunun hamının üzərində hökmranlığının mütləq olmasını qeyd edirdi. Dövləti özünün mahiyyətinə görə hüquqi birlik hesab edən Siseronun fikrincə, dövlət xalq işi olub "hüquq və mənafe ümumiliyi məsələsində çoxlu adamlar arasında razılıq əsasında yaranan birlikdir". Hüquqi dövlət nəzəriyyəsinin banisi İmmanuel Kantın fəlsəfi təlimi hüquqi fikrin sonrakı inkişafına böyük təsir göstərmişdir. Hüquqi dövlətdə konstitusiya idarəçiliyi rejimi fəaliyyət göstərir, inkişaf etmiş və ziddiyyətli olmayan hüquq sistemi və səmərəli məhkəmə hakimiyyəti mövcuddur, o, hakimiyyətin bölünməsi ilə səciyyələnir, siyasət və hakimiyyət inkişaf etmiş nəzarətə malikdir. Hüquqi dövlətin əsasını hakimiyyətin, vətəndaşın, cəmiyyətin qanun qarşısında hüquqi bərabərliyi təşkil edir.

Bir sözlə, hüquqi dövlət dedikdə "hüququn hər şeydən üstün olduğu dövlət", "hüquqa əsaslanan dövlət" nəzərdə tutulur, bu dövlətdə hüquq dövlətdən əsasdır, dövlət hüquqa tabedir.

Müxtəlif ölkələrdə hüquqi dövlətin təşkilinin təcrübəsi qarşıya qoyulmuş məqsədə nail olunması üsullarının müxtəlifliyinə dəlalət edir. Azərbaycanın hüquqi dövlət quruculuğuna totalitar rejimin on illərlə hökm sürməsi nəticəsində yaranmış olduqca əlverişsiz şəraitdə başlaması ölkəmizin keçdiyi bu yolun özünəməxsusluğuna əsaslı təsir göstərmişdir.

1991-ci ilin oktyabrında dövlət müstəqilliyini bərpa edən Azərbaycanda hüquq sistemi və qanunlar SSRİ-dən miras qaldığı üçün hüquqi və demokratik cəmiyyət quruculuğuna, qanunun aliliyinin təmin olunmasına, insan hüquq və azadlıqlarının müdafiəsinə təminat vermirdi. Cəmiyyətin gələcək inkişafı üçün hüquq sahəsində islahatların həyata keçirilməsi, tamamilə yeni mütərəqqi və demokratik dəyərlərə əsaslanan hüquq və məhkəmə sisteminin, qanunvericilik bazasının formalaşdırılması labüd idi.

Bu məqsədlə demokratik, hüquqi dövlət quruculuğunu özünün inkişaf yolu seçən Azərbaycan bu yolda ilk addımlarını ağır nəticələrə səbəb olmuş Ermənistanın ərazilərimizə hərbi təcavüzü və torpaqlarımızın işğalı, eləcə də sosial-siyasi konfrontasiya və cəmiyyətin bütün sahələrini əhatə edən dərin böhran şəraitində atmalı olmuşdur.

Bu prosesin başlanması üçün, ilk növbədə, ölkədə ictimai-siyasi sabitlik, qanunçuluq bərqərar olunmalı idi. Məhz belə ağır şəraitdə xalqın təkidi ilə hakimiyyətə qayıdan Ümummilli Lider Heydər Əliyev qısa müddət ərzində Azərbaycanda sabitliyi təmin etməyə nail olur və ölkəmiz qarşısında duran taleyüklü dövlət quruculuğu məsələlərini həyata keçirməyə başlayır.

2023-cü ildə anadan olmasının 100 illiyi münasibətilə dahi Heydər Əliyevin əziz xatirəsinə dərin ehtiramın ifadəsi olaraq ölkə Prezidenti İlham Əliyevin 2022-ci il 29 sentyabr tarixli "Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında" Sərəncamında qeyd olunduğu kimi, "...Heydər Əliyev doğma Vətənin xilası naminə misilsiz fədakarlıq nümayiş etdirmiş, ölkəmizi ictimai-siyasi pərakəndəliyin və anarxiyanın məngənəsindən qurtarmış, bütün sahələrdə müşahidə olunan dərin tənəzzülün qarşısını almış, yenidən qurduğu və hər cür qəsdlərdən qoruduğu dövlətin dayanıqlı inkişaf yolunu müəyyən etmişdir".

Danılmaz həqiqətdir ki, xalqımız tarix boyu arzuladığı milli dövlətçilik amallarını məhz Ulu Öndər Heydər Əliyev epoxasında gerçəkləşdirərək müstəqil demokratik hüquqi dövlət qura bilmişdir.

Böyük dövlətçilik təcrübəsinə malik, SSRİ kimi nəhəng dövlətin rəhbərliyində təmsil olunmaqla fitri istedadı, siyasi fəhmi və nüfuzu ilə fərqlənən Heydər Əliyev sovetlər birliyindən miras qalmış rejimin hüquqi dövlət konsepsiyasına xidmət edə bilməyəcəyini hamıdan yaxşı dərk edirdi.

Təsadüfi deyil ki, 1993-cü ildə Ulu Öndər qarşıya qoyduğu vəzifələri bəyan edərək demişdir: "Azərbaycan Respublikasında demokratik, hüquqi dövlət qurulmalıdır. Azərbaycan ... öz tarixi, milli ənənələrindən bəhrələnərək, dünya demokratiyasından, ümumbəşəri dəyərlərdən səmərəli istifadə edərək demokratik dövlət quruculuğu yolu ilə getməlidir".

Bu məqsədə nail olmaq üçün elmə əsaslanan, azad cəmiyyətin formalaşmasına, qanunun aliliyinə, insan hüquq və azadlıqlarının müdafiəsinə təminat verən yeni konsepsiya işlənib hazırlanmalı idi və Heydər Əliyev bu konsepsiyaya uyğun hüquqi dövlətin Azərbaycan modelini yaratdı.

1995-ci ildə Ulu Öndərin bilavasitə rəhbərliyi və müəllifliyi ilə müstəqil Azərbaycan Respublikasının ilk Milli Konstitusiyası qəbul olundu. Dünyada nadir konstitusiyalardan olan ölkəmizin Əsas Qanununda demokratik hüquqi dövlətin qurulması məqsəd kimi bəyan edilmiş, onun konsepsiyası müəyyən olunmuşdur. Hüquqi dövlətin 3 əsas komponenti olan qanunun aliliyi, hakimiyyətlərin bölgüsü və qarşılıqlı əlaqəsi, insan və vətəndaş hüquq və azadlıqları Konstitusiyada təsbit olunmuş və təsdiqini tapmışdır.

İmmanuel Kantın "xalqın aliliyi onun iradəsini ifadə edən Konstitusiyanın aliliyi vasitəsilə dövlətin bütün vətəndaşlarının azadlığını, bərabərliyini və müstəqilliyini şərtləndirir" məşhur tezisi Azərbaycan Konstitusiyasının əsasını təşkil edir. Konstitusiyada ilk dəfə olaraq fransız siyasi mütəfəkkiri Monteskyönün irəli sürdüyü və demokratik hüquqi dövlətlərin inkişafında böyük rol oynamış hakimiyyət bölgüsü prinsipi təsbit olunmuşdur.

Qeyd etmək lazımdır ki, insanın və onun hüquq və azadlıqlarının ali dəyər olması, hakimiyyətlərin bölgüsü, Konstitusiyanın birbaşa qüvvəsi və hüquq mənbələrinin konsti-

tusion hüquqi xarakteri barədə müddəaları hüquqi dövlət quruculuğunun əsaslarının müəyyən edilməsində mühüm əhəmiyyətə malikdir.

Konstitusiya normalarında vətəndaş cəmiyyətinin formalaşdırılmasının əsasları, mülkiyyətin xüsusi, dövlət, bələdiyyə formalarının bərabər şəkildə mühafizəsi, sahibkarlıq fəaliyyətinin azadlığı, iqtisadi münasibətlərdə rəqabətin dəstəklənməsi və s. öz əksini tapmışdır.

Növbəti konstitusiya islahatları (2002, 2009 və 2016-cı illərdə) demokratik institutların möhkəmləndirilməsi, hüquq sisteminin beynəlxalq-hüquq, o cümlədən insan hüquqları sahəsində standartlara uyğunlaşdırılması, genişmiqyaslı məhkəmə-hüquq islahatları, vətəndaş cəmiyyətinin inkişafı, siyasi sistemin və idarəçiliyin təkmilləşdirilməsi tədbirləri ilə ilə müşahidə olunmuşdur.

Bu gün dünyada üç əsas əlamətə əsaslanaraq özünü hüquqi dövlət kimi təqdim edən bir çox ölkələr var. Lakin hüquqi dövlət haqqında o zaman danışmaq olar ki, demokratik ənənələr, insan hüquqlarına hörmət, bu hüquqların ədalət mühakiməsi institutları vasitəsilə müdafiəsi kimi hüquqi dövlət dominantları real təmin olunsun.

Ənənəvi hakimiyyətlər bölgüsü konsepsiyasına uyğun olaraq Konstitusiya müəyyən edir ki, icra hakimiyyəti Azərbaycan Respublikasının Prezidentinə mənsubdur, qanunvericilik hakimiyyətini Azərbaycan Respublikasının Parlamenti – Milli Məclisi, məhkəmə hakimiyyətini isə müstəqil məhkəmələr həyata keçirirlər.

Konstitusiya quruculuğunda qanunvericilik sisteminə aid müddəaların Konstitusiyaya bilavasitə daxil edilməsi nadir bir haldır. Yalnız bu cür normaların Konstitusiyaya daxil olması ilə qanunvericilik sisteminin stabilliyi və şəffaflığı təmin edilir. Azərbaycan Respublikasının qanunvericilik sisteminə Konstitusiyadan başqa referendumla qəbul edilmiş aktlar, qanunlar, fərmanlar, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarları, mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktları daxildir.

Respublikamızda qanunun aliliyi prinsipinin möhkəmləndirilməsi, hüquq islahatlarının aparılması sahəsində qanunvericilik, icra və məhkəmə hakimiyyətlərinin qarşılıqlı fəaliyyətinin təmin edilməsi məqsədilə Ulu Öndər Heydər Əliyevin 1996-cı il 21 fevral tarixli Sərəncamı ilə Hüquqi İslahat Komissiyası yaradılmış və Ümummilli Lider həmin komissiyaya bilavasitə rəhbərliyi öz üzərinə götürmüşdür.

Hüquq islahatlarının əsas elementləri qanunların və normativ aktların hazırlanması, məhkəmə və bütövlükdə hüquq-mühafizə sisteminin islahatı, qanunların əhali arasında təbliği və öyrənilməsi kimi mühüm tədbirlərdən ibarətdir.

Bununla bağlı Heydər Əliyev 1996-cı il 8 iyun tarixli Sərəncamla Hüquqi İslahat Komissiyasına beynəlxalq standartlara uyğun "Konstitusiya Məhkəməsi haqqında", "Məhkəmələr və hakimlər haqqında", "Polis haqqında", "Prokurorluq haqqında", "Bələdiyyələr haqqında" və digər qanun layihələrinin hazırlanmasını tapşırmışdı.

Qısa müddətdə hüququn, demək olar ki, bütün sahələrini nizama salan yüzlərlə yeni qanun, habelə məcəllələrin qəbul edilməsi dövlət orqanlarının, o cümlədən məhkəmələrin, ədliyyə və hüquq-mühafizə orqanlarının statusunu və fəaliyyət istiqamətlərini müəyyən etməklə hüquqi dövlətin demokratik cəmiyyətdə zəruri olan qanunvericilik bazası yaradılmışdır.

Tarixin heç bir dövründə cəmiyyət iti sürətlə dəyişikliklərə uğramamış, insan faktoru, insan hüquq və azadlıqları dövrün aktual, birinci dərəcəli vacib məsələsinə çevrilməmişdir.

Dünyada çox az ölkə tapılar ki, belə qısa müddətdə hüquq islahatları sahəsində bu cür nailiyyətlər əldə etmiş olsun. Avropa ölkələrinin bu sahədəki fəaliyyətinə nəzər yetirsək görərik ki, İtaliyanın yeni Cinayət-Prosessual Məcəlləsi onilliklər ərzində onun bir neçə

layihəsi hazırlanaraq qəbul edilmiş, Qərbi Avropa ölkələrinin mülki məcəllələrindən ən yenisi sayılan Hollandiyanın Mülki Məcəlləsinin hazırlanmasına 40 ildən çox vaxt sərf edilmiş, Fransa Cinayət Məcəlləsi üzərində işi 20 ilə, İsveç 30 ilə başa çatdırmışdır.

Lakin Azərbaycanın Cinayət, Mülki, Cinayət-Prosessual və Mülki-Prosessual məcəllələri inkişaf etmiş həmin Avropa ölkələrindən fərqli olaraq, iki-üç il müddətində hazırlanıb qəbul olunmuşdur.

Demokratik hüquqi dövlətin əsas atributlarından biri insan hüquq və azadlıqlarının etibarlı təmin olunmasıdır. Ölkə Konstitusiyasında dövlətin ali məqsədi kimi bəyan edilmiş insan hüquqlarının qorunması sahəsində mühüm addımlar atılmışdır.

İnsan hüquq və azadlıqlarına böyük əhəmiyyət verən Ulu Öndər Heydər Əliyevin imzaladığı "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" 1998-ci il 22 fevral tarixli Fərmanda bu sahədə həyata keçirilən tədbirlərin istiqaməti və konsepsiyası səhih müəyyən edilmiş, insan hüquqları məsələsi ümumdövlət səviyyəsinə qaldırılmışdır. Bu sahədə ilk fundamental sənəd olan Dövlət Proqramının fəlsəfəsi də sonralar qəbul olunan milli fəaliyyət planları ilə inkişaf etdirilmişdir.

Bu sahədə atılan ən mühüm addımlardan biri ölüm cəzasının ləğvi olmuşdur. Ulu Öndər Heydər Əliyevin humanist siyasətinin təzahürü olaraq 1993-cü ildə bu cəzanın icrasına veto qoyulmuş, 1998-ci ildə isə tamamilə ləğv edilmişdir. Bununla Azərbaycan Şərqdə ölüm hökmü cəzasını ləğv edən ilk ölkə kimi tarixə düşmüşdür.

Heydər Əliyevin bu tarixi addımı fəlsəfi, hüquqi düşüncələrə, dərin elmi təhlilə, dünya təcrübəsinə və reallığa əsaslanaraq şəxsiyyətə və insan hüquqlarına nə dərəcədə böyük hörmət və əhəmiyyət verdiyini təsdiqləyir. Ölüm cəzasının ləğvi Azərbaycanın demokratik hüquqi dövlət quruculuğu yolunda olduğunu bir daha sübut etmişdir.

Humanist siyasətin nəticəsi olaraq çoxdan unudulmuş əfv və amnistiya institutları da bərpa olunaraq cinayət törətmiş şəxslərin bağışlanması müsbət ənənəyə çevrilmişdir.

2001-ci ildə Konstitusiya Qanunu əsasında yaradılmış Ombudsman institutu da insan hüquq və azadlıqlarının təmin olunması sahəsində vacib rol oynayır. Ombudsman vətəndaşların pozulmuş hüquqlarının bərpası, onların pozulması hallarının qarşısının alınması ilə məşğul olur, ümumilikdə hüquqların təmin edilməsi vəziyyətini öyrənir, hüquqi maarifləndirmə və elmi-analitik işi həyata keçirir, hər il Milli Məclisdə çıxış edərək öz fəaliyyəti haqqında ictimaiyyət üçün hesabat təqdim edir, bu hüquqları pozan şəxsləri ifşa edir, insan hüquq və azadlıqlarının təmin olunması istiqamətində təklif və tövsiyələrini verir.

Xüsusilə qeyd etmək lazımdır ki, ədalət mühakiməsi olmadan hüquqi dövlət, insan hüquqları və demokratiya ola bilməz. Məşhur fransız mütəfəkkiri Pol-Anri Qolbaxın dediyi kimi, "ədalət mühakiməsi bütün ictimai məziyyətlərin əsasıdır".

Ədalət mühakiməsinin müstəqil və qərəzsiz məhkəmələr tərəfindən həyata keçirilməsi ideyası əsrlərdir ki, ədalətli cəmiyyətin əsas təməl daşlarından biridir.

Çoxəsrlik dövlətçilik tarixi olan Azərbaycanda hələ qədim dövrlərdə yaranmış dövlətlərdə məhkəmələrin fəaliyyətində müstəqillik, tərəflərin bərabərliyi və çəkişmə kimi mühüm prinsiplərin elementləri, xüsusilə də çoxpillələlik institutu mövcud olmuşdur. Orta əsrlərdə «Qazan xan islahatları» kimi tanınan hüquq islahatı zamanı məhkəmələrin müstəqilliyinə, ədalətliliyinə və kənar müdaxilədən qorunmasına xüsusi diqqət yetirilmişdir. Şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyəti dövründə də hüquq sisteminin formalaşması, mütərəqqi məhkəmə islahatının aparılması üçün önəmli addımlar atılmışdır.

Ölkəmizin SSRİ-nin tərkibinə daxil olduğu 70 illik dövrdə isə ədalətli mühakimə və müstəqil məhkəmə sadəcə olaraq mümkünsüz idi.

Qeyd etmək lazımdır ki, məhkəmə hakimiyyəti dövlət hakimiyyəti sistemində qanunvericilik və icra hakimiyyəti tərəfindən hüquq normalarının, ilk növbədə konstitusion normaların pozulmasının qarşısını alaraq dövlətlə vətəndaş arasında hüquq münasibətlərinin tənzimlənməsində tarazlayıcı rol oynayır.

Bu mənada demokratik, hüquqi dövlət quruculuğu prosesində Ulu Öndər Heydər Əliyev müstəqil məhkəmə hakimiyyətinin bərqərar edilməsinə xüsusi diqqət yetirmişdir. 1995-ci ildə Konstitusiyamızın qəbulu ilə ölkəmizdə məhkəmə hakimiyyəti dövlət hakimiyyətinin müstəqil qolunun bütün atributlarını, o cümlədən hüquqi dövlətin prinsip və vəzifələrinə uyğun olaraq qanunverici və icra hakimiyyəti ilə eyni statusu əldə etmişdir.

Əsas məqsədi Azərbaycan Respublikası Konstitusiyasının aliliyinin təmin edilməsinə yönəldilmiş "Konstitusiya Məhkəməsi haqqında" Qanunun qəbul edilməsi və Konstitusiya Məhkəməsinin təşkil olunması hüquqi dövlət qurmaq amalı ilə yaşayan Azərbaycan Respublikasının tarixində mühüm hadisə olmuşdur.

Konstitusion müddəaların şərtsiz icrasının müdafiəsində duran, normativ hüquqi aktların, dövlət hakimiyyət orqanlarının və vəzifəli şəxslərin hərəkətlərinin Konstitusiyaya uyğunluğuna nəzarəti həyata keçirən Konstitusiya Məhkəməsi hüquqi dövlət üçün mühüm əhəmiyyətə malikdir.

Azərbaycanda Konstitusiya Məhkəməsi məhz belə səlahiyyətlərə malikdir. Onun həyata keçirdiyi nəzarət sahələrinə həmçinin, səlahiyyətlərlə bağlı mübahisələr, vətəndaşların şikayətləri və məhkəmələrin sorğusu əsasında vətəndaşların hüquq və azadlıqlarını pozan qanunların Konstitusiyaya uyğunluğunun yoxlanılması, Konstitusiyasının şərhi və s. məsələlər daxildir.

Konstitusiyada həmçinin, məhkəmənin siyasətsizləşdirilməsi və "departizasiyası" ideyası öz əksini tapmışdır. Əsas Qanunda bəyan edilmiş məhkəmə hakimiyyətinin müstəqilliyi "Məhkəmələr və hakimlər haqqında" 1997-ci il Qanununda inkişaf etdirilərək öz real təminatını tapmış və məhkəmə hakimiyyətinin müstəqil fəaliyyət göstərməsinə hüquqi zəmin yaratmışdır.

Qanun yeni məhkəmə sistemini, onun təşkilati əsaslarını müəyyən edərək, məhkəmələrin və hakimlərin müstəqilliyinin təmin edilməsinə, hər kəsin hüquq və azadlıqlarının məhkəmədə müdafiəsinə təminatın verilməsinə, məhkəmələrin fəaliyyətinin və hakimlərin statusunun beynəlxalq standartlara uyğunlaşdırılmasına yönəlmiş, köhnə hüquq sistemindən miras qalmış korporativ münasibətləri aradan qaldırmışdır.

Xatırlatmaq yerinə düşər ki, sovet məhkəmə sistemi ikipilləli olmaqla, əlavə olaraq işlərə məhkəmədə nəzarət qaydasında baxılmasını da nəzərdə tuturdu. Ali Məhkəmə həm birinci instansiya, həm də kassasiya instansiyası məhkəməsi funksiyalarını həyata keçirməklə yanaşı, həm də qanuni qüvvəyə minmiş məhkəmə qərarlarına nəzarət qaydasında yenidən baxmaq hüququna malik idi.

Dahi Öndər Heydər Əliyevin rəhbərliyi ilə aparılmış köklü məhkəmə-hüquq islahatları nəticəsində keçmiş sovet məhkəmə sistemi ləğv edilərək 2000-ci ildən yeni, üçpilləli müstəqil məhkəmə sistemi fəaliyyətə başlamışdır.

Yeni məhkəmə quruluşu işlərə birinci instansiya məhkəmələrində baxılmasına, onların hüquqa və fakta görə apelyasiya qaydasında yenidən baxılmasına, daha sonra isə məhkəmə qərarlarına hüquqa görə kassasiya qaydasında yoxlanılmasına imkan verir. Bu isə, öz növbəsində birinci instansiya məhkəməsinin buraxdığı səhvlərin yuxarı məhkəmə

instansiyalarında aradan qaldırılmasına, işlərin mahiyyətcə və prosessual baxımdan düzgün və obyektiv həll edilməsinə, süründürməçiliyin aradan qaldırılmasına zəmin yaradır.

Məhkəmə qərarlarının qanuniliyi üzərində prokuror nəzarətinin aradan qaldırılması, prokurorun məhkəmədə yalnız tərəf kimi iştirak etməsi, ittiham tərəfi ilə müdafiə tərəfi arasındakı tarazlığın bərpa edilməsi və onların məhkəmə prosesində bərabər hüquqlara malik olması, məhkəmə icraatının çəkişmə prinsipi əsasında həyata keçirilməsi, məhkəmə icraatında qeyri-prosessual münasibətlərə yol verilməməsi və bu kimi yeniliklər məhkəmə hakimiyyətinin yüksək statusa malik olmaqla onun müstəqilliyinin möhkəmləndirilməsinə, fəaliyyətinin toxunulmazlığına xidmət etmişdir.

Ölkədə demokratikləşmənin dərinləşməsi, hüquqi dövlətin formalaşması, qanunun aliliyi, insan hüquqlarının qorunması prinsiplərinin gerçəkləşməsi hər bir demokratik cəmiyyətə xas olan yerli özünüidarəetmənin formalaşmasına da imkan yaratmışdır.

Azərbaycan üçün gənc olan bu institutun yaradılmasına Konstitusiyada bələdiyyələrin təşkili və fəaliyyətinin əsas prinsiplərinin təsbit olunması ilə başlanılmış, bu sahədə zəruri normativ hüquqi baza yaradılaraq 1999-cu ildə Azərbaycanın tarixində demokratik əsaslarla ilk bələdiyyə seçkiləri keçirilmişdir.

Bələdiyyələrin təşəkkül tapması fəal qanunyaradıcı fəaliyyət ilə müşayiət olunmuş, "Yerli özünüidarə haqqında" Avropa Xartiyası ratifikasiya edilmiş, yerli özünüidarə orqanlarının fəaliyyətini tənzimləyən çoxsaylı qanun və normativ-hüquqi aktlar qəbul olunmuşdur. Avropa Şurasının Yerli və Regional Hakimiyyətlər Konqresi ilə əməkdaşlıqda yerli demokratiyanın möhkəmləndirilməsi və inkişafı, onların işinin əlaqələndirilməsi məqsədilə bələdiyyələrin milli assosiasiyaları yaradılmışdır.

Bundan əlavə, hüquqi dövlətdə mühüm rola malik olan vətəndaş cəmiyyətinin ölkənin ictimai-siyasi həyatında fəaliyyətinə hər cür şərait yaradılmış, demokratik sistemin təşəkkülü prosesi çoxsaylı siyasi partiyaların və ictimai təşkilatların intensiv surətdə yaranması ilə müşayiət olunmuşdur. Respublikamızda fəaliyyət göstərən onlarca siyasi partiya və yüzlərlə qeyri-hökumət təşkilatları ölkənin ictimai-siyasi həyatında yaxından iştirak edirlər.

Beləliklə, Ümummilli Lider Heydər Əliyevin qurub yaratdığı müasir müstəqil Azərbaycanda qanunun aliliyi, insan hüquqlarının təmini sahəsində effektiv müdafiə mexanizmləri, demokratik təsisatlar, mükəmməl qanunvericilik bazası, konstitusiya nəzarəti, demokratik ədalət mühakiməsi prinsiplərinə əsaslanan yeni üçpilləli məhkəmə sistemi formalaşdırıldı, hüquq-mühafizə orqanlarının fəaliyyəti təkmilləşdirildi, yerli demokratiya bərqərar edildi, vətəndaş cəmiyyətinin inkişafına geniş imkanlar yaradıldı.

Ulu Öndərin təməlini qoyduğu demokratik hüquqi dövlət quruculuğu prosesi bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirilir. Azərbaycan tarixinin Heydər Əliyev dönəmində aparılan və gələcəyə hesablanmış köklü hərtərəfli islahatlar müasir çağırışlara uyğun həyata keçirilərək beynəlxalq aləmdə təqdir olunan mühüm nailiyyətlər qazanılır.

Ən əsası isə, müstəqilliyimizin ilk illərində hüquqi dövlət quruculuğuna ciddi mane olan torpaqlarımızın Ermənistan tərəfindən işğalına 44 günlük Vətən müharibəsində Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə son qoyularaq tarixi ədalət bərpa olunmuş, Ulu Öndər Heydər Əliyevin ən ümdə vəsiyyəti və xalqımızın arzusu reallığa çevrilmişdir.

**İstifadə olunmuş ədəbiyyat siyahısı**

1. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr. Birinci kitab: iyun, 1993 – may, 1994 / Bakı, 1997, 612 s.
2. "Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 29 sentyabr tarixli Sərəncamı
3. Aristotel. Politika. Bakı, 1997, 280 s.
4. Müstəqil Azərbaycan / Hüquqi dövlət quruculuğu
(https://republic.preslib.az/az_a6.html)
5. Azərbaycan Respublikası 1991-2001. Bakı, XXI-Yeni Nəşrlər Evi, 2001, 280 s.
6. "Müasir hüquq sisteminin formalaşmasında Heydər Əliyevin rolu" / Elmi-praktiki konfransın materialları / Bakı, 2013, 138 s.

## X Ü L A S Ə

Məqalədə hüquqi dövlətin təməl prinsipləri, o cümlədən Heydər Əliyev epoxasında müstəqil Azərbaycanda demokratik hüquqi dövlət quruculuğu məsələləri elmi cəhətdən araşdırılmışdır.

Müəllif 1995-ci ildə Ulu Öndərin bilavasitə rəhbərliyi və müəllifliyi ilə ilk Konstitusiyanın qəbulu, insanın və onun hüquq və azadlıqlarının ali dəyər kimi bərqərar olunması, qanunun aliliyi, hakimiyyət bölgüsü, məhkəmə-hüquq islahatlarının hüquqi dövlət konsepsiyası kontekstində hərtərəfli təhlil etmiş, tarixi xronoloji prizmadan hüquqi dövlətin əsas elementlərinə geniş elmi yanaşma ortaya qoymuşdur.

Məqalədə belə nəticəyə gəlinir ki, Ümummilli Lider Heydər Əliyevin qurub yaratdığı müasir hüquqi dövlət qanunun aliliyi, insan hüquqlarının təmini, demokratik təsisatlar, mükəmməl qanunvericilik bazası, üçpilləli məhkəmə sistemi, konstitusiya nəzarəti və yerli vətəndaş cəmiyyətinin inkişafı üçün imkan yaratmış, bu proses bu gün ölkə Prezidenti İlham Əliyev tərəfindən müasir çağırışlara uyğun davam etdirilir.

**Камран Джафаров**
**старший консультант**
**отдела международного права и международного сотрудничества**
**Аппарата Конституционного Суда Азербайджанской Республики**

## Гейдар Алиев и построение демократического правового государства в Азербайджане

## Р Е З Ю М Е

В статье приводится научный анализ основополагающих принципов правового государства, в том числе вопросы построения демократического правового государства в независимом Азербайджане в период правления Гейдара Алиева.

Автор провел всесторонний анализ в контексте концепции правового принятия первой Конституции в 1995 году под непосредственным руководством и авторством Великого Лидера, утверждения человека и его прав и свобод как высшей ценности, верховенства закона, разделения властей, судебно-правовых реформ государства, а

также подошел к основным элементам государства с широкой научной и исторической точки зрения.

В статье сделан вывод о том, что современное правовое государство, созданное национальным лидером Гейдаром Алиевым, предоставляет возможности для верховенства закона, прав человека, демократических институтов, совершенной правовой базы, трехуровневой судебной системы, конституционного контроля и развития местного гражданского общества, а президент Ильхам Алиев продолжает этот процесс с учетом современных вызовов.

**Kamran Jafarov**
**Senior adviser of the**
**Department of International Law and International Cooperation of the**
**Secretariat of the Constitutional Court of the Republic of Azerbaijan**

**Heydar Aliyev and building a democratic legal state in Azerbaijan**

**SUMMARY**

In the article, the fundamental principles of the legal state, including questions of democratic legal state construction in independent Azerbaijan during the governance of Heydar Aliyev, were analysed from a scholarly perspective.

The author comprehensively analysed the adoption of the first Constitution in 1995 under the direct leadership and authorship of the Great Leader, the establishment of the human and their rights and freedoms as the highest value, the rule of law, separation of powers, judicial and legal reforms in the context of the concept of the legal state and revealed a broad scientific approach to the principal elements of the state from a historical standpoint.

The article concludes that the modern legal state established by national leader Heydar Aliyev has created opportunities for the rule of law, human rights, democratic institutions, a perfect legal framework, a three-tier court system, constitutional control, and the development of local civil society, with President Ilham Aliyev continuing this process in response to contemporary challenges.

***Вафа МАМЕДОВА***

Член Всемирной Ассоциации Медицинского Права,
д.ф.п.п.

# ГЕЙДАР АЛИЕВ И ПОЛИТИКА УСОВЕРШЕНСТВОВАНИЯ ЗАКОНОДАТЕЛЬСТВА АЗЕРБАЙДЖАНА В ОБЛАСТИ ЗАЩИТЫ ПРАВ И СВОБОД ЧЕЛОВЕКА

***Açar sözlər:*** *Ümummilli Lider Heydər Əliyev, Azərbaycan, siyasət, hüquq, dövlətçilik, qanun, insan hüquqları.*

***Ключевые слова:*** *Общенациональный Лидер Гейдар Алиев, Азербайджан, политика, право, государственность, закон, права человека.*

***Keywords:*** *National Leader Heydar Aliyev, Azerbaijan, politics, law, statehood, legislation, human rights.*

Имя Общенационального Лидера Гейдара Алиева как строителя государственности страны, навсегда вписано в историю Азербайджанской Республики (АР). Великое наследие Гейдара Алиева продолжает исследоваться и по сей день. Его заслуги, в качестве лидера государства и как мудрого политика, требуют глубокого анализа, поскольку именно усилиями Г. Алиева была создана платформа, обеспечившая современное развитие страны. Дальновидная, мудрая политика, несгибаемая воля, патриотизм и любовь к своей родине, к народу позволили великому политику Гейдару Алиеву реализовать идею укрепления государственности.

Сегодня в 2023 году, изучая биографию и жизненный путь Г. Алиева, мы вдохновляемся значимостью его идей, которые продолжают оставаться актуальными, несмотря на быстроменяющийся мир и геополитическую обстановку в мире. Его идеи и личный пример способствовали сплоченности народа в столь непростое время – 90-е годы XX века, когда страна находилась в состоянии войны и экономического упадка. Он верил в свою страну, в ее народ и своим примером показывал путь для дальнейшего движения вперед, что является первостепенной задачей настоящего лидера.

Величие личности Гейдара Алиева признается на мировом уровне. Занимавший должность первого заместителя председателя Совета Министров СССР Г. Алиев, продолжал заботиться о Родине и прилагал усилия для обеспечения развития страны, что было вовсе непросто в те времена. Еще тогда он старался развивать азербайджанскую культуру как часть государственной политики.

В тяжелые дни истории страны, оставаясь верным своей политической идеологии, проявляя мужество, он отстаивал права азербайджанского населения, жестко осудив трагические события 20 января 1990 года. Даже находясь в Москве 21 января 1990 года, он проявил настоящий патриотизм, выступив на встрече в постоянном представительстве Азербайджана в Москве [1]. Он отстаивал справедливую позицию

защиты прав граждан Азербайджана, несмотря на оказываемое на него со стороны давление, и поддерживал идею национального единства.

Гейдар Алиев, всегда отстаивавший права граждан, подверг осуждению этнические чистки, имевшие место в результате массовой депортации азербайджанцев из Армении, 18 декабря 1997 года принял «Указ о массовой депортации азербайджанцев в 1948-1953 годах из исторических и этнических земель Армянской ССР», проявив решительность в раскрытии исторической истины [2].

Защита прав человека всегда стояла во главе политических решений Гейдара Алиева. Так, он говорил о своей деятельности [3]:

«Создание правового государства в нашей республике, построение демократического, цивилизованного общества, обеспечение свободы человека, свободы слова, свободы совести, современного плюрализма, установление многопартийности – принципы, принятые нами с самого начала.»

Более того, говоря о своей деятельности он также отмечал, что в ее основе лежат именно демократические принципы, которые, как известно, позволяют обеспечить максимальную защиту прав и свобод человека.

Начало 90-х годов прошлого века, когда по требованию народа 15 июня 1993 года, Общенациональный Лидер Гейдар Алиев вернулся к власти, являлось одним из наиболее сложных исторических этапов для Азербайджана. Перед Г. Алиевым в те годы стояло множество задач, каждая из которых требовала неотложного внимания. Более того, немаловажно отметить, что Азербайджан является многонациональной республикой, в которой политикой Гейдара Алиева были заложены идеи мультикультурализма и уважения прав человека, вне зависимости от политических взглядов, национальности, и т.д.

С момента возвращения к руководству страной, одним из основных направлений концепции развития независимого Азербайджана для Гейдара Алиева было осуществление правовых реформ. Основным лейтмотивом проводимых под руководством Общенационального лидера реформ были слова: «Наш путь – путь демократии» [4, с.99]. Стандарты государственного функционирования, заложенные Гейдаром Алиевым, основывались на обеспечении прав и свобод человека, включая политические и другие права. Большое внимание было уделено формированию политического плюрализма и обеспечению многопартийной системы, что обеспечивало свободу слова, как одну из основных прав демократической системы.

Гармонизация национального законодательства в соответствии с принципами международного права занимала важное место в контексте строительства правового государства. Так, одним из важных решений, принятых Г. Алиевым сразу после возвращения к руководству, стало введение моратория на смертную казнь, которая позже – в 1998 году была полностью отменена. Соответственно, Азербайджан стал первой страной на Востоке, где было принято подобное решение [5]. В соответствии с данными решениями были созданы соответствующие комиссии о помиловании.

В контексте строительства правового государства и защиты прав человека важно отметить принятие Основного Закона страны – Конституции, принятой на всенародном голосовании 12 ноября 1995 года. Принятие Конституции стало важным шагом в направлении закрепления правовых норм, обеспечивающих основные права и свободы человека. Более того, отечественная законодательная база стала обновляться в соответствии с международными стандартами, в том числе договорами, к которым присоединилась страна. Политика Общенационального Лидера Г. Алиева всегда

основывалась на обеспечении защиты интересов населения и политических перспектив, поэтому он уделял важное значение укреплению международного сотрудничества с различными государствами и международными организациями, а после принятия Конституции данный процесс получил законодательное оформление.

Принятие данного документа, подготовленного под руководством Гейдара Алиева, имело историческое значение, поскольку она стала первой гражданской Конституцией независимого государства. Данный документ базировался на принципах права, демократии и закрепил светский характер государства, а также разделение властей. Более того, в ней нашло отражение установление единственного источника государственной власти, которым являлся народ. Таким образом, был обеспечен высший принцип любого демократического общества, основанного на уважении прав и свобод человека.

С принятием Конституции начался новый этап построения правового государства и гражданского общества. Законодательство нашей страны стало интегрироваться в международные правовые нормы. Наша страна стала полноправным участником международного права. Это позволило начать процесс развития различных процессуальных средств защиты прав человека на международном уровне [6].

Определение перспективных направлений и приоритетов развития демократических ценностей, а также прав и свобод человека занимало важное место в политике Общенационального Лидера Г. Алиева. Одним из важных законодательных мер в этом направлении стало принятие 9 августа 1994 года Указа «О мерах по усилению борьбы с преступностью, укреплению законности и правопорядка» [7]. С принятием данного документа были обозначены бескомпромиссные и решительные меры борьбы против коррупции, а также установлена соответствующая программа действий правоохранительных органов.

Комиссия по правовой реформе была создана указом Гейдара Алиева от 21 февраля 1996 года. Основным направлением деятельности Комиссии была подготовка гражданских, демократических законов на основе международного опыта [8]. Данная Комиссия должна была определять приоритетные направления дальнейших реформ в области права, базируясь на международном опыте строительства правовых систем развитых стран.

Создание института Омбудсмена (уполномоченного по правам человека) стало еще одним важным шагом в контексте укрепления и защиты прав человека. Его учреждение стало логическим продолжением политики строительства правового государства Гейдаром Алиевым. Основываясь на идее обеспечения прав человека как главной обязанности государства 22 февраля 1998 года им был принят соответствующий Указ «О мерах в области обеспечения прав и свобод человека и гражданина». Именно, в соответствии с «Государственной программой по защите прав человека», утвержденной Указом от 18 июня 1998 года, обеспечивалось создание института Уполномоченного по правам человека [9].

90-е годы прошлого столетия с точки зрения права имели огромное значение, поскольку после восстановления независимости в 1991 году требовалось создание нового, современного законодательства. В эти годы было принято большое количество законов, которые позволили законодательно утвердить права граждан страны. Так, были приняты следующие законы АР:

– «О защите прав потребителей» (19 сентября 1995 г.)

– «О социальном страховании» (18 февраля 1997 г.)

– «О судах и судьях» (10 июня 1997 г.)

– «Об охране здоровья населения» (26 июня 1997.)

– «О порядке рассмотрения обращений граждан» (10 июня 1997 г.). Данный закон позже был заменен обновленным законом «Об обращениях граждан», принятым в 2015 г.

– «О правах детей» (19 мая 1998 г.)

– «О свободе информации» (19 июня 1998 г.)

– «О статусе беженцев и вынужденных переселенцев (лиц, перемещенных внутри страны)» (21 мая 1999 г.)

– «О социальной защите перемещенных лиц и приравненных к ним лиц» (21 мая 1999 г.)

– «О праве граждан на обращение в суд с жалобами на решения и действия (бездействие), нарушающие права и свободы человека» (11 июня 1999 г.) и многие другие правовые документы, позволяющие обеспечить законность и защиту прав человека в различных сферах жизни.

Защита прав лиц, пострадавших в результате оккупации азербайджанских земель со стороны Армении, всегда находилась в центре внимания и государственной политики Г. Алиева. Вопросы вынужденных переселенцев регулируются Государственным комитетом по делам беженцев и вынужденных переселенцев, созданным в 1993 году. Нужно отметить, что для обеспечения социальных прав вынужденных переселенцев в 1999 году соответствующим Указом Президента был создан Фонд социального развития вынужденных переселенцев [10]. В 1998 году Указом Президента АР была утверждена «Государственная программа решения проблем беженцев и вынужденных переселенцев».

Развитие отношений с международными организациями занимало важное место в контексте демократизации общества. Одной из таких структур является Совет Европы (СЕ), программа сотрудничества с которым была принята в июне 1996 горда. Именно в рамках данного сотрудничества осуществлялось множество консультаций по проведению правовых реформ. Различные правовые документы, принятые в 90-е годы, такие как «Закон О судах и судьях», Указ Президента АР от 18 июля 1998 года «Об обеспечении деятельности Конституционного Суда Азербайджанской Республики» и т.д. создали прочную платформу защиты прав и свобод человека и позволили значительно усовершенствовать судебно-правовую деятельность.

Стоит отметить, что политика Гейдара Алиева в контексте прав человека была многовекторной. Он уделял внимание не только законодательному регулированию, но и постоянному его усовершенствованию, которое требовало изучения международного опыта. Так, 30 ноября 1998 года в соответствии с Указом Президента АР Гейдара Алиева, при Национальной Академии Наук Азербайджана был создан Научно-исследовательский институт по правам человека, который и по сей день продолжает работу в качестве структуры, анализирующей правовые проблемы и современные подходы к их решению, изучая международный опыт. В соответствии с имеющейся информацией, Общенациональным Лидером было подписано около 150 различных правовых документов, включая законы, указы, распоряжения [11], которые охватывали различные сферы жизни, связанные с реализацией прав и свобод человека.

Мудрая и дальновидная политика Общенационального Лидера Гейдара Алиева позволила обеспечить правовую основу защиты прав лиц, пострадавших в результате оккупационной политики со стороны Армении. Так, ему удалось обеспечить дости-

жение режима прекращения огня в результате подписания соглашения в рамках Будапештского саммита ОБСЕ 1994 года. В ходе же Лиссабонского саммита 1996 года Азербайджану, под руководством Г. Алиева удалось достичь принятия принципов урегулирования конфликта, которые базировались на признании территориальной целостности Азербайджана [12].

Отметим, что важным событием в призме развития прав человека в стране, стало вхождение Азербайджана в январе 2001 года в СЕ. Помимо того, что данное событие стало подтверждением демократизации и развития правовой системы государства, оно также усилило интеграционные процессы в контексте правовой системы Европы. После вступления нашей страны в данную организацию, граждане государства получили право обращения в Европейский Суд по правам человека. В рамках сотрудничества с СЕ важную роль играет Венецианская Комиссия, которая функционирует в рамках оказания помощи странам в направлении демократизации национального законодательства. После вступления в СЕ, в 2001 году Азербайджан подписал «Конвенцию по Правам Человека и Защите Основных Свобод» и ее Протоколы.

В декабре 2002 года в рамках осуществления действий по приведению отечественных стандартов в сфере прав человека в соответствие с Европейской конвенцией по правам человека, был принят Конституционный Закон «О регулировании прав и свобод человека в Азербайджанской Республике» [13].

Приведенные данные свидетельствуют о том, что Общенациональный Лидер Гейдар Алиев стоял у истоков государственного строительства современной АР. С первых дней нахождения у власти, он продолжал строительство правовой системы, которая отвечает требованием демократии, права и соответствует интересам гражданского общества. Этот процесс, начатый в 90-е годы 20 века, был последовательно продолжен политикой Президента страны Ильхама Алиева. Модернизация правовой системы страны, обновление существующих законов и разработка новых, обеспечивают современное развитие правовой системы Азербайджана в соответствии с высокими стандартами, обеспечивающими права и свободы граждан страны.

## Список использованной литературы

1. Əliyev, H.Ə. Şəxsi mövqe. Prezident kitabxanası. Bakı: “Azərbaycan” nəşriyyatı, – 1994. URL: http://ebook.yap.az/pdf/RldECuWoVi
2. Sərdərov, Z. Heydər Əliyev və milli mübarizə tariximiz. Bakı: “CBS” nəşriyyatı, – 2008, – 166 s.
3. Əliyev, H.Ə. Müstəqillik yolu. Seçilmiş fikirlər. – Bakı: “Azərbaycan Universiteti” nəşriyyatı, – 1997, – 136 s.
4. Heydər Əliyev. Kitab Yeni Azərbaycan Partiyasının və Heydər Əliyev Mərkəzinin birgə layihəsi çərçivəsində 2013-cü ildə nəşr olunmuşdur, – 167 s.
5. Əsgərov A. Səs. – 2010, – 7 may, – s. 5-6. URL:
http://anl.az/down/meqale/ses/2010/may/118456.htm
6. Heydər Əliyev ideyaları və dərin islahatlar strategiyası. Bakı – 2017, – 736 s.
7. Heydər Əliyev və Qanunçuluq. Bakı: “Adiloğlu” nəşriyyatı, – 2008, – 432 s.
8. Kazımov E. Hüquqi islahatlar uğurlu nəticələr verir, – 22.11.2012 – Respublika qəzeti: [Elektron resurs] / Azərbaycan Respublikası Məhkəmə-Hüquq Şurası. URL: http://www.judicialcouncil.gov.az/Meqaleler/22112012-5.pdf

9. Təsisatın yaranma tarixi: [Elektron resurs] / Ombudsman. Azərbaycan Respublikasinin İnsan hüquqlari üzrə müvəkkili. URL: https://ombudsman.az/az/view/pages/172
10. Hacımusalı O. 20 iyun Ümumdünya Qaçqınlar Günüdür. – Yeni Azərbaycan, – 2013. – 20 iyun. – s. 6.
11. Heydər Əliyev və Azərbaycan polisi: [Elektron resurs] / Bakı şəhər Baş Polis İdarəsinin rəsmi internet saytı. URL: https://www.bakupolice.gov.az/?/az/menu/45/
12. Армяно-азербайджанский конфликт: [Электронный ресурс] / Официальный сайт Президента Азербайджанской Республики. URL: https://president.az/ru/pages/view/azerbaijan/karabakh
13. Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında Azərbaycan Respublikasinin Konstitusiya Qanunu: [Elektron resurs] / E-qanun.az. Ədliyyə Nazirliyinin İnformasiya – kommunikasiya Texnologiyaları İdarəsi. URL: https://e-qanun.az/framework/1881

**Vəfa Məmmədova**
**Dünya Tibbi Hüquq Assosiasiyasının üzvü,**
**Hüquq üzrə fəlsəfə doktoru**

## Heydər Əliyev və insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində Azərbaycan qanunvericiliyinin təkmilləşdirilməsi siyasəti

### X Ü L A S Ə

Məqalədə 1991-ci ildə müstəqillik bərpa etdikdən sonra və xalqın tələbi ilə hakimiyyətə qayıdışı ilə Ümummilli Lider Heydər Əliyevin müdrik və uzaqgörən siyasəti nəticəsində əsası qoyulmuş Azərbaycan Respublikasının hüquq sisteminin inkişafı araşdırır. Bir sıra qanunlar və insan hüquq və azadlıqlarının müdafiəsi sahəsini əhatə edən əsas hüquqi sənədlər göstərilir. Prioritet sahələrin inkişafı və Avropa Şurası kimi beynəlxalq təşkilatlarla əməkdaşlıq məsələləri nəzərdən keçirilir.

**Vafa Mammadova**
**Member of the World Association for Medical Law,**
**Doctor of Philosophy in Law**

## Heydar Aliyev and the policy of improving the legislation of Azerbaijan in the field of protection of human rights and freedoms

### S U M M A R Y

This paper examines the development of the legal system of the Republic of Azerbaijan after the restoration of independence in 1991, the beginning of which was laid by the wise and far-sighted policy of National Leader Heydar Aliyev, who returned to the power by people demand in 1993. A number of laws and basic legal documents covering the sphere of protection of human rights and freedoms are given. The development of priority areas and cooperation with international organizations such as the Council of Europe are being considered.

***Nazlı ABBASOVA***

DTX-nın Heydər Əliyev adına Akademiyası
Mülki hüquq kafedrasının müəllimi

# HƏRBİ QULLUQÇULARIN SOSİAL HÜQUQLARININ TƏMİNATINDA HƏRBİ HÜQUQUN ƏHƏMİYYƏTİ

***Açar sözlər:*** *hərbi hüquq, hərbi-sosial hüquq, hərbi qulluqçu, hərbi xidmətdən buraxılmış şəxslər, sosial təminat, sosial müdafiə, kompleks sahə, hüquq yarımsahəsi.*

***Ключевые слова:*** *военное право, военно-социальное право, военнослужащий, лица, уволенные с военной службы, социальное обеспечение, социальная защита, комплексная отрасль, подотрасль права.*

***Keywords:*** *military law, military-social law, military serviceman, persons discharged from military service, social security, social protection, complex field, sub-field of law.*

Məlum olduğu kimi, hərbi hüquq kompleks sahədir və özünün hüquqi təbiətinə görə dövlətin müdafiə və hərbi təhlükəsizliyinin təmin olunması sahəsində meydana çıxan ictimai münasibətləri tənzimləyən hüquq normalarının məcmusundan ibarətdir. Hərbi hüququn predmeti qismində qeyd olunan sferada yaranan müxtəlif sahəvi mənsubiyyəti olan hüquq normaları ilə tənzimlənən çoxnövlü ictimai münasibətlər çıxış edir. Hərbi hüquq sahəsi normaların təsadüfi toplusu yaxud mexaniki birləşməsi deyil, mürəkkəb daxili uzlaşma və təşkilatlanmaya malik məqsədyönlü kompleksdir. Bu kompleks daxilində hərbi hüquq normaları və onlara əsaslanan müxtəlif səviyyəli normativ törəmələr: hərbi hüququn yarımsahələri və hərbi hüququn institutları birləşir. Buna görə də, hərbi hüquq barəsində danışarkən dövlətin hərbi hüquq normalarının toplusu deyil, sistemi ifadəsini istifadə etmək daha düzgün olardı.

Professor Kudaçkin A.V. öz əsərlərində hərbi hüququn yarımsahələri olaraq: hərbi konfliktlər hüququ (hərbi əməliyyatlar hüququ), hərbi inzibati hüquq, hərbi cinayət hüququ, hərbi sosial hüquq fərqləndirir, həmçinin hərbi hüququn sisteminə bir sıra hüquq institutlarını: Vətəni müdafiə, hərbi vəzifə və hərbi xidmət, hərbi qulluqçuların hüquqi statusu, hərbi hüququn beynəlxalq aspektlərini (hərbi-texniki əməkdaşlıq, sülhməramlı əməliyyatlar, hərbi dəniz səfərləri və s.) daxil edir (3, стр.12).

Məqalənin mövzusuna uyğun olaraq yuxarıda sadalanan struktur elementlərdən hərbi-sosial hüquq barədə daha təfsilatlı danışmaq lazımdır. Hərbi-sosisal hüququn əhəmiyyəti və onun hərbi hüquq sistemində yeri üç mühüm şərtlə müəyyən edilir:

– Birincisi, bu yarımsahənin normaları öz başlanğıcını Konstitusiyanın 12-ci maddəsindən götürür. Belə ki, Konstitusiyanın 12-ci maddəsində insan və vətəndaş hüquqlarının və azadlıqlarının, vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsi Azərbaycan Respublikasının ali məqsədi kimi müəyyən olunur. Başqa sözlə, Azərbaycan dövlətinin siyasəti insanın layiqli həyatını və sərbəst inkişafını təmin edən şəraitin yaradılmasına yönəlmişdir. Eyni zamanda Konstitusiyanın 35-ci və 38-ci maddələrinə əsasən dövlət ali məqsədinə çatmaq üçün insanların əməyi və sağlamlığını qoruyur, minimum əmək haqqı müəyyən edir, ailə institutu, eləcə də əlillər, ahıllar və digər zəif sosial təbəqələri dövlət dəstəyi ilə təmin edir, sosial xidmət sferasını inkişaf etdirir, pensiya, yardım və digər sosial müdafiə vasitələri müəyyənləşdirir. Bu

baxımdan hərbi-sosial hüququn başlıca vəzifəsi qeyd olunan konstitusion müddəaları dövlətin müdafiəsi və hərbi təhlükəsizlyinin hüquqi təminatı sferasında gerçəkləşdirməkdir.

– İkincisi, hərbi-sosial hüquq dövlətin müdafiə gücünün sosial potensialının hüquqi əsasını təşkil edir. Bu yarımsahə birbaşa dövlətin müdafiə təminatının ən həssas sferasına – insan faktoruna təsir göstərir. Ordu və başqa silahlı birləşmələr müasir silah-sursat və hərbi texnika ilə yüksək səviyyədə təchiz olunsa da, onları idarə edən və tətbiq edən insanlar sosial cəhətdən müdafiə olunmazsa, özləri və ailə üzvlərinin layiqli həyat səviyyəsi üçün zəruri olan şəraitlə təmin olunmazsa, bu texnika adi dəmir parçasına, "ölü yükə" çevrilə bilər. Məhz bu məqamı nəzərə alaraq, Azərbaycan Respublikası Milli Məclisinin 8 iyun 2010-cu il tarixli, 1029-IIIQR nömrəli Qərarı ilə təsdiq edilmiş Azərbaycan Respublikasının Hərbi Doktrinasının 9-cu bəndində qeyd olunmuşdur ki, Azərbaycan Respublikasının hərbi təhlükəsizliyi hərbi, siyasi, iqtisadi, sosial, informasiya, hüquqi və digər tədbirlərin əlaqələndirilməsi vasitəsilə təmin edilir. Eyni zamanda adı çəkilən sənədin 25-ci bəndində göstərilir ki, Azərbaycan Respublikasının müdafiə siyasəti dövlətin hərbi təhlükəsizliyini təmin etmək məqsədi ilə hərbi, siyasi, iqtisadi və sosial tədbirlər əsasında formalaşır və Azərbaycan Respublikasının milli maraqlarının həyata keçirilməsi üçün əlverişli daxili və xarici şəraitin yaradılmasına xidmət edir. Başqa sözlə, hərbi qulluqçuların, eləcə də Silahlı Qüvvələrin strukturlarında qulluq edən mülki şəxslərin hüquq və azadlıqlarının, sosial müdafiəsinin və yüksək həyat səviyyəsinin təminatı dövlətin müdafiə siyasətinin başlıca istiqamətlərindəndir. Bu məqsədlə hazırkı mərhələdə və gələcək perspektivdə Azərbaycan Respublikasının hərbi quruculuğunda əsas prioritet istiqamətlər bunlardır: Silahlı Qüvvələrin hərbi qulluqçularının və mülki işçilərinin sosial müdafiəsinin gücləndirilməsi və onların həyat şəraitinin daim yaxşılaşdırılması; hərbi təhsil verən müəssisələrin strukturunun təkmilləşdirilməsi, maddi-texniki və tədris bazasının yaxşılaşdırılması; hərbi qulluqçular, eləcə də hərbi xidmətdən buraxılmış şəxslər və onların ailə üzvləri üçün sosial təminat səviyyəsinin yüksəldilməsi, habelə bu şəxslər üçün qanunvericiliklə müəyyən edilmiş sosial təminatların realizəsi imkanlarının artırılması; Silahlı Qüvvələrin döyüşqabiliyyətli birliklərinin və hərbi hissələrinin hərbi qulluqçularla komplektləşdirilməsi sisteminin təkmilləşdirilməsi (xüsusilə sıravi və çavuş heyəti vəzifələrinin bağlaşma ilə hərbi xidmətə daxil olan hərbi qulluqçularla komplektləşdirilməsinə üstünlük verilməsi).

– Üçüncüsü, hərbi-sosial hüququn əsas məqsədi hərbi qulluqçuların sosial-hüquqi müdafiəsinin təminatıdır. Bu məqsədə çatmaq üçün kompleks tədbirlər həyata keçirilməlidir. İlk növbədə, hərbi qulluqçuların xidməti fəaliyyətinin xüsusi xarakterindən (obyektiv olaraq) irəli gələn məhdudiyyətlər kompensasiya edilməlidir. Vətəni müdafiə etmək kimi şərəfli işi özünə peşə seçmiş və özünü bu peşəkar fəaliyyətə həsr etmiş şəxsin sosial gözləntiləri reallaşdırılmaqla konkret hərbi qulluqçunun səmərəli xidməti fəaliyyətinə mane ola biləcək arzuolunmaz faktorlar neytrallaşdırılır. Hərbi qulluqçuların sosial hüquqlarının təmnatı sferasına dövlətin müdaxiləsinin zəruriliyi ondan irəli gəlir ki, qanunvericiliyin tələblərinə uyğun olaraq hərbi qulluqçular əlavə ödənişli fəaliyyətlə məşğul olmaq hüququndan məhrumdurlar (Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli, 377-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin 72-ci maddəsinin 3-cü bəndinə əsasən, hərbi qulluqçuların əsas, daimi işi ilə yanaşı, digər pullu işi yerinə yetirmələri qadağandır) və onların və ailə üzvlərinin rifahı bütövlükdə dövlət tərəfindən müəyyən edilmiş maddi təminatın ölçüsündən asılıdır.

Hərbi hüququn tərkibində nisbətən müstəqil element kimi hərbi-sosial hüququn ayrılmasının əsas səbəbi hərbi qanunvericilik sistemində hərbi qulluqçuların, hərbi xidmətdən buraxılmış şəxslərin və onların ailə üzvlərinin sosial müdafiəsi və sosial təminatı sferasını tənzimləyən kifayət qədər çox sayda və müxtəlif növdə normativ hüquqi aktların mövcudluğudur. Həmçinin qeyd olunmalıdır ki, hərbi-sosial hüquq özünəməxsus hüquqi tənzimləmə predmetinə malikdir.

Belə ki, professor Koryakin V.M. bu yarımsahə içərisində bir sıra institutları və subinstitutları fərqləndirir: hərbi qulluqçuların pul təminatı; hərbi xidmətdən buraxılmış şəxslərin və onların ailə üzvlərinin pensiya təminatı; əşya və ərzaq təminatı; mənzil təminatı; hərbi qulluqçuların, hərbi xidmətdən buraxılmış şəxslərin və onların ailə üzvlərinin sağlamlıqlarının qorunması təminatı; hərbi qulluqçuların icbari dövlət sığortası; həssas qrupların (əlillər, ahıllar, veteranlar, həlak olmuş hərbi qulluqçuların ailə üzvləri, çoxuşaqlı hərbi qulluqçu ailələri və sair) sosial təminatı; dövlət qarşısında xüsusi xidmətləri olan hərbi qulluqçuların və hərbi xidmətdən buraxılmış şəxslərin (hərbi əməliyyatların iştirakçıları, müharibə iştirakçıları, müharibə veteranları və sair) sosial müdafiəsi; hərbi xidmətdən buraxılmış şəxslərin sosial adaptasiyası və digərləri (2, стр.19). Hərbi-sosial hüququn predmetinin bu qədər geniş münasibətlər dairəsini əhatə etməsi bu münasibətləri tənzimləyən hüquq normalarının realizəsində çoxsaylı dövlət hakimiyyət orqanlarının (mərkəzi icra hakimiyyəti orqanları, məhkəmə orqanları, hüquq mühafizə orqanları), bəzi hallarda yerli özünüidarəetmə orqanlarının, hətta fərdi qaydada komandirlərin iştirakını zəruri edir.

S.S.Alekseyevin bəzi hüquq normalarının "ikili qeydiyyata" malik olduğu haqqında fikirlərini (1, стр.179-180) tam mənada hərbi-sosial hüquq normalarına şamil etmək olar. Belə ki, bir tərəfdən dövlətin hərbi fəaliyyəti sferasında ictimai münasibətləri tənzimləyən bu normalar hərbi hüququn yarımsahəsini təşkil edir, digər tərəfdən bu normaların əksəriyyəti müstəqil hüquq sahəsi olan sosial təminat hüququna mənsubdur. Bildiyimiz kimi, sosial təminat hüququ dedikdə, a) pul formasında vətəndaşların təminatı ilə bağlı (pensiyalar, yardımlar, kompensasiyalar); b) vətəndaşlara müxtəlif növ sosial xidmətlərin göstərilməsi ilə bağlı (ahıllara, əmək qabiliyyətsiz şəxslərə, işsizlərə, çoxuşaqlı ailələrə və sair göstərilən sosial xidmətlər); c) bu və ya digər növ sosial təminata olan hüquqların müəyyən edilməsi yaxud müdafiə edilməsi üçün hüquqi faktların müəyyənləşdirilməsi ilə bağlı (prosedur və prosessual xarakterli münasibətlər) yaranan ictimai münasibətlər kompleksini spesifik metodlarla tənzimləyən hüquq normalarının məcmusu başa düşülür (4, стр.64-65).

Azərbaycan Respublikası vətəndaşlarının sosial təminat hüququ ilə çox sıx əlaqədə olan hərbi-sosial hüquq hərbi qulluqçuların peşəkar fəaliyyətinin spesifikasından irəli gələn bir sıra fərqləndirici xüsusiyyətlərə malikdir. Bu cür fərqləndirici xüsusiyyətlərə aşağıdakıları aid etmək olar:

1. hüquq mənbələrinin hüquqi qüvvəsinə görə: hərbi-sosial hüquq normaları bir qayda olaraq, qanunlarda, Azərbaycan Respublikası Prezidentinin fərmanlarında, Nazirlər Kabinetinin qərarlarında və qanunvericiliklə hərbi xidmət keçmə nəzərdə tutulan mərkəzi icra hakimiyyəti orqanlarının qərarlarında nəzərdə tutulur. Yerli və regional icra orqanlarının, eləcə də yerli özünüidarəetmə orqanlarının aktları, habelə digər lokal aktlar hərbi-sosial qanunvericiliyin ümumi həcmində əhəmiyyətsiz yer tutur və yardımçı xarakter daşıyır.

2. hüquq normalarının realizəsinin maliyyələşmə mənbələrinə görə: hərbi qulluqçuların, hərbi xidmətdən buraxılmış şəxslərin və onların ailə üzvlərinin sosial təminatının maliyyələşdirilməsi dövlət büdcəsi vəsaitləri hesabına həyata keçirilir. Azərbaycan Respublikasının 23 dekabr 2011-ci il tarixli "Hərbi vəzifə və hərbi xidmət haqqında" Qanununun 49-cu və 51-ci maddələrində hərbi xidmətin maliyyə və maddi təminatının Azərbaycan Respublikası dövlət büdcəsinin, Naxçıvan Muxtar Respublikası büdcəsinin, habelə təşkilatların vəsaiti hesabına həyata keçirildiyi qeyd olunur. Eyni zamanda Azərbaycan Respublikasının 25 dekabr 1991-ci il tarixli "Hərbi qulluqçuların statusu haqqında" Qanununun 9-cu maddəsinin 6-cı bəndində göstərilir ki, "həqiqi hərbi xidmətdən buraxılmış hərbi qulluqçulara maddi yardım göstərilməsi və onların məişət şəraitinin təmin edilməsi üçün yerli icra hakimiyyəti başçıları müəssisələrin, idarələrin, təşkilatların könüllü surətdə ayırdıqları vəsait hesabına hərbi qulluqçuların sosial müdafiəsi fondunu yarada bilər". Göründüyü kimi, qanunvericilik hərbi qulluqçu statusu daşıyan şəxslərin

sosial təminatının yaxşılaşdırılması məqsədilə dövlət büdcəsindən kənar vəsaitlərin istifadə edilməsi imkanını tanıyır, lakin nəzərə almaq lazımdır ki, əhalinin əksər hissəsinin sosial təminatında həlledici rol oynayan büdcədənkənar fondların vəsaiti qeyd olunan kateqoriyadan olan vətəndaşların sosial təminatında ikinci dərəcəli əhəmiyyət daşıyır.

3. sosial təminatın məqsədinə görə: əhalinin sosial təminatının başlıca məqsədi sosial risklərin azaldılması, işsizlik, əlillik, qocalıq və sair səbəblərdən itirilmiş qazancın və digər gəlirlərin əvəzlənməsidir. Hərbi qulluqçuların və hərbi xidmətdən buraxılmış şəxslərin sosial təminatı isə daha çox vicdanlı xidmətə həvəsləndirmək və onların qanunvericiliklə məhdudlaşdırılmış ümumi vətəndaşlıq hüquq və azadlıqlarını kompensasiya etmək məqsədi daşıyır.

4. təqdim edilən sosial güzəştlərin həcminə görə: hərbi qulluqçuların, hərbi xidmətdən buraxılmış şəxslərin və onların ailə üzvlərinin sosial təminatı (pensiya, yardım, sığorta, kompensasiya və digər ödənişlər) digər kateqoriya şəxslərlə müqayisədə daha yüksək olması ilə fərqlənir. Bununla da, hərbi qulluqçuların xidməti fəaliyyətinin xüsusi xarakteri və dövləti əhəmiyyəti vurğulanır. Azərbaycan Respublikasının 25 dekabr 1991-ci il tarixli "Hərbi qulluqçuların statusu haqqında" Qanununun 10-cu maddəsinin 1-ci bəndində hərbi xidmətin xüsusi xarakterinin və dövlət qulluğunun başqa növlərindən üstünlüyünün dövlət tərəfindən nəzərə alındığı vurğulanır.

5. sosial təminatın məzmununa görə: hərbi qulluqçuların, hərbi xidmətdən buraxılmış şəxslərin və onların ailə üzvlərinin sosial təminatı özündə bir sıra spesifik formaları birləşdirir. Bu formalar digər kateqoriya şəxslərin sosial təminat mexanizmində müşahidə olunmur. Məsələn, dövlət hesabına ərzaq və əşya əmlakı təminatı yaxud ərzaq və əşya əmlakı təminatı üçün pul kompensasiyası, mənzil kirayəsi üçün pul kompensasiyası, dəmiryolu, hava, dəniz və avtomobil nəqliyyatında daşımalar sahəsində güzəştlər, fərdi mənzil tikintisi üçün bank krediti üzrə borcu ödəməkdə əvəzsiz maliyyə yardımı və sair hərbi qulluqçular və hərbi xidmətdən buraxılmış şəxslərin sosial təminatının spesifik formalarıdır.

Təəssüf ki, hərbi hüquq sahəsi, eləcə də onun struktur elementi olan hərbi-sosial hüquq yarımsahəsi Azərbaycan hüquq elmi tərəfindən çox az öyrənilmişdir. Hərbi xidmətin spesifikası, hərbi qanunvericiliyin təkmil olmaması, həmçinin hərbi hüquq sahəsində nəzəri elmi araşdırmaların sayının az olması bir sıra hallarda qanunvericilikdə boşluqların və kolliziyaların, hətta hüquq pozuntularının meydana çıxmasına səbəb olur. Bu sahədə gələcək araşdırmalar çərçivəsində sosial dövlət konsepsiyası aspektindən hərbi qulluqçuların, hərbi xidmətdən buraxılmış şəxslərin və onların ailə üzvlərinin sosial hüquqi müdafiəsi imkanlarının öyrənilməsi xüsusilə vacibdir. Belə ki, hərbi-sosial qanunvericilik müəyyən obyektiv şərtlər (hüquqi faktlar) meydana çıxdıqda hər bir kəsə pul ödənişləri, sosial xidmətlər və sosial müdafiə əldə etmək üçün bərabər imkanlar müəyyən edir və cinsinə, irqinə, milliyyətinə, dilinə, dininə, yaşayış yerinə və digər hallara görə bu imkanların məhdudlaşdırılmasına yol vermir. Lakin bu zaman sosial zəmanətlərin növü, həcmi və təminat şərtlərinin differensasiyasını nəzərə almaq lazım gəlir. Bu cür differensasiya meyarı həm obyektiv, həm də subyektiv xarakterli ola bilər. Məsələn, hərbi xidmət yerinin təbii-iqlim şəraiti, vəzifə öhdəliklərinin icrası şəraiti və sair hərbi-sosial hüquq münasibətlərinin iştirakçıları ilə əlaqəli olmayan meyarlardır. Əlillik, ailə başçısının itirilməsi, çoxuşaqlılıq, xidmət illəri və sair bu kimi hallar isə birbaşa münasibət iştirakçıları ilə əlaqəli olan subyektiv meyarlardır. Beləliklə də, hərbi qulluqçunun sosial təminatının həyata keçirilməsi zamanı müxtəlif meyarlar nəzərə alınmaqla qanunvericilik normaları tətbiq edilməlidir.

Məqalədə ifadə olunan fikirlərin nəticəsi kimi hərbi-sosial hüquq yarımsahəsini belə müəyyən etmək olar: Hərbi-sosial hüquq hərbi hüququn yarımsahəsi kimi hərbi qulluqçuların, hərbi xidmətdən buraxılmış şəxslərin və onların ailə üzvlərinin pul təminatı, əşya və ərzaq təminatı, mənzil və məişət təminatı, tibb təminatı, habelə pozulmuş sosial hüquqlarının müdafiəsi və bərpası ilə bağlı ictimai münasibətləri tənzimləyən hüquq normalarının məcmusudur.

**İstifadə olunmuş ədəbiyyat siyahısı**

1. Алексеев С.С. Общая теория права: учеб. 2-е изд. М., Проспект, 2011, 576 с.
2. Корякин В.М. Правовое обеспечение военно-социальной политики Российской Федерации. Монография. М., 2006, 351 с.
3. Кудашкин А.В. «Структурный скелет» отрасли военного права (к вопросу о подотраслях военного права) // Право в Вооруженных Силах. 2021, № 4.
4. Мачульская Е.Е. Право социального обеспечения: учеб. 4-е изд., перераб. и доп. М., Издательства Юрайт, 2023, 449 с.

**Назлы Аббасова**
**Преподаватель кафедры гражданского права**
**Академии СГБ имени Гейдара Алиева**

**Значение военного права в обеспечении социальных прав военнослужащих**

**Р Е З Ю М Е**

В статье военное право рассматривается как комплексная отрасль отечественной правовой системы, а также военно-социальное право изучается как одна из важнейших подотраслей военного права. Показаны место и роль данной подотрасли военного права в правовом обеспечении военнослужащих, лиц, уволенных с военной службы и членов их семей, выяснены основные признаки военно-социального права, позволяющие говорить о его институционализации. Рассмотрены отличительные особенности военно-социального права как элемента общей системы права социального обеспечения, показан предмет правового регулирования указанной подотрасли военного права.

**Nazli Abbasova**
**Lecturer of the Department of Civil Law of**
**the Academy of the State Security Service named after Heydar Aliyev**

**The importance of military law in social welfare of military personnel**

**S U M M A R Y**

The article considers military law as a complex branch of the national legal system, as well as military social law as one of the most important sub-branches of military law. The place and role of this sub-branch of military law in the legal support of military personnel, persons discharged from military service and members of their families are shown, the main features of military social law are clarified, allowing us to talk about its institutionalization. Distinctive features of military social law as an element of the general system of social security law are considered, the subject of legal regulation of this sub-branch of military law is shown.

***Zümrüd ƏLİZADƏ***

Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Ədliyyə Akademiyasının
Mülki hüquq və mülki proses kafedrasının müəllimi,
Bakı Dövlət Universiteti Hüquq fakültəsinin
İnsan hüquqları və İnformasiya hüququ UNESCO kafedrasının müəllimi

# HEYDƏR ƏLIYEV – MÜSTƏQIL AZƏRBAYCANDA İNSAN HÜQUQLARI SIYASƏTININ VƏ HÜQUQI DÖVLƏTIN BANISI

***Açar sözlər:*** *Heydər Əliyev, insan hüquqları, İlham Əliyev, humanizm siyasəti, konstitusiya, Ombudsman, ölüm hökmü, hüquq və azadlıqlar, beynəlxalq təşkilatlar*

***Ключевые слова:*** *Гейдар Алиев, права человека, Ильхам Алиев, политика гуманизма, конституция, Омбудсмен, смертная казнь, права и свободы, международные организации*

***Keywords:*** *Heydar Aliyev, human rights, Ilham Aliyev, humanism policy, constitution, Ombudsman, death penalty, rights and freedoms, international organisations*

İnsan hüquq və azadlıqlarının təmin edilməsi müasir dünyada davamlı və demokratik inkişafın ayrılmaz hissəsi, bəşəriyyətin mənəvi-hüquqi və siyasi ideallarının ali təzahürü olmaqla, vətəndaş cəmiyyətinin yetkinliyinin başlıca meyarı sayılır. İnsan hüquqları ləyaqət, ədalət, bərabərlik, hörmət və müstəqillik kimi ortaq dəyərlərə əsaslanır. Bu dəyərlər qanunla müəyyən edilir, qorunur və sülhün, tərəqqinin təməli kimi çıxış edir. Bütün sivil dövlətlərdə ümumi qayğı və məsuliyyət predmeti kimi nəzərdən keçirilən bu meyarlar müstəqil Azərbaycan Respublikasının ictimai-siyasi həyatında da özünə möhkəm yer tapmışdır.

Ölkəmiz dövlət müstəqilliyini bərpa etdikdən sonra beynəlxalq hüququn müstəqil subyekti kimi tarixin sınağından uğurla çıxmış ümumbəşəri dəyərlərin üstünlüyünü qəbul edərək demokratik, hüquqi və dünyəvi dövlət quruculuğunu, eyni zamanda, bəşər sivilizasiyasının idealları olan azadlığı, insan hüquqlarını, ədaləti və sülhü özünün inkişaf yolu seçmişdir.

İnsan hüquqları amili xalqımızın Ümummilli Lideri Heydər Əliyevin fəaliyyətinin əsası olmuşdur. Ulu Öndərimiz sivil, dünyəvi dövlət quruculuğu prosesinin ilkin şərti kimi fundamental insan hüquq və azadlıqlarının müdafiəsi zərurətini, ona şərait yaradılmasının vacibliyini həmişə xüsusi qeyd etmişdir. Ümummilli lider Heydər Əliyev 1993-cü ilin iyununda respublikamızda hakimiyyətə qayıdışından sonra ölkəmizdə qanunçuluğun təmin olunmasını, vətəndaş hüquq və azadlıqlarının yüksək səviyyədə qorunmasını özünün başlıca fəaliyyət prinsiplərindən biri elan etmiş, bu ali məqsədlərin gerçəkləşdirilməsinə yönəlmiş çoxşaxəli islahatların həyata keçirilməsini daim diqqətdə saxlamışdır.

Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi altında ümumbəşəri dəyərlərə, demokratik ənənələrə, insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi və təminatına əsaslanan vətəndaş cəmiyyəti quruculuğu, demokratik hüquqi dövlət və buna uyğun insan hüquqları sisteminin yaradılması istiqamətində respublikamızda mühüm islahatlar həyata keçirilmiş, insan hüquq və azadlıqlarının təmin olunması dövlətin ali məqsədi elan edilmişdir.

Ulu Öndər çıxışlarından birində deyirdi: "Biz istəyirik ki, dövlətimiz tam demokratik, tam hüquqi, tam dünyəvi bir dövlət olsun. Bunun üçün də Azərbaycanda demokratiyanın bərqərar olması, inkişaf etdirilməsi, hüquqi aliliyin təmin olunması əsas vəzifəmizdir". Şübhəsiz ki, bu istiqamətlərdə atılan ən əhəmiyyətli addımlardan biri Konstitusiyamızın qəbul edilməsi idi. Dahi öndərimiz yeni Konstitusiya layihəsinin hazırlanması ilə bağlı xüsusi yaradılmış Komissiyaya şəxsən rəhbərlik etmişdir. 1995-ci ilin noyabrında ümumxalq səsverməsi yolu ilə qəbul olunmuş Konstitusiyamızın müəllifi məhz Ümummilli Liderimiz Heydər Əliyevdir. Dahi lider həmin Komissiyanın 10 noyabr 1995-ci il tarixli iclasında demişdi: "Komissiyanın sədri kimi mən bu böyük tarixi sənədin hazırlanmasında öz şəxsi məsuliyyətimi daim dərk etmişəm, bu gün də dərk edirəm. Ona görə də bu sənədin hazırlanmasına xeyli vaxt sərf etmişəm. Haqqım var deyəm ki, çox zəhmət çəkmişəm. Hər bir kəlmənin, hər bir sözün mənasını dəfələrlə araşdırmışam, onun bu gün üçün, gələcək üçün nə qədər əsaslı olmasını dəfələrlə təhlil etmişəm. Mən çox rahatlıq hissi ilə bu layihənin altından imza atıram və bu layihəyə görə tam cavabdeh olduğumu bu gün bəyan edirəm. Hesab edirəm ki, biz Azərbaycanın bu günü, gələcəyi üçün çox böyük bir sənəd – siyasi, hüquqi sənəd yaratmışıq". Ulu Öndər tərəfindən hazırlanan dövlətimizin əsas qanunu – Konstitusiyamızda insan hüquq və azadlıqlarının təminatı dövlətin ali məqsədi olaraq bəyan edilmiş, onun üçdə bir hissəsi məhz bu mövzuya həsr edilmişdir. Bu mütərəqqi sənəd demokratik və hüquqi dövlətin bütün əsas prinsiplərini-qanunun aliliyi, insan hüquqlarının müdafiəsi, hakimiyyət bölgüsü, konstitusiya nəzarəti prinsipləri təsbit etmişdir.

Qeyd etmək istərdim ki, İnsan hüquqlarının qorunmasına ciddi əhəmiyyət verən Ümummilli Liderimizin 1998-ci ildə imzaladığı "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" Fərmanı ilə bu sahədə həyata keçirilən tədbirlərin istiqaməti aydın şəkildə müəyyən edilmiş, insan hüquqları məsələsi ümumdövlət səviyyəsinə qaldırılmışdır.

İnsan hüquqları siyasətindən danışarkən ən mühüm addımlardan birini – Ulu Öndərin təşəbbüsü və bəyanatı ilə Şərqdə ilk dəfə olaraq Azərbaycanda ölüm hökmünün ləğv edilməsini xüsusən vurğulamaq lazımdır. Dahi lider Heydər Əliyev cinayət-hüquq siyasətini hərtərəfli təhlil edərək, ədalət, azadlıq, humanizm və insanpərvərlik kimi yüksək idealları əsas götürmüş və ölkəmizdə ölüm cəzasının ləğv edilməsi qənaətinə gələrək bu tarixi bəyanatı vermişdir. Bu tarixi əhəmiyyətli sənəd Azərbaycan dövlətinin apardığı humanist siyasətin parlaq nümunəsinə çevrilmişdir. Ulu Öndərin insan hüquq və azadlıqlarının prioritetliyini əsas götürməklə, bərpa etdiyi əfv və amnistiya aktları da öz növbəsində mühüm əhəmiyyət daşıyır. Əfv və amnistiya aktları böyük tərbiyəvi əhəmiyyət kəsb etməklə, cəmiyyətdə mənəvi dəyərlərin və humanizm ənənələrinin qorunmasında ciddi addım olmuşdur. Əlbəttə ki, bu humanist siyasət dövlət başçımız cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilmiş, bu vaxtadək minlərlə məhkum əfv və amnistiya aktlarının tətbiq edilməsi nəticəsində azadlığa buraxılmışdır. Eləcə də, Ümummilli Liderimizin adını daşıyan Heydər Əliyev Fondunun prezidenti, Azərbaycan Respublikasının birinci vitse presidenti Mehriban xanım Əliyevanının təşəbbüsü ilə istər minlərlə şəxsə şamil olunmuş amnistiya aktlarının qəbul edilməsi, istərsə də bəşəri əhəmiyyətli xeyirxahlıq layihələrinin həyata keçirilməsi Heydər Əliyev irsini layiqli şəkildə təbliğ etməklə, humanizm siyasətinin mühüm göstəricilərindən biridir.

Müstəqilliyini bərpa etmiş Azərbaycanda İnsan hüquqları üzrə müvəkkil (Ombudsman) təsisatının yaradılması ideyası ilk dəfə 22 fevral 1998-ci il tarixdə Ulu Öndər Heydər Əliyev tərəfindən imzalanmış "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" Fərmanla gündəmə gəlmiş, bundan qısa müddət sonra

18 iyun tarixli Sərənjamla təsdiq edilmiş "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı"nda isə həmin institutun yaradılması ilə bağlı konkret tapşırıq nəzərdə tutulmuşdur. Hazırda müxtəlif idarəetmə formalarına və hüquq sistemlərinə malik olan 100-dən artıq dövlətdə fəaliyyət göstərən Ombudsman təsisatının Azərbaycanda yaradılmasını da insan hüquqlarının müdafiəsi sahəsində aparılan demokratik hüquqi islahatlar şərtləndirmişdir.

Ölkəmiz üçün yenilik olan Ombudsman institutunun təsis olunması ilə bağlı dövlət, ictimai və beynəlxalq qurumlarla əməkdaşlıqda gərgin iş aparılaraq konkret strategiya müəyyən edilmiş, son nəticədə 28 dekabr 2001-ci il tarixdə İnsan hüquqları üzrə müvəkkil institutu təsis olunaraq onun yüksək hüquqi statusu, dövlət orqanları və vəzifəli şəxslər tərəfindən pozulan insan hüquq və azadlıqlarının bərpa olunması mexanizmi Konstitusiyamızın ayrılmaz hissəsi olan Konstitusiya Qanunu səviyyəsində müəyyən olunmuşdur.

Ötən dövrdə Azərbaycanda bu institut uğurlu inkişaf yolu keçərək daha da müasirləşmiş, normativ-hüquqi bazası yenilənmiş, səlahiyyət dairəsi genişlənmişdir. Bununla bağlı İnsan hüquqları üzrə müvəkkil (ombudsman) haqqında Konstitusiya Qanununa 8 dəfə dəyişiklik edilmiş, bütövlükdə isə bu institutun tətbiqindən irəli gələn 50-dən çox normativ hüquqi akt qəbul olunmuşdur. İnsan hüquqları üzrə müvəkkilin öz vəzifələrini lazımı qaydada yerinə yetirməsi üçün beynəlxalq təcrübədə mövcud olan bütün təminatlar, o cümlədən dəyişilməzliyi, toxunulmazlığı, hər hansı dövlət orqanı, vəzifəli şəxs tərəfindən onun fəaliyyətinə müdaxilə edilməsinin yolverilməzliyi, maddi və sosial təminatları qanunvericilikdə öz əksini tapmışdır. Azərbaycanda Ombudsmanın fəaliyyəti bir çox dünya ölkələri ilə müqayisədə daha çoxşaxəlidir və İnsan hüquqları üzrə Müvəkkil bu gün uşaq hüquqlarının qorunması, informasiya əldə etmək hüququnun dövlət orqanları tərəfindən təmin edilməsi və s. sahələrdə çox mühüm funksiyaları yerinə yetirir. Məhkəmələrdə süründürməçilik, sənədlərin itirilməsi və vaxtında verilməməsi, məhkəmə qərarlarının icrasının gecikdirilməsi ilə əlaqədar şikayətlərə baxmaq, istənilən vaxt, maneəsiz və əvvəlcədən xəbərdarlıq etmədən saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi yerlərə daxil olmaq, həmin yerlərin rəhbərliyi tərəfindən qəbul edilmək, saxlanılan şəxslərlə görüşmək və təkbətək söhbət etmək kimi hüquqların verilməsi bu təsisatın operativ fəaliyyətinə, insanları narahat edən məsələlərin təxirə salınmadan həllinə imkan verir. BMT-nin "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"sının Fakültativ Protokolunda nəzərdə tutulmuş milli preventiv mexanizmin funksiyalarının məhz Ombudsmana həvalə olunması da dövlətin bu quruma böyük etimadının göstəricisi olmuşdur.

Qeyd etmək lazımdır ki, Ulu Öndərin siyasi hakimiyyətə qayıdışından sonra insan hüquqlarına ciddi töhfə verən istiqamətlərdən biri də nüfuzlu beynəlxalq təşkilatlarla qurulan uğurlu əməkdaşlıqlar olmuşdur. Birləşmiş Millətlər Təşkilatı, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı, Avropa Şurası, İslam Konfransı Təşkilatı, Müstəqil Dövlətlər Birliyi və digər təşkilatlarla, həmçinin NATO və Avropa Birliyi kimi qurumlarla əməkdaşlıq dövlətimizin müstəqillik əldə etdikdən sonra tutduğu qloballaşma, demokratikləşmə və inteqrasiya siyasətinin, eləcə də insan hüquqlarının təminatı mexanizmlərinin möhkəmlənməsi üçün əhəmiyyətli rol oynadı.

BMT ilə geniş əlaqələr quran Azərbaycan əməkdaşlığın müxtəlif vasitələrindən istifadə edir. Əməkdaşlığın səmərəli şəkildə həyata keçirilməsi üçün Azərbaycan Respublikası BMT-nin bir çox xüsusi qurum və orqanları ilə fəal və effektiv əməkdaşlıq edir. Onların sırasında BMT-nin Təhsil, Elm və Mədəniyyət Təşkilatı (UNESCO), BMT-nin İnkişaf

Proqramı (BMT İP), BMT-nin Uşaq Fondu (UNICEF), Sənaye İnkişaf Təşkilatı (UNIDO), Ümumdünya Səhiyyə Təşkilatı (ÜST), Ümumdünya Ərzaq Proqramı (ÜƏP), BMTnin Əhali Fondu (UNFPA), BMT-nin Qadınlar Fondu (UNIFEM), Atom Enerjisi üzrə Beynəlxalq Agentlik, Nüvə Sınaqlarının Hərtərəfli Qadağan olunması haqqında Müqavilə Təşkilatı və s. qeyd etmək olar.

Hal-hazırda Azərbaycan Respublikası BMT-nin təhsil, elm və mədəniyyət təşkilatı olan UNESCO ilə geniş əməkdaşlıq edir. Bu məqsədlə 1994-cü ildə Azərbaycan Respublikası Prezidentinin sərəncamına əsasən Azərbaycanın UNESCO nəzdində Milli Komissiyası təsis edilmişdir. Azərbaycan – UNESCO əlaqələri ölkənin təhsil, elm və mədəniyyət sahələrində inkişafına yardım məqsədilə uğurla həyata keçirilir. Azərbaycan–UNESCO münasibətlərinin inkişafında, bu münasibətlərin canlanması və gücləndirilməsində Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva əvəzolunmaz rola malikdir. 2004-cü ilin avqustunda Mehriban Əliyeva ənənəvi musiqinin, ədəbiyyat və poeziyanın inkişafına verdiyi töhfələrə, musiqi təhsili və dünya mədəniyyətlərinin mübadiləsi sahəsindəki xidmətlərinə və UNESCO-nun ideyalarına göstərdiyi sadiqliyə görə bu təşkilatın şifahi ənənələr və musiqi ənənələri sahəsində xoşməramlı səfiri adına layiq görülmüşdür.

Mehriban Əliyeva mədəni-mənəvi dəyərlərin qorunub saxlanmasına verdiyi töhfələrə görə 2006-cı ilin martında BMT-nin Ümumdünya Əqli Mülkiyyət Təşkilatının (WIPO) qızıl medalına layiq görülüb.

Azərbaycanın BMT-nin Uşaq Fondu (UNICEF) ilə əməkdaşlıq sazişini Prezident Heydər Əliyev 1994-cü ildə BMT Baş Assambleyasının sessiyasında iştirakı zamanı imzalamışdır. Azərbaycanla UNICEF arasında əməkdaşlıq qaçqın və məcburi köçkün uşaq və yeniyetmələr arasında vəziyyətin yaxşılaşdırılması məqsədilə bərqərar olmuşdur. BMT ən kəskin təsirə məruz qalmış qaçqın və məcburi köçkünlərin qidalanma vəziyyətini nəzarətdə saxlamaq üçün 1993-cü ildə özünün fövqəladə ərzaq proqramının – Ümumdünya Ərzaq Proqramının (ÜƏP) icrasına başlamışdır. Bu proqram çərçivəsində münaqişənin ilk illərində qaçqın və məcburi köçkünləri təxminən 160.000 ton qarışıq ərzaq malları ilə təmin etmişdir.

Azərbaycan BMT-nin xüsusi qurumları qismində BMT-nin İnkişaf Proqramı və Sənaye İnkişafı Təşkilatı ilə xüsusi əlaqələrə malikdir. Müxtəlif layihə və proqramlar yaşayış standartlarının yüksəldilməsinə, iqtisadiyyatın struktur tənzimlənməsinin həyata keçirilməsinə xidmət edir.

Azərbaycan Respublikası həmçinin BMT-nin 2000-ci ilin sentyabrında elan olunmuş Minilliyin İnkişaf Məqsədləri (MİM) layihəsinin fəal iştirakçısıdır. Belə ki, 2000-ci ilin əvvəllərində Azərbaycanda BMT yeni mərhələyə qədəm qoymuş ölkənin inkişaf planı hesab edilən və əhalinin ən zəif təbəqələrinin (məcburi köçkünlər, yaşlılar, xüsusilə də kənd yerlərində qadınların başçılıq etdiyi ev təsərrüfatları, risk altında olan uşaqlar, gənclər və b.) yaşayış səviyyəsinin yüksəldilməsini məqsəd kimi qarşıya qoyan 2003-2005-ci illər üçün yoxsulluğun azaldılması üzrə ilk milli strategiyanın işlənib hazırlanması və həyata keçirilməsi ilə hökumətin MİM-lərə nail olmaq səylərinə dəstək göstərmək üçün beynəlxalq icma ilə tərəfdaşlıq etmişdir.

Azərbaycan yoxsulluqla mübarizədə əldə olunan nailiyyətlərə və əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində həyata keçirilən uğurlu siyasətə görə BMT tərəfindən mükafatlara layiq görülmüşdür. Prezident İlham Əliyev tərəfindən də bu əməkdaşlıq uğurla davam etdirilir. 2015-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev əhalinin sosial rifahının yaxşılaşdırılması istiqamətində ölkə rəhbərliyinin siyasi iradəsi, bununla əlaqədar həyata keçirilən dövlət proqramları, savadsızlığın və yoxsulluğun minimuma endirilməsi

və Minilliyin İnkişaf Məqsədlərinin uğurla həyata keçirilməsi istiqamətində görülən tədbirlərə görə “Cənub-Cənub” mükafatı ilə təltif olunmuşdur.

2015-ci il noyabrın 12-də Mehriban Əliyevaya Azərbaycanda qadınların və uşaqların hüquqlarının qorunması, həmçinin gender bərabərliyi sahəsində göstərdiyi xidmətlərə görə BMT-nin Əhali Fondunun xatirə diplomu və hədiyyəsi təqdim edilib. Həmin ildə dövlətimiz qeyd olunan sahədə nailiyyətlərinə görə BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) xüsusi diplomuna layiq görülmüşdür. Qeyd edək ki, bu qurum dünyada aclıqla mübarizə, ərzaq təhlükəsizliyinin təmin olunması, kənd təsərrüfatı, meşə və balıqçılıq təsərrüfatının səmərəliliyinin artırılması, sağlam ərzaq sistemlərini yaratmaq kimi vəzifələri qarşısına məqsəd qoymuşdur. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva fəaliyyətində bu məqsədlərə nail olmağa töhfə verdiyinə, humanitar və ekologiya sahəsindəki uğurlu fəaliyyətinə görə 2015-ci ildə “FAO-nun xoşməramlı səfiri” adına layiq görülmüşdür.

2017-ci ilin mayında Bakıda IV Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində “Ərzaq təhlükəsizliyi və dayanıqlı cəmiyyət naminə mədəniyyətlərarası dialoq: Davamlı inkişaf və sülhün təmin olunması üçün əsas elementlər” mövzusunda ikinci plenar sessiya keçirilib. BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının xoşməramlı səfiri Leyla Əliyeva sessiyada çıxış etmişdir. BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının baş katibi ofisinin attaşesi Rəşad əl-Xafaci sessiyanın müasir dünya üçün çox əhəmiyyətli bir mövzuya həsr olunduğunu vurğulayaraq, IV Qlobal Forumun yüksək səviyyədə təşkilinə görə Azərbaycan rəhbərliyinə təşəkkürünü bildirmişdir.

Azərbaycan neft və təbii qaz ehtiyatları ilə zəngin olan, ekoloji cəhətdən gərgin regionda yerləşən bir ölkə kimi ekoloji problemlərin yaratdığı təhlükələrin aradan qaldırılması məqsədilə BMT-nin Ətraf Mühit Proqramı (UNEP) ilə uğurlu əməkdaşlıq edir. Ətraf mühitin qorunması, yaşadığımız dünyanın gələcək nəsillər üçün təhlükəsiz məkana çevrilməsi baxımından hər birimizin üzərinə ciddi məsuliyyət düşdüyünü nəzərə alaraq, IDEA (Ətraf Mühitin Mühafizəsi naminə Beynəlxalq Dialoq) İctimai Birliyinin sədri, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə ölkəmizdə UNEP ilə əməkdaşlıq çərçivəsində“Yaşıl həftə” konfransları reallaşdırılaraq dünyanın müxtəlif ölkələrindən olan gənc ekoloqların şəbəkələşməsi təmin edilmişdir. Ətraf mühit məsələləri və fəaliyyətlər barədə ictimai maarifləndirmə, gənclərlə əməkdaşlıq, ətraf mühit problemləri sahəsində təhsil və onlar üçün düzgün həllər tapmaq məqsədilə qeyd olunan əməkdaşlıq çərçivəsində fəaliyyət uğurlu şəkildə bu gün də davam etdirilməkdədir.

Azərbaycan 2014-cü ildə Gənclər siyasəti üzrə I Qlobal Foruma və 2016-cı ildə BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumuna ev sahibliyi etmişdir. 2020-ci il sentyabrın 21-də BMT Baş Assambleyasının 75-ci Sessiyası çərçivəsində BMT-nin 75 illiyinə həsr edilmiş Yüksək Səviyyəli İclas keçirilib. Prezident İlham Əliyevə həm Azərbaycanın dövlət başçısı, həm də Qoşulmama Hərəkatının sədri kimi iclasda videoformatda çıxış edib.

Dövlət başçısı həmin zaman çıxışında BMT-ni və beynəlxalq ictimaiyyəti xəbərdar edərək bildirmişdi ki, təcavüzkar ritorika və təxribatlar Ermənistanın Azərbaycana qarşı yeni təcavüzə hazırlaşdığını nümayiş etdirir. Təxribatların baş verməsinə və gərginliyin artırılmasına görə məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür.

2020-ci ilin dekabrın 3-də Nyu-Yorkda BMT Baş Assambleyasının koronavirus xəstəliyi – COVID-19 ilə mübarizəyə həsr edilən xüsusi sessiyası keçirilib. BMT Baş Assambleyasının COVID-19 pandemiyasına qarşı Xüsusi Sessiyasının keçirilməsi Azərbaycan tərəfindən Qoşulmama Hərəkatı adından irəli sürülmüşdür. Azərbaycan

Respublikasının Prezidenti, Qoşulmama Hərəkatının Sədri İlham Əliyev sessiyada video-formatda çıxış edib.

2021-ci il sentyabrın 24-də BMT Baş Assambleyasının 76-cı sessiyasında çıxış edən Prezident İlham Əliyev "peyvənd millətçiliyi"ni, varlı və kasıb ölkələr arasında peyvəndlərə əlçatanlıqla bağlı qeyri-bərabərliyi bir daha tənqid etmiş və bütün ölkələr üçün peyvəndlərdən istifadə məqsədilə bərabər imkanların təmin olunması ilə bağlı Azərbaycan tərəfindən Qoşulmama Hərəkatı adından BMT Baş Assambleyasında qətnamənin irəli sürüləcəyini elan etmişdir.

Dövlət başçısı çıxışı zamanı Azərbaycan BMT Nizamnaməsinin 51-ci maddəsində təsbit edilmiş özünümüdafiə hüququndan istifadə edərək 2020-ci il 27 sentyabr tarixindən öz ərazisində Ermənistana qarşı əks-hücum əməliyyatına başladığını vurğulamışdır. 44 gün davam edən müharibə ərzində Azərbaycan işğal olunmuş ərazilərinin azad etmişdir. Beləliklə, Azərbaycan BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icrasını özü təmin edib.

2021-ci il dekabrın 16-da Azərbaycan tərəfindən Qoşulmama Hərəkatı adından irəli sürülmüş COVID-19 əleyhinə peyvəndlərə bütün ölkələrin bərabər, münasib, vaxtında və universal əlçatanlığının təmin edilməsi ilə bağlı qətnamə BMT Baş Assambleyasında 179 ölkənin dəstəyi ilə qəbul olunub.

Bu qətnamənin qəbul edilməsi ilə beynəlxalq ictimaiyyət Prezident İlham Əliyevin COVID-19 pandemiyasına, "peyvənd millətçiliyi"nə qarşı təşəbbüslərini bir daha dəstəklədiyini nümayiş etdirdi.

BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsi Azərbaycan üçün xüsusi əhəmiyyət kəsb edir. 2021-ci il üzrə Dayanıqlı İnkişaf Hesabatında Azərbaycan regionda ən yaxşı nəticə göstərərək 165 ölkə arasında 55-ci yeri tutmuşdur. Hesabatda Azərbaycanın yoxsulluğun azaldılması, səhiyyə, qidalanma, qadınların əmək bazarında iştirakı, təmiz su və sanitariya, enerjiyə əlçatanlıq, internet istifadəsi, nəsli kəsilmək təhlükəsi olan canlıların mühafizəsi, əhalinin rifahının yaxşılaşdırılması, şəhər və yaşayış məntəqələrinin dayanıqlı inkişafı sahələrində əldə etdiyi tərəqqi vurğulanır.

Hal-hazırda Azərbaycan öz xarici siyasətində beynəlxalq hüququn ali prinsiplərini əsas götürərək, müxtəlif mədəniyyətlərin dinc şəkildə birlikdə yaşaması, dini tolerantlıq, fundamental insan hüquqlarının müdafiəsi, təhsil və yaradıcılıq hüquqlarının qorunması, iqtisadi və sosial sahələrdə davamlı inkişafın təmin edilməsini uğurla həyata keçirməkdədir. Bu isə imkan verir ki, gələcəkdə də Azərbaycan BMT-nin ixtisaslaşdırılmış təsisatları ilə əməkdaşlığı onların əhatə etdiyi bütün prioritet sahələr üzrə yüksələn xətt üzrə inkişaf etdirsin və dövlətimiz tərəfindən yeni nailiyyətlər və uğurlar qazanılsın.

Bu gün BMT ailəsinin tamhüquqlu üzvü olan Azərbaycan, dünyada sülhün və təhlükəsizliyin bərqərar edilməsi naminə yeritdiyi siyasət sayəsində dövlətlər arasında layiqli yer tutmuşdur.

11 sentyabr 1996-cı ildə AŞ Nazirlər Komitəsinin 573-cü iclasında Azərbaycanın Avropa Şurasına daxil olması ümummilli liderimiz Heydər Əliyevin həyata keçirdiyi ardıcıl və məqsədyönlü siyasətin nəticəsində mümkün olmuşdur. Məhz onun təşəbbüsü ilə Azərbaycanda 1993-cü ildən ölüm cəzasına moratorium qoyulmuş, 1998-ci ildə isə ləğv edilmişdir. Ölüm cəzasının ləğvi və cəza siyasətinin humanistləşdirilməsi, insan hüquqları təminatının prioret olaraq müəyyən edilməsi Azərbaycanın Avropa ailəsinə qoşulmasını təmin edən mühüm amillərdən biri olmuşdur. 17 yanvar 2001-ci ildə AŞ Nazirlər Komitəsinin nümayəndələr səviyyəsində keçirilmiş iclasında Azərbaycan Respublikasının Avropa Şurasına tamhüquqlu üzv qəbul edilməsinə dair qərar qəbul edilmişdir.

Heydər Əliyev 25 yanvar 2001-ci ildə Strasburqda Avropa Şurası Parlament Assambleyasındakı tarixi çıxışında qurumla ölkəmiz arasındakı qarşılıqlı münasibətlərin əsas istiqamətlərini müəyyənləşdirdi. Azərbaycan Respublikası 15 aprel 2002-ci il tarixdə Avropa İnsan Hüquqları Konvensiyası və onun Protokollarının ratifikasiya edilməsi haqqında sənədi depozitariyə təqdim etmiş və həmin gündən Konvensiya və onun Protokolları Azərbaycana münasibətdə qüvvəyə minmişdir. Bakıda Avropa Şurasının bir çox tədbirləri keçirilir. Üzv dövlətlərin mədəniyyət nazirlərinin "Mədəniyyətlərarası dialoq Avropa və onun qonşu regionlarında davamlı inkişafın və sülhün əsasıdır" mövzusunda konfransı da böyük əhəmiyyət kəsb edir.

2010-cu il mayın 25-də Bakıda keçirilmiş Avropa Şurasının qadınlar və kişilər arasında bərabərlik məsələlərinə məsul nazirlərinin "Gender bərabərliyi: de-yure və de-fakto bərabərliyinin təmin olunması" mövzusunda VII konfransı da bu baxımdan əlamətdardır. Konfransda Azərbaycanın birinci vitse prezidenti, UNESCO və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva iştirak etmişdi. 2011-ci il yanvarın 26-da AŞ-nın binasında ölkəmizin AŞ-na üzvlüyünün 10 illiyi münasibətilə rəsmi qəbul keçirilmişdir. Tədbirdə həm Azərbaycandan, həm də Avropa Şurasından yüksək vəzifəli şəxslər iştirak etmişdir. Avropa Şurası Nazirlər Komitəsinin 2014-cü il mayın 6-da Vyanada keçirilmiş 124-cü Sessiyasında Avropa Şurası Nazirlər Komitəsinə Sədrlik Avstriyadan Azərbaycana keçmişdir. 2014-cü ilin iyun ayının 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Avropa Şurası Parlament Assambleyasının yay sessiyasında nitq söyləmişdir.

2014-cü ildə Avropa Şurasının Azərbaycan üçün 2014-2016-cı illəri əhatə edən Fəaliyyət Planı təsdiq edilmişdir. AŞ ilə Azərbaycan arasında əməkdaşlığın mühüm sənədi hesab olunan Fəaliyyət Planı çərçivəsində müxtəlif sahələr üzrə bir çox layihə və tədbirlər həyata keçirilmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2022-ci il 4 aprel tarixində Avropa Şurasının Baş katibi xanım Mariya Peyçinoviç Buriçin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edərkən Azərbaycanla Avropa Şurası arasında 2022–2025-ci illəri əhatə edən Fəaliyyət Proqramının qəbul olunacağını qeyd edib. Mariya Peyçinoviç Buriç Avropa Şurasının Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşması və iki ölkənin cəmiyyətləri arasında etimadın qurulması prosesində platforma rolunu oynamağa hazır olduğunu bildirmişdi.

Hazırda, Azərbaycan Respublikası Avropa Şurası çərçivəsində qəbul edilmiş 60-dan çox beynəlxalq konvensiyanın iştirakçısıdır. Azərbaycan Respublikası Milli Məclisinin AŞPA-dakı nümayəndə heyəti 6 həqiqi və 6 əvəzedici üzv olmaqla, ümumilikdə 12 üzvdən ibarətdir. Nümayəndə heyəti sessiyanın gündəliyinə uyğun olaraq Azərbaycanın maraq və mənafelərinə xidmət edən təşəbbüslər irəli sürür, müvafiq sənədlər üzrə müzakirələrdə fəal iştirak edir.

Hal-hazırda dövlət başçımız İlham Əliyev tərəfindən uğurla davam etdirilən humanizm siyasəti ölkədə insan hüquq və azadlıqlarının qorunması və təminatının əsaslarından biri kimi çıxış edir. Azərbaycan müstəqillik əldə etməsindən bu günədək keçən dövrdə insan hüquq və azadlıqlarının təminatı ilə bağlı gördüyü işlərlə regionda qabaqcıl ölkələrdən biri olmağa davam edir.

## İstifadə olunmuş ədəbiyyat siyahısı

1. Azərbaycan Respublikasının Konstitusiyası
2. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar.

Doqquzuncu kitab: mart, 1997 – may, 1997 / bur. məsul R. Mehdiyev. – Bakı: Azərnəşr, 2000. – 466 s.

3. Heydər Əliyev. Yaqub Mahmudov, II cild

4. Heydər Əliyev. Müstəqillik yolu: seçilmiş fikirlər / H. Əliyev; red. Ə. Həsənov. – B.: Azərbaycan Universiteti nəşriyyatı, 1997.- 136 s.

5. Mahmudov Yaqub. Azərbaycan: qısa dövlətçilik tarixi /Y. M. Mahmudov; elmi red.M. N. Mirzəyev; red. E. M. Lətifova. – B.: Təhsil, 2005.- 140 s.

6. Mehdiyev Ramiz. Milli məfkurə, dövlətçilik, müstəqillik yolu ilə: məqalələr, çıxışlar, müsahibələr I cild: İyun 1971 – iyun 2001 /red. A. Aslanov, V. Musayev. – B.: XXI-YNE, 2006.- 624 s.

7. Андриянов, Виктор Иванович. Гейдар Алиев /В.И.Андриянов, Г.Ф.Мираламов. – М.: Молодая гвардия, 2005.- 396 с.

8. Towards the future / "Heydar Aliyev's Heritage" International On-line Library; ed. V. Suleymanov; trans. T. Guliyev. -Baku, 2004.- 72 p.

9. Azerbaijan / ed. T. Dragadze. – London: Melisende, 2000. – 175 p

10. Dövlət, demokratiya, qanunçuluq haqqında: çıxış və nitqlərdən sitatlar /tərt. H. T. İsmayılov. – n. y.- 39

## XÜLASƏ

Bu məqalə Azərbaycanda Ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu insan hüquqları siyasətinə həsr edilmişdir. Əsas insan hüquq və azadlıqlarının təminatı sahəsində dahi lider tərəfindən atılan mühüm addımlar – ölüm hökmünün ləğvi, əfv və amnistiya aktlarının bərpası, Ombudsman aparatının yaradılması v.s., eləcə də, dövlət başçımız cənab İlham Əliyev tərəfindən bu istiqamətdə böyük uğurla davam etdirilən humanist siyasət məqalənin əsas mövzusunu təşkil edir. Məqalədə, həmçinin, Azərbaycan Respublikasının birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın beynəlxalq səviyyədə insanpərvərlik və humanizm layihələrinə rəhbərlik etməsinin ölkəmizdə insan hüquq və azadlıqlarının təminatına verdiyi əvəzsiz töhfələr məsələsinə toxunulmuşdur.

**Зумруд Ализада**
**Преподаватель кафедры**
**Гражданского права и гражданского процесса**
**Академии Юстиции Азербайджанской Республики,**
**преподаватель кафедры ЮНЕСКО**
**по правам человека и информационному праву**
**юридического факультета**
**Бакинского Государственного Университета**

## Гейдар Алиев – основоположник политики прав человека и верховенства закона в независимом Азербайджане

## РЕЗЮМЕ

Данная статья посвящена политике в области прав человека в Азербайджане, которую основал общенациональный лидер Гейдар Алиев. Важные шаги, предпринятые

великим деятелем в области обеспечения основных прав и свобод человека это отмена смертной казни, восстановление актов о помиловании и амнистии, учреждение института Омбудсмена и др. Также с большим успехом продолжалась гуманистическая политика в этом направлении главой нашего государства господином Ильхамом Алиевым. В статье также затронут неоценимый вклад Мехрибан Алиевой, Первого вице-президента Азербайджанской Республики, президента Фонда Гейдара Алиева, в защиту прав и свобод человека в нашей стране путем руководства гуманитарными и гуманистическими проектами на международном уровне.

**Zumrud Alizada**
**Lecturer of the Department of Civil Law and Civil Procedure of the Academy of Justice of the Republic of Azerbaijan,**
**Lecturer of the UNESCO Department of Human Rights and Information Law of the Faculty of Law of Baku State University**

## Heydar Aliyev – the founder of human rights policy and legal state in independent Azerbaijan

**S U M M A R Y**

This article is dedicated to the human rights policy in Azerbaijan, which was founded by National leader Heydar Aliyev. Important steps taken by the great leader in the field of ensuring basic human rights and freedoms – abolition of the death sentence, restoration of pardon and amnesty acts, establishment of the Ombudsman institution, etc., as well as the humanist policy continued with great success in this direction by our President, Mr. Ilham Aliyev, constitute the main topic of the article. The article also touched upon the invaluable contributions of Mehriban Aliyeva, the First Vice-President of the Republic of Azerbaijan, the President of the Heydar Aliyev Foundation, to the protection of human rights and freedoms in our country by leading humanitarian and humanist projects at the international level.

***Zaur QULİYEV***

Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi Aparatının
Məhkəmə Qərarlarının İcrasına Nəzarət Sektorunun müdiri

# ƏMƏK MÜQAVİLƏSİNİN ANLAYIŞI VƏ İŞÇİNİN SOSİAL TƏMİNAT HÜQUQU

***Açar sözlər:*** *əmək hüququ, sosial təminat, əmək müqaviləsi, işə qəbul etmə, sosial müavinət, sosial sığorta*

***Ключевые слова:*** *трудовое право, социальное обеспечение, трудовой договор, занятость, социальные выплаты, социальное страхование*

***Keywords:*** *labor law, social security, employment contract, employment, social benefits, social insurance*

Azərbaycan Respublikası Konstitusiyasının 35-ci maddəsinə əsasən əmək, fərdi və ictimai rifahın əsasıdır. Hər kəsin əməyə olan qabiliyyəti əsasında sərbəst surətdə özünə fəaliyyət növü, peşə, məşğuliyyət və iş yeri seçmək hüququ vardır. Heç kəs zorla işlədilə bilməz və əmək müqavilələri sərbəst bağlanılır. Heç kəs əmək müqaviləsi bağlamağa məcbur edilə bilməz. Məhkəmə qərarı əsasında şərtləri və müddətləri qanunla nəzərdə tutulan məcburi əməyə cəlb etmək, hərbi xidmət zamanı səlahiyyətli şəxslərin əmrlərinin yerinə yetirilməsi ilə əlaqədar işlətmək, fövqəladə vəziyyət və hərbi vəziyyət zamanı vətəndaşlara tələb olunan işləri gördürmək hallarına yol verilir. Hər kəsin təhlükəsiz və sağlam şəraitdə işləmək, heç bir ayrı-seçkilik qoyulmadan öz işinə görə dövlətin müəyyənləşdirdiyi minimum əmək haqqı miqdarından az olmayan haqq almaq hüququ vardır. İşsizlərin dövlətdən sosial müavinət almaq hüququ vardır. Dövlət işsizliyin aradan qaldırılması üçün bütün imkanlarından istifadə edir.

Əmək hüququ – milli hüququn aparıcı sahələrindən biridir. O, mülkiyyətin və təsərrüfatçılığın formalarından asılı olmayaraq işçilərlə işəgötürən arasındakı muzdlu əmək münasibətlərinin tənzimlənməsində mühüm rol oynayır. Özünün Konstitusiya hüququ olan əmək hüququnu həyata keçirən hər bir vətəndaş əmək müqaviləsini bağladığı andan əmək hüquq münasibətlərinə daxil olur. Əmək hüququnun predmetini təşkil edən münasibətlər arasında işçilərlə işəgötürən arasındakı muzdlu əmək münasibətləri əsas yer tutur. Əmək qanunvericiliyinə uyğun olaraq bu münasibətlər, işçilərin əməyinin təşkilinə dair müəssisələrdə əmələ gələn iradəvi sosial münasibətləri özündə əks etdirir. İşçilərin işəgirmə, başqa işə keçmə və işdən azad olunma qaydaları məhz əmək hüququ ilə müəyyən edilir. Bundan əlavə, əmək hüququ əmək haqqı, iş vaxtı, istirahət vaxtı, əmək intizamı, həvəsləndirmə tədbirləri, intizam məsuliyyəti, əmək mübahisələri və onların həlli qaydası kimi vacib zəruri məsələləri nizamlayır.

Əmək müqaviləsi (kontraktı) dedikdə, işəgötürənlə işçi arasında fərdi qaydada bağlanılan, əmək münasibətlərinin əsas şərtlərini müəyyən edən yazılı sənəd başa düşülür. Əmək müqaviləsinin elementləri dedikdə, onun tərkib hissələri başa düşülür. Subyekt tərkibi əmək müqaviləsinin əsas elementlərindən biridir. Əmək müqaviləsinin subyekt tərkibi müqaviləni

bağlayan tərəflərdən ibarətdir. Əmək müqaviləsində 2 tərəf iştirak edir: işçi və işəgötürən. İşçiləri işə qəbul etmək, işçilərə iş vermək və onlarla əmək müqaviləsi bağlamaq hüququna malik olan şəxslərə işəgötürən deyilir. Bu rolda həm təşkilatlar, həm də sahibkar statusu olan fiziki şəxslər çıxış edə bilər.

Əmək müqaviləsinin digər tərəflərindən biri isə işçidir. İşçi dedikdə, işəgötürənlə fərdi qaydada yazılı əmək müqaviləsi bağlayaraq müvafiq iş yerində haqqı ödənilməklə çalışan şəxs başa düşülür. İşçi rolunda yalnız fiziki şəxslər çıxış edə bilərlər. İşçi kimi əmək müqaviləsi bağlayan şəxsin 15 yaşına çatması tələb olunur. Əmək müqaviləsinin məzmunu onun elementlərindən ibarətdir. Tərəflərin razılığa gəldikləri müqavilə şərtləri əmək müqaviləsinin məzmununu təşkil edir. Bu şərtlərdə tərəflərin hüquq və vəzifələri nəzərdə tutulur. Müqavilə şərtləri 2 cür olur, əsas müqavilə şərtləri odur ki, onların olması əmək müqaviləsini bağlanmış hesab etmək üçün kifəyətdir. 15 yaşından 18 yaşınadək olan şəxslərlə əmək müqaviləsi bağlanan zaman onların valideynlərindən birinin hökmən razılıq verməsi tələb olunur.

Azərbaycan Respublikası Əmək Məcəlləsinin 45-ci maddəsində əmək müqaviləsinin müddəti haqqında norma müəyyənləşdirilmişdir. Orada göstərilir ki, əmək müqaviləsi qabaqcadan müddəti müəyyən edilmədən (müddətsiz) və ya 5 illədək müddətə (müddətli) bağlanıla bilər. Əmək müqaviləsində onun hansı müddətə bağlanması göstərilməmişdirsə, həmin müqavilə müddətsiz bağlanmış hesab edilir. Müddət müəyyən edilmədən bağlanmış əmək müqaviləsi hər iki tərəfin razılığı olmadan birtərəfli qaydada müddətli əmək müqaviləsi ilə əvəz edilə bilməz.

Əmək funksiyasını yerinə yetirilməsinin şərtlərinə görə işin və ya göstərilən xidmətlərin daimi xarakterə malik olduğu qabaqcadan bəlli olduğu hallarda əmək müqaviləsi müddət müəyyən edilmədən bağlanmalıdır. Kollektiv qaydada bağlanan əmək müqavilələri də mövcuddur. Müəyyən işlərin görülməsi, xidmətlərin göstərilməsi (tikinti-təmir, yükləmə-boşaltma, məişət, ticarət, əkin-biçin, heyvandarlıq işləri) iki və daha çox işçi qrupu tərəfindən kollektiv halında həyata keçirilməklə əmək müqaviləsinin bağlanması kollektivin (briqadanın, işçi qrupunun) hər bir üzvünün yazılı razılığı ilə yol verilir.

Bu halda işçilər işəgötürənlə kollektiv əmək müqaviləsi bağlamaq üçün bir nümayəndəsini müvəkkil edilir. Əmək müqaviləsinə dəyişikliklər yalnız tərəflərin razılığı ilə həyata keçirilir. Həcmcə çox olduğuna görə dəyişiklikləri əmək müqaviləsinə daxil etmək mümkün olmadıqda ilkin əmək müqaviləsi yenidən tərtib edilir, yaxud həmin dəyişikliklər ayrılıqda tərtib edilib təsdiqlənir. Əmək müqaviləsində digər hallar nəzərdə tutulmayıbsa o, tərəflərin imzaladığı gündən qüvvəyə minir. Əgər işçi Əmək Məcəlləsinin tələbləri pozularaq yazılı əmək müqaviləsi olmadan, lakin əvvəlcədən işəgötürənin razılığı (tapşırığı) ilə faktik olaraq işə başlamışsa, həmin andan əmək müqaviləsi bağlanmış hesab olunur və bu halda üç gün müddətində yazılı əmək müqaviləsi tərtib edilməlidir. Əmək müqaviləsinin hər hansı dövlət orqanında və ya digər qurumlarında qeydiyyata alınması, təsdiq edilməsi yolverilməzdir.

Sosial təminat hüququnun sistemi dedikdə, onun daxilində hüquq normalarının elmi şəkildə əsaslandırılmış düzülüşü başa düşülür. Sosial təminat hüququnun normalarını ümumi və xüsusi hissədə qruplaşdırmaq olar. Sosial təminat hüququnun ümumi hissəsinə hüquqi tənzimetmənin prinsip və vəzifələrini, sosial təminat sahəsində əsas hüquqları ifadə edən normalar daxildir. Xüsusi hissəyə təminatın ayrı-ayrı növlərinin təyin edilməsini müəyyən edən normalar daxildir. Normaların bu qrupları hüquq sahəsinin institutlarını yaradır. Nümunə kimi aşağıdakı institutları göstərmək olar: yaşa görə, əlilliyə görə, ailə başçısını itirməyə görə, xidmət illərinə görə əmək pensiyaları, işsizliyə, müvəqqəti olaraq

əmək qabiliyyətini itirməyə görə müavinətlər və s. Beləliklə, sosial təminat hüququnun sistemi tənzimlənən ictimai münasibətlərin spesifikliyinə uyğun olaraq müəyyən ardıcıllıqla yerləşmiş, bir-biri ilə qarşılıqlı əlaqədə olan institutların və normaların məcmusunu ifadə edir.

Sosial təminat hüququnun predmetinə münasibətdə belə terminin tətbiqi haqlı olaraq prinsipial xarakterli etirazlar doğurur. Ona görə ki, o, predmetə daxil olan münasibətlərin həqiqi iqtisadi təbiətini kölgə altında qoyur. Birincisi, bu hüquq sahəsinin tənzimlədiyi münasibətlər sisteminə məcburi dövlət sosial sığorta qaydasında sosial təminat üzrə münasibətlər daxil edilir; ikincisi, cəmiyyət üzvü kimi insanın (və ya onun ailəsinin) sosial təminatı onun sığorta stajı nəzərə alınmadan həyata keçirilir. Məlumdur ki, birinci halda münasibətlər alimentar (yəni təminatın əvəzsiz, ekvivalentsiz surətdə və təmin edilən tərəfindən heç bir qarşılıqlı öhdəlik götürülmədən təqdim edildiyi münasibətlər kimi) hesab oluna bilməz, çünki sosial təminatın maliyyələşdirilməsi büdcə vəsaitinin hesabına deyil, sığortaçıların və sığorta olunanların özlərinin vəsaiti hesabına həyata keçirilir.

Bu zaman məcburi dövlət sosial sığorta haqlarının ödənilməsi ilə konkret işçinin sosial təminatın bu və ya digər növünü alması arasında vaxt fərqi əhəmiyyət kəsb etmir, çünki sosial sığorta prinsipinin əsasında sığortalanan şəxslərin özlərinin həmrəyliyi və nəsillərin həmrəyliyi prinsipi qoyulmuşdur. Cəmiyyət üzvü kimi insanın sosial təminatı üzrə münasibətləri isə alimentar hesab etmək olar, çünki bu halda yuxarıda göstərilən əlamətlər mövcuddur. Müasir dövrdə vətəndaşların sosial təminatı üzrə münasibətlərin aşağıdakı spesifik xüsusiyyətlərini göstərmək olar:

• birincisi, bu münasibətlər bölüşdürücü olmaqla ümumiqtisadi xarakter daşıyır;
• ikincisi, bu münasibətlərin xüsusi subyektləri və obyekti vardır;
• üçüncüsü, bu münasibətlərin yaranması, dəyişməsi və xitamı üçün əsas olan sosial faktlar spesifik xarakter daşıyır;
• dördüncüsü, bu münasibətləri tənzim edən normalar qanunvericilik səviyyəsində möhkəmləndirilir.

Bu xüsusiyyətlər baxımından sosial təminat hüququnun predmetinə daxil olan münasibətləri aşağıdakı kimi təsnifləşdirmək olar:

1) Sosial təminat sistemi üzrə pul ödəmələri ilə bağlı yaranan münasibətlər. Bura aiddir: pensiyalar, müavinətlər, kompensasiya ödəmələri və s.

2) Sosial təminatın «natural» növləri ilə bağlı yaranan münasibətlər. Bura aiddir: tibbi yardım və müalicə, pulsuz və ya güzəştli dərman yardımı, sanatoriyakurort müalicəsi, tam və yarımstasionar sosial xidmət, uşaqların internatlarda və ya uşaq müəssisələrində saxlanması, əlillərin peşə hazırlığı və işədüzəldilməsi, əlillərin nəqliyyat vasitələri ilə təmin edilməsi, protez–ortopedik yardım, əlillərə pulsuz mənzil verilməsi, sosial təminat sistemi üzrə güzəştlər.

3) Sosial təminat sistemi üzrə pul ödəmələri və sosial təminatın «natural» növləri ilə bağlı yaranan münasibətlərin normal fəaliyyət göstərməsi üçün obyektiv surətdə zəruri olan prosedur və prosessual xarakterli köməkçi münasibətlər. Bura aiddir: hüquqi faktların müəyyən edilməsi, sosial təminatın bu və ya digər növünə olan hüququn reallaşdırılması, pozulmuş hüquqların müdafiəsi və s.

Sosial təminat üzrə kompleks münasibətlər eyni cinsli deyildir. Bu münasibətlər daxilində sosial təyinatlı büdcədənkənar dövlət fondlarının bölüşdürülməsi və dövlət büdcəsinin müəyyən hissəsinin yenidən bölüşdürülməsi üzrə münasibətləri də ayırmaq olar. Bunlara əsasən aşağıdakı münasibətləri aid etmək olar:

1) Müəyyən yaş həddinə çatma (qocalıq), əlillik, ailə başçısının itirilməsi, müvəqqəti əmək qabiliyyətsizliyi, işsizliklə əlaqədar maddi təminat üzrə münasibətlər; 2) analığa və uşaqlığa maddi kömək, uşaqların saxlanılması və tərbiyəsində ailəyə kömək göstərilməsi üzrə münasibətlər; 3) aztəminatlı şəxslərə pul və ya natura formasında sosial yardım göstərilməsi üzrə münasibətlər; 4) dövlət tərəfindən müəyyən edilmiş standartlar çərçivəsində əlillərə, qocalara və əhalinin digər təbəqələrinə pulsuz sosial xidmət göstərilməsi üzrə münasibətlər; 5) məcburi tibbi sığorta üzrə pulsuz müalicə və tibbi yardım göstərilməsi üzrə münasibətlər və s. Qeyri-dövlət sosial fondların (o cümlədən həmkarlar ittifaqının fondları, xeyriyyəçilik fondları və s.) vəsaitlərinin bölüşdürülməsi üzrə ictimai münasibətlər isə sosial təminat hüququnun predmetinə daxil deyildir. Beləliklə, sosial təminat hüququnun predmetini sosial təminat sistemi vasitəsilə ümumi daxili məhsulun bölüşdürülməsi ilə bağlı yaranan maddi və prosedurprosessual xarakterli mürəkkəb kompleks ictimai münasibətlər təşkil edir. Sosial təminat hüququnun metodu. Ümumhüquq nəzəriyyəsindən məlumdur ki, hüququn müstəqil sahələrə bölünməsinin əsas meyarı qismində onun tənzimetmə predmeti, əlavə meyarı kimi isə hüququn ictimai münasibətlərə təsir üsul və vasitələrinin məcmusu olan hüquqi tənzimetmə metodu çıxış edir.

Metod ona görə əlavə meyar qismində çıxış edir ki, o, predmetdən törəyir və bilavasitə qanunvericidən asılı olur. Eyni zamanda, hüquq nəzəriyyəsində qanunvericinin münasibətləri tənzimləmək üzrə o qədər də çoxlu üsul və vasitələrə malik olmadığı qeyd olunur. Belə ki, o, ictimai münasibətlərin iştirakçılarına yalnız üç göstərişdən birini (ayrılıqda, yaxud məcmu halında) verə bilər: yalnız belə hərəkət etməli (məcburi); belə hərəkət etməməli (qadağan); istədiyiniz kimi hərəkət edin (icazə).

Bununla yanaşı R.Z.Livşits hesab edirdi ki, məcburiyyət imperativ tənzimləmə metodunu əks etdirir, qadağan və icazə isə dispozitiv tənzimləmə üsullarıdır, çünki ictimai münasibətlərin iştirakçıları bildikləri kimi hərəkət etməkdə azaddırlar və bu zaman qadağan olunan hallarda həmin davranış azadlığı konkret qadağanlardan kənarda mövcud olur. Bəzi alimlər isə hüquqi tənzimləmənin üç deyil, yalnız iki metodunu – avtoritar və muxtariyyət metodlarını fərqləndirirlər.

İmperativ və dispozitiv metodlar uzlaşdırılmış şəkildə bütün hüquq sahələrində tətbiq olunur. Eyni zamanda, onlar konkret hüquq sahəsinin normaları ilə tənzimlənən ictimai münasibətlərin xarakterik xüsusiyyətlərini nəzərə almalıdır və bu xüsusiyyətlər həmin münasibətlərin tənzimi üçün spesifik olan müəyyən metodlardan istifadə edilməsi zərurətini şərtləndirir. Lakin hüquq nəzəriyyəsində mövcud olan ziddiyyətlərin həlli üsulu S.S.Alekseyev tərəfindən təklif olunmuşdur. Onun fikrincə, hüquqi tənzimetmə metodunun təhlili nəinki qanunvericinin iradəvi göstərişlərinin (məcburiyyət, qadağan və icazə) xarakterini nəzərə almalı, həm də hüquqi tənzimetmə üsullarının digər əlamətlərini də aşkara çıxarmalıdır. Hüquqi tənzimetmə metodu ilə bağlı problemlər ümumhüquq nəzəriyyəsində qalmaqda davam edir və sosial təminat hüququnda da bu problemlər üzrə diskussiyalar mövcuddur. Hazırda bu məsələ sosial təminat hüququ elmində hələ birmənalı həllini tapmamış ən kəskin problemlərdən biridir. Məlumdur ki, hüquqi tənzimetmənin ümumhüquqi üsullarına imperativ və dispozitiv tənzimetmə aiddir. Ümumi hüquq nəzəriyyəsində göstərilən üsullarla yanaşı, digər üsullar da fərqləndirilir həvəsləndirici, tövsiyə, tərəflərin muxtariyyəti və bərabərliyi, inandırma və məcburetmə.

İmperativ tənzimləmə «icazə verilməyən hər şey qadağan olunmuşdur» prinsipi ilə, dispozitiv tənzimləmə isə «qadağan olunmayan hər şeyə icazə verilmişdir» prinsipi ilə ifadə olunur. Birinci halda tənzimetmə göstəriş vasitəsilə, ikinci halda isə icazə vasitəsilə həyata keçirilir. Sosial təminat hüququnun ümumi hissəsinin spesifik xüsusiyyəti ondan ibarətdir

ki, onun əsas institutlarının formalaşması hələ tam şəkildə başa çatmamışdır. Hüquq sahəsinin ümumi hissəsinə «subyektlərin hüquqi vəziyyətinin, hüquqi statusunun başlıca elementini tənzimləyən normativ göstərişlər kompleksi» kimi hüquq subyektliliyi institutu daxildir. Sosial təminat hüququnda bu institut konstitusiya normalarını, beynəlxalq aktların (o cümlədən MDB üzvü olan dövlətlərin arasında imzalanmış sazişlərin) normalarını, sosial təminata dair qanunların vətəndaşların sosial təminat sahəsində hüquqi statusunu təsbit edən normalarını əhatə edir. Eyni zamanda, bu institutun normaları sosial təminat üzrə ictimai münasibətlərin subyektiv tərkibini də özündə əks etdirir.

Sosial təminat növlərinin təqdim edilməsini şərtləndirən sosial risklər institutu bu sahənin ümumi hissəsinin müstəqil institutunu təşkil edir. Bu institutun məzmunu «Sosial sığorta haqqında» qanunun qəbul edilməsi ilə əlaqədar xeyli genişlənmişdir. Hüquq sahəsi kimi sosial təminat hüququnun xüsusi hissəsi də hələ formalaşmaqda davam edir. Lakin hazırda onun strukturunda tənzimetmə predmetinə malik olan və artıq təşəkkül tapmış institutlar kompleksini fərqləndirmək olar.

Bu eynicinsli münasibətin bütün növlərini, yaxud hüquq normalarının müəyyən hissəsi ilə tənzimlənən ayrı-ayrı növlərini əhatə etməsindən asılı olaraq institutlarda və ya kompleks institutlarda qruplaşdırılır. Sosial sığorta stajı institutu sosial təminat hüququn xüsusi hissənin müstəqil institutudur. Pensiya təminatı institutu sosial təminat hüququnun xüsusi hissənin mərkəzi və kompleks institutlarından biridir. Sosial müavinət institutu da özünün xarakteri etibarilə kompleks institutdur. Onun normaları sosial müavinətlərin növlərinə görə yarıminstitutlarda birləşdirilmişdir: əmək qabiliyyətliliyinin müvəqqəti itirilməsinə görə müavinətlər; hamiləlik və doğuşa görə müavinətlər; uşağa qulluğa görə müavinətlər; işsizliyə görə müavinət; dəfn üçün müavinətlər və s. Xüsusi hissənin tibbi yardım və müalicə institutu kimi kompleks institutu aşağıdakı yarıminstitutlardan ibarətdir: pulsuz tibbi yardım və müalicə; pulsuz, yaxud güzəştli dərman yardımı; sanatoriya-kurort müalicəsi. Xüsusi hissənin göstərilən bu institutlarının normalarının obyekti kimi konkret pul ödəməsi və ya sosial xidmət şəklində maddi nemətlərdən ibarət olan münasibətlər çıxış edir. Sosial təminat hüququnun predmetinə prosedur və prosessual xarakterli ictimai münasibətlər də daxildir. Bu münasibətlər hüquqi faktların müəyyən olunması, şikayət və mübahisələrin həll edilməsi, hüquqi məsuliyyət üzrə xüsusi institutların normaları ilə tənzimlənir.

**İstifadə olunmuş ədəbiyyat siyahısı**

1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 2019.

2. Qasımov A.M Əmək hüququ Dərslik Bakı: "Letterpress nəşriyyat evi". 2016

3. Dərslik. İ.İsmayılov, M.Rəsulov, A.Qasımov. Əmək hüququ. Bakı 1996

4. Azərbaycan Respublikasının Əmək Məcəlləsinin Kommentariyası / Prof. A.M.Qasımovun məsul redaktorluğu ilə. Bakı: Adiloglu, 2007

5. Гусов К.Н., Толкунова В.М., Трудовое право России: Учебник. М. Проспект, 2008.

6. Комментарий к Трудовому Кодексу Российской Федерации / Отв. ред. Ю.П.Орловский. М. Норма, 2009.

7. Киселев И.Я. Трудовое право России и зарубежных стран: международные нормы труда. – М., 2005.

8. Иванова Р.А., Тарасова В.А. Предмет и метод советского права социального обеспечения. М., 1983;

9. Шайхатдинов В.Ш. Предмет и система советского права социального обеспечения. Свердловск, 1983;
10. Андреев В.С. Право социального обеспечения в СССР: Учебник для вузов. М., 1987

## XÜLASƏ

Əmək hüququ – milli hüququn aparıcı sahələrindən biridir. O, mülkiyyətin və təsərrüfatçılığın formalarından asılı olmayaraq işçilərlə işəgötürən arasındakı muzdlu əmək münasibətlərinin tənzimlənməsində mühüm rol oynayır. Özünün Konstitusiya hüququ olan əmək hüququnu həyata keçirən hər bir vətəndaş əmək müqaviləsini bağladığı andan əmək hüquq münasibətlərinə daxil olur. Əmək qanunvericiliyinə uyğun olaraq bu münasibətlər, işçilərin əməyinin təşkilinə dair müəssisələrdə əmələ gələn iradəvi sosial münasibətləri özündə əks etdirir. Sosial təminat hüququnun sistemi dedikdə, isə onun daxilində hüquq normalarının elmi şəkildə əsaslandırılmış düzülüşü başa düşülür. Sosial təminat hüququnun ümumi hissəsinin spesifik xüsusiyyəti ondan ibarətdir ki, onun əsas institutlarının formalaşması hələ tam şəkildə başa çatmamışdır. Sosial müavinət institutu da özünün xarakteri etibarilə kompleks institutdur. Onun normaları sosial müavinətlərin növlərinə görə yarıminstitutlarda birləşdirilmişdir

**Заур Гулиев**
**Заведующий сектором надзора за исполнением судебных решений**
**Аппарата Конституционного Суда Азербайджанской Республики**

### Понятие трудового договора и право работника на социальное обеспечение

## РЕЗЮМЕ

Трудовое право является одной из ведущих областей отечественного права. Оно играет важную роль в регулировании наемных трудовых отношений между работниками и работодателями независимо от форм собственности и хозяйствования. Каждый гражданин, осуществляющий свое конституционное право на труд, вступает в трудовые отношения с момента заключения им трудового договора. В соответствии с трудовым законодательством эти отношения отражают добровольные социальные отношения, складывающиеся на предприятиях в связи с организацией труда работников. Система права социального обеспечения означает научно обоснованное расположение в ней правовых норм. Специфика общей части права социального обеспечения состоит в том, что формирование её основных институтов еще не полностью завершена. Институт социальных пособий также является сложным институтом по своей природе. Его нормы объединены в подинституты по видам социальных выплат.

**Zaur Guliyev**
**Head of Section for Supervision for Execution of Court Decisions of the Secretariat of the Constitutional Court of the Republic of Azerbaijan**

## The concept of the labor contract and the employee's right to social security

**S U M M A R Y**

Labor law is one of the leading areas of national law. It plays an important role in regulating wage labor relations between employees and employers, regardless of the forms of ownership and management. Every citizen who exercises his constitutional right to work enters into labor relations from the moment he signs an employment contract. In accordance with the labor legislation, these relations reflect the voluntary social relations formed in enterprises regarding the organization of the labor of employees. The system of social security law means the scientifically based arrangement of legal norms within it. The specific feature of the general part of social security law is that the formation of its main institutions has not yet been fully completed. The institution of social benefits is also a complex institution by its nature. Its norms are combined in sub-institutions according to the types of social benefits.

*Günar XƏLİLZADƏ*

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Aparatının məsləhətçisi

# UŞAQLARIN HÜQUQ VƏ MƏNAFEYİNİN DÖVLƏT TƏRƏFİNDƏN MÜDAFİƏ FORMALARI

***Açar sözlər:*** *uşaq hüquqları, uşaqların hüquq və mənafeyi, dövlətin müdafiə formaları, şəxsiyyət, cəmiyyət.*

***Ключевые слова:*** *права детей, права и интересы детей, формы государственной защиты, личность, общество.*

***Keywords:*** *children's rights, children's rights and interests, forms of state protection, personality, society.*

Uşaqların hüquq və mənafeyinin dövlət tərəfindən müdafiəsi Azərbaycan Respublikasının Konstitusiyasına və Azərbaycanın uşaq hüquqları ilə bağlı qoşulduğu beynəlxalq konvensiyalara əsasən dövlətin ən mühüm vəzifələrindən biridir. Beynəlxalq səviyyədə uşaq hüquqlarına dair əsas sənəd hesab edilən Uşaq Hüquqlarına dair Konvensiya (“Konvensiya”) (20 noyabr 1989-cu il tarixdə Nyu-York şəhərində qəbul edilib) ilk dəfə olaraq uşağa Konvensiyanı ratifikasiya etmiş dövlətlərin “hörmət və təminat” verməli olduğu hüquqlara malik şəxs kimi yanaşır. Bu müddəa onu göstərir ki, uşaq cəmiyyətin xüsusilə həssas üzvüdür və ona görə də xüsusi müdafiəyə ehtiyacı var və ona layiqdir.

Azərbaycan Respublikası tərəfindən 1992-ci ildə ratifikasiya edilmiş Konvensiya uşağa müstəqil şəxs kimi baxır və onu xüsusi hüquqlara malik şəxs kimi xarakterizə edir: yaşamaq hüququ (maddə 6), ad və vətəndaşlıq hüququ (mad. 7), ailə sahibi olmaq (maddə 9), bərabərlik, fikir və söz azadlığı (maddə 13), zorakılıqdan müdafiə (maddə 19), tibbi xidmət və səhiyyə (maddə 24), dövlət yardımı (maddə 18-27), təhsil (maddə 28), istirahət və asudə vaxt (maddə 31), və s.

Konvensiyaya əsasən, bütün uşaqlar öz qabiliyyətlərini inkişaf etdirmək, aclıqdan və ehtiyacdan, həmçinin qəddarlıqdan və digər zorakılıq formalarından azad olmaq hüququna malikdirlər. Konvensiya uşaqların imkanlarını valideynlərin və ya onlara cavabdeh olan şəxslərin bütün hüquq və vəzifələri ilə əlaqələndirir. Buna əsaslanaraq, uşaqların indiki və gələcəyinə təsir edə biləcək qərarların qəbulunda iştirak etmək hüququ var. Konvensiya uşağa öz hüquqlarını milli məhkəmə və ya inzibati prosedurlar vasitəsilə müdafiə etməyə imkan verir (maddə 12). Konvensiya uşaqların maraqlarının üstünlüyünü təsdiq edir, heç bir istisna və ya ayrı-seçkilik olmadan bütün uşaqların hüquq və mənafelərinə riayət edilməsi prinsipini nəzərdən tutur (Maddə 2). Bununla yanaşı, Konvensiyanın 5 və 12-ci maddələrinə əsasən, uşağın bir sıra hüquqlarının həyata keçirilməsi onun yaşından, yetkinliyindən və inkişaf dərəcəsindən asılıdır. Eyni zamanda Konvensiyanın 20 və 23-cü maddələri əlillər və daimi və ya müvəqqəti olaraq ailədən məhrum olmuş uşaqlar üçün xüsusi ehtiyaclar tanıyır.

Hazırda Azərbaycanda qüvvədə olan ailə qanunvericiliyinin təhlili onu göstərir ki, qanunvericilik Azərbaycanın beynəlxalq konvensiyalara əsasən olan öhdəliklərinə

uyğunlaşdırılmışdır. Azərbaycan Respublikası tərəfindən 1998-ci ildə qəbul edilmiş və MDB ölkələrinin icərisində ilk dəfə olaraq AR-da Heydər Əliyevin imzası ilə tarixə öz möhürünü vurmuş «Uşaq hüquqları haqqında» Qanun Azərbaycan Respublikasının Konstitusiyasına, Uşaq Hüquqları Bəyannaməsinə, Uşaq Hüquqlarına dair Konvensiyaya və digər beynəlxalq hüquq normalarına uyğun olaraq hazırlanmışdır. Həmin Qanun Azərbaycan Respublikasında uşaqların hüquqlarını və azadlıqlarını, uşaqlar barəsində dövlət siyasətinin əsas prinsiplərini, onların müdafiəsi sahəsində dövlət orqanlarının, digər hüquqi və fiziki şəxslərin vəzifələrini müəyyən edir. «Uşaq hüquqları haqqında» Qanun Konvensiyada olduğu kimi, uşağa "hörmət və təminat" verməli olduğu hüquqlara malik şəxs kimi yanaşır və uşağın cəmiyyətin xüsusilə həssas üzvü olduğundan xüsusi müdafiəyə ehtiyacı olduğunu vurğulayır. Beləliliklə, uşaq hüquqlarını qanunvericiliklə təmin etməklə Azərbaycan ailə hüququnun əsas prinsiplərindən və prioritetlərindən birini həyata keçirmişdir.

Uşaqların hüquq və mənafeyinin dövlət tərəfindən müdafiəsi daim dövlətimizin və ölkə rəhbərliyinin diqqət mərkəzindədir və məhz bu səbəbdən «Uşaq hüquqları haqqında» qanunun işləmə mexanizmini həyata keçirən Heydər Əliyevin layiqli davamçısı cənab Prezident İlham Əliyev 2009-cü ili Azərbaycan Respublikasında Uşaq ili elan etmişdi. Mehriban xanım Əliyeva isə elə həmin ili Azərbaycanda minlərlə talassemiyadan əziyət çəkən uşaqların müalicəsi üçün böyük bir xəstəxana tikdirdi və bu xəstələrin müalicəsi tam pulsuz olaraq Heydər Əliyev fondunun hesabına həyata keçirilməyə başladı. Heydər Əliyev irsinin ən layiqli davamçılarından olan Mehriban xanım Əliyeva nəinki Azərbaycanda, demək olar ki, dünyanın əksər yerlərində uşaqların hüquq və mənafeyinin müdafiəsi sahəsində həyata keçirdyi xeyriyyə layihələri ilə Azərbaycanı sadə dünya xalqlarına tanıtmış və sevdirmişdir. Uşaqların hüquq və mənafeyinin dövlət tərəfindən müdafiəsində qeyri-hökümət təşkilatlarının və fondların rolu və dəstəyi də böyükdür. Misal üçün, Heydər Əliyev Fondu valideyn hüquqlarından məhrum olunmuş uşaqlara qayğı göstərilməsi ilə bağlı davamlı olaraq bir sıra xeyriyyəçilik və digər tədbirləri həyata keçirir.

Uşaqların ən mühüm hüquqlarından və müdafiə formalarından biri uşağın sağlam bir ailəyə sahib olmasıdır və bunun üçün dövlətin ailəyə qayğısı mövcud hüquqi vəzifələrin potensialından (məsələn, sosial müdafiə sahələrində ayrı-ayrı qanunvericilik aktlarında) tam istifadə edilməsini, ailənin və bütovlükdə cəmiyyətin inkişafında müasir meyllərə uyğun olan məqsədyönlü dövlət siyasətinin həyata keçirilməsi üçün hüquqi, sosial-iqtisadi və təşkilati mexanizmlərin yaradılmasını nəzərdə tutur. Dövlət ailəyə qayğı siyasətini elə şəkildə qurmalıdır ki, hər bir ailə ilk növbədə özünün qüvvə və imkanlarına, yalnız bundan sonra onlara əlavə olaraq dövlətin köməyinə və yardımına tam inana bilsin. Ailəyə dövlət qayğısının Konstitusiya prinsipi və norması səviyyəsinə yüksəldilməsi böyük ictimai və siyasi əhəmiyyət daşıyır, çünki bu cür prinsip və normalar ali hüquqi qüvvəyə malik olmaqla yanaşı, həm də mövcud qanunvericiliyin, o cümlədən ailə qanunvericiliyin daha da inkişaf etdirilməsi və təkmilləşdirilməsi üçün təməl olur.

Müasir dövrdə, xüsusən də 2003-cü ildən indiyədək Azərbaycan iqtisadiyyatının dönmədən inkişafı, ümumdaxili məhsulun 1990-ci ilə nisbətən 2010-ci ildə 1,9 dəfə artması əhalinin məşqulluğu sahəsində müəyyən problemlərin aradan qaldırılmasına gətirib çıxarsa da, hələlik iş problemi, mənzil-məsələləri kifayət qədər öz həllini tapmamışdır. Bu sahədə gənc Azərbaycan dövləti ailə münasibətləri üçün önəmli əhəmiyyət kəsb edən problemləri lazımi şəkildə həll etməyə imkan yaratmır. Digər tərəfdən, ailə qanunvericiliyinə, eləcə də ana-uşaq-ailə problemlərinə dair bir çox normativ-hüquqi aktlar qəbul edilsə də, onları yetərli hesab etmək olmaz. Ailənin möhkəmləndirilməsinə, ailə-nikah münasibətlərinin

tənzimlənməsinə yönəldilmiş yeni normativ-hüquqi sənədlər hələlik günün tələbi olaraq qalır.

Yuxarıda qeyd olunanların kontekstində Azərbaycan Respublikasının siyasi və hüquqi baxımdan beynəlxalq statusu müasir beynəlxalq hüququn əsas prinsipləri ilə müəyyən olunur. Elə buradan da görünür ki, dövlətlərin iqtisadi və siyasi müxtəlifliyinə baxmayaraq, dövlətlər bir-birinə münasibətdə eyni beynəlxalq hüquqi statusa malikdirlər. Hər bir dövlət suverenliyə malikdir və BMT Nizamnaməsinə əsasən hüquqi cəhətdən bərabərdir. Bu prinsip beynəlxalq hüququn mühafizəsindədir. (8, s. 16)

Məhz bu prinsipdən uşaqların tərbiyəsi barədə qayğı çəkmək, onları ictimai faydalı fəaliyyətə hazırlamaq valideynlərin nəinki əxlaqi borcu, həmçinin konstitusion borclarıdır. Azərbaycan Respublikasının Konstitusiyasının 17-ci maddəsində müəyyən edilir ki, cəmiyyətin əsas özəyi kimi ailə dövlətin xüsusi himayəsindədir. Uşaqların qayğısına qalmaq və onları tərbiyə etmək valideynlərin borcudur. Bu borcun yerinə yetirilməsinə dövlət nəzarət edir və bu da uşaqların hüquq və mənafeyinin müdafiə formasından biridir. Valideynləri və ya qəyyumları olmayan, valideyn qayğısından məhrum olan uşaqlar dövlətin himayəsindədirlər. Uşaqları onların həyatına, sağlamlığına və ya mənəviyyatına təhlükə törədə bilən fəaliyyətə cəlb etmək qadağandır. 15 yaşına çatmamış uşaqlar işə götürülə bilməzlər. Uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarət edir. (7, 14)

Cəmiyyətin ilkin özəyi kimi ailə həmişə ictimai inkişaf qanuna uyğunluqlarını öyrənən elm sahələrinin diqqət mərkəzində olmuşdur. Filosoflar ailəyə və orada müəyyən olunan münasibətlərə, insanın təbiətə, cəmiyyətə, dünyagörüşünə baxışların yaranma mənbələri kimi baxırlar. (7, 14)

Siyasətçilər isə ailəni cəmiyyətdə olan ziddiyyətlərin, bərabərsizliyin və istismarın güzgüsü adlandırırlar.(5,74) Hüquqşünaslar ailəni hüququn və dövlətin yaranma mənbəyi kimi qiymətləndirirlər. Müəyyən mənada bu nöqteyi-nəzərləri doğru hesab etmək olar, belə ki, burada ailə münasibətlərinin çoxcəhətliliyi və mürəkkəbliliyi, onun cəmiyyətlə qarşılıqlı münasibəti öz əksini tapmışdır. İnsan şəxsiyyətinin mənəvi proqresi, inkişafı və formalaşması barədə cəmiyyətin əldə etdiklərinin hamısı ailədə öz əksini tapır. Cəmiyyətin ilkin, eyni zamanda, sabit həlqəsi olan ailənin rolu, əhəmiyyəti və funksiyası cəmiyyətin xarakterinin dəyişməsində özünü göstərir. Quldarlıq və feodalizm quruluşunda qapalı, natural təsərrüffatda istehsal vahidi kimi ailənin rolu mühüm idi. Ailə özünə zəruri olan hər şeyi istehsal edirdi, artıq məhsulu isə bazara çıxarırdı. Kapitalizmin meydana gəlməsi ilə maşınlı istehsal ailənin belə iqtisadi əsasını dağıtdı. Onun üzvlərini ev təsərrüfatından böyük fabrik və zavodlara çıxararaq ailəyə müasir xarakter verdi. Ailədə bütün tarixi formasiyalar boyu dəyişilməz qalan xüsusiyyət onun intim xarakterliyi, uşaqların doğulması və tərbiyəsi funksiyasıdır.

Ailədə yaranan münasibətlərin tənzim edilməsində əhəmiyyətli rol mənəvi normalara aiddir. Hansı ki, mənəvi normaların əksəriyyəti ictimaiyyətdən gələn təsirdir. Lakin bununla yanaşı həmin münasibətlərin bir hissəsi hüquqi normalarla tənzimlənir.

Hüquqi kateqoriya anlayışında ailə öz-özlüyündə insanların hüquqi əlaqəsini, birliyini təşkil edir. Ailə münasibətlərinin hüquqi xarakterliliyi həmin münasibətlərin hüquqi normalarla tənzimlənməsinə imkan yaradır və nəticədə ailə üzvləri arasında qarşılıqlı hüquq və vəzifələrə gətirib çıxarır. Hüquqi baxımdan ailə dedikdə, nikah və qohumluğa əsaslanan, bir-biri ilə şəxsi və əmlak hüquq və vəzifələri ilə bağlı olan insanlar birliyi başa düşülür.

Böyüməkdə olan nəslin həm ictimai, həm də ailə tərbiyəsi Ailə qanunvericiliyində bilavasitə nəzərdə tutulmuşdur. Uşaqların tərbiyəsi həmin qanuna müvafiq olaraq valideynin hüququ kimi deyil, vəzifəsi kimi nəzərdə tutulur. İctimai tərbiyə isə cəmiyyətin hüququdur.

Qanunvericilik uşağın tərbiyyəsinin ailədə keçirilməsinə üstünlük verir, belə ki, yalnız ailə ilkin yaşından başlayaraq uşağı tərbiyələndirmək imkanında olur. Uşağı sağlam, cəmiyyətə layiq vətəndaş kimi böyütmək çətin işdir və valideynlərdən uzun illər ərzində böyük fiziki və mənəvi qüvvə tələb edir. Uşaqlara qayğı göstərmək, onları tərbiyə etmək ailə həyatının ayrılmaz hissəsidir. Uşaqları tərbiyə edərkən valideynlər uşaqların tərbiyəsi üzrə hüquqlarını həyata keçirirlər. Uşaqların tərbiyəsi üçün valideynlərin gördükləri hər bir iş ümumi məqsədə, ümumi mənafeyə doğru yönəldilmişdir – ailə və cəmiyyət üçün faydalı insan böyütmək, valideyn duyğularını təmin etmək. Ona görə də dövlət vətəndaşların – valideynlərin uşaqları tərbiyə etmək hüquqlarını nəzərdə tutur. Bu hüquqların xüsusiyyətləri ondan ibarətdir ki, onlar valideynin özünün şəxsiyyəti ili sıx bağlıdır.

Son zamanlar uşağın tərbiyəsindən imtina edən valideynin əmlak məsuliyyətinə cəlb edilməsi tez-tez müzakirə edilir. Bir sıra hüquqşünaslar, o cümlədən nüfuzlu pedaqoqlar belə hesab edirlər ki, valideynlərə qarşı tətbiq edilən belə tədbir uşaqların tərbiyəsinə müsbət təsir göstərəcəkdir. Qanunvericilikdə ayrıca bir maddədə əmlak məsuliyyətinin tətbiq edilməsinin göstərilməsi məqsədə müvafiq olardı.

Valideynlər tərəfindən uşaqların tərbiyəsi üzrə vəzifələr yerinə yetirilmədikdə və yaxud onların uşaqları tərəfindən hüquq pozuntuları törədildikdə həm mülki məsuliyyət, həm də inzibati tədbirlər nəzərdə tutulur. Qeyd edildiyi kimi, gələcək nəslin tərbiyəsi tək ailənin deyil, bütövlükdə cəmiyyətin işidir. Ona görə də cəmiyyətin və ailənin bu işdə mənafelərinin uzlaşdırılması yalnız həmin məsələlərin həllinə yönəldilməlidir. Uşaqların tərbiyəsi və saxlanılması üzrə valideyn tərəfindən hər hansı konkret bir vəzifənin ayrıca pozulması təcrübədə çox nadir halda təsadüf edilir. Bir qayda olaraq, valideynin uşağına görə vəzifəsi məcmu şəkildə pozulur: uşaqla rəhmsizcəsinə davranılır, əməyi istismar edilir, məktəbə oxumağa göndərilmir, amoral, cəmiyyətə zidd hərəkətlərlə uşaqa zərərli təsir göstərilir, yəni ailə qanunvericiliyinin və əxlaq normalarının kompleks şəkildə pozulması mövcud olur. Hüquq nomalarının və əxlaq qaydalarının bu cür birləşmiş sürətdə pozulması qanun və cəmiyyət tərəfindən nəzərətsiz qalmamalıdır. Belə şəraitin aşkar olunduğu ailələr dövlət və ictimai orqanların ciddi nəzarəti altına alınmalıdır.

Uşağın tərbiyəsi üçün ailə və ictimai tərbiyənin düşünülmüş, ağıllı vəhdəti aşkar edilməli, ailə tərbiyəsi prinsiplərini pozan valideynlərə təsir etmək üçün əxlaq və hüquq normalarının qarşılıqlı münasibəti müəyyən edilməlidir.

Təəssüf ki, valideynlərin müəyyən qismi uşaqların tərbiyyəsi üzrə öhdəliklərinə düşən vəzifələri yerinə yetirmirlər, nəticədə istər uşaqlara, istərsə də cəmiyyətə böyük zəzər dəyir. Yetkinlik yaşına çatmayanların törətdiyi cinayətlər və digər hüquq pozuntularının mənbəyi bir qayda olaraq möhkəm və düzgün qurulmamış ailələrdən başlayır. Ona görə də, dövlət valideynlərin üzərinə uşaqlara tərbiyə vermək vəzifəsini qoyur və onların yerinə yetirilməməsi zamanı bir sıra məcburiyyət tədbirləri tətbiq edir. A.Q.Xarçevin belə bir fikrini xatırlamaq yerinə düşərdi: «öz musiqi zənginliyinə görə yaxşı olan hər hansı bir alət bütov bir orkestri əvəz edə bilmədiyi kimi ailənin verdiyi tərbiyəni də heç bir sosial və dövlət tərbiyəsi əvəz edə bilməz».

Lev Tostoy «Anna Karenina» romanını bu sözlərlə başlayır: «Bütün xoşbəxt ailələr bir birinə bənzəyir, lakin hər bədbəxt ailənin özünəməxsus bədbəxtliyi var».

Hər bir ailənin xoşbəxtliyi onun yetirdiyi uşaqdan, cəmiyyətə verdiyi övladlarının tərbiyəsi ilə ölçülür. Yaxşı övladlar tərbiyə edən ailə ən yaxşı ailədir. Ailədə böyümək, yaxşı bir ailədə tərbiyə almaq gələcəkdə yaxşı valideyn olmaq deməkdir. Buradan belə bir sual meydana çıxır – valideyn olmaq nə deməkdir? Valideyn olmaq ailə qayğısı çəkmək, yuxusuz gecələr keçirmək, övladın acı və şirin hərəkətlərinə dözmək, bu hərəkətləri düzgün yola

istiqamətləndirmək, övlada nümunə olmaq, övladdan nümünəvi olmağı tələb etməkdir. Bu çətin və məsul vəzifənin öhdəsindən gəlmək üçün biz övladlarımıza həm dost, həm valideyn, həm məsləhətçi olmalı, həyatın bir çox mürəkkəb məsələlərini onlara başa salmalı, eyni zamanda, onların ürək sözlərini, arzularını, istəklərini dinləməyi də bacarmalıyıq.

Dahi Azərbaycan mütəfəkkiri Nizami Gəncəvinin təbirincə desək, «Dünyada insana nəzakətli danışıq qədər ucuz başa gəlib yüksək qiymətləndirilən heç nə yoxdur» .

A.S.Makarenko valideynlərə müraciət edərək yazırdı: «Sizin şəxsi hərəkətləriniz ən həlledici şeydir. Fikirləşməyin ki, Siz uşağı yalnız onunla söhbət edərkən, yaxud öyrədərkən tərbiyə edirsiz. Siz uşağı həyatınızın hər bir anında, hətta evdə olmayanda da tərbiyə edirsiniz. Sizin necə geyinməyiniz, insanlarla və insanlar haqqında necə danışmağınız, necə sevinməyiniz və kədərlənməyiniz, dostlarınıza və ya düşmənlərinizə necə müraciət etməyiniz və s. uşaqlar üçün böyük əhəmiyyət kəsb edir. Danışıq tonunuz zərrə qədər dəyişməsini belə uşaq görür və ya hiss edir. Əgər siz kobudsunuzsa və ya tərif sevənsinizsə, yaxud sərxoşluq edirsinizsə, siz artıq uşağı pis tərbiyə edirsiniz və ən yaxşı məsləhət və metodlar belə sizə kömək etməyəcəkdir».

Hesab edirik ki, uşaqların tərbiyəsi ilə məşqul olan müxtəlif orqanların qarşılıqlı fəaliyyəti elə təşkil edilməlidir ki, onlar bir-birini təkrar etməsinlər və birgə fəaliyyətləri nəticəsində ailə və cəmiyyət qarşısında duran böyük məqsədə nail olsunlar.

Bir sıra xüsusi hallarda (məsələn, təhsil almağa qərəzli sürətdə mane olma) cinayət məsuliyyəti nəzərdə tutulmalıdır ki, bu da valideynlik hüququndan məhrumetmə ilə uzlaşmalıdır. Ailə cəmiyyətlə sıx əlaqədə bir sıra funksiyaları da yerinə yetirir, məsələn: ailə üzvlərinin bir-birini qarşılıqlı yardım etməsi və s. Beləliklə, ailənin cəmiyyətdə rolu mühümdür. Ona görə də daha mühüm ailə münasibətləri qanunvericilik yolu ilə tənzimlənir.

Ailə quran vətəndaş şəxsi arzularını cəmiyyətin qanunla ifadə olunmuş iradəsinə uyğunlaşdırmalıdır. Ailə – nikah, qohumluq münasibətləri mənəvi normaların tənzimedici təsiri altına da düşür. Çünki yoldaşlıq, dostluq kimi münasibətlər əxlaq normalarının əsas tənzimedici təsirinə məruz qalır. Bu, hüquq normalarının əhəmiyyətini heç də azaltmır, əksinə, möhkəmləndirmək, ona sosial funksiyalarını yerinə yetirmək üçün hüquqi amillərin təsirini gücləndirir.

Böyüməkdə olan nəslin tərbiyəsi, onun həyata baxışının formalaşması, təlimi, onlara müəyyən biliklərin və adətlərin aşılanması, cəmiyyətin sonrakı inkişafını müəyyən edən mühüm məsələlərdən biridir.

Şəxsiyyətin formalaşması əsasən mənəvi istiqamətdə gedir. Hüquq normalarında isə uşaqların tərbiyəsi üzrə valideynin ümumi vəzifələri nəzərdə tutulur.

Eyni zamanda qeyd etmək istərdim ki, şəxsiyyətin formalaşmasında ailənin və ictimai tərbiyənin çox böyük əhəmiyyəti vardır. Hər bir şəxsiyyətin «mən» adlı bir qüruru olmalıdır, lakin mənim olması üçün «biz» olmalıdır. Yəni həmin «mən»in ətrafında onun şəxsiyyətini müəyyən edən bir «curi» yəni bizi olmalıdır. Heç kəs «bu bizi» xahiş ilə və ya başqa bir yolla ala bilməz, çünki «bu bizi» ictimai rəy təsdiq edir.

Biz uşaqları bütün təbliğat kompaniyaları və cəmiyyət tərəfindən tərbiyə edirik. Moskvada çox hörmətli professor, Göz xəstəxanasının baş həkimi Fyodorov demişdir ki, «səhər işə gələndə axşam işdən gedəndə sənədə imza atan bir adam şəxsiyyət ola bilməz». Yəni biz öz uşaqlarımıza inanmalı, onuların qərarlarına hörmətlə yanaşmalıyıq. Məhs bu cür yanaşma bizim uşaqların şəxsiyyət kimi formalaşmasında çox önəmlidir.

Uşaq tərbiyəsində bir prinsip də yadda saxlamaq lazımdır: özü döyülməyən döyməz, alçaldılmayan heç kəsi alçaltmaz, haqqı tapdalanmayan haqqı tapdalamaz.

Bu gün torpaqlarında çox ədalətsiz müharibə gedən Azərbaycan Respublikasında uşaqlarla onların düzgün gələcəyi və tərbiyəsi ilə daha efektli, hərtərəfli məşğul olmaq, bir milyondan çox qaçqın-köçkünün ailə problemlərini daha ədalətli həll etmək üçün ölkədə ən əsas məsələlərindən biri də «Ailə məhkəmələlərin» yaradılmasıdır. Dünyanın əksər ölkələrində «Ailə məhkəmələri» çoxdan fəaliyyət göstərir. Ailə məhkəmələrinin olması uşaqlarla bağlı hüquqların və vəzifələrin işləmə mexanizmində vacib amillərdən biridir. Hər bir qanun işləmə mexanizmi olmalıdır. «Uşaq hüquqları haqqında Qanun»un işləmə mexanizmindən biri də, təbii ki, Ailə məhkəmələrinin yaradılmasıdır.

Tərbiyə prosesində ailənin göstərdiyi təsiri heç bir digər tərbiyə vasitələri ilə əvəz etmək olmaz. Tərbiyə təbii prosesdir və demək olar ki, tənzim edilmir. O təbii sürətdə, lakin ailədə və cəmiyyətdə olan ənənələr və adətlərə, qanunlara müvafiq keçirilir. Valideynin düzgün hərəkəti və uşaqla normal qarşılıqlı münasibətlərini tənzim edən heç bir hüquqi norma yoxdur. Valideynlərin düzgün hərəkətini tənzim edən hər hansı bir hüquq normasını tərtib etmək düzgün olmazdı. Çünki valideynin hərəkətləri və qarşılıqlı münasibətləri cəmiyyətin əxlaqi və mənəvi prinsiplərinə uyğun gəlməlidir. Valideynlər öz-özlüyündə uşaqlar üçün nümunə olmalı, onlar arasında yaranan mübahisələr, konfliktlər isə uşaqlardan kənarda və onlarsız həll edilməlidir.

Qeyd olunduğu kimi, uşaqların hüquq və mənafeyinin dövlət tərəfindən müdafiəsi Azərbaycan Respublikasının Konstitusiyasına və Azərbaycanın uşaq hüquqları ilə bağlı qoşulduğu beynəlxalq konvensiyalara əsasən dövlətin ən mühüm vəzifələrindən biridir. Həm Konvensiyaya, həmçinin də Azərbaycan qanunvericiliyinə əsasən, uşaq cəmiyyətin xüsusilə həssas üzvüdür və ona görə də xüsusi müdafiəyə ehtiyacı vardır. Azərbaycan uşaq hüquqlarını və onların müdafiə formalarını qanunvericiliklə təmin etməklə ailə hüququnun fundamental prinsip və prioritetlərindən birini həyata keçirmişdir. Uşaqların ən mühüm hüquqlarından və müdafiə formalarından biri uşağın sağlam bir ailəyə sahib olmasıdır və bu səbəbdən dövlətin ailəyə qayğısı sosial müdafiə, ailənin və bütövlükdə cəmiyyətin inkişafı üçün hüquqi vəzifələr üçün öz potensialından tam istifadə etməlidir.

## İstifadə olunmuş ədəbiyyat siyahısı


1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: Azərbaycan Respublikası Milli Məclisinin nəşri, 2009, 143 s.
2. Uşaq Hüquqları Haqqında Qanun. Bakı, Qanun, 2001.
3. Azərbaycan Respublikasının Mülki Məcəlləsi. Bakı, Qanun, 2011.
4. Azərbaycan Respublikasının Ailə Məcəlləsi. Bakı:Qanun, 2011.
5. Azərbaycan tarixi.7 clddə, VII c., Bakı: Elm, 2003, 676 s.
6. Qasımlı Musa. Heydər Əliyev – İstiqlala gedən yol (1969-1987-ci illər). Bakı: Bakı Universiteti, 2006, 608 s.
7. Əliyev Heydər: Biz Azərbaycan ərazisində ikinci bir erməni dövlətinin yaranmasına yol verə bilmərik.// Heydər Əliyev irsi, beynəlxalq elektron kitabxana. Bakı: Əbilov, Zeynalov və oğulları, 2006, 472 s.
8. Ələsgərov Murtuz. Dövlətçilik ənənələrinin banisi // Azərbaycan, 2009, 9 may, №100, s. 5
9. Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında Azərbaycan Respublikasının Qanunu (22 iyun 1999-cu il)/ Azərbaycan Respublikasının sosial təminat qanunvericiliyi. Bakı, Qanun, 2007, s. 320-326.
10. İnsan hüquqları haqqında Ümumi Bəyannamə. Bakı, Qanun, 2006.

11. Uşaq hüquqları Bəyannaməsi və Uşaq hüquqları haqqında BMT-nin Konvensiyası. Bakı, Qanun, 2006.
12. Dəmirçiyeva M.D. Uşaqların tərbiyəsində valideynlərin hüquq və vəzifələri. Bakı, 1996, 64 s.
13. Dəmirçiyeva M.D. Ailə hüququ. Dərs vəsaiti. Bakı, Qanun, 2008, 467 s.

## X Ü L A S Ə

Azərbaycan Respublikasının Konstitusiyasına və Azərbaycanın qoşulduğu beynəlxalq konvensiyalara uyğun olaraq uşaqların hüquq və mənafelərinin dövlət tərəfindən müdafiəsi dövlətin ən mühüm vəzifələrindən biridir. 20 noyabr 1989-cu ildə Nyu-York şəhərində qəbul edilmiş Uşaq Hüquqları Konvensiyası uşaq hüquqlarına dair əsas beynəlxalq sənəd hesab olunur və 1992-ci ildə Konvensiyanı ratifikasiya edən Azərbaycan uşağa xüsusi hüquqlara malik müstəqil şəxs kimi baxır. Hazırda Azərbaycanda qüvvədə olan ailə qanunvericiliyinin təhlili göstərir ki, qanunvericilik Azərbaycanın beynəlxalq konvensiyalar üzrə öhdəliklərinə uyğundur. Azərbaycanda 1998-ci ildə qəbul edilmiş "Uşaq hüquqları haqqında" Qanun Azərbaycan Respublikasının Konstitusiyasına, Uşaq Hüquqları Bəyannaməsinə, Uşaq Hüquqları haqqında Konvensiyaya və digər beynəlxalq hüquq normalarına uyğundur və uşaqların müdafiəsi üzrə dövlət siyasətinin əsas prinsiplərini, dövlət orqanlarının və digər hüquqi və fiziki şəxslərin bu sahədə vəzifələrini müəyyən edir. Qanun uşağa "hörmət və təminat" verməli olduğu hüquqlara malik şəxs kimi yanaşır və uşağın cəmiyyətin xüsusilə həssas üzvü olduğunu və buna görə də xüsusi müdafiəyə ehtiyacı olduğunu vurğulayır. Azərbaycan uşaq hüquqlarını və onların müdafiə formalarını qanunvericiliklə təmin etməklə ailə hüququnun fundamental prinsip və prioritetlərindən birini həyata keçirmişdir. Uşaqların ən mühüm hüquqlarından və müdafiə formalarından biri ailənin möhkəm olmasıdır və dövlətin ailəyə qayğısı sosial müdafiə, ailənin və bütövlükdə cəmiyyətin inkişafı üçün hüquqi vəzifələr üçün öz potensialından tam istifadə etməlidir.

**Гунар Халилзаде**
**Консультант Аппарата**
**Конституционного Суда Азербайджанской Республики**

## Формы государственной защиты прав и интересов детей

## Р Е З Ю М Е

Защита государством прав и интересов детей в соответствии с Конституцией Азербайджанской Республики и международными конвенциями, к которым присоединился Азербайджан, является одной из важнейших обязанностей государства. Конвенция о правах ребенка, принятая в Нью-Йорке 20 ноября 1989 года, считается основным международным документом по правам ребенка, и Азербайджан, ратифицировавший Конвенцию в 1992 году, рассматривает ребенка как самостоятельное лицо, обладающее особыми правами. Анализ действующего в настоящее время в Азербайджане семейного законодательства показывает, что это законодательство соответствует обязательствам Азербайджана по международным конвенциям. Закон «О правах ребенка», принятый в Азербайджане в 1998 году, соответствует Конституции Азербайджанской Республики, Декларации о правах ребенка, Конвенции о правах

ребенка и другим международным правовым нормам, а также устанавливает основные принципы государственной политики в области защиты детей, обязанности государственных органов и иных юридических и физических лиц в этой сфере. Закон рассматривает ребенка как человека с правами, требующими «уважения и защиты», и подчеркивает, что ребенок является особо уязвимым членом общества и поэтому нуждается в особой защите. За счет законодательного обеспечения прав детей и форм защиты Азербайджан реализует один из основополагающих принципов и приоритетов семейного права. Одним из важнейших прав детей и формой защиты является наличие крепкой семьи, и забота государства о семье должна в полной мере использовать его потенциал для юридических обязанностей, таких как социальная защита, развитие семьи и общества в целом.

**Gunar Khalilzade**
**Adviser of the Secretariat of**
**the Constitutional Court of the Republic of Azerbaijan**

## Forms of state protection of children's rights and interests

**S U M M A R Y**

The protection of the rights and interests of children by the state, in accordance with the Constitution of the Republic of Azerbaijan and the international conventions to which Azerbaijan has acceded, is one of the state's most important responsibilities. The Convention on the Rights of the Child, adopted in New York City on November 20, 1989, is considered the main international document on children's rights, and Azerbaijan, which ratified the Convention in 1992, regards the child as an independent person with special rights. The analysis of family legislation currently in force in Azerbaijan shows that the legislation is in line with Azerbaijan's obligations under international conventions. The Law "On the Rights of the Child," adopted in Azerbaijan in 1998, is in line with the Constitution of the Republic of Azerbaijan, the Declaration on the Rights of the Child, the Convention on the Rights of the Child, and other international legal norms, and sets out the main principles of state policy on the protection of children, the duties of state bodies and other legal and natural persons in this area. The Law treats the child as a person with rights that require "respect and protection" and emphasizes that the child is a particularly vulnerable member of society and therefore requires special protection. By ensuring children's rights and forms of protection through legislation, Azerbaijan has implemented one of the fundamental principles and priorities of family law. One of the most important rights of children and form of protection is to have a strong family, and the state's concern for the family must make full use of its potential for legal responsibilities, such as in social protection, for the development of the family and society as a whole.

***Нигяр ГУЛИЕВА***

Старший консультант отдела Правового обеспечения и применения
информационно-коммуникационных технологий Аппарата
Конституционного Суда Азербайджанской Республики

# ОСНОВОПОЛАГАЮЩИЕ ПРИНЦИПЫ: ЗАЩИТА ПРАВ ЧЕЛОВЕКА, ДЕМОКРАТИЯ И ВЕРХОВЕНСТВО ПРАВА, КАК ПРЕДВАРИТЕЛЬНОЕ УСЛОВИЕ МИРА

***Ключевые слова:*** *Защита, права человека, демократия, верховенство права, мир, конституция, законы, принцип, суд.*

***Açar sözlər:*** *Müdafiə, insan hüquqları, demokratiya, qanunun aliliyi, sülh, konstitusiya, qanunlar, prinsip, məhkəmə.*

***Keywords:*** *Protection, human rights, democracy, rule of law, peace, constitution, laws, principle, court.*

1. Права человека – неотъемлемый элемент человеческой личности и человеческого бытия и связанный с ним правовой статус человека и гражданина – неделим. Воля по обеспечению прав человека формировалась на основе общего понимания государствами-членами целей Совета Европы по сохранению и реализации общеевропейских принципов и идеалов. Степень защищенности прав определяет социальный климат в государстве и уровень стабильности и безопасности в обществе и в мире в целом. Следовательно решение проблем международного, социально-экономического, политического и духовного плана в первую очередь связано с устойчивым развитием прав и свобод человека и гражданина. Разделы, касающиеся прав и свобод личности, в конституциях стран рецепцировались из текста международно-признанных документов в области прав человека. В новейшей истории Азербайджана сформировано достаточно разветвленное и добротное законодательство о правах человека, которое в целом соответствует самым высоким международным стандартам и постоянно совершенствуется. В преамбуле Конституции провозглашается правовое, светское государство, верховенство законов, верность азербайджанского народа общечеловеческим ценностям, среди которых прямо упоминаются гуманизм, равенство, справедливость и терпимость. Конституция нашей страны содержит самый большой перечень прав человека. Права личности, её достоинство и безопасность возведены в высший конституционный принцип. В соответствии с Конституцией высшей целью государства является обеспечение прав и свобод человека и достойного уровня жизни гражданам нашей страны. Права и свободы человека и гражданина, перечисленные в настоящей Конституции, применяются в соответствии с международными договорами, стороной которых является Азербайджанская Республика, а в случае коллизии международных договоров в области прав человека с внутренним законодательством примат признается за международными договорами в сфере прав человека. Обладая высшей юридической силой международно-признанные права и свободы человека и

гражданина на территории Азербайджанской Республики являются непосредственно действующими. Конституция является гарантией стабильности общественных отношений, в том числе отношений между государством и гражданами, приданием гражданам уверенности в том, что их нынешнее положение не будет ухудшено, изменено, или отменено с принятием последующего закона или иного правового акта. Например, принцип отсутствия обратной силы может быть ограничен только с целью гарантировать признание и уважение прав и свобод других лиц и удовлетворение справедливых требований, основанных на соображениях морали, религиозных ценностей, безопасности и общественного порядка в демократическом обществе. Сегодня например, сильные конституционные гарантии, предоставленные меньшинствам нашей страны, позволяют языковым меньшинствам использовать родной язык, сохранять самобытность, что значительно снижает напряженность, которая может существовать в государстве с гражданами, говорящими на разных языках и культурах. Конституция Азербайджана гарантирует каждому свободу совести и вероисповедания, включая право исповедовать индивидуально или совместно с другими любую религию или не исповедовать никакой, свободно выбирать, распространять религиозные и иные убеждения действовать в соответствии с ними, и при этом отвергает любые формы ограничения прав граждан по признакам религиозной принадлежности и не допускает принуждения к выражению своих мнений и убеждений. Введен четкий конституционный запрет на любую дискриминацию по признаку «расы», «национальности», «этнической принадлежности», «религии» или «убеждений». Например, допустимость в Законе АР «О воинской обязанности и военной службе» (2011) статьи об альтернативной службе, в соответствии с которой лица, отказывающиеся от военной службы по соображениям совести, не подлежат уголовному наказанию за уклонение от воинской обязанности. Следовательно введение альтернативной военной службы не нанесет ущерба конституционным интересам национальной безопасности. Закон о военной службе, не допускающий какое-либо положение об альтернативной службе, нарушает принцип минимальных ограничений. Конституционный Суд нашей страны, выступая в качестве «хранителя» Конституции, в своей повседневной практике рассматривает возможные нарушения прав человека, будь то в контексте конституционных обзоров общих норм или конституционных жалоб лиц, и тем самым предвосхищает конституционные конфликты, предотвращая конституционные конфликты средствами конституционного правосудия, оказывает сдерживающее и стабилизирующее воздействие на всех участников конституционных отношений. Выполняя три основные задачи (предоставление правовой защиты в индивидуальном деле, обеспечение правового единства в стране и содействуя развитию права), Конституционный Суд Азербайджана разработал обширную прецедентную практику, которая обеспечивает эффективную защиту основных прав в рамках сложившего правопорядка.

2. «Демократии – это режимы, при которых основные права и свободы обеспечиваются и гарантируются самым широким образом. Функционирующие демократии обладают большей способностью реагировать на потребности общества, лучше управлять и разрешать возможные конфликты в обществе. Примером редкого консенсуса среди политологов является сегодня широкое признание того факта, что демократические страны редко или вообще никогда не воюют друг с другом. Незыблемость основ демократии и правового государства обеспечивается Основным Законом страны. В соответствии с Конституцией нашей страны, единственным

источником государственной власти и носителем суверенитета в Республике является народ, народ осуществляет свою власть непосредственно, через представительные и иные органы в формах и пределах, определенных Конституцией. Эти конституционные положения закладывают политико-правовые основы целостной системы власти народа для последующего закрепления и регулирования в Основном Законе отношений прямой и представительной форм демократии, статуса гражданина Республики, в том числе его права участвовать в управлении делами государства непосредственно и через своих представителей. В своём решении «О соответствии постановления «Судебной коллегии по гражданским делам Верховного Суда Азербайджанской Республики от 26 сентября 2005 года Конституции и законам Азербайджанской Республики», Конституционный Суд Азербайджана указал, что единственным источником государственной власти является народ, который осуществляет власть непосредственно через всенародный референдум и свободные выборы, а также делегирует исполнение своих полномочий государственным органам. Демократия в Республике осуществляется на основе многообразия политических институтов, идеологий и мнений. Конституционный Суд Азербайджана, вынося решения о признании результатов выборов, способствует демократической легитимности представителей выборного органа уменьшая, насколько это возможно, конфликты между большинством и оппозицией. Ограничения, при которых основные права и свободы полностью нереализуемы, не могут считаться соответствующими требованиям демократического общественного порядка. По этой причине основные права и свободы могут быть ограничены только законом и в порядке исключения без ущерба для их существа в той мере, в какой это необходимо для сохранения демократического общественного порядка. Защита демократии также связана с конституционной ответственностью органов государственной власти, предполагая защиту гражданского общества от неконституционных действий должностного лица. Это обеспечивается наличием эффективной, беспристрастной и независимой политической и судебной системой, свободными СМИ и свободой выражения мнений, свободой собраний и активным гражданским обществом, легитимными демократическими институтами и инклюзивным обществом. Например, Конституционный суд европейских стран обладая сводной судебной практикой в области защиты демократии, уделяют особое внимание свободе слова как одному из неотъемлемых элементов демократического государства, делая тем самым государственную власть более ощутимой для народа, более контролируемой и более прозрачной. Необходимым условием защиты демократии является наличие демократических избирательных систем. «Выборы – это процесс, посредством которого люди осуществляют свой суверенитет. Демократичная избирательная система, как основа демократии надлежащим образом отражает волю народа, способствуя достижению стабильности и мира в социальной и политической сфере. Конституционализация политических партий в качестве институциональной гарантии, создает климат политического плюрализма, обеспечивающий существование любого демократического режима. Недопустимость создания политических партий на основе критериев национальности или религии. Деятельность, направленная на насильственное свержение конституционного строя, нарушает гарантированные права человека и меньшинств и разжигает национальную и религиозную рознь. Как пример защиты демократии и правовых ценностей, можно назвать дела о натурализации, возбужденных в 2008 году федеральным судом Швейцарии, постановивший, что ношение хиджаба как религиозного символа не позволяет отказаться от

натурализации и ношение исламского хиджаба не означает неуважение демократических ценностей. Это прецедентное право поощряет мирное сосуществование в плюралистическом культурном и религиозном обществе. Таким образом «положительный мир» и «истинная справедливость» могут быть осуществлены только через живую демократию, которая защищена хорошо сбалансированной конституционной системой

3. Верховенство права – универсальный принцип. «Необходимость всеобщего обеспечения и соблюдения верховенства права как на национальном, так и на международном уровне» была признана всеми государствами-членами ООН в 2005 году в Итоговом документе на Всемирной встречи, на высшем уровне. В Преамбуле Европейской конвенции о защите прав человека и основных свобод, в частности, как элемент общего наследия, Верховенство права упоминается в качестве одного из трех «принципов, составляющих основу подлинной демократии», наряду со свободой личности и политическими свободами. Венецианская комиссия рассмотрела принцип верховенства права в свете Резолюции 1594(2007) Парламентской ассамблеи, указавшей на необходимость обеспечить правильную интерпретацию термина «верховенство права», в духе принципа законности и надлежащей правовой процедуры. Принцип верховенства права должен применяться на всех уровнях государственной власти. Верховенство права и надлежащее функционирование демократических институтов немыслимы без независимых и эффективных правовых систем, которые обеспечивают доступ каждого к правосудию. Таким образом, верховенство права, наряду с демократией и правами человека, является одним из трех переплетающихся и частично дублирующих друг друга основных принципов миропорядка. Правовыми параметрами служат международные документы, Конституция, действующее законодательство, правовая позиция Европейского суда по правам человека, решение Венецианской комиссии, контрольных органов Совета Европы и других институтов. Верховенство права и права человека (например, справедливый суд и свобода выражения мнений) являются взаимопересекающимися понятиями и могут быть полным образом реализованы только при условии соблюдения и защиты прав человека. Верховенство права, способствуя развитию демократии, фокусируется на ограничении власти и независимом контроле за деятельностью государственных органов. Верховенство права призвано защитить меньшинство от произвола правления большинства. Европейский суд по правам человека также в своих решениях признал, что наличие категорий верховенства права служит, для оценки качества законов, защищающих права человека. Любой закон должен быть доступен и предсказуем, а процесс принятия законов прозрачным, подотчетным, предусматривающим участие всех сторон. Правовая определенность и последовательность закона, отсутствие их обратной силы (например запрет вторичного привлечения к ответственности за одно и то же преступление), правовые гарантии против произвола и злоупотреблений органами государственной власти (например доказательства, полученные в нарушение прав человека, неприемлемы при любых обстоятельствах), равенство перед законом и недискриминация, доступ к правосудию, независимость и беспристрастность судебной системы, презумпция невиновности, должно быть реально обеспеченным Конституционным правосудием. Разумная пропорциональность между конкурирующими ценностями, доступ к информации общественности и праве отдельных лиц на уважение их частной жизни обеспечивает справедливый баланс между правом на доступ к информации и защите частной жизни. Примером может служить прецедент-

ное право Конституционных судов европейских стран, решение по делу об оспаривании Закона «О декларировании и контроле активов, финансовых обязательств выборных и государственных должностных лиц», в котором Конституционные суды постановили, что общественность имеет законный интерес в более подробном информировании о доходах, богатстве и происхождении богатства выборных и должностных лиц. Контекстуальные элементы верховенства права не ограничиваются только правовыми факторами. Наличие (или отсутствие) в обществе общей правовой культуры, а также то, как эта культура соотносится с существующей правовой системой, гарантирует надлежащее осуществление конституции с целью обеспечения соблюдения верховенства права. Следовательно понятие «правовое государство в материальном смысле» включает в себя понимание состояния справедливости, когда сама конституционная организация государственной власти связана с основными правами человека, как высшей ценности, реализация которой, является смыслом и целью ее существования. За последнее десятилетие Конституционный Суд Азербайджана, помимо своей собственной практики, строго соблюдая международные и европейские стандарты, разработал довольно обширную судебную практику по различным аспектам верховенства права, в частности по правовой определенности, обеспечения режима законности, справедливости, соразмерности и равенства всех перед законом, утверждение единства и разделения государственной власти с исключением дискриминации и злоупотребления властью кем бы то ни было, а также максимальный доступ к правосудию связанных с важными социальными проблемами, такими как защита прав инвалидов, прав военнослужащих, собственников.

Завершая краткий обзор хотелось бы отметить, что несоблюдение демократических норм, прав человека и принципов верховенства права, в том числе международного права, подрывают усилия, направленные на реализацию рациональных, эффективных и гуманных решений, и следовательно, создают проблемы, представляющие серьезные угрозы безопасности, что еще раз доказывает, что демократические нормы и практика являются жизненно важными основами для достижения прочного мира. Несмотря на существенные трудности на пути построения демократического общества, Азербайджан подтверждает взятые на себя обязательства и прилагает все усилия для проведения демократических реформ, создания необходимых условий для обеспечения и соблюдения основных прав и свобод человека, верховенства права и построения светского демократичного государства, что является важными основами безопасности мира в целом.

**Список использованной литературы**

1. Cora Pfafferoff “The Rule of Law – When is it threatened?”.

2. Bureau of democracy, human rights, and labor «SECURITY AND HUMAN RIGHTS»

3. Kirchschlaeger, Peter «THE RELATION BETWEEN DEMOCRACY AND HUMAN RIGHTS»

4. Sector Overview «Democracy, Human Rights, and Governance Strategy»

5. 5th Congress of the World Conference on Constitutional Justice. Summary of replies to the questionnaire “Constitutional Justice and Peace”

6. Fərhad Abdullayev Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Hüquqi Mövqeləri 1998-2018

**Nigar Quliyeva**
**Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Aparatının**
**Hüquqi təminat və informasiya-kommunikasiya texnologiyalarının**
**tətbiqi şöbəsinin böyük məsləhətçisi**

## Əsas prinsiplər: İnsan hüquqlarının, demokratiyanın və qanunun aliliyinin qorunması sülhün ilkin şərti kimi

### X Ü L A S Ə

İnsan hüquqları insan şəxsiyyətinin və insan varlığının ayrılmaz elementidir və bununla bağlı insanın və vətəndaşın hüquqi statusu bölünməzdir. Demokratiya əsas hüquq və azadlıqların ən geniş şəkildə təmin edildiyi rejimdir. Demokratik ölkələr nadir hallarda və ya heç vaxt bir-biri ilə müharibə etmirlər. Demokratiya və insan haqları ilə yanaşı qanunun aliliyi dünya nizamının bir-biri ilə iç-içə olan və üst-üstə düşən üç əsas prinsipindən biridir. Demokratik normalara, insan hüquqları və qanunun aliliyi prinsiplərinə, o cümlədən beynəlxalq hüquq normalarına əməl edilməməsi rasional, səmərəli və humanist həllərin həyata keçirilməsinə yönəlmiş səylərə xələl gətirir və belə problemlər təhlükəsizliyə ciddi təhdidlər yaradır ki, bu da bir daha özü özlüyündə sübut edir ki, demokratik normalar və təcrübələr davamlı sülhə nail olmaq üçün həyati əsasdır.

**Nigar Guliyeva**
**Senior Adviser of**
**Legal Support and Application of**
**Information and Communication Technologies of**
**the Secretary of the Constitutional Court of the Republic of Azerbaijan**

## Fundamental principles: The protection of human rights, democracy and the rule of law as a pre-condition to peace

### S U M M A R Y

Human rights are an integral element of the human personality and human existence, and the legal status of a person and citizen associated with it is indivisible. Democracies are regimes in which fundamental rights and freedoms are ensured and guaranteed in the broadest possible way. Democratic countries rarely or never go to war with each other. The rule of law, along with democracy and human rights, is one of the three intertwined and overlapping basic principles of the world order. Democratic norms, human rights and the principles of the rule of law, including international law, undermines efforts aimed at implementing rational, effective and human solutions, and therefore creates problems that pose serious threats to security, which proves once again that democratic norms and practices are vital foundations for achieving a lasting peace.

***Atilla ÖZTÜRK***

Naxçıvan Dövlət Universiteti,
"Hüquq fənləri" kafedrasının müəllimi

***Əkbər RƏŞİDOV***

Naxçıvan Dövlət Universiteti
magistr

***Almaz KAZIMOVA***

Naxçıvan Dövlət Universiteti
magistr

# KONSTİTUSİYALARIN LEGİTİMLİK PROBLEMİ

***Açar sözlər:*** *İqtidar, hakimiyyət, legitimlik, konstitusiya.*
***Ключевые слова:*** *Власть, легитимность, конституция.*
***Keywords:*** *Power, legitimacy, constitution.*

## GİRİŞ

Legitimlik sosial elmlər ədəbiyyatında üzərində ən çox mübahisə edilən mövzulardan biri olmasına baxmayaraq, siyasi sistem üzərindəki təsirləri barədə ümumi bir uzlaşmadan bəhs etmək çətindir. Konstitusiyaların legitimlik problemi isə ümumi olaraq Legitimlik anlayışı qədər müzakirə mövzusu olmasa da, son zamanlarda üzərinə düşünülməyə və danışılmağa başlanılan mövzulardandır. Xüsusi ilə Şərqi Avropa və keçmiş Sovetlər Birliyindəki komunist rejimlərin dağılmasının ardından qəbul edilən yeni konstitusiyaların gələcəyinin müzakirə olunduğu bir şəraitdə legitimlik anlayışı müzakirə obyektinə çevrilmiş, anlayışın əhəmiyyəti post-komunist siyasət və hüquq laborotoriyalarında müzakirəyə təqdim edilmişdir. Konstitusiyaların legitimliyi problemi sadəcə yeni Konstitusiyalar üçün deyil daha qədim konstitusiyalar üçün də önəm kəsb edir. Bu gün daha qədim konstitusiyaların qarşı-qarşıya olduğu dəyişiklik tələbi diqqətləri bir daha legitimlik anlayışı və konstitusiyaların legitimlik problemi üzərinə kökləmişdir.

Legitimlik anlayışının istifadə edilə bilən bir məna yükünü verə bilməyə çalışacağıq, eyni zamanda verdiyimiz anlayış çərçivəsində üç ayaqlı bir legitimlik modeli quraraq konstitusiyaların legeitimlik problemini açıqalayacağıq.

Bu məqalə hipotezik-didaktik bir üsulla legitimlik anlayışını açıqlamağa hədəflənmiş ətraflı bir çalışmanın ilk mərhələsi olaraq düşünülə bilər. Bilindiyi kimi Hipotezik-didaktik üsulla elmi məlumata üç mərhələdən keçməklə çatmaq mümkündür: ümumi bir hipotezanın ortaya qoyulması, bu hipotezadan yola çıxaraq bəlli bir düşüncənin formasiya edilməsi, bu formasiyanın və ya formasiyaların nəzəri və ya praktiki yolla test edilməsi. Bu məqalədə inkşaf etdirilən hipotezaa və formasiyalar irəlidə konkret hadisələrdə test edilməsinin ən azından bu mövzuda bir müzakirənin açılmasının, legitimlik anlayışının anlatik bir çərçivəyə salınmasına köməklik göstərəcəyinə və yeni konstitusiya axtarışlarının davamlı

gündəmdə olduğu ölkələrdə konstitusiyaların yaşaması üçün böyük önəm daşıyan bu anlayışın daha yaxşı anlaşılmasına kömək edəcəyinə inanırıq.

## SİYASİ MƏDƏNİYYƏT, KONSTİTUSİYA QURULUŞU, FUNKSİONAL QURULUŞ

"Əgər bir siyasi sistemin mənsubları, X konstitusiyasını, Y və ya Z konstitusiyasından daha uyğun və ya daha yaxşı olduğuna inanırlarsa və bu konstitusiyanı dəstəkləyirlərsə, X konstitusiyası legitimdir" şəklində bir model misal verə bilərik. Elə isə, konstitusiyaların legitimliyi ilə bağlı nəzəri bir model vermək istəsək ilk sualımız budur: "Siyasi sistem mənsubları niyə X konstitusiyasının Y və ya Z konstitusiyasından daha uyğun və ya daha yaxşı olduğunu düşünürlər və bu konstitusiyanı dəstəkləyirlər?" Bu sualın cavabını vermək üçün Lipest və Linzin siyasi sistemlər mövzusundakı fikirlərinə müraciət edə bilərik. Bu yazarlara görə belə bir legitimliyin iki əsas qaynağı vardır: siyasi mədəniyyət və funksiyanal fəaliyyət.

Siyasi mədəniyyət dedikdə siyasi obyektlərə münasibətdə dəyər, inanç və münasibətlər nəzərdə tutulur. Siyasi qurumların yaşaması üçün siyasi mədəniyyətdən qaynaqlanan, onunla qarşılıqlı münasibət vacibdir. Bu qayda konstitusiyalar cəhətdəndə doğrudur. Bir konstitusiya bir cəmiyyətin siyasi mədəniyyətini nə qədər əks etdirirsə o qədər legitimdir və dolayı yolla yaşama şansı da o qədər çox olur. Funksiyanal fəaliyyətdə məqsəd isə siyasi qurumların bəlli bir siyasi sistemdəki şəxs və qrupların istəklərini yerinə gətirə bilmə bacarığıdır. Konstitusiyalar cəhətdən düşünsək, bir konstitusiya bəlli bir cəmiyyətdə nə qədər çox qrupun konstitusiyanal istəklərini qarşılaya bilirsə legitimliyi və dolayı yolla yaşama şansı o qədər çoxdur. Legitimlik anlayışını konstitusiyalar nöqteyi-nəzərindən baxdıqda siyasi mədəniyyət və fuksiyanal təsir baxımından konsitusiya quruculuğunun və müddətinin xüsusiyyətlərini də dəyərləndirmək lazımdır. Bir siyasi sistemdə var olan qruplar konstitusiya quruculuğunda nə qədər çox iştirak edərlərsə və ortaya çıxan sənəd bu qrupların konstitusiya istək və arzularını nə qədər çox qarşılayarsa o qruplar o konstitusiyaya o qədər çox hamilik edər və dəstək olarlar. Nəticədə, yenə konstitusiyanın legitimliyi və mövcud olma şansı daha çox olur. Xülasə, konstitusiyaların mövcud ola bilməsi legitim olmalarından asılıdır. Bu isə siyasi mədəniyyət, funksiyanal təsir və konstitusiya quruculuğunu içində tutan üç ayaqlı bir model ilə açıqlana bilər. Bu üç ayaqlı modelin köməyi ilə bəlli bir siyasi sistemdəki konstitusiyaların dəyişiklik dinamikasını araşdırmq və konstitusiyaların gələcəyi haqqında fikirlər irəli sürmək mümkündür. Məqalənin bundan sonrakı hissələrində bəhs edilən modeli inkşaf etdirmək və gücləndirmək məqsədi ilə bu üç anlayış (siyasi mədəniyyət, funksiyanal təsir, konstitusiyaquruculuğu) ətraflı olaraq araşdırılacaqdır.

### Siyasi mədəniyyət

Yuxarıda qısaca vurğuladığımız kimi, siyasi mədəniyyət şəxslərin siyasi obyektlərə münasibətdə inanç, dəyər və münasibətlərini ifadə edir. Şübhəsiz ki, bu anlayışda yer alan siyasi obyekt anlayışı olduqca geniş bir anlayışdır və bəzi hüquqçuların da ifadə etdiyi kimi konstitusiya da bu siyasi obyektlərdən birisidir. Elə isə bəlli bir cəmiyyətdə yaşayan fərdlərin konstitusiya ilə bağlı inanc, dəyər və münasibətləri də o cəmiyyətin siyasi mədəniyyətinin bir hissəsini təşkil edir. Buna görə aşağıda legitimlik baxımından siyasi mədəniyyətlə əlaqədar olaraq verəcəyimiz dəyərləndirmələr böyük miqdarda konstitusiyalar üçün də xarakterik olacaqdır.

Bu bölmədə üzərində dayanağımız ilk sual budur: “Siyasi mədəniyyət və ümumi olaraq siyasi qurumların və dolayı yolla siyasi sistemin legitimliyinə necə tövhə verilə bilər?” Bu gün xüsusi ilə siyasət sosialogiyası ədəbiyyatında geniş yayılan və qəbul edilən bir fikirə görə siyasi qurumların mövcud olmaları o qurumların o siyasi sistemdə hakim olan siyasi mədəniyyətlə iç-içə olmaları ilə bağlıdır. Bir başqa sözlə desək, bir siyasi sistemdə siyasi qurumların yaşaması dəstəkləyici bir siyasi mədəniyyətin varlığını tələb edir. Bu görüş “əsas təsisatlar sistemi” olan konstitusiya üçün bu cür formasiya edilə bilər: “Əgər X konstitusiyası A cəmiyyətində yaşayan fərdlərin inanc, dəyər və xüsusiyyətləri ilə uyğundursa bu fərdlər X konstitusiyasının Y və ya Z konstitusiyasından daha uyğun və ya daha yaxşı olduğunu düşünər və X konstitusiyasını dəstəkləyərlər.”

Bu mərhələdə bu məsələni vurğulamaq yerinə düşər ki, siyasi mədəniyyət “monolit” bir quruluş deyil, yəni bəlli bir zamanda, bəlli bir cəmiyyətdə hakim olan siyasi mədəniyyət, fərqli faktorların təsiri ilə öz içində fərqliliklər göstərə bilər. Bu mənada, xüsusilə elit siyasi mədəniyyəti kütlə siyasi mədəniyyətindən ayırmaq lazımdır. Ümumi olaraq bəlli bir cəmiyyətdə liderlik və idarəedicilik sifəti ilə önə çıxan, bəlli xüsusiyyətlərə sahib bir komanda olaraq elitlər, təhsilləri və cəmiyyətdə tutduğu yerlər kütləyə görə fərqli (hətta bir çox nümunədə olduğu kimi insan həyatı və varlığına münasibətdə beynəlxalq standartları ön plana çıxarır) bir siyasi mədəniyyətə sahibdir və ya belə olması lazımdır. Elit komandaların ortaya çıxışı və siyasi mədəniyyətlərin təşəkkülü bu məqalənin mövzusu olmasa da, onu qeyd etmək lazımdır ki, elitlər siyasi prosesi və normal və fors-major vaxtlarda tənzimləmə bacarığına və səlahiyyətinə sahibdirlər. Dolayısı ilə sadəcə normal vaxtlarda deyil fors-major vaxtlarda da siyasi qərarlar, edilən siyasi seçimlər elit siyasi mədəniyyətini əks etdirir. Bir siyasi sistemə münasibətdə seçimləri var edən və gələcək nəsilləri də maraqlandıran konstitusiyalar da ümumumilikdə elit siyasi mədəniyyətin təzahürüdür.

Bu açıqlamalardan çıxaracağımız ilk nəticə budur: bir konstitusiyanın mövcud olması üçün ən azından elit düşüncə dəstəyinə sahib olması lazımdır. Əgər bir konstitusiyanı təsis edən elitlər ona inanmırlarsa, o konstitusiya elitlərin inanc, dəyər və xüsusiyyətləri ilə uyğunluq təşkil etmirsə deməli obrazlı desək “konstitusiya ölü doğulmuşdur”. Harriet Applevite bu barədə 1791-ci il Fransa konstitusiyasını nümunə göstərir. Mütəfəkkirin fikrincə konstitusiya təsis edənlər tərəfindən belə dəstəklənməyən bir konstitusiyanın xalq dəstəyinə sahib olması real deyildir. O zaman konstitusiya siyasi-mədəni münasibətlər cəhətdən ən pis ehtimalı konstitusiyanın həm elit, həm də kütlənin mədəniyyəti ilə uyğunluq göstərməməsidir. Ən yaxşı ehtimal isə konstitusiyanın elitlər və kütlə tərəfindən ortaq mövcud olan bir siyasi mədəniyyətdən qaynaqlanmasıdır. Bu ehtimalda dəstəkləyici bir siyasi mədəniyyət konstitusiyadan əvvəl mövcuddur və bu mədəniyyət konstitusiyaya “ruh verir.” Dolayısı ilə konstitusiya ilə siyasi mədəniyyət arasında baş verən bütöv uyğunluq mövcud olur. Misal üçün Lavranse M. Friedmana görə 1787-ci il Amerika Konstitusiyasında öz əksini tapan hakimiyyətin bölünməsi prinsipi və hakimiyyətlərin bir-birini “əyləc” kimi tənzimləməsi, eyni zamanda tarazlıq sistemi konstitusiyanın qəbul edilməsindən öncə Amerika cəmiyyəti tərəfindən mənimsənmişdir. “İqtidar təmərküzü”nün narahtlığına diqqət çəkən 18-ci əsr mütəfəkkirlərinin fikirləri Amerika cəmiyyətində geniş əks-səda doğurmuş və qəbul edilmişdir. Friedmana görə konstitusiya bu münasibətin səbəbi deyil nəticəsidir. Ancaq tarixi misallar bizə göstərmişdir ki, konstitusiya ilə siyasi mədəniyyət arasında münasibətlər baxımından başqa ehtimallar da mövcuddur. Bir çox nümunədə rastımıza çıxan vəziyyət konstitusiyanın elit siyasi mədəniyyəti ilə uyğunluğu, fəqət kütlə siyasi mədəniyyəti ilə uygunsuzluğudur. Bu barədə

İkinci Cahan Müharibəsindən sonra müstəqilliklərini əldə edən ölkələrdə qəbul edilən konstitusiyalar nümunə göstərilə bilər. Bəs bu halda nə baş verəcək? Kütlənin dəstəyinə sahib olmayan bir konstitusiya "yaşaya bilərmi"? Fikrimizcə bu suala müsbət cavab vermək çətindir. Bir konstitusiyanın yaşaya bilməsi üçün elit dəstəyi lazımdır, fəqət bu kifayət deyildir. O konstitusiyanın eyni zamanda geniş kütlə tərəfindən qəbul edilib mənimsənilməsi lazımdır. Bu sadəcə bəhsi gedən konstitusiyanın yaşaması üçün deyil, o konstitusiyanı qəbul edən elitlərin iqtidarının davam etməsi üçün ön şərtdir. Bəs kütlə siyasi mədəniyyəti ilə uyğunluq təşkil etməyən bir konstitusiyaya dəstək olarmı? Legitimlik baxımından düşünsək kütlənin inanc, dəyər və xüsusiyyətlərinə uyğun olmayan bir konstitusiyanın qüvvəyə minməsi bəzi şərtlərlə mümkündür. Məsələn, konstitusiya daxili və xarici qüvvələr tətbiq edilə bilər. Bu halda konstitusiyanın zorla kütləyə qəbul etdirilməsi mümkündür və ya müharibə, çevriliş, inqilab, kimi böyük kütləvi hadisələrdən sonra bu kütləvi hadisələrin təşkilatçıları tərəfindən və ya onların himayəsində qəbul edilən bir konstitusiya bəhs edilən təşkilatçıya və ya komandaya göstərilən heyranlıq və ya etimadın bir nəticəsi olaraq dəstəklənə bilməsi mümkündür. Nəhayət, siyasi sistem mənsubları "gözlə və gör" düşüncəsi ilə siyasi mədəniyyətlərinə uyğun olmayan bir konstitusiyaya "hə" deyə bilər. Hansı şəkildə olarsa olsun, minimum bir dəstəklə qüvvəyə minən bir konstitusiyanın elit dəstəyinin davam etməsi şərti ilə sahib olduğu minimum dəstəyi davam etdirə bilməsi və ya dəstəyi artırabilməsi üçün kütlə tərəfindən mənimsənilməsi lazımdır. Bəs bu necə reallaşa bilər? Əvvəldə konstitusiyanın siyasi mədəniyyəti yəni inanc, dəyər və xüsusiyyətləri ilə uyğun olmadığı üçün kütləvi dəstəkdən məhrum qalmışdır. Konstitusiyanın kütlənin dəstəyini qazanması üçün bu uyğunsuzluq aradan qaldırılmalıdır. Əks halda ya konstitusiya dəyişəcəkdir ya da siyasi mədəniyyət…

Bəs siyasi mədəniyyət dəyişə bilərmi? Bu sualın cavabını vermədən öncə siyasi mədəniyyətin necə ortaya çıxması üzərində danışmaqda fayda var. Siyasət elmi və siyasət sosiologiyası ədəbiyyatında xüsusi ilə Qabriel Almond və Sidney Verba tərəfindən inkşaf etdirilən siyasi mədəniyyətlə əlaqəli klassik nəzəriyələrə görə siyasi mədəniyyət kiçik yaşlarda siyasi sosiallaşma yolu ilə təşəkkül tapır və zaman keçdikcə çox dəyişikliyə məruz qalmaz. Siyasi sosiallaşma bəlli bir siyasi sistemin mənsublarının-ailə, məktəb və. s kimi "sosiallaşan fərdlər" vasitəsi ilə inanc və dəyərlərini əldə etmək, xüsusiyyətlərini inkşaf etdirmə dövrünü əhatə edir. Bu ifadədən də anlaşıldığı kimi siyasi sosiallaşma xüsusilə kiçik yaşlarda yaşanan təhsil prosesi ilə yaxından bağlıdır. Bir çox fərdin siyasi mədəniyyətinin nüvələri kiçik yaşlardan ortaya çıxan faktorların təsiri ilə formalaşır. Bu fikirlərin böyük ölçüdə həqiqət payı vardır, fəqət siyasi sosiallaşma xüsusi ilə kiçik yaşlarda təsirli olan bir proses olduğunu qəbul etmək bizi siyasi mədəniyyətin insan həyatının bəlli bir dövründə formalaşan müəyyən vaxt keçdikdən sonra dəyişməyən bir xüsusiyyət olduğu fikri meydana gəlməməlidir. Bu gün geniş yayılmış bir fikirə görə, siyasi mədəniyyət statik deyil, zaman içində dəyişəndir. Xüsusilə həyatı boyu siyasi prosesdə aktiv iştirak edən fərd bu proses içində inanc və dəyərlərini nəzərdən keçirə bilər, xüsusiyyətlərini dəyişə bilər. Nəticə olaraq kütlə mədəniyyəti ilə uyğun olmayan bir konstitusiya müzakirə predmetidirsə deməli minimum dəstəklə qüvvəyə minən bu konstitusiyanın mövcudluğunu davam etdirməsi onunla ziddiyyət göstərən siyasi mədəniyyətin dəyişməsi mümkündür. Bəs belə bir dəyişiklik nə vaxt və hansı şərtlərdə reallaşar?

Bu sualın cavabı fuksiyanal təsirlik anlayışındadır. Qəbul edilən zaman legitimlik boşluğu ilə qəbul edilən bir konstitusiyanın yaşaya bilməsi üçün kütlənin inamını qazanması lazımdır. Əgər kütlə başlanğıcda siyasi mədəniyyətinə zidd konstitusiyanın bir müddət sonra

“onlara faydalı olduğunu” görərsə konstitusiya yerinə siyasi mədəniyyəti dəyişdirməyi seçə bilər. Almaniya siyasi mədəniyyəti belə bir dəyişikliyə misal ola bilər.

İkinci Dünya müharibəsindən sonra Almaniyada təşkil edilən sorğulara görə Almaniya xalqının kiçik bir hissəsi təkrar olaraq monarxiyanın qurulmasını istəyib. Xalqın böyük bir hissəsinə hakim olan fikir isə “bizim üçün fərq etmir” və ya qərarsızlıq idi. Almaniya Federasiyasının yarandığı ildən 6 il sonra aparılan yeni bir anket araştırmasına görə xalqın 52%-i konstitusiya haqqında heç bir şey bilmədiyini, 14 %-i qərarsız olduğunu, 5%-i isə konstitusiyaya qarşı olduğu ortaya çıxdı. Almaniya xalqının ancaq 30%-i konstitusiyaya qarşı müsbət fikir irəli sürdü. Ancaq bir müddət sonra konstitusiyanın funksiyanal təsirliyi (xüsusi ilə hökümət sabitiliyini bərpa etməsi, iqtisadiyyatda canlanmaya səbəb olması, insan haqlarının qorunması və milli özünəinmaın yenindən qurulmasındakı payı) Almaniya xalqının konstitusiyaya qarşı laqeyid, qərarsız mövqeyini böyük miqdarda dəyişdirə bildi, bunu 1972-ci ildə aparılan anket sorğusu təsdiq edir. Bu sorğunun nəticələrinə görə Alman xalqının 52%-i konstitusiya haqqında müsbət fikirdə olduğunu bəyan etmişdir. Bu nisbət 1978-ci ildə daha da artaraq 71%-ə qədər çatmışdır. Bu nümunədə də açıqca göründüyü kimi başlanğıcda konstitusiya ilə siyasi fikir arasında bir uyğunsuzluq olsa da, konstitusiyanın funksiyanal cəhətdən təsirli ola bilməsi halında uyğunsuz siyasi mədəniyyətin dəyişməsi mümkündür. Bəs konstitusiyanın legitimliyi baxımından bu qədər önəm kəsb edən təsirlik və ya funksiyonal təsirlik anlayışı necə mənalandırıla bilər?

## Funksional təsirlik

Ümumilikdə hüquq və siyasət elmi ədəbiyyatında bir konstitusiyanın təsirli olub-olmadığı araşdırılarkən o konstitusiyanın həqiqətən tətbiq edilib-edilməməsi məsələsinə aydınlıq gətirilməlidir. Başqa sözlə əgər konstitusiyonal formallıq ilə konstitusiyon reallıq arasında yəni kağız üzərindəki konstitusiya ilə tətbiq edilən konstitusiya arasında bir uyğunsuzluq varsa bəhs edilən konstitusiyanın təsirli olmadığı nəticəsinə gəlmək olar. Halbuki, təsirliyi legitimlik anlayışı baxımından dəyərləndirsək önəmli olan konstitusiyanın olduğu kimi tətbiq edilib-edilməməsi deyil, siyasi sistemdəki qrup və fərdlərin konstitusional istəklərinin nəzərə alınıb-alınmadığıdır. A siyasi sistemində X konstitusiyası olduğu kimi tətbiq edilə bilər, fəqət bu bəhsi gedən siyasi sistem mənsublarının konstitusiyonal istəklərinin nəzərə alındığı mənasına gəlməz. Dolayı yolla konstitusiyonal istəkləri nəzərə alınmayan fərdlərin də X konstitusiyasının Y və ya Z konstitusiyasından daha uyğun və ya daha yaxşı olduğunu düşünmələri üçün bir səbəb yoxdur. Beləliklə legitimliyi minimalist bir anlayışla tərif edən mütəfəkkirlər legitimlik ilə təsirlik arasında münasibəti bu aspekdən nəzərdən keçiriblər. Linz Lipsetə paralel bir anlayış verdiyi halda təsirlik (efficacy) və təsirlilik (effective ness) arasında bir fərqləndirmə etmiş və təsirliliyi bəlli bir rejimin hər hansı bir siyasi sistemin qarşılaşabiləcəyi və bəlli bir zaman dilimi içində önəmli hala gələn əsas problemlərə, vətəndaşların çoxluğu tərəfindən razı olduqları həll yolları tapa bilmək bacarığı olaraq anlayış verərkən, təsirliyi arzu edilən nəticələr işığında həyata keçirəbilmə bacarığı kimi ifadə etmişdir. Kiçik fərqliliklərinə rəğmən fikrimizcə bu iki anlayış birlikdə dəyərləndirilərək təsirlik analayışı haqqında bir nəticəyə gəlməyə imkan verir. Bu iki anlayışda iki ortaq nöqtə diqqəti cəlb edir. Birincisi, hər iki anlayış da funksional təsirlik üzərində daynanır, yəni əgər bir siyasi sistem funksiyalarını yerinə yetirirsə təsirlidir. İkincisi, bir siyasi sistemin təsirli olub-olmadığı dəyərləndirilərkən o sistem mənsublarının fikirləri, qənaətləri, önəm kəsb edir. Konstitusiyalar baxımından ifadə edəcək olsaq, funksiyalarını yerinə yetirən bir konstitusiya təsirlidir və bu təsirliyin fonunda o konstitusiya

ilə əlaqəli olan idarəedici və idarəedilənlərin istəkləri önəmli rol oynayır. Elə isə konstitusiyaların funksional cəhətdən təsirliyi barədə doğru bir nəticəyə gələ bilmək üçün öncəliklə konstitusiyaların funksiyalarını təsvir etməyimiz lazımdır.

Bu son nöqtə bəlkə də bura qədər qurmağa çalışdığımız üç ayaqlı legitimlik modelinin ən çətin nəzəri problemlərindən birinidə özü ilə gətirir. Bəlli bir cəmiyyətdə yaşayan fərdlərin konstitusiyonal istəkləri necə müəyyən edilir? Fərdlərin tək-tək konstitusiyonal istəklərinin araşdırıb ortaya qoymanın, çətinlikləri nəzərə alındığında bu sualın cavabının praktikada deyil, nəzəri sahədə axtarılmasının daha düzgün olacağı qənaətindəyik. Tədqiqatımızda demokratik rejimlərdə bəlli qrupların varlığı bizə nəzəri cəhətdən asanlıq yaradacaqdır. Müasir siyasət və hüquq elmində siyasi sistem baxımından fərdlər, hətta fərdlərdən daha çox qruplar əhəmiyyət kəsb edir. Bir cəmiyyətdəki fərdləri bir-birinə bağlayan hər cür formal və informal təsisatlar olaraq analşılabiləcək qruplar siyasi sistemin işləməsi baxımından önəm daşıyır. Bir çox nümunədə siyasi partiyalar və təzyiq qrupları siyasi sistemin ayrılmaz bir hissəsi olaraq qarşımıza çıxır.

Demokrtaik rejimlərdə fərqli mənfəət və dəyərlərə sahib bir sıra qruplar iqtidara gəlmək üçün yarışırlar. Bəlli bir quruluş çərçivəsində edilən bu yarışda bəzi qruplar qalib olurlar bəzi qruplar isə məğlub olurlar. Bu mərhələdən sonra artıq qaliblər idarəedənlər, məğlubar isə idarəedilənlər kateqoriyasına düşürlər. Demokratik rejimlərdə məğlub olan qruplar qalib olan qrupların hakimiyyətini tanıyır və gələcək seçkilərdə təkrar iqtidara gələbilmək məqsədi ilə demokratik qrumlar çərçivəsində fəaliyyətini davam etdirirlər. Bu xüsusiyyətləri ilə demokratiya “təşkilatlanmış bir qeyri-müəyyənlik” olaraq mənalandırıla bilər1. Bunun mənası demokratiyalarda hər zaman qaliblər və məğlublar olacaqdır, fəqət kimin qalib olub kimin məğlub olacağının bəlli olmamasıdır. Nəticədə demokratiyalarda bu iki geniş kateqoriya (yəni qalib və məğlublar və ya idarəedənlər və idarəedilənlər) hər zaman mövcud olacaqdır.

Müasir demokratiyalarda iqtidar yarışı əsas olaraq siyasi partiyalar vasitəsilə və siyasi partiyalar arasında gedir. Bu cəhətdən iqtidara gələn və iqtidara gələ bilməyən siyasi partiyaların strategiyaları iş mexanizmləri və hədəfləri fərqlidir. Ancaq bizim fikrimizcə bu partiyaların konstitusiyadan istəkləri də fərqli olur. İqtidara gəlmək üçün yarışan partiyalar proqramlarında seçicilərə müxtəlif alternativlər təklif edir, seçicilər də bu alternativləri dəyərləndirərək uyğun hesab etdikləri partiyaya səs verirlər. Bir başqa sözlə partiyalar seçiləbilmək üçün müxtəlif vədlər verir, seçicilər də inandırıcı hesab etdikləri partiyaya söz verərirlər. İqtidara gəldikdə bu partiyaların seçiciyə verdikləri sözləri reallığa çevirəcəkləri düşünülür. Bəlli bir partiyanın iqtidarda qala bilməsi və ya yenidən seçilə bilməsi verdiyi vədlərin yerinə gətirilməsindən asılıdır. İqtidar qruplarının ən böyük konstitusiyonal istəyi seçiciyə verdikləri sözlərin yerinə gətirməsini konstitusiya ilə asanlaşdırmaq və ən azından buna maneə olmamaqdır. Bu isə dövlət orqanları və səlahiyyətlərinin açıqca təsbit edilməsini hökümət sabitliyini önləyəcək vasitələrə yol verilməməsi və ehtimal edilən bir “düyünlənmə” vəziyyətində bu “düyünlənməni” aça biləcək bir mexanizmin qurulmasını vacib edir. İqtidara gələ bilməyən qrupların ən böyük konstitusiyonal istəkləri isə konstitusiyanın özlərini çoxluğun diktatorluğuna qarşı qorumasıdır. Demokratiya çoxluğun rejmidir. Xalqın çoxluğunun dəstəyinə sahib olan partiyalar iqtidara gələr, qanunverici orqanda çoxluğa sahib olan partiya ictimai qərarlarda söz sahibi olarlar. Ancaq hər zaman demokratiyanın bir çoxluğun diktatorluğuna çevrilmə ehtimalı vardır. Çoxluğu əlində tutan qruplar, özlərini bütün cəmiyyətin legitim təmsilçisi olaraq görərlər. Bu da iqtidarda olmayan dolayı yolla ictimai qərar və seçkilərdə kifayət qədər səlahiyyətli ola bilməyən qrupların mənfəət və varlıqlarına qarşı ciddi bir təhdid təşkil edir. Bu halda iqtidarda

olmayan qrupların çoxluq diktatorluğuna qarşı qorunması lazımdır. Təsirli bir konstitusiyanın bu təhlükənin qarşısını almaq üçün sanksiyalarla dəstəklənmiş əsas hüquq və azadlıqlar rejmini təsis etməsi lazımdır. İqtidarda olmayan qruplar arasında təsirli və dini qrupların konstitusiyonal istəklərinin məmnunluğuda konstitusiyaların legitimliyi baxımından böyük önəm daşıyır. Əgər bir konstitusiya təsirlik göstərməzsə, yəni siyasi sistemdəki önəmli qrupların konstitusiyonal istəklərini yerinə gətirməzsə bu qruplar arasında bir konstitusiyonal "narahatlıq" ortaya çıxması qaçınılmazdır. Bu isə konstitusiyon dəyişiklik tələblərinin önəmli səbəblərindən biridir. Burada onu da vurğulamaq lazımdır ki, nəzəri olaraq konstitusiyonal dəyişiklik tələbləri konstitusiyanın bötövünə qarşıda ola bilər. Ancaq praktikada bir konstitusiyanı tamamı ilə dəyişdirməyin çətinliyi və hətta problemləri nəzərə alındığında konstitusiyon "narahatlığın" bir çox halda qismən konstitusiyonal dəyişikliyə səbəb olacağı söylənə bilər.

## Konstitusiya quruluşu

Bura qədər etdiyimiz analizlərdə konstitusiyaların legitimlik problemini siyasi sistemlərin legitimlik və sabitliyi ilə əlaqədar olaraq nəzəriyələrdən yola çıxaraq açıqlamağa çalışdıq. Fəqət konstitusiyaların legitimliyini araşdırarkən bu iki ünsürdən başqa siyasi sistem nəzəriyələri üzərində də dayanmağımız lazımdır: Konstitusiya quruluşu və konstitusiya qruluşu prosesi konstitusiyaların legitimliyi məsələsi ilə olduqca bağlıdır və bu bağlılıq bu prosesin şərtlərinə görə konstitusiyanın legitimliyini artıra və ya azalda bilər. Yuxarıda belə bir model vermişdik: "Əgər bir siyasi sistemin mənsubları özləri üçün X konstitusiyasının Y və ya Z konstitusiyasından daha uyğun və ya daha yaxşı olduğuna inanırlarsa və bu konstitusiyanı dəstəkləyirlərsə, X konstitusiyası legitimdir." Konstitusiya qruluşu prosesi bəlli bir siyasi sistemdə mövcud olan qrupların öz "ən uyğun" və ya "ən yaxşı" konstitusiya anlayışını ortaya qoymaq üçün uyğun bir şərait yaradır. Şübhəsiz ki, bir-birinə yaxın siyasi mədəniyyətlərin varlığı böyük qrupların ortaq bir "ən uyğun" və ya "ən yaxşı" anlayışı ətrafında birləşməyi asanlaşdırır. Fəqət bu halda belə konstityusiya qruluşu prosesində iştirak edən bütün qruplar və ya çoxluğu məmnun edəcək bir mətnin ortaya çıxması asan deyildir. Çünki, konstitusiya quruluşu prosesi siyasi sistemin quruluş və işləməsi prosesi ilə əlaqəli seçimlər etmir. Bu qərar və seçimlər şübhəsiz ki, bu prosesdə iştirak edənləri, hətta onların övlad və nəvələrinidə yaxından maraqlandırır. Bu səbəbdən konstitusiya təsisatı prosesində iştirak edənlərin siyasi sistemlə əlaqəli əsas qərar və seçimlərində öz mənfəətlərini ön plana vermələri mümkündür. Tarixi nümunələr bizə göstərmişdir ki, belə gərgin bir mənfəətlər qarşıdurmasının baş verdiyi bu prosesdə iştirak edən bütün qrupları tam mənası ilə razı edəcək bir konstitusiyanın hazırlanması çətindir.

Kontitusiya quruluşu prosesinin açıqlaması verilən bu xüsusiyyətləri konstitusiyaların legitimliyi ilə sıx bağlıdır. Konstitusiya quruluşu proesesində iştirak konstitusiyon istəkləri qarşılanmayan qruplar başdan etibarən konstitusiyaya mənfi münasibət sərgiləyirlər. Hətta əgər gücləri və imkanları varsa bu konstitusiyanın dəyişməsi üçün mübarizəyə başlayarlar. Belə bir halda konstitusiya legitimliyi qüsurlu "doğulmuşdur" deməli. "Doğuşdan" gələn bu qüsur konstitusiyanın çox yaşamasına icazə verməz. Konstitusiya qurluşu proesesində iştirak edən qrupların konstitusiyonal istəklərinin məmnun edilməsi konstitusiyaların legitimliyini bu cür "xoşməramsız" təsirə məruz qoyar, bu prosedə iştirak etməyərək konstitusiyon istəklərini ifadə belə edə bilməyən qrupların "narahatlığının" şox daha mənfi nəticələr doğura biləcəyi qaçınılmazdır. Elə isə konstitusiya quruluşu prosesində bir siyasi sistemdə mövcud olan böyük quruplar nə qədər çox təmsil edilər və bu qruplar konstitusiyon

istəklərini nə qədər azad ortaya qoyabilərlərsə, nəticədə ortaya çıxacaq mətnin dəstəklənmə şansı və dolayı yolla legitimliyi o qədər artar. Konstitusiya quruluşu prosesində iştirak edəcək konstitusiya qurucuları ədalətli və azad şəkildə seçilmələri, qurulan işçi qurupda sərbəst müzakirə və azad fikir ifadələrinin qarantiya altına alınması, konstitusiya quruluşu prosesini ictimaiyyətə açıq və son mətninin referenduma çıxarılması kimi məsələlərdə konstitusiya quruluşu prosesi konstitusiyanın legitimliyini artıran faktorlar sırasında yer ala bilər.

## NƏTİCƏ

Bu gün bir çox siyasi sistemdə konstitusiyalar dəyişiklik tələblərinin təzyiqi altındadırlar. Bu köhnə konstitusiyalar üçün olduğu qədər bəzi yeni konstitusiyalar üçün də belədir. Dolayı yolla bu gün konstitusiyon dəyişiklik dinamikaları və konstitusiyon dəyişiklik problemi konstitusiya araşdırmalarının ən mühüm mövzularından biridir. Biz məqalədə konstitusiyaların yaşaması problemini legitimlik anlayışı çərçivəsində açıqlamağa çalışdıq və üç ayaqlı (siyasi-mədəni, funksiyonal təsirlik, konstitusiya quruculuğu) bir legitimlik modeli quraraq konstitusiyonal dəyişikliyin mənbələrini ortaya qoymaya çalışdıq. Bu model bir çox siyasi sistemdə nəzərədən bilər. Fikrimizcə siyasi mədəniyyətlə konstitusiya arasındaki uyğunsuzluq, konstitusiya quruluşunda böyük siyasi qruplara söz haqqı verilməsini və konstitusiyanın elitlər və kütlənin konstitusiyonal istəklərini yerinə gətirməkdə kifayət etməmişdir.

### İstifadə olunmuş ədəbiyyat siyahısı


1. Butler, David və Austin Ranney, (der.), Referendums Around the World, Macmillan, Londra, 1994.

2. Conradt, David, "Changing German Political Culture", The Civic Culture Revisited içinde, Gabriel A. Almond, Sidney Və rba, (der.), Sage Publications, Londra, 1980.

3. "Political Culture, Legitimacy, and Participation", West European Politics, S. 4, 1981.

4. "West Germany: A Remade Political Culture? Some Evidencefrom Survə y Archivə s", Comparativə Political Studies, S. 7, 1974.

5. Dahi, Robert A., Modern Political Analysis, 2. Baskı, Prentice-Hall, Inc., Englewood Cliffs,New Jersey, 1970

6. Dawson, R., K. Prewitt və K. Dawson, Political Socialization, Little, Brown, Boston, Mass., 1977.

7. Diamond, Larry və Seymour Martin Lipset, "Legitimacy," The Encyclopedia of Democracy içinde, Seymour Martin Lipset (der.), Congressional Quarterly Inc., Washington D.C., 1995.

8. Diamond, Larry, "Introduction: Political culture and Democracy", Political Culture and Democracy in Devə loping Countries içinde, Larry Diamond, (der.),Lynne Riener, Boulder, 1994.

9. Diamond, Larry, Juan J. Linz, Seymour Martin Lipset, "Introduction: What Makes for Democracy?" Politics in Devə loping Countries içinde, Larry Diamond, Juan J. Linz, Seymour Martin Lipset, (der.), İkinci baskı, Lynne Rienner Publishers, Boulder, 1995.

10. Doğan, Mattei, "The Pendulum Between Theory and Substance-Testing the Concepts of Legitimacy and Trsust," Comparing Nations, Concepts, Strategies, Substance içinde, Mattei Doğan və Ali Kazancıgil (der.) Blackwell, Oxford, 1994.

11. Duchacek, Ivo D., Power Maps: Comparativə Politics of Constitutions, ABC-Clio, Santa Barbara, 1973.
12. Easton, David, "A Re-Assessment of the Concept of Political Support", British Journal of Political Science, S. 5, 1975.
13. "An Approach to the Analysis of Political Systems," World Politics, S. 9, 1957.
14. A Systems Analysis of Political Life, John Wiley & Sons, Inc., New York, 1965.
15. Elazar, Daniel, "Constitution-Making: The Pre-eminently Political Act", The Politics of Constitutional Change in Industrial Nations içinde, Keith G. Banting və Richard Simeon, (der.), Macmillan, Londra, 1985.
16. Elster, Jon, "Constitution-Making Ways", Democracy's Victory and Crisis, Axel Hadenius, (der.), Cambridge Univə rsity Press, Cambridge 1997.
17. Fenichel Pitkin, Hanna, Wittgenstein and Justice, Univə rsity of Califomia Press, Berkeley, Los Angeles, 1972.
18. Finer, Herman, Theory and Practice of Modern Govə rnment, Gözden geçirilmiş baskı,Methuen,Londra, 1950
19. Friedman, Lawrance M., The Legal System, A Social Science Perspectivə, Russell Sage Foundation, New York, 1975.
20. Friedman, Richard B., "Authority," The Blackwell Encyclopedia of Political Thought içinde, David Miller, Janet Coleman, William Connolly, Alan Ryan (der.), Blackwell, Oxford, 1993.
21. Friedrich, Cari J., "Legitimacy and Constitutionalism," Limited Govə rment: A Comparison içinde, Prentice-Hall, Inc., Englewood Cliffs, New Jersey, 1974.
22. Hague, Rod, Martin Harrop, Shaun Breslin, Comparativə Govə rnment andPolitics, An Introduction, 3. Baskı,Macmillan,Londra, 1993.
23. Heywood, Andrew, Political Ideas and Concepts, An Introduction, Macmillan, Londra, 1994.
24. Weber, Max, "The Types of Authority," Theories of Society içinde, Talcott Parsons, Edward Shils, Kaspar D.Naegele, and Jesse R. Pitts, (der.), The Free Press, New York, 1961.

## XÜLASƏ

Bu məqalə legitimlik anlayışının soial, siyasi və sosial-siyasi tərəflərini müxtəlif qaynaqlara istinad edərək tədqiq etmişdir. XXI əsrdə legitimlik anlayışına və bu anlayışla bağlı siyasi sosial və hüquq ədəbiyyatında mövcud olan fikirləri ümumiləşdirərək legitimlik anlayışının mövcud əhəmiyyətindən bəhs edilmişdir. Məqalə hər keçən gün aktivliyi daha çox hiss olunan legitimliklə bağlı fərqli bir yanaşma metodunu ortaya çıxarmaq məqsədi daşıyır. Bu səbəbdən də məqalə nəinki, hüquqi eyni zamanda sosial, siyasi və sosial-siyasi anlayışları özündə ehtiva edərək legitimlik anlayışına ən azı nəzəri səviyyədə ümumqəbul edilmişə yaxın anlayış verməyi hədəfləyir. Heç təsadüfi deyil ki iqtidar-hakimiyyət münasibətləri giriş hissəsində də qeyd edildiyi kimi hipotezik-dedaktik bir üsulla əla alınmış və ümumi nəticəyə gəlmək üçün adları qeyd edilən o anlayışlar da tədqiqatın bir parçası rolunu oynamışdılar. Eyni zamanda iqtidar-hakimiyyət anlayışı da legitimlik anlayışı içərisndə dəyələndirilərək hakimiyyətin legitimlikdən qaynaqlanan anlayışı da tədqiq edilmişdir.

**Атилла Озтурк**
**Нахчыванский государственный университет,**
**Преподаватель кафедры правовые науки**

**Акбар Рашидов**
**Нахчыванский государственный университет**
**Магистрант**

**Алмаз Казимова**
**Нахчыванский государственный университет**
**Магистрант**

## Проблема законности конституции

## Р Е З Ю М Е

В данной статье изучены социальные, политические и социально-политические аспекты понятия легитимности со ссылкой на различные источники. В 21 веке понятие легитимности и современное значение понятия легитимности обсуждались путем обобщения представлений, существующих в политической, социальной и юридической литературе, связанных с этим понятием. В статье ставится задача раскрыть иной метод подхода к легитимности, активность которого ощущается с каждым днем все больше. По этой причине в статье ставится задача придать понятию легитимности хотя бы на теоретическом уровне понятие, близкое к общепринятому, включающее правовые, социальные, политические и общественно-политические понятия. Неслучайно, что упомянутые во введении отношения власти и авторитета были получены гипотетико-дидактическим методом, а понятия, которые были упомянуты для подведения общего вывода, также сыграли определенную роль в исследовании. При этом изучая понятие власти-авторитета в контексте понятия легитимности, изучено понятие власти, вытекающей из легитимности.

**Atılla Ozturk**
**Nakhchivan State University,**
**Teacher of Department of Legal Sciences**

**Akbar Rashidov**
**Nakhchivan State University,**
**Master's student**

**Almaz Kazimova**
**Nakhchivan State University,**
**Master's student**

## Legitimacy problem of the constitution

### S U M M A R Y

This article has studied the social, political and socio-political aspects of the concept of legitimacy by referring to various sources. In the 21st century, the concept of legitimacy and the current importance of the concept of legitimacy were discussed by summarizing the ideas that exist in the political, social and legal literature related to this concept. The article aims to reveal a different method of approach to legitimacy, whose activity is felt more and more every day. For this reason, the article aims to give the concept of legitimacy, at least at the theoretical level, a concept close to the generally accepted one, including legal, social, political and socio-political concepts. It is no coincidence that the relations of power and authority, as mentioned in the introduction, were excellently obtained by a hypothetical-didactic method, and those concepts whose names were mentioned to reach a general conclusion also played the role of a part of the research. At the same time, the concept of power-authority is embedded in the concept of legitimacy, and the concept of power stemming from legitimacy has been studied.

***Lalə CƏFƏROVA***
Avropa Tibbi Hüquq Assosiasiyasının üzvü

# HEYDƏR ƏLİYEVİN ƏSAS İNSAN HÜQUQLARINDAN BİRİ OLAN MƏDƏNİYYƏTİN QORUNMASI SİYASƏTİ

***Açar sözlər:*** *Ümummilli Lider Heydər Əliyev, siyasət, mədəniyyət hüququ, insan hüquqları, Azərbaycan mədəniyyəti.*
***Ключевые слова:*** *Общенациональный Лидер Гейдар Алиев, политика, право на культуру, права человека, культура Азербайджана.*
***Keywords:*** *National Leader Heydar Aliyev, politics, cultural rights, human rights, culture of Azerbaijan.*

***"Mədəniyyət bəşəriyyətin topladığı ən yaxşı nümunələrlə xalqları zənginləşdirir."***
***"Yüksək mədəniyyətə malik olan xalq həmişə irəli gedəcək, həmişə yaşayacaq, həmişə inkişaf edəcəkdir."***
**Ümummilli Lider Heydər Əliyev**

Dövlətin inkişafının birinci və ən vacib şərti güclü və Vətəninə sadiq olan bir rəhbərin başçılıq etdiyi güclü dövlət hakimiyyətinin olmasıdır. Azərbaycanın Ümummilli Lideri Heydər Əliyevin böyük tarixi şəxsiyyətindən danışarkən bütün bu və bir çox başqa nəcib keyfiyyətləri qeyd etmək lazımdır. Vətən tarixinin taleyüklü dövrlərində məhz liderin şəxsiyyətidir: onun müdrikliyi, uzaqgörənliyi və vətənpərvərliyi xalqı və dövlətin özünü xilas etməyə qadirdir. Siyasi vəziyyətin mürəkkəbliyinə baxmayaraq, öz xalqının və dövlətinin maraqlarını müdafiə etmək bacarığı – böyük siyasi liderin əsas vəzifələridir.

Ümummilli Lider Heydər Əliyev Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsi, beynəlxalq nüfuzunun gücləndirilməsi üçün böyük işlər görmüşdür və, o müstəqil siyasət yeritmiş, xarici dövlətlərin və təşkilatların ölkəmizə qarşı bəzən ədalətsiz və ya biganə mövqeyinin aradan qaldırılması üçün çoxlu səylər göstərmişdir. Və onun hər bir addımı əsas məqsədə – Azərbaycan xalqının və ölkənin dövlətçiliyinin qorunmasına yönəlmişdi. Heydər Əliyev güclü dövlətin və onun suverenliyinin tərəfdarı idi, və xalqın tələbi ilə 1993-ci ilin iyun ayında hakimiyyətə qayıdarkən [1] t qanunsuz işğalının ilk dəqiqələrindən təzyiqlərə baxmayaraq Azərbaycanın mövqeyini müdafiə etmişdir. Ölkəmizin vətənpərvər Ümummilli Lideri Heydər Əliyevin adı Azərbaycan tarixinə böyük hərflərlə yazılıb və tarixin bütöv bir dövrü onun adı ilə bağlıdır. Heydər Əliyev ölkə tarixinə elə mühüm töhfə verib ki, onun adı dahi şəxsiyyətin obrazı kimi əbədi olaraq qalacaq.

Mədəni irsin qorunması əsas insan hüquqlarından biridir. Heydər Əliyev milli mədəniyyətin qorunmasına böyük həssaslıqla yanaşırdı. Mədəniyyət əsərlərinin premyeralarında şəxsən iştirak edirdi. Məhz Heydər Əliyevin fəal dəstəyi və görkəmli dirijor, maestro Niyazinin təşəbbüsü ilə Azərbaycan Dövlət Akademik Filarmoniyasında klassik və Azərbaycan musiqisinin simfonik konsertləri təşkil olunurdu. 2017-ci ildə Bakıda

görkəmli dirijorun abidəsinin açılışında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev qeyd etmişdir:

"...Atam, Ulu Öndər Heydər Əliyevlə onu dostluq əlaqələri bağlayırdı. Heydər Əliyev həmişə Niyaziyə çox böyük diqqətlə, qayğı ilə yanaşırdı...." [2].

Heydər Əliyev Azərbaycan mədəniyyətinin təbliğinə istər ölkə daxilində, istərsə də xaricdə böyük diqqət yetirirdi. Azərbaycan Respublikasının (AR) Ali Qanunu olan Konstitusiyasının 40-cı maddəsində mədəniyyətə aid əsas insan hüquqları təsbit edilmişdir [3]. Ümummilli Lider Heydər Əliyev mədəniyyətin qorunmasına böyük diqqət və qayğı göstərərək vurğulamışdır ki,

"Xalq bir çox xüsusiyyətlərilə tanınır, sayılır və dünya xalqları içərisində fərqlənir. Bu xüsusiyyətlərdən ən yüksəyi, ən böyüyü mədəniyyətdir" [4].

Müstəqilliyin bərpasından sonrakı ilk illərdə ölkəmizin mədəniyyəti böyük çətinliklərlə üzləşdi. Lakin Ümummilli Lider Heydər Əliyev ölkə rəhbərliyinə qayıtdıqdan sonra bu sahəyə böyük diqqət yetirməyə, mədəniyyət sahəsində müvafiq siyasəti formalaşdırmağa və onu həyata keçirməyə başladı. Onun rəhbərliyi dövründə həmçinin mədəniyyət sahəsində qanunlar tərtib olunub, qəbul edilmişdir. Məs. "Muzeylər haqqında" (24 mart 2000-ci il), "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" (30 may 2000-ci il), "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" (10 aprel 1998-ci il) AR qanunu və s.

Qeyd etmək vacibdir ki, məhz Heydər Əliyevin nüfuzu və diqqəti nəticəsində hələ SSR dövründə mədəniyyətimizin və incəsənətimizin tanınmış nümayəndələrinin xatirəsini əbədiləşdirmək məqsədilə çoxlu işlər görülmüşdür. Həmçinin, ədəbiyyatımızın klassiklərinə, böyük mədəniyyət və incəsənət xadimlərimizə, o cümlədən Qara Qarayevə, Fikrət Əmirova və s. Sosialist Əməyi Qəhrəmani adı verilmişdir [5]. Qeyd edilməlidir ki, Heydər Əliyevin səyləri nəticəsində 1977-ci ildə müvafiq Azərbaycan SSR Nazirlər Sovetinin Qərarı ilə "İçərişəhər", Şuşa və Ordubad şəhərlərində yerləşən mədəniyyət abidələri tarix-memarlıq qoruqları elan edilmişdir. Həmçinin, məhz Ümummilli Lider Heydər Əliyevin 1981-ci ilin avqust ayında Nizami Gəncəvinin anadan olmasının 840 illiyi haqqında qərarı ilə müvafiq tədbirlər keçirilmişdir, Nizami Gəncəvinin anadan olmasının 840 illiyinə poçt markası buraxılmışdır.

Heydər Əliyevin qayğısı ilə həm paytaxtımızda, həm də respublikamızın müxtəlif bölgələrində Azərbaycan mədəniyyətinin tanınmış şəxslərin abidələri ucaldılmışdır, o cümlədən Nəsimi, Cəfər Cabbarlı, Cəlil Məmmədquluzadə, Mehdi Hüseynzadə, Hüseyn Cavid və s. Üzeyir Hacıbəylinin, Cəlil Məmmədquluzadənin, Hüseyn Cavidin, Bülbülün, və başqa mədəniyyət xadimlərinin ev muzeyləri açılmışdır. Türkiyədə, Rusiyada və bir çox başqa ölkələrdə milli mədəniyyətin təbliğinə həsr olunmuş tədbirlər keçirilirdi. 2002-ci ilin 29 noyabr tarixində AR Prezidentin "Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyası binasının bərpası və yenidən qurulması haqqında" Sərəncamı ilə müvafiq işlər aparılmışdır.

Diqqətçəkən tarixi faktlardan biri də budur ki, Heydər Əliyev 1967-ci ildə Şuşada olarkən Vaqifin məzarını tapıb ona baş çəkməyə çalışmışdır. Lakin məlum olmuşdur ki, onun məzarı dağıdılmış vəziyyətdədir. Məhz Heydər Əliyevin xüsusi göstərişi əsasında Molla Pənah Vaqifin məzarı üstündə abidə və türbə tikilmişdir[6]. Çox təəssüflə qeyd edək ki, məqbərə Ermənistan işğalı nəticəsində dağıdılmışdır. Bu faktın müasir tarixdə mühüm əhəmiyyəti vardır, çünki Azərbaycan Respublikasının Ali Baş Komandanı, AR Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla həyata keçirilən İkinci Qarabağ (44 günlük) Vətən müharibəsindən sonra onun ilk göstərişlərindən biri məhz bu tarix və mədəniyyət abidəsinin bərpası oldu. Demək olar ki, bir il ərzində tapşırılan işlər tapşırığa əsasən aparılmış və

2021-ci ilin avqust ayında İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Molla Pənah Vaqifin muzey-məqbərə kompleksinin təmir-bərpa və yenidənqurma işlərindən sonra açılış mərasimində iştirak etmişdilər [7].

Ümummilli Lider Heydər Əliyevin geniş irsinin öyrənilməsi və təbliği ölkənin Birinci Vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun fəaliyyət istiqamətlərindən biridir. Heydər Əliyevin milli mədəniyyətin inkişafında şəxsi xidmətləri son dərəcədə böyükdür və buna görə də Heydər Əliyev Fondu Azərbaycan mədəniyyətinin inkişafı üçün həm ölkə daxilində, həm də xaricdə xüsusi olaraq çoxlu sayda layihələr həyata keçirir. Belə ki, 2022-ci il 12-14 may tarixlərində Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərində V "Xarıbülbül" Beynəlxalq Folklor Festivalı məhz Heydər Əliyev Fondunun, Mədəniyyət Nazirliyi və Şuşa Şəhəri Dövlət Qoruğu tərəfindən keçirilmişdir [8]. Həmçinin, məhz Heydər Əliyev Fondunun təşkilatçılığı ilə Azərbaycan 2022-ci ildə 59-cu Venesiya Biennalesində – Beynəlxalq İncəsənət Sərgisində təmsil olunmuşdur. Qeyd edək ki, 2008-2009-cu illərdə Heydər Əliyev Fondu tərəfindən ikicildli "Heydər Əliyev. Müdrik fikirlər" kitabı Azərbaycan və ingilis dillərində nəşr edilmişdir.

Azərbaycan vətəndaşlarının ümumi hüquqlarının inkişafında Heydər Əliyevin rolundan danışarkən, qeyd etmək lazımdır ki, müstəqil ölkənin ilk Konstitusiyası 1995-ci il noyabrın 27-də qüvvəyə minmişdir. XXİ əsrdə insan hüquqları hüququnun inkişafı, Azərbaycanda da həmçinin, öz əsaslarını beynəlxalq hüquqdan götürür. Dünya ictimaiyyətinin bu istiqamətdə əldə etdiyi mühüm nailiyyətlərdən biri məhz 1948-ci il dekabrın 10-da BMT-nin "Ümumdünya insan hüquqları Bəyannaməsi"nin qəbul edilməsi olmuşdur. Ona görə də Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra ilk Konstitusiyanı qəbul edərkən beynəlxalq hüququn müxtəlif sənədlərinə və ilk növbədə, bu Bəyannamənin müddəalarına əsaslanmışdır. Bu Bəyannamə müxtəlif insan hüquqlarını, o cümlədən mədəni hüquqlarını elan etmişdir. Məs., 2000-ci il 13 noyabr tarixində Heydər Əliyev "Hərbi münaqişələr zamanı mədəni dəyərlərin qorunması haqqında Konvensiya"nın müddəalarının yerinə yetirilməsi üzrə Komissiyanın yaradılması haqqında AR Prezidentinin Sərəncamını imzalamışdır [9].

Mədəniyyətin qorunması sahəsində Heydər Əliyevin dövlət siyasəti, demək olar ki, hakimiyyətə qayıtdıqdan sonra başlamışdır və bu sahədə davamlı xarici siyasət də yerinə yetirilirdi [10]. Belə ki, Azərbaycan Respublikası aşağıdakı beynəlxalq sənədlərə qoşulmuşdur:

• 1993-cü ilin dekabr ayında – YUNESKO-nun "Ümumdünya mədəni və təbii irsin qorunması haqqında" Konvensiyasına;

Qeyd edək ki, AR YUNESKO-nun nəzdindəki Ümumdünya İrs Mərkəzi ilə fəal əməkdaşlıq etməyə başlamışdır və bu əməkdaşlıq çərçivəsində bir sıra layihələr həyata keçirilmişdir. Məhz həmin əməkdaşlıq nəticəsində 2000-ci ildə Bakı şəhərinin tarixi mərkəzi İçəri Şəhər Şirvanşahlar Sarayı və Qız qalası ilə birlikdə qeyd olunan Mərkəzin siyahısına daxil edilməsinə nail olunmuşdur.

• 1995-ci ildə – "Qara dəniz regionu ölkələrinin mədəniyyət, təhsil, elm və informasiya sahəsində əməkdaşlığına dair" Konvensiyasına,

• 1997-ci il 30 sentyabr tarixində – "Mədəniyyət sərvətlərinin qanunsuz olaraq gətirilməsinin, çıxarılmasının və onların üzərində mülkiyyət hüququnun başqasına verilməsinin qadağan edilməsinə və qarşısının alınmasına yönəldilmiş tədbirlər haqqında" Konvensiyasına,

• 2000-ci il 24 mart tarixində – Beynəlxalq Xüsusi Hüququ Unifikasiya İnstitutunun (YUNİDRUA) "Oğurlanmış, yaxud qanunsuz çıxarılmış mədəniyyət sərvətləri haqqında" Konvensiyasına,

• 2000-ci ilin 12 dekabr tarixində "Silahlı münaqişə zamanı mədəni sərvətlərin qorunması haqqında" 1954-cü il tarixli Haaqa Konvensiyasına dair İkinci Protokola" və s.

Heydər Əliyev xalqın tələbi ilə ölkə rəhbərliyinə qayıtdıqdan sonra təkcə BMT strukturları ilə deyil, digər beynəlxalq təşkilatlarla, məsələn, Avropa Şurası (AŞ) ilə də fəal əməkdaşlığa başlamışdır. Belə ki, AŞ Parlament Assambleyası (AŞPA) Bürosu 1995-ci ildə Azərbaycan Respublikasına «xüsusi dəvət edilmiş qonaq» statusu nəzərdən keçirilmişdir və ölkəmiz 17-18 mart 1996-cı ildə keçirilən Avropa Şurasının Qanun vasitəsilə Demokratiya üzrə Avropa Komissiyasının (Venesiya Komissiyası) iclasında bu komissiyasının üzvü seçilmişdir [11]. AR 1997-ci ildə "Mədəniyyət haqqında" Avropa Konvensiyasını ratifikasiya etmişdir və Avropa Şurasının Mədəniyyət Siyasəti üzrə Departamenti ilə əməkdaşlığını inkişaf etdirmişdir.

Mədəniyyətin vacib tərkib hissəsi olan ədəbiyyat insana zamanda geri addım atmağa və Yerdəki həyatı bizdən əvvəl gedənlərdən öyrənməyə imkan verir. Ümummilli Lider Heydər Əliyev milli ədəbiyyata böyük qayğı göstərirdi.

Müdrik dövlət xadimi olan Ulu Öndər Heydər Əliyev tarixi irsimizin öyrənilməsində, dahi şəxsiyyətlərimizin geniş miqyaslı təbliğinin, onların indiki nəsillərə tanıdılması və biliklərin gələcək nəsillərə ötürmək məqsədilə Azərbaycan şairi və mütəfəkkiri Məhəmməd Fizulinin 500-illik yubileyinin keçirilməsinə böyük qayğı göstərərək tədbirlərin təşkili məqsədilə 16 mart 1994-cü il tarixində müvafiq Fərman [12] imzalamışdır. Bu Fərmana əsasən müvafiq Dövlət Komissiyası yaradılmış və tədbirlər keçirilmişdir. Keçirilən tədbirdə xaricdən, o cümlədən türkdilli ölkələrdən olan nümayəndələr iştirak etmişdir.

90-cı illərdə Heydər Əliyevin hərtərəfli siyasəti mədəniyyət və incəsənət sahəsində müxtəlif qanunvericilik sənədlərinin qəbulunu əhatə etmişdir, o cümlədən "Azərbaycan Respublikasının ədəbiyyat və incəsənət xadimlərinə dövlət qayğısının artırılması haqqında" Fərmanı (10 noyabr 1997-ci il), "Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının balet truppasının işçilərinin sosial təminatını yaxşılaşdırmaq haqqında" Sərəncamı (6 dekabr 1999-cu il), "Azərbaycan Dövlət Xor Kapellasının sosial təminatını yaxşılaşdırmaq haqqında" Sərəncamı (2 iyun 2000-ci il), və s. Bu hüquqi sənədlərin qəbulu mədəniyyət sahəsi nümayəndələrinin dövlət tərəfindən göstərilən sosial təminatının gücləndirilməsinə xidmət etmiş, onların yaradıcılıq fəaliyyətinin həyata keçirilməsi üçün daha əlverişli şərait yaratmışdır.

7 fevral 2000-ci il tarixində "Kitabi-Dədə Qorqud" dastanının 1300 illiyinə həsr olunmuş təntənəli yubiley gecəsinin keçirilməsi haqqında" AR Prezidentinin Sərəncamı imzalanmışdır. Artıq 21 fevral 1999-cu ildə "Kitabi-dədə Qorqud" dastanının 1300 illik yubileyi üzrə Dövlət Komissiyasının tədbirlər planı haqqında" AR Prezidentinin Sərəncamı ilə yubiley tədbirlər planı hazırlanmışdır [13] və qeyd olunan Sərəncama əsasən aşağıdakı plan üzrə işlərin həyata keçirilməsi nəzərdə tutulurdu:

• Kütləvi tədbirlər, o cümlədən ədəbi-bədii gecələrin, beynəlxalq müsabiqələrin keçirilməsi, sərgilərin təşkili və s.,

• Elmi simpoziumlar, konfranslar, müsabiqə və mükafatlar, o cümlədən "Dədə Qorqud və mənəviyyatımız" mövzusunda beynəlxalq konfransın, Bakı şəhərində rəssamların dastana həsr olunmuş beynəlxalq simpoziumunun keçirilməsi və s.

• İnformasiya, çap məlumatı və suvenirlərin hazırlanması, o cümlədən YUNESKO-nun "Kuryer" jurnalında yubileyə həsr olunmuş materialların dərc edilməsi və s.

• Xarici ölkələrdə keçiriləcək tədbirlər,
• Zirvə tədbiri,
• Uzunmüddətli fəaliyyət tədbirləri.

Tədbirlər planından göründüyü kimi, aparılacaq işlər müxtəlif sahələri, o cümlədən beynəlxalq tədbirlərin keçirilməsini də əhatə edirdi. Tarix və ədəbiyyat bir-biri ilə çox bağlıdır. Ədəbiyyat bizə tarix, din, adət və ənənələr haqqında biliklər verir və bizə onların dərk edilməsi üçün imkan verir.

Dahi siyasətçi Heydər Əliyevin əvəzsiz töhfəsini bir əsərdə təsvir etmək mümkün deyil. Qeyd edək ki, Dünya Azərbaycanlılarının Həmrəylik Gününün qeyd edilməsinin təşəbbüskarı məhz Heydər Əliyev olmuşdur və bununla da müasir Azərbaycan diasporunun formalaşmasının əsası qoyulmuşdur. 2001-ci il noyabr ayında Bakıda dünya azərbaycanlılarının birinci qurultayı keçirilmışdir. Heydər Əliyev demokratik hüquqi dəyərlərin müdafiəsinə sadiq qalmış, milli-mənəvi dəyərlər ideyalarının inkişafına böyük diqqət yetirmiş, onu gənc nəslə aşılamağa, milli ruhun əsaslı şəkildə yeni səviyyəyə yüksəldilməsinə çalışmışdır və bu tarixi vəzifələrinin icrasında maneələri uğurla dəf edərək, məqsəd və ideyalarından yayınmadan öz məqsədlərinə çatırdı.

Bu gün əminliklə deyə bilərik ki, Heydər Əliyev Azərbaycan mədəniyyətinin müasir inkişafı dövrünün banisi olmuşdur. Məhz onun səyləri nəticəsində Azərbaycanın zəngin mədəni irsi beynəlxalq səviyyədə tanınmağa başladı. Heydər Əliyevin uzaqgörənliyi, müdrikliyi və qətiyyəti onun adını nəinki milli tarixə, həm də dünya siyasətinin ön sıralarında yer almasına imkan vermişdir. Onun adı Azərbaycan tarixinə əbədi olaraq qızıl hərflərlə yazılıb. Heydər Əliyev tarixdə əbədi iz qoymuşdur, çünki məhz onun səmərəli, müdrik və ardıcıl siyasəti ilə onilliklərdən sonra Azərbaycan üçün öz bəhrəsini verən proseslərin təməli qoyulmuşdur.

Xalqa fədakarlıqla xidmət edərək Ümummilli Lider Heydər Əliyev əsas əsəri olan müstəqil, çiçəklənən Azərbaycanı xalqa, azərbaycanlıların gələcək nəsillərinə miras olaraq qoruyub saxlamışdır və gələcək inkişafını təmin etmişdir.

**İstifadə olunmuş ədəbiyyat siyahısı**

1. "Heydər Əliyev. Müstəqilliyimiz əbədidir" çoxcildli. 2 cilddə. 1-ci cild. Bakı: "Şərq-Qərb" Nəşriyyat Evi, – 2013, – 632 s.

2. İlham Əliyev görkəmli dirijor, maestro Niyazinin Bakıda abidəsinin açılış mərasimində iştirak edib: [Elektron resurs] / Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı, – 02 fevral 2017. URL: https://president.az/az/articles/view/22646

3. Azərbaycan Respublikasının Konstitusiyası (2016-cı il sentyabrın 26-da keçirilmiş ümumxalq səsverməsində (referendumda) qəbul edilmiş əlavə və dəyişikliklərlə): [Elektron resurs] / E-qanun.az. Ədliyyə Nazirliyinin İnformasiya – kommunikasiya Texnologiyaları İdarəsi. URL: https://www.e-qanun.az/framework/897

4. Sarıyeva İ. Azərbaycan mədəniyyətinin hamisi – Heydər Əliyev. Bakı xəbər. – 2014, – 12-14 dekabr, – s. 11.

5. Süleymanov R. Ulu Öndər Heydər Əliyev və Azərbaycanın kitab mədəniyyəti: Monoqrafiya. – Bakı, 2020. – 360 s.

6. Heydər Əliyevin siyasi irsi və Azərbaycançılıq (İ kitab), AMEA-nın Fəlsəfə İnstitutu: Bakı – 2018. – 270 s.

7. İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Molla Pənah Vaqifin muzey-məqbərə kompleksinin təmir-bərpa və yenidənqurma işlərindən sonra açılış mərasimində iştirak

ediblər: [Elektron resurs] / Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı, – 29 avqust 2021 il. URL: https://president.az/az/articles/view/52876
8. V "Xarıbülbül" Beynəlxalq Folklor Festivalı: [Elektron resurs] / Heydər Əliyev Fondu. URL: https://heydar-aliyev-foundation.org/az/content/view/138/5211/V-"Xarıbülbül"-Beynəlxalq-Folklor-Festivalı
9. Hərbi münaqişələr zamanı mədəni dəyərlərin qorunması haqqında Konvensiya"nın müddəalarının yerinə yetirilməsi üzrə Komissiyanın yaradılması haqqında AR Prezidenti Sərəncamı): [Elektron resurs] / E-qanun.az. Ədliyyə Nazirliyinin İnformasiya – kommunikasiya Texnologiyaları İdarəsi. URL: https://e-qanun.az/framework/390
10. Azərbaycan Respublikasının qoşulduğu Beynəlxalq Konvensiyalar. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanası. URL: https://files.preslib.az/projects/azdiplomacy/a4.pdf
11. Azərbaycan – Avropa Şurası (AŞ): [Elektron resurs] / Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi. URL: https://www.mfa.gov.az/az/category/regional-teskilatlar/azerbaycan-avropa-surasi-as
12. Məhəmməd Füzulinin anadan olmasının 500 illiyi haqqında Azərbaycan Respublikasının Fərmanı): [Elektron resurs] / E-qanun.az. Ədliyyə Nazirliyinin İnformasiya – kommunikasiya Texnologiyaları İdarəsi. URL: https://e-qanun.az/framework/9790
13. "Kitabi-Dədə Qorqud" dastanının 1300 illiyinə həsr olunmuş təntənəli yubiley gecəsinin keçirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı: [Elektron resurs] / E-qanun.az. Ədliyyə Nazirliyinin İnformasiya – kommunikasiya Texnologiyaları İdarəsi. URL: https://e-qanun.az/framework/5175

## X Ü L A S Ə

Məqalədə Ümummilli Lider Heydər Əliyevin insan hüquqları və əsas insan hüquqlarından biri olan mədəni irsin qorunması ilə bağlı yüksək diqqət və qayğısından bəhs edən müxtəlif məlumatlar göstərilir. Mədəniyyət sahəsində müxtəlif qanunlar və keçirilən tədbirlər təhlil olunur. Xalqın tələbi ilə hakimiyyətə qayıtdıqdan sonra milli mədəniyyətin qorunub saxlanılması və inkişafı siyasətini həyata keçirən Heydər Əliyevin əvəzsiz xidmətlərindən bəhs edilir.

**Лала Джафарова**
**Член Европейской Ассоциации Медицинского Права**

## ПОЛИТИКА ГЕЙДАРА АЛИЕВА ПО ЗАЩИТЕ КУЛЬТУРЫ КАК ОДНОГО ИЗ ОСНОВНЫХ ПРАВ ЧЕЛОВЕКА

## Р Е З Ю М Е

В статье приводятся различные данные, свидетельствующие о высоком внимании и заботе, которые Общенациональный Лидер Гейдар Алиев проявлял по отношению к правам человека и защите культурного наследия, как одного из основных прав

человека. Анализируются различные законы и, проводимые в области культуры, мероприятия. Рассказывается о неоценимом вкладе Гейдара Алиева, который после возвращения по требованию народа к власти, проводил политику по сохранению и развитию национальной культуры.

**Lala Jafarova**
**Member of the European Association of Health Law**

## POLITICS OF HEYDAR ALIYEV ON PROTECTION OF CULTURE AS ONE OF THE BASIC HUMAN RIGHTS

### S U M M A R Y

The article provides various data that testify to the high attention and care that the National Leader Heydar Aliyev showed in relation to human rights and the protection of cultural heritage, as one of the fundamental human rights. Various laws and events held in the field of culture are analyzed. Paper describes the invaluable contribution of Heydar Aliyev, who, after returning to power at the request of the people, pursued a policy of preserving and developing national culture.

***Afaq SADIQOVA***

Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin
Konstitusiya hüququ kafedrasının dissertantı

# MİQRASİYA PROSESLƏRİNİN İŞTIRAKÇISI OLAN ƏCNƏBİLƏRİN VƏ VƏTƏNDAŞLIĞI OLMAYAN ŞƏXSLƏRİN KONSTİTUSİON HÜQUQLARI

***Açar sözlər:*** *miqrasiya proseslərinin iştirakçıları, ölkəyə gəlmək və ölkədən getmək, müvəqqəti olan, müvəqqəti yaşayan, daimi yaşayan, müvəqqəti və ya daimi yaşamaq üçün icazə verilən, iş icazəsi.*

***Ключевые слова:*** *участники миграционных процессов, выезд и въезд в страну, временно находящееся лицо, временно проживающий, постоянный житель, разрешено временное или постоянное проживание, разрешение на работу.*

***Keywords:*** *participants in migration processes, come to the country and leave the country, temporarily present, temporarily living, permanent resident, permitted to live temporarily or permanently, work permit.*

Dünyanın bütün ölkələrində olduğu kimi Azərbaycan Respublikasında da miqrasiya proseslərinin iştirakçısı olan əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Konstitusiyada təsbit olunmuş çoxsaylı hüquqları vardır. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər qanunda nəzərdə tutulmuş bəzi istisnalarla ölkəmizin vətəndaşları ilə bərabər bütün hüquqlardan (bərabərlik, yaşamaq, azadlıq, mülkiyyət, nikah, əmək, istirahət, sosial təminat, təhsil, mənzil və s.) istifadə edir və bütün vəzifələri (vergilər və başqa dövlət ödənişləri, dövlət rəmzlərinə hörmət, tarix və mədəniyyət abidələrinin qorunması, ətraf mühitin qorunması və s.) yerinə yetirməlidirlər.

Azərbaycan Respublikasının Konstitusiyasının "Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqları" adlı 69-cu maddəsinin I hissəsində göstərilir ki, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasında olarkən, qanunla və ya Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilə ilə başqa hal nəzərdə tutulmayıbsa, Azərbaycan Respublikasının vətəndaşları ilə bərabər bütün hüquqlardan istifadə edə bilər və bütün vəzifələri yerinə yetirməlidirlər (1, s. 16).

Bu hüquq normaları Müstəqil Dövlətlər Birliyinə daxil olan ölkələrin Konstitusiyalarında da təsbit edilmişdir. Məsələn, Rusiya Federasiyasının 12 noyabr 1993-cü il tarixli Konstitusiyasının 62-ci maddəsinin III hissəsində göstərilir ki, "əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Rusiya Federasiyasında olarkən, qanunla və ya Rusiya Federasiyasının tərəfdar çıxdığı beynəlxalq müqavilə ilə başqa hal nəzərdə tutulmayıbsa, Rusiya Federasiyasının vətəndaşları ilə bərabər bütün hüquqlardan istifadə edə bilər və bütün vəzifələri yerinə yetirməlidir" (5, s.12).

Analoji hal Qazaxıstan Respublikasının Konstitusiyasında da eynidir. Qazaxıstan Respublikasının 21 may 2007-ci il tarixli Konstitusiyasının 12-ci maddəsinin 4-cü bəndinə görə "Konstitusiyada, qanunlarda və beynəlxalq müqavilələrdə başqa hal nəzərdə

tutulmayıbsa, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Respublika vətəndaşları üçün müəyyən edilmiş hüquq və azadlıqlardan, eləcə də vəzifələrdən istifadə edirlər" (6, s. 125).

Gürcüstan Respublikasının Konstitusiyasına görə "əcnəbi" anlayışı "əcnəbi vətəndaş" anlayışı kimi tətbiq edilir. Lakin həmin subyektlərə tətbiq edilən hüquq normaları Gürcüstan Respublikasında da eyni şəkildə tətbiq edilir. Gürcüstan Respublikasının Konstitusiyasının 47-ci maddəsinə görə, əcnəbi vətəndaşlar və Gürcüstanda yaşayan vətəndaşlığı olmayan şəxslər Konstitusiya ilə və qanunla nəzərdə tutulmuş hallardan başqa Gürcüstan vətəndaşları ilə bərabər hüquq və vəzifələrə malikdirlər (7, s.14).

Azərbaycan Respublikasının Konstitusiyanda qeyd edildiyi kimi əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasının vətəndaşları ilə bərabər bütün hüquqlardan istifadə edə bilər və bütün vəzifələri yerinə yetirməlidirlər. Lakin əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquq və azadlıqlarının həyata keçirilməsi Azərbaycan Respublikasının milli mənafeyinə zidd olmamalıdır. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikası Konstitusiyasının, Azərbaycan Respublikası qanunlarının və digər qanunvericilik aktlarının tələblərini pozmamalı, Azərbaycan xalqının adət və ənənələrinə hörmət etməlidirlər. Həmçinin, Miqrasiya qanunvericiliyinə əsasən ölkəmizin ərazisində olan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər ölkəyə gəlişinin bəyan edilmiş məqsədlərinə riayət etməli və müəyyən olunmuş müddət bitdikdən sonra ölkə ərazisini tərk etməlidirlər.

Beynəlxalq hüquq normalarının tələblərinə uyğun olaraq qanunu əsaslarla ölkəmizdə olan, müvəqqəti və ya daimi yaşayan, miqrasiya proseslərinin fəal iştirakçıları hesab edilən əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqlarının qorunması dövlətimiz tərəfindən lazımı səviyyədə təmin edilir. Belə ki, ölkəmizin qanunları ilə müəyyən olunmuş qaydada tutulmuş, yaxud həbs edilmiş əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə bu hərəkətlərə səbəb olan hallar və onların hüquqları haqqında Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin vasitəsilə mənsub olduqları dövlətin diplomatik nümayəndəliyi və ya konsulluğuna dərhal məlumat verilməlidir. Habelə, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə müəyyən edilmiş imtiyaz və immunitetə malik olan əcnəbini və vətəndaşlığı olmayan şəxsi tutmuş, yaxud həbs etmiş dövlət orqanı bu barədə Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi ilə müəyyən edilmiş qaydada dərhal Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə məlumat verməlidir.

Azərbaycan Respublikasının Konstitusiyası və Azərbaycan Respublikasının milli qanunvericiliyi ilə əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə verilən hüquqlardan biri də onların Azərbaycan Respublikasına gəlməsi və Azərbaycan Respublikasından getməsidir. Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinin 15.1-ci maddəsinə görə əcnəbilər və vətəndaşlığı olmayan şəxslər dövlət sərhədinin buraxılış məntəqələrindən keçmək şərti ilə, pasportları və ya digər sərhədkeçmə sənədləri əsasında Azərbaycan Respublikasına gələ və Azərbaycan Respublikasından gedə bilərlər (2, s. 11).

Azərbaycan Respublikasının Konstitusiyası ilə əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə verilən hüquqlardan biri onların ölkəmizdə müvəqqəti olma hüququdur. Həmin şəxslərin ölkəyə gəlməsi və ölkədə müvəqqəti olma müddəti Miqrasiya Məcəlləsinin tələblərinə əsasən müəyyən edilir. Belə ki, Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinin 20-ci maddəsinə əsasən viza əsasında Azərbaycan Respublikasına gələn əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin ölkədə müvəqqəti olma müddəti vizada göstərilən qalma müddətindən, viza tələb olunmayan qaydada Azərbaycan Respublikasına gələn əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin isə ölkədə müvəqqəti olma müddəti,

Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş hallar istisna olmaqla, 90 gündən artıq ola bilməz (2, s. 13).

Miqrasiya qanunvericiliyə əsasən əcnəbilər və vətəndaşlığı olmayan şəxslər ölkəmizdə müvəqqəti olma müddətinin bitməsinə azı 3 iş günü qalmış müvəqqəti olma müddətinin uzadılması üçün Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidmətinə müraciət etməlidirlər. Müvəqqəti olma müddətinin uzadılması barədə ərizə-anket və tələb olunan digər sənədlər elektron müraciət formasında təqdim edilə bilər. Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin pasportlarının və ya digər sərhədkeçmə sənədlərinin etibarlılıq müddətlərinin bitməsinə 1 aydan az vaxt qaldıqda, onların ölkədə müvəqqəti olma müddəti uzadılmır. Bundan başqa, Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti ölkəmizdə müvəqqəti olma müddətinin uzadılmadığı hallar aşkar etdikdə, müddətin uzadılmasından imtina edir və müraciət etmiş əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə imtina barədə yazılı məlumat verir. Müvəqqəti olma müddətinin uzadılması ilə bağlı müraciəti müsbət həll edilmiş əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə ölkəmizdə müvəqqəti olma müddətinin uzadılması barədə qərar təqdim edir. Müvəqqəti olma müddətinin uzadılmasından imtina edilmiş şəxslər imtina barədə qərarı aldıqları vaxtdan 48 saat ərzində ölkə ərazisini tərk etməlidirlər.

Beynəlxalq hüquq normaların tələblərinə uyğun olaraq xarici dövlətlərin ölkəmizdə fəaliyyət göstərən diplomatik nümayəndəlik və konsulluqlarının, habelə beynəlxalq təşkilatların nümayəndəliklərinin əməkdaşları, inzibati-texniki xidmət heyətinə daxil olan şəxslər və onların ailə üzvləri, həmçinin ölkəmizə xüsusi diplomatik missiya və ya Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş hallarda xüsusi missiya ilə səfər edən əcnəbilər üçün ölkədə müvəqqəti olma müddətlərinin uzadılması Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinə uyğun olaraq, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi tərəfindən yeni viza verilməsi qaydasında həyata keçirilir.

Təcrübə göstərir ki, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi tərəfindən ölkəmizdə fəaliyyət göstərən diplomatik nümayəndəlik və konsulluqlarının, beynəlxalq təşkilatların nümayəndəliklərinin və bu sahədə işləyən digər şəxslərin müvəqqəti olma müddətlərinin uzadılması ilə bağlı məlumatların uçotunun aparılması çox vaxt Vahid Miqrasiya Məlumat Sisteminə daxil edilmir və ya bu barədə Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidmətinə məlumatlar vaxtında verilmir. Bu da əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin ölkəmizin ərazisində qanunsuz yaşamasına və həmin şəxslərin uçotunun düzgün aparılmasına öz mənfi təsirini göstərir. Ölkəmizdə Vahid Miqrasiya Məlumat Sisteminin Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti tərəfindən aparılması və bu sahədə nəzarətin daha da gücləndirilməsi məqsədilə təklif edirik ki, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi miqrasiya proseslərinin iştirakçıları hesab edilən və ölkəmizdə fəaliyyət göstərən diplomatik nümayəndəlik və konsulluqlarının, beynəlxalq təşkilatların nümayəndəliklərinin və bu sahədə işləyən digər şəxslərin müvəqqəti olma müddətlərinin uzadılması barədə bütün yazılı məlumatları 24 saat ərzində Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidmətinə təqdim edilməsini təmin etsin.

Milli qanunvericiliyimizdə əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında olma və ya yaşama hüququ verən sənədlər olmadan, yaxud qeydiyyatsız yaşamalarına görə inzibati məsuliyyət nəzərdə tutulmuşdur. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 575.1.1-ci maddəsində göstərilir ki, Azərbaycan Respublikasında olma və ya yaşama hüququ verən sənədlər olmadan, yaxud qeydiyyatsız yaşamasına görə – əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər Azərbaycan

Respublikasının hüdudlarından kənara inzibati qaydada çıxarılmaqla və ya çıxarılmamaqla üç yüz manatdan dörd yüz manatadək məbləğdə cərimə edilir (3, s. 246).

Göründüyü kimi İnzibati Xətalar Məcəlləsinin 575.1.1-ci maddəsində iki inzibati əmələ görə həm olma və ya yaşama hüququ verən sənədlər olmadan yaşamağa, həm də qeydiyyatsız yaşamağa görə əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasının hüdudlarından kənara inzibati qaydada çıxarılmaqla və ya çıxarılmamaqla üç yüz manatdan dörd yüz manatadək məbləğdə cərimə edilir. Düşünürəm ki, inzibati xəta törətmiş əcnəbi və ya vətəndaşlığı olmayan şəxs haqqında tətbiq edilən tənbeh ədalətli olmalı, inzibati xətaların xarakterinə, onun törədilməsi hallarına və inzibati xətanı törətməkdə təqsirli bilinən şəxsin şəxsiyyətinə uyğun olmalıdır. Bununla bağlı təklif edirik ki, Azərbaycan Respublikasında olma və ya yaşama hüququ verən sənədlər olmadan yaşayan əcnəbilərə və ya vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasının hüdudlarından kənara inzibati qaydada çıxarılma tətbiq edilsin. Azərbaycan Respublikasında qeydiyyatsız yaşayan əcnəbilərə və ya vətəndaşlığı olmayan şəxslərə isə inzibati cərimə tətbiq edlisin.

Azərbaycan Respublikasının Konstitusiyası ilə əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə verilən hüquqlardan biri onların ölkəmizdə müvəqqəti yaşamaq hüququdur. Əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə ölkəmizin ərazisində müvəqqəti yaşamaq üçün icazələrin və bunu təsdiq edən sənədlərin verilməsi ilə bağlı hüquq normaları Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi ilə tənzimlənir. Belə ki, ölkəmizin ərazisində müvəqqəti yaşamaq istəyən əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti tərəfindən müvafiq icazə almalıdırlar. Bu şəxslərə müvəqqəti yaşamaq üçün icazə verildikdə, onlara Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti tərəfindən Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamaq üçün icazə vəsiqəsi təqdim edilir. İcazə vəsiqəsi əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə ölkəmizin ərazisində müvəqqəti yaşamaq üçün icazə və etibarlılıq müddətində ölkəmizdən getmək və viza almadan ölkəmizə qayıtmaq hüququ verən, habelə həmin şəxslərin ölkə ərazisində şəxsiyyətini və yaşayış yeri üzrə qeydiyyata alındığını təsdiq edən sənəd hesab edilir.

Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinin 45.1-ci maddəsinə əsasən əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə aşağıdakı hallarda Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamaq üçün icazə verilir: Azərbaycan Respublikasının vətəndaşı ilə yaxın qohumluq münasibətlərində olduqda; ölkə iqtisadiyyatına azı 500.000 manat məbləğində investisiya qoyduqda; Azərbaycan Respublikasının ərazisində azı 100.000 manat dəyərində daşınmaz əmlakı olduqda; Azərbaycan Respublikasında fəaliyyət göstərən banklara müddətli əmanət müqaviləsi əsasında azı 100.000 manat məbləğində pul vəsaiti qoyduqda; iqtisadiyyat, sənaye, hərbi, elm, mədəniyyət, idman və digər sahələr üzrə yüksək səviyyəli mütəxəssis olduqda; Azərbaycan Respublikasının ərazisində müvəqqəti və ya daimi yaşayan əcnəbi və ya vətəndaşlığı olmayan şəxslərin ailə üzvləri olduqda; xarici hüquqi şəxsin Azərbaycan Respublikasındakı filial və nümayəndəliyinin rəhbəri və onun müavini vəzifəsini tutduqda; Azərbaycan Respublikasında sahibkarlıq fəaliyyəti ilə məşğul olduqda; Azərbaycan Respublikasının ali və orta ixtisas təhsili müəssisələrində əyani formada, habelə peşə təhsili və ümumi təhsil müəssisələrində təhsil aldıqda; dövlət qeydiyyatına alınmış dini qurumlarda peşəkar dini fəaliyyətlə məşğul olduqda; insan alverindən zərər çəkmiş şəxs hesab olunduqda; cinayət təqibi orqanlarına yardım göstərdikdə (2, s. 31).

Miqrasiya qanunvericiliyinə görə əcnəbilər və vətəndaşlığı olmayan şəxslər, ölkəmizin ərazisində müvəqqəti yaşamaları üçün icazə verilməsinə əsas olan hallar mövcud olduqda, onlar ölkəmizin ərazisində müvəqqəti olma və ya müvəqqəti yaşama müddətinin bitməsinə azı 1 ay qalmış bu barədə icazə almaq üçün Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidmətinə müraciət etməlidirlər. Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamaq üçün icazənin müddəti 1 ildən artıq olmayan müddətə verilir və müvafiq əsas olduqda, hər dəfə 2 ildən çox olmayan müddətə uzadıla bilər. Ölkəmizin iqtisadiyyatına azı 500.000 manat məbləğində investisiya qoyan əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə 3 ildən artıq olmayan müddətə verilir və müvafiq əsas olduqda, hər dəfə 3 ildən çox olmayan müddətə uzadıla bilər.

Azərbaycan Respublikasının Miqrasiya qanunvericiliyinin tələblərinə görə miqrasiya proseslərinin iştirakçısı sayılan əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə müvəqqəti yaşamaq üçün icazənin verilmədiyi (müddətinin uzadılmadığı) hallarla bağlı olan hüquq normaları da öz əksini tapmışdır. Belə ki, Azərbaycan Respublikasında müvəqqəti yaşamaq üçün icazə almaq məqsədi ilə saxta sənədlər və ya yalan məlumatlar təqdim etdikdə; şəxsiyyətini təsdiq edən sənədləri olmadıqda və ya qanunda nəzərdə tutulan sənədlərdən biri və ya bir neçəsi təqdim edilmədikdə; Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilən təhlükəli yoluxucu xəstəliklərin siyahısında nəzərdə tutulmuş xəstəlik virusu daşıyıcısı olduqda; əvvəllər Azərbaycan Respublikasının hüdudlarından kənara çıxarılmaqla, həmin şəxslərin ölkəyə girişinə məhdudiyyət qoyulduqda; 180 gün ərzində 90 gündən çox Azərbaycan Respublikasının ərazisindən kənarda olduqda; xarici dövlətdə daimi yaşamaq üçün Azərbaycan Respublikasının ərazisini tərk etdikdə; Azərbaycan Respublikasında olması arzuolunmaz hesab edildikdə; barəsində Azərbaycan Respublikasının hüdudlarından kənara çıxarılma barədə qərar qəbul edildikdə və qanunda nəzərdə tutulmuş digər hallara görə müvəqqəti yaşamaq üçün icazə verilmir və ya icazənin müddəti uzadılmır, əvvəl verilmiş icazə isə ləğv edilir.

Azərbaycan Respublikasının Konstitusiyası ilə əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə verilən hüquqlardan biri də daimi yaşamaq hüququdur. Miqrasiya qanunvericiliyinin tələblərinə əsasən müvafiq icazə əsasında son 2 il ərzində fasiləsiz olaraq ölkəmizin ərazisində müvəqqəti yaşayan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər ölkəmizin ərazisində daimi yaşamaq icazəsi almaq üçün vəsatət verə bilərlər. Bu şəxslərə ölkəmizin ərazisində daimi yaşamaq üçün icazə Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti tərəfindən verilir. Əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə ölkəmizin ərazisində daimi yaşamaq üçün icazə verildikdə, həmin şəxslərə Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti tərəfindən ölkəmizin ərazisində daimi yaşamaq üçün icazə vəsiqəsi təqdim edilir. Ölkəmizin ərazisində daimi yaşamaq üçün icazə vəsiqəsi əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasının ərazisində daimi yaşamaq üçün icazə və etibarlılıq müddətində Azərbaycan Respublikasından getmək və viza almadan Azərbaycan Respublikasına qayıtmaq hüququ verən, habelə həmin şəxslərin ölkə ərazisində şəxsiyyətini və yaşayış yeri üzrə qeydiyyata alındığını təsdiq edən hüquqi sənəd hesab edilir.

Azərbaycan Respublikasının Miqrasiya qanunvericiliyinə görə əcnəbilər və vətəndaşlığı olmayan şəxslər, ölkəmizdə daimi yaşamaq üçün icazə verilməsinə əsas olan hallar mövcud olduqda, ölkəmizin ərazisində müvəqqəti yaşama icazəsinin müddətinin bitməsinə ən azı 90 gün qalmış bu barədə icazə alınması üçün Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidmətinə müraciət etməlidirlər. Ölkəmizin ərazisində daimi yaşamaq üçün icazənin verilməsi barədə ərizə-anket və tələb olunan digər sənədlər elektron müraciət formasında təqdim edilə bilər. Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin ölkəmizdə daimi yaşamaq

üçün icazə verilməsi ilə bağlı müraciətlərinə baxılarkən, onların Azərbaycan Respublikasının qanunları ilə nəzərdə tutulmuş hüquq və vəzifələri, habelə dövlət dili ilə bağlı biliyi Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və Azərbaycan Respublikasının Təhsil Nazirliyinin mütəxəssislərindən ibarət komissiya tərəfindən yoxlanılır. Bu hal 18 yaşına çatmamış uşaqlara, yaşı 65-dən yuxarı olan və ya I dərəcə əlilliyi müəyyən edilmiş əcnəbilərə və ya vətəndaşlığı olmayan şəxslərə şamil edilmir. Qanuna görə ölkəmizdə daimi yaşamaq üçün icazə 5 il müddətinə verilir. Bu müddətin bitməsinə azı 3 ay qalmış əcnəbinin və vətəndaşlığı olmayan şəxsin müraciətinə əsasən daimi yaşamaq üçün verilmiş icazə yenidən 5 il müddətinə uzadıla bilər.

Azərbaycan Respublikasının Miqrasiya qanunvericiliyində əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasının ərazisində daimi yaşamaq üçün icazənin verilmədiyi (müddətinin uzadılmadığı) hallarla bağlı olan hüquq normaları da öz əksini tapmışdır. Belə ki, Azərbaycan Respublikasının milli təhlükəsizliyinə və ya ictimai asayişə zərər vurula biləcəyi hallarda; siyahısı Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilən təhlükəli yoluxucu xəstəlik virusu daşıyıcısı olduqda; Azərbaycan Respublikasında daimi yaşamaq icazəsi almaq üçün saxta sənədlər təqdim edildikdə və ya yalan məlumatlar verildikdə; xarici dövlətdə daimi yaşamaq üçün Azərbaycan Respublikasının ərazisini tərk etdikdə; daimi yaşamaq üçün icazənin verildiyi gündən hesablanmaqla istənilən bir il ərzində Azərbaycan Respublikasının ərazisindən kənarda olduğu günlərin cəmi 180 gündən çox olduqda; dövlət dilini bilmədikdə; Azərbaycan Respublikasında olması arzuolunmaz hesab edildikdə; barəsində Azərbaycan Respublikasının hüdudlarından kənara çıxarılma barədə qərar qəbul edildikdə və qanunda nəzərdə tutulmuş digər hallara görə daimi yaşamaq üçün icazə verilmir və ya icazənin müddəti uzadılmır, əvvəl verilmiş icazə isə ləğv edilir.

Aparılmış araşdırmalarla müəyyən edilmişdir ki, Azərbaycan Respublikasının Konstitusiyası ilə ölkəmizdə əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə çoxsaylı hüquqlar verilsə də, lakin Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində hmin şəxslərin ölkəmizdə müvəqqəti olması, müvəqqəti və ya daimi yaşaması üçün icazənin verilməsindən (müddətinin uzadılmasından) imtina edilməsi və ya müvəqqəti və ya daimi yaşaması üçün icazənin ləğv edilməsi haqqında qərardan şikayət verilməsi barədə müvafiq hüquq norması öz əksini tapmamışdır. Bununla bağlı təklif edirik ki, Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinə əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin ölkəmizdə müvəqqəti olması, müvəqqəti və ya daimi yaşaması üçün icazənin verilməsindən (müddətinin uzadılmasından) imtina edilməsi, habelə müvəqqəti və ya daimi yaşaması üçün icazənin ləğv edilməsi haqqında qərardan şikayət verilməsi barədə müvafiq hüquq normaları daxil edilsin.

Xüsüsilə qeyd edilməlidir ki, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər ölkəmizin ərasisində müvəqqəti olma müddəti uzadılan, müvəqqəti və ya daimi yaşamaq üçün icazəni və iş icazəsini alan zamanı onlar miqrasiya proseslərinin iştirakçıları funksiyalarını yerinə yetirirlər. Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinin 5.0.4-ci maddəsində göstərilir ki, Azərbaycan Respublikasına viza əsasında və ya viza tələb olunmayan qaydada gələn, burada müvəqqəti olan, müvəqqəti olma müddəti uzadılan, müvəqqəti və ya daimi yaşamaq üçün icazə verilən, Azərbaycan Respublikasında haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmaq üçün iş icazəsi verilən əcnəbilər və vətəndaşlığı olmayan şəxslər miqrasiya proseslərinin iştirakçıları hesab edilirlər (2, s. 3).

Göründüyü kimi Azərbaycan Respublikasının Konstitusiyası əsasında ölkəmizdə yaşayan əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə verilən çoxsaylı hüquqlar həmin şəxsləri

miqrasiya proseslərinin fəal iştirakçısına çevirir. Miqrasiya proseslərinin iştirakçısı təkcə əcnəbilər və vətəndaşlığı olmayan şəxslər deyil, həm də bu şəxslərlə hüquqi münasibət yaradan Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti və digər müvafiq dövlət orqanları da miqrasiya proseslərinin iştirakçısı qismində çıxış edirlər. Miqrasiya proseslərində iştirak edən tərəflərin hüquq və vəzifələri dövlətimiz tərəfindən qorunur və müvafiq qanunvericilik aktları ilə tənzimlənir.

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının Konstitusiyasında və milli qanunvericiliyimizdə əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin bir sıra hüquqlarının məhdudlaşdırılması ilə bağlı olan hüquq normaları da öz əksinin tapmışdır. Belə ki, Azərbaycan Respublikasının Konstitusiyasının 69-cu maddəsinin II hissəsində göstərilir ki, Azərbaycan Respublikası ərazisində daimi yaşayan və ya müvəqqəti qalan əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquq və azadlıqları yalnız beynəlxalq hüquq normalarına və Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq məhdudlaşdırıla bilər.

Konstitusiyanın bu tələblərinə uyğun olaraq Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasına gəlişi ilə bağlı qadağalar və məhdudiyyətlər, habelə həmin şəxslərin Azərbaycan Respublikasından getməsinin müvəqqəti məhdudlaşdırılması ilə bağlı bir sıra müddəalar da öz əksini tapmışdır. Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinin 16-cı maddəsində göstərilir ki, əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasına gəlmək aşağıdakı hallarda qadağan edilir: milli təhlükəsizlik və ya ictimai asayişin mühafizəsi, yaxud Azərbaycan Respublikası vətəndaşlarının və digər şəxslərin hüquqlarının və qanuni mənafelərinin qorunması bunu tələb etdikdə; şəxsin sülh və insanlıq əleyhinə, terrorçuluq, terrorçuluğu maliyyələşdirmə və müharibə cinayətləri törətməsi və ya transmilli mütəşəkkil cinayətkar dəstənin üzvü olması barədə məlumat olduqda; şəxs Azərbaycan Respublikasının vətəndaşlarına və ya Azərbaycan Respublikasının maraqlarına (mənafelərinə) qarşı cinayət törətdiyinə görə məhkum olunduqda, əgər məhkumluğu qanunla müəyyən edilmiş qaydada ödənilməmişdirsə və ya götürülməmişdirsə; şəxs əvvəllər Azərbaycan Respublikasının hüdudlarından kənara çıxarıldıqda, əgər ölkəyə girişinə qoyulmuş məhdudiyyət müddəti bitməmişdirsə; şəxsin Azərbaycan Respublikasında olması arzuolunmaz hesab edildikdə; şəxs əvvəllər Azərbaycan Respublikasında olarkən ölkəyə gəlişinin bəyan edilmiş məqsədlərini pozduqda; şəxs Azərbaycan Respublikasına gəlməsi haqqında vəsatət qaldırarkən, özü və ya səfərinin məqsədi haqqında yalan məlumat verdikdə; əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında olması və yaşaması qaydalarını pozduğuna görə barəsində Azərbaycan Respublikasının hüdudlarından kənara inzibati qaydada çıxarma tətbiq edilmədən inzibati cərimə növündə inzibati tənbeh tətbiq edilmiş şəxs cəriməni (hesablanmış dəbbə pulu daxil olmaqla) ödəmədikdə (2, s. 12).

Qanunun tələblərinə görə əvvəllər Azərbaycan Respublikasında olarkən ölkəyə gəlişinin bəyan edilmiş məqsədlərini pozduqda və Azərbaycan Respublikasına gəlməsi haqqında vəsatət qaldırarkən, özü və ya səfərinin məqsədi haqqında yalan məlumat verdikdə əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasına gəlişinə 5 il müddətinə qadağa qoyulur.

Beləliklə, Azərbaycan Respublikasının Konstitusiyası ilə əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə verilən çoxsaylı hüquqlara əsasən Azərbaycan Respublikasına viza əsasında

və ya viza tələb olunmayan qaydada gələn, ölkəmizdə müvəqqəti olan, müvəqqəti olma müddəti uzadılan, müvəqqəti və ya daimi yaşamaq üçün icazə verilən, Azərbaycan Respublikasında haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmaq üçün iş icazəsi verilən həmin şəxslərin miqrasiya proseslərinin iştirakçıları qismində hüquq və vəzifələri araşdırılaraq təhlil edilmiş və milli qanunvericiliyində mövcud olan nöqsanlarla bağlı bir sıra elmi təkliflər verilmişdir.

**İstifadə olunmuş ədəbiyyat siyahısı**

1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, Hüquq nəşriyyatı, 2020.
2. Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi. Bakı, Qanun, 2021.
3. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi, Bakı, Hüquq nəşriyyatı, 2021.
4. “Beynəlxalq xüsusi hüquq haqqında” Azərbaycan Respublikasının 6 iyun 2000-ci il tarixli 889-IQ nömrəli Qanunu.
5. Конституция Российской Федерации СПГ.2021. Москва: Юрид. лит,2021,82 с.
6. Комментарий законодательства государств-участников СНГ о гражданстве. Москва: Юридическая литература, 2005, 600 с.
7. Конституция Грузии, конституционный закон Грузии // Законодательный Вестник Грузии. 2019, 29 с.

## X Ü L A S Ə

Məqalədə, Azərbaycan Respublikasının Konstitusiyasının 69-cu maddəsinin I hissəsində Azərbaycan Respublikasında yaşayan əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin, Azərbaycan Respublikasının vətəndaşları ilə bərabər bütün hüquqlardan istifadə edə bilmələri və bütün vəzifələri yerinə yetirmələri ilə bağlı hüquq normaları araşdırılır və Müstəqil Dövlətlər Birliyinə daxil olan bir sıra ölkələrin o cümlədən Rusiya Federasiyası, Qazaxıstan Respublikası və Gürcüstan Respublikasının Konstitusiyalarında həmin şəxslərə verilən hüquqlarla bağlı müqayisələr aparılaraq təhlil edilir.

Məqalədə, müəllif qeyd edir ki, miqrasiya proseslərinin fəal iştirakçısı olan əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasına gəlməsi və Azərbaycan Respublikasından getməsi, Azərbaycan Respublikasından müvəqqəti olması, müvəqqəti və daimi yaşamasının hüquqi əsasları Azərbaycan Respublikasının Konstitusiyasında təsbit edilsə də, lakin həmin şəxslərin Azərbaycan Respublikasının ərazisində müvəqqəti olması, müvəqqəti və daimi yaşaması üçün icazələr və icazə vəsiqələri Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti tərəfindən verilir. Azərbaycan Respublikasının ərazisində müvəqqəti və daimi yaşamaq üçün icazə vəsiqəsi əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə ölkəmizdən getmək və viza almadan ölkəmizə qayıtmaq hüququ verən, habelə həmin şəxslərin ölkə ərazisində şəxsiyyətini və yaşayış yeri üzrə qeydiyyata alındığını təsdiq edən hüquqi sənəd hesab edilir. Bundan başqa, Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamaq üçün icazənin müddəti 1 ildən artıq olmayan müddətə verilir və müvafiq əsas olduqda, hər dəfə 2 ildən çox olmayan müddətə uzadıla bilər. Azərbaycan Respublikasının ərazisində daimi yaşamaq üçün icazə isə 5 il müddətinə verilir. Bu müddətin bitməsinə azı 3 ay qalmış əcnəbinin və vətəndaşlığı olmayan şəxsin müraciətinə əsasən daimi yaşamaq üçün verilmiş icazə yenidən 5 il müddətinə uzadıla bilər.

Daha sonra müəllif, Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində təsbit edilmiş əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasına gəlməsi və

Azərbaycan Respublikasından getməsi, Azərbaycan Respublikasından müvəqqəti olması, müvəqqəti və daimi yaşamasının hüquqi əsaslarını hərtərəfli araşdırma aparmış və Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinin və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin bəzi müddəaları ilə bağlı hüquqi cəhətdən əsaslandırılmış bir sıra elmi təkliflər vermişdir.

**Афаг Садыгова**
**Диссертант кафедры**
**конституционного права юридического факультета**
**Бакинского Государственного Университета**

**Конституционные права иностранцев и лиц без гражданства, участвующих в миграционных процессах**

**Р Е З Ю М Е**

В статье исследуются юридические нормы закрепленные в I части 69-й статьи Конституции Азербайджанской Республики, связанные с тем, что иностранцы и лица без гражданства, проживающие в Азербайджанской Республике, могут пользоваться всеми правами и должны выполнять все обязанности наравне с гражданами Азербайджанской Республики, и анализируются с проведением сравнений права, дающиеся этим лицам в конституциях ряда стран, входящих в Содружество Независимых Государств, в том числе Российской Федерации, Республики Казахстан и Республики Грузия.

В статье, автор отмечает, что несмотря на то, что в Конституции Азербайджанской Республики закреплены правовые основы прибытия в Азербайджанскую Республику и отбытия из Азербайджанской Республики иностранцев и лиц без гражданства, активно участвующих в миграционных процессах, их временного пребывания, временного и постоянного проживания в Азербайджанской Республике, разрешения и удостоверения разрешения о временном пребывании, временном и постоянном проживании этих лиц на территории Азербайджанской Республики выдаются Государственной Миграционной Службой Азербайджанской Республики. Удостоверение разрешения для временного и постоянного проживания на территории Азербайджанской Республики считается юридическим документом, дающим иностранцам и лицам без гражданства право выезда и возвращения в нашу страну без получения визы, а также подтверждающим личность этих лиц на территории страны и учёта по месту жительства. Кроме того, удостоверение разрешения для временного проживания на территории Азербайджанской Республики выдается сроком не более 1 года, и при наличии соответствующего основания, может продлеваться каждый раз на срок не более 2 лет. А удостоверение разрешения для постоянного проживания на территории Азербайджанской Республики выдается сроком на 5 лет. Как минимум за 3 месяца до окончания этого срока, на основе обращения иностранца и лица без гражданства, удостоверение разрешения для постоянного проживания может быть повторно продлено на 5-летний срок.

Затем, автор провел всестороннее исследование юридических основ прибытия иностранцев и лиц, не имеющих гражданства в Азербайджанскую Республику и отбытия из Азербайджанской Республики, их временного пребывания, временного и посто-

янного проживания в Азербайджанской Республике, закрепленных в Миграционном Кодексе Азербайджанской Республики, и дал ряд юридически обоснованных научных предложений о некоторых положениях Кодекса Азербайджанской Республики об административных проступках.

**Afag Sadigova**
**Doctoral student of the Department of Constitutional Law of the Faculty of Law of the Baku State University**

## Constitutional rights of foreigners and stateless persons participating in migration processes

**S U M M A R Y**

The article examines the legal norms in part I of the 69th article of the Constitution of the Republic of Azerbaijan, related to the fact that foreigners and stateless persons living in the Republic of Azerbaijan can enjoy all the rights and must perform all duties on an equal basis with citizens of the Republic of Azerbaijan, and analyses with making comparisons with the rights given to those persons in the constitutions of a number of countries that are members of the Commonwealth of Independent States, including the Russian Federation, the Republic of Kazakhstan and the Republic of Georgia.

In the article, the author notes that despite the fact that the Constitution of the Republic of Azerbaijan establishes the legal basis for the arrival in the Republic of Azerbaijan and departure from the Republic of Azerbaijan of foreigners and stateless persons actively participating in migration processes, their temporary stay, temporary and permanent residence in the Republic of Azerbaijan, however, permits and certificates of permission for temporary stay, temporary and permanent residence of those persons in the territory of the Republic of Azerbaijan are issued by the State Migration Service of the Republic of Azerbaijan. A certificate of permission for temporary and permanent residence in the territory of the Republic of Azerbaijan is considered a legal document giving foreigners and stateless persons the right to leave and return to our country without obtaining a visa, as well as confirming the identity of those persons in the country and registration at the place of residence. In addition, a certificate of permission for temporary residence in the territory of the Republic of Azerbaijan is issued for a period of not more than 1 year, and if there is an appropriate basis, it can be extended each time for a period of not more than 2 years. A certificate of permission for permanent residence in the territory of the Republic of Azerbaijan is issued for a period of 5 years. At least 3 months before the end of this period, on the basis of the application of a foreigner and a stateless person, the permanent residence permit certificate can be renewed for a 5-year period.

Then, the author conducted a comprehensive study of the legal bases for the arrival of foreigners and stateless persons in the Republic of Azerbaijan and departure from the Republic of Azerbaijan, their temporary stay, temporary and permanent residence in the Republic of Azerbaijan, enshrined in the Migration Code of the Republic of Azerbaijan, and gave a number of legally substantiated scientific proposals on some provisions of the Code of Administrative Violations of the Republic of Azerbaijan.

***Hüseyn İRZAYEV***

Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin
Mülki hüquq kafedrasının doktorantı

# YALAN ƏQDLƏRLƏ BAĞLI AZƏRBAYCAN RESPUBLİKASI ALİ MƏHKƏMƏSİNİN VƏ KONSTİTUSİYA MƏHKƏMƏSİNİN MƏHKƏMƏ TƏCRÜBƏSİNƏ ÜMUMİ BİR BAXIŞ

***Açar sözlər:*** *yalan əqd, Ali Məhkəmə, Konstitusiya Məhkəməsi, təfsir, məhkəmə təcrübəsi, qərar*

***Ключевые слова:*** *ложный договор, Верховный суд, Конституционный суд, интерпретация, судебной практики, решение*

***Keywords:*** *false contract, Supreme Court, Constitutional Court, interpretation, judicial practice, decision*

## GİRİŞ

Yalnız mülki hüquq üçün deyil, digər hüquq sahələri üçün də mühüm əhəmiyyət kəsb edən anlayışlardan biri təfsirdir. Təfsir bir iradə ifadəsinin mənasının təsbit edilməsidir. Bir əqdin təfsiri üçün hər iki tərəfin iradə ifadəsinin təsbit və onların bir-birinə uyğun olub-olmadıqlarını tədqiq etmək lazımdır. Burada ən əhəmiyyətli məqam təkcə hərfi məna deyil, həqiqi istək və iradədir.

Təfsirə iradə bəyanlarının mənası ilə bağlı hər hansı şübhə mövcud olduqda müraciət edilir. Bağlanılmış əqdin yalan olması əsası ilə etibarsız olduğunu irəli sürən tərəf isə hər bir halda iradə bəyanının şübhəli olduğunu dolayı yolla qəbul edir. Bu şübhə isə yalnız təfsirə müraciət edilərək aradan qaldırıla bilər. Bu baxımdan yalan əqdlərlə bağlı məhkəmə təcrübəsinin araşdırılmasına və təhlil edilməsinə zərurət vardır. Bu yolla məhkəmə təcrübəsində əqdin yalan olmasını müəyyən etmək üçün hansı meyarlardan istifadə edildiyini, hansı hallarda əqdin yalan əqd hesab edildiyini aşkarlamaq mümkündür. Bu çərçivədə Azərbaycan Respublikası Ali Məhkəməsinin və Konstitusiya Məhkəməsinin məhkəmə təcrübəsinin araşdırılmasını faydalı hesab edirik.

## 1. ƏQDİN YALAN OLMASINI MÜƏYYƏNLƏŞDİRMƏ BAXIMINDAN ORTAQ ARZUNUN MÜƏYYƏNLƏŞDİRİLMƏSİ

Müqavilələrin şərh edilməsi ilə əvvəlcə tərəflərin ortaq arzularının (məqsədlərinin) müəyyənləşdirilməsinə cəhd edilir. Bir əqdin hüquqi mahiyyəti tərəflərin o müqaviləni bağlayarkən ona verdikləri ada və ya müqavilədə qərarlaşdırılan hadisə və münasibətlərin tərəflər baxımından qiymətləndirilməsinə görə deyil, hadisəyə və qurulacaq münasibətə veriləcək həqiqi anlam çərçivəsində müəyyənləşdirilməlidir [3; s.181]. Fikrimizcə, burada müəllif həqiqi anlam dedikdə, məhz tərəflərin iradə ifadəsinin həqiqi mənasını, yəni onların həqiqi və ortaq iradələrini nəzərdə tutmuşdur. Bu xüsus istər əqdin yalan olması zamanı,

istərsə də, iradə və ya iradə ifadəsinin zədələnməsinin digər əsaslarının mövcudluğu zamanı əhəmiyyət kəsb edir.

Əqdlərin, həmçinin onların bir növü olan müqavilələrin şərh edilməsi zamanı tərəflərin istifadə etdikləri sözlərin hərfi mənalarının deyil, onların ortaq məqsədlərinin əsas alınması Azərbaycan Respublikası Mülki Məcəlləsinin 324.5-ci və 404-cü maddələrinin tələblərindən qaynaqlanır [1]. Bir əqdin etibarsız hesab ediləcəyi şəkildə deyil, etibarlı olacaq formada və əqd tərəflərinin ortaq məqsədlərinə görə təfsiri də məhz həmin maddələrdən irəli gəlir. Nəzərə alınmalıdır ki, əsas etibarilə müqavilələrin təfsiri onların etibarsızlığının qəbul edilməsinə deyil, tərəflərin həqiqi və ortaq məqsədlərinin təsbiti və müqavilənin etibarlı ola biləcək şəkildə qiymətləndirilməsinə istiqamətlənir.

Əqdin yalan olub-olmaması məsələsi araşdırılarkən yalnız müqavilənin söz və ifadələrinin hərfi mənası deyil, tərəflərin bağlanmış müqavilə üzrə hüquqi nəticə əldə etmək niyyətlərinin olub-olmaması, habelə əsl iradələrinin aşkar edilməsi üçün işin faktiki halları da hərtərəfli araşdırılmalıdır. Bu zaman məhkəmələr əqd tərəflərinin davranışını, tərəflər arasında formalaşan münasibətləri, onların yazışmalarını, fərqli subyekt tərkibi olan oxşar münasibətlərdə tərəflərin davranışını, əqdin bağlandığı fəaliyyət sahəsində formalaşmış davranış təcrübəsini, hərəkətlərin baş vermə vaxtını və s. nəzərə almalıdır. Bir neçə əlaqəli əqdin qısa fasilə ilə bağlanması (məsələn, bir ilədək), eyni gündə bir neçə əlaqəli əqdin bağlanması, tərəflərin və ya üçüncü şəxslərin müxtəlif hərəkətlərinin qarşılıqlı əlaqəsi və digər hallar da əqdlərin pərdələmək niyyətilə görünüş üçün bağlanılmasına dəlalət edə bilər [7].

Lakin nəzərə alınmalıdır ki, hər hansı bir əqdin yalan olmasını sübut etmək vəzifəsi buna istinad edən tərəfin üzərinə düşür. Bu cür tələblə məhkəməyə müraciət edən iddiaçı əqdin yalan olması halını təsdiq edən sübutları da təqdim etməlidir. Məhkəmə isə tərəflərin müqaviləni bağlayarkən nəzərdə tutduqları həqiqi və ortaq məqsədləri məhz bu sübutlar çərçivəsində qiymətləndirəcəkdir. Məhkəmə təcrübəsində də bu cür mövqe müdafiə edilir ki, məhkəmə yalnız tərəfin sözlərinə əsaslanaraq müqaviləni yalan əqd hesab edə bilməz. Bunun üçün həmin hala istinad edən tərəf öz tələbini və ya etirazını əsaslandıran sübutları da təqdim etməlidir [11].

Ümumiyyətlə, müqavilənin etibarlı olub-olmaması ilə bağlı işlərə baxılarkən təqdim olunmuş sübutlar əsasında tərəflərin həqiqi hüquqi niyyətləri və iradə ifadələrinin əsl məzmunu dəqiqləşdirilməli, iradə ifadəsinin hansı şərtlər və şərait daxilində bildirilməsi müəyyən edilməlidir.

## 2. YALAN ƏQDLƏRLƏ BAĞLI ALİ MƏHKƏMƏNİN MƏHKƏMƏ TƏCRÜBƏSİ

Yalan əqd tərəflərin həqiqi iradələri ilə bu iradənin ifadəsi arasında bilərəkdən yaratdıqları uyğunsuzluqdur. Tərəflər əslində bir hüquqi prosedur həyata keçirmək iradəsinə sahib olduqları halda, üçüncü şəxslərdə yanlış təsəvvür yaratmaq niyyəti ilə qəsdən sanki başqa bir hüquqi prosedur həyata keçirmək iradəsində olduqlarını göstərirlər [12]. Bu səbəbdən də Mülki Məcəllənin 340.1-ci və 340.2-ci maddələrinin tələbləri baxımından əqdin uydurma və yalan hesab edilməsinin əsasları fərqli olduğundan eyni əqdin həm uydurma, həm də yalan əqd hesab edilməsi əsassızdır [8]. Belə ki, yalan əqd və uydurma əqd anlayışları fərqli anlayışlar olmaqla hər hansı əqdin uydurma əqd olması həmin əqdin yalan əqd olmasını və əksinə yalan əqd olması eyni əqdin uydurma əqd olmasını istisna edir [9]. Bunu onunla izah etmək mümkündür ki, başqa bir hüquqi proseduru pərdələmək məqsədilə görünüşdə fərqli hüquqi prosedurun realizə edilməsi halında uydurma əqdin mövcudluğundan danışmaq qeyri-mümkündür. Çünki uydurma əqd ona uyğun hüquqi nəticələr yaratmaq niyyəti

olmadan bağlanan və sadəcə görüntü üçün nəzərdə tutulan əqddir. Uydurma əqd odur ki, bu əqd ona uyğun hüquqi nəticələr yaratmaq niyyəti ilə deyil, yalnız görünüş üçün bağlanılır. Bu əqdi bağlamaqla tərəflər başa düşür və dərk edirlər ki, həmin əqd üzrə hər hansı hüquqi nəticə, yəni onlar üçün hüquq və vəzifələr əmələ gəlmir. Əqd iştirakçıları bununla bir növ hüquqi görünüş yaradaraq tam başqa məqsəd güdürlər. Özü də bu məqsəd, bir qayda olaraq, hüquqazidd xarakter daşıyır. Uydurma əqdlərin arxasında hüquqi əhəmiyyətə malik olan hər hansı hərəkət durmur, bu əqdlər yalnız görünüş üçün bağlanılır [13].

Məhkəmə təcrübəsində qəbul edilmiş yanaşma bundan ibarətdir ki, əgər hər hansı tərəf əqdin həm uydurma, həm yalan olmasına istinad edirsə, bu halda onun tələbi konkret şəkildə əsaslandırılmamış tələb kimi qiymətləndirilməlidir.

Ümumiyyətlə, hər hansı əqdə yalan əqd kimi yanaşa bilmək üçün onun başqa əqdi pərdələmək məqsədilə bağlanıldığı müəyyən edilməlidir [10]. Xüsusilə qeyd olunmalıdır ki, tərəflərdən yalnız birində yalan əqdi bağlamaq niyyətinin mövcudluğu Mülki Məcəllənin 340.2-ci maddəsinin tətbiqi üçün kifayət deyil [4].

Başqa bir iş üzrə, iddiaçı kredit müqaviləsinin etibarsız hesab edilməsini xahiş etmiş, tələbini isə onunla əsaslandırmışdır ki, özünün cavabdehə heç vaxt pul borcu olmamış, mərhum atası sağlığında cavabdehdən 130000 ABŞ dolları məbləğində borc almış, həmin borcdan 30000 ABŞ dolları məbləğində pulu qaytarmış, 100000 ABŞ dolları borcu qalmışdır. İddiaçının cavabdehlə sonradan bağladığı kredit müqaviləsi məhz atasının həmin borc ilə bağlı öhdəliyini, yəni başqa əqdi pərdələmək məqsədi daşımış, ona görə də yalan əqd olmuşdur. Məhkəmələr benə qənaətə gəlmişlər ki, iddiaçının cavabdehlə müqavilə bağlamasının məhz atasının borcu ilə bağlı olmasına dair dəlilləri işin faktiki və araşdırılmış halları baxımından daha inandırıcıdır. Çünki, əvvəla, iddiaçı cavabdehdən borc pul almasına zərurət olması və bu borcu istəməsini təsdiq etməmiş, ikincisi də onun imzaladığı müqavilə cavabdehin özünün də təsdiq etdiyi mərhumun qalan 100000 ABŞ dolları borcu ilə bağlı olmuşdur. Başqa sözlə, iddiaçı bu müqavilə ilə faktiki olaraq atasının cavabdehə olan borcunu etiraf etmişdir. Beləliklə, tərəflər arasında bağlanmış müqavilə məzmununa əsasən onların əsas niyyətləri üzrə iradə ifadəsi olmasa da, bu həmin müqavilənin yalan əqd kimi deyil, iddiaçının atasının cavabdehə qalmış borc məbləğinin qaytarılması məqsədi ilə bağlanmış mövcud borcun etirafı haqqında mücərrəd müqaviləsi kimi qiymətləndirilməlidir [14].

Bənzər bir mövqeyi başqa iş üzrə də sərgiləmiş Ali Məhkəmənin Mülki Kollegiyası bildirmişdir ki, yalan əqdə onun mahiyyəti nəzərə alınmaqla, tərəflərin həmin əqdi bağlayarkən əslində nəzərdə tutduqları əqdə aid olan qaydalar tətbiq edilir. İddiaçı yalan əqd bağlanmasını israr edirsə, onda əslində hansı əqdi bağlamağa iradə ifadə etdiyini açıq göstərməlidir. Mülki Məcəllənin 340.2-ci maddəsinin məzmunu yalan əqdin etibarsız hesab edilməsini deyil, pərdələnmiş əqdə dair qaydaların tətbiqini tələb edir [15]. Əqdin başqa əqdi pərdələmək məqsədi ilə bağlanması yoxdursa, yalan əqddən mübahisə aparmaq olmaz. Çünki yalan əqd başqa əqdi pərdələməlidir və məhkəmə tərəflər arasındakı əqdi yalan hesab etdikdə, yalan əqdə onun mahiyyəti nəzərə alınmaqla, tərəflərin həmin əqdi bağlayarkən əslində nəzərdə tutduqları əqdə aid olan qaydaları tətbiq etməlidir [16]. Belə ki, pərdələnən müqavilədə tərəflərin həqiqi iradəsi ifadə olunduğundan, bu əqd mülki qanunvericiliklə nəzərdə tutulmuş forma şərti də daxil olmaqla etibarlılıq tələblərinə cavab verdikdə, etibarlı əqd kimi arzu olunan hüquqi nəticələrə səbəb ola bilər [17].

Bu baxımdan Ali Məhkəmənin məhkəmə təcrübəsi artıq formalaşmış hesab oluna bilər. Belə ki, başqa bir iş üzrə işin mübahisəli halı 29000 manat borcun qaytarılması olmuş və bu halı sübut etmək üçün iddiaçının məhkəməyə təqdim etdiyi yeganə sübut cavabdehin iddiaçıya borcunun olması barədə verdiyi qəbz olmuşdur. Apellyasiya məhkəməsi bu

hissədə qeyd etmişdir ki, hazırkı iş üzrə bağlanmış mövcud borcun etirafı haqqında mücərrəd müqavilə (qəbz) pərdələnmiş əqd olmaqla, nisyə alğı-satqı müqaviləsi münasibətləri nəticəsində yaranmış borcu pərdələmişdir. Ali Məhkəmənin Mülki Kollegiyası isə bildirmişdir ki, apellyasiya məhkəməsi cavabdeh tərəfindən verilmiş qəbzi, iddiaçının ərizəsində irəli sürdüyü tələbinin qanuni əsaslarını nəzərə almadan yalnız cavabdehin ifadəsinə əsasən mövcud borcun etirafı barədə müqaviləni yalan əqd kimi dəyərləndirməklə səhvə yol vermişdir [18].

Məhkəmələr müqavilənin etibarsızlığı ilə bağlı mübahisələrə baxarkən yalan əqdlə etibarlı, lakin məzmunu düzgün ifadə olunmamış əqd arasında fərqi nəzərə almalıdırlar. Belə ki, Ali Məhkəmənin Mülki Kollegiyası bir qərarında qeyd etmişdir ki, əqdin yalan əqd kimi qiymətləndirilməsi üçün onun tərəflərinin həmin müqavilə üzrə hüquq və öhdəliklər əmələ gətirmək niyyətinin olmaması müəyyən olunmalıdır. Əqd yalan olduqda, onun nəticələri iştirakçı tərəflərin iradələrinə uyğun olmur, tərəflərin niyyətləri başqa əqdin bağlanmasına yönəlir, bağlanılan əqd isə üçüncü şəxslərdə yanlış təsəvvür yaradır. Lakin mülki dövriyyədə elə əqdlər mümkündür ki, tərəflər hüquqi savadları olmadığı və ya başqa səbəblərdən əqdi tərtib edərkən nəzərdə tutduqları müqavilənin bütün şərtlərini təsbit etmir. Bu zaman onların nəzərdə tutduqları hüquqi nəticələr Mülki Məcəllənin 324.5-ci maddəsinə əsasən təsvir edilərkən müəyyən oluna bilər [19].

Göründüyü kimi, Azərbaycan Respublikası Ali Məhkəməsinin qərarlarında yalan əqdlərlə bağlı artıq formalaşmaqda olan məhkəmə təcrübəsi mövcuddur. Lakin bu məhkəmə təcrübəsinin formalaşmasında Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun qərarlarının da xüsusi təsiri vardır. Odur ki, yalan əqdlərlə bağlı Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun da qərarlarını ümumi şəkildə araşdırmağı məqsədəmüvafiq hesab edirik.

## 3. YALAN ƏQDLƏRLƏ BAĞLI KONSTİTUSİYA MƏHKƏMƏSİNİN MƏHKƏMƏ TƏCRÜBƏSİ

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu “N.Hacıyevanın şikayəti üzrə Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyasının 7 avqust 2019-cu il tarixli qərarının Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına uyğunluğunun yoxlanılmasına dair” 10 mart 2020-ci il tarixli Qərarında qeyd edilmişdir ki, Mülki Məcəllənin 340.2-ci maddəsinə əsasən, yalan əqd başqa əqdi pərdələmək məqsədi ilə bağlanan əqddir. Qeyd olunan normanın məzmunundan göründüyü kimi, yalan əqd yalnız müqavilə tərəflərinin bilərəkdən məqsədli şəkildə yol verdikləri hüquqazidd bir hərəkətdir. Buna görə də mülki hüquq subyektlərinin bu şəkildə əqd bağlamaqla meydana gətirdikləri hüquqi görünüşə etimad göstərən üçüncü şəxs qismində çıxış edən mülki dövriyyənin digər iştirakçılarının maraqları qanunvericilik tərəfindən xüsusi olaraq qorunur [6].

“X.Mirzəliyevin şikayəti üzrə Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyasının 18 noyabr 2020-ci il tarixli qərarının Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına uyğunluğunun yoxlanılmasına dair” Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 17 sentyabr 2021-ci il tarixli Qərarında göstərilmişdir ki, yalan əqd halında əslində eyni anda iki ayrı əqd bağlanmış olur. Görünən əqd tərəflərin əsl hüquqi niyyətlərini əks etdirmir. Tərəflər əslində başqa bir müqavilə barədə razılığa gələrək görüntü üçün bağladıqları əqdlə həmin müqaviləni pərdələyirlər. Tərəflərin görünüş üçün bağladıqları müqavilədə göstərilən hüquqi nəticəni əmələ gətirmək niyyətləri

olmur və bu cür pərdələmə müqavilə tərəflərinin hər ikisinin qəsdi ilə əhatə olunaraq üçüncü şəxsləri aldatmaq məqsədi daşıyır [5].

Bundan başqa, "Azərbaycan Respublikası Mülki Məcəlləsinin 340.2-ci maddəsinin şərh edilməsinə dair" 18 mart 2022-ci il tarixli Qərarında Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu yalan əqdin aşağıda sadalanan əsas tərkib əlamətlərinə malik olduğunu göstərmişdir:

– görüntüdə bağlanan əqd və ya pərdələyən əqd – tərəflərin üçüncü şəxslərdə hüquqa uyğun və etibarlı bir müqavilə bağladıqları təəssüratını yaradır. Bu müqavilədə tərəflərin əks etdirdikləri iradə ifadələri arzuladıqları hüquqi nəticəyə uyğun olmur. Tərəflərin görünüş üçün bağladıqları bu müqavilə üzrə hüquqi nəticə, hüquq və öhdəliklər əmələ gətirmək niyyətləri olmur;

– gizli bağlanan əqd və ya pərdələnən əqd – tərəflərin görüntüdə bağladıqları əqdin arxasında gizlətdikləri və həqiqi iradələrini ifadə edən bir müqavilədir. Bu, yalan əqdi uydurma əqddən fərqləndirən əsas əlamətdir;

– yanlış təsəvvür yaratmaq niyyəti – tərəflərin həqiqi iradələrini gizli tutaraq hər hansı bir mənfəət əldə etmək üçün üçüncü şəxslərdə buna dair fikir formalaşdırmaqda və görüntü yaratmaqda ifadə olunur [4].

Sözügedən 18 mart 2022-ci il tarixli Qərarında Konstitusiya Məhkəməsinin Plenumu qeyd etməyi vacib bilmişdir ki, subyekt tərkibinin fərqli olması tərəflərin başqa əqdi pərdələməsi niyyətini istisna etmir. Belə ki, tərəflər öz aralarında görünüşdə bağlanacaq əqdə dair razılığa gəldikdə, həmin müqavilənin digər şərtləri ilə yanaşı subyekt tərkibinə dair də razılığa gələ bilərlər [4]. Konstitusiya Məhkəməsi Plenumunun bu hüquqi yanaşması məhkəmə praktikasında mövcud olan bəzi hallara düzgün qiymət verilmədiyini nümayiş etdirmişdir. Belə ki, Ali Məhkəmənin bəzi qərarlarında müşahidə edilən yanaşmaya görə, hər hansı əqdə yalan əqd kimi yanaşa bilmək üçün onun başqa əqdi pərdələmək məqsədilə bağlanıldığı müəyyən edilməlidir. Bu halda, hər iki əqdin tərəfləri eyni olmalı, eləcə də tərəflərin başqa əqdi pərdələmək məqsədlərinin mövcudluğu mötəbər sübutlarla təsdiq olunmalıdır [10]. Göründüyü kimi, Ali Məhkəmə yalan əqd zamanı hər iki əqdin tərəflərinin eyni olmalı olmasını bildirmiş olsa da, Konstitusiya Məhkəməsi Plenumunun 18 mart 2022-ci il tarixli Qərarı ilə bu məsələyə aydınlıq gətirilərək subyekt tərkibinin fərqli olması halında da tərəflərin başqa əqdi pərdələmək niyyətinin mövcudluğunu qəbul etmişdir.

Nəzəri ədəbiyyatlarda da Konstitusiya Məhkəməsi Plenumunun qəbul etmiş olduğu mövqe mötəbər hesab edilir. Müəlliflərdən S.Süleymanlı bildirir ki, həqiqətdə müqavilənin A ilə B arasında bağlanmasına baxmayaraq, tərəflər bu müqaviləni A ilə C arasında bağlanmış şəkildə göstərdikləri təqdirdə, heç şübhəsiz, yalan əqd əmələ gəlir [2; s.307].

## NƏTİCƏ

Araşdırma nəticəsində bir sıra nəticələrə gəlmək mümkündür. Onlar aşağıdakılardır:

1) Əqdin yalan olub-olmaması məsələsi araşdırılarkən yalnız müqavilənin söz və ifadələrinin hərfi mənası deyil, tərəflərin bağlanmış müqavilə üzrə hüquqi nəticə əldə etmək niyyətlərinin olub-olmaması, habelə əsl iradələrinin aşkar edilməsi üçün işin faktiki halları da hərtərəfli araşdırılmalıdır.

2) Yalan əqd və uydurma əqd anlayışları fərqli anlayışlar olmaqla hər hansı əqdin uydurma əqd olması həmin əqdin yalan əqd olmasını və əksinə yalan əqd olması eyni əqdin uydurma əqd olmasını istisna edir.

3) Yalan əqd zamanı pərdələnən müqavilədə tərəflərin həqiqi iradəsi ifadə olunduğundan, bu əqd mülki qanunvericiliklə nəzərdə tutulmuş forma şərti də daxil olmaqla etibarlılıq tələblərinə cavab verdikdə, etibarlı əqd kimi arzu olunan hüquqi nəticələrə səbəb ola bilər.

4) Məhkəmələr müqavilənin etibarsızlığı ilə bağlı mübahisələrə baxarkən yalan əqdlə etibarlı, lakin məzmunu düzgün ifadə olunmamış əqd arasında fərqi nəzərə almalıdırlar.

5) Subyekt tərkibinin fərqli olması tərəflərin başqa əqdi pərdələməsi niyyətini istisna etmir.

**İstifadə olunmuş ədəbiyyat siyahısı**


1. Azərbaycan Respublikasının Mülki Məcəlləsi. Bakı: Hüquq Yayın Evi, 2021, 966 s.

2. Süleymanlı, S.S. Mülki hüququn əsasları / S.S.Süleymanlı. – Bakı: AMADE Group Yayınları, – 2019. – 500 s.

3. Olgaç, S. Kazai ve ilmi içtihatlarla Türk Borçlar Kanunu Şerhi. Genel Hükümler./ S.Olgaç. – Ankara: Olgaç Matbaası, – c.1, – 1976. – 1119 s.

4. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Mülki Məcəlləsinin 340.2-ci maddəsinin şərh edilməsinə dair" 18 mart 2022-ci il tarixli Qərarı – https://constcourt.gov.az/az/decision/1274

5. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun "X.Mirzəliyevin şikayəti üzrə Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyasının 18 noyabr 2020-ci il tarixli qərarının Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına uyğunluğunun yoxlanılmasına dair" 17 sentyabr 2021-ci il tarixli Qərarı – https://constcourt.gov.az/az/decision/1243

6. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun "N.Hacıyevanın şikayəti üzrə Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyasının 7 avqust 2019-cu il tarixli qərarının Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına uyğunluğunun yoxlanılmasına dair" 10 mart 2020-ci il tarixli Qərarı – https://constcourt.gov.az/az/decision/1115

7. Azərbaycan Respublikası Ali Məhkəməsi Kommersiya Kollegiyasının 2-2(102)-738/2022 saylı, 13 dekabr 2022-ci il tarixli Qərarı - https://sc.supremecourt.gov.az/storage/Iqtisad/2022/3_738+13.12.2022.pdf

8. Azərbaycan Respublikası Ali Məhkəməsi Kommersiya Kollegiyasının 2-2(102)-519/2022 saylı, 19 oktyabr 2022-ci il tarixli Qərarı - https://sc.supremecourt.gov.az/storage/Iqtisad/2022/3_519+19.10.2022.pdf

9. Azərbaycan Respublikası Ali Məhkəməsi Kommersiya Kollegiyasının 2-2(102)-482/2021 saylı, 16 noyabr 2021-ci il tarixli Qərarı https://sc.supremecourt.gov.az/storage/Iqtisad/2021/3_482+16.11.2021.pdf

10. Azərbaycan Respublikası Ali Məhkəməsi Kommersiya Kollegiyasının 2-2(102)-591/2021 saylı, 21 dekabr 2021-ci il tarixli Qərarı – https://sc.supremecourt.gov.az/storage/Iqtisad/2021/3_591+21.12.2021.pdf

11. Azərbaycan Respublikası Ali Məhkəməsi Mülki Kollegiyasının 2(102)-4473/2022 saylı, 21 noyabr 2022-ci il tarixli Qərarı – https://sc.supremecourt.gov.az/storage/Mulki/2022/2_4473+21.11.2022.pdf

12. Azərbaycan Respublikası Ali Məhkəməsi Mülki Kollegiyasının 2(102)-6012/2022 saylı, 13 dekabr 2022-ci il tarixli Qərarı – https://sc.supremecourt.gov.az/storage/Mulki/2022/2_6012+13.12.2022.pdf

13. Azərbaycan Respublikası Ali Məhkəməsi Mülki Kollegiyasının 2(102)-3292/2019 saylı, 27 may 2019-cu il tarixli Qərarı -
https://sc.supremecourt.gov.az/storage/Mulki/2019/2_3292+27.05.2019.pdf
14. Azərbaycan Respublikası Ali Məhkəməsi Mülki Kollegiyasının 2(102)-6139/2022 saylı, 13 dekabr 2022-ci il tarixli Qərarı –
https://sc.supremecourt.gov.az/storage/Mulki/2022/2_6139+13.12.2022.pdf
15. Azərbaycan Respublikası Ali Məhkəməsi Mülki Kollegiyasının 2(102)-5785/2022 saylı, 22 noyabr 2022-ci il tarixli Qərarı –
https://sc.supremecourt.gov.az/storage/Mulki/2022/2_5785+22.11.2022.pdf
16. Azərbaycan Respublikası Ali Məhkəməsi Mülki Kollegiyasının 2(102)-5214/2022 saylı, 31 oktyabr 2022-ci il tarixli Qərarı –
https://sc.supremecourt.gov.az/storage/Mulki/2022/2_5214+31.10.2022.pdf
17. Azərbaycan Respublikası Ali Məhkəməsi Mülki Kollegiyasının 2(102)-4780/2022 saylı, 25 oktyabr 2022-ci il tarixli Qərarı –
https://sc.supremecourt.gov.az/storage/Mulki/2022/2_4780+25.10.2022.pdf
18. Azərbaycan Respublikası Ali Məhkəməsi Mülki Kollegiyasının 2(102)-5083/2022 saylı, 01 noyabr 2022-ci il tarixli Qərarı –
https://sc.supremecourt.gov.az/storage/Mulki/2022/2_5083+01.11.2022.pdf
19. Azərbaycan Respublikası Ali Məhkəməsi Mülki Kollegiyasının 2(102)-4107/2022 saylı, 17 oktyabr 2022-ci il tarixli Qərarı –
https://sc.supremecourt.gov.az/storage/Mulki/2022/2_4107+17.10.2022.pdf

## X Ü L A S Ə

Son dövrlərdə yalan əqdlərlə bağlı mübahisələrin sayı artmaqdadır. Bu isə yalan əqdlərlə bağlı məhkəmə təcrübəsinin təhlil edilməsini zəruri edir. Müəllif məqalədə yalan əqdlərlə bağlı Azərbaycan Respublikası Ali Məhkəməsinin və Konstitusiya Məhkəməsinin məhkəmə təcrübəsini araşdırmışdır. Araşdırma nəticəsində məhkəmə təcrübəsində yalan əqdlərlə bağlı əsas məqamların nədən ibarət olması müəyyən edilmişdir. Müəllif məhkəmə təcrübəsinin təhlili nəticəsində müəyyən nəticələrə gəlmişdir.

**Гусейн Ирзаев**
**Докторант кафедры гражданского права**
**Юридического факультета**
**Бакинского Государственного Университета**

## Обзор судебной практики Верховного Суда Азербайджанской Республики и Конституционного Суда в отношении ложных договоров

## Р Е З Ю М Е

В последнее время увеличивается количество споров, связанных с ложными договорами. Это вызывает необходимость анализа судебной практики, связанной с ложными договорами. В статье автор рассмотрел судебную практику Верховного суда и

Конституционного суда Азербайджанской Республики по ложным договорам. В результате исследования было определено, каковы основные моменты, связанные с ложными договорами в судебной практике. В результате анализа судебной практики автор пришел к определенным выводам.

**Huseyn Irzayev**
**Baku State University Faculty of Law**
**Department of the Civil Law**
**Doctoral student**

**A common review to the judicial practice of the Supreme Court and the Constitutional Court of the Republic of Azerbaijan regarding false contracts**

**SUMMARY**

In recent times, the number of disputes related to false contracts has been increasing. This makes it necessary to analyze the judicial practice related to false contracts. In the article, the author examined the judicial practice of the Supreme Court and the Constitutional Court of the Republic of Azerbaijan regarding false contracts. As a result of the research, it was determined what are the main points related to false contracts in judicial practice. The author has come to certain conclusions as a result of the analysis of court experience.

***Yavər MƏMMƏDOVA***
Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyasının
Əlavə Təhsil şöbəsinin böyük mütəxəssisi

# SEKSTORSİYA VƏ ƏSAS KONSTİTUSİON HÜQUQLARIN POZULMASI

***Açar sözlər:*** *Sekstoriya, İnsan hüquqları, Avropa İttifaqı, qurban, İnsan hüquqları üzrə Avropa Məhkəməsi, Konstitusiya, sosial şəbəkələr.*
***Ключевые слова:*** *Сексторция, права человека, Европейский союз, жертва, Европейский суд по правам человека, Конституция, социальная сеть.*
***Keywords:*** *Sextortion, Human Rights, European Union, victim, European Court of Human Rights, Constitution, social network.*

Sekstorsiya nədir?

Sekstorsiya termini ingilis sözləri olan "sex" və "extortion" sözlərindən əmələ gəlib, bir insanın cinsi hərəkətlər etdiyini və ya çılpaq olduğunu göstərən görüntü və video materialla şantaj edilməsidir.

Bu necə baş verir?

Hədəf şəxslər Facebook, İnstagram, WhatsApp və ya tanışlıq platformaları kimi sosial şəbəkələr vasitəsilə tanış olmayan, cəlbedici bir şəxsdən dəvət və ya dostluq sorğusu alırlar. Bir-biri ilə tanışlıq mərhələsindən sonra qurbandan bu sosial şəbəkədə video söhbətə keçməsi və orada özünü çılpaq göstərməsi, çılpaq rəqs etməsi və ya eyhamlı pozalar verməsi tələb olunur. İnandırıcı görünmək üçün qarşıdakı insan bəzən özü ilk addımı atır. Ünsiyyət yalnız WhatsApp kimi messencer proqramlarında baş verir. Təsirə məruz qalanlar, sonradan şantaj edildiyi təxribat xarakterli fotolarını göndərirlər. Adətən videoların və ya çılpaq fotoların sosial şəbəkələrdə yayımlanması və ya həmin şəxsin ailəsinə və ya dostlarına ötürülməsi ilə hədələnirlər. Cinayətkarlar qurbanların qorxu və utancından təsir rıçaqı kimi istifadə edirlər.

Həmçinin məlum hallar var ki, aidiyyatı şəxs niyyətini vaxtında bildiyi və veb-kamera qarşısında qeyd edilən hərəkətləri etməməsi və ya o formada fotoşəkil göndərməməsinə baxmayaraq, şantaj baş verir. Qurbanın mövcud olan zərərsiz videoyazıları və ya profil şəkilləri cinsi hərəkətlərin saxtalaşdırılmış qeydləri ilə manipulyasiya edilir.

Bu cinayət növü dünyada artıq məhşur olsa da, Azərbaycanda son dövrlərdə sürətlə sayı artmağa başlamışdır. Bundan xəbərsiz olan şəxslər isə çox asanlıqla cinayətin qurbanı olurlar. Bu isə insanların toxunulmazlıq hüququnun ən kobud şəkildə pozulmasının nümunəsidir.

Şəxsi toxunulmazlıq hüququ insanların ən əsas təbii hüququdur. Bu hüquq Ümumdünya İnsan Hüquqları Bəyannaməsində, Avropa İnsan Hüquqları Konvensiyasında, Avropa İttifaqının Əsas Hüquqlar haqqında Xartiyasında və s beynəlxalq aktlarda təsbit edilmişdir.

Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 3-cü maddəsində deyilir : Hər bir insan yaşamaq, azadlıq və şəxsi toxunulmazlıq hüququna malikdir.

Şəxsi toxunulmazlıq hüququnun pozulması ilə bağlı Avropa İnsan Hüquqları Məhkəməsində bir çox proseslərə baxılmış və bu proseslərdə məhkəmə şəxsi toxunulmazlıqla bağlı “şəxsi həyat”, “şəxsi imic” kimi anlayışlara aydınlıq gətirmişdir. Buna misal olaraq 2012-ci ildə baş vermiş Von Hannoverin Almaniyaya qarşı olan prosesdə məhkəmə şəxsi həyat toxunulmazlığına belə bir anlayış vermişdir[1]:

“Şəxsi həyat anlayışı şəxsin adı, şəkli, yaxud fiziki və mənəvi bütövlüyü kimi şəxsi şəxsiyyətlə bağlı aspektlərinə qədər uzanır. Konvensiyanın 8-ci maddəsi ilə verilən zəmanət, ilk növbədə, hər bir şəxsin digər insanlarla münasibətlərində şəxsiyyətinin, kənar müdaxilə olmadan, inkişafını təmin etmək məqsədi daşıyır. Beləliklə, insanın başqaları ilə ünsiyyət zonası var, hətta ictimai kontekstdə belə, bu zona şəxsi həyatın miqyasına düşə bilər. Fotonun dərc olunması hətta həmin şəxsin ictimai xadim olduğu yerlərdə belə insanın şəxsi həyatına daxil ola bilər. Bundan başqa, məhkəmə bildirib ki, şəxsin imici onun şəxsiyyətinin əsas atributlarından birini təşkil edir, o, şəxsin unikal xüsusiyyətlərini üzə çıxarır və onu digər insanlardan fərqləndirir. Beləliklə, şəxsin imicinin qorunması hüququ fərdi inkişafın əsas komponentlərindən biridir. Baxmayaraq ki, ifadə azadlığı fotoşəkillərin dərc olunmasını özündə ehtiva edir, Məhkəmə bu qənaətə gəlib ki, fotoşəkillər şəxs və ya onun ailəsi haqqında fərdi və ya hətta intim xarakterli məlumatları özündə əks etdirə bildiyindən bu sahədə digər şəxslərin hüquqlarının və nüfuzunun qorunması xüsusilə önəmlidir.”

Həmçinin, Axel Springerin Almaniyaya qarşı işində də məhkəmə “şəxsi həyat” terminінə toxunaraq bildirib ki:[2]

"Şəxsi həyat" termini elə geniş əhatə dairəsinə malikdir ki, onun tam anlayışını vermək mümkün deyil, belə ki, o, fərdin fiziki və psixoloji toxunulmazlığını əhatə edir və buna görə də onun identikliyinin bir çox aspektlərini, məsələn, onun cinsi identikliyini və seksual oriyentasiyasını, adını və ya imicinin toxunulmazlığı hüququ ilə əlaqədar elementləri özündə ehtiva edə bilər. O həmçinin elə fərdi məlumatları əhatə edir ki, şəxs özünün razılığı olmadan onların dərc edilməyəcəyini güman edə bilər.”

Avropa İttifaqının Əsas Hüquqlar haqqında Xartiyasının 7-ci maddədə təmin edilən hüquqlar AİHK-nın 8-ci maddəsi ilə təmin edilən hüquqlara uyğundur. Texnologiyanın inkişafını nəzərə almaq üçün "yazışma" sözü "kommunikasiya" ilə əvəz edilmişdir.

Şəxsi toxulunmazlıq hüququ bu və ya digər formada bütün dövlətlərin Konstitusiyasında öz əksini tapmışdır.

1998-ci il İnsan Hüquqları Aktı ilə Böyük Britaniya qanunvericiliyinə daxil edilmiş AİHM-in 8-ci maddəsinin müddəaları Əlavə 1 Maddə 8 Şəxsi və ailə həyatına hörmət hüququ adlı müddəada öz əksini tapmışdır:[3]

1. Hər kəsin şəxsi və ailə həyatına, evinə və yazışmalarına hörmət etmək hüququ vardır.

2. Qanuna uyğun olan və milli təhlükəsizlik, ictimai təhlükəsizlik və ya ölkənin iqtisadi rifahı naminə demokratik cəmiyyətdə zəruri olan hallar istisna olmaqla, dövlət orqanının bu hüququn həyata keçirilməsinə heç bir müdaxiləsi ola bilməz, iğtişaşın və ya cinayətin qarşısının alınması, sağlamlığının və ya mənəviyyatının qorunması və ya başqalarının hüquq və azadlıqlarının müdafiəsi üçün.

İspaniya Krallığının Konstitusiyasının 18-ci maddəsində qeyd edilmişdir4:

1. Şərəf, şəxsi və ailə məxfiliyi və şəxsi imic hüququ təmin edilir.

2. Ev toxunulmazdır. Sakinin razılığı və ya qanuni icazəsi olmadan heç bir giriş və ya axtarış aparıla bilməz, cinayət halları istisna olmaqla.

3. Məhkəmə qərarı istisna olmaqla rabitə sirri, xüsusən də poçt, teleqraf və telefon rabitəsinin sirri təmin edilir.

4. Qanun vətəndaşların şərəf, şəxsi və ailə məxfiliyini və hüquqlarının tam şəkildə həyata keçirilməsini təmin etmək üçün məlumatların emalının istifadəsini məhdudlaşdırır.

Azərbaycan Respublikasının Konstitusiyasının 32-ci maddəsi Şəxsi toxulunmazlıq hüququnu özündə əks etdirir. Bu maddə deyilir:

I. Hər kəsin şəxsi toxunulmazlıq hüququ vardır.

II. Hər kəsin şəxsi və ailə həyatının sirrini saxlamaq hüququ vardır. Qanunla nəzərdə tutulan hallardan başqa, şəxsi və ailə həyatına müdaxilə etmək qadağandır. Hər kəsin şəxsi və ailə həyatına qanunsuz müdaxilədən müdafiə hüququ vardır.

III. Öz razılığı olmadan kimsənin şəxsi həyatı haqqında məlumatın toplanılmasına, saxlanılmasına, istifadəsinə və yayılmasına yol verilmir. Qanunla müəyyən edilmiş hallar istisna olmaqla, heç kəs onun xəbəri olmadan və ya etirazına baxmadan izlənilə bilməz, video və foto çəkilişinə, səs yazısına və digər bu cür hərəkətlərə məruz qoyula bilməz.

IV. Hər kəsin yazışma, telefon danışıqları, poçt, teleqraf və digər rabitə vasitələri ilə ötürülən məlumatın sirrini saxlamaq hüququna dövlət təminat verir. Bu hüquq qanunla nəzərdə tutulmuş qaydada cinayətin qarşısını almaqdan və ya cinayət işinin istintaqı zamanı həqiqəti üzə çıxarmaqdan ötrü məhdudlaşdırıla bilər.

V. Qanunla müəyyən edilmiş hallar istisna olmaqla, hər kəs onun haqqında toplanmış məlumatlarla tanış ola bilər. Hər kəsin onun barəsində toplanmış və həqiqətə uyğun olmayan, tam olmayan, habelə qanunun tələbləri pozulmaqla əldə edilmiş məlumatların düzəldilməsini və ya çıxarılmasını (ləğv edilməsini) tələb etmək hüququ vardır.

VI. Qanunla müəyyən edilmiş hallar istisna olmaqla, üçüncü şəxslər haqqında məlumat almaq məqsədi ilə elektron formada və ya kağız üzərində aparılan informasiya ehtiyatlarına daxil olmaq qadağandır.

VII. Məlumatın aid olduğu şəxsin buna razılığını aşkar ifadə etdiyi hallar, ayrı-seçkiliyə yol verməmək şərtilə anonim xarakterli statistik məlumatların emalı və qanunun yol verdiyi digər hallar istisna olmaqla, informasiya texnologiyalarından şəxsi həyata, o cümlədən əqidəyə, dini və etnik mənsubiyyətə dair məlumatların açıqlanması üçün istifadə edilə bilməz.

VIII. Fərdi məlumatların dairəsi, habelə onların emalı, toplanması, ötürülməsi, istifadəsi və mühafizəsi şərtləri qanunla müəyyən edilir.

Bütün bunlar Sekstorsiyanın insanın Şəxsi toxunulmazlıq kimi təbii hüququnu, hər bir dövlətdə mövcud olan konstitusion normanı pozduğunun şahidi oluruq. Bəs bu hüquq pozuntusunun hüquq məsuliyyəti qanunvericiliyimizdə necə nəzərdə tutulmuşdur?

Təbii ki, ortada mövcud bir hüquq pozuntusu varsa, ona mütənasib olaraq bir hüquq məsuliyyəti vardır. Şantaj bütün dövlətlərdə cinayət sayılan bir əməldir. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 182-ci maddəsində şantaj hədə-qorxu ilə tələb etmə kimi müəyyən edilmişdir.

Bu maddəyə əsasən Hədə-qorxu ilə tələb etmə, yəni zərərçəkmiş şəxsin və ya onun yaxın qohumlarının şəxsiyyəti üzərində zor göstərmə, onların haqqında rüsvayedici məlumatlar yayma və ya onların əmlakını tələf etmə hədəsi ilə özgənin əmlakını və ya əmlaka olan hüququnu və ya əmlak xarakteri daşıyan digər hərəkətlər etməsini tələb etmə–üç ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Lakin, sekstorsiya bir çox hallarda tək bir maddə ilə cinayət məsuliyyəti yaratmır. Burada bir çox hallarda qurban şəxs rüsvay olacağından qorxur və intihar edir ki, bu da Cinayət Məcəlləsinin Özünü öldürmə həddinə çatdırma adlanan 125-ci maddəsini əhatə edir.

Təqsirkardan maddi, xidməti və ya sair cəhətdən asılı olmuş zərərçəkmiş şəxsi onunla amansız rəftar etmə, onun ləyaqətini mütəmadi olaraq alçaltma, ona hədə-qorxu gəlmə yolu

ilə özünü öldürmə və ya özünü öldürməyə cəhd həddinə çatdırma – üç ildən yeddi ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Həmçinin nəzərə alsaq ki, sekstorsiya internet üzərindən həyata keçirilir, bu onun bir kiber cinayəti kimi nəzərdən keçirilməsini də labud edir. Kiber cinayətlərin yeni yaranmış cinayət hüquq institutu olması da bu məsələ ilə bağlı bir çox sualların açıq qalmasına gətirib çıxarır. Beynəlxalq aləmdə sektorsiyanın kiber cinayətlərin əhatəsinə aid olub olmaması məsələsi mübahisəlidir.

Sekstorsiyanın qarşısının alınması üçün ilk öncə maarifləndirmə işləri aparılmalıdır. Cəmiyyətdə insanlar bir çox hallarda şantajçını deyil, qurbanı qınadığından sekstorsiyanın qurbanlarının sayı hər gün daha çox artır.

Sekstorsiyanın qurbanı olan şəxslər nə etməli olduqlarını bilməlidirlər. Əks halda sekstoriya onların bütün həyatlarını məhv edəcək, onları cinayətə və hətta ölümə sürükləyəcək. Belə ki, sekstorsiyanın qurbanlarından bəzən şantaj nəticəsində pul deyil, müəyyən qanunsuz hərəkətlərin edilməsi tələb edilir. Misal olaraq, narkotik vasitələrin kuryerliyini etmək.

İnsanlar sekstorsiya qurbanı olmaması üçün hansı addımlar atmalıdır?

1. Yad insanlar, əsasən də cazibədar insanlar sizinlə əlaqə saxlayacaqlar. Şübhəli profillərdə adətən çox az şəxsi məlumatlar olur, lakin təxribat xarakterli fotoşəkillər çox-dur.

2. Yeni onlayn tanışlar tez bir zamanda video ilə danışmaq istəyirlər.

3. Görüntülü söhbətdə qarşı tərəf qısa müddətdən sonra soyunmağa başlayır. Heç bir halda özünüzü çılpaq göstərmək üçün təlimatlara əməl etməməlisiniz.

4. Qarşıdakı insana etibar etmədiyiniz müddətcə veb-kameranızı örtün. Unutmayın ki, veb-kamera qarşısında etdiyiniz hər şey digər şəxs tərəfindən qeydə alına bilər.

5. Sosial şəbəkələrdə təhlükəsiz məxfilik parametrlərini seçin. Profiliniz ictimaiyyətə nə qədər az görünsə, onun sekstorsiya şantajçılarının hədəfinə çevrilmə ehtimalı bir o qədər az olar.

Cinayətin qarşısının alınması üçün nə etməliyik:

1. Dərhal şantajçılarla bütün əlaqəni kəsin və mümkünsə sosial şəbəkədə onları bloklayın. Saxta hesabları sayt operatoruna bildirin.

2. İddialara cavab verməyin və ya pul köçürməyin. Günahkarlar ilk köçürmədən sonra çox vaxt daha çox pul tələb edirlər.

3. Müvafiq sübutları: hesabın ekran görüntüləri, söhbət jurnalı, e-poçt yazışmaları qoruyun

4. Bu barədə ən yaxın polis bölməsinə məlumat verin. Bu, şantajçıları cinayət məsuliyyətinə cəlb etməyin yeganə yoludur.

Unutmayaq! Heç kəs hüquq pozuntusunun qurbanı olmaqdan sığortalanmayıb.

## İstifadə olunmuş ədəbiyyat siyahısı


1. https://hudoc.echr.coe.int/eng#{%22itemid%22:[%22001-109029%22]}
2. https://hudoc.echr.coe.int/eng#{%22itemid%22:[%22001-109034%22]}
3. https://www.legislation.gov.uk/ukpga/1998/42/schedule/1
4. https://www.boe.es/legislacion/documentos/ConstitucionINGLES.pdf
5. Azərbaycan Respublikasının Konstitusiyası
6. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi

## X Ü L A S Ə

Sekstorsya termini ingiliscə "seks" və "qəsb" sözlərindən əmələ gəlib və bir insanın cinsi əlaqədə olduğunu və ya çılpaq olduğunu göstərən şəkillər və videolarla şantaj edilməsini nəzərdə tutur. Hədəf şəxslər Facebook, Instagram, WhatsApp kimi sosial şəbəkələr və ya tanışlıq platformaları vasitəsilə əvvəldən tanış olmayan, cəlbedici bir şəxsdən dəvət və ya dostluq xahişləri alırlar. Bir-biri ilə tanış olduqdan sonra qurbandan bu sosial şəbəkədə çılpaq poza verdiyi və ya çılpaq rəqs etdiyi video söhbət tələb olunur. Bəzən qarşınızdakı insan inandırıcı görünmək üçün ilk addımı atır. Qurbanlar sonradan şantaj ediləcəyi təxribat xarakterli fotolar göndərirlər. Onlar adətən sosial şəbəkələrdə video və ya çılpaq fotolar yerləşdirməklə və ya həmin şəxsin ailəsinə və ya dostlarına ötürməklə hədələnirlər. Cinayətkarlar qurbanların qorxu və utancından təsir rıçağı kimi istifadə edirlər.

Bu cinayət növü artıq dünyada məşhur olsa da, son vaxtlar Azərbaycanda onun sayı sürətlə artır. Bundan xəbəri olmayanlar asanlıqla cinayətin qurbanına çevrilə bilərlər. Bu, insan hüquqlarının ən kobud şəkildə pozulmasının nümunəsidir.

**Явар Мамедова**
**Старший специалист отдела дополнительного образования**
**Академии Государственного Таможенного Комитета**
**Азербайджанской Республики**

### Секторция и нарушение основных конституционных прав

## Р Е З Ю М Е

Термин «сексторция» происходит от английских слов «секс» и «вымогательство» и относится к шантажу изображений и видео, на которых показано, как человек вступает в половой акт или обнажен. Целевые лица получают приглашения или запросы на дружбу от незнакомого, привлекательного человека через социальные сети, такие как Facebook, Instagram, WhatsApp или платформы знакомств. После знакомства от жертвы требуется видеочат в этой социальной сети, где она позирует обнаженной, танцует обнаженной или позирует. Иногда человек перед вами делает первый шаг, чтобы выглядеть убедительно. Жертвы присылают провокационные фотографии, на которых их шантажируют. Обычно они угрожают опубликовать видео или обнаженные фотографии в социальных сетях или передать их семье или друзьям человека. Преступники используют страх и стыд жертвы в качестве рычага воздействия.

Хотя этот вид преступности уже популярен в мире, в Азербайджане в последнее время его число стремительно растет. Те, кто не знает об этом, могут легко стать жертвами преступления. Это пример самого грубого нарушения прав человека.

**Yavar Mammadova**
**Senior Specialist of**
**the Additional Education Department of**
**the Academy of the State Customs Committee of**
**the Republic of Azerbaijan**

## Sextortion and Violation of Basic Constitutional Rights

### S U M M A R Y

The term sextortion is derived from the English words "sex" and "extortion" and refers to the blackmailing of images and videos that show a person having sexual intercourse or being naked. Target individuals receive invitations or friendship requests from an unfamiliar, attractive person through social networks such as Facebook, Instagram, WhatsApp, or dating platforms. After getting to know each other, the victim is required to have a video chat on this social network, where where she poses naked and dances. Sometimes the person in front of you takes the first step to look convincing. Victims send provocative photos of themselves being blackmailed. They usually threaten to post videos or nude photos on social media or pass them on to the person's family or friends. Criminals use the victims' fear and shame as leverage.

Although this type of crime is already popular in the world, recently its number has been growing rapidly in Azerbaijan too. Those who are unaware of this can easily become victims of crime. This is an example of the most gross violation of human rights.

Redaktorlar:

**Tələt Binnətzadə**
**Fidan Mövsümova**
**Nigar Yusubova**
**Cəmilə Məmmədova**
**Günel Kərimova-Səmədova**
**Ellada Məhəmmədova**

Çapa imzalanmışdır 11.04.2023. Kağız formatı 60x90 1/8.
Fiziki çap vərəqi 57,50. Tirajı 200.

---

“ZƏNGƏZURDA” çap evində çap olunmuşdur.
Ünvan: Bakı şəh., Mətbuat prospekti, 529-cu məh.
Tel.: (050) 209 59 68; (055) 209 59 68; (012) 510 63 99
e-mail: zengezurda1868@mail.ru